

*Mən son illər ərzində ölkəmizin hərtərəfli inkişafını dilə gətirərək deyirdim ki, bu gün müstəqil Azərbaycan dövləti özünün ən şanlı dövrünü yaşayır. Çünki Azərbaycan tarixdə heç vaxt bu qədər güclü olmamışdır. Bu gün bu, həm siyasi gücdür, iqtisadi gücdür, xalq-iqtidar birliyidir, hərbi gücdür və bizim regionda oynadığımız müsbət roldur. Biz bu gücdən istifadə edərək qarşımızda duran əsas vəzifəni şərəflə yerinə yetirdik. Ermənistan ordusu 44 gün ərzində darmadağın edildi. Biz tarixi ədaləti bərpa etdik. Biz bütün dünyaya gücümüzü göstərdik. Göstərdik ki, heç kim bizim iradəmizin qabağında dura bilməz.*

**İLHAM ƏLİYEV**

*Azərbaycan Respublikasının Prezidenti*

ISSN 2309-1347

Azərbaycan Respublikasının Prezidenti yanında
Dövlət İdarəçilik Akademiyası

# DÖVLƏT İDARƏÇİLİYİ:
## NƏZƏRİYYƏ VƏ TƏCRÜBƏ

**2020**
**4 (72)**

**DÖVLƏT İDARƏÇİLİK AKADEMİYASI**
**BAKI – 2020**

*Demokratik cəmiyyətdə dövlət idarəçiliyinin, yerli özünüidarəetmənin nəzəriyyəsi və təcrübəsi üzrə tədqiqatlar*

**REDAKSİYA ŞURASI:** ***Samir Nuriyev*** *(sədr)*

***Anar Ələkbərov, Fərəh Əliyeva, Kərəm Həsənov, Zeynal Nağdəliyev, Fuad Ələsgərov, Hikmət Hacıyev, Şahmar Mövsümov, Natiq Əmirov, Ramiz Mehdiyev, Urxan Ələkbərov***

**REDAKSİYA HEYƏTİ:** ***Urxan Ələkbərov***
*(redaktor)*

***Əlikram Abdullayev***
*(redaktor müavini)*

***Elman Nəsirov***
*(məsul katib)*

***Əli Nuriyev, Namiq Əliyev, Ziyafət Həbibova, Elçin Əhmədov, İsaxan Vəliyev, Xatirə Hüseynova, Gülnarə Qurbanova, Rəcəb Rəhimli, Sevil Məmmədova, Firdovsiyyə Əhmədova***

*Elmi-nəzəri jurnal 2003-cü ildən nəşr olunur. İldə dörd dəfə çıxır.*

*Jurnal AAK-ın rəsmi qeydiyyatdan keçirilmiş və elmi nəşrlər siyahısına daxil edilmişdir.*

*Dövlət idarəçiliyi: nəzəriyyə və təcrübə.*
*Elmi-nəzəri jurnal. 2020, №4(72).*
*Bakı, Dövlət İdarəçilik Akademiyasının (DİA) nəşri, 2020, 336s.*

*© Dövlət İdarəçilik Akademiyası, 2020*

ISSN 2309-1347

**The Academy of Public Administration**
**under the President of the Republic of Azerbaijan**

# PUBLIC ADMINISTRATION:
## THEORY AND PRACTICE

**2020**
**4 (72)**

**ACADEMY OF PUBLIC ADMINISTRATION**

**BAKU – 2020**

*Research Dedicated to the Theory and Practice of Public Administration and Application of Decentralized Governance in Democratic Society*

**EDITORIAL COUNCIL:** ***Samir Nuriyev*** *(chairman)*

***Anar Alakbarov, Farah Aliyeva, Karam Gasanov, Zeynal Naghdaliyev, Fuad Alasgarov, Hikmat Hajiyev, Shahmar Movsumov, Natiq Amirov, Ramiz Mehdiyev, Urkhan Alakbarov***

**EDITORIAL BOARD:** ***Urkhan Alakbarov***
*(editor-in-chief)*

***Alikram Abdullayev***
*(deputy editor)*

***Elman Nasirov***
*(executive secretary)*

***Ali Nuriyev, Namiq Aliyev, Ziyafet Habibova, Elchin Ahmadov, Isakhan Valiyev, Khatira Huseynova, Gulnara Gurbanova, Rajab Rahimli, Sevil Mammadova, Firdovsiyya Ahmadova***

*Journal of Public Administration: theory and practice is published since 2003. Quarterly.*

*The journal is officially registered at the Supreme Attestation Commission (SAC) and is included in the register of national scientific publications.*

*Public Administration: theory and practice*
*Scientific and theoretical journal. 2020, №4(72)*
*Baku, Publication of Academy of Public Administration (APA), 2020, 336p.*

*© Academy of Public Administration, 2020*

# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN FƏALİYYƏTİNİN QISA XRONİKASI

*Oktyabr – noyabr – dekabr 2020-ci il*

## Oktyabr

**2 oktyabr**
- «Əl-Cəzirə» televiziya kanalına müsahibə vermişdir.
- Ermənistanın Azərbaycana qarşı hərbi təxribatı ilə bağlı verdikləri bəyanatda əks olunmuş obyektiv mövqeyə görə Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin üzvlərinə təşəkkürünü bildirmişdir.
- Ermənistanın Azərbaycana qarşı hərbi təxribatı ilə bağlı ölkəsinin obyektiv mövqeyinə görə Bosniya və Herseqovinanın Rəyasət Heyətinin Sədri Şefik Caferoviçə təşəkkürünü bildirmişdir.

**3 oktyabr**
- Suqovuşanın (Madagizin) işğaldan azad olunması münasibətilə 1-ci Ordu Korpusunun komandiri Hikmət Həsənovu və onun rəhbərlik etdiyi korpusun bütün şəxsi heyətini təbrik etmişdir.

**4 oktyabr**
- Cəbrayıl şəhərinin və rayonun 9 kəndinin işğaldan azad olunması münasibətilə birlik komandirləri – general-mayor Mayis Bərxudarovu, general-mayor Hikmət Mirzəyevi və onların rəhbərlik etdikləri şəxsi heyəti təbrik etmişdir.
- «Əl-Ərəbiyə» televiziya kanalına müsahibə vermişdir.
- Azərbaycan xalqına müraciət etmişdir.

**5 oktyabr**
- Türkiyənin «TRT Haber» televiziya kanalına müsahibə vermişdir.
- Özünün rəsmi «Twitter» səhifəsi vasitəsilə Azərbaycan Ordusunun Cəbrayıl rayonunun Şıxəli Ağalı, Sarıcalı, Məzrə kəndlərini və müxtəlif istiqamətlərdə bir neçə strateji yüksəkliyi işğalçılardan azad etdiyini bildirmişdir.

**6 oktyabr**
- Türkiyə Respublikasının Xarici İşlər naziri Mövlud Çavuşoğlunun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.
- Rusiyanın «Pervıy Kanal» televiziyasına müsahibə vermişdir.
- XXIII Avrasiya İqtisadi Zirvə Toplantısının iştirakçılarını təbrik etmişdir.

**7 oktyabr**
- Müdafiə Nazirliyinin Mərkəzi Komanda Məntəqəsində Müdafiə Nazirliyinin rəhbər heyəti və cəbhə bölgəsində yerləşən birlik komandirlərinin iştirakı ilə keçirilən operativ müşavirəyə rəhbərlik etmişdir.
- CNN-Türk televiziyasına müsahibə vermişdir.
- "Euronews" televiziyasına müsahibə vermişdir.
- Rusiya Federasiyasının Prezidenti Vladimir Putinə telefonla zəng edərək onu ad günü münasibətilə təbrik etmiş, Rusiyanın inkişafı və firavanlığı naminə dövlətçilik fəaliyyətində ona yeni uğurlar və möhkəm cansağlığı arzulamışdır.
- Küveyt Dövlətinin Əmiri kimi taxta çıxması münasibətilə Küveyt Dövlətinin Əmiri Əlahəzrət Şeyx Nəvaf əl-Əhməd əl-Cabir əs-Sabahı təbrik etmişdir.
- Uqanda Respublikasının milli bayramı – Müstəqillik Günü münasibətilə Prezident Yoveri Kaquta Musevenini təbrik etmişdir.

**9 oktyabr**
- Azərbaycan xalqına müraciət etmişdir.
- «CNN International» televiziya kanalının «Connect the World» verilişində müsahibəsi yayımlanmışdır.
- «Sky News» televiziya kanalında müsahibəsi yayımlanmışdır.

**10 oktyabr**
- RBK televiziya kanalına müsahibə vermişdir.

**12 oktyabr**
- Türkiyənin «Haber Global» televiziya kanalına müsahibə vermişdir.
- «Kiber Kosmos buraxılışı» mövzusunda virtual keçirilən 71-ci Beynəlxalq Astronavtika Konqresinin açılış mərasimində videomüraciəti təqdim olunmuşdur.

**13 oktyabr**
- Türkiyənin «Haber Türk» televiziya kanalına müsahibə vermişdir.

**14 oktyabr**
- «France 24» televiziya kanalına müsahibə vermişdir.
- Özünün rəsmi «Twitter» səhifəsində rəşadətli Azərbaycan Ordusu tərəfindən Füzuli rayonunun Qaradağlı, Xatunbulaq, Qarakollu, Xocavənd rayonunun Bulutan, Məlikcanlı, Kəmərtük, Təkə, Tağaser kəndlərinin işğaldan azad edildiyini yazmışdır.

**15 oktyabr**
- Türkiyənin NTV televiziyasına müsahibə vermişdir.
- Rusiyanın Ria Novosti agentliyi üçün «Rossiya Seqodnya Beynəlxalq İnformasiya Agentliyi» media qrupunun baş direktoru Dmitri Kiselyova müsahibə vermişdir.
- Özünün rəsmi «Twitter» səhifəsində rəşadətli Azərbaycan Ordusu tərəfindən Füzuli rayonunun Arış, Cəbrayıl rayonunun Doşlu, Xocavənd rayonunun

Edişə, Düdükçü, Edilli, Çıraquz kəndlərinin işğaldan azad edildiyini yazmışdır.

**16 oktyabr**
- Türkiyənin «A Haber» televiziya kanalına müsahibə vermişdir.

**17 oktyabr**
- Azərbaycan xalqına müraciət etmişdir.

**19 oktyabr**
- Türkiyə Böyük Millət Məclisinin Sədri Mustafa Şentopun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.
- Rusiyanın TASS informasiya agentliyinə videomüsahibə vermişdir.
- Dövlət Sərhəd Xidmətinin rəisi (DSX) general-polkovnik Elçin Quliyevi Xudafərin körpüsündə Azərbaycan bayrağının qaldırılması və DSX-nin iştirakı ilə bir neçə yaşayış məntəqəsinin azad edilməsi münasibətilə təbrik etmiş və təbriklərinin bütün şəxsi heyətə çatdırılmasını tapşırmışdır.

**20 oktyabr**

Azərbaycan xalqına müraciət etmişdir.

**21 oktyabr**
- Yaponiyanın «Nikkei» qəzetinə müsahibə vermişdir.

**22 oktyabr**
- Türkiyə Respublikasının Baş Ombudsmanı Şərəf Malkoçu qəbul etmişdir.
- Özünün rəsmi "Twitter" səhifəsi vasitəsilə müzəffər Azərbaycan Ordusunun Füzuli rayonunun Mollavəli, Yuxarı Rəfədinli, Aşağı Rəfədinli, Cəbrayıl rayonunun Sirik, Şıxlar, Məstalıbəyli, Dərzili kəndlərini işğaldan azad etdiyini bildirmişdir.
- Özünün rəsmi "Twitter" səhifəsi vasitəsilə müzəffər Azərbaycan Ordusunun Zəngilan rayonunun Kolluqışlaq, Malatkeşin, Kənd Zəngilan, Genlik, Vəliqulubəyli, Qaradərə, Çöpədərə, Tatar, Tiri, Əmirxanlı, Qarqulu, Bartaz, Dəlləkli kəndlərini və Ağbənd qəsəbəsini işğaldan azad etdiyini bildirmişdir.
- Özünün rəsmi "Twitter" səhifəsi vasitəsilə Ağbənd qəsəbəsi azad edildikdən sonra Azərbaycan və İran İslam Respublikası dövlət sərhədinin tam nəzarətə götürülməsinin təmin olunması münasibətlə Azərbaycan və İran xalqlarını təbrik etmişdir.

**24 oktyabr**
- Fransanın «Figaro» qəzetinə müsahibə vermişdir.

**25 oktyabr**
- Onun rəhbərliyi ilə Müdafiə Nazirliyinin Mərkəzi Komanda Məntəqəsində keçirilən Müdafiə Nazirliyinin rəhbər heyəti və cəbhə bölgəsində yerləşən birlik komandirlərinin iştirakı etdiyi operativ müşavirədə çıxış etmişdir.
- Amerika Birləşmiş Ştatlarının «Fox News» televiziya kanalına müsahibə vermişdir.
- Özünün rəsmi «Twitter» səhifəsi vasitəsilə Azərbaycan Ordusunun Zəngilan, Cəbrayıl, Qubadlı rayonlarının bir neçə kəndini və Qubadlı şəhərini işğalçılardan azad etdiyini bildirmişdir.

**26 oktyabr**
- Azərbaycan xalqına müraciət etmişdir.
- İtaliyanın Rai-1 televiziya kanalına müsahibə vermişdir.
- Qubadlı şəhəri və Qubadlı rayonunun bir neçə kəndinin işğalçılardan azad olunmasında fərqlənmiş hərbi birlik komandirləri Yaşar Həsənovu və Zaur Quliyevi, onların rəhbərlik etdiyi şəxsi heyəti təbrik etmişdir.
- 29 Oktyabr – Respublika Günü münasibətilə Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanı təbrik etmişdir.

**28 oktyabr**
- İran İslam Respublikası Prezidentinin xüsusi nümayəndəsi, Xarici İşlər nazirinin müavini Seyid Abbas Əraqçinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.
- Almaniyanın ARD televiziya kanalına müsahibə vermişdir.
- Rusiyanın İnterfaks agentliyinə müsahibə vermişdir.
- Özünün rəsmi «Twitter» səhifəsi vasitəsilə erməni silahlı qüvvələrinin raketlərlə hücumu nəticəsində Bərdədə həlak olanlara Allahdan rəhmət diləmiş, ailələrinə başsağlığı vermiş, yaralıların şəfa tapmasını diləmiş, eyni zamanda Bərdə sakinlərinin qisası yerdə qalmayacağını və döyüş meydanında işğalçılara layiqli cavab veriləcəyini bildirmişdir.
- Özünün rəsmi «Twitter» səhifəsi vasitəsilə müzəffər Azərbaycan Ordusunun Zəngilanın Birinci Ağalı, İkinci Ağalı, Üçüncü Ağalı, Zərnəli, Füzulinin Mandılı, Cəbrayılın Qazanzəmi, Xanağabulaq, Çullu, Quşçular, Qaraağac, Qubadlının Qiyaslı, Əbilcə, Qılıcan kəndlərini işğaldan azad etdiyini bildirmişdir.

**29 oktyabr**
- Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğana telefonla zəng edərək, ona və Türkiyə xalqına Cümhuriyyət Günü münasibətilə təbriklərini çatdırmış, tərəqqi və xoşbəxtlik arzularını ifadə etmişdir.

**30 oktyabr**
- Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğana telefonla zəng edərək, Türkiyənin Egey bölgəsində baş vermiş zəlzələ ilə əlaqədar xalqımızın üzüntü hissi keçirdiyini vurğulamış, bu hadisə ilə bağlı «keçmiş olsun» demişdir.
- İzmirdə baş vermiş güclü zəlzələ nəticəsində insan tələfatı və dağıntılar ilə əlaqədar Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğana dərin hüznlə başsağlığı vermişdir.
- Həyat yoldaşı – qardaş Türkiyə Respublikasının dövlət xadimi və siyasi xadim Məsud Yılmazın vəfatı ilə əlaqədar xanım Berna Yılmaza başsağlığı vermişdir.

## Noyabr

**1 noyabr**

- Türkiyə Respublikasının Xarici İşlər naziri Mövlud Çavuşoğlunun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.
- Gürcüstanın Baş Naziri Giorgi Qaxariyaya telefonla zəng edərək, onu hakim «Gürcü Arzusu–Demokratik Gürcüstan» partiyasının parlament seçkilərində qələbəsi münasibətilə təbrik etmişdir.
- Gürcüstanda keçirilmiş parlament seçkilərində «Gürcü Arzusu – Demokratik Gürcüstan» partiyasının qalib gəlməsi münasibətilə «Gürcü Arzusu – Demokratik Gürcüstan» partiyasının sədri cənab Bidzina İvanişvilini təbrik etmişdir.

**2 noyabr**

- Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının Baş katibi Bağdad Amreyevi, Türkiyənin Odalar və Borsalar Birliyinin prezidenti Mustafa Rifatı, Özbəkistanın Ticarət və Sənaye Palatasının sədri Adham İkramovu və Qırğızıstanın Ticarət və Sənaye Palatasının prezidenti Marat Şarşekeyevi qəbul etmişdir.
- Türkiyə Respublikasının keçmiş Baş Naziri Binəli Yıldırımın rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.
- Özünün rəsmi «Twitter» səhifəsi vasitəsilə müzəffər Azərbaycan Ordusunun Cəbrayıl rayonunun Çaprand, Hacı İsaqlı, Qoşabulaq, Zəngilan rayonunun Dərə Gilətağ, Böyük Gilətağ, Qubadlı rayonunun İşıqlı, Muradxanlı, Milanlı kəndlərini işğaldan azad etdiyini bildirmişdir.
- İtaliyanın «La Republica» qəzetinə müsahibə vermişdir.
- Rusiya Federasiyasının Prezidenti Vladimir Putin ilə telefonla danışaraq, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi və onun həlli yolları ilə bağlı məsələləri və döyüş bölgəsində vəziyyəti müzakirə etmişdir.

**4 noyabr**

- Özünün rəsmi «Twitter» səhifəsi vasitəsilə müzəffər Azərbaycan Ordusunun Cəbrayıl rayonunun Mirək, Kavdar, Zəngilan rayonunun Məşədiismayıllı, Şəfibəyli, Qubadlı rayonunun Başarat, Qarakişilər, Qaracallı kəndlərini işğaldan azad etdiyini bildirmişdir.
- İspaniyanın EFE informasiya agentliyinə müsahibə vermişdir.

**6 noyabr**

- «BBC News»a müsahibə vermişdir.

**8 noyabr**

- Birinci xanım Mehriban Əliyeva ilə birlikdə Fəxri xiyabana gələrək, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin məzarını ziyarət etmiş, Ulu Öndərin məzarı önünə əklil qoymuşdur.
- Birinci xanım Mehriban Əliyeva ilə birlikdə Ulu Öndərin ömür-gün yoldaşı, görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın məzarı üzərinə gül dəstələri qoymuşdur.
- Görkəmli dövlət xadimi Əziz Əliyevin və tanınmış həkim-alim professor Tamerlan Əliyevin xatirələrini yad edərək məzarları üstünə gül dəstələri düzmüşdür.
- Sonra Birinci xanım Mehriban Əliyeva ilə birlikdə Şəhidlər xiyabanına gələrək, Azərbaycanın suverenliyi və ərazi bütövlüyü uğrunda canlarından keçmiş qəhrəman Vətən övladlarının xatirəsini yad etmiş, məzarları önünə gül dəstələri düzmüşdür.
- Daha sonra «Əbədi məşəl» abidəsinin önünə əklil qoymuşdur.
- Şəhidlər xiyabanında Azərbaycan xalqına müraciət etmişdir.
- Birlik komandiri general-leytenant Hikmət Mirzəyevə zəng edərək, Şuşa şəhərinin işğalçılardan azad edilməsi münasibətilə onu təbrik etmiş, Şuşanın azad edilməsində qəhrəmancasına və rəşadətlə iştirak etmiş hərbi qulluqçulara, Silahlı Qüvvələrimizin bütün şəxsi heyətinə təbriklərini çatdırmışdır.
- Türkiyə Respublikasının xarici işlər naziri Mövlud Çavuşoğlunu və milli müdafiə naziri Hulusi Akarı qəbul etmişdir.

**9 noyabr**

- Amerika Birləşmiş Ştatlarının Prezidenti vəzifəsinə seçilməsi münasibətilə Amerika Birləşmiş Ştatlarının yeni seçilmiş Prezidenti Cozef Baydeni təbrik etmişdir.
- Özünün rəsmi «Twitter» səhifəsi vasitəsilə müzəffər Azərbaycan Ordusunun Füzulinin Qobu Dilağarda, Yal Pirəhmədli, Yuxarı Yağlıvənd, Dilağarda, Seyid Mahmudlu, Ələsgərli, Xocalının Dəmirçilər, Çanaqçı, Mədətkənd, Sığnaq, Xocavəndin Susanlıq, Domi, Tuğ, Akaku, Azıx, Cəbrayılın Hüseynalılar, Söyüdlü, Aşağı Sirik, Qubadlının Yuxarı Mollu, Aşağı Mollu, Xocik, Zəngilanın Keçikli, Ördəkli kəndlərini işğaldan azad etdiyini bildirmişdir.

**10 noyabr**

- Rusiya Federasiyasının Prezidenti Vladimir Putin ilə videokonfrans formatında keçirilən görüşdə bəyanatı imzalamışdır.
- Türkiyə Respublikasının xarici işlər naziri Mövlud Çavuşoğlunu, milli müdafiə naziri Hulusi Akarı və Milli Kəşfiyyat İdarəsinin rəisi Hakan Fidanı qəbul etmişdir.
- Rusiya Federasiyasının Prezidenti Vladimir Putinə telefonla zəng edərək, Rusiya Hərbi Hava Qüvvələrinin helikopterinin Azərbaycan-Ermənistan sərhədinin Naxçıvan sahəsində vurulması faciəsi ilə əlaqədar başsağlığı vermişdir.

**11 noyabr**
- Birinci xanım Mehriban Əliyeva ilə birlikdə 1 saylı Kliniki Tibbi Mərkəzdə müalicə olunan hərbçilərlə görüşmüş, görüşdə çıxış etmişdir.

**12 noyabr**
- Özünün rəsmi «Facebook» səhifəsi vasitəsilə Azərbaycan Respublikası Konstitusiyasının 25 illiyi ilə bağlı paylaşım etmişdir.

**16 noyabr**
- Birinci xanım Mehriban Əliyeva ilə birlikdə işğaldan azad edilmiş Füzuli və Cəbrayıl rayonlarında, o cümlədən Füzuli və Cəbrayıl şəhərlərində olmuşdur.
- Birinci xanım Mehriban Əliyeva ilə birlikdə Füzuli rayonundan Şuşa şəhərinə yol çəkilişi ilə bağlı layihənin icrasının gedişi ilə tanış olmuşdur.
- Birinci xanım Mehriban Əliyeva ilə birlikdə işğaldan azad olunmuş Füzuli şəhərinə gəlmişdir.
- Füzuli şəhərində şanlı Azərbaycan bayrağını qaldırmışdır.
- Sükan arxasında yolda gedərkən yol kənarına toplaşan insanları görmüş və avtomobili saxlayaraq onlarla görüşmüşdür.
- Birinci xanım Mehriban Əliyeva ilə birlikdə Xudafərin körpüsünə gəlmişdir.
- Xudafərin körpüsündə şanlı Azərbaycan bayrağını qaldırmışdır.
- Sonra Birinci xanım Mehriban Əliyeva ilə birlikdə Araz çayının sahilini gəzmiş, Xudafərin körpüsünün önündə xatirə şəkilləri çəkdirmişdir.
- Daha sonra Birinci xanım Mehriban Əliyeva ilə birlikdə Cəbrayıl şəhərinə yola düşmüşdür.
- Oktyabrın 4-də işğaldan azad edilmiş Cəbrayıl şəhərinə gəlmişdir.
- Cəbrayıl şəhərində də üçrəngli bayrağımızı qaldırmışdır.

**17 noyabr**
- Moldova Respublikasının Prezidenti vəzifəsinə seçilməsi münasibətilə Moldova Respublikasının yeni seçilmiş Prezidenti xanım Maya Sandunu təbrik etmişdir.

**18 noyabr**
- Niderland Krallığının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri xanım Paulin Eizemanın etimadnaməsini qəbul etmişdir.

**20 noyabr**
- Ağdam rayonunun işğaldan azad olunması münasibətilə Azərbaycan xalqına müraciət etmişdir.

**21 noyabr**
- Rusiya Federasiyasının müdafiə naziri Sergey Şoyqunun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.
- Rusiya Federasiyasının xarici işlər naziri Sergey Lavrovu qəbul etmişdir.

**23 noyabr**
- Birinci xanım Mehriban Əliyeva ilə birlikdə işğaldan azad edilmiş Ağdam şəhərində olmuşdur.
- Ağdamda Azərbaycanın üçrəngli bayrağını qaldırmışdır.
- Sonra Birinci xanım Mehriban Əliyeva ilə birlikdə Ağdam məscidini ziyarət etmişdir.
- Məkkədən gətirdiyi «Qurani-Kərim»i Ağdam məscidinə bağışlamışdır.
- Birinci xanım Mehriban Əliyeva ilə birlikdə məsciddə dua etmişdir.
- Ağdam məscidinin qarşısında çıxış etmişdir.
- Ağdamdan qayıdarkən Birinci xanım Mehriban Əliyeva ilə birlikdə dağıdılmış şəhəri avtomobildən seyr etmişdir.

**25 noyabr**
- Kəlbəcər rayonunun işğaldan azad olunması münasibətilə Azərbaycan xalqına müraciət etmişdir.

## Dekabr

**1 dekabr**
- Laçın rayonunun işğaldan azad olunması münasibətilə Azərbaycan xalqına müraciət etmişdir.

**3 dekabr**
- Qoşulmama Hərəkatının Sədri kimi Nyu-Yorkda keçirilən BMT Baş Assambleyasının koronavirus xəstəliyi - COVID-19 ilə mübarizəyə həsr edilən xüsusi sessiyada videoformatda çıxış etmişdir.
- Nyu-Yorkda BMT Baş Assambleyasının COVID-19 pandemiyası ilə mübarizəyə həsr edilmiş dövlət və hökumət başçıları səviyyəsində keçirilən xüsusi sessiyada iştirak və çıxış etmişdir.

**4 dekabr**
- Birinci xanım Mehriban Əliyeva ilə birlikdə Şəhidlər xiyabanında olmuş, şəhidlərimizin əziz xatirəsini dərin ehtiramla yad etmiş və «Əbədi məşəl» abidəsinin önünə əklil qoymuşdur.

**7 dekabr**
- İtaliya Deputatlar Palatasının sədr müavini Ettore Rosatonun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

**9 dekabr**
- İtaliya Respublikasının Xarici İşlər və Beynəlxalq Əməkdaşlıq Nazirliyinin dövlət katibi, Azərbaycan Respublikası və İtaliya Respublikası arasında İqtisadi Əməkdaşlıq üzrə birgə Hökumətlərarası Komissiyanın həmsədri Manlio Di Stefanonun rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.
- Birinci xanım Mehriban Əliyeva ilə birlikdə Azərbaycanda rəsmi səfərdə olan Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan və xanımı Əminə Ərdoğan ilə birgə şam etmişdir.

**10 dekabr**
- Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə birlikdə Fəxri xiyabana gələrək xalqı-

mızın Ümummilli Lideri, müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin xatirəsini ehtiramla yad etmişdir.

- Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə birlikdə Ulu Öndərin məzarı önünə əklillər qoymuşdur.
- Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə birlikdə Şəhidlər xiyabanını ziyarət etmişdir.
- Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə birlikdə Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizədə canlarından keçmiş qəhrəman Vətən övladlarının xatirəsinə ucaldılmış «Əbədi məşəl» abidəsinin önünə əklillər qoymuşdur.
- Sonra Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə birlikdə Şəhidlər xiyabanında şəhid türk əsgərlərinin xatirəsinə ucaldılmış abidəni ziyarət edərək önünə əklillər qoymuşdur.
- Daha sonra Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə birlikdə Xatirə kitabına ürək sözlərini yazmışdır.
- Birinci xanım Mehriban Əliyeva, Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan və xanımı Əminə Ərdoğan ilə birlikdə Bakının Azadlıq meydanında keçirilən Vətən müharibəsində Qələbəyə həsr olunmuş Zəfər paradında iştirak və çıxış etmişdir.
- Rəsmi qarşılanma mərasimindən sonra Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə təkbətək görüşü olmuşdur.
- Təkbətək görüş başa çatandan sonra Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə Azərbaycan-Türkiyə sənədlərinin imzalanması mərasimində iştirak etmişdir.
- Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə birlikdə Bakıda keçirilən Qələbə paradı münasibətilə hazırlanan «Zəfər paradı» adlı poçt markası və «Birinci gün» zərflərini «Birinci gün» möhürü ilə möhürləmişdir.
- Sənədlərin imzalanması mərasimindən sonra Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə birlikdə mətbuata birgə bəyanatla çıxış etmişdir.
- Onun və xanımı Mehriban Əliyevanın adından Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın və xanımı Əminə Ərdoğanın şərəfinə verilmiş naharda iştirak etmişdir.

**12 dekabr**

- Birinci xanım Mehriban Əliyeva ilə birlikdə Fəxri xiyabana gələrək, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin məzarını ziyarət etmiş, Ulu Öndərin məzarı önünə əklil qoymuşdur.
- Sonra Birinci xanım Mehriban Əliyeva ilə birlikdə Ulu Öndərin ömür-gün yoldaşı, görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın məzarı üzərinə gül dəstələri qoymuşdur.
- Daha sonra Birinci xanım Mehriban Əliyeva ilə birlikdə görkəmli dövlət xadimi Əziz Əliyevin və tanınmış həkim-alim Tamerlan Əliyevin xatirələrini yad edərək məzarları üstünə gül dəstələri düzmüşdür.
- ATƏT-in Minsk qrupunun Fransadan olan həmsədri Stefan Viskontini, ABŞ-dan olan həmsədri Endrü Şoferi, Rusiyanın Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Mixail Boçarnikovu və ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi Anji Kaspşiki qəbul etmişdir.

**17 dekabr**

- Əfqanıstan İslam Respublikasının Azərbaycan Respublikasında yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Amanullah Ceyhunun etimadnaməsini qəbul etmişdir.

**18 dekabr**

- Rusiya Federasiyasının Federal Təhlükəsizlik Xidmətinin direktoru Aleksandr Bortnikovu qəbul etmişdir.
- Müstəqil Dövlətlər Birliyinin Dövlət Başçıları Şurasının videokonfrans formatında keçirilən iclasında iştirak və çıxış etmişdir.

**21 dekabr**

- Əfqanıstan İslam Respublikasının milli təhlükəsizlik müşaviri Hamdullah Mohibi və Prezident Administrasiyasının rəhbəri Mohammad Şakir Kargarı qəbul etmişdir
- Rusiya Federasiyasının fövqəladə hallar naziri Yevgeni Ziniçevi qəbul etmişdir.
- Ailəsinə üz vermiş ağır itki – böyük qardaşının oğlu Əhməd Ərdoğanın vəfatı ilə əlaqədar Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğana başsağlığı vermişdir.

**23 dekabr**

- Birinci xanım Mehriban Əliyeva ilə birlikdə işğaldan azad edilmiş Qubadlı və Zəngilan rayonlarında olmuşdur.
- Birinci xanım Mehriban Əliyeva ilə birlikdə Ermənistanın qanunsuz məskunlaşma apardığı Qubadlının Xanlıq kəndinə gəlmiş, burada hərbçilərlə görüşmüşdür.
- Sonra Birinci xanım Mehriban Əliyeva ilə birlikdə Qubadlı şəhərinə yola düşmüşdür.
- Qubadlıda Azərbaycan bayrağını ucaltmışdır.
- Birinci xanım Mehriban Əliyeva ilə birlikdə işğaldan azad olunmuş Zəngilan rayonuna yola düşmüşdür.
- Zəngilanda Azərbaycan bayrağını ucaltmışdır.
- Birinci xanım Mehriban Əliyeva ilə birlikdə Zəngilanda mənfur düşmən tərəfindən dağıdılan məscidə gəlmişdir.
- Sonra Məscidin qarşısında çıxış etmişdir.

**24 dekabr**

- Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayev telefonla zəng edərək onu ad günü münasibətilə təbrik etmiş, ona Azərbaycanın inkişafı naminə fəaliyyətində uğurlar və möhkəm cansağlığı arzulamışdır.
- Rusiya Federasiyasının Prezidenti Vladimir Putin telefonla zəng edərək onu ad günü münasibətilə təbrik etmiş, ona Azərbaycan dövlətinin inkişafı və xalqımızın firavanlığı naminə fəaliyyətində uğurlar və möhkəm cansağlığı arzulamışdır.

- Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan telefonla zəng edərək onu ad günü münasibətilə təbrik etmiş, ona ölkəmizin inkişafı və xalqımızın rifahı naminə fəaliyyətində uğurlar və möhkəm cansağlığı arzulamışdır.
- Gürcüstanın Baş Naziri Giorgi Qaxariya telefonla zəng edərək onu ad günü münasibətilə təbrik etmiş, ona ölkəmizin inkişafı və xalqımızın firavanlığı naminə fəaliyyətində uğurlar, möhkəm cansağlığı arzulamışdır.

**26 dekabr**

- Gürcüstanın Baş naziri vəzifəsinə yenidən təyin olunması münasibətilə Gürcüstanın Baş naziri Giorgi Qaxariyanı təbrik etmişdir.

**28 dekabr**

- Bakı-Quba-Rusiya Federasiyası ilə dövlət sərhədi avtomobil yolunun 7,5 kilometrliyindən Masazır dairəsinədək olan hissəsinin yenidən qurulması çərçivəsində görülən işlərlə tanış olmuşdur.
- «Şimal-Cənub» beynəlxalq nəqliyyat dəhlizinin tərkib hissəsi olan Bakı-Quba-Rusiya Federasiyası ilə dövlət sərhədi yeni avtomobil yolunun Xızı rayonunun Yaşma və Giləzi qəsəbələri arasında yerləşən 30 kilometrlik birinci hissəsinin açılışında iştirak etmişdir.

**29 dekabr**

- Əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulmuş 31 Dekabr – Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü münasibətilə Dünya azərbaycanlılarını təbrik etmişdir.

**31 dekabr**

- Türkiyə Respublikasının milli müdafiə naziri Hulusi Akarın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.
- Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il münasibətilə Azərbaycan xalqına müraciət etmişdir.

# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN RƏSMİ QƏBULLARI

## *Türkiyənin Xarici İşlər nazirinin başçılıq etdiyi nümayəndə heyətinin qəbulu*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 6-da Türkiyə Respublikasının Xarici İşlər naziri Mövlud Çavuşoğlunun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

Türkiyə nümayəndə heyətini salamlayan Prezident İlham Əliyev dedi:

-Xoş gəlmisiniz, əziz Mövlud bəy, sizi salamlayıram. Şadam ki, siz gəlmisiniz. Siz Azərbaycanda dəfələrlə olmusunuz. Amma bu səfərin xüsusi önəmi var. Azərbaycan üçün o qədər də asan olmayan bir dönəmdə sizin gəlməyiniz əlbəttə ki, xüsusi önəm daşıyır. Bu, qardaş ölkənin açıq dəstəyinin təzahürüdür. Bu dəstəyə görə Azərbaycan xalqı qardaş Türk xalqına və onun Prezidentinə dərin minnətdarlıq hissi ilə yaşayır.

Mənim əziz qardaşım, hörmətli Prezident Rəcəb Tayyib Ərdoğan ilə bu günlərdə təmaslarım, onun çox açıq, qətiyyətli bəyanatları bütün dünyaya göstərdi ki, Azərbaycan tək deyil. Azərbaycanın yanında Türkiyə kimi dünya miqyasında böyük bir güc olan dövlət var, qardaş ölkə var. Bu dəstək bizi ruhlandırır, bizə əlavə güc verir və eyni zamanda, bölgədə sabitliyin, əmin-amanlığın təmin edilməsi üçün önəmli rol oynayır. Mən bunu bu günlər ərzində demişəm ki, Türkiyə bölgədə sabitləşdirici rol oynayır. Türkiyənin bölgədə və dünyada yalnız sülhə hesablanmış siyasəti artıq öz nəticələrini verməkdədir, həm Yaxın Şərq bölgəsində, eyni zamanda, Qafqaz bölgəsində. Ona görə Ermənistanın növbəti hücumu ilə əlaqədar bu gün yaranmış vəziyyət bir daha onu göstərir ki, Türkiyə həm regionda, həm dünyada söz sahibidir. Əlbəttə ki, bu, bizi gücləndirir, ruhlandırır. Bu gün həm bizim xalqlarımız, həm də bütün dünya görür ki, Türkiyə-Azərbaycan birliyi nə deməkdir.

Əziz qardaşım, hörmətli Prezident Rəcəb Tayyib Ərdoğan ilə biz bu məsələ ilə bağlı dəfələrlə öz sözlərimizi demişik ki, Türkiyə-Azərbaycan birliyi bütün dünya üçün örnək olmalıdır. Bu gün biz real həyatda bunu göstəririk, sübut edirik və bu birliyin gələcəyi, hesab edirəm ki, bölgədə dayanıqlı sülhün təmin edilməsi üçün əsas şərt olacaqdır.

Sizi bir daha salamlayıram. Xahiş edirəm ki, mənim səmimi salamlarımı hörmətli cənab Prezidentə çatdırasınız.

Türkiyənin Xarici İşlər naziri Mövlud Çavuşoğlu dedi:

-Sağ olun, cənab Prezidentim. Əvvəlcə, bizi qəbul etdiyiniz üçün Sizə çox təşəkkür edirik. Hörmətli Prezidentimiz, qardaşınız Rəcəb Tayyib Ərdoğanın, bütün kabinetimizin, - dünən Nazirlər Kabinetində toplantımız var idi, - və Türk xalqının Sizə salamlarını və uğur diləklərini gətirmişəm.

Bu səfəri xüsusilə Zati-alinizin də vurğuladığı kimi, Türkiyənin, Türk xalqının Can Azərbaycana olan dəstəyini bir daha bütün dünyaya göstərmək üçün buraya gəldim. Bu gün Sizin liderliyinizlə Azərbaycan öz torpaqlarını azad etmək üçün mübarizə aparır və buna qadirdir, gücü vardır, potensialı vardır. Əlbəttə, Türkiyə olaraq və Türk xalqı olaraq, biz də nə vaxt ehtiyacı olarsa, hansı sahədə ehtiyac duyarsa Azərbaycana hər cür dəstəyi verməyə hazırıq. Bunu Prezidentimiz Ərdoğan və bizlər hər platformada izah edirik, vurğulayırıq.

Azərbaycanın haqlı mübarizəsini bütün dünyaya çatdırmaq bizim də borcumuzdur. Bunu Ceyhun qardaşımla, xaricdəki bütün səfirliklərimizlə - Azərbaycanın və Türkiyənin səfirlikləri ilə birlikdə həyata keçiririk. Bu gün Sizdən alacağımız təlimatlarla daha böyük güclə bir yerdə çalışmağa davam edəcəyik. Azərbaycanın işğal edilmiş torpaqları artıq azad olunmalıdır. Azərbaycan hüquqi və mənəvi cəhətdən də haqlıdır və bu haqlı mübarizəsini hər yerdə izah edərkən bu mübarizəni də meydanda və masada birlikdə aparmağa, inşallah, davam edəcəyik.

Bu gün Sizin qəbulunuzdan sonra qardaşım Ceyhunla bu məsələlərdə necə birlikdə hərəkət edəcəyimizi dəyərləndirəcəyik.

Bizi qəbul etdiyiniz üçün bir daha təşəkkür edirik. Dostluq qrupumuzun sədri Şamil bəylə birlikdə gəldik. İnşallah, bugünkü toplantılarımız Azərbaycanın torpaqlarının azad edilməsi yolunda xeyirlərə səbəb olacaq. Bir daha təşəkkür edirəm, hörmətli Prezidentim.

Prezident İlham Əliyev: Çox sağ olun, təşəkkür edirəm.

## *Türkiyə Böyük Millət Məclisinin Sədri Mustafa Şentopun başçılıq etdiyi nümayəndə heyətinin qəbulu*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 19-da Türkiyə Böyük Millət Məclisinin Sədri Mustafa Şentopun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

Qonaqları salamlayan Prezident İlham Əliyev dedi:

-Xoş gəlmisiniz. Sizi səmimiyyətlə salamlayıram.

Türkiyə Böyük Millət Məclisinin Sədri Mustafa Şentop: Xoş gördük.

Prezident İlham Əliyev: Çox şadam ki, Siz gəlmisiniz. Ölkəmiz üçün bu çətin bir dövrdə Sizin gəlişiniz xüsusi məna daşıyır. Bu, bir daha Türkiyənin Azərbaycana göstərdiyi qardaşlıq münasibətinin təzahürüdür, həmrəyliyin təzahürüdür. Biz bu hadisələr baş verəndən dərhal sonra Türkiyənin dəstəyini hiss etdik, bu gün də hiss edirik. Əziz qardaşım, hörmətli Prezident çox müsbət və çox dəqiq açıqlamalar vermişdir. Bu açıqlamalar Azərbaycan xalqını çox məmnun etdi, bütün dünyaya göstərdi ki, Türkiyə-Azərbaycan birliyi sarsılmazdır və ağır günlərdə biz bir-birimizin yanındayıq. Mən bunu bir neçə dəfə demişəm, bir daha demək istəyirəm ki, əgər bu açıq mövqe göstərilməsəydi, bu gün başqa qüvvələr bu işlərə qarışa bilərdi. Onsuz da Ermənistanın məqsədi bundan ibarətdir, onlar bu münaqişənin coğrafiyasını genişləndirmək istəyirlər və çox yanlış yoldadırlar. Çünki görürlər ki, bizim qarşımızda təkbaşına duruş gətirə bilmirlər. Döyüş meydanında biz onları məğlub edirik. Hər gün cəbhədən çox gözəl xəbərlər gəlir. Bu gün səhər mən yeni kəndlərin azad edilməsi haqqında məlumat vermişəm. Azərbaycan Ordusu zəfər marşındadır və qarşımızda duran bütün vəzifələr yerinə yetirilir.

Türkiyə dövlətinin və xalqının dəstəyi xüsusi önəm daşıyır. Türkiyə və Azərbaycan dünya miqyasında bir-birinə ən yaxın olan ölkələrdir. Dünya miqyasında Türkiyə və Azərbaycan qədər bir-birinə yaxın ikinci ölkə tapmaq mümkün deyil. Hər zaman bir-birimizin yanındayıq. Bundan sonra da belə olacaq. Həm Türkiyə Böyük Millət Məclisinin açıqlamaları, Sizin, hörmətli cənab Sədr, açıqlamalarınız, nazirlərin açıqlamaları, Türkiyədən adi vətəndaşlardan mənə gələn məktublar böyük həmrəyliyin təzahürüdür.

Bu mövqeyə, qardaşlıq mövqeyinə görə və gəldiyiniz üçün bir daha Sizə təşəkkürümü bildirirəm. Əminəm ki, səfəriniz bizim qardaşlıq əlaqələrimizin tarixində yeni gözəl səhifə olacaqdır. Xoş gəlmisiniz.

Türkiyə Böyük Millət Məclisinin Sədri Mustafa Şentop: İnşallah. Xoş gördük, cənab Prezidentim. Əvvəla, Türkiyədən hörmətli Prezidentimiz Rəcəb Tayyib Ərdoğanın salamlarını çatdırmaq istəyirəm. Türkiyə Böyük Millət Məclisindən deputatlarımızın hamısının Sizə salamları var, parlamentimizin duaları sizinlədir.

Burada fərqli partiyalardan dostlarımız var. Biz təmsilçilik qabiliyyəti yüksək olan bir heyətlə gəldik, dəstəyimizi ifadə etmək istədik.

Bunu Türkiyədə hər zaman deyirik, Tovuz hücumlarında da Məclisimizdə dörd siyasi partiya bir açıqlama vermişdi, 27 sentyabrdan sonra da bir daha açıqlama verdi. Amma bütün bunları bir də Bakıda təkrarlamaq, söyləmək istədik. Millətimizin də dəstək və duaları daim Azərbaycanladır, Sizinlədir. Azərbaycanın uğuru, müvəffəqiyyəti üçün dua edirik, o sevindirici xəbərləri aldıqca da bütün millət olaraq sevinirik. Allah müvəffəq etsin, zəfər nəsib etsin.

Təbii ki, Türkiyənin Azərbaycana dəstəyinin təməli dostluq və qardaşlıqdır. Zati-aliləri, Sizin də dediyiniz kimi, dünyada Azərbaycan-Türkiyə dostluğuna, qardaşlığına bənzər ikinci ölkə yoxdur. "Bir millət, iki dövlət” deyirik. Bunun tarixi əsasları var. Axşam Şəhidlər xiyabanında idik, orada Türkiyədəki 34 vilayətimizdən şəhidlər var, onlar burada uyuyurlar, adları məzar daşlarında var. Biz Türkiyə olaraq Azərbaycanın çətin günündə burada - Azərbaycanın yanında olmuşuq, onun kədəri bizim kədərimiz, sevinci isə bizim sevincimizdir. Bu, həm də sizin üçün də eynidir. Siz Yunanıstan səfirini qəbul edərkən verdiyiniz açıqlama Türkiyədə çox böyük diqqətlə, sevinclə izlənildi və çox yüksək dəyərləndirildi.

Bizim Azərbaycana dəstəyimiz təkcə dostluqla bağlı deyil, bu mübarizə Azərbaycanın haqlı mübarizəsidir. Həm tarixən haqlıdır, çünki Dağlıq Qarabağ tarix boyunca, yüz illərlə həmişə Azərbaycan torpağı, Azərbaycan Vətəninin bir hissəsi olub. Sovet dövründə də, Çar Rusiyası dövründə də belə olub. Azərbaycan beynəlxalq hüquq baxımından da haqlıdır.

Prezident İlham Əliyev Prezident Rəcəb Tayyib Ərdoğanın salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Türkiyə dövlətinin başçısına çatdırmağı xahiş etdi.

Sonda xatirə şəkli çəkdirildi.

## *Türkiyə Respublikasının Baş Ombudsmanı Şərəf Malkoçun qəbulu*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 22-də Türkiyə Respublikasının Baş Ombudsmanı Şərəf Malkoçu qəbul edib.

Qonağı salamlayan Prezident İlham Əliyev dedi:

-Salam, xoş gəlmisiniz.

Şərəf Malkoç: Xoş gördük.

Prezident İlham Əliyev: Şadam ki, gəlmisiniz. İndiki şəraitdə sizin Azərbaycanda olmağınızın xüsusi mənası var. Bildiyiniz kimi, Ermənistan Azərbaycana qarşı növbəti təcavüz aktı törədib, növbəti terror aktı törədib. Həm bizim mülki vətəndaşlara, həm də hərbçilərimizə qarşı hərbi cinayət törədib. Bilirəm ki, siz səfər çərçivəsində Gəncə şəhərinə gedəcəksiniz. Orada özünüz görəcəksiniz ki, biz hansı vəhşi düşmənlə üz-üzəyik. Onlar döyüş meydanında bizim qarşımızda duruş gətirə bilmirlər və çalışırlar ki, bu acı məğlubiyyətin əvəzini dinc insanlardan çıxsınlar. Gəncəyə iki namərd hücum və Gəncə şəhərinin ballistik raketlərlə vurulması hərbi cinayətdir. Ermənistan rəhbərliyi bu cinayətə görə cavab verəcək. Bu, qəsdən törədilmiş cinayətdir. Məhz mülki əhalinin yaşadığı yerləri məqsədyönlü şəkildə atəşə tutublar. Bildiyiniz kimi, çoxlu itkilərimiz var, yaralılarımız var, o cümlədən uşaqlar, qadınlar, qocalar. Bu, bir daha erməni faşizminin yırtıcı

mahiyyətini göstərir. Bu, bir daha göstərir ki, biz erməni faşizminin belini qırmaqla bölgəmizi böyük bəladan, böyük faciədən xilas etmiş oluruq.

Bununla bərabər, bizim bütün cəbhəboyu şəhərlərimiz və kəndlərimiz hər gün atəşə tutulur. Bu gün mənə verilən məlumata görə, səhər saat 6-dan 8-ə qədər təkcə Tərtər rayonuna 190 mərmi düşüb. Ağdam rayonuna 90-dan çox mərmi düşüb. Elə günlər var idi ki, Tərtər rayonuna 2 min mərmi düşüb. Yəni, onlar bizim şəhərlərimizi dağıtmaq istəyirlər, Azərbaycan xalqının iradəsini qırmaq istəyirlər. Ancaq buna nail ola bilmirlər və daha da çox azğınlaşırlar. Biz intiqamımızı döyüş meydanında alırıq. Biz heç zaman mülki əhaliyə qarşı heç bir addım atmamışıq və atmayacağıq. Baxmayaraq ki, onlar bizim qədim tarixi şəhərimizi – Gəncəni atəşə tuturlar, biz nə Ermənistan şəhərlərini, nə də ki, Dağlıq Qarabağda yerləşən şəhərləri atəşə tutmuruq və tutmayacağıq. Bizim üstünlüyümüz, bax, bu mənəvi dəyərlər çərçivəsində də bir daha özünü büruzə verir və bir daha bütün dünyaya göstərir ki, Ermənistan dünya üçün böyük təhlükədir. Ermənistanda hökm sürən kriminal faşist rejimi bölgəmiz üçün ən böyük təhdiddir və Azərbaycan bu təhdidin aradan qaldırılması üçün əlindən gələni edir. Hər gün cəbhədən xoş xəbərlər gəlir. Hər gün yeni şəhərləri, kəndləri işğalçılardan azad edirik. Müzəffər Azərbaycan Ordusu öz şərəfli missiyasını icra edir.

Sizin bu gün Azərbaycanda olmağınızın çox böyük mənası var. Bildiyiniz kimi, qardaş Türkiyə ilk saatlardan bizə öz dəstəyini göstərmişdir. Hörmətli Prezident Rəcəb Tayyib Ərdoğan, mənim əziz qardaşım ilk saatlardan bildirmişdir ki, Türkiyə Azərbaycanın yanındadır. Türkiyənin digər yüksək vəzifəli şəxsləri də buna oxşar bəyanatlar vermişlər. Türkiyə xalqı bizə öz dəstəyini göstərir. Türkiyə mətbuatında bu münaqişə geniş işıqlandırılır. Azərbaycanın haqq işi Türkiyə mətbuatı vasitəsilə dünyaya çatdırılır. Bunun da çox böyük önəmi var. Çünki əfsuslar olsun ki, bir çox ölkələrin mətbuatı birtərəfli qaydada Ermənistanın tərəfini tutur. Bu, böyük ədalətsizlikdir. Bu, saxtakarlıqdır. Bu, hadisələrin təhrifi deməkdir. Azərbaycanı işğalçı, yaxud da ki, təcavüzkar dövlət kimi təqdim etmək cəhdləri, əlbəttə, heç bir əsasa malik deyil. Ona görə, Türkiyə mətbuatının ilk günlərdən burada olması və döyüş bölgələrindən reportajların verilməsi dünyada da bu məsələ ilə bağlı düzgün məlumatın olmasına xidmət göstərir.

Bir də ki, biz bu illər ərzində beynəlxalq aləmə sübut edirdik və hesab edirəm, sübut edə bilmişik ki, biz haqlıyıq, biz işğala məruz qalmışıq. Bu gün işğaldan azad edilmiş şəhərlərin, kəndlərin mənzərəsi göstərir ki, biz hansı vəhşilərlə üz-üzəyik. O şəhərlərdə, o kəndlərdə, onların böyük əksəriyyətində bir dənə də salamat bina qalmayıb. Füzuli şəhərini tamamilə dağıdıblar. Bir salamat bina tapa bilmədik ki, orada Azərbaycan bayrağını qaldıraq və nəhayət, bu mərasim də keçirildi. Bütün kəndlərimizin binaları dağıdılıb, məscidlərimiz dağıdılıb. Dünən internetdə Zəngilanın bir kəndində dağılmış məscidin görüntülərini bütün dünya gördü. O məsciddə donuzlar saxlayıblar. Bizim məscidlərimizi təhqir ediblər. Bizim bütün tarixi abidələrimizi dağıdıblar. Evlərdən demək olar ki, yalnız daşlar qalıb. Bütün dam örtükləri, pəncərələr, əşyalar talan edilib.

Əfsuslar olsun ki, 1990-cı illərin əvvəllərində xaricdən gələn dəstək hesabına onlar bizim torpaqlarımızı zəbt ediblər. İndi də, indiki şəraitdə də biz görürük ki, onlara xaricdən yardım edilir. Oraya muzdlular, pullu əsgərlər göndərilir. Oraya böyük silahlar göndərilir. Buna baxmayaraq, biz bu çirkin rejimin belini qırırıq, qıracağıq. Haqq işimizi davam etdiririk, Türkiyə kimi qardaş ölkə yanımızdadır, hər zaman birlikdəyik. Bir daha sizə təşəkkür edirəm, xoş gəlmisiniz.

Türkiyənin Baş Ombudsmanı Şərəf Malkoç dedi:

-Xoş gördük, cənab Prezident. Çox sıx iş qrafikinizdə vaxt ayırıb bizi qəbul etdiyiniz üçün çox təşəkkür edirik, sağ olun.

Azərbaycan torpaqları 30 ildir işğal altındadır. Bütün danışıqlara baxmayaraq, 30 il boyunca irəliləyiş olmadı. Ona görə Sizin bu gün apardığınız mübarizə bir haqq mübarizəsi, hüquq mübarizəsidir, insan haqları sahəsində bir mübarizədir - öz vətəninizdən işğalçıları qovmaq. Bu, beynəlxalq hüququn da, insan vicdanının da, insan əxlaqının da ən təbii və doğru haqqıdır. Siz bunu qeyri-adi dərəcədə gözəl həyata keçirirsiniz.

Sizin hər axşam neçə kəndin, neçə şəhərin işğaldan azad edildiyi barədə açıqlamalarınız bütün Türkiyədə insanların könlünə fərəh, sevinc gətirir.

Biz Türkiyə Ombudsmanı olaraq, eyni zamanda, İslam Ölkələri Ombudsmanları Assosiasiyasına sədrlik edirik.

## *İran Prezidentinin xüsusi nümayəndəsi, Xarici İşlər nazirinin müavini Seyid Abbas Əraqçinin başçılıq etdiyi nümayəndə heyətinin qəbulu*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 28-də İran İslam Respublikası Prezidentinin xüsusi nümayəndəsi, Xarici İşlər nazirinin müavini Seyid Abbas Əraqçinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

Qonaqları salamlayan Prezident İlham Əliyev dedi:

-Xoş gəlmisiniz. Şadam sizi görməyimə.

Artıq bir aydır ki, müharibə gedir. Bizim xalqımız üçün bu, Vətən müharibəsidir. Biz torpaqlarımızı işğalçılardan azad edirik. Bu, beynəlxalq hüququn və tarixi ədalətin bərpasıdır.

Bu gün bir neçə kənd işğalçılardan azad edildi. Ancaq Ermənistan namərd hücumlarla bizim mülki vətəndaşlarımızı hədəfə alıb. Bir neçə saat bundan əvvəl

Bərdəyə bir neçə raketlə atəş açmışdır və bu atəş nəticəsində 21 nəfər mülki şəxs həlak oldu, 70-dən çox dinc insan yaralandı. Ölənlərin sayı arta bilər.

Dünən də Ermənistan Bərdəyə, yenə də mülki əhaliyə zərbə vurmuşdur. Bu zərbə nəticəsində dörd nəfər həlak oldu, onlardan biri yeddi yaşlı qız uşağıdır. Döyüş meydanında qabağımızda dura bilməyən Ermənistan bax, belə əxlaqsız addımlarla bizə zərbə vurmaq istəyir, bizi durdurmaq istəyir. Amma buna nail ola bilməyəcək.

Bir də ki, üçüncü dəfə elan olunmuş və Ermənistanın xahişi ilə razılaşdırılmış atəşkəsi kobudcasına pozur. Birinci dəfə oktyabrın 10-da Moskvada o məlum bəyannamə qəbul olunandan sonra bir gün keçməmiş Ermənistan öz ərazisindən ballistik raketlərlə Gəncə şəhərini atəşə tutmuşdur. Hər kəs bilir ki, bu atəşkəsi Ermənistan pozub, bu dəfə də Ermənistan pozub. İndi işğaldan azad edilmiş şəhər və kəndlərimizdə mövcud olan vəziyyət tam aydındır. Demək olar ki, bütün şəhər və kəndlərimiz dağıdılıb. Qəbirlər, tarixi abidələr, bütün binalar dağıdılıb. Elə bil ki, vəhşi qəbilə bu torpaqları işğal altında saxlayıb. Bizim məscidlərimiz ermənilər tərəfindən dağıdılıb və təhqir edilib. Zəngilan rayonunda ermənilər tərəfindən dağıdılmış məsciddə onlar donuz saxlayırdılar. Bu kadrlar internetdə var. Bütün dünya, bütün müsəlman aləmi görür ki, biz hansı vəhşilərlə mübarizə aparırıq. Amma bir daha demək istəyirəm ki, bizi heç nə durdura bilməz. Əgər Ermənistan öz xoşu ilə işğal edilmiş qalan torpaqlardan çıxmasa, onları oradan da qovacağıq.

Məmnunluq hissi ilə deyə bilərəm ki, Azərbaycan-İran dövlət sərhədi tam bərpa edilib. Bu münasibətlə mən Azərbaycan və İran xalqlarını təbrik etmişəm. Göstəriş vermişəm ki, bizim sərhəd xidmətimiz tezliklə bu sərhədin bütün mühafizə infrastrukturunu yaratsın. Bu işlərə start verildi. İran-Azərbaycan sərhədinin digər istiqamətlərindəki kimi, bu istiqamət də dostluq, qardaşlıq sərhədi olacaqdır.

Bildiyiniz kimi, bir neçə il bundan əvvəl Xudafərin və Qız qalası hidroqovşaqları və su anbarları haqqında İran-Azərbaycan müqaviləsi imzalanmışdır. Mən indi hökumətə göstəriş vermişəm ki, biz tərəfdən işçi qrup yaradılsın. Mən xahiş edirəm ki, İran tərəfindən də müvafiq qurum təhkim edilsin ki, tezliklə bu məsələləri müzakirə edək və bu obyektin birgə istismarı haqqında razılığa gələk.

Xahiş edirəm ki, hörmətli cənab Prezident Həsən Ruhaniyə mənim təşəkkürümü çatdırın. O, bu müddət ərzində mənə telefonla zəng etmişdi. Bizim çox yaxşı söhbətimiz olub. Sizi də Azərbaycana ezam edib, biz bunu yüksək qiymətləndiririk. İran-Azərbaycan əlaqələri son illər ərzində çox sürətlə inkişaf edib və hesab edirəm ki, tarixdə ən yüksək səviyyəyə qalxıb. İmzalanmış bütün sənədlər və əldə edilmiş razılaşmalar icra olunur. Bizim möhkəm tarixi köklər üzərində qurulmuş əlaqələrimiz əminəm ki, gələcəkdə də uğurla inkişaf edəcək. Bir daha xoş gəlmisiniz.

Seyid Abbas Əraqçi dedi:

- Cənab Prezident, mənə vaxt ayırdığınıza görə çox təşəkkür edirəm.

Hər şeydən əvvəl bu gün Bərdə şəhərinin raket hücumuna məruz qalması ilə əlaqədar həyatını itirmiş mülki insanlara, dinc insanların ölümünə səbəb olmuş bu hadisə ilə əlaqədar, orada şəhid olmuş insanlarla əlaqədar Sizə, Azərbaycan xalqına, Azərbaycan dövlətinə başsağlığı vermək istəyirəm. Siz də yaxşı bilirsiniz ki, İran İslam Respublikası elə ilk günlərdən Azərbaycanın ərazilərinin işğal olunmasına müxalif olub və Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyib. Mən özümə borc bilirəm, son günlərdə Azərbaycan Ordusunun döyüş meydanında əldə etdiyi qələbələr, işğal olunmuş ərazilərin bir hissəsinin azad edilməsi münasibətilə Sizi təbrik etmək istəyirəm. Bu yolda öz canını fəda edən bütün şəhidlər qarşısında baş əyirəm.

Cənab doktor Həsən Ruhaninin isti salamlarını Sizə çatdırıram.

Prezident İlham Əliyev İran İslam Respublikasının Prezidenti Həsən Ruhaninin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını İranın dövlət başçısına çatdırmağı xahiş etdi.

## *Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının Baş katibinin, Türkiyənin Odalar və Borsalar Birliyinin prezidentinin, Özbəkistanın Ticarət və Sənaye Palatasının sədrinin və Qırğızıstanın Ticarət və Sənaye Palatasının prezidentinin qəbulu*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 2-də Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının Baş katibi Bağdad Amreyevi, Türkiyənin Odalar və Borsalar Birliyinin prezidenti Mustafa Rifatı, Özbəkistanın Ticarət və Sənaye Palatasının sədri Adham İkramovu və Qırğızıstanın Ticarət və Sənaye Palatasının prezidenti Marat Şarşekeyevi qəbul edib.

Dövlətimizin başçısı görüşdə çıxış edib.

Prezident İlham Əliyevin çıxışı

- Xoş gəlmisiniz. Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının Ticarət və Sənaye Palatasının Bakıdakı toplantısı çox əlamətdar hadisədir. Nəzərə alsaq ki, Azərbaycan hazırda Vətən müharibəsi aparır, bu toplantının xüsusi önəmi vardır. Biz bunu bizə göstərilən dəstək və həmrəylik əlaməti kimi qəbul edirik, buna görə sizə təşəkkür edirik. Bu, növbədənkənar toplantıdır və bunun əsas məqsədi ölkəmizə mənəvi dəstəyin göstərilməsidir.

Müharibənin ilk günlərindən biz Türkiyənin və digər qardaş, dost ölkələrin dəstəyini hiss edirik. Bildiyiniz kimi, Türkiyə Respublikasının Prezidenti, mənim əziz qardaşım bizə ilk dəstək verdi, çox

əhəmiyyətli bəyanatlar verdi. Demişdi ki, Azərbaycan tək deyil, Türkiyə Azərbaycanın yanındadır. Ondan sonra digər dost, qardaş ölkələrin dövlət və hökumət başçıları – Pakistan, Əfqanıstan və digər dövlətlərin dövlət və hökumət başçıları bizə dəstək göstərdilər. Şadam ki, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası bizə dəstək göstərmişdir və Şuranın çox önəmli bəyanatı olmuşdur. Bu, türkdilli ölkələr arasındakı birliyin, həmrəyliyin təzahürüdür. Eyni zamanda, deyə bilərəm ki, Azərbaycan dünya miqyasında da çox böyük dəstək almışdır. Qoşulmama Hərəkatı 120 ölkəni özündə birləşdirən, BMT-dən sonra ikinci böyük beynəlxalq təsisatdır və İslam Əməkdaşlıq Təşkilatı da bizə dəstək göstərmişdir. Bu, əlbəttə, bir daha onu göstərir ki, bizim işimiz haqq işidir, biz öz ərazi bütövlüyümüzü bərpa edirik, öz ərazimizdə müharibə aparırıq, eyni zamanda, bu təşkilatlarda cəmləşən ölkələrin Azərbaycana olan münasibətinin əlamətidir.

Bir aydan çoxdur ki, müharibə gedir. Biz işğalçılara dərs veririk, onları torpaqlarımızdan qovuruq. Artıq bir çox yaşayış məntəqəsi işğaldan azad edilibdir. Hər həftə onlarla yeni yaşayış məntəqəsi - şəhərlər, kəndlər, qəsəbələr işğalçılardan azad edilir və Müzəffər Azərbaycan Ordusu öz uğurlu əməliyyatlarını davam etdirir.

İşğal edilmiş ərazilərdə vəziyyət acınacaqlıdır. Bizim bütün tarixi, dini abidələrimiz dağıdılıb, təhqir edilib. Ermənilər Zəngilan rayonunda, işğal edilmiş ərazilərdəki məsciddə donuz saxlayırdılar, bu videogörüntülər internetdə var və bu, bütün müsəlman aləmini hiddətləndirir. Bu, bir daha onu göstərir ki, Ermənistan dövləti bütün müsəlman aləminə nifrətlə yanaşır, əkstəqdirdə belə alçaq hərəkətlər baş verməzdi. Əlbəttə ki, bütün müsəlman dünyası bir daha görür ki, biz hansı vəhşi düşmənlə üz-üzəyik. Döyüş meydanında bizim qabağımızda dayana bilməyən Ermənistan şəhərlərimizi, kəndlərimizi hər gün atəşə tutur. Bu gün səhər mənə verilən məlumata görə səhər saat 6-dan, - indi saat 9-a beş dəqiqə qalır, - bizim şəhər və kəndlərimizə 200-dən çox mərmi atılıbdır. Bu bir ay ərzində namərd atəş nəticəsində 91 mülki şəxs həlak olub, onlardan 10-u uşaqdır, 404 mülki şəxs yaralanıbdır və 2 mindən çox ev dağılıbdır. Ermənistan maksimum çox insanı öldürmək üçün qadağan olunmuş silahlardan istifadə edir. Bizim isə intiqamımız döyüş meydanındadır. Bunu mən dəfələrlə bildirmişdim, demişdim ki, biz intiqamımızı döyüş meydanında alacağıq və alırıq. Düşməni qovuruq və sona qədər qovacağıq. Eyni zamanda, Ermənistana üç dəfə şans verildi. Bizim ordumuzun uğurlu əməliyyat keçirməsinə baxmayaraq, biz beynəlxalq vasitəçilərin təkliflərinə hörmətlə yanaşaraq üç dəfə atəşkəslə bağlı razılığa gəldik. Üç dəfə də Ermənistan bunu kobudcasına pozmuşdur - Birinci dəfə Gəncəni ballistik raketlərlə bombalaması ilə. İkinci dəfə atəşkəsdən 4-5 dəqiqə keçəndən sonra atəşkəsi pozdu. Üçüncü dəfə isə Bərdəyə "Smerç" raketi ilə atəşin açılması nəticəsində 21 insan həlak olmuş, 70 insan yaralanmışdır. Gəncəyə isə iki ballistik raketlə atəş nəticəsində 30-a yaxın insan həlak olmuşdur. Bax bu, erməni faşizminin eybəcər sifətidir. Biz nəinki öz torpaqlarımızı düşməndən azad edirik, biz region üçün böyük təhlükə mənbəyi olan erməni faşizminin belini qırırıq və bunu davam etdirəcəyik. Heç kim bizim qabağımızda dura bilməz, heç kim bizi bu yoldan çəkindirə bilməz.

Bununla yanaşı, mən dəfələrlə demişəm və bu, mənim mövqeyimdir, əgər Ermənistan, misal üçün, bu gün atəşi dayandırsa və danışıqlar masası arxasında konstruktiv mövqe nümayiş etdirsə, qalan torpaqlarımızdan qoşunların çıxarılması ilə bağlı üzərinə konkret öhdəlik götürsə, biz dayanmağa hazırıq. Biz hesab edirik ki, münaqişənin hərbi həlli siyasi müstəviyə keçməlidir və biz buna hazırıq. Ümid edirəm ki, Ermənistanın acı məğlubiyyəti onları vadar edəcək ki, onlar çox ciddi düşünərək bu qərara gəlsinlər.

Ancaq biz bunun əksini görürük. Ermənistan baş naziri Rusiya Prezidentinə məktub göndərir və hərbi yardım istəyir. Bu, tamamilə qəbuledilməzdir. Buna heç bir əsas yoxdur. Biz öz torpağımızda düşməni əzirik, vururuq və torpaqlarımızdan çıxarırıq. Biz Ermənistana hər hansı bir təcavüz etməmişik. Bu birincisi. İkincisi, Rusiya Minsk qrupunun həmsədr ölkəsidir, bütün həmsədrlər kimi neytral mövqedə olmalıdır və həmsədrlərin, əslində, ATƏT tərəfindən onlara verilmiş mandatı bunu tələb edir. Paşinyanın bu məktubu göndərməsi onun əslində, etirafıdır. Etiraf edib ki, Ermənistan məğlub olub. Hesab edirəm ki, bu etiraf Ermənistan cəmiyyətində də ciddi təhlil olunmalıdır və Ermənistan rəhbərliyinə ciddi təzyiq edilməlidir ki, bu müharibə dayandırılsın, işğalçılar bizim torpaqlarımızdan çıxsın və bölgədə sülh təmin edilsin.

Mən bir daha sizə bu gözəl təşəbbüsə görə təşəkkürümü bildirirəm, xoş gəlmisiniz. Əminəm ki, tədbiriniz uğurlu keçəcəkdir. Sağ olun.

Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının Baş katibi Bağdad Amreyev dedi:

-Təşəkkür edirəm, cənab Prezidentim. Bu dəfə Türk iş dünyası qardaş Azərbaycanın səsini bütün dünyaya çatdırmaq üçün Bakıya gəlmişik. Bu münasibətlə məni və digər türk dünyası palatalarının sədrlərini qəbul etdiyiniz üçün çox təşəkkür edirəm.

Ermənistanın Azərbaycana hücumlarının başladığı ilk günlərdən bəri Türk Şurası olaraq, Türk dünyası olaraq biz qardaş Azərbaycanın yanındayıq. Lazımi bəyanatlar verdik, açıqlamalar etdik. Mən Gəncəyə getdim. Orada da mətbuat nümayəndələri ilə görüşdə bizim daha sərt mövqeyimizi ifadə etdik. Bu Vətən müharibəsində biz Azərbaycanın yanındayıq. Türk dünyası və Türk Şurasının Azərbaycanın işğal altındakı torpaqlarını qeyd-şərtsiz geri almaq məsələsində qanuni haqqı barədə dəstəyimi ifadə etdim. Münaqişənin yalnız və yalnız Azərbaycan Respublikasının suverenliyi, ərazi

bütövlüyü və beynəlxalq birliyin tanıdığı sərhədlərinin toxunulmazlığı əsasında həlli lazımdır deyirik.

Cənab Prezident, işğal altındakı torpaqların azad edilməsi yolunda şəhid olan bütün azərbaycanlı şəhidlərimizə Allahdan rəhmət diləyirəm.

Bugünkü tədbirimizdə – Türkdilli Dövlətlərin Ticarət və Sənaye Palataları rəhbərlərinin iclasında həmrəyliyimizi bir daha ifadə edəcəyik. Bir daha qardaş Azərbaycanın yanında olduğumuzu bəyan edəcəyik. Dünən İstanbulda Türkiyə Prezidenti cənab Rəcəb Tayyib Ərdoğanın iştirakı ilə Türk Şurasının, türk dünyasının Səhiyyə Nazirlərinin iclasını keçirdik. Bu tədbirdə də biz qardaş Azərbaycana tam və hərtərəfli dəstəyimizi bir daha ifadə etdik.

Bildiyiniz kimi, ötən il Bakıda keçirilən Zirvə Toplantısında Türk Şurasına üzv ölkələrin prezidentləri bizə təlimat verdilər. İndi biz Türk Şurasının 2021-ci il üçün strategiyasını, Türk dünyasının 2040-cı il üzrə hədəflərini hazırlayırıq. İnşallah növbəti Zirvə toplantısında bu sənədlər Sizlər tərəfindən qəbul ediləcəkdir. Türk Şurası hər zaman Sizinlə birlikdədir, cənab Prezident. Hamımız Azərbaycanıq.

Prezident İlham Əliyev: Sağ olun, təşəkkür edirəm, çox sağ olun.

Türkiyənin Odalar və Borsalar Birliyinin prezidenti Mustafa Rifat dedi:

-Cənab Prezident, bizi qəbul etdiyiniz üçün çox təşəkkür edirəm. Yenidən Bakıda Sizinlə görüşmək bizim üçün böyük xoşbəxtlikdir. Türk Ticarət və Sənaye Palataları olaraq bugünkü səfərimizin əsas məqsədi Türkdilli Dövlətlərin Ticarət və Sənaye Palatasına üzv ölkələrin rəhbərlərinin növbədənkənar iclasında iştirak etməkdir. Özbəkistanın Ticarət və Sənaye Palatasının sədri, Qırğızıstanın Ticarət və Sənaye Palatasının prezidenti də buradadır. Eyni zamanda, Qazaxıstanın Ticarət və Sənaye Palatasının prezidenti də videokonfransla qatılacaq, çünki o, bu gün idarə heyətinin iclasında iştirak edir.

Bu gün Sizinlə birlikdə olduğumuzu ifadə etmək üçün buraya səfərə gəldik. Düz bir il əvvəl Zirvə toplantısında yenə Sizinlə birlikdəydik. Həmin vaxt Türk dünyasından 1200 iş adamı ilə çox faydalı iclas keçirmişdik. Zirvə toplantısına da bizi dəvət etmişdiniz. Eyni zamanda, Türkiyədən 50 milyon nəfəri özündə birləşdirən işçi ittifaqlarını, məmur ittifaqlarını, ticarət konfederasiyalarını təmsil edən səkkiz qeyri-hökumət təşkilatının rəhbərləri də mənimlə birlikdə buraya gəliblər.

Biz 50 milyon nəfəri təmsil edən türk iş dünyası birliklərinin rəhbərləri olaraq, azərbaycanlı qardaşlarımızın yanında olduğumuzu nümayiş etdirmək üçün buradayıq.

Prezident İlham Əliyev: Sağ olun.

Mustafa Rifat: Şəhidlərimizə Allahdan rəhmət diləyirik. Yaralı əsgərlərimizə və vətəndaşlarımıza Allahdan şəfa diləyirik. Sizin liderliyinizlə Azərbaycan Ordusunu təbrik edirik. Bizim otuz illik həsrətimizə son qoyursunuz. Allah Sizdən razı olsun, Allah köməyiniz olsun. Bizim üzərimizə hansı vəzifə düşürsə, türk qardaşlarınızın, Türkiyədəki qardaşlarınızın üzərinə hansı vəzifə düşürsə, 24 saata yanınızdayıq. Bizə xəbər göndərməyiniz kifayət edər, cənab Prezident. O gündən bəri Türkiyənin Odalar və Borsalar Birliyinin binasının önünü biz Azərbaycan bayrağımızla bəzədik. O gündən bəri belədir. Bu, bütün sosial mediada yayıldı. O gün ki, Siz əməliyyata başladınız, Ankaranın ən prestijli binalarından birində Azərbaycan bayrağını qaldırdıq.

Yenə bir tapşırığınız olarsa, məmnun qalarıq. Bizim də bu işdə xidmətimiz olarsa, çox xoşbəxt edərsiniz bizi. Təşəkkür edirik.

Prezident İlham Əliyev: Çox sağ olun, mən çox təşəkkür edirəm. Sizə bir daha dərin minnətdarlığımı bildirmək istəyirəm. Bilirsiniz ki, bu günlərdə bütün Azərbaycan xalqı birlik göstərir və bütün Azərbaycan xalqı dünyada bu məsələyə, bu müharibəyə münasibəti çox böyük həssaslıqla izləyir. Bu da başadüşüləndir. Çünki 30 il ərzində bizim torpaqlarımız işğal altında idi və beynəlxalq vasitəçilərin səyləri heç bir səmərə verməmişdir. Sadəcə olaraq, vaxtı uzatmaq, münaqişəni dondurmaq və işğalı əbədi etmək istiqamətində atılan addımları biz görürdük və Azərbaycan xalqı görürdü. Ona görə, bu son bir ay ərzində dünyada bu məsələ ilə bağlı səslənən hər bir fikrə, hər bir mövqeyə Azərbaycan xalqı çox böyük həssaslıqla yanaşır və ilk günlərdən bizim qardaş ölkələrimizdən bu dəstəyi görüncə əlbəttə ki, biz daha da ruhlandıq. Bu, bizə daha da böyük mənəvi güc verdi və bir daha gördük ki, bizim birliyimiz sözdə deyil, əməldədir. Sizin bu gün burada olmağınız bunu bir daha göstərir. Siz də Rifat bəy, qeyd etdiyiniz kimi, bir il bundan öncə Bakıda Türk Şurasının toplantısının keçirilməsi çox əlamətdar hadisə idi. Biz məhz bu məsələlərlə bağlı fikirlərimizi bildirmişdik ki, biz bir yerdə olmalıyıq, bütün məsələlərdə bir-birimizi dəstəkləməliyik. Hər zaman əgər kimsə çətin vəziyyətə düşərsə, mənəvi dəstək göstərilməlidir və bunu biz görürük. Ona görə sizin bugünkü toplantınıza mən xüsusi önəm verirəm. Əminəm ki, bütün Azərbaycan xalqı bunu layiqincə qiymətləndirəcəkdir. Bir daha sizə təşəkkür edirəm.

Özbəkistanın Ticarət və Sənaye Palatasının sədri Adham İkramov və Qırğızıstanın Ticarət və Sənaye Palatasının prezidenti Marat Şarşekeyev bu günlərdə öz ölkələrinin Azərbaycanla həmrəy olduqlarını bir daha ifadə etdilər.

### *Türkiyənin keçmiş Baş Naziri Binəli Yıldırımın rəhbərlik etdiyi nümayəndə heyətinin qəbulu*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 2-də Türkiyə Respublikasının keçmiş Baş Naziri Binəli Yıldırımın rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.

Qonaqları salamlayan Prezident İlham Əliyev dedi:

-Xoş gəlmisiniz. Şadam sizi görməyimə.

Binəli Yıldırım: Xoş gördük. Sağ olun. Necəsiniz? Yaxşısınız?

Prezident İlham Əliyev: Sağ olun, hər şey yaxşıdır. İşlər yaxşı gedir.

Binəli Yıldırım: Maşallah.

Prezident İlham Əliyev: Çox sağ olun ki, gəlmisiniz. Biz bunu çox yüksək qiymətləndiririk. Bu, növbəti həmrəylik təzahürüdür. Əziz qardaşım, cənab Prezident dediyi kimi, Türkiyə hər zaman Azərbaycanın yanındadır. Bu dönəmdə də birliyimiz daha da möhkəmləndi. Bildiyiniz kimi, indi Vətən müharibəsi gedir, yaxşı nəticələr var, bir çox şəhərlər, kəndlər işğalçılardan azad edilib. Demək olar ki, hər həftə Azərbaycan xalqına bu haqda məlumat verirəm. Bu gün də yeni kəndlərin işğaldan azad edilməsi xəbəri veriləcəkdir. Artıq ilkin məlumatlar gəlibdir. İnşallah, sona qədər bu haqlı davamızı davam etdirəcəyik, işğalçıları torpaqlarımızdan qovacağıq.

Türkiyə ilk saatlardan bizim yanımızda olduğunu bəyan etmişdir. Hörmətli Prezident, əziz Qardaşım çox açıq bəyanatlar vermişdir ki, Türkiyə hər zaman Azərbaycanın yanındadır və Azərbaycan tək deyil. Bu, çox önəmli bəyanatlar idi və bizə əlavə mənəvi dəstəyin göstərilməsi bir daha Türkiyə-Azərbaycan birliyinin təzahürüdür.

Hörmətli Binəli bəy, biz sizinlə bərabər bu tarixi birlikdə yaşamışıq. Yaxşı bilirik, nə qədər böyük səylər göstərildi ki, Türkiyə və Azərbaycan bir-birinə daha da yaxın olsun. Çox önəmli layihələrin, sizin də rəhbərlik etdiyiniz Bakı-Tbilisi-Qars dəmir yolu layihəsinin həyata keçirilməsi onların sırasında mühüm yer tutur. Bundan sonra digər layihələr də olacaq. İnşallah, bundan sonra da uğurlu işbirliyimiz davam edəcəkdir.

Sizə bir daha təşəkkürümü bildirirəm. Bilirəm ki, sizin səfəriniz bizə həmrəylik, dəstək göstərmək mənasını daşıyır. Buna görə də çox minnətdaram.

Türkiyənin keçmiş Baş Naziri Binəli Yıldırım dedi:

-Çox təşəkkür edirəm, dəyərli Prezident.

Dünən Prezidentimizlə birlikdə idik. Cənab Prezidentimizin salamlarını Sizə çatdırmaq istəyirəm. Bildiyiniz kimi, bir neçə gün əvvəl İzmirdə böyük bir fəlakət baş verdi.

Prezident İlham Əliyev: Mən Prezidentə zəng etdim, başsağlığı verdim.

Binəli Yıldırım: Bəli, İzmirdən seçilən deputat olduğuma görə hadisənin baş verdiyi ilk andan orada idim. Axtarış-xilasetmə işləri zamanı vətəndaşlarımızın dağıntılar altından sağ çıxarılması, xəsarət alanların müalicəsi üçün böyük səy göstərdik. Prezidentimiz də oraya gəldi. O da lazımi göstərişlərini verdi.

Təbii ki, Türkiyə olaraq biz Azərbaycanın bu haqlı mübarizəsində əvvəldən bəri daim onun yanındayıq. Heydər Əliyev cənablarının "Bir millət, iki dövlət" şüarını o gündən bu günədək davam etdiririk. Bilirik ki, Dağlıq Qarabağ məsələsində Siz yerdən göyə qədər haqlısınız. Çünki Azərbaycan bu müharibədə öz torpaqlarını işğalçılardan təmizləyir.

Azərbaycan 27 ildir davam edən bu işğala son qoyur, öz ərazilərinin azad olunmasını təmin edir. Buna görə Azərbaycan gecə-gündüz böyük vətənpərvərlik nümunəsi göstərərək hər gün qəhrəmanlıq dastanları yazır. Buraya gələrkən bir qədər əvvəl yenə bir xəbər oxudum, bir təyyarə məhv edilib.

Görüşdən sonra Prezident İlham Əliyev Binəli Yıldırım ilə xatirə şəkli çəkdirdi.

Dövlətimizin başçısı nümayəndə heyətinin üzvləri ilə də xatirə şəkli çəkdirdi.

Binəli Yıldırım xatirə hədiyyəsini Prezident İlham Əliyevə təqdim etdi.

Daha sonra Milliyətçi Hərəkət Partiyasının parlamentdəki fraksiyasının rəhbəri Cəlal Adan MHP-nin sədri Dövlət Baxçalının adından Prezident İlham Əliyevə xatirə hədiyyəsi təqdim etdi.

### *Türkiyənin xarici işlər və milli müdafiə nazirlərinin qəbulu*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 8-də Türkiyə Respublikasının xarici işlər naziri Mövlud Çavuşoğlunu və milli müdafiə naziri Hulusi Akarı qəbul edib.

Qonaqları salamlayan Prezident İlham Əliyev dedi:

-Xoş gəlmisiniz, əziz qonaqlar.

Bildiyiniz kimi, bu gün xalqımız üçün çox əziz bir gündür, tarixi bir gündür. Bu gün Şuşa şəhərinin azad edilməsi günüdür. Belə bir gündə bizimlə bərabər olmağınız xüsusi önəm daşıyır. Bu, növbəti qardaşlıq nümunəsidir, növbəti qardaşlıq təzahürüdür. Hər zaman olduğu kimi, yaxşı günlərdə də, ağır günlərdə də biz bir yerdəyik. Bu hadisə bir daha onu göstərir ki, bizim xalqlarımız bir-birinə nə qədər yaxındır, Türkiyə və Azərbaycan bir-birinə nə qədər doğmadır.

Türkiyənin Prezidenti, əziz qardaşım Rəcəb Tayyib Ərdoğan son bir ay ərzində, ondan da çox bir müddət ərzində Azərbaycana dəfələrlə öz dəstəyini göstərmişdir, öz açıq ifadələri ilə siyasi, mənəvi dəstək verməklə bizə əlavə güc vermişdir. Eyni zamanda, siz – hörmətli müdafiə naziri, bizim digər qardaşlarımız dəfələrlə Azərbaycanın yanında olduğunuzu qeyd edirdiniz. Qeyd

edirdiniz ki, Türkiyə Azərbaycanın yanındadır. Əlbəttə ki, bu açıqlamalar, bu siyasi və mənəvi dəstək bu münaqişənin həlli üçün də önəmli rol oynamışdır.

Şəhərlərimizin, kəndlərimizin işğaldan azad edilməsi və bu gün Şuşa şəhərinin, qədim Azərbaycan şəhərinin azad edilməsi, əlbəttə ki, böyük tarixi hadisədir. Bu hadisəni bizimlə birlikdə belə canlı şəkildə qeyd etmək üçün Azərbaycana gəlməyiniz bizi çox məmnun edir.

Bir daha sizə dərin təşəkkürümü bildirmək istəyirəm. Bu müddət ərzində bir daha bütün dünya, bizi istəyənlər və istəməyənlər gördülər ki, birliyimiz sarsılmazdır və əbədidir. Bu, belə də davam edəcək. Bir daha sizə təşəkkürümü bildirirəm, sizə "Xoş gəlmisiniz!" deyirəm.

Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu dedi:

-Bizi qəbul etdiyiniz üçün çox təşəkkür edirik, cənab Prezident. Biz hər zaman Bakıda və Sizin qəbulunuzda olmaqdan böyük məmnunluq hissi keçiririk. Amma bu gün xüsusilə çox məmnunuq. Çünki qəhrəman Azərbaycan Ordusu Ali Baş Komandan, Zati-alinizin rəhbərliyi ilə qədim Şuşa şəhərini işğalçı Ermənistandan geri alıb. Beləliklə, qəhrəman Azərbaycan Ordusunu, Ali Baş Komandan olaraq Sizi və bu çətin günlərdə, xüsusilə də Ermənistanın atdığı raketlərə baxmayaraq, ayaqda dayanan, Ali Baş Komandanının və onun qəhrəman ordusunun arxasında dayanan qardaş Azərbaycan xalqını cani-qəlbdən təbrik edirik.

Hörmətli Prezidentimizin də salamlarını xüsusilə çatdırmaq istəyirəm. Belə bir əlamətdar gündə - Bayraq Günündə burada, Bakıda olmaqdan xüsusilə məmnunuq.

Bizi qəbul etdiyiniz üçün təşəkkür edirik. Bir daha təbrik edirik, cənab Prezident.

Prezident İlham Əliyev: Çox sağ olun. Əziz qardaşıma, hörmətli Prezidentə mənim də salamlarımı çatdırın. Bildiyiniz kimi, biz daim təmasdayıq, dünən də telefonla söhbət etdik. Yəni, daim əlaqədəyik və bu şəxsi əlaqələr, bizim aramızdakı bu dostluq, qardaşlıq əlaqələri ölkələrimiz arasındakı əlaqələrə də müsbət təsir göstərir. Bir daha təşəkkür edirəm.

## *İlham Əliyev Türkiyənin xarici işlər, milli müdafiə nazirlərinin və Milli Kəşfiyyat İdarəsinin rəisinin qəbulu*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 10-da Türkiyə Respublikasının xarici işlər naziri Mövlud Çavuşoğlunu, milli müdafiə naziri Hulusi Akarı və Milli Kəşfiyyat İdarəsinin rəisi Hakan Fidanı qəbul edib.

Qonaqları salamlayan Prezident İlham Əliyev dedi:

-Əziz dostlar, hörmətli qonaqlar, Qələbədən sonra ilk görüşümdür, təbii ki, qardaşlarımla görüşdür. Bu gün səhər əziz Qardaşım, cənab Prezident Rəcəb Tayyib Ərdoğanla telefonla danışdıq, söhbət etdik, bu böyük qələbə münasibətilə bir-birimizi təbrik etdik. Eyni zamanda, gələcək işlər haqqında fikir mübadiləsi aparıldı. Əziz Qardaşıma və bütün Türkiyə xalqına bu dəstəyə, həmrəyliyə görə öz adımdan, bütün Azərbaycan xalqı adından bir daha dərin təşəkkürümü bildirdim. Bütün bu 44 gün ərzində qardaş Türkiyənin dəstəyini biz hər an hiss edirdik, bütün Azərbaycan xalqı hiss edirdi. Dünən artıq bəyanatın imzalanmasından sonra Türkiyə televiziyalarında müşahidə olunan mənzərə çox ürəkaçan idi. Yəni, bizim türk qardaşlarımız bu Qələbəyə öz qələbələri kimi sevinirdilər. Onsuz da bu, belədir. Bu, bizim müştərək qələbəmizdir, Türkiyə-Azərbaycan birliyinin təsdiqidir. Bu gün bu birlik tarixdə bəlkə də ən yüksək səviyyədədir. Bütün bu günlər ərzində Türkiyənin vəzifəli şəxsləri, Məclis üzvləri, nazirlər, ictimai fəallar, mətbuat, geniş ictimaiyyət, bizim bütün qardaşlarımız bizə çox böyük dəstək oldular. Bu, bizə əlavə güc verdi, ruh yüksəkliyimizi daha da artırdı. Biz bu gün, əlbəttə, çox xoşbəxtik ki, nəhayət 30 ildən sonra öz dədə-baba torpaqlarımızı işğaldan azad etdik.

Bu gün əziz Qardaşımla söhbət əsnasında, eyni zamanda, Türkiyə-Rusiya birgə atəşkəsə nəzarət mərkəzinin fəaliyyəti ilə də bağlı fikir mübadiləsi apardıq. Hesab edirəm ki, bu da çox önəmli addımdır. Bu, bölgədə iş birliyinin yeni formatıdır. Biz bunu hər zaman istəyirdik ki, Türkiyə və Rusiya Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsində bərabər səviyyədə rol alsınlar və bu gün biz buna nail olduq. Bu mərkəzin gələcək fəaliyyəti ilə əlaqədar bu gün sizinlə də danışacağıq və rusiyalı həmkarlarımızla danışacağıq ki, qısa müddət ərzində bu mərkəz yaradılsın. Çünki erməni silahlı qüvvələrinin torpaqlarımızdan çıxarılmasının artıq cədvəli var. Bu ayın sonuna qədər onlar bütün torpaqlardan, hələ də işğal altında olan torpaqlardan çəkilməlidirlər. Beləliklə, bu mərkəzin qısa bir zaman içərisində yaradılmasında çox böyük fayda var. Bir daha xoş gəlmisiniz, öz doğma evinizə xoş gəlmisiniz.

Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu dedi:

-Çox təşəkkür edirik, cənab Prezidentim. Biz də öz doğma evimizdə bir daha olmaqdan çox məmnunuq. Bizi qəbul etdiyiniz üçün Sizə təşəkkür edirik.

Bu gün Qardaşınız, Prezidentimiz Rəcəb Tayyib Ərdoğanla telefon danışığınız olub. Amma təyyarəyə minməzdən əvvəl mənə yenidən zəng etdi, Sizə salamlarını və təbriklərini çatdırmağımı bir daha söylədi.

Biz də bir daha Sizi qələbəniz, - Sizin qələbəniz, bizim qələbəmizdir, - bu böyük zəfər münasibətilə təbrik edirik. Ali Baş Komandan olaraq, Sizin rəhbərli-

yinizlə qəhrəman Azərbaycan Ordusu nə edə bildiyini dosta, düşmənə nümayiş etdirdi, eyni zamanda, türkün gücünü də göstərdi.

Bu prosesdə Sizin rəhbərliyinizlə qardaş Azərbaycan həm döyüş meydanında, həm də masada mövcudluğunu da göstərdi. Döyüş meydanında qələbələrinizə baxmayaraq, sülh yolu ilə, atəşkəs yolu ilə də bu münaqişənin həlli üçün böyük bir liderlik göstərdiniz. Amma təəssüf ki, Ermənistan bu imkanlardan istifadə etmədi. Ümid edirəm ki, bu dəfə bundan dərs alarlar. Döyüş meydanındakı qələbələrlə yanaşı, Azərbaycanın digər torpaqları qısamüddətli bir təqvimlə yenidən, inşallah, Can Azərbaycana qaytarılacaq.

Biz Sizin həm döyüş meydanındakı, həm də diplomatik müstəvidəki uğurlarınızdan qürur duyuruq. Türkiyə olaraq hər zaman dedik ki, başda hörmətli Prezidentimiz olmaqla, həm döyüş meydanında, həm də masada Can Azərbaycanın yanındayıq.

Bundan sonrakı prosesdə Sizin də dediyiniz kimi, birgə nəzarət mərkəzinin yaradılması daxil olmaqla, atacağımız addımları da birlikdə müzakirə edəcəyik, dəyərləndirəcəyik.

Sizin göstəriş və tapşırıqlarınıza uyğun olaraq biz də həmkarlarımızla birlikdə lazımi işləri görəcəyik. Bu məqsədlə bu gün qəbulunuza, tapşırıqlarınızı almağa gəldik.

Bir daha təbrik edirik. Bu gün səhər televizoru açdıq, Azərbaycanda insanlar küçələrdə idi, Türkiyədə də xalqımız eyni sevinci yaşadı. Buna görə də təşəkkür edirik.

Prezident İlham Əliyev: Çox sağ olun, təşəkkür edirəm.

Prezident İlham Əliyev Türkiyə dövlətinin başçısı Rəcəb Tayyib Ərdoğanın salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Türkiyə Prezidentinə çatdırmağı xahiş etdi.

## *Niderlandın Azərbaycanda yeni təyin olunmuş səfirinin etimadnaməsinin qəbulu*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 18-də Niderland Krallığının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri xanım Paulin Eizemanın etimadnaməsini qəbul edib.

Etimadnaməsini Prezident İlham Əliyevə təqdim edən səfir Paulin Eizema dedi:

-Zati-aliləri cənab Prezident. Bu gün burada olmaq və əlahəzrət Niderland Kralı Villem-Aleksandrın etimadnaməsini Sizə təqdim etmək mənim üçün həqiqətən şərəfdir. O, məndən ölkənizə və xalqınıza ən xoş salamlarını çatdırmağı xahiş etdi.

Prezident İlham Əliyev dedi:

-Təşəkkür edirəm. Xoş gəlmisiniz. Belə gətirdi ki, Sizin Azərbaycana gəlişiniz, demək olar, müharibə dövrünə təsadüf etdi. Odur ki, obyektiv səbəblərə görə bizim görüşümüz təxirə salındı. Mənə məlumat verilmişdir ki, siz, demək olar, iki ay bundan əvvəl gəlmisiniz. Əminəm ki, görüşümüzün nə üçün daha əvvəl baş tutmamasını başa düşürsünüz. Lakin əfsuslar olsun, görüşümüz təyin olunanda mənə məlumat verildi ki, ölkənizin parlamenti Azərbaycana qarşı sanksiyaları nəzərdə tutan, Azərbaycanın əleyhinə və həmçinin Türkiyənin əleyhinə olan qərar qəbul etdi. Mənə köməkçim məlumat verdi ki, müzakirələr zamanı Niderlandın xarici işlər naziri daha da balanslaşdırılmış yanaşma ilə çıxış etdi. Odur ki, biz bunu qiymətləndiririk. Lakin parlamentin belə balanslaşdırılmamış və ədalətsiz bir qərarı qəbul etməsi faktı əlbəttə ki, bizə daha yaxın əlaqələr qurmağa kömək etməyəcək. Əvvəla, dünən bu qərarın qəbul olunması faktını nəzərə alaraq demək istəyirəm ki, Ermənistan bizə hücum etdi. Biz özümüzü müdafiə edirdik və bunun nəticəsində biz beynəlxalq hüququn norma və prinsiplərinə əsasən və tarixə əsasən özümüzə məxsus olan əraziləri azad edə bildik. Bizim mübarizəmiz azadlıq, ərazilərin azad edilməsi uğrunda mübarizə idi və mübarizəmiz böyük hərbi və siyasi uğurla başa çatdı. Sizin də bildiyiniz kimi, noyabrın 10-da müharibəyə son qoyan üçtərəfli bəyanat imzalanmışdır. Buna görə mənə çox qəribə gəldi ki, bundan sonra - Ermənistanın kapitulyasiyası olan bu bəyanatı onun özü imzaladıqdan sonra regionumuzdan uzaqda yerləşən bir ölkədə belə bir qərar qəbul edildi. Yəqin siz də bilirsiniz ki, regional ölkələr bu bəyanatı dəstəkləyiblər. Bütün qonşularımız bu bəyanata dəstəyini ifadə ediblər. Qonşularımızdan ikisi - Rusiya və Türkiyə azərbaycanlıların və ermənilərin təhlükəsizliyini təmin edəcək əməliyyatlarda iştirak edəcək. Odur ki, hesab edirəm, başqa tərəfdənsə bizim tərəfimizdə olmağınız daha ədalətli olardı. Yəqin ki, siz atəşkəsi dəstəkləyən ABŞ Dövlət Departamentinin, Avropa İttifaqının şərhlərini də eşitmisiniz. Buna görə də mən başa düşürəm, parlamentarilərin öz gündəliyi var. Bəzən onların öz istəkləri olur, bu, başadüşüləndir. Parlamentin qəbul etdiyi qərardan ola bilsin, fərqli olan ölkənizin hökumətinin də öz mövqeyinin olduğunu başa düşürəm. Lakin bunun nə üçün baş verməsini bizim xalqımıza izah etmək çətin olacaq. Buna görə də parlamenti belə qərar qəbul edən ilk ölkənin nə üçün Niderland olduğunu insanlar sizdən soruşduqda bu vəziyyətlə üzləşməli olacaqsınız. Praktiki baxımdan, bunun yerdəki vəziyyətə birmənalı şəkildə heç bir təsiri olmayacaq. Vəziyyət indi sabitləşir. Belə bir günü demək olar ki, otuz ildir gözləyən bizim qaçqın və məcburi köçkünlərimiz bu böyük hərbi və siyasi qələbəni qeyd edirlər. Onlar özlərinin qayıdışı üçün vaxt cədvəlini görməyi səbirsizliklə gözləyirlər. Amma bu, vaxt aparacaq, çünki təcavüzkar demək olar ki, hər şeyi dağıdıb. Bu videolar bizim televiziyada nümayiş olunur. Bu

dağıntı bəlkə də bizim xalqımıza, mədəni, dini irsimizə, bəşəriyyətə qarşı qəddarlığın, vandalizmin və barbarlığın nadir formasıdır. Ermənistanın müharibə zamanı davranışı həm də onların rəhbərliyinin qeyri-insani münasibətini göstərir. Çünki münaqişə zonasından uzaqda yerləşən dinc şəhərlərə Ermənistan ərazisindən ballistik raketlərlə hücum etmək müharibə cinayətidir. Kasetli və fosforlu bombalardan istifadə etmək müharibə cinayətidir. Bütün beynəlxalq media və QHT-lər bunu təsdiq etdi. Mən təəssüf edirəm ki, söhbətimizə bununla başlamalı oldum. Bu, ancaq onunla əlaqədardır ki, bizim görüşümüz iki gün əvvələ təyin olunmuşdu və sizin parlamentin qərarı ondan sonra qəbul edilib. Bundan başqa mən nə deyə bilərəm? Bir daha deyirəm, bunu izah etmək asan olmayacaq. Bu, həmçinin sizin hökumətinizin, xarici işlər nazirinizin mövqeyindən asılı olacaq. Biz bununla bağlı onların şərhlərini gözləyirik. Çünki mənim köməkçim mənə deyib ki, müzakirə zamanı şərhlər olub, lakin biz şərhləri indi, bu qərar qəbul olunandan sonra gözləyirik. Sözsüz ki, biz Avropa Komissiyasından şərhlər gözləyəcəyik. Bildiyiniz kimi, Avropa Komissiyası və Azərbaycanın çox geniş əməkdaşlıq gündəliyi var. İki il əvvəl biz Brüsseldə Azərbaycanın suverenliyini, ərazi bütövlüyünü və beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığını tam dəstəkləyən "Tərəfdaşlıq prioritetləri" sənədini parafladıq. Azərbaycan öz ərazisində döyüşürdü, öz ərazi bütövlüyünü bərpa edirdi və bu, BMT Təhlükəsizlik Şurasının qətnamələrinə, Avropa İttifaqı ilə Azərbaycan tərəfindən paraflanmış sənədə uyğundur.

Sizə yaxşı vaxt keçirməyi arzulayıram. Ümidvaram ki, tariximizdəki çox da xoşagəlməyən bu səhifə münasibətlərimizə ciddi ziyan vurmayacaq. Lakin əlbəttə ki, bu, sizin hökumətinizin və müvafiq olaraq davranacaq bizim hökumətimizin sonrakı addımlarından asılı olacaq. Bir daha xoş gəlmisiniz.

Səfir Paulin Eizema dedi:

–Çox sağ olun, cənab Prezident. Qeyd etdiyiniz kimi, mən buraya sentyabrın 20-də, münaqişə yenidən başlayandan bir həftə əvvəl gəlmişəm. Bu, çox narahat dövr, lakin həm də mənə münaqişənin mənbələrinin nədən ibarət olduğunu çox yaxşı başa düşməyə imkan verən zaman idi. Eyni zamanda, mən bununla bağlı paytaxtımla çox sıx şəkildə əlaqə saxladım. Qeyd etdiyiniz kimi, mənim hökumətimin mövqeyi çox balanslaşdırılmışdır. Mən bunu yüksək qiymətləndirirəm. Bu, təhlilin, müzakirələrin və yaxşı dialoqun nəticəsində olub. Mən bir daha vurğulamaq istərdim ki, mənim hökumətimin mövqeyi Avropa İttifaqının mövqeyinə çox uyğundur və çox balanslaşdırılmışdır. Biz münaqişəni izlədik, baş verənləri gördük və münaqişənin hər iki tərəfdə nələrə səbəb olduğu bizi hər zaman çox narahat edir. Bizim sistemdə fərqlilik var. Hökumətin mövqeyi var, parlamentin mövqeyi var və bu, dialoq tələb edir. Bu dialoq bir neçə dəfə baş tutdu və biz qeyd etdik ki, hökumətin balanslaşdırılmış mövqeyinin heç də həmişə parlamentin mövqeyi ilə eyni olması demək deyil. Ötən həftə nazirlə parlament arasında keçirilmiş sonuncu müzakirədə bu məsələlər də qaldırılmışdı. Nazir həm yazılı, həm də şifahi şəkildə israrla bildirdi ki, qaldırılan bu məsələlər mənim hökumətimin mövqeyinə uyğun deyil. Beləliklə, sanksiyalar və bu kimi məsələlər qətiyyən gündəlikdə deyil. Hazırda bu, aktual deyil, bununla bağlı hər hansı sual, müzakirə ola bilməz. Mənim nazirim bunu həm parlamentdə, həm də yazılı formada çox açıq şəkildə bildirib. Şadam ki, bunu burada yenidən təkrarlaya bilirəm.

Prezident İlham Əliyev Niderland Kralı Villem-Aleksandrın salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Niderland Kralına çatdırmağı xahiş etdi.

## *Rusiyanın müdafiə nazirinin başçılıq etdiyi nümayəndə heyətinin qəbulu*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 21-də Rusiya Federasiyasının müdafiə naziri Sergey Şoyqunun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

Nümayəndə heyətini salamlayan Prezident İlham Əliyev dedi:

-Hörmətli cənab nazir.

Hörmətli nümayəndə heyətinin üzvləri.

Sizi Azərbaycanda salamlamağa şadam. Sergey Kujuqetoviç, sizinlə 3 ay bundan əvvəl görüşmüşük. O vaxt siz Ordu Oyunları ilə əlaqədar Azərbaycana gəlmişdiniz. Bu gün biz Rusiya Prezidenti, Azərbaycan Prezidenti və Ermənistanın baş naziri tərəfindən imzalanmış üçtərəfli Bəyanatın yerinə yetirilməsi ilə bağlı məsələləri müzakirə edəcəyik. Bizim fikrimizcə, Bəyanatın müddəaları uğurla həyata keçirilir və bu, həm Azərbaycan tərəfin, həm də Ermənistan tərəfin çoxillik münaqişəyə son qoymağa və siyasi nizamlama mərhələsinə çıxmağa hazır olduğunu bir daha nümayiş etdirir.

Mən keçən dəfə Dağlıq Qarabağ münaqişəsinə dair bizim mövqeyimiz barədə sizə danışmışdım. Siz ölkəmizə avqustun axırında gəlmişdiniz. O vaxt həm iyul ayında, həm də avqust ayında Azərbaycana qarşı hərbi təxribat, silahlı təxribat üçün iki dəfə cəhd göstərilmişdi. Onlardan birincisi iyul ayında, sərhədin Tovuz rayonu hissəsində, digəri avqust ayında Ermənistan silahlı qüvvələrinin təxribat qrupu təmas xəttindən ölkəmizə soxulmağa cəhd göstərmiş və həmin qrupun rəhbəri saxlanılmışdı. Onun ifadələri məhz silahlı təxribat təşkil etmək niyyətində olduqlarını sübut edirdi. Bu siyasət davam etdi və onunla bitdi ki, sentyabrın axırlarında Ermənistan silahlı qüvvələri növbəti dəfə bizim yaşayış məntəqələrinə hücum etdilər və biz onlara

layiqli cavab verməli olduq. Sonra nələr baş verdiyini biz hamımız yaxşı bilirik.

Qırx dörd günlük silahlı mübarizədən, silahlı əməliyyatlardan sonra sənəd imzalandı. Mən həmin sənədi çox mühüm siyasi sənəd hesab edirəm, o, mahiyyət etibarilə çoxillik qarşıdurmaya nöqtə qoyur. Sizə, həmçinin Rusiyanın rəhbərliyinə, Prezident Vladimir Vladimiroviç Putinə bu mühüm siyasi sənədin hazırlanmasında və qəbul edilməsində şəxsən fəal iştirak etdiyinə görə təşəkkürümü bildirmək istərdim.

Təəssüf ki, hərbi əməliyyatlar dövründə Ermənistan tərəfi müharibə aparılmasının bütün normalarını, habelə humanitar normaları kobud şəkildə pozub. Bizim şəhərlərimiz və kəndlərimiz hər gün bombardmana məruz qalırdı. Nəticədə aralarında uşaqların və qadınların da olduğu 94 dinc Azərbaycan sakini həlak olub, 400-dən çox adam yaralanıb, 3 mindən çox ev yararsız vəziyyətə düşüb, yaxud tamamilə məhv edilib. Hərbi əməliyyatlar zonasının yaxınlığında yerləşən şəhərlər praktiki olaraq hər gün atəşlərə, minaatan və artilleriya atəşlərinə məruz qalırdı, dinc əhalinin məhv edilməsi üçün Gəncə, Mingəçevir, Bərdə və digər şəhərlərə ballistik raketlərlə məqsədyönlü şəkildə hücum edilirdi. Biz bütün bu hərbi cinayətləri – ballistik raketlərdən, kasetli və fosforlu döyüş sursatlarından istifadə edilməsini sənədləşdirmişik və Azərbaycan tərəfinin görəcəyi sonrakı hüquqi tədbirlərlə əlaqədar müvafiq tapşırıqlar vermişik.

Ermənistan əcnəbi muzdlulardan fəal istifadə edirdi. Bizdə çoxsaylı fotosənədlər və videosənədlər var, əcnəbi vətəndaşların, o cümlədən Fransa, ABŞ, Livan, Kanada, Gürcüstan və başqa ölkələrin vətəndaşlarının pasportları var. Bu vətəndaşların bir qismi erməni mənşəlidir, digərləri belə deyil. Lakin bu, məsələnin mahiyyətini dəyişmir, ona görə ki, Ermənistan tərəfində əcnəbi muzdluların iştirak etməsi, əlbəttə, yolverilməzdir.

Bütün bunlara baxmayaraq, hərbi əməliyyatların nəticəsi hamıya məlumdur. Azərbaycan Ordusu parlaq hərbi qələbə qazandı və beləliklə biz siyasi nizamlama müstəvisinə keçdik. Dünən Azərbaycan Ordusu Ağdam şəhərinə, Ağdam rayonunun işğal altındakı qalan hissəsinə daxil oldu. Beləliklə, Bəyanatın bəndləri yerinə yetirilir.

Biz Rusiya Federasiyasının sülhməramlı missiyasının yerləşdirilməsini də alqışlayırıq. Bu missiya bizim müvafiq strukturlarla və bildiyimizə görə, Ermənistan tərəfi ilə də işgüzar əlaqəli şəkildə işləyir. Hesab edirəm ki, bu, vəziyyətin sabitləşməsi üçün mühüm amildir və Bəyanat imzalanan andan atəşkəslə bağlı hər hansı ciddi pozuntular olmayıb və əminəm ki, olmayacaq.

Biz Azərbaycan ərazisində atəşkəsin müşahidə edilməsi üzrə mərkəz yaradılması barədə Rusiya Federasiyası ilə Türkiyə arasında danışıqların fəal gedişini də alqışlayırıq. Hesab edirik ki, bu, regionda sabitliyin və təhlükəsizliyin möhkəmlənməsi üçün çox mühüm elementdir. Biz Türkiyə rəhbərliyinə və şəxsən Prezident Rəcəb Tayyib Ərdoğana hərbi əməliyyatların dayandırılması üçün ilkin şərait yaradılmasında iştirakına görə təşəkkür edirik. Həm Rusiya, həm də Türkiyə - bizim üçün dost olan iki ölkə, iki qonşumuz atəşkəsə riayət edilməsi və atəşkəsə nəzarət tədbirlərində iştirak edəcəklər. Bu da bizim qonşularımız olan iki ölkə arasında, habelə regional əməkdaşlıq çərçivəsində qarşılıqlı fəaliyyət formatının möhkəmlənməsinə dəlalət edir. Ümidvaram ki, bugünkü atəşkəs və Ermənistan ilə münasibətlərin normallaşması barədə bizim planlarımız, - əgər onlar Ermənistan tərəfindən müsbət qəbul edilərsə, - regionda yeni vəziyyətin, əməkdaşlığın, sabitliyin və təhlükəsizliyin möhkəmlənməsi üçün şərait yarada bilər. Bu, hamının xeyrinə olar. Bizim regionda məskunlaşan xalqlar da, qonşularımız da, bütövlükdə dünya da daha təhlükəsiz olacaq.

Sizi bir daha salamlayıram. Çox şadam ki, siz ölkəmizə böyük nümayəndə heyəti ilə gəlirsiniz, bu gün müzakirə etmək üçün geniş gündəliyimiz var. Bir daha xoş gəlmisiniz.

Rusiyanın müdafiə naziri Sergey Şoyqu dedi:

-Sağ olun, hörmətli cənab Prezident. Əvvələn, Sizə təşəkkür edirəm ki, bizimlə görüşmək, bir qismi təcili, əksəriyyəti aktual, ümdə olan məsələlərin müzakirə edilməsi üçün vaxt tapmısınız. Zaman dinamik hərəkət edir, sürətlə keçir. Rusiya, Azərbaycan və Ermənistan dövlətlərinin rəhbərləri tərəfindən plan, mənim fikrimcə, tarixi Bəyanat qəbul ediləndən sonra o qədər də çox vaxt keçməyib, lakin sülhməramlı kontingent, sülhməramlı qüvvələr müəyyən edilmiş mövqeləri tutublar, yəni orada 23 post var. Təmas xəttində təhlükəsizliyi təmin etmək üçün magistral tərəfdə yerləşən bu postlar nəzarətə götürülüb. Köçkünlərin qayıtması başlanıb. Əlbəttə, nizamlanmış bütün işlər bu gün öz nəticələrini verir.

Siz qeyd etdiyiniz kimi, bu müddətdə, ola bilsin, nadir istisnalarla, hesab edirik ki, əhəmiyyətsiz atışmaları nəzərə almasaq, atəşkəs rejiminə riayət edilir və mən əminəm ki, bundan sonra da belə olacaq.

### *Rusiyanın xarici işlər naziri Sergey Lavrovun qəbulu*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 21-də Rusiya Federasiyasının xarici işlər naziri Sergey Lavrovu qəbul edib.

Görüşdə Rusiyanın qurumlararası nümayəndə heyətinə daxil olan Rusiya Baş nazirinin müavinləri Aleksandr Novak və Aleksey Overçuk, səhiyyə naziri

Mixail Muraşko, Rusiyanın İstehlakçı Hüquqlarının Müdafiəsi və İnsan Rifahına Nəzarət üzrə Federal Xidməti – “Rospotrebnadzor”un rəhbəri Anna Popova, “Rusiya Dəmir Yolları” ASC-nin Baş direktoru və idarə heyətinin sədri Oleq Belozyorov da iştirak ediblər.

Qonaqları salamlayan Prezident İlham Əliyev dedi:

-Hörmətli Sergey Viktoroviç.

Hörmətli nümayəndə heyətinin üzvləri.

Sizi Azərbaycanda salamlamağa şadam. Sizi yenidən görməyimə şadam. Şadam ki, ölkəmizə bu cür böyük nümayəndə heyəti ilə gəlirsiniz. Nümayəndə heyətinin tərkibi özlüyündə bugünkü müzakirələrin gündəliyini əks etdirir. Bütövlükdə, bizim münasibətlərimizin gündəliyi yetərincə genişdir, bütün sahələri əhatə edir. Lakin bu gün təbii ki, biz, ilk növbədə, Rusiya Prezidenti, Azərbaycan Prezidenti və Ermənistanın baş naziri tərəfindən imzalanmış üçtərəfli Bəyanatın implementasiyası ilə bağlı məsələlər, həmçinin regionda təhlükəsizlik tədbirlərinin möhkəmləndirilməsi məsələləri barədə danışacağıq.

Regionda yeni, çox ümidverici şərait yaranıb. Əminəm ki, müsbət meyillər daha da artacaq. Hər halda, Azərbaycan buna hazırdır və biz bu gün regionun inkişafı barədə düşündüklərimizi ətraflı müzakirə edəcəyik. Əlbəttə, üçtərəfli Bəyanat bizim regionda möhkəm və uzunmüddətli sülhün bərqərar olması işində mühüm addımdır. Rusiya Federasiyasının Prezidenti Vladimir Vladimiroviç Putinin şəxsi rolunu xüsusi qeyd etmək istərdim. O, razılaşmanın mətninin hazırlanmasında çox fəal, səmərəli iştirak edib və bu razılaşmanın uğurla reallaşması faktı çox cəhətdən məhz bu mətnin altında Rusiya Federasiyası Prezidentinin də imzasının olmasından asılıdır.

Regionda təhlükəsizlik tədbirlərinin möhkəmlənməsi işində Türkiyə Prezidenti cənab Rəcəb Tayyib Ərdoğanın oynadığı mühüm rolu da qeyd etmək istərdim. Düşünürəm ki, bütövlükdə həm sülhməramlı missiya baxımından, həm də regionda uzunmüddətli əməkdaşlıq baxımından tərəfdaşlığın formatı bu gün yeni xüsusiyyətlər kəsb edir. Mənim fikrimcə, bu, region ölkələrinin əsas mənafelərinə uyğundur, çünki bizim region ölkələri, təbii ki, təhlükəsizliyin möhkəmlənməsi məsələlərində də əsas rol oynamalıdırlar. Üçtərəfli Bəyanatda razılaşdırılmış məqamlar onu göstərir ki, xoş məram və konstruktiv yanaşma olduqda əvvəllər həlledilməz hesab olunan məsələləri həll etmək olar.

Sizinlə biz nizamlama prosesinin bütün peripetiyalarını yaxşı bilirik. Lakin şadam ki, həm Azərbaycan xalqına, həm də Ermənistan xalqına sülh şəraitində yaşamağa, müharibənin vurduğu yaraları sağaltmağa çalışmağa, gələcək barədə, birgə gələcək barədə bizim üçün, qonşularımız üçün təhlükəsiz gələcək barədə düşünməyə çalışmağa imkan verəcək və bununla da regionumuzda təhlükəsizliyin möhkəmlənməsi işinə töhfə verəcək qərarlara nail ola bilmişik.

Biz həm də ona görə şadıq ki, Bəyanatın bəndlərinin hazırlanmasında birbaşa iştirak etməyən Minsk qrupunun digər üzvləri gec də olsa, Bəyanatın mətninə öz münasibətlərini, müsbət münasibətlərini bildiriblər.

Əlbəttə, biz haqlı olaraq onlardan daha operativ reaksiya gözləyirdik. Lakin görünür, onların öz mövqelərini hazırlamağa imkan verməyən müəyyən amillər olub. Amma necə deyərlər, heç vaxt olmamaqdansa, gec olmaq yaxşıdır. Mən bilirəm ki, Moskvada ATƏT-in Minsk qrupunun nümayəndələrinin görüşü keçirilib. Güman edirəm ki, onların bu bəyanata müsbət yanaşması da təhlükəsizlik tədbirlərinin möhkəmlənməsi və uzunmüddətli sülhün bərqərar olması işində mühüm rol oynayacaq.

Onu da qeyd etmək istərdim ki, Rusiya Federasiyasının Prezidentinin mövqeyinə tamamilə şərikəm. O, bəyan edib ki, bundan sonra “Dağlıq Qarabağ münaqişəsi” söz birləşməsini daha eşitməyəcəyinə ümid edir. Mən də bunu daha eşitməyəcəyimə ümid edirəm. Ümid edirəm ki, Dağlıq Qarabağ barədə danışanda yalnız inkişafla, müharibənin nəticələrinin aradan qaldırılması və vaxtilə öz aralarında düşmənçilik etmiş ölkələrin barışması ilə bağlı xəbərlər eşidəcəyik.

Bir daha xoş gəlmisiniz. Sizin gəlişinizə həmişə şadıq. Bu gün konstruktiv işləyəcəyimizə ümid edirik.

Rusiyanın xarici işlər naziri Sergey Lavrov dedi:

-Çox sağ olun, hörmətli İlham Heydər oğlu. İlk növbədə, Sizə Rusiya Federasiyası Prezidentinin ən səmimi salamlarını çatdırıram. Biz buraya idarələrarası nümayəndə heyəti ilə gəlmişik. Onun Sizinlə razılaşdığı kimi, bizim bu səfərimiz kifayət qədər qısa müddətdə həyata keçirilməlidir. Bu, bizim, Rusiya Federasiyasının Prezidentinin 9 noyabr tarixli razılaşmaların reallaşdırılması üzrə səyləri fəal dəstəkləmək və eyni zamanda, Azərbaycan Respublikası ilə bizim tərəfdaşlığımızın xüsusi strateji xarakterini vurğulamaq niyyətini əks etdirir. Bu gün burada bizim qarşılıqlı fəaliyyətimizin bütün istiqamətləri üzrə həmkarlarımızla aparılacaq söhbətlər, əlbəttə, ikitərəfli münasibətlərin xalqlarımızın rifahı naminə inkişaf etməsinə və çiçəklənməsinə yönələcək.

Biz Azərbaycanın 9 noyabr tarixli Bəyanatı dəstəkləyən mövqeyini yüksək qiymətləndirdik. Hörmətli İlham Heydər oğlu, Siz dediyiniz kimi, bu razılaşmanı heç də hamı dərhal qəbul etmədi, onu nəticə baxımından – qan tökülməsinə son qoyulması, dinc həyata, bərpa proseslərinin nizamlanmasına keçid, humanitar problemlərin həlli baxımından deyil, geosiyasi oyunlar prizmasından interpretasiya etməyə çalışdılar. Bu isə, əlbəttə, müasir dünyanın tələblərinə uyğun deyil. Biz xüsusi əhəmiyyət veririk ki, Azərbaycan Prezidenti, hörmətli İlham Heydər oğlu bu regionda barışıq məsələsini daim vurğulayır və biz qəti əminik ki, əgər həqiqətən kənardan gətirilən hansısa maraqlar barədə deyil, insanlar barədə düşünsək, bütün gələcək işlərin mənası bundan ibarətdir.

Biz azərbaycanlı həmkarlarımızla birlikdə erməni tərəfin də iştirakı ilə sülhməramlılarımız vasitəsilə əvvəlki yerlərinə qayıdan insanların mənafeyi naminə humanitar məsələlərin həllinin konkret yollarını fəal surətdə razılaşdırırıq. Buraya mülki infrastrukturun yaradılması, iqtisadi və nəqliyyat kommunikasiyalarının açılması üçün bütün zəruri işlərin nizamlanması və əlbəttə, beynəlxalq təşkilatların, Qırmızı Xaç Komitəsinin, BMT-nin qaçqınlar, ərzaq məsələləri, uşaqların problemləri üzrə strukturlarının, bu qədim regionda mədəni, dini irsin qorunub saxlanması məsələləri ilə daha fəal məşğul olmalı olan UNESCO-nun cəlb edilməsi daxildir.

Şübhəsiz, biz ümid edirik ki, Rusiya ilə birlikdə uzun illər boyu siyasi prosesə rəhbərlik edən ATƏT-in Minsk qrupunun həmsədrləri 9 noyabr tarixli razılaşmalar nəzərə alınmaqla və onların əsasında bu məsələlərin həllinə qoşulacaqlar. Dəfələrlə Sizin də vurğuladığınız, Prezident Putinin də dediyi kimi, bu işlər həmişə ATƏT-in Minsk qrupunun fəaliyyətinin əsasını təşkil edən prinsiplər məcrasında gedir.

Prezident İlham Əliyev Rusiya dövlətinin başçısı Vladimir Putinin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Rusiya Prezidentinə çatdırmağı xahiş etdi.

### *İtaliya Deputatlar Palatasının sədr müavininin başçılıq etdiyi nümayəndə heyətinin qəbulu*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 7-də İtaliya Deputatlar Palatasının sədr müavini Ettore Rosatonun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

Qonaqları salamlayan Prezident İlham Əliyev dedi:

-Xoş gəlmisiniz. Mən sizi ürəkdən salamlayıram. Şadam ki, siz Azərbaycana səfər edirsiniz. Müharibədən sonra Azərbaycana səfər edən ilk Avropa nümayəndə heyətisiniz. Yəqin ki, bu, təsadüfi deyil, çünki İtaliya ilə Azərbaycan arasındakı əlaqələr çox sürətlə inkişaf edir və bu gün ən yüksək səviyyədədir. Hesab edirəm ki, siyasi əlaqələr ən yüksək səviyyədədir. Mənim bu ilin əvvəlində İtaliyaya etdiyim dövlət səfəri bunun bariz nümunəsidir. Səfər zamanı bir çox önəmli sənədlər imzalanmışdır. Onların arasında Çoxölçülü Strateji Tərəfdaşlıq haqqında sənəd xüsusi yer tutur. Bu sənəd bizim strateji tərəfdaşlığımızı bir daha təsdiqlədi. Səfər zamanı həm Prezident, həm Baş nazirlə görüşlərim əsnasında bir çox önəmli məsələlər müzakirə olundu. Eyni zamanda, Senatın və Nümayəndələr Palatasının rəhbərləri ilə mənim görüşlərim də çox gözəl keçdi.

Bildiyiniz kimi, iki il bundan əvvəl İtaliya Prezidenti cənab Mattarella Azərbaycanda rəsmi səfərdə idi. Bu səfərlər ikitərəfli əlaqələrimizin çox möhkəm zəmində olmasını göstərir. Bu gün İtaliya-Azərbaycan əlaqələri həm siyasi, həm iqtisadi, həm bütün başqa sahələrdə çox uğurla inkişaf edir. Siz də bilirsiniz ki, İtaliya Azərbaycanın birinci ticarət tərəfdaşıdır. Keçən il ticarət dövriyyəmiz 6 milyard dollara çatmışdır. Bunun böyük hissəsi enerji resurslarına aiddir. Amma mən hesab edirəm ki, gələcək illərdə qeyri-neft sektoru da bizim aramızda xüsusi çəkiyə malik olacaq. Energetika sektoruna gəldikdə, bildiyiniz kimi, yaxın gələcəkdə TAP layihəsi istismara veriləcək və şübhəsiz ki, bu, İtaliya-Azərbaycan əlaqələrini daha da möhkəmləndirəcək.

Bizim humanitar sahə ilə bağlı da böyük planlarımız var və artıq bir çox reallaşan layihələrimiz var. İtaliyaya dövlət səfərim çərçivəsində, eyni zamanda, təhsil sahəsində əməkdaşlıq müzakirə olundu. İtaliya-Azərbaycan Universitetinin yaradılması ilə bağlı razılığa gəlmişik. Bakıya qayıdandan sonra mənim tərəfimdən bu məsələ ilə bağlı müvafiq göstərişlər verilmişdir. Hesab edirəm ki, yaxın gələcəkdə universitet üçün bina da inşa ediləcək. Mən bu məsələni diqqətimdə saxlayıram və mənə müntəzəm olaraq bu məsələ ilə bağlı məlumatlar verilir. Onu da bildirməliyəm ki, mənə verilən məlumat əsasında orada bir neçə fakültə fəaliyyət göstərəcək. O siyahıya baxanda gördüm ki, orada memarlıq fakültəsi yoxdur və təklif etdim ki, bu da əlavə olunsun. Çünki İtaliya memarlığı ümumbəşəri dəyərdir və ölkəmizdə geniş vüsət almış tikinti sektorunun əlbəttə ki, müasir görkəmi olmalıdır. Əlbəttə, İtaliya-Azərbaycan Universitetində təhsil alacaq gənclər iki ölkə arasındakı əlaqələrə xüsusi töhfə verəcəklər.

Mən, eyni zamanda, sizə təşəkkürümü bildirmək istəyirəm ki, siz həm Gəncəyə, həm Ağdama səfər etmisiniz, Ermənistan dövlətinin törətdiyi hərbi cinayətləri görmüsünüz. Ermənistan tərəfindən törədilmiş hərbi cinayətlər göz qabağındadır. Döyüş meydanında məğlubiyyətə uğrayarkən Ermənistan mülki vətəndaşları atəşə tutub. Gəncəni Ermənistan ərazisindən ballistik raketlərlə atəşə tutmuşdur. Bu, hərbi cinayətdir və bu cinayətə görə Ermənistan rəhbərliyi cavab verəcək. Müharibə zamanı 94 mülki şəxs həlak olmuşdur, 400-dən çox yaralanmışdır. Ballistik raketlərlə bu zərbə təsadüfi xarakter daşımırdı, məqsədyönlü şəkildə məhz mülki vətəndaşların yaşadığı məkana gecə vaxtı istiqamətləndirilmişdir ki, daha çox qurbanlar olsun. Ağdam şəhərini də gördünüz. Daha doğrusu, artıq şəhərdən bir şey qalmayıb, orada bütün binalar dağıdılıb. Bu, Ermənistan faşizminin eybəcər sifətini göstərən cinayətdir. Onlar hesab edirdilər ki, azərbaycanlılar bu torpaqlara heç vaxt qayıtmayacaqlar. Amma biz qayıtmışıq, döyüşə-döyüşə onları torpaqlarımızdan qovduq. Onlar bizim qabağımızda diz çökdülər.

İndi ölkəmizin yeni dövrü başlayır, biz bütün o bölgələri yenidən quracağıq. Artıq ilkin addımlar atılır, ilkin infrastruktur layihələrinə start verilib. Amma

deмək olar ki, Ağdamda gördüyünüz mənzərə azad edilmiş bütün torpaqlarda müşahidə olunur. Füzuli şəhərində də bir dənə salamat bina qalmayıb, Cəbrayıl şəhərində də. Zəngilan, Qubadlı eyni vəziyyətdədir. Kəlbəcər və Laçın rayonlarında Ermənistan dövləti qanunsuz məskunlaşma siyasəti aparmışdır. Bu da hərbi cinayət sayılır, Cenevrə Konvensiyalarına zidd olan bir addımdır. Ona görə bu rayonlarda bəzi yaşayış məntəqələrində bəzi evlər qalıb. Orada ermənilər yaşayırdılar. Ancaq noyabrın 10-dan dekabrın 1-nə qədər - o vaxt çərçivəsində onlar bu bölgələri tərk etməli idilər - onlar orada da vəhşilik törətdilər, evləri yandırdılar, sökdülər. Halbuki o evləri onlar yox, o vaxta qədər - 30 il bundan əvvəl orada yaşamış azərbaycanlılar tikmişdilər. Meşələri yandırdılar, ağacları kəsdilər, yəni, dünyanın gözü qarşısında vəhşilik törətdilər. Beynəlxalq media qurumları da bu barədə reportajlar hazırlayıb mətbuata vermişlər. Bütün dünya indi gördü ki, Azərbaycan hansı vandallarla üz-üzə qalmışdır və bu vandallara qarşı təkbaşına müharibə apararaq öz ərazi bütövlüyünü bərpa etmişdir.

İndi bərpa dövrü başlayır, genişmiqyaslı quruculuq işləri aparılacaq. Əlbəttə ki, Azərbaycan şirkətləri, ilk növbədə, bu işlərdə iştirak edəcək və bizim üçün dost olan ölkələrin şirkətlərini də biz dəvət edəcəyik, daha doğrusu, artıq dəvət etmişik. Mən çox istərdim ki, İtaliya şirkətləri bu işlərdə, yəni, bərpa, yenidənqurma işlərində fəal iştirak etsinlər. İtaliya tərəfinə artıq bu təkliflər verildi. Yaxın günlərdə videokonfrans vasitəsilə ilkin təmaslar olacaq. Əlbəttə, bir daha demək istəyirəm ki, dost ölkələrin şirkətləri bu işlərdə iştirak edəcəklər. Əsl dostluq isə özünü çətin anlarda büruzə verir. Bizim üçün də bu müharibə, eyni zamanda, onu göstərdi ki, Azərbaycanın əsl dostları kimlərdir, hansı ölkələrdir. Biz dostluğu qiymətləndirən xalqıq. Sizin Azərbaycana səfəriniz bir daha onu göstərir ki, İtaliya doğrudan da Azərbaycanın əsl dostudur. Bir daha xoş gəlmisiniz.

İtaliya Deputatlar Palatasının sədr müavini Ettore Rosato dedi:

- Cənab Prezident, bizi qəbul etdiyinizə görə sağ olun. Sizin ölkəniz üçün olduqca xüsusi əhəmiyyət kəsb edən belə bir dövrdə burada olmaqdan məmnunluq hissi duyuruq. Buna görə də Sizə olan dostluq hisslərimizi ifadə etmək üçün əslində, bu səfərə çoxdan hazırlaşırdıq. Dedik ki, belə bir əhəmiyyətli dövrdə biz mütləq Sizin ölkənizə gəlməliyik. Zati-aliləri, Sizin də söylədiyiniz kimi, bizim aramızdakı dostluq, onun əlamətləri son illərdə xüsusi olaraq öz təzahürünü tapıb. Əslində, ölkələrimiz arasındakı səfərlərə gəldikdə, bu səfərlər çox yüksək səviyyədə təşkil olunmuşdur. İtaliya Respublikası Prezidentinin Sizin ölkənizə rəsmi səfəri münasibətlərimizin inkişafında çox mühüm bir addıma çevrildi. Sizin də Romaya etdiyiniz dövlət səfəri də bizim tərəfimizdən strateji əhəmiyyət kəsb edən bir hadisə kimi qəbul olunur. Biz də Sizə dost olaraq bilirik ki, səfər çərçivəsində bir çox razılaşmalar və xüsusən də, strateji tərəfdaşlıq haqqında mühüm sənəd imzalanıb. Əslində, bunlar elə sazişlərdir ki, onlarda çox konkret öhdəliklər və olduqca vacib mahiyyət əks olunubdur.

Azərbaycan İtaliya üçün enerji daşıyıcılarının ilk ixracatçısıdır. Belə bir keşməkeşli vaxtlarda enerji təhlükəsizliyini etimad göstərib o ölkəyə həvalə edə bilirik ki, o ölkə ilə həqiqətən dostluq münasibətləri olsun. Biz bu dostluğu daha da gücləndirmək istəyirik və münasibətlərimizi daha da şaxələndirmək fikrindəyik.

* * *

İtaliya parlamentinin Deputatlar Palatasının sədr müavini Ettore Rosato Azərbaycanın münaqişədə həyatını itirən mülki şəxslərinə görə başsağlığı verdi, Gəncə və Ağdama səfərlərinə toxundu. O qeyd etdi ki, 30 illik işğal dövründə Ağdamda törədilmiş viranəliyin şahidi olublar. “Hətta inanmaq belə çətin idi ki, burada nə zamansa insanlar yaşayıb”, - deyə vurğuladı.

Ettore Rosato Prezident İlham Əliyevə İtaliya Deputatlar Palatası və İtaliya Senatı sədrlərinin salamlarını çatdırdı.

Sonda xatirə şəkli çəkdirildi.

## *ATƏT-in Minsk qrupunun Fransadan və ABŞ-dan olan həmsədrlərinin qəbulu*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 12-də ATƏT-in Minsk qrupunun Fransadan olan həmsədri Stefan Viskontini, ABŞ-dan olan həmsədri Endrü Şoferi, Rusiyanın Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Mixail Boçarnikovu və ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi Anji Kaspşiki qəbul edib.

Görüşdə çıxış edən Prezident İlham Əliyev dedi:

-Son görüşümüzdən uzun müddət keçib, bu, ötən il olmuşdur. Bu vaxt ərzində bir çox hadisələr baş vermişdir. Birincisi, pandemiya bütün dünyada vəziyyəti tamamilə dəyişmişdir. Bununla yanaşı, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli regionda vəziyyəti dəyişdirmişdir. Hazırda regionda tamamilə yeni vəziyyət mövcuddur. Azərbaycan 30 ilə yaxın davam edən münaqişəni həll etdi, buna güc yolu və siyasi vasitələrlə nail oldu. Mən həmsədr dövlətlərin başçılarından olan Prezident Putinin dedikləri ilə razılaşıram ki, Dağlıq Qarabağ münaqişəsi artıq tarixə qovuşub. Mən də həmin fikirdəyəm. Təəssüflər olsun ki, Minsk qrupu münaqişənin həllində heç bir rol oynamayıb. Halbuki bunu etmək üçün Minsk qrupu 28 il ərzində müvafiq mandata sahib idi. Mən son 17 il ərzində danışıqlarda iştirak etmişdim. Lakin müharibə zamanı dediyim kimi, Minsk qrupunun ideyalarla çıxış etmək və yaradıcı olmaq istiqamətində müəyyən fəaliyyəti olsa da, bunlar heç bir nəticə verməmişdir. Reallıq bundan ibarətdir.

Beləliklə, Azərbaycan bu məsələni özü həll etmişdir. Biz Ermənistanı döyüş meydanında məğlub edərək,

işğalçını məğlubiyyətini etiraf etməyə və Ermənistanın kapitulyasiyası hesab etdiyimiz Bəyanatı imzalamağa məcbur etdik. Ermənistan iqtidarından başqa ölkənin bütün siyasi qüvvələri də bununla razıdır ki, bu, kapitulyasiyadır və onlar bunu alçaldıcı kapitulyasiya adlandırırlar. Bunun tam məsuliyyəti Paşinyanın diktatura rejiminin üzərinə düşür.

Artıq qeyd etdiyim kimi, mən Prezident olaraq bu danışıqlarda 17 il ərzində iştirak etmişdim. Mənim Ermənistanın əvvəlki prezidentləri ilə də danışıqlar aparmaq təcrübəm olmuşdur. Burada hər hansı bir nəticə əldə olunmasa da, proses baş verirdi. Paşinyan prosesi məhv etmişdir. O, danışıqlar prosesinin formatını alt-üst etməyə cəhd etmişdir və onun təxribatçı hərəkətləri və bəyanatları danışıqları tamamilə mənasız etmişdir. Mən dəfələrlə onun hərəkətlərinə və söylədiklərinə istinad etmişəm. Bu, tamamilə qəbuledilməz idi. Onun Azərbaycan dövlətinə və xalqına qarşı təxribatçı və təhqiredici əməllərinə, bəyanatlarına cavab verilməli idi və biz onu ciddi şəkildə cəzalandırdıq. Beləliklə, o, öz məğlubiyyətini etiraf etməyə, atəşkəs üçün yalvarmağa məcbur oldu. Əslində o, bunu 44 günlük müharibə əsnasında hər gün edirdi və gündə bir neçə dəfə dünya liderlərinə zəng edirdi. Onun zəng etmədiyi avropalı lider tapmaq çətin olar. O, atəşkəsin təmin edilməsini xahiş edirdi. Lakin o, mənim şərtlərimə əməl etmək istəmirdi. Halbuki mənim yeganə şərtim var idi. O, isə bir neçə ay öncə mənə 7 şərt irəli sürmüşdü. Mən onları rədd etdim və dedim ki, mənim yeganə şərtim var – torpaqlarımızdan çıx! Əks təqdirdə, Azərbaycanın dəmir yumruğunu görəcəksən. Müharibə zamanı mən bir neçə dəfə bunu bəyan etmişdim. Onun hansısa naziri deyil, şəxsən Paşinyan bizə torpaqlarımızdan çıxmaqla bağlı tarix verən kimi biz dayanacağıq. Nəticədə bu, baş verdi və mən hər zaman olduğu kimi, verdiyim sözə əməl etdim. Paşinyan isə nə mənim, nə də öz xalqının qarşısında heç vaxt vədlərinə sadiq olmadı. O, yalançıdır və hesab edirəm ki, erməni xalqı artıq bunu anlayıb. O, indi də yalan danışmağa davam edir. Ancaq bunun artıq Azərbaycanla heç bir əlaqəsi yoxdur. Bu, artıq Ermənistanın daxili siyasətinə aiddir. Noyabrın 9-dan 10-na keçən gecə o, Bəyanatı imzaladığı andan biz dərhal dayandıq. Növbəti saatda biz dayandıq. Biz, həmçinin qoşunların çıxarılmasına da vaxt verdik. Bundan əlavə, Rusiya Prezidentinin müraciəti əsasında biz onlara Kəlbəcərin boşaldılması üçün əlavə 10 gün vaxt verdik. Halbuki erməni quldurları və Ermənistan qoşunları Kəlbəcərdə etnik təmizləmə apararkən azərbaycanlılara heç bir gün də vaxt verməmiş və onları qətlə yetirmişdilər. Azərbaycanlılar oradan qovulmuş, aprel ayının əvvəli, havanın çox soyuq olduğu vaxtda 3500 metr yüksəklikdə olan dağlardan keçməyə məcbur edilmişlər. Onların bir çoxu oradaca donmuşdu. Biz isə onlara əlavə vaxt verdikdə onlar nə etdilər? Onlar özlərinin tikmədiyi evləri yandırmağa başladılar. Onlar hər şeyi dağıtmağa başladılar. Mənə bir neçə gün öncə verilən məlumata görə, onlar orada bütün su elektrik stansiyalarını dağıtmışlar. Onlar bizim meşələri yandırmış və ağaclarımızı kəsmişlər. Özlərini vəhşi kimi aparmışlar – bu cür davrananlara başqa ad vermək olmaz. Ancaq biz sözümüzü tutduq. Biz müharibəni dayandırdıq. Hər kəsə bəllidir ki, bunu etməsəydik nə baş verəcəkdi. Ermənistan ordusu darmadağın edilmiş, ruhdan düşmüşdü və artıq nə isə etmək üçün heç bir imkana malik deyildi. Biz isə döyüş meydanında cəsarət, ruh yüksəkliyi və peşəkarlıq nümayiş etdirərək ermənilərin onilliklər ərzində ordularının məğlubedilməzliyi haqqında yaratdıqları mifi darmadağın etdik. Biz Azərbaycan Ordusunun məğlubedilməz olduğunu nümayiş etdirdik. Biz işğal edilmiş ərazilərin böyük hissəsini, 300-dən artıq şəhər, qəsəbə və kəndi, o cümlədən Azərbaycanın tarixi Şuşa şəhərini 44 gün ərzində işğaldan azad etdik. Biz kimin kim olduğunu göstərdik. Mən işğaldan azad olunan ərazilərə səfərim zamanı o torpaqlarımızı nə vəziyyətə saldıqlarının şahidi oldum. Bu haqda məlumatım var idi və internetdə bununla bağlı materiallarla da tanış idim. Füzulidə bir dənə də olsun salamat bina yox idi, hər şey yerlə-yeksan edilmişdir. Bir dənə də bina tapılmadı ki, orada bayrağımızı qaldıraq. Ağdamda isə tamamilə dağıdılmamış yeganə tikili məscidin binasıdır. Araşdırdıqda məlum oldu ki, onlar Ağdamda məscid binasını məsafə ölçmək üçün saxlayıblarmış. Azərbaycan Ordusu hücuma keçdiyi təqdirdə onlar bu vasitə ilə məsafəni ölçməli idilər, yəni, məscid istinad nöqtəsi kimi istifadə edilirdi. Lakin biz Ağdamdan əks-hücuma keçmədik və onların gözləmədikləri istiqamətdən irəlilədik. Biz Ağdama bir güllə atmadan gəldik. Bunları danışmağıma səbəb bunun, ilk növbədə, həqiqət olmasıdır. Bundan əlavə, siz bir ildən artıq müddətdən sonra buraya səfərə gəlmisiniz. Mən Azərbaycan xalqı ilə açıq və səmimi olduğum kimi, sizinlə də eyni dərəcədə açıq və səmimi danışmaq istəyirəm. Bütün bu 44 gün ərzində mən xalqa yalnız həqiqəti söyləyirdim. Paşinyan isə həm xalqına, həm də gündə bir neçə dəfə zəng etdiyi tərəfdaşlarına yalan danışırdı. O, bu gün də yalan danışmağa davam edir. Ancaq dediyim kimi, artıq bu məsələ narahatlıq doğurmur. Biz məsələni həll etdik. Biz ərazimizi işğaldan azad etdik. Müharibə zamanı mənə Azərbaycan Ordusunun itkiləri barədə çoxsaylı suallar verilirdi. Mən demişdim ki, biz bu məlumatı müharibə bitdikdə açıqlayacağıq. Belə də oldu, bizim qəhrəmanlarımızın – şəhidlərimizin fotoşəkilləri və onların adları televiziya vasitəsilə nümayiş etdirilir. Müharibə zamanı mən Ermənistan ərazisini işğal etmək niyyətində olmadığımızı bəyan etmişdim. Halbuki sizin də təsəvvür etdiyiniz kimi, bunun üçün bütün imkanlarımız var idi və həmin imkanlar bu gün də mövcuddur. Lakin bizim belə bir niyyətimiz yoxdur. Mənə bununla bağlı sual veriləndə dedim, xeyr, biz öz ərazimizi işğaldan azad etmək istəyirik və öz torpağımızda döyüşəcəyik. Biz sözümüzə sadiq olduq.

Eyni zamanda, bildirmişdim ki, bizim üçün Naxçıvanla quru əlaqəsinin yaradılması həyati əhəmiyyət kəsb edir. Biz buna siyasi yollarla nail olduq və Paşinyan bunu Bəyanat vasitəsilə imzaladı. Bununla da Naxçıvanın Azərbaycanın digər hissəsi ilə əlaqəsi təmin ediləcək. Bunun özü də Azərbaycan üçün vacib tarixi nailiyyətdir. Eyni zamanda, bu, regionun gələcəkdəki fəaliyyəti ilə bağlı müzakirələr üçün yeni imkanlar yaradır.

Müharibə zamanı beynəlxalq mediaya verdiyim çoxsaylı müsahibələrimdə mən bildirmişdim ki, bizim erməni xalqı ilə problemimiz yoxdur. Bizim davamız işğalçılarladır, ərazimizi işğal edən cinayətkarlarladır. Ermənilər isə hazırda ölkəmizin müxtəlif bölgələrində yaşadığı kimi, təhlükəsizlik və ləyaqət şəraitində yaşaya bilərlər. Onların güzəranları da bizim idarəçiliyimiz altında yaxşı olacaq. Biz müharibədən sonra ermənilərin əvvəl yaşadıqları kəndlərin vəziyyətini görürük. Orada səfalət hökm sürüb. İnsanlar oralarda inanılmaz şəraitdə yaşayıblar. Bəs bu işğalın məqsədi nə idi? Nə üçün ermənilər öz xalqının nümayəndələrini uzun illər ərzində orada qul kimi saxlayırdılar? Bilmirəm, görmüsünüz yoxsa yox, müharibənin ilk günlərində Azərbaycan Ordusu Ermənistan ordusunun səngərlərinə daxil olanda, orada məhv edilmiş işğalçıların bəzilərinin bir-birinə zəncirləndiyinin şahidi oldu. Bu, şokedici videolar idi. Yəni, onlar insanları səngərdə durmağa məcbur edirdilər. Qaçmaq, mövqelərini tərk etmək istəyənlərin qarşısı belə alınırdı. Müharibə zamanı onların xüsusi qrupları var idi ki, onlar Ermənistan qoşunlarının arxasında dayanaraq qaçmağa cəhd edən öz millətinin nümayəndələrini qətlə yetirirdilər. Belə hadisələr çox baş vermişdir. Onlar müharibə canilərıdirlər. Gəncəni ballistik raketlə atəşə tutmaları, Bərdə və Tərtər şəhərlərinin kasetli və fosforlu sursatla atəşə məruz qalması, işğal edilmiş ərazilərdə qanunsuz məskunlaşdırma – bunların hamısı hərbi cinayətlərdir və onlar bununla fəxr edirdilər. Sarkisyan və Köçəryan hərbi cinayətkardırlar. Dağıdılmış Ağdam məscidi qarşısında çıxışımda dediyim kimi, biz Sarkisyan və Köçəryanı məğlub etdik. Onlar məsuliyyəti Paşinyanın üzərinə atmaq istəyirlər. Ancaq mən demişəm ki, Paşinyan heç kimdir. O, Sarkisyan və Köçəryan rejiminə qarşı etiraz dalğası üzərində hakimiyyətə gəlmiş təsadüfi insandır. Bu adamın heç bir bilik və təcrübəsi yoxdur. Onun beynəlxalq münasibətlər və ölkənin idarəçiliyi haqqında təsəvvürü yoxdur. Həyatında kiçik bir kolxoza belə rəhbərlik etməyən insandır. Yəni, təkcə onu günahlandırmaq olmaz. Düzdür, o, bizi təhrik etdi, qəbuledilməz hərəkətlər etdi və buna görə cəzalandırıldı. Lakin biz, Sarkisyan və Köçəryan ordusunu məğlub etdik. Bu ordunu 30 il ərzində yaradanlar onlar idi. Beləliklə, bu hərbi cinayətlər hazırda sənədləşdirilir. Biz artıq şəhərlərimizə qarşı törədilən əməllərlə bağlı hüquqi prosedurlara başlamışıq. Biz beynəlxalq tərəfdaşlarımızı dəvət etmişik ki, mülki əhalimiz, infrastrukturumuz, dini və mədəni abidələrimizə dəymiş ziyanın müvafiq təhlili aparılsın. Hər bir şey sənədləşdiriləcək və biz bu cür şəraitə uyğun olaraq zəruri addımlarımızı atacağıq. Qanunsuz məskunlaşdırma hərbi cinayətdir. Minsk qrupu işğal edilmiş ərazilərə rəsmi olaraq iki dəfə missiyalar təşkil etmişdir – birində bu, faktaraşdırıcı missiya adlandırılmış, digər vaxtda isə bunun adı vəziyyətin yerində qiymətləndirilməsi missiyası idi. Anji Kaspşik bunu yaxşı bilir. O, bu prosesin veteranlarından olub. O da oralarda olub.

Eyni zamanda, Minsk qrupunun həmsədrləri işğal olunmuş ərazilərə dəfələrlə səfər etmişlər və Ermənistan rejiminin hərbi cinayətlərinin şahidi olmuşlar. Şəhərlərimizin tam dağıdılmasının şahidi olmuşlar. Söhbət yalnız Ağdam və Füzulidən getmir, Cəbrayıl da eyni vəziyyətdədir. Kəlbəcər və Laçında onlar bəzi evlərdən yalnız məskunlaşmaq üçün istifadə edirdilər. Qubadlı ilə Zəngilanda onlar suriyalı erməniləri yerləşdirməyi planlaşdırırdılar və onlardan muzdlular kimi istifadə edirdilər. Əlimizdə ermənilərin istifadə etdiyi muzdlular barədə saysız-hesabsız faktlar var. Mən artıq dedim ki, oranın sakinləri əslində kimlərdir və bunu təkrar etmək istəmirəm. Lakin əlimizdə pasportlar var. Həbsxanalarımızda əcnəbilər var. Bir sözlə, bütün bunlar böyük sual doğurur. BMT-nin Təhlükəsizlik Şurasının qətnamələrinə, ATƏT-in qərarlarına, digər beynəlxalq təşkilatların qərarlarına baxmayaraq, bu qədər illər ərzində münaqişə niyə həll olunmurdu? BMT Təhlükəsizlik Şurasının üç daimi üzvü öz imkanlarından, potensialından istifadə edə bilmədi ki, ermənilər çıxmağa məcbur olsun. Hətta bəzi ərazilərdən çıxara bilmədi. Onlar bacarmadı, yoxsa istəmədi? Bu, açıq sual olaraq qalır. Lakin hazırda bu, artıq fərq etmir. Münaqişə həll olunub. Azərbaycan bunu hərbi-siyasi vasitələrlə etdi. Tez-tez sizdən və rəhbərlərinizdən, eləcə də yüksək rütbəli rəsmilərinizdən eşidirdim ki, münaqişənin hərbi həlli yoxdur. Mən isə deyirdim: Var! Tarix göstərdi ki, mən haqlı idim. Var idi! Fikrimcə, "hərbi variant yoxdur" deyənlərin indi özləri anlayır ki, var idi, çünki onlar, sadəcə, mövcud vəziyyəti olduğu kimi saxlamaq istəyirdilər.

Minsk qrupunun həmsədri olan ölkələrin prezidentlərinin bəyanatları olub. Məncə, bu, təxminən on il əvvəl baş verib. Biz həmin bəyanata dəstək verdik, çünki o, müəyyən ümidlər yaratdı. Onlar birgə bəyannamə ilə çıxış etdilər və bildirdilər ki, status-kvo qəbuledilməzdir. Biz dedik: "Bəli. Yaxşı bəyanatdır. Gəlin onun üzərində işləyək". İndi isə bunu Ermənistana deyin. Mən sizə və sələflərinizə nə qədər deyirdim ki, gedin, deyin ermənilərə çıxsınlar. Onlara təzyiq göstərin. Mən ölkələrinizin yüksək rütbəli rəsmilərinə bunu dəfələrlə deyirdim: "Gedin, deyin onlara, təzyiq göstərin, hələ ki, gec deyil!" Lakin nə baş verdi? Müəyyən vaxt keçdi, ölkələrinizin liderləri bu sözləri dəyişməyə başladılar. Onlar artıq status-kvonun qəbuledilməzliyi barədə danışmadılar. Onlar dedilər ki, status-kvo dayanıqlı

deyil. Bu, o deməkdir ki, status-kvo onlar üçün qəbul ediləndir. Bunu hansı başqa formada izah edə bilərik. Onlar Akvildə, Muskokada söylədilər ki, status-kvo qəbuledilməzdir. Sonra da onlar dedilər ki, status-kvo dayanıqlı deyil. Bu, o deməkdir ki, status-kvo artıq qəbul edilir. Bir çox siyasətçilər hesab edirdilər ki, sülhün qorunması üçün yeganə yol status-kvonun qalmasından keçir. Biz isə bunu dəyişdik. Biz göstərdik ki, status-kvo güc yolu ilə, şücaət, müdriklik, siyasət, səylərin səfərbər olunması, Azərbaycan xalqının həmrəyliyi, Azərbaycan hökumətinin iradəsi, Azərbaycan xalqının əzmkarlığı, Azərbaycan əsgərinin müzəffərliyi sayəsində dəyişdirilə bilər. Haqlı olduğumuzu göstərdik.

Sonradan isə əlbəttə, Ermənistan kapitulyasiya aktına imza atmağa məcbur edildi. Onlar bunu heç vaxt könüllü imzalamazdılar. Biz onları məcbur etdik, Minsk qrupu yox! Biz və Prezident Putin. Bu, reallıqdır. Prezident Putinin müdaxiləsi və səyləri olmasaydı, bu gün, ehtimal ki, vəziyyət başqa cür olardı.

Lakin biz planlaşdırdığımıza nail olduq. Biz işğal olunmuş bütün yeddi rayonumuzu qaytardıq. Biz qədim Azərbaycan şəhəri Şuşanı qaytardıq. Biz Hadrut qəsəbəsini qaytardıq. Xocavəndin bir hissəsini qaytardıq. Suqovuşanı və digərlərini qaytardıq. Əslində, planlaşdırdığımıza nail olduq.

Hazırda isə Rusiya sülhməramlıları oradadırlar, öz fəaliyyətinə başlayıblar. Vəziyyət müəyyən dərəcədə sabitdir. Baxmayaraq, indi mənə məlumat verilib ki, dünən ya erməni yaraqlıları, yaxud “Ermənistan ordusu” adlandırdıqları qalıqlar tərəfindən bəzi terror aktları törədilib. Bu, əlbəttə ki, narahatlıq doğurur. Mənə elə gəlir ki, Ermənistan yenidən başlamağa heç bir vəchlə cəhd etməməlidir. İki gün öncə şanlı Qələbəmizə həsr olunmuş hərbi paradda mən söylədim ki, əgər Ermənistan faşizmi yenidən baş qaldırarsa, biz onun başını dəmir yumruqla əzəcəyik. Buna görə onlar çox diqqətli olmalıdır ki, hər hansı hərbi əməlləri planlaşdırmasınlar. Bu dəfə biz onları tamamilə darmadağın edəcəyik. Bu, heç kəs üçün sirr qalmalı deyil. Lakin ümid edirəm ki, bu, baş verməyəcək. Bir sözlə, sülhməramlıların missiyası qüvvədədir. Bilirsiniz ki, sülhyaratma əməliyyatları müzakirə olunmuş razılaşmanın, Madrid prinsiplərinin bir hissəsidir. Lakin biz bunu heç zaman ciddi müzakirə etməmişik. Anji bir veteran kimi bunu bilir. Biz həmin mövzuya hətta heç vaxt toxunmamışıq.

Biz, sadəcə, ümumi şəkildə fikir mübadiləsi etmişik. Sülhməramlıların tərkibi necə olar bilər? Onlar hansı ölkələri təmsil edə bilər? Onlar qonşu, yaxud həmsədr ölkələr olmalıdır? Fikirlər müxtəlif idi. Şəxsən mən bu haqda heç zaman fikir söyləməmişəm, çünki deyirdim, bu, hələ tezdir. Biz əvvəlcə münaqişəni həll etməliyik. Biz heç zaman sülhməramlılara etiraz da etməmişik. Biz dedik, bəli, sülhməramlılar gəlsinlər və müəyyən vaxtda mülki şəxsləri, erməniləri və azərbaycanlıları qorusunlar. Bu, elə baş verir. Hazırda sülhməramlı əməliyyatlar Rusiya tərəfindən aparılır. Ermənistan və Azərbaycan da bunu dəstəkləyib.

Eyni zamanda, bildiyiniz kimi, biz artıq Azərbaycanın Ağdam rayonunda Monitorinq Mərkəzinin yaradılması mərhələsindəyik. Bu məsələ noyabrın 10-da imzaladığımız Bəyanatda əks olunub. Türkiyə-Rusiya Monitorinq Mərkəzi atəşkəs rejiminə nəzarət edəcək. Fikrimcə, bu, regional əməkdaşlığın çox yaxşı təzahürüdür. Həmçinin Türkiyə ilə Rusiya arasında çox məqbul əməkdaşlığın rəmzidir. Bu, artıq reallıqdır.

Eyni zamanda, qaldırmaq istədiyim sonuncu məsələ, - əminəm ki, siz bu haqda eşitmişiniz, - bizim gələcəklə bağlı fikrimizdir. Yəni, regionun gələcəyi ilə bağlı demək istəyirəm. Mən artıq bir neçə dəfə ictimaiyyət qarşısında bu məsələni qaldırmışam ki, regiona yeni canlanma gətirilməlidir. Regionda yeni inkişaf olmalıdır. Azərbaycan buna hazırdır. Azərbaycan iqtisadi və hərbi baxımdan güclüdür. Ölkəmiz çox geniş beynəlxalq dəstəyə malikdir. Ölkəmiz bu gün BMT-dən sonra ikinci ən böyük beynəlxalq təşkilata – Qoşulmama Hərəkatına sədrlik edir. Əlbəttə, biz bunu işimizin bir hissəsi kimi icra edəcəyik ki, uzunmüddətli sabitlik və təhlükəsizlik təmin olunsun.

Lakin, əlbəttə ki, bu, həmçinin Paşinyan rejimindən, yaxud da həmin rejimi devirəcək dairələrdən asılı olacaq. Hesab edirəm ki, beynəlxalq ictimaiyyət Ermənistana birbaşa mesaj verməlidir. Birincisi, gələcəkdə heç zaman Azərbaycan xalqının hissləri ilə oynamasın, yoxsa ağır cəzadan yaxa qurtara bilməyəcəksiniz! Biz səbirliyik. Biz hazırlaşırdıq. Biz bütün işləri lazımınca apardıq. İyulda ilk erməni təxribatına cavab vermədik, yəni dövlət sərhədini keçmədik, halbuki, bunu edə bilərdik. Biz avqustdakı ikinci erməni təxribatına səbirlə yanaşdıq. O vaxt onlar insanlarımızı qətlə yetirmək üçün diversiya dəstəsi göndərdilər. Lakin üçüncü dəfə, sentyabrda biz cavab tədbirlərinə keçdik. Elə cavab verdik ki, onların Ermənistan ordusunu və demək olar ki, erməni dövlətini məhv etdik və ərazimizdə cinayət rejiminə son qoyduq, erməni millətçilərinin üzdəniraq “artsax” xülyalarını dağıtdıq. O, mövcud deyil. Paşinyan deyirdi ki, “Qarabağ Ermənistandır”. O, səhv etdi və layiqli cəzasını aldı. O, bu alçaltmaya layiqdir. Xalqımız, ölkəmiz qələbə qazandı, çünki həqiqət və beynəlxalq hüquq bizim tərəfimizdə idi.

Bununla, mən sözlərimi yekunlaşdırıram ki, sizi dinləyim, çünki buraya gəlmək sizin ideyanız idi. Bunu bir daha kameralar qarşısında deyə bilərəm. Mən Minsk qrupunu səfərə dəvət etməmişəm. Lakin mənə məlumat verəndə ki, Minsk qrupu gəlmək istəyir, dedim gəlsinlər, etiraz etmirəm. Bəlkə onların mənə sözləri var. Əgər siz bunu kamera qarşısında söyləmək istəyirsinizsə, buyurun. Əgər istəmirsinizsə, mən onlara deyim getsinlər. Necə istəsəniz. Buyurun, sizi dinləyirəm.

ATƏT-in Minsk qrupunun Fransadan olan həmsədri Stefan Viskonti dedi:

-Cənab Prezident, biz Sizi diqqətlə dinlədik. Əvvəlcə, bu gün, xüsusi gündür, dekabr ayıdır. Atanızla görüşməyim xatirimə gəlir. Parisdə, Prezident Şirakla görüş zamanı orada idim və mən o vaxt aparılan danışıqlarda iştirak edirdim. Biz Sizi anlayırıq. Siz də indicə qeyd etdiniz ki, həmsədr ölkələr son 28 il ərzində bacardıqları qədər öz mandatını icra etməyə çalışmışlar. Bu mandat əsasında iki tərəf arasında məsələnin nizamlanmasına şərait yaratmalı idilər. Mən Sizin tərəfdən verilən maraqlı təklifləri yüksək dəyərləndirirəm. Biz bunun üzərində çalışacağıq və tərəflərin iradəsinə uyğun olan variantı tapmağa vasitəçi olaraq çalışacağıq. Mənim hökumətim qırğına son qoyan atəşkəsi alqışlayıb. Biz noyabrın 9-dan 10-na keçən gecə əldə olunmuş razılaşmanın bütün müddəalarına çox müsbət yanaşırıq. Hadisələrin cərəyan etməsinin yeni gündəliyini qavrayırıq. Siz də qeyd etdiniz ki, regiona qərəzsiz və kollektiv qaydada sabitliyin, rifahın gətirilməsi üçün tamamilə yeni bir vəziyyət yaranıb. Bütün qalan məsələlər üzərində Minsk qrupunun işləməsinə gəldikdə, bu, tam Sizdən asılı olacaqdır. Bəli, bunun üçün yaxşı zəmin var. Biz keçid mərhələsindəyik və gələcək planlar tərtib oluna bilər. Mən, əlbəttə ki, sizin indi açıq şəkildə söylədiyiniz fikirləri öz hökumətimə məruzə edəcəyəm. Əlbəttə ki, Bakıda olmağımız, belə başa düşürəm ki, dəvət əsasında olub. Dəvət olmasaydı, mən gəlməzdim. Ola bilsin, bu missiyanın təşkilində, yazışmada qeyri-aydınlıq olub. Lakin mən bizi bu görüşdə qəbul etdiyinizə görə Sizə təşəkkürümü bildirmək istəyirəm. Mən sözlərinizi lazımi qaydada Prezidentimə və hökumətimizə çatdıracağam. Sağ olun.

ATƏT-in Minsk qrupunun ABŞ-dan olan həmsədri Endrü Şofer dedi:

-Bu gün bizi burada qəbul etdiyinizə və səmimi qonaqpərvərliyinizə görə təşəkkürümü bildirmək istəyirəm. Həmçinin mövqeyinizi çox aydın ifadə etdiyinizə görə minnətdarıq. Həmkarımın söylədiyi kimi, biz bunu öz hökumətlərimizə məruzə edəcəyik. Sizin söylədiyiniz sözlərə və açıq verdiyiniz bəyanata gəldikdə, anlayırıq ki, hazırda yeni vəziyyət yaranıb. Hamımız anlayırıq və etiraf edirik ki, indi qarşımızda yeni reallıqdır. Hesab edirəm ki, Sizinlə söhbət aparmağımın əsas səbəbi Sizin mövqeyinizi daha yaxşı anlamaq idi. Siz həmin mövqeyi açıqladınız və bir azdan biz hadisələrin sonra necə cərəyan edəcəyi ilə bağlı təfərrüatları müzakirə edəcəyik. Hazırda cari vəziyyət fərqlidir. Bilmək istərdim, Siz gələcəyi, ümumiyyətlə, necə görürsünüz? Xüsusən də Madrid prinsiplərində deyilir ki, xətlər və kommunikasiyalar açılsın, münasibətlər yenidən qurulsun, regionda bütün xalqlar üçün müsbət mühit yaradılsın. Əgər, bunlar sizin mövqeyinizin bir hissəsidirsə, onda, fikrimcə, buna nail olunmasında bizim və ölkələrimizin oynayacağı rol ola bilər. Biz bunu Sizdən eşitmək istərdik, gələcəkdə hansı addımları atmaq istəyirsiniz? Bildiyiniz kimi, bundan sonra, biz İrəvana gedəcəyik və digər tərəflə də eyni söhbət aparacağıq. Bizim daha təfərrüatlı müzakirələrimiz olacaq. Sağ olun.

Rusiyanın Azərbaycandakı səfiri Mixail Boçarnikov dedi:

-İcazənizlə, cənab Prezident. Minsk qrupu həmsədrlərinin Sizinlə görüşmək fürsətinə görə çox minnətdaram. Bildiyimiz kimi, Rusiya əldə edilmiş üçtərəfli razılaşmanın iştirakçısıdır, həmin Bəyanatın müddəalarının icrasına xüsusi önəm verir. Fikrimcə, bu sənədin tam icrası üçün hələ də görüləcək işlər var. Onlar Siz söylədiyiniz kimi, cənab Prezident, insanların, yəni məcburi köçkünlərin öz yerlərinə qayıtmasına, bölgənin dinc yolla yenidən qurulmasına aiddir. Əlbəttə ki, o, Sizin də təsvir etdiyiniz kimi, bölgənin sülh şəraitində dinc yolla və uğurlu şəkildə inkişafına aiddir. Minsk qrupuna gəldikdə, hökumətimiz hər zaman bu qrupun vacibliyini qeyd edib. Bu səbəbdən, biz iştirak etmişik və bu gün də qrupda iştirak edirik. Hesab edirəm ki, qrupun birgə mövqeyi bu yaxınlarda Minsk qrupu həmsədr ölkələrinin nümayəndə heyətlərinin rəhbərləri tərəfindən 3 dekabr tarixli bəyanatında ifadə olunmuşdur. Bu sənəddə ümumi münasibət bildirilir və biz istənilən sahədə, eləcə də, cənab Prezident, bu gün söylədiyiniz kimi, yenidənqurma işlərinin icrasında bacara biləcəyimiz yardımdan çox məmnun olardıq. Sağ olun.

## *İtaliya Deputatlar Palatasının sədr müavininin başçılıq etdiyi nümayəndə heyətinin qəbulu*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 7-də İtaliya Deputatlar Palatasının sədr müavini Ettore Rosatonun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

Qonaqları salamlayan Prezident İlham Əliyev dedi:

-Xoş gəlmisiniz. Mən sizi ürəkdən salamlayıram. Şadam ki, siz Azərbaycana səfər edirsiniz. Müharibədən sonra Azərbaycana səfər edən ilk Avropa nümayəndə heyətisiniz. Yəqin ki, bu, təsadüfi deyil, çünki İtaliya ilə Azərbaycan arasındakı əlaqələr çox sürətlə inkişaf edir və bu gün ən yüksək səviyyədədir. Hesab edirəm ki, siyasi əlaqələr ən yüksək səviyyədədir. Mənim bu ilin əvvəlində İtaliyaya etdiyim dövlət səfəri bunun bariz nümunəsidir. Səfər zamanı bir çox önəmli sənədlər imzalanmışdır. Onların arasında Çoxölçülü Strateji Tərəfdaşlıq haqqında sənəd xüsusi yer tutur. Bu sənəd bizim strateji tərəfdaşlığımızı bir daha təsdiqlədi. Səfər zamanı həm Prezident, həm Baş nazirlə görüşlərim əsnasında bir çox önəmli məsələlər müzakirə olundu. Eyni zamanda, Senatın və Nümayəndələr Palatasının rəhbərləri ilə mənim görüşlərim də çox gözəl keçdi.

Bildiyiniz kimi, iki il bundan əvvəl İtaliya Prezidenti cənab Mattarella Azərbaycanda rəsmi səfərdə idi. Bu səfərlər ikitərəfli əlaqələrimizin çox möhkəm

zəmində olmasını göstərir. Bu gün İtaliya-Azərbaycan əlaqələri həm siyasi, həm iqtisadi, həm bütün başqa sahələrdə çox uğurla inkişaf edir. Siz də bilirsiniz ki, İtaliya Azərbaycanın birinci ticarət tərəfdaşıdır. Keçən il ticarət dövriyyəmiz 6 milyard dollara çatmışdır. Bunun böyük hissəsi enerji resurslarına aiddir. Amma mən hesab edirəm ki, gələcək illərdə qeyri-neft sektoru da bizim aramızda xüsusi çəkiyə malik olacaq. Energetika sektoruna gəldikdə, bildiyiniz kimi, yaxın gələcəkdə TAP layihəsi istismara veriləcək və şübhəsiz ki, bu, İtaliya-Azərbaycan əlaqələrini daha da möhkəmləndirəcək.

Bizim humanitar sahə ilə bağlı da böyük planlarımız var və artıq bir çox reallaşan layihələrimiz var. İtaliyaya dövlət səfərim çərçivəsində, eyni zamanda, təhsil sahəsində əməkdaşlıq müzakirə olundu. İtaliya-Azərbaycan Universitetinin yaradılması ilə bağlı razılığa gəlmişik. Bakıya qayıdandan sonra mənim tərəfimdən bu məsələ ilə bağlı müvafiq göstərişlər verilmişdir. Hesab edirəm ki, yaxın gələcəkdə universitet üçün bina da inşa ediləcək. Mən bu məsələni diqqətimdə saxlayıram və mənə müntəzəm olaraq bu məsələ ilə bağlı məlumatlar verilir. Onu da bildirməliyəm ki, mənə verilən məlumat əsasında orada bir neçə fakültə fəaliyyət göstərəcək. O siyahıya baxanda gördüm ki, orada memarlıq fakültəsi yoxdur və təklif etdim ki, bu da əlavə olunsun. Çünki İtaliya memarlığı ümumbəşəri dəyərdir və ölkəmizdə geniş vüsət almış tikinti sektorunun əlbəttə ki, müasir görkəmi olmalıdır. Əlbəttə, İtaliya-Azərbaycan Universitetində təhsil alacaq gənclər iki ölkə arasındakı əlaqələrə xüsusi töhfə verəcəklər.

Mən, eyni zamanda, sizə təşəkkürümü bildirmək istəyirəm ki, siz həm Gəncəyə, həm Ağdama səfər etmisiniz, Ermənistan dövlətinin törətdiyi hərbi cinayətləri görmüsünüz. Ermənistan tərəfindən törədilmiş hərbi cinayətlər göz qabağındadır. Döyüş meydanında məğlubiyyətə uğrayarkən Ermənistan mülki vətəndaşları atəşə tutub. Gəncəni Ermənistan ərazisindən ballistik raketlərlə atəşə tutmuşdur. Bu, hərbi cinayətdir və bu cinayətə görə Ermənistan rəhbərliyi cavab verəcək. Müharibə zamanı 94 mülki şəxs həlak olmuşdur, 400-dən çox yaralanmışdır. Ballistik raketlərlə bu zərbə təsadüfi xarakter daşımırdı, məqsədyönlü şəkildə məhz mülki vətəndaşların yaşadığı məkana gecə vaxtı istiqamətləndirilmişdir ki, daha çox qurbanlar olsun. Ağdam şəhərini də gördünüz. Daha doğrusu, artıq şəhərdən bir şey qalmayıb, orada bütün binalar dağıdılıb. Bu, Ermənistan faşizminin eybəcər sifətini göstərən cinayətdir. Onlar hesab edirdilər ki, azərbaycanlılar bu torpaqlara heç vaxt qayıtmayacaqlar. Amma biz qayıtmışıq, döyüşə-döyüşə onları torpaqlarımızdan qovduq. Onlar bizim qabağımızda diz çökdülər.

İndi ölkəmizin yeni dövrü başlayır, biz bütün o bölgələri yenidən quracağıq. Artıq ilkin addımlar atılır, ilkin infrastruktur layihələrinə start verilib. Amma demək olar ki, Ağdamda gördüyünüz mənzərə azad edilmiş bütün torpaqlarda müşahidə olunur. Füzuli şəhərində də bir dənə salamat bina qalmayıb, Cəbrayıl şəhərində də. Zəngilan, Qubadlı eyni vəziyyətdədir. Kəlbəcər və Laçın rayonlarında Ermənistan dövləti qanunsuz məskunlaşma siyasəti aparmışdır. Bu da hərbi cinayət sayılır, Cenevrə Konvensiyalarına zidd olan bir addımdır. Ona görə bu rayonlarda bəzi yaşayış məntəqələrində bəzi evlər qalıb. Orada ermənilər yaşayırdılar. Ancaq noyabrın 10-dan dekabrın 1-nə qədər - o vaxt çərçivəsində onlar bu bölgələri tərk etməli idilər - onlar orada da vəhşilik törətdilər, evləri yandırdılar, sökdülər. Halbuki o evləri onlar yox, o vaxta qədər - 30 il bundan əvvəl orada yaşamış azərbaycanlılar tikmişdilər. Meşələri yandırdılar, ağacları kəsdilər, yəni, dünyanın gözü qarşısında vəhşilik törətdilər. Beynəlxalq media qurumları da bu barədə reportajlar hazırlayıb mətbuata vermişlər. Bütün dünya indi gördü ki, Azərbaycan hansı vandallarla üz-üzə qalmışdır və bu vandallara qarşı təkbaşına müharibə apararaq öz ərazi bütövlüyünü bərpa etmişdir.

İndi bərpa dövrü başlayır, genişmiqyaslı quruculuq işləri aparılacaq. Əlbəttə ki, Azərbaycan şirkətləri, ilk növbədə, bu işlərdə iştirak edəcək və bizim üçün dost olan ölkələrin şirkətlərini də biz dəvət edəcəyik, daha doğrusu, artıq dəvət etmişik. Mən çox istərdim ki, İtaliya şirkətləri bu işlərdə, yəni, bərpa, yenidənqurma işlərində fəal iştirak etsinlər. İtaliya tərəfinə artıq bu təkliflər verildi. Yaxın günlərdə videokonfrans vasitəsilə ilkin təmaslar olacaq. Əlbəttə, bir daha demək istəyirəm ki, dost ölkələrin şirkətləri bu işlərdə iştirak edəcəklər. Əsl dostluq isə özünü çətin anlarda büruzə verir. Bizim üçün də bu müharibə, eyni zamanda, onu göstərdi ki, Azərbaycanın əsl dostları kimlərdir, hansı ölkələrdir. Biz dostluğu qiymətləndirən xalqıq. Sizin Azərbaycana səfəriniz bir daha onu göstərir ki, İtaliya doğrudan da Azərbaycanın əsl dostudur. Bir daha xoş gəlmisiniz.

İtaliya Deputatlar Palatasının sədr müavini Ettore Rosato dedi:

- Cənab Prezident, bizi qəbul etdiyinizə görə sağ olun. Sizin ölkəniz üçün olduqca xüsusi əhəmiyyət kəsb edən belə bir dövrdə burada olmaqdan məmnunluq hissi duyuruq. Buna görə də Sizə olan dostluq hisslərimizi ifadə etmək üçün əslində, bu səfərə çoxdan hazırlaşırdıq. Dedik ki, belə bir əhəmiyyətli dövrdə biz mütləq Sizin ölkənizə gəlməliyik. Zati-aliləri, Sizin də söylədiyiniz kimi, bizim aramızdakı dostluq, onun əlamətləri son illərdə xüsusi olaraq öz təzahürünü tapıb. Əslində, ölkələrimiz arasındakı səfərlərə gəldikdə, bu səfərlər çox yüksək səviyyədə təşkil olunmuşdur. İtaliya Respublikası Prezidentinin Sizin ölkənizə rəsmi səfəri münasibətlərimizin inkişafında çox mühüm bir addıma çevrildi. Sizin də Romaya etdiyiniz dövlət səfəri də bizim tərəfimizdən strateji əhəmiyyət kəsb edən bir hadisə kimi qəbul olunur. Biz də Sizə dost olaraq bilirik ki, səfər

çərçivəsində bir çox razılaşmalar və xüsusən də, strateji tərəfdaşlıq haqqında mühüm sənəd imzalanıb. Əslində, bunlar elə sazişlərdir ki, onlarda çox konkret öhdəliklər və olduqca vacib mahiyyət əks olunubdur.

Azərbaycan İtaliya üçün enerji daşıyıcılarının ilk ixracatçısıdır. Belə bir keşməkeşli vaxtlarda enerji təhlükəsizliyini etimad göstərib o ölkəyə həvalə edə bilirik ki, o ölkə ilə həqiqətən dostluq münasibətləri olsun. Biz bu dostluğu daha da gücləndirmək istəyirik və münasibətlərimizi daha da şaxələndirmək fikrindəyik.

İtaliya parlamentinin Deputatlar Palatasının sədr müavini Ettore Rosato Azərbaycanın münaqişədə həyatını itirən mülki şəxslərinə görə başsağlığı verdi, Gəncə və Ağdama səfərlərinə toxundu. O qeyd etdi ki, 30 illik işğal dövründə Ağdamda törədilmiş viranəliyin şahidi olublar. "Hətta inanmaq belə çətin idi ki, burada nə zamansa insanlar yaşayıb", - deyə vurğuladı.

Ettore Rosato Prezident İlham Əliyevə İtaliya Deputatlar Palatası və İtaliya Senatı sədrlərinin salamlarını çatdırdı.

Sonda xatirə şəkli çəkdirildi.

## *İtaliya Respublikasının Xarici İşlər və Beynəlxalq Əməkdaşlıq Nazirliyinin dövlət katibi, Azərbaycan Respublikası və İtaliya Respublikası arasında İqtisadi Əməkdaşlıq üzrə birgə Hökumətlərarası Komissiyanın həmsədrinin rəhbərlik etdiyi nümayəndə heyətinin qəbulu*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 9-da İtaliya Respublikasının Xarici İşlər və Beynəlxalq Əməkdaşlıq Nazirliyinin dövlət katibi, Azərbaycan Respublikası və İtaliya Respublikası arasında İqtisadi Əməkdaşlıq üzrə birgə Hökumətlərarası Komissiyanın həmsədri Manlio Di Stefanonun rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.

Qonaqları salamlayan Prezident İlham Əliyev dedi:

-Sizin ölkənizə çox uğurlu səfərim xatirimdədir. Qonaqpərvərliyinizə görə bir daha təşəkkür edirəm. Səfər məndə olduqca müsbət təəssürat yaratmışdır. Səfər zamanı imzalanmış sənədlər, əlbəttə ki, bizim tərəfdaşlığımızı gücləndirəcəkdir. Mən ölkələrimiz arasında strateji tərəfdaşlığın yeni formatı ilə bağlı imzalanmış sənədi xüsusilə qeyd etmək istəyirəm.

Ölkənizin Prezidenti, Baş naziri, parlamentin hər iki palatasının sədrləri və Romanın meri ilə keçirdiyim görüşlər çox müsbət olmuşdur.

Manlio Di Stefano: Bir neçə gün öncə Siz İtaliyadan olan nümayəndə heyətini qəbul etmisiniz.

Prezident İlham Əliyev: Bəli, mən İtaliya parlamentinin sədr müavininin başçılığı ilə müxtəlif siyasi qrupları təmsil edən nümayəndə heyətini qəbul etmişəm. Onlar Ağdamda və Gəncədə olmuşlar. Birinin işğal nəticəsində viran qoyulduğu, digərinin isə müharibə vaxtı ballistik raket hücumu nəticəsində çoxsaylı qurban verdiyi bu iki şəhərə səfər etməklə bağlı onların qərarı məni təsirləndirdi.

Bizim münasibətlərimizə gəldikdə, hesab edirəm ki, bunun gözəl gələcəyi var. Bu günədək biz siyasi, iqtisadi və enerji təhlükəsizliyi sahələrində böyük uğura nail olmuşuq. Biz Cənub Qaz Dəhlizinin sonuncu hissəsini tezliklə başa çatdıracağıq. Bununla da Azərbaycan və İtaliya gələcək onilliklər ərzində enerji sahəsində çox yaxın tərəfdaş olacaqdır.

Bu, müxtəlif ölkələrdən ibarət geniş bir qrupun birgə səyləri nəticəsində ərsəyə gələn çox əhəmiyyətli nailiyyətdir. Bildiyiniz kimi, biz hər il Bakıda Cənub Qaz Dəhlizi Məşvərət Şurasının toplantısını təşkil edirik və İtaliya hər zaman burada yüksək səviyyədə təmsil olunur. Həmin toplantıların sayəsində biz 3500 kilometr uzunluğunda boru kəmərini inşa etməyə müvəffəq olduq. Kəmərin başlanğıcı Bakıda, sonu isə İtaliyadadır.

Əlbəttə, biz əməkdaşlığımızı dərinləşdirmək arzusundayıq. Bilirəm ki, sizin səfərinizin gündəliyi olduqca genişdir. Biz ölkələrimiz arasında gözəl siyasi münasibətlərimizdən faydalanaraq iqtisadi əməkdaşlıq və daha çox İtaliya şirkətinin Azərbaycanda fəaliyyətə cəlb edilməsi məsələlərini nəzərdən keçirmək niyyətindəyik. Buraya ənənəvi əməkdaşlıq sahələri ilə yanaşı, Azərbaycanın dağıdılmış şəhərlərinin bərpasına dair böyük planlarımız da daxildir. Çünki bizim yeni infrastrukturun yaradılmasına - yeni yolların, dəmir yolu xətlərinin, hava limanlarının, məktəb və xəstəxanaların inşasına ehtiyacımız var.

Bunun səbəbi ermənilər tərəfindən hər şeyin dağıdılması, yerlə-yeksan edilməsidir. Buna dair kifayət qədər videomaterial var. Onlar vəhşi kimi davranmış və şəhərlərimizi darmadağın etmişlər. Bu da Azərbaycana qarşı olan təcavüzkar siyasətin bariz nümunəsidir.

Biz yenidənqurma işləri ilə bağlı ilk addımlar atmışıq. İlk müqavilələr artıq bağlanıb və dediyim kimi, biz işğaldan azad olunan ərazilərdə dost ölkələrdən olan şirkətlərlə çalışacağıq.

İlk müqavilələr türk şirkətləri ilə bağlanılıb və bu da təbiidir, çünki Türkiyə qardaş ölkədir. Ümidvaram ki, növbəti müqavilələr italyan şirkətləri ilə imzalanacaq. Bu da təbiidir. Çünki İtaliya Azərbaycanın yaxın dostudur. Ölkələrimiz arasında çoxillik diplomatik münasibətlərin mövcudluğu dövründə və xüsusilə də müharibə zamanı biz sizin mövqeyinizin şahidi olduq. Ölkənizin parlament nümayəndələrinin müharibənin başa çatmasından bir aydan az vaxt keçməmiş Azərbaycana səfəri bizim güclü dostluq münasibətlərimizi nümayiş etdirir. Biz bu həmrəylik və dəstək jestini yüksək qiymətləndiririk.

Bir neçə gün əvvəl görüşdüyüm nümayəndə heyəti Avropa İttifaqı məkanından olan və müharibədən sonra ölkəmizə gələn ilk qonaqlar idi. Əminəm ki, bu dostluq jestinin praktiki təzahürü olacaq, çünki bu gün biz təkcə enerji sektoru deyil, həmçinin qeyri-enerji sektoru haqqında danışırıq. Azad edilmiş torpaqlarda böyük potensial kənd təsərrüfatı, turizm, bərpa olunan enerji mənbələri ilə bağlıdır. Artıq söylədiyim kimi, böyük infrastruktur layihələri də olacaq. İndi biz həmin ərazilərin bərpa və yenidənqurma planlarını hazırlayırıq. Əminəm ki, biz çox uğurla işləyəcəyik.

Həmçinin bildirmək istərdim ki, İtaliya parlamentarilərinin səfəri Azərbaycan cəmiyyətində çox yüksək dəyərləndirildi. Çünki təsəvvür edin, insanlar bütün dəstək əlamətlərini çox böyük diqqətlə izləyirlər, ona həssaslıqla yanaşırlar. Bir sözlə, bütün cəmiyyət həmin səfəri dəstəyin təzahürü kimi qəbul etdi. Həmçinin insanlar qeyd edir və mən onların rəyi ilə razıyam ki, qonşularınızdan bəziləri parlamentdə Dağlıq Qarabağın tanınması ilə bağlı müəmmalı qətnamələr qəbul edirlər. İtaliyanın millət vəkilləri Azərbaycana hörmət və ehtiramını ifadə etmək, Azərbaycan xalqının əziyyətlərini bölüşdüyünü bildirmək üçün Ağdama getdilər, Gəncəyə səfər etdilər.

Dağlıq Qarabağın tanınmasına gəldikdə isə, hamı bilir ki, hətta Ermənistan həmin qanunsuz strukturu tanımayıb. Buna görə, əgər hansısa ölkə Dağlıq Qarabağı tanımaq istəyirsə, onlar öz ölkəsinin daxilində müəyyən addımlar atsınlar. Onlar öz ölkəsində müəyyən ərazini ayıra bilər və Azərbaycanda yox, öz ölkəsində ikinci erməni dövlətini yarada bilər.

Bir sözlə, bu, bir daha göstərir ki, ölkələrimiz arasında dostluq və xalqlarımız arasında qarşılıqlı müsbət yanaşma artıq reallığa çevrilib. Biz, həmçinin sizin səfərinizi bunun yaxşı əlaməti kimi dəyərləndiririk. Əminəm ki, səfərinizin çox müsbət nəticəsi olacaq və biz bütün sahələrdə güclü əməkdaşlıq məqsədilə növbəti 5–10 il üçün gündəliyimizi lazımi şəkildə tərtib edəcəyik. Bir daha, Azərbaycana xoş gəlmisiniz.

Manlio Di Stefano: Sağ olun, cənab Prezident. Əvvəlcə, icazə verin bildirim ki, bu gün burada olmağımdan şərəf hissi duyuram. Səfərim cəmi 24 saatlıq olsa da, onu tam şəkildə təşkil etdiyinə görə sizin Hökumətə minnətdarlığımı bildirirəm. Dünən mən artıq xarici işlər naziri ilə görüşdüm. Məmnun qaldım və biz bir çox sahələrə aid olan məsələlər ətrafında fikir mübadiləsi apardıq. Bu gün mənim digər nazirlərlə görüşmək imkanım olacaq. Bu, aramızda olan əməkdaşlığın real təzahürüdür. İcazə verin, əvvəlcə Sizə və xalqınıza müharibə qurbanları ilə əlaqədar başsağlığımızı verim. Bu, həqiqətən şiddətli müharibə idi və biz İtaliyada bunu böyük narahatlıqla izlədik. Hətta təsəvvür etmək çətindir ki, bu müharibə İtaliyada nə dərəcədə hiss olunurdu, çünki dünyanın bu bölgəsini istənilən mənada özümüzə çox yaxın hesab edirik.

Biz çox çalışdıq ki, hadisələrə hər hansı siyasi rəng qatmayaq. Biz, sadəcə, ölkəmizə nəyin baş verdiyi ilə əlaqədar həqiqəti söyləməyə çalışdıq. Məmnunam, Siz də siyasi mövqeyimizi müsbət dəyərləndirdiniz və o, BMT-nin qətnamələrinə, bir sözlə, sənədlərdə yazılanlara əsaslanır. Təbii ki, atəşkəsin imzalanması bizim hamımıza rahatlıq gətirdi. Hesab edirik ki, bu, birinci və ən vacib məsələ idi. Çünki bilirsiniz, qurbanların sayının artmaması hər kəs tərəfindən hər zaman müsbət qarşılanır. Hazırda biz üçtərəfli Bəyanatdakı müddəaların icrasına yardım etməkdə öz imkanlarımızı təmin etməyə hazır olduğumuzu bildiririk. Hesab edirik ki, bu, bundan sonra görəcəyimiz bütün işlər üçün yaxşı başlanğıc nöqtədir.

## *ATƏT-in Minsk qrupunun Fransadan olan həmsədri Stefan Viskontini, ABŞ-dan olan həmsədri Endrü Şoferi, Rusiyanın Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Mixail Boçarnikovu və ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi Anji Kaspşikin qəbulu*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 12-də ATƏT-in Minsk qrupunun Fransadan olan həmsədri Stefan Viskontini, ABŞ-dan olan həmsədri Endrü Şoferi, Rusiyanın Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Mixail Boçarnikovu və ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi Anji Kaspşiki qəbul edib.

Görüşdə çıxış edən Prezident İlham Əliyev dedi:

-Son görüşümüzdən uzun müddət keçib, bu, ötən il olmuşdur. Bu vaxt ərzində bir çox hadisələr baş vermişdir. Birincisi, pandemiya bütün dünyada vəziyyəti tamamilə dəyişmişdir. Bununla yanaşı, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli regionda vəziyyəti dəyişdirmişdir. Hazırda regionda tamamilə yeni vəziyyət mövcuddur. Azərbaycan 30 ilə yaxın davam edən münaqişəni həll etdi, buna güc yolu və siyasi vasitələrlə nail oldu. Mən həmsədr dövlətlərin başçılarından olan Prezident Putinin dedikləri ilə razılaşıram ki, Dağlıq Qarabağ münaqişəsi artıq tarixə qovuşub. Mən də həmin fikirdəyəm. Təəssüflər olsun ki, Minsk qrupu münaqişənin həllində heç bir rol oynamayıb. Halbuki bunu etmək üçün Minsk qrupu 28 il ərzində müvafiq mandata sahib idi. Mən son 17 il ərzində danışıqlarda iştirak etmişdim. Lakin müharibə

zamanı dediyim kimi, Minsk qrupunun ideyalarla çıxış etmək və yaradıcı olmaq istiqamətində müəyyən fəaliyyəti olsa da, bunlar heç bir nəticə verməmişdir. Reallıq bundan ibarətdir.

Beləliklə, Azərbaycan bu məsələni özü həll etmişdir. Biz Ermənistanı döyüş meydanında məğlub edərək, işğalçını məğlubiyyətini etiraf etməyə və Ermənistanın kapitulyasiyası hesab etdiyimiz Bəyanatı imzalamağa məcbur etdik. Ermənistan iqtidarından başqa ölkənin bütün siyasi qüvvələri də bununla razıdır ki, bu, kapitulyasiyadır və onlar bunu alçaldıcı kapitulyasiya adlandırırlar. Bunun tam məsuliyyəti Paşinyanın diktatura rejiminin üzərinə düşür.

Artıq qeyd etdiyim kimi, mən Prezident olaraq bu danışıqlarda 17 il ərzində iştirak etmişdim. Mənim Ermənistanın əvvəlki prezidentləri ilə də danışıqlar aparmaq təcrübəm olmuşdur. Burada hər hansı bir nəticə əldə olunmasa da, proses baş verirdi. Paşinyan prosesi məhv etmişdir. O, danışıqlar prosesinin formatını alt-üst etməyə cəhd etmişdir və onun təxribatçı hərəkətləri və bəyanatları danışıqları tamamilə mənasız etmişdir. Mən dəfələrlə onun hərəkətlərinə və söylədiklərinə istinad etmişəm. Bu, tamamilə qəbuledilməz idi. Onun Azərbaycan dövlətinə və xalqına qarşı təxribatçı və təhqiredici əməllərinə, bəyanatlarına cavab verilməli idi və biz onu ciddi şəkildə cəzalandırdıq. Beləliklə, o, öz məğlubiyyətini etiraf etməyə, atəşkəs üçün yalvarmağa məcbur oldu. Əslində o, bunu 44 günlük müharibə əsnasında hər gün edirdi və gündə bir neçə dəfə dünya liderlərinə zəng edirdi. Onun zəng etmədiyi avropalı lider tapmaq çətin olar. O, atəşkəsin təmin edilməsini xahiş edirdi. Lakin o, mənim şərtlərimə əməl etmək istəmirdi. Halbuki mənim yeganə şərtim var idi. O, isə bir neçə ay öncə mənə 7 şərt irəli sürmüşdü. Mən onları rədd etdim və dedim ki, mənim yeganə şərtim var – torpaqlarımızdan çıx! Əks təqdirdə, Azərbaycanın dəmir yumruğunu görəcəksən. Müharibə zamanı mən bir neçə dəfə bunu bəyan etmişdim. Onun hansısa naziri deyil, şəxsən Paşinyan bizə torpaqlarımızdan çıxmaqla bağlı tarix verən kimi biz dayanacağıq. Nəticədə bu, baş verdi və mən hər zaman olduğu kimi, verdiyim sözə əməl etdim. Paşinyan isə nə mənim, nə də öz xalqının qarşısında heç vaxt vədlərinə sadiq olmadı. O, yalançıdır və hesab edirəm ki, erməni xalqı artıq bunu anlayıb. O, indi də yalan danışmağa davam edir. Ancaq bunun artıq Azərbaycanla heç bir əlaqəsi yoxdur. Bu, artıq Ermənistanın daxili siyasətinə aiddir. Noyabrın 9-dan 10-na keçən gecə o, Bəyanatı imzaladığı andan biz dərhal dayandıq. Növbəti saatda biz dayandıq. Biz, həmçinin qoşunların çıxarılmasına da vaxt verdik. Bundan əlavə, Rusiya Prezidentinin müraciəti əsasında biz onlara Kəlbəcərin boşaldılması üçün əlavə 10 gün vaxt verdik. Halbuki erməni quldurları və Ermənistan qoşunları Kəlbəcərdə etnik təmizləmə apararkən azərbaycanlılara heç bir gün də vaxt verməmiş və onları qətlə yetirmişdilər. Azərbaycanlılar oradan qovulmuş, aprel ayının əvvəli, havanın çox soyuq olduğu vaxtda 3500 metr yüksəklikdə olan dağlardan keçməyə məcbur edilmişlər. Onların bir çoxu oradaca donmuşdu. Biz isə onlara əlavə vaxt verdikdə onlar nə etdilər? Onlar özlərinin tikmədiyi evləri yandırmağa başladılar. Onlar hər şeyi dağıtmağa başladılar. Mənə bir neçə gün öncə verilən məlumata görə, onlar orada bütün su elektrik stansiyalarını dağıtmışlar. Onlar bizim meşələri yandırmış və ağaclarımızı kəsmişlər. Özlərini vəhşi kimi aparmışlar – bu cür davrananlara başqa ad vermək olmaz. Ancaq biz sözümüzü tutduq. Biz müharibəni dayandırdıq. Hər kəsə bəllidir ki, bunu etməsəydik nə baş verəcəkdi. Ermənistan ordusu darmadağın edilmiş, ruhdan düşmüşdü və artıq nə isə etmək üçün heç bir imkana malik deyildi. Biz isə döyüş meydanında cəsarət, ruh yüksəkliyi və peşəkarlıq nümayiş etdirərək ermənilərin onilliklər ərzində ordularının məğlubedilməzliyi haqqında yaratdıqları mifi darmadağın etdik. Biz Azərbaycan Ordusunun məğlubedilməz olduğunu nümayiş etdirdik. Biz işğal edilmiş ərazilərin böyük hissəsini, 300-dən artıq şəhər, qəsəbə və kəndi, o cümlədən Azərbaycanın tarixi Şuşa şəhərini 44 gün ərzində işğaldan azad etdik. Biz kimin kim olduğunu göstərdik. Mən işğaldan azad olunan ərazilərə səfərim zamanı o torpaqlarımızı nə vəziyyətə saldıqlarının şahidi oldum. Bu haqda məlumatım var idi və internetdə bununla bağlı materiallarla da tanış idim. Füzulidə bir dənə də olsun salamat bina yox idi, hər şey yerlə-yeksan edilmişdir. Bir dənə də bina tapılmadı ki, orada bayrağımızı qaldıraq. Ağdamda isə tamamilə dağıdılmamış yeganə tikili məscidin binasıdır. Araşdırdıqda məlum oldu ki, onlar Ağdamda məscid binasını məsafə ölçmək üçün saxlayıblarmış. Azərbaycan Ordusu hücuma keçdiyi təqdirdə onlar bu vasitə ilə məsafəni ölçməli idilər, yəni, məscid istinad nöqtəsi kimi istifadə edilirdi. Lakin biz Ağdamdan əks-hücuma keçmədik və onların gözləmədikləri istiqamətdən irəlilədik. Biz Ağdama bir güllə atmadan gəldik. Bunları danışmağıma səbəb bunun, ilk növbədə, həqiqət olmasıdır. Bundan əlavə, siz bir ildən artıq müddətdən sonra buraya səfərə gəlmisiniz. Mən Azərbaycan xalqı ilə açıq və səmimi olduğum kimi, sizinlə də eyni dərəcədə açıq və səmimi danışmaq istəyirəm. Bütün bu 44 gün ərzində mən xalqa yalnız həqiqəti söyləyirdim. Paşinyan isə həm xalqına, həm də gündə bir neçə dəfə zəng etdiyi tərəfdaşlarına yalan danışırdı. O, bu gün də yalan danışmağa davam edir. Ancaq dediyim kimi, artıq bu məsələ narahatlıq doğurmur. Biz məsələni həll etdik. Biz ərazimizi işğaldan azad etdik. Müharibə zamanı mənə Azərbaycan Ordusunun itkiləri barədə çoxsaylı suallar verilirdi. Mən demişdim ki, biz bu məlumatı müharibə bitdikdə açıqlayacağıq. Belə də oldu, bizim qəhrəmanlarımızın – şəhidlərimizin fotoşəkilləri və

onların adları televiziya vasitəsilə nümayiş etdirilir. Müharibə zamanı mən Ermənistan ərazisini işğal etmək niyyətində olmadığımızı bəyan etmişdim. Halbuki sizin də təsəvvür etdiyiniz kimi, bunun üçün bütün imkanlarımız var idi və həmin imkanlar bu gün də mövcuddur. Lakin bizim belə bir niyyətimiz yoxdur. Mənə bununla bağlı sual veriləndə dedim, xeyr, biz öz ərazimizi işğaldan azad etmək istəyirik və öz torpağımızda döyüşəcəyik. Biz sözümüzə sadiq olduq.

Eyni zamanda, bildirmişdim ki, bizim üçün Naxçıvanla quru əlaqəsinin yaradılması həyati əhəmiyyət kəsb edir. Biz buna siyasi yollarla nail olduq və Paşinyan bunu Bəyanat vasitəsilə imzaladı. Bununla da Naxçıvanın Azərbaycanın digər hissəsi ilə əlaqəsi təmin ediləcək. Bunun özü də Azərbaycan üçün vacib tarixi nailiyyətdir. Eyni zamanda, bu, regionun gələcəkdəki fəaliyyəti ilə bağlı müzakirələr üçün yeni imkanlar yaradır.

Müharibə zamanı beynəlxalq mediaya verdiyim çoxsaylı müsahibələrimdə mən bildirmişdim ki, bizim erməni xalqı ilə problemimiz yoxdur. Bizim davamız işğalçılarladır, ərazimizi işğal edən cinayətkarlarladır. Ermənilər isə hazırda ölkəmizin müxtəlif bölgələrində yaşadığı kimi, təhlükəsizlik və ləyaqət şəraitində yaşaya bilərlər. Onların güzəranları da bizim idarəçiliyimiz altında yaxşı olacaq. Biz müharibədən sonra ermənilərin əvvəl yaşadıqları kəndlərin vəziyyətini görürük. Orada səfalət hökm sürüb. İnsanlar oralarda inanılmaz şəraitdə yaşayıblar. Bəs bu işğalın məqsədi nə idi? Nə üçün ermənilər öz xalqının nümayəndələrini uzun illər ərzində orada qul kimi saxlayırdılar? Bilmirəm, görmüsünüz yoxsa yox, müharibənin ilk günlərində Azərbaycan Ordusu Ermənistan ordusunun səngərlərinə daxil olanda, orada məhv edilmiş işğalçıların bəzilərinin bir-birinə zəncirləndiyinin şahidi oldu. Bu, şokedici videolar idi. Yəni, onlar insanları səngərdə durmağa məcbur edirdilər. Qaçmaq, mövqelərini tərk etmək istəyənlərin qarşısı belə alınırdı. Müharibə zamanı onların xüsusi qrupları var idi ki, onlar Ermənistan qoşunlarının arxasında dayanaraq qaçmağa cəhd edən öz millətinin nümayəndələrini qətlə yetirirdilər. Belə hadisələr çox baş vermişdir. Onlar müharibə canilərididirlər. Gəncəni ballistik raketlə atəşə tutmaları, Bərdə və Tərtər şəhərlərinin kasetli və fosforlu sursatla atəşə məruz qalması, işğal edilmiş ərazilərdə qanunsuz məskunlaşdırma – bunların hamısı hərbi cinayətlərdir və onlar bununla fəxr edirdilər. Sarkisyan və Köçəryan hərbi cinayətkardırlar. Dağıdılmış Ağdam məscidi qarşısında çıxışımda dediyim kimi, biz Sarkisyan və Köçəryanı məğlub etdik. Onlar məsuliyyəti Paşinyanın üzərinə atmaq istəyirlər. Ancaq mən demişəm ki, Paşinyan heç kimdir. O, Sarkisyan və Köçəryan rejiminə qarşı etiraz dalğası üzərində hakimiyyətə gəlmiş təsadüfi insandır. Bu adamın heç bir bilik və təcrübəsi yoxdur. Onun beynəlxalq münasibətlər və ölkənin idarəçiliyi haqqında təsəvvürü yoxdur. Həyatında kiçik bir kolxoza belə rəhbərlik etməyən insandır. Yəni, təkcə onu günahlandırmaq olmaz. Düzdür, o, bizi təhrik etdi, qəbuledilməz hərəkətlər etdi və buna görə cəzalandırıldı. Lakin biz, Sarkisyan və Köçəryan ordusunu məğlub etdik. Bu ordunu 30 il ərzində yaradanlar onlar idi. Beləliklə, bu hərbi cinayətlər hazırda sənədləşdirilir. Biz artıq şəhərlərimizə qarşı törədilən əməllərlə bağlı hüquqi prosedurlara başlamışıq. Biz beynəlxalq tərəfdaşlarımızı dəvət etmişik ki, mülki əhalimiz, infrastrukturumuz, dini və mədəni abidələrimizə dəymiş ziyanın müvafiq təhlili aparılsın. Hər bir şey sənədləşdiriləcək və biz bu cür şəraitə uyğun olaraq zəruri addımlarımızı atacağıq. Qanunsuz məskunlaşdırma hərbi cinayətdir. Minsk qrupu işğal edilmiş ərazilərə rəsmi olaraq iki dəfə missiyalar təşkil etmişdir – birində bu, faktaraşdırıcı missiya adlandırılmış, digər vaxtda isə bunun adı vəziyyətin yerində qiymətləndirilməsi missiyası idi. Anji Kaspşik bunu yaxşı bilir. O, bu prosesin veteranlarından olub. O da oralarda olub.

Eyni zamanda, Minsk qrupunun həmsədrləri işğal olunmuş ərazilərə dəfələrlə səfər etmişlər və Ermənistan rejiminin hərbi cinayətlərinin şahidi olmuşlar. Şəhərlərimizin tam dağıdılmasının şahidi olmuşlar. Söhbət yalnız Ağdam və Füzulidən getmir, Cəbrayıl da eyni vəziyyətdədir. Kəlbəcər və Laçında onlar bəzi evlərdən yalnız məskunlaşmaq üçün istifadə edirdilər. Qubadlı ilə Zəngilanda onlar suriyalı erməniləri yerləşdirməyi planlaşdırırdılar və onlardan muzdlular kimi istifadə edirdilər. Əlimizdə ermənilərin istifadə etdiyi muzdlular barədə saysız-hesabsız faktlar var. Mən artıq dedim ki, oranın sakinləri əslində kimlərdir və bunu təkrar etmək istəmirəm. Lakin əlimizdə pasportlar var. Həbsxanalarımızda əcnəbilər var. Bir sözlə, bütün bunlar böyük sual doğurur. BMT-nin Təhlükəsizlik Şurasının qətnamələrinə, ATƏT-in qərarlarına, digər beynəlxalq təşkilatların qərarlarına baxmayaraq, bu qədər illər ərzində münaqişə niyə həll olunmurdu? BMT Təhlükəsizlik Şurasının üç daimi üzvü öz imkanlarından, potensialından istifadə edə bilmədi ki, ermənilər çıxmağa məcbur olsun. Hətta bəzi ərazilərdən çıxara bilmədi. Onlar bacarmadı, yoxsa istəmədi? Bu, açıq sual olaraq qalır. Lakin hazırda bu, artıq fərq etmir. Münaqişə həll olunub. Azərbaycan bunu hərbi-siyasi vasitələrlə etdi. Tez-tez sizdən və rəhbərlərinizdən, eləcə də yüksək rütbəli rəsmilərinizdən eşidirdim ki, münaqişənin hərbi həlli yoxdur. Mən isə deyirdim: Var! Tarix göstərdi ki, mən haqlı idim. Var idi! Fikrimcə, "hərbi variant yoxdur" deyənlərin indi özləri anlayır ki, var idi, çünki onlar, sadəcə, mövcud vəziyyəti olduğu kimi saxlamaq istəyirdilər.

Minsk qrupunun həmsədri olan ölkələrin prezidentlərinin bəyanatları olub. Məncə, bu, təxminən on il əvvəl baş verib. Biz həmin bəyanata dəstək verdik, çünki o,

müəyyən ümidlər yaratdı. Onlar birgə bəyannamə ilə çıxış etdilər və bildirdilər ki, status-kvo qəbuledilməzdir. Biz dedik: "Bəli. Yaxşı bəyanatdır. Gəlin onun üzərində işləyək". İndi isə bunu Ermənistana deyin. Mən sizə və sələflərinizə nə qədər deyirdim ki, gedin, deyin ermənilərə çıxsınlar. Onlara təzyiq göstərin. Mən ölkələrinizin yüksək rütbəli rəsmilərinə bunu dəfələrlə deyirdim: "Gedin, deyin onlara, təzyiq göstərin, hələ ki, gec deyil!" Lakin nə baş verdi? Müəyyən vaxt keçdi, ölkələrinizin liderləri bu sözləri dəyişməyə başladılar. Onlar artıq status-kvonun qəbuledilməzliyi barədə danışmadılar. Onlar dedilər ki, status-kvo dayanıqlı deyil. Bu, o deməkdir ki, status-kvo onlar üçün qəbul ediləndir. Bunu hansı başqa formada izah edə bilərik. Onlar Akvildə, Muskokada söylədilər ki, status-kvo qəbuledilməzdir. Sonra da onlar dedilər ki, status-kvo dayanıqlı deyil. Bu, o deməkdir ki, status-kvo artıq qəbul edilir. Bir çox siyasətçilər hesab edirdilər ki, sülhün qorunması üçün yeganə yol status-kvonun qalmasından keçir. Biz isə bunu dəyişdik. Biz göstərdik ki, status-kvo güc yolu ilə, şücaət, müdriklik, siyasət, səylərin səfərbər olunması, Azərbaycan xalqının həmrəyliyi, Azərbaycan hökumətinin iradəsi, Azərbaycan xalqının əzmkarlığı, Azərbaycan əsgərinin müzəffərliyi sayəsində dəyişdirilə bilər. Haqlı olduğumuzu göstərdik.

Sonradan isə əlbəttə, Ermənistan kapitulyasiya aktına imza atmağa məcbur edildi. Onlar bunu heç vaxt könüllü imzalamazdılar. Biz onları məcbur etdik, Minsk qrupu yox! Biz və Prezident Putin. Bu, reallıqdır. Prezident Putinin müdaxiləsi və səyləri olmasaydı, bu gün, ehtimal ki, vəziyyət başqa cür olardı.

Lakin biz planlaşdırdığımıza nail olduq. Biz işğal olunmuş bütün yeddi rayonumuzu qaytardıq. Biz qədim Azərbaycan şəhəri Şuşanı qaytardıq. Biz Hadrut qəsəbəsini qaytardıq. Xocavəndin bir hissəsini qaytardıq. Suqovuşanı və digərlərini qaytardıq. Əslində, planlaşdırdığımıza nail olduq.

Hazırda isə Rusiya sülhməramlıları oradadırlar, öz fəaliyyətinə başlayıblar. Vəziyyət müəyyən dərəcədə sabitdir. Baxmayaraq, indi mənə məlumat verilib ki, dünən ya erməni yaraqlıları, yaxud "Ermənistan ordusu" adlandırdıqları qalıqlar tərəfindən bəzi terror aktları törədilib. Bu, əlbəttə ki, narahatlıq doğurur. Mənə elə gəlir ki, Ermənistan yenidən başlamağa heç bir vəchlə cəhd etməməlidir. İki gün öncə şanlı Qələbəmizə həsr olunmuş hərbi paradda mən söylədim ki, əgər Ermənistan faşizmi yenidən baş qaldırarsa, biz onun başını dəmir yumruqla əzəcəyik. Buna görə onlar çox diqqətli olmalıdır ki, hər hansı hərbi əməlləri planlaşdırmasınlar. Bu dəfə biz onları tamamilə darmadağın edəcəyik. Bu, heç kəs üçün sirr qalmalı deyil. Lakin ümid edirəm ki, bu, baş verməyəcək. Bir sözlə, sülhməramlıların missiyası qüvvədədir. Bilirsiniz ki, sülhyaratma əməliyyatları müzakirə olunmuş razılaşmanın, Madrid prinsiplərinin bir hissəsidir. Lakin biz bunu heç zaman ciddi müzakirə etməmişik. Anji bir veteran kimi bunu bilir. Biz həmin mövzuya hətta heç vaxt toxunmamışıq.

Biz, sadəcə, ümumi şəkildə fikir mübadiləsi etmişik. Sülhməramlıların tərkibi necə olar bilər? Onlar hansı ölkələri təmsil edə bilər? Onlar qonşu, yaxud həmsədr ölkələr olmalıdır? Fikirlər müxtəlif idi. Şəxsən mən bu haqda heç zaman fikir söyləməmişəm, çünki deyirdim, bu, hələ tezdir. Biz əvvəlcə münaqişəni həll etməliyik. Biz heç zaman sülhməramlılara etiraz da etməmişik. Biz dedik, bəli, sülhməramlılar gəlsinlər və müəyyən vaxtda mülki şəxsləri, erməniləri və azərbaycanlıları qorusunlar. Bu, elə baş verir. Hazırda sülhməramlı əməliyyatlar Rusiya tərəfindən aparılır. Ermənistan və Azərbaycan da bunu dəstəkləyib.

Eyni zamanda, bildiyiniz kimi, biz artıq Azərbaycanın Ağdam rayonunda Monitorinq Mərkəzinin yaradılması mərhələsindəyik. Bu məsələ noyabrın 10-da imzaladığımız Bəyanatda əks olunub. Türkiyə-Rusiya Monitorinq Mərkəzi atəşkəs rejiminə nəzarət edəcək. Fikrimcə, bu, regional əməkdaşlığın çox yaxşı təzahürüdür. Həmçinin Türkiyə ilə Rusiya arasında çox məqbul əməkdaşlığın rəmzidir. Bu, artıq reallıqdır.

Eyni zamanda, qaldırmaq istədiyim sonuncu məsələ, - əminəm ki, siz bu haqda eşitmişiniz, - bizim gələcəklə bağlı fikrimizdir. Yəni, regionun gələcəyi ilə bağlı demək istəyirəm. Mən artıq bir neçə dəfə ictimaiyyət qarşısında bu məsələni qaldırmışam ki, regiona yeni canlanma gətirilməlidir. Regionda yeni inkişaf olmalıdır. Azərbaycan buna hazırdır. Azərbaycan iqtisadi və hərbi baxımdan güclüdür. Ölkəmiz çox geniş beynəlxalq dəstəyə malikdir. Ölkəmiz bu gün BMT-dən sonra ikinci ən böyük beynəlxalq təşkilata – Qoşulmama Hərəkatına sədrlik edir. Əlbəttə, biz bunu işimizin bir hissəsi kimi icra edəcəyik ki, uzunmüddətli sabitlik və təhlükəsizlik təmin olunsun.

Lakin, əlbəttə ki, bu, həmçinin Paşinyan rejimindən, yaxud da həmin rejimi devirəcək dairələrdən asılı olacaq. Hesab edirəm ki, beynəlxalq ictimaiyyət Ermənistana birbaşa mesaj verməlidir. Birincisi, gələcəkdə heç zaman Azərbaycan xalqının hissləri ilə oynamasın, yoxsa ağır cəzadan yaxa qurtara bilməyəcəksiniz! Biz səbirliyik. Biz hazırlaşırdıq. Biz bütün işləri lazımınca apardıq. İyulda ilk erməni təxribatına cavab vermədik, yəni dövlət sərhədini keçmədik, halbuki, bunu edə bilərdik. Biz avqustdakı ikinci erməni təxribatına səbirlə yanaşdıq. O vaxt onlar insanlarımızı qətlə yetirmək üçün diversiya dəstəsi göndərdilər. Lakin üçüncü dəfə, sentyabrda biz cavab tədbirlərinə keçdik. Elə cavab verdik ki, onların Ermənistan ordusunu və demək olar ki, erməni dövlətini məhv etdik və ərazimizdə cinayət rejiminə son qoyduq, erməni millətçilərinin üzdəniraq

“artsax” xülyalarını dağıtdıq. O, mövcud deyil. Paşinyan deyirdi ki, “Qarabağ Ermənistandır”. O, səhv etdi və layiqli cəzasını aldı. O, bu alçaltmaya layiqdir. Xalqımız, ölkəmiz qələbə qazandı, çünki həqiqət və beynəlxalq hüquq bizim tərəfimizdə idi.

Bununla, mən sözlərimi yekunlaşdırıram ki, sizi dinləyim, çünki buraya gəlmək sizin ideyanız idi. Bunu bir daha kameralar qarşısında deyə bilərəm. Mən Minsk qrupunu səfərə dəvət etməmişəm. Lakin mənə məlumat verəndə ki, Minsk qrupu gəlmək istəyir, dedim gəlsinlər, etiraz etmirəm. Bəlkə onların mənə sözləri var. Əgər siz bunu kamera qarşısında söyləmək istəyirsinizsə, buyurun. Əgər istəmirsinizsə, mən onlara deyim getsinlər. Necə istəsəniz. Buyurun, sizi dinləyirəm.

ATƏT-in Minsk qrupunun Fransadan olan həmsədri Stefan Viskonti dedi:

-Cənab Prezident, biz Sizi diqqətlə dinlədik. Əvvəlcə, bu gün, xüsusi gündür, dekabr ayıdır. Atanızla görüşməyim xatirimə gəlir. Parisdə, Prezident Şirakla görüş zamanı orada idim və mən o vaxt aparılan danışıqlarda iştirak edirdim. Biz Sizi anlayırıq. Siz də indicə qeyd etdiniz ki, həmsədr ölkələr son 28 il ərzində bacardıqları qədər öz mandatını icra etməyə çalışmışlar. Bu mandat əsasında iki tərəf arasında məsələnin nizamlanmasına şərait yaratmalı idilər. Mən Sizin tərəfdən verilən maraqlı təklifləri yüksək dəyərləndirirəm. Biz bunun üzərində çalışacağıq və tərəflərin iradəsinə uyğun olan variantı tapmağa vasitəçi olaraq çalışacağıq. Mənim hökumətim qırğına son qoyan atəşkəsi alqışlayıb. Biz noyabrın 9-dan 10-na keçən gecə əldə olunmuş razılaşmanın bütün müddəalarına çox müsbət yanaşırıq. Hadisələrin cərəyan etməsinin yeni gündəliyini qavrayırıq. Siz də qeyd etdiniz ki, regiona qərəzsiz və kollektiv qaydada sabitliyin, rifahın gətirilməsi üçün tamamilə yeni bir vəziyyət yaranıb. Bütün qalan məsələlər üzərində Minsk qrupunun işləməsinə gəldikdə, bu, tam Sizdən asılı olacaqdır. Bəli, bunun üçün yaxşı zəmin var. Biz keçid mərhələsindəyik və gələcək planlar tərtib oluna bilər. Mən, əlbəttə ki, sizin indi açıq şəkildə söylədiyiniz fikirləri öz hökumətimə məruzə edəcəyəm. Əlbəttə ki, Bakıda olmağımız, belə başa düşürəm ki, dəvət əsasında olub. Dəvət olmasaydı, mən gəlməzdim. Ola bilsin, bu missiyanın təşkilində, yazışmada qeyri-aydınlıq olub. Lakin mən bizi bu görüşdə qəbul etdiyinizə görə Sizə təşəkkürümü bildirmək istəyirəm. Mən sözlərinizi lazımi qaydada Prezidentimə və hökumətimizə çatdıracağam. Sağ olun.

ATƏT-in Minsk qrupunun ABŞ-dan olan həmsədri Endrü Şofer dedi:

-Bu gün bizi burada qəbul etdiyinizə və səmimi qonaqpərvərliyinizə görə təşəkkürümü bildirmək istəyirəm. Həmçinin mövqeyinizi çox aydın ifadə etdiyinizə görə minnətdarıq. Həmkarımın söylədiyi kimi, biz bunu öz hökumətlərimizə məruzə edəcəyik. Sizin söylədiyiniz sözlərə və açıq verdiyiniz bəyanata gəldikdə, anlayırıq ki, hazırda yeni vəziyyət yaranıb. Hamımız anlayırıq və etiraf edirik ki, indi qarşımızda yeni reallıqdır. Hesab edirəm ki, Sizinlə söhbət aparmağımın əsas səbəbi Sizin mövqeyinizi daha yaxşı anlamaq idi. Siz həmin mövqeyi açıqladınız və bir azdan biz hadisələrin sonra necə cərəyan edəcəyi ilə bağlı təfərrüatları müzakirə edəcəyik. Hazırda cari vəziyyət fərqlidir. Bilmək istərdim, Siz gələcəyi, ümumiyyətlə, necə görürsünüz? Xüsusən də Madrid prinsiplərində deyilir ki, xətlər və kommunikasiyalar açılsın, münasibətlər yenidən qurulsun, regionda bütün xalqlar üçün müsbət mühit yaradılsın. Əgər, bunlar sizin mövqeyinizin bir hissəsidirsə, onda, fikrimcə, buna nail olunmasında bizim və ölkələrimizin oynayacağı rol ola bilər. Biz bunu Sizdən eşitmək istərdik, gələcəkdə hansı addımları atmaq istəyirsiniz? Bildiyiniz kimi, bundan sonra, biz İrəvana gedəcəyik və digər tərəflə də eyni söhbət aparacağıq. Bizim daha təfərrüatlı müzakirələrimiz olacaq. Sağ olun.

Rusiyanın Azərbaycandakı səfiri Mixail Boçarnikov dedi:

-İcazənizlə, cənab Prezident. Minsk qrupu həmsədrlərinin Sizinlə görüşmək fürsətinə görə çox minnətdaram. Bildiyimiz kimi, Rusiya əldə edilmiş üçtərəfli razılaşmanın iştirakçısıdır, həmin Bəyanatın müddəalarının icrasına xüsusi önəm verir. Fikrimcə, bu sənədin tam icrası üçün hələ də görüləcək işlər var. Onlar Siz söylədiyiniz kimi, cənab Prezident, insanların, yəni məcburi köçkünlərin öz yerlərinə qayıtmasına, bölgənin dinc yolla yenidən qurulmasına aiddir. Əlbəttə ki, o, Sizin də təsvir etdiyiniz kimi, bölgənin sülh şəraitində dinc yolla və uğurlu şəkildə inkişafına aiddir. Minsk qrupuna gəldikdə, hökumətimiz hər zaman bu qrupun vacibliyini qeyd edib. Bu səbəbdən, biz iştirak etmişik və bu gün də qrupda iştirak edirik. Hesab edirəm ki, qrupun birgə mövqeyi bu yaxınlarda Minsk qrupu həmsədr ölkələrinin nümayəndə heyətlərinin rəhbərləri tərəfindən 3 dekabr tarixli bəyanatında ifadə olunmuşdur. Bu sənəddə ümumi münasibət bildirilir və biz istənilən sahədə, eləcə də, cənab Prezident, bu gün söylədiyiniz kimi, yenidənqurma işlərinin icrasında bacara biləcəyimiz yardımdan çox məmnun olardıq. Sağ olun.

## *Əfqanıstan İslam Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfirinin etimadnaməsinin qəbulu*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 17-də Əfqanıstan İslam Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Amanullah Ceyhunun etimadnaməsini qəbul edib.

Etimadnaməsini Prezident İlham Əliyevə təqdim edən səfir Amanullah Ceyhun dedi:

-Zati-aliləri cənab Prezident, Sizi salamlayıram. Əvvəlcə, bu gün vaxt ayırıb məni qəbul etdiyinizə görə Sizə təşəkkürümü bildirirəm. Bu gün burada olmaq və Prezident Əşrəf Qaninin salamlarını çatdırmaq mənim üçün şərəfdir. O, Sizə böyük ehtiramını ifadə edir, möhkəm cansağlığı, Azərbaycan xalqına isə firavanlıq arzu edir.

Zati-aliləri cənab Prezident, Prezident Əşrəf Qani tərəfindən imzalanmış və mənim Əfqanıstanın qardaş Azərbaycana, gözəl ölkənizə səfir təyin olunmağım haqqında etimadnaməmi, habelə sələfimin geri çağırılmasına dair məktubu Sizə təqdim etməkdən şərəf duyuram.

Sonra Azərbaycan Prezidenti İlham Əliyev səfirlə söhbət etdi.

Prezident İlham Əliyev dedi:

-Cənab səfir, xoş gəlmisiniz, sizi görməyə çox şadam. Xahiş edirəm mənim də salamlarımı və ən xoş arzularımı cənab Prezidentə və qardaş əfqan xalqına çatdırasınız. Biz dostluq və tərəfdaşlığımızı yüksək qiymətləndiririk. Deyə bilərəm ki, ölkələrimiz arasında münasibətlərin sürətli inkişafı dialoqumuzun intensivləşdirilməsinə dair hər iki tərəfin güclü niyyətini nümayiş etdirir. Sizin mənim Prezident Qani ilə görüşlərim haqqında məlumatınız var. Biz onunla Azərbaycanda, xarici ölkələrdə, müxtəlif beynəlxalq tədbirlər çərçivəsində dəfələrlə görüşmüşük. İstənilən beynəlxalq tədbirdə biz hər zaman görüşmək üçün vaxt tapırıq. Onu da deyim ki, bizim görüşlərimiz həmişə çox məhsuldar olur. Biz münasibətlərimizdə ciddi tərəqqiyə nail olmuşuq. Birgə səylərimiz nəticəsində regionda tamamilə yeni vəziyyət yaranmışdır. Bizim siyasi əlaqələrimiz heç vaxt olmadığı qədər güclüdür. Biz iqtisadi əməkdaşlıq və sərmayə layihələrinə dair çoxsaylı məsələləri müzakirə edirik. Bildiyiniz kimi, biz bununla bağlı artıq müəyyən ideyalar ortaya qoymuşuq. Biz dövlət sektoru ilə bağlı birgə işlər görmüşük və mən şadam ki, “ASAN xidmət” modeli artıq Əfqanıstanda tətbiq edilir. Bu, Prezident Əşrəf Qaninin Əfqanıstanın modernləşdirilməsi, əhaliyə müasir xidmətlərin göstərilməsi ilə bağlı baxışının təzahürüdür və belə bir mühüm inkişafda rol oynamağımız bizi fərəhləndirir.

Bununla yanaşı, əməkdaşlığımızın daha bir vacib elementi təhlükəsizlik məsələləridir. Bildiyiniz kimi, Azərbaycan artıq 20 ilə yaxındır ki, Əfqanıstanda sülhməramlı əməliyyatlarda iştirak edir. Biz bütün bu illər ərzində ölkənizdə təhlükəsizliyin qorunmasına sadiqliyimizi nümayiş etdirmişik. Bildiyiniz kimi, biz müəyyən müddət əvvəl hərbçilərimizin sayını artırmaqla ölkənizdə təhlükəsizlik məsələsinə olan münasibətimizi, ölkənizdə təhlükəsizliklə bağlı siyasətimizi nümayiş etdirdik. Çünki təhlükəsizlik və sabitlik olmadan gələcək qurmaq çox çətindir. Biz bunları yaxşı bilirik. 1990-cı illərin əvvəlində biz də buna bənzər vəziyyətlə üzləşmişdik. Azərbaycanda pərakəndəlik, hərc-mərclik hökm sürürdü, siyasi, iqtisadi və hərbi böhran mövcud idi ki, bunlar ərazimizin bir hissəsinin itirilməsi ilə nəticələndi. Beləliklə, Prezidentin rəhbərliyi ilə hökumətinizin səyləri artıq bəhrəsini verir və biz modernləşdirmə proqramınızda iştirak etməkdən hər zaman məmnunuq. Hazırda regional nəqliyyat məsələlərində də irəliləyiş var. Şadıq ki, artıq Azərbaycan vasitəsilə Əfqanıstandan beynəlxalq bazarlara müəyyən yüklər nəql edilir. Biz məmnuniyyətlə öz nəqliyyat imkanlarımızı təqdim edirik. Bildiyiniz kimi, nəqliyyat sahəsi hər zaman mənim sizin Prezidentinizlə görüşlərimin gündəliyindədir və biz burada yaxşı irəliləyiş görürük. Regional geosiyasi vəziyyətdə dəyişiklikləri nəzərə alsaq, əlbəttə ki, əməkdaşlıq üçün yeni imkanlar yaranacaqdır. Fürsətdən istifadə edərək, Ermənistan-Azərbaycan münaqişəsinin həllində bizim ədalətli mübarizəmizi dəstəklədiyinə görə qardaş Əfqanıstana təşəkkürümü bildirmək istəyirəm. Əfqanıstan Azərbaycanın ərazi bütövlüyü məsələsində hər zaman açıq mövqe nümayiş etdirib. Bizi hər zaman dəstəkləyib və Prezident, xarici işlər naziri və digər yüksək rütbəli məmurlar səviyyəsində bu məsələni vurğulayıb ki, Azərbaycanın ərazi bütövlüyü bərpa edilməlidir və həqiqət bizim tərəfimizdədir. Eyni zamanda, biz bu dəstəyi müharibə zamanı da hiss etdik. Əfqanıstan Azərbaycana ictimai şəkildə dəstək verən ilk ölkələrdən oldu. Biz buna görə minnətdarıq, bütün Azərbaycan xalqı bunu bilir və yüksək qiymətləndirir. Biz bunu qardaşlıq rəmzi və eyni zamanda, beynəlxalq hüquqa hörmətin əlaməti hesab edirik. Çünki tarixi həqiqət və tarixi ədalət bizim tərəfimizdədir. Beynəlxalq hüquq bizim tərəfimizdədir. Dağlıq Qarabağ Azərbaycanın tərkib hissəsidir və beynəlxalq ictimaiyyət tərəfindən də belə tanınır. Ərazi bütövlüyümüzün bərpası və Vətən müharibəsində Qələbəmiz, əlbəttə, dövlətimizin gücünü, Azərbaycan xalqının iradəsini və sözümüzlə əməlimizin bir olduğunu nümayiş etdirdi. Beləliklə, müharibənin başa çatdırılması və işğal edilmiş

ərazilərimizin azad olunması ilə bağlı Azərbaycan xalqı qarşısında verilən vədlər və götürülmüş öhdəliklər yerinə yetirilmişdir.

Hazırda biz Azərbaycanın inkişafının yeni mərhələsinin astanasındayıq. Ərazilərimizin bərpası və yenidən qurulması mərhələsindəyik. İşğal edilmiş ərazilərin dağıdılması ilə bağlı videomateriallar təqdim edilib. Bizim bütün şəhər və kəndlərimiz viran edilib, tarixi abidələrimiz dağıdılıb, mədəni abidələrimiz yerlə-yeksan olunub. Məscidlərimiz ya dağıdılıb, ya da onlar heyvan saxlanılması üçün istifadə edilib. Bununla onlar təkcə azərbaycanlıların deyil, bütün dünya müsəlmanlarının hisslərini təhqir ediblər. Həmin şəkilləri və videomaterialları görən dünya müsəlmanları bir daha anlayır ki, uzun illər ərzində biz hansı bəla ilə üz-üzə idik və ərazilərimizi, torpaqlarımızı azad edərək tarixi köklərimizə qayıtmaqla biz nəyə nail olmuşuq. Bildiyiniz kimi, bəzi hallarda Ermənistan müsəlman ölkələri ilə əlaqələr yaratmaq və ya münasibətləri möhkəmləndirmək cəhdləri edir. Lakin əminəm ki, həmin videoları görən dünya müsəlmanları öz hökumətlərinə güclü mesaj verəcəklər ki, məscidləri dağıdan, orada donuz saxlayan və islamofobiyanı təşviq edən ölkə ilə hər hansı təmaslardan çəkinsin. Burada siyasi, yaxud digər maraqlar ola bilər, ancaq hesab edirəm ki, bütün dünya müsəlmanların səslərini birləşdirməli, təcavüzkara güclü bir mesaj göndərməlidir ki, onların etdikləri qəbulolunmazdır və müsəlmanlar tərəfindən unudulmayacaqdır. Burada bir daha qardaş əfqan xalqına hər zaman - danışıqlar və işğal dövründə, müharibə zamanı və müharibədən sonra, Qələbəmizi qeyd etdiyimiz vaxtda yanımızda olduğuna, bizi dəstəklədiyinə görə minnətdarlığımı ifadə etmək istəyirəm. Bir daha xoş gəlmisiniz, Azərbaycanda yaxşı vaxt keçirməyinizi arzulayıram. Əminəm ki, burada özünüzü vətəninizdəki kimi hiss edəcəksiniz.

Səfir Amanullah Ceyhun: Zati-aliləri cənab Prezident, əvvəlcə mən Sizə minnətdarlığımı bildirmək istəyirəm. Əfqanıstanın Azərbaycanda səfiri kimi fəaliyyət göstərmək mənim üçün böyük şərəfdir. Mən çox xoşbəxtəm ki, Azərbaycana çox özəl bir vaxtda gəlmişəm. Mən Azərbaycana müharibə başa çatandan sonra – noyabrın 13-də gəlmişəm. Yəni, Qələbədən üç gün sonra, erməni işğalı bitdikdən, Azərbaycan xalqı öz torpağına qovuşduqdan sonra gəlmişəm. Bu, mənim üçün böyük xoşbəxtlikdir. Çünki Azərbaycan çox önəmli bir tarix yaşayır.

Zati-aliləri cənab Prezident, bir daha qeyd edirəm ki, Azərbaycanda olmaq mənim üçün şərəfdir. Əminik ki, Sizin rəhbərliyiniz və Ali Baş Komandanlığınızla Azərbaycan böyük uğurlara nail olmuş və özünün coğrafi yerləşməsi, regional bağlılıq baxımından vacib ölkəyə çevrilmişdir. Zati-aliniz regional bağlılıqla əlaqədar Prezident Əşrəf Qaninin baxışına dəstək verib. Azərbaycana gəlişim ərəfəsində Prezident mənə təlimat vermişdir ki, onun salamlarını Sizə çatdırım, Sizə möhkəm cansağlığı, Azərbaycan xalqına isə sülh və əmin-amanlıq arzu edim. Həmçinin Prezidentimiz Azərbaycanın rəhbərliyinizlə əldə etdiyi uğurlar münasibətilə Sizi təbrik etməyimi tapşırıb. Zati-aliləri, Siz də qeyd etdiyiniz kimi, Azərbaycan və Əfqanıstan münasibətləri uzun tarixə malikdir.

### *Rusiya Federasiyasının Federal Təhlükəsizlik Xidmətinin direktorunun qəbulu*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 18-də Rusiya Federasiyasının Federal Təhlükəsizlik Xidmətinin direktoru Aleksandr Bortnikovu qəbul edib.

Federal Təhlükəsizlik Xidmətinin direktoru Aleksandr Bortnikov Rusiya Prezidenti Vladimir Putinin salamlarını dövlətimizin başçısına çatdırdı.

Görüşdə bölgədə mövcud vəziyyət, münaqişənin həlli, üçtərəfli Bəyanatın müddəalarının icrası müzakirə edilərək, vəziyyətin sabit olduğu bildirildi.

Söhbət zamanı Azərbaycanla Rusiya arasında təhlükəsizlik sahəsində əməkdaşlıq məsələləri müzakirə olundu.

Prezident İlham Əliyev Rusiya dövlətinin başçısının salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Rusiya Prezidentinə çatdırmağı xahiş etdi.

### *Əfqanıstan İslam Respublikasının milli təhlükəsizlik müşaviri Hamdullah Mohibi və Prezident Administrasiyasının rəhbəri Mohammad Şakir Kargarın qəbulu*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 21-də Əfqanıstan İslam Respublikasının milli təhlükəsizlik müşaviri Hamdullah Mohibi və Prezident Administrasiyasının rəhbəri Mohammad Şakir Kargarı qəbul edib.

Əfqanıstan İslam Respublikasının milli təhlükəsizlik müşaviri Hamdullah Mohib Əfqanıstan Prezidenti Məhəmməd Əşrəf Qaninin salamlarını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev Əfqanıstan Prezidentinin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Əfqanıstan dövlətinin başçısına çatdırmağı xahiş etdi.

Görüşdə Əfqanıstan Prezidentinin münaqişənin ilk günlərindən Azərbaycana verdiyi siyasi dəstək və Əfqanıstanın Azərbaycanın ərazi bütövlüyünü dəstəkləməsi yüksək qiymətləndirildi. Ölkələrimiz arasında ikitərəfli münasibətlərə toxunularaq əlaqələrimizin inkişafında əldə olunan nailiyyətlər qeyd edildi, əməkdaşlığımızın genişləndirilməsi üçün yaxşı potensialın olduğu bildirildi. Azərbaycan və Əfqanıstan prezidentlərinin şəxsi münasibətlərinin əlaqələrimizin inkişafında rolu xüsusi vurğulandı.

Söhbət zamanı münaqişənin bitməsinin regionda təhlükəsizlik və sabitliyin təmin olunmasında əhəmiyyəti qeyd edildi və bunun çoxtərəfli əməkdaşlıq üçün geniş imkanlar yaratdığı bildirildi.

Görüşdə iqtisadi, təhlükəsizlik, investisiya qoyuluşu, nəqliyyat və digər sahələrdə əməkdaşlığın perspektivləri müzakirə olundu.

Söhbət zamanı Lapis-Lazuli beynəlxalq nəqliyyat dəhlizinin inkişaf etdirilməsi, Azərbaycanın Əfqanıstanda sülhməramlı əməliyyatlarda iştirakı ilə bağlı məsələlər də müzakirə edildi.

Milli təhlükəsizlik müşaviri Hamdullah Mohib Əfqanıstan Prezidenti Məhəmməd Əşrəf Qaninin məktubunu dövlətimizin başçısına təqdim etdi.

### *Rusiya Federasiyasının fövqəladə hallar nazirin qəbulu*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 21-də Rusiya Federasiyasının fövqəladə hallar naziri Yevgeni Ziniçevi qəbul edib.

Fövqəladə hallar naziri Yevgeni Ziniçev Rusiya Prezidenti Vladimir Putinin salamlarını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev Rusiya Prezidenti Vladimir Putinin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Rusiya dövlətinin başçısına çatdırmağı xahiş etdi.

Görüşdə Azərbaycanla Rusiyanın müxtəlif qurumları, o cümlədən Fövqəladə Hallar nazirlikləri arasında uğurlu işçi əməkdaşlığın həyata keçirildiyi bildirildi və bu sahədə təcrübə mübadiləsinin önəmi qeyd edildi.

### *Türkiyə Respublikasının milli müdafiə naziri Hulusi Akarın başçılıq etdiyi nümayəndə heyətinin qəbulu*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 31-də Türkiyə Respublikasının milli müdafiə naziri Hulusi Akarın başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

Nümayəndə heyətinə Türkiyə Silahlı Qüvvələrinin Baş Qərargah rəisi Yaşar Güler, Türkiyə Respublikasının Quru Qoşunları komandanı Ümit Dündar və Türkiyə Respublikasının Hərbi Dəniz Qüvvələri komandanı Adnan Özbal daxildir.

Azərbaycan Prezidenti İlham Əliyev dedi:

- Xoş gəlmisiniz, sizi görməyimə şadam. İl başa çatır və çox şadam ki, ilin sonunda siz Azərbaycana səfər edirsiniz. Bu il biz sizinlə dəfələrlə görüşmüşük. Fürsətdən istifadə edərək, sizi və bütün Türk Silahlı Qüvvələrini Yeni il münasibətilə ürəkdən təbrik etmək istəyirəm. Yeni ildə yeni uğurlar diləyirəm.

İki gün əvvəl əziz qardaşım cənab Prezident Rəcəb Tayyib Ərdoğanla danışmışıq və sizin səfəriniz haqqında da söhbət etdik. Fürsətdən istifadə edərək, bir daha qardaş Türkiyə dövlətinə, qardaş türk xalqına, şəxsən cənab Prezident Rəcəb Tayyib Ərdoğana bizə göstərilmiş böyük dəstəyə görə təşəkkürümü bildirirəm. Müharibə zamanı bu böyük siyasi və mənəvi dəstək bizə əlavə güc verdi, bütün dünya bir daha gördü ki, Türkiyə-Azərbaycan birliyi, qardaşlığı sarsılmazdır, əbədidir və bütün günlərdə - xoş günlərdə, ağır günlərdə biz bir-birimizin yanındayıq. Eyni zamanda, dünyanın digər bölgələrində Türkiyənin gücünün artması, xüsusilə 2020-ci ildə Türkiyənin bir çox məsələlərdə söz sahibinə çevrilməsi bizi haqlı olaraq sevindirir. Dəfələrlə demişəm, Türkiyənin gücü bizim gücümüzdür və birlikdə biz daha güclüyük. Əminəm ki, gələn il də nəzərdə tutulmuş bütün planlar icra ediləcək.

Bizim üçün bu il xüsusi əhəmiyyət daşıyır, böyük Zəfər ili kimi Azərbaycan tarixində əbədi olaraq qalacaq. Uzun illərin işğalına son qoyuldu, Azərbaycan öz ərazi bütövlüyünü bərpa etdi, işğalçıları işğal edilmiş torpaqlardan qovdu və ədaləti, tarixi ədaləti, haqq-ədaləti, beynəlxalq hüququ bərpa etdi. Şəhidlər oldu, yaralılar oldu, müharibələrdə bu, qaçılmazdır. Biz şəhidlərin ruhu qarşısında and içmişik ki, dağıdılmış bu bölgələri bərpa edəcəyik. Artıq bərpa işləri başlandı, ilkin kontraktlar imzalandı. Şadam ki, ilkin tərəfdaşlarımız yenə də türk şirkətləridir. Onlar bizim üçün önəmli infrastruktur layihələrini artıq icra etməyə başlamışlar. Xüsusilə Füzuli-Şuşa avtomobil yolunun tikintisində türk şirkətləri Azərbaycan şirkətləri ilə birlikdə fəaliyyət göstərirlər. Bütün başqa layihələrdə türk şirkətlərinin fəaliyyəti artıq təsdiq edilib, o cümlədən Kəlbəcərə çəkiləcək yeni yol, tunellər və

digər infrastruktur layihələri icra ediləcək. Tezliklə biz bu bölgələrə həyat qaytarmalıyıq. Çünki mən orada olarkən gördüm ki, erməni vəhşiliyinin sərhədi yoxdur, hər tərəf dağıdılıb, hər tərəf viran edilib və aydındır ki, bu dağıntılar müharibə zamanı olan dağıntılar deyil. Çünki müharibə zamanı belə dağıntılar olmayıb. Müharibədən sonra, işğaldan sonra onlar bizim tarixi, mədəni, dini irsimizi silmək istədilər, şəhərlərimizi yerlə bir etdilər ki, heç zaman bundan sonra azərbaycanlılar o torpaqlara qayıtmasınlar. Amma səhv etdilər, yanıldılar, biz artıq qayıtmışıq, qayıdacağıq və Qarabağ bölgəsi dünyanın ən inkişaf etmiş bölgələrindən birinə çevriləcəkdir.

Gələn il bizim üçün böyük quruculuq ili olacaq, ilkin tapşırıqlar verilib. Eyni zamanda, erməni silahlı qüvvələri tərəfindən ara-sıra atəşkəs pozulur və əfsuslar olsun ki, müharibədən sonra da şəhidlərimiz var. Deyə bilərəm ki, bizdə olan məlumata görə, azad edilmiş bəzi torpaqlarda hələ də mövcud olan erməni silahlı birləşmələri Ermənistan siyasi rəhbərliyinə tabe deyillər, onların bir çoxu zərərsizləşdirlib, bir çoxu həbs edilib. Onlar müharibə əsirləri sayıla bilməz, onlar terrorçudurlar. Onlara imkan verildi. O cümlədən Rusiya sülhməramlı qüvvələri bu işlərə qoşularaq, imkan verildi ki, onlar o bölgələrdən çıxsınlar. Bu təklifə riayət edənlər çıxdılar və Ermənistan tərəfinə təhvil verildilər, ancaq bir qisim hələ də qalır və bizə qarşı terror aktları törədir. Buna baxmayaraq, bütövlükdə atəşkəs saxlanılır və hesab edirəm ki, bu, noyabrın 9-dan 10-na keçən gecə imzalanmış Bəyanatın müsbət tərəfidir. Bununla paralel olaraq biz hazırda Azərbaycan, Ermənistan, Türkiyə dəhlizinin formalaşmasına da böyük önəm veririk, ilkin tapşırıqlar verildi. Biz yaxın günlərdə Horadizdən Zəngilana qədər, Ermənistan sərhədinə qədər dəmir yolunun tikintisinə başlayacağıq, artıq texniki-iqtisadi əsaslandırma hazırlanır. Qısa müddət ərzində müvəqqəti olaraq Horadizdən Zəngilana qədər yol da çəkildi, mən özüm o yolla getmişəm, rahat, yüksək sürətlə getmək olar. Hesab edirəm ki, dəmir yolunun tikintisi maksimum 2 il çəkəcək. Ancaq bizim fikrimiz ondan ibarətdir ki, bu tarixi gözləməyək, həm dəmir yolu ilə Horadizə qədər, ondan sonra tırlarla daşımalar aparıla bilər. Bu, artıq bizim gündəliyimizdə olan vacib məsələdir. Hesab edirəm və əminəm ki, biz artıq Azərbaycandan Ermənistan və Naxçıvan ərazisindən Türkiyəyə ilk yükləri göndərə və əks istiqamətdən qəbul edə bilərik. Beləliklə noyabrın 10-da imzalanmış Bəyanatın önəmli hissəsi olan Naxçıvan dəhlizinin açılması da həyata keçiriləcəkdir.

Nəhayət sonuncu məsələ Türkiyə-Rusiya Monitorinq Mərkəzidir. Azərbaycan bu məsələ ilə bağlı da öz öhdəliyini yerinə yetirir. Azərbaycan tərəfi indi Ağdam bölgəsində bu Monitorinq Mərkəzi üçün bina inşa edir. Bu Monitorinq Mərkəzi yaxın 10 günə – maksimum iki həftəyə hazır olacaqdır. Bildiyimə görə, artıq Türkiyə tərəfi də fəaliyyətə başlamaq üçün tam hazırdır. Yəqin ki, siz Rusiya tərəfi ilə də təmaslardasınız, Monitorinq Mərkəzi nə qədər tez fəaliyyətə başlasa, o qədər də yaxşıdır. Çünki müharibədən təxminən iki ay keçməsinə baxmayaraq, hələ də təhdidlər, təhlükələr var. Nəzarətsiz erməni silahlı birləşmələri bizim ərazimizdə fəaliyyət göstərirlər və onların bir hissəsi çıxmaq, təslim olmaq istəmirlər. Ona görə, bu təhdidi aradan qaldırmaq və gələcəkdə bütövlükdə bölgəmizdə sülhün, sabitliyin təmin edilməsi üçün Monitorinq Mərkəzi mütləq olmalıdır. Çünki əfsuslar olsun ki, Ermənistanda bəzi siyasi qüvvələr revanşist fikirlərlə yaşayırlar, açıq bəyanatlar verirlər ki, gün gələcək onlar Azərbaycana qarşı müharibə aparacaqlar, Azərbaycan torpaqlarını işğal edəcəklər. Bu, onlar üçün özünəqəsd olacaq. Təbii ki, belə cəhdlər dərhal yerindəcə aradan qaldırılacaq, ancaq bu təhdidlər var. Ona görə bu bölgədə monitorinq, nəzarət aparılmalıdır və Türkiyə-Rusiya mərkəzi bu funksiyanı əminəm ki, şərəflə yerinə yetirəcəkdir.

Əlbəttə ki, Vətən müharibəsi Türkiyə-Azərbaycan əlaqələrini daha da möhkəmləndirdi və sizin iştirakınızla, əziz qardaşımın iştirakı ilə keçirilmiş hərbi parad bunu bir daha göstərdi. Siz gördünüz ki, bu, nə qədər böyük sevincə, coşquya səbəb oldu, on minlərlə, yüz minlərlə insan küçələrə axışdı və bizim Azərbaycan və türk əsgərlərini qarşıladı. Bu, bizim birliyimizin nümunəsidir. Paradı seyr edərkən iki il öncəki parad da yadımıza düşdü. O vaxt biz Bakının azad edilməsində Nuru Paşa Ordusunun, Qafqaz İslam Ordusunun qəhrəmanlığını qeyd etmişdik. Bu dəfə isə Qarabağın azad edilməsini qeyd etmişik. Yenə də bərabərik və əbədi də bir yerdə olacağıq. Bir daha xoş gəlmisiniz.

Türkiyənin milli müdafiə naziri Hulusi Akar dedi:

- Cənab Prezident, vaxt ayırıb bizi qəbul etdiyiniz üçün öz adımdan və nümayəndə heyətinin üzvləri adından çox təşəkkür edirik, sağ olun.

Cənab Prezidentimizlə Siz mütəmadi olaraq danışırsınız, amma yenə də o, Sizə salam göndərdi. Salamlarını Sizə çatdırmaq istəyirəm.

Fürsətdən istifadə edib gec də olsa, doğum gününüzü təbrik edirik, neçə belə illərə çıxasınız. Liderliyinizi, inşallah, möhkəm cansağlığı və uğurlarla davam etdirəcəksiniz.

Təbii ki, burada bəzi duyğusal anlar da yaşadıq. Biz bunları unutmuruq, bu barədə dostlarımızla davamlı danışırıq. Bunlardan birincisi noyabrın 10-da saat ikidəki nitqinizdir. Həqiqətən də o, bir Zəfər nitqi idi. Bunu daim xatırlayırıq. İkinci də 30 il işğala səssiz qalıb, seyr edib, hər şey bitdikdən sonra buraya gəlib Minsk qrupu olduqlarını xatırladanlara bu masada verdiyiniz cavabı da böyük bir zövqlə, böyük bir dərs olaraq Türkiyədə izlədik. Həqiqətən də hər kəs Sizin bu qətiyyətinizdən qürur duydu.

Qarabağ Zəfərinin, Sizin də dediyiniz kimi, həqiqətən Qafqazın tarixində çox önəmli yeri var. Bu, həm Türkiyə-Azərbaycan əlaqələri baxımından dönüş nöqtəsi oldu, həm də Qafqazın gələcəyi baxımından həqiqətən çox önəmli bir addım oldu. Sizin də dediyiniz kimi, bu Zəfərin taclanması üçün, inşallah, ən qısa vaxtda Ortaq Mərkəzin fəaliyyətə başlamasından sonra Naxçıvan ilə Zəngilan arasında kommunikasiya xətti qurulacaq ki, bu da qardaşların bir-biri ilə sıx əlaqəsi – Türkiyənin, Naxçıvanın və Azərbaycanın fiziki olaraq bir-birinə bağlanması baxımından çox önəmlidir.

Təbii ki, otuz illik bu mübarizə başa çatdıqdan, torpaqların işğaldan azad olunmasından sonra, inşallah, qarşıdakı dövrdə Sizin liderliyinizlə qoyulacaq sərmayələrlə orada rifah artacaq, əmin-amanlıq möhkəmlənəcək və ora bütün bölgə üçün, Qafqaz üçün cazibə mərkəzinə çevriləcək. Azərbaycanın iradəsi ilə burada sülhün və sabitliyin təmin olunmasında Azərbaycan ilə Türkiyənin birliyi, bərabərliyi, çiyin-çiyinə çalışması həqiqətən təkcə bu gün üçün deyil, gələcək üçün də böyük perspektivlər vəd edir. İnşallah, qarşıdakı dövrdə bu qardaşlıq bir ürək, bir bilək, bir yumruq olaraq davam edəcək. Bununla da hər kəsin bura ilə bağlı planlarını yenidən nəzərdən keçirəcəyini, diqqətli olacağını düşünürük.

Prezident İlham Əliyev Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Türkiyə dövlətinin başçısına çatdırmağı xahiş etdi.

# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN SƏFƏRLƏRİ

## *Virtual 71-ci Beynəlxalq Astronavtika Konqresinin açılış mərasimində*

### *Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin videomüraciəti*

Oktyabrın 12-də "Kiber Kosmos buraxılışı" mövzusunda virtual 71-ci Beynəlxalq Astronavtika Konqresi keçirilib.

Konqresin açılış mərasimində Prezident İlham Əliyevin videomüraciəti təqdim olunub.

Beynəlxalq Astronavtika Federasiyasının prezidenti xanım Paskal Erenfroynd: Gələcəyə baxaraq, gəlin 2023-cü ildə Beynəlxalq Astronavtika Konqresinə ev sahibliyi edəcək Azərbaycana, Bakıya bağlanaq. Zatialiləri, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə söz verməkdən şərəf hissi duyuram.

Azərbaycan Prezidenti İlham Əliyev: Hörmətli xanımlar və cənablar, mən sizi Azərbaycanın paytaxtı Bakıdan səmimi qəlbdən salamlayıram. Azərbaycan 2023-cü ildə Beynəlxalq Astronavtika Konqresinə ev sahibliyi edəcək. İlk növbədə, mən bizim namizədliyimizi dəstəklədiyinə görə Beynəlxalq Astronavtika Federasiyasının üzvlərinə, Bürosuna və komitələrinə minnətdarlığımı bildirmək istərdim. Azərbaycan bir dəfə - 1973-cü ildə Beynəlxalq Astronavtika Konqresinə ev sahibliyi edib. Beləliklə, 50 ildən sonra - 2023-cü ildə paytaxtımızda ikinci konqresə ev sahibliyi etməyimiz rəmzi məna kəsb edəcək. Lakin həmin vaxt Azərbaycan müstəqil deyildi. Azərbaycan Sovet İttifaqının tərkibində idi, Sovet İttifaqının 15 respublikasından biri idi. 1973-cü ildə Azərbaycanın konqresə ev sahibi seçilməsi xalqımızın və Azərbaycanın yüksək intellektual və texniki potensialını nümayiş etdirdi. Üç ildən sonra biz sizi Bakıda görəcəyik. Əlli ildən sonra Konqresin bizim şəhərimizə - lakin indi müstəqil Azərbaycanın paytaxtına qayıtması çox rəmzi məna kəsb edəcək.

Müstəqillik dövründə Azərbaycan möhtəşəm inkişafa nail olub. Azərbaycan beynəlxalq arenada fəal ölkələrdən biridir. Bu gün Azərbaycan Birləşmiş Millətlər Təşkilatından sonra ikinci beynəlxalq qurum olan Qoşulmama Hərəkatına sədrlik edir. Bizim iqtisadi göstəricilərimiz statistikada öz əksini tapıb. Son 17 ildə ümumi daxili məhsulumuz üç dəfə artıb, yoxsulluq səviyyəsi demək olar ki, 50 faizdən 5 faizə düşüb, xarici borcumuz ümumi daxili məhsulumuzun təxminən 20 faizi həcmindədir və ehtiyatlarımız xarici borcdan 6 dəfə çoxdur.

Hazırda təbii ehtiyatlarımız inkişafımıza xidmət edir və təbii ehtiyatlarımızın insan kapitalına çevrilməsi bizim əsas prioritetlərimizdən biridir.

Bu gün Azərbaycan kosmik klubun üzvüdür və Azərbaycan 3 peyki ilə bu istiqamətdə öz fəaliyyətini davam etdirməyi planlaşdırır. Mən əminəm ki, 2023-cü ildə paytaxtımızda keçiriləcək Konqres ölkəmizdə kosmik sənayenin inkişafına əlavə stimul verəcək.

Sizə uğurlar arzu edirəm və 2023-cü ildə Bakıda görüşərik. Təşəkkür edirəm.

Xanım Paskal Erenfroynd: Cənab Prezident, bu ilhamlandırıcı çıxışınız üçün çox sağ olun. 2023-cü ildə Bakıya gəlməyi səbirsizliklə gözləyirik.

Qeyd edək ki, Azərbaycanda kosmik sənayenin inkişafının təməlini ulu öndər Heydər Əliyev qoyub. 1973-cü ildə Beynəlxalq Astronavtika Konqresinin ölkəmizdə keçirilməsi bunun bariz nümunəsidir. Bu tədbir xalqımızın yüksək intellektual potensialı ilə yanaşı, texniki potensialını da bütün dünyaya nümayiş etdirib. Ulu Öndərin bu siyasətini Prezident İlham Əliyev uğurla davam etdirir. Dövlətimizin başçısının rəhbərliyi ilə ölkəmizdə elm, texnologiya, İKT, o cümlədən kosmik sənayenin inkişaf etdirilməsi istiqamətində son illərdə çox mühüm işlər görülüb. Kosmik proqramların hazırlanması və reallaşdırılması müstəqillik tariximizin ən böyük uğurlarından biri kimi tarixə düşüb. Son 5 ildə ölkəmizin orbitdə 3 peykə sahib olması Azərbaycanı dünya kosmik klubunun fəal üzvünə çevirib. Bununla da Azərbaycan informasiya-kommunikasiya texnologiyaları sahəsində aparıcı ölkələrdən biri olduğunu təsdiqləyib. 2023-cü ildə Beynəlxalq Astronavtika Konqresinin Bakıda keçirilməsi Azərbaycanın beynəlxalq nüfuzunun göstəricisi olmaqla yanaşı, həm də ölkəmizin İKT sahəsində son illərdə əldə etdiyi böyük uğurlarla bağlıdır.

Beynəlxalq Astronavtika Konqresi 1950-ci ildən hər il fasiləsiz təşkil edilir. Bu il Birləşmiş Ərəb Əmirliklərinin Dubay şəhərində təşkil olunması planlaşdırılan 71-ci Beynəlxalq Astronavtika Konqresi COVID-19 pandemiyası səbəbindən Beynəlxalq Astronavtika Federasiyası tərəfindən növbəti ilə keçirilib. Lakin tədbirin davamlılığının təmin edilməsi məqsədilə 71 ölkəni təmsil edən 407 təşkilatın üzv olduğu Federasiya builki Konqresi oktyabrın 12-14-də virtual formatda keçirir. Bu Konqres kosmik sahədə aparıcı agentliklərin, elm mərkəzlərinin və beynəlxalq təşkilatların rəhbərləri, məşhur alimlər, özəl sektordan olan yüksək səviyyəli peşəkarlar, gənc tədqiqatçılar və tələbələr də daxil olmaqla, dünyanın 70-ə yaxın ölkəsindən ümumilikdə 6 mindən çox mütəxəssisi bir araya toplayan qlobal platformadır.

## *Füzuli və Cəbrayıl rayonlarına səfər*

Noyabrın 16-da Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyev və birinci xanım Mehriban Əliyeva işğaldan azad edilmiş Füzuli və Cəbrayıl rayonlarında, o cümlədən Füzuli və Cəbrayıl şəhərlərində olublar.

Prezident İlham Əliyev Füzuli rayonundan Şuşa şəhərinə yol çəkilişi ilə bağlı göstəriş verib. Artıq bu yolun inşasına start verilib.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva layihənin icrasının gedişi ilə tanış oldular.

Prezident İlham Əliyev dedi:

- Bu gün ölkəmizin həyatında çox əlamətdar bir gündür, tarixi bir gündür. Bu gün Füzuli-Şuşa avtomobil yolunun təməli qoyulur. Bu münasibətlə bütün Azərbaycan xalqını ürəkdən təbrik edirəm. Bu yolun çox böyük əhəmiyyəti var. Çünki bu yol bizi Qarabağın tacı olan Şuşa şəhərinə aparır.

Son illər ərzində ölkəmizdə bir çox yollar inşa edilib. Deyə bilərəm ki, 2004-cü ildən bu günə qədər 16 min kilometrdən çox avtomobil yolu çəkilibdir və yollar keyfiyyətlidir. Bu göstəriciyə görə Azərbaycan dünyada qabaqcıl yerlərdədir. Ancaq bu yolun xüsusi əhəmiyyəti var. Dediyim kimi, bu yol bizi Şuşaya aparır. Eyni zamanda, bu layihə işğaldan azad edilmiş torpaqlarda icra edilən birinci layihədir.

Şuşa işğaldan azad olunandan sonra artıq düşmən dərk etdi ki, bundan sonra bizə qarşı müqavimət göstərmək heç bir əhəmiyyət kəsb etməyəcək. Şuşa işğaldan azad olunandan bir gün sonra qəhrəman Azərbaycan Ordusu daha 70-dən çox yaşayış məntəqəsini işğalçılardan azad edib və əslində, bu, düşmənə vurulan son zərbə idi. Təsadüfi deyil ki, noyabrın 10-da düşmən faktiki olaraq kapitulyasiya aktını imzalamışdır. Şuşanın işğaldan azad edilməsi bizim gücümüzü göstərdi, Ordumuzun peşəkarlığını, hərbçilərimizin cəsarətini, qəhrəmanlığını göstərdi. Şuşanın götürülməsi çox böyük peşəkarlıq, cəsarət tələb edən əməliyyat idi. Əminəm ki, bu əməliyyat dünya hərb tarixində xüsusi yer tutacaqdır. Çünki bu əməliyyatı yalnız yüngül silahlarla silahlanmış bizim qəhrəman hərbçilərimiz dağlardan, meşələrdən, cığırlardan keçərək icra ediblər. Şuşanın işğaldan azad edilməsi bizim şanlı Qələbəmizdir.

Bu gün artıq biz quruculuq işlərinə başlamışıq. Qələbə günündən 8 gün və Ermənistanın kapitulyasiyasından 6 gün keçəndən sonra artıq bu yerdən – Alxanlı qəsəbəsindən Füzuli-Şuşa avtomobil yolu çəkilir. Bu yol çox rahat və geniş olacaq. Bu yol imkan verəcək ki, Şuşaya rahat gedib-gələ bilək.

İkinci Qarabağ müharibəsi bizim şanlı Qələbəmizdir, işğal edilmiş torpaqlar işğalçılardan azad edilib. Düşmən tərəfindən vurulmuş ziyan hazırda hesablanır və dəqiq hesablanacaq. Zərərçəkmiş bütün insanlar dövlət dəstəyi hesabına öz dədə-baba torpaqlarına qayıdacaqlar. Bu işləri biz planlı şəkildə aparacağıq - ilk növbədə, ziyanın hesablanması, dəqiq uçotun aparılması, ondan sonra bərpa-yenidənqurma işləri.

Bildiyiniz kimi, işğal edilmiş və işğaldan azad olunmuş torpaqlarda düşmən bütün infrastrukturu dağıdıbdır. Bizim şəhərlərimiz demək olar ki, yerlə-yeksan edilibdir və bu, düşmənin vəhşiliyini bir daha göstərir. İndi bütün dünya bunu görəcək. Bütün dünya görəcək ki, biz hansı vəhşi düşmənlə üz-üzə qalmışdıq.

Hazırda münaqişənin siyasi həlli mərhələsidir. Bu mərhələdə də Azərbaycan istədiyinə nail olur və olacaq. Münaqişənin hərbi mərhələsi başa çatıb. Şuşanın azad edilməsi və noyabrın 9-da daha 70-dən çox yaşayış məntəqəsinin işğaldan azad edilməsi münaqişənin hərbi mərhələsinə son qoyub. Mən münaqişənin və İkinci Qarabağ müharibəsinin əvvəlində demişdim, bu gün də bunu böyük qürur hissi ilə bir daha deyirəm ki, məsələnin hərbi-siyasi həll yolları var idi və Azərbaycan bunu döyüş meydanında sübut edib. Biz düşməni məcbur etdik ki, kapitulyasiya aktına imza atsın və beləliklə, bizim bu günə qədər işğal altında qalan Ağdam, Laçın və Kəlbəcər rayonları da yaxın günlərdə Azərbaycana qayıdır. Amma baxın, görün, mənfur düşmən hansı vəhşiliklər törədir – evləri yandırırlar, məktəbləri yandırırlar, ağacları qırırlar, elektrik xətlərini qırırlar. Bütün dünya bunu görür, bütün aparıcı beynəlxalq kanallar bunu göstərir. Nə vicdan var, nə utanmaq var, nə əxlaq var. Ona görə İkinci Qarabağ müharibəsində qazanılmış qələbə böyük tarixi əhəmiyyətə malikdir. Bu, təkcə Azərbaycanın öz doğma torpaqlarının işğalçılardan azad edilməsi məsələsi deyil. Bu, eyni zamanda, bütün dünyaya, bütün işğalçılara göstərir ki, onların sonu bax, belə ola bilər. İşğalçıların, qəsbkarların sonu belə olacaq.

Bu gün bu gözəl təməlqoyma mərasimi böyük rəmzi məna daşıyır. Biz işğaldan azad edilmiş Füzuli şəhərindən və ona qədər olan kəndlərdən Füzuli şəhərinə qədər və Füzuli şəhərindən Şuşa şəhərinə yeni yol çəkirik. Bu yol heç vaxt olmayıb. Azərbaycan vətəndaşları yəqin bilirlər ki, Şuşaya sovet vaxtında yol Ağdam ərazisindən gedirdi - Ağdam-Xankəndi-Şuşa yolu. İndi bu yoldan istifadə etmək hələ ki, mümkün deyil.

Bu gözəl hadisə münasibətilə bütün Azərbaycan xalqını bir daha ürəkdən təbrik edirəm. Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva yol işçiləri ilə xatirə şəkli çəkdirdilər.

* * *

Qeyd edək ki, Füzuli rayonuna gedən yolun ətrafında bir vaxtlar həyat qaynayıb, bu kəndlərdə insanlar firavan və sülh içində yaşayıblar. Ancaq ermənilər tərəfindən torpaqlarımızın işğala məruz

qalmasından sonra azərbaycanlılar öz dədə-baba torpaqlarından qovulublar, erməni vandalları tərəfindən evlər yerlə-yeksan edilib. Onlar daşı daş üstündə qoymayıblar, azərbaycanlıların tikdiyi evləri vəhşicəsinə dağıdıblar. Bunlar ermənilərin əməllərinin nəticəsidir.

Dövlətimizin başçısı və birinci xanım işğaldan azad olunmuş Füzuli şəhərinə gəldilər.

Prezident İlham Əliyev Füzuli şəhərində şanlı Azərbaycan bayrağını qaldırdı. Bu görüntülər Azərbaycanın müasir tarixinin ən şanlı səhifələrindəndir. Müzəffər Ali Baş Komandan qəhrəman Azərbaycan Ordusunun işğaldan azad etdiyi tarixi torpağımızda üçrəngli bayrağımızı qaldırdı.

Prezident İlham Əliyev dedi:

-Füzuli şəhəri işğalçılardan azad edilib. Füzuli şəhərində Azərbaycan bayrağı qaldırılıb. Biz Füzuliyə qayıtmışıq. Ancaq indi yol boyunca dağıdılmış kəndləri və Füzuli şəhərini dağılmış vəziyyətdə görəndə adamın ürəyi ağrıyır. Vəhşilər bizim şəhərimizi nə günə salıblar?! Dağıdıblar, evləri dağıdıblar, bütün infrastrukturu dağıdıblar, bir dənə də salamat bina yoxdur. Bütün dünya görməlidir erməni vəhşiliyi nə deməkdir və bütün dünyaya biz bunu göstərəcəyik. Təkcə Füzuli yox, Ağdam şəhəri nə gündədir, başqa şəhərlər. Sanki bu torpaqlardan bir vəhşi qəbilə keçib. Hər şeyi dağıdıb, talan edib, bizim mədəni, tarixi, dini irsimizi silmək istəyib, ancaq istədiyinə nail ola bilməyib. Çünki biz gəlməli idik, qayıtmalı idik. Gəlmişik və qayıtmışıq. Düşməni qovmuşuq torpaqlarımızdan, Azərbaycanın Dövlət Bayrağını ucaltmışıq. Bundan sonra bu torpaqda biz yaşayacağıq, necə ki, əsrlərboyu biz yaşamışıq, bizim xalqımız yaşayıb.

Mənfur düşmən Füzulinin adını da dəyişdirib, bir eybəcər ad qoyubdur. Füzuli bizim dahi, böyük şairimiz Məhəmməd Füzulinin adını daşıyır. Biz bu adı bərpa etmişik. Dağıdılmış Füzuli şəhəri erməni faşizminin canlı şahididir. Bütün dünya bunu görməlidir və səssiz qalmamalıdır, necə ki, 30 il səssiz qalıb, 30 il biganə qalıb. O biganəlik faktiki olaraq erməni işğalını möhkəmləndirirdi. Bizi sanki bu vəziyyətlə barışmağa sövq edirdilər, sülh yolu ilə məsələ həll olunsun, ildən-ilə, 30 il ərzində biz eyni sözləri eşidirdik – münaqişənin hərbi həlli yoxdur, bu məsələ sülh yolu ilə həll olunmalıdır. Amma biz sübut etdik ki, münaqişənin həlli var, o cümlədən hərbi həlli var. Bizim qəhrəman hərbçilərimizin şücaəti, rəşadəti hesabına, şəhidlərimizin qanıcanı bahasına biz bunu bütün dünyaya sübut etmişik, münaqişənin hərbi həlli var və biz buna nail olmuşuq. Əgər bu hərbi həll olmasaydı, düşmən kapitulyasiya aktını imzalamazdı. Müharibənin ilk günlərindən mən deyirdim, Ermənistan rəhbərliyi, Ermənistanın ali baş komandanı, - əgər o adama, ümumiyyətlə, bu adı aid etmək mümkündürsə, - bəyan etməlisiniz, cədvəl verməlisiniz, nə vaxt hansı rayondan çıxırsınız. Ondan sonra biz müharibəni dayandırarıq. Əks-təqdirdə sona qədər gedəcəyik və getdik də. Füzuli, Hadrut, Cəbrayıl, Zəngilan, Qubadlı, Şuşa və Şuşadan bir gün sonra 70-dən çox kənd azad edildi, bütövlükdə 300-dən çox yaşayış məntəqəsi azad edildi, düşmənin beli qırıldı, düşmən diz çökdü və məcbur oldu noyabrın 10-da o kapitulyasiya aktına imza atdı, məhz bizim gücümüz hesabına. Biz düşməni məcbur etmişik, biz düşmənə yerini göstərmişik, biz Azərbaycan xalqının böyüklüyünü göstərmişik.

Otuz il ərzində həm Ermənistan rəhbərliyi, həm onların havadarları, ermənipərəst, azərbaycanafob qüvvələr tərəfindən ortalığa müxtəlif uydurmalar atılırdı ki, bəli, Ermənistanın güclü ordusu var, erməni xalqı döyüşkən xalqdır, Azərbaycan xalqı döyüşə bilmir. Məhv etmişik bu uydurmanı, göstərmişik ki, kim döyüşkən xalqdır, göstərmişik ki, kim müzəffər xalqdır. Sadəcə olaraq, 1990-cı illərin əvvəllərində Azərbaycanın başında duranlar ordu quruculuğuna fikir verməmişdilər, ölkəmizi xaosa, anarxiyaya sürükləmişdilər. O illərdə bizim torpaqlarımız işğal altına düşəndə ovaxtkı hakimiyyət vətəndaş müharibəsi başlamışdı, AXC-Müsavat cütlüyü öz əsgərlərini əsir götürmüşdü, Gəncəni bombalamışdı. Ona görə torpaqlar əldən getdi. İndi bax, Ermənistan əhalisi Azərbaycan əhalisinin yaşadığı illəri - 1992-ci illəri yaşayır.

Azərbaycan xalqı o mənfur hakimiyyəti bir ildən sonra yox etdi, süpürüb atdı. Heydər Əliyev hakimiyyətə gələndən sonra bütün müsbət meyillər inkişaf etməyə başlamışdır. Bu gün bizim ordumuz dünya miqyasında güclü ordular sırasındadır. Biz bütün dünyaya göstərmişik ki, yenilməz xalq Azərbaycan xalqıdır, müzəffər ordu Azərbaycan Ordusudur. Erməni mifini məhv etdik, erməni uydurmalarını məhv etdik, onları yerinə oturtduq, onlar bizim qabağımızda diz çöküblər və onlar bundan sonra bu damğa ilə yaşayacaqlar, rəzalət damğası ilə yaşayacaqlar. Biz isə bundan sonra qürur hissi ilə yaşayacağıq - müzəffər xalq kimi, güclü dövlət kimi, yenilməz ordu kimi, güclü iradə sahibi kimi.

Bu 44 gün ərzində demək olar ki, müntəzəm surətdə müxtəlif mənbələrdən, müxtəlif ünvanlardan müxtəlif təzyiqlər, təhdidlər olurdu, sifarişlər, mesajlar, siqnallar göndərilirdi. Mən demişdim ki, heç kim bizim qabağımızda dura bilməz, sona qədər gedəcəyik. Mənfur düşmən şərtlərimizi qəbul etməlidir, dəqiq tarix göstərməlidir və məcbur olub göstərdi də. Ona görə bu günlərdə Azərbaycan xalqı, bütün dünya azərbaycanlıları möhtəşəm Qələbəmizi böyük qürur hissi ilə qeyd edir. Bu Qələbə bizim xalqımıza yaraşır, igid oğullarımıza yaraşır, dövlətimizə yaraşır və bu Qələbə gücümüzü göstərdi. Onu göstərdi ki, heç vaxt Azərbaycan bu vəziyyətlə barışmayacaq. Mən 17 il ərzində ölkə Prezidenti və Ali Baş Komandan kimi dəfələrlə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı öz sözlərimi demişdim. Demişdim, biz heç vaxt imkan verə bilmərik ki, tarixi Azərbaycan torpağında ikinci erməni dövləti yaradılsın. Demişdim ki, heç vaxt

Azərbaycanın ərazi bütövlüyü danışıqlar mövzusu olmayıb və olmayacaq. Demişdim ki, Azərbaycan öz ərazi bütövlüyünü bərpa edəcək. Demişdim ki, sülh yolu ilə mümkün olmasa, hərbi yolla bunu bərpa edəcəyik. Mənim çıxışlarım hər yerdə var, dərc edilib. Bu sözləri demişəm və buna əməl etmişəm. Ərazi bütövlüyümüzü bərpa etmişik, işğalçıları işğal edilmiş torpaqlardan qovmuşuq, ikinci erməni dövlətinin yaradılmasına imkan verməmişik, heç bir status haqqında söhbət gedə bilməz. Vahid Azərbaycan dövləti var. Çoxmillətli, çoxkonfessiyalı, mütərəqqi Azərbaycan dövləti var. Bütün Azərbaycan vətəndaşları, bütün xalqların, dinlərin nümayəndələri normal yaşayırlar, mehribanlıq, sülh şəraitində yaşayırlar. Erməni xalqı da belə yaşayacaq. Bizim erməni xalqı ilə işimiz yoxdur. Mən bu 44 gün ərzində çoxsaylı müsahibələrimdə demişəm, onlar bizim vətəndaşlarımızdır və onlar görəcəklər ki, Azərbaycan rəhbərliyi altında onlar yaxşı yaşayacaqlar, onlar kriminal, qorxaq xunta rejimindən öz yaxasını qurtarmalıdırlar. Dağlıq Qarabağın separatçı rəhbərləri qorxaqdırlar. Onların qorxaqlığını orada yaşayan ermənilər görüblər, Ermənistanda yaşayan ermənilər görüblər. Nə qədər adam fərarilik edib. Onların o xunta başçısı bunkerdə gizlənmişdi, burnunu belə bayıra çıxara bilmirdi. Bəs hanı sənin hünərin, cəsarətin?!

Biz Ermənistan ordusunu çökdürdük və eyni zamanda, Ermənistana uzun illər rəhbərlik etmiş cinayətkarlara da dərs verdik. Paşinyan son iki il ərzində öz ölkəsini məhv edib və indi, sadəcə olaraq, fikirləşir ki, öz canını erməni xalqının qəzəbindən necə qurtarsın?! Biz Koçaryan-Sarkisyan ordusunu məhv etdik. Onlar bizim torpaqlarımızı dağıdıblar. Onlar bu dəfə qorxaqcasına heç burunlarını soxa bilmədilər Dağlıq Qarabağ ərazisinə. Bəs hanı sizin qəhrəmanlığınız? Döşünüzə taxmısınız saxta "qəhrəman" ordenlərini, çıxardın atın eşiyə o dəmir-dümürləri, sizi biz məğlub etmişik. Paşinyan heç kimdir. Koçaryan və Sarkisyan, Azərbaycan xalqının cəlladları, Xocalı cəlladları, sizi biz məğlub etmişik, sizin ordunuzu məhv etmişik. Əgər kapitulyasiya aktı Ermənistan tərəfindən imzalanmasaydı, özləri bilirlər nə ilə qurtaracaqdı bu müharibə. Bax, budur bizim gücümüz, budur bizim birliyimiz. Dəmir yumruq sizin başınızı əzdi və bundan sonra artıq heç kim bizimlə ultimatum dili ilə danışmayacaq. O cümlədən rəzil vəziyyətdə olan Paşinyan, bizə yeddi şərt irəli sürdü, başına vurduq bütün o şərtləri. Nə oldu o şərtlər? Mənim bir şərtim var idi, rədd ol, çıx get və o şərtə əməl edildi. Güc hesabına, birlik hesabına, igidlərimiz hesabına, şəhidlərimiz hesabına. Burada, işğaldan azad edilmiş Füzuli şəhərində bir daha bütün şəhidlərimizə Allahdan rəhmət diləyirəm, onların yaxınlarına səbir diləyirəm, onların valideynlərinə təşəkkürümü bildirirəm ki, dövlətimiz üçün, xalqımız üçün belə igidlər yetişdiriblər. Onların xatirəsi bizim qəlbimizdə əbədi yaşayacaq. Bütün yaralı hərbçilərimizə Allahdan şəfa diləyirəm, əminəm ki, onlar tezliklə normal həyata qayıdacaqlar, onlar daim diqqət mərkəzində olacaqlar.

Bizim bütün hərbçilərimiz, Füzuli və işğaldan azad edilmiş başqa torpaqlarda yaşamış sakinlər bilməlidirlər ki, biz bütün bu yerləri bərpa edəcəyik. Mən demişdim, Füzulidə bir dənə də bina tapılmadı ki, orada Azərbaycan bayrağı ucaldılsın. Amma biz bərpa edəcəyik. İndi müvafiq göstərişlər verildi, planlı şəkildə bunu edəcəyik, beynəlxalq ekspertləri dəvət etmişik, onlar da gələcəklər. Bütün dəymiş ziyanı birlikdə hesablayacağıq. Ondan sonra şəhərsalma üzrə mütəxəssisləri - həm Azərbaycan mütəxəssislərini, həm xarici mütəxəssisləri dəvət edəcəyik. Onlar da gələcəklər, yeni bir şəhərsalma planı qurulacaqdır. Kəndlərin, şəhərlərin, infrastrukturun, ekologiyanın bərpası – bütün bu planlar var. Hamısını icra edəcəyik, İnşallah, hamısını! Allahın köməyi ilə hamısını icra edəcəyik. Necə ki, torpaqlarımızı qaytardıq, düşməni məhv etdik, bu üçrəngli bayrağımızı ucaltdıq, bütün qalan məsələləri də həll edəcəyik. Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!

* * *

Dövlətimizin başçısı sükan arxasında yolda gedərkən yol kənarına toplaşan insanları gördü və avtomobili saxlayaraq onlarla görüşdü.

* * *

Cəbrayıla gedərkən avtomobili özü idarə edən Prezident İlham Əliyev dedi:

-Cəbrayıl rayonu. Gedirik Xudafərin körpüsünün yanına. Xudafərin körpüsü qabaqdadır.

Bu da Azərbaycan vətəndaşlarının vəhşi düşmən tərəfindən dağıdılmış evləridir.

Araz çayı, Azərbaycan-İran sərhədi. Dostluq sərhədidir.

Yol boyunca düşmənin dağıtdığı kəndləri görərkən bir daha şahidi oluruq ki, biz hansı vəhşi düşmənlə üzüzəyik. Bunları gördükcə bir daha adam əmin olur ki, biz təkcə öz ərazi bütövlüyümüzü bərpa etməmişik, biz yırtıcı düşməni məhv etmişik. Dünyada bir çox müharibələr olub, bu gün də gedir. Bu gün də bəzi yerlərdə işğal davam edir. Amma inanmıram ki, kimsə bu qədər qəddar, bu qədər qeyri-insani bir düşmənlə üz-üzə qalsın.

Bizim tarixi qələbəmiz erməni faşizmi üzərində əldə edilmiş qələbədir. Bizim zəfərimiz haqqın, ədalətin bərpasıdır. Bu gün, noyabrın 16-sı mənim həyatımda xüsusi tarix olaraq qalacaq. Çünki bir neçə dəqiqədən sonra biz qədim memarlıq abidəmiz olan Xudafərin körpüsünə yaxınlaşacağıq.

Bu dağlar artıq bizimdir, həmişə bizim olub. Ancaq 30 ilə yaxın düşmən bu dağlarda, bu torpaqlarda, bizim dədə-baba torpaqlarımızda oturub, bizə meydan oxuyub.

Vəhşi düşmən tərəfindən dağıdılmış evlərin hamısını bərpa edəcəyik.

Bu da Xudafərin su anbarıdır.

Bizdən aşağıda Araz çayıdır. İndi tunelə giririk. O tərəf qonşu dövlət İran İslam Respublikasıdır.

* * *

Dövlətimizin başçısı və birinci xanım Xudafərin körpüsünə gəldilər. Bu anlar da tariximizin səhifələrinə qızıl hərflərlə yazılacaq.

Prezident İlham Əliyev Xudafərin körpüsündə şanlı Azərbaycan bayrağını qaldırdı. Dövlətimizin başçısının bayrağımızı tarixi Xudafərin körpüsündə qaldırması Azərbaycan xalqı üçün qürur və fəxarətdir. Xalqımızın mənəviyyatında, tarixində dərin iz buraxan Xudafərin həm də milli qürur məsələsi idi.

Sonra Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Araz çayının sahilini gəzdilər, Xudafərin körpüsünün önündə xatirə şəkilləri çəkdirdilər.

Daha sonra dövlətimizin başçısı və birinci xanım Cəbrayıl şəhərinə yola düşdülər.

Cəbrayıl şəhərinə gedən yolun ətrafı da eyni vəziyyətdədir. Budur, erməni işğalçılarının çirkin üzü. Bu, erməni vandallarının əsl mahiyyətini ortaya qoyur, onların kimliyini göstərir.

Prezident İlham Əliyev: Cəbrayıl şəhərinə giririk. Düşmən burada özü üçün hərbi hissələr yaradıb. Şəhərdə hərbi hissələrdən başqa bir şey yoxdur.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva oktyabrın 4-də işğaldan azad edilmiş Cəbrayıl şəhərinə gəldilər.

Xalqımızın uzun illər həsrətində olduğu anları yaşadıq. Dövlətimizin başçısı, Ali Baş Komandan Cəbrayıl şəhərində də üçrəngli bayrağımızı qaldırdı.

Prezident İlham Əliyev: Cəbrayıl şəhəri işğaldan azad edilib, Azərbaycanın Dövlət Bayrağı ucaldılıb. Bütün Azərbaycan xalqını təbrik edirəm. Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!

Gedək baxaq bəzi binalara.

Bura düşmənin polis idarəsi olub. İndi Azərbaycan polisi keşik çəkir.

Baxın, mənfur düşmən Cəbrayıl şəhərini nə günə salıb. Bütün dünya bunu görsün. Görsün və bilsin ki, biz hansı yaramaz düşmənlə üz-üzəyik. Bütün binaları dağıdıblar, talan ediblər. Onların məqsədi var idi ki, bundan sonra burada heç vaxt azərbaycanlı insanlar yaşamasınlar. Yaşayacağıq, əbədi yaşayacağıq. Hamısını bərpa edəcəyik, hamısını. Baxın nə günə qoyublar. Otuz il ərzində bu barədə hansısa bir beynəlxalq qurum bir məsələ qaldırıbmı? Burada monitorinq aparılıbmı? İndi bütün dünya görəcək Cəbrayıl şəhərini nə günə salıblar.

Bura Cəbrayıl şəhərinin mərkəzidir. Bir dənə də salamat bina yoxdur. Bir dənə də salamat bina qoymayıblar. Yalnız orada özləri üçün hərbi hissə tikiblər. Bütün qalan infrastruktur, evlər, binalar, məktəblər, ictimai binalar - hamısı düşmən tərəfindən sökülüb.

Cavab verəcəklər. Beynəlxalq məhkəmələrdə cavab verəcəklər. Mən demişəm, bir daha demək istəyirəm ki, beynəlxalq qurumlar gələcək, ekspertlər gələcək, bütün ziyan hesablanacaq. Otuz il ərzində bizə vurulmuş ziyan hesablanacaq. Bu günlərdə Kəlbəcəri dağıdan, meşələri qıran, binaları, məktəbləri yandıran düşmən onun da cavabını verəcək.

Onlar hesab edirdilər ki, bu dağıntılardan sonra Azərbaycan əhalisi heç vaxt buraya qayıtmayacaq. O məqsədlə buranı dağıdıblar. Amma səhv ediblər. Biz qayıtmışıq. Bax, durmuşuq burada, öz doğma torpağımızda, Cəbrayıl şəhərində. Bütün buraları bərpa edəcəyik.

Yeni böyük baş plan tərtib ediləcək. Müvafiq göstərişlər verilib. Hər bir şəhər üçün xüsusi baş plan tərtib ediləcək. Burada bütün inzibati binalar, ictimai binalar, məktəblər, tibb ocaqları yaradılacaq. Bütün infrastruktur yaradılacaq. Küçələr salınacaq, parklar, xiyabanlar salınacaq. Bütün şəhərlərdə qələbə abidələri ucaldılacaq və həyat qayıdacaq.

Yenə də Azərbaycan vətəndaşları burada yaşayacaqlar, quracaqlar, yaradacaqlar. Amma bugünkü tarix heç vaxt silinməyəcək. Erməni vəhşiliyinin canlı şahidləridir, bax, bu dağılmış evlər. Bu evlərdə Azərbaycan vətəndaşları yaşayıb, mülki vətəndaşlar yaşayıb. Mənfur düşmən gəlib onları öz torpaqlarından didərgin salıb, onların binalarını dağıdıb, onların əmlakını mənimsəyib, talayıb. Düşmən oğru, əxlaqsız, vicdansız bir düşməndir. Mən bir daha demək istəyirəm ki, bizim parlaq Qələbəmiz təkcə ölkəmizin ərazi bütövlüyünün bərpası deyil. Bu, şərlə xeyir qüvvələrinin mübarizəsidir. Şər qüvvələri məğlub olub, amma biz qalib gəlmişik. Çünki biz qurub yaradanıq. Ermənilər isə bax, bunları ediblər, dağıdıblar.

Bərpa edəcəyik bunları, hamısını bərpa edəcəyik. Azərbaycan xalqı bir daha öz böyüklüyünü göstərəcək. Bir daha bütün dünyaya sübut edəcəyik ki, biz böyük xalqıq. Biz qayıtmışıq, vuruşa-vuruşa qayıtmışıq. Heç kim bizə bu torpaqları bağışlamayıb. Heç bir beynəlxalq təşkilat təcavüzkara təzyiq göstərməyib. Heç kim onlardan tələb etməyib ki, BMT Təhlükəsizlik Şurasının qətnamələrini icra etsin. Sadəcə olaraq, nə hərb, nə sülh, hər şeyi dondurulmuş vəziyyətdə saxlamaq, işğalı əbədiləşdirmək, bizim tarixi torpaqlarımızın tarixi irsini silmək, torpaqlarımızı erməniləşdirmək, şəhərlərimizə, kəndlərimizə eybəcər erməni adları vermək və bu məsələni Azərbaycan xalqının yaddaşından silmək idi onların məqsədi. Amma səhv etdilər. Dəfələrlə demişəm ki, biz bu işğalla heç vaxt barışmayacağıq. Hər bir cəbrayıllı bir arzu ilə yaşayırdı ki, öz dədə-baba torpağına qayıtsın.

Haqq-ədalət zəfər çaldı. Müzəffər Azərbaycan Ordusu zəfər çaldı. Düşmənin beli qırıldı. Düşmən torpaqlarımızdan qovuldu. Azərbaycan bayrağı işğaldan azad edilmiş torpaqlarda qaldırıldı və əbədi dalğalanacaq.

Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!

## *Ağdam şəhərinə səfər*

Noyabrın 23-də Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyev və birinci xanım Mehriban Əliyeva işğaldan azad edilmiş Ağdam şəhərində olublar.

Dövlətimizin başçısı Ağdamda Azərbaycanın üçrəngli bayrağını qaldırdı. İyirmi yeddi ildən sonra işğaldan azad olunan Ağdamda indi dövlət bayrağımız qürurla dalğalanır. Bu görüntüləri hər bir azərbaycanlı fəxrlə və böyük sevinclə izləyir.

Bir vaxtlar qaynar həyatın olduğu, əməksevər insanların qurub-yaratdıqları abad şəhərdən əsər-əlamət qalmayıb. Erməni işğalçılar xislətlərinə uyğun olaraq, Ağdamın ağ damlarını xarabalığa çeviriblər, şəhəri darmadağın ediblər.

Sonra dövlətimizin başçısı və birinci xanım Ağdam məscidini ziyarət etdilər. Xocalı soyqırımında sağ qalan xocalıların ümid, pənah yerinə çevrilən qoşa minarəli məscid də yırtıcı düşmən tərəfindən vəhşicəsinə dağıdılıb.

Prezident İlham Əliyev Məkkədən gətirdiyi “Qurani-Kərim”i Ağdam məscidinə bağışladı.

Dövlətimizin başçısı Ağdam məscidinin qarşısında çıxış etdi.

**Prezident İlham Əliyevin çıxışı**

-Əziz həmvətənlər.

Bildiyiniz kimi, noyabrın 20-də Ağdam şəhəri və Ağdam rayonunun işğal altında olan hissəsi işğaldan azad edilib. Bu münasibətlə mən Azərbaycan xalqını təbrik etmişdim, ağdamlıları təbrik etmişdim. Bu gün mən buradayam, Ağdam şəhərindəyəm. Ağdam məscidini ziyarət etmişəm, Azərbaycan Dövlət Bayrağını qaldırmışam. Biz Ağdama qayıtmışıq. Bütün ağdamlıları bu tarixi hadisə münasibətilə bir daha təbrik etmək istəyirəm. Bilirəm ki, ağdamlılar bu günü uzun illər ərzində səbirsizliklə gözləyiblər. Həm işğal dövründə - 30 ilə yaxın müddət ərzində, eyni zamanda, İkinci Qarabağ müharibəsi, Vətən müharibəsi dövründə gözləyirdilər ki, Ağdam işğaldan nə vaxt azad ediləcək. Biz öz tarixi missiyamızı şərəflə yerinə yetirdik, işğal olunmuş torpaqları düşməndən azad etdik. Döyüş meydanında əldə edilən qələbə imkan verdi ki, Ağdam rayonu, eyni zamanda, Kəlbəcər və Laçın rayonları bir güllə atmadan, bir şəhid vermədən işğaldan azad edilsin.

Biz bu torpaqlara Azərbaycan xalqının, şəhidlərimizin canı, qanı bahasına, qəhrəmanlarımızın şücaəti hesabına qayıtmışıq. Biz güc toplamalı idik və toplayırdıq. Mən son 17 il ərzində xalqa müraciət edərkən dəfələrlə deyirdim ki, biz daha güclü olmalıyıq, daha qüdrətli ordu qurmalıyıq. Bu gün dünyada güc amili həlledici rol oynayır. Haqq-ədalət bizim tərəfimizdədir, beynəlxalq hüquq bizim tərəfimizdədir, güc də bizim tərəfimizdə olmalıdır. Məhz gücümüzün yetərli dərəcədə olmaması nəticəsində Azərbaycan 1990-cı illərin əvvəllərində işğala məruz qalmışdır. Biz güc toplayırdıq, güclənirdik. Mən deyirdim ki, hər gün hər bir Azərbaycan vətəndaşı bu müqəddəs günü, bu zəfər gününü öz əməyi, zəhməti, Vətənə olan sədaqəti ilə yaxınlaşdırmalıdır.

Biz beynəlxalq müstəvidə böyük işlər apardıq və mən öz çıxışlarımda xalqa bu barədə kifayət qədər məlumat vermişdim. Bu gün, müharibə başa çatandan sonra və hətta müharibə dövründə bütün dünya, bütün Azərbaycan xalqı gördü ki, bunun nə qədər böyük əhəmiyyəti var idi. Əgər biz münaqişənin həlli üçün lazımi hüquqi baza yaratmasaydıq, bu gün problemlərlə üzləşə bilərdik. Biz bütün beynəlxalq təşkilatlarda ədaləti, beynəlxalq hüququ tanıyan, əks etdirən qərar və qətnamələr qəbul etdirdik. BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsi 1993-cü ildə qəbul edilmişdir. Amma ondan sonra biz BMT Baş Assambleyasının qətnamələrini, İslam Əməkdaşlıq Təşkilatının qətnamələrini, Qoşulmama Hərəkatının, Avropa Parlamentinin, Avropa Şurası Parlament Assambleyasının qərar, qətnamələrini qəbul etdirərək münaqişənin həlli üçün çox möhkəm hüquqi baza yaratdıq. 2003-cü ildən bu günə qədər bütün bu lazımi addımlar atıldı və biz siyasi müstəvidə qələbə qazandıq. Eyni zamanda, iki il bundan əvvəl Avropa İttifaqı ilə Azərbaycan arasında paraflanmış “Tərəfdaşlıq prioritetləri” sənədində də Azərbaycanın suverenliyi, ərazi bütövlüyü və sərhədlərimizin toxunulmazlığı haqqında açıq ifadələr var. Bu, bizim böyük uğurumuzdur. Çünki uzun illər ərzində biz buna nail ola bilməmişdik. Bəzi beynəlxalq təşkilatlar işğalçını öz adı ilə çağırmaq istəmirdilər. Bəzi beynəlxalq təşkilatlar işğalla bağlı qəbul edilmiş sənədlərdə işğalçının kim olduğunu göstərmək istəmirdilər. Hətta BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsində Ermənistan işğalçı dövlət kimi göstərilmədi. Orada “erməni qüvvələri” yazılmışdı.

Biz son 17 il ərzində münaqişənin həlli üçün hüquqi baza yaratdıq. Mən bütün beynəlxalq təmaslarımda Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı Azərbaycanın mövqeyini, tarixi həqiqətləri və mövcud vəziyyəti bütün həmkarlarıma çatdırmışdım. Mənim demək olar ki, bütün ikitərəfli beynəlxalq təmaslarımda Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi xüsusi yer alır. Mənim bütün çıxışlarıma baxmaq kifayətdir. Son 17 il ərzində demək olar ki, bütün çıxışlarımda bu məsələ ilə bağlı öz fikrimi bildirmişdim, dünya ictimaiyyətini məlumatlandırmışdım. Çünki əfsuslar olsun ki, 1990-cı illərin əvvəllərində münaqişə ilə bağlı dünyada dolğun təsəvvür yox idi, təhrif edilmiş məlumat var idi. Erməni lobbisi tərəfindən ortalığa atılmış məlumat var idi. Əks təqdirdə, bizim torpaqlarımız işğal altına düşə-düşə Amerika Konqresi məşhur 907-ci düzəlişi qəbul etməzdi. Azərbaycan torpaqları işğal altına düşürdü,

ancaq Amerika Konqresi Azərbaycanı təcavüzkar kimi tanımışdır və bizi humanitar yardımdan məhrum etmişdir. O vaxt erməni lobbisi buna nail oldu. Azərbaycan diplomatiyası, sadəcə olaraq, onların qarşısında adekvat addım ata bilməmişdir.

Biz informasiya müharibəsində qələbə qazandıq. Biz Xocalı soyqırımı haqqında dünyaya dolğun məlumat verdik. Xocalı soyqırımı haqqında dünyada məlumat yox idi. “Xocalıya ədalət!” kampaniyası, 10-dan çox ölkə tərəfindən Xocalı soyqırımının soyqırımı kimi tanınması demək olar ki, münaqişə ilə bağlı həqiqəti əks etdirən mənzərəni yaratdı və dünya ictimaiyyətinə çatdırdı.

Biz - Qoşulmama Hərəkatına sədrlik edən ölkə BMT-dən sonra ikinci böyük təsisat olan Qoşulmama Hərəkatına sədrlik etdiyimiz dövrdə də bu məsələni diqqət mərkəzində saxlamışıq. Bu gün 120 ölkəni birləşdirən təşkilata Azərbaycan sədrlik edir. Keçən il Zirvə görüşü keçirilmişdir. Bu gün Azərbaycan xalqı bir daha görür ki, bunun nə qədər böyük önəmi var idi. Çünki İkinci Qarabağ müharibəsi dövründə BMT-də, BMT Təhlükəsizlik Şurası tərəfindən yeni qətnamənin qəbul edilməsi cəhdləri də baş vermişdir. O qətnamə qəbul edilsəydi, əlbəttə ki, bizi dayandıra bilməzdi, ancaq lazım olmayan bir mənzərə yarada bilərdi. Məhz Qoşulmama Hərəkatına üzv ölkələr o qətnamənin qəbul olunmasına imkan vermədilər, bizi dəstəklədilər. Mən də onlara təşəkkürümü bildirdim və demişdim ki, onlar bizim arxamızda kişi kimi durdular. Baxmayaraq ki, böyük dövlətlər onlara böyük təzyiqlər göstərirdi. Qoşulmama Hərəkatının bir çox üzvləri Azərbaycanı həm müstəqil, həm güclü, həm də onları müdafiə etməyə hazır olan ölkə kimi tanıyır. Biz pandemiya dövründə 30-dan çox ölkəyə humanitar maliyyə yardımı göstərmişik, o cümlədən Ümumdünya Səhiyyə Təşkilatının xətti ilə Qoşulmama Hərəkatına xüsusi bir yardım göstərmişik. Görülmüş bütün bu işlər səmərəsini verdi. Biz bizim üçün əsas məsələ olan Ermənistan-Azərbaycan Dağlıq Qarabağ məsələsində lazımi beynəlxalq dəstəyi ala bildik.

Biz bu gün təkcə Qoşulmama Hərəkatına yox, eyni zamanda, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasına da sədrlik edirik. Bizim beynəlxalq nüfuzumuz kifayət qədər yüksəkdir və bu, münaqişənin həlli üçün xüsusi rol oynamışdır.

Mən bu 17 il ərzində daim deyirdim ki, biz iqtisadi sahəyə güclü təkan verməliyik, iqtisadi müstəqilliyimizi təmin etməliyik və təmin etdik. Bu gün biz iqtisadi cəhətdən heç kimdən asılı deyilik. Asılı olsaydıq, bizə təzyiqlər edilə bilərdi. Onsuz da edilmişdi, ancaq onların heç bir səmərəsi olmadı. Çünki bizə qarşı iqtisadi amildən istifadə etmək mənasızdır. Biz heç kimdən asılı deyilik, hansısa ölkədən, hansısa beynəlxalq maliyyə qurumundan asılı deyilik. Əksinə, biz özümüz indi donor ölkəyik, biz özümüz indi kreditlər veririk. Bizim kifayət qədər güclü iqtisadi potensialımız və maliyyə resurslarımız imkan verdi ki, iqtisadi müstəqilliyi tam təmin edək. Bu da qələbənin əldə edilməsində xüsusi rol oynayırdı. Çünki əgər biz iqtisadi cəhətdən müstəqil olmasaydıq, biz siyasi müstəqillik əldə edə bilməzdik. Siyasi müstəqillik olmadan torpaqlarımızı düşməndən azad edə bilməzdik. O düşməndən ki, onların arxasında böyük dövlətlər, o dövlətlərin çox nüfuzlu dairələri, erməni lobbi təşkilatları dayanır.

Bu amillər gücümüzü artırdı, qələbəmizi şərtləndirdi. O amillərin arasında birinci nömrəli məsələ hərbi gücümüzdür. Mən dəfələrlə demişdim ki, bizim üçün hərbi gücümüzün möhkəmləndirilməsi birinci məsələdir. Təsadüfi deyil ki, mənim prezidentlik dövrümdə bizim hərbi xərclərimiz hər il büdcə xərcləri arasında birinci yerdə idi. Mən deyirdim və ya vətəndaşlara izah edirdim ki, bəli, bizim çoxlu başqa məsələlərimiz var, həllini gözləyən problemlər var. Ancaq bizim əsas problemimiz torpaqlarımızın işğal altında olmasıdır. Ona görə bizim xərclərimiz arasında birinci yerdə hərbi xərclər dayanır. Biz lazım olan texnikanı aldıq. Bu texnikanı, müasir silahları Azadlıq meydanında dəfələrlə keçirilmiş paradlarda nümayiş etdirirdik. Biz ordumuzu inkişaf etdirərkən ən qabaqcıl meyilləri nəzərdən keçirmişdik. Biz o silahları alırdıq ki, bu silahlar bizim üstünlüyümüzü təmin etsin və İkinci Qarabağ müharibəsi bunu göstərdi.

Bu gün bir çox ölkələrdə, inkişaf etmiş ölkələrdə bizim təcrübəmiz öyrənilir. Bu gün bu məsələ ilə məşğul olan bir çox ekspertlər qeyd edirlər ki, Azərbaycan XXI əsrin müharibəsini aparıb. XXI əsrdə ilk dəfə olaraq, bu miqyasda və bu səmərə ilə qısa müddət ərzində tarixi nailiyyətlər əldə edilib. İndi buraya gələrkən mən ən azı üç müdafiə xəttini gördüm. Amma mənə hərbçilər tərəfindən verilən məlumata görə, beş müdafiə xətti var. Füzulidə də, həmçinin. Biz bu əsgər və zabitlərimizin qəhrəmanlığı, peşəkarlığı sayəsində müdafiə xəttini yarmışıq. Biz texniki cəhətdən ən müasir silahlarla təchiz edilmişik və İkinci Qarabağ müharibəsi bunu göstərdi, o videogörüntülər var. İndi onlar bir çox ölkələrdə öyrənilir və öyrəniləcək, hərbi kitablara salınacaq.

Eyni zamanda, biz ordumuzun döyüş potensialını gücləndirirdik. Çünki tam aydın idi ki, təkcə silahlarla qələbə qazanmaq mümkün deyil. Bayrağı qaldıran, bayrağı düşmənin mövqeyinə sancan, azad edilmiş torpaqlara sancan əsgərdir, zabitdir. Bizim əsgər və zabitlərimiz aslan kimi vuruşdular. Şəhidlər verdik. Allah bütün şəhidlərimizə rəhmət eləsin! Onların valideynlərinə Allah səbir versin! Yaralı hərbçilərimiz var, onlar da sağalırlar. Onların bir çoxu artıq sağalıb. Allah onlara şəfa versin! Biz qəhrəman əsgər və zabitlərimiz hesabına qələbə qazanmışıq. Təkcə Şuşanın işğaldan azad edilməsi əməliyyatı, əminəm ki, tarixdə əbədi qalacaq. Demək olar ki, yüngül silahlarla dərədən, meşələrdən, dağlardan keçərək əlbəyaxa döyüşdə düşməni məhv etdik, Qarabağın tacı olan Şuşanı azad etdik.

Bax, bütün bu amillər bizim qələbəmizi şərtləndirdi. Mən bir daha qeyd etmək istəyirəm ki, ağdamlılar bu günü uzun illər ərzində - 30 ilə yaxın idi gözləyirdilər. Eyni zamanda, İkinci Qarabağ müharibəsi zamanı da gözləyirdilər. Mən bilirəm və hiss edirəm ki, bizim şəhərlərimiz, rayonlarımız, kəndlərimiz işğaldan azad olunduqca ağdamlılar da fikirləşirdilər ki, nə vaxt onların kəndləri, Ağdam şəhəri azad olunacaq. Cəbrayıl azad olundu, Füzuli azad olundu, Hadrut azad olundu, Zəngilan, Qubadlı, Suqovuşan, Şuşa azad olundu və yəqin ki, ağdamlılar fikirləşirdilər ki, nə üçün Ağdam azad olunmur? İndi mən bunu deyə bilərəm. Amma mən istəyirdim, bunu hansısa formada ağdamlılara çatdırım, amma onlar da başa düşürlər ki, müharibə dövründə bunu edə bilməzdim. Burada beş müdafiə xətti var. Düşmən bizi buradan gözləyirdi. Biz imkan verə bilməzdik ki, düşmənin gözlədiyi yerdən hücuma keçək. Biz bu istiqamətdə kifayət qədər böyük hərbi birləşmə saxlamışdıq ki, düşmənin hərbi qüvvələri də burada qalsın, başqa yerə getməsin. Füzulini, Hadrutu, Xocavənd rayonunun böyük hissəsini və Şuşanı azad edəndən sonra təbii ki, biz artıq Ağdam şəhərinə istiqamət götürmüşdük və əmr verilmişdi ki, növbəti istiqamət Ağdamdır. Düşmən də bilir və artıq etiraf edir ki, əgər onlar torpaqlarımızın azad edilməsi ilə bağlı mənim şərtlərimi qəbul etməsəydilər, burada məhv olacaqdılar. Çünki biz Ağdama gəlirdik.

Müharibənin bütün sirlərini açmaq hələ ki, tezdir. Vaxt gələcək çox maraqlı məsələlər üzə çıxacaq. Ancaq bu gün tam rahat deyə bilərəm ki, Ağdam əməliyyatı planlaşdırılırdı. Biz Ağdamı onsuz da alacaqdıq. Amma itkilər olacaqdı, özü də böyük sayda. Ona görə Şuşanı və noyabrın 9-da 70-dən çox kəndimizi azad edəndən sonra düşmənin beli qırıldı, təslim oldu, ağ bayraq qaldırdı, mənim şərtlərimə əməl etdi və öz məğlubiyyətini etiraf etdi.

Mən, demək olar ki, müharibənin ilk günlərindən çoxsaylı müsahibələrimdə və xalqa müraciətlərimdə demişdim ki, - bütün bunları qaldırmaq olar, hər şey sənədləşdirilib, - bizə tarix versin. Dedim, Paşinyan, sən özün, sənin xarici işlər nazirin, yaxud müdafiə nazirin yox, hansılar ki, bu məğlubiyyətə görə işdən qovuldular, sən özün, Paşinyan, bizə tarix verməlisən, özün deməlisən və buna nail oldum.

Əgər mənim sözümə qulaq assaydı, indi belə rəzil durumda olmazdı. Tam qətiyyətlə deyə bilərəm, biz işğal olunmuş torpaqlarımızı onsuz da azad edəcəkdik. Ancaq düşmən hesab edirdi ki, ona kimsə kömək edəcək. Hesab edirdi ki, onun bütün havadarları gəlib onun yerinə bizimlə vuruşacaq. Səhv etdi, böyük səhv etdi. Füzuli, Cəbrayıl, Hadrut, Zəngilan, Qubadlı, Şuşa, Suqovuşan, Xocavənd rayonunun böyük hissəsi döyüş meydanında işğaldan azad olunandan sonra düşmən diz çökdü və bu gün diz üstədir. Biz düşmənin belini qırdıq, biz şanlı Qələbə qazandıq. Biz bütün dünyaya sübut etdik ki, onların əfsanələri, onların mifləri hamısı boş şeydir. On mindən çox fərari var Ermənistan ordusunda və daha da çox olacaqdı. Əgər biz Ağdama planlaşdırdığımız əməliyyatı həyata keçirsəydik, bax, burada minlərlə erməni hərbçisi ya fərari olacaqdı, ya da məhv olacaqdı. Biz göstərdik ki, döyüşkən xalq Azərbaycan xalqıdır. Biz göstərdik ki, heç vaxt bu işğalla barışmayacağıq. Açsınlar baxsınlar mənim çıxışlarıma, mən son 17 il ərzində bəlkə də min dəfə demişəm, biz bu işğalla barışmayacağıq. Hesab edirdilər ki, bizim torpaqlarımızı işğal altında əbədi saxlayacaqlar. Çünki bu qədər xərc qoyan, burada, Füzulidə, Cəbrayılda bu qədər istehkam quranlar onu da istəyirdilər. Cəbrayıl rayonunun Soltanlı kəndi uğrunda bir neçə gün şiddətli döyüşlər gedirdi. Orada elə istehkamlar qurmuşdular ki, bəlkə də heç dünyada belə istehkamlar olmayıb. Nə üçün? Çıxmaq istəmirdilər. Hesab edirdilər ki, orada əbədi oturacaqlar. Erməniləşdirmək istəyirdilər. Bax, bütün Ağdam şəhəri dağıdılıb. Oranı onlar 1990-cı illərdə dağıdıblar ki, əgər sülh müqaviləsi imzalansa, Azərbaycan xalqı gəlib burada yaşaya bilməsin. Hər tərəf minalanıb. Ən çox minalar məhz buradadır. Amma səhv etdilər. Biz bütün bu illər ərzində bir amalla, bir arzu ilə yaşamışıq ki, bu torpaqlara qayıdaq və qayıtmışıq. Ermənistan ordusunu məhv etmişik. Ermənistan ordusu demək olar ki, yoxdur. Hərbi cinayətkarları məhv etmişik, onların törtöküntülərini məhv etmişik. Mən Füzuli şəhərində demişəm, bir daha demək istəyirəm, biz Koçaryan, Sarkisyan ordusunu məhv etmişik. Biz Koçaryana, Sarkisyana qarşı qüdrətimizi göstərmişik. Biz onları məğlub etmişik. Paşinyan kimdir, mən indi onun haqqında danışmaq istəmirəm, nə lazımsa demişəm. Koçaryan, Sarkisyan, siz diz çökdünüz bizim qabağımızda, siz buranı, işğal edilmiş bütün torpaqları bax, bu günə saldınız. Siz bu məscidi dağıtdınız. İkinci Qarabağ müharibəsi dövründə qaçıb gizləndilər. Döyüş bölgəsinə burunlarını da belə soxa bilmədilər. Bəs, haradadır sizin qəhrəmanlığınız? Dedim ki, çıxarın dəmir-dümürləri, onun qiyməti yoxdur. Qəhrəman ordenləri taxmısınız döşünüzə. Yalançı qəhrəmandırlar bunlar. Bax, mən burada durmuşam, dağıtdığınız məscidin önündə, dağıtdığınız Ağdam şəhərində, öz ordumla buraya gəlmişəm. Qalib kimi gəlmişəm. Siz isə öz miskin həyatınızın sonuna qədər məğlub edilmiş, qorxaq damğası ilə yaşayacaqsınız. Nə gizlənirsiniz orada siçan kimi?! Koçaryan, Sarkisyan, mən sizə deyirəm. Paşinyan heç kimdir. İndi onun dərdi, azarı hakimiyyətdə qalmaqdır. Buna görə də bütün müxalifəti tutdurur. Qərb də susur buna, susur, ağzına su alıb. Görmür ki, nələr baş verir orada?! Hərbi cinayətkarlar, Xocalı qatilləri, sizi məhv etmişik. Azərbaycan əsgəri, Azərbaycan zabiti sizi məhv edib. Əcəb də eləyib!

Bu gün Ağdam şəhərini dağılmış vəziyyətdə görmək çox ağrılıdır. Amma mən bir neçə il bundan əvvəl bu bölgədə olarkən, bizim səngərlərdə olarkən, o binanı binoklla görmüşəm. Bu hissləri sözlə ifadə etmək çətindir, mümkün deyil. Öz torpağımızda öz şəhərimizi,

bax, o binanı binoklla uzaqdan görmək, buraya gələ bilməmək nə qədər ağrılı idi. Dəfələrlə təmas xəttində olarkən, səngərlərdə olarkən, fikirləşirdim ki, gün gələcək biz qayıdacağıq, biz öz ərazi bütövlüyümüzü bərpa edəcəyik.

Bu gün mən Ağdam məscidinə Məkkədən gətirdiyim "Qurani-Kərim"i bağışladım. Mən xoşbəxt adamam ki, dörd dəfə Məkkə ziyarətində olmuşam. Bir dəfə rəhmətlik atamla, üç dəfə isə Prezident kimi. Xoşbəxtəm ki, mən ailə üzvlərimlə bərabər müqəddəs Kəbənin içində dualar etmişəm. Hər bir insanın ürəyində nə varsa, mənim ürəyimdə də eyni duyğulardır. Etdiyim duaların arasında birinci duam torpaqlarımızın işğaldan azad edilməsi idi. Allahdan xahiş edirdim, mənə güc versin ki, biz torpaqları işğalçılardan azad edək, o xoşbəxtliyi bizə nəsib etsin, biz yenə də dədə-baba torpağımıza qayıdaq.

Bu gün burada, vandallar tərəfindən dağılmış məscidin önündə deyirəm ki, xoşbəxt adamam. Bir daha Allaha şükür edirəm ki, mənim dualarımı eşidib, bu gücü mənə verib. Biz gücümüzü səfərbər edərək bax, bu tarixi günləri yaşayırıq. Bu, həqiqətən də tarixi günlərdir. Bəlkə də çoxəsrlik Azərbaycan tarixində buna bənzər şərəfli və qürurlu günlər olmayıb. Biz bunu birliyimiz sayəsində qazanmışıq, gücümüz sayəsində qazanmışıq. Heç kim bizə kömək etməyib. Əksinə, ancaq maneçilik törədib. Gün gələcək bu barədə də ətraflı danışacağam.

Bu 44 gün ərzində bizə mənəvi və siyasi dəstək verən Türkiyə Cümhuriyyəti olub, mənim qardaşım Prezident Rəcəb Tayyib Ərdoğan olub və bir neçə digər müsəlman və qeyri-müsəlman ölkələrin rəhbərləri olub. Biz bu Qələbəni birlik, əzm, iradə və güc hesabına əldə etdik. Bu gün, müharibə başa çatandan sonra artıq Qərb dairələrindən bəzi Qərb liderləri məsələ qaldırırlar ki, bəs, Azərbaycanın nəzarətinə keçən azad edilmiş torpaqlarda xristian məbədləri necə olacaq? Həm mənimlə söhbət zamanı, həm rəsmi bəyanatlarda narahatlıq ifadə edirlər. Heç kim narahat olmasın, xüsusilə Qərb dövlətlərinin liderləri, hansılar ki, islamofob hissləri alovlandırırlar. Hansılar ki, İslam müqəddəslərinin təhqirlərinə göz yumurlar və hətta onları təhqir edənlərə bəraət qazandırırlar. Onların haqqı yoxdur bu barədə danışmağa, bu, birincisi. İkincisi, bizim ərazimizdə olan bütün məbədlər tarixi sərvətimizdir. Azərbaycanda hər il Bakı Humanitar Forumu, ya da ki, Mədəniyyətlərarası Dialoq Forumu keçirilir. Azərbaycanda dünya dinlərinin liderlərinin Zirvə görüşləri keçirilib. Baxın, görün, nələr deyilib bizim haqqımızda. İslam Əməkdaşlıq Təşkilatı Azərbaycanda İslam dininə olan münasibəti örnək kimi göstərir. Rusiya Pravoslav Kilsəsinin patriarxı Kiril Bakıda olarkən Azərbaycanda bu sahədə görülmüş işlərə yüksək qiymət verib, Pravoslav kilsələrində olub. Roma Papası Fransisk Bakıda olarkən rəsmi çıxışında Azərbaycanda tolerantlıq, dini dözümlülük, multikulturalizm haqqında danışıb. Kim bizə irad tuta bilər? Məscidləri bağlayan? Yaxud da ki, müsəlman məscidlərinə öldürülmüş donuzların başlarını atan bizə dərs deyəcək, narahatlıq ifadə edəcək? Bizə heç bir narahatlıq ifadə etmək lazım deyil. Bizim bütün tarixi abidələrimiz dövlət tərəfindən qorunur. Mənim göstərişimlə və dövlət vəsaiti hesabına hazırda iki pravoslav kilsəsi təmir edilir, üçüncü kilsə isə təmir olunub. İnzibati bina tikilir. Müharibə dövründə udi qardaşlarımızın kilsəsi Heydər Əliyev Fondu tərəfindən təmir olunaraq istifadəyə verilib. Bizim Qafqaz Albaniyası kilsələri milli sərvətimizdir. Gürcü kilsələrimiz, erməni kilsəsi. Vəhşi düşmən bax bu məsciddə inək saxlayıb, donuz saxlayıb. Bu şəkillər var internetdə. Azad edilmiş Zəngilan məscidində, Cəbrayıl məscidində donuz saxlayıb.

Biz UNESCO ilə çox sıx əməkdaşlıq edirik. Amma gəlib xristian məbədlərinə baş çəkmək istəsə, buraya gəlsin. Gəlsin və desin vəhşi erməni neyləyib burada. Bir də ki, bir neçə il bundan əvvəl Minsk qrupunun həmsədr ölkələrinin səfirləri bu məsciddə, burada olublar. Onlar iki dəfə faktaraşdırıcı missiyalar keçiriblər və mənə deyiblər ki, Ağdam məscidində olublar. Niyə məsələ qaldırmayıblar? Niyə bu, bəzi Qərb liderlərində narahatlıq yaratmayıb? Deməli, müsəlman məscidlərini təhqir etmək olar, inək, donuz saxlamaq olar, dağıtmaq olar. Belədirsə, belə də desinlər və getsinlər öz ölkələrində problemlərlə məşğul olsunlar, bizim işimizə burunlarını soxmasınlar. Heç kim bizim işimizə qarışmasın. Biz özümüz gəlmişik buraya. Bütün o ölkələrin səylərinə rəğmən gəlmişik, bütün təxribatlara rəğmən gəlmişik, qan tökə-tökə gəlmişik və durmuşuq bizim torpağımızda. Hərə getsin öz işi ilə məşğul olsun. Bizim işimizə qarışmaq istəyənin cavabını vermişik və verəcəyik.

Bu gün tarixi bir gündür. Biz şanlı Qələbəmizi qeyd edirik. Dağılmış Ağdam şəhəri erməni vəhşiliyinin şahididir. Biz Ağdam şəhərini bərpa edəcəyik, bütün kəndləri bərpa edəcəyik. Heç kimdə bu haqda şübhə olmasın. Bu, böyük iş olacaqdır. Əlbəttə ki, böyük zəhmət tələb edəcək. Amma necə ki, biz 44 gün ərzində birlik göstərmişik, əminəm ki, azad edilmiş torpaqlarımızın bərpası işində də birlik, əzmkarlıq göstərəcəyik. Bütün şəhərlərimizi bərpa edəcəyik, daha da gözəl şəhərlər olacaqdır. Şəhərlərimizdə qalan tarixi abidələri bərpa edəcəyik və bir daha gücümüzü göstərəcəyik.

Biz Qələbəmizi dəmir yumruq hesabına, düşməni qova-qova qazanmışıq və indi durmuşuq öz torpağımızda.

Eşq olsun Azərbaycan xalqına! Eşq olsun Azərbaycan əsgərinə, Azərbaycan zabitinə! Ağdam bizimdir! Qarabağ Azərbaycandır!

## *Nyu-Yorkda BMT Baş Assambleyasının COVID-19 ilə mübarizəyə həsr edilmiş dövlət və hökumət başçıları səviyyəsində keçirilən xüsusi sessiyasında İlham Əliyevin çıxışı*

Dekabrın 3-də Nyu-Yorkda BMT Baş Assambleyasının COVID-19 pandemiyası ilə mübarizəyə həsr edilmiş dövlət və hökumət başçıları səviyyəsində xüsusi sessiyası keçirilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sessiyada çıxış edib.

**Prezident İlham Əliyevin çıxışı**

- Hörmətli cənab Sədr.

Hörmətli cənab Baş katib.

Hörmətli dövlət və hökumət başçıları.

BMT Baş Assambleyasının COVID-19 pandemiyası ilə mübarizəyə həsr edilmiş xüsusi sessiyasının təşkilində göstərdikləri səylərinə görə BMT-nin Baş katibi cənab Antonio Quterreşə və BMT Baş Assambleyasının Sədri cənab Volkan Bozkıra öz minnətdarlığımı ifadə edirəm.

Xüsusi sessiyanın təşkil olunması təşəbbüsünü dəstəkləyən bütün üzv dövlətlərə də təşəkkürümü bildirirəm.

Bu gün dünya üçün ən böyük təhlükə olan COVID-19 pandemiyası ilə mübarizədə beynəlxalq ictimaiyyətin birgə səylərinə çox böyük ehtiyac var.

Milli və beynəlxalq səviyyədə məsuliyyət nümayiş etdirən Azərbaycan Qoşulmama Hərəkatının Sədri qismində 2020-ci il mayın 4-də Qoşulmama Hərəkatının Təmas Qrupunun koronavirusla mübarizəyə həsr edilmiş Zirvə görüşünün keçirilməsinin təşəbbüskarı olmuşdur. Mən Zirvə görüşü çərçivəsində BMT Baş Assambleyasının koronavirusla mübarizəyə həsr edilmiş dövlət və hökumət başçıları səviyyəsində xüsusi sessiyasının keçirilməsini təklif etmişdim. Qoşulmama Hərəkatının bütün 120 üzvü həmin təklifi dəstəkləmişdir. Bu, onların “Bandunq Prinsipləri”, Hərəkatın dəyərləri, multilateralizm və beynəlxalq həmrəyliyə sadiqliyini bir daha vurğulamış oldu. Ümumilikdə, BMT-nin 150-dən artıq üzv dövləti həmin təşəbbüsü dəstəkləmişdir.

Azərbaycan virusun yayılmasının qarşısını almaq məqsədilə vaxtında zəruri tədbirlər həyata keçirmişdir. COVID-19 ilə bağlı yaranmış vəziyyətə müvafiq olaraq tərəfimizdən adekvat addımlar atılmışdır.

Bu gün ölkə üzrə koronaviruslu xəstələr 46 dövlət xəstəxanasında müalicə olunur. Pandemiya başladığı zaman bizim 6 funksional laboratoriyamız var idi. Hazırda fəaliyyətdə olan laboratoriyalarımızın sayı 40-dan artıqdır.

Pandemiyanın mənfi təsirinin qarşısının alınması məqsədilə hökumət tərəfindən 2.5 milyard ABŞ dolları həcmində iqtisadi-sosial yardım və maliyyə dəstəyi paketi təqdim edilmişdir. Sosial yardım tədbirləri 5 milyon insanı əhatə edir ki, bu da ölkə əhalisinin yarısı deməkdir. Koronavirusla mübarizə heç bir xarici maliyyə dəstəyi olmadan, yalnız daxili mənbələr hesabına maliyyələşdirilmişdir.

Hazırda dünya pandemiyanın növbəti dalğası ilə üzləşib.

Pandemiya başlayandan bəri Azərbaycan Ümumdünya Səhiyyə Təşkilatı ilə sıx təmasdadır. Biz pandemiyanın ilk vaxtlarında dəyərli tövsiyələrinə və öz mütəxəssislərini ölkəmizə ezam etdiyinə görə təşkilata minnətdarıq. Ümumdünya Səhiyyə Təşkilatı Azərbaycanı pandemiya ilə mübarizədə nümunəvi ölkə adlandırmışdır. Biz Ümumdünya Səhiyyə Təşkilatına toplam 10 milyon ABŞ dolları həcmində iki dəfə könüllü maliyyə töhfəsi etmişik. Bununla yanaşı, bu günədək Azərbaycan 30-dan artıq ölkəyə humanitar və maliyyə yardımı göstərmişdir.

Cənab Sədr, Azərbaycan pandemiya dövründə qlobal atəşkəslə bağlı BMT Baş katibinin təşəbbüsünü dəstəkləmişdir. Lakin həmin çağırış 30 ildən artıq Azərbaycan torpaqlarını işğal altında saxlayan və BMT Təhlükəsizlik Şurasının işğal olunmuş bütün ərazilərimizdən qoşunlarının çıxarılmasını tələb edən qətnamələrinə məhəl qoymayan Ermənistan tərəfindən eşidilməmişdir.

Son iki il ərzində Ermənistan danışıqlar prosesini məqsədyönlü şəkildə məhv etmişdir. Ermənistanın baş naziri “Qarabağ Ermənistandır” kimi bir sıra təxribatçı bəyanatları ilə danışıqlara son qoymuşdur. Ermənistanın müdafiə naziri “yeni ərazilər uğrunda yeni müharibə”yə çağırış etmişdir.

Cari ilin iyul ayında Ermənistan regionda yeni gərginlik mənbəyi yaratmaq, yeni əraziləri işğal etmək və Azərbaycanın strateji enerji infrastruktur layihələrinə zərbə vurmaq məqsədilə dövlət sərhədində hərbi təxribat törətmişdir.

Daha sonra, avqust ayında Ermənistanın diversiya qrupu təmas xəttini keçməyə cəhd etmişdir.

Sentyabrın 24-də BMT Baş Assambleyasının ümumi müzakirələri çərçivəsində çıxışım zamanı mən Ermənistanın yeni müharibəyə hazırlaşması ilə bağlı xəbərdarlıq etmişdim.

Sentyabrın 27-də Ermənistan Azərbaycana qarşı irimiqyaslı hərbi təxribata başlamışdır. Azərbaycanın döyüş bölgəsinə yaxın ərazilərdə yerləşən Tərtər və digər şəhərləri 44 gün ərzində Ermənistan silahlı qüvvələri tərəfindən ağır artilleriya atəşinə məruz qalmışdır. Ermənistan döyüş bölgəsindən uzaqda yerləşən Gəncə, Bərdə, Mingəçevir, Qəbələ, Siyəzən və digər şəhərlərə qarşı ballistik raketlərdən istifadə etmişdir. Ermənistan azərbaycanlı mülki əhali arasında böyük sayda insan itkisinə səbəb olmaq və onları didərgin salmaq məqsədilə ağır artilleriya, ballistik raketlər, ağ fosfor və kasetli sursatlardan istifadə etmişdir. Nəticədə 11 nəfəri uşaq olmaqla, 94 mülki şəxs qətlə yetirilmiş, 400-dən artıq insan yaralanmışdır.

Azərbaycan Ordusu bunun layiqli cavabını vermiş, ölkə vətəndaşlarını və ərazisini müdafiə edərək uğurlu əks-hücum əməliyyatı başlamış və işğal olunmuş ərazilərin böyük bir hissəsini azad etmişdir. Hərbi əməliyyatlar zamanı qazanılmış Qələbə işğalçını təslim olmağa məcbur etmişdir. Azərbaycan və Rusiya prezidentləri və Ermənistanın baş naziri tərəfindən noyabrın 10-da üçtərəfli Bəyanatın imzalanması nəticəsində Azərbaycanın işğal altında olan digər əraziləri də azad edilmişdir.

O vaxtdan etibarən, təqribən bir aydır ki, atəşkəsə əməl olunur. Atəşkəsə Nəzarət üzrə Birgə Monitorinq Mərkəzi vasitəsilə Türkiyə və Rusiya atəşkəsin təmin edilməsi işində vacib rol oynayır.

Beləliklə, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi hərbi-siyasi yollarla həll edilmişdir. Beynəlxalq hüquqa məhəl qoyulmadığı üçün BMT Təhlükəsizlik Şurasının qətnamələrinin güc yolu ilə icrası qaçılmaz idi. Nəticədə təcavüzkar dövlət sülhə məcbur edilmişdir.

Bu, Ermənistanın destruktiv yanaşmasının yeganə nümunəsi olmamışdır. Ermənistan BMT Baş Assambleyasının COVID-19 pandemiyası ilə mübarizəyə həsr edilmiş xüsusi sessiyanın keçirilməsi təşəbbüsünün əleyhinə çıxış etmişdir. Ermənistan son dəqiqəyə qədər xüsusi sessiyanın keçirilməsi üçün hazırlıq prosesinə mane olmağa çalışmışdır. Ermənistanın bu təşəbbüsə etiraz etməsinin yeganə səbəbi onun Azərbaycan tərəfindən irəli sürülməsi olmuşdur.

İnanıram ki, xüsusi sessiya pandemiya ilə qlobal mübarizəyə öz töhfəsini verəcək və bizi ümumi hədəflər ətrafında daha da sıx birləşdirəcəkdir. Sağ olun.

## *MDB Dövlət Başçıları Şurasının videokonfrans formatında keçirilən iclasında İlham Əliyevin iştirakı*

Dekabrın 18-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Müstəqil Dövlətlər Birliyinin Dövlət Başçıları Şurasının videokonfrans formatında keçirilən iclasında iştirak edib.

Özbəkistan Prezidenti Şavkat Mirziyoyev Müstəqil Dövlətlər Birliyinin Dövlət Başçıları Şurasının iclasının koronavirus səbəbindən videokonfrans formatında keçirildiyini vurğuladı, ölkəsinin MDB-yə sədrliyi dövründə həyata keçirilən tədbirlərdən danışdı.

Sonra MDB İcraiyyə Komitəsinin sədri Sergey Lebedev Şuranın iclasının gündəliyi barədə məlumat verdi.

Özbəkistan Prezidenti Şavkat Mirziyoyev dedi:

-Hörmətli həmkarlar.

Gündəlikdə razılaşdırdığımız kimi, indi icazə verin çıxış üçün Azərbaycan Respublikasının Prezidenti İlham Heydər oğlu Əliyevə söz verək. Buyurun, İlham Heydər oğlu.

Dövlətimizin başçısı iclasda çıxış etdi.

### Prezident İlham Əliyevin çıxışı

-Hörmətli Şavkat Miromonoviç, hörmətli dövlət başçıları.

İlk növbədə, bu Zirvə görüşünün, bizim iclasın təşəbbüskarı olan Özbəkistan Prezidenti Şavkat Miromonoviç Mirziyoyevə MDB Dövlət Başçıları Şurasının sədri qismində fəal işinə görə təşəkkürümü bildirmək istərdim.

Başa çatmaqda olan ilin dünyada əsas mövzusu pandemiyaya qarşı mübarizə olub. Bizim regionda əsas mövzu Dağlıq Qarabağda və onun ətrafında hərbi əməliyyatlar idi. Buna görə də nələr baş verməsi və gələcəkdə nə etməyi planlaşdırmağımız barədə informasiyanı və bu haqda öz təsəvvürlərimi həmkarlarımla bölüşmək istərdim.

Pandemiyaya qarşı mübarizəyə gəldikdə, Azərbaycan həm ölkə daxilində, həm də beynəlxalq arenada bu ümumi bəlaya qarşı mübarizə üzrə operativ tədbirlər görüb. Qısa müddətdə laboratoriyaların sayı praktiki olaraq 8 dəfə artırılıb. Qısa müddətdə 10-dan çox yeni müasir xəstəxana, o cümlədən modul tipli xəstəxana tikilib. Beləliklə biz COVID xəstələri üçün 10 mindən çox çarpayı təqdim etmişik. Həkimlərin çatışmaması da ümumi problem idi, çünki heç bir səhiyyə sistemində xəstələrin sayının bu qədər olacağı nəzərdə tutulmamışdı. Biz həmkar ölkələrlə operativ danışıqlar apararaq 5 ölkədən – İtaliya, Çin, Kuba, Rusiya və Türkiyədən həkimləri dəvət etdik. Bu, xəstələrin müalicə olunmasında bizə xeyli dərəcədə kömək etdi. Pandemiyaya qarşı mübarizə, habelə zərərçəkmiş kateqoriyalardan olan vətəndaşlara maliyyə dəstəyi göstərilməsi üçün dövlət büdcəsindən təqribən 2,5 milyard dollar məbləğində vəsait ayrılıb. Maliyyə dəstəyi tədbirləri Azərbaycanın beş milyona yaxın vətəndaşını əhatə edib, bu, bizim əhalinin yarısını təşkil edir. İndi dünyada vaksinləmə prosesinin başlandığı vaxtda biz də bu prosesə qoşuluruq. Ötən aylar ərzində aparıcı vaksin istehsalçıları olan “Sputnik V”, “AstraZeneca”, “Sinofarm”, “Sinovac”, “Moderna”, “Pfizer BioNTech” kimi firmalarla danışıqlar aparılıb. Onu da qeyd etmək istəyirəm ki, Azərbaycan ölkələrin vaksinlərə ədalətli istifadə imkanını təmin etmək üzrə Ümumdünya Səhiyyə Təşkilatının iştirakı ilə beynəlxalq “COVAX” təşəbbüsünə ilk qoşulanlardan biri olub.

Yeri gəlmişkən, Azərbaycan Qoşulmama Hərəkatının sədri olan ölkə kimi bu mövzunu daim diqqət mərkəzində saxlayırdı. Biz həmişə bütün beynəlxalq forumlarda deyirdik ki, kifayət qədər maliyyə resurslarına malik olmayan ölkələrin də vaksinlərdən istifadə etmək imkanı inkişaf etmiş ölkələr kimi olsun, bu məsələdə ayrı-seçkilik olmasın. Biz də vaksinləmə strategiyasını hazırlamışıq, bu strategiya çoxplatformalılığı nəzərdə tutur. Hansı texnologiyalardan istifadə ediləcəyindən asılı olmayaraq, bizim üçün əsas meyar həmin vaksinlərin elmi cəhətdən əsaslandırılmış təhlükəsizliyi olacaq. Nəzərdə tutulur ki, vaksinləmə proqramı gələn ilin əvvəlində başlanacaq, vaksinləmə könüllü olacaq və

dövlət hesabına həyata keçiriləcək. Azərbaycan pandemiyaya qarşı mübarizədə geniş beynəlxalq əməkdaşlığın fəal tərəfdarı kimi çıxış edib və edir. Bizim təşəbbüsümüzlə bir neçə beynəlxalq tədbir keçirilib. Onların sırasında bu ilin aprel ayında Türkdilli Ölkələrin Əməkdaşlıq Şurasının pandemiyaya qarşı mübarizəyə həsr edilmiş Zirvə görüşünü göstərmək olar. Azərbaycan Şuranın sədridir. May ayında bizim təşəbbüsümüzlə Qoşulmama Hərəkatının yenə həmin mövzuya həsr edilmiş Zirvə görüşü keçirilib. Azərbaycan Qoşulmama Hərəkatının sədridir. Mən Qoşulmama Hərəkatının sədri kimi bu mövzunun müzakirə edilməsi üçün hökumət və dövlət başçıları səviyyəsində BMT-nin Baş Assambleyasının xüsusi sessiyalarının çağırılması təşəbbüsünü irəli sürdüm. Bu təklif 150-dən çox dövlət tərəfindən dəstəkləndi. Beləliklə, dekabrın 3-də və 4-də Azərbaycanın təşəbbüsü ilə 70-dən çox dövlət və hökumət başçısının iştirakı ilə BMT Baş Assambleyasının 31-ci xüsusi sessiyası keçirildi. Biz bir sıra ölkələrə və beynəlxalq təşkilatlara maliyyə yardımı və humanitar yardım göstərilməsi proqramında da fəal iştirak etmişik. Biz Ümumdünya Səhiyyə Təşkilatının büdcəsinə 10 milyon dollar məbləğində könüllü ianə etmişik. Pandemiyanın birinci günündən etibarən biz bu təşkilatla daim əlaqədə olmuşuq, Azərbaycan 30-dan çox ölkəyə maliyyə yardımı və humanitar yardım göstərib. Beləliklə, üzvlərinin sayına görə BMT-dən sonra ikinci beynəlxalq təsisata – Qoşulmama Hərəkatına başçılıq etməklə Azərbaycan pandemiyaya qarşı qlobal miqyasda mübarizə işinə sanballı töhfə verir.

Haqqında söhbət açmaq istədiyim ikinci mövzu Azərbaycan ilə Ermənistan arasında müharibə məsələsidir. Bu müharibə dünya kütləvi informasiya vasitələrində kifayət qədər geniş işıqlandırılıb, lakin təəssüf ki, heç də həmişə obyektiv işıqlandırılmayıb. Münaqişənin təbiəti, onun yaranma tarixi və problemin mahiyyəti məsələsinə gəldikdə təəssüf ki, biz çox vaxt təhrif edilmiş, mötəbər olmayan və ya qərəzli informasiya ilə üzləşirdik. Buna baxmayaraq, bizim səylərimiz, o cümlədən vəziyyətin informasiya təminatı ilə bağlı səylərimiz sayəsində Azərbaycana münasibətdə illər boyu yaranmış müəyyən neqativ fonu aradan qaldırmağa və həqiqəti dünya birliyinə çatdırmağa nail olduq.

Baş verənlər barədə həmkarlarımı qısaca məlumatlandırmaq istərdim. Müharibənin nəticələri məlumdur. Azərbaycan uzun illər ərzində ölkəmizin xeyli ərazisini, beynəlxalq miqyasda tanınmış ərazilərini işğal altında saxlayan işğalçı ölkə üzərində qələbə qazandı. Bizim məlumatımıza görə, müharibə nəticəsində Ermənistan silahlı qüvvələrinin potensialının 80 faizindən çoxu məhv edilib. Azərbaycan üçün bu, Vətən müharibəsi, azadlıq müharibəsi, Ermənistan üçün isə işğalçılıq, istilaçılıq müharibəsi idi. 1990-cı illərin əvvəlində Ermənistan Azərbaycanda yaranmış xaos, hərc-mərclik və hakimiyyətsizlik şəraitindən istifadə edərək təcavüz aktı törətdi, nəticədə Azərbaycanın beynəlxalq aləmdə tanınmış ərazisinin təqribən 20 faizi, o cümlədən Dağlıq Qarabağ və Azərbaycanın digər yeddi rayonu işğal edildi, həm Dağlıq Qarabağda, həm də Dağlıq Qarabağın hüdudlarından kənarda, həmçinin Ermənistanda azərbaycanlı əhaliyə qarşı etnik təmizləmə aparıldı. Nəticədə 1993-cü ildə Azərbaycan əhalinin sayına görə ən yüksək qaçqın faizinə malik idi: Azərbaycanın o vaxtkı 8 milyon əhalisindən 1 milyonu köçkün vəziyyətinə düşmüşdü. Azərbaycanın işğal edilmiş əraziləri tamamilə dağıdılmış, orada azərbaycanlı əhaliyə qarşı etnik təmizləmə aparılmışdı.

Bu gün xarici diplomatlar və jurnalistlər Ağdama, Füzuliyə, Cəbrayıla və vaxtilə işğal edilmiş digər ərazilərə səfər edərkən orada nələr edildiyini və bizim torpaqlarda necə vandalizm törədildiyini öz gözləri ilə görürlər. Şəhərlər, kəndlər, xalqımızın tarixi, dini abidələri dağıdılıb. Biz bu işğala özümüz silah gücünə, oğullarımızın rəşadəti və igidliyi sayəsində son qoyduq və əslində, BMT Təhlükəsizlik Şurasının 27 il bundan əvvəl qəbul edilmiş, erməni işğalçı qüvvələrinin işğal edilmiş ərazilərdən çıxarılmasını tələb edən qətnamələrini həyata keçirdik. ATƏT-in Minsk qrupunun yaradıldığı 1992-ci ildən keçən 28 il ərzində Ermənistan status-kvonun dəyişməz qalması üçün əlindən gələni edirdi. Status-kvonun saxlanılmasına yönəlmiş bütün cəhdlər Ermənistan rəhbərliyinin danışıqlar trekində imitasiya xarakterli hərəkətləri ilə maskalanırdı. Əslində, təkcə bizi deyil, həm də beynəlxalq vasitəçiləri aldadırdılar. Üzə çıxmış yeni informasiya, xüsusən işğal edilmiş ərazilərdə aparılmış mühəndis-istehkam işləri nəzərə alınmaqla məlum olur ki, Ermənistan işğal etdiyi ərazilərin bircə qarışını belə qaytarmağa hazırlaşmırdı. Beləliklə, bütün bu 28 il ərzində Ermənistan rəhbərliyi onun ali vəzifəli şəxslərinin timsalında beynəlxalq birliyi çaşdırırdı.

Məlum olduğu kimi, 2019-cu ilə qədər danışıqlar prosesi imitasiya şəklində olsa da davam etdiyi halda, 2019-cu ildən başlayaraq bu proses, əslində, dayanmışdı. ATƏT-in Minsk qrupunun nümayəndələri ilə mənim çoxsaylı görüşlərim, əslində onu göstərdi ki, vasitəçilərin bu prosesi irəlilətmək barədə xüsusi yeni ideyaları yoxdur. Çünki Ermənistan rəhbərliyi danışıqlar prosesini pozmaq və mahiyyət etibarilə hər şeyi olduğu kimi – status-kvonu saxlamaq üçün əllərindən gələni edirdilər, xüsusən ona görə ki, onlar işğal edilmiş ərazilərin qeyri-qanuni məskunlaşdırılması ilə fəal məşğul olurdular. Bu, Cenevrə konvensiyalarına görə hərbi cinayətdir. Beləliklə, Ermənistan rəhbərliyi 2019-cu ildən etibarən yeni taktikaya əl atmağa başladı. Əslində, bu, danışıqlar prosesini pozmağa yönəlmiş imitasiyasından imtina demək idi. Mənim bu sözlərimin təsdiqini həm Ermənistanın ali hərbi-siyasi rəhbərliyinin rəsmi bəyanatlarında, həm də onların təxribatçı hərəkətlərində tapmaq olar. Yalnız bir neçə misal gətirəcəyəm. Zənnimcə, bu misallar mənim sözlərimin təsdiqi baxımından hamınız üçün çox əyani olacaq. Beləliklə, Ermənistanın müdafiə naziri, artıq keçmiş nazir, Amerika Birləşmiş Ştatlarında səfərdə olarkən açıq bəyan etmişdi ki, Ermənistan yeni ərazilər uğrunda yeni müharibəyə hazırlaşır. Əslində, Ermənistanın ali hərbi rəhbərinin bu bəyanatı Ermənistanın təcavüzkar siyasətinin mahiyyətini tamamilə açıqlayır. Görünür, milyon-

larla azərbaycanlıya əzab-əziyyət vermələri onlar üçün kifayət deyilmiş, onlara hələ yeni ərazilər də lazım imiş. Bu, istər beynəlxalq hüquq baxımından, istərsə də bəşəri əxlaq baxımından yolverilməzdir. Özü də bu bəyanat məhz ABŞ-da verilmişdi. Bu, yeganə bəyanat olub, daha belə bəyanat olmayıb, amma hər halda, bu bəyanat olub.

Ermənistanın baş nazirinə gəldikdə isə, o, 2019-cu ildə işğal edilmiş ərazilərdə olarkən açıq demişdi ki, "Qarabağ Ermənistandır və nöqtə". Təbii ki, danışıqlar prosesinin pozulmasına yönəlmiş bu təxribatçı tezis cavabsız qala bilməzdi. Bunun cavabında mən dedim ki, "Qarabağ Azərbaycandır və nida işarəsi". Nəticədə kimin haqlı olduğunu tarix göstərdi. Özlüyündə Azərbaycana qarşı, təkcə ona qarşı yox ATƏT-in Minsk qrupuna qarşı bu nümayişkaranə təhdid, onların fəaliyyətinə hörmətsizlik onu göstərir ki, Ermənistan danışıqlar prosesini bilərəkdən və nümayişkaranə şəkildə pozurdu və əslində, pozmuşdu. Ona görə ki, bu məntiqi əsas götürsək onun dediyi kimi əgər "Qarabağ Ermənistandır"sa, onda danışıqlar aparmağa mövzu yoxdur. Ona görə ki, masa üzərində Minsk qrupunun həmsədrləri tərəfindən işlənib hazırlanmış, Ermənistanın əvvəlki rəhbərliyi tərəfindən danışıqlar üçün əsas kimi qəbul edilmiş Madrid prinsipləri vardı. Həmin prinsiplərdə açıq-aydın göstərilmişdi ki, işğal edilmiş bütün ərazilər Azərbaycana qaytarılmalıdır. Buna görə də həmin bəyanatlar və bir sıra başqa bəyanatlar, - mən sadəcə olaraq, həmkarlarımın vaxtını çox almaq istəmirəm, - onu göstərirdi ki, Ermənistan danışıqları qəsdən pozur.

Daha sonra, bizə məlum idi ki, Ermənistan rəhbərliyi uzun illər boyu işğal edilmiş ərazilərdə qanunsuz məskunlaşma həyata keçirməyə çalışıb. Bu, hərbi cinayətdir, lakin insan və maliyyə resursları olmadığına görə onlar bu niyyətini tam həcmdə həyata keçirə bilmirdilər.

Ermənistanın indiki rəhbərliyinə gəldikdə isə onlar bütün istiqamətlər üzrə öz siyasətinin həyata keçirilməsində daha çox Qərbdəki erməni diasporunun köməyinə ümid edərək işğal olunmuş ərazilərin, ilk növbədə, Azərbaycanın qədim Şuşa şəhərinin zorla məskunlaşdırılması planını hazırlamışdılar. Bu, açıq-aşkar, nümayişkaranə şəkildə həyata keçirilir, televiziyada göstərilirdi. Azərbaycan xalqının səbir kasasını daşdıran başqa hərəkətlərdən biri qondarma "Dağlıq Qarabağ respublikası"nın parlamentinin Xankəndidən Şuşaya köçürülməsi barədə qərarı idi. Buna azərbaycanlıların heysiyyətinin təhqir edilməsindən başqa ad vermək olmaz. Azərbaycanın qədim Şuşa şəhəri işğal edildiyi vaxtdan sonra ilk dəfə Dağlıq Qarabağdakı cinayətkar rejimin başçısının qondarma inauqurasiyası da bu qəbildəndir. Beləliklə, Ermənistan rəhbərliyinin hərəkətləri və addımları vəziyyəti kəskinləşdirməyə, Azərbaycan tərəfini cavab tədbirləri görməyə təhrik etməyə və danışıqlar prosesini pozmağa yönəlmişdi ki, sonradan desinlər, görürsünüzmü, yenidən hərbi toqquşmalar baş verir, buna görə yenə hər şeyi uzatmaq lazımdır. Ermənistanın hərbi-siyasi rəhbərliyinin belə bir bəyanatı da olmuşdu ki, bizi qorxutmağa çalışırdılar, əgər Azərbaycan, necə deyərlər, münaqişənin nizamlanmasına dair öz mövqeyində bundan sonra da israr edərsə, tezliklə erməni tankları Bakının küçələrində olacaq. Nəticədə belə də oldu, amma erməni tankları bizim küçələrdə dekabrın 10-da Azərbaycanın bu müharibədə Zəfərinə həsr edilmiş hərbi paradda hərbi qənimətlər kimi göründü.

Mən Azərbaycan xalqına müraciətlərimdən birində müharibə nəticəsində Azərbaycan Ordusu tərəfindən məhv edilmiş hərbi texnika barədə ətraflı danışmışam, odur ki, bu informasiya əlçatandır. Kimlərə maraqlıdırsa bu informasiyanı açıq mənbələrdən əldə edə bilərlər. Hərbi xarakterli provokasiyaya gəldikdə, bu il ərzində, ilk növbədə, iyul ayında Dağlıq Qarabağda münaqişə zonasında deyil, dövlət sərhədində törədilmiş təxribatdır. O vaxt Ermənistan qoşunları Tovuz rayonunda Azərbaycan Ordusunun mövqelərinə hücum etmişdilər. Bu, tamamilə əsassız təxribat idi. Ermənistan rəhbərliyinin yeni ərazilər ələ keçirilməsinə dair qondarma hərbi konsepsiyası çərçivəsində bizim postları və yeni əraziləri tutmaq cəhdi idi. Biz dinc əhali və hərbi qulluqçular arasında itkiyə məruz qaldıq. Biz Ermənistan qoşunlarının layiqli cavabını verdik, onları ilkin mövqelərinə qaytardıq. Erməni tərəfin bu insidenti əsaslandırması sadəcə gülünc idi. Bəlkə çoxları unudub, sadəcə, xatırladıram ki, guya Azərbaycanın üç hərbi qulluqçusu "UAZ" avtomobilində ermənilərin postlarına hücum edib. Ümumiyyətlə, hərbi quruculuqla bağlı məsələlərdən uzaq olan insanlara da aydındır ki, müharibəni bu şəkildə – "UAZ" avtomobilində başlamırlar. Təəssüf ki, həmin adamlar erməni təcavüzünün qurbanı oldular. Deməliyəm ki, hərbi toqquşma bir neçə gün davam etdi və mən o vaxt bəyan etmişdim ki, bizim Ermənistan dövlətinin ərazisinə girmək barədə heç bir planımız olmayıb və yoxdur. Əgər belə planlar olsaydı, onda Tovuz istiqamətində bunu etmək çox asan idi, çünki bunun üçün imkan vardı. Beləliklə, biz cavab verməkdən uzağa getməyib dayandıq.

Sonra növbəti təxribat oldu. Çoxsaylı erməni hərbi qulluqçulardan ibarət təxribat qrupu qoşunların təmas xətti zonasında Goranboy rayonuna girməyə cəhd etdi. Qrupun başçısı saxlanıldı, onun verdiyi ifadələr göstərir ki, bu, Azərbaycan ərazilərinin dərinliyində terror aktı törədilməsinə yönəlmiş və qəsdən təşkil olunmuş təxribat idi. Nəhayət, sentyabrın 27-də Ermənistan silahlı qüvvələri ağır artilleriyadan istifadə etməklə Tərtər, Ağdam, Füzuli rayonlarının yaşayış məntəqələrinə hücum etdilər. Elə ilk saatlarda bizim dinc əhali və hərbi qulluqçular arasında qurbanlar oldu. Münaqişənin 44 günü ərzində Azərbaycanın 94 nəfər dinc vətəndaşı, o cümlədən 11 uşaq öldürüldü, 400-dən çox dinc sakin yaralandı, 5 mindən çox ev tamamilə dağıdıldı və ya ciddi zədə aldı. Erməni silahlı qüvvələri münaqişə zonasından uzaqda yerləşən şəhərlərə, o cümlədən Gəncə şəhərinə hücum etdilər, Qəbələ, Bakıdan təqribən 100 kilometr məsafədə yerləşən Siyəzən, Xızı şəhərlərinə ballistik raket zərbələri böyük tələfata səbəb

oldu. Başqa sözlə desək, dinc əhalini məhv etməyə və beləliklə, günahsız insanları öldürməklə təşviş yaratmağa yönəlmiş hərəkətlər və ermənilərin döyüş meydanında məruz qaldığı itkiləri bir növ kompensasiya etmək cəhdləri göstərilirdi.

Sentyabrın 27-də, ermənilərin xaincəsinə hücumundan sonra mən Ali Baş Komandan kimi “İrəli!” əmrini verdim. Biz öz xalqımızı, öz ölkəmizi müdafiə etməli idik. Bizim əməliyyatlar nəticəsində 44 gündən sonra düşmən kapitulyasiya etdi. Bu müddət ərzində biz 300-dən artıq yaşayış məntəqəsini, strateji yüksəklikləri, Cəbrayıl, Füzuli, Zəngilan, Qubadlı şəhərlərini, şəhər tipli Suqovuşan, Hadrut qəsəbələrini, Xocavənd rayonunun bir hissəsini, Murovdağ dağ silsiləsini, həmçinin Laçın, Kəlbəcər rayonlarının bir hissəsini azad etdik. Noyabrın 8-də isə haqlı olaraq, Qafqazın incisi və Azərbaycan xalqının qəlbi hesab edilən Azərbaycanın qədim Şuşa şəhəri erməni işğalından azad olundu. Bununla da, əslində, hərbi əməliyyatlara son qoyuldu, çünki Şuşa şəhərinin alınmasından və azad edilməsindən sonra erməni ordusunun hər hansı müqaviməti tamamilə mənasız idi və hərbi əməliyyatların davam etdirilməsi böyük insan itkisinə səbəb ola bilərdi. Çünki erməni ordusu darmadağın edilmiş və mənəvi cəhətdən sarsıdılmışdı, onun bir hissəsi mühasirədə idi.

Noyabrın 9-da Rusiya Federasiyasının Prezidenti Vladimir Vladimiroviç Putinin fəal iştirakı ilə Rusiya Prezidenti, Azərbaycan Prezidenti və Ermənistan baş nazirinin üçtərəfli bəyanatının mətni razılaşdırıldı. Noyabrın 9-dan 10-na keçən gecə imzalanmış həmin bəyanatın mətni dərc edilib və əminəm ki, həmkarlarım bu mətnlə tanış olublar. Orada çox mühüm bəndlər var. O cümlədən dekabrın 1-dək Ağdam, Kəlbəcər və Laçın rayonlarının bir hissəsinin azad edilməsi nəzərdə tutulurdu. Razılaşmanın bəndləri yerinə yetirilib. Onu da deməliyəm ki, fəal hərbi əməliyyatlar dövründə mən Vladimir Vladimiroviç Putinlə, həmçinin Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanla həmişə əlaqə saxlayırdım. Düşünürəm ki, bu gün siyasi nizamlamaya çıxmağımızda Rusiya Prezidentinin çox böyük rolu olub. O, daim əlaqədə idi, xüsusən noyabrın 9-da atəşin dayandırılması üçün çox səmərəli və fəal işləyirdi.

Münaqişə başlanandan bəri xarici jurnalistlərə çoxsaylı müsahibələrimdə və xalqa müraciətlərimdə deyirdim ki, Ermənistan tərəfi bizim ərazilərdən çıxacağı tarixi deyən kimi, istənilən anda biz dayanmağa hazırıq və bunu açıq deyirdim. Belə də oldu. Bəyanatda üç rayonun bizə qaytarılacağı tarix qrafik üzrə göstərilən kimi hərbi əməliyyatlar dayandırıldı. Buna görə fürsətdən istifadə edib Vladimir Vladimiroviç Putinə bu məsələyə göstərdiyi diqqətə və münaqişənin, o cümlədən siyasi metodlarla həll edilməsində fəal iştirakına görə bir daha təşəkkür etmək istərdim. Sentyabrın 27-dən noyabrın 10-na qədər olan dövrü götürsək, deyə bilərik ki, münaqişə hərbi-siyasi metodlarla həll edildi. Dünən Vladimir Vladimiroviç kütləvi informasiya vasitələrinə müsahibəsində növbəti dəfə göstərdi ki, Dağlıq Qarabağ Azərbaycanın ayrılmaz hissəsidir. Bu, ilk belə bəyanat deyil. Düşünürəm ki, bu, çox mühüm bəyanatdır. Özü də o, Ermənistanda 10 noyabr tarixli bəyanatın şərtlərinə yenidən baxmağa çalışan siyasi qüvvələr üçün vacibdir. Təəssüf ki, bu cür qüvvələr var və bu, həmin bəyanatın yerinə yetirilməsinə mane olmağa çalışanların hamısı üçün çox ciddi siqnaldır. Belə cəhdləri biz müharibə dövründə də görmüşük, bəyanat imzalanandan sonra da. Təfsilata varmaq istəmirəm. Biz müəyyən xarici dairələrin cəhdlərini görmüşük. Onlar bu məsələdən bir növ kənarda qaldıqlarına görə narazı idilər. Onlar narazıdırlar ki, atəşin dayandırılmasında aparıcı rolu Rusiya oynayıb. Hər vasitə ilə çalışırdılar və təəssüf ki, indiyə qədər çalışırlar ki, Ermənistan cəmiyyətində müəyyən iğtişaşlar törətmək və əslində, bu bəyanatı pozmaq üçün müəyyən qarışıqlıq yaratsınlar. Xüsusən Ermənistanda vəziyyətlə bağlı müxtəlif vasitələrdən, Ermənistanda yaradılmış müxtəlif infrastrukturlardan, o cümlədən Soros infrastrukturundan istifadə etsinlər. Bunun, ilk növbədə, Ermənistan tərəfi üçün nə qədər məhvedici ola biləcəyini Vladimir Vladimiroviç də öz müsahibələrinin birində qeyd edib. Ondan soruşublar ki, Ermənistan bəyanatın şərtlərini yerinə yetirməsə nə olacaq, o deyib ki, bu, intihara bərabər olacaq. Bu, həqiqətən belədir. Buna görə mən Vladimir Vladimiroviçə münaqişənin həllində bu cür fəal iştirakına və böyük töhfəsinə görə bir daha təşəkkür etmək istərdim. Mən Vladimir Vladimiroviç Putinlə tam razıyam ki, Dağlıq Qarabağ münaqişəsindən söhbət düşəndə biz yalnız onu deməliyik ki, bu münaqişə keçmişdə qalıb. Bu, artıq tarixdir. Hesab edirəm ki, regionun gələcəyi çox cəhətdən Ermənistan rəhbərliyinin vəziyyəti nə dərəcədə düzgün qiymətləndirə bilməsindən, sülhün uzunmüddətli və davamlı olması üçün düzgün addımlar atmasından asılı olacaq.

Mən Rusiya Federasiyasının sülhməramlı missiyası barədə də danışmaq istərdim. Bu da bəyanatın bir hissəsidir. Missiya çox uğurla həyata keçirilir. Azərbaycan Respublikasının müvafiq strukturları ilə daim əlaqədədir. Bəyanatın imzalanmasından ötən ay yarıma yaxın vaxt ərzində atəşkəsin pozulması ilə bağlı bir insident olub və bizdə olan məlumata görə bu, Ermənistanın hakimiyyət orqanlarının nəzarəti altında olmayan qondarma könüllülər, əslində isə Azərbaycan Ordusunun mövqelərinin arxasında gizlənmiş yaraqlılardan ibarət qruplar tərəfindən təşkil edilib. İnsident bircə gün ərzində aradan qaldırılıb, atəşkəs rejimi saxlanılır və düşünürəm ki, bu rejim günbəgün daha da möhkəmlənəcək. Onu da qeyd etmək istərdim ki, Ağdam rayonunda Rusiya-Türkiyə Monitorinq Mərkəzinin yaradılması üzrə iş gedir. Monitorinq Mərkəzinin yaradılması barədə birgə bəyanatda da deyilir ki, bu mərkəz vəziyyətin monitorinqini həyata keçirəcək.

Reqlamentdən bir qədər kənara çıxdığıma görə həmkarlarımdan üzr istəyirəm. Lakin bu çox mühüm mövzudur ki, mən daha bir neçə söz deməli idim. Orada hazırda nələr baş verməsinə gəldikdə isə, Ağdam şəhəri yoxdur, o, dağıdılıb. Ağdam şəhərində qismən dağıdılmış bir məscid qalıb. Biz maraqlananda ki, bütün başqa məscidlər kimi onu nə üçün dağıtmayıblar, bizə dedilər

ki, bu, bir növ oriyentir idi, ərazidə səmti müəyyənləşdirmək üçün idi ki, əgər Azərbaycan Ordusu bu istiqamətdə hücuma keçərsə, artilleriyaya hücumun dəqiq oriyentirlərini verə bilsinlər. Keçmiş Ağdam şəhərində, ondan qalan ərazidə səfərdə olmuş xarici jurnalistlər onu Qafqazın "Xirosima"sı adlandırırlar. Mən hesab edirəm ki, bu, Xirosimadan da pisdir. Ona görə ki, Xirosima nüvə faciəsi, atom zərbəsi idi. Lakin oradan vandallar və barbarlar dəstəsi keçməmişdi. Bizə gəldikdə isə Ağdam şəhəri işğal ediləndən sonra dağıdılıb. Füzuli şəhəri kimi, o da bilərəkdən, məqsədyönlü şəkildə dağıdılıb. Biz Ağdamı azad edəndə mən şəhərdəki evlərin birinin üzərində Azərbaycan bayrağı qaldırılmasını əmr edəndə dedilər ki, belə bina yoxdur, minlərlə, on minlərlə insanın yaşadığı böyük şəhərdə bircə bina da qalmayıb. Hamısı yerlə-yeksan edilib. Bu, hərbi cinayətdir. Təkcə şəhərlər deyil, bütün kəndlər də yerlə-yeksan edilib. Bu, elə bir vəziyyətdir ki, dünya bəlkə də son yüzilliklərdə belə vəziyyət görməyib. Eyni sözlər Cəbrayıl şəhərinə də aiddir. O da artıq yoxdur. Qeyri-qanuni məskunlaşma aparılan şəhərlərdə, xüsusən Kəlbəcər rayonunda, Kəlbəcər şəhərində bəzi binalar qalıb. Lakin ermənilərin oradan çıxmalı olduğu 20 günlük və ya 15 günlük müddətdə - noyabrın 10-dan dekabrın 1-dək ermənilər həmin binaları yandırıb və dağıdıblar. Onlar hətta özlərinin tikmədikləri evləri də dağıdıblar. Onlar, sadəcə, azərbaycanlıların evlərinə köçmüşdülər. Onlar hər şeyi yandırır, daşıyıb aparırdılar. Ağacları qırırdılar, hətta satmaq üçün apara bilmədikləri ağacları da kəsir, yolda atıb gedirdilər. Meşələri yandırırdılar. Ona görə də bu vandalizm, təəssüf ki, indiyə qədər davam edirdi.

İndi Ermənistanda çox gərgin vəziyyət yaranıb. Ermənistanın baş nazirinin bizim iclasda iştirak etmədiyini nəzərə alaraq daha heç nəyi şərh etməyəcəyəm. Mən yalnız quru faktları, orada baş verənlərin çox cüzi faizini dedim. Ermənistanda gedən daxili siyasi proseslərə əsla müdaxilə etmək niyyətində olmadan bircə onu demək istərdim ki, darmadağın edilmiş ordu Paşinyanın ordusu deyil, bu, 20 il ərzində Koçaryanın və Sarkisyanın yaratdığı ordudur. Bizim şəhərlərimizi – Ağdamı, Füzulini, Cəbrayılı, Zəngilanı, Qubadlını və başqalarını Paşinyanın ordusu məhv etməyib, o, belə göstərişlər verməyib. Əvvələn, orada artıq dağıdılası bir şey qalmamışdı. Bütün bunlar Koçaryan və Sarkisyanın – MDB üzrə bizim belə adlandırılan keçmiş həmkarlarımızın, 20 il ərzində bizim iclaslarda iştirak edən insanların, uzun illər boyu mənimlə danışıqlar aparan adamların rejimi tərəfindən edilmişdi. Biz bilirdik ki, onların əlləri Azərbaycan xalqının qanına bulaşıb, lakin biz həmin ərazilərə gələndə onların törətdiklərinin bütün dəhşətini, bütün faciəviliyini gördük. Buna görə də indi vəziyyətdən öz siyasi məqsədləri üçün istifadə etməyə və Paşinyana hücum etməyə çalışanlar başa düşməlidirlər ki, bunu onun ordusu etməyib. O, ordu yaratmağa macal tapmazdı və praktiki olaraq bunu edə də bilməzdi, bunun üçün vaxt lazım idi, lakin 20 il ərzində bu ordunu Koçaryan və Sarkisyan yaradıb, biz onların ordusunu darmadağın etmişik. İndi, müharibə başa çatandan sonra biz vurulmuş ziyanın həcmini qiymətləndiririk. Yaxın vaxtlarda bərpa işləri başlanacaq. Bu işlər praktiki olaraq artıq başlanıb. Lakin əvvəlcə beynəlxalq ekspertlərin iştirakı ilə biz həm mənzil fonduna, həm tarixi, mədəni abidələrə, həm də ekologiyaya vurulmuş ziyanı qiymətləndirəcəyik. Bununla paralel olaraq infrastruktur layihələri üzrə proseslər artıq başlanıb. Artıq yol tikintisinə dair ilk kontraktlar, digər infrastrukturla bağlı kontraktlar bağlanıb. Mən öz bəyanatlarımın birində demişəm ki, dost ölkələri Azərbaycana cəlb edirik və cəlb edəcəyik. Birinci kontrakt Türkiyə şirkəti ilə bağlanıb, ikinci kontraktı İtaliyadan olan bir şirkətlə bağlamaq planlaşdırılır. Fürsətdən istifadə edib Azərbaycanın dostluq münasibətləri saxladığı dövlətlərin, ölkələrin başçılarına müraciət etmək istərdim ki, onların şirkətləri də bu layihələrdə podratçılar kimi fəal iştirak etsinlər. Bərpa işlərini biz özümüz, öz vəsaitlərimiz hesabına maliyyələşdirəcəyik. Lakin biz istəyirik ki, şəhərlərimizin və kəndlərimizin bərpasına dost ölkələrdən olan şirkətlər cəlb edilsin. Qoy onlar da bu layihələri həyata keçirə bilsinlər və həmrəylik nümayiş etdirsinlər, ona görə ki, biz, heç şübhəsiz, bütün şəhərləri bərpa edəcəyik, Qarabağı dirçəldəcəyik və onu dünyanın ən inkişaf etmiş regionlarından birinə çevirəcəyik.

Reqlamenti pozduğuma görə bir daha üzr istəyirəm və diqqətinizə görə təşəkkür edirəm. Sağ olun.

Özbəkistan Prezidenti Şavkat Mirziyoyev: Səmimi sözlərinizə və bizim sədrliyimizə verdiyiniz yüksək qiymətə görə sağ olun, İlham Heydər oğlu.

Həqiqətən, Sizin indicə qeyd etdiyiniz kimi, pandemiya ölkələrimiz üçün ciddi sınaq oldu. Bu sahədə sıx əməkdaşlıq etməyin zəruri olması barədə Sizinlə razıyam. Əlbəttə, Siz dinc əməkdaşlıq və gələcək qarşılıqlı fəaliyyət məsələləri barədə çox ətraflı danışdınız. Əlbəttə, biz də hər şeyi müşahidə edirik, hər şeyi görürük və Sizin sözlərinizin çoxu təsdiqlənir, ona görə ki, biz özümüz də bunların şahidləri olmuşuq. Xüsusi qeyd etmək istəyirəm ki, biz Cənubi Qafqaz regionunda uzunmüddətli sülhün təmin edilməsinə, mehriban qonşuluğun möhkəmlənməsinə və davamlı inkişafa yönəlmiş bütün səyləri bundan sonra da dəstəkləməyə hazırıq.

Sonra təşkilata üzv ölkələrin dövlət başçıları çıxış etdilər, qarşılıqlı əməkdaşlıq, gələcək planlar, ümumi çağırışlara qarşı birgə mübarizə barədə fikirlərini bildirdilər.

İclasın sonunda 2021-ci ildə MDB-yə sədrlik Belarusa keçdi. Diqqətə çatdırıldı ki, Müstəqil Dövlətlər Birliyinin Dövlət Başçıları Şurasının növbəti iclası 2021-ci ilin oktyabrında Minskdə keçiriləcək.

## *Qubadlı və Zəngilan rayonlarına səfər*

Dekabrın 23-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva işğaldan azad edilmiş Qubadlı və Zəngilan rayonlarında olublar.

Qubadlıya gedən yolda avtomobili özü idarə edən Prezident İlham Əliyev dedi:

-Cəbrayıl rayonunun ərazisindəyik. Azad edilmiş torpaqlardayıq. Sağ tərəfdə ermənilər tərəfindən dağıdılmış kəndlərimizdir. Gedirik Qubadlı rayonuna.

Dağıdılmış üzüm bağları. Bütün kəndlər dağıdılıb. Yolun sol və sağ tərəflərində olan dirəklər torpaqlar işğaldan azad olunandan sonra qısa müddət ərzində qoyulmuşdur.

Bütün kəndlər dağıdılıb. Düşmən bu cinayətlərə görə cavab verəcək. Bütün kəndlərimiz, tarixi abidələrimiz, dini abidələrimiz düşmən tərəfindən dağıdılıb. Bütün dünya bunu görməlidir.

Sovet vaxtından qalan abidə. İkinci Dünya müharibəsinə həsr edilmiş abidədir. Onu da dağıdıblar.

Növbəti dağıdılmış kənd.

Birinci xanım Mehriban Əliyeva: Kəndin adı nədir?

Prezident İlham Əliyev: Göyərçin Veysəlli kəndi. Erməni faşistlər tərəfindən dağıdılıb. Heç İkinci Dünya müharibəsi zamanı faşistlər belə vəhşilik törətməyib. Görün, biz hansı vəhşi düşmənlə üz-üzə idik, biz hansı şər qüvvələri məğlub etdik?! Bölgəmizi, Qafqazı faşistlərdən azad etdik. Bütün bu kəndləri bərpa edəcəyik. Ancaq, ilk növbədə, bütün kəndlər, o dağıntılar sənədləşdiriləcək, uçota alınacaq.

Zəngilan rayonunun ərazisindən keçirik.

Babaylı kəndi. Bu da dağıdılıb.

Bir dənə də salamat bina yoxdur. Baxın, bütün binalar dağıdılıb. Köhnə qəbiristanlıq.

Zəngilan rayonunun gözəl mənzərəsi, səfalı məkan. Hamısını bərpa edəcəyik. Bu da Üçüncü Ağalı kəndi. Görünür burada ermənilər yaşayıblar. Amma görün nə gündə yaşayıblar. Mən deyəndə ki, işğal edilmiş torpaqlarda ermənilər səfalət içində yaşayırlar, bax, budur bunun sübutu. Bizim kəndimizə gəliblər, kəndimizin böyük hissəsini dağıdıblar.

Ermənilərin zəbt etdikləri evlərimiz. İndi Üçüncü Ağalı kəndinin sakinləri yəqin ki, tanıyar bu ev kimindir. Gələsən, başqasının torpağını zəbt edəsən, insanları evsiz-eşiksiz qoyasan, onların evində yaşayasan, xarabalığa çevirəsən, sonra da deyəsən ki, bu, qədim erməni torpağıdır. Saxtakarlar, oğrular, yalançılar, vəhşilər bizim torpaqlarımızı 30 ilə yaxın müddət ərzində işğal altında saxlayıblar. Bütün bu videosənədlər hüquqi müstəvidə bizim təzminat davamız üçün əşyayi-dəlil olacaq.

Birinci Ağalı kəndi. Bura da dağıdılıb. Amma bəzi evlər qalıb. Ermənilər bizim evlərimizdə yaşayıblar. Bundan sonra özümüz yaşayacağıq öz evlərimizdə. Onlar da getsinlər öz vətənlərində yaşasınlar.

Seləli kəndi. Bu kənd də dağıdılıb. Görün nə günə qoyublar. Mən hələ müharibədən əvvəl deyirdim ki, bizim bütün kəndlərimiz, şəhərlərimiz talan edilib. Ermənilər dam örtüklərini, pəncərə çərçivələrini, hər şeyi aparıblar. Açıq-aşkar oğurluq ediblər, bizim torpaqlarımızı istismar ediblər.

Evin yarısını söküb, o biri tərəfdə yaşayıb. Baxın, nə günə qoyublar. Talançılar!

Vəhşi düşmən keçib bu torpaqlardan, dağıdıb ki, heç vaxt Azərbaycan əhalisi buraya qayıtmasın. İnşallah, hamımız qayıdacağıq. Hər şey dağıdılıb.

Birinci xanım Mehriban Əliyeva: Yəqin ora hərbi hissədir.

Prezident İlham Əliyev: Orada artıq Azərbaycan bayrağı ucaldılıb. Hərbi hissələr tikiblər ki, torpaqlarımızı əbədi işğal altında saxlasınlar, amma rədd etdik onları, qovduq torpaqlarımızdan. Torpaqların sahibləri qayıdır.

Baxın, ağacları necə qırıblar. Baxın, vəhşi düşmən neyləyib, bütün ağacları kəsib. Zəngilanın çox zəngin təbiəti var, nadir meşələri var. Çinar ağacları. Baxın, neyləyib düşmən. Baxsın bütün dünya, ermənipərəst qüvvələr bu günə qədər kimi müdafiə edirlər? Bizə qarşı qətnamələr qəbul edən ölkələr baxsınlar, gözlərini açsınlar. Riyakar siyasətçilər açın gözlərinizi, baxın. Sizin parlamentləriniz qətnamələr qəbul edib. Bizim üçün o qətnamələrin heç bir əhəmiyyəti yoxdur, bir kağız parçasıdır. Amma iş ondadır ki, bizə qarşı yenə əsassız ittihamlar irəli sürülür. Fransa parlamentinin deputatları, Belçika, Hollandiya parlamentlərinin deputatları, baxın, sizin sevimli ermənilər nələr ediblər bu torpaqlarda? Açın xəritəyə baxın, ensiklopediyaya baxın, görün Zəngilan rayonu, Qubadlı rayonu hansı ölkənin tərkib hissəsidir. Qətnamələr qəbul edirsiniz. Başınıza dəysin bu qətnamələr. Azərbaycanı ittiham edirlər.

Qubadlının Xanlıq kəndi. Xanlıq kəndi uğrunda şiddətli döyüşlər gedirdi. Ermənilər bizim bu tarixi, qədim kəndimizə eybəcər ad veriblər. Xanlıq kəndi Qubadlı rayonunun ərazisində yerləşir. Biz indi Qubadlı rayonunun ərazisindəyik. Ermənilər Xanlıq kəndində özləri üçün hərbi istehkam, hərbi baza qurmuşdular. Xanlıq kəndində qanunsuz məskunlaşma aparılmışdı. Xaricdən gətirilən ermənilər burada qanunsuz yollarla yerləşdirilmişdilər. Bu da hərbi cinayət sayılır. Cenevrə konvensiyalarına görə işğal edilmiş torpaqlarda qanunsuz məskunlaşma aparan ölkə cinayət törətmiş olur. Baxın, xaricdən gələn ermənilər üçün xaricdə yaşayan ermənilərin pulu ilə Xanlıqda qəsəbə salınıb.

Kənd təsərrüfatı texnikası. XX əsrin 50-ci illərində istehsal olunub. Xaricdə yaşayan ermənilər cinayət törədiblər. Xaricdən erməniləri gətirib bizim torpaqlarımızda məskunlaşdırıblar. Xanlıq qəsəbəsində azərbaycanlıların evlərini söküb sonra ermənilər üçün evlər tikiblər. Bu da ermənilərin maşını. Bax, bu maşınları sürürdülər onlar. Bu da bizim qəhrəman əsgərlərimizin adları. Öz adlarını yazıblar bu evlərin üzərində. Biləsuvar, Şabran, Sabirabad, Şuşa, Oğuz. Bax, qanunsuz

məskunlaşma budur. Bu da ermənilərin növbəti maşınları, baxın.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Ermənistanın qanunsuz məskunlaşma apardığı Qubadlının Xanlıq kəndinə gəldilər, burada hərbçilərlə görüşdülər.

Prezident İlham Əliyev: Salam uşaqlar.

Əsgərlər: Sağ olun!

Prezident İlham Əliyev: Nə var, nə yox, necəsiniz?

Əsgərlər: Çox sağ olun!

Prezident İlham Əliyev: Xidmət necə keçir?

Əsgərlər: Əla. Hər şey yaxşıdır.

Prezident İlham Əliyev: Çox yaxşı. Bu, ermənilərin bizim qədim kəndimizdə saldığı bir qəsəbədir. Bizim evlərimizi söküb, ondan sonra da xaricdən gələn ermənilərin pulu ilə bu qəsəbə salınıb. İndi biz burada yaşayırıq. Siz burada məskunlaşmısınız, xidmət göstərirsiniz. Biz öz doğma torpaqlarımıza qayıtmışıq. Bu torpaqları döyüş meydanında azad etmişik. Düşməni öz torpaqlarımızdan qovmuşuq, bax, sizin kimi əsgərlərin sayəsində. Bütün dünya gördü ki, Azərbaycan əsgəri, Azərbaycan zabiti nəyə qadirdir.

Gəlin uşaqlar, gəlin.

Əsgərlər: Xoş gəlmisiniz, cənab Prezident.

Prezident İlham Əliyev: Xoş gördük. Bu, bizim qədim torpağımızdır. Əsrlərboyu xalqımız bu torpaqlarda yaşayıb.

Əsgər: Ay maşallah, igiddir, əsl igid.

Prezident İlham Əliyev: Salam, salam. Sonra şəkil çəkdirək.

Döyüş meydanında gücümüzü göstərdik. Erməniləri torpaqlarımızdan qovduq. Azərbaycan Bayrağını torpaqlarımızda ucaltdıq. Azərbaycan xalqının ən böyük arzusunu yerinə yetirdik, döyüş meydanında, danışıqlar yolu ilə yox. Bizim başımızı aldadırdılar. Bu 27 il ərzində ermənilər burada özləri üçün qəsəbə salıblar, xaricdən erməniləri gətiriblər. Xanlıq qəsəbəsinə bir eybəcər erməni adı veriblər.

Əsgərlər: “Onları iti qovan kimi qovduq” sözləriniz şüarımızdır.

Prezident İlham Əliyev: Gördülər bizim gücümüzü. Hesab edirdilər ki, bizim torpaqlarımızda əbədi oturacaqlar, bizə meydan oxuyacaqlar. Səbrimiz tükəndi, dedim irəli.

Əsgərlər: Var olun, var olun, var olsun Azərbaycan! Allah Sizi bizim başımızın üstündən əskik etməsin!

Prezident İlham Əliyev: Qəhrəman Azərbaycan əsgəri öz gücünü bütün dünyaya göstərdi. Mənə məlumat verilir ki, indi dünyanın aparıcı ölkələrinin ali hərbi məktəblərində bizim döyüş taktikamız öyrənilir. Bu, bir yenilikdir, XXI əsrin müharibəsidir. Həm peşəkarlıq, həm iradə, milli ruh, qəhrəmanlıq hesabına torpaqlarımızı işğalçılardan azad etmişik.

Əsgərlər: Sizin başçılığınız və iradəniz sayəsində.

Prezident İlham Əliyev: Sağ olun.

Əsgərlər: Biz sizinlə fəxr edirik. Yaşasın Azərbaycan! Yaşasın Azərbaycan əsgəri! Qarabağ Azərbaycandır!

Prezident İlham Əliyev: Gəlin, şəkil çəkdirək.

Əsgər: Ad gününüz mübarək, yüz yaşayın, Allah ömrünüzü uzun eləsin!

Sonra Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Qubadlı şəhərinə yola düşdülər.

Prezident İlham Əliyev: Qubadlı rayonunun ərazisindən iki böyük çay keçir: Həkəri çayı və Bazarçay. Onlardan biri də budur, baxın. Çox güman ki, bu, Həkəri çayıdır. Bura isə Aşağı Mollu kəndidir. Şəhidimiz Əsgərov Rüfətin şəkli. Allah rəhmət eləsin! Bütün şəhidlərimizə Allah rəhmət eləsin!

Birinci xanım Mehriban Əliyeva: Allah rəhmət eləsin!

Prezident İlham Əliyev: Qubadlı rayonunun gözəl mənzərəsi. Yenə də dağıdılmış kənd. Hər şeyi yenidən quracağıq, yolları da, bütün infrastrukturu da. Gözəl mənzərədir.

Bu da yəqin ki, Bazarçaydır. Çünki Qubadlının bir tərəfindən Həkəri çayı axır, digər tərəfindən Bazarçay, bax, buradan görünür. Ona Bərgüşad çayı da deyirlər. Qəzyan kəndi. Bax, erməncə nəsə yazıblar orada.

Diləlimüskənli kəndi. Bu kənd də dağıdılıb. Bütün evlər dağıdılıb. Bir-iki ev qalıb, orada da düşmən yaşayıb. Bu da Saray kəndidir. Saray kəndi Qubadlı şəhərinin yaxınlığında yerləşir. Bu kənd də dağıdılıb.

Baxın, Qubadlı şəhərini düşmən nə günə qoyub. Bütün binalar dağıdılıb. Ancaq özləri üçün hərbi hissə tikiblər. Bu da Qubadlı şəhəri. Bu, yəqin ki, onların anbarları olub. Bu ev də sökülüb. Qubadlı şəhərinin girəcəyində ermənilər hərbi baza tikiblər. Gün də çıxdı. Təbiət də bizi alqışlayır, salamlayır. Sahibləri gəlib bu torpağa. Gör nə gündədir Qubadlı şəhəri? Nə günə qoyub düşmən bizim şəhərimizi?

Prezident İlham Əliyev Qubadlıda Azərbaycan bayrağını ucaltdı.

Dövlətimizin başçısı burada çıxış etdi.

**Prezident İlham Əliyevin çıxışı**

- Bu gün səhərdən yağış yağırdı, biz Qubadlıya çatanda gün çıxdı. Təbiət də bizi salamlayır, bizi alqışlayır. Qubadlıya öz sahibləri qayıdıb. Qubadlının işğaldan azad edilməsi tarixi hadisə idi. Oktyabrın 25-də Qubadlı şəhərinin azad edilməsi bizim qələbəmizi yaxınlaşdırdı. Qubadlı uğrunda şiddətli döyüşlər gedirdi, şəhidlər vermişik. Onların arasında Qubadlı rayonundan olan Milli Qəhrəman Şükür Həmidov öz doğma diyarı uğrunda gedən döyüşlərdə qəhrəmancasına həlak olmuşdur. Şükür Həmidova mən Milli Qəhrəman adını Aprel döyüşlərindən sonra verdim, göstərdiyi qəhrəmanlığa görə. Allah ona rəhmət eləsin! Allah bütün şəhidlərimizə rəhmət eləsin! Azərbaycan hərbçiləri, o cümlədən Şükür Həmidov dövlət tərəfindən yüksək döyüş ordenləri ilə təltif edilmişdir.

Qubadlı rayonunun azad edilməsi əməliyyatı bir neçə gün çəkdi. Zəngilan şəhəri oktyabrın 20-də azad olunandan sonra təbii ki, bizim növbəti istiqamətimiz Qubadlı rayonu idi və şəhərdə ermənilər güclü istehkam qurmuşdular. İndi şəhərdən əsər-əlamət qalmayıb, bütün binalar dağıdılıb, sökülüb və yol boyunca Cəbrayıl, Zəngilan, Qubadlı rayonlarının bütün kəndləri, qəsəbə-

ləri dağıdılıb. Ancaq burada, şəhərin girəcəyində düşmən hərbi baza yaratmışdı. Bu yüksəkliklərdə düşmənin hərbi birləşmələri yerləşmişdi. Ona görə Qubadlı şəhərini azad etmək o qədər də asan məsələ deyildi. Gərək, ilk növbədə, ermənilərin istehkamları məhv ediləydi, onlardan biri Xanlıq qəsəbəsində yerləşirdi. Orada güclü istehkam qurmuşdular və Xanlıq qəsəbəsini onlar özləri üçün bir baza kimi yaratmışdılar. Xaricdə yaşayan ermənilər orada qəsəbə salmışdılar. İndi bu qəsəbədə Azərbaycan əsgərləri yerləşib. Xaricdə yaşayan ermənilərin pulu ilə xaricdən ermənilər gətirilib və qanunsuz şəkildə Qubadlıda yerləşdirilib. Bu, özlüyündə hərbi cinayətdir. Bu cinayətə və bütün digər cinayətlərə görə Ermənistan dövləti cavab verəcəkdir.

Qubadlını azad etmək üçün, ilk növbədə, biz bu yüksəklikləri götürməli idik. Çünki düşmən bu yüksəkliklərdən müntəzəm olaraq hərbçilərimizə atəş açırdı. Eyni zamanda, Ermənistan ərazisindən bizə atəş açılırdı. Nəzərə alsaq ki, Azərbaycan Ermənistan ərazisinə keçmək fikrində deyildi və mən bunu müharibə zamanı dəfələrlə bildirmişdim. Onlar hesab edirdilər ki, bu imkanlardan istifadə edib, bizim hücumumuzun qarşısını ala bilərlər. Buradan, Qubadlı şəhərindən Ermənistan sərhədinə, bax, o istiqamətdən 5 kilometr məsafədir. Həm oradan ağır artilleriya ilə, həm də bu yüksəkliklərdən müxtəlif növ silahlardan istifadə edərək bizim əsgərlərimizi, hərbçilərimizi atəşə tutmuşlar. Ona görə Qubadlı əməliyyatı xüsusi peşəkarlıq və fədakarlıq tələb edirdi. Azərbaycan Ordusu da bu peşəkarlığı, fədakarlığı göstərib. İlk növbədə, şəhərə hakim olan yüksəkliklər götürüldü, ətrafda yerləşən kəndlər, o cümlədən Xanlıq qəsəbəsi, Padar, Sarıyataq, Mahmudlu kəndləri götürüldü və strateji yüksəkliklər ələ keçirildi. Ondan sonra Azərbaycan Silahlı Qüvvələri şəhərə girib, buranı da düşməndən təmizləyiblər.

Qubadlı rayonunun və Qubadlı şəhərinin azad edilməsi bizə böyük strateji üstünlük təmin edirdi. Çünki Qubadlıdan sonra növbəti istiqamət Laçın rayonu idi. Hər gün döyüş əməliyyatı planları mənim tərəfimdən təsdiq edilirdi və hər gün görülmüş işlərə yekun vurularaq məsələ təhlil edilirdi - gün ərzində görülmüş işlər bizim planlarımıza hansı dərəcədə uyğundur və biz hansı nailiyyətlərə çata bilmişik. Qubadlıdan Laçın rayonunun cənub hissəsinə gedən yol daim atəş altında idi. Çünki Laçın rayonuna gedən yol düz Ermənistanın dövlət sərhədinin yanı ilə keçir, orada məsafə bəlkə də 10-20 metrdir və Ermənistan daim o tərəfdən atəş açırdı. Ona görə bizim hərbi birləşmələrimiz digər müxtəlif yollarla, cığırlarla dağları aşaraq Laçın rayonunun strateji yüksəkliklərində yerləşmişdir. Beləliklə, Laçın rayonunun cənub hissəsində yerləşən Güləbird kəndi, Səfiyan kəndi, Türklər kəndi azad edilib və eyni zamanda, strateji yüksəkliklər ələ keçiriləndən sonra bu, bizə imkan verdi ki, Laçın dəhlizi artıq atəş altına düşsün.

Düşmən bizi bu tərəfdən gözləyirdi. Çünki təbii ki, düşmən bilirdi Şuşa azad edilməmiş müharibə dayana bilməz. Düşmən hesab edirdi ki, biz Laçın rayonunun cənub hissəsini götürəndən sonra bu tərəfdən Şuşaya gedəcəyik. Biz də bilirdik ki, düşmən bizi orada gözləyir. Biz Şuşaya başqa yolla getdik, onların gözləmədiyi yoldan keçdik. Bu günə qədər də onlar inana bilmirlər ki, bizim qəhrəman əsgər və zabitlərimiz o dağlardan, dərələrdən, meşələrdən necə keçərək Şuşaya yaxınlaşıb və Şuşanı işğaldan azad ediblər. Onlar bizi buradan gözləyirdilər, eyni zamanda, Xocavənd rayonunun Qırmızıbazar qəsəbəsi istiqamətində gözləyirdilər. Biz isə Şuşaya başqa yolla getdik. Şuşaya yaxınlaşaraq bir neçə kəndi azad etdik, o cümlədən Sığnaq, Çanaxçı və Daşaltı kəndini azad etdik. Qubadlı əməliyyatının çox böyük əhəmiyyəti var idi. Çünki Qubadlıdan sonra biz Şuşa şəhərini işğaldan azad etdik. Oktyabrın 25-də Qubadlı azad olundu və noyabrın 8-də Şuşa şəhəri azad edildi. Beləliklə, düşmən təslim olmağa məcbur oldu.

Müharibə zamanı gördüyümüz işlər bu gün aparıcı ölkələrin ali hərbi məktəblərində öyrənilir. Bu haqda məndə dəqiq məlumat var. Bizim xarici tərəfdaşlarımız bu məlumatı bizə çatdırıblar ki, ən inkişaf etmiş ölkələrin ali hərbi məktəblərində Azərbaycanın döyüş taktikası, bizim əməliyyatlar öyrənilir və bu, müasir döyüş taktikasıdır. Bizə qədər dünyada heç kim bu taktikadan istifadə etməyib. Burada bütün vacib amillər bir məqsədi güdürdü ki, az itkilərlə düşmənə sarsıdıcı zərbələr vuraraq, düşmənin ordusunu faktiki olaraq məhv edərək hədəfə çataq və belə də oldu. Biz sentyabrın 27-də əks-hücum əməliyyatına başlayaraq, sonra hücum əməliyyatına keçdik. Çünki biz torpaqlarımızı azad etməli idik. Ermənistanın təxribatlarına son qoyulmalı idi. Günahsız insanların həlak olmasına son qoyulmalı idi və əks-hücumdan sonra hücum edən tərəf, adətən, daha çox itki verir. Ancaq bizim itkilərimiz müharibənin miqyasına görə həddindən çox aşağıdır. Hər bir şəhidimiz əvəzolunmazdır, hər bir insanın həlak olması böyük faciədir, onun özü üçün, yaxınları üçün, qohumları üçün, xalq üçün. Ancaq onu da bildirməliyik ki, biz istədiyimizə az itkilərlə nail olduq. Məhz buna görə ola bilər bəziləri hesab edir ki, bu məsələ daha da tez həll oluna bilərdi. Halbuki 44 gün ərzində bu ərazini işğaldan azad etmək və düşməni məhv etmək, düşmən ordusunu məhv etmək, düşməni təslim olmağa məcbur etmək böyük qəhrəmanlıqdır.

Biz çalışırdıq, öz taktikamızı elə quraq ki, itkilər az olsun. Eyni zamanda, bizim taktikamızda gözlənilməz addımlar da kifayət qədər çox idi. İstifadə etdiyimiz taktiki üsullar dünya hərb elmi üçün yenilikdir. Vaxt keçdikcə bu məsələ ilə bağlı daha geniş məlumat veriləcək. Ancaq bu gün də artıq xarici mətbuata sızılan məlumatlar da onu göstərir ki, bu müharibə hərbi ekspertlər tərəfindən çox ciddi təhlil edilirdi və edilir. Peşəkarlıq, qəhrəmanlıq, planlaşdırma, güclü iradə, milli ruh, texniki təchizat – bütün bu amillər birlikdə və xalq-iqtidar birliyi bizim Qələbəmizi şərtləndirdi.

Hər gün biz irəliyə gedirdik, 44 gün ərzində bir gün də olmayıb ki, biz geri çəkilək. Bir gün də olmayıb ki, hansısa məsələni biz həll etməyək. Hər gün səhər mənim tərəfimdən hər günün döyüş-əməliyyat planı təsdiq edilirdi, günün sonunda da təhlil olunurdu. Biz bunun nəticəsində qısa müddət ərzində böyük Qələbə

qazana bilmişik, öz doğma torpaqlarımızı düşməndən azad edə bilmişik. Düşmənə elə sarsıdıcı zərbələr endirmişik ki, bu günə qədər özünə gələ bilmir.

Noyabrın 10-da imzalanmış üçtərəfli Bəyanat faktiki olaraq Ermənistan dövlətinin kapitulyasiyası idi. Ermənistan təslim oldu, ağ bayraq qaldırdı, diz çökdü. Ondan sonra Ağdam, Laçın, Kəlbəcər rayonları bir güllə atmadan bizə qaytarıldı. Bu gün Azərbaycan əsgəri bu rayonlarda xidmət göstərir. Bu da böyük nailiyyətdir. Biz mütləq o bölgələri də, o rayonları da döyüşərək alacaqdıq. Amma çox itkilər verə bilərdik, xüsusilə Ağdam istiqamətində, hər tərəf minalanmışdı və bir neçə müdafiə xətti var idi. Eyni zamanda, xüsusilə hava şəraitini nəzərə alsaq, Kəlbəcər, Laçın rayonlarının döyüşlə azad edilməsi də böyük itkilərə gətirib çıxaracaqdı. Artıq qış başlamışdı, yolları buz bağlamışdı. Kəlbəcərə Göygöl rayonundan keçmək üçün saatlarla vaxt lazımdır.

Ona görə noyabrın 10-da imzalanmış Bəyanatın çox böyük əhəmiyyəti var. Təbii ki, əgər biz o günə qədər böyük ərazini işğalçılardan azad etməsəydik, düşmənin belini qırmasaydıq, düşmən ordusunun məhv edilməsində istədiyimizə nail olmasaydıq, əlbəttə, düşmən onun üçün bu alçaldıcı sənədə qol qoymazdı. Biz onu məcbur etdik, torpaqlarımızdan qovduq və mən verdiyim sözə həmişə olduğu kimi sadiq qaldım. Müharibənin ilk günlərindən demişdim, Ermənistan rəhbərliyi açıq-aşkar bəyan etməlidir ki, nə vaxt, hansı tarixdə bizim torpaqlarımızdan çıxır. Tarix verməlidir bizə. Əgər bu olarsa, biz müharibəni dayandırarıq. Amma bizə tarix verilmədi. Çalışırdılar ki, müxtəlif yollarla xarici ölkələri bu işlərə qoşaraq öz çirkin əməllərini davam etdirsinlər, işğalı davam etdirsinlər. Əgər Ermənistan rəhbərliyi o vaxt mənim sözümə baxıb düzgün addım atsaydı, belə alçaldıcı vəziyyətə düşməzdi. Mən demişdim ki, axıra qədər gedəcəyik və axıra qədər də getdik, lazım olan anda dayandıq, üç rayonu bir güllə atmadan, bir itki vermədən qaytardıq, ərazi bütövlüyümüzü bərpa etdik.

Bu gün vaxtilə işğal edilmiş torpaqlarda Azərbaycan Bayrağı dalğalanır. Bu gün Ali Baş Komandan kimi, mən azad edilmiş bu torpaqlarda əsgərlərlə görüşürəm. Artıq bu bölgənin, Qarabağ bölgəsinin bərpası ilə bağlı konkret addımlar atılır, ilkin kontraktlar imzalanmışdır. Mənfur düşmən hər şeyi dağıdıb. Yol boyunca Cəbrayıl rayonundan, azad edilmiş torpaqlardan başlayaraq, bax, Qubadlıya qədər hər tərəf dağıdılıb. Bir dənə də salamat bina yoxdur. Təkcə Qubadlıda bir neçə bina qalıb ki, burada hərbçilər və onların ailə üzvləri yaşayıblar. Bütün binalar, bütün evlər, tarixi abidələrimiz, məscidlərimiz, qəbirlərimiz mənfur düşmən tərəfindən dağıdılıb. Bu cinayətlərin hamısı sənədləşdirilir.

Mən azad edilmiş bu bölgələrdə olarkən, ermənilər tərəfindən törədilmiş vəhşiliyi görərkən bir daha əmin oluram ki, biz nəinki özümüz üçün, bölgəmiz üçün böyük iş görmüşük. Biz erməni faşizminin başını əzdik. Bizim torpaqlarımızı erməni faşizmi bu günə saldı. Biz Ermənistan faşist dövlətinin, terror dövlətinin belini qırdıq və bu gün məcbur olub, bizim qabağımızda diz çöküb və düzgün nəticə çıxarmalıdır. Ermənistan cəmiyyəti düzgün nəticə çıxarmalıdır. Revanş hissi ilə yaşayacaqlarsa, onların axırı pis olacaq. Əgər o tərəfdən buraya bir güllə atılsa, - 5 kilometrdir buradan Ermənistan sərhədinə, - onları elə günə salarıq ki, ümumiyyətlə, öz adlarını unudarlar.

Biz öz istəyimizə nail olduq. Dekabrın 10-da Zəfər paradı keçirildi. Zəfər paradında biz düşmənin məhv edilmiş və qənimət götürülmüş texnikasını nümayiş etdirdik və öz hərbi potensialımızı nümayiş etdirdik. Biz bundan sonra da ordumuzu gücləndirəcəyik. İndi gələn ilin büdcəsi müzakirə olunur. Mənim təşəbbüsümlə hərbi xərclər artırılır. İlk növbədə, ona görə ki, müharibə zamanı biz bir çox silah-sursatdan istifadə etdik, onları bərpa etmək lazımdır. Eyni zamanda, müasir texnikanın bundan sonra da alınması nəzərdə tutulur. Bundan sonra da ordumuzun müasirləşdirilməsi, ordumuzun döyüş potensialı, ordumuzun peşəkarlığı daim diqqət mərkəzində olacaqdır.

Biz Qələbə qazanmışıq, düşməni torpaqlarımızdan qovmuşuq. Amma heç kim təminat verə bilməz ki, bir neçə ildən sonra erməni faşizmi yenə baş qaldırmasın. Ona görə Azərbaycan dövləti həmişə güclü olmalıdır. Azərbaycan dövlətinin həmişə güclü ordusu olmalıdır. Biz gücümüzü bilirik. Dünya da bizim gücümüzü bilir. Biz nəinki öz ərazimizdə, istəsəydik Ermənistan ərazisində istənilən hərbi əməliyyatı tamamilə yerinə yetirə bilərdik. Bu gün də yerinə yetirə bilərik. Ermənistan tərəfi də bunu bilir. Sadəcə olaraq, biz həmişə beynəlxalq hüquqa hörmətlə yanaşmışıq və həmişə demişəm ki, bizim başqa ölkələrin torpaqları ilə işimiz yoxdur. Biz öz torpağımızda yaşamalıyıq, yaşayacağıq, düşməni öz torpağımızdan qovmuşuq, bütün bu bölgəni bərpa edəcəyik.

Qubadlı rayonu ölkəmizin ən gözəl rayonlarından biridir və qısa müddət ərzində lazım olan bütün bərpa işləri də nəzərdə tutulur. Xarici ekspertlər cəlb olunub, dəvət edilib, onlar bütün qiymətləndirmə işlərini aparacaqlar. Videosənədlər, fotosənədlər toplanır, bütün dəymiş ziyan hesablanacaq. Bizim torpaqlarımız istismar edilirdi, təbii ehtiyatlarımız istismar edilirdi. Zəngilan rayonunda qızıl yatağı istismar edilirdi. Azad edilmiş digər ərazilərdə də, həmçinin. Bütün bunların hesabını Ermənistan dövləti verəcək. Bununla paralel olaraq bütün bərpa işləri təmin ediləcək və biz bütün şəhər və qəsəbələrimizi, kəndlərimizi bərpa edəcəyik, insanlar buraya qayıdacaq və biz öz torpağımızda bundan sonra əbədi yaşayacağıq. Bundan sonra heç kim bizi öz torpağımızdan çıxara bilməz.

Mən müharibədən əvvəl dəfələrlə Azərbaycan xalqına müraciət edərək deyirdim ki, bu gün Azərbaycan güclü ölkədir və tarixdə heç vaxt indiki qədər güclü olmamışdır. Mən o vaxt təkcə iqtisadi yox, o cümlədən hərbi potensialımızı da nəzərdə tuturdum. Tarix və müharibənin nəticələri onu göstərdi ki, mən haqlı idim. Azərbaycan tarixdə heç vaxt belə parlaq Zəfər əldə etməmişdir, tarixdə heç vaxt indiki qədər güclü olmamışdır. Bizim gücümüz birliyimizdədir. Biz birlik nümayiş etdirmişik, əzmkarlıq nümayiş etdirmişik, qəhrəmanlıq nümayiş etdirmişik və bunun nəticəsində

dəmir yumruqla düşmənin başını əzib öz doğma torpaqlarımızı azad etmişik. Qarabağ Azərbaycandır! Yaşasın Azərbaycan əsgəri! Yaşasın Azərbaycan!

Sonra dövlətimizin başçısı və birinci xanım işğaldan azad olunmuş Zəngilan rayonuna yola düşdülər.

Prezident İlham Əliyev: Zəngilan. Zəngilan şəhərinə az qalıb.

Düşmən Zəngilanda da hər şeyi dağıdıb. Baxın, dağılmış evlər. Baxın, bu evi nə günə qoyublar.

Prezident İlham Əliyev Zəngilanda Azərbaycan bayrağını ucaltdı.

Daha sonra Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Zəngilanda mənfur düşmən tərəfindən dağıdılan məscidə gəldilər.

Məscidin qarşısında çıxış edən Prezident İlham Əliyev dedi:

- Görün mənfur düşmən məscidi nə günə salıb. Bizim bütün dini abidələrimiz düşmən tərəfindən dağıdılıb. Dünya 30 il ərzində buna səssiz qalıb. Biz bu məsələni dəfələrlə qaldırmışdıq, beynəlxalq kürsülərdən qaldırmışdıq, tarixi-dini abidələrimiz dağıdılıb, təhqir edilib. Biz o videoları dəfələrlə göstərirdik. Ağdam məscidini, Şuşa məscidlərini, o vaxt işğal altında olan digər məscidlərin vəziyyətini göstərərək deyirdik ki, mənfur düşmən bizim dini abidələrimizi dağıdıb, təhqir edib.

Zəngilan işğaldan azad olunandan sonra rayonda yerləşən məscidlərin birində donuzların saxlanması ilə bağlı videokadrlar nümayiş etdirilmişdir. Düşmən bizim dinimizi təhqir edib, bütün müsəlmanları təhqir edib. Bax, burada məscid olub, indi yoxdur, dağıdıblar. İndi bəziləri azad edilmiş torpaqlarda erməni xalqının dini irsi haqqında məsələ qaldırırlar. Bəs, bizim milli-dini irsimiz haqqında niyə heç kim məsələ qaldırmayıb? Bu yaxınlarda UNESCO-nun bir məmuru əsassız bir ifadə işlədib ki, guya bizə müraciət olunub, Azərbaycan isə səssiz qalıb. Biz 30 il ərzində dəfələrlə UNESCO-ya müraciət etmişik, dəfələrlə bildirmişik ki, bizim məscidlərimiz dağıdılıb, tarixi abidələrimiz dağıdılıb, bizim tarixi abidələrimiz erməniləşdirilir, bir dəfə missiya göndərildimi? Bir dəfə bizim müraciətimizə cavab verildimi? Elə müharibə qurtaran kimi başlayıblar ki, erməni xalqının abidələri gərək qorunsun. Biz bütün abidələri qoruyuruq, bütün xalqların abidələrini qoruyuruq və dünya bunu bilir. Amma baxın, görün, məscid olub bura, UNESCO, buraya gəl, gəl gör. Avropa Şurası səssiz qalma, gəl gör buranı! Bütün məscidlər dağıdılıb. Yaxşı, məscidi dağıtmaq olar? Məscidi dağıtmaq, deməli, cinayət deyil? Bu ədalətsizlik nə qədər davam edəcək? Bu riyakarlıq nə qədər davam edəcək? Bu ikili standartlar nə qədər davam edəcək? Bu islamofobiya nə qədər davam edəcək? Bunu dağıdan erməni olub. Özündən mədəni millət obrazı yaratmağa çalışan və bəzi xarici himayədarları tərəfindən belə qəbul edilən mədəni adam bunu edər? Mədəni adam məsciddə donuz saxlayar? Bütün dünya bunu görsün! O cümlədən dünya müsəlmanları görsünlər və müsəlman ölkələrinin xalqları görsünlər. Bunu törədən ölkə ilə hansı dostluqdan söhbət gedə bilər? Əfsuslar olsun, biz bunu bu günə qədər eşidirik ki, bəzi müsəlman ölkələri Ermənistana dost ölkə deyirlər. Bu “dost ölkəyə” 20 il rəhbərlik etmiş cəlladlar bunu dağıdıblar. Onlar gəlib dağıdıblar bizim məscidimizi, təhqir ediblər. Bütün dünya bunu görməlidir. Əgər bizə qarşı hər hansı bir irad irəli sürüləcəksə, cavabını verəcəyik. İstənilən beynəlxalq təşkilat gəlsin, bunu görsün, öz hesabatında bunu əks etdirsin, qınasın işğalçı dövləti və görsün ki, biz hansı bəlaya qarşı mübarizə aparmışıq, biz kimi qovmuşuq torpaqlarımızdan, rədd etmişik onları buradan. Görün şəhərlərimizi nə günə salıblar. Bir dənə də salamat bina yoxdur. Cəbrayıldan başlayaraq ta Qubadlıya qədər, Zəngilana qədər azad edilmiş torpaqlardan gəlmişəm. Bir dənə də salamat bina yoxdur. Bütün binalar sökülüb, dağıdılıb, kəndlərimizin adları dəyişdirilib, eybəcər adlar verilib, məscidimiz bax, bu günə düşüb. Cavabını verəcək Ermənistan, cavabını verəcək! Veribdir, qovmuşuq torpaqlarımızdan, məhv etmişik onları, onların ordusunu. Əminəm ki, bu görüntülərdən sonra bizə irad tutmağa çalışan “beynəlxalq məmurlar” öz dillərini qarınlarına qoyacaqlar. Biz isə bu məscidi bərpa edəcəyik və bizim vətəndaşlar gəlib burada ibadət edəcəklər, buradan azan səsi gələcək, bu torpaqlara həyat qayıdacaq.

Prezident İlham Əliyev: İndi isə Zəngilandan Bakıya qayıdırıq. Yolboyu Zəngilanın gözəl təbiətini seyr edirik. Görün, necə gözəl yerlərdir. Qubadlı, Zəngilan rayonlarında olarkən bir daha gördük ki, vəhşi düşmən bizim şəhər və kəndlərimizi nə günə qoyub. Otuz il ərzində işğal altında olan torpaqlar öz sahiblərinə qayıdıb. Biz qayıtmışıq. Düşməni məhv edərək, zəfər çalaraq qayıtmışıq. Bir müddət sonra bu bölgəyə həyat tam qayıdacaq, İnşallah.

İndi istiqamət Bakı şəhəridir. Çəkilişi aparan Mehriban xanıma da təşəkkürümü bildirirəm. Xahiş edirəm özünü də çəksin.

Birinci xanım Mehriban Əliyeva: Dərin hörmət və məhəbbətlə sizin Mehriban.

Prezident İlham Əliyev: Sağ olun, əziz bacı və qardaşlar. Qarabağ Azərbaycandır!

# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQLƏRİ, ÇIXIŞLARI VƏ MÜSAHİBƏLƏRİ

## *Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Əl-Cəzirə" televiziya kanalına müsahibəsi*

*Jurnalist: Azərbaycan Respublikasının Prezidenti, "Əl-Cəzirə"yə müsahibə verdiyiniz üçün Sizə təşəkkür edirəm.*

Prezident İlham Əliyev: Sizi görməyə çox şadam.

*-Ermənistan və Azərbaycan arasında hazırkı münaqişə 20 ildən artıqdır ki, başlayıb. Müəyyən irəliləyişlər və geriləmələr olmuşdur, lakin bu vaxta kimi sülhə nail olunmamışdır. Niyə görə bu münaqişə bu qədər uzun çəkir?*

-Əsas səbəb odur ki, Ermənistan sülh istəmir. Onlar bizim torpaqları həmişəlik işğal altında saxlamaq istəyirlər. Onlar status-kvonu dəyişmək istəmirlər və bu da münaqişənin bu qədər uzun çəkməsinin səbəbidir. Əgər Ermənistan iradə göstərsəydi və əsas beynəlxalq təşkilatların qətnamələrinə uyğun şəkildə davransaydı, münaqişə uzun illər bundan əvvəl həll edilmiş olardı. Çünki 1993-cü ildə Ermənistan ərazilərimizin bir hissəsini işğal etdikdə BMT Təhlükəsizlik Şurası qoşunların bizim ərazilərdən dərhal, tam və qeyd-şərtsiz çıxarılması ilə bağlı dörd qətnamə qəbul etdi. Lakin bu qətnamələr kağız üzərində qalmaqdadır. Həll yolunun tapılması üçün vasitəçilik aparmaq məqsədilə Minsk qrupu artıq 28 ildir ki, fəaliyyət göstərir və heç bir nəticə yoxdur. Qeyd etdiyim kimi, əsas səbəb Ermənistanın mövqeyidir, ikinci səbəb Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasının qətnamələrinin icrasına başlamaq üçün vasitəçilər tərəfindən təkid göstərilməməsi və təzyiqin olmamasıdır. Bir çox hallarda mən bu məsələni qaldırmışam və demişəm ki, Ermənistanı qətnamələrin tələblərinə əməl etməyə məcbur etmək və torpaqlarımızın boşaldılmasına başlamaq üçün ona qarşı beynəlxalq sanksiyalar tətbiq olunmalıdır. Lakin mənim müraciətlərimə müvafiq şəkildə cavab verilməmişdir və indi baş verənlər Ermənistanın destruktiv siyasətinin nəticəsidir.

*-Beləliklə, Siz deyirsiniz ki, Azərbaycan beynəlxalq müstəvidə narahatlıq doğuran hüquqi məsələlərə görə beynəlxalq səviyyədə layiq olduğu dəstəyi almır?*

-Beynəlxalq hüququn normaları və beynəlxalq təşkilatların qərar və qətnamələri baxımından bizim çox geniş dəstəyimiz var. Dediyim kimi, beynəlxalq ali orqan olan BMT-nin Təhlükəsizlik Şurası Ermənistanın qoşunlarının geri çəkilməsini tələb edən qətnamələr qəbul etmişdir. Birləşmiş Millətlər Təşkilatının Baş Assambleyası eynisini edib. İslam Əməkdaşlıq Təşkilatı, Qoşulmama Hərəkatı, Avropa Parlamenti kimi digər beynəlxalq təşkilatlar və başqaları eynisini edib, lakin bu, kifayət etmir. Beləliklə, münaqişənin həlli üçün hüquqi çərçivəmiz var, lakin təcavüzkara kifayət qədər praktiki təzyiq yoxdur. Beləliklə, biz burada beynəlxalq hüquq və reallıqda baş verənlər arasında ziddiyyət görürük. Ermənistan tərəfindən beynəlxalq hüquqa və normalara açıq şəkildə məhəl qoyulmaması beynəlxalq hüququn işləmədiyinin və ya selektiv üsulla işlədiyinin yaxşı göstəricisidir. Bildiyiniz kimi, bəzi hallarda Təhlükəsizik Şurasının qətnamələri bir neçə gün, bəlkə də bir neçə saat ərzində icra olunur. Lakin bizə gəldikdə qətnamələr uzun illərdir ki, kağız üzərində qalıb. Beləliklə, təcavüzkara praktiki təzyiqin olmaması münaqişənin nəyə görə bu qədər uzun çəkməsinin səbəblərindən biridir.

*-Siz Ermənistanı bu müharibəni, bu münaqişəni başlamaqda günahlandırırsınız. Bir çoxları iddia edə bilər ki, Ermənistan öz cari ərazisini və 2018-ci ildəki məxməri inqilabdakı qələbəni nəzərə alaraq münaqişənin başlamasına risk etməzdi. Buna Siz nə deyərdiniz?*

-Bu cür təhlillərin səbəbinin nə olduğunu bilmirəm. Lakin biz burada nə görürük, biz yerlərdə nə baş verdiyini görürük. Əgər son iki ildə "inqilab"dan sonra Ermənistanın nə etdiklərinə və nə bəyan etdiklərinə nəzər salsaq görərik ki, onlar bizi həmişə təhrik ediblər və yeni müharibəyə başlamağı hədəfə alıblar və bunun səbəbi danışıqları tamamilə pozmaq idi. Onlar Azərbaycana qarşı bir neçə hərbi təxribat törədiblər. İyulun 12-də onlar münaqişə regionundan çox uzaqda olan Tovuz rayonunda, Azərbaycanın qərbində, ErmənistanAzərbaycan sərhədindəki kəndlərimizə və hərbi mövqelərimizə hücum ediblər. Onların bunu nə üçün etdiklərini başa düşmək çox çətin idi. Onlar ağır artilleriya ilə bizə hücum etdilər. Hərbi qulluqçular arasında ilk itkiləri Azərbaycan tərəfi verdi. Bizim dörd hərbi qulluqçumuz və 76 yaşlı bir kəndli dərhal öldürülmüşdür. Beləliklə, biz cavab tədbiri görməli idik. Cavab verdikdən və onlar acı məğlubiyyətlə üzləşdikdən sonra geri çəkildilər, atəşkəs üçün yalvarmağa başladılar. Onda da mən dedim ki, bizim Ermənistanın ərazisində heç bir hərbi məqsədlərimiz yoxdur. Biz onları geri oturdan kimi və onlar istədiklərini həyata keçirə bilmədiklərini başa düşən kimi toqquşmalar dayandı. Toqquşmalar yalnız dörd gün davam etdi. Sonra avqustun 23-də Ermənistan ordusu tərəfindən ərazimizə daxil olmaq və terror aktlarını törətmək üçün göndərilmiş diversiya qrupu dağıdılmışdır və bu diversiya qrupunun başçısı yaxalanmışdır. Hazırda o, istintaq altındadır. O, mülki vətəndaşlarımıza və hərbi qulluqçularımıza qarşı

terror aktları törətmək üçün göndərildiyini bildirən ifadələr verir. Bunu biz etməmişdik, bunu onlar etdilər. Sonra sentyabrın 27-də baş verənlər bu siyasətin məntiqi davamıdır. Bundan əlavə, biz onların bəyanatlarına, söylədiklərinə nəzər salsaq, onların bizi təhrik etməsi açıq-aşkar görünür. Bir il bundan əvvəl Ermənistanın baş naziri "Qarabağ Ermənistandır" bəyan etmişdir və bu bəyanat danışıqları tamamilə mənasız edir. Çünki danışıqlar masasında olan əsas məsələlərdən biri işğal edilmiş ərazilərin Azərbaycana qaytarılmasıdır. Əgər o, "Qarabağ Ermənistandır" deyir və onun anlayışına görə Qarabağ təkcə keçmiş Dağlıq Qarabağ muxtar vilayəti deyil, buraya bütün işğal olunmuş ərazilər daxildir. Bu, onların bu əraziləri geri qaytarmaq istəmədikləri, bu, danışıqların sonu deməkdir.

*-Ermənistan nəyə görə risk edib təxribata əl atıb?*

-Birincisi, hesab edirəm ki, onlar danışıqlar prosesini tamamilə məhv etmək istəyirdilər. Sonra onlar etdikləri kimi, buna görə bizi günahlandırmaq və "baxın, Azərbaycanla danışıqlar aparmaq mümkün deyil" söyləmək istəyirdilər. Hesab edirəm ki, səbəblərdən biri də onların daxili çətinlikləri ola bilər. Çünki biz indi Ermənistanda baş verənləri bilirik. Onlar çox ciddi siyasi böhrandan əziyyət çəkirlər. Hücuma keçməmişdən iki gün əvvəl əsas müxalifət partiyasının rəhbəri həbs edilmişdir. Sabiq iki prezident barədə cinayət araşdırması aparılır. Faktiki olaraq, Ermənistanda diktatura rejimi yaradılmışdır. İnqilabdan sonra baş nazirin verdiyi bütün vədlər kağız üzərindədir. Heç nə icra edilməmişdir. Orada adambaşına görə pandemiya ilə əlaqədar vəziyyət dünyada ən pis vəziyyətlərdən biridir. Beləliklə, diqqəti yayındırmaq lazım idi və o, bunu edə bildi. İndi isə o, nə etməyə çalışır? Guya Azərbaycanın təcavüzü qarşısında cəmiyyəti bir araya gətirmək və öz şəxsi hakimiyyətini gücləndirmək istəyir. Beləliklə, onların fikrincə, hər şey çox məntiqlidir, lakin onlar çox böyük səhv etdilər. Bundan əlavə, təcavüzdən bir neçə gün əvvəl mən BMT Baş Assambleyasında çıxış etdim və dedim ki, onlar müharibəyə hazırlaşırlar və onları dayandırmaq lazımdır. Bu da baş verdi.

*-Bundan əvvəl Siz dediniz ki, Ermənistan ordusu işğal etdikləri ərazilərdən qeyd-şərtsiz çıxmalıdır, indi regionda hansı məqsədləriniz var?*

-Kim, biz?

*-Bəli, Azərbaycan olaraq.*

-Bizim mövqeyimiz dəyişməz olaraq qalır. Mənim tələb etdiklərim tamamilə beynəlxalq hüquqa müvafiqdir, çünki bütün dünya Azərbaycanın ərazi bütövlüyünü tanıyır və dünyanın heç bir ölkəsi "Dağlıq Qarabağ respublikası"nı tanımır. Mənim söylədiyim sözlər demək olar ki, BMT Təhlükəsizlik Şurasının qətnamələrinin mətnidir. Onlar bizim ərazilərimizi tərk etməlidir və yalnız ondan sonra müharibə dayanacaq, münaqişəyə son qoyulacaq. Ola bilsin müəyyən müddət keçdikdən sonra Ermənistan və Azərbaycan xalqları sülh şəraitində birlikdə yaşaya biləcəklər. Bu, bizim mövqeyimizdir və o, dəyişməzdir. Bu, tarixi həqiqətə, beynəlxalq hüquqa və həmçinin düşünürəm ki, regionumuzdakı bu günün siyasi və geosiyasi reallıqlarına əsaslanır. Hesab edirəm ki, Ermənistan hökuməti özlərinin qlobal arenada "əhəmiyyətinə", onlara göstərilə biləcək mümkün beynəlxalq dəstəyə həddindən artıq böyük qiymət veriblər və bizi təhrik etməklə, bizə hücum etməklə böyük səhvlərə yol veriblər. İndi də onlar ciddi məğlubiyyət acısını yaşayırlar.

*-Siz Ermənistanın baş naziri Nikol Paşinyanla danışıqlar masasına getməyi qəbul edərdinizmi?*

-Əslində, danışıqlar dayanıb. Çünki onun "Qarabağ Ermənistandır" ifadəsindən sonra mən danışıqlar üçün heç bir imkanın olmadığını dedim. Lakin Minsk qrupunun həmsədrləri Ermənistan hakimiyyətinin yeni olduğunu, ola bilsin emosiyalarına və sözlərinə tam hakim ola bilmədiyi üçün məndən xahiş edərək deyirdilər ki, Azərbaycan daha çox anlayış göstərsin. Mən dedim ki, yaxşı, gəlin cəhd edək. Biz sülh yolunu tapmaq istəyirik, ona görə də biz uzun illərdir ki, gözləyirdik və bu yayındırıcı yanaşma olmasaydı, yəqin danışıqlar davam edəcəkdi. Bu bəyanatdan sonra mənim Ermənistanın baş naziri ilə görüşüm oldu. Lakin görüşlər tamamilə mənasız idi, rəsmi xarakter daşıyırdı. O, mənə əraziləri geri qaytarmayacaqlarını deyirdi. Əgər onlar bunu etmək istəmirlərsə, əgər onlar neçə illər ərzində Minsk qrupu tərəfindən hazırlanmış prinsiplərə qarşı çıxırlarsa və danışıqları məhv edirlərsə, bundan sonra nədən danışmaq olar ki? Danışıqlar birtərəfli qaydada aparıla bilməz. Bizim tərəfdaşımız olmalıdır. Lakin Ermənistanın simasında bizim hələ danışıqlarda tərəfdaşımız yoxdur.

*-Onda danışıqlar masasına qayıtmaq üçün Azərbaycanın ilkin şərti kimi Ermənistanın işğal olunmuş ərazilərdən çıxmasını deyə bilərikmi?*

-Əslində, Ermənistanın baş naziri bizə qarşı ilkin şərtlər irəli sürüb. Yeri gəlmişkən, düşünürəm ki, bu da növbəti təxribatdır. Bir neçə ay öncə o, Azərbaycan üçün yeddi ilkin şərt irəli sürmüşdü. Əslində, o, öz gündəliyini bizə və Minsk qrupuna diktə etmək istəyirdi. Bu ilkin şərtlərdən biri də ondan ibarət idi ki, Azərbaycan "Dağlıq Qarabağ hökuməti" ilə danışıqlar aparmalıdır. Bunu təkcə biz yox, həm də Minsk qrupu rədd etdi. Çünki bu, iyirmi ildən çox müddət ərzində hazırlanmış danışıqların formatını tamamilə dəyişir. Danışıqlar Ermənistan və Azərbaycan arasında aparılır. Beləliklə, o, bizə qarşı ilkin şərtlər irəli sürür və biz onları rədd etdik. Onun bunu etmə səbəbi ondadır ki, o, danışıqların dayanmasını və status-kvonun dəyişməz olaraq saxlanmasını istəyirdi. Bizə gəldikdə, biz həmişə danışıqlara hazırıq. Biz heç vaxt danışıqlardan imtina etməmişik. Əvvəlki illərdə danışıqlar prosesində çətin vaxtlar yaşamışıq. Heç də hər şey rəvan getmirdi. Lakin Ermənistanın əvvəlki rəhbərləri ilə bizim prosesimiz olub və biz mərhələli yanaşmanı işləyib hazırlamışdıq. Əks halda, biz bu qədər uzun illər bu prosesdə iştirak

etməzdik. Bu, faydasız vaxt deyildir. Hesab edirəm ki, biz çox böyük irəliləyişə nail olmuşduq. Mən bu prosesdə 2003-cü ildən bəri iştirak edirəm. Mən Ermənistanın iki sabiq prezidenti ilə işləmişdim. Biz irəliləyişə nail olduq, bu, asan deyildi. Bizdə çox müxtəlif fikirlər var idi, lakin biz mərhələli şəkildə irəliləyirdik və indiki məqamda əldə etdiklərimizi işləyib hazırlamışdıq. Paşinyan hakimiyyətə gəldikdən sonra nəinki ondan əvvəl olanları məhv etdi, o, ondan əvvəl sanki Ermənistanın mövcud olmadığı və indi yeni Ermənistanın yaradıcısı kimi davranmaq istəyirdi. O, işlənilmiş bütün prinsipləri məhv etdi. Buna görə bütün məsuliyyət onun və onun hökumətinin üzərindədir.

Yeri gəlmişkən, Ermənistanda rasional insanlar bunu başa düşür. Onlar Ermənistan əhalisinə xəbərdarlıq edərək bu şəxsin onların ölkəsini fəlakətə apardığı ilə bağlı bəyanatlar verirlər. Danışıqlarda belə davranmaq olmaz, Azərbaycanı belə təhrik etmək olmaz.

Digər bir təxribat Azərbaycanın qədim Şuşa şəhərində qondarma “Dağlıq Qarabağ lideri”nin qondarma “andiçmə” mərasiminin təşkil olunması idi. Heç bir digər qondarma “Dağlıq Qarabağ lideri” bunu etməmişdir. O, bunu nəyə görə etdi? Azərbaycanlıların hisslərini təhqir etmək üçün. Sonra onlar qondarma “Dağlıq Qarabağın parlamenti”ni Xankəndidən Şuşaya köçürməyi qərara aldılar. Nə üçün? Azərbaycanlılara qarşı daha bir təhqir. Onlar işğal olunmuş ərazilərdə Livandan olan erməniləri açıq şəkildə məskunlaşdırır və bunu televiziyada nümayiş etdirirlər. Bu, Cenevrə Konvensiyasının kobud şəkildə pozulmasıdır və burada məqsəd onların bizə qarşı nifrətini nümayiş etdirmək idi. Onun etdiyi hər şey danışıqlar prosesini məhv etmək məqsədini daşıyırdı. Lakin indi onlar danışıqların aparılması üçün yalvardıqda, Paşinyan dünya liderlərinə dəfələrlə zəng etdikdə və Azərbaycandan şikayət etdikdə, hesab edirəm, bu liderlər ona deməlidirlər ki, sən danışıqlar prosesini pozdun, sən Azərbaycanı təhrik etdin, sən azərbaycanlıların hisslərini təhqir etdin. Ona görə sən bunun üçün məsuliyyət daşımalısan. Erməni xalqı, - mən bir neçə gün bundan əvvəl Ermənistan xalqına müraciət etdim, - buna görə onu məsuliyyətə cəlb etməlidir. Bizim erməni xalqı ilə problemimiz yoxdur. Onlar bizim vətəndaşlarımızdır. Azərbaycanda minlərlə erməni yaşayır və Dağlıq Qarabağda yaşayanları da öz vətəndaşlarımız hesab edirik. Biz onları Azərbaycanda bir çox digər millətlərin və etnik azlıqların nümayəndələri kimi bizimlə birlikdə yaşamağa dəvət edirik. Buna görə Ermənistan bu təhrikedici bəyanatları səsləndirməkdən tamamilə çəkinməlidir, onlar “Qarabağ Ermənistan deyil” kimi yeni bəyanatla çıxış etməlidir və sonrasına biz baxarıq.

*-Beləliklə, bu siyasi dalanda Rusiya vasitəçiliyi Azərbaycan üçün məqbuldurmu?*

-Rusiya Amerika Birləşmiş Ştatları və Fransa ilə birlikdə vasitəçi olan ölkələrdən biridir. Bu prosesdə iştirak etdiyim 17 il ərzində hər üç ölkə prosesdə eyni dərəcədə iştirak edib. Prosesdə kifayət qədər yüksək səviyyədə koordinasiya var. Əlbəttə ki, Rusiyanın xüsusi mövqeyi var, çünki o, regionda Azərbaycana qonşu ölkədir, onun Ermənistanla dövlət sərhədi yoxdur. Lakin buna baxmayaraq, Rusiya Azərbaycan və Ermənistanla yaxşı münasibətləri və tarixi münasibətləri olan bir ölkədir. Buna görə əlbəttə ki, vasitəçilik etmək üçün onların rolu və bacarığı obyektiv səbəblərə görə regiondan uzaqda yerləşənlərlə və ola bilsin, son onillikdə burada nələrin baş verdiyini tam şəkildə bilməyənlərlə müqayisədə çox yüksəkdir.

Ona görə də düşünürük ki, üç ölkə birlikdə işləməyə davam etməlidir, əgər onların hamısı neytrallığı qorusa. Bu, mühümdür. Son günlərdə əks-təsir göstərən, neytrallıq mövqeyində müəyyən dəyişikliyi nümayiş etdirən bəzi bəyanatlar görməyimiz bizi narahat edir. Hər bir ölkənin öz mövqeyi ola bilər, bu, normaldır. Lakin əgər siz belə həssas məsələdə vasitəçisinizsə, bu mövqedən çıxış etməlisiniz. Əgər milli mövqeyinizdən çıxış etmək istəyirsinizsə, onda siz Minsk qrupunun həmsədrliyindən çıxmalısınız, istədiyinizi deyin, kimi istəyirsinizsə onu günahlandırın, baş verənlərlə bağlı sübutu olmayan xəbərlər verin və sözsüz ki, heç kim etiraz etməyəcək. Lakin əgər siz vasitəçisinizsə, neytral olmalısınız, vasitəçi olmalısınız. Əks halda, vasitəçilik bizim tərəfimizdən qəbul edilməyəcək.

*-Beynəlxalq ictimaiyyət atəşkəs çağırışları edir. Lakin həm Azərbaycan, həm də Ermənistan tərəfinin son bəyanatlarını nəzərə alaraq, Siz atəşkəslə bağlı beynəlxalq ictimaiyyətin çağırışlarına məhəl qoymamaq seçimini edirsiniz?*

-Xeyr, biz buna göz yummuruq. Lakin atəşkəs birtərəfli qaydada əldə oluna bilməz. Bu günlərdə mənə zəng vuran liderlərə bu mesajı çatdırmağa çalışıram ki, başlayan Azərbaycan tərəfi olmayıb. Biz özümüzü müdafiə etməli idik. Əgər biz bu dəfə etdiyimiz kimi cavab verməsəydik, bu gün mülki şəxslərimiz arasında yüzlərlə itki olacaqdı. Hələ də itkilərimiz çoxdur. Bu səhər mən məlumat aldım ki, mülki şəxslər arasında 19 itkimiz var, onlardan 2-si uşaqdır. Mülki insanlarımız arasında 54 yaralı var. Ermənilərin artilleriya hücumu nəticəsində 300-dən çox evə ziyan dəyib və ya tamamilə dağılıb. Onlar bizim kəndlərə, insanlarımıza hücum edir, bacardıqları qədər çox azərbaycanlı öldürmək istəyirlər. Dünən onlar Ermənistan ərazisindən uzaq məsafəli raketlərdən istifadə etməyə başladılar. Bununla da onlar istifadə etdikləri bu silahları Azərbaycan üçün qanuni hədəfə çevirirlər və biz bu hədəfləri məhv etməliyik. Sonra isə onlar bizi günahlandıracaqlar ki, biz Ermənistan ərazisinə hücum edirik. Onlar bunu istəyirlər. Onlar münaqişəyə üçüncü tərəfləri cəlb etmək istəyirlər ki, bu tərəflər onları müdafiə etsinlər və onlar üçün daha 30 illik qanunsuz işğalı təmin etsinlər. Atəşkəs – yaxşı, bəs, hansı şərtlərlə? Şərtlər belə olmalıdır ki, onlar ərazilərdən çıxmalıdırlar. Mən 2 gün bundan əvvəl dedim ki, qoy onlar çıxmağa başlasınlar, qoy çıxmaqla bağlı

bizdə cədvəl olsun, qoy onlar üzərlərinə vasitəçilər tərəfindən təsdiq olunmuş ciddi öhdəliklər götürsünlər, atəşkəs rejiminə əməl etsinlər və əlbəttə ki, biz də eyni şeyi edəcəyik. Bu hərbi toqquşma bizim nəyimizə lazımdır? Bizə torpaqlarımızın sülh yolu ilə geri qayıtması lazımdır. Biz sülh yolu ilə həllə istəkli olduğumuzu 28 il ərzində nümayiş etdirdik. Bu 28 il ərzində toqquşmaların olduğu vaxtlar oldu və ən böyüyü indidir. Daha biri 4 il bundan əvvəl olmuşdu. Beləliklə, bu, bizim mövqeyimizdir və Ermənistan tərəfdən siyasi və hərbi təxribatlar barədə dediklərimi nəzərə alsaq, düşünürəm ki, bu, tamamilə ağlabatandır.

*-Sonuncu münaqişəyə baxdıqda, Azərbaycan Ordusu cəbhədə müəyyən irəliləyişə nail olub və xüsusilə Füzuli rayonu ətrafında bəzi kəndləri geri alıb. Bu, o deməkdir ki, Azərbaycan geri qaytardığı həmin ərazilərdən geri çəkilməyə hazırlaşmır?*

–Xeyr, əlbəttə ki, xeyr! Çünki bu ərazilər bizə məxsusdur. Bu ərazilər qədim torpaqlarımızdır. Bu ərazilər bizim insanların əsrlərboyu yaşadığı ərazilərdir və onlar ermənilər tərəfindən işğal olunub və dağıdılıb. Füzulidə, Ağdamda və Azərbaycanın başqa şəhər və kəndlərində, işğal olunmuş ərazilərin cənub-şərqində baş verənlərlə bağlı internetdə şəkillər var. Onların bir neçə qanunsuz yaşayış məntəqələrinin olduğu Laçın və Kəlbəcər rayonlarında da dağıntılar var, lakin bu ərazidə olduğu qədər ağır deyil. Bu, bizim torpağımızdır. Biz onu geri almışıq, biz onu güc yolu ilə geri qaytarmışıq, biz onları itkilər verərək geri qaytarmışıq, biz heç vaxt bundan geri dönməyəcəyik. Biz orada yaşayacağıq. Bizim həmin ərazilərdən güclə çıxarılmış insanlarımız bu gün demək olar ki, 30 ildir bir arzu ilə, bir amalla yaşayır – geri qayıtmaq. Mən sizə 2016-cı ilin aprelində yenə də erməni təcavüzü nəticəsində əks-hücuma keçməklə ərazilərimizin bir hissəsini azad etməyimizlə bağlı əyani bir nümunə göstərə bilərəm. Kəndlərimizdən biri ermənilər tərəfindən dağıdılmışdı və azərbaycanlılar geri qayıda bilmirdilər, çünki ermənilərin mövqeləri dağlarda idi. Biz qaçqınlar üçün yeni kənd tikdik və hətta heç vaxt o torpağı görməyənlər, ondan sonra dünyaya gələnlər belə hamısı Cocuq Mərcanlıya qayıtdı. Mən demişdim ki, Cocuq Mərcanlı ləyaqətimizin rəmzidir, iradəmizin rəmzidir və Cocuq Mərcanlı bizim qayıdışımızın rəmzidir. Mən demişdim ki, qayıdışımız indi başlayır. Mən əminəm ki, o ərazilərdən köçürülənlərin hamısı geri qayıdacaq. Geri qayıtmağa yol yoxdur, çünki hər şey dağılıb. Hər şey. Bir tikili belə qalmayıb. Hər şey dağılıb. Sözsüz ki, biz kömək edib şəhərləri, kəndləri yenidən quracağıq, onların əvvəlki adlarını qaytaracağıq. Çünki ermənilər bizə qarşı mədəni soyqırımı törədiblər. Onlar işğal olunmuş ərazilərdə bütün məscidləri dağıdıblar. Onlar məscidlərdə donuz və inək saxlamaqla bütün müsəlmanları təhqir edirlər. Onlar şəhərlərimizin, kəndlərimizin adlarını dəyişdiriblər. Bütün adlar qaytarılacaq. Biz öz torpaqlarımıza geri qayıdacağıq. Bu, bizim qanuni hüququmuzdur. Bu, bizim üçün tarixi vəzifədir və əminəm ki, biz buna nail olacağıq.

*-Qafqaz çox mürəkkəb regiondur, təkcə coğrafi nöqteyi-nəzərdən deyil, həm də mədəniyyət, etnik mənsubiyyət və sosial quruluş nöqteyi-nəzərdən. Siz xalqların öz müqəddəratını təyin etmək hüququna inanırsınızmı?*

–Bilirsiniz, bu, erməni təbliğatının əsas etibarilə beynəlxalq hüquq üzrə mütəxəssis olmayan sadə insanlardan ibarət beynəlxalq ictimai rəyi çaşdırmaq üçün tez-tez istifadə etdiyi məqamdır. Lakin beynəlxalq hüququn Helsinki Yekun Aktında əks olunan əsas prinsiplərinin çox aydın izahı var ki, orada ərazi bütövlüyü prinsipi üstündür. Öz müqəddəratını təyinetmə beynəlxalq hüququn mühüm prinsiplərindən biridir. Lakin əgər biz geriyə baxıb BMT Nizamnaməsinə, Helsinki Yekun Aktına nəzər salsaq görərik ki, öz müqəddəratını təyinetmə ölkələrin ərazi bütövlüyünə ziyan vurmamalıdır. Başqa bir mühüm məqam odur ki, ölkənin ərazi bütövlüyü güc yolu ilə dəyişdirilə bilməz, ölkə əhalisinin razılığı olmadan dəyişdirilə bilməz. Ona görə də Dağlıq Qarabağ məsələsində sözsüz ki, öz müqəddəratını təyinetmə ermənilərin etmək istədikləri şəkildə işləmir. Başqa bir arqument odur ki, erməni xalqı artıq öz müqəddəratını təyin edib. Onların müstəqil Ermənistan dövləti var. Bu gün ermənilər hər yerdə yaşayırlar. Onlar Fransada yaşayırlar, onlar Amerikada yaşayırlar, onlar Rusiyada yaşayırlar, onlar Yaxın Şərqdə yaşayırlar. Qoy, onlar öz müqəddəratlarını həmin ölkələrdə istəsinlər. Əgər ermənilər özlərinə məxsus olmayan torpaqları istəsəydilər və sadəcə olaraq, əksəriyyət olduqlarına görə həmin torpaqları istəsəydilər, həmin ölkələrin rəhbərliklərinin reaksiyası necə olardı? Bu, onların uzun illər istifadə etdikləri taktikadır - gəlmək, dəstək istəmək, torpaq istəmək və sonra özlərinin qondarma qədim tarixləri barədə feyk xəbərlər hazırlamaqla və həmin torpaqları özləri üçün tələb etməklə ərazinin tarixi kimliyini dəyişməyə başlamaq. Qoy Dağlıq Qarabağa öz müqəddəratını təyinetmə vermək istəyən ölkələr öz torpaqlarının bir hissəsini Dağlıq Qarabağdan olan ermənilərə versinlər, onları qəbul etsinlər və orada onlara öz müqəddəratını təyinetmə hüququ versinlər. Onda baxaram onların reaksiyası necə olacaq.

*–Hazırda vəziyyət necədir? Ruslar, iranlılar, türklər, fransızlar, amerikalılar münaqişə ilə bağlı narahatlığını ifadə edirlər. Bu münaqişə nə vaxtsa regional ola bilərmi?*

–Mən belə düşünmürəm. Zənnimcə, bunun üçün əsas yoxdur və biz bu münaqişənin regional münaqişəyə çevrilməsinin qəti olaraq əleyhinəyik. Ermənistanın etmək istədiyi məhz budur. Ona görə də onlar Azərbaycana bəzi xarici dəstəklə bağlı feyk xəbərlər icad edirlər. Lakin, eyni zamanda, onlar özləri xarici dəstək istəyirlər. Ona görə də mən elə hiss edirəm ki, hazırda, döyüş meydanında çox ciddi məğlubiyyətlə üzləşdikləri

bir vaxtda, onların əsas hədəfi bu münaqişəni regional münaqişəyə çevirməkdir. Lakin mən əminəm ki, qeyd etdiyiniz ölkələr heç vaxt bunun olmasına imkan verməyəcəklər. Çünki regionumuzda təhlükəsizlik bütün region ölkələrinin maraqlarına xidmət edir və qeyd etdiyiniz ölkələr arasında Türkiyə, Rusiya, İran region ölkələridir. Digər ölkələrin bura ilə, regionla əlaqəsi yoxdur. Onlar region ölkələri deyil. Onların danışıqlara şərait yaratmaqla bağlı mandatı var, çünki bu, 1992-ci ildə baş verib. Biz, şəxsən mən Minsk qrupunun belə tərkibdə olmasına görə cavabdeh deyilik. Sözsüz ki, əgər biz sülhə şərait yarada biləcək hər hansı kontakt qrupunun tərkibi ilə bağlı bu gün qərar versəydik, əlbəttə, tərkib tamamilə fərqli olardı. Mən konkretləşdirmək istəmirəm, lakin bəzi ölkələrin qərəzli davranışı səbəbindən həmin qrupda yeri olmazdı. Beləliklə, biz, xüsusilə region ölkələrinin münaqişədən kənar durması, heç bir halda münaqişəyə müdaxilə etməməsi üçün əlimizdən gələni etməliyik və Ermənistana xəbərdarlıq etməliyik – işğalı dayandır. İşğalı dayandır və onda siz xeyrini görəcəksiniz. Onda siz uzun illər ərzində bu təcavüz səbəbindən Ermənistan rəhbərliyinin Ermənistanı məhrum etdiyi iqtisadi, investisiya, enerji və nəqliyyat sahələrində regional layihələrə inteqrasiya edəcəksiniz. Beləliklə, biz bu münaqişənin mümkün qədər tez bir zamanda dayanması, həllin mümkün qədər tez tapılması üçün əlimizdən gələni etməliyik. Biz "bunu dayandırın, biz işləyəcəyik, danışıqlar aparacağıq, yardım edəcəyik" kimi bəyanatlara qulaq asmaq mövqeyində deyilik. Biz bunu dəfələrlə eşitmişik. Bizim daha 30 il gözləməyə vaxtımız yoxdur. Münaqişə indi həll olunmalıdır. Ermənistana kömək etmək istəyənlər onların, belə demək mümkünsə, yaxın tərəfdaşları qoy onlara kömək etmək üçün desinlər ki, əraziləri tərk edin, iradənizi nümayiş etdirin, atəşi dayandırın, deyin ki, bu gün, ya sabah, bir həftəyə mən Ağdamı tərk edəcəyəm, növbəti dəfə, növbəti həftə Füzulini tərk edəcəyəm, növbəti həftə Kəlbəcəri tərk edəcəyəm və s. və biz dayanarıq. Bu, çox ədalətli mövqedir. Bu, müharibəyə deyil, sülhə istiqamətlənmiş mövqedir.

*–Ankaranın bu münaqişəyə hərbi nöqteyi-nəzərdən öz təyyarələri və sair ilə cəlb olunmasına dair Ermənistanın iddiaları barədə nə deyə bilərsiniz?*

–Bu, yalan məlumatdır. Bunun sübutu yoxdur. Mən bununla bağlı artıq bəyanatlar vermişəm. Türkiyə bizim qardaş ölkəmizdir. Ermənistanın hücumunun ilk günündən, ilk saatından Türkiyə Azərbaycana tam dəstəyini ifadə etdi. Qardaşım, Prezident Ərdoğan dəfələrlə çox mühüm bəyanatlar verib. Dünən parlamentin açılış sessiyasında çıxış edərkən o, daha bir mühüm bəyanat verdi ki, Türkiyə Azərbaycanın yanındadır və Azərbaycan tək deyil. Biz bu dəstəyi hiss edirik. Biz türk qardaşlarımıza, Prezidentə və digər rəsmi şəxslərə çox minnətdarıq. Lakin Türkiyə heç bir şəkildə münaqişəyə cəlb olunmayıb. Ermənistanın artıq mediada yer almayan feyk xəbərlərindən biri odur ki, Türkiyəyə məxsus F-16 təyyarəsi Ermənistanın Su-25 təyyarəsini vurub. Bu, feyk xəbərdir. Sübut haradadır? Sübut yoxdur. Yerə enən və havaya qalxan hər bir təyyarə kompüterdədir. Hər kəs nə baş verdiyini görə bilər. Mən təəccüblənirəm, niyə Minsk qrupunun həmsədr ölkələri – Fransa, ABŞ, Rusiya buna münasibət bildirmir. Onlar bu feyk xəbərə münasibət bildirmir. Onların bəziləri Azərbaycan və Türkiyənin buraya terrorçular dəvət etməsi kimi başqa feyk xəbərlərə münasibət bildirir.

*–Mən məhz bu barədə soruşmaq istəyirdim, cənab Prezident. Ermənistan, həmçinin Türkiyəni suriyalı müxalif döyüşçüləri Azərbaycana gətirməkdə ittiham edir.*

–Bu, tamamilə feyk xəbərdir. Eynilə Türkiyəyə məxsus F-16-nın onların Su-25-ni vurması kimi feyk xəbərdir. Onların Su-25 təyyarəsi qəzaya uğrayıb. Mənə məlumat verilmişdi ki, o, pilotun təcrübəsizliyi ucbatından dağa çırpılıb.

*–Amma onlar bunu sübut etmək üçün dəlillərinin olduğunu deyirlər.*

–Qoy göstərsinlər. Haradadır dəlil? Təkcə Ermənistan deyil, əfsuslar olsun, mən dünən eşitdim ki, Fransa prezidenti də bəyanat verib. O, ayın 27-də axşam mənə zəng vurmuşdu, mən ona bunun səhv, yanlış olduğunu dedim. O, bu bəyanatı heç bir dəlil olmadan verib. Qoy o, bizə dəlil versin, sübut versin. Yalnız sözlərdir. Biz də çox söz deyə bilərik, amma demirik, məsuliyyətli davranırıq. Azərbaycanda hər hansı xarici ölkənin iştirakına dair heç bir dəlil belə yoxdur. Biz nə ediriksə, özümüz edirik. Bizim qabil ordumuz var. Ordumuzda kifayət qədər insan var, ehtiyatımızda kifayət qədər insan var. Mən qismən səfərbərlik elan etmişəm. Bu, bizə ehtiyac olacağı təqdirdə ehtiyatda olan on minlərlə adamı cəlb etməyə imkan verəcək. Beləliklə, bizim buna ehtiyacımız yoxdur. Ermənistanın buna ehtiyacı var, çünki Ermənistan əhalisinin sayı azalır, cəmi 2 milyon nəfərdir. Ona görə də onlar özləri Yaxın Şərqdən insanları cəlb edirlər və bizim sübutumuz var, təkcə erməni əsilliləri deyil. Yeri gəlmişkən, Yaxın Şərqdən gələnlərin erməni əsilli olması və ya qeyri-erməni əsilli olmasının heç bir fərqi yoxdur. Əgər kimsə xaricdən muzdlu kimi döyüşməyə gəlirsə, bununla beynəlxalq səviyyədə məşğul olunmalıdır. Bu ittihamlar tamamilə əsassızdır. Biz onları rədd edirik və dəlillərin ortaya qoyulmasını tələb edirik.

*– Siz də Ermənistanın gətirdiyi əcnəbi muzdlularla bağlı dəlilləri ortaya qoyacaqsınızmı?*

-Bizdə artıq bəzi kəşfiyyat məlumatları var və bundan əlavə dünən mənə göstərdilər ki, internetdə videolar var, Yaxın Şərqdən olan insanlar erməni əsgərləri ilə birlikdə oturub, onların formasını geyiniblər, onlarda Ermənistan milli bayrağı var, onlar birlikdə oturub müzakirə aparırlar. Səsi yoxdur, lakin düşünürəm ki, bu, yetərlidir. Onlar buna görə məsuliyyət daşımalıdırlar.

*-Diplomatiya nə vaxtsa işləyə bilərmi? Yoxsa, sizin üçün yeganə həll müharibədir?*

–Mən artıq demişəm ki, Ermənistan beynəlxalq hüquqa əməl etsə, ərazilərin bir hissəsindən vaxt cədvəlinə müvafiq olaraq dərhal çıxmağa başlasa, - əlbəttə ki, biz Azərbaycanın ərazi bütövlüyünü bərpa etməliyik, - diplomatiya işləyə bilər. Yeri gəlmişkən, Ermənistanda bu hökumət hakimiyyətə gəlməmişdən əvvəl biz danışıqlar masasındakı məsələləri müzakirə edəndə ilk bənd o idi ki, münaqişə Azərbaycanın ərazi bütövlüyü əsasında həll olunmalıdır. Bu, bərpa olunmalıdır. Bizim tələbimiz budur və düşünürəm ki, bunu tələb etməyə haqqımız var.

*-Azərbaycan Prezidenti İlham Əliyev, "Əl-Cəzirə"yə müsahibə verdiyiniz üçün çox sağ olun.*

–Təşəkkür edirəm.

## *Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Əl-Ərəbiyə" televiziya kanalına müsahibəsi*

*-Əvvəllər soyuq müharibə olmuş bu münaqişə indi Azərbaycanı və Ermənistanı alova bürüyüb. Bu müharibə keçmişdən qaynaqlanır və indi artilleriya mərmilərinin səsi eşidilir. Dağlıq Qarabağ yenidən gündəmə gəlib, müharibə Qarabağdan və beynəlxalq tərəflərin müdaxilələrindən kənara doğru genişlənir, regional müharibəyə çevrilməklə bağlı xəbərdarlıqlar mövcuddur. Münaqişənin həll yolu, beynəlxalq müdaxilələr bizim Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ilə müzakirəmizin mövzusu olacaq. Canlı yayımımıza Bakıdan Prezident İlham Əliyev qoşulur. Xoş gəlmisiniz cənab Prezident.*

-Təşəkkür edirəm.

*-Cənab Prezident, biz son günlərdə inkişaf edən hadisələrdən, Ermənistan və Azərbaycan arasında olan böhrandan başlayacağıq. Bu eskalasiyanın başlanğıcı necə oldu?*

-Sentyabr ayının 27-də Ermənistan bizim hərbi mövqelərimizə və mülki şəxslərimizə hücum etdi. Mülki şəxslərimiz bu hücumdan əziyyət çəkmişdir. Mülki şəxslərimiz arasında qurbanlar var. Bu səhərə olan məlumata əsasən 22 mülki şəxs öldürülmüş və 73-ü yaralanmışdır. Əfsuslar olsun ki, bu gün bizdə yenə sadə kəndlilərimiz arasında onlarla yaralı və qətlə yetirilənlər var. Biz cavab tədbiri görməli idik və bizim cavabımız adekvat olmuşdur. Biz əks-hücuma başladıq və bu əks-hücum nəticəsində Azərbaycanın işğal olunmuş ərazilərində yerləşən Ermənistanın atəş mövqelərini susdura bildik. Biz ərazilərin bir qismini, bir neçə kəndi azad edə bildik və bu gün biz 27 il Ermənistanın işğalı altında olan Cəbrayıl şəhərini azad etdik. Bizim uğurlu hərbi əməliyyatımız davam edir. Biz torpaqlarımızı azad etmək və ərazi bütövlüyümüzü bərpa etmək üçün tamamilə qətiyyətliyik.

*-Prezident Əliyev, açıq-aşkar görünür ki, Azərbaycan və Ermənistan arasında hadisələrin gedişi nəzarətdən çıxır, bu hərbi əməliyyatların genişlənməsinin hər hansı bir həddi varmı?*

-Hadisələrin nəzarətdən çıxdığını düşünmürəm, vəziyyət Azərbaycan Ordusunun nəzarəti altındadır. Biz hazırda hücum əməliyyatını həyata keçiririk, bizim məqsədimiz ərazilərimizi azad etməkdir. Mən vasitəçilərə təklif etdim və Ermənistan xalqına da müraciət etdim ki, işğala görə öz hökumətini məsuliyyətə cəlb etsinlər və işğalı dayandırsınlar. Ermənistan buna razı olarsa, demək olar ki, 30 il ərzində qanunsuz olaraq öz nəzarətində saxladığı işğal edilmiş əraziləri boşaltmağa başlasa, müharibə dayanacaq. Bizə müharibə lazım deyil. Biz 1992-ci ildən bəri danışıqlar prosesində iştirak edirdik. Demək olar ki, bu 30 il ərzində danışıqlar masasında sıfır irəliləyiş olmuşdur. Ermənistan ərazilərimizdən qoşunların tam, dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edən Birləşmiş Millətlər Təşkilatının qətnamələrini icra etmək istəmirdi. Əksinə, onların hərbi-siyasi rəhbərliyi yeni torpaqları işğal etməyə cəhd edirdi. Onlar Azərbaycana qarşı hücuma keçməyə cəhd edirdilər və iyul ayında onlar faktiki olaraq yeni hərbi hücuma keçdilər. Beləliklə, biz özümüzü, insanlarımızı müdafiə etməli idik və dünyanın bütün ölkələri tərəfindən tanınan, Azərbaycanın beynəlxalq səviyyədə tanınan ərazi bütövlüyümüzü bərpa etməli idik.

*-Prezident Əliyev, əgər Ermənistan Sizin təqdim etdiyiniz bu təşəbbüsə cavab verməsə, bu eskalasiya davam edəcək və mülki şəxslərin həyatı üçün qorxular olacaq və bunun bədəli çox yüksək olacaq.*

-Ermənistan təkcə mülki əhalinin yaşadığı kəndləri ağır artilleriyadan istifadə etməklə atəşə tutmaqla yox, eyni zamanda, işğal olunmuş ərazilərdə əcnəbilərin qanunsuz məskunlaşmasını təmin etməklə Cenevrə Konvensiyanı kobud şəkildə pozur. Biz ərazilərimizin azad olunmasını istəyirik, biz iki ölkə arasında olan münaqişənin həllini tapmağa imkan yaratmaq üçün mandatı olan vasitəçilərə çox güvənirdik. Lakin danışıqlar masasında konstruktiv yanaşma nümayiş etdirmək əvəzinə, Ermənistan iyul ayında bizə qarşı hərbi hücuma keçdi və biz onlara adekvat cavab verdik. Onlar terror aktları törətməyi planlaşdıran diversiya qrupunu göndərdilər və bu diversiya qrupunun başçısı yaxalanmışdır. İndi o, ifadə verir və sentyabr ayında onlar bizim kəndlərimizi və şəhərlərimizi artilleriya bombardmanına tutdular. Münaqişə bölgəsinə yaxın yaşayan sıravi azərbaycanlıların 500-dən çox evi tamamilə dağıdılmışdır və ya onlara ziyan dəymişdir. Buna görə Ermənistan bu təcavüzkar hərəkətləri dayandırmalıdır, onlar qoşunlarının bizim ərazilərimizdən çıxarılmasını üzərlərinə öhdəlik götürməlidirlər. Onlar işğal olunmuş ərazilərdən qoşunların çıxarılması ilə bağlı vaxt cədvəlini bizə

təqdim etməlidirlər. Onların “Qarabağ Ermənistandır” deyən baş naziri indi deməlidir ki, “Qarabağ Ermənistan deyil” və bundan sonra əlbəttə ki, biz bu düşmənçiliyə son qoymağa və atəşkəs rejimini bərpa etməyə hazır olacağıq.

*-Lakin Prezident Əliyev, “Əl-Ərəbiyə” vasitəsilə Ermənistan prezidenti danışıqlar haqqında danışdı və o dedi ki, münaqişə danışıqlar yolu ilə həll olunmalıdır. Siz buna nə cavab verərdiniz?*

-Mən razıyam. Mən həllin danışıqlar vasitəsilə olduğunu düşünürəm. Lakin danışıqların məğzi olmalıdır. Ermənistanın “Qarabağ Ermənistandır” deməsi, - onların baş naziri bunu söyləyib, - münaqişənin həlli prinsiplərini faktiki olaraq məhv etdi. Çünki həmsədr ölkələri Rusiya, Amerika Birləşmiş Ştatları və Fransa olan ATƏT-in Minsk qrupu - onlar danışıqlar zamanı illər ərzində münaqişənin həlli üçün prinsipləri hazırlayıblar və regionumuzda dayanıqlı sülhə nail olmaq üçün birinci addım işğal olunmuş ərazilərin boşaldılmasıdır. İki il bundan əvvəl dövlət çevrilişi və Corc Soros tərəfindən maliyyələşdirilmiş “inqilab” nəticəsində hakimiyyətə gəlmiş Ermənistanın baş naziri “Qarabağ Ermənistandır” deyəndə o danışıqların məğzini məhv edir. Danışılası heç bir şey qalmır. Buna görə Ermənistanda hakimiyyətdə olan baş nazir öz destruktiv davranışı, hərbi toqquşmaya gətirib çıxarmış hərəkətləri barədə ciddi şəkildə düşünməlidir. Biz 28 ildir ki, danışıqlar prosesində idik və mənim Ermənistanın iki sabiq prezidenti ilə danışıqlar təcrübəm var idi. Biz həll yolunu tapmaq üçün nisbətən məqbul şəkildə işləyirdik, biz kiçik addımlar atırdıq. Biz vasitəçilərlə birlikdə münaqişənin həlli üçün əsas prinsipləri işləyib hazırlayırdıq. Sonra iki il bundan əvvəl siyasi həyatda heç bir təcrübəsi olmayan, bütün həyatı boyu hətta kiçik bir şirkətin rəhbəri olmayan, geosiyasət, beynəlxalq münasibətlər haqqında heç bir anlayışı olmayan, küçədən olan bir şəxs hakimiyyətə gəlir və öz ölkəsini dağıtmağa başlayır. İndi Ermənistan böhran vəziyyətindədir. O, əsas siyasi partiyanın rəhbərini həbs edir. O, mənim müxtəlif dövrlərdə danışıqlar üzərində çalışdığım iki sabiq prezidentə qarşı cinayət araşdırmasına başlayır. O, tamamilə despotik bir rejim yaradır və danışıqları məhv edir və biz nə etməliyik? O, azərbaycanlılara qarşı təhqiramiz bəyanatlar verir, o, təhrikedici addımlar atır və vasitəçilərin özlərini, yumşaq desək, bu qəribə davranış çox çaşdırmışdır. O, danışıqlar prosesini məhv edir. Ona görə mən hesab edirəm ki, danışıqlara geri qayıtmaq üçün birinci Ermənistanın baş naziri “Qarabağ Ermənistan deyil” deməlidir, çünki “Qarabağ Ermənistandır” ifadəsi yalandır, Qarabağ Azərbaycandır! O, torpaqların sahibi olan bizə onların qaytarılmasını təmin edən iyirmi il ərzində işlənib hazırlanmış prinsiplərə sadiq qaldığını deməlidir. Bu çirkin hərbi hücuma keçdikdən sonra o, bizə şəhərlərimizdən qoşunların çıxarılması üzrə vaxt cədvəlini verməlidir və belə olan halda biz savaşı dayandırmağa hazırıq. Əks halda, biz bunu güc yolu ilə edəcəyik, biz ərazi bütövlüyümüzü güc yolu ilə bərpa edəcəyik və ona yerini göstərəcəyik.

*-Prezident Əliyev, tərcümə olduğuna görə müdaxilə edə bilmirdim, lakin cavabınızla bağlı şərh vermək istədiyim üç məsələ var. Birincisi, Siz Ermənistanın böhran vəziyyətində olduğunu dediniz. Lakin biz erməni xalqının öz rəhbərliyini dəstəklədiyini görürük və onlar ölkə rəhbərliyinin onları necə müdafiə etməsini alqışlayırlar. İkincisi odur ki, Ermənistanın “Qarabağ Ermənistan deyil” deməsi ərazilərdən çıxması üçün yeganə şərtdir, yoxsa danışıqlar masasına qayıtmaq üçün başqa şərtlər və ya ilkin şərtlər var? Üçüncüsü, vasitəçilərin haqqında danışdığı və ya çaşqınlıq yaşadığı ölkələr hansılardır?*

-Ölkələr haqqında artıq mən dedim, ATƏT-in Minsk qrupu. ATƏT-in Minsk qrupunun həmsədr ölkələri Rusiya, Amerika Birləşmiş Ştatları və Fransadır. Bu qrupun nümayəndələri ilə son illər ərzində təmaslarımda bizim fikir mübadiləsi aparmaq imkanımız oldu və nə mən, nə də onlar danışıqların irəli aparılması üçün nəyin edilməsinin mümkün olduğunu bilmirdik. Çünki bildiyiniz kimi, danışıqlar prinsipləri və danışıqlar formatı müəyyən olunmuşdur. Bu, Azərbaycan tərəfindən birtərəfli qaydada müəyyən olunmamışdır. Bu, vasitəçilər tərəfindən təklif olunmuşdur və iki ölkə - Azərbaycan və Ermənistan tərəfindən qəbul olunmuşdur. Danışıqların formatı Azərbaycan və Ermənistandır, bu, iki ölkə arasında münaqişədir. Ermənistanın baş naziri bu formatın qəbuledilməz olduğunu və Azərbaycanın Ermənistanın özü də daxil olmaqla heç bir dünya ölkəsinin tanımadığı qondarma “Dağlıq Qarabağ respublikası” ilə danışıqlar aparılmalıdır dedi. Bu, danışıqları pozmaq üçün qəsdən edilmiş bir hərəkət idi, çünki o, bilirdi ki, nə biz, nə də vasitəçilər bunu qəbul etməyəcək. Vasitəçilər - Rusiya, Amerika Birləşmiş Ştatları və Fransa bunu rədd etdilər. Sonra o dedi ki, “Qarabağ Ermənistandır”. Bunu onun sələflərindən heç biri əvvəllər deməmişdi. Onların heç biri. Çünki bu, danışıqların sonu deməkdir. Çünki danışıqların mahiyyəti ərazini sülh yolu ilə, danışıqlar vasitəsilə Azərbaycana qaytarmaq və sonra Dağlıq Qarabağda azərbaycanlı və erməni icması arasında normal birgəyaşayışı təmin etməkdir. Çünki müharibədən əvvəl, Ermənistan bizim ərazilərimizi işğal etməzdən əvvəl, Dağlıq Qarabağ əhalisinin 25 faizi azərbaycanlılar idi. Lakin bu gün Dağlıq Qarabağla yanaşı, erməni əhalinin mövcud olmadığı, 700 mindən çox azərbaycanlının yaşadığı Dağlıq Qarabağ ətrafındakı yeddi rayon işğal altındadır. Onların hamısı didərgin düşüb, evlərinin hamısı dağıdılıb. Bütün tarixi abidələrimiz, o cümlədən məscidlərimiz erməni barbarları tərəfindən dağıdılıb və indi biz irəliləyişə yaxınlaşdığımız bir vaxtda Ermənistan hökumətində dəyişiklik olur, siyasətlə heç bir əlaqəsi olmayan yeni insanlar, yeni komanda hakimiyyətə gəlir, bu destruktiv bəyanatları verir və addımları atır, bizə qarşı hərbi təcavüzə başlayır. Biz nə etməli idik? Biz

özümüzü müdafiə etməli idik. Biz məhz bunu etdik və ərazi bütövlüyümüz bərpa olunanadək biz bunu edəcəyik.

*-Prezident Əliyev, Rusiya və Fransa Türkiyə üzərindən Suriyadan gələn muzdlularla bağlı sizə qarşı ittihamlar irəli sürür. Siz buna necə cavab verərsiniz?*

-Biz bunu tamamilə rədd edirik. Son on gün ərzində, ötən həftə Fransa Prezidenti mənə iki dəfə telefon zəngi edib. Mən ona dedim ki, bizə dəlil verin. Bizim ərazimizdə guya suriyalı döyüşçülərin olmasına dair heç bir dəlil yoxdur. O, mənə sentyabrın 27-də zəng edəndə mən ondan soruşdum və o vaxtdan bu yana məndə heç bir dəlil yoxdur. Əgər belə dəlilləri varsa, niyə bizə təqdim etmədilər? Sonra o, mənə bir neçə gün əvvəl zəng edəndə bu məsələni yenidən qaldırdı. Dedi ki, onlarda kəşfiyyat məlumatı var. Mən dedim onu bizimlə paylaşın. Heç bir dəlil və sübut təqdim etmədən ölkəni ittiham etmək doğru deyil və bu gün mən bu qəbuledilməz ittihamla bağlı Fransadan bir dəlil belə almamışam. Azərbaycan torpağında əcnəbi döyüşçülər yoxdur və mən Fransa Prezidentinə dedim ki, bizim ordumuz demək olar ki, yüz min nəfərdən ibarətdir. Bizim indi döyüş zonasında etdiyimiz internetdə göstərilir. Bizim müasir dronlarımızın erməni tanklarını və hava hücumuna qarşı sistemlərini necə dağıtdığını hər kəs görə bilər. Ordumuz bir kəndin ardınca o birini azad edir. Uzun illər ərzində işğal altında olan torpaqlarda bayrağımız qaldırılır. Beləliklə, bu ittihamlar tamamilə əsassızdır.

Sizə deyə biləcəyim digər bir məsələ ondan ibarətdir ki, ermənilər başqa bir feyk xəbər yayıblar ki, Türkiyəyə məxsus F-16 Ermənistanın Su-25 təyyarəsini vurub. Bu, feyk xəbər idi. Bu feyk xəbər mediaya təqdim olundu. Siyasətçilər, avropalı siyasətçilər bu feyk məlumatı istifadə etməyə başladılar və indi sübut olunanda ki, bu, baş verməyib, heç kim üzr belə istəmədi. Mən bizi ittiham edənlərdən üzrxahlıq tələb edirəm. Mən onlardan məsuliyyətli olmağı, söylədiklərinə nəzarət etməyi tələb edirəm. Biz ittihamlara dözəcək ölkə deyilik. Biz təhqirə dözəcək ölkə deyilik. Əgər biz düşündüyümüzü deməyə başlasaq, zənnimcə, həmin ölkələrdə çoxlu çaxnaşma olacaq. Onlar Azərbaycandan əl çəkməlidirlər, onlar regiondan əl çəkməlidirlər. Biz burada öz torpağımızdayıq. Bizim torpağımız işğal olunub. Əgər Fransa Dağlıq Qarabağ üçün öz müqəddəratını təyinetmə istəyirsə, qoy onlar demək olar ki, sakinlərinin yarısı ermənilərdən ibarət olan Marsel şəhərini onlara versinlər və onlara Dağlıq Qarabağ respublikası elan etməyə icazə versinlər və qoy onlara müstəqillik versinlər. Qoy Korsikaya müstəqillik versinlər, qoy basklara müstəqillik versinlər. Niyə onlar bizdən Dağlıq Qarabağ üçün müstəqillik tələb edirlər? Onların bunu bizdən tələb etməyə nə haqqı var? Onlar bu ittihamları dayandırmalıdırlar. Azərbaycana hücum etməyi və nüfuzumuza xələl gətirməyi dayandırmalıdırlar. Əgər biz muzdlular və terrorçular barədə danışmağa başlasaq, düşünürəm ki, bizi günahlandıranlar özləri çox utancverici vəziyyətə düşəcəklər. Yaxşı olar ki, onlar bizi günahlandırmazdan əvvəl güzgüyə baxsınlar.

*-Bəziləri hesab edir ki, bu böhran genişlənsə, sizin torpaqlarınız savaş meydanına çevriləcək və bu, sizin xeyrinizə olmayacaq. Bu, bir növ sizin torpağınızda marionetlər müharibəsinə bənzəyir. Siz qorxmursunuz ki, bu, regionlar arasında mübarizə olar?*

-Xeyr, marionetlər müharibəsi yoxdur. Azərbaycan müstəqil ölkədir. Bizim müstəqilliyimiz bütün beynəlxalq ictimaiyyət tərəfindən tanınır. Azərbaycanın beynəlxalq arenada çox güclü mövqeyi var. Mən bizim nailiyyətlərimizlə bağlı sizə cəmi iki misal gətirə bilərəm. Bir neçə il bundan əvvəl 155 ölkənin dəstəyi ilə Azərbaycan BMT Təhlükəsizlik Şurasına seçildi. Bu, bizim müstəqil siyasətimiz sayəsində və ölkəmizin beynəlxalq ictimaiyyətin çox məsuliyyətli üzvü olması sayəsində oldu. Keçən il biz Bakıda 120 ölkənin iştirakı ilə Qoşulmama Hərəkatının sammitini keçirdik və Azərbaycan Qoşulmama Hərəkatına sədrliyi üzərinə götürdü. Bu şərəfli vəzifə 120 ölkənin yekdil qərarı ilə Azərbaycana həvalə oldu. Marionet ölkə bu dəstəyi ala bilərmi? Marionet ölkələr miskindir. Heç kim onlara hörmət etmir. Heç kim onlara diqqət yetirmir. Bu gün Azərbaycanın sözü dünya üçün əhəmiyyət kəsb edir. Bu gün regionda Azərbaycan olmadan heç bir siyasi, iqtisadi, enerji, nəqliyyat layihəsi həyata keçirilə bilməz və bizə marionet deyənlər özləri marionetdir. Qoy onlar güzgüyə baxsınlar. Onlar ölkələrə yuxarıdan aşağı baxmağa öyrəşiblər. Biz belə vəziyyətdə deyilik. Biz öz ləyaqətimizi müdafiə edirik, biz öz müstəqilliyimizi müdafiə edirik. Dünyada heç bir ölkənin bizim işlərimizə müdaxilə etməyə haqqı yoxdur və onlar bunu başa düşməlidirlər. Öz ərazi bütövlüyünü bərpa etmək Azərbaycanın maraqlarına xidmət edir. Azərbaycanın bir milyon insanı öz doğma torpaqlarına qayıdacağı vaxtı gözləyir və biz hökumət olaraq bunu təmin edəcəyik. Biz insanlarımızı öz vətəninə qaytaracağıq, şəhərlərimizi bərpa edəcəyik, kəndlərimizi bərpa edəcəyik. Biz işğal olunmuş bütün ərazilərdə Azərbaycan bayrağını qaldıracağıq.

*-Prezident Əliyev, Avropa deyir ki, sizinlə Ermənistan arasında olan bu böhranın hərbi həll yolu yoxdur. Siz Avropanın bu mövqeyinə necə cavab verərdiniz?*

-Mən çox eşidirəm münaqişənin hərbi yolla həlli yoxdur. Birincisi, mən bununla razı deyiləm. İkincisi, yaxşı, əgər hərbi həll yolu yoxdursa, bizə qeyri-hərbi həll yolu verin, bizə diplomatik həll verin. BMT Təhlükəsizlik Şurasının qətnamələrinə əməl edin. Onlar dünyanın ən ali beynəlxalq qurumu tərəfindən qəbul olunub və bu qətnamələr erməni qoşunlarının işğal olunmuş ərazilərdən heç bir şərt olmadan çıxarılmasını tələb edir. Biz 1992-ci ildən bu yana danışıqlar aparırıq və bu 28 il ərzində hər hansı diplomatik həll olubmu? Vasitəçilər və ya digər beynəlxalq təşkilatlar bizə siyasi

həll təqdim ediblərmi? Xeyr. Onlar bu münaqişəni dondurulmuş etdilər. Lakin o dondurulmuş deyil. Biz nə qədər gözləməliyik? Daha 30 il? Ermənilər bizim torpağımızda oturmağa və bizim insanlarımıza öz evlərinə geri qayıtmağa icazə verməməyə nə qədər davam edəcəklər? Əgər beynəlxalq ictimaiyyət beynəlxalq qətnamələrin yerinə yetirilməsini təmin edə bilmirsə, Azərbaycan bunu özü edəcək. Bu da baş verir. Mən bir daha münaqişənin həllinə kömək etmək istəyən bütün tərəflərə, həmçinin Ermənistan rəhbərliyinə deyirəm ki, nə qədər gec deyil işğala indi son qoyun. Bəyanat verin ki, siz həll prinsiplərini qəbul edirsiniz, Azərbaycanın ərazi bütövlüyünü qəbul edirsiniz, işğal olunmuş bütün ərazilərdən çıxmaqla bağlı bizə vaxt cədvəli verəcəksiniz və Azərbaycan ərazisində "Qarabağ Ermənistandır" deyən Ermənistanın baş naziri Azərbaycan xalqı qarşısında üzr istəməli və deməlidir "Qarabağ Ermənistan deyil" və onda biz dayanarıq.

*-Prezident Əliyev, son olaraq, Ermənistanın ünvanına dediklərinizdən sonra bizim xəbər kanalı vasitəsilə erməni xalqı və Ermənistandakı bütün rəsmilərə demək istədiyiniz başqa bir şey varmı?*

-Bilirsiniz, bir neçə gün əvvəl mən Ermənistanın hücumu nəticəsində yaralanmış Azərbaycan əsgərlərinə baş çəkdim və onlarla söhbət edərkən mən erməni xalqına müraciət etdim. Mən başa düşdüm ki, onlar üçün mənim dediklərim adi bir şey deyil. Bu, bəlkə də onların eşitmək istədiyi yeganə şey deyildi. Çünki onlar az qala ermənilər tərəfindən öldürülmüşdülər və onların qarşısında əyləşərkən, onlara və bizim üçün belə qəhrəmanlar yetişdirmiş valideynlərinə minnətdarlığımı ifadə edərkən mən dedim ki, müraciətim həm də erməni xalqınadır. Öz hökumətinizi etdiklərinə görə məsuliyyətə cəlb edin, övladlarınızı Azərbaycana göndərməyin, öz övladlarınızı işğal olunmuş ərazilərə göndərməyin. Bu gün qondarma "Dağlıq Qarabağ ordusu"nun 90 faizi Ermənistan vətəndaşlarından ibarətdir. Bu işğala son qoyun. Azərbaycan ərazisini tərk edin. Öz torpağınızda yaşayın və onda bizdə sülh olacaq. Biz yenidən Azərbaycan və erməni xalqlarının əvvəlki normal əlaqələrini bərpa etməyə çalışacağıq. Biz çalışarıq. Bu, asan olmayacaq, lakin biz çalışarıq qonşu olaq, yanaşı yaşayaq. Bu, necə deyərlər, mənim erməni xalqına sözümdür. Ermənistan hökumətinə deyəsi sözüm yoxdur. Mən onların nə etməli olduğunu artıq dedim. Əgər onlar atəşkəs istəyirlərsə, mən artıq dedim, bizim qarşımızda üzr istəyin, bizə çıxmaqla bağlı vaxt cədvəli verin, sadəcə sözlər yox ki, biz bunu dayandıracağıq və danışıqlar aparacağıq. Bu, işləməyəcək. Onların hansı ərazini nə vaxt azad edəcəkləri ilə bağlı vaxt cədvəli - birinci gün, ikinci gün, üçüncü gün. Bizim müqəddəs Şuşa torpağında öz bandası ilə rəqs etməklə və "Qarabağ Ermənistandır" deməklə azərbaycanlıların hisslərini təhqir etmiş Ermənistanın baş naziri üzr istəməli və deməlidir ki, "Qarabağ Ermənistan deyil". Mənim sözüm budur.

*-Azərbaycan Prezidenti İlham Əliyev, bizə Bakıdan qoşulduğunuza görə təşəkkür edirik.*

-Təşəkkür edirəm!

## *Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Türkiyənin "TRT Haber" televiziya kanalına müsahibəsi*

*-Cənab Prezident və Ali Baş Komandan İlham Əliyev, "TRT Haber"ə xoş gəldiniz. Zaman ayırdığınız üçün təşəkkür edirəm. İşğal altındakı torpaqlarınızdan bu günədək nə qədəri geri alınıb. Hərəkat bu anda hansı mərhələdədir və planladığınız çərçivədə gedirmi?*

-Bəli, hər şey plan üzrə gedir. Bu günə qədər qarşımızda duran bütün vəzifələr icra edilmişdir. Azərbaycan Ordusu uğurla irəliyə gedir. Bir çox yaşayış məntəqələri, bir şəhər, bir neçə kənd işğaldan azad edildi. Hazırda müxtəlif istiqamətlərdə şiddətli döyüşlər gedir.

Bildiyiniz kimi, dünən Cəbrayıl şəhəri işğaldan azad edildi və Cəbrayıl rayonunun bir neçə kəndi də işğaldan azad edildi. Ümid edirəm ki, bundan sonra da Azərbaycan Ordusu öz missiyasını uğurla icra edəcək və Azərbaycanın ərazi bütövlüyü bərpa olunacaq. Bizim əsas məqsədimiz bundan ibarətdir. Bu məqsəd tarixi ədaləti təmin edəcək. Eyni zamanda, bu beynəlxalq qanunlara da hörmət əlaməti kimi qəbul edilməlidir. Çünki Dağlıq Qarabağ və işğal edilmiş digər torpaqlar Azərbaycanın tarixi torpaqlarıdır. Beynəlxalq hüquq baxımından da bu torpaqlar Azərbaycan dövlətinə məxsusdur.

*-Atəşkəs çağırışlarına cavab verərkən heç bir ölkə liderinə zəng etmədiyinizi, sadəcə, danışmaq istəyənlərlə vəziyyəti dəyərləndirdiyinizi bildirdiniz. Ermənistanın baş naziri Paşinyanın isə adəti üzrə yalvardığını, bir çox dövlət başçısına zəng etdiyini vurğuladınız. Keçmiş təcrübələriniz əsasında bu dəfə başqa ölkələrin atəşkəs çağırışlarının nəticə verəcəyini düşünür-sünüzmü?*

-Atəşkəs müəyyən şərtlərlə təmin edilməlidir. Çünki bu günə qədər bizə ünvanlanan çağırışlar, sadəcə bundan ibarətdir ki, atəşkəsi təmin edin, müharibəyə ara verin, ondan sonra müzakirələr davam etsin. Hansı müzakirələr davam edəcək, müzakirələr nəyin əsasında davam edəcək, bunlar bizə deyilmir. Biz bu müzakirələrdə artıq 30 ilə yaxındır ki, iştirak edirik və ümidlərlə iştirak edirdik. Əgər ümidlərimiz olmasaydı, təbii ki, bu müzakirələrdə iştirak etməzdik. Hər zaman

müzakirələr mövcud olan prinsiplər əsasında gedirdi. Bu prinsiplərin arasında Azərbaycanın ərazi bütövlüyünün bərpası məsələsi vardır. İşğal altında olan bölgələrin mərhələli şəkildə azad edilməsi, bizə qaytarılması, ondan sonra da sülhün təmin olunması məsələsi müzakirə mövzusu idi. Amma bugünkü Ermənistan bütün əvvəldən, bəri başdan əldə edilmiş prinsipləri pozaraq bizə qarşı yeni hücum təşkil etdi. Təbii ki, biz əks-hücum əməliyyatına keçib öz torpaqlarımızı Azərbaycan əsgərinin gücü ilə azad edirik. Ona görə, sadəcə, atəşkəsin bərpa edilməsi məsələsi müzakirə mövzusu ola bilməz. Bizim tələblərimiz var. Mən bunu artıq rəsmən bəyan etmişəm. Bizə çox ciddi zəmanətlər verilməlidir. Beynəlxalq vasitəçilər bizə bu zəmanətləri təsdiq etməlidirlər. Eyni zamanda, Ermənistanın işğal edilmiş torpaqlardan çıxmaq qrafiki, yəni cədvəli bizə verilməlidir, hansı gün hansı bölgədən çıxacaq. Təbii ki, o zaman müharibə dayanacaq. Çünki biz istəyirik ki, bu məsələ sülh yolu ilə həll olunsun, amma həll olunsun. Bəzi vasitəçilər istəyirlər ki, sadəcə atəşkəs olsun. Atəşkəs isə 1994-cü ildən qüvvədədir. Bu illər ərzində niyə bu məsələ həll olunmadı? Birləşmiş Millətlər Təşkilatının qərarları niyə icra edilmədi? Təcavüzkar dövlətə sanksiyalar niyə tətbiq edilmədi? Bütün bu suallar havada qalır. Bu suallara cavab yoxdur. Bu gün Azərbaycanın şanlı Ordusu öz uğurlu əməliyyatlarını keçirərkən, bizim dədə-baba torpaqlarımızı azad edərkən bu çağırışlar gəlir ki, nəbadə irəliyə getməyin, ara verin. Müharibənin öz qaydaları, öz qanunları var. Hər günün öz əhəmiyyəti var, önəmi var. Biz ara versək, qarşı tərəf toparlanacaq, əlavə qüvvə yığacaq. Onsuz da onların çıxışlarında göstərilir ki, Ermənistanın xaricində yaşayan erməniləri də onlar bu müharibəyə cəlb edirlər. Beləliklə, bu müharibəni regional müstəvidən çıxarıb qlobal müharibəyə çevirmək istəyirlər. Ona görə bizim atəşkəslə bağlı sözümüz birdir. Biz buna hazırıq. Amma müəyyən şərtlər var ki, onları da mən açıqlamışam.

*-Açıqlamısınız. Zəmanət verilirsə dediniz, hansı zəmanəti nəzərdə tutursunuz?*

- Birinci zəmanət. Ermənistanın baş naziri bir il bundan əvvəl bizim torpaqlarımızda demişdi ki, "Qarabağ Ermənistandır", Azərbaycan xalqından üzr istəməlidir. İkincisi, o deməlidir ki, Qarabağ Ermənistan deyil. Üçüncüsü, Azərbaycanın ərazi bütövlüyünə hörmət etməlidir. Dördüncüsü, bəyan etməlidir ki, hansı gündə, hansı bölgədən Ermənistan silahlı qüvvələri çıxır. Bu şərtlər Minsk qrupunun həmsədrləri tərəfindən təsdiq edilməlidir. O halda təbii ki, atəşkəs bərpa olunacaq və beləliklə, bu məsələ müzakirə yolu ilə həll olunacaq, Azərbaycan xalqı öz doğma torpaqlarına qayıdacaq. Amma biz bilməliyik ki, bu, nə zaman olacaq. Çünki biz 30 ildir ki, gözləyirik, 30 il bizə verilən vədlər, deyilən sözlər həyatda reallaşmır, gerçəkləşmir. Azərbaycan xalqı artıq buna dözə bilmir, Azərbaycan dövləti dözə bilmir. Bizə konkret, real tarix deyilməlidir ki, onlar nə zaman hansı bölgədən çıxacaqlar.

*-İndi dediyiniz 30 il ərzində bu günə qədər bir çox söz verildi. Bundan sonra veriləcək sözə necə güvənəcəksiniz?*

-Elə onun üçün mən söyləyirəm ki, sözdən başqa, bizə konkret tarix verilməlidir. Əgər o tarixdə, - bilmirəm veriləcək, verilməyəcək, - veriləcək tarixdə Ermənistan silahlı qüvvələri bəlli olan bölgələrdən çıxmazsa, o zaman biz də atəşkəsə riayət etməyəcəyik.

*-Qarşıdurmalar daha böyük müharibəyə, böyük regional böhrana yol aça bilərmi? Narahatlığınız varmı?*

-Bunu onsuz da Ermənistan istəyir. Onların çirkin əməlləri buna hesablanıb. Biz hesab edirik ki, buna yol vermək olmaz. Bu müharibə Azərbaycanla Ermənistan arasında olan müharibədir. Bu müharibəni biz başlamamışıq. Biz bu müharibənin səbəbkarı deyilik. Biz, sadəcə olaraq, özümüzü müdafiə edirik və öz torpaqlarımızı geri istəyirik. Bizim Ermənistan torpaqlarında gözümüz yoxdur. İyul ayında Ermənistan-Azərbaycan sərhədində ermənilər tərəfindən başlanan qarşıdurmalar nəticəsində Azərbaycan Ordusu Ermənistan torpağına keçmədi, halbuki ora keçə bilərdik. Onlara çox güclü zərbələr endirdik və onlar da geri çəkildi. Bizim qarşımızda heç bir maneə, heç bir əngəl yox idi. Biz onu etmədik. Çünki mən söylədim ki, bizim Ermənistan Respublikasının torpaqlarında hər hansı bir hərbi hədəfimiz yoxdur. Ermənistan isə bu gün Azərbaycana Ermənistan ərazisindən hücum edir. Bax, dünən Gəncəyə zərbələr Ermənistan ərazisindən vuruldu, Mingəçevirə zərbələr vuruldu. Bizim orada böyük stansiyamız var. Mərmilərdən biri stansiyanın yanına düşdü. Doğrudur, onların mərmiləri elə mərmilərdir ki, - siz mühümmat deyirsiniz mərmilərə, - onların bəziləri partlamadı. Bəzilərini isə bizim hava hücumundan müdafiə qurğularımız havada məhv etdi. Onlar bizi bu təxribata çəkirlər ki, biz də Ermənistana hücum edək, Ermənistana zərbələr endirək. Ondan sonra da çıxıb bütün dünyaya desinlər ki, Azərbaycan bizə hücum edir, gəlin Ermənistanı xilas edin, yəni Ermənistan canını qurtarır.

*-Ermənistanın beynəlxalq hüquqla çərçivələnmiş sərhədlərində bu hücumlar davam edərsə, vaxt gələrsə, yenə bugünkü mövqeyinizi qoruyacaqsınız, yoxsa..?*

-Bunu demək hələ tezdir. Biz qarşıdurmaların gedişinə baxacağıq. Hər halda, bizə vurulan hər bir zərbənin mənbəyi bizim üçün qanuni hədəfdir, legitim hədəfdir. Biz bu hədəfləri vurmağa məcbur olacağıq. Bu gün Azərbaycan Ordusu yalnız hərbi hədəfləri vurur. Bu, videogörüntülərdə artıq hər kəs üçün aydındır, hər kəs bunu görə bilir. Biz yalnız Ermənistanın işğalçı ordusuna qarşı döyüşürük. Mülki əhaliyə qarşı heç vaxt döyüşməmişik. Bu gün də etmirik və et-məyəcəyik.

*- Qaşaltı Qaraqoyunluda gördüm, ikisi uşaq olmaqla, beş Azərbaycan vətəndaşı qətlə yetirildi. Azərbaycan Ordusunun 27 sentyabr erməni hücumlarına cavab verməsi ilə başlayan hərəkatın son hədəfi artıq bəllidir: Dağlıq Qarabağın Ermənistanın işğalından qəti şəkildə azad edilməsi, təmizlənməsi, boşaldılması. Siz ilk gündən etibarən dediniz ki, bundan sonra döyüşlər ancaq Azərbaycanın işğal altındakı torpaqlarından Ermənistanın qeyd-şərtsiz çıxması ilə dayandırılacaq. Hələ də eyni mövqedəsiniz, düzgünmü anlayıram?*

-Bəli, mənim mövqeyimdə hər hansı bir dəyişiklik yoxdur. Biz bu məsələni tarixi ədalət əsasında həll etməliyik. Tarixi ədalət onu deyir ki, Qarabağ qədim Azərbaycan torpağıdır və bütün tarixi sənədlər, bütün tarixi abidələrimiz bunu göstərir. Eyni zamanda, biz həmişə müzakirə masasında çox müsbət davranış nümayiş etdirmişdik və müzakirə masasında olan təkliflər də bu məsələnin həllini mümkün edir. Orada göstərilir ki, mərhələli həll olmalıdır. İlk mərhələdə ermənilər beş bölgədən çıxır, sonrakı mərhələdə daha iki bölgədən çıxır, ondan sonra vaxtilə Dağlıq Qarabağın ərazisindən qovulmuş azərbaycanlılar Dağlıq Qarabağa qayıdır, o cümlədən Şuşaya qayıdır, iki toplum çərçivəsində artıq həyat bərpa edilir, Ermənistan-Azərbaycan arasındakı sərhəd açılır, ticarət başlanır, ondan sonra insanlar bir-biri ilə təmasa girirlər və beləliklə, sülh gələcək. Yəni bu, bizim mövqeyimizdir və bu, beynəlxalq vasitəçilərin, həmsədrlərin də münasibətidir. Ermənistan bunu qəbul etmir. Bundan əlavə Ermənistanın müdafiə naziri bir neçə ay öncə demişdir ki, biz yeni torpaqlar uğrunda yeni müharibəyə başlamalıyıq.

*-Qısa adı ATƏT olan Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatının Minsk qrupunun 3 həmsədr ölkəsi var – Amerika Birləşmiş Ştatları, Rusiya və Fransa. Sizə atəşkəs çağırışı etdilər. Cavabınız dəyişdimi? Şərtiniz yerinə yetirilmədiyi təqdirdə, yəni işğal altındakı torpaqlardan ermənilərin çəkilmədikləri müddətdə hər hansı atəşkəs ehtimalı varmı?*

-Bizim mövqeyimizdə hər hansı bir dəyişiklik yoxdur. Mən bunu sizə bu gün bir daha dedim. Hətta biz ona da hazırıq ki, əgər bizə erməni silahlı qüvvələrinin torpaqlarımızdan çıxarılması tarixləri verilərsə, o zaman atəşkəs üzərində çalışmaq olar. Amma onu da bilməliyik ki, atəşkəsi bərpa etmək o qədər də asan məsələ deyil. Çünki atəşkəs birtərəfli bərpa edilmir və bu anda çox ciddi şiddətli döyüşlər gedir. Hər iki tərəf yerlərdə olan əsgər və zabitlərə təlimat verməlidir. Biri buna əməl edəcək, o biri əməl etməyə bilər. Yəni o, çox çətin bir prosesdir. Ancaq əgər o çıxma tarixi bizə verilərsə təbii ki, biz bu təlimatı verəcəyik. O zaman Minsk qrupunun həmsədrləri və digər ölkələr, mümkün olan ölkələr buna qoşularsa, atəşkəs bərpa oluna və beləliklə, bu döyüşlərə son qoyula bilər.

*-Mümkün olan ölkələr deyərkən nəyi nəzərdə tutursunuz?*

- Türkiyəni. Türkiyə güclü bir dövlətdir, dünya miqyasında böyük potensiala malik olan ölkədir, bizim qonşumuzdur, Ermənistanın qonşusudur, Cənubi Qafqazın qonşusudur. Ona görə təbii ki, Türkiyə bu işlərdə fəal olmalıdır və mən fürsətdən istifadə edərək, bizim bütün türk qardaşlarımıza öz adımdan, Azərbaycan xalqı adından təşəkkürümü bildirmək istəyirəm, başda əziz qardaşım, cənab Prezident Rəcəb Tayyib Ərdoğan olmaq şərtilə. Türkiyənin ilk saatlardan bizə göstərdiyi dəstək xüsusi önəmə malikdir. Bu, təkcə öz qardaşlarına verilən dəstək deyil. Odur ki, biz - bütün Azərbaycan xalqı buna görə dərin təşəkkür hissi ilə yaşayırıq. Eyni zamanda, bu döyüşlərin daha böyük müstəviyə çıxmaması üçün Türkiyənin qəti münasibəti çox önəmlidir. Çünki Türkiyə dedi ki, biz Azərbaycanın yanındayıq, sona qədər Azərbaycanın yanındayıq. Azərbaycan haqq yolundadır, haqq-ədalət Azərbaycanın tərəfindədir və bu, bir çox başqa aktorlara da xəbərdarlıq oldu. Ona görə bundan sonrakı sülh prosesində Türkiyə mütləq olmalıdır. Təbii ki, sülh prosesi başlanacaq, müharibə daim aparıla bilməz və bu, nə qədər tez olsa, o qədər də yaxşıdır. Məhz, bizim fikrimiz bundan ibarətdir və beləliklə, artıq bu bölgədə uzunmüddətli dayanıqlı sülh təmin edilə bilər.

*-Cənab Prezident, Minsk qrupunun həmsədrləri deyərkən Fransanı ayrı bir yerə qoyursunuz.*

- Fransa özünü ayrı yerə qoyur, mən qoymuram. Bütün prosesdə biz həmsədrlərə eyni gözlə baxmışıq və mən dəfələrlə rəsmi çıxışlarımda demişdim ki, hər bir ölkə ilə Azərbaycanın ayrı münasibətləri var, təbii ki, bu münasibətlərin səviyyəsi fərqlidir. Amma, eyni zamanda, bu məsələdə biz bu ölkələri bir-birindən ayırmırıq və bu ölkələr deməliyəm ki, bütün proses boyunca son olaylara qədər vahid bir mövqedən çıxış edirdi, bitərəf idi, yəni tərəf tutmurdu. Halbuki biz bilirdik ki, bəlkə də bunların ürəyində tərəftutma var. Bu da təbiidir. Amma rəsmi addımlarda və bizimlə təmaslarda heç zaman bunu göstərmirdilər.

*- Fransa Prezidenti Makronu üzr istəməyə dəvət etdiniz.*

- Bəli, təbii, çünki bizə qarşı ittiham irəli sürdü. Olmayan şeyləri üstümüzə atdı. Bu, bizim ölkəmiz üçün qəbuledilməzdir.

*-Hansı ittihamları?*

- Deyib ki, Azərbaycan Türkiyə ilə birlikdə bölgəyə terrorçuları gətirib. Onun açıqlamasında bu, var. Ondan sonra bir açıqlamasında demişdir ki, "Azərbaycan Dağlıq Qarabağı fəth etmək istəyir və biz buna icazə vermərik". Dağlıq Qarabağ bizim torpağımızdır. Bir dövlət öz torpaqlarını fəth edə bilərmi? Yəni, həmsədr bilmirmi ki, bu torpaqlarda qanunsuz olaraq ermənilər oturub bizim bütün tarixi abidələrimizi, məscidlərimizi, qəbirlərimizi, evlərimizi yerlə-yeksan ediblər. Ağdamın, Füzulinin görüntülərinə baxın. Bizim yarıdağılmış məscidlərimizdə donuz, inək saxlayır. Bütün müsəlmanları təhqir edir. Görmürlərmi bunu? Ona görə

"Azərbaycan Dağlıq Qarabağı fəth etmək istəyir və biz buna icazə verməərik" sözləri qəbuledilməzdir. Ona görə Fransa özü-özünü artıq bu bərabər üçlüyün xaricinə qoyur və biz buna səssiz qala bilmərik.

*-Birləşmiş Millətlər Təşkilatı Təhlükəsizlik Şurasının bu məsələ ilə bağlı tarixi qərarları var.*

-Təbii, özü səs vermişdi. Özü 1993-cü ildə səs vermişdi, yəni öz səsinə hörmət etsin.

*- İcazənizlə, daha bir neçə sualım olacaq. İstər cəbhə xəttinə uzanan quru yolları üzərində, istər olduğumuz şəhər və kəndlərə baxdığımızda, istərsə də paytaxt Bakıda dünən axşam gördük ki, Azərbaycan bayrağının yanında Türkiyənin bayrağı dalğalanır. Evlərdə, iş yerlərində, avtomobillərdə, hər yerdə. Türkiyədə də bənzər bir mənzərə var, bəlkə xəbərlərdə görmüsünüz. Cəbrayıldakı zəfərdən sonra Türkiyənin dörd bir yanında küçələrə axışıb qardaş Azərbaycana böyük dəstək nümayişləri var idi.*

-Doğrudur. Biz qürur duyuruq. Bu, təbiidir. Bizim qardaşlığımız əbədidir və bizim qardaşlığımız bütün sınaqlardan keçib. Bilirsiniz ki, Türkiyə ilə Azərbaycan arasındakı münasibətlər dünya ölkələri üçün örnəkdir. Mən dəfələrlə bu mövzu ilə bağlı öz sözlərimi demişdim. Əziz qardaşım, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanla təşkil olunan birgə mətbuat konfranslarında dəfələrlə demişəm ki, bu gün dünya miqyasında Türkiyə və Azərbaycan qədər bir-birinə yaxın olan ikinci ölkə yoxdur və bu, sadəcə olaraq, söz deyildi. Bu, ürəkdən gələn duyğulardır. Bizim birliyimiz bizim tariximizə əsaslanır, ortaq etnik köklərə, dilimizə, dinimizə, qardaşlığımıza əsaslanır. Əziz qardaşım Tayyib bəylə tarixi xidmətimiz odur ki, biz çox güclü bir təməl üzərində müasir Türkiyə-Azərbaycan birliyini yaratdıq. Türkiyə bayraqları onsuz da Azərbaycanda hər yerdə var, Azərbaycan bayraqları da Türkiyədə. Biz bir-birimizi bir-birimizdən ayırmırıq, birlikdəyik. Bu hadisələr bir daha onu göstərdi ki, bizi ən çox dəstəkləyən, birinci dəstəkləyən Türkiyə olmuşdur, birmənalı şəkildə, qəti şəkildə. Türkiyə Prezidentinin çox cəsarətli və qəti açıqlamaları bir çox ölkələrə xəbərdarlıq oldu - kənarda durun, qarışmayın, Azərbaycan tək deyil, Türkiyə yanındadır və Azərbaycan da hər zaman Türkiyənin yanındadır! Bütün mövzularda, bütün kürsülərdə biz bir-birimizi dəstəkləyirik və bizim birliyimiz əbədi olmalıdır.

*- Bu arada, Pakistanı da xatırlatmaq istəyirəm. Onların da bayraqlarını hər bir yerdə görürəm. Rusiya harada durur Sizcə? Çünki Rusiya xüsusi bir önəmə sahibdir.*

- Mən fürsətdən istifadə edərək, bizim digər dost-qardaş ölkələrə də təşəkkürümü bildirmək istəyirəm. Türkiyədən sonra bizə ikinci dəstək verən ölkə Pakistan oldu, ondan sonra Əfqanıstan oldu, ondan sonra daha bir neçə ölkə bizə öz dəstəyini göstərdi. Onların hər birinə, o ölkələrin prezidentlərinə təşəkkürümü bildirirəm. Bu çətin dönəmdə təbii ki, onların həmrəyliyi, dəstəyi bizim üçün çox önəmlidir və bizə mənəvi güc verir.

Rusiya bizim qonşumuzdur. Rusiya ilə münasibətlərimiz uğurla inkişaf edir. Bu gün bir çox sahələrdə Rusiya ilə Azərbaycan arasındakı münasibətlər çox yüksək səviyyədədir. Hər iki ölkə bu münasibətlərə strateji tərəfdaşlıq münasibətləri kimi yanaşır və bu, birgə imzalanmış müqavilələrdə də öz təsdiqini tapır. Bu məsələ ilə bağlı Rusiya çox məsuliyyətli və böyük ölkə kimi davranır. Rusiyadan müsbət mesajlar gəlir və hər hansı bir tərəfi dəstəkləmək müzakirə mövzusu deyil. Halbuki Ermənistan buna çox ümid edirdi. Ermənistanın bu toqquşmanı bölgənin xaricinə çıxarmaq məqsədi də Rusiyanı buraya cəlb etməkdir. Ermənistan Azərbaycana hazırda Ermənistan ərazisindən niyə hücum edir? Məhz ona görə ki, biz də hücum edək, o da Rusiya ilə, başqa ölkələrlə birgə iştirak etdiyi Kollektiv Təhlükəsizlik Təşkilatı Müqaviləsinin baş katibliyinə müraciət etsin və desin ki, Azərbaycan bizə hücum edir, gəlin bizə yardım edin. İyul ayında, niyə onlar bu təxribatı Ermənistan-Azərbaycan sərhədində törətdilər? Tovuz Qarabağ bölgəsindən uzaq məsafədə yerləşir. Orada onların hansı hədəfləri var idi - bir hədəfi ki, biz hücum edək, biz dövlət sərhədini keçək, - mən dedim bizdə belə bir fürsət var idi, - və ondan sonra müraciət etsin o təşkilata ki, gəlin bizimlə bərabər Azərbaycana qarşı vuruşun. Yəni, Rusiyanı bu işlərə cəlb etmək istəyir və bu, növbəti təxribatdır, mən əminəm ki, buna müvəffəq olmayacaq.

*- İyul ayında Ermənistan Tovuza hücum edərkən daha başqa bir şeyi hədəfləmiş ola bilərdimi? Misal üçün, hədəfdə enerji təhlükəsizliyini zəiflətmək ola bilərdimi? TANAP, Bakı-Tbilisi-Ceyhan xətləri ağlıma gəlir.*

- Bəli, təbii ki, o da ola bilərdi. Bir neçə hədəfi var idi. Çünki ondan öncəki dönəmdə bəyan etmişdilər ki, əgər Dağlıq Qarabağ ətrafında döyüşlər olarsa, onlar bizim strateji infrastruktur layihələrimizi vurmağa hazırdırlar - Səngəçal Neft-Qaz Terminalı və boru xətti. Ona görə Tovuz bölgəsində hücumun bir məqsədi də o idi ki, onlar test edirdilər, haraya qədər girə bilərlər. Çünki orada onların əsas məqsədi dövlət sərhədini keçmək, Azərbaycan torpaqlarını işğal etmək və həmin TANAP boru xəttinə yaxınlaşmaq, yaxud da ki, onu nəzarətə almaq idi. Ancaq bu, alınmayanda geri çəkildilər, bütün vasitəçilərdən imdad dilədilər. Mən də söylədim ki, Ermənistan torpaqlarında bizim hədəfimiz yoxdur. Ona görə dörd gündən sonra hücum dayandı.

Başqa bir səbəb ola bilər. Mən bununla bağlı öz fikirlərimi bildirmişdim. Hazırda Ermənistanda çox dərin böhran yaşanır, həm siyasi, həm iqtisadi. Bu böhran nəticəsində Ermənistanda siyasi əlaqələr pozulub. Çünki indi Paşinyan hakimiyyəti əsas müxalifət liderlərini həbsə atdırır. Misal üçün, əsas müxalifət partiyasının sədrini deputat toxunulmazlığından məhrum

etdi, həbsə atdı. İki keçmiş prezidentə qarşı cinayət işi açıldı. Söz azadlığı, sərbəst toplaşma azadlığı yoxdur. Konstitusiya Məhkəməsini zor gücü ilə məhv etdi, öz adamlarını gətirdi. Ona görə Ermənistanın daxilində artıq çox ciddi bir narahatlıq var. Paşinyan ictimai fikri yayındırmaq üçün bu hücumu təşkil edir. Rusiyanı cəlb etmək, strateji infrastrukturumuzu məhv etmək, daxildəki vəziyyəti sabitləşdirmək və Azərbaycan torpaqlarının bir qismini işğal etmək və ondan sonra müzakirələrdə öz mövqeyini gücləndirmək.

-Hörmətli Prezident, icazənizlə son iki sualımı vermək istərdim. İndi bu cür münaqişə, savaş və böhranların olduğu bölgələrdə qara təbliğat da meydana çıxır. Ermənistan hücumlarını başladığı gündən etibarən bu mövzuda - qara təbliğat mövzusunda nə kimi müşahidələriniz oldu. Dəyərləndirmənizi xahiş edə bilərəmmi?

-Bilirsiniz, Azərbaycana qarşı qara təbliğat bir dəqiqə, bir saniyə dayanmır. Bunun bir neçə səbəbi var. Birincisi, erməni lobbisi bizə qarşı daim hərəkətdədir. Azərbaycanı qaralamaq, bizim üstümüzə ləkə atmaq, bizim imicimizi korlamaq səyləri dayanmır. Dünyanın bir çox ölkələrində erməni lobbiləri var. Bu, heç kəs üçün sirr deyil. Müntəzəm olaraq mütəmadi qaydada bizə hücum edirlər. Olmazın yalanlarını, iftiralarını uydururlar. Bu münaqişə dönəmində təbii ki, erməni lobbisi bütün gücünü səfərbər edib və bizə qarşı yeni qara təbliğat səylərini ortaya qoyubdur. Ancaq bizə yapışmır. Mən demişəm, dəlil verin, sübut verin, fakt verin. O cümlədən Fransa prezidentinə, - o mənə telefonla iki dəfə zəng etmişdi, - dedim ki, fakt verin. Sentyabrın 27-dən artıq 8 gün keçir.

*- Makron nə deyir?*

- Heç nə demir, deyir ki, bizdə kəşfiyyat məlumatı var. Dedim verin bizə, haradadır bu kəşfiyyat məlumatı? Yoxdur bu, ola da bilməz.

*- Sizin kəşfiyyatınız Ermənistanla bağlı nə deyir?*

- Hansı mövzuda?

*- Əlinizdəki kəşfiyyat materiallarında, Ermənistandakı xarici güclərdən bəhs edilir. Livandan, Suriyadan gələn...*

-Bizdə təbii ki, belə məlumatlar var və bu məlumatlar əsaslıdır, artıq onlar dəqiqləşdirilir. Biz çox məsuliyyətli dövlət olduğumuz üçün rəsmi bəyanatlarda buna toxunmuruq. Təbii ki, mediada, ondan sonra siyasətçilər, politoloqlar arasında belə məlumatlar dolaşır. Amma biz bunu gərək təsdiqləyək. Bizdə əvvəldən kəşfiyyat məlumatı var idi ki, Dağlıq Qarabağa terrorçular gətirilib yetişdirilir, onlara təlim keçilir.

*-Hansı terror qruplaşmaları?*

-PKK terror qruplaşmaları. Bu barədə çoxlu məlumatlar var idi. Hələ bir neçə il bundan öncə biz bu məsələni beynəlxalq platformalarda qaldırırdıq. Onlar təlim alır və istisna edilmir ki, bu gün də var. Sadəcə olaraq, mənim əlimdə yüzdə yüz fakt olandan sonra bunu deyəcəyəm. Bu gün ehtimal çox böyükdür. Amma Ermənistandan və bəzi başqa ölkələrdən fərqli olaraq biz 100 faiz təsdiqini tapmamış məlumatı ortaya atmırıq.

Bir misalı da gətirə bilərəm, bizə qarşı iddia qaldırdı ki, Türkiyənin F-16 təyyarəsi Ermənistanın SU-25 təyyarəsini vurdu. Dedim ki, sübut verin. Bizdə məlumat var, bunu bütün bu qara təbliğatın üzvləri ortaya atdılar. İndi özləri gördülər ki, bu, yoxdur. Amma bir adam bizdən üzr istədimi? Xeyr. Bizə böhtan atdılar, ləkə vurdular, ondan sonra gördülər ki, bu, yalandır. Amma üzr istə.

*-Bəli, silahlı pilotsuz uçuş aparatlarının Azərbaycan Ordusunun sərəncamına verilməsi yanılmıramsa bu hərəkatın gedişinə çox təsir etdi.*

- Doğrudur. Bunun çox böyük təsiri var. Maşallah, bu silahlı uçuş aparatları dünyanın ən yüksək səviyyəsində olan aparatlardır və onların Azərbaycan Ordusunda olması bizim ordumuzu böyük dərəcədə gücləndirmişdir. Bu aparatlar bizə böyük imkanlar yaratdı və eyni zamanda, canlı qüvvə itkisinin çox da böyük olmamasına gətirib çıxardı. Çünki əgər bu imkanlar bizdə olmasaydı, Ermənistanın Dağlıq Qarabağda və işğal edilmiş torpaqlarda 30 il ərzində qurduğu istehkamları, tankları, topları, yaylım atəş qurğularını məhv etmək daha çətin ola bilərdi. Daha çox insan həlak ola bilərdi. Ona görə bu mükəmməl texnoloji intellektual məhsul Türkiyə xalqının potensialını göstərir. Biz o ölkəyik ki, bizim Türkiyə kimi müttəfiqimiz var. Biz çox xoşbəxt ölkəyik ki, bizim Türkiyə kimi müttəfiqimiz, qardaşımız var. Əlbəttə ki, Türkiyənin bizə göstərdiyi mənəvi dəstək, eyni zamanda, Türkiyə müdafiə sənayesinin məhsullarının bizdə olması bizi gücləndirir və bunu bütün dünya görür. Bu gün Türkiyə Ordusu NATO-da ikinci ordudur. Heç kim türk ordusunun qabağında dura bilməz. Bunu hər kəs gördü, hər kəs anladı. Biz də Türkiyə Ordusunun daha kiçik modelini qururuq və inşallah bərabər quracağıq. Bizim də qarşımızda bölgədə heç kim dura bilməz. Bizim və Türkiyənin işi haqq işidir. Biz özümüzü müdafiə edirik, öz vətəndaşlarımızı müdafiə edirik, öz ərazi bütövlüyümüzü saxlamaq istəyirik. Bizim başqa ölkənin torpağında gözümüz yoxdur. Amma bizə mənsub olan bizə qalmalıdır. Otuz ildir ki, ermənilər bizim qədim torpağımızı istismar edirlər. İnsanlara o torpaqlara qayıtmağa icazə vermirlər. Beynəlxalq vasitəçilər biganə qalır, məhəl qoymur. Belə olan halda Azərbaycan özü bunu edəcək.

*- Gəncəyə hücumda bir erməni vətəndaşınızın yaralandığı məlumatını paylaşdım. Bu arada, cəbhədə gecə və gündüz müşahidə aparmaq imkanımız oldu, komandirlər Sizin onlara telefonla zəng etdiyinizi bizə söylədilər.*

- Bəli, təbii ki, bu, Ermənistanın terrorçu ölkə olmasını bir daha göstərir. Yəni, bu Cenevrə Konvensiyasına daban-dabana zidd olan bir hərəkətdir. Yəni mülki əhalini, şəhərləri vurmaq qəbuledilməzdir. Gəncə şəhəri döyüş bölgəsi deyil. Gəncə şəhərinin içərisində

hər hansı bir top, tank yoxdur. Niyə bunu vurursan? Yəni, nifrətə görə. Azərbaycana, Türkiyəyə qarşı nifrət onların qanındadır. Əfsuslar olsun ki, Ermənistanın gənc nəsli də bu nifrət əsasında tərbiyə edilir. Ancaq bu, bizi yolumuzdan döndərə bilməz. Bilirsiniz, Tərtər şəhərini demək olar ki, dağıdıblar. Tərtər şəhərində bizim vətəndaşlar kişi kimi, mərd-mərdanə durublar. Deyiblər ki, öldü var, döndü yoxdur, torpağımızdan heç yerə getməyəcəyik. Nə qədər mərmi düşüb? Gün var idi ki, təkcə Tərtər şəhərinə iki min mərmi düşdü. O da balaca bir şəhərdir, böyük şəhər deyil.

O ki qaldı mənim komandirlərə telefonla zəng etməyimə, təbii ki, onlar tarixi ədaləti bərpa edirlər. Onlar öz həyatlarını risk altında qoyurlar. Onlar qəhrəmandırlar və onlar torpaqlarımızı xilas edirlər, azad edirlər, qaytarırlar. Madagizin işğaldan azad edilməsi çox böyük strateji önəm daşıyır. Qəsəbə o qədər böyük olmasa da, bunun strateji önəmi çox böyükdür. Oranı götürmək çox çətin bir işdir. Bunu hər bir hərbçi deyər. İnanılmaz çətin bir işdir. Amma o götürüldü, Madagizdə indi Azərbaycan bayrağı qaldırıldı və həmin gün o qəsəbəyə tarixi adı qaytarıldı – Suqovuşan. Bu, bizim tarixi adımızdır.

Cəbrayıl şəhərini götürmək böyük qəhrəmanlıq tələb edir. Çünki bir daha demək istəyirəm ki, bu 30 il ərzində, atəşkəs rejimi dönəmində orada bir neçə xətt istehkam quruldu, özü də çox möhkəm. Bir də ki, o bölgənin relyefi də təbii istehkamdır. Yəni, Dağlıq Qarabağ dağlarda yerləşir. Yəni, biz aşağıdan yuxarıya gedirik. Bunun nə qədər çətin olduğunu hər kəs anlayar. Ona görə Azərbaycan əsgəri, Azərbaycan zabiti, generalı şücaət, rəşadət, cəsarət göstərir, canı, qanı bahasına ərazi bütövlüyümüzü təmin edir. İnşallah sona qədər irəliyə gedəcəyik.

*-Qarabağ, işğal edilən torpaqlar yenidən Azərbaycana qaytarılandan sonra orada yaşayan ermənilərə nə deyəcəksiniz?*

-Mən artıq öz sözümü dedim. Mən bir neçə gün bundan öncə bizim yaralı əsgərlərimizin yanına getdim, hərbi hospitalda onlarla görüşdüm. Onlara təşəkkürümü bildirdim və eyni zamanda, onlarla görüş əsnasında erməni xalqına müraciət etdim. Anlayırdım ki, onların yanında bunu demək o qədər də asan deyil, çünki onlar ermənilər tərəfindən vurulub. Amma dedim ki, bizim erməni xalqı ilə işimiz yoxdur. Erməni xalqı öz hökumətini məsuliyyətə cəlb etməlidir. Öz hökumətinin yarıtmaz, çirkin siyasətinin nəticəsində bu döyüşlər baş verdi. Bizim mövqeyimiz dəyişməzdir. Torpaqlarımız azad olunandan, işğala son qoyulandan sonra Dağlıq Qarabağda yaşayan ermənilər və oraya qayıdacaq azərbaycanlılar bir yerdə yaşayacaqlar. İki toplum çərçivəsində, bir ölkə ərazisində. Bu gün Azərbaycanda minlərlə erməni var. Siz də qeyd etdiyiniz kimi, Gəncədə Ermənistanın hücumu nəticəsində yaralanmış insanlardan biri də milliyyətcə ermənidir. Burada ermənilər yaşayır. Onlara söz deyən yoxdur. Onlar bizim vətəndaşlarımızdır. Bizim erməni xalqı ilə heç bir problemimiz yoxdur. Erməni xalqı öz hakimiyyətinin əsiridir. Təəssüflər olsun ki, Paşinyan hakimiyyəti iqtidara gələndə çox vədlər verdi. Biz də ümid edirdik ki, artıq o köhnə kriminal rejim tarixə atıldı. Amma bunun yerinə yeni rejim gəldi, o rejim ki, artıq öz xalqını bəlaya saldı. O rejim ki, indi bizim mülki insanlarımızı, əsgərlərimizi öldürür. Mən tam əminəm ki, erməni və Azərbaycan xalqları barışacaq. Bu gün bir çox ölkələrdə ermənilər və azərbaycanlılar bir yerdə yaşayırlar. Gürcüstanda, orada 300 minə yaxın azərbaycanlı, 200 minə yaxın erməni var. Bəzən onlar bir kənddə yaşayırlar. Onların arasında problem yoxdur. Türkiyədə, Rusiyada, - Rusiya vətəndaşı olan azərbaycanlıların sayı 700 minə yaxındır, - bir yerdə yaşayırlar. Heç bir problem yoxdur. Nə üçün burada yaşamasınlar? Onsuz da yaşayıblar bir yerdə. Mənim xatirəmdədir, 1982-ci ildə mərhum atamla birlikdə Dağlıq Qarabağa - Şuşaya getmişdik. Bizim böyük şairimiz Vaqifin məqbərəsi açılırdı. Bu məqbərənin açılışı mərasimində erməni və Azərbaycan şairləri şeirlər deyirdilər, Azərbaycan dilində, erməni dilində. O bir dostluq bayramı idi. Yəni, o, mənim şahidi olduğum mənzərədir. Bizim Bakı şəhərində ermənilər yaşayırdı. Yəni bizim heç bir problemimiz yox idi. Biz istəyirik ki, yenə də birlikdə yaşayaq. Yenə də Ermənistanla yaxşı qonşular kimi yaşayaq. Dağlıq Qarabağda yaşayan ermənilər bizim vətəndaşlarımızdır. Biz onları belə tanıyırıq. Ümid edirəm ki, bu işğalçı siyasətə son qoyulandan sonra bizim xalqlarımız barışacaq.

*-Mərhum atanızın sizə Dağlıq Qarabağla bağlı vəsiyyəti olubmu, olubsa nə idi?*

-Atamın yolu mənim üçün bir işıq yoludur. Onun siyasətini davam etdirmək mənim onun oğlu kimi və Prezident kimi borcumdur. Mən ilk dəfə prezident seçiləndə andiçmə mərasimində dedim ki, Heydər Əliyev yolu ilə gedəcəyəm, bu yoldan dönməyəcəyəm və bu yolun Azərbaycan üçün yeganə yol olduğunu demişdim. Bütün sahələrdə - istər xarici siyasət sahəsində, istər iqtisadiyyat, sosial, o cümlədən Dağlıq Qarabağ məsələsində bu yola sadiqəm. Çünki ona da təzyiqlər olmuşdur. Onun dövründə də təzyiqlər olmuşdu ki, Dağlıq Qarabağa müstəqillik verin, Dağlıq Qarabağ sizdən ayrıldı, sizdən qopdu. O, təzyiqlərə tab gətirdi, dözdü. Azərbaycan xalqının maraqlarına zidd olan heç bir sənədə qol qoymadı. Çünki o xalqımızın Lideri idi. Qarabağ məsələsində mənim də mövqeyimdə heç vaxt tərəddüd olmamışdır. Mən 17 il bundan əvvəl nəyi demişəmsə, bu gün də deyirəm - Dağlıq Qarabağ bizim torpağımızdır, Azərbaycanın ərazi bütövlüyü təmin edilməlidir! Mən heç zaman imkan verməyəcəyəm ki, tarixi Azərbaycan torpaqlarında ikinci erməni dövləti yaradılsın. Bütün imkanlardan istifadə edib öz ərazi bütövlüyümüzü bərpa edəcəyik. Biz buna yaxınlaşırıq.

*-Bir millətin iki dövlətindən Azərbaycanın Prezidenti cənab İlham Əliyevə çox təşəkkür edirəm. Belə bir*

*vəziyyətdə, müharibə şəraitində bizi qəbul etdiniz. Bir Ali Baş Komandan olaraq, sağ olun.*

-Mən təşəkkür edirəm və şadam ki, bizim söhbətimizin sonunda siz atamın çox məşhur kəlamını yada saldınız, Heydər Əliyevin sözləridir və indi bütün Türkiyə-Azərbaycan üçün bir işıq yoludur - Bir millət, iki dövlət. Türkiyə-Azərbaycan - tək millət, iki dövlət.

*- Çox təşəkkür edirəm.*

-Sağ olun. Təşəkkürlər.

## *Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Rusiyanın "Pervıy Kanal" televiziyasına müsahibəsi*

*-Mənim adın Yevgenidir, "Pervıy kanal"ın müxbiriyəm. Çox sağ olun.*

Prezident İlham Əliyev: Çox yaxşı. Sağ olun.

*-İlham Heydər oğlu, Siz dəfələrlə bəyan etmisiniz ki, budəfəki hücum əməliyyatının məqsədi Qarabağı geri qaytarmaqdır. "Qarabağ bizim torpağımızdır və biz oraya qayıdacağıq", - bu, Sizin sözlərinizdir. Bu, tamamilə birmənalı mövqedir. Lakin qarşı tərəfin mövqeyi də bundan az birmənalı deyil – "Bir qarış belə torpağı verməyəcəyik". Beləliklə, qeyri-müəyyənliyə gedən yol alınır. Sizin fikrinizcə, Azərbaycan və Ermənistanın danışıqlar masası arxasında əyləşməsi üçün nə baş verməlidir?*

-İlk növbədə, BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə - erməni işğalçı qüvvələri Azərbaycanın ərazilərini ələ keçirdikləri dövrdə qəbul edilmiş 4 qətnaməsi yerinə yetirilməlidir. Bu qətnamələrdə təcavüzkara çox dəqiq siqnal göndərilir. Orada yazılıb ki, işğal olunmuş ərazilərin dərhal, qeyd-şərtsiz və tamamilə qaytarılması təmin edilməlidir. O vaxtdan 27 il keçib. Erməni tərəfi həmin qətnamələri yerinə yetirmir, onlara məhəl qoymur və hər vasitə ilə münaqişəni mümkün qədər çox, mümkün qədər uzun müddətə dondurmağa çalışır. Status-kvonun qəbuledilməz və dəyişdirilməli olması barədə beynəlxalq ictimaiyyətin, o cümlədən ATƏT-in Minsk qrupunun həmsədrləri olan ölkələrin bütün çağırışları havada qalır. Buna görə ermənilərin mövqeyi tarixi yalana, beynəlxalq hüququn norma və prinsiplərinin pozulmasına əsaslandığı halda, bizim mövqeyimiz beynəlxalq hüququn norma və prinsiplərinə, tarixi ədalətə əsaslanır. Əminəm ki, BMT Təhlükəsizlik Şurasının qətnamələri Ermənistan tərəfindən yerinə yetiriləndə, Ermənistan öz qoşunlarının işğal edilmiş ərazilərdən çıxarılmasına razılıq verən kimi hər iki tərəf qısa müddətdə razılığa gələ bilər. Bu razılıq Qafqazda sülhü bərqərar edər.

*-Bir həftədən çoxdur döyüşlər gedir və istər bir tərəfin, istərsə də digər tərəfin yaydığı videolardan aydın görünür ki, döyüşlər intensiv, itkilər çox ağırdır. Siz Azərbaycan tərəfindən həmin rəqəmləri göstərə bilərsinizmi?*

-Ermənistan tərəfindən və Dağlıq Qarabağ tərəfindən artilleriya atəşləri nəticəsində bu gün səhərə olan məlumata görə, bizim tərəfdən 27 dinc sakin həlak olub, 170-dən çox dinc sakin müxtəlif dərəcəli xəsarətlər alıb, 800-dən çox ev dağıdılıb. Qarşıdurmanın budəfəki eskalasiyası sentyabrın 27-də başlanıb. O vaxt Azərbaycanın işğal edilmiş ərazilərindən bizim yaşayış məntəqələrinə, habelə döyüş mövqelərimizə artilleriya atəşləri başlanıb, nəticədə bu hücumun elə ilk dəqiqələrində dinc sakinlər və hərbi qulluqçular həlak olub. Biz adekvat tədbirlər görməyə məcbur olduq, operativ surətdə əks-hücuma keçdik. Bu əks-hücum nəticəsində düşmənin çox sayda atəş nöqtələrini, döyüş mövqelərini susdurduq, şimal və cənub istiqamətlərində işğal altında olan ərazilərin bir hissəsini azad etdik, bununla da Azərbaycanın bir sıra yaşayış məntəqələri, oradakı vətəndaşlar bu gün artıq normal şəraitdə yaşaya bilərlər, çünki ermənilərin artilleriya atəşləri artıq oraya çatmır. Lakin son günlərdə Azərbaycan ərazilərinə artilleriya atəşləri Ermənistan tərəfindən uzaqvuran artilleriya vasitəsilə aparılır, "Toçka U" və "Elbrus" kimi ölümsaçan sistemlərdən istifadə edilir, bu, Cenevrə konvensiyalarının çox kobud şəkildə pozulmasıdır, cinayətdir, müharibə cinayətidir. Bu gün səhərdən münaqişə zonasının bilavasitə yaxınlığında yerləşən Tərtər şəhərinin atəşə tutulması yenidən davam edir. Əhalisinin sayına görə Azərbaycanın ikinci böyük şəhəri olan Gəncənin əhalisi də atəşə tutulub. Mingəçevirdə bizim ən böyük elektrik stansiyasının ərazisinə bir raket düşüb, 10-dan çox şəhərimiz, yüzlərlə kəndimiz şiddətli artilleriya bombardmanına məruz qalır. Bu, erməni tərəfin köhnə taktikasıdır. Onlar hər dəfə döyüş meydanında məğlubiyyətə uğrayanda dinc əhaliyə ziyan vurmağa və beləliklə, Azərbaycan Ordusunun əks-hücumunu dayandırmağa çalışaraq belə alçaq hərəkətlərə əl atırlar. Lakin onlar bu əks-hücumu dayandıra bilmirlər və bilməyəcəklər.

*-Hərbi itkilər barədə danışmaq olarmı?*

-Hərbi itkilər. Bu gün bununla bağlı informasiya məxfidir. Azərbaycan ictimaiyyətinə bu barədə döyüş əməliyyatlarının fəal fazası başa çatandan sonra məlumat veriləcək.

*-Siz Türkiyəni Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasında iştirak etməyə çağırırsınız. Sizin fikrinizcə, bu iştirak hərbi, yoxsa siyasi səylər mənasında məhz nədən ibarət olmalıdır?*

- Mən bu barədə dünən bəyan edərkən onu nəzərdə tutmuşam ki, Ermənistanın təcavüzkar hərəkətləri davam edir, Ermənistan hər vasitə ilə çalışır ki, bu münaqişəyə mümkün qədər çox ölkə cəlb edilsin. Mən

müsahibələrimin birində belə siyasətin yolverilməz olduğunu demişəm. Münaqişə Ermənistanın və Azərbaycanın hüdudlarından kənara çıxmamalıdır. Əslində, münaqişə hətta Ermənistan ərazisinə də çıxmır. Odur ki, Ermənistan ərazisindən artilleriya atəşlərinə baxmayaraq, biz Ermənistan ərazisinə heç bir zərbə endirmirik, Ermənistan ərazisinə keçmirik, hərçənd bunun üçün hər cür imkanımız var. Erməni tərəfi bu qarşıdurmaya KTMT-ni cəlb etməyə çalışır. Uğursuz cəhddir. O, Avropa ölkələrini cəlb etməyə çalışır. Mahiyyət etibarilə bu münaqişəni beynəlmiləlləşdirməyə çalışır. Müvafiq surətdə biz belə yanaşmanın yolverilməz olması barədə öz mövqeyimizi bildiririk.

Türkiyənin cəlb edilməsi barədə mənim bəyanatıma gəldikdə isə mən, təbii ki, yalnız siyasi nizamlanmanı, münaqişədən sonrakı dövrdə nizamlamanı nəzərdə tutmuşam. İndiki anda Türkiyə bununla bağlı heç bir faktla təsdiqlənməmiş müxtəlif şayiələrə və insunasiyalara baxmayaraq, əsla münaqişəyə cəlb edilmiş tərəf deyil. Məsələn, guya Türkiyəyə məxsus F-16 təyyarəsinin Ermənistana məxsus Su-25 təyyarəsini vurması barədə xəbər həm Rusiya, həm də Avropa KİV-lərində yayılıb. Heç bir sübut yoxdur. Məlum olub ki, görünür, erməni pilot, sadəcə, peşəkar baxımdan o qədər də hazırlıqlı olmayıb və dağa çırpılıb. Bax, bu cür feyk xəbərlər yayılır. Bunun nə məqsədlə edildiyini bilmirəm. Güman edə bilərəm, lakin bu feyk xəbərlər üçün heç bir əsas yoxdur. Beləliklə, hərbi qarşıdurma fazası başa çatanda biz, təbii ki, danışıqlar masası arxasına qayıdacağıq. Yeri gəlmişkən, döyüş əməliyyatlarının lap əvvəlindən Azərbaycan deyirdi ki, biz danışıqlar prosesindən çıxmırıq, biz siyasi nizamlamaya ümid edirik, lakin bu, nizamlama olmalıdır. Biz daha 30 il gözləyə bilmərik ki, Ermənistana nə vaxt müvafiq təsir göstəriləcək. İndiki vasitəçilik missiyasının 28 il ərzində heç bir nəticəyə gətirib çıxarmaması, fəaliyyətsizliyə, mövcud vəziyyətə gətirib çıxarması nəzərə alınmaqla biz, əlbəttə, praqmatik yanaşmanı əsas götürməliyik - eskalasiyanın azalması, möhkəm sülhün bərqərar olması, əməkdaşlığın inkişafı üçün regionda baş verən hadisələrə kimin real müsbət təsir göstərə biləcəyini nəzərə almaqla, şübhəsiz, fəal döyüş əməliyyatları başa çatandan sonra həyata keçiriləcək vasitəçilik missiyasında Türkiyənin böyük ölkə kimi, bizim qonşumuz, Cənubi Qafqazda qonşumuz kimi iştirak etməyə tamamilə haqqı var. Əlbəttə, hesab edirəm ki, bunlar, ilk növbədə, Türkiyə və Rusiyadır.

*-Siz Avropa ölkələri barədə danışdınız. Fransa prezidentinə çox sərt cavab verdiniz. Onu guya Azərbaycan Ordusu tərəfindən vuruşan muzdlular barədə dediyi sözlərə görə üzr istəməyə çağırdınız. Bu gün Siz bir daha təsdiq edə bilərsinizmi ki, Dağlıq Qarabağ münaqişəsində muzdlular Azərbaycan tərəfində iştirak etmirlər?*

-Mən bütün bu günlər ərzində bu barədə deyirəm. Belə informasiya tullantılarına görə heyrətlənirəm və Fransa prezidenti ilə telefon söhbətlərimdə mən bizim mövqeyimizi kifayət qədər əsaslandırılmış şəkildə müdafiə etmişəm. Əvvələn, sübutlar təqdim etməsini, əgər belə sübutlar yoxdursa, onda Azərbaycan xalqından üzr istəməsini xahiş etmişəm. İkincisi, mən demişəm ki, bizim muzdlulara ehtiyacımız yoxdur. Bu gün Azərbaycan Ordusu güclü ordudur. Bütün beynəlxalq reytinqlərə görə o, dünyanın ən güclü 50 ordusunun siyahısına daxildir. Ehtiyatda olanları, döyüşə hazır olan digər hərbiləşdirilmiş dəstələri nəzərə almasaq, bizim nizami orduda 100 min döyüşçümüz var. Bu gün Azərbaycan Ordusu bizim əraziləri azad edir. Döyüş əməliyyatları yerindən çəkilmiş videolarda bizim artilleriyanın, pilotsuz uçuş aparatlarının necə işləməsi, azərbaycanlı əsgər və zabitlərin işğaldan azad edilmiş torpaqlarda bayraqlarımızı necə ucaltmaları görünür. Buna görə də bu ittihamlar əsassızdır, biz onları qətiyyətlə rədd edirik və bu cür şayiələrin, yoxlanılmamış məlumatların ictimai rəylə necəsə manipulyasiya etməsinə yol verə bilmərik. Qoy, sübutlar təqdim etsinlər. Bu gün fəal döyüş əməliyyatlarının onuncu günüdür, bizə heç bir sübut təqdim edilməyib.

*-Döyüş əməliyyatlarının başa çatdığını və Azərbaycanın öz qarşısına qoyduğu məqsədlərə nail olduğunu fərz etsək, Qarabağda yaşayan ermənilərin sayını nəzərə almaqla onları hansı gələcək gözləyir? Onların aqibəti necə olacaq?*

-Bu mövzuda əvvəl də, eskalasiyaya qədər də, eskalasiya dövründə də dəfələrlə danışmışam. Elə dünən Türkiyə telekanalına müsahibədə demişəm ki, biz Qarabağ ərazisində yaşayan ermənilərə öz vətəndaşlarımız kimi baxırıq. Hesab edirik ki, münaqişə nizamlanandan, işğala son qoyulandan sonra Dağlıq Qarabağın erməni və azərbaycanlı əhalisi uzun illər boyu olduğu kimi birlikdə yaşamalıdır. 1980-ci illərin sonunda münaqişə başlayanda Dağlıq Qarabağ ərazisində əhalinin 75 faizi erməni, 25 faizi isə azərbaycanlı idi. Onların cinayətkar rejiminin başçısının qondarma "inauqurasiyası"nı keçirdikləri və Azərbaycan xalqını təhqir etdikləri Şuşa şəhərinin əhalisinin 98 faizi azərbaycanlılar idi. Şuşa şəhərinin əsası azərbaycanlı Pənahəli xan tərəfindən qoyulub. Bu qədim Azərbaycan şəhərindən bütün azərbaycanlılar qovulub. Odur ki, münaqişə başa çatandan və dinc yolla nizamlamadan sonra, yeri gəlmişkən, bu məqam Madrid Prinsipləri adlanan baza prinsiplərində əks etdirilib, – azərbaycanlı əhali işğal olunmuş ərazilərə qayıtmalıdır. Orada dəqiq yazılıb ki, köçürülmüş bütün şəxslərin öz yaşayış yerlərinə qayıtmaq hüququ var. Beləliklə, sülh sazişi əldə ediləndən sonra, - bunun baş verəcəyinə ümid edirəm, - azərbaycanlılar Dağlıq Qarabağa qayıdacaq və orada əvvəl yaşadıqları kimi yaşayacaqlar. Mənim mövqeyim həmişə belə olub ki, biz 1980-ci illərin sonunda münaqişə başlayana qədər mövcud olmuş ab-havanı qaytarmalıyıq. Düşünürəm ki, bu, mümkündür. Erməni cəlladların Xocalıda törətdiklərindən, dinc əhalini məhv etmələrindən, bizim tarixi, dini abidələri dağıtmalarından, bu ərazilərdə azərbaycanlıların tarixi irsini yerlə-yeksan edəndən sonra bu,

asan olmayacaq. Lakin hesab edirəm ki, biz buna çalışmalıyıq. Döyüş əməliyyatları günlərində mənim Ermənistan xalqına və hazırda Dağlıq Qarabağda yaşayanlara müraciətim dəfələrlə səslənib. Mən erməni xalqını öz hökumətinin başına ağıl qoymağa, erməni anaları öz uşaqlarını işğal edilmiş ərazilərə göndərməməyə çağırmışam. Ona görə ki, yəqin indi heç kəs üçün gizli deyil, qondarma "Dağlıq Qarabağ ordusu" yoxdur. "Dağlıq Qarabağ ordusu" deyilən ordunun 90 faizi Ermənistan vətəndaşlarından ibarətdir. Mən bu cür çağırışlar etmişəm. Erməni tərəfindən bu günlərdə nifrətdən, təcavüzdən, hədə-qorxulardan və tamamilə qeyri-adekvat hərəkətlərdən başqa çağırışlar eşitməmişəm. Bizim mövqeyimiz belədir, biz münaqişənin dinc yolla nizamlanmasının tərəfdarıyıq. İnanıram ki, Ermənistan tərəfinin siyasi iradəsi olarsa, biz buna nail ola bilərik.

*-İlham Heydər oğlu, bütün müharibələr, hər bir müharibə gec-tez sülhlə başa çatır. Siz həmin anı necə təsəvvür edirsiniz?*

-Bilirsiniz, bu barədə danışmaq çətindir, ona görə ki, bizim xalqımız o qədər müsibətlər görüb, erməni işğalçılar bu xalqa o qədər əzab-əziyyət verib ki, indi həmin məqamı bir mənzərə şəklində təsəvvür etmək çox çətindir. 30 ildən çoxdur ki, bizdə sülh yoxdur. Son iyirmi ildən artıq müddətdə malik olduğumuz vəziyyət atəşkəs olub. Lakin hamı başa düşürdü ki, bu atəşkəs davamlı deyil, möhkəm deyil. Buna görə Rusiya, ABŞ və Fransa prezidentlərinin şəxsində Minsk qrupunun həmsədrləri bir neçə il bundan əvvəl bəyanatlarla çıxış ediblər, status-kvonun qəbuledilməzliyi, onun dəyişdirilməli olması barədə bir neçə bəyanat qəbul edilib. Onlar çox gözəl başa düşürdülər və başa düşürlər ki, bu atəşkəs çox amanabənddir, davamlı deyil. Bugünkü eskalasiya bunu bir daha təsdiq edir. Buna görə də sülh barədə danışmalı olsaq mən, ilk növbədə, onu genişəhatəli, uzunmüddətli, dünyanın aparıcı ölkələri tərəfindən, həm Azərbaycan, həm də Ermənistan üçün məqbul olan ciddi zəmanətlər şərti ilə əbədi nizamlama kimi görürəm. Bu ölkələrin tərkibinin Minsk qrupunun və onun həmsədrlərinin bugünkü tərkibindən fərqli ola biləcəyini istisna etmirəm. Ona görə ki, Minsk qrupu 1992-ci ildə tamamilə başqa geosiyasi reallıq şəraitində yaradılmışdı. O dövrdə SSRİ yenicə dağılmışdı və səmimi desəm, bu qrupun hansı əsasla yaradılmasını o qədər də başa düşmürəm. Ona görə ki, bu və ya digər birliyin, yaxud müvəqqəti formatın yaradılması müəyyən prinsipə əsaslanmalıdır. Buna görə, sizinlə əvvəl danışdığımız mövzuya qayıdaraq düşünürəm ki, region dövlətləri bu məsələdə fəal iştirak etməli, beynəlxalq təşkilatlar zəmanət verməli və əlbəttə, azərbaycanlılar hüquqa görə onlara məxsus olan torpaqlara qayıtmalıdırlar.

*-Daha bir dəqiqləşdirici sual. Sizin fikrinizcə, konfiqurasiya necə ola bilər?*

-Yəqin ki, bu barədə danışmaq hələ tezdir. Fikrimcə, bu barədə danışmaq hadisələri bir qədər qabaqlamaq deməkdir. Sadəcə istəyirəm ki, qonşularımız və tərəfdaşlarımız mənim mövqeyimi bilsinlər. Düşünürəm ki, regional əməkdaşlıq çox sahələrdə özünü kifayət qədər göstərib. Son illərə diqqət yetirsək görmək olar ki, Azərbaycan öz qonşuları ilə birlikdə əməkdaşlığın möhkəm regional formatının yaradılması üzərində çox fəal iş aparıb. Bu, siyasi, iqtisadi, nəqliyyat, energetika sahələrində və hər hansı başqa sahələrdə əməkdaşlığa aiddir. Uzun illərdən sonra, praktiki olaraq, müstəqillik dövrünün əvvəlindən başlayaraq beş Xəzəryanı ölkə arasında Xəzər dənizinin hüquqi statusunun nizamlanmasına dair Konvensiya imzalamaqla əldə etdiyimiz nailiyyətlərə baxmaq kifayətdir. Əvvəlcə həmin ölkələrin bəziləri ilə razılığa gələ bilmirdik, lakin sonra biz xoş məram göstərərək razılığa gəldik və bunun üstünlüklərini gördük. Bu gün böyük dövlət olan Rusiya ilə digər böyük dövlət, NATO-nun üzvü olan Türkiyə arasında əməkdaşlıq NATO ölkələri ilə Türkiyənin əməkdaşlığından qat-qat səmimi, möhkəm və səmərəlidir. Məsələn, NATO üzvü olan digər ölkə Türkiyəni daim nədəsə günahlandırır. Bunlar yeni geosiyasi reallıqlardır, 1992-ci ildə bunlar yox idi. Dünya dəyişib. Dünya gözümüzün qabağında dəyişir. Biz bunu əsas götürməliyik, filan ölkənin həll potensialına malik olması barədə hansısa ehkamları, fərziyyələri və ya sabitləşmiş fikirləri yox. Bu gün münaqişənin fəal fazaya keçdiyi və Ermənistanın baş nazirinin, - mən bunu görürəm, - öz telefon zəngləri ilə dünya liderlərini bezdirdiyi bir vaxtda kimin nizamlama potensialına malik olması aşkar görünür. Bax, nizamlama potensialına malik olan, ləyaqətinə, ədalətliliyinə, səmimiyyətinə görə Azərbaycanın hörmət etdiyi ölkələr uzunmüddətli sülhün qarantları olacaqlar.

*-Müsahibəyə və ətraflı cavablara görə çox sağ olun.*

-Sağ olun.

## *Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin CNN-Türk televiziyasına müsahibəsi*

*- Cənab Prezident İlham Əliyev, "CNN Türk"ə xoş gəldiniz. Azərbaycanın tarixi günlər yaşadığı bir zamanda bu müsahibəni verdiyiniz üçün təşəkkür edirik. Mən vaxt itirmədən dərhal suallarıma keçirəm. Əvvəlcə əməliyyatlarda son vəziyyət necədir, planlaşdırıldığı kimi irəliləyirmi? İşğal altındakı nə qədər torpaq azad olundu?*

- Hər şey plan üzrə gedir. Bu gün Azərbaycan Ordusu öz ərazi bütövlüyünü bərpa edir. Əməliyyat uğurla davam edir. Artıq bir şəhər və bir çox kəndlər

işğaldan azad edilib. Bu, bir daha onu göstərir ki, Azərbaycan xalqı işğalla heç vaxt barışmayacaq. Biz bunu dəfələrlə demişik: Qarabağ bizim tarixi, əzəli torpağımızdır! Təəssüf ki, uzun müddət ərzində aparılan müzakirələr bir nəticəyə gətirib çıxarmadı. Belə olan halda, əlbəttə ki, Azərbaycan təkbaşına öz ərazi bütövlüyünü bərpa etməli idi və bunu edir.

Bildiyiniz kimi, erməni silahlı qüvvələri keçən ayın 27-də bizə qarşı yeni hücuma keçdilər və bizim bir çox şəhərlərimiz, kəndlərimiz atəş altındadır. Bu günədək bizim mülki şəxslər arasında 30-a yaxın itkilərimiz, şəhidlərimiz var. Ermənistan silahlı qüvvələri bizim şəhərlərimizi, kəndlərimizi atəşə tutur və minə yaxın ev ya dağıdılıb, ya da ki, böyük ziyan görüb. Lakin hər şey plan üzrə gedir və ümid edirəm ki, qarşıda duran vəzifələr icra olunacaqdır.

*- Yenə də əməliyyat zonasındakı proseslərə qayıtmaq istəyirəm, cənab Əliyev. Bildiyimiz kimi, Ermənistan ordusu münaqişə xəttinin kənarındakı Azərbaycan şəhərlərini ballistik raketlərlə hədəfə almağa başlayıb. Xüsusilə, Azərbaycanın ikinci böyük şəhəri olan Gəncədəki yaşayış məntəqələrini, Mingəçevirdəki elektrik stansiyasını ballistik raketlərlə hədəfə aldı. Sizcə, bunun məqsədi nə idi?*

- Məncə, Ermənistan ordusunun acizliyi və Ermənistanın hərbi-siyasi rəhbərlərinin cinayəti. Çünki mülki şəxslərə zorakılıq göstərmək, onlara qarşı atəş açmaq, ballistik raketlərlə mülki şəhərləri dağıtmaq müharibə cinayəti sayılır. Bu, onu göstərir ki, Ermənistan döyüş meydanında bizim qarşımızda dura bilmir. Döyüşü uduzur və bizi dayandırmaq, eyni zamanda, mülki əhaliyə qarşı maksimum dərəcədə cinayət törətmək üçün belə çirkin əməllərə əl atır. Siz də qeyd etdiyiniz kimi, Gəncə, Mingəçevir döyüş bölgəsindən uzaqda yerləşən şəhərlərdir. Eyni zamanda, döyüş bölgəsinə yaxın olan şəhərlərimiz hər gün atəşə tutulur. Ən yaxın bölgə Tərtər bölgəsidir və Tərtər şəhərinə gündə mindən iki minə qədər mərmi düşür və bunun əsas məqsədi mülki şəxslərə qarşı törədilən zorakılıqdır. Bu, bir daha Ermənistanın faşist mahiyyətini göstərir, rejimin faşist mahiyyətini göstərir. Ancaq bu, Azərbaycan xalqını qorxutmur, bunun heç bir təsiri yoxdur. O bölgələrdə, o şəhər və kəndlərdə yaşayan soydaşlarımız orada möhkəm dayanıblar. Onların bir sözü var ki, Vətən sağ olsun, torpaqlar tezliklə işğaldan azad edilsin. Onlar sona qədər o yerlərdə qalacaq və ordumuza mənəvi dəstək verəcəklər.

*- Ermənistanın mülki yaşayış məntəqələrini atəşə tutmağa davam edəcəyi təqdirdə hazırkı mövqeyinizdə bir dəyişiklik olacaqmı?*

- Xeyr, bizim mövqeyimizdə heç bir dəyişiklik olmamalıdır. Bizim mübarizəmiz erməni xalqı ilə deyil. Mən bunu artıq bir neçə dəfə açıqlamışam. Bizim mübarizəmiz haqq mübarizəsidir. Biz öz ərazi bütövlüyümüzü bərpa etmək istəyirik, bunu edirik və bu işlərdə, bu istiqamətdə uğurlar əldə etmişik. Azərbaycan heç vaxt mülki əhaliyə, yəni, mülki şəxslərə qarşı müharibə etməyib. Mən artıq bu günlərdə də demişəm, bizim erməni xalqı ilə heç bir işimiz yoxdur. Azərbaycanda minlərlə erməni yaşayır və onlar bizim vətəndaşlarımızdır. O cümlədən bu gün Dağlıq Qarabağda yaşayan ermənilər də bizim vətəndaşlarımızdır. Bizim bütün hədəflərimiz hərbi hədəflərdir. Hərbi hədəfləri məhv etmək üçün bizim tam hüququmuz var. Çünki bu hərbi obyektlər bizim ordumuza, şəhərlərimizə böyük ziyan vurub. Ona görə bizim borcumuzdur ki, onları məhv edib əhalimizin təhlükəsiz həyatını təmin edək.

*- Ermənistanın ballistik raketlərlə mülki yaşayış məntəqələrini atəşə tutması, əslində, müharibə cinayəti, Cenevrə Konvensiyasına zidd bir hərəkətdir. Bu baxımdan müharibə cinayətlərinə dair BMT qarşısında bir təşəbbüs irəli sürməyi düşünürsünüzmü? Hadisə yerlərində bu cinayətlərin törədilməsinə dair sübutlar toplayırsınızmı?*

- Təbii ki, toplayırıq. Onların bütün hərbi cinayətləri artıq qeydə alınır. Amma təəssüf ki, beynəlxalq ictimaiyyət bundan əvvəlki dövrdə Azərbaycana və xalqımıza qarşı edilən müharibə cinayətlərinə səssiz qalmışdır. Xocalı qətliamı dünyanın gözü önündə baş vermiş soyqırımıdır. Amma Ermənistanın ovaxtkı hərbi-siyasi rəhbərliyi buna görə məsuliyyətə cəlb edilmədi. Bizim şəhərlərimizin, kəndlərimizin dağıdılması, bir milyondan çox məcburi köçkünün yaranması - bütün bunlara görə beynəlxalq ictimaiyyət hər hansı bir hərəkətə keçmədi. Ona görə də, bu məsələ uzun illərdir öz həllini tapmır. Çünki işğalçı ilə işğala məruz qalan arasında heç bir fərq qoyulmur. Bu gün də erməni silahlı qüvvələrinin bizim şəhərlərimizi və kəndlərimizi atəşə tutması, özü də ballistik raketlərlə atəşə tutması müharibə cinayətidir. Buna görə, əlbəttə ki, Ermənistan rəhbərliyi məsuliyyət daşımalıdır və daşıyacaqdır.

*-Bu günə qədər Sizə bir neçə dəfə atəşkəs çağırışı edildi. Siz bunlara şəxsən cavab verdiniz. Amma münaqişənin 30 illik tarixinə nəzər salarkən bu çağırışların nəticə verəcəyini düşünürsünüzmü?*

- Hesab edirəm ki, bu çağırışlar, sadəcə, atəşkəs çağırışları olmamalıdır. Biz dəfələrlə demişik ki, işğalçı dövlətə, Ermənistana sanksiyalar tətbiq edilməli idi. Əgər vaxtında sanksiyalar tətbiq edilsəydi, bəlkə də bu məsələ çoxdan həll olunardı. Ermənistana qarşı çox ciddi təzyiq göstərilməliydi, sözdə deyil, əməldə. Amma təəssüf ki, bu, olmadı. Ona görə bu proses 30 il çəkdi. Otuz il heç bir nəticə verməyən danışıqlar artıq mənasını itirməkdədir. Bundan əlavə, son dönəmdə Ermənistanın hərbi-siyasi rəhbərliyi həm təcavüzkar hərəkətlərlə, eyni zamanda, aqressiv bəyanatlarla danışıqlar prosesini məhv etdi. Yəni, ona çox böyük zərbə vurdu. "Qarabağ Ermənistandır" demək, əslində, müzakirələrə son qoymaq deməkdir. Çünki müzakirələrin əsas mahiyyəti ondan ibarətdir ki, işğal edilmiş torpaqlar tədricən, mərhələli qaydada Azərbaycana qaytarılmalıdır. Bu, əsas

prinsiplərdə təsbit olunub. "Qarabağ Ermənistandır" demək faktiki olaraq bu prosesə son qoyur. Buna oxşar digər açıqlamalar olubdur. Sonra iyul ayında Ermənistan Azərbaycana dövlət sərhədi istiqamətində hücum etdi, bir çox hərbçi və bir mülki şəxs həlak oldu. Ona görə atəşkəsin bərpası şərtlərlə təmin edilməlidir. İlk növbədə, Ermənistan silahlı qüvvələrinin işğal edilmiş torpaqlardan çıxış təqvimi, yəni, çıxış cədvəli bizə təqdim edilməlidir. Bu məsələ ilə bağlı biz Minsk qrupuna artıq öz mövqeyimizi çatdırmışıq. Ümid edirəm ki, bizim bu çağırışlar, bu təkliflər cavabsız qalmayacaq.

*-Avropa Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatının Minsk qrupundan söz düşmüşkən, düşünürəm Fransanı da ayrıca qeyd etmək lazımdır. Fransanın bu məsələdəki mövqeyi ilə bağlı nə deyə bilərsiniz?*

-Mən artıq bu məsələ ilə bağlı bir neçə dəfə açıqlamalar verdim. Biz hər zaman Minsk qrupunu bir qrup kimi qəbul edirdik və bu gün də belədir. Hesab edirdik ki, bu qrupa həmsədrlik edən ölkələr bitərəf qalmalıdır, heç bir tərəfi dəstəkləməməlidir. Çünki əks təqdirdə onların vasitəçilik missiyası sual altına düşür. Son hadisələrə qədər onlar neytrallığı az-çox saxlamağa müvəffəq olmuşdular. Biz bilirik ki, bu ölkələrdə erməni lobbisi güclüdür. Erməni lobbiləri o ölkələrin hökumətlərinə də təsir edə bilər və edir. Bu gün biz görürük ki, müxtəlif ölkələrdə yaşayan ermənilər təşkilatlanmış qaydada Azərbaycana qarşı qara təbliğat kampaniyası aparırlar. Ancaq əfsuslar olsun ki, bu günlərdə bəzi ölkələr tərəfindən birtərəfli mövqe sərgiləndi, tərəftutma halları baş verdi. Bu da qəbuledilməzdir. Buna görə biz öz sözümüzü demişik. Əgər vasitəçilər vasitəçi kimi qalmaq və bu məsələ ilə bundan sonra məşğul olmaq istəyirlərsə, onlar daha məsuliyyətli olmalıdır və heç bir tərəf tutmamalıdır. Çalışmalıdırlar ki, bu məsələnin həllinə hesablanmış addımlar atsınlar və münaqişə tezliklə həll olunsun. Ondan sonra atəşkəs bərpa edilsin və uzunmüddətli sülh olsun.

*-Fransa prezidenti Emmanuel Makronun nə üçün üzr istəməsinin gərəkliyini söylədiniz?*

-Siz də bilirsiniz ki, bizə qarşı ittihamlar səsləndi. Rəsmi açıqlamalarda səsləndi ki, sanki Azərbaycanla Türkiyə birlikdə bölgəyə terror qruplarının nümayəndələrini gətirib. Halbuki bunun heç bir sübutu yoxdur. O açıqlamalardan artıq on gün keçir. Bu günə qədər bizə heç bir sübut verilməyib. Bu, bizə qarşı edilən haqsızlıqdır. Bu, yalan məlumat əsasında ifadə edilən açıqlamadır. Bu ya yoxlanılmamış, təsdiqini tapmamış məlumat əsasında deyildi, ya da ki, bu qəsdən deyildi. Bunu mən deyə bilmərəm. Hər halda, hər bir ölkə özünü müdafiə etməlidir. Bizə qarşı edilən haqsızlıq təbii ki, biz tərəfdən cavablandırılır. Biz buna səssiz qala bilmərik. Eyni zamanda, başqa bir açıqlama da olmuşdur ki, "Azərbaycan Dağlıq Qarabağı fəth etmək istəyir". Bu da beynəlxalq qanunlara tamamilə zidd olan bir açıqlamadır. Çünki Dağlıq Qarabağ bizim torpağımızdır. Bir ölkə öz torpağını necə fəth edə bilər? Bu cür sözlər Minsk qrupunun mandatına tamamilə zidd olan açıqlamalardır. Biz, sadəcə olaraq, istəyirik ki, 30 ilə yaxın öz yurdlarından didərgin salınmış məcburi köçkünlərimiz öz evlərinə qayıtsınlar, Azərbaycanın ərazi bütövlüyü təmin edilsin. Azərbaycanın ərazi bütövlüyü başqa ölkələrin ərazi bütövlüyü qədər əhəmiyyətlidir .

*-Qara təbliğatdan söz düşmüşkən, Azərbaycan əks-hücumu başlayandan bəri Azərbaycana qarşı, xüsusilə sosial mediada qara təbliğat aparılır. Bununla bağlı nə deyə bilərsiniz? Əlinizdə buna dair nə kimi faktlar var?*

-Bilirsiniz, bizə qarşı qara təbliğat uzun illər ərzində aparılır. Bunun bir neçə səbəbi var. Onlardan biri də odur ki, Azərbaycan dünya miqyasında müstəqil siyasət aparır. Bizim siyasətimizin mərkəzində Azərbaycan xalqının maraqları dayanır. Biz başqa ölkələrin əlində alət olmamışıq, olmaq da istəmirik və olmayacağıq. Bugünkü Azərbaycanın inkişafı, bütün istiqamətlər üzrə əldə edilmiş inkişaf göstərir ki, Azərbaycan haqq yolundadır. Baxın, bizim beynəlxalq əlaqələrdə böyük uğurlarımız var. Bu gün Azərbaycan dünya miqyasında məsuliyyətli və etibarlı ölkə kimi tanınır. Biz hazırda Birləşmiş Millətlər Təşkilatından sonra ikinci böyük beynəlxalq təsisata, Qoşulmama Hərəkatına sədrlik edirik. Biz 120 ölkənin dəstəyi ilə buna nail ola bilmişik. Azərbaycan bu gün Avropa ilə Asiya arasında həm siyasi, həm coğrafi, həm də enerji körpüsüdür. Yəni, bütün bu uğurları, o cümlədən müstəqil siyasət sayəsində əldə etmişik. Bu, bəzi ölkələrin xoşuna gəlmirdi, bəzi ölkələr Azərbaycana yuxarıdan aşağı baxmağa çalışırdılar. Ancaq bizim qətiyyətli mövqeyimiz buna imkan vermədi. Ona görə bizə olan təzyiqlərin səbəblərinin biri də məhz budur ki, müstəqil siyasət aparırıq, öz yolumuzla gedirik, heç kimin sözü ilə oturub-dururuq, heç kimin qarşısında baş əymirik. Digər səbəblər də var. Bu, çox uzun bir söhbətdir, ayrı müsahibənin mövzusu ola bilər. Bu hadisələr baş verən kimi dərhal bizə qarşı müntəzəm olaraq qara təbliğat aparanlar, qeyri-hökumət təşkilatları və bəzi ölkələrin dairələri, media nümayəndələri hərəkətə keçdilər ki, Azərbaycanın imici ləkələnsin, bizə böhtan atılsın, bizim haqqımızda olmayan yalanlar uydurulsun və beləliklə, informasiya məkanında bu münaqişə ilə bağlı yanlış bir rəy, yanlış bir fikir yaradılsın.

Biz, əlbəttə ki, bizə ünvanlanan bu ittihamlarla təkbaşına mübarizə apararaq müəyyən uğurlar əldə etmişik. Ancaq bizim də imkanlarımız məhduddur. Bir çox hallarda bizim səsimiz eşidilmir. Bizə beynəlxalq platforma verilmir. Beynəlxalq media qurumları daha çox Ermənistanın tərəfini tuturlar və münaqişə ilə bağlı yalan məlumatlar yayırlar. Ona görə, fürsətdən istifadə edərək qardaş Türkiyənin media mənsublarına təşəkkürümü bildirmək istəyirəm ki, onlar bu günlərdə bütün dünyaya bu savaşla bağlı həqiqətləri çatdırır, canlı efirdə məlumatlar verirlər - dağıdılmış şəhərlər, düşən raketlər, Gəncə şəhəri, Mingəçevir şəhəri, Tərtər şəhəri. Yəni,

daha çox Türkiyə media qurumları tərəfindən verilən bu məlumatlar dünyada bu münaqişə ilə bağlı daha ədalətli fikrin yaranmasına xidmət göstərir.

*-Cənab Əliyev, əməliyyat başlanmazdan bir neçə gün əvvəl ABŞ-da – Nyu-Yorkda BMT Baş Assambleyasında iştirak edən liderlərə çağırış etdiniz, dünyaya çağırış etdiniz. Həmin çıxışınızda bəzi terrorçu qrupların Ermənistana göndərildiyini açıqladınız və bu məsələyə diqqəti yönəltdiniz. Xüsusilə də bu məsələyə diqqət yetirilməsini vurğuladınız. Bu açıqlamanızdan üç gün sonra Ermənistan Azərbaycana hücuma başladı. İndi bu məsələ ilə bağlı Azərbaycanın əlində hansı kəşfiyyat məlumatları var?*

-Mən o çıxışımda, eyni zamanda, bildirmişdim ki, Ermənistan yeni müharibəyə hazırlaşır. Bizdə olan məlumat onu göstərir və Ermənistan dayandırılmalıdır. O ki qaldı, Ermənistanda terror təşkilatlarının düşərgələrinin mövcudluğuna, bu məlumatlar bizdə əvvəldən də olub.

*-Bunlar hansı terror qruplarıdır?*

-İlk növbədə, PKK terror qruplarının düşərgələri Azərbaycanın Ermənistan tərəfindən işğal edilmiş torpaqlarında mövcud idi. Bizdə olan yeni kəşfiyyat məlumatları, - bunların bir hissəsi artıq mətbuata da açıqlandı, - onların danışıqları, onların təmasları haqqında artıq sənədlər və audioməlumat var. Bu, bizdə heç bir şübhə doğurmayan bir məsələ idi. Çünki Ermənistan terrorçu ölkədir. Birinci Qarabağ müharibəsi dönəmində bizə qarşı onlarla terror aktı törədilmişdir - metrolarda, avtobuslarda, gəmilərdə. Hesab edirəm ki, erməni terroru dünyada məşhur olan bir mənfur fakt kimi dünya tərəfindən qəbul edilməlidir. Fransa aeroportunda 1980-ci illərdə terror aktını törədən şəxs sonra Ermənistana verildi, daha sonra sərbəst buraxıldı və o, qəhrəman hesab olundu. Ona görə bu gün də müxtəlif ölkələrdən Ermənistana terrorçular axışır. Bizdə olan məlumata görə, bəzi Yaxın Şərq ölkələrindən, orada yaşayan ermənilər və digər qeyri-millətlərdən olan insanlar Ermənistana axışır ki, Azərbaycana qarşı bu haqsız müharibəyə qoşulsunlar.

*- ATƏT-in Minsk qrupu mövzusuna təkrar qayıtmaq istəyirəm. Onun həmsədrlərindən biri də Rusiyadır. Rusiyadan bölgədə hansı gözləntiləriniz var?*

-Rusiya da ATƏT-in Minsk qrupunun həmsədri kimi təbii ki, vasitəçilik missiyasını icra edir. Bu məsələ ilə bağlı bizdə hər hansı problem yoxdur. Eyni zamanda, bu üç həmsədr arasında Rusiya tək ölkədir ki, bizimlə qonşudur. Təbii ki, Rusiya ilə bizim uzun tarixi münasibətlərimiz var. İndiki dönəmdə Rusiya həm Ermənistanla, həm də Azərbaycanla əlaqələrini inkişaf etdirir. Bu, çox önəmli faktdır. Ona görə nə ikitərəfli formatda, nə də ki, Minsk qrupu çərçivəsində hər hansı bir problem yoxdur. Bu hadisələr dönəmində də Rusiyanın mövqeyi məsuliyyətli mövqedir.

*-Cənab Prezident, İran bu məsələdə hansı mövqedədir?*

- İran rəsmiləri Azərbaycanın haqq işini dəstəklədilər. Bir-iki gün bundan əvvəl İranın rəsmi şəxsləri açıqlamalar vermişlər ki, işğala son qoyulmalıdır, Azərbaycanın ərazi bütövlüyü bərpa edilməlidir və bizim köçkünlərimiz öz torpaqlarına qayıtmalıdırlar. Bu da ədalətli mövqedir.

*-Yaxşı, bəs, bu prosesdə ABŞ Prezidenti Donald Trampla hər hansı təmaslarınız oldumu? Siz ABŞ-ın bu prosesdə olmasının vacibliyini düşünürsünüzmü?*

- Amerika da Minsk qrupunun həmsədridir. Digər iki həmsədrlə birlikdə bu işlərdə iştirak edir. Amerika Prezidenti ilə mənim hər hansı bir təmasım olmamışdır. Ancaq Amerikanın yüksəksəviyyəli rəsmiləri bu işlərlə, bu hadisələrlə bağlı təbii ki, öz fikirlərini bildirmişdilər. Eyni zamanda, hörmətli Donald Tramp da bu məsələ ilə bağlı açıqlama vermişdir. Hesab edirəm ki, tam, məntiqli bir açıqlama idi. Amerika ilə bizim ikitərəfli formatda əlaqələrimiz uğurla inkişaf edir. Bir çox sahələrdə biz tərəfdaş kimi fəaliyyət göstəririk. Təbii ki, Amerika superdövlət kimi, bu məsələ ilə də bağlı öz sözünü deyir. Biz Amerikanın mövqeyindən də razıyıq.

*-İyul ayında Ermənistan Tovuz şəhərinə hücum etdi. İndi bu əməliyyat vaxtı yenə də mülki yaşayış məntəqələrini vurur. Bunu Ermənistanın Azərbaycanı təxribata çəkmək üçün etdiyini bir qədər əvvəl demişdiniz. Təxribata çəkməkdən başqa, bu məntəqələrin, xüsusilə də Tovuz şəhərinin, Mingəçevirdəki elektrik stansiyasının hədəfə alınması, bu kimi hədəflərin vurulması, əslində, regiondakı enerji təhlükəsizliyini də təhlükə altına alırmı? Bu, enerji xətlərinin hədəfə alınması anlamına gəlirmi? Xüsusilə Bakı-Tbilisi-Ceyhan neft boru kəmərini, TANAP layihəsini nəzərdə tuturam. Bunlarla bağlı nə deyə bilirsiniz?*

-Təbii, bu da Ermənistanın hədəflərindən biridir. Bunu onlar gizlətmirdilər və eyni zamanda, bu hadisələrə qədər Ermənistan rəhbərliyi tərəfindən verilən açıqlamalarda göstərilmişdir ki, onlar bizim strateji enerji infrastrukturumuzu vurmaq fikrindədirlər. Boru xətlərini, eyni zamanda, Səngəçal neft-qaz terminalını, hansı ki, dünya miqyasında ən böyük neft-qaz terminallarından biridir. Əslində, Tovuz hadisələrinin səbəblərindən biri də məhz bu idi - yeni Azərbaycan torpaqlarını işğal etmək, ondan sonra müzakirə masasında öz mövqelərini gücləndirmək, eyni zamanda, bizim strateji enerji xətlərimizə ya yaxınlaşmaq, ya da ki, onları nəzarət altına almaq və ondan sonra bizə diktə etmək. Bu, erməni dövlətinin planlarında hər zaman olan bir məsələdir. Onlar bunu gizlətmirlər. Mingəçevir elektrik stansiyasının vurulması da bu planın bir tərkib hissəsidir. Çünki Mingəçevir stansiyası nəinki Azərbaycanın, bütün Cənubi Qafqazın ən böyük stansiyasıdır. Baxmayaraq ki, biz son illər ərzində bir çox stansiyalar inşa etmişik, bu gün Mingəçevir bizim ən böyük stansiyamızdır və ölkəmizin böyük hissəsinin elektrik enerjisini o, təmin edir. Əgər o sıradan çıxsaydı, təbii ki,

enerji məsələlərində müəyyən problemlər yarana bilərdi. Bu gün Azərbaycan həm xam neft, həm təbii qaz, həm də elektrik enerjisi ixrac edir. Yəni, bizdə istehsal olunan elektrik enerjisinin artıq hissəsini ixrac edirik. Bu, bizim iqtisadi potensialımıza hesablanan bir addım idi və bir daha Ermənistanın, Ermənistan rejiminin cinayətkar mahiyyətini bütün dünyaya göstərir.

*-Cənab Əliyev, Dağlıq Qarabağda nə qədər Azərbaycan əhalisi yaşayır?*

-Dağlıq Qarabağda bu gün bir dənə də azərbaycanlı yoxdur, hamısı qovuldu. Həm Dağlıq Qarabağ ərazisindən, həm də ki, Dağlıq Qarabağın, - Dağlıq Qarabağ bir muxtar vilayət idi sovetlər dönəmində, - ətrafındakı 7 rayondan da bütün azərbaycanlı əhali qovuldu. Sovetlər dönəmində, 1980-ci illərin sonunda Dağlıq Qarabağın əhalisinin yüzdə 25-i azərbaycanlılar idi. Şuşa şəhərinin əhalisinin 98 faizi azərbaycanlılardan ibarət idi. Şuşa bizim qədim tarixi şəhərimizdir. Birinci mərhələdə bütün azərbaycanlılar Şuşadan, sonra Xankəndidən, digər şəhər və kəndlərdən, daha sonra Dağlıq Qarabağın ətrafında olan yeddi bölgədən qovuldu. Bu gün Dağlıq Qarabağda və işğal altındakı ətraf bölgələrdə Azərbaycan əhalisi yoxdur. Biz indi qayıdacağıq. Biz dörd il bundan əvvəl artıq qayıdışa başlamışıq. Ancaq indiki toqquşmalar başa çatandan sonra biz əlbəttə ki, o bölgələrə qayıdacağıq.

*-Azərbaycanlılar işğal altındakı Qarabağ torpaqlarından qovuldu dediniz. Amma hazırda Azərbaycanın digər torpaqlarında da çoxlu sayda erməni əhali yaşayır. Bununla bağlı nə söyləyərdiniz?*

- Bu da təbiidir. Çünki Azərbaycanda bir çox millətlər yaşayır, bir ailə kimi yaşayır və Azərbaycan dünya miqyasında multikultural ölkə kimi tanınır. Bunu həm Birləşmiş Millətlər Təşkilatı, eyni zamanda, humanitar sahədə fəaliyyət göstərən digər beynəlxalq təşkilatlar qeyd edirlər. Azərbaycan tolerantlıq, milli, dini dözümlülük məkanıdır. O cümlədən bizdə bu gün minlərlə erməni yaşayır, onlar bizim vətəndaşlarımızdır. Onlar da başqa millətlər kimi normal yaşayırlar. Əlbəttə, bu müharibə, münaqişə başa çatandan sonra mən əminəm ki, bu gün Dağlıq Qarabağda yaşayan ermənilər də bizimlə bərabər yaşayacaqlar. Azərbaycan çoxmillətli ölkədir, tarixən belə olub. Hesab edirəm ki, bu, bizim böyük üstünlüyümüzdür.

Amma Ermənistanda heç bir başqa millət yaşamır. Ermənistan dünya miqyasında çox nadir ölkələrdəndir ki, orada əhalinin yüzdə doxsan doqquzu ermənilərdir. Bütün digər millətlər oradan qovuldu. İlk növbədə, azərbaycanlılar qovuldu, ondan sonra digər millətlər qovuldu. Ermənistan monodövlətdir və bu, bir daha onu göstərir ki, irqçi dövlətdir. Heç bir başqa millətin nümayəndəsi orada yaşaya bilmir. Ya o əziyyətə dözməyərək özü oradan çıxır, ya da ki, zor gücü ilə çıxarılır.

*-Cənab Prezident, bir neçə sualım qaldı, icazənizlə, onları da söyləyim. Bir daha əməliyyat zonası ilə bağlı mövzuya qayıdası olsaq, xüsusən pilotsuz uçuş aparatlarının və silahlı pilotsuz uçuş aparatlarının Azərbaycan Ordusunun arsenalına daxil edilməsi necə bir fərq yaratdı?*

- Çox böyük fərq yaratdı. Türkiyə istehsalı olan silahlı pilotsuz uçuş aparatları çox müasir, çağdaş texnologiyalar əsasında yaradılmış silah növüdür və dünyada cəmi bir neçə ölkə var ki, belə imkanlara malikdir. Bu da Türkiyənin həm texnoloji, həm iqtisadi, həm intellektual potensialının təzahürüdür. Əlbəttə ki, belə imkanların bizdə olması işimizi asanlaşdırır və insanlarımızın, əsgərlərimizin həyatını xilas edir. Çünki onlar olmasaydı, havadan vurulan həmin tankları, topları və digər erməni texnikasını biz gərək yerdən vuraydıq. O da çox böyük insan itkisinə gətirib çıxara bilərdi. Bu aparatlar insan itkisinin yüksək rəqəmlərlə ölçülməməsi üçün bizə böyük üstünlük verir. Eyni zamanda, onların texnologiyası mükəmməldir.

*-Hava hücumundan müdafiə sistemlərindən söz düşmüşkən, Ermənistan tərəfində xüsusən Rusiyadan alınan müasir hava hücumundan müdafiə sistemləri var – S-300-lər kimi. Həmçinin Azərbaycan Ordusunda da müdafiə sistemləri var, ancaq bu silahlar yoxdur. Sizcə bu, ikili standart yaradırmı?*

- Xeyr, bizdə S-300 hava hücumuna qarşı qurğular var, biz onları Rusiyadan almışıq. Rusiyadan bir çox silahlar almışıq. Burada heç bir məhdudiyyət yoxdur. Ona görə ikili standartlardan danışa bilmərəm. Yalnız bir fərq ondadır ki, biz bunu pulla alırıq və bu da çox bahalı sistemlərdir. Ermənistan isə bir çox hallarda pulsuz alır. Yəni, hədiyyə kimi, ya da ki, kredit şəklində alır. Amma o kredit kağız üzərində qalır, qaytarılmır. Təbii ki, bu bahalı silahlar Ermənistana pulsuz verilməsəydi, Ermənistanın buna sahib olması müzakirə mövzusu ola bilməzdi və bu münaqişə çoxdan çözülərdi. Çünki Ermənistanın silahlanması və pulsuz silahlanması onlarda bir əminlik yaratdı ki, bu torpaqları işğal altında əbədi saxlaya bilərlər. Yəni, fərq bundadır. Ancaq bizim imkanımız var ki, Rusiyadan silahlar alaq. Biz başqa ölkələrdən də silahlar alırıq. Bu məsələ ilə bağlı hər hansı bir məhdudiyyət yoxdur. Bəzi ölkələr var ki, onlar bizə embarqo qoyublar, ancaq bu, bizə o qədər də böyük problem yaratmır. Çünki indi silah bazarı daha çox şaxələnmiş bazardır, coğrafiyası da genişlənir. Mən bu yaxınlarda demişəm, bu gün Türkiyənin müdafiə sənayesi o qədər sürətlə inkişaf edir ki, ümid edirəm, gələcəkdə bizim Türkiyə silahları ilə təchizatımız daha da yüksək səviyyəyə qalxacaqdır.

*-Bizim burada diqqətimizi çəkən bir məsələyə toxunmaq istəyirəm. Hara getsək - Bakıda və ya münaqişə bölgəsindəki şəhərlərdə, Tərtərdə, hər yerdə Azərbaycan bayraqlarının yanında Türkiyə bayraqlarını da görürük. Bununla bağlı nə söyləmək istərdiniz.*

- Bu, əslində, hər zaman belə idi. Çünki Türkiyə bizim üçün təkcə müttəfiq və ən yaxın ölkə deyil. Türkiyə bizim üçün qardaş ölkədir, necə ki, Azərbaycan Türkiyə üçün. Türkiyə bayrağı bizim üçün əziz bayraqdır,

Azərbaycan bayrağı qədər əzizdir. Ancaq təbii ki, bu münaqişə, bu döyüşlər zamanı Türkiyənin dəqiq mövqeyi, cənab Prezident, mənim qardaşım Rəcəb Tayyib Ərdoğanın açıqlamaları, Azərbaycana göstərilən dəstək, Türkiyədən gələn məktublarda insanların "Azərbaycan tək deyil" sözləri, əlbəttə ki, Türkiyəyə olan məhəbbəti daha da artırdı. Siz də bunun şahidisiniz ki, bütün bölgələrdə Türkiyə və Azərbaycan bayraqları bir yerdə dalğalanır. Eyni zamanda, bu gün Türkiyədə də Türkiyə ilə Azərbaycan bayraqları bir yerdə dalğalanır. Mənə göstərilən o videokadrlar da bizi çox duyğulandırır, çox məmnun edir ki, bizim türk qardaşlarımız orada avtomobilləri, binaları Türkiyə və Azərbaycan bayraqları ilə bəzəmişlər. Yəni bu, əsl qardaşlıq, həmrəylik rəmzidir. Azərbaycanı Türkiyə qədər dəstəkləyən ikinci ölkə yoxdur. Dünyada Türkiyəni də Azərbaycan qədər dəstəkləyən ikinci ölkə yoxdur. Bu, bizim böyük sərvətimizdir.

*-Son sualımı ünvanlayacam, cənab Prezident. Hazırda qarşınızda mənim yerimə Ermənistanın baş naziri Paşinyan olsaydı, ona nə söyləyərdiniz?*

- Əslində, mənim ona sözüm yoxdur. Çünki mən onunla dəfələrlə görüşmüşdüm. İki il bundan əvvəl o, hakimiyyətə gələndən sonra bizim ilk təmaslarımızda hesab edirəm ki, aramızda çox yaxşı söhbət olmuşdu. Mənim də ümidlərim var idi ki, o, yeni baş nazir kimi Ermənistanın işğalçılıq siyasətinə düzəlişlər, dəyişikliklər edəcək, anlayacaqdır ki, bu münaqişə həll olunmasa bölgəyə sülh gəlməyəcək, çevriliş zamanı hakimiyyətə gəlmiş, böyük vədlər vermiş bir insan kimi o vədləri tuta bilməyəcək, yerinə yetirə bilməyəcək. Çünki əgər Azərbaycan ilə Ermənistanın əlaqələri normallaşmasa, Ermənistanın iqtisadi inkişafından danışmağa dəyməz. Ümid edirdim ki, o, bunu anlayır və Ermənistandan gələn ilk mesajlar çox müsbət idi. Biz də təmkin göstərdik, onların xahişini nəzərə alaraq atəşkəs rejimini möhkəmləndirdik və demək olar ki, son iki il ərzində atəşkəs rejimi möhkəm saxlanılan rejim idi. Bunu Minsk qrupunun həmsədrləri də öz açıqlamalarında qeyd etmişlər. Ancaq sonra nəyi gördük? Onu gördük ki, o, bizi aldatdı. Amma hesab edirəm ki, siyasətdə bu, çox yanlış bir yoldur. Aldatmaq olmaz. Bizim sözümüz imzamız qədər keçərlidir. Ancaq bizə verilən sözlər yalan çıxdı və onun tərəfindən "Qarabağ Ermənistandır və nöqtə" deməsi müzakirələrə faktiki olaraq son qoydu. Ondan sonra digər təxribatçı açıqlamalar, o cümlədən Azərbaycan Dağlıq Qarabağla, yəni qondarma "Dağlıq Qarabağ respublikası" ilə danışıqlar aparmalıdır kimi bəyanatlar verildi. Bu da danışıqlar formatına vurulan zərbə idi. Təkcə biz yox, Minsk qrupu da bunun əleyhinə çıxmışdır. Sonra iyul ayında Tovuzda hərbi təxribat törətdilər, avqustda təxribat qrupunu göndərdilər və keçən ay artıq genişmiqyaslı hücum həyata keçirdilər. Ona görə mən ona bütün sözlərimi demişdim. Mənim sözüm erməni xalqınadır ki, onlar öz hökumətini məsuliyyətə cəlb etsinlər, onlardan atəşin dayandırılmasını, işğala son qoyulmasını tələb etsinlər, öz övladlarını, öz uşaqlarını müharibəyə göndərməsinlər, Azərbaycana göndərməsinlər. Çünki bu gün qondarma "Dağlıq Qarabağ respublikasının ordusu"nun 90 faizini Ermənistan vətəndaşları təşkil edir. Yəni, "Dağlıq Qarabağ ordusu" anlayışı yoxdur. Nə üçün Ermənistanda doğulmuş bir insan gəlib Azərbaycan torpaqlarında bizə qarşı vuruşmalıdır? Ona görə mənim sözüm erməni xalqınadır ki, bu gün Azərbaycanda ermənilər rahat yaşayır, bundan sonra da yaşayacaqlar. Onların normal yaşaması üçün Azərbaycan dövləti hər şeyi edir. Ermənistan rəhbərliyinə bir sözüm var ki, siz işğal edilmiş torpaqlardan nə qədər tez çıxsanız, sizin üçün o qədər də yaxşı olacaq.

*-Cənab Prezident, bu tarixi günlərdə, döyüşlərin davam etdiyi bir vaxtda çox önəmli açıqlamalar verdiniz. Müsahibə üçün bir daha CNN Türk televiziyası adından çox təşəkkür edirəm.*

-Mən də sizə təşəkkür edirəm, CNN Türk televiziyası demək olar ki, hər gün gözəl reportajlar yayımlayır. Studiyalarda canlı müzakirələr təşkil edilir, bu müzakirələrə önəmli insanlar qatılır. Azərbaycana göstərilən birmənalı dəstəyə görə kanalınıza təşəkkürümü bildirirəm. Türkiyənin bütün media toplumuna təşəkkürümü bildirirəm ki, onlar bu ağır günlərdə bizimlə bir yerdədirlər.

*-Çox sağ olun, bir daha təşəkkür edirəm.*

- Sağ olun, təşəkkür edirəm.

## *Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Euronews" televiziyasına müsahibəsi*

*-İndi Azərbaycan Prezidenti İlham Əliyev bizimlə bağlantıdadır. Vaxt ayırdığınıza görə təşəkkür edirəm. Atəşkəsin əldə olunması və gərginliyin deeskalasiyası ilə bağlı beynəlxalq ictimaiyyətin güclü və davamlı təzyiqi var. Döyüşlər davam edir, hətta daha da gərginləşir. İndi Sizin münaqişədə məqsədiniz nədən ibarətdir?*

-Atəşkəs birtərəfli qaydada əldə oluna bilməz. Bu, ikitərəfli qərar olmalıdır və həm də yerində həyata keçirilməlidir. Bildiyiniz kimi, sentyabrın 27-də Ermənistan bizə hücum etdi, bizim hərbi mövqelərimizə hücum etdi, infrastruktura ziyan vurdu, mülki şəxslərə hücum etdi. İndiyədək demək olar ki, 30 mülki şəxsimiz Ermənistanın hücumu, o cümlədən ballistik mərmi və kasetli bombalarla törədilmiş hücum nəticəsində həlak olub.

Bizim əks-hücumumuz uğurlu oldu. Biz işğal olunmuş ərazilərimizin bir hissəsini azad etməyə müvəffəq

olduq. Bizim əsas məqsədimiz Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsidir. Ermənistan qoşunlarının işğal olunmuş ərazilərdən çıxarılması ilə bağlı bizə vaxt cədvəli verməlidir və bu cədvəl vasitəçi ölkələr olan Minsk qrupunun həmsədrləri tərəfindən təsdiqlənməlidir. Düşünürəm ki, bundan sonra atəşkəsin əldə olunmasına cəhd göstərilməlidir.

*-Sizin qeyd etdiyiniz ölkələr dəfələrlə atəşkəsə çağırış ediblər. Niyə bu, baş vermir? Niyə Siz bunun dərhal baş verməsi üçün çalışmırsınız?*

-Çünki biz dəfələrlə hücuma məruz qalmışıq. Son üç ayda Azərbaycana üç hücum edilib. Biri iyulda Ermənistan-Azərbaycan sərhədində, Dağlıq Qarabağ regionundan uzaqda olub və Ermənistanın məqsədi Azərbaycanın yeni ərazilərini işğal etmək idi. Onlar bunu etməyə müvəffəq olmadılar. Ordumuz onları məğlub etdi. Sonra avqustun 23-də onlar bizim mülki şəxslərimiz və hərbçilərimizə qarşı terror aktları törətmək üçün diversiya qrupu göndərdilər. Bu da onlar üçün uğursuz oldu. Çünki diversiya qrupunun başçısı saxlanıldı və o, eynilə mənim indi dediklərimə dair ifadələr verir. Sentyabrın sonunda onlar bizim kəndlərimizə və şəhərlərimizə qarşı genişmiqyaslı hücuma keçdilər. Sizə deyə bilərəm ki, bu günə qədər 900 ev tamamilə dağılıb və ya zərər çəkib, mülki şəxslər arasında çox sayda tələfat və yaralı insanlar var. İndi Ermənistan çox acı məğlubiyyətlə üzləşəndə onlar atəşkəs üçün yalvarırlar. Atəşkəsi onlar özləri pozdular, Ermənistan qoşunlarının tam, dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edən BMT Təhlükəsizlik Şurasının qətnamələrinə məhəl qoymurlar. Onlar status-kvonu dəyişməz olaraq saxlamaq istəyirlər. Minsk qrupunun həmsədrləri - ABŞ, Rusiya və Fransa, onların prezidentləri dəfələrlə bəyanatlar veriblər ki, status-kvo qəbuledilməzdir. Ermənistan buna məhəl qoymadı, indi isə Azərbaycan özü status-kvonu dəyişir və düşünürəm ki, bu, münaqişənin ən tez zamanda həlli istiqamətində mühüm addım olacaq.

*-Cənab Prezident, bu münaqişənin hər iki tərəfində mülki şəxslər qətlə yetirilib. Siz bunu öz məqsədlərinizlə necə uyğunlaşdırırsınız?*

-Əlbəttə, biz təəssüflənirik ki, mülki şəxslər qətlə yetirilir. Sözsüz ki, bu hücumu biz törətməmişik, hücumun mənbəyi olmamışıq. Çünki bu, sentyabrın 27-də səhər onların etdiyi ilk iş oldu. Onlar bizim şəhər və kəndlərimizə hücum etdilər və biz cavab verməli olduq. Lakin bizim cavabımız əsasən və başlıca olaraq onların hərbi mövqelərinə, tanklarına və silahlarına oldu. Bizim döyüş meydanında etdiklərimiz internetdə var. Bizim dronlarımız və digər avadanlıqlarımız yalnız işğal olunmuş ərazilərdə hərbi hədəfləri məhv edir. Əfsuslar ki, Ermənistan yerlərdə daha çox adamın olması üçün mülki şəxslərdən istifadə edir. Çünki onların demoqrafik vəziyyəti çox pisdir və bizdə, sadəcə, silahların yanında mülki şəxslərin olması ilə bağlı videolar var və əlbəttə ki, əgər şəxs oradadırsa...

*-Sözünüzü kəsdiyimə görə üzr istəyirəm, cənab Prezident. Ermənistan deyə bilər ki, bu döyüşdə onlar tərəfdən mülki şəxslər qətlə yetirilib və onlar bu zorakılığın niyə yenidən sentyabrın 27-də alovlandığını mübahisə edərlər. İcazə verin, Xarici İşlər nazirinizin ötən il verdiyi vədi qeyd edim. Deyilmişdi ki, xalqları sülhə hazırlamaq üçün konkret tədbirlərin görülməsi vacibdir. Bizim hazırda gördüklərimiz bunun əksidir. Siz mülki şəxslərin əzablarını necə məhdudlaşdırmağa çalışırsınız?*

-Bilirsiniz, biz müharibənin başlanmasına görə məsul deyilik. Dediyim kimi, biz Azərbaycanın işğal edilmiş ərazilərində yerləşən Ermənistan ordusunun fiziki hücumuna məruz qalmışdıq. Bundan əlavə, Ermənistandakı indiki rejim danışıqlar prosesini məhv etmək üçün hər bir şeyi etmişdir. Düz bir il bundan əvvəl Ermənistanın baş naziri Azərbaycanın işğal olunmuş ərazisində keçirilən aksiyada "Qarabağ Ermənistandır" bəyan etmişdir. Bu bəyanat faktiki olaraq danışıqlar prosesini məhv etdi. Çünki danışıqlar masasında olan və münaqişənin həlli üçün əsas təşkil edən prinsiplər işğal altındakı ərazilərin Azərbaycana qaytarılmasını tələb edir. Ermənistanın baş naziri Azərbaycana bir santimetr torpağın belə qaytarılmayacağını, "Qarabağ Ermənistandır" deyəndə, onlar Cenevrə Konvensiyasının kobud pozuntusu sayılan əcnəbi şəxslərin işğal olunmuş ərazilərdə məskunlaşmasını təşkil edəndə danışıqlar prosesini məhv edirlər. Bundan sonra bizi buna görə günahlandırmaq üçün onlar bizə üç dəfə - iyul, avqust və sentyabr aylarında hücum edirlər. Biz onları döyüş meydanında məğlub etdikdə onlar Azərbaycanı dayandırmaq üçün hər kəsə zəng edir və hər kəsə yalvarırlar. Biz dayanmaq istəyirik, lakin biz işğalın dayanmasını istəyirik. Buna görə Ermənistanın ünvanına əsas mesaj ondan ibarət olmalıdır ki, biz Ermənistanın torpağında deyilik, biz öz torpağımızdayıq. Bizim torpağımız 27 il ərzində...

*-Ermənistan Türkiyənin burada ciddi təsir göstərdiyini, o cümlədən hərbi yardım kimi məsələlərdə sizi təchizatla təmin etdiyini deyəcək. Siz Türkiyənin bu münaqişədə ölkənizə nə dərəcə təsir göstərdiyini və hərəkətlərinizi sürətləndirdiyini deyə bilərsiniz?*

-Bu, tamamilə yanlış informasiyadır. Türkiyə bizim üçün güclü müttəfiq, tərəfdaş və qardaş ölkədir. Əlbəttə ki, onların verdiyi bəyanatlar onların mövqeyini ifadə edir və biz bu dəstəyə görə Türkiyə hökumətinə, Türkiyə Prezidentinə və Türkiyə xalqına minnətdarıq. Lakin Türkiyə heç bir digər şəkildə bu münaqişəyə cəlb olunmayıb. Ermənistan mediaya belə feyk xəbərlər yaymaqla Azərbaycan Ordusunun bacarığını azaltmaq istəyir. Biz özümüz savaşırıq. Bəli, biz Türkiyədən silahlar alırıq, lakin biz təkcə onlardan almırıq. Bizim əsas silah təchizatçımız Türkiyə deyil. Yəqin bu barədə hər kəs bilir. Beləliklə, bizim müasir türk avadanlığını, o cümlədən döyüş dronlarını almağımız faktı heç kim üçün problem olmamalıdır. Çünki Ermənistan silahları pulsuz

əldə edir. Biz onlara görə pul ödəyirik, Ermənistan pulsuz alır. Türkiyə heç bir digər şəkildə münaqişəyə cəlb olunmayıb.

*-Biz burada silahlar və döyüş barədə danışmağa davam edirik. Diplomatiya Sizin üçün hələ də bir seçim yoludurmu? Bu münaqişədən fərqli çıxış yolunu tapmaq üçün Siz Ermənistanın baş naziri ilə bir araya gəlib danışıqları apararsınızmı?*

-Sizə deyə bilərəm ki, prezidentlik müddətimdə Ermənistanın iki sabiq prezidenti və indiki baş naziri ilə bəlkə də onlarca danışıq aparmışam. Əvvəlki debatlar ərzində biz danışıqlar masasında əsaslı irəliləyişə nail olmuşduq. Biz bugünkü münaqişənin həlli üçün prinsipləri işləyib hazırlamışdıq. Biz konstruktiv idik. Danışıqlar 1992-ci ildən bəri davam edirdi. Təsəvvür edirsiniz? Demək olar ki, 30 il müddətində biz ümidlərlə yaşayırdıq. Vasitəçilər bizə "bir az gözləyin, Ermənistan tərəfindən daha konstruktiv yanaşma olmalıdır" deyirdilər. Lakin iki il bundan əvvəl dövlət çevrilişi nəticəsində bu baş nazir hakimiyyətə gələndən sonra danışıqlar prosesini tamamilə məhv etdi. Mənim onunla dəfələrlə görüşlərim olmuşdur, lakin bu görüşlər tamamilə mənasız idi. O, mənə əraziləri geri qaytarmayacaqlarını dedi, onlar Dağlıq Qarabağın Ermənistana birləşməli olduğunu deyirdi. Beləliklə, bunlar mənim üçün tamamilə qəbuledilməz tələblər idi və onlar vasitəçilər üçün də qəbuledilməz idi. Ermənistan hökuməti mövqeyini dəyişməlidir, maksimalist mövqeyindən çəkinməlidir, "Qarabağ Ermənistandır" deməyi dayandırmalıdır. Çünki bu, həqiqət deyil, danışıqlar prosesini məhv edir və əlbəttə ki, biz geriləyirik. Yeri gəlmişkən, sabah bizim Xarici İşlər nazirimiz Minsk qrupunun səfirləri ilə görüşmək üçün Cenevrədə olacaq. Mən bildiyim qədər, Ermənistanın xarici işlər naziri oraya ayın əvvəlində getməli idi, lakin o, buna məhəl qoymadı. O, orada deyil. Bizim Xarici İşlər nazirimiz oradadır. Bu, kimin danışıqlar aparmaq istədiyini, kiminsə, sadəcə, Azərbaycanı günahlandırmaq istədiyini nümayiş etdirir.

*-Prezident İlham Əliyev, "Euronews"un xüsusi buraxılışında bizə qoşulduğunuz üçün Sizə təşəkkür edirəm. Bizə vaxt ayırdığınız üçün çox sağ olun.*

-Təşəkkür edirəm.

## *Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "CNN International" televiziya kanalının "Connect the World" verilişində müsahibəsi yayımlanıb*

*-Mən Ermənistan prezidenti ilə danışdım və o, mənə dedi ki, bu münaqişə əvvəlki toqquşmalardan kəskin şəkildə fərqlənir. Çünki Türkiyə Azərbaycana açıq şəkildə dəstək göstərir. Üstəlik, o, mənə dedi ki, Türkiyə öz zabitləri, generalları, muzdluları, terrorçu cihad döyüşçüləri ilə Dağlıq Qarabağda döyüşmək üçün Azərbaycana minlərlə adam gətirib. Türkiyə öz hərbi gücü ilə guya müəyyən beynəlxalq logistik strukturları qorumaq üçün orada olduğunu deyir. Azərbaycanda hazırda hər hansı bir türk qüvvələri və ya türk avadanlığı varmı?*

-Bəli, türk avadanlığı var. Türk qüvvələri yoxdur. Səmimi desəm, Ermənistan prezidentinin dünyaya mesaj ünvanlamaq üçün CNN vasitəsilə şayiə yaymaq məqsədilə bu imkandan istifadə etməsi məni təəssüfləndirir. Mən bunu başqa cür adlandıra bilmirəm, çünki sizin mənə təqdim etdiyiniz kimi, onun dedikləri, mən onun dediklərini görməmişəm, lakin mənim sizdən eşitdiklərim tamamilə yanlışdır, bu, yanlış informasiyadır. Türkiyə bizə dəstək göstərir, lakin bu, siyasi dəstəkdir, bu, diplomatik dəstəkdir. Bu dəstək olmasaydı, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın "Azərbaycan tək deyil, Türkiyə Azərbaycanın yanındadır" ifadəsi ilə bu çox açıq mövqe olmasaydı, çox güman ki, bu gün Ermənistan öz məqsədinə nail olmuş olardı. Bu da münaqişənin coğrafiyasının genişlənməsi və mümkün qədər çox ölkənin bu münaqişəyə cəlb olunmasından ibarətdir ki, bu ölkələr döyüş meydanında onlara kömək etsinlər. Mən, həmçinin Ermənistanın prezidentinə 1990-cı illərin əvvəlində Ermənistan bizim torpaqları işğal etdikdə onun arxasında kimin durduğunu xatırlatmaq istəyirəm. Bizim torpaqlarımızı işğal etmək üçün onlara kimlərin kömək göstərdiyinə dair bizdə kifayət qədər sübut var. Buna görə Ermənistan tərəfindən "Azərbaycana kimsə kömək edir" demək tamamilə səhv və yanlış informasiyadır, biz bunu rədd edirik.

*-Siz dediniz ki, Azərbaycanda türk avadanlığı var, hansı növ türk avadanlığı var cənab Prezident?*

-Silahlar, türk silahları. Təkcə türk silahları yox, rus, İsrail, Belarus, Ukrayna silahları və sair. Çünki bu gün bizdə hərbi texnikanın satınalma coğrafiyası daha da genişlənir və biz bunlara görə pul ödəyirik. Ermənistanın silahları necə və haradan əldə etməsinə nəzər salsanız görərsiniz ki, onlarda olan silahlara görə onlar ödəniş etmək imkanında deyillər. Çünki bu, milyardlarla dollardır və kasıb ölkə üçün bu, mümkünsüzdür. Onlar öz müttəfiqlərindən silahları pulsuz əldə edirlər, biz silahlara ödəniş edərək onları alırıq.

*-Yaxşı, icazənizlə Sizə bu sualı verim. Biz ən azından sizin bazalarınızın birində türk F-16 qırıcı təyyarəsinin olmasına dair peyk təsvirlərini görmüşük. Siz F-16 qırıcı təyyarələr almamısınız. Beləliklə, Azərbaycan üçün güclü dəstəyi nəzərdə tutan F-16 qırıcı təyyarələrin yerdə olması doğrudurmu?*

-Siz yerdə dedikdə mən sizinlə razıyam. F-16 qırıcı təyyarələr Azərbaycanda hərbi təlimlərdə iştirak etmək

üçün gəlmişdi. Keçən il Azərbaycan və Türkiyənin birgə 10 hərbi təlimi olmuşdur. Türkiyə bizim müttəfiq ölkədir və burada hərbi təlimlərin, o cümlədən Hərbi Hava Qüvvələrinin iştirakı ilə hərbi təlimlərin keçirilməsi adət olunan haldır. Yeri gəlmişkən, bu il pandemiya səbəbindən bizdə yalnız iki hərbi təlim keçirilmişdir. Onlardan biri Ermənistanın bizə hücum etməsindən əvvəl baş vermişdir. Beləliklə, F-16 qırıcı təyyarələr yerdədir, onlar uçuş etmirlər, onlar heç bir şəkildə hər hansı bir döyüşdə iştirak etmirlər. Yeri gəlmişkən...

*-Siz F-16 qırıcı təyyarələrin istifadə olunmamasını birmənalı şəkildə deyirsiniz?*

-Mən bunu birmənalı şəkildə deyirəm və hətta sizə bir erməni feyk xəbəri haqqında da söyləmək istəyirəm. Toqquşmaların ilk günlərində onlar türk F-16 qırıcı təyyarəsinin erməni Su-25 təyyarəsini vurduğunu demişdilər. Bu, feyk xəbərdir və bizi bunda günahlandıranlar indi bizdən üzr istəməlidirlər, çünki hər kəs bunun feyk xəbər olduğunu bilir. F-16 qırıcı təyyarələr buradadır, lakin onlar sizin də düzgün qeyd etdiyiniz kimi, yerdədir.

*-Bu uzunmüddətli münaqişənin 1990-cı illərdən bəri həll yolunu axtaran ATƏT-in Minsk qrupuna Fransa, Amerika Birləşmiş Ştatları və Rusiya həmsədrlik edirlər. Fransanın xarici işlər naziri xüsusi olaraq xəbərdarlıq etmişdir ki, Türkiyənin Azərbaycanın arxasında durması bu münaqişənin beynəlxalq münaqişəyə çevrilməsini risk altına atır. Siz deyirsiniz ki, Türkiyə sizə dəstək göstərir, lakin bu dəstəyin münaqişənin daha da pisləşməsinə gətirib çıxaracağını deyən fransızlara sözünüz nədir?*

-Mən bununla razı deyiləm. Dediyim kimi, Türkiyə regionda və xüsusilə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı vəziyyətdə sabitləşdirici rol oynayır. Hər bir ölkənin tərəfdaşı və ya müttəfiqi ola bilər. Azərbaycan və Azərbaycan xalqı Türkiyə kimi tərəfdaşa, müttəfiqə və qardaş ölkəyə malik olmaqdan çox xoşbəxtdir. Biz Ermənistanın Fransanı özünə müttəfiq hesab etməsinə etiraz bildirmirik və Fransa hazırda Ermənistana ən çox dəstək göstərən ölkədir. Eyni zamanda, biz görürük ki, müttəfiqlərin seçilməsi ölkələrin özündən asılıdır. Məsələn, Fransanın xarici işləri naziri Rusiyanın Ermənistana pulsuz silah verərək onu dəstəkləməsindən narahat deyil və o, bunun münaqişəni beynəlxalq bir münaqişəyə çevirəcəyini düşünmür. Lakin Türkiyə legitim, siyasi dəstəyini ifadə etdikdə bu, narahatçılıq yaradır. Səmimi desəm, bir NATO ölkəsinin digər NATO ölkəsinə qarşı belə hərəkət etməsini başa düşə bilmirəm. NATO-ya üzv ölkələr müttəfiq olmalıdırlar, lakin biz bunu görmürük.

*-Hazırda sizin yürütdüyünüz kampaniyanın məqsədlərini açıq şəkildə bəyan edə bilərsinizmi?*

-Bizim məqsədimiz xalqımızı, ölkəmizi və öz torpağımızda yaşamaq hüququmuzu müdafiə etməkdən ibarətdir. Sentyabrın 27-də Azərbaycanın hərbi mövqelərinə, şəhər və kəndlərimizə artilleriya atəşi açan Ermənistan olmuşdur. Toqquşmalar gedən günlərdə Ermənistan ordusu tərəfindən 31 nəfər mülki şəxs qətlə yetirilmişdir, demək olar ki, 200 nəfər yaralanmışdır, mindən çox ev dağıdılmış və ya onlara ciddi ziyan dəymişdir. Biz cavab verməli idik, özümüzü müdafiə etməli idik. Bizim cavabımız Ermənistan üçün çox həssas və ağrılı oldu. Onlar çox ciddi məğlubiyyət acısını yaşadılar, onlar bizdən qaçdılar, biz ərazimizin bir hissəsini azad etdik, biz işğaldan azad olunmuş ərazilərə milli bayrağımızı sancdıq. Biz ərazi bütövlüyümüzü bərpa edirik və biz haqlıyıq. Biz öz torpağımızda savaşırıq, Ermənistan digər ölkənin torpağında vuruşur.

*-Hərbçilər arasında nə qədər itkiniz var?*

-Hərbçilər arasında itkilərə gəldikdə, mən artıq bu barədə demişəm. Biz toqquşmaların aktiv fazası bitəndən sonra bu məlumatı açıqlayacağıq.

*-Siz bütün Dağlıq Qarabağı, mübahisə predmeti olan bütün torpaqları geri götürmək niyyətindəsiniz?*

-Biz Dağlıq Qarabağdan və sabiq Dağlıq Qarabağ muxtar vilayətini əhatə edən yeddi rayondan danışırıq. Çünki Ermənistan nəinki təkcə Dağlıq Qarabağı işğal edib və muxtar vilayətin əhalisinin 25 faizini təşkil edən bütün azərbaycanlıları oradan qovub, eyni zamanda, əhalisinin sayı 700 min olan Azərbaycanın yeddi rayonunu işğal edib. Beləliklə, bizim əsas məqsədimiz bu əraziləri azad etmək və azərbaycanlı məcburi köçkünlərin geri qayıtmasına imkan yaratmaqdır. Dağlıq Qarabağa gəldikdə, biz hesab edirik ki, - bu, dəfələrlə rəsmi şəkildə bəyan olunmuşdur, - müharibə bitəndən, işğalçı qüvvələr çıxarıldıqdan sonra multietnik əhalisi olan istənilən digər ölkədə olduğu kimi, Dağlıq Qarabağdakı ermənilər və azərbaycanlılar yan-yana yaşayacaq və əminəm ki, bir gün onlar bir-birinə yaxşı qonşu olacaqlar.

*-Ermənistan prezidenti sizin qoşunların Dağlıq Qarabağdan çıxarılması ilə bağlı vaxt cədvəlinin müəyyən olunmasına dair tələbinizin münaqişənizin "Dağlıq Qarabağ respublikası" ilə olduğu üçün onlara təqdim edilməli olduğunu mənə deyib. O təkid edir ki, Dağlıq Qarabağda ermənilərin min illər boyu yaşadığına görə əhalinin 95 faizi ermənilər olub. Siz deyirsiniz ki, Qarabağ Azərbaycandır, lakin etnik ermənilərin qorxularına dair nə deyə bilərsiniz?*

-Əvvəla...

*-Bir dəqiqə cənab, Azərbaycan hökuməti torpaqları geri götürsə, onlar etnik təmizləməyə məruz qala bilərlər.*

-Mən başa düşürəm. Bu gün Azərbaycanda minlərlə erməni ölkəmizin müxtəlif şəhərlərində, əsasən paytaxt Bakıda yaşayır. Bizim ikinci ən böyük şəhərimiz olan Gəncəyə hücum üçün ermənilərin istifadə etdiyi uzunməsafəli dağıdıcı mərmilərdən biri olan "Smerç" erməni

qadının evinə düşüb. Beləliklə, bu gün Azərbaycanda sülh və ləyaqət içində yaşayan minlərlə erməni var. Lakin bütün azərbaycanlılar Ermənistandan qovulmuşdur. Ermənistan əhalisi 99 faiz ermənilərdən ibarətdir. Onlar bizə qarşı etnik təmizləmə törədiblər. Erməni prezidenti yenə də yalan deyir. Bu gün Dağlıq Qarabağda əhalinin 95 faizi ermənilər deyil, əhalinin 100 faizi ermənilərdir. Çünki orada yaşayan 25 faiz azərbaycanlı əhali Ermənistan rejimi tərəfindən etnik təmizlənməyə məruz qalmışdır.

Mən təəssüf edirəm ki, belə mühüm vəzifə tutan şəxs yalanlar yayır. İnternetə baxın. XIX əsrin əvvəlində Azərbaycanın Qarabağ xanı ilə rus generalı arasında imzalanmış Kürəkçay sülh müqaviləsinə baxın. Erməni əhalisi haqqında heç bir şey deyilmir. Erməni əhali bizim torpağımıza Rus-İran müharibələrindən sonra Rusiya imperiyası tərəfindən regionun dini tərkibini dəyişdirmək məqsədilə köçürülüb. Bu, tarixi faktdır. Ermənistan prezidentinin dedikləri isə feykdir, tamamilə feykdir.

*-Mən qeyd etməliyəm, Sizin dediyinizə görə, Ermənistan prezidenti yalan və feyk məlumatlar yayır, o, Azərbaycanın və Sizin haqqınızda eyni şeyləri deyib.*

-İnternetə baxın, sənədlərə baxın. Siz kimin doğru danışdığını və kimin yalan danışdığını görəcəksiniz.

*-Mən deməliyəm, hazırda hər bir tərəf bir-birini təhqir edir. Azərbaycan beynəlxalq vasitəçiliyi necə qəbul edərdi və hərbi əməliyyatı dayandırardı? Sizin bu barədə son sözünüz nədir?*

-Bizdə 28 ildir ki, beynəlxalq vasitəçilik var. ATƏT-in Minsk qrupu 1992-ci ildən bu yana 28 ildir ki, faktiki olaraq passiv formada “fəaliyyət” göstərir. Bu vasitəçilik heç nəyə gətirib çıxarmadı. Bu vasitəçilik bu gün baş verənlərə gətirib çıxardı. Bu vasitəçilik Ermənistanı onlara məxsus olmayan əraziləri tərk etməyə məcbur etmək üçün yetərli olmadı.

*-Siz bununla bağlı Vaşinqtonla təmasda olmusunuzmu? Tramp administrasiyası Sizə nə deyir? Əlbəttə ki, ABŞ Minsk qrupunun həmsədrlərindən biridir.*

-Bizim ABŞ-la çoxşaxəli münasibətlərimiz var. Münasibətlərimiz bir çox sahələrdə çox uğurla inkişaf edir. Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə gəlincə, Minsk qrupunun həmsədri olan 3 ölkənin vasitəçilik etmək üçün eyni hüququ və eyni məsuliyyəti var. Bu ölkələrdən nümayəndələr gələndə, onlar hamısı birlikdə gəlir, 3 ölkənin nümayəndələri. Ona görə də onların fəaliyyətində heç bir fərq yoxdur. Lakin sözsüz ki, biz başa düşürük, bəzi ölkələr daha çox ermənipərəstdir, bəzi ölkələr hətta həddindən çox ermənipərəstdir.

*-Sizdən soruşa bilərəm siz Vaşinqtonda kiminlə danışırsınız? Dövlət Departamenti, yoxsa Tramp administrasiyası ilə? Məsələn, Ermənistan prezidenti bizə Robert Obraynla danışdıqlarını söylədi.*

-Düşünürəm ki, bu günlər ərzində Ermənistanın baş nazirinin danışmadığı yeganə insan hansısa uzaq adada qəbilə başçısıdır. O, hər kəsə zəng edib. O, Prezident Putinə 5 dəfə zəng edib. O, Prezident Makrona, bilmirəm, deyəsən 4 dəfə zəng edib. Kansler Merkelə zəng edib. Yalnız qəbilə başçısı qalıb. Mən ona məsləhət görürəm ona zəng edib Azərbaycandan şikayət etsin ki, o, Azərbaycanın dağıtdığı yazıq, zavallı Ermənistana kömək etmək üçün öz qəbiləsindən bəzi adamları göndərsin.

*-Sual bu deyildi, cənab. Sual belə idi ki, Siz Vaşinqtonda kiminlə danışırsınız? Dövlət Departamenti, yaxud Tramp administrasiyası ilə?*

-Biz administrasiya ilə danışırıq. Biz Dövlət Departamenti ilə danışırıq. Əslində, onlar bizimlə əlaqə saxladılar. Mən Xarici İşlər Nazirliyimizə, Administrasiyama bizə zəng edən, mövqeyini ifadə etmək istəyən və necə irəliləməklə bağlı fikirlərini ifadə edən hər kəslə təmasda olmaları üçün göstərişlər vermişəm. Lakin faktiki olaraq, bunun Dövlət Departamenti və ya Ağ Ev olmasının heç fərqi yoxdur. Çünki bizim üçün bu, istənilən halda ABŞ administrasiyasıdır.

*-Sizin fikrinizcə, Vaşinqtonun mövqeyi necədir?*

-Vaşinqtonun mövqeyi digər həmsədrlərin mövqeyindən fərqlənmir. Onlar həllin əsaslanmalı olduğu prinsipləri dəstəkləyirlər. Bu prinsiplərin əleyhinə olan Ermənistandır. Həmin prinsiplərdə deyilir ki, Dağlıq Qarabağ ətrafındakı ərazilər vaxtında Azərbaycana qaytarılmalıdır. Siz mənim qrafiklə bağlı bəyanatıma istinad edəndə, sənədlərdə olan məhz budur. Bunu mən icad etməmişəm. Qarşı çıxan Ermənistandır.

*-Gəlin, onda Rusiyanın mövqeyinə nəzər salaq. Çünki indi müzakirə etdiklərimizdən Vaşinqtonun mövqeyinin necə olması mənim üçün aydın olmadı. Gəlin, Rusiyanın mövqeyinə nəzər salaq. Kremlin sözçüsü Dmitri Peskov dedi ki, “Biz regiondakı vəziyyətdən çox narahatıq. Hesab edirik ki, tərəflər atəşi dayandırmalı və danışıqlar masasına gəlməlidirlər”. Onlar sizin danışıqlar masasına oturmağınızı xahiş edirlər. Rusiya Prezidenti döyüşü faciə adlandırdı. Bildiyimə görə, çərşənbə günü Siz Vladimir Putinlə şəxsən danışdınız. O, Sizə nə dedi? Rusiya üçün burada qırmızı xətt haradadır?*

-Mən Prezident Putinə oktyabrın 7-də onu ad günü münasibətilə təbrik etmək üçün zəng etdim. Mən bunu hər il edirəm. Eləcə də o. Hər il biz bir-birimizi ad günü münasibətilə təbrik edirik. Onun ad gününün bu hadisələrlə üst-üstə düşməyi bir təsadüf idi. Ona görə də əlbəttə ki, biz bu məsələni müzakirə etdik və bizim mətbuat xidmətimiz bununla bağlı press-reliz yayıb. Düşünürəm ki, mənim mətbuatda açıqlanandan daha çox nə isə deməyim doğru olmaz.

*-Kaş ki, deyərdiniz. Siz Moskvanın sülh danışıqları üçün müraciətini səciyyələndirməyə hazırsınızmı?*

-Biz sülh danışıqlarının tərəfdarıyıq. İcazə versəniz, sizə cəmi iki misal gətirərdim. Azərbaycan danışıqlar masasında konstruktiv tərəfdaşdır. Biz düşünürük ki, ABŞ, Rusiya və Fransa tərəfindən işlənib hazırlanmış

prinsiplər həll üçün əsas olmalıdır. Ermənistan prezidenti bunları rədd edir. Üzr istəyirəm, Ermənistanın baş naziri bunları rədd edir. Çünki Ermənistanda hakimiyyətdə olan və mənim danışıqlar apardığım şəxs prezident deyil, baş nazirdir. Beləliklə, o dedi ki, "Qarabağ Ermənistandır". Bu, danışıqları mənasız edir. Siz necə "Qarabağ Ermənistandır" deyə və əraziləri geri qaytarmaqla bağlı danışıqlar apara bilərsiniz? O dedi ki, Azərbaycan Ermənistanla deyil, Dağlıq Qarabağla danışıqlar aparmalıdır. Bu, formatın dəyişməsidir. Əgər Ermənistanın baş naziri uçduğu göylərdən yerə qayıtsa, biz danışıqlara hazırıq.

*-Başa düşdüyüm qədərilə, Rusiyanın mövqeyi belə deyil. Onlar deyir hər iki tərəf atəşi dayandırmalı və danışıqlar masasına gəlməlidir.*

-Atəşi başlayan ilk olaraq dayanmalıdır və biz də danışıqlar masasına qayıtmaq üçün eynisini edərik. Paşinyan rejimi danışıqları pozmaq üçün əlindən gələni etdi. Onlar bu bəyanatı verdilər, onlar iyulda bizə hücum etdilər, avqustda bizə hücum etdilər, sentyabrda bizə hücum etdilər. Onlar danışıqları pozmaq üçün hər şeyi edir. Biz hazırıq, onlar isə yox.

*-Əgər Siz dayanmasanız və onlar dayanmasa, sonra nə olacaq? Bu, bir çoxlarının daha genişmiqyaslı regional müharibəyə çevriləcəyi ilə bağlı narahat olduğu münaqişəni haraya aparacaq?*

-O, daha da gərginləşməməlidir. Mən bütün ölkələri bu vəziyyətdən kənar qalmağa çağırmışam. Bu, bizim Ermənistanla ikitərəfli məsələmizdir. Vasitəçilər var, onların mandatı var. Onların mandatı yerdə müdaxilə etmək deyil. Onların mandatı həll yolunu tapmaq üçün şərait yaratmaqdır. Əminəm ki, onlar mandatları çərçivəsində davam edəcəklər. Ermənistanın bu münaqişəni beynəlmiləlləşdirmək cəhdi çox səmərəsiz, destruktiv və bir çox ölkələr üçün təhlükəlidir. Ermənistan başa düşməlidir ki, işğal əbədi olaraq davam edə bilməz. Status-kvo dəyişdirilməlidir. Yeri gəlmişkən, prezidentlər, Fransanın sabiq prezidentləri, ABŞ-ın sabiq prezidentləri və Rusiya Prezidenti hamısı vəzifədə olarkən bəyanat vermişdilər ki, status-kvo qəbuledilməzdir və dəyişdirilməlidir. Mən bunu dəstəkləyirəm, Ermənistan isə buna qarşı çıxır.

*-Mən "Amnesty International"ın yeni hesabatı ilə bağlı münasibətinizi öyrənmək istəyirəm. Hesabatda iddia edilir ki, onlar Azərbaycan qüvvələrinin İsrail istehsalı olan M095 DPICM kasetli mərmiləri atdığını müəyyən ediblər. CNN nə bu iddiaları, nə də partlayışların videosunu müstəqil olaraq yoxlaya bilməz. "Amnesty"nin iddialarına necə cavab verərdiniz?*

-Mən deyərdim ki, ermənipərəst və anti-Azərbaycan mövqeyinə görə sizin adını çəkdiyiniz təşkilatla bizim heç bir təmasımız yoxdur. Birincisi, bu, səhvdir, yanlışdır. İkincisi, mən onlara tövsiyə edərdim ki, kasetli bombaların bizim mülki şəxslərimizə qarşı necə istifadə olunduğuna baxsınlar. Onların "Smerç"dən, "Elbrus"-dan, "Toçka U"dan, ballistik raketlərdən bizim şəhərlərimizə qarşı necə istifadə etdiyinə baxsınlar - Gəncə, Goranboy, Naftalan, Yevlax və digər şəhərlər Ermənistanın bombardmanı altındadır. Niyə "Amnesty International" yalnız bir tərəfi görür və ya görmək istəyir? Niyə onlar digər tərəfi görmürlər? Sual budur.

*-İcazə verin, bununla bağlı deyim. Siz qəti şəkildə deyirsiniz ki, kasetli silahlar Azərbaycan qüvvələri tərəfindən istifadə olunmayıb? Əgər belədirsə, müstəqil müşahidəçilərin bunu yoxlamasına icazə verməyə hazırsınızmı?*

-Bəli, biz bunu etməyə hazırıq. Biz, həmçinin Ermənistanın nə etdiklərini görmək üçün Ermənistanın müstəqil müşahidəçilərə necə icazə verəcəyinə də baxmağa hazırıq. Bu, birtərəfli deyil, ikitərəfli qaydada olmalıdır. Biz özümüzü müdafiə edirik. Biz bunu etməliyik. Lakin bizim hədəflərimiz yalnız hərbi obyektlərdir. Biz məhv etdiklərimizin demək olar ki, hamısını çox müasir avadanlıqlardan istifadə etməklə məhv edirik. Siz bunu internetdə tapa bilərsiniz. Bu, Türkiyənin tamamilə yeni, mükəmməl, heyrətamiz qırıcı dronlarıdır, tankları, topları, hərbi mövqeləri məhv edən digər avadanlıqlarıdır. Məqsədimizə çatmaq üçün bizim dediyiniz silahlardan istifadə etməyə ehtiyacımız yoxdur. Bizim hədəfimiz mülki şəxslər deyil. Bizim hədəfimiz işğalçılardır. Biz torpağımızı kimə məxsusdursa onlara qaytarmalıyıq.

*-Beləliklə, sözlərə əlavə ediləsi bir şey yoxdur. Mən Sizdən konkret olaraq soruşuram. Siz kasetli silahların Azərbaycan qüvvələri tərəfindən istifadə olunduğunu qəti şəkildə inkar edirsiniz, elədirmi?*

-Bəli, mən bunu inkar edirəm. Mən sizdən soruşmaq istəyirəm. Siz bu sualı Ermənistan prezidentinə vermisinizmi?

*-Həmin vaxt bizdə belə məlumat yox idi.*

-Məsələ də elə bundadır. Məsələ də elə bundadır ki, siz məndən soruşursunuz. Ondan soruşun. Soruşun ondan. Qoy "Amnesty International" ondan nə etdiklərini soruşsun.

*-Biz mütləq ondan bəyanat verməsini xahiş* edəcəyik. Mən Sizdən soruşuram.

-Ondan soruşun, mən artıq cavab verdim. Artıq cavab verdim. Xeyr! Ondan soruşun.

*-Soruşaram. Təşəkkür edirəm, cənab.*

## *Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Sky News" televiziya kanalında müsahibəsi yayımlanıb*

*-Skynews-a müsahibə verməyə razılaşdığınız üçün çox sağ olun Prezident Əliyev. Fransa prezidenti bu günlərdə atəşkəsin razılaşdırılacağına və Sizin danışıqları bərpa edəcəyinizə əmin kimi görünür. Bunun baş-vermə ehtimalı varmı və hansı şərtlər əsasında?*

-Bu, Ermənistanın mövqeyindən asılıdır. Azərbaycan həmişə danışıqlar prosesini dəstəkləmişdir. Səmimi söyləsəm, ATƏT-in Minsk qrupunun yaradılmasından bəri 28 il müddətində biz danışıqlarda iştirak edirik. Bizim ümidlərimiz var idi və indi də ümidlərimiz var ki, danışıqlar irəliləyişə və münaqişənin siyasi həllinə gətirib çıxaracaqdır. Lakin əfsuslar olsun ki, Ermənistanın mövqeyi əksinə idi. Onlar danışıqlardan bu prosesi sonsuz etmək üçün yalnız bir bəhanə kimi istifadə edirdilər. Başqa sözlə, onlar həmişə status-kvonu möhkəmləndirmək, status-kvonu dəyişməz olaraq saxlamaq və BMT Təhlükəsizlik Şurasının qətnamələrinə və danışıqlar masasında olan və ATƏT-in Minsk qrupu tərəfindən işlənib hazırlanmış prinsiplərə əsasən qaytarmalı olduqları torpaqları qaytarmamağı istəyirdilər. Buna görə ümid edirəm ki, Ermənistan döyüş meydanında bu acı məğlubiyyətlə üzləşəndən sonra onlar daha məntiqli olacaq və vasitəçilərin məsləhətlərinə qulaq asacaqlar, danışıqlar masasında səmimi olacaqlar. Danışıqlar münaqişənin siyasi həllinə və işğal olunmuş ərazilərin boşaldılmasına gətirib çıxarmalıdır.

*-Biz hansı ərazilərdən danışırıq? Biz, sadəcə, Dağlıq Qarabağdan danışırıq, yoxsa onların təhlükəsizlik zonası adlandırdıqları işğal olunmuş yeddi Azərbaycan rayonundan danışırıq? Çünki aydındır ki, Siz bu torpaqların hamısını geri ala bilməyəcəksiniz.*

-Bizim ərazi bütövlüyümüz bütün dünya tərəfindən tanınır. Bütün ölkələr Dağlıq Qarabağın da daxil olduğu Azərbaycanın ərazi bütövlüyünü tanıyır. Ermənistanın mövqeyi, əslində, yenə də bir bəhanə idi ki, onlar Dağlıq Qarabağın ətrafında olan bu yeddi rayonu özlərinin təhlükəsizlik zonası adlandıraraq onları işğal altında saxlamaq üçün bir bəhanə kimi istifadə edirdilər. Lakin bu günün toqquşmaları göstərir ki, müasir dünyada təhlükəsizlik zonası yoxdur. Müasir hərbi avadanlıq hətta uzun məsafələrə belə təhlükəsizliyi təmin etmir. Təhlükəsizlik siyasi yollarla təmin olunmalıdır. Buna görə biz həmişə deyirdik ki, siyasi həll bütün tərəflər üçün - azərbaycanlılar, ermənilər, ərazidə yaşayan digər millətlər üçün təhlükəsizlik qarantiyalarını təmin edəcək. Ermənistanın dəstəkləməkdən imtina etdiyi əsas prinsiplərdə torpaqların açıq-aydın necə geri qaytarılacağı göstərilir. Birinci mərhələdə Dağlıq Qarabağın cənub-şərq tərəfində yerləşən beş Azərbaycan rayonu, sonra Dağlıq Qarabağ və Ermənistan arasında yerləşən iki Azərbaycan rayonu qaytarılmalıdır. Sonra azərbaycanlılar Dağlıq Qarabağa qayıdırlar. Dağlıq Qarabağda 25 faiz azərbaycanlı əhali olub, onların da hüquqları təmin edilməlidir. Onlar yaşadıqları yerə - qədim Şuşa şəhərinə və digər yerlərə qayıdırlar və biz normal kommunikasiyaları bərpa edirik. Biz xalqlar arasında təmasları bərpa edirik. Mən əminəm ki, insanlar yavaş-yavaş barışacaqlar. Bu, vasitəçilərin planıdır və biz bunu dəstəkləyirik.

*-25 faiz azərbaycanlı əhalinin Dağlıq Qarabağa qayıtmasına icazə verilsə, siz Dağlıq Qarabağın müstəqilliyini tanıyarsınız?*

-Xeyr. Heç vaxt. Bu məsələ heç vaxt danışıqlar masasında olmamışdır. Bizim mövqeyimiz çox aydın idi ki, Azərbaycan heç vaxt Dağlıq Qarabağın müstəqilliyini tanımayacaq. Çünki bu, bizim qədim torpağımızdır. Dağlıq Qarabağın tarixi indi yaxşı məlumdur. İkincisi, bu, Azərbaycanın tərkib hissəsidir və biz kiçik sayda olan insanlara nəyə görə müstəqillik verməliyik? Azərbaycan dünyadakı bütün ölkələr kimi multietnik ölkədir. Milli azlıqlar Azərbaycanda və dünyanın bir çox ölkələrində sülh və ləyaqət içində yaşayırlar. Milli azlıq olmaq o demək deyil ki, sizin ayrılmağa, separatizmə hüququnuz var. Separatizm beynəlxalq ictimaiyyət üçün böyük təhlükədir və dünyanın bütün ölkələri separatizmi qınayır. Bizə qarşı edilənlər Dağlıq Qarabağdakı ermənilərin separatizmi və Azərbaycana qarşı Ermənistan dövlətinin hərbi təcavüzü idi. Bu da bizim indi üzləşdiyimiz vəziyyətə gətirib çıxarıb. İşğal, bir milyon azərbaycanlı köçkün, azərbaycanlılara qarşı etnik təmizləmə, dağıdılmış şəhər və kəndlər. İndi biz ərazilərimizi azad etdikdə orada baş verənlərə dair videolar mövcuddur. Hər şey məhv edilib, sanki Stalinqraddır, İkinci Dünya müharibəsindən sonra Stalinqradın vəziyyətindən daha da pisdir.

*-Lakin Siz regionun paytaxtı olan Stepanakertə qarşı elə bunu edirsiniz. Siz bunu Şuşaya qarşı edirsiniz, hansı ki, dünən bir yox, iki dəfə atəşə tutulmuşdur. Oradakı kilsəyə iki dəfə zərbə vurulmuşdur və açıq-aydın idi ki, orada mülki şəxslər və jurnalistlər özlərinə sığınacaq tapmışdılar.*

-Birincisi, bu Ermənistan tərəfindən təxribat idi. Biz heç vaxt keçmişdə belə şeylər etməmişik. Bizdə Bakının mərkəzində erməni kilsəsi var. Siz buraya gələ və ya kimisə göndərə bilərsiniz....

*-Xeyr, xeyr. Ermənilər öz kilsələrini atəşə tutmazlar ki? Bu, necə ola bilər?*

-Bu, bizi belə tərzdə təqdim etmək üçün çox güman ki, onların təxribatıdır. Lakin mən sizə deyə bilərəm ki, onlar bizim şəhərləri atəşə tuturlar. Ermənistanın bombardmanı nəticəsində 31 nəfər mülki şəxsimizin öldüyünü bilirsinizmi? 170 yaralı var və mindən çox ev tamamilə dağıdılıb və ya onlara ziyan dəyib və bu da Ermənistanın bizim mülki şəxslərimizə qarşı hücumu nəticəsində olub. Onlar ballistik mərmilərdən istifadə edirlər. Ballistik mərmilərdən.

*-Lakin Siz bunu Dağlıq Qarabağda öz mərmilərinizlə edirsiniz. Sizin çox müasir dron texnologiyanız var ki, o, Sizə hədəf aldıqlarınızı dəqiqliklə görməyə imkan verir. Beləliklə, niyə görə mülki obyektlərə zərbə vurulur?*

-Xeyr, xeyr. Biz heç vaxt mülki şəxslərə hücum etmirik. Bizim Dağlıq Qarabağ ərazisində etdiklərimiz ondan ibarətdir ki, biz onların tanklarını, silahlarını, artilleriya sistemlərini hədəfə almışıq və həmçinin biz onların hərbi infrastrukturunu hədəf almışıq. Bu hərbi infrastrukturun bəzən şəhər mərkəzində yerləşməsi bizim günahımız deyil. Lakin biz heç vaxt qəsdən mülki şəxsləri hədəf almamışıq. Bəli, bizim müasir silahlarımız var, lakin onların heç də hamısı müasir deyil. Bəzi səhvlər ola bilər. Ona görə bizim tərəfdən mülki şəxslərin qəsdən hədəf alınması heç vaxt baş verməmişdir. Əksinə, təmas xəttinə çox yaxın yerləşən Tərtər şəhəri bombardmana məruz qalır. Gündə şəhərə 2000 mərmi düşür. Demək olar ki, məhv edilib. Heç kim bunun haqqında danışmır. Ona görə xahiş edirəm ki, gəlin, bu məsələdə ədalətli olaq. Biz bunu başlamamışıq və bizim mülki şəxsləri hədəfə almağa ehtiyacımız yoxdur. Bizə ərazilərimiz lazımdır. Müharibə bitdikdən sonra yanbayan yaşayacağımız mülki şəxsləri niyə görə hədəfə alaq ki? Dağlıq Qarabağdakı erməni əsilli insanlar oradakı kriminal rejiminin girovlarıdır. Əminəm ki, müharibə bitdikdən sonra onlar bizimlə sülh və ləyaqət içində yanbayan yaşayacaqlar.

*-Siz qeyd etmisiniz ki, Ermənistanın öz qoşunlarını çıxarmasını görmək istəyirsiniz. Lakin Siz, eyni zamanda, onu da söyləmisiniz ki, orada sülhməramlıları qəbul etməyə hazır deyilsiniz. Onda Siz erməni həmkarlarınızı necə əmin edə bilərsiniz ki, bütün torpaqları geri götürməyəcəksiniz?*

-Siz mənə sülhməramlıları görmək istəmədiyimi nə vaxt söylədiyimi desəniz sizin sualınıza cavab verərəm. Amma mən bunu heç vaxt deməmişəm. Bu, yanlış informasiyadır, üzr istəyirəm. Mən heç vaxt deməmişəm...

*-Lakin Siz bu ərazidə sülhməramlıları qəbul etməyə hazırsınızmı?*

-Sülhməramlılar ATƏT-in Minsk qrupu tərəfindən münaqişənin həlli üçün işlənib hazırlanmış əsas prinsiplərdə təmin edilən ünsürlərdən biridir və sülhməramlılarla bağlı bənd var. Lakin biz bu bəndə çatmamışıq ki, onu lazımi şəkildə müzakirə edək, çünki tezdir. Çünki biz ilk olaraq əsas məsələni - işğalı, ərazilərin boşaldılmasını həll etməliyik və azərbaycanlılar oraya qayıdandan sonra əlbəttə ki, sülhməramlılar gəlməlidirlər. Bu, razılaşma çərçivəsindədir. Əgər bu, hər iki tərəfdən imzalansa, onda hər iki tərəf bu sülhməramlıların kim olacağını seçəcək. Beləliklə, biz buna qarşı deyilik. Lakin biz faktiki olaraq bu bəndlə bağlı danışıqların aktiv fazasında deyilik.

*-Sizin danışıqlarla bağlı şərtləriniz sonuncu genişmiqyaslı hərbi əməliyyatlar başlamamışdan əvvəl dəyişməz olaraq qaldığı kimi görünür. Mənə maraqlıdır, əgər danışıqlar əvvəllər heç vaxt uğurlu olmayıbsa nəyə görə silahlar indi işə düşüb?*

-Bilirsiniz, danışıqlar 1992-ci ildən aparılır. Həmin vaxtdan bəri sıfır irəliləyiş olub. Ermənistan həmişə danışıqları pozmaq üçün bəzi manipulyasiya alətlərindən istifadə edirdi. Bu il iyuldan başlayaraq onlar bizə qarşı 3 dəfə hərbi hücuma keçdilər. İyulda onlar Ermənistanla Azərbaycan arasındakı sərhəddə, Qarabağ regionundan uzaqda bizim mülki şəxslərimizə və hərbi mövqelərimizə hücum etdilər. Bu, 4 gün davam etdi, biz onları geri oturtduq. Onlar ərazi işğal edə bilmədilər və biz dayandıq, çünki bizim Ermənistan tərəfdə heç bir hərbi məqsədimiz yoxdur. Avqustun 23-də onlar terror aktı törətmək üçün diversiya qrupu göndərdilər, qrupun rəhbəri saxlanıldı və o, ifadə verir. Sentyabrın sonunda onlar bizim şəhərlərimizi artilleriya bombardmanına tutdular və günahsız insanları öldürdülər. Biz cavab verməli olduq. Biz onları geri oturtmalı idik və bunu da etdik. Ona görə də biz danışıqların tərəfdarıyıq. Mən sizə iki misal çəkə bilərəm. Ötən il Ermənistanın baş naziri elan etdi ki, “Qarabağ Ermənistandır”. Bu, nə deməkdir? Bu, son deməkdir.

*– Mən ondan bunun nə demək olduğunu soruşdum.*

– Nəyi nəzərdə tuturdu?

*- O dedi ki, bu, o deməkdir ki, IV əsrdən bu yana orada erməni kilsələri, erməni əhalisi olub. Sovet İttifaqı qurulandan Dağlıq Qarabağda etnik erməni əhali azərbaycanlılardan daha çox olub.*

– Bilirsiniz, o, yumşaq desək, həqiqəti söyləmir. O ərazidə ermənilərin məskunlaşması XVIII əsrin sonunda, XIX əsrin əvvəlində azərbaycanlı İbrahim xanla rus generalı tərəfindən imzalanmış Kürəkçay müqaviləsindən sonra başlayıb. Həmin müqavilə nəticəsində Qarabağ xanlığı Rusiyanın bir hissəsi oldu və Rusiya başladı...

*- Üzr istəyirəm.*

– Bu, məhz belə olub. Ermənilər Dağlıq Qarabağa belə gəliblər. Bu, cəmi iki əsrdən azdır. O, IV əsrdən danışır.

*– Siz bu əsrin əvvəlindən hakimiyyətdəsiniz və bu məsələ ilə bağlı heç bir irəliləyiş yoxdur. Erməniləri günahlandırmaq asandır, lakin Siz siyasi cəhətdən bunu həll edə bilmədiyiniz üçün əsgərlərinizin indi cəbhə xəttində öldüyünə görə şəxsən öz üzərinizə məsuliyyəti götürürsünüzmü?*

– Bizim əsgərlərimiz öz torpağımız uğrunda həlak olurlar. Bizim əsgərlərimiz tarixi və beynəlxalq səviyyədə tanınmış Azərbaycan torpağında həlak olurlar. Erməni əsgərlər hansı torpaqda ölürlər? Onlar Füzulidə ölürlər, Cəbrayılda ölürlər, onlar digər Azərbaycan ərazilərində ölürlər. Onların orada nə işləri var? Siz Paşinyandan soruşmalısınız onun əsgəri orada nə edir? Qondarma “Dağlıq Qarabağ ordusu”nun 90 faizi Ermənistan vətəndaşlarından ibarətdir. Onlar bizim torpağımızdadırlar. Xəritəyə baxmaq kifayətdir. Bizim üçün bu, Vətən Müharibəsidir. Biz özümüzü müdafiə edirik. Biz öz ərazi bütövlüyümüzü bərpa etmək istəyirik ki, bir milyon köçkünün geri qayıtmasına imkan yaradaq. Bizim etdiyimiz budur. Biz 28 il idi səbirlə inanırdıq ki, danışıqlar irəliləyişə gətirib çıxaracaq. Nəticədə hazırkı vəziyyət yarandı. Biz təcavüzkarı geri oturdub cəzalandıranda, bilirsiniz ki, siyasi cəhətdən hücuma məruz qaldıq. Mən əsas prinsipləri qəbul etdim, Paşinyan isə rədd etdi. Mən Ermənistanla Azərbaycan arasında olan danışıqların formatını qəbul edirəm. Paşinyan isə deyir ki, yox, Azərbaycan Dağlıq Qarabağla danışıqlar aparmalıdır. Bu, təkcə mənim tərəfimdən deyil, Minsk qrupu tərəfindən də qəbuledil-

məzdir. Beləliklə, hazırda baş verənlərə görə onu günahlandırmaq lazımdır.

*– Fransızlar və ruslar deyirlər onlarda kəşfiyyat məlumatı var ki, Sizin cəbhə xəttində suriyalı muzdlulardan istifadə olunur. Siz bunu qəti şəkildə inkar edirsiniz?*

– Tamamilə qəti şəkildə. İndiyə kimi mənə bu kəşfiyyat məlumatını təsdiqləyən bir sənəd belə təqdim olunmayıb. Qoy onlar bu kəşfiyyat materialını mənə göstərsinlər. Bu ittihamlar səsləndiriləndən sonra bizim kəşfiyyat nümayəndələri təmaslar qurdular. Öz həmkarları ilə bu təmaslar zamanı heç bir dəlil təqdim olunmadı. Əgər dəlil varsa, niyə qəzetlərdə yoxdur, niyə sizin kanalınızda yoxdur? Bu dəlil haradadır? Göstərin onu mənə. Dəlil yoxdur. Bizim muzdlulara ehtiyacımız yoxdur. Bizim yaxşı hazırlanmış, yaxşı təlim keçmiş yüz min döyüşçümüz var. Bizim müasir avadanlığımız var. Bizim öz torpağımızı azad etmək üçün bütün lazımi hərbi komponentlərimiz var. Bizim etdiyimiz məhz budur. Bu, feyk xəbərdir.

*– Sonuncu sual. Siz bu mərhələdə danışıqlara yenidən başlamaq üçün masaya hansı xoşməramlı jestlə gələ bilərsiniz?*

– Biz artıq bunu etdik. Yeri gəlmişkən, kimin danışıqların əleyhinə olması ilə bağlı sizə bir söz də deyə bilərəm. Hələ bu müharibə başlamazdan əvvəl Azərbaycan və Ermənistanın xarici işlər nazirləri Minsk qrupunun həmsədrləri ilə görüşmək üçün Cenevrəyə dəvət olunmuşdular. Ermənistanın xarici işlər nazirinin oktyabrın əvvəlində səfər edəcəyi gözlənilirdi, bizim xarici işlər nazirinin oktyabrın 8-də səfər edəcəyi gözlənilirdi. Beləliklə, Ermənistanın xarici işlər naziri buna məhəl qoymadı, getmədi. Bizim xarici işlər naziri dünən Cenevrədə həmsədrlərlə görüş keçirdi. Biz Ermənistan və Azərbaycan xarici işlər nazirləri arasında görüşün Rusiyada təşkil olunması ilə bağlı Rusiyadan təklif alanda razılaşdıq. Beləliklə, bizim xarici işlər naziri bir saat əvvəl Moskvaya çatıb. O, rusiyalı həmkarı ilə görüşəcək, mən proqramın necə olacağını, onun Ermənistanın naziri ilə görüşüb-görüşməyəcəyini bilmirəm, lakin o, oradadır. Biz sülh yolu ilə həll istəyirik, amma həll. Biz həll istəyirik, imitasiya yox, daha 30 il ərzində boş sözləri yox, praktiki addımları, vaxt cədvəlini, insanlarımızın evlərinə nə vaxt qayıdacağını, onlar üçün təhlükəsizlik zəmanətinin nədən ibarət olacağını və bizim necə barışacağımızı bilmək istəyirik. İki millət barışmalıdır. Biz qonşuyuq. Biz əbədi olaraq düşmənçilik şəraitində yaşaya bilmərik. Bu, dayandırılmalıdır. Lakin tarixi həqiqət və beynəlxalq hüquq əsasında dayandırılmalıdır.

*-Dağlıq Qarabağda fəaliyyət göstərən jurnalistlərlə bağlı sual. Sizin sözçünüz deyib ki, onlar Azərbaycan ərazilərində qanunsuz olduqlarına görə hədəf obyektləridir. Siz də belə hesab edirsiniz?*

– Bizim mövqeyimiz çox ədalətli və aydındır. Dağlıq Qarabağ Azərbaycanın tərkib hissəsidir. Bizim mövqeyimiz ondan ibarətdir ki, əgər hər hansı əcnəbi vətəndaş, - təkcə jurnalist deyil, - Dağlıq Qarabağa səfər etmək istəyirsə xahiş edirik bizə məlumat versin. Biz hər hansı xüsusi münasibət gözləmirik. Sadəcə olaraq, bizə məlumat verin ki, belə bir şəxs səfər etmək istəyir. Bizdə belə bir məlumat olanda, ərazi bütövlüyümüzə belə bir hörmət əlaməti olanda, biz heç vaxt etiraz etmirik. Bu prosedur olmadan oraya gedənlər Xarici İşlər Nazirliyimizin qara siyahısına salınır və onların Azərbaycana girişinə qadağa qoyulur. Əgər həmin adamlar bizim xarici işlər nazirinə məktub yazırlarsa ki, biz səhv etmişik və ya gələn dəfə sizə məlumat verəcəyik, biz onları qara siyahıdan çıxarırıq. Bu, ədalətlidir. Bizim ehtiyacımız olan yeganə şey hörmətdir. Ona görə də mən fürsətdən istifadə edərək hadisələri işıqlandırmaq üçün oraya səfər etmək istəyən jurnalistlərə mesaj vermək istərdim. Xahiş edirəm e-mail vasitəsilə bizim Xarici İşlər Nazirliyimizə məlumat verin və oraya gedin. Heç bir problem yoxdur.

*– Yəni, Siz onları hədəfə almayacaqsınız?*

– Biz heç vaxt belə etmirik, heç vaxt. Niyə də etməliyik? Biz jurnalistlərin gəlməyində maraqlıyıq. Mən hər gün televiziyadayam, hər gün müsahibələr verirəm, çünki biz mövqeyimizi çatdırmaq istəyirik, gördüyümüz işi diqqətə çatdırmaq istəyirik. Biz təcavüzkar deyilik, biz təcavüzə məruz qalmışıq. Təcavüzkar Ermənistandır. Biz ərazilərin geri qaytarılmasını istəyirik. Bu qədər.

*– Prezident Əliyev, bu gün bizimlə söhbət etdiyinizə görə təşəkkür edirəm.*

– Çox sağ olun.

## *Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Rusiyanın RBK televiziya kanalına müsahibəsi*

*-Əvvələn, çox sağ olun ki, bizimlə müsahibəyə razılıq vermisiniz. Söhbətə başlamazdan əvvəl mən RBK-nın prinsipləri barədə danışmaq istərdim. Bir neçə gün bundan əvvəl Ermənistanın baş naziri ilə böyük müsahibə gedib, indi isə burada - Azərbaycanda, Bakıdayıq və Azərbaycan Prezidenti İlham Əliyev ilə söhbət edəcəyik. Daha bir remarka. Mən ilk sualı verməzdən əvvəl hər iki tərəfdən həlak olanların bütün doğmalarına başsağlığı vermək istəyirəm. Müharibənin heç kimə lazım olmaması və müharibəsiz də ötüşməyin mümkünlüyü barədə çox eşitmişəm. Lakin bundan sonra ən çətini və yəqin ki, ən maraqlısı başlanır. Danışıqlar başa çatıb. Siz Moskvada baş verənləri necə qiymətləndirirsiniz? Bütün bunların nə demək olduğunu anlamaq bizim üçün çox vacibdir.*

-Moskvada baş verənləri bütövlükdə müsbət qiymətləndirirəm. Ona görə ki, danışıqların yekunları ilə bağlı yayılmış bəyanatda humanitar mülahizələrə əsasən atəşkəs rejiminin elan edilməsi bildirilir. Prinsipial əhəmiyyətli bir məqam da odur ki, bu, Azərbaycanın mövqeyi idi. Mən şadam ki, həmin mövqe bu sənəddə öz əksini tapıb. Ermənistan ilə Azərbaycan arasında substantiv danışıqlar başlanır, həmçinin danışıqların formatının dəyişməz qalması təsdiqlənir.

Ermənistanın yeni hakimiyyəti bu iki mövqeyi pozmağa çalışırdı. Ona görə ki, heç kəs üçün sirr deyil, İrəvandan səslənən bəyanatlar mahiyyət etibarilə uzun illər ərzində işlənib hazırlanmış danışıqlar prosesini, o cümlədən baza prinsiplərini, danışıqların formatını pozmağa yönəlmişdi. Buna görə prinsipial əhəmiyyətli məqam odur ki, Ermənistan tərəfi anlamağa məcbur oldu ki, baza prinsipləri nizamlama üçün əsasdır, həmin prinsiplərdə isə münaqişənin necə nizamlanmalı, Azərbaycanın işğal edilmiş ərazilərinin hansı ardıcıllıqla qaytarılmalı olduğu dəqiq göstərilib. İkincisi, danışıqların formatı dəyişməz qalır. Bu, o deməkdir ki, danışıqlar yalnız Azərbaycan ilə Ermənistan arasında aparılırdı, aparılır və aparılacaq. Ermənistan rəhbərliyinin bu məsuliyyəti Dağlıq Qarabağda mövcud olan oyuncaq rejimin üzərinə qoymaq üçün göstərdiyi bütün cəhdlər uğursuz oldu. Beləliklə, əminəm ki, bundan sonra Paşinyandan "Qarabağ Ermənistandır" sözlərini bir daha eşitməyəcəyik. Həmçinin onun belə bəyanatlarını eşitməyəcəyik ki, Azərbaycan danışıqları qondarma "Dağlıq Qarabağ respublikası"nın qondarma "rəhbərliyi" ilə aparmalıdır. Əgər o, belə bəyanatlar verərsə, bu, o demək olacaq ki, o, həm vasitəçilərə, həm də Moskvada bu mətni razılaşdırmış öz nümayəndə heyətinə hörmətsizlik edib və mahiyyət etibarilə, o, danışıqlar prosesini yenidən pozur. Bu dəfə həmin bəyanatlar nəyə gətirib çıxardı? Zənnimcə, bunu hamı aşkar görür, lakin düşünmürəm ki, o, ikinci dəfə həmin səhvi təkrarlayar.

*-Atəşkəs nə qədər davam edəcək? Bu atəşkəsin amanabəndliyini Siz necə qiymətləndirirsiniz? O, nədən asılı olacaq?*

-İndiki eskalasiyaya qədər atəşkəs uzun müddət, onilliklər boyu davam etdi. Təmas xəttində müəyyən toqquşmalar olub, bu il iyul ayında dövlət sərhədində erməni tərəfinin təxribatları olub. Lakin son 30 ilə yaxın müddətdə bu qədər genişmiqyaslı əməliyyatlar olmayıb. Buna görə hər şey erməni tərəfindən asılı olacaq. Əvvələn, o, atəşkəsə riayət edəcəkmi? Ona görə ki, bu gün səhər və dünən, yəni, bu gecə və səhər mənim aldığım məlumata görə, erməni qüvvələri bir neçə istiqamətdə genişmiqyaslı əks-hücum cəhdləri göstərib, Hadrutu geri almağa, Cəbrayıl rayonunda, şimal istiqamətində bizim azad etdiyimiz əraziləri geri almağa cəhd göstərib. Yəni, onlar Moskvada tərəflərin razılığa gələ biləcəyini başa düşdüklərindən itirdiklərini və onlara məxsus olmayanları maksimum həcmdə özlərinə qaytarmağa çalışıblar. Buna görə də atəşkəs rejiminin möhkəmliyinin əsas amili bu olacaq ki, Ermənistan bu ərazilərin bizdə olması ilə, onun həmin əraziləri bir daha heç vaxt görməyəcəyi ilə barışmalı və bunu hərbi yolla geri almağa heç bir cəhd göstərməməlidir.

Bundan heç də az əhəmiyyətli olmayan ikinci amil indicə haqqında danışdığım məsələdir. Biz danışıqlar masası arxasında Ermənistan tərəfindən konstruktiv yanaşma görməliyik, yəqin etməliyik ki, onlar danışıqlar prosesini imitasiya etmək cəhdlərindən əl çəkiblər, təhrikçi əməllərdən, bəyanatlardan çəkiniblər və nizamlama yolunun tapılması məqsədinə sadiqdirlər. Son bir il ərzində erməni tərəfindən gördüklərimiz məhz danışıqlar prosesini pozmağa və məsuliyyəti Azərbaycanın üzərinə qoymağa yönəlmişdi. Buna görə də baxarıq, biz öz bəyanatlarımıza sadiqik, Azərbaycan öz üzərinə götürdüyü öhdəlikləri həmişə yerinə yetirən ölkədir. Mən həmişə demişəm ki, bizim imzamız da sözümüz kimi əhəmiyyətlidir. Lakin atəşkəs birtərəfli proses deyil və biz baxarıq, görək erməni tərəfi özünü necə aparır.

*-Danışıqlara başlamaq üçün Azərbaycanın irəli sürdüyü şərtlərdən biri konkretlik idi. Deyilirdi ki, erməni tərəfi qoşunların çıxarılması üçün konkret plan təqdim etməlidir. Bu, Ermənistanın razılaşıb-razılaşmamasından asılı olmayaraq danışıqların indi başlanması deməkdirmi?*

-Bilirsinizmi, biz bunu əsas götürmüşük ki, əlbəttə, münaqişəni siyasi yolla həll etməyə üstünlük verilməlidir və uzun illər boyu bizim bütün fəaliyyətimiz buna yönəlmişdi. Bu səbəbdən, dünən və bu gecə Moskvada aparılmış məsləhətləşmələr çərçivəsində biz onlardan danışıqlar masası arxasında tam təslim olmalarını tələb etmədik. Başa düşürük ki, Paşinyan rejimi yetərincə zəifləyib. Bu rejim daxili siyasi səbəblərə görə eskalasiyadan əvvəl də zəifləmişdi. İndi daha çox zəifləyib. Mən hesab etmirəm ki, indi Ermənistanda bir inqilab baş verməsi və qatı millətçilərin, radikalların, azərbaycanofobların hakimiyyətə gəlməsi Azərbaycanın xeyrinə olar. Buna görə biz razılaşdırılmış bəyanat çərçivəsində konkret tarixlər göstərilməsini təkid etmədik. Lakin, şübhəsiz ki, bu, erməni işğalçı qüvvələrinin bizim ərazilərdən razılaşdırılmış şəkildə çıxarılmasını nəzərdə tutur. Bəyanatda substantiv danışıqlara, yəni baza prinsiplərinə istinad edilir, orada isə hər şey konkret yazılıb: beş rayon nə vaxt azad ediləcək, daha iki rayon nə vaxt azad ediləcək.

*-Danışıqlar nə vaxt başlanacaq, bu barədə artıq anlaşma varmı?*

-Biz sabah başlamağa hazırıq. Buna görə hər şey ATƏT-in Minsk qrupunun fəaliyyətindən, onların iş qrafikindən asılıdır. Bizim tərəf dərhal başlamağa hazırdır. Yeri gəlmişkən, deməliyəm ki, bəyanatın mətni ilə əlaqədar Azərbaycan tərəfinin bütün istəkləri nəzərə alınıb. Bəyanatın ilkin variantı tamam fərqli idi. Dünən mən onu görəndə dedim ki, bu, bizim üçün münasib deyil. Sənədi həddən artıq qəlizləşdirmək, ağırlaşdırmaq, danışıqlar prosesinin son mərhələsində müəyyən edilməli olan elementləri oraya inkorporasiya etməyə çalışmaq lazım deyil. Onu maksimum sadələşdirmək lazımdır. Yadımdadır ki, orada olmayanları nəzərə aldıq, danışıqlara dərhal başlamaq bəndinin daxil olunmasını xahiş etdik. Yəni, biz mümkün qədər tez nizamlamada maraqlıyıq. Ona görə ki, nizamlama bizim vətəndaşların, qaçqınların, daxili köçkünlərin öz evlərinə qayıtmalarına imkan verəcək.

*-Burada olduğum iki gün ərzində başa düşdüyümə görə Azərbaycanda bu əhval-ruhiyyədədirlər ki, biz axıradək getməliyik. İndi azərbaycanlılara necə izah etməli ki, Bakı yenidən danışıqlara razılıq verib?*

-Biz axıra qədər gedəcəyik. Biz dayanmamışıq. Əgər erməni tərəfi atəşkəs rejiminə sadiq olarsa, onda,

dünən dediyim kimi, siyasi nizamlama mərhələsi başlanacaq, danışıqlara məcburetmə fazası başa çatacaq. Buna görə biz istənilən halda axıra qədər gedəcəyik. Bizim məqsədimiz dəyişməz qalır. Azərbaycanın bütün dünya birliyi tərəfindən tanınmış ərazi bütövlüyünün bərpa edilməsi, azərbaycanlıların əvvəlki, ənənəvi yaşadıqları yerlərə, o cümlədən Şuşaya, Dağlıq Qarabağdakı digər yaşayış məntəqələrinə və əlbəttə, keçmiş DQMV-nin inzibati hüdudlarından kənardakı bütün başqa ərazilərə qaytarılması. Buna görə bizim məqsədimiz dəyişməz qalır. Sadəcə, bu məqsədə doğru necə getməliyik? Biz həmişə siyasi yolla getməyə çalışmışıq, həmişə də eşitmişik ki, hərbi həll yoxdur. Biz sübut etdik ki, bu, belə deyil. Biz döyüş meydanında göstərdik ki, bu, belə deyil. Göstərdik ki, hərbi tərkib hissəsi olmasa, bu danışıqlar daha 30 il davam edərdi. O vaxta qədər nələr baş verərdi? Qanunsuz məskunlaşdırma. Bu, beynəlxalq cinayətdir, Cenevrə konvensiyalarının pozulmasıdır. Təəssüf ki, buna heç kəs – nə Minsk qrupu, nə Avropa İttifaqı, nə də BMT reaksiya vermədi. Azərbaycanın tarixi irsinin dağıdılması, bizim mədəni, tarixi, dini abidələrin məhv edilməsi, toponimlərin dəyişdirilməsi, rayonlarımızın inzibati sərhədlərinin dəyişdirilməsi, bizim dağların, çayların və şəhərlərin adlarının dəyişdirilməsi. Yəni, biz daha 30 il gözləməli olardıq, sonra da bizə deyərdilər ki, bilirsiniz, iş belə gətirib, bununla barışın. Bizə belə də deyirdilər. Buna görə düşünürəm ki, hərbi yol və ya onun birinci mərhələsi sona çatıb, indi biz siyasi nizamlama mərhələsinə çatmışıq. Məhz bu mərhələ bizim axıra qədər getməyimizi və hüquqa görə bizə məxsus olanı almağımızı təmin edəcək. Ona görə düşünürəm ki, Azərbaycan cəmiyyəti dünən və bu gecə baş verənləri çox düzgün qəbul edəcək və bizim siyasətimizi bundan sonra da dəstəkləyəcək. Çünki biz həmişə xalqa həqiqəti demişik. Həmişə xalqın mənafelərini müdafiə etmişik. Döyüş meydanında baş verənlər bunu bir daha hamıya sübut etdi.

*-Siz bütün bu hadisələrə qədər Ermənistanın baş naziri Nikol Paşinyan ilə bir neçə dəfə görüşmüsünüz. Bu hadisələrdən sonra Siz onunla bir masa arxasına əyləşməyə və ya danışmağa hazırsınızmı?*

-Bilirsinizmi, böyük etimad bəsləmədiyin adamla danışmaq çətindir. Mən onun sələfləri, müharibə cinayətkarları hesab etdiyim adamlarla danışıqlar aparmağa məcbur idim. Çünki onlar Xocalıda qanlı soyqırımı törədiblər, onlar Azərbaycanın dinc əhalisini məhv etməkdə, bizim tarixi və mədəni irsimizin dağılmasında təqsirkardırlar. Lakin mən məcbur idim. Ona görə ki, biz bu münaqişənin nizamlanması yolunu tapmalı idik. Ermənistanda yeni iqtidar, yeni rəhbərlik hakimiyyətə gələndə əvvəlcə onlarla əlaqələrimiz çox ümidverici idi. Mən bir dəfə bu barədə danışmışam, təkrarlamaq istəmirəm. Lakin sonra tamam əks hadisələr baş verdi, yəni, biz özümüzü aldadılmış hiss etdik. Biz başa düşürük ki, rəqiblə danışıqlar aparırıq, lakin hətta rəqiblə, düşmənlə də münasibətdə vicdanlı qalmaq, heç olmasa öz qarşısında vicdanlı olmaq, öz sözünə hörmət etmək lazımdır. Bunlar baş verəndə təbii ki, bizim bu mənasız fəaliyyəti davam etdirmək istəyimiz aradan qalxdı. Opponentin hər kəlməsi yalandırsa, onun yalanları dünya KİV-lərində yayılırsa, bütün dünyaya translyasiya edilirsə, onunla nə barədə danışmaq olar? Yəqin onlar öz ölkələrində yalan danışmağa adət ediblər. Lakin internet dövründə tarix barədə, münaqişənin mahiyyəti barədə yalan danışanda bu yalan çox tezliklə ifşa olunur. Buna görə mən belə imkanı istisna etmirəm, lakin bunun üçün müəyyən şərait lazımdır. İndiki mərhələdə mən bunu səmərəli hesab etmirəm. Əksinə, Ermənistan rəhbərliyində, nəhayət, başa düşməlidirlər ki, Azərbaycanla ultimatumlar, təhqirlər və şantaj dilində danışmaq olmaz. Mən istər ölkə daxilində, istərsə də xüsusən xaricdə heç kəslə bu tonda ünsiyyəti özümə heç vaxt rəva görməmişəm. Lakin Paşinyan bizə 7 ultimatum təqdim edəndə, o, azərbaycanlıların hisslərini təhqir edəndə buna görə cəzalandırılmalı idi və biz bunu etdik. Qoy o, Putinə təşəkkür etsin ki, Rusiya növbəti dəfə Ermənistanı xilas etməyə gəldi.

*-Siz indicə Rusiyanın rolu barədə danışdınız. Yəni, bu danışıqlarda Rusiyanın rolu həqiqətən həlledici olub.*

-Əlbəttə, Minsk qrupunun həmsədri kimi Rusiya ATƏT tərəfindən üç ölkəyə verilmiş hüquq və səlahiyyətlərə malikdir. Lakin sözsüz ki, Rusiya bizim qonşumuz kimi, həm Azərbaycanla, həm də Ermənistanla ortaq tarixə malik olan bir ölkə kimi, əlbəttə, xüsusi rol oynayır. Şübhəsiz, bu rol xalqlarımızın tarixinə və qarşılıqlı əlaqələrinə, həmçinin Rusiyanın dünyada və əlbəttə, bizim regionda sanbalına və roluna əsaslanır. Buna görə, əlbəttə, münaqişənin nizamlanmasına təsir göstərmək üçün Rusiyanın imkanları bu obyektiv səbəblərə görə hər hansı başqa ölkənin imkanları ilə müqayisəyəgəlməz dərəcədə çoxdur. Buna görə biz dəfələrlə Rusiya rəhbərliyinə müraciət etmişik ki, Rusiya rəhbərliyi Ermənistana siyasi təsir göstərmək vasitələrindən istifadə etsin, erməni tərəfini inandırsın ki, işğala son qoyulmalıdır. Bu mövzu dəfələrlə müzakirə edilib və sizə deyə bilərəm ki, rusiyalı həmkarımla bütün çoxsaylı görüşlərimdə bu mövzu ya müfəssəl, ya o qədər də ətraflı olmayan formada müzakirə edilib, lakin belə olmadı. Axı, gizli deyil ki, bu gün Ermənistan Rusiyadan 100 faiz asılı vəziyyətdədir. Onun təhlükəsizliyi Rusiya tərəfindən təmin edilir, pulsuz silahlanması Rusiya tərəfindən təmin edilir. Biz Ermənistana məxsus, bəlkə də milyardlarla dollar dəyərində texnikanı iki həftə ərzində məhv etdik. Onlarda bu pullar haradandır? Onların pulu yoxdur. Bütün bunlar Rusiyadan pulsuz göndərilir. Qaz təchizatı Rusiyadan güzəştli qiymətlərlə təmin olunur, elektrik enerjisi də müəyyən dərəcədə güzəştlə verilir. Dəmir yolları, rabitə, hərbi baza. Hətta Ermənistanın Türkiyə və İranla sərhədini rusiyalı sərhədçilər qoruyur. Əgər belə olmasaydı, sərhəd boş qalardı. Ermənistana təsir göstərmək üçün daha hansı ölkənin bu qədər vasitələri var? Heç bir ölkənin. Bəlkə də dünyada başqa elə iki ölkə yoxdur ki, onlardan biri digərindən bu qədər tam asılı olsun. Buna görə əminəm ki, Rusiya tərəfindən təkid göstərilsə, bizim status-kvonu dəyişməyimiz, təmas xəttini yarıb

keçməyimiz nəticəsində İrəvanın ayılması nəzərə alınmaqla Rusiya qısa müddətdə Ermənistanı inandıra bilər: təkcə hərbi qarşıdurma baxımından deyil, bütövlükdə Ermənistanın gələcəyi üçün indiki vəziyyətdən yeganə çıxış yolu Azərbaycanla münaqişənin həllini tapmaqdır. Bu həll isə çox sadədir - onlar bizim ərazidən getməli, öz qoşunlarını çıxarmalı, bizim insanlar oraya qayıtmalı və biz yenidən yanaşı yaşamağa çalışmalıyıq.

*-İndi başqa ölkə - Türkiyə haqqında soruşmaq istəyirəm. Bu günlər ərzində Azərbaycanı və şəxsən Sizi dəfələrlə bunda ittiham ediblər ki, əslində, bu münaqişə ilə bağlı bütün məsələləri Türkiyənin hakimiyyət orqanları idarə edirlər. Dünən, bu gecə biz Türkiyəni danışıqlar masası arxasında görmədik. Nə üçün?*

-Bu, onu göstərir ki, bütün bu fikirlər yalan idi, bu, qəsdən ortaya atılmış məsələ idi, burada bir neçə məqsəd vardı. Əvvələn, Türkiyəni daha da iblisləşdirmək. Təəssüf ki, Qərbdə bu məqsəd müasir siyasi modanın hansısa normasına çevrilir. Bu, tamamilə əsassızdır. Türkiyə öz maraqlarını güdür, öz həyatını yaşamaq hüququnu qoruyur. Prezident Ərdoğanın dövründə Türkiyə Qərbin itaətkar müttəfiqi olmağa son qoyub. O, həm öz regionunda, həm də dünyada öz şərtlərini diktə edir. Türkiyə ilə hesablaşırlar. Türkiyənin nüfuzu artıb. Türkiyə ordusu NATO-da ikinci yeri tutur. O, istənilən hərbi-siyasi problemi həll edə bilər. Buna görə əlbəttə, Qərb tərəfindən bu cür açıq təzyiq göstərilir. Bu təzyiq hətta Türkiyəyə münasibətdə hansısa çox qəribə və mənfi emosional fonla bağlıdır. Yəni, birinci səbəb Türkiyəni iblisləşdirmək istəyidir. İkinci səbəb Azərbaycanın potensialını, o cümlədən hərbi-texniki potensialını azaltmaq və belə təsəvvür yaratmaq cəhdidir ki, hərbi məsələni Türkiyə və ya onun təsiri altında olan başqa birisi həll edib. Xeyr, biz öz torpaqlarımızı özümüz azad etmişik. Belə adlandırılan "müzəffər erməni ordusu" haqqında mif puç oldu, əslində, belə ordu yox idi. Münaqişənin tarixinə dərindən bələd olanlar çox gözəl bilirlər ki, bizim torpaqlarımız, o cümlədən sovet ordusunun 366-cı motoatıcı alayı tərəfindən işğal edilib. Xankəndidə yerləşən bu alaydakı hərbi qulluqçuların məncə 70 faizi erməni mənşəli idi. Yəni bu, şəxsi heyəti ermənilərdən ibarət olan sovet silahları, sovet komandanlığı idi. Onlar həm etnik təmizləmələrdə, həm də soyqırımında fəal rol oynayırdılar.

*-Siz yəqin ki, 1990-cı illərin əvvəllərindəki hadisələri nəzərdə tutursunuz...*

-Şübhəsiz. 366-cı alayın dəstəyi və fəal iştirakı olmasaydı, Ermənistan bizim əraziləri tuta bilməzdi. Ona görə bundan sonra belə bir mif yarandı ki, erməni ordusu müzəffərdir, Azərbaycan Ordusu onun qarşısında dayana bilməz. Buna görə bu mifi saxlamaq lazım idi, amma Azərbaycan tərəfindən acı məğlubiyyətə uğradıldığını etiraf etmək görünür, Ermənistan cəmiyyəti və Ermənistan rəhbərliyi üçün çox ağır idi. Üçüncüsü, onlara dünya arenasında Azərbaycanın rolunu və əhəmiyyətini azaltmaq lazım idi. Bunu etmək isə çox çətindir. Ona görə ki, bu gün dünya ölkələri ilə Azərbaycanın çoxşaxəli iqtisadi və siyasi əlaqələri var. Bu gün biz 120 ölkəni birləşdirən Qoşulmama Hərəkatına rəhbərlik edirik və yekdilliklə seçilmişik. Əgər bizim ölkəmiz müstəqil potensiala malik olmasaydı, bu cür hörmət qazana bilərdikmi? Buna görə Azərbaycanın Türkiyə tərəfindən idarə edilməsi və bizim onun iradəsini yerinə yetirməyimiz barədə bütün insunasiyalar tamamilə yalandır. Bu, həm də Türkiyə-Azərbaycan qardaşlığını pozmağa və ya müəyyən qədər zəiflətməyə yönəlib, lakin baş tutmayacaq. Yeri gəlmişkən, Azərbaycan və Türkiyə ətrafında bütün bu informasiya hay-küyü üçün əsas olsaydı, bugünkü bəyanat olmazdı. Bu bəyanat mənimlə razılaşdırılıb, başqa heç kimlə. Əgər bizi kimlərsə idarə etsəydi, onda yəqin ki, məsələ belə tezliklə həll edilməzdi. Hazırda Türkiyə dünyada və regionda sabitləşdirici rol oynayır. Türkiyə rəhbərliyinin, şəxsən Prezidentin və digər rəsmi şəxslərin eskalasiya dövründə fəal və çox dəqiq mövqeyi, əslində, üçüncü ölkələrin bu münaqişəyə müdaxiləsinin qarşısını aldı. Buna görə hesab edirəm ki, Türkiyənin rolu yalnız müsbətdir və o, bizim regionda, o cümlədən münaqişənin həllində daha böyük rol oynamalıdır.

*-İndi Rusiyada çoxları "Türkiyə daha böyük rol oynamalıdır" frazasını eşidəcəklər. Bu sözlərin arxasında hansı məna var? Siz nəyi nəzərdə tutursunuz?*

-Fikrimcə, bu barədə danışmaq hələ tezdir, çünki mən Azərbaycan tərəfin mövqeyini bildirirəm. Lakin yaxın vaxtlarda müsahibələrimin birində demişəm ki, Minsk qrupu neçə illər bundan əvvəl – 1992-ci ildə, tamamilə başqa geosiyasi reallıqlar şəraitində formalaşıb. Əgər biz vasitəçilərin təmas qrupunu bu gün formalaşdırsaydıq, onun tərkibi fərqli olardı. Bu qrupun tərkibi münaqişə tərəflərinin niyyətlərini və istəklərini əks etdirməlidir. Minsk qrupunun tərkibi isə praktiki olaraq bunları əks etdirmir. Yeni təmas qrupunun və ya hansısa işçi qrupun, – onu necə adlandırmaq vacib deyil, – tərkibi regionda mövcud qüvvələr tarazlığını, region ölkələrinin mövcud maraqlarını əks etdirməli və nəticəyə istiqamətlənməlidir. Əks halda, bunun nə mənası var? Bunun heç bir mənası yoxdur. Əgər biz münaqişəni həll etmək istəyiriksə, o, yeni format çərçivəsində həll olunmalıdır. Baxın, son vaxtlar bir sıra qaynar nöqtələr barəsində ölkələrin mövqelərini razılaşdırmaq üçün nə qədər yeni əməkdaşlıq formatı yaradılıb - üçtərəfli, dördtərəfli. Axı, onlar indi yaradılır, hansısa ehkamlar əsasında deyil, real qüvvələr nisbəti əsasında yaradılır. Buna görə burada əsla şübhə ola bilməz ki, Türkiyə münaqişənin nizamlanması işində mühüm rol oynamalıdır və oynayacaq. Bunun hansı formada - hüquqi, yoxsa de-fakto həyata keçirilməsi artıq texniki məsələdir.

*-Rusiyanın rolu barədə. Mən Bakıda gəzəndə çoxlu Azərbaycan bayrağı gördüm, bir qədər az, lakin yenə də çox sayda Türkiyə bayrağı gördüm və bircə dənə də Rusiya bayrağı görmədim. Bu, o deməkdirmi ki, Azərbaycanda Rusiyanın təsiri azalıb və ya Azərbaycanda insanların Rusiyaya münasibəti dəyişib?*

-Düşünmürəm ki, münasibət dəyişib. Türkiyə bayraqlarının çox olması təbiidir. Biz qardaş xalqlarıq. Bu

gün Türkiyə ilə Azərbaycan arasında etimad, qarşılıqlı dəstək və münasibətlərin səviyyəsi elədir ki, mənim fikrimcə, dünyanın hər hansı başqa, hətta ən yaxın ölkələri arasında elə səviyyə yoxdur. Bu, reallıqdır və bu reallığı biz yaratmışıq – Türkiyənin və Azərbaycanın rəhbərliyi. Özü də məsələ bizim ortaq köklərimizlə və ortaq tariximizlə bağlı deyil. Dünyada Türkiyə və Azərbaycan kimi etnik kökləri yaxın olan, lakin öz aralarında döyüşən xalqlar var. Bu, sizə də çox yaxşı məlumdur. Yaxud bir-biri ilə intriqa aparırlar. Buna görə Azərbaycanda Türkiyə bayraqlarının olması reallıqdır və əgər siz Türkiyəyə getsəniz orada da çox yerlərdə Azərbaycan bayraqlarını görərsiniz.

Rusiyaya münasibət məsələsinə gəldikdə isə sizə bir fakt göstərə bilərəm. Pandemiyaya qədər bizdə Azərbaycana səfər edən Rusiya vətəndaşlarının sayı hər il təxminən 15-20 faiz artırdı. Keçən il bu göstərici bir milyona yaxın olub. Mən həmişə demişəm, rusiyalıları buraya cəlb edən təkcə bizim mətbəximiz, təkcə çimərliklər, təkcə tarix deyil, həm də odur ki, onlar burada özlərini rahat hiss edirlər. Öz mühitlərində olduğu kimi hiss edirlər, burada insanlarla rus dilində danışırlar. Yəqin bilirsiniz ki, bizdə, Azərbaycanda təhsilin rus dilində olduğu neçə məktəb var. Onların sayı 300-dən çoxdur. Heç yerdə belə deyil. Rusiya ali məktəbləri, onların filialları. Rusiyanın musiqi, teatr kollektivləri pandemiyaya qədər demək olar ki, hər həftə burada olurdu. Buna görə də Rusiyaya və Rusiya Federasiyasında yaşayan ruslara Azərbaycanda yalnız müsbət münasibət var. Siz artıq bir neçə gündür ki, buradasınız və erməni işğalı amilinin insanların ovqatına nə dərəcədə təsir göstərdiyini bilirsiniz. İnsanlar hər bir sözü, hər bir jesti, hər bir mimikanı duyurlar. Əlbəttə, açıq deməliyəm, bu müddətdə, bu günlər, bu həftələr ərzində bəzi Rusiya kanallarında qatı antiazərbaycan təbliğatını, tok-şouların iştirakçılarının saxtakarlığını, manipulyasiyasını, iştirakçılar heyətinin tarazlaşdırılmış olmamasını görəndə, Rusiyanın aparıcı telekanallarında Azərbaycan xalqı, Azərbaycan Prezidenti təhqir ediləndə, əlbəttə, bunlar Rusiyanın nüfuzunu artırmır. Mən bu məsələni Rusiya rəhbərliyinin diqqətinə çatdırmışam. O mənada yox ki, bunlar bizi narahat edir, Azərbaycan cəmiyyəti və ictimai fikri Azərbaycanın daxilində formalaşır. O mənada ki, belə münasibət haçansa bizim planlarımızda müəyyən çətinliklərə gətirib çıxara bilər. Rusiya ilə biz qarşılıqlı əlaqələri daha da inkişaf etdirməyi planlaşdırırıq. Hazırda biz iqtisadi və digər sahələrdə əməkdaşlıq üzrə beş yol xəritəsi üzərində fəal iş aparırıq. Siyasi baxımdan çox yaxşı məsələlər var. Lakin bu müddətdə Rusiya mediasında üzləşdiyimiz informasiya hücumu, əlbəttə, ictimai fikirdə Rusiyaya münasibətə böyük ziyan vurub. Düşünürəm ki, bu vəziyyəti qaydaya salmaq üçün vaxt və hər iki tərəfin rəhbərliyinin səyləri lazım gələcək.

*-Sizə daha iki sualım var. Yadınızdadırmı, sentyabrın 27-də gecə və ya səhər çağı cavab verməyə başlamaq lazım olması, bu müharibəyə başlamaq lazım olması barədə qərar necə qəbul edildi?*

-Qərarlar, praktiki olaraq, avtomatik rejimdə qəbul edilir. Azərbaycan Ordusunun hərbi qulluqçuları üçün müəyyən təlimatlar var. Düşünürəm ki, bunlar hər orduda var. Təhlükə halında, hücum halında sən necə hərəkət etməlisən. Yəni, burada necə hərəkət etmək barədə tərəddüd etmirdik. Xüsusən ona görə ki, biz bu hücumu gözləyirdik. Eskalasiyadan bir neçə gün əvvəl mən bu barədə BMT-nin kürsüsündən danışmışdım. Mənim çıxışımın mətninə baxa bilərsiniz. O vaxt mən demişdim ki, Ermənistan müharibəyə hazırlaşır. Ermənistanı dayandırmaq lazımdır. Bunun üçün dəlillər çox idi. Əvvələn, Ermənistanın müdafiə nazirinin keçən il Amerikada verdiyi bəyanat. Özü də o, bəyan etmişdi ki, Ermənistan yeni ərazilər üçün yeni müharibəyə hazırlaşır. Sonra Paşinyanın "Qarabağ Ermənistandır" məzmunlu bəyanatları və sair. Daha sonra Livandan olan ermənilərin nümayişkaranə şəkildə Şuşada məskunlaşdırılmasından ibarət təhrikçi hərəkətlər müharibə cinayətidir. Daha sonra Şuşada, yeri gəlmişkən, işğalçı rejimin orada mövcud olduğu müddətdə ilk dəfə qondarma "andiçmə" mərasimi keçirməklə Azərbaycan xalqının təhqir edilməsi. Qondarma "Dağlıq Qarabağ respublikası"nın parlamentini Xankəndidən Şuşaya köçürmək cəhdi və bir sıra başqa əməllər. Bütün bunlar bizə qarşı təxribat idi. Sonra iyul hadisələri. Bizim hərbi mövqelərimizə təxribatçı hücumlar. Elə ilk saatlarda biz dörd hərbi qulluqçumuzu, sonra bir mülki vətəndaşımızı itirdik. Sonra avqust hadisəsi. Goranboy rayonunda təmas xəttindən keçmiş təxribat qrupunun başçısı indi ifadə verir. Biz gözləyirdik, biz hazır idik. Təbii ki, qərar, o cümlədən mənim tərəfimdən avtomatik rejimdə, heç bir tərəddüdsüz qəbul edildi. Biz təcavüzkarı yerində oturtmalı idik. İyul ayında Azərbaycan cəmiyyəti bunun davam etdirilməsini tələb edirdi. Yəqin ki, siz bunu bilirsiniz.

*-Bəli, mitinq olmuşdu.*

-Bəli. İyul ayında mitinqdə səslənən əsas şüar belə idi: "Ali Baş Komandan, bizə silah ver!" İnsanlar belə deyirdilər. İyul ayında biz Ermənistanla dövlət sərhədini rahatca keçərək Ermənistan Respublikasının geniş ərazilərini tuta bilərdik, amma biz bunu etmədik.

*-Bu hadisələr Qarabağda olmamışdı.*

-Tamamilə doğrudur. Biz bunu etmədik. Orada heç bir çətinlik yox idi və biz bunu indi göstərdik, 30 il ərzində ciddi eşelonlaşdırılmış müdafiə xəttini qırdıq, orada relyef özü müdafiə üçün münasibdir. Biz aşağıdan yuxarıya getdik, beton plitələri sındırdıq, Azərbaycan Ordusunun qeyri-adi səyləri, əsgərlərimizin və zabitlərimizin qəhrəmanlığı lazım gəldi. Oradan Ermənistanın istənilən nöqtəsinə keçmək bizim üçün çox asan idi. Lakin mən bunu dayandırdım, dedim ki, yox, biz bunu etməyəcəyik, biz onlar deyilik. Biz Ermənistanın beynəlxalq aləmdə tanınmış ərazisinə keçməyəcəyik və biz sərhədə qədər getdik, oraya soxulmuş işğalçıları qovduq və dayandıq. Yəni bundan sonra biz təcavüzkarı cəzalandırmalı idik ki, o, bir də bizim tərəfə baxmağa belə cəsarət etməsin. Biz bunu etdik, baxın, görün indi Paşinyan necə rəzil vəziyyətdədir. Alçalır, zəng edir, yalvarır, daha kimlərə zəng etmir. Avropa İttifaqı hökumətlərinin başçılarına. Bəs, o, nə tələb edir? Onların "Dağlıq Qarabağ respublikası"nı tanıma-

sını tələb edir. Yəni bu, Ermənistan rəhbərliyinin tamamilə qeyri-adekvat olmasına dəlalət edir. Azərbaycan ilə Avropa İttifaqı arasında sazişlər var, - onlardan biri 2 il bundan əvvəl paraflanıb, - orada deyilir ki, Avropa İttifaqı Azərbaycanın ərazi bütövlüyünə, suverenliyinə və sərhədlərinin toxunulmazlığına hörmət edir. Avropa İttifaqının üzvü olan yeddi ölkə ilə bizim strateji tərəfdaşlığımız haqqında sənədlər var. Bu ölkələrin hamısı Azərbaycanın ərazi bütövlüyünü tanıyır. "Dağlıq Qarabağ respublikası"nın tanınmasını siyasətdən və beynəlxalq sahədə hər hansı biliklərdən tamamilə uzaq olan adam tələb edə bilər. Görün, onlar nə həddə çatıblar. Biz onları cəzalandırmalı idik. Biz onlara yerlərini göstərməli idik ki, bizimlə belə danışmaq olmaz, bu, onlara asan başa gəlməyəcək. Belə də oldu. O, anaların göz yaşlarına, cəbhəyə göndərdikləri Ermənistanın günahsız gənc vətəndaşlarının ölümünə görə cavab verəcək.

*-Azərbaycanın qaytardığı ərazilərlə bağlı vəziyyət necə olacaq, orada indi nə edəcəklər?*

-Biz köçkünlərimizi öz evlərinə qaytaracağıq. Bu insanların sevincini, Cəbrayıl, Füzuli, Tərtər rayonlarının, Hadrutun təqribən 30 ildən sonra öz torpaqlarına qayıdacaq sakinlərinin sevincini təsəvvür edə bilərsiniz. Budur, azad edilmiş ərazilərdən çəkilmiş videokadrları nümayiş etdiririk. Bu kadrlardan görünür ki, orada hər şey dağıdılıb. Biz bunu bilirdik. Bu, Stalinqraddan da betərdir. Dağıdılmayanların isə hamısı oğurlanıb, qarət edilib. Başa düşürsünüzmü, onlar hətta pəncərə çərçivələrini də, unitazları da oğurlayıblar. Bu, sadəcə, dövlət siyasəti dərəcəsinə çatdırılmış quldurluqdur. Ona görə də biz bu əraziləri bərpa edəcəyik.

*-Təzədən tikəcəksiniz?*

-Təzədən, əlbəttə. Biz kömək edəcəyik. Biz məcburi köçkünlər üçün tikinti proqramına əsasən təkcə bu il 7 min mənzil istifadəyə verəcəyik. Təsəvvür edirsinizmi? Orta hesabla hər mənzildə 5 nəfər nəzərdə tutulsa, biz bir ildə 35 min nəfəri yerləşdirəcəyik. Yəni bu, kiçik və ya hətta bizim şəraitdə orta ölçüdən böyük bir şəhər deməkdir. Zərər çəkmiş 300 mindən çox köçkünü artıq yerləşdirmişik. Köçkünlər üçün şərait yaratmaq məqsədilə biz hər il büdcədən külli məbləğdə vəsait ayırırıq. Hər bir köçkün hər ay dövlətdən müavinət alır. Demək istəyirəm ki, orada biz bu işləri görəcəyik. Biz Cəbrayılı təzədən tikəcəyik. Bütün kəndləri yenidən quracağıq. Orada yaşayacaq insanlar tikinti işlərinə cəlb ediləcəklər. Onlar öz evlərini bərpa etmək üçün məvacib alacaqlar. Oraya həyat qayıdacaq, oraya uşaqların gülüşü qayıdacaq. İnsanlar rahat nəfəs alacaq, hiss edəcəklər ki, ləyaqətlərini özlərinə qaytarıblar. İllər boyu azərbaycanlıların bu vəziyyətdə necə yaşamalarını təsəvvür edin. Təmas xəttində binoklla baxanda bizim dağıdılmış şəhərləri görərkən mənim keçirdiyim hissləri təsəvvür edin. Qoy, erməni tərəfi fikirləşsin. O, indi bunun nə demək olduğunu başa düşməyəcək. Lakin əvvəl düşünmək lazım idi, azərbaycanlıların hisslərini təhqir etmək lazım deyildi. Biz xeyirxah, sülhsevər xalqıq. Lakin biz öz ləyaqətimizi tapdalamağa, bizi təhqir etməyə imkan verməyəcəyik. Paşinyan Şuşada, Cıdır düzündə sərxoş halda rəqs edəndə özünə bu gün baş verənlər barəsində hökm imzalamışdı.

*-Siz özünüz həmin ərazilərə getməyə hazırlaşırsınızmı?*

-Əlbəttə. 2016-cı ildə biz Cocuq Mərcanlını işğaldan azad edəndə mən Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinə müraciət edib dedim ki, bu kəndin sakinlərindən öyrənin, onlar oraya qayıtmaq istəyirlərmi? Ona görə ki, çox illər keçib, onların çoxu Bakıdadır, çoxlarının işi, uşaqları, məktəbləri var, çoxları Azərbaycanın digər regionlarında yaşayır. İş yerini dəyişmək, xüsusən hər şeyin dağıdıldığı yerə dəyişmək o qədər də asan məsələ deyil. Bilirsinizmi, bir müddətdən sonra mənə bildirdilər ki, həmin adamlar növbəyə düzülüblər. Hətta heç vaxt orada olmamış, sonradan doğulmuş gənclər də. Hamısı xahiş edirdi ki, tezliklə oraya qaytarılsınlar və biz bir ildən az müddətdə 150 evdən ibarət qəsəbə saldıq, orada məktəb, tibb müəssisəsi, məscid və bütün infrastruktur obyektləri tikdik, qaz, yol çəkdik. Bu, bizim qayıtmağımızın rəmzi oldu. Mən oraya gedəndə və bu insanların üzündəki fərəhi, sevinc göz yaşlarını görəndə bir daha özümə dedim ki, biz hökmən öz evlərimizə qayıdacağıq və əlbəttə, oranı bərpa edəcəyik. Bu illər ərzində əziyyət çəkmiş, öz doğma yurdlarının həsrəti ilə dünyasını dəyişmiş insanların ruhu şad olsun, onların övladları isə həyatlarının qalan hissəsini xoşbəxt yaşasınlar.

*-Çox sağ olun.*

-Sağ olun.

## *Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türkiyənin "Haber Global" televiziya kanalına müsahibə verib*

*- "Haber Global" yayımına xoş gəldiniz. Son dərəcə önəmli bir qonağımız var. Bildiyiniz kimi, Azərbaycan Vətən müharibəsi aparır. Beləliklə, döyüş meydanında Azərbaycan Silahlı Qüvvələrinin sürətli, amma təmkinli irəliləyişi var. Bir atəşkəs prosesi, atəşkəsdən dərhal sonra Ermənistanın xüsusilə dünən törətdiyi hücumlar nəticəsində gərgin diplomatik proseslər, əməliyyat meydanında və masada hərəkətlilik. Təbii ki, bunları ən yaxından izləyən şəxs hazırda bu gərginlik arasında bizə vaxt ayıran Azərbaycan Prezidenti cənab İlham Əliyevdir. Xoş gördük, cənab Prezident.*

- Sağ olun.

*- İlk olaraq, dünənki hücumla, əməliyyat meydanında və masadakı son vəziyyətdən başlamaq istərdim. Bir tərəfdən, gərgin diplomatik fəaliyyət həyata keçirdiyinizi bilirik. İşinizin çox olduğu bir vaxtda bizə vaxt ayırdığınız üçün Sizə bir daha təşəkkür edirəm.*

*Dünən bir çox yerdə bunun qarşılığını gördük, bir hücum, mülki əhaliyə qarşı bir hücum. Amma xüsusilə xarici mətbuatda tam əksinə bir yanaşma var, diasporun bir təbliğat müharibəsi var. Əvvəlcə, mövcud vəziyyətlə bağlı həqiqətlərdən danışa bilərsinizmi?*

- Əlbəttə, biz qara təbliğatla uzun illərdir ki, üzləşirik. Bunun bir neçə səbəbi var, onlardan biri də bəzi ölkələrdə erməni diaspor təşkilatlarının fəaliyyətidir. Onların fəaliyyətinin hədəfində Azərbaycan dayanır. Azərbaycanı ləkələmək, Azərbaycan haqqında yalanlar yaymaq və beləliklə, ölkəmizin imicinə zərbə vurmaq məqsədləri daim onların gündəliyində olan məsələlərdir.

Son döyüşlərlə əlaqədar da erməni diaspor təşkilatları və onların havadarları, dünya erməniliyi Azərbaycana qarşı mətbuat savaşına başlamışdır. Bunun nəticəsidir ki, bu gün dünya mətbuatında bir çox hallarda təhrif edilmiş məlumatlar yer alır. Ona görə Azərbaycan həqiqətlərini dünya ictimaiyyətinə çatdırmaq üçün bizim böyük səylər göstərməyimiz gərəkdir. Bu baxımdan Türkiyənin mətbuat nümayəndələrinə xüsusi təşəkkürümü bildirmək istəyirəm. Çünki demək olar, hər gün gecə-gündüz Türkiyənin aparıcı televiziya kanalları, digər mətbu orqanları bu münaqişə ilə bağlı həqiqətləri dünyaya çatdırır.

Atəşkəs rejimi tətbiq olunandan sonra Ermənistan demək olar ki, dərhal öz çirkin əməllərini davam etdirmişdir. Biz bir müddət ara vermişdik, çünki biz sözümüzə sadiqik. Bir halda ki, bu atəşkəs haqqında açıqlama verilmişdir, biz ümid edirdik ki, bundan sonra Dağlıq Qarabağ məsələsi siyasi yollarla həll ediləcək. Çünki hesab edirdik ki, hərbi mərhələ artıq başa çatıb, təcavüzkar döyüş meydanında dərsini alıb və bundan sonra reallıqlarla hesablaşıb, diplomatik müstəvidə müsbət yanaşma göstərəcək. Ancaq təəssüf ki, biz bunu görmədik və saat 12-dən qüvvəyə minməli olan atəşkəs Ermənistan tərəfindən pozulmuşdur.

Bildiyiniz kimi, ondan sonra gecə saatlarında mülki şəxslərə qarşı dəhşətli cinayət törədilmişdir. Gəncə şəhəri bombardman edilmişdir. Şəhər "Toçka-U" raketləri ilə atəşə məruz qalmışdır və bunun nəticəsində mülki vətəndaşlar həlak olmuş və yaralanmışlar.

Bu, erməni faşizminin eybəcər sifətinin növbəti təzahürüdür. Artıq dünya erməniliyi, Ermənistanın havadarları, onların hamiləri və islamofob dairələr bu cinayəti gizlədə bilməyəcəklər. Çünki artıq hər şey göz qabağındadır. Dünən o hadisə yerində təşkil olunan mətbuat açıqlamaları və bu gün oraya gedən xarici səfirliklərin nümayəndələri öz gözləri ilə hər şeyi görürlər. Bir daha görürlər ki, bu münaqişənin səbəbkarı kimdir. Kim təcavüzkar siyasət aparır, kim mülki əhaliyə qarşı cinayət törədir. Ermənistan dövləti terror dövlətidir, faşist dövlətidir və insanlığa qarşı törədilmiş bu cinayət bunu bir daha göstərdi.

*- İndi diqqət yetirdiyiniz bu amil çox əhəmiyyətlidir. Biz Türkiyənin terrorla mübarizəsində də bir çox istiqamətdə əməliyyat zonasında fəaliyyət göstərdik. Misal üçün, bizim şəhərlərimizə də PKK-dan bəzi raket atışları, top atışları olurdu. Bilirdik ki, bunu terror təşkilatı törədir. Dünən yayımlarımızda da mən ifadə etdim, insanlığa, vicdana, məntiqə sığmayan bir cavab. Daha əvvəl Siz xalqa müraciətinizdə də ifadə etmişdiniz, xüsusilə Rusiyaya edilən telefon zəngləri var, atəşkəs edək deyə. Atəşkəs əldə olundu, hansı məntiqlə və nə üçün bu hücum törədilir? Bu sualı necə cavablandırarsınız?*

- Burada, ilk növbədə, Ermənistanın terror mahiyyətini nəzərə almaq lazımdır. Çünki onlar döyüş meydanında məğlub olurlar, uduzurlar. Müzəffər Azərbaycan Ordusu hər gün yeni hərbi uğurlara imza atır. Hər gün, demək olar ki, ya hansısa bir şəhər, ya kənd işğaldan azad edilir, yaxud da bu kəndlərin ərazisi nəzarət altına alınır. Bu gün deyə bilərəm ki, bir neçə yaşayış məntəqəsi indi bizim tam nəzarətimiz altındadır. Sadəcə olaraq, o yaşayış məntəqələrinə biz hələ girməmişik, çünki hərbi nöqteyi-nəzərdən buna ehtiyac yoxdur. Ancaq müəyyən müddətdən sonra biz növbəti elanlar edəcəyik. Ona görə bütün cəbhəboyu istiqamətlərdə Ermənistan məğlubiyyətə uğrayır və belə olan halda öz heyfini, öz acısını, öz məğlubiyyətini mülki şəxslərdən çıxmaq istəyir. Bu, onların xislətidir. Çünki Xocalı soyqırımını törədənlər məhz Gəncəyə o hücumu da törətmişlər.

Gəncəyə bu hücumun səbəbkarı Ermənistanın hərbi-siyasi rəhbərliyidir. Bizdə olan məlumata görə, bu qərar şəxsən Paşinyan tərəfindən verilmişdir. Bizdə dəqiq məlumat var ki, Paşinyan hazırda çox ağır psixoloji sarsıntılar keçirir. Onun mənəvi-psixoloji durumu çox gərgindir və qeyri-adekvat qərarlar verir. Məsələn, Hadrutu yenə işğal altına salmaq üçün onlar bir neçə dəfə cəhdlər göstərdilər. Mənə bu səhər verilən məlumata görə, bu gecə Ermənistandan gəlmiş özəl komando qruplarından ibarət olan böyük bir qrup Hadrutu yenidən işğal etməyə çalışıb. Halbuki strateji nöqteyi-nəzərdən bunun Ermənistan üçün o qədər də böyük önəmi yoxdur. Sadəcə olaraq, gedib orada selfi çəkdirmək, yaxud da ki, öz əhalisinə bir hesabat vermək üçün. Azərbaycan Ordusu o qrupu zərərsizləşdirdi və orada bu gecə Ermənistanın verdiyi qurbanlar sırf Paşinyanın məsuliyyətsiz və yırtıcı siyasətinin qurbanlarıdır.

Bu, onların taktikasıdır. Çünki onlar öyrəşiblər ki, dünya meydanında onlara daim dəstək veriləcək. Dünya erməniliyi, onların havadarları, islamofob dairələr, təəssüf ki, dünyada kifayət qədər güclü mövqelərə malikdirlər. Onlar hər zaman Ermənistanı və onların bizə qarşı təcavüzkar siyasətini dəstəkləyirdilər, onları müdafiə edirdilər. Azərbaycan haqqında olmazın yalanlar yayırdılar, azərbaycanlıları təcavüzkar kimi göstərmək istəyirdilər. Ancaq bugünkü dünyada, internet dövründə bunu etmək onlar üçün artıq çox çətindir. Çünki artıq qeyri-ənənəvi mətbuat vasitələri var, internet var və məlumatın çatdırılması o qədər də çətin məsələ deyil. Ona görə bu gün onlar informasiya mübarizəsində də əvvəlki mövqelərə sahib deyillər. Biz isə haqq yolundayıq. Həm beynəlxalq hüquq baxımından, həm tarixi ədalət baxımından biz haqlıyıq. Biz öz torpağımızdayıq, öz torpağımızda vuruşuruq. Erməni əsgəri

bizim torpaqlarımızdan çıxarsa, bu münaqişəyə də son qoyulacaq.

*- Beynəlxalq ictimaiyyət dediniz, gözlədiyiniz, xüsusilə bu hücumdan sonra Qərbdə elə də çox səs eşidilmədi. Gözlədiyiniz etirazı aldınızmı? Dünən cənab Hacıyevin attaşelərlə keçirdiyi toplantıda da şahid olduğumuz bir məqam var. Üç dəfə dedi ki, bir sual verin, açıqlayaq, həqiqətləri sizə izah edim. Cavab gəlmədi.*

- Biz çox da gözləmirdik, buna heç ehtiyac da yoxdur. Çünki bu uzun illər ərzində biz gördük ki, həqiqəti eşitmək istəmirlər, yaxud da ki, həqiqəti pərdələmək istəyirlər, məlumatları, gerçək faktları təhrif edirlər. Bunun da səbəbləri kifayət qədər çoxşaxəlidir. Ona görə, bizim əsas işimiz ondan ibarət idi ki, bu məsələni həll edək, tarixi ədaləti, öz ərazi bütövlüyümüzü bərpa edək. Bunu etmək üçün bizdə kifayət qədər güc var.

Əlbəttə ki, ilk günlərdən, ilk saatlardan qardaş Türkiyədən göstərilən dəstək, mənim qardaşım hörmətli Prezident Rəcəb Tayyib Ərdoğandan səslənən dəqiq açıqlamalar, eyni zamanda, digər yüksəksəviyyəli şəxslərin açıqlamaları həm Azərbaycana mənəvi dəstək verdi, eyni zamanda, bütün dünyaya göstərdi ki, Türkiyə Azərbaycanın yanındadır. Əgər belə olmasaydı, ola bilərdi ki, artıq Ermənistan-Azərbaycan arasında olan bu münaqişə daha da geniş coğrafiyaya sıza bilərdi.

*- Dayanıqlı bir atəşkəs gözləyirsinizmi? Daim pozulur, Moskvadakı 11 saat yarımlıq toplantıdan sonra buna nail olundu. Dünən biz jurnalistlər burada şahid olduq ki, Bakı böyük səbir göstərir.*

- Bəli, biz səbir göstəririk. Əlbəttə ki, Gəncə belə vəhşi atəşə məruz qaldıqda bu, hər bir azərbaycanlını hiddətləndirir və adekvat cavab tələb olunur. Amma biz cavabı döyüş meydanında veririk. Dünən itirilmiş qurbanlarımızın qisasını biz döyüş meydanında aldıq. Bizim münasibətimiz belədir: biz heç vaxt mülki şəxslərlə müharibə aparmamışıq, bu gün də aparmırıq. Bu, Azərbaycanı Ermənistandan fərqləndirən cəhətlərdən biridir. Ona görə dayanıqlı atəşkəsin təmin edilməsi üçün ilk növbədə, Ermənistan anlamalıdır ki, artıq işğaldan azad edilmiş torpaqları onlar görməyəcəklər, onlar oraya qayıtmayacaqlar. Bu, onlar üçün tamamilə qeyri-mümkündür. Kim nə deyirsə-desin, kim onları necə dəstəkləyirsə dəstəkləsin, bu, olmayacaq. Biz bu torpaqlara gəldik, bu, bizim dədə-baba torpaqlarımızdır. Bizi oradan heç bir qüvvə çıxara bilməz. Bunu nə qədər tez anlasalar, onlar üçün o qədər də yaxşı olacaq. Çünki dayanıqlı atəşkəs üçün hər iki tərəfin buna sadiq olması lazımdır. Biz buna sadiqik. Biz günorta saat 12-dən qüvvəyə minmiş atəşkəsə riayət etmişdik, amma görəndə ki, Ermənistan bunu pozur, təbii ki, biz buna səssiz qala bilməzdik. Biz də özümüzü müdafiə etməliyik və beləliklə, demək olar ki, atəşkəs qüvvəyə mindi, amma real həyatda baş vermədi.

*- Çəkilməklə bağlı siqnal alırsınızmı, ən azından həmin nöqtədə? Torpaqlarımızdan çəkilməklə bağlı.*

- Yox, biz belə bir siqnal almırıq və heç kim də bizə belə bir siqnal verə bilməz. Bu, beynəlxalq hüquqa və tarixi ədalətə ziddir. Belə bir siqnal olmamışdır. Siqnallar var ki, dayandırın. Siqnallar var ki, daha irəli getməyin. Siqnallar var ki, atəşkəs təmin edilsin. Biz də deyirik ki, yaxşı, atəşkəs təmin edilsin, ancaq bununla bərabər gərək məsələ sülh yolu ilə həll edilsin.

Moskvada əldə edilmiş razılaşma, hesab edirəm ki, bizim maraqlarımıza tam cavab verir. Çünki, ilk növbədə, orada göstərilir ki, həlak olanların cəsədlərinin, əsirlərin humanitar əsaslarla dəyişdirilməsi nəzərdə tutulur. Biz bunu ilk gündən istəyirdik. Ancaq Ermənistan buna getmirdi. Bundan başqa çox önəmli siyasi məqamlar var. Onlardan biri danışıqların, müzakirələrin bərpa edilməsi, baza prinsipləri əsasında substantiv danışıqların davam etdirilməsidir. Baza prinsipləri isə bizim maraqlarımıza cavab verir. Çünki orada işğal edilmiş torpaqlardan erməni silahlı qüvvələrinin çıxarılması nəzərdə tutulur. Orada göstərilir ki, birinci mərhələdə beş rayondan, ikinci mərhələdə daha iki rayondan erməni silahlı qüvvələri çıxarılır. Ondan sonra təbii ki, bütün məcburi köçkünlər əvvəlki dövrdə yaşadıqları bölgələrə qayıdırlar. Bu da o deməkdir ki, bizim məcburi köçkünlərimiz Şuşaya da, Xankəndiyə də qayıdacaqlar və ondan sonra, yəni, bu məsələnin siyasi həlli təmin edilə bilər.

Digər məsələ, - Ermənistan buna hər zaman o qədər yaxşı baxmırdı, - odur ki, müzakirələrin formatı dəyişməz olaraq qalır. Ermənistan rəhbərliyi və baş nazir Paşinyan hər zaman deyirdi ki, Azərbaycan qondarma “Dağlıq Qarabağ respublikası” ilə danışıqlar aparmalıdır. Biz isə buna etiraz edirdik. Oraya belə bir bəndin salınması yenə də bizim maraqlarımıza cavab verir.

Ona görə artıq hərbi mərhələdən diplomatik siyasi mərhələyə keçid üçün bütün imkanlar, bütün zəmin var. Qaldı ki, Ermənistan bu atəşkəsə əməl etsin. Ümid edirəm ki, Azərbaycanın müzəffər Ordusunun dünən və bu gecə yeni uğurlu əməliyyatları onları buna məcbur edəcək.

*- Siz sentyabrın 27-dən bəri, bu Vətən müharibəsi başladığı andan etibarən yeni bir formatdan, Türkiyənin öz mövqeyini daha fəal qoymasından, bu məsələnin Rusiya və Türkiyə ilə birlikdə həll oluna biləcəyindən bəhs edirsiniz. Amma Türkiyə Lavrovun açıqlamasında yox idi. Sanki bundan sonra ATƏT-in Minsk qrupunda müzakirələrin yenə davam edəcəyinə yönəlik bir açıqlama etdi. Türkiyə necə, nə şəkildə, nə vaxt masada olacaq? Ya da bu barədə danışıldımı?*

- Əlbəttə ki, bu, bizim mövqeyimizdir. Mən bunu bir neçə dəfə açıqlamışam. Bir daha demək istəyirəm ki, mütləq Türkiyə bu məsələnin siyasi yollarla həll olunmasında fəal rol oynamalıdır. Mən onu da bilirəm, Türkiyənin bəzi mətbuat orqanlarında yazılır ki, nə üçün Türkiyə Moskvada olmamışdı. Təbii ki, bu, indiki mərhələdə nəzərdə tutulmurdu. Heç Türkiyə qarşısında da belə bir vəzifə durmurdu. Bu, danışıqlar prosesi deyil. Bu, sadəcə olaraq, humanitar əsaslarla tətbiq olunan atəşkəsdir. Yəni, bu, danışıqların keçirilməsi üçün təşkil edilmiş tədbir deyildi. Danışıqlar bu günə qədər Minsk qrupu çərçivəsində aparılır. Ancaq bu

danışıqların səmərəsi və heç bir nəticəsi yoxdur. Otuz ilə yaxındır ki, bir santimetr torpaq bizə müzakirə yolu ilə qaytarılmadı. Ona görə mən də tam haqlı olaraq dedim, bir halda ki, Minsk qrupu 1992-ci ildə formalaşdı və o zaman hansı əsaslarla formalaşdı, bu haqda bizdə heç bir məlumat yoxdur. Əgər Minsk qrupunun tərkibinə baxsanız görərsiniz ki, orada bu bölgədən uzaqlarda yerləşən ölkələr, bu bölgə ilə heç bir əlaqəsi olmayan ölkələr, münaqişə ilə heç vaxt maraqlanmayan ölkələr də var. Onların orada mövcudluğu formal xarakter daşıyır. Yaxşı, biz əgər bu münaqişənin həll olunmasını istəyiriksə, - amma biz istəyirik, - elə ölkələr olmalıdır ki, onların gücü də olsun, təsiri də olsun və bu tərkib birtərəfli olmasın. İndi Minsk qrupunun həmsədrlərinin ölkələrində erməni diasporlarının fəaliyyətinə diqqət yetirin. Hər üç ölkədə erməni diaspor təşkilatları böyük siyasi imkanlara malikdir. O siyasi imkanlar nəticəsində onlar o ölkələrin vəzifəli şəxslərinə təsir edirlər. Yəni, bu, nə qədər ədalətlidir? Nə üçün Türkiyə də həmsədr olmasın, onsuz da Minsk qrupunun üzvüdür. Ona görə bizim siyasətimizdə tam məntiq və nəticəyə hesablanmış yanaşma var.

Geosiyasi reallıqlar dəyişib. 1992-ci illə bugünkü vəziyyəti müqayisə etmək olmaz. Bu gün Türkiyə nəinki bölgədə, dünya miqyasında güc mərkəzidir. Bunu Qərbdə bir çoxları qəbul etmək istəmirlər, bu, onları qıcıqlandırır. Onlar öyrəşiblər, təəssüf ki, keçən əsrdə bəzi hallarda onların sözü Türkiyə siyasətində çox böyük dəyər təşkil edirdi. Ancaq bu gün Türkiyə tam müstəqil siyasət aparır və dünya miqyasında gücə çevrilibdir. Hansı məsələ bizim bölgəmizdə Türkiyəsiz həll olundu? Baxın, Suriyada, Liviyada, Orta Şərqdə, bizim bölgədə Türkiyə söz sahibidir və bu, reallıqdır. Onunla hesablaşmaq lazımdır.

İndi müzakirələr nə zaman başlayacaq, mən bunu deyə bilmərəm. Çünki Ermənistan bir halda ki, bu atəşkəsi pozur, inanmıram danışıqlarda da səmimi olsun. Ancaq istənilən halda de-yure, ya da de-fakto Türkiyə mütləq bu problemin həllində olmalıdır və onsuz da var. Çünki bu gün sirr deyil ki, biz Türkiyə ilə müntəzəm olaraq məsləhətləşmələr aparırıq. Bu proseslər başlayandan - 27 iyuldan bu günə qədər biz daim əlaqədəyik. Türkiyənin yüksək səviyyəli vəzifəliləri bir çox ölkələrin dövlət və hökumət başçıları ilə sıx təmasdadırlar. Ona görə bu, artıq reallıqdır. Sadəcə olaraq, biz de-fakto reallığı de-yure reallığa çevirməliyik.

*-İndi "Nə üçün o həmsədrlik sistemində Türkiyə olmasın, olmalıdır" ifadəsini işlətdiniz. Bunu bir qədər də aydınlaşdırmaq üçün soruşacağam, amma Sizə istinad edərək. Ötən gün xalqa müraciətinizdə eynilə bu ifadələri işlətdiniz – biz artıq status-kvonu dəyişdirdik, təmas xətti deyə bir şey yoxdur, təmas xəttini yardıq. Yeni müzakirədə həm Türkiyənin iştirakı, həm də bu dediyiniz sözlər barədə bir qədər ətraflı bəhs etsək, tam olaraq nəyi nəzərdə tutursunuz? Bundan sonra Bakı tərəfindən necə bir status-kvo qurulacaq?*

-Bilirsiniz, biz status-kvo ilə əlaqədar uzun illər çox böyük səy göstərdik ki, həmsədrlərdən bununla bağlı bir açıqlama gəlsin. Nəhayət təqribən 7-8 il bundan əvvəl Amerika, Rusiya və Fransa prezidentləri səviyyəsində bir neçə dəfə belə bir açıqlama verildi - status-kvo qəbuledilməzdir və dəyişdirilməlidir. Biz də bunu alqışladıq. Mən də bir neçə dəfə bununla bağlı açıqlama verdim ki, bu, çox müsbət bir yanaşmadır. Yəni, bu, nə deməkdir, o deməkdir ki, erməni silahlı qüvvələri torpaqlarımızdan çıxmalıdır. Status-kvonun dəyişdirilməsini Ermənistan etməlidir. Çünki biz Ermənistan torpaqlarını işğal etməmişik. Biz status-kvonu necə dəyişdirə bilərik? Bu Ermənistan tərəfinə, bir mesaj, bir siqnal idi. Ancaq təəssüf ki, bu açıqlama və açıqlamalar, - bir neçə dəfə belə açıqlamalar verildi, - havada qaldı. Ondan sonra biz nə eşitməyə başladıq? Son dönəmdə artıq həmin həmsədrlər bu ifadədən geriyə addım atdılar. İndi nə deyirlər? İndi deyirlər ki, status-kvo dayanıqlı deyil. Amma bu, böyük bir fərqdir. Status-kvo dəyişməlidir, yəni ki, Ermənistan, sən torpaqlardan çıxmalısan. Status-kvo dayanıqlı deyil, yəni sabit deyil o deməkdir ki, sadəcə olaraq, onlar bunu fakt kimi göstərirlər. Ona görə belə olan halda, status-kvonu Azərbaycan özü dəyişdirdi, döyüş meydanında dəyişdirdi. Artıq status-kvo yoxdur. Artıq Ağdərə, Füzuli, Cəbrayıl, Hadrut rayonlarının yaşayış məntəqələri və kəndlər azad edildi. Hansı status-kvodan söhbət gedə bilər? Söhbət gedə bilməz. Təmas xətti? Təmas xətti yoxdur. Aydın məsələdir ki, mövcud olan təmas xətti çox böyük hərbi biliklər əsasında yaradılmışdır. Ermənistanın o zaman heç bir hərbi bilikləri yox idi. Bunu biz açıq etiraf etməliyik. Yəni, Ermənistanın nüfuzunun az olması onlar üçün çox ciddi bir problem yaradır. Onlar üçün təmas xətti çox qısa olmalı idi, düz olmalı idi. Onu da etdilər. Onların buna ağlı çatmazdı. Onlara məsləhət verənlər bunu etdilər. Əgər o əvvəlki təmas xəttinə baxsanız, bu üfüqi-şaquli formadadır. Belə, düz. Yəni, onu müdafiə etmək çox asandır. Onların mövqeləri əsasən təpələrdə idi. Onlara müdaxilə etmək, yəni, istehkamları yarmaq çox çətin bir iş idi. İndi bu təmas xətti yoxdur. Biz onu bir neçə yerdən - şimaldan, cənubdan, ondan sonra şərqdən yardıq. Artıq hansı təmas xəttindən söhbət gedə bilər? Yoxdur! Azərbaycan Ordusunun xilaskarlıq missiyası davam edir. Hər gün biz yeni mövqeləri azad edirik. O mövqelər şərt deyil ki, kənd olsun, yaxud da ki, şəhər olsun. Təpə olsun, dağ olsun – o, kənddən, şəhərdən daha önəmlidir. Şəhərlərə biz onsuz da qayıdacağıq. Bizim üçün əsas məsələ strateji yüksəklikləri almaqdır. İndi Hadrutun bütün ətrafı bizim nəzarətimizdədir. Şəhərdə də biz varıq. Amma şəhərə girək-girməyək o başqa məsələdir. Bizim qarşımızda indi belə bir siyasi vəzifə yoxdur ki, mütləq bu gün oranı elan edək, sabah oranı elan edək. Yoxdur. Bəzi hallarda biz kəndləri, şəhərləri azad edirik, bir gün, iki son sonra açıqlama veririk. Bunun da taktikası var.

Bir daha deyirəm, status-kvo yoxdur, təmas xətti yoxdur. Ermənilərin öz orduları haqqında uzun illər uydurduğu yenilməz ordu əfsanəsi yoxdur. Biz göstərdik kim kimdir. Ona görə bu reallıqlarla gərək həm Ermənistan hesablaşsın, onların havadarları hesablaşsın, bütün dünya hesablaşsın. Bizə dur deyənlər bilməlidirlər ki, yaxşı, biz dura bilərik, biz də istəmirik ki, qan

tökülsün. Amma ondan sonra gərək siyasi proses başlasın. Siyasi proses başlamasa, biz durmayacağıq. Mən demişəm, biz sona qədər gedəcəyik, sona qədər. Amma necə? Hərbi yolla, yaxud da ki, siyasi yolla, o, başqa məsələdir. Biz istəyirik ki, hərbi mərhələ dursun, qan tökülməsin, şəhidlər olmasın və sülh yolu ilə öz torpaqlarımızı azad edək.

*- İşin siyasi və hərbi tərəfi bir tərəfə. Bu gün biz, daha doğrusu, Bakıya gəldiyimiz andan etibarən oranı tərk etmək məcburiyyətində qalmış insanlarla görüşdük, aralarında xocalılılar, cəbrayıllılar var idi. Azərbaycan dövlətinin, Sizin köməyinizlə tikilən qəsəbələrə getdik. Hər kəsin üzündə bu ifadə var idi: Sizə, dövlətə böyük minnətdarlıq hissi duyurlar. "Biz burada heç bir şeyə ehtiyacımız olmadan yaşayırıq, lakin biz öz torpaqlarımıza dönmək istəyirik" deyirlər. Xüsusilə cəbrayıllılar, "İşğaldan azad edilən torpaqlarda nə edəcəksiniz?" sualına, "Təki bir damımız olsun, kifayətdir" deyirlər. Bəs, Siz nə edəcəksiniz o insanlar üçün? O torpaqlarda yeni inşaat işləri aparılacaq?*

- Biz orada nəinki damlar, biz orada şəhərlər quracağıq, biz oraya həyatı qaytaracağıq. Biz bütün dağılmış yerləri bərpa edəcəyik. Ora indi bizim ordumuzun nəzarətindədir. Artıq işğaldan azad edilmiş torpaqların bəzilərinə bizim mətbuat nümayəndələri də gedirlər. Bəzilərində isə hərbçilər özləri videoya çəkirlər, görürlər ki, orada bir dənə də salamat bina yoxdur. Yəni, bu, faşistlərin əməlləridir. Dünya bunu görməlidir və görəcək. Görün, indi Ağdam, Füzuli nə gündədir?! Bizim bütün kəndləri dağıdıblar. Elə ediblər ki, azərbaycanlılar daha heç zaman oraya qayıtmasınlar, qayıda bilməsinlər. Amma Azərbaycan xalqının iradəsini bilmirlər. Biz Cocuq Mərcanlını təqribən 8 aya qurduq. O kənd ki, biz 2016-cı ildə işğaldan azad etdik, 6-7-8 aya artıq oranı biz inşa etdik və indi orada insanlar yaşayırlar, qazı da, suyu da, elektriki də, məscidi də, xəstəxanası da, məktəbi də, evlər də var, hər şey var. Bir də ki, kənd təsərrüfatı üçün onlara avadanlıq vermişik və indi o kənd dirçəlib. Bütün o torpaqları biz cənnətə çevirməliyik. Onsuz da oranın mənzərəsi cənnətdir və uzun illər erməni tapdağının altında olmasına baxmayaraq, o torpaq canlanacaq, oraya həyat qayıdacaq, uşaqların gülüşü gələcək, insanların təbəssümü qayıdacaq. Azərbaycan vətəndaşları o torpaqlarda ləyaqətlə yaşayacaqlar.

Bizim məcburi köçkünlərimiz bilirlər ki, mənim üçün, Prezident üçün onların problemi bir nömrəli problemdir. Siz də bilirsiniz ki, biz onlar üçün nə qədər böyük yardımlar edirik. Bu il biz 7 min ailəyə yeni mənzillər veririk. Təqribən 35 min insan bir il ərzində dövlət tərəfindən pulsuz mənzil alır. Hər ay dövlət onların hər birinə müavinət verir. Ona görə, təbii ki, onlar dövlətin qayğısından razıdırlar. Mənim onlarla keçirdiyim görüşlərdə onlar hər zaman təşəkkürlərini bildirirlər və deyirlər ki, burada hər şey yaxşıdır, biz bu yeni evlərdə yaşayırıq, belə şəraiti görməmişik, amma bizi ora qaytarın, biz oraya getmək istəyirik və gedəcəklər.

Ona görə biz indi artıq o bölgələrin inkişaf planları üzərində işləməliyik, müvafiq göstərişlər artıq verilibdir. Planlama hazırlanacaq ki, o bölgələrə Azərbaycan əhalisi qayıtsın və maksimum qısa müddət ərzində artıq onlar oraya yerləşsinlər.

- Cənab Prezident, bu qədər sıx qrafikinizin, diplomatik gərginliyin arasında bizə vaxt ayırdığınız üçün Sizə çox təşəkkür edirik.

## *Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev "France 24" televiziya kanalına müsahibə verib*

*- Salam, "France 24"ün müsahibə rubrikasına xoş gəlmisiniz. Bu gün biz Azərbaycanın paytaxtı Bakı şəhərindəyik və mən Azərbaycan Prezidenti İlham Əliyevin yanındayam. Prezident Əliyev, bizim suallarımızı cavablandırmağa razılıq verdiyiniz üçün çox sağ olun. Əlbəttə ki, mən Sizdən Dağlıq Qarabağ münaqişəsi haqqında soruşacağam. Humanitar atəşkəs kimi nəzərdə tutulan atəşkəs barədə razılıq imzalandıqdan bəri zorakılıq və müharibə davam etmişdir. Bu gün Sizdən soruşuram, bu atəşkəs rəsmən artıq etibarsız, bitmiş və ləğv edilmiş hesab olunur?*

- Bu, Ermənistanın davranışından asılıdır, çünki biz həmişə öhdəliyimizə sadiq qalırıq. Bildiyiniz kimi, humanitar zəmində atəşkəsin elan olunması qərarı Rusiyadan gəlmişdir və biz bunu dəstəklədik. Çünki düşünürəm ki, ölmüş əsgərlərin cəsədlərini və girovları mübadilə etmək, fəaliyyəti danışıqlar masasında davam etdirmək üçün, bu, doğru qərar idi. Çünki Moskvada elan olunmuş bəyannamədə faktiki olaraq danışıqların əsas prinsiplər çərçivəsində aparılacağı təmin edilmişdir. Bu, həmişə bizim mövqeyimiz olub. Ermənistan tərəfi həmişə prosesi pozmağa və danışıqlar masasına yeni yanaşmaları tətbiq etməyə çalışırdı. Bunlar bizim tərəfimizdən və Minsk qrupunun həmsədrləri tərəfindən rədd edilmişdir. Digər məsələlərlə birlikdə bəyannamənin ən mühüm hissəsi ondan ibarətdir ki, danışıqların formatı dəyişməz olaraq qalacaq. Bu, çox önəmlidir. Ola bilsin, bunun geniş beynəlxalq auditoriya üçün nə anlam daşıması o qədər aydın deyil. Mən, əlbəttə, bu barədə daha ətraflı məlumat verəcəyəm. Çünki Ermənistanda yeni hökumət hakimiyyətə gələndən sonra son iki il ərzində fəaliyyətlərindən biri qondarma "Dağlıq Qarabağ respublikasının hökumətini" danışıqlar masasına cəlb etmək və beləliklə də danışıqların formatını dəyişmək idi. Çünki iyirmi ildən artıqdır ki, danışıqlar Minsk qrupu prosesi çərçivəsində Ermənistan və Azərbaycan arasında aparılır. Odur ki, qondarma "Dağlıq Qarabağ respublikası hökuməti" danışıqlara cəlb etmək səyləri formatı dəyişdirmək cəhdləri idi. Beləliklə, hər iki tərəf formatın dəyişməz olaraq qalmasına sadiq qaldıqda, bu, hər şeyin əvvəllər razılaşdırılmış çərçivədə olacağı deməkdir. Biz atəşkəs rejiminə əməl edirdik. Lakin bildiyiniz kimi, Ermənistan atəşkəsi kobud şəkildə pozdu və bu, təkcə Gəncədə baş verməyib. Gəncədə

mülki vətəndaşlara hücum onların təcavüzkar siyasətini əks etdirir. Həmçinin onlar atəşkəsi hər gün pozurlar. Bu gün mənə məlumat verilmişdir ki, bu səhər saat 7-dən 9-a qədər onlar Tərtər və Ağdam şəhərlərini 150 dəfədən çox artilleriya atəşinə tutublar. Əfsuslar olsun ki, bu gün Tərtərdə mülki şəxslər arasında bir nəfər həlak olub.

*-Lakin Azərbaycan da atəşi davam etdirib, elə deyilmi? Dünya Dağlıq Qarabağdakı Xankəndidə mülki şəxslərin artilleriya atəşinə tutulması görüntülərini görüb.*

-Atəşkəs elan olunandan bəri Azərbaycan tərəfindən bütün artilleriya atəşi dayandırılmışdır. Bu, birincisi. İkincisi, biz işğal olunmuş ərazilərdə istənilən şəhərdə və ya kənddə qəsdən mülki şəxsləri heç vaxt atəşə tutmuruq. Bizim hədəflərimiz yalnız hərbi qurğular idi. Bizim hərbi hədəflərimiz çox diqqətlə müəyyən olunmuşdur. Odur ki, biz yalnız insanlarımızın və əsgərlərimizin həyatına təhlükə olan hədəfləri vururuq. Lakin əfsuslar olsun ki, ermənilər insanların yaşadığı şəhər yerlərində hərbi qurğuları yerləşdirmək taktikasından istifadə edirlər, biz də özümüzü müdafiə etməli idik. Lakin atəşkəs müəyyən olunandan bəri biz ona sadiq idik, ancaq Ermənistan atəşkəsi pozdu, odur ki, biz cavab verməli idik.

*- Beləliklə, Siz deyirsiniz ki, atəşkəs müəyyən olunandan sonra Azərbaycan tərəfindən heç bir zərbə endirilməmişdir? Hətta hərbi hədəflərə də?*

- Xeyr, hərbi hədəflərə zərbələr endirilmişdir. Biz bunu təkzib etmirik. Lakin bu təbiidir, çünki biz özümüzü müdafiə etməli idik. Atəşkəsə birtərəfli qaydada nail olmaq mümkün deyil. Əks halda, Ermənistan üstünlüyə malik olacaq və öz məqsədinə çatacaq. Əslində, onlar elə bunu etməyə çalışırlar. Onlar azad edilmiş əraziləri geri götürməyə cəhd edirlər. Xüsusilə onlar Hadrut şəhərini geri götürməyə cəhd ediblər. Lakin uğursuzluğa düçar oldular. Mənim onlara məsləhətim belədir və mən artıq Ermənistan hökumətinə və həmçinin Ermənistan xalqına açıq şəkildə mesajımı ünvanlamışam ki, onlar azad edilmiş əraziləri geri götürmək cəhdlərini dayandırmalıdırlar. Bu, yalnız yeni qurbanlara səbəb olacaq və qan tökülməsinə gətirib çıxaracaqdır.

*- Bəs, Dağlıq Qarabağdakı kilsələrin bombardman edilməsi görüntüləri barədə nə deyə bilərsiniz? Əlbəttə ki, onlar hərbi hədəflər deyil.*

- Bəli, siz haqlısınız. Biz bu məsələni araşdırırıq. Onu qeyd etmək istəyirəm ki, Azərbaycan dini tolerantlıq səviyyəsi çox yüksək olan bir ölkədir və bu, bütün aparıcı beynəlxalq təşkilatlar, o cümlədən Birləşmiş Millətlər Təşkilatı tərəfindən qeyd olunmuşdur. Zatimüqəddəsləri, Vatikanın rəhbəri, Roma Papası Fransisk Bakıya səfəri zamanı açıq şəkildə demişdir ki, Azərbaycanda mədəniyyətlərarası və dinlərarası dialoqun səviyyəsi çox yüksəkdir. Siz yəqin ki, Bakının mərkəzində olan, tərəfimizdən bərpa edilmiş erməni kilsəsini görmüsünüz. Biz onu erməni xalqının mirası kimi qoruyuruq. Biz bu kilsədə erməni dilində 5000-dən artıq qədim kitab saxlayırıq. Lakin Ermənistan bizim məscidlərimizə nə edib? Onlar Ağdamın, Füzulinin və Şuşanın məscidlərinə nə ediblər? Demək olar ki, onlar nəinki onları dağıdıblar, orada heyvan saxlayırlar. Onlar orada donuz saxlayırlar və bununla təkcə bizim deyil, bütün müsəlmanların hisslərini təhqir edirlər.

Mən demirəm ki, biz bunu qisas almaq üçün etmişik. Xeyr. Biz bu məsələni araşdırmalıyıq. Biz nə baş verdiyindən əmin deyilik. Bizi günahlandırmaq üçün bunun ermənilər tərəfindən törədilə biləcəyinə dair şübhələrimiz var. Əgər bu, Azərbaycan hərbi birləşmələri tərəfindən törədilibsə, bu, səhv olub. Bizim hədəflərimiz arasında heç bir tarixi və ya dini hədəf yoxdur.

*– Mən indi Sizdən diplomatik proses barədə soruşmaq istəyirəm. ATƏT-in Minsk qrupu, hazırkı həmsədrlər olan Fransa, ABŞ və Rusiya ilə vasitəçilik davam edir. Sizcə Fransanın bu danışıqlarda həmsədr qalması ilə bağlı bu struktur qalmalıdır?*

– Bilirsiniz ki, toqquşmaların əvvəlindən biz bəzi ziddiyyətli bəyanatlar və bəzi mesajlar alırıq. Lakin düşünürəm ki, qarşılıqlı diplomatik səylərimiz sayəsində vəziyyəti nəzarət altında saxlamağa müvəffəq olmuşuq. Bildiyiniz kimi, Prezident Makron mənə bir neçə dəfə telefonla zəng edib və bizim sonuncu söhbətimiz çox müsbət idi. Biz münaqişənin siyasi həll yolunun tapılması səylərinə sadiqik. Mənə məlumat verildi ki, Fransa həmsədr olaraq neytral qalacaq, çünki bu, həmsədrin mandatıdır. Bu səhər mənə məlumat verildi ki, Fransanın Xarici İşlər naziri bəyanat verib ki, Fransa Minsk qrupunun həmsədri olduğuna görə neytral olmalıdır. Biz bu mövqeyi tam dəstəkləyirik və bizim mövqeyimiz hər zaman belə olub ki, bütün həmsədrlər neytral olmalıdır, onlar tərəf tutmamalıdırlar. Çünki bu, onların mandatına ziddir. Hər bir ölkənin milli səviyyədə müttəfiqləri, dostları var, bəzi ölkələrlə daha fəal, bəzi ölkələrlə daha az fəal əlaqələri var. Bu, normaldır və heç kim buna etiraz etmir. Lakin əgər bəzi ölkələrin vasitəçilik mandatı varsa, əlbəttə, əminəm ki, hər iki tərəf – Ermənistan və Azərbaycan neytrallıq gözləyir və hazırda biz bu neytrallığı görürük. Ona görə də, düşünürəm ki, sizin indi qeyd etdiyiniz məsələ bitib, beləliklə, biz həmin səhifəni bağlamışıq.

*– Əvvəlki müsahibələrinizdə Suriyadan 300 döyüşçünün Sizin tərəfinizdə vuruşmaq üçün gətirildiyinə dair açıqlamasından sonra Siz Emmanuel Makrondan üzrxahlıq tələb etmişdiniz. Siz onunla sonuncu dəfə söhbət edən zaman bu məsələ haqqında - onun muzdluların Sizin tərəfinizdə döyüşməyi ilə bağlı ittihamı barədə danışdınızmı?*

– Bəli, əlbəttə ki. Biz bu barədə danışdıq və mən hələ də dəlil gözləyirəm. Mənə heç bir dəlil təqdim olunmayıb. Bizim digər rəsmilərə heç bir dəlil təqdim olunmayıb. Mən Fransa Prezidentindən dəlil təqdim etməyi və danışmaq, bu məlumatı mübadilə etmək üçün müvafiq dövlət qurumlarının rəhbərləri arasında təmaslar təşkil etməyi xahiş etdim. Bu təmas baş tutdu və sizə deyə bilərəm ki, bizə heç bir dəlil təqdim olunmayıb. Ona görə əgər heç bir dəlil yoxdursa, düşünürəm ki, bu şayiələr də keçmişdə qalmalıdır. Bizdə muzdlular yoxdur. Bu, bizim rəsmi bəyanatımızdır. Toqquşmalar

başlayandan artıq 2 həftədən çox vaxt keçib və heç bir ölkə bizə buna dair bir dəlil belə təqdim etməyib. Bundan əlavə, bizim buna ehtiyacımız yoxdur. Bizim 100 mindən çox döyüşçüdən ibarət ordumuz var. Bizim hazırda döyüş meydanında etdiklərimiz ordumuzun öz torpaqlarını özünün azad etməyə qadir olduğunu göstərir.

*– Fransanın Xarici İşlər naziri Jan-İv Le Drian deyib ki, Türkiyənin hərbi iştirakı mövcuddur və bu da münaqişənin beynəlmiləlləşdirilməsinə gətirib çıxara bilər. O, bu məsələdə səhv edir?*

– Bəli, o, bu məsələdə səhv edir. Türkiyənin hərbi iştirakı daha bir feyk xəbərdir. Türkiyənin hərbi iştirakı yoxdur. Biz Türkiyə istehsalı olan hərbi avadanlıqlardan istifadə edirik, bu, doğrudur. Lakin biz Rusiya istehsalı olan hərbi avadanlıqlardan, İsrail istehsalı olan hərbi avadanlıqlardan, digər ölkələrin istehsalı olan hərbi avadanlıqlardan istifadə edirik. Bunu pulsuz əldə edən Ermənistandan fərqli olaraq biz bu hərbi avadanlıqları alırıq. Siyasi müstəvi istisna olmaqla, Türkiyə heç bir halda prosesdə iştirak etmir. Burada Türkiyə qoşunları yoxdur. Türkiyənin F-16-ları buradadır, lakin onlar burada birgə hərbi təlimdən sonra qalıblar. Yeri gəlmişkən, ötən il biz hava qüvvələri də daxil olmaqla, Türkiyə ilə 10 birgə hərbi təlim keçirmişik. Bu il pandemiya səbəbindən biz cəmi 2 təlim keçirdik. Belə alındı ki, hərbi təlimdən sonra bu toqquşma baş verdi. Beləliklə, biz F-16-ları yerdə saxlamağı qərara aldıq və onlar yerdədir, havada deyil.

*– Siz Türkiyə istehsalı olan neçə dron cəlb etmisiniz?*

– Hədəflərimizə çatmağımız üçün kifayət qədər varımızdır. Zənnimcə, məni başa düşə bilərsiniz ki, bu, mənim açıqlamamağa üstünlük verdiyim məlumatdır.

*– Lakin onlar bu münaqişədə öz sözünü deyirlər?*

– Əlbəttə, onlar çox müasir, inkişaf etmiş silahlardır. Sizə deyə bilərəm ki, təkcə Türkiyədən əldə etdiyimiz dronlar vasitəsilə biz Ermənistanın bir milyard dollar dəyərində hərbi texnikasını məhv etmişik, yalnız dronlar vasitəsilə. Əlbəttə, bildiyiniz kimi, biz başqa mənbələrdən olan dronlardan da istifadə edirik. Biz artilleriyadan istifadə edirik, geniş çeşiddə hərbi avadanlıqdan istifadə edirik. Lakin təkcə dronlar Ermənistana 1 milyard dollar ziyan vurub. Bu, onlar üçün ciddi ziyandır. Mənə maraqlıdır onlar bütün bu avadanlığı almaq üçün bu qədər pulu haradan tapıblar, çox güman ki, onu pulsuz əldə ediblər.

*– Təəssüf ki, biz burada yekunlaşmalıyıq. Əlbəttə, Sizə verə biləcəyimiz o qədər çox suallarımız var idi. Prezident İlham Əliyev, bu gün suallarımıza cavab verdiyinizə görə Sizə təşəkkür edirəm. Bizə baxan tamaşaçılara da təşəkkür edirəm. Qarşıda yayımlanacaq beynəlxalq xəbərlərə baxmaq üçün "France 24"ü izləməyə davam edin.*

– Təşəkkür edirəm.

*– Təşəkkür edirəm. Sizinlə söhbət etmək çox maraqlı idi.*

## *Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Rusiyanın Ria Novosti agentliyi üçün "Rossiya Seqodnya Beynəlxalq İnformasiya Agentliyi" media qrupunun baş direktoru Dmitri Kiselyova müsahibə verib*

*-Cənab Prezident, Azərbaycan üçün və bütün dünya üçün bu qədər çətin bir vaxtda Sizə suallar verməyə yaratdığınız imkana görə Sizə ürəkdən təşəkkür edirəm. Beləliklə, icazənizlə, birinci sualı verim. Siz sentyabrın 27-dən başlanmış hərbi əməliyyatların nəticələrini necə qiymətləndirirsiniz? Sizin hesablamalara görə tərəflərin itkiləri nə qədərdir və əsirlər çoxdurmu?*

-Sentyabrın 27-də Azərbaycan Ermənistan silahlı qüvvələrinin növbəti hücumuna məruz qalıb. Bu, son üç ay ərzində birinci hücum deyildi. İyul ayında dövlət sərhədində buna bənzər, lakin nisbətən kiçik miqyaslı hadisə baş vermişdi. O vaxt həmin hücum dəf edildi. Sonra avqust ayında Azərbaycanın dinc əhalisinə və hərbi qulluqçularına qarşı terror aktları törətmək üçün Ermənistan tərəfindən təxribat qrupu göndərildi və bu qrupun başçısı saxlanıldı. Hazırda o, ifadə verir. Sentyabrın sonunda bizim yaşayış məntəqələrimiz yenidən artilleriya atəşlərinə məruz qaldı. Elə ilk saatlarda bizdə həm dinc əhali, həm də hərbi qulluqçular arasında itkilər oldu. Bu günə qədər bizdə dinc əhali arasında 43 nəfər həlak olan və 200-dən çox yaralı var, təmas xəttinə yaxın kəndlərdə və şəhərlərdə 2 minə yaxın ev ya tamamilə dağıdılıb, ya da zərər çəkib. Təəssüf ki, atəşkəs parametrləri razılaşdırıldıqdan sonra da Ermənistan tərəfindən artilleriya atəşləri davam edir, o cümlədən Gəncə şəhərinin vəhşicəsinə bombardman edilməsi nəticəsində 10 nəfər dinc sakin həlak olub və 40-a yaxın adam yaralanıb.

Döyüş meydanında itkilərə gəldikdə isə bizdə olan məlumata görə erməni tərəfin itkiləri bizim itkilərdən xeyli çoxdur. Biz hərbi qulluqçular arasında itkilərimizi münaqişənin qaynar fazası başa çatandan sonra elan edəcəyik. Döyüş əməliyyatlarının nəticələrinə gəldikdə, onlar Azərbaycan Ordusu üçün çox uğurludur. Biz düşmənin dərin eşelonlaşdırılmış müdafiə xəttini yarmağa nail olduq. Bəzi sahələrdə hətta 4 müdafiə xətti vardı. Lakin ərazinin relyefi, dağ relyefi, əlbəttə, müdafiə olunmaq üçün əks-hücumla müqayisədə daha münasibdir. Bu günə qədər onlarca yaşayış məntəqəsi, o cümlədən Cəbrayıl şəhəri və Cəbrayıl rayonunun kəndlərinin çox hissəsi, Füzuli rayonunun kəndlərinin əksəriyyəti, strateji əhəmiyyətli Suqovuşan qəsəbəsi işğaldan azad edilib. Biz işğalçıları Murovdağ silsiləsindəki strateji yüksəkliklərdən çıxarmışıq və ölkəmizin ərazi bütövlüyünün bərpası üzrə uğurlu əməliyyatı davam etdiririk.

*-Cənab Prezident, Suriyadan və ya Liviyadan olan muzdluların Azərbaycan Ordusu tərəfində iştirak etməsi*

*barədə müxtəlif mənbələrdən xəbərlər eşidirik. Buna nə dərəcədə inanmaq olar?*

-Bu mövzuda dəfələrlə danışmışam. Azərbaycanda hər hansı xarici hərbi iştiraka ehtiyac yoxdur. Bizim orduda 100 mindən çox döyüşçü var. Zərurət yaranarsa, səfərbərlik hesabına bu rəqəm bir neçə dəfə artırıla bilər. Bu gün malik olduğumuz silahlı dəstələr onların qarşısına qoyulan istənilən vəzifəni yerinə yetirməyə tam qadirdir. Erməni hərbi texnikasının məhv edilməsi kadrları internetdə əlçatandır. Əlbəttə, heç bir muzdlunun bu dərəcədə ixtisası və belə texniki imkanları yoxdur. Biz təkcə pilotsuz zərbə uçuş aparatları vasitəsilə düşmənin 1 milyard dollardan artıq dəyərində hərbi texnikasını məhv etmişik. Buraya bizim malik olduğumuz başqa vasitələr daxil deyil. Azərbaycan Ordusunun potensialı məlumdur. Bizim nəyə malik olduğumuz heç kəs üçün sirr deyil. Buna görə bizim əlavə hərbi qüvvələrə ehtiyacımız yoxdur. Azərbaycan beynəlxalq terrorizmə qarşı həmişə ardıcıl mübariz olub. Əlbəttə, hansısa terror təşkilatlarının bizim ərazimizdə yuva salmalarına, xüsusən bizim xalqımız və qonşularımız üçün təhdid mənbəyi olmalarına heç vaxt imkan verməyəcəyik. Biz buna heç vaxt imkan verməyəcəyik. Azərbaycan ərazisində indiki hərbi toqquşmalarda iştirak edən xarici silahlı dəstələrin mövcudluğu barədə heç kəs bizə heç bir sübut təqdim etməyib. Bizim rəsmi mövqeyimiz belədir ki, bizdə heç bir əcnəbi muzdlu yoxdur.

*-Cənab Prezident, 10 oktyabr tarixli Moskva razılaşmalarında nizamlamanın baza prinsiplərinin adları çəkilir. Zəhmət olmasa, bu prinsipləri açıqlayın, Siz onları necə başa düşürsünüz?*

-Bu prinsiplər uzun illər ərzində, deyərdim ki, 10 ildən artıq müddətdə işlənib hazırlanıb. Ermənistanın əvvəlki rəhbərliyi ilə iş prosesində biz mövqelərimizin razılaşdırılması istiqamətində çox fəal irəliləyirdik. Bu, çox mürəkkəb məsələ idi. Danışıqlar istənilən halda, xüsusən belə mühüm məsələdə mürəkkəb prosesdir. Buna baxmayaraq, hər iki tərəf siyasi nizamlama yolu ilə getmək arzusu nümayiş etdirirdi. Lakin təəssüf ki, Ermənistanın indiki rəhbərliyi hakimiyyətə gələndən sonra erməni tərəfi o vaxta qədər əldə edilənlərin hamısını sadəcə kənara atdı. Üstəlik, danışıqların formatını dəyişməyə, qondarma "Dağlıq Qarabağ respublikası"nın qondarma "hakimiyyət orqanları"nı danışıqlara cəlb etməyə cəhd göstərildi. Bu cəhd həm bizim tərəfimizdən, həm də ATƏT-in Minsk qrupunun həmsədrləri tərəfindən rədd edildi.

Baza prinsiplərinə gəldikdə, orada hər şey dəqiq yazılıb. Azərbaycanın işğal edilmiş rayonlarının mərhələli şəkildə azad olunması nəzərdə tutulur. Birinci mərhələdə işğal edilmiş ərazilərin cənub-şərq hissəsindəki 5 rayon, ikinci mərhələdə Dağlıq Qarabağ ilə Ermənistan arasında yerləşən ərazilər – Laçın və Kəlbəcər rayonları işğaldan azad edilməli, bütün kommunikasiyalar, o cümlədən Ermənistan-Azərbaycan sərhədinin digər hissələrində yerləşən kommunikasiyalar açılmalı, qaçqınlar və məcburi köçkünlər əvvəlki yaşayış yerlərinə qaytarılmalıdır. Bu, azərbaycanlı köçkünlərin həm Şuşa ərazisinə, həm də keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin digər rayonlarının ərazisinə qaytarılmasını və Dağlıq Qarabağın tərəflər arasında razılaşdırılmalı olan qəti statusunun müəyyən edilməsinə dair danışıqları nəzərdə tutur. Qısa desək, Azərbaycanın həmişə hörmətlə yanaşdığı baza prinsipləri bunlardır və onları biz hazırlamışıq. Lakin Ermənistanın yeni hakimiyyət orqanları dəfələrlə bəyan ediblər ki, bu prinsiplər onlar üçün qəbuledilməzdir, onlar bircə qarış belə torpağı qaytarmayacaqlar. Bunu Ermənistanın baş naziri deyirdi. Ermənistanın müdafiə naziri deyirdi ki, Ermənistan yeni ərazilər üçün yeni müharibəyə hazırlaşır. Bizim ünvanımıza daim hədələr və təhqirlər səslənirdi, nəticəsi də bax bu cür qarşıdurma oldu. Düşünürəm ki, erməni tərəf vəziyyəti, yaranmış yeni vəziyyəti ayıq şəkildə qiymətləndirməli və atəşkəs rejiminə sadiq olmalıdır. Halbuki, o, bir neçə saatdan sonra gecənin bir aləmində dinc Gəncə şəhərini bombalayaraq atəşkəsi vəhşicəsinə pozub.

*-Cənab Prezident, kompromislər barədə danışmalı olsaq, hər halda, Siz hansı kompromislərə hazır olardınız? Elə bir hədd varmı ki, Siz heç bir halda həmin həddən artıq geri çəkilməzsiniz?*

-Bizim mövqeyimiz həmişə çox konstruktiv, ardıcıl olub. Bu mövqe həm də BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi, Ermənistan qüvvələrinin bizim ərazilərdən dərhal, tamamilə və qeyd-şərtsiz çıxarılmasını tələb edən 4 qətnamənin yerinə yetirilməsi baxımından beynəlxalq hüququn normalarına əsaslanıb. Bizim mövqeyimiz həmişə praqmatik yanaşmaya əsaslanıb. Düşünürəm ki, danışıqlar masası üzərində olan variantlar bunu aşkar göstərir. "Qırmızı xətlərə" gəldikdə isə biz bunu çox dəqiq bəyan etmişik və Minsk qrupunun həmsədrləri bunu yaxşı bilirlər. Azərbaycanın ərazi bütövlüyü heç bir şərtlə pozula bilməz. Azərbaycan Dağlıq Qarabağın müstəqilliyinə heç bir şərtlə razılıq verməyəcək. Lakin, eyni zamanda, bizim təklifimiz buna əsaslanırdı ki, gələcəkdə Dağlıq Qarabağ ərazisində erməni icması və Azərbaycan icması dinc yanaşı yaşamalıdır. Yeri gəlmişkən, Azərbaycanın digər yaşayış məntəqələrində, o cümlədən çoxminlik erməni icmasının mövcud olduğu Bakıda, Rusiyada, Gürcüstanda, digər ölkələrdə ermənilərlə azərbaycanlılar bəzən bir kənddə yaşayır və işləyir, onların arasında heç bir ziddiyyət yaranmır. Buna bizdə nə üçün nail olmaq mümkün deyil? Biz bu əzmdəyik. Lakin əlbəttə, etnik təmizləmələrin nəticələri aradan qaldırılmalıdır və bizim bütün məcburi köçkünlər öz evlərinə qayıtmalıdırlar. Prinsip etibarilə mən sizə mümkün kompromislərə bizim yanaşmamızı baza prinsiplərindən bir qədər geniş açıqladım.

*-Cənab Prezident, bu müharibə öz qəddarlığına görə artıq tarixə düşüb və Siz artıq bu müharibənin tarixinin bir hissəsisiniz. Siz tarixdə necə qalmaq istərdiniz?*

-Bilirsiniz, hər bir müharibə qəddarlıq, qurbanlar, insanların iztirabları, yaxın adamların itirilməsi deməkdir. Fərq ondadır ki, Azərbaycan xalqı üçün bu müharibə azadlıq müharibəsi, Ermənistan üçün isə işğalçılıq

müharibəsidir. Heç kəs üçün gizli deyil və bu faktı artıq beynəlxalq vasitəçilər də bilir ki, qondarma "Dağlıq Qarabağ ordusu" yoxdur. Bu gün erməni tərəfin belə adlandırdığı birləşmədəki hərbi qulluqçuların 90 faizi Ermənistan vətəndaşıdır. Onlar hərbi xidmətə Ermənistanın hərbi komissarlıqları tərəfindən çağırılır və Azərbaycanın işğal edilmiş ərazilərinə - Ağdama, Füzuliyə, Cəbrayıla, Kəlbəcərə, Qubadlıya, Laçına, Zəngilana göndərilir. Sual olunur: onlar orada nə edirlər? Bu gün Ermənistanın işğalçı qüvvələri Azərbaycanın beynəlxalq aləmdə tanınmış ərazilərindədir. Buna heç nə ilə haqq qazandırmaq olmaz – istər beynəlxalq hüquq baxımından, istərsə də bəşəri əxlaq baxımından. Başa düşürsünüzmü, 30 il ərzində azərbaycanlıların öz əzəli torpaqlarına buraxılmaması siyasətini yürütmək mümkün deyil. Axı, erməni əhalisi bu ərazilərdə heç vaxt yaşamayıb. Başqa bir məsələ də var ki, orada hər şey dağıdılıb, oraya qayıtmaq üçün çox böyük qüvvə və vaxt sərf etmək lazımdır. Ermənilərin bu siyasətinə heç cür haqq qazandırmaq olmaz. Ona görə ki, bizim hərbi qulluqçular Azərbaycan torpağında döyüşür və həlak olur. Erməni hərbi qulluqçular isə onların hökumətinin işğal altında saxlamaq istədiyi torpaqda həlak olurlar.

Tarixdə rol məsələsinə gəldikdə isə, bilirsiniz, mən əvvəllər heç vaxt, indi isə xüsusən bu barədə düşünməmişəm. Mənim əsas amalım Azərbaycan xalqının etimadını doğrultmaq, bu vəzifədə olduğum bütün illər ərzində verdiyim vədləri yerinə yetirmək və ölkəni inkişaf yolu ilə aparmaq, onun ərazi bütövlüyünü təmin etməkdir. Mənim rolumun gələcəkdə necə qiymətləndiriləcəyi isə artıq bizim nəyə nail olacağımızdan, Azərbaycan xalqının iradəsindən asılı olaraq müəyyən ediləcək. Ona görə düşünürəm ki, bu məsələni o adamların mülahizəsinə saxlamaq lazımdır ki, onların fikri məndən ötrü bu və ya digər qərarların, o cümlədən Dağlıq Qarabağ məsələsi ilə bağlı qərarların qəbul edilməsində həmişə əsas olub.

*-Cənab Prezident, sağ olun. Mən nəzərdə tutduğum sualların hamısını verdim. Bəlkə Siz daha nə isə əlavə etmək istərdiniz?*

-Mən bu fürsətdən istifadə etmək istərdim. Yeri gəlmişkən, öz sözlərimi çoxmilyonluq Rusiya auditoriyasına çatdırmaq üçün bu imkana görə təşəkkürümü bildirirəm. Sadəcə istərdim ki, Azərbaycanın mövqeyini anlayanlar çox olsun. Ona görə ki, bəzən bu münaqişə, onun tarixi, bugünkü vəziyyəti ilə bağlı müxtəlif fikirlər olur. Sadəcə faktlara istinad etməklə, əslində, nələr baş vermiş olduğunu və indi nələr baş verdiyini tamaşaçıların diqqətinə çatdırmaq istəyirəm. XIX əsrin əvvəlində Qarabağ və Şuşa xanı İbrahimxəlil, - onun statusu məhz belə olub, - Qarabağ xanlığının Rusiyanın tərkibinə daxil olması barədə general Sisiyanovun şəxsində çar Rusiyası ilə müqavilə bağlayıb. Kürəkçay müqaviləsi adlanan bu sənədin mətni internetdə yerləşdirilib. Onunla hər kəs tanış ola bilər. Bu müqavilədə Qarabağ xanlığının erməni əhalisi barədə bircə kəlmə də deyilməyib. Erməni əhalisinin bu regiona kütləvi şəkildə köçürülməsi 1813-cü və 1828-ci illərdə iki Rusiya-İran müharibəsindən sonra başlanıb və o vaxtdan müasir İran ərazisindən və qismən Şərqi Anadoludan ermənilərin Qarabağ regionuna kütləvi şəkildə köçürülməsi başlanıb. Bu, həmin torpağın tarixən kimə məxsus olması barədə.

Rusiya imperiyası dağılandan sonra, 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyəti və müstəqil erməni dövləti yaradıldı. Azərbaycan Xalq Cümhuriyyəti bütün bu ərazilər çərçivəsində yaradılmışdı. Üstəlik, Azərbaycan Xalq Cümhuriyyəti onun yaradılmasının elan edilməsinin ertəsi günü İrəvan şəhərinin paytaxt kimi Ermənistana verilməsi barədə qərar qəbul etdi. Bu da tarixi faktdır. 1921-ci ildə Qafqaz Bürosu Dağlıq Qarabağın, bəzi yalançı tarixçilərin dedikləri kimi Azərbaycana verilməsi haqqında deyil, onun Azərbaycanın tərkibində saxlanılması haqqında qərar qəbul etdi. Bu regionun tarixi belədir. SSRİ-nin dağılması mərhələsində nələr baş verdiyi isə, düşünürəm ki, hamıya məlumdur. Əslində, SSRİ-nin dağılması da Dağlıq Qarabağda separatizmdən başlandı. Bu, bir növ tətik oldu. Axı, çoxları həmin mitinqləri, onları kimin təşkil etməsini, bu hadisələrin arxasında kimlərin dayandığını unudur. Mən tez-tez deyirəm ki, Paşinyan Sorosun məhsuludur. Düşünürəm ki, hamı mənimlə razılaşar. Lakin Soros artıq şəxsiyyət deyil. Bu, anlayışdır və mən bunu əsla istisna etmirəm ki, o vaxt böyük ölkəni dağıtmaq üçün bu cür vasitələr işə salınmışdı. Onu daxildən partlatmaq, nifaq toxumu səpmək, xalqları bir-birinə qarşı qızışdırmaq və dövlətləri parçalamaq - yeri gəlmişkən, belə də oldu. Buna görə də, sadəcə, bu tarixi faktları Rusiya ictimaiyyətinin diqqətinə çatdırmaq və demək istərdim ki, Azərbaycan və Rusiya çoxəsrlik dostluq, əməkdaşlıq, qarşılıqlı anlaşma telləri ilə bağlıdır. Əminəm ki, heç bir qüvvə buna təsir göstərə bilməz. Doğrudur, müxtəlif istiqamətlərdən nifaq salmaq, müəyyən etimadsızlıq yaratmaq cəhdlərini görürük. Lakin həm Rusiya, həm də Azərbaycan rəhbərliyinin ardıcıl siyasəti sayəsində biz nəinki geriləmirik, biz irəliyə gedirik. Bu gün Rusiya və Azərbaycan bir-birini strateji tərəfdaşlar adlandırır. Bizim ölkələrimiz arasında qarşılıqlı əlaqələrin səviyyəsi hər hansı qonşular üçün nümunə ola bilər. Əminəm ki, münaqişənin hərbi fazası başa çatandan və siyasi nizamlamaya keçəndən sonra, - əgər Ermənistan tərəfi itirdiklərini və ona mənsub olmayanı güclə qaytarmaq cəhdlərindən əl çəkərsə, biz bunu etməyə günü sabah hazırıq, - inanıram ki, Rusiya bizim regionda sabitləşmə işində aparıcı rol oynamaqda davam edəcək. Buna görə sizin kanalınız vasitəsilə bütün rusiyalıları səmimi salamlamaq, onlara ən xoş arzularımı çatdırmaq istərdim. Keçən il bir milyon rusiyalı Azərbaycana səfər edib. Ümidvaram ki, pandemiyadan sonra bu dinamika bərpa olunacaq. Rusiyalı qonaqlarımıza həmişə şadıq. Onlar da bilirlər ki, Azərbaycana gələndə özlərini evlərində olduğu kimi hiss edirlər.

*-Cənab Prezident, bu səmimi müsahibəyə görə çox sağ olun.*

- Sağ olun.

## *Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Türkiyənin "A Haber" televiziya kanalına müsahibəsi*

*- "A Haber" ekranlarından hər kəsə salamlar. Bütün dünyanın gözü Qarabağ bölgəsindədir. Otuz ildir erməni işğalı altındakı Qarabağda hazırda böyük bir faciə yaşanır. Çünki ermənilər humanitar atəşkəsə baxmayaraq, xüsusilə mülki şəxsləri və Azərbaycan Ordusunu hədəfə almağa davam edirlər. Təbii ki, Azərbaycan Ordusu da bu hücumları cavabsız qoymur və erməni ordusuna ağır zərbələr vurulur.*

*Bəs, bölgədə son durum necədir, bundan sonra nələr yaşanacaq? Bu durumla bağlı Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin fikirlərini öyrənəcəyik.*

*Cənab Prezident, bizi qəbul etdiyiniz üçün sağ olun, xüsusilə "A Haber" adından çox təşəkkür edirik.*

- Sağ olun, təşəkkür edirəm.

*- Cənab Prezident, təbii ki, müsahibəmizə bölgədəki vəziyyətlə başlayacağıq. Dünən Ermənistan yenə mülki şəxsləri hədəfə aldı. Tərtərdə bir məzarlıq hədəfə alındı və 3 azərbaycanlı qardaşımız şəhid oldu. Siz bu hücumu necə dəyərləndirirsiniz?*

- Bu, erməni faşizminin növbəti təzahürüdür. Onlar adətən döyüş meydanında məğlubiyyətə uğrayanda mülki şəxslərə atəş açırlar. Bunu biz birinci Qarabağ savaşında da gördük. Məhz Xocalı soyqırımını törədənlər bizim həmin mənfur qonşularımızdır.

Bu dəfə də görəndə ki, artıq döyüş meydanında Azərbaycan Ordusu qarşısında acizdirlər və işğal edilmiş torpaqlarda bizə qarşı müqavimət göstərə bilmirlər, onlar yenə də mülki vətəndaşları hədəfə aldılar və namərd hücum nəticəsində bizim insanlarımız həlak oldular, həm Gəncədə, həm də dünən Tərtərdəki qəbiristanlıqda. Bu insanların dəfn mərasimində iştirak etdikləri bir yerdir, hər bir insan üçün müqəddəs bir yer sayılır. Ancaq bizim mənfur qonşularımız üçün müqəddəs anlayışı görünür ki, yoxdur. Bu, insanlığa qarşı cinayətdir, bir daha Ermənistanın yırtıcı xislətini göstərir. Ancaq bir də onu göstərir ki, bu namərd hücumlar bizi yolumuzdan döndərə bilməz, Azərbaycan xalqının iradəsini qıra bilməz. Biz öz ərazi bütövlüyümüzü bundan sonra da bərpa etməyə davam edəcəyik.

*- Təbii ki, Azərbaycan mülki şəxslər məsələsində olduqca diqqətli, çox dəqiq davranır. Bu ana qədər bir erməni mülki şəxsin belə burnu qanamadı. Ancaq indiyədək 46 azərbaycanlı qardaşımız şəhid oldu. Qərbə baxdığımız zaman, Qərb bu qətliamlara münasibətdə niyə səssizdir?*

- Təəssüf ki, mülki şəxslər arasında insan itkisi davam edir, artıq 47 nəfər oldu və 222 mülki şəxs yaralandı, 2 minə yaxın ev ya tamamilə dağıldı, ya da ki, böyük ziyan gördü. Mən bunu demişdim, biz bu insanların qisasını döyüş meydanında alacağıq. Biz heç zaman mülki şəxslərə qarşı atəş açmamışıq, bu gün də açmırıq, baxmayaraq ki, Gəncəyə, Tərtərə hücumlar oldu. Bu gün səhər saat 6-dan 8-ə qədər, - indi saat 9:10-dur, - Tərtər, Ağdam, Goranboy və digər rayonlara 220-dən çox mərmi düşüb. Yəni, bu namərd hücumlar davam edir. Onların əsas hədəfi mülki şəxsləri öldürmək, Azərbaycan əhalisi arasında panika, qorxu yaratmaq, bizi dayandırmaq və öz çirkin niyyətlərinə çatmaqdır. Ancaq görürlər ki, bu, alınmır və nə qədər mərmi düşürsə-düşsün Azərbaycan vətəndaşları öz torpağında qürurla yaşayırlar və bütün bu çətinliklərə dözürlər. Onları birləşdirən bir amal var – Qarabağın qaytarılması, Azərbaycan bayrağının işğal edilmiş bütün torpaqlarda qaldırılması və ərazi bütövlüyümüzün bərpa edilməsidir.

O ki qaldı, toxunduğunuz ikinci məsələyə - niyə Qərb səssiz qalır? Biz bunu birinci Qarabağ savaşında gördük. Ermənistan bizə təcavüz etdi, Ermənistan bizim torpaqlarımızı işğal etdi, Ermənistan bizim xalqımıza qarşı soyqırımı törətdi, ancaq sanksiyalar Azərbaycana tətbiq edildi. O zaman – 1992-ci ildə, 1993-cü ildə Qərb mətbuatında belə bir təsəvvür yarandı ki, sanki Azərbaycan işğalçıdır, Azərbaycan təcavüzkardır, Ermənistan isə bu təcavüzün qurbanıdır. Bu gün də bunu az miqdarda, az həcmdə görürük. Çünki artıq həqiqəti danmaq, gizlətmək mümkün deyil.

*- Cənab Prezident, 1993-cü ildə, xüsusilə noyabr ayında yenə o dönəmdə atəşkəs elan edilmişdi. Atəşkəsi yenə Ermənistan pozmuşdu, qətliamlar törətmişdi. İndi baxdığımız zaman atəşkəsi pozan yenə Ermənistandır. Bu atəşkəslə Azərbaycan Ordusunun irəliləyişinin dayandırılmasımı istənilir?*

- Bilirsiniz, bu, onların taktikasıdır. Atəşkəsi istəyən Ermənistan oldu. Onlar görəndə ki, artıq döyüş meydanında işğal edilmiş torpaqları qoruya bilmirlər, onları saxlaya bilmirlər, onlar atəşkəs üçün müraciət etdilər. Bizə də belə müraciət gəldi, - bilirsiniz ki, Rusiya bu missiyanı öz üzərinə götürmüşdür, - biz də dedik ki, humanitar məqsədlər üçün, cəsədlərin dəyişdirilməsi, əsirlərin dəyişdirilməsi üçün atəşkəs elan oluna bilər. Amma, eyni zamanda, Moskva açıqlamasında bu, göstərildi ki, müzakirələr mahiyyət üzrə bərpa edilməlidir. Həmçinin müzakirələrin formatı da dəyişməz qalmalıdır. Ancaq görünür ki, onlar bu atəşkəsdən istifadə etmək istəyiblər, bir gün keçməmiş Gəncəyə bu namərd hücumu təşkil etdilər. Ondan sonra bizim digər şəhərlərimizi vurmağa başladılar və faktiki olaraq bu atəşkəsi kobudcasına pozdular. Ona görə bu, onların taktikasıdır. Görünür, onlara bu atəşkəs ona görə lazım idi ki, öz qüvvələrini toparlasınlar, səfərbərlik tədbirləri görülsün və bizə yeni hücum təşkil edilsin. Çünki bu atəşkəsdən sonra onlar Hadrut qəsəbəsini yenə də işğal altına almaq istədilər, üç dəfə oraya hücum etdilər. Amma üç dəfə də məğlub oldular. Onların niyyəti itirilmiş və onlara mənsub olmayan torpaqları yenə də qaytarmaq və beləliklə, öz işğalçılıq siyasətini davam etdirməkdir.

*- Bu arada, "Hadrut hələ də bizdədir", - deyə hazırda yalan təbliğat aparılır, qəbul edə bilmirlər.*

- Bəli, bu günə qədər bu yalan təbliğatı aparırlar. Hadrutda artıq neçə gündür ki, Azərbaycan bayrağı

dalğalanır. Hadrutun ətrafındakı yüksəkliklərin, təpələrin mütləq əksəriyyəti bizim nəzarətimizdədir. Əgər Hadrut götürülməsəydi, Xocavənd rayonunun kəndləri də götürülə bilməzdi, o zaman Füzuli rayonunun kəndləri də götürülə bilməzdi. Biz ancaq Hadrut istiqamətindən oraya irəlilədik.

*- Cənab Prezident, humanitar atəşkəsin tətbiq edildiyi tarixdən etibarən xüsusilə İrəvanın hava limanına Rusiyadan, İrandan karqo təyyarələri ilə davamlı olaraq raketlər göndərilir. Bununla da, əslində, cinayət törədilir. Bu barədə, xüsusilə İran Prezidenti Ruhani ilə sərhəd qapısının bağlanması ilə bağlı danışdınız, Rusiya ilə də danışdınız, raketlərin göndərilməsi barədə. Bu silahlar ödənişsiz verilir. Bu baxımdan İran və Rusiyaya nə demək istərdiniz?*

- İrandan Ermənistana silahların göndərilməsi ilə əlaqədar bizdə hər hansı bir məlumat yoxdur. Əksinə, deyə bilərəm ki, İran və Gürcüstan öz hava məkanını və quru yollarını Ermənistana silahların daşınmaması üçün bağladı. Buna görə biz İran və Gürcüstan hökumətlərinə bir daha təşəkkürümüzü bildirmək istəyirik. Bizdə olan məlumata görə, Gürcüstan ərazisindən bu gün mülki təyyarələrlə, eyni zamanda, karqo təyyarələri ilə qaçaq yolla silah göndərilir.

Ermənistan bu yaxınlarda bir təyyarə satın almışdır. Bizdə olan məlumata görə, təqribən 30-40 milyon dollara almışdır. Bu təyyarəni alan Rusiyada yaşayan zəngin erməni iş adamlarıdır, Karapetyan, Abramyan və başqaları. Onlar Rusiyada yaşayan erməniləri bizə qarşı vuruşmaq üçün Qarabağa muzdlu kimi göndərirlər. Eyni zamanda, bu "İl-76" təyyarəsinin alınması Ermənistana imkan verdi ki, o silahları qaçaq yollarla Ermənistana gətirsin. Çünki hər dəfə hərbi təyinatlı məhsullar göndəriləndə bu, bəyan edilir. Onların bəyanatlarında isə bu, mülki karqodur. Amma onun içərisində tank əleyhinə "Kornet" və "Konkurs" silahları, "İqla" hava hücumuna qarşı silahlar, eyni zamanda, bizdə olan məlumata görə, Rusiyada qaçaq yollarla alınmış raketlər göndərilir. Ona görə biz Beynəlxalq Mülki Aviasiya Təşkilatına rəsmən müraciət etdik ki, bu məsələni araşdırsın, bunu dayandırsın. Bu, beynəlxalq cinayət sayılır. Bu qaçaq silahların Ermənistana göndərilməsi qəbuledilməzdir.

Rusiya rəsmi orqanları tərəfindən də bizə açıqlama verildi ki, Rusiya Ermənistana silah göndərmir. Ona görə bizim fikrimizcə, bu silahları Rusiyada yaşayan erməni iş adamları, zəngin iş adamları qanunsuz yollarla bəzi hərbi zavodlardan alıb Ermənistana göndərirlər. Bu istiqamətdə araşdırmalar davam etdirilir.

*- İndi isə, cənab Prezident, cəbhəyə "gedəcəyik". Təbii ki, Azərbaycan və Türkiyə xalqları cəbhədən gözəl xəbərlər, gözəl müjdələr gözləyirlər. Mən xəritəni göstərmək istəyirəm, təbii ki, 18 min kvadratkilometrlik bir ərazidən bəhs edirik. Bu ərazi otuz ildir ki, işğal altındadır. Bu bölgələrin bu günə qədər neçə min kvadratkilometrlik sahəsi azad edilib? Hazırda Azərbaycan Ordusu irəliləyir, böyük zərbələr vurur. Deyirik ki, bu günə qədər erməni ordusu öz gücünün yarısını itirib. Rəqəm olaraq erməni ordusu nə qədər itkiyə uğradıldı? Bununla bağlı bir rəqəm öyrənə bilərikmi, cənab Prezident?*

- Azad edilmiş torpaqları hesablamaq o qədər də çətin məsələ deyil, halbuki hər gün bu, dəyişir. Dünən mən yeni altı kəndin işğaldan azad edilməsi xəbərini Azərbaycan xalqına çatdırdım. Ondan əvvəlki gündə daha çox sayda kəndlər azad edildi. Bu proses davam edir. Demək olar ki, hər gün biz yeni əraziləri işğaldan azad edirik, hər gün yeni strateji yüksəklikləri azad edirik. Ona görə bu rəqəmlər dəyişir. Ancaq bu gün rəsmi qaydada verilən məlumat deməyə əsas verir ki, hansı bölgələr azad edildi.

İndi bu xəritədə, misal üçün, Hadrut yoxdur. Artıq Hadrut bizdədir. Füzulinin ətrafında kəndlərin mütləq əksəriyyəti bizdədir. Artıq Füzuli bizim gözümüzün qabağındadır. Ondan sonra cənub istiqamətində də irəliləmişik. Şimalda Murovdağ mövqeləri bizdədir, Suqovuşan bizdədir. Yəni, bütün istiqamətlər üzrə böyük uğurlar əldə etdik və bu proses davam edir. Hesab edirəm və əminəm ki, Azərbaycan xalqı bunu diqqətlə izləyir. Xüsusilə o kəndlərin sakinləri ki, o kəndlər işğaldan azad edilir, onlar üçün əlbəttə, bu, tarixi günlərdir.

*- Yəni, orta hesabla təxminən neçə min kvadratmetr olur?*

- Bunu demək istəməzdim. Çünki bu, hər gün dəyişən rəqəmdir. Ancaq bizim məqsədimiz ərazi bütövlüyümüzü tam bərpa etmək və Azərbaycan bayrağını işğal edilmiş bütün torpaqlarda qaldırmaqdır.

*- Bəs, erməni itkiləri ilə bağlı rəqəmin nə qədər olduğunu deyə bilərsiniz?*

- Bu rəqəmlər də hər gün dəyişən bir statistikadır. Yalnız 200-dən çox tank məhv edildi, 33 tank qənimət kimi götürüldü, onlar bizdə saz vəziyyətdədir. Hava hücumuna qarşı 35 OSA sistemi məhv edildi. Hava hücumuna qarşı çox müasir iki S-300 sistemi məhv edildi.

*- Çox qiymətli, bahalıdır.*

- Bəli, çox qiymətli, ondan sonra TOR, o da çox bahalı, o da hava hücumuna qarşı sistemdir. Təqribən 170 karqo maşını ya məhv edildi, ya da bizdədir. Həmçinin 16 komanda mərkəzi məhv edildi. Bizim hesablamalarımıza görə, bu günlər ərzində Ermənistan ordusuna təxminən 2 milyard dollar ətrafında ziyan dəydi və bu, davam edir. Mən demişəm və Ermənistan rəhbərliyinə də müraciət etmişəm, siz atəşkəsə əməl edin, bizə təqvim verin, torpaqlarımızdan çıxın, bu müharibə dayansın, siz də indi qalan silahlarınızı xilas edin. Yoxsa belə gedərsə, biz onların bütün silahlarını məhv edəcəyik.

*- Ermənistanın insan itkisi nə qədərdir, cənab Prezident?*

- İnsan itkisi barədə onların verdiyi rəqəmi, - mən mətbuatda gedən rəqəmi deyirəm, - təqribən 600-dən çoxdur. Amma bizdə olan məlumata görə, onlarda itki bundan bir neçə dəfə çoxdur.

*- Yəni, Ermənistan az göstərməyə çalışır?*

- Təbii.

*- Amma cəbhədə vəziyyət fərqlidir.*

- İndi əgər 200 tank məhv edilibsə, bu tankın içində olan əsgərlərin sayına baxın, artıq neçəyə çatır. Ondan sonra döyüş meydanlarında, komanda mərkəzlərində, digər qurğularda. O görüntülər var, onların texnikası necə məhv edilir, ona görə hansısa konkret rəqəm demək istəməzdim. Çünki mən hər zaman dəqiq rəqəmlərə sadiqəm, yoxlanılmamış rəqəmləri səsləndirmək istəmirəm. Amma təbii ki, 600-dən daha çoxdur.

*- Yəni, Ermənistanın silahlarının yarısına yaxını yox edildi deyə bilərikmi, cənab Prezident?*

- Biz bilmirik, onlarda nə qədər silah var. Amma bir sual ortaya çıxır ki, onlar bu silahları hansı pulla alıblar? Ermənistanın büdcəsi də, valyuta ehtiyatları bəllidir. Təkcə 17-18 gün ərzində onların 2 milyard dollarlıq silahları məhv edilib və hələ də silahları var. Məhv edilmiş bu silahlar yalnız işğal edilmiş torpaqlardadır. İndi Ermənistan ərazisində nə qədər silahlar var? Baxın, bunlarda nə qədər silah var? Haradan aldılar bunu, haradan bu pulu tapdılar? Təbii ki, bunlarda bu qədər pul yoxdur. Deməli, bunu havayı aldılar.

*- Cənab Prezident, 18 oktyabr önəmli bir gündür. Azərbaycanın müstəqillik günüdür. Azərbaycan xalqı bu tarixdə Sizdən bir müjdə gözləyir, İnşallah. Qarabağla bağlı bir müjdəniz olacaqmı? Buradan "A Haber" ekranlarından bütün Türkiyəyə və azərbaycanlı qardaşlarımıza o müjdəni bölüşmək istərdinizmi?*

- Bilirsiniz, bu, doğrudan da tarixi bir gündür. Çünki Azərbaycan XX əsrdə ikinci dəfə müstəqilliyə qovuşdu. Müstəqilliyin ilk illəri bizim üçün çox ağır keçdi, faciəvi keçdi. Biz müstəqilliyimizi itirə bilərdik. Necə ki, 1920-ci ildə itirdik, cəmi iki il çəkdi. Ondan sonra Azərbaycan Xalq Cümhuriyyəti süqut etdi. Bu dəfə də Ermənistanın Azərbaycana təcavüzü, eyni zamanda, Azərbaycanın daxilində gedən çarpışmalar böyük böhrana səbəb oldu. Yalnız 1993-cü ildə ulu öndər Heydər Əliyev hakimiyyətə gələndən sonra vəziyyət sabitləşdi, sabitlik təmin edildi və Azərbaycan inamla inkişaf yoluna qədəm qoydu.

Ona görə 18 oktyabr tarixi bizim üçün çox əziz bir tarixdir. Ancaq bu müddətdə - bu 17-18 gün ərzində mən heç zaman bizim ordu qarşısında bu tarixdə bunu alacaqsan, o tarixdə bunu alacaqsan vəzifəsi qoymamışam. Çünki müharibənin öz qaydaları, öz qanunları var. Bizim üçün əsas məsələ ərazi bütövlümüzü bərpa etməkdir. Nə zaman müjdə veriləcək - 17-dəmi, 18-dəmi, 19-damı, bu, o qədər önəmli deyil. Önəmli odur ki, biz bunu edək, buna nail olaq. Eyni zamanda, biz bəzi kəndlər haqqında məlumatı bu gün də verə bilərik və bəlkə də olacaq. Ancaq ən önəmlisi strateji yüksəklikləri götürməkdir. Çünki bu yüksəklikləri götürərkən biz daha böyük əraziyə nəzarət edirik. Bundan sonra Azərbaycan Ordusunun əks-hücum əməliyyatının daha da uğurlu olmasına şərait yaradırıq.

*- Qarabağın qəlbi, gözü Şuşadır. Azərbaycanlıların gözü-qulağı Şuşadan gələcək xəbərdədir. İstiqaməti Şuşa olaraqmı verdiniz, inşallah?*

- İstiqamət hər tərəfdir. İşğal edilmiş torpaqların hər bir qarışı, hər bir şəhər bizim üçün doğmadır, əzizdir. Mənim üçün hər bir kəndin dəyəri, qiyməti o biri kəndlə müqayisədə, o biri şəhərlə müqayisədə eynidir, bərabərdir. Ancaq siz də yaxşı bilirsiniz ki, Şuşanın Azərbaycan xalqının qəlbində xüsusi yeri var. Bu, bizim tarixi şəhərimizdir, qədim mədəniyyət ocağıdır. Şuşa Azərbaycan xalqına bir çox istedadlı, dahi şəxslər bəxş edibdir. Əlbəttə ki, Şuşasız bizim işimiz yarımçıq olar. Təbii ki, müzakirələr prosesində də hər zaman bu məsələ gündəlikdə idi.

Bilirsiniz, bundan əvvəlki dövrdə danışıqlar masasında bir çox məsələlər var idi. Bəzi təkliflər ondan ibarət idi ki, yaxşı, Azərbaycan bu beş rayonu alsın, bununla kifayətlənsin. Qalanlar da qalsın, yəni, hər şeyi siz almaq istəyirsiniz, belə şey olmur, kompromis olmalıdır və sair. Ancaq mən heç vaxt buna getməmişəm. Beş rayonu alıb qalan rayonları sonraya, qeyri-müəyyən vaxta saxlayıb, məsələni bitmiş hesab etmək heç cür düzgün olmazdı. Ona görə müxtəlif mərhələlərdə vasitəçilər və bəzi beynəlxalq təşkilatlar təəccüb edirdilər ki, nə üçün İlham Əliyev buna razılaşmır. Axı, ona deyirik ki, indi beş rayon, halbuki Ermənistan indi görünür o beş rayonu da vermək istəmirdi. Ancaq belə təkliflər olub. Amma mənim mövqeyim hər zaman belə olub ki, Şuşasız bizim işimiz yarımçıq olar. Ona görə təbii ki, Şuşanın işğaldan azad edilməsi bizim hədəflərimizin arasında xüsusi yer tutur. Biz buna çalışmalıyıq, biz buna nail olmalıyıq. Bu, nə zaman olacaq?

*- Yaxındamı, cənab Prezident?*

- Onu, yəni, yaxın gələcək göstərər.

*- İnşallah. Yəqin ki, Qarabağı azad etmək rəhmətlik atanızın vəsiyyətidir. Vəsiyyətini də yeri gəlmişkən Sizdən öyrənmək istərdik. Vəsiyyətini hazırda həqiqətən yerinə yetirirsiniz. Sizi də, Azərbaycan xalqını da Türkiyə xalqı adından təbrik edirik. Atanızın vəsiyyəti barədə nə söyləmək istəyirsiniz?*

- Bilirsiniz, mən hər zaman çalışmışam ki, atamın yoluna sadiq olum. 2003-cü ildə ilk dəfə Azərbaycan xalqı mənə etimad göstərəndə seçkilərdən əvvəl mən demişdim ki, əgər siz mənə bu inamı, etimadı göstərsəniz, mən Heydər Əliyev siyasətinə sadiq olacağam, bütün istiqamətlər üzrə onun yolu ilə gedəcəyəm. Şadam ki, sözümə sadiq oldum, sözümü tutdum. Bu gün Azərbaycanın sürətli və uğurlu inkişafı, beynəlxalq müstəvidə böyük hörmətə malik olması, ölkə daxilində sosial, iqtisadi, digər problemlərin həlli, böyük layihələrin həyata keçirilməsi, əlbəttə ki, Heydər Əliyev yolunun davamıdır.

Təbii ki, dünya dəyişir. Dünyadakı güclər nisbəti də dəyişir. Bugünkü dünya 2003-cü ildəki dünya ilə əlbəttə ki, müqayisə edilə bilməz. Ancaq bizim strateji hədəflərimiz dəyişməz olaraq qalır. O da müstəqilliyi möhkəmləndirmək, müstəqil siyasətə sadiq olmaq, heç vaxt heç kimdən asılı olmamaq, heç kimin qarşısında baş əyməmək, öz qürurumuzu saxlamaq, qorumaq və ərazi bütövlüyümüzü bərpa etməkdir. Yəni, qısa desəm, atamın vəsiyyəti bundan ibarətdir.

Əlbəttə ki, ərazi bütövlüyümüzün bərpası bizim üçün bir nömrəli vəzifədir. Biz buna nail olmaq üçün böyük səy göstərdik - siyasi, iqtisadi, diplomatik, hərbi.

Bizim ordumuz faktiki olaraq yenidən quruldu. Bu gün ordumuzun potensialı bütün dünyanın gözü önündədir. Mənə verilən məlumata görə, inkişaf etmiş bəzi ölkələrin hərbi mütəxəssisləri də artıq bizim təcrübəmizi öyrənirlər. Mən əminəm ki, bu təcrübə kitablarda da, tədqiqatlarda da əksini tapacaq. Ona görə atamın yoluna sadiq qalaraq bu şərəfli missiyanı icra edirik. İnşallah, sona qədər başa çatdıracağıq.

*- Azərbaycan çox güclü bir ordu yaratdı. Birinci Qarabağ müharibəsində hava qüvvələri belə yox idi, ancaq indi artıq güclü bir hava qüvvələri, güclü bir ordu var. Təbii ki, "TB2" silahlı pilotsuz uçuş aparatları da bölgədə böyük bir güc oldu. Türkiyədən satın aldınız və hazırda istifadə edirsiniz. Silahlı pilotsuz uçuş aparatları müharibənin gedişini necə dəyişdirdi?*

- Çox dəyişdirdi. Çünki bilirsiniz, Ermənistan 30 il ərzində işğal edilmiş o bölgələrdə bütün təmas xətti boyunca çox güclü istehkam qurmuşdu. Çox böyük mühəndis-istehkam işləri görmüşdü. Bəzi yerlərdə onların dörd müdafiə xətti var. Böyük xəndəklər qazıldı, digər mühəndislik işləri görüldü. Çox böyük beton plitələri vardır, sığınacaqlar vardır, bunkerlər vardır. Bir də bölgənin relyefi elədir ki, o, təbii istehkamdır. Çünki o dağlıq ərazidir və biz aşağıdan yuxarı gedirik. Hər bir ordu üçün bu, böyük çətinlikdir. Çətin bir iş və çox riskli bir işdir. Ona görə bizim bu istiqamətdə gördüyümüz işlər, əlbəttə ki, böyük qəhrəmanlıq tələb edirdi və biz düşmənin texnikasını dəqiq məhv etmək üçün mütləq pilotsuz uçuş aparatlarına möhtac idik. Çox şadıq ki, qardaş Türkiyənin inkişaf etmiş hərbi sənaye kompleksi bu gözəl SİHA-ları və İHA-ları istehsal etməyə başlamışdır. Azərbaycan Türkiyənin xaricində ilk ölkələrdəndir ki, bu SİHA-ları ala bildi. Mən artıq bunu söyləmişəm, yalnız Türkiyə istehsalı olan SİHA-larla bir milyard dollar dəyərində olan erməni hərbi texnikası məhv edildi. Qalan bir milyardı da bizim hərbi vasitələrlə məhv edildi. Yəni, bu, müharibənin gedişatını çox dəyişdirdi.

*- Bölgədə tunellərdən, laylı müdafiədən bəhs etdiniz. Əslində, biz onu Suriyadakı əməliyyatlarda görmüşdük. Bunlar PKK, PYD-nin istifadə etdiyi üsullardır. Otuz ildir bölgədə eyni üsuldan istifadə edilir. Bu baxımdan orada PKK-nın, PYD-nin bir dəstəyi varmı?*

- Ola bilər. Bizdə bu toqquşmadan da əvvəl məlumat var idi ki, PKK-çılar orada düşərgə qurmuşlar. Çünki bilirsiniz, Dağlıq Qarabağ nəzarətsiz bir ərazi idi. Orada hər hansı bir beynəlxalq nəzarət mexanizmi yox idi. Çünki indi Ermənistan da, Azərbaycanda bir çox beynəlxalq təşkilatların üzvüdür. Orada nəzarət mexanizmləri də var, monitorinq də var. Bu isə boz bir sahə, yəni nəzarətsiz bir sahədir. Ona görə orada qaçaqmalçılıq, narkotik ticarəti, qanunsuz silahlı birləşmələrin təlimləri və PKK düşərgələri də mövcud idi. İstisna edilmir ki, onlar da bu istehkamların qurulmasında rol oynayır.

*- Bölgədə neçə dənə PKK düşərgəsi var?*

- Onu biz deyə bilmərik. Çünki onlar bir yerdə dayanmırlar, onlar yerlərini dəyişirlər. Amma kifayət qədər çox idi. Hər halda bu məlumat bizdə bu son toqquşmadan əvvəl də var idi. Bu gün erməni tərəfindən vuruşan, öldürülən insanlar arasında şübhəli insanlar da var. Hər halda Kanada pasportlu, Livan pasportlu insanlar var. Şəxsiyyətini müəyyən etmək mümkün olmayan insanlar var. Amma dəqiqdir ki, onlar erməni əsgəri deyil. Yəni, onlar muzdlulardır.

*- Bölgədə xüsusilə Ermənistan öz ərazilərindən raket hücumları həyata keçirir. Öz ərazisindən hücumlara davam edərsə, Sizin üçün Ermənistan ərazilərinə əməliyyat haqqı yaranarmı?*

- Xeyr, bizim belə fikrimiz yoxdur. Mən bunu dəfələrlə demişəm, bizim Ermənistan ərazisində hər hansı bir hərbi hədəfimiz yoxdur. Hərbi əməliyyatları Ermənistan ərazisinə keçirmək fikrimiz də yoxdur. Bizim başqa ölkələrin torpağında gözümüz yoxdur. Biz, sadəcə olaraq, ölkə hüdudları çərçivəsində, beynəlxalq təşkilatlar və dünya birliyi tərəfindən tanınmış qanuni Azərbaycan torpaqları çərçivəsində bu əməliyyatları aparırıq. Bu günə qədər biz Ermənistan ərazisinə keçməmişik.

Onu da bildirməliyəm ki, iyul ayında Ermənistan-Azərbaycan sərhədində bizə qarşı hücum təşkil edilmişdir. Ermənistan silahlı qüvvələri Tovuz bölgəsinə və onun müəyyən yerlərinə girə bilmişdir. Biz onları oradan rədd etdik, öz torpaqlarımızı qoruya bildik. Onları sərhəddən kənara atdıq. Ondan sonra da sərhədi keçə bilərdik. Yəni, bizim qarşımızda hər hansı bir ciddi maneə yox idi. Onsuz da bu döyüş də onu göstərdi ki, əgər burada biz keçə bilmişiksə, orada daha asandır. Çünki orada bu istehkamlar yoxdur. Amma bunu etmədik. Çünki biz hesab etdik ki, bu, düzgün olmaz. Biz öz torpağımızda özümüzü müdafiə edirik və işğalçıları öz torpaqlarımızdan qovmalıyıq. Ancaq, eyni zamanda, əgər onlar Ermənistan ərazisindən bizə qarşı "Toçka-U", "İsgəndər", "Skad" və başqa çox təhlükəli silahlardan istifadə etməyi davam edəcəklərsə, - necə ki, Gəncəni onlar Ermənistanın Vardenis rayonundan vurdular, - bu, bizim üçün legitim, qanuni hərbi hədəflər olacaq. Bunu hər kəs bilsin.

*- Türkiyədən və Pakistandan Sizə dəstək mesajları gəlir. Xüsusilə Prezident Rəcəb Tayyib Ərdoğan "Hər cür dəstəyi verməyi hazırıq" dedi. Bu baxımdan Türkiyə və Pakistandan hərbi dəstək istəyəcəksinizmi?*

- Xeyr. Bizim belə bir fikrimiz yoxdur. Türkiyə və Pakistan bizə ilk dəstək olan ölkələrdir. Onlardan sonra bu ölkələrin sayı artdı. Ondan sonra Əfqanıstan bizə açıq dəstək göstərdi. Bosniya və Herseqovina, ondan sonra digər ölkələr dəstək göstərdilər. Ən çox dəstək göstərən qardaş Türkiyə olmuşdur. Mənim qardaşım, hörmətli Prezident Rəcəb Tayyib Ərdoğan ilk saatlardan çox dəqiq və çox qəti mesajlar verdi ki, Azərbaycan tək deyil, Türkiyə Azərbaycanın yanındadır. Bu, bizi daha da ruhlandırdı. Ancaq hərbi dəstəkdən söhbət gedə bilməz. Buna ehtiyac yoxdur. Bu gün Ermənistanın baş naziri tərəfindən uydurulan yanlış məlumat, əlbəttə ki, beynəlxalq ictimaiyyəti çaşdırmağa yönəlib. Misal üçün, dünən Rusiya televiziyasına verdiyi açıqlamasında demişdir ki, Azərbaycan tərəfində Türkiyə vuruşur, Pakistan vuruşur, Suriyadan, Liviyadan olan

əsgərlər vuruşur. Bunlar hamısı yalandır. Bu yalanı ifşa etmək o qədər də çətin məsələ deyil.

Toqquşmaların ilk günündə demişdilər ki, Ermənistanın Su-25 təyyarəsini Türkiyənin F-16 təyyarəsi vurmuşdur. Biz dedik ki, sübut verin. Verə bilmədilər. Sonra hər kəs gördü ki, bu, yalandır. İndi bunu artıq demirlər. İndi yeni yalan ortaya atırlar ki, guya Pakistan və türk əsgərləri bizimlə bərabər vuruşurlar. Sübutlar versinlər. Yoxdur, bu. Sadəcə olaraq, Ermənistan tərəfi birinci növbədə istəyir ki, Azərbaycan Ordusunun gücünü pərdələsin. Guya ki, Azərbaycan təkbaşına bunu edə bilməzdi. İkincisi, onun daha bir yalanı odur ki, guya bu toqquşma artıq bölgədən çıxıb, daha qlobal bir toqquşmaya çevrilib. Bu da yalandır. Bizim Türkiyədən, Pakistandan və başqa qardaş ölkələrdən aldığımız dəstək yalnız mənəvi və siyasi dəstəkdir.

*-Cənab Prezident, Türkiyə və Azərbaycanın dostluğu, əlaqələri, yaxınlığı kimləri narahat edir?*

-Bizi istəməyənləri. Türkiyənin gücünün artırılmasını istəməyənlər.

*-Kimlər?*

-Yəni, bunların kimlər olduğu bəllidir. Bir çox ölkələrdə belə dairələr var. Bu, islamofob dairələrdir. Təəssüf ki, bu gün Avropada islamofobiya artır. Kasıb ölkələrdən gələn qaçqınlara olan münasibət də göz qabağındandır. Ona görə islamofob partiyalar bu gün bir neçə Avropa ölkəsində parlamentdə yer alırlar. Radikal faşist partiyalar daha çox səs qazanırlar. Bu, çox təhlükəli bir meyildir. İlk növbədə, Avropa üçün təhlükəli meyildir. Çünki bu, irqçiliyə, ayrı-seçkiliyə, ksenofobiyaya, islamofobiyaya şərait yaradan bir meyildir. Eyni zamanda, islamofob qüvvələrlə yanaşı, Türkiyənin gücündən narahat olan dairələr var. Çünki bugünkü Ərdoğan Türkiyəsi 20 il əvvəlki Türkiyə deyil. Bunu biz də bilirik, Türkiyədə yaşayan qardaşlarımız da bilirlər. Bu gün Türkiyə dünyada söz sahibidir. Heç kim Türkiyəyə nəyi isə diktə edə bilməz, nəyi isə məcbur edə bilməz. Türkiyə öz maraqlarını, öz müttəfiqlərinin maraqlarını dünyada layiqincə müdafiə edir, öz təhlükəsizliyini bildiyi kimi təmin edir, beynəlxalq aləmdə söz sahibidir. Bölgədə Türkiyənin iştirakı, razılığı olmadan hər hansı bir məsələ həll edilə bilməz. Suriya, Liviya, ondan sonra Aralıq dənizi – bütün bunlar onu göstərdi. Ona görə bunlar Türkiyənin gücünü istəməyən və bundan narahat olan qüvvələrdir. Bu, təbiidir.

*-Cənab Prezident, birlikdən qüvvət doğar dediniz. Türkiyənin güclü olması nə üçün önəmlidir?*

-Türk dünyası üçün ona görə ki, bu, böyük bir gücdür və bizi gücləndirir. Mən bunu dəfələrlə demişəm. Türkiyədə də demişəm, Azərbaycanda da. Əziz qardaşım Prezident burada olanda demişəm ki, Türkiyə-Azərbaycan birliyi bölgə üçün sabitlik gətirir. Əgər toqquşmaların ilk saatlarında Türkiyədən bu dəqiq mesajlar gəlməsəydi, bəlkə də bu işlərə başqaları qarışa bilərdi. Türkiyənin bu mesajları hər kəsə "dur" dedi. Azərbaycan tək deyil. Türkiyə işin sonuna qədər Azərbaycanın yanındadır. Əlbəttə ki, bu gün Azərbaycan-Türkiyə birliyi artıq çox ciddi geosiyasi amilə çevrilibdir və bu, müsbət amildir. Bizim birliyimiz hər hansı bir ölkənin maraqlarına qarşı deyil. Biz, sadəcə olaraq, öz maraqlarımızı müdafiə edirik, öz yolumuzu davam etdiririk. Heç kim bizim işimizə qarışmasın, heç kim bizim daxili məsələlərimizə burnunu soxmasın. Biz bunu istəyirik. Türkiyə bu günə qədər kimin işinə qarışıb? Heç kimin. Azərbaycan kimin işinə qarışıb? Heç kimin. Sadəcə, biz deyirik ki, bizə də dəyməyin, kənarda durun. Dost olaq, tərəfdaş olaq, işbirliyi edək. Amma sizinki sizdə, bizimki bizdə. Biz bunu istəyirik və buna haqqımız çatır.

*-Qarabağ probleminin həllində Türkiyəsiz bir masadan həll yolu tapılarmı?*

- Əslində, de-fakto Türkiyə artıq masadadır. Mən bunu söyləmişəm. Bu, reallıqdır. Bu gün Türkiyə digər bölgədə yerləşən ölkələrlə bu məsələni danışır, müzakirə edir. Siz də bilirsiniz, Rusiya və Türkiyə prezidentləri arasında telefon danışığı olub. Xarici İşlər nazirlərinin, Müdafiə nazirlərinin danışıqları olubdur. Eyni zamanda, iranlı həmkarları ilə Türkiyənin yüksək vəzifəli şəxslərinin əlaqələri olubdur, digər ölkələrlə. Ona görə Türkiyə de-fakto buradadır. Sadəcə olaraq, Minsk qrupu 1992-ci ildə təşkil olunduğu üçün, - onsuz da Türkiyə Minsk qrupunun üzvüdür, - o zaman bilmirəm hansısa səbəblərə görə həmsədr olmadı. Yəni, biz çox istərdik ki, bəri başdan Türkiyə həmsədr olsun. Ancaq o zaman Türkiyə özü bunu etmədi. Özü istəsəydi, məncə olardı. Çünki ona görə mən deyirəm, bugünkü Ərdoğan Türkiyəsi ilə o Türkiyə arasında böyük fərq var. Əgər həmsədr olsaydı, o zaman təbii ki, bu məsələ çoxdan həll olunardı. Ona görə biz deyirik ki, Türkiyəsiz bu məsələ həll olunmaz. Mən demirəm ki, Minsk qrupu artıq tarixdə qalsın. Yox, qoy onlar da çalışsınlar. Halbuki 30 il ərzində bir nəticəyə gəlmədilər. Amma Türkiyəni bu prosesdən kənardan saxlamaq həm düzgün deyil, həm də ki, mümkün deyil.

*-Cənab Prezident, Minsk qrupunun həmsədri Fransanın münasibətini necə dəyərləndirirsiniz?*

-Bilirsiniz, Fransanın son açıqlamaları hesab edirəm ki, müsbət açıqlamalardır. Eyni zamanda, mənim Fransa Prezidenti ilə son telefon danışığım da çox müsbət olubdur. Təbii ki, Fransa həmsədr kimi bitərəf olmalıdır. Mən bunu demişdim. Hər bir ölkənin başqa ölkə ilə xüsusi əlaqələri ola bilər. Yəni, milli səviyyədə hər bir ölkə sərbəstdir. Heç kim buna bir irad tuta bilməz. Ancaq həmsədrlik artıq başqa bir mexanizmdir. Bu, həmsədr olan ölkələrin üzərinə böyük məsuliyyət qoyur. Ona görə onlar bu mandat çərçivəsində gərək bitərəf olsunlar. Hesab edirəm ki, bu günə Fransanın addımları və yanaşması müsbətdir.

*-Rusiya Xarici İşlər naziri Lavrov bir açıqlama verdi. Açıqlamasında Qarabağ bölgəsinə hərbi müşahidəçilər göndərə biləcəklərini söylədi. Buna razılıq verərsiniz?*

-Bilirsiniz, eyni zamanda, Rusiyanın Prezident ofisində deyildi ki, bu, hər iki tərəfin – Azərbaycanın və Ermənistanın razılığı əsasında ola bilər. Yəni, bu, əslində, hər şeyi özü deyən bir məsələdir. Hər iki tərəf buna razılıq verməlidir, bu, birincisi. İkincisi, təməl prinsip-

ləri arasında, - mən artıq bu məsələ ilə bağlı fikirlərimi bildirmişəm, - sülhməramlı qüvvələrin bölgəyə göndərilməsi məsələsi var, ancaq ən son mərhələdə. Torpaqlar işğaldan azad edilir, beş rayon, ondan sonra iki rayon, daha sonra Dağlıq Qarabağ ərazisinə və Şuşaya Azərbaycan əhalisi qayıdır. Ondan sonra sülhməramlı qüvvələr gəlir. Ona görə bu gün bu haqda danışmaq tezdir. Üçüncüsü, hansı ölkələr bu sülhməramlı qüvvələrin içində olacaq? Bu da hər iki tərəf arasında razılaşdırılmalıdır. Bu məsələ ilə bağlı müzakirələr prosesində hər hansı bir müzakirə olmamışdır. Hesab edirəm ki, Rusiya Prezident ofisindən verilən açıqlama tamamilə əsaslıdır. Hər iki tərəf buna razı olmalıdır. Bunun razılığı və bunun təqvimi verilməlidir. Bu gün fəal münaqişələr gedə-gedə bu haqda danışmaq bir qədər tezdir.

*-Təbii. Ermənistanın işğal etdiyi Qarabağda zəngin yeraltı qaynaqlar var. Bilirik ki, Kəlbəcərdə zəngin qızıl yataqları var. Əslində, Ermənistanın əsl dərdi qızıl yataqlarıdırmı?*

-Odur. Amma əsas onların bizə olan əzəli nifrətidir. Ermənistan faşizm siyasəti aparır, Türkiyəyə, Azərbaycana nifrəti aşılayır, uşaqlara türkləri düşmən kimi qələmə verir. Öz əhalisinin beyinlərini zəhərləyir. Yəni, Ermənistanın işğalçılıq siyasətinin təməlində bu dayanır. Əsas məsələ budur. Digər bölgələrin həm bitkiçilik, həm heyvandarlıq üçün çox münbit, çox gözəl torpağı var. Onlar bunu istismar edirlər. Kəlbəcərin qızıl yataqları. Onlar qanunsuz olaraq oranı istismar edirlər. Biz bütün o işdə onlara yardımçı olan və oraya investisiya yatıran şirkətlərə məktub göndərmişdik. Mən bu toqquşmadan əvvəl verdiyim açıqlamalarda demişdim ki, bütün bu xarici şirkətlərə son xəbərdarlıq edirik - ya dayandırın bu fəaliyyəti, ya da biz sizi məhkəməyə verəcəyik. Məhkəmədə bizim sözümüz keçəcək. Çünki bu, qanunsuzdur. Oradan çıxarılan qızılları Ermənistan aparır xaricə satır və pul qazanır. Orada çıxan təbii qaynaqları, bizim torpaqdan əldə edilmiş məhsulu onlar Ermənistana daşıyırlar. Ona görə burada bir çox hədəflər var. Əsas məqsəd bu torpaqları əbədi Ermənistanın tapdağı altında saxlamaqdır. Onlar buna da nail ola bilmədilər.

*-Cənab Prezident, Paşinyanın atası Sorosdur dediniz.*

- Doğrudur.

*-İndi Azərbaycan bölgədə Soroslamı mübarizə aparır?*

O cümlədən Sorosla. Əslində, mən dedim ki, Soros deyəndə, təkcə Corc Sorosu nəzərdə tutmuram. Bu, bir anlayışdır. Bu, bir hərəkətdır, bu, dağıdıcı bir hərəkətdir, bu, yırtıcı bir hərəkətdir. Bu, müstəmləkəçi bir hərəkətdir. Paşinyanın Sorosla o fotoşəklinə baxın, necə eybəcər fotoşəkildir. O, internetdə var. Durublar, bədənləri də yapışıb bir-birinə. Yəni, utancverici bir şəkildir, ikisi də gülür, ikisinin də üzündə təbəssüm. Bu şəkil faktiki olaraq Paşinyanın kim olduğunu göstərir. Çünki Ermənistanda çevrilişin təşkil edilməsində Soros qruplarının böyük rolu oldu və Paşinyan, əslində, hər zaman anti-Rusiya mövqeyində olub. Onun partiyasının adı ermənicə "Yolka"dır. Onu tərcümə etsək "Çıxış" deməkdir. Haradan çıxış? Rusiya ilə birlikdə Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatından və Avrasiya Birliyindən. O millət vəkili olarkən hər zaman Rusiyanın əleyhinə idi, anti-Rusiya mövqeyində idi. Ona görə mən təəccüb edirəm ki, bu günə qədər Rusiyada bəzi siyasi dairələr onun tərəfini tuturlar. Axı o, ruspərəst qüvvələrə qarşı inqilab etdi, ruspərəst prezidentləri həbsə atdı, ruspərəst ana müxalifət partiyasının sədrini həbsə atdı. Hər şeyi Rusiyanın əleyhinə etdi, Rusiyanın "Qazprom" şirkətinə, dəmir yolu şirkətinə cinayət işi açdı. Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının, - hansı ki, NATO tipli bir təşkilatdır, - erməni əsilli sədrini həbsə atdı. Yəni bu, Sorosun sözü ilə oturub-duran bir adamdır. Bir də ki, onun komandasına baxın, onların hamısı Soros Fondunun, Açıq Cəmiyyət Təşkilatının, "Amnesty International"ın nümayəndələridir. Yəni, Soros Ermənistanda hakimiyyətə gəldi, amma iflasa uğradı.

*-Cənab Prezident, Türkiyədən hərbi baza istəyiniz oldumu? Bu məsələ ilə bağlı bir açıqlama verdiniz, Türkiyə hərbi baza yarada bilər dediniz. Bu məsələ ilə bağlı bir danışıq apardınızmı?*

-Xeyr, bu məsələ ilə bağlı hər hansı bir danışıq olmamışdır, heç zaman olmamışdır və bu gün də belə bir məsələ yoxdur. Onsuz da Türkiyə ilə hərbi sahədə bizim işbirliyimiz gündən-günə möhkəmlənir. Mən bunu artıq demişəm, bir daha demək istəyirəm ki, keçən il 10 birgə hərbi təlim keçirilmişdir, həm havadan müdafiə, eyni zamanda, özəl komandalar, digər sahələr üzrə. Ona görə bu işbirliyi ən yüksək səviyyədədir və bazanın Azərbaycanda yaradılması məsələsi heç zaman müzakirə mövzusu olmamışdır.

*-Cənab Prezident, Azərbaycan cəbhədə status-kvonu dəyişdi dediniz. Sizə təqdim edilən status-kvo nə idi və bundan sonra Azərbaycanın yeni status-kvosu nə olacaq?*

-Status-kvo artıq yoxdur. Mən bu haqda öz sözlərimi dedim və bu, reallıqdır. Status-kvo nə idi? Torpaqların işğal altında saxlanılması demək idi. Baxmayaraq ki, Minsk qrupunun həmsədrləri bununla əlaqədar hələ 10 il bundan öncə çox müsbət açıqlama vermişdirlər ki, status-kvo qəbuledilməzdir. Praktik addım atılmamışdır və biz 30 il bu status-kvonun dəyişdirilməsini gözlədik ki, müzakirə prosesi nəticəsin-də buna nail ola bilərik. Amma olmadı. Ona görə döyüş meydanında biz bunu artıq məhv etdik. O artıq yoxdur. İndi Cəbrayıl şəhəri bizdədir, Cəbrayıl rayonunun kəndlərinin böyük hissəsi bizdədir. Füzuli rayonunun kəndlərinin də mütləq əksəriyyəti bizdədir. İndi biz Füzuli şəhərini də görürük. Hadrut bizdədir, Suqovuşan bizdədir.

*- İndi Füzuli şəhərinin mərkəzini görə bilirsinizmi?*

-Görürük, əlbəttə, görürük.

*-İnşallah, yaxın zamanda oradan bir müjdə gələcək deyirsiniz.*

-İnşallah. Yəni hansı status-kvodan söhbət gedə bilər. Status-kvo da yoxdur, təmas xətti də yoxdur. Onu da biz yardıq. Yəni, 30 il sülh yolu ilə müzakirə prosesi

çərçivəsində edə bilmədiyimizi bax, bu günlər ərzində biz etdik.

*-Cənab Prezident, Sizdən bir şeyi də soruşmaq istəyirəm. Müharibə hələ davam edir. Bu müharibədə Sizi ən çox kədərləndirən, ən çox sevindirən hadisələri soruşacağam. Yeri gəlmişkən, rəmzi bir foto, Gəncədə 4 yaşındakı Bəxtiyarın yaralı halda ikən gülümsəməsi. Bu foto bütün dünyaya əsl simvol oldu. Müsahibə aldıq, özü də nə dedi, dörd yaşındakı ağlı ilə dedi: "Qarabağ bizimdir, Azərbaycanındır!"*

-Bəli.

*- Cənab Prezident, Sizə ən çox təsir edən, kədərləndirən, ən çox sevindirən nələr oldu?*

-Ən çox kədərləndirən bizim itkilərimizdir. Həm mülki vətəndaşlar arasında, həm də əsgərlər arasında. Gənc əsgərlərimiz fədakarlıq, rəşadət göstərərək doğma torpaqları uğrunda şəhid olurlar. Bu, böyük faciədir, xalqımız üçün, onların yaxınları üçün, valideynləri üçün böyük faciədir. Ona görə də hər bir azərbaycanlının həlak olması mənim üçün ən böyük üzüntüdür, istər mülki vətəndaş olsun, istər hərbçi olsun, fərq etməz, onların hamısı bizim soydaşlarımızdır, bizim övladlarımızdır, qardaşlarımızdır.

Ən çox sevindirən isə Azərbaycan xalqının iradəsidir. Çünki mərmi altında yaşayan insan yerindən tərpənmir. Tərtəri Ermənistan Stalinqrada çevirir, ikinci Ağdama, Füzuliyə çevirmək istəyir. Niyə sən bu mülki şəhəri atəşə tutursan? Bax, o dəfn mərasimi olsun. Bu gün səhər iki saat ərzində 200-dən çox mərmi atıldı. Niyə? Tərtərdə nə var? İnsanlar yaşayır. Yəni, bu erməni faşizmidir. Bir də ki, qorxutmaq istəyir. Bir də ki, fikri gedir 1990-cı illərə ki, onlar bizə hücum edirdilər, bizim ordumuz onların qabağında dura bilmirdi və bizim vətəndaşlar o bölgələri tərk edirdilər, qaçqın və məcburi köçkünə çevrilirdilər. O fikirlə yaşayırlar. Amma bilməlidirlər ki, indiki Azərbaycan o Azərbaycan deyil. İndiki Azərbaycan güclü dövlətdir və özünü qoruya bilən bir dövlətdir. Bizim insanlarımız mərmi altında yaşayır, oranı tərk etmir, evləri yanır, malları batır, amma deyirlər ki, təki "Vətən sağ olsun!" Bax, məni ən çox sevindirən budur. Eyni zamanda, bununla bərabər, bizim bayrağımızı işğaldan azad edilmiş torpaqlarda görməyimdir. Məni ən çox sevindirən, bax, bunlardır.

*-Cənab Prezident, Türkiyədə 83 milyon nəfər hər namazdan sonra Azərbaycan üçün dua edir. Bu duaları hiss edirsiniz. Buradan türk xalqına nə demək, nə mesaj göndərmək istəyərsiniz?*

-Təbii ki, görürəm. Bu dualar və Azərbaycan xalqının duaları, bizim digər ölkələrdə yaşayan dostlarımızın, qardaşlarımızın duaları bizi qoruyur. Çünki biz haqq yolundayıq. Biz öz torpağımız uğrunda vuruşuruq. Ermənistan tərəfindən aparılan müharibə şər qüvvələrin müharibəsidir. Biz hər zaman Türkiyədən dəstək görmüşük, dəstək hiss etmişik. Son illər ərzində Türkiyə və Azərbaycan rəhbərliyi bizim ölkələrimizi bir-birinə o qədər güclü tellərlə bağlayıb ki, bu birlik, bu qardaşlıq sarsılmazdır. Bu günlərdə Türkiyədən mənə çoxlu məktublar gəlir. Yazırlar ki, "Cənab Prezident, mən də gəlməyə hazıram, mən də kömək etməyə hazıram". Bunlar bizi çox duyğulandırır, çox sevindirir. Bizim birliyimiz bir daha bu çətin dönəmdə özünü büruzə verir. Ona görə bütün türk qardaşlarımıza dərin təşəkkürümü bildirirəm. Biz onların dəstəyini hiss edirik, görürük, bu dəstək bizə əlavə güc verir, bizim iradəmizi gücləndirir. Mənim əziz qardaşım, hörmətli Prezident Rəcəb Tayyib Ərdoğan demişdi ki, "Azərbaycan tək deyil, Türkiyə Azərbaycanın yanındadır". Bu, əslində, bizim birliyimizi təsvir edən ən gözəl ifadədir, ən gözəl kəlamdır.

*-Cənab Prezident, mən də son olaraq Rəcəb Tayyib Ərdoğanı necə tərif edəcəyinizi soruşmaq istərdim.*

- Rəcəb Tayyib Ərdoğan mənim qardaşımdır. Bizim çox yaxın münasibətimiz var. Həm prezidentlər kimi, həm də iki insan kimi. Ona mənim çox böyük hörmətim var. O, dünya lideridir. O, Türkiyəni böyük zirvələrə qaldırdı. Türkiyəni ucaltdı. Türkiyəni ləyaqətli, qürurlu dövlət kimi bütün dünyaya tanıtdırdı. Ona qarşı çox böyük ədalətsizliklər, haqsızlıqlar edilir, həm bəzi ölkələr tərəfindən, həm də təəssüf ki, Türkiyənin içində də bəzi siyasi qüvvələr tərəfindən. Təbii ki, mən bu işlərə qarışa bilmərəm. Amma bir insan kimi buna biganə qala bilmərəm. Çünki onun Türkiyə üçün gördüyü işlər genişmiqyaslıdır və bu gün Türkiyəni onun kimi sevən, onun maraqlarını müdafiə edən, öz sinəsini irəli verən ikinci bir insan yoxdur Türkiyədə. Bunu hər kəs bilməlidir. Azərbaycanda bunu hər kəs bilir. Türkiyədə də bir çoxları bilir, amma bilməyənlər üçün də mən demək istəyirəm ki, onlar da görsünlər. Çünki siyasi mübarizə hər yerdə var. Bir də milli məsələ var. Milli məsələdə hər hansı bir siyasi mübarizə olmamalıdır. Biz təhdid qarşısında birləşməliyik. Bu gün Türkiyəyə də hər tərəfdən hücum edirlər. Ona tab gətirmək, onun qarşısında sipər kimi dayanmaq çox böyük cəsarət tələb edir. Böyük peşəkarlıq, bilik, iradə tələb edir. Mənim qardaşım, bax, belə insandır və mən onu yaxından tanıdığım üçün bunu tam səmimiyyətlə deyə bilərəm. Ona bundan sonra da müvəffəqiyyətlər diləmək istəyirəm. Onun sözləri, onun addımları, onun varlığı bütün türk dünyası üçün önəmlidir və türk dünyasının birləşməsi, işbirliyinin dərinləşməsi istiqamətində biz bundan sonra da böyük səylər göstərəcəyik.

*-Son sual, cənab Prezident, Türkiyə ilə bir ürək olmaq lazım olduğunu dediniz. Bu baxımdan Türkiyədə müxalifətdən Sizə dəstək mesajları gəldimi?*

-Belə səylər oldu. Belə mesajlar gəldi. Bilirsiniz, mən elə insanam ki, hər şeyi necə var elə də deyirəm. Bu məsələdə diplomatiyaya ehtiyac yoxdur. Mənim üçün Türkiyədə əsas məsələ mənim qardaşıma olan münasibətdir. Kim ona yaxşı münasibət bəsləyir, o, mənim ürəyimdədir. Kim ona haqsız münasibət bəsləyir, kim ona qarşı çıxır, mənim ürəyimdə onlar üçün yer yoxdur. Dəstək göstərmək istəyən hər kəsə mən, əlbəttə ki, təşəkkürümü bildirirəm. Ancaq hesab edirəm, hər kəs bilməlidir ki, bu gün Ərdoğan olmasaydı, Türkiyənin başı böyük dərddə ola bilərdi. Bunu hər kəs bilsin, hər kəs anlasın. Bunu mən adi bir Azərbaycan vətəndaşı kimi deyirəm. Bunu siz bu gün 10 milyon Azərbaycan

vətəndaşından eşidə bilərsiniz. Türkiyə-Azərbaycan birliyi möhkəmlənir. Ona görə bu birliyi təmin edən insanlar da gərək lazımi dəstək alsınlar hər bir yerdə, milli məsələlərdə. O ki qaldı, partiyalar arasındakı məsələlərə, o, başqa bir işdir. Milli məsələ var, milli məsələdə hər kəs gərək vətənpərvər olsun.

## *Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Rusiyanın TASS informasiya agentliyinə videomüsahibəsi*

*-Hər vaxtınız xeyir. Biz Bakıdayıq və Azərbaycan Prezidenti İlham Əliyevlə görüşürük. Mən, Yuliya Şarifulina TASS agentliyi adından cənab Prezidentə Dağlıq Qarabağ ətrafında vəziyyətlə bağlı bir neçə sual verəcəyəm.*

*- Salam, cənab Prezident.*

Prezident İlham Əliyev: Salam.

*- Sağ olun ki, bizi qəbul etməyə razılıq vermisiniz. Aydındır ki, son vaxtlar Siz kütləvi informasiya vasitələrinə çoxsaylı müsahibələr vermisiniz. Lakin vəziyyət sürətlə dəyişir. Biz bunu hər gün müşahidə edirik. Biz bəlkə də hələ zamana uyğun olmayan və Sizin ölkənin mövqeyini daha yaxşı anlamaqda bizim auditoriyaya kömək edəcək bəzi baza məsələləri üzərində daha ətraflı dayanmaq istərdik. Biz hamımız Moskvada 11 saatlıq danışıqlar marafonunun şahidləri olduq. Siz necə hesab edirsiniz, əldə olunmuş atəşkəsin tamamilə yerinə yetirilməsinə qayıtmaq mümkündür, yoxsa həmin atəşkəs tamamilə pozulub?*

- Biz öz tərəfdaşlarımızla əlaqələr çərçivəsində üzərimizə götürdüyümüz öhdəliklərə sadiqik. Həm əvvəldən, həm də münaqişənin nizamlanmasına dair danışıqlar prosesində biz həmişə həm beynəlxalq hüquqa, həm də münaqişənin dinc yolla həllinə sadiqliyimizə, o cümlədən Moskva danışıqlarından sonra Azərbaycanın öz üzərinə götürdüyü öhdəliklərə əsaslanmışıq, həmin öhdəlikləri yerinə yetirməyə çalışırdıq və hazırlaşırdıq. Lakin təəssüf ki, Ermənistan atəşkəs rejimini kobud şəkildə pozdu. Danışıqlardan sonra heç 24 saat keçməmiş Gəncə şəhərinə hücum edildi. Gecə vaxtı - yatmış Gəncə şəhərinin yaşayış məhəllələrinə məqsədyönlü şəkildə zərbə endirildi. Birinci hücumdan sonra, - iki hücum olub, - həlak olanlar və yaralananlar hədsiz çox idi. Yəni Ermənistan atəşkəsi nümayişkəranə şəkildə pozdu. Beləliklə o, vasitəçilərə hörmətsizlik, Moskvada belə uzun danışıqlardan sonra öz üzərinə götürdüyü öhdəliklərə hörmətsizlik göstərdi. Bundan əvvəl, həlak olanların cəsədlərinin, əsirlərin və girov-ların mübadiləsi məqsədilə atəşkəsin şərtləri razılaşdırıldıqdan sonra Ermənistan döyüş meydanında da atəşkəs rejimini pozurdu. Lakin görünür, onlar bununla kifayətlənmədi və Gəncə şəhərinə hücum etdilər. Yeri gəlmişkən, yaxın vaxtlarda, iki gün bundan əvvəl onlar eyni cür hərəkət etdilər. Yenə gecə vaxtı. Bu, çox alçaq cinayətdir. Bu, beynəlxalq terrorizmdir. Dünya birliyinin bu qanlı cinayəti bir səslə pisləməsi o deməkdir ki, bu, ermənilərə baha başa gələcək. BMT-nin Baş katibi də, Avropa İttifaqı da, bir çox ölkələr də bu beynəlxalq terrorizm aktını milli səviyyədə pisləyiblər.

Vəziyyətin hələ də qaynar fazada olması bizim təqsirimiz deyil. Mən dəfələrlə demişəm ki, Azərbaycan nizamlama prinsiplərinə sadiqdir. Bu prinsiplər çoxillik danışıqlar prosesində işlənib hazırlanıb. Mən öz açıq çıxışlarım və bu günlərdə mətbuat nümayəndələri ilə əlaqələrim çərçivəsində təsdiq etmişəm ki, əgər Ermənistan danışıqlar məcrasında özünü konstruktiv apararsa, biz günü sabah hərbi əməliyyatları dayandırmağa hazırıq. Lakin Yerevandan eşitdiyimiz bəyanatlar ATƏT-in Minsk qrupu tərəfindən hazırlanmış baza prinsiplərinə tamamilə ziddidir. Ermənistan rəhbərliyi lap yaxın vaxtlarda baza prinsiplərini faktiki olaraq təkzib edən çox təhlükəli bəyanatlarla çıxış edib. Prinsip etibarilə, Ermənistanın yeni rəhbərliyinin bütün fəaliyyəti danışıqlar prosesinin pozulmasına yönəlib. Bu prosesi zəiflətməyə yox, məhz pozmağa. Mən onların çoxsaylı bəyanatları, təhrikçi hərəkətləri və Azərbaycanın dinc əhalisinə hücumları barədə danışmışam. Buna görə də, əgər erməni tərəfi nəhayət başa düşsə ki, hərbi təxribatlar yolu onları fəlakətə aparır, biz hərbi əməliyyatları yenidən dayandırmağa və məsələni danışıqlar masası arxasında həll etməyə hazırıq.

*- Sizin ölkəniz hərbi xətt üzrə təcili görüş keçirilməsinin zəruri olması fikrinə razıdırmı? Rusiya bunu deyir. Yəni, əgər Sizin ölkə razıdırsa, onda həmin görüş hansı formatda, hansı tərəflərin iştirakı ilə keçirilə bilərdi?*

- Bilirsinizmi, indiki halda birinci dərəcəli məsələ Ermənistan və Azərbaycan rəhbərliklərinin siyasi iradəsidir. Bizim tərəfdən bu iradə var. Mən bu gün öz mövqeyimizi bir daha təsdiq edirəm. Özü də bunu elə bir vaxtda təsdiq edirəm ki, işğal altında olan ərazilərdə daha 13 yaşayış məntəqəsinin azad olunması bu gün elan edilib. Elə bir vaxtda ki, erməni ordusu, əslində, fiaskoya uğrayır. Azərbaycan döyüş meydanında öz üstünlüyünü nümayiş etdirir. Lakin bununla belə biz, qan tökülməsinin davam etməsini istəmədən, insanların həyatını qoruyub saxlamağı arzu edərək bu məsələni siyasi yolla həll etməyə hazırıq.

Hərbçilər arasında əlaqələr məsələsinə gəldikdə isə bu məqamlar baza prinsiplərində dəqiq müəyyən edilib və biz baza prinsiplərinə sadiqik, onların barəsində danışmışam, zənnimcə, təkrarlamağın mənası yoxdur. Bunlar Ermənistan tərəfindən işğal edilmiş ərazilərin qaytarılması, Dağlıq Qarabağın gələcəyinə dair danışıqlar, qaçqınlar və məcburi köçkünlərin əvvəlki yaşayış yerlərinə, o cümlədən Dağlıq Qarabağa, Şuşaya qaytarılmasıdır. Bütün bunlar baza prinsiplərində yazılıb. Ermənistan tərəfi də müxtəlif mərhələlərdə bütün bunlara razılıq verib. Buna görə indi sizin müraciət

etdiyiniz məsələ baza prinsiplərində razılaşmanın sonundadır. İşğala son qoyulması ilə bağlı bütün məsələlər nizamlandıqda xarici sülhməramlı qüvvələrin iştirakı nəzərdə tutulurdu. Lakin nizamlanması tələb edilən əsas məsələlər razılaşdırılmadığına görə, tərəflər bu məsələyə hələ də başlamayıblar. Buna görə həmin qüvvələrin kimlərdən ibarət olacağı, orada hansı beynəlxalq qurumların, hansı ölkələrin təmsil olunacağı barədə dəqiq anlayış yox idi. Odur ki, bütün bu məsələlər müzakirə edilmirdi. Lakin aydın idi ki, sülhməramlı qüvvələrin tərkibi Azərbaycan və Ermənistan ilə razılaşdırılmalıdır. Həmin qüvvələrin dislokasiya yerləri də müəyyən edilməmişdir. Ona görə, bu gün təmas xəttinin olmadığı, status-kvonun pozulduğu, - onu biz pozmuşuq və bunu Rusiya, ABŞ və Fransa dövlət başçılarının bəyanatları, status-kvonun qəbuledilməz olması barədə dövlət başçılarının dəfələrlə səsləndirdiyi bəyanatları çərçivəsində etmişik. Biz bu bəyanatları eşitmişik, lakin onların implementasiyasını görməmişik. Buna görə biz özümüz onu implementasiya etdik. Yəni, status-kvo yoxdur, təmas xətti yoxdur. Hərbi müşahidəçilər texniki baxımdan necə və harada yerləşdirilə bilər? Axı döyüş meydanında vəziyyət hər gün dəyişir. Hansısa xarici müşahidəçilər oraya gələndə harada dayanacaqlar? Haradasa dağlarda, vadilərdə, körpülərin üstündə? Yəni, bütün bunlar çox ətraflı işlənib hazırlanma tələb edir. Bu, öz hərbi kontingentini oraya göndərməyi lazım bilənlər üçün böyük riskdir. Ona görə də bütün bunlar - sülhməramlıların tərkibi, mandatı, müddəti, məqsədləri razılaşdırılmalıdır. Əlbəttə, bütün bunlar baza prinsipləri çərçivəsində olmalıdır, həmin prinsipləri isə artıq dediyim kimi, biz qəbul edirik, amma erməni tərəfi təkzib edir.

*- Lakin hər halda, vəziyyət tələb edərsə, Sizin ölkəniz rusiyalı hərbi müşahidəçilərin yeridilməsinə razılaşarmı? Əgər rusiyalılar olmasa, bu missiyada daha hansı ölkələr iştirak edə bilərdi? Siz hansı ölkələrin iştirakına qəti etiraz edərdiniz?*

- Bilirsiniz, ABŞ və Fransa kimi Rusiya da ATƏT-in Minsk qrupunun həmsədridir və bu mandat çərçivəsində ölkələr öz arasında çox sıx qarşılıqlı fəaliyyət göstərir. İndi, münaqişənin qaynar fazası dövründə mən həm Qərb mətbuatında, həm də Rusiya mətbuatında müşahidə edirəm ki, Dağlıq Qarabağ məsələsi həmin ölkələr arasında fikir ayrılığı doğurmayan yeganə məsələdir. Yəqin ki, bu, həqiqətən belədir. Ona görə ki, haraya baxsaq hər yerdə sanksiyalar, qarşıdurmalar, narazılıqlar və sair, özü də qarşılıqlı. Buna görə, əlbəttə, mən əminəm ki, həmsədrlik formatı çərçivəsində bu məsələ həmin ölkələr arasında razılaşdırılmalıdır. Bu məsələ razılaşdırılandan sonra tərəflərə təqdim edilməlidir. Yəni, bütün bunlar baza prinsiplərində də nəzərdə tutulmuşdur. Ona görə sülhməramlıların və ya indi adlandırmaq istədikləri kimi desək, müşahidəçilərin kimlər olacağını biz müəyyən etməyəcəyik. Bunu ATƏT-in Minsk qrupunun həmsədrləri təklif edəcəklər. Azərbaycan və Ermənistan isə öz tərəflərindən bu və ya digər ölkəyə veto qoya, ya da razılaşa bilər. Buna görə mən düşünmürəm ki, bu məsələnin birtərəfli qaydada həlli hansısa hərbi kontingentin müəyyən edilməsi üçün üç həmsədr ölkə arasında əməkdaşlığın ruhuna uyğun olardı. Ən başlıcası, onlar harada olacaq? Budur məsələ. İş onda deyil ki, Azərbaycan razılaşacaq və ya razılaşmayacaq. Biz mandatı - onun, necə deyərlər zaminini, funksiyalarını, yerləşdiyi məkanı, fəaliyyətini bilməliyik. Onlar dağlarda və ya boş bir sahədə dayanıb kimin haraya atəş açmasını müşahidə edəcəklər? Əvvələn, bu, təhlükəlidir. İkincisi, məsələn, atəşkəsi kimin pozduğunu müşahidə etmək üçün hətta onu kimin pozduğu müəyyən edilsə belə, sonra nə olsun? Həmin insanları məsuliyyətə cəlb edəcəklər? Hansısa cinayət işləri açılacaq? Buna görə, ilk növbədə, baza prinsiplərinin implementasiyası qaydası müəyyən edilməlidir. Erməni tərəfi, baş nazirin şəxsində bu prinsiplərə sadiqliyini dəqiq təsdiq etməlidir. Erməni tərəfi isə baş nazirin şəxsində hər şeydən danışır, amma bu barədə danışmır. Rusiya KİV-lərinin nümayəndələri ilə bizim paralel əlaqələrimiz çərçivəsində mən aydın demişəm ki, biz işğala son qoyulmasını, erməni və azərbaycanlı əhalinin əvvəlki yaşayış yerlərində birgə yaşamasını, azərbaycanlıların Şuşaya, keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin digər yaşayış məntəqələrinə qaytarılmasını nəzərdə tutan baza prinsiplərinə sadiqik. Ermənistanın baş naziri yalnız təyini-müqəddərat barədə danışır. Yəni o, bu prinsipləri qəbul etmir, daha əvvəl özünün "Qarabağ Ermənistandır və nöqtə" kimi və digər səmərəsiz bəyanatları ilə əslində danışıqlar prosesini pozub. Onda bizə nə təklif edilir? 30 il mövcud olmuş və heç bir nəticəyə gətirib çıxarmamış status-kvoya yenidən qayıtmaq? Əgər biz görsək ki, erməni tərəfi deyir: bəli, biz Azərbaycanın ərazi bütövlüyünü tanıyırıq, ikincisi, biz baza prinsiplərinə sadiqik, üçüncüsü, biz işğal edilmiş ərazilərdən öz qoşunlarımızı çıxarmağa razıyıq. Bax, onda gəlin müşahidəçilər məsələsini müzakirə edək. Mənim fikrimcə, bu məsələ tezliklə razılaşdırıla bilər. Lakin bunlar olmadıqda, bizə mahiyyət etibarilə nə təklif edilir? Dayanmaq? Bizim ərazilərimizin işğaldan azad olunmasını davam etdirməmək? Bizə təklif edirlər ki, Ermənistana güzəştə gedək, birtərəfli güzəştə, lakin əvəzində bizə heç nə təklif edilmir. Bu, ədalətsizlikdir. Hesab edirəm ki, Azərbaycana münasibətdə bu, düzgün olmayan yanaşmadır. Qoy, erməni tərəfi desin, qoy, Ermənistanın çox danışmağı xoşlayan və çox vaxt danışdıqları ölkəsinə çox baha başa gələn baş naziri desin ki, bəli, torpaqlar işğaldan azad ediləcək, qoşunlar çıxarılacaq. Mən qoşunların işğal edilmiş ərazilərdən çıxarılması qrafikinin verilməsini də təklif etmişdim. Sonra biz Moskvada bir günlük danışıqlar çərçivəsində bunu etməyin texniki baxımdan mümkün olmadığını başa düşdük və bu mövqedən geri çəkildik. Bununla belə, biz Ermənistan tərəfinin öz qoşunlarını işğal altında olan ərazilərdən çıxarmağa hazır olmasını eşitmədik. Bu, baş verən kimi belə adlandırılan müşahidəçilər məsələsinə baxıla bilər.

*- Prinsip etibarilə nizamlamanın ardıcıllığı barədə danışmalı olsaq, Azərbaycanda yeddi rayonun mərhələli şəkildə Azərbaycana qaytarılması, lakin Qarabağın qəti statusu müəyyən edilənə qədər Laçın dəhlizinin Ermə-*

*nistanın nəzarəti altında saxlanılması şərti ilə nizamlamaya başlamağa razıdırlarmı?*

- Bilirsiniz, axı bütün bunlar baza prinsiplərində yazılıb və biz bunu qəbul etmişik. Bizim mövqeyimiz həmişə çox konstruktiv olub və biz həmişə demişik ki, bəli, biz anlayırıq, insanlar arasında əlaqə olmalıdır və Laçın dəhlizi baza prinsiplərinin tərkib hissəsidir. Bununla bərabər, axı baza prinsiplərində yazılıb ki, təkcə Laçın dəhlizi deyil, bütün kommunikasiyalar, həmçinin Azərbaycanın əsas hissəsi ilə Naxçıvan arasında kommunikasiyalar açılır. Erməni tərəfi bu dəhlizin təhlükəsizliyinə zəmanət təqdim etməli idi. Ermənistanla Azərbaycan arasında sərhəddə kommunikasiyalar açılır. Həmçinin nəzərdə tutulurdu ki, Ermənistan Rusiya Federasiyasının ərazisinə maneəsiz yerüstü keçmək imkanına malik olacaq. Hazırda Ermənistan bu imkandan məhrum deyil, lakin bunu Azərbaycan ərazisindən keçməklə etmək qat-qat rahatdır və bu, hava şəraitindən, dağlarda qar yağmasından və sair məsələlərdən asılı deyil. Yəni, bütün bunlar Azərbaycan ərazilərinin işğaldan azad edilməsini, azərbaycanlı məcburi köçkünlərin qovulduğu bütün torpaqlara, təkcə yeddi rayona deyil, həm də Dağlıq Qarabağın ərazisinə, - münaqişə başlayana qədər orada yaşayan bütün əhalinin 25 faizi azərbaycanlılar idi, - qaytarılmasını nəzərdə tutan kompromis paketinin bir hissəsidir. Əlbəttə, Dağlıq Qarabağ ilə Ermənistan arasında Laçın dəhlizi vasitəsilə maneəsiz gediş-gəliş də nəzərdə tutulurdu. Biz bu mövqeyimizi bir daha təsdiq edirik.

*- Cənab Prezident, sirr deyil ki, Rusiya Yaxın Şərqdən, xüsusən Suriya və Liviyadan münaqişə zonasına silahlılar gətirilməsi barədə xəbərlərə görə narahatlığını bildirib. Siz bunu necə şərh edərdiniz?*

- Mən bu barədə dəfələrlə açıq demişəm ki, bu cür narahatlıqlar əsassızdır. İndiyə qədər bizə heç bir tərəf heç bir fakt təqdim etməyib. Bu cür bəyanatlar təkcə Rusiya tərəfindən deyil, Fransa tərəfindən də səslənirdi və biz xahiş etdik ki, bizim hansısa terrorçuları dəvət etməyimizə dair konkret faktlar, konkret sübutlar təqdim edilsin. İndiyə qədər bizə sözlərdən başqa heç bir fakt təqdim edilməyib. Nə Prezident kimi mənə, nə bizim xüsusi xidmətlərin rəhbərlərinə, nə də Müdafiə Nazirliyinin rəhbərlərinə heç bir fakt təqdim edilməyib. Yaxşı, əgər belə faktlar varsa, əgər bunu bəyan edirlərsə, nə üçün bizə faktlar təqdim edilmir. Hansısa qəzet məqalələrinə istinad edirlər. Bilirsiniz, indi nə istəsən yazmaq olar. Ona görə biz bu yanaşmanı əsla qəbul etmirik və bəyənmirik. Bu, birincisi.

İkincisi, mən artıq demişəm ki, Azərbaycan Ordusu həm döyüş meydanında, həm də texniki təchizat baxımından üstünlüyünü göstərib. Biz Ermənistanın işğal edilmiş ərazilərdə yerləşən əsas hərbi-texniki potensialını praktiki olaraq məhv etmişik. Mən bu rəqəmləri göstərmişəm. 230-dan çox tank əsasən pilotsuz uçuş aparatları vasitəsilə, habelə tank əleyhinə müasir mübarizə sistemləri – bunu gizlətmirəm, özü tuşlanan “Spike” raketləri vasitəsilə məhv edilib. Biz dünənə qədər 36 tankı qənimət götürmüşük, çoxlu sayda digər texnikanı, o cümlədən ən müasir “S-300” zenit-raket komplekslərini, bir neçə işəsalma qurğusunu, 40-a yaxın OSA zenit-raket kompleksi qurğusunu, TOP qurğularını məhv etmişik. Prinsip etibarilə onlar pilotsuz uçuş qurğularına qarşı işləməlidirlər, lakin PUA-lar onları məhv edib. Məgər bunları Suriyanın harasındansa gəlmiş terrorçular ediblər? Yaxud bu gün, bizim Ordumuz əraziləri azad edərkən kim orada həmin terrorçuları görüb? Bunlar bizim əsgərlər və zabitlərdir. Bizim ehtiyatda olanları saymasaq, Azərbaycanın nizami ordusunda 100 min döyüşçümüz var. Biz hətta səfərbərlik elan etməmişik – nə üçün? Bizə lazım deyil. Biz qismən səfərbərlik elan etdik, neçə nəfər cəlb etməyimiz barədə rəqəmlər göstərmək istəmirəm. Lakin onlardan əsasən azad edilmiş ərazilərin monitorinqinin və həmin ərazilərə nəzarətin təmin olunması üçün istifadə edirik. Biz ehtiyatda olanları döyüşə buraxmırıq, hazırda onlar bizim azad etdiyimiz ərazilərdə yerləşirlər ki, erməni tərəfin təxribat cəhdlərinin qarşısını alsınlar. Buna görə faktlar yoxdur, zərurət yoxdur. Yalnız qeybətlər, şayiələr var. Açıq deyim, mən təəssüflənirəm ki, belə söz-söhbətlər yayılır, bununla da Azərbaycana qara yaxmağa cəhd göstərilir. Eyni zamanda, erməni tərəfin alçaldılmış vəziyyətdə olması bizə aydındır. Onlar bütün bu illər ərzində qürrələnir, özlərinin “məğlubedilməz ordusu” ilə lovğalanırdı. Biz onları torpaqlarımızdan elə qovduq ki, dabanlarına tüpürüb qaçdılar. Belə halda onlar, əlbəttə, güman etmək və ya təsəvvür etmək istəyirlər ki, bunu edən Azərbaycan Ordusu deyil, hansısa terrorçular və ya hansısa ölkələrdir. Bizim tərəfimizdən heç bir ölkə münaqişəyə cəlb edilməyib, bizim tərəfimizdə heç bir terrorçu yoxdur. Qarşı tərəfə, erməni tərəfinə gəldikdə isə biz Rusiya tərəfinə belə bir narahatlığımızı çatdırmışdıq ki, qarşıdurmanın aktiv fazasında Rusiya şəhərlərindən Ermənistan ərazisinə külli miqdarda silah keçirilir. Bizdə bu barədə məlumatlar var, uçuşların xəritələri var, silahların tipləri var. Bütün bunlar Rusiya tərəfinə çatdırılıb. Əlbəttə, bu, bizim cəmiyyətdə çoxlu suallar və müəmmalar doğurur. Bax, vəziyyət belədir. Zəruri hallarda biz bu müddətdə Rusiya tərəfindən Ermənistana göndərilmiş silahların nomenklaturunu, bunların hansı nəqliyyat vasitələri ilə, hansı aviaşirkətlər tərəfindən çatdırılması barədə məlumatları dərc edə bilərik. Bunlar indi əsasən qeyri-qanuni şəkildə çatdırılır. Biz ICAO-ya rəsmən müraciət etmişik. Azərbaycan Xarici İşlər Nazirliyi ICAO-ya müraciət edib ki, müəyyən şirkətlərin nəqliyyat vasitələri ilə humanitar yüklər və Fövqəladə Hallar Nazirliyinin yükləri adı altında Ermənistana ölümsaçan silahlar çatdırılır, - yeri gəlmişkən bütün bu məlumatlar bizdə də var, mətbuatda da. Həm Gürcüstan, həm də İran öz hava məkanını hərbi yüklər üçün bağladıqlarına görə, bu cür qaçaqmalçılıq metodlarından istifadə edilir. Biz Rusiya tərəfinə bildirmişik ki, bu işlərin qaçaqmalçılıq yolu ilə görüldüyünü güman edirik. Ona görə ki, Rusiyanın, həmçinin Fransa və ABŞ-ın da ATƏT-in Minsk qrupunun həmsədri və bitərəfliyi saxlamalı olan ölkə kimi münaqişənin aktiv fazası dövründə erməni tərəfini silahlandırmasına

inanmağımız çətindir. Bizdə olan məlumata görə, bu sxemdə erməni mənşəli rusiyalı iri sahibkarların əli var, bu məsələdə beynəlxalq sanksiyalar tətbiq edilmiş məşhur silah alverçilərinin əli var. Bizim Rusiyaya müraciətimiz, o cümlədən bu məsələnin araşdırılmasına yönəlmişdi. Ona görə ki, əgər Rusiya silahları qaçaqmalçılıq yolu ilə, necə deyərlər, kəş üsulu ilə nağd pulla ödənilir və daşınırsa, araşdırmaq lazımdır, bu, necə ola bilər? Bizim bu cür narahatlığımız var və bizim narahatlığımız faktlara əsaslanır. "Terrorçular" məsələsinə gəldikdə isə bunlar hamısı əsassız sözlərdir.

*- İlham Heydər oğlu, amma 26 il ərzində dünya hər halda başa düşməyib ki, Ermənistan ilə Azərbaycan arasında Qarabağ üzrə yekun razılaşma necə görünə bilərdi. Siz bunu necə görürsünüz, hər halda sülh naminə hansısa güzəştlər mümkündürmü?*

- Bilirsiniz, mən yenə də demək istəyirəm ki, Minsk qrupunun həmsədrləri heç bir nəticəyə nail olmasalar da, - buna görə də haqlı olaraq Azərbaycan ictimaiyyətinin tənqidinə məruz qalırlar, - lakin mən son 17 ildə bu məsələ ilə praktik surətdə gündəlik rejimdə məşğul olan və bu illər ərzində vaxtının çox hissəsini məhz həll yolu tapmağa sərf etmiş bir insan kimi deməliyəm ki, Minsk qrupu səy göstərib, təkliflər verib, fəaliyyətsiz qalmayıb. Buna görə də mən bu cür əsassız ittihamları rədd edirəm. Bu, belə deyil. Ermənistanın keçmiş rəhbərliyi, bundan əvvəlki iki prezidenti ilə mənim əlaqələrim dövründə biz irəliyə çox böyük addımlar atmışdıq. Biz razılaşdırılması, ümumiyyətlə, qeyri-mümkün görünən məsələlərin razılaşdırılmasında irəliyə getmişdik. Bütün bunlar nəticəyə nail olmaq istəyi və güzəşt yolu ilə nizamlanmaya doğru getmək arzusu əsasında idi. Müəyyən mərhələdə, nizamlamaya həddən artıq yaxınlaşdığımız vaxtda erməni tərəfinin geriyə addım atması başqa bir məsələdir. Bu, artıq faktdır, hərçənd onlar həmişə bizi bunda ittiham etməyə çalışırdılar. Lakin son anda onlar Kəlbəcər və Laçının qaytarılmasından imtina etdilər. Çünki digər beş rayon çoxdan razılaşdırılmışdı. Biz artıq Kəlbəcər və Laçının nə vaxt qaytarılacağı məsələsini müzakirə edirdik. Yəni, biz müddəti müzakirə edirdik. Bu məsələnin həll olunacağına nə mənim, nə də Minsk qrupunun şübhəsi yox idi. Düşünürəm ki, Minsk qrupunun o vaxt bu məsələdə iştirak edən sabiq həmsədrləri bunu təsdiqləyə bilərlər. Lakin sonra erməni tərəfi bir addım geri çəkildi və Kəlbəcərlə Laçının qaytarılması məsələsi həll edilməmiş qaldı. Başqa sözlə desək, elə mexanizm təklif olunurdu ki, bu iki rayon həmişəlik ermənilərin nəzarəti altında qalmalı idi və mən bununla qətiyyən razı ola bilməzdim.

Odur ki, mən yenə də sizin sualınıza qayıdıram, Minsk qrupu nizamlama üçün bünövrə yaradıb. Buraya ərazilərin işğaldan azad edilməsi, məcburi köçkünlərin qaytarılması, kommunikasiyaların açılması, azərbaycanlı və erməni icmalarının birgə yaşayışı daxildir. Bu, beynəlxalq hüququn və ümumiyyətlə, bəşəri əxlaqın normalarına tamamilə uyğun gəlir. Çünki Ermənistan prezidentlərindən biri ermənilərin və azərbaycanlıların milli uyuşmazlığından danışarkən, o, bir daha özünün faşist mahiyyətini nümayiş etdirib. Niyə azərbaycanlılar və ermənilər Rusiyada sakit yaşaya, ümumi biznesə, qarışıq ailəyə sahib ola bilirlər? Niyə bəzi gürcü kəndlərində ermənilər və azərbaycanlılar bir yerdə yaşayır, həm müsəlman, həm də xristian bayramlarını qeyd edirlər? Niyə Azərbaycanda minlərlə erməni bizim vətəndaşlarımız kimi layiqli həyat yaşayır? Buna görə də bu cür faşist niyyətli tezislər, əlbəttə ki, nizamlamaya kömək etmirdi. Beləliklə, sadaladığım bütün bu baza prinsipləri, üstəgəl kommunikasiyaların açılması nizamlamanın əsasıdır. Minsk qrupunun həmsədrləri də Azərbaycanın mövqeyini dəstəkləyirlər, lakin Ermənistanın indiki rəhbərliyi başqa yolla getdi. Baş nazir bəyan edirdi ki, Azərbaycana bircə qarış da torpaq verməyəcəklər. Onlar qondarma "Dağlıq Qarabağ respublikası"nın xəritələrini dərc edib, keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin hüdudlarından kənarda olan yeddi rayonun hamısını da oraya daxil ediblər. Onlar bizim bütün şəhərlərimizin, kəndlərimizin adlarını dəyişiblər. Bizim döyüş meydanında gördüklərimiz, sadəcə, onların 30 il ərzində qurduqları müdafiə xəttini yarıb keçmək deyildi. Biz gördük ki, onlar bu əraziləri verməyə hazırlaşmırdılar. Ona görə ki, orada o qədər iş görülmüşdü, mühəndis kommunikasiyalarına, möhkəmlədici qurğulara o qədər sərmayə qoyulmuşdu ki, bu, onların həmin torpaqlardan çıxıb getməyə hazırlaşmadıqlarını göstərirdi. Münaqişənin qaynar fazası başa çatdıqdan sonra biz onların orada nələr tikdiyi barədə tam informasiya təqdim edəcəyik. Buna görə bir daha demək istəyirəm ki, indi baş verənlərin bütün təqsiri şəxsən Paşinyanın üzərindədir. Bu insan, sadəcə, təsadüfən hakimiyyətə gəlməyib, o, həm Azərbaycan xalqına, həm də erməni xalqına həddən artıq iztirab və qəm-qüssə gətirib. O, Sorosun əlaltısıdır. Bu insan əvvəllər həmişə Ermənistanın Rusiya ilə əməkdaşlığının əleyhinə çıxış edirdi. Onun partiyası "Çıxış" adlanırdı – Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatından çıxış, Avrasiya İqtisadi Birliyindən çıxış. Paşinyanın bütün komandası praktik olaraq Qərbin, Soros Fondunun, "Amnesty International", "Transparency", "Human Rights Watch", "Freedom House"un maliyyələşdirdiyi qeyri-hökumət təşkilatlarının nümayəndələrindən ibarətdir. Bu gün Ermənistan hakimiyyətində təmsil olunan insanlar vaxtilə Rusiya səfirliyinə yumurta atır, "Rusiyalı işğalçılar, rədd olun" şüarları ilə çıxır edirdilər. Buna görə də mən, düzünü desəm, Rusiyanın siyasi isteblişmentinin müəyyən hissəsinin bu cinayətkar terrorçu rejimi dəstəkləməsinə təəccüblənirəm. Onların gecə vaxtı Gəncə şəhərinə ballistik raketlərdən zərbə endirməsi, özü də mümkün qədər daha çox insanı məhv etmək üçün yaşayış massivlərinə bilərəkdən zərbə endirməsi qanlı cinayətdir. Onlar bu cinayətə görə hazırda döyüş meydanında cavab verirlər. Əgər ağıllarını başlarına yığmasalar, onların sonu çox acınacaqlı olacaq. Buna görə də sualınıza qayıdıram, biz baza prinsiplərinə tərəfdarıq, hesab edirəm ki, nizamlama mümkündür. Lakin bunun üçün erməni tərəfi elə indi, nə qədər ki, gec deyil, nə qədər ki, qarşımızda diz çöküb bu prinsipləri qəbul etmək və münaqişəni qaynar

fazadan siyasi nizamlama mərhələsinə keçirmək üçün onun hələ vaxtı var.

*- Sonda məntiqə uyğun olardı soruşum ki, Siz Rusiya Federasiyasının vasitəçiliyi ilə Ermənistandan olan həmsöhbətinizlə görüşmək üçün Moskvaya gəlməyə hazırsınızmı?*

- Bilirsiniz, mən Moskvada çox olmuşam. İndiki halda mən belə dəvət almamışam, ona görə bu sual mənə deyil. Dəfələrlə şəxsən Prezident Vladimir Vladimiroviç Putin və ondan əvvəl Dmitri Anatolyeviç Medvedev Ermənistan və Azərbaycan rəhbərləri arasında üçtərəfli görüşlər keçiriblər. Lakin Ermənistanda hakimiyyət şərti Sorosun əlinə keçəndən sonra bu cür əlaqələr dayandırıldı. Rusiya münaqişənin nizamlanmasında həmişə mühüm rol oynayıb və mən bu barədə demişəm, bunun üçün həm tarixi, həm də coğrafi xarakterli obyektiv səbəblər var. Səbəblərdən biri də budur ki, Rusiya onilliklər boyu bizim regionda aktiv fəaliyyət göstərir və qarşılıqlı əlaqələr yüksək səviyyədədir. Buna görə də biz hər cür əlaqəyə hazırıq, yeri gəlmişkən, Xarici İşlər nazirlərinin görüşünün təşkil olunması barədə təklif gələn kimi biz dərhal razılaşdıq. Bu da bizim mövqeyimizin göstəricisidir. Axı, o vaxt Azərbaycan Ordusu strateji ərazilərin bir hissəsini artıq uğurla azad etmişdi və bu, münaqişənin təqribən on gündən çox davam etdiyi vaxt baş vermişdi. Kimin nəyə qadir olması praktik olaraq artıq hamıya aydın idi. Döyüş əməliyyatlarının sonrakı gedişatını təxmin etmək, yəqin ki, çox çətin deyildi. Lakin buna baxmayaraq, biz vaxtı uzatmadıq və ya imtina etmədik. Biz dedik, bəli, biz hazırıq. O vaxt, Rusiya Prezidenti ilə söhbət zamanı dedim ki, mən naziri göndərirəm, yeri gəlmişkən, Xarici İşlər naziri həmin vaxt Cenevrədə idi, Minsk qrupu ilə danışıqlar aparırdı. Münaqişənin qaynar fazasında bizim nazir Cenevrədə idi, erməni nazir isə oraya gedib çatmadı, hərçənd o da, orada olmalı idi. Buna görə biz qarşıdurmaya son qoymaq və nizamlama yollarını tapmaq üçün Moskvada və ya hər hansı başqa bir yerdə görüşməyə həmişə hazırıq. Biz də sülh istəyirik, lakin Ermənistandan fərqli olaraq, biz öz qanuni ərazilərimizi də istəyirik.

*-Cənab Prezident, müsahibəyə görə sağ olun.*

-Siz sağ olun.

## *Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Yaponiyanın "Nikkei" qəzetinə müsahibəsi*

*- Dağlıq Qarabağ münaqişəsi haqqında soruşmaq istəyirəm. Azərbaycanın və Ermənistanın xarici işlər nazirləri cümə günü Vaşinqtona səfər edəcəklər. Bu görüşdən nə gözləyirsiniz? Siz üçtərəfli formatda bəzi şərtlərlə danışıqlara hazırsınızmı?*

- Bilirsiniz ki, əslində, Amerika Birləşmiş Ştatları, Rusiya və Fransa Ermənistan və Azərbaycan arasında olan münaqişənin həll yolunu tapmaq üçün mandatı olan Minsk qrupunun üç həmsədr ölkələridir. Ona görə bizim nazirlərimizin bu üç paytaxtda görüşməsi təbiidir. Bu cür görüşlər əvvəllər dəfələrlə olmuşdur. Bilirsiniz ki, Moskvaya da səfər edilmişdir, orada da görüş olmuşdur. Beləliklə bu, münaqişənin sülh yolu ilə nizamlanması üzrə danışıqların davamıdır. Əlbəttə ki, indi yerdə vəziyyət dəyişmişdir. Satus-kvo artıq mövcud deyil. Təmas xətti də mövcud deyil. Buna görə, əlbəttə, mən hesab edirəm ki, indi Ermənistan rəhbərliyi daha da məntiqli davranmalıdır və işğal edilmiş ərazilərin boşaldılmasına sadiq olmalıdır. Beləliklə, bu müzakirələrdə bizim əsas məqsədimiz Ermənistan rəhbərliyinin ərazilərimizin boşaldılmasına hazır olub-olmamasını və hazır olduğu təqdirdə bunun nə vaxt baş verəcəyini müəyyən etməkdir.

*- Prezident Putin Sizi də Moskvaya dəvət edib?*

- Xeyr.

*- Dəvət olunsaydınız, getməyə hazırsınızmı?*

- Mən dəfələrlə Prezident Putin tərəfindən dəvət olunmuşam və Moskvaya dəfələrlə səfər etmişəm. Bəzi illərdə hətta il ərzində bir neçə dəfə səfər etmişəm. Odur ki, bu yüksəksəviyyəli təmasların tərəfdaş və qonşu ölkələr arasında olması adət edilmiş bir haldır. Həmçinin Prezident Putin də Azərbaycana dəfələrlə səfər edib.

*- Əgər cümə günü nazirlərin görüşündə hər hansı bir irəliləyiş olsa, Moskvada Ermənistanın baş nazirinin qatılacağı üçtərəfli görüş keçirilə bilərmi?*

- Bəli, əlbəttə ki, bu, mümkündür, çünki bu növ görüşlər əvvəllər də olmuşdur. Əgər belə bir görüş olsa, bu, gündəliyin nədən ibarət olduğundan asılı olacaqdır. Əfsuslar olsun ki, Ermənistanın bu hökuməti ilə münaqişənin sülh yolu üzrə nizamlanması perspektivləri çox uzaqdır. Çünki Ermənistan rəhbərliyi tərəfindən verilmiş çox səmərəsiz və təhrikedici bəyanatlar, edilmiş hərəkətlər, əslində, danışıqları mənasız etmişdir. Çünki danışıqlar masasında əsas mövzu həmişə BMT Təhlükəsizlik Şurasının qətnamələrinə müvafiq olaraq Azərbaycanın işğal olunmuş ərazilərinin boşaldılması idi. Ermənistanın baş naziri "Qarabağ Ermənistandır" bəyan edəndə, Azərbaycanın qondarma "Dağlıq Qarabağ hökuməti" ilə danışıqlar aparmalı olduğunu deyəndə, dinc Gəncə şəhərinə ballistik raket zərbəsi vurmaq əmri verəndə və Azərbaycanın digər şəhərlərinə gündəlik olaraq hücum edəndə, danışıqları aparmaq üçün o qədər də imkan qalmır. Buna görə də biz Ermənistan hökumətinə sübut etməli idik ki, artıq onlar bu cəzasız təcavüzkar addımları ata bilməzlər. Biz onların cəzasını yerində veririk, biz ərazilərimizi azad edirik, demək olar ki, hər gün mən Ermənistanın işğalından azad olunmuş yeni şəhər və kəndləri elan edirəm. Ermənistan döyüş meydanında çox acı məğlubiyyətlə üzləşir. Buna görə də, əlbəttə ki, onlar daha məntiqli davranmalıdırlar və birmənalı olaraq ərazilərin işğaldan azad edilməsi baş verir. Biz buna sülh danışıqları vasitəsilə nail olmaq istəyirdik. Lakin Ermənistanın qeyri-konstruktiv mövqeyi və təhrikedici addımlarına görə bu, mümkün

olmamışdır. Buna görə biz indi döyüş meydanında ərazilərimizi azad edirik.

*- Siz ikinci atəşkəsin artıq uğursuz olduğunu, yaxud bitdiyini və döyüşün davam etdiyini deyərdiniz?*

- Atəşkəsə nail olmaq üçün ikinci cəhd ona görə uğursuz oldu ki, atəşkəs qüvvəyə mindikdən 2 dəqiqə sonra onlar atəşkəsi pozdular, onlar yenə də bizim dinc şəhərlərimizə hücum etdilər. Bu səhər saat 6-dan 8-ə qədər onlar dinc əhalinin yaşadığı və ən çox ziyan görən Tərtər şəhərinə 100-dən çox raket atıblar. Onlar bizim hərbi mövqelərimizə hücum edirlər. Onlar artıq azad edilmiş əraziləri yenidən geri götürmək istəyirdilər. Bildiyiniz kimi, birinci atəşkəs cəhdindən sonra 24 saatdan az müddətdə onlar Ermənistan ərazisindən ballistik raketlə Azərbaycanın ikinci ən böyük şəhəri Gəncəyə hücum etdilər. Bu da hərbi cinayətdir və Ermənistan hökuməti buna görə məsuliyyət daşıyacaq. Beləliklə, onlar atəşkəsi pozublar.

Mən həmişə demişəm ki, atəşkəsə birtərəfli qaydada nail olmaq mümkün deyil. Əgər bizə hücum olunursa, biz nəinki özümüzü müdafiə etməliyik, eyni zamanda, əks-hücuma da keçməliyik. Sizə deyə bilərəm ki, onlar ikinci dəfə atəşkəsi pozandan sonra biz Zəngilan şəhərini və bir çox kəndləri azad etdik. Beləliklə döyüş meydanında nə qədər çox vaxt keçirsə, biz bir o qədər də əraziləri azad edirik. Ona görə Ermənistan hökuməti öz davranışı haqqında ciddi düşünməlidir və əgər atəşkəsin səmərəli olmasını istəyirsə, birincisi, atəşkəsi pozmamaq, ikincisi, artıq işğaldan azad edilmiş əraziləri geri götürməyə cəhd etməmək və işğal olunmuş Azərbaycan ərazilərinin boşaldılması üçün üzərinə ciddi öhdəlik götürməlidir.

*- Hələ ki, atəşkəs əsirlərin və cəsədlərin mübadiləsi də daxil olmaqla humanitar məqsədlər üçün elan edilmişdir. Sizcə bu atəşkəsin, - ola bilsin başqa atəşkəs də olacaqdır, - əsirlərin mübadiləsindən sonra bitəcəyi deməkdir? Yəni, bu, qüvvədə olacaq əsaslı atəşkəs, yoxsa, müvəqqəti atəşkəs olacaqdır?*

- Bəli, atəşkəs humanitar zəmində elan olunmuşdur. Bildiyiniz kimi, Moskva bəyannaməsində substantiv danışıqlara və danışıqlar formatının dəyişməz olaraq qaldığına da istinad var idi. Bu isə Ermənistan tərəfindən qondarma "Dağlıq Qarabağ hökumətini" danışıqlara cəlb etmək cəhdlərinin artıq olmayacağı deməkdir. Bu, bizim tərəfimizdən və Minsk qrupu tərəfindən rədd edilmişdir. Buna görə, əlbəttə, əgər Ermənistan danışıqlara sadiq qalarsa və əraziləri boşaltmaq üçün üzərinə ciddi öhdəlik götürərsə, - hansını ki, onlar hələ də elan etməyiblər, - bu halda bu atəşkəs uzunmüddətli olacaqdır. Çünki biz bu problemi sülh yolu ilə həll etmək istəyirik. Lakin, əgər onlar resurslarını səfərbər etmək, əlavə əcnəbi hərbi yardım almaq və bizə qarşı yeni hücuma keçmək üçün bu atəşkəsdən istifadə etməyə cəhd göstərəcəklərsə, əlbəttə, bu atəşkəs uzun müddət davam etməyəcəkdir. Bu, onlardan asılıdır.

*- Beləliklə, danışıqlar masasına oturmaq üçün hər hansı danışıqları aparmadan öncə əvvəlcədən Ermənistandan ən azından yeddi rayonun bəzilərini boşaltmağa razılaşmağı tələb edəcəksiniz?*

- Onlar bu əraziləri boşaldacağına dair üzərilərinə ciddi öhdəlik götürməlidirlər. Çünki bu, Minsk qrupunun vasitəçiliyi ilə iki ölkə arasında razılaşdırılmış əsas prinsiplərin bir hissəsidir. Əsas prinsiplərdə deyilir ki, işğal olunmuş ərazilər Azərbaycana qaytarılmalıdır, bizim qaçqın və məcburi köçkünlərimiz işğal olunmuş bütün ərazilərə qayıtmalıdırlar, o cümlədən Dağlıq Qarabağın ərazisinə, o cümlədən qədim Azərbaycan şəhəri olan Şuşanın ərazisinə. Buna görə Ermənistan hökuməti bu prinsiplərə sadiq olduğunu, bu əraziləri boşaldacağını açıq şəkildə bəyan etməlidir və bundan sonra əlbəttə ki, danışıqlar başlayacaqdır. Biz indi birinci olaraq ərazilərin boşaldılması və sonra danışıqların başlanılması ilə bağlı ilkin şərti irəli sürmürük. Biz hazırda Ermənistan tərəfindən, bu zorakılığa və dinc əhaliyə qarşı hərbi cinayətlərin törədilməsinə görə məsul olan şəxsdən, şəxsən baş nazirdən tələb edirik ki, o, Ermənistanın işğal olunmuş əraziləri boşaldacağını desin. Bundan sonra əlbəttə ki, münaqişənin nizamlanması döyüş meydanından danışıqlar masasına keçəcəkdir.

*- Ermənistan desə ki, onlar ilkin olaraq beş rayonu boşaltmağa hazırdır, Siz danışıqlara getməyə hazır olarsınızmı?*

- Azərbaycanın bütün rayonları boşaldılmalıdır. Bütün. Əlbəttə ki, biz vaxt çərçivəsindən danışa bilərik və əsas prinsiplərdə vaxt çərçivəsi ilə bağlı müəyyən fikirlər var idi. Hansı mərhələdə rayonların birinci, hansı mərhələdə rayonların ikinci hissəsi boşaldılacaq. Beləliklə bunu müzakirə etmək olar. Lakin aydındır ki, işğal olunmuş bütün ərazilər qaytarılmalıdır.

*- Bu, əvvəlcədən elan olunmalıdır.*

- Bütün azərbaycanlılar öz qədim torpaqlarına qayıtmalıdır.

*- Rusiyanın müşahidəçi qruplarının göndərilməsinə dair təklifinə və ya beynəlxalq müşahidəçilərlə bağlı nə deyərdiniz?*

- Beynəlxalq müşahidəçilər və ya sülhməramlı qüvvələr əsas prinsiplərin bir hissəsidir. Lakin bu, sonuncu hissəsidir, ünvanlanmalı olan ən son məsələlərdən biridir və əlbəttə ki, hər iki tərəf, - Azərbaycan və Ermənistan bu beynəlxalq müşahidəçilərin və ya sülhməramlıların kim olacağına razılaşmalıdır. Buna görə, biz danışıqlar çərçivəsində bu məsələni ciddi müzakirə etməmişik. Hesab edirəm ki, Minsk qrupunun həmsədrləri olan üç ölkə, əlbəttə, öz adından bu müşahidəçilərin tərkibi, sayı, onların nə zaman və hara göndəriləcəyi ilə bağlı təkliflərini verəcəklər.

Çünki bu, həm də texniki nöqteyi-nəzərdən vacibdir. Çünki indi döyüş əməliyyatlarının aktiv fazasıdır. Bu müşahidəçilər və ya sülhməramlılar harada yerləşdiriləcək? Onların həyatı risk altında ola bilər. Onların mandatı necə olacaq? Onlara mandatı kim verəcək? Aydındır ki, biz bu barədə danışanda, Azərbaycan ərazisi barədə danışırıq. Bu, Ermənistanın ərazisi deyil. Ona görə də, əlbəttə ki, bununla bağlı həlledici sözü biz deməliyik. Bu səbəbdən, sözsüz ki, bütün bu məsələlərlə məşğul olmaq lazımdır. Prinsipcə, biz bunu inkar etmirik. Lakin sözsüz ki, vaxtı gələndə biz öz şərtlərimizi irəli sürəcəyik.

*– Minsk qrupundan söz düşmüşkən, Türkiyə Minsk qrupunu tənqid edərək ona ağılsız deyir. Siz bununla razılaşardınız?*

- Mən bu yaxınlarda demişdim ki, Minsk qrupu 30 il ərzində heç bir nəticə əldə etmədi. Eyni zamanda, mən dedim ki, biz Minsk qrupunun vasitəçiliyi ilə keçmiş Ermənistan hökumətləri ilə irəliləyişə nail ola bilmişdik. Böyük olmasa da, hər halda irəliləyiş idi. Lakin əgər 30 il ərzində bir ölkələr qrupu nəticə əldə edə bilmirsə, bu, özü hər şeyi göstərir. Həmçinin Minsk qrupunun həmsədrləri BMT Təhlükəsizlik Şurasının daimi üzvləridir. Bu ölkələrin iştirakı və bu ölkələrin səsverməsi ilə BMT Təhlükəsizlik Şurası Ermənistan qoşunlarının Azərbaycan torpaqlarından tam və qeyd-şərtsiz çıxarılmasını tələb edən 4 qətnamə qəbul edib. Bu qətnamələrə niyə əməl edilmədiyi sual olunur. Çünki Minsk qrupunun həmsədrləri və daimi üzvlər eyni ölkələrdir. Beləliklə, bu, açıq sualdır.

*– Siz Minsk qrupunun həmsədrləri arasında Rusiyanın vasitəçi kimi, aparıcı vasitəçi kimi rolu barədə nə deyə bilərsiniz? Siz deyə bilərsiniz ki, Rusiya ədalətli olub?*

- Bilirsiniz, Minsk qrupunun üç həmsədrinin eyni hüquqları və eyni mandatı var. Odur ki, mənim bildiyimə görə bu ölkələr arasından lider seçilməyib. Onların hamısı bərabərdir və biz onlara vasitəçi kimi baxırıq. Əgər hər hansı bir ölkə vasitəçi rolunu üzərinə götürürsə, bu ölkə neytral olmalıdır. Əgər o, neytral deyilsə, vasitəçi ola bilməz. Neytrallıq səviyyəsi, əlbəttə ki, münasib zamanda ünvanlanacaq başqa bir məsələdir. Lakin düşünürəm ki, Minsk qrupunun həmsədrləri zorakılığı dayandırmaq və 28 il ərzində yerinə yetirilməyən mandatı yerinə yetirmək üçün xüsusilə indi, Ermənistanın döyüş meydanında demək olar ki, məğlub olduğu bir vaxtda öz rollarını oynayacaqlar.

*- Siz Türkiyənin Qafqazdakı məsələlərlə bağlı daha çox söz sahibi və bu danışıqlar prosesində daha fəal olmağını istəyirsinizmi?*

– Bu, sözsüz ki, Türkiyənin siyasi gündəliyindən asılıdır. Mən Türkiyənin adından danışa bilmərəm. Demək istədiyim odur ki, əlbəttə, biz Türkiyənin regional məsələlərdə fəal iştirakına hər zaman güclü dəstək veririk. Faktiki olaraq, bu iştirak açıq-aşkardır. Türkiyə indi təkcə bizim regionumuzda deyil, Qafqazda deyil, daha geniş coğrafiyada və dünyada mühüm rol oynayır. Bu, reallıqdır və bu, bizim üçün çox yaxşı reallıqdır. Çünki Türkiyə bizim üçün qardaş ölkədir, ən yaxın müttəfiqimiz və dostumuzdur. Əlbəttə ki, Türkiyə de-fakto, həm də Minsk qrupunun üzvü olaraq hüquqi baxımdan artıq cəlb olunub. Mən bir dəfə müsahibələrimdən birində demişdim ki, Türkiyə hətta həmsədr də ola bilərdi. Əgər biz həmsədrləri bu gün seçsəydik, Azərbaycan sözsüz ki, Türkiyənin namizədliyini dəstəkləyərdi və əminəm, Türkiyə həmsədr olmaqda israr edərdi. Əfsuslar olsun ki, 1992-ci ildə bu, baş vermədi. Beləliklə, bu, hüquqi tərəfdir. Praktiki tərəfdən, bildiyiniz kimi, Türkiyə və Rusiyanın prezidentləri, Xarici İşlər nazirləri, Müdafiə nazirləri görüşüblər, söhbət aparıblar, bu məsələni müzakirə ediblər. Ona görə də, Ermənistanın dediyi kimi, əgər kimsə deyirsə ki, Türkiyə orada olmamalıdır, bu, Ermənistanın işi deyil, Türkiyə artıq oradadır və cəlb olunmalıdır, çünki o, sabitlik gətirəcək. Həmçinin düşünürəm ki, Türkiyə Qafqazın 3 ölkəsi ilə sərhədi olan yeganə ölkədir. Başqa heç bir ölkənin onların hər üçü ilə sərhədi yoxdur. Əlbəttə ki, Türkiyə fəal şəkildə cəlb olunmalıdır, Türkiyə cəlb olunub və biz bunu möhkəm dəstəkləyirik.

*– Beynəlxalq hüquq nöqteyi-nəzərindən Qarabağ Azərbaycanın ərazisidir. Lakin, eyni zamanda, orada çox sayda erməni əhalisi var. Siz zəmanət verə bilərsinizmi ki, Azərbaycan nəzarəti geri qaytarandan sonra erməni əhali orada təhlükəsiz şəraitdə və bərabər hüquqlarla yaşaya biləcək?*

– Bəli, sözsüz ki. Mən münaqişənin bu aktiv fazası ərzində artıq dəfələrlə bununla bağlı bəyanatlar vermişəm ki, Dağlıq Qarabağda yaşayan həmin ermənilər bizim vətəndaşlarımızdır. Onların təhlükəsizliyi, hüquqları Azərbaycanın digər insanlarının hüquqları kimi tam təmin olunacaq. Sizə deyə bilərəm ki, hazırda azərbaycanlıların olmadığı Ermənistandan fərqli olaraq, bu gün Azərbaycanda minlərlə erməni əsilli adam var və Ermənistan əhalisinin 99 faizi etnik ermənilərdir. Beləliklə, orada heç bir milli azlıq yaşaya və sağ qala bilməz. Onlar bugünkü Ermənistan Respublikasının ərazisində bir zamanlar yaşayan bütün millətləri qovublar. Ən böyük icma azərbaycanlılar idi. XX əsrin əvvəlində İrəvan şəhərinin əhalisinin 70 faizi azərbaycanlılar idi. Ermənilər bizim bütün tarixi, dini abidələrimizi dağıdıblar. Onlar təkcə İrəvanda deyil, bugünkü Ermənistanın bir çox başqa regionlarında da Azərbaycan mədəniyyətinin izlərini siliblər. Yeri gəlmişkən, 1918-ci il mayın 28-də yaradılmış Azərbaycan Xalq Cümhuriyyəti, əfsuslar olsun ki, mayın 29-da, - bu, haqq qazandırılması mümkün olmayan böyük bir səhv idi, - İrəvanı paytaxt kimi Ermənistana verməyi qərara aldı. Beləliklə, onlar bizim bütün dini və mədəni irsimizi dağıdıblar. Onlar bizim məscidlərimizi, abidələrimizi dağıdıblar. Burada - Bakının mərkəzində isə çox sayda erməni kitablarının olduğu erməni kilsəsi var. Bu gün Bakıda və Azərbaycanın başqa yerlərində çox sayda, minlərlə erməni yaşayır. Sizin orada yaşayan çox sayda erməni ilə bağlı dediyiniz məqama gəlincə, bizdə olan məlumata görə, keçmiş Dağlıq Qarabağ Muxtar Vilayəti də daxil olmaqla, işğal edilmiş ərazinin real əhalisi təqribən 65 min nəfərdir. Bu, böyük icma deyil. Lakin müharibədən əvvəl, 1990-cı illərin əvvəlində Dağlıq Qarabağda, əsasən Şuşada, həmçinin Xankəndidə, ermənilərin törətdiyi soyqırımının qurbanı olan Xocalı şəhərində və bir çox başqa şəhərlərdə 40 mindən çox azərbaycanlı yaşayırdı. Ermənilər bizə qarşı etnik təmizləmə həyata keçiriblər. Biz bunu heç vaxt etməmişik. Hətta bu toqquşmalar zamanı biz eyni yolla cavab verməmişik. Biz nə Dağlıq Qarabağ ərazisinə, nə də Ermənistan ərazisinə ballistik raketlərlə hücum etməmişik. Mən demişdim ki, biz qisas alacağıq, lakin biz qisası döyüş meydanında alacağıq. Beləliklə, Dağlıq Qarabağdakı ermənilər tam əmin ola bilərlər ki, Azərbaycan vətəndaşları olaraq onların təhlükəsizliyi təmin ediləcək.

Dağlıq Qarabağdakı cinayətkar xunta kənarlaşdırılandan sonra onlar daha yaxşı yaşayacaqlar. Onlar ləyaqətlə yaşayacaqlar, sülh şəraitində yaşayacaqlar və ölkəmizdəki istənilən başqa insanlar üçün etdiyimiz kimi, biz onlar üçün də bütün sosial və iqtisadi imtiyazları təmin edəcəyik.

*– Dağlıq Qarabağı geri qaytarandan sonra Siz Madrid prinsiplərində qeyd olunduğu kimi, onların öz müqəddəratını təyinetmə hüququna hörmət edəcəksinizmi və referenduma razılıq verəcəksinizmi?*

– Xeyr, əlbəttə ki, xeyr. Dağlıq Qarabağda heç bir referendum olmayacaq. Biz bununla heç vaxt razılaşmayacağıq. Biz danışıqlar zamanı buna razılıq vermədik və indi ərazinin böyük bir hissəsini geri aldığımız bir vaxtda bundan söhbət gedə bilməz. Öz müqəddəratını təyinetməyə gəldikdə, ermənilər artıq öz müqəddəratlarını təyin ediblər. Onların müstəqil Ermənistan dövləti var. Təsəvvür edin, əgər ermənilər yaşadıqları hər yerdə öz müqəddəratlarını təyin etsələr nə baş verər, dünyada neçə kiçik Ermənistan olar. Bu, əks təsir verən yanaşmadır. Öz müqəddəratını təyinetmə beynəlxalq hüququn mühüm amilidir. Lakin o, Azərbaycanın ərazi bütövlüyünü pozmamalıdır. Öz müqəddəratını təyinetmənin müxtəlif növləri var, icmaların müxtəlif növləri var. Məsələn, mədəni muxtariyyət ola bilər. Biz Avropanın inkişaf etmiş ölkələrində bu nümunələri görürük ki, insanların öz bələdiyyələrində, öz icmalarında müəyyən hüquqları var. Azərbaycanın istənilən yerində olduğu kimi, əlbəttə, Azərbaycanda yaşayan ermənilərin də bu formada təmasları ola bilər. Lakin biz heç vaxt Azərbaycan ərazisində ikinci Ermənistan dövlətinin yaradılmasına icazə verməyəcəyik. Bundan söhbət gedə bilməz. Bir sözlə, referendum olmayacaq, heç vaxt.

*- Döyüş meydanından danışarkən, Ermənistanın Liviyada, Suriyada yaşayan erməniləri cəlb etdiyinə dair məlumatlar var. Eyni zamanda, QHT, dəqiq desək, Suriya İnsan Haqlarının Müşahidəsi Qrupu iddia edir ki, Suriyadan çox sayda etnik türkmən döyüşçü hazırda Sizin qüvvələrinizlə birlikdə döyüş meydanındadır. Bu, doğrudur, ya yox?*

– Xeyr, bu, doğru deyil. İlk növbədə, mən bildirmək istərdim ki, Ermənistanın Yaxın Şərqdən muzdluları və döyüşçüləri cəlb etməsi faktı sirr deyil. Hətta Ermənistanın baş naziri bunu etiraf edib. Lakin o bildirib ki, onlar köklü ermənilərdir. Birincisi, heç kim bilmir onlar köklü ermənilərdir, ya yox. Bizdə məlumat var ki, başqa millətlərin nümayəndələri hazırda Ermənistan tərəfdən döyüşür. İkincisi, əgər insan etnik ermənidirsə və başqa ölkənin vətəndaşıdırsa, bu, o demək deyil ki, o, muzdlu deyil. Döyüş meydanında zərərsizləşdirilənlər arasında Livan pasportu olan, Kanada pasportu olan insanlar var. Bizdə Fransa, ABŞ vətəndaşlarının, erməni əsilli, lakin bu ölkələrin vətəndaşları olan şəxslərin, keçmiş sovet ölkələrinin vətəndaşlarının, Yaxın Şərq ölkələrinin vətəndaşları ilə birlikdə bizə qarşı döyüşməsinə dair dəlillər var. Ermənistan birinci Qarabağ müharibəsində muzdlulardan istifadə edirdi. Bu, sirr deyil. Onlardan bəziləri Azərbaycan tərəfindən zərərsizləşdirilib və ermənilər onların şərəfinə böyük abidələr ucaldıblar, beynəlxalq terrorçuların şərəfinə abidələr. Bu, Ermənistanın terrorçu dövlət olduğunu göstərir.

Azərbaycana gəlincə, birincisi, Suriya İnsan Haqlarının Müşahidəsi Qrupu adlandırılan QHT etibarlı təşkilat deyil. Biz onların Suriyadakı müharibə ilə bağlı yaydığı çox sayda feyk xəbərləri bilirik. Bu, siyasi motivasiyalı olan “QHT”yə etibar, etimad yoxdur. Birincisi, biz kimin maliyyələşdirdiyini yoxlamalı, sonra bu şayiələrin arxasında kimin durduğunu öyrənməliyik. İkincisi, bizə heç bir ölkə tərəfindən bir dəlil belə təqdim olunmayıb. Yalnız şayiələr, yalnız əsassız bəyanatlar. Mən sübut tələb etdim. Dedim yaxşı, biz artıq 20 gündən çoxdur ki, münaqişənin aktiv fazasındayıq, sübutlar haradadır? Bizə dəlil təqdim edin. Heç bir sübut yoxdur. Ona görə də, bu şayiələrə son qoyulmalıdır. Azərbaycan özü döyüşür. Bizim heç bir xarici döyüşçüyə ehtiyacımız yoxdur. Bizim kifayət qədər insanlarımız, nizami ordumuzda kifayət qədər əsgər və zabitlərimiz var. Əhalimizin sayı 10 milyon nəfərdir. Əgər bizim əlavə döyüşçüyə ehtiyacımız olsa, səfərbərlik elan edərik, cəlb edərik. Beləliklə, buna ehtiyac yoxdur. Bu, tamamilə yanlış məlumatdır.

*– Sizin dəfələrlə dediyiniz kimi, heç bir mücahid, hətta heç bir türkmən yoxdur?*

– Xeyr, başqa ölkələrdən gəlmiş Azərbaycan əsilli insanlar ola bilər. Biz bunu istisna etmirik. Çünki bizdə çox sayda könüllülər var. İnsanlar könüllü şəkildə öz ölkələrini müdafiə etmək istəyə bilər. Biz istisna edə bilmərik ki, başqa ölkələrdən Azərbaycan əsilli insanlar gəlir. Lakin bu, təqdim olunduğu kimi deyil ki, Azərbaycan döyüşmək üçün terrorçuları dəvət edib. Bu, yanlış məlumatdır.

*– Siz Azərbaycan əsilli həmin könüllülərdən xəbərdarsınız?*

– Mən dedim ki, istisna etmirəm. Ola bilər. Lakin biz xaricdə yaşayan azərbaycanlılardan gəlib tarixi Vətəni uğrunda döyüşmək üçün çox sayda müraciət, çox sayda məktub alırıq. Lakin bizim mövqeyimiz belədir ki, buna ehtiyacımız yoxdur. Döyüş meydanında kifayət qədər insanımız var.

*– Yaponiya şirkətləri Azərbaycanın neft kəməri layihələrinə qoşulub. Onlar burada investordur. Sizin kəmərlərin təhlükəsizliyi ilə bağlı narahatlığınız varmı? Bu yaxınlarda, bu il ərzində açılması planlaşdırılan TAP kəmərinin təxirə salınması riski varmı?*

– Xeyr, TAP kəməri ilə bağlı hər şey qrafikə uyğun gedir. Bu, artıq edilib. TAP-ın rəsmi açılışı ola bilsin ki, ayların deyil, əlavə bir neçə həftənin işidir. Kəmərdə hər şey hazırdır. Bakıdan Avropaya tarixi kəmər tamamlanıb. Bizim digər kəmərlərimizə, xüsusilə neft-qaz kəmərlərinə gəlincə, Azərbaycan ərazisində bütün bu illər ərzində, Bakı-Tbilisi-Ceyhanın istismara verildiyi 2006-cı ildən bu yana bizdə heç bir hadisə baş verməyib. Bizim kəmərlərimiz bizim ərazimizdə lazımi qaydada qorunur. Lakin, əlbəttə, biz Ermənistanın rəsmi nümayəndələrindən hədələr eşitmişik ki, onlar bizim kəmərlərimizə hücum edəcəklər, neft-qaz nəqli üçün

mühüm olan Səngəçal terminalına hücum edəcəklər. Lakin bu da onların terrorçu xislətinin bir hissəsidir. Çünki onlar açıq şəkildə bəyan edirlər ki, mülki infrastruktura hücum edəcəklər. Əlbəttə ki, əgər onlar bunu etsə, peşman olacaqlar. Çünki bizim tərəfimizdən və həmçinin enerji təhlükəsizliyinin bir hissəsini Azərbaycandan təmin edən ölkələr tərəfindən sərt şəkildə cəzalandırılacaqlar. Həmin ölkələrin reaksiyası necə olacaq? Bu kəmərlərə milyardlarla dollar investisiya yatırılıb. Beynəlxalq banklar, Dünya Bankı, Avropa Yenidənqurma və İnkişaf Bankı, Asiya İnkişaf Bankı, Avropa İnvestisiya Bankı və başqaları kimi bütün aparıcı beynəlxalq banklar investisiya yatırıb. Ona görə də, Ermənistan rəhbərliyi bu cür variant barədə yaxşı düşünməlidir. Əlbəttə, qeyd etdiyim kimi, Azərbaycan özü onları sərt şəkildə cəzalandıracaq və mən düşünmürəm ki, onlar bunu, daha bir müharibə cinayətini etməyə cürət göstərəcəklər.

*– Sizinlə görüşmək imkanımız çox nadir hallarda olduğundan, icazə verin, ümumilikdə, ölkənin gələcəyi ilə bağlı bir neçə sual verim.*

– Bəli, buyurun.

*- Azərbaycan dünyada sənaye üsulu ilə neft istehsal edən ilk ölkədir.*

- Bəli, doğrudur.

*- Sizcə, ölkə postneft dövrünə necə keçəcək? Yaponiya şirkətlərinin bunda iştirakına dair Sizin hansısa gözləntiləriniz varmı?*

– Bəli, əlbəttə ki, bizim iqtisadiyyatımızın şaxələndirilməsi ilə bağlı gündəliyimiz var və bu proses uğurla davam edir. Hətta baxmayaraq ki, bu il ümumi daxili məhsulumuz aşağı düşür - çox ciddi deyil, indiyədək geriləmə 4 faizdən aşağı olub. Bəzi başqa ölkələrlə müqayisədə bu, pis nəticə deyil. Lakin qeyri-neft sənayesinə gəldikdə, bizdə artım var. Bu, onu göstərir ki, bizim şaxələndirmə proqramımız çox uğurla icra olunur. Sənaye, biznes imkanları, turizm, innovasiya sektoru və kənd təsərrüfatı, əlbəttə ki, pandemiyadan əvvəl sürətlə inkişaf edirdi. Əlbəttə ki, əsas məsələyə gəlincə, biz indi Azərbaycanın öz ərazilərini azad etdiyini görürük. Biz, ilk olaraq, on minlərlə hektar torpağı su ilə təchiz edəcək çox mühüm su anbarını azad etdik. Ermənistan faktiki olaraq bizə qarşı ekoloji terror törədib. Onlar Tərtər çayının qabağını bağlayırdılar və beləliklə, yüz minlərlə hektar torpaq su ilə təchiz olunmurdu. Onlar bunu yayda, insanların ehtiyacı olanda bağlayırdılar və qışda açırdılar, bu isə daşqına səbəb olurdu. Beləliklə, Ermənistanın terrorçu xisləti hər addımdadır. Biz əraziləri geri qaytarandan sonra, - bu, müxtəlif məhsullar becərmək, mal-qara saxlamaq üçün çox münbit torpaqlardır, - əlbəttə ki, bu, kənd təsərrüfatımızın inkişafına yeni təkan verəcək. Biz ərazilərin azad edilməsi ilə əlaqədar kənd təsərrüfatımızın gələcək inkişafını artıq planlaşdırmağa başlamışıq. Əlbəttə, düşünürük ki, insan kapitalına investisiyalar bizə inkişaf üçün yaxşı imkanlar yaradacaq. Çünki bir gün neft və qaz tükənəcək, baxmayaraq ki, bizim ehtiyatlarımız çox böyükdür. Biz böyük həcmdə təbii qaz ixrac etməyə yenicə başlamışıq və neft istehsalı sahəsi qarşıdakı onilliklərdə, ümumilikdə, sabit olacaq. Lakin, əlbəttə ki, qeyri-neft sektoru prioritetdir.

Yaponiya şirkətlərinə gəlincə, onlar burada enerji sahəsində çox fəaldırlar. Yaponiya banklarından alınan kreditlərlə biz Bakıda iki böyük elektrik stansiyası tikmişik. Onların gücü 800 meqavata yaxındır. Beləliklə, bu elektrik stansiyaları istehlakımızın və ixracımızın əhəmiyyətli hissəsini təmin edir. Yeri gəlmişkən, biz həm də elektrik enerjisini ixrac edirik. Biz Yaponiya şirkətlərini hazırda prioritetlərdən biri olan bərpaedilən enerji sahəsində görmək istəyirik. Biz artıq bəzi investorlarla ilkin razılaşmalar imzalamışıq. Beləliklə, əminik ki, çox ümidverici olan və xüsusilə Abşeron yarımadasında günəş və çoxlu külək sayəsində potensialı olan bu sahədə və bir çox başqa sahələrdə əməkdaşlıq olacaq. Bu gün Yaponiya şirkətləri ilə avadanlıq, maşınqayırma, texnologiya, eləcə də kənd təsərrüfatı sahələrində əməkdaşlığımız var. Biz Yaponiya ilə Azərbaycan arasındakı iqtisadi əməkdaşlığın səviyyəsindən məmnunuq.

*– Siyasi islahatlar barədə nə deyə bilərsiniz? Əsasən Qərb ölkələri tərəfindən tənqidlər var ki, Siz özünüz atanızdan sonra hakimiyyətə gəlmisiniz, indi xanımınız Birinci vitse-prezidentdir. Siz demokratiyanı təşviq etməyə, müxalifətə hakimiyyətə yol açmağa hazırsınızmı?*

– Düşünürəm ki, ölkədə demokratik inkişaf müsbət məcrada gedir. Azərbaycanda bütün əsas azadlıqlar təmin olunub, siyasi fəaliyyət azadlığı, media azadlığı, ifadə azadlığı, sərbəst toplaşma azadlığı, dini etiqad azadlığı. Bununla bağlı məhdudiyyət yoxdur. Yeri gəlmişkən, bizdə internet azaddır. Bizi tənqid etməyə çalışanlar şayiələr yaymaqdan, Azərbaycanın guya demokratiya sahəsindəki çatışmazlıqlarını siyasi məqsədlər üçün, siyasi təzyiq məqsədilə istifadə etməkdənsə, məzmuna baxmalıdırlar. İndi mən yeni siyasi islahatlar proqramını təqdim etmişəm, o, bütün siyasi partiyaların mütləq əksəriyyəti tərəfindən dəstəklənib. Yeri gəlmişkən, bu, toqquşmalardan əvvəl olub. İndi, əlbəttə ki, siyasi partiyaların mütləq əksəriyyəti işğal olunmuş ərazilərin qaytarılması ilə bağlı mənim yürütdüyüm siyasəti tam dəstəkləyir. Cəmi iki partiya bu prosesdə iştirak etmir. Cəmi iki partiya Azərbaycanın milli maraqlarının əleyhinə çıxış edir. Bunlar Xalq Cəbhəsi partiyası və Müsavat partiyasıdır. Yeri gəlmişkən, bu iki partiya mənim siyasi dialoqla bağlı təklifimi qəbul etmədi. Mən bu təklifi bir neçə ay bundan əvvəl etmişdim. Mən demişdim ki, bizim normal dialoqa ehtiyacımız var, hökumətlə müxalifət arasında, aparıcı partiya ilə digər partiyalar arasında normal, sivil münasibətlərə ehtiyacımız var. İndi zənnimcə, 50 və ya ondan da çox partiya bunu dəstəklədi. Biz siyasi dialoqun çox aktiv fazasındayıq.

Yalnız iki partiya, birbaşa maliyyələşdirməsi kənardan gələn, həmişə Azərbaycanın milli maraqlarına qarşı çıxan, Ermənistanın ərazilərimizi işğal etdiyi zaman - 1992-1993-cü illərdə hakimiyyətdə olduqları üçün ərazilərimizin itirilməsinə görə məsuliyyət daşıyan bu iki partiya, Xalq Cəbhəsi və Müsavat. Ərazilərin

itirilməsinə görə məsuliyyət daşıyan o insanlar bu gün həmin partiyaların demək olar ki, 30 ildir rəhbərləridir. Heç kim demokratiyadan danışmır, heç kim onların bu vəzifədə demək olar ki, 30 il ərzində necə qaldıqları barədə danışmır. Buna görə bizi tənqid etmək istəyənlər yaxşı olardı ki, güzgüyə baxsınlar. Bizim gözümüzün önündə, beynəlxalq ictimaiyyətin gözü önündə dırnaqarası demokratiyalarda nümayişlərin necə dağıdıldığını, insanların mitinqlərdə necə öldürüldüyünü, yaralandığını, xəsarət aldıqlarını görürük. Biz bunları hər həftə görürük. Etirazçıları dağıtmaq üçün polisin itlərdən və atlardan necə istifadə etməsini görürük. Siz bunu Azərbaycanda görməyəcəksiniz, heç vaxt. Buna görə bizi tənqid edənlər, yaxşı olardı ki, öz işləri ilə məşğul olsunlar. O ki qaldı, sizin mənim atamın davamçısı kimi dediklərinizə, bəli, bu, həqiqətdir. Lakin mən atamın xələfi olmamışdan əvvəl uzun illər idi, 1995-ci ildən 2003-cü ilə kimi parlamentin üzvü idim. 1997-ci ildən bəri mən Milli Olimpiya Komitəsinin prezidentiyəm. Mən aparıcı siyasi partiya olan Yeni Azərbaycan Partiyasının sədr müavini və sədrin birinci müavini olmuşdum və Baş Nazir olmuşdum. Beləliklə, mənim siyasi karyeram beynəlxalq müşahidəçilərə məlumdur və əlbəttə ki, onlar bunun onların təqdim etmək istədiyi kimi olmadığını bilirlər. Xələf olmaq haqqında danışdıqda, niyə heç kim Buş ailəsi, onların bir-birinin necə davamçısı olması haqqında danışmır? Niyə heç kim Klinton ailəsi haqqında, xanımın dövlət katibi və sonra da prezident namizədi olması haqqında danışmır və bunun kimi bir çox hallar var. Bu məsələni qaldırmazdan əvvəl, qoy, onlar özlərinə baxsınlar. Xanımıma gəldikdə, mənim xanımım 2005-ci ildən bəri parlamentin üzvü olmuşdur. O, sosial və humanitar sahələrlə bağlı olan məsələlərdə çox fəal idi. O, Qafqazda ən böyük qeyri-hökumət təşkilatı olan Heydər Əliyev Fondunun prezidenti olub və olmağa davam edir. Onun azərbaycanlılar arasında güclü dəstəyi var. Siz küçədə istənilən şəxsdən soruşa və onların onu necə sevdiyini və dəstəklədiyini görə bilərsiniz. O, Yeni Azərbaycan Partiyasının sədr müavini olub və olmağa davam edir. Buna görə də onun siyasi karyerası qəfil baş verən hadisələrdən ibarət olmamışdır. Sizə deyə bilərəm ki, mən ona bu vəzifəni təklif etdikdə, o, bunu o qədər də sevinclə qarşılamamışdır. Sizə deyə bilərəm ki, ola bilsin mən bunu ilk dəfə deyirəm, onu inandırmaq üçün çoxlu vaxtım getdi və mənim arqumentlərim var idi və o, istəmirdi. O, tamamilə sosial və humanitar məsələlərlə məşğuldur və on minlərlə insana yardım edir. Lakin o, bunu hər hansı bir piarsız, reklamsız və elansız edir. Beləliklə, o, xalqımızın qürur duyduğu bir şəxsdir.

*–Siz söz azadlığı və interneti qeyd etdiniz. Lakin sosial şəbəkə sistemlərində bəzi məhdudiyyətlər var.*

- Bunlar müvəqqəti məhdudiyyətlərdir. Bu məhdudiyyətlər toqquşmalar başladıqdan sonra tətbiq olunmuşdur. Biz xalqımıza elan etdik ki, bu, milli təhlükəsizlik məsələləridir, çünki biz belə bir vaxtda informasiya sistemimizi erməni təxribatından qorumalıyıq. Beləliklə, bu, müvəqqəti səciyyə daşıyır. Toqquşmaların aktiv fazası bitən kimi bütün bu məhdudiyyətlər aradan qaldırılacaqdır. Lakin sizə deyə bilərəm ki, internetin əhatə dairəsi çox yüksəkdir və azərbaycanlıların 80 faizdən çoxu internet istifadəçiləridir. Beləliklə, bu, yalnız müvəqqəti xarakter daşıyır.

*- Zati-aliləri, icazə verin, söhbətimizi sonuncu sualla yekunlaşdırım. Gəlin, ümidverici bir məqamla bitirək. Sizin münaqişənin sülh yolu ilə nizamlanmasına ümidiniz varmı? Sülh Ermənistan və Azərbaycana nə verə bilər? Çünki Ermənistan dənizə çıxışı olmayan ölkədir, sərhəd burada qapalıdır, Türkiyə tərəfində sərhəd qapalıdır, onların iqtisadiyyatı tənəzzülə uğrayır. Sülh iki ölkəyə nə verə bilər?*

- Bəli, əlbəttə ki, sülh regiondakı vəziyyəti tamamilə dəyişəcək. Üç Qafqaz ölkəsinin əməkdaşlıq edəcəyi vaxtı görməyi ümid edirəm. İndi məsələn, Azərbaycan və Gürcüstan arasında əməkdaşlıq səviyyəsi çox yüksəkdir. Biz strateji tərəfdaşıq və bizim Gürcüstanın hazırkı hökuməti ilə mükəmməl əlaqələrimiz var. Biz bir-birimizi dəstəkləyirik, biz yaxşı qonşu və dostuq. Baxın, biz birlikdə nə qədər layihə icra etmişik, neftin nəqli, qazın nəqli, elektrik enerjisinin nəqli, dəmir yolu bağlantısı, Bakı-Tbilisi-Qars, Bakı-Tbilisi Ceyhan, Bakı-Tbilisi-Ərzurum, TANAP və bir çox başqa layihələr. Azərbaycan, zənnimcə, Gürcüstanda Türkiyə ilə birlikdə birinci və ya ikinci ən böyük investordur. Birinci və ya ikinci ən böyük vergi ödəyicisidir. Yeri gəlmişkən, 1990-cı illərin ortalarında, boru kəmərinin tikintisi məsələsi müzakirə olunanda Qərbdən bu boru kəmərinin Ermənistandan keçməsi ilə bağlı bəzi təkliflər var idi. Lakin belə olan halda Ermənistan əraziləri boşaltmalı idi və belə olduqda boru kəməri Azərbaycandan Ermənistana, sonra Naxçıvana və oradan Türkiyəyə keçə bilərdi. Bu, ən qısa marşrut idi. Xəritəyə baxsanız, siz boru kəmərinin keçdiyi marşrutu görəcəksiniz. Ermənistandan yan keçmək üçün o, bu cür çəkilib. Lakin ermənilər düşünürdü ki, biz bu boru kəmərini inşa edə bilməyəcəyik. Ona görə onlar yox dedilər. Hesab edirəm ki, indi onlar buna çox peşmandırlar. İşğala görə onlar dalana dirəniblər. Onlar hesab edirdilər ki, biz boru kəmərlərini, dəmir yollarını inşa edə bilməyəcəyik. Onlar həmişə Qars-Gümrü dəmir yolunun istismarını dəstəkləyirdilər. Bu dəmir yolu mövcud idi, lakin Ermənistanın işğalına görə bizim qardaş Türkiyə onu bağlamışdır. Beləliklə, əslində, Ermənistanın dənizə çıxışı var, lakin Azərbaycana qarşı təcavüzə və Türkiyəyə qarşı ərazi iddialarına görə onların Türkiyə ilə sərhədi yoxdur. Bəlkə siz bilmirsiniz, lakin onların konstitusiyasında Türkiyəyə qarşı ərazi iddiaları yer alır. Türkiyə kimi qüdrətli ölkəyə qarşı ərazi iddialarına indiki vaxtda malik olmaq üçün gərək ağılsız olasan. Lakin bu, onların ideologiyasının mahiyyətidir. Danışıqlar aparılan zamanı əvvəlki Ermənistan hökumətinə mesajlar göndərilmişdir ki, onlar işğala son qoyduğu təqdirdə Azərbaycan Dağlıq Qarabağda müxtəlif sosial və iqtisadi layihələri icra edə bilər. Bu mesajlar Minsk qrupunun həmsədrləri vasitəsilə Ermənistanın əvvəlki prezidentlərinə göndərilmişdir və onlar bunları rədd etmişdir. Bu gün Dağlıq Qarabağda insanlar yoxsulluq

içində yaşayırlar. Bilirsiniz, orada tam işsizlik, yoxsulluq hökm sürür və infrastruktur dağıdılıb. Biz sərmayə yatırmağa hazır idik. Lakin biz dedik ki, əraziləri boşaldın və biz sizə kömək edərik. Bu gün biz özümüz əraziləri azad etdikdə, əlbəttə ki, biz o insanlara, Dağlıq Qarabağda yaşayan ermənilərə və sözsüz ki, bu ərazini yenidən qurmaq üçün qayıdacaq azərbaycanlılara kömək edəcəyik. Lakin əgər Ermənistan konstruktiv addımlar atsa və əraziləri boşaltsa, əlbəttə ki, biz bütün kommunikasiyaları açacağıq. Mən bilirəm, həmçinin Türkiyə hökumətinin mövqeyi barədə də eşitmişəm ki, onlar da Ermənistanın əraziləri boşaltdığı təqdirdə kommunikasiyaları açacaqlar. Onda Cənubi Qafqazda vəziyyət tamamilə dəyişəcəkdir.

*- Cənab Ərdoğan bu niyyəti barədə Sizə bir şey deyibmi?*

- Ola bilsin biz bunu birbaşa müzakirə etməmişik. Lakin, əlbəttə, biz bilirik ki, belə bir mövqe var. Ermənistan-Türkiyə sərhədi işğala görə bağlıdır. İşğala son qoyulsa, sərhəd açılacaq. Bu, Türkiyə hökumətinin rəsmi mövqeyidir və ermənilər bunu bilirlər. Türkiyə və Azərbaycanla münasibətləri normallaşdırmadan Ermənistanın gələcəyi yoxdur. Çünki bazar kiçikdir və daha da kiçilir, əhali azalır, miqrasiya çox yüksəkdir. Bizdə olan məlumata görə, bu gün Ermənistanda real əhalinin sayı iki milyondan azdır, iki milyondan az və o, daha da azalacaq, çünki iş yoxdur, xüsusilə indi, onlar, necə deyərlər, işğal olunmuş çox məhsuldar torpaqlardan məhrum olduqda. Siz səmadan çəkilmiş təsvirlərə baxsanız, onların bizim torpaqlardan qeyri-qanuni məhsullar üçün necə istifadə etdiklərini görərsiniz. Onlar nəinki bizim torpağımızdan, Kəlbəcərdə bizim qızıl mədənlərindən istifadə edirlər. Fəaliyyətlərini dayandırmadığı təqdirdə, orada bizim məhkəməyə verəcəyimiz əcnəbi şirkətlər var. Yeri gəlmişkən, onlar istənilən halda tezliklə fəaliyyətlərini dayandıracaqlar. Beləliklə, bu mühüm kənd təsərrüfatı seqmentindən məhrum olduqlarına görə onlar hətta daha çox problemlərdən əziyyət çəkəcəklər və tənəzzülə uğrayacaqlar, biz isə inkişaf edəcəyik. Bizim əhalimiz artır. Türkiyənin əhalisi 83 milyondur, Azərbaycanın əhalisi 10 milyondur, Ermənistanın əhalisi isə iki milyondan azdır. Onlar məntiqli olmadığı təqdirdə, işğala son qoymadığı təqdirdə burada 10 il, 20 il, 50 ildən sonra necə yaşayacaqları haqqında düşünməlidirlər. Onlar artıq bu təcavüzə son qoymalıdırlar. Biz döyüş meydanında onlara kimin kim olduğunu göstərdik. Onların "cəsur ordusu" haqqında bütün mifləri, sadəcə, bir növ feyk idi. Onların ordusu qaçır. Biz onları məğlub edirik. Biz onlara qalib gəlirik və onlar bizim torpaqlardan çıxana kimi bunu etməyə davam edəcəyik.

*-Bu imkana görə çox sağ olun. Bakıda olmaq həmişə bizdə məmnunluq hissi oyadır.*

- Təşəkkür edirəm.

## *Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Fransanın "Figaro" qəzetinə müsahibəsi*

*-Cənab Prezident, birinci sualım belədir, nəyə görə Siz sentyabrın 27-də Dağlıq Qarabağa qarşı hücuma keçmisiniz və bu hərbi hücumun siyasi məqsədləri nədir?*

-Biz sentyabrın 27-də Dağlıq Qarabağa qarşı hərbi hücuma keçməmişik, Ermənistan Azərbaycana qarşı hərbi hücuma keçmişdir. Bu hərbi hücumun ilk saatlarında bizim mülki şəxslər və hərbi qulluqçularımız arasında qurbanlarımız olmuşdur. Bu, üç ay müddətində Ermənistan tərəfindən Azərbaycana qarşı üçüncü hərbi təxribat idi. Onlar birinci dəfə bizə Qarabağ bölgəsindən uzaqda olan Ermənistan-Azərbaycan dövlət sərhədində hücum etdilər. Beynəlxalq müşahidəçilərin yekdil rəyi ondan ibarət idi ki, Ermənistan bizə qarşı hücum etmişdir. Onlar yeni əraziləri işğal etmək istəyirdilər. Onlar bizim Ermənistanla dövlət sərhədindən bir neçə kilometr məsafədə yerləşən strateji enerji infrastrukturu üzərində nəzarəti ələ keçirmək istəyirdilər. Yəqin, sizin də bildiyiniz kimi, Trans-Adriatik boru kəməri demək olar ki, tamamlanıb. Cənub Qaz Dəhlizi təkcə Azərbaycanın deyil, həm də Avropanın enerji təhlükəsizliyi layihəsidir. Hesab edirik ki, Ermənistanın məqsədlərindən biri bu boru kəməri üzərində nəzarəti ələ keçirmək və bizi, ola bilsin Avropa istehlakçılarını şantaj etmək idi. Onlara ciddi cavab verildi. Biz onların geriyə çəkilməsinə nail olduq. Lakin əfsuslar olsun ki, növbəti ay - avqust ayında onlar azərbaycanlılara qarşı terror aktları törətməyi planlaşdıran diversiya qrupunu göndərdilər. Bu sabotaj qrupunun başçısı bizim hərbi qulluqçular tərəfindən saxlanılmışdır və o ifadə verir. Beləliklə bu, danışıqları pozmaq və Azərbaycana hücum etmək üçün qəsdən edilən bir cəhddir. Bu hücumu etməklə Ermənistanın güddüyü siyasi məqsədlərə gəlincə, bunlar status-kvonun dəyişməz olaraq qalmasından, bu eskalasiyaya görə günahı bizim üstümüzə atmaqdan, danışıqların tamamilə pozulmasından, üçüncü ölkələri münaqişəyə cəlb etməkdən və münaqişəni beynəlmiləlləşdirməkdən ibarət idi. Biz onlara yalnız adekvat cavab verdik. Bunun nəticəsində biz Azərbaycanın beynəlxalq səviyyədə tanınan ərazilərinin bir hissəsini azad etdik və azad etməyə davam edirik.

*- Azərbaycanın nəinki təkcə boru kəmərlərinin habı, eyni zamanda, internet fiberoptik xətlərinin habı olmaq missiyası var. Eşitmişəm adı Neqsol olan Azərbaycan şirkəti Avropa və Mərkəzi Asiya arasında internet üzrə bağlantı rolunu oynamaq istəyir. Siz Azərbaycan üzərindən Avropadan Mərkəzi Asiyaya birbaşa bağlantını nəzərdə tutan bu layihənin hələ də mümkün olduğunu və ya qeyri-mümkün olduğunu düşünürsünüz?*

- Biz sizin də doğru qeyd etdiyiniz kimi, nəinki enerji üzrə, eyni zamanda, daşımalar üzrə artıq regional haba çevrilmişik. Hazırda biz Xəzər dənizinin digər

tərəfində - şərq hissəsindəki və Avropadakı tərəfdaşlarımıza mühüm nəqliyyat şəbəkəsini təmin edirik. Bizim infrastruktura yatırdığımız sərmayələr nəqliyyat üzrə çox geniş beynəlxalq əməkdaşlıq formatının yaradılması ilə nəticələnmişdir. Əlbəttə ki, hər şey enerji infrastrukturu ilə başladı, Azərbaycandan keçən neft və qaz kəmərləri artıq çox mühüm enerji təhlükəsizliyi mənbəyinə çevrilib. Neft kəmərlərinə gəlincə, biz artıq Mərkəzi Asiyadan nefti Azərbaycan ərazisindən Avropaya nəql edirik.

İnternet bağlantısına gəldikdə isə biz IT sektoruna böyük sərmayələr yatırırıq. Azərbaycanda internetdən istifadə təqribən 80 faizdir, yəni, əhalinin 80 faizi internet istifadəçisidir. Bizim bu sahədə çox inkişaf etmiş şirkətlərimiz, özəl şirkətlərimiz var. Odur ki, sizin qeyd etdiyiniz şirkət, mənim bildiyimə görə öz planı olan və regiona investisiya yatıran özəl şirkətdir. Düşünürəm ki, onların hədəfi kommersiya cəhətdən gəlirli layihələri həyata keçirməkdir. Əlbəttə ki, coğrafi və infrastruktur nöqteyi-nəzərdən Azərbaycan bu gün çox vacib regional tərəfdir.

*- Növbəti sualım belədir. Bir aydan çox davam edən toqquşmalardan sonra cəbhədə hazırda həyata keçirilən hərbi əməliyyatların necə olduğunu bizə təsvir edə bilərsinizmi?*

- Toqquşmalar bir aydan azdır ki, davam edir və uğurlu əks-hücum nəticəsində Azərbaycan işğal olunmuş ərazilərin, şəhər və kəndlərin bir hissəsini azad edə bilmişdir. Biz hər gün azad edilmiş yeni şəhər və kəndlər haqqında məlumat veririk. Bu, asan deyil, çünki otuzillik işğal müddətində Ermənistan işğal edilmiş ərazilərdə çox möhkəm istehkamlar qurmuşdur. Odur ki, təmas xəttini keçmək asan deyildi. Lakin biz bunu etdik, müxtəlif istiqamətlərdə - şimalda, cənubda. Bu, Azərbaycan Ordusunun yüksək səviyyəli bacarığını və potensialını nümayiş etdirir. Biz Ermənistanı döyüş meydanında məğlub edirik və onlar bizdən qaçmaq məcburiyyətindədirlər. Beləliklə, biz artıq İranla beynəlxalq sərhədimizi bərpa etmişik. Bu sərhədin 130 kilometrdən çox hissəsi işğal altında idi. Beləliklə, biz döyüş meydanında çoxlu işlər görmüşük və bu, davam edir. Ermənistan atəşkəsi iki dəfə pozmuşdur. Əgər onlar atəşkəsi pozmasaydılar, - onlar birinci dəfə oktyabrın 10-da atəşkəsi kobud şəkildə pozaraq gecə vaxtı Gəncə şəhərinə ballistik raket atıblar və ikinci dəfə bunu oktyabrın 17-də ediblər, - bu gün toqquşmalar dayanardı, siyasi həllə üstünlük verilmiş olardı. Bu, bizim mövqeyimizdir. Onlar dayanmasa, biz torpaqlarımızı azad etməyə davam edəcəyik.

*- Onlar Gəncəni ona görə bombardman ediblər ki, Gəncədə Türkiyənin bir neçə F-16 qırıcı təyyarəsi var idi və bu F-16 qırıcı təyyarələrdən biri erməni təyyarəsini vurmuşdur. Onlar buna görə Gəncəni bombardman etdiyini deyirlər.*

- Bu, feyk xəbərdir. Hesab edirəm ki, indi hər kəs bunun Ermənistan tərəfindən feyk xəbər olduğunu başa düşür. Türkiyənin F-16 qırıcı təyyarələri ona görə buradadırlar ki, toqquşmalar başlamadan öncə onlar birgə hərbi təlimdə iştirak edirdilər və onlar yerdədilər, onlar səmada deyillər. Ermənistanın Su-25 təyyarəsi dağa çırpılmışdır və onlar bunu guya Türkiyə F-16 qırıcı təyyarəsi tərəfindən vurulduğu kimi qələmə verməyə çalışırdılar. Lakin bu, münaqişənin ilk günlərində, sentyabrda baş vermişdir. Lakin onlar oktyabrın 10-da ballistik raketlərlə Gəncəyə hücum ediblər. Bu, birincisi. İkincisi, ballistik raket Ermənistanın ərazisindən buraxılmışdır və böyük ölkələr buna asanlıqla nəzarət edə bilərlər. Onlar raketin haradan buraxıldığını və raketin hədəfinin nədən ibarət olduğunu bilirlər. Raketin hədəfi mülki şəxslərə zərbə endirmək idi. Onlar Gəncə şəhərində insanların yaşadığı ərazini vurublar. Beləliklə, bu, beynəlxalq terror əməli idi, bu, Ermənistanın hərbi cinayət siyasətinin daha bir təzahürü idi. Gəncəyə edilən bu hücumlara haqq qazandırmaq olmaz və onlar buna görə məsuliyyət daşıyacaqlar.

*- Türkiyənin müdaxiləsini və Türkiyədən müxalif Suriya döyüşçülərini qəbul etməklə Siz yerli bir münaqişənin regional bir müharibəyə çevrilməsindən qorxmursunuz?*

- Əvvəla, Türkiyə əsla münaqişəyə cəlb edilməyib. Türkiyənin iştirakına dair heç bir dənə də sübut yoxdur. Ermənistanın Azərbaycana qarşı hücum həyata keçirdiyi ilk saatlardan Türkiyə, Türkiyənin Prezidenti və digər yüksək səviyyəli rəsmilər Azərbaycana güclü siyasi dəstəyi, beynəlxalq hüququn norma və prinsiplərinə dəstəyi, BMT Təhlükəsizlik Şurasının Ermənistan qoşunlarının ərazilərimizdən dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edən qətnamələrinin icrasına dəstəyi ifadə ediblər və ifadə etməyə davam edirlər. Deməli, bu, birincisi. İkincisi, Azərbaycan tərəfində heç bir əcnəbi döyüşçü yoxdur. Bu, başqa bir feyk xəbərdir. Bu, bəzi ölkələrin bəzi rəsmiləri tərəfindən yayılmışdır. Lakin bu vaxtadək, toqquşmalar başlayandan sonra iyirmi gündən çox bir müddətdə bizə nə Fransadan, nə də Rusiyadan heç bir dəlil təqdim olunmamışdır. Çünki bu bəyanatı Fransa və Rusiya rəsmiləri vermişdir və biz onlardan sübut tələb etmişdik. Biz dəlilləri tələb etmişdik. Yalnız sözlər. Heç bir sübut yoxdur, heç bir dəlil yoxdur. Digər bir məsələ ondan ibarətdir ki, bizə bizimlə birgə vuruşacaq əcnəbilər lazım deyil, çünki bizim 100 min nəfərdən ibarət nizami ordumuz var. Bizim müasir avadanlığımız var, bizim 30 ildir ki, işğaldan əziyyət çəkən motivasiyalı insanlarımız var. Biz hətta tam səfərbərlik belə elan etməmişik. Bizə döyüşdə əlavə insan lazım olsa, biz daha çoxlarını çağırarıq. Odur ki, bu, Azərbaycanı təcavüzkar kimi təqdim etmək üçün daha bir cəhddir və həmçinin onlara döyüş meydanında qalib gələn Azərbaycan Ordusunun potensialını azaltmaq üçün Ermənistanın cəhdidir.

*- Cənab Prezident, dediniz ki, Sizin çox müasir avadanlığınız var, bu, doğrudur. Sizin bütün növ dronlarınız var, bəziləri Türkiyədən gəlir, həmçinin effektiv kamikadze dronları İsraildən, ərəb ölkələrindən gəlir. Beləliklə, İsrailin hərbi avadanlığının yardımı Sizin üçün çox önəmlidirmi və onlar Sizə hərbi irəliləyişi əldə etməyə imkan verirlərmi?*

- Biz hərbi avadanlığı bir çox ölkələrdən alırıq. Bizə hərbi avadanlığı ən çox təchiz edən Türkiyə və İsrail

deyil. Bu, Rusiyadır. Lakin Ermənistandan fərqli olaraq, biz Rusiyadan aldığımız silahlara görə pul ödəyirik. Ermənistan Rusiyadan silahları pulsuz əldə edir. Biz, həmçinin İrandan, Ukraynadan, Belarusdan silah alırıq. Əlbəttə ki, bizim bu gün ordumuza ərazi bütövlüyümüzü bərpa etməyə kömək edən müasir silahları almaq imkanımız var. Bizim ərazi bütövlüyümüz öz tərəfimizdən bərpa olunur. Təbii ki, bizim regionda istənilən ölkə silah alır. Dünyada heç də bütün ölkələr özlərini 100 faiz hərbi avadanlıqla təchiz edə bilmir. Beləliklə, burada qəribə olan bir şey yoxdur. Əlbəttə ki, biz silahlara görə ödəniş edirik, biz yaxşı silahları alırıq və onlar bizə yerində kömək edir. Lakin ərazilər dronlar vasitəsilə işğaldan azad edilmir. Ərazilər əsgərlər, orada öz vəzifəsini yerinə yetirən insanlar tərəfindən azad edilir.

*- İran hərbi əməliyyatlar zamanı döyüşlərin sərhəddə keçirilməsi ilə bağlı şikayət etmişdir. Bu mübahisəni İranla həll etmisinizmi, İran rəhbərləri ilə danışmısınızmı?*

- Bəli, biz bunu etmişik. Mənim bildiyimə görə İranın rəhbərləri, həm də Ermənistan tərəfi ilə danışmışlar. Çünki toqquşmalar İranla sərhəd olan Araz çayının yaxınlığında gedirdi və təsadüfən silahların bəziləri sərhədi keçmişdir. Lakin bu gün biz Azərbaycan-İran sərhədini erməni işğalçılarından tamamilə təmizlədiyimizi elan etdik. Buna görə orada artıq heç bir toqquşmalar baş vermir və Araz çayının o biri tərəfində - İranda olan qardaşlarımız üçün artıq heç bir narahatlıq olmayacaq.

*- Bu müharibəni durdurmaq üçün mümkün ən yaxşı vasitəçi kimdir? Bu, Rusiyadırmı? Mümkün ən yaxşı vasitəçi Rusiyadırmı?*

- Bizim üç vasitəçimiz var. ATƏT onlara mandat verib. Rusiya, Fransa, Amerika Birləşmiş Ştatları. Onlar 28 ildir ki, heç bir nəticə olmadan vasitəçilik etməyə və tərəflərə həll yolunu tapmağa kömək etməyə çalışırlar. Bu üç ölkə, eyni zamanda, BMT Təhlükəsizlik Şurasının üzvləridir, daimi üzvləridir. Bu üç ölkə mənim istinad etdiyim və erməni qoşunlarının çıxarılmasını tələb edən həmin qətnamələri qəbul etmişdir. Lakin əfsuslar olsun ki, onlar işğal olunmuş əraziləri boşaltmaq və BMT Təhlükəsizlik Şurasının qətnamələrinə əməl etmək üçün Ermənistana kifayət qədər beynəlxalq təzyiq göstərməyiblər. Buna görə Ermənistanın hərbi hücumundan sonra biz özümüzü müdafiə etməli idik və ədaləti güc yolu ilə bərpa etməli idik. Biz bunu da uğurla edirik.

Bu 3 vasitəçinin hər biri mühümdür. Mən müşahidə edirəm, görürəm və bilirəm ki, Dağlıq Qarabağ məsələsində onların çox nadir yekdil yanaşmaları olur. Bu, bəlkə də onların maraqlarının üst-üstə düşdüyü yeganə məsələdir.

*– Cənab Prezident, Siz hansı torpağı geri almaq istəyirsiniz ki, ondan sonra bu müharibəyə son qoymağa hazır olasınız?*

– Biz bu gün dayanmağa hazırıq. Mən bunu oktyabrın 10-dan – Moskvada hər iki tərəf atəşkəslə bağlı razılığa gələndən bəri deyirdim. Mən demişdim ki, problemin həllinin hərbi hissəsi nə qədər tez qurtarsa, bir o qədər yaxşıdır. Biz danışıqlar masasına keçmək istəyirik. Lakin əfsuslar olsun ki, Ermənistan atəşkəsi kobud şəkildə pozdu və Gəncəyə hücum etdi. Oktyabrın 17-də onlar növbəti atəşkəs qüvvəyə minəndən 2 dəqiqə sonra onu pozdular. Ona görə də, əgər onlar bu gün dayansalar, biz dayanarıq və qalan işlər diplomatlar tərəfindən görülər. Əgər onlar dayanmasalar, biz işğal edilmiş bütün əraziləri azad etmək üçün sona qədər gedəcəyik.

*– Beləliklə, bu, münaqişədən çıxmaq üçün Sizin planınızdır, Azərbaycanın planıdır.*

– Bəli. Əgər onlar indi dayansalar və konstruktiv davransalar, əgər onlar Fransa, Rusiya və ABŞ tərəfindən işlənib hazırlanmış və Azərbaycanın sadiq olduğu əsas prinsiplərə açıq şəkildə sadiq olsalar, onda əlbəttə, hər şey dayanar və biz danışıqlar masasına geri qayıdarıq. Yeri gəlmişkən, mən 17 ildir ki, bu prosesin içindəyəm. Mən Ermənistanın iki əvvəlki prezidenti ilə işləmişəm və biz böyük olmasa da, irəliləyiş əldə etmişdik. Biz mütəmadi olaraq görüşürdük. Moskvada, Parisdə, Vaşinqtonda mütəmadi görüşlər olurdu. Lakin Paşinyan hakimiyyətə gələndən sonra o, təkcə bəyanatları ilə deyil, həm də hərbi təxribatları ilə danışıqlar prosesini pozmaq üçün faktiki olaraq hər şeyi etdi. Artıq hakimiyyətə gələndən 2 il və daha artıq müddətdə proses yoxdur. Əlbəttə, mən düşünürəm ki, siyasi həll mümkündür. Lakin Ermənistan hökuməti başa düşməlidir ki, indi onlar diktə etmək vəziyyətində deyillər. Çünki status-kvo artıq mövcud deyil, təmas xətti artıq mövcud deyil. Biz yerində yeni reallıq yaratdıq və onlar bunu nəzərə almalıdırlar.

*– Sizin Qarabağın gələcəyi ilə bağlı baxışınız necədir?*

– Mən bunu dəfələrlə açıq şəkildə ifadə etmişəm və indi sizə deyə bilərəm, həmçinin mən vasitəçilər, Minsk qrupunun həmsədrləri vasitəsilə əvvəlki Ermənistan hökumətinə bizim gələcəyi necə görməyimizlə bağlı müəyyən mesajlar vermişəm. Biz Qarabağı insanların ləyaqət və sülh içində, azərbaycanlı və erməni icmalarının yanaşı yaşadığı Azərbaycanın çiçəklənən, təhlükəsiz ərazisi kimi, bizim Azərbaycanın bütün digər yerlərində etdiyimiz kimi, inkişaf etdirməyi planlaşdırdığımız ərazi kimi görürük. Sizə deyə bilərəm ki, bizim çox əhəmiyyətli iqtisadi nailiyyətlərimiz var. Bizdə yoxsulluq səviyyəsi çox aşağıdır, təxminən 5 faizdir. Ermənistanda bu, 50 faizə yaxındır. Həmçinin bizdə işsizlik səviyyəsi çox aşağıdır. Pandemiyadan əvvəl bu, 5 faizə yaxın idi, indi 7 faizdir. Lakin bu amilin geniş vüsət aldığı Dağlıq Qarabağla müqayisədə fərq gecə ilə gündüz qədərdir. Beləliklə, biz orada yaşayan ermənilər və oraya qayıdacaq azərbaycanlılar üçün daha yaxşı həyat təmin edə bilərik. Mən əminəm ki, iki millət, iki xalq barışacaq. Çünki XXI əsrdə özünü təcrid etmək, etnik təmizləmə aparmaq və de-fakto vəziyyəti ayrılmağa çevirməyə çalışmaq mümkün deyil. Bu, mümkün deyil. Ermənistan da daxil olmaqla indiyədək heç kim "Dağlıq Qarabağ respublikası"nı tanımayıb. Əminəm ki, heç kim onu tanımayacaq. Ona görə də Qarabağın gələcəyi üçün, təkcə Dağlıq Qarabağ üçün deyil, bütün Qarabağ üçün,

- bu, Azərbaycanın böyük regionudur, - ən yaxşı yol sülh şəraitində, harmoniyada yaşamaq və yenidən yaxşı qonşu olmağa çalışmaqdır – ermənilər və azərbaycanlılar. Mənim planım bundan ibarətdir.

*- Mən xatırlayıram ki, 1990-cı illərin əvvəllərində Bakıda antierməni poqromları var idi. Ona görə də ermənilər inanmırlar, deyirlər ki, yaşaya bilməzlər, Azərbaycan ərazisində yaşamaq üçün, həyatları üçün qorxurlar.*

– Münaqişə Ermənistandakı millətçilər tərəfindən maliyyələşdirilən Dağlıq Qarabağdakı separatçılar Azərbaycandan ayrılmaq üçün plana start verəndən sonra başladı. Sovet İttifaqı vaxtında onlar bunu qanuni baxımdan edə bilmirdilər. Ona görə də onlar Dağlıq Qarabağ ərazisində və Ermənistan ərazisində poqromlara başladılar. Müharibə və toqquşmaların ilk qurbanları Dağlıq Qarabağdakı azərbaycanlılar oldu. Dağlıq Qarabağda, əsasən Şuşada, eləcə də paytaxt Xankəndidə yaşayan 40 min azərbaycanlı tamamilə etnik təmizləməyə məruz qaldı. Sonra Ermənistanda yaşayan 250 min azərbaycanlı, - onların çoxu qətlə yetirildi, - hamısı etnik təmizləməyə məruz qaldı, qovuldu. Həmin toqquşmalar hər yerdə - İrəvanda, Ermənistanın başqa şəhərlərində, Dağlıq Qarabağda baş verirdi. Ona görə də bu, insanların barışa bilməməsi üçün bir növ səbəb olmamalıdır. Avropada Fransa və Almaniya arasında neçə dəfə müharibə baş verib? Neçə dəfə digər ölkələr müharibə edib? 30 və ya 40 milyon adamın ölümünə səbəb olmuş İkinci Dünya müharibəsi var idi. Lakin 20 ildən sonra Qərbi Almaniya və Sovet İttifaqı arasında yaxşı münasibətlər quruldu və indi heç kim bunu xatırlamır. Sivil dünyada bu, belə olmalıdır. Problem ondadır ki, Ermənistanda nifrət aşılanır. Onlar Türkiyəyə və Azərbaycana qarşı tarixi nifrət aşılayırlar. Ermənistanın sabiq prezidenti Köçəryan açıq şəkildə bəyan etdi ki, azərbaycanlılar və ermənilər birlikdə yaşaya bilməzlər. Lakin baxın, onlar məsələn, Gürcüstanda necə birlikdə yaşayırlar. Gürcüstanın bəzi kəndlərində azərbaycanlılar və ermənilər yanaşı yaşayırlar. Rusiyada da eyni şəkildə. Azərbaycanda minlərlə erməni yaşayır. Niyə bu, Dağlıq Qarabağda mümkün deyil? Düşünürəm ki, müharibənin vurduğu yaraları siyasi müdriklik, siyasi iradə ilə sağaltmaq lazımdır. Münaqişənin bu aktiv, qaynar fazası dayanandan sonra hər iki tərəfin bu yaraları sağaltmaq məqsədilə hər şeyi etmək üçün böyük töhfə verməsinə ehtiyac var.

*-Bu, mənim sonuncu sualımdır. Cənab Prezident, Siz qorxmursunuz ki, bir müddətdən sonra Türkiyə Prezidenti Ərdoğan Şimali Kipr məsələsinə diqqətini cəmləmək üçün öz dəstəyini və Qafqazdakı siyasətini dayandırar?*

-Türkiyə və Azərbaycan qardaş ölkələrdir və bizim qardaşlığımız bir çox vəziyyətlərdə sınaqdan keçib. Bu konkret məsələdə Türkiyə Prezidenti Azərbaycana güclü dəstəyini açıq şəkildə ifadə etdi. O dedi ki, Azərbaycan tək deyil, Türkiyə onun yanındadır. Beləliklə, bu, çox güclü siyasi dəstəkdir və biz buna görə çox minnətdarıq. Bu, birincisi. İkincisi, demək istəyirəm ki, biz döyüş meydanında nə ediriksə özümüz edirik. Bəli, müasir silahlarla, müasir avadanlıqla, lakin Vətənimizi azad edən Azərbaycan əsgərləri və zabitləridir. Bizim Türkiyə ilə münasibətimizin böyük tarixi və daha da parlaq gələcəyi var. Zənnimcə, Türkiyənin Cənubi Qafqazın hər üç ölkəsi - Azərbaycan, Gürcüstan və Ermənistanla sərhədi olan dünyada yeganə ölkə kimi bu prosesə cəlb edilmək üçün legitim hüququ var. Çünki qonşu olaraq, region üçün sabitliyi, təhlükəsizliyi təmin edə bilən və təmin edən, gündəliyi çox aydın ölkə olaraq o, beynəlxalq hüququ müdafiə edir. Beynəlxalq hüquq deyir ki, bizim ərazilərimiz işğal altındadır. Beləliklə, o, nəyi səhv edir? O, sadəcə olaraq, beynəlxalq hüququn təmin olunmasını tələb edir. Ermənistan bunu etmək istəmir. Ermənistan Livandan erməniləri qanunsuz köçürməklə, azərbaycanlılara qarşı hərbi əməliyyatlarla, bizim tarixi və dini irsimizi dağıtmaqla 30 ildən çoxdur ki, torpaqlarımızı işğal altında saxlamaq istəyir. Türkiyənin rolu çox müsbətdir. Ermənistanla müharibə dayanandan və siyasi nizamlama həyata keçiriləndən sonra əminəm ki, Türkiyənin rolu çox mühüm və müsbət olacaq.

*-Beləliklə, Siz düşünmürsünüz ki, Türkiyənin Mərkəzi Asiyanın türk xalqları ilə birbaşa əlaqəyə sahib olmaq üçün Ermənistanı silmək planı var?*

– Xeyr, bu, yenə də erməni fobiyaları və erməni təxribatlarıdır. Mənim Paşinyan hakimiyyətə gəlməzdən əvvəl Ermənistan liderləri ilə müzakirə etdiyim sülhməramlı planda kommunikasiyalara açıq-aydın istinad var idi. Sülh sazişi imzalanandan sonra bütün kommunikasiyalar açılır, o cümlədən Azərbaycanın Naxçıvan Muxtar Respublikası ilə Azərbaycanın əsas hissəsi arasında. Beləliklə, Türkiyənin, Azərbaycanın və Mərkəzi Asiyanın quru əlaqəsi olacaq. Bu gün bizdə bu, yoxdur. Lakin Türkiyənin həmin regionla Azərbaycan vasitəsilə əlaqəsi var. Biz bir neçə il bundan əvvəl Bakı-Tbilisi-Qars dəmir yolunu tikdik. Beləliklə, Türkiyə malları Gürcüstan, Azərbaycan və Xəzər dənizi vasitəsilə Mərkəzi Asiyaya və əks istiqamətdə daşınır. Lakin Türkiyədən Naxçıvana, Ermənistana, Azərbaycana yol daha qısadır. Ona görə də məsələ onda deyil ki, Türkiyənin belə əlaqəsi yoxdur və dediyiniz kimi, kimsə fikirləşir ki, onlar buna sahib olmaq üçün Ermənistanı silmək istəyirlər. Onlar buna sahibdirlər, biz buna sahibik. Biz daha birinə sahib olacağıq. Lakin bu, yenə də sülh planının bir hissəsidir, bütün kommunikasiyalar açılacaq. Düşünürəm ki, Ermənistan hökuməti əhalini Türkiyə ilə qorxutmağa çalışmamalı, türk və Azərbaycan xalqlarına qarşı nifrəti dayandırmalıdır.

*– Qafqaz regionunda digər xristian ölkəsi olan Gürcüstanla münasibətləriniz necədir?*

– Bəli, bizim Gürcüstanla münasibətlərimiz mükəmməldir. Biz bir-birimizi strateji tərəfdaş adlandırırıq. Azərbaycan Gürcüstanda birinci və ya ikinci ən böyük investor, yaxud birinci və ya ikinci ən böyük vergi ödəyicisidir. Mən birinci və ikinci deyirəm, çünki bir il Türkiyə olur, bir il Azərbaycan. Bizim Türkiyə, Gürcüstan və Azərbaycan arasında üçtərəfli əməkdaşlıq formatımız var. Bizim prezidentlər səviyyəsində sammitlərimiz, nazirlər səviyyəsində, o cümlədən müdafiə,

xarici işlər və iqtisadiyyat nazirləri səviyyəsində görüşlərimiz olub. Bizim bütün əsas nəqliyyat və enerji kommunikasiyamız Gürcüstan ərazisindən keçir. Gürcüstanda böyük azərbaycanlı icmamız var, 300 minə yaxın adam. Ona görə də münasibətlər mükəmməldir və düşünürəm ki, Türkiyə ilə münasibətlərimiz kimi, Gürcüstanla münasibətlərimiz də mehriban qonşuluğun yaxşı nümunəsi ola bilər. Yeri gəlmişkən, Gürcüstanın xristian, Azərbaycanın müsəlman ölkəsi olması faktının heç bir fərqi yoxdur. Biz bu regiona bu nöqteyi-nəzərdən baxmırıq.

*-Layihələri icra edərkən Siz dini nəzərə almırsınız?*

– Xeyr, bizim Konstitusiyamıza əsasən din dövlətdən ayrıdır. Azərbaycan dünyəvi ölkədir. Biz öz dinimizə hörmət edirik. Biz Azərbaycanda yaşayan bütün digər millətlərin dinlərinə hörmət edirik. Düşünürəm ki, Azərbaycanda dini harmoniyanın ən yaxşı göstəricisi Roma Katolik Kilsəsinin başçısı, Zati-müqəddəsləri Papa Fransiskin sözləri ola bilər. Bir neçə il bundan əvvəl Bakıda olanda o, ictimaiyyətə bəyanatla çıxış edərək Azərbaycanın mədəniyyətlərarası və dinlərarası dialoqdakı rolunu yüksək qiymətləndirdi. Azərbaycanda müxtəlif dinlərin bütün nümayəndələri, o cümlədən ermənilər sülh və harmoniya şəraitində yaşayırlar. Bakının mərkəzində bizim tərəfimizdən bərpa olunmuş və hökumətimiz tərəfindən qorunan erməni kilsəsi var. Bizim işğal olunmuş torpaqlardakı məscidlərimiz isə dağıdılıb. Ermənilər bizim məscidlərimizdə donuz saxlayırlar. Bu yaxınlarda internetdə videolar var idi. İnternetdə Zəngilan rayonunda bir kəndin azad edilməsindən sonra donuzların məscidimizdə necə gəzdiyini göstərən görüntülər var idi. Azərbaycan tolerant, dünyəvi ölkədir və gələcəkdə də belə olmağa davam edəcək.

*-Təşəkkür edirəm, çox yaxşı müsahibə idi, cənab Prezident.*

– Təşəkkür edirəm.

## *Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin ABŞ-ın "Fox News" televiziya kanalına müsahibəsi*

*- Sabahınız xeyir.*

- Sizin də sabahınız xeyir.

*- Mən 30 il Avropada işləmişəm. Mən heç vaxt Sizin ölkənizdə olmamışam. Buna görə təəssüflənirəm. Bu səhvi gələcək aylarda səfər etməklə düzəltməli olacağam.*

- Ümid edirəm ki, gələcəkdə bizi də ziyarət etmək üçün vaxtınız olacaq.

*- Mən də ümid edirəm. Ölkəniz gözəldir. Mən Formula 1-i sevirəm, Zaha Hadidin memarlıq üslubunu sevirəm, kinoları sevirəm. Siz paytaxtınızı müasirləşdirməklə gözəl iş görmüsünüz.*

- Təşəkkür edirəm.

*-Mən Sizin bir çox müsahibələrinizi dinləmişəm. Siz müsahibələrdə regionun üzləşdiyi mürəkkəb məsələləri təfərrüatı ilə və səlis izah edirsiniz. Mən kifayət qədər açıq, qısa və mahiyyət üzrə suallar verməliyəm ki, onlara mümkün qədər çox cavab ala bilək. Mən tamamilə anlayıram ki, bunlar 100 illər bundan öncəyə təsadüf edən mürəkkəb məsələlərdir.*

- Mən Amerika auditoriyasına nəyin baş verdiyini, nəyə görə baş verdiyini və bizim gələcəkdə nələri görmək istəyimizi izah etməyə çalışacağam.

*- Çox gözəl. Biz bunda çox maraqlıyıq. Bir çox məlumatlara görə, sentyabrın 27-də - müharibənin bu ən son mərhələsində Dağlıq Qarabağ regionunda nisbi sülh var idi, müəyyən növ diplomatik çərçivə var idi, insanlarda bu münaqişənin həll edilməsi ilə bağlı ideya var idi, lakin Sizin qüvvələr döyüşlərə başladı. Nəyə görə Siz indi hərəkətə keçməyə qərar verdiniz?*

- Sentyabrın 27-də döyüşlərə başlayan Azərbaycan olmamışdır. Bu vaxta kimi heç bir ölkənin rəsmi nümayəndəsi bu məsələni bizim qarşımızda qaldırmayıb. Sentyabrın 27-də hücuma keçən Ermənistan olmuşdur və məqsəd danışıqlar prosesini tamamilə pozmaq idi. Onlar az və ya çox eyni hərəkəti iyul ayında da etmişdilər. O zaman onlar Ermənistan-Azərbaycan dövlət sərhədində bizim qüvvələrimizə hücum etdilər. Onlar acı məğlubiyyətlə üzləşdilər. Sonra onlar avqustda hərbi mövqelərimizə nüfuz etmək, mülki şəxslərimizə və hərbi qulluqçularımıza hücum etmək üçün diversiya qrupu göndərdilər. Sentyabrın 27-də onlar ağır silahlarından artilleriya bombardmanına başladılar və hücumun ilk saatlarında bizdə mülki şəxslər və hərbi qulluqçular arasında qurbanlar olmuşdur. Bu vaxta kimi mülki şəxslər arasında 63 nəfər öldürülmüşdür və demək olar ki, 300 nəfər mülki şəxs yaralanmışdır. Beləliklə, bu hücuma başlayan Ermənistan idi, biz özümüzü müdafiə etməli və cavab verməli idik. Bizim cavabımız çox adekvat olmuşdur və nəticədə biz işğal olunmuş ərazilərin mühüm hissəsini azad edə bildik.

*- Lakin kimin atəşi birinci açmasından asılı olmayaraq, hər iki tərəf bu dövrdə dərhal döyüşə başladı. Sonra Siz dediniz ki, bu ərazidən erməni qüvvələrini çıxarmaq istəyirsiniz və bu, münaqişəni həll etmək üçün yeganə cavab ola bilər. Sentyabrın 27-sinə qədər olan aylarda Azərbaycanda gedən müharibə haqqında çoxlu söhbətlər gəzirdi. Siz etiraf etməlisiniz ki, müharibəni başlamaq imkanını axtarırdınız.*

- Mənim dediyim BMT Təhlükəsizlik Şurasının qətnamələrinə uyğun idi. 1993-cü ildə Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurası tərəfindən qəbul edilmiş qətnamələrdə Ermənistandan açıq şəkildə tələb olunurdu ki, qoşunlarını Azərbaycanın işğal olunmuş ərazilərindən tam, qeyd-şərtsiz və dərhal çıxarsın. Əfsuslar olsun ki, 27 il ərzində bu qətnamələr icra edilməmişdir. Odur ki, biz erməni qoşunlarının Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazilərdən çıxarılmasını istədiyimizi deyəndə mən hüquqi nöqteyi-nəzərdən haqlıyam və mənim dediklərim Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasının qətnamələrinə uyğundur.

*- Cənab Prezident, hüquqi müstəvi və reallıqlar var. Dağlıq Qarabağda və regionda reallıq ondan ibarətdir*

*ki, 1980-ci və 1990-cı illərin bütün keşməkeşli yollarından keçdikdən sonra indi ora prinsip etibarilə erməni əhalisindən ibarətdir. Əgər siz oraya daxil olsanız, yenə də erməniləri çıxarıb, azərbaycanlıları geri gətirməlisiniz və yenə məcburi köçkünlər olacaq. Masada diplomatik plan var, Dağlıq Qarabağın müstəqilliyinin saxlanılması, Ermənistanın Dağlıq Qarabağ ətrafında yeddi rayonun geri qaytarması. Siz diplomatiya yolunu nəzərdən keçirirsinizmi?*

- Diplomatik həll yolu ilə bağlı sizin dedikləriniz doğru deyil. Çünki vasitəçilər tərəfindən - Amerika Birləşmiş Ştatları, Rusiya və Fransadan Dağlıq Qarabağa müstəqillik verilməsi ilə bağlı bizə heç bir plan təqdim olunmayıb. Bu qədər. Sülh planında təklif var idi ki...

*- Muxtariyyət.*

- Xeyr, xeyr. Əsla. Sülh planında təklif, bənd var ki, Dağlıq Qarabağın ətrafında yerləşən işğal olunmuş bütün ərazilərin, - bu o ərazilərdir ki, orada azərbaycanlılar yaşamışdır və 700 mindən çox azərbaycanlı bu ərazilərdən etnik təmizləməyə məruz qalmışdır, - Azərbaycana qaytarılması deyilir. Sizin haqqında danışdığınız reallıqlar, Ermənistanın təcavüzkar separatizmi və azərbaycanlıların etnik təmizlənməsi nəticəsində yaranmış reallıqlardır. Bütün azərbaycanlılar Dağlıq Qarabağdan qovulmuşdur, müharibədən əvvəl orada 40 min azərbaycanlı var idi, Dağlıq Qarabağ ətrafında olan yeddi rayondan bütün azərbaycanlılar - 700 min nəfər qovulmuşdur. Mənim dediyim....

*- Cənab Prezident, 1994-cü ildə Siz müharibədə məğlub oldunuz. İndi 2020-ci ildə isə Siz müharibədə qalib gəlmək üçün müharibəyə yenidən başlamaq istəyirsiniz.*

- Biz müharibədə məğlub olmamışdıq. Biz döyüşü uduzmuşduq. Bu da obyektiv səbəblər üzündən olmuşdur. Birincisi, Azərbaycanda daxili qeyri-sabitlik var idi, Ermənistan da bundan sui-istifadə etdi.

*- Lakin mənim sualım odur ki, niyə 2020-ci ildə Siz müharibəyə yenidən başlamaq istəyirsiniz? 20 il idi ki, sakitlik idi.*

- İkincisi bu, Ermənistana açıq xarici dəstək üzündən baş vermişdir. Biz müharibəyə başlamamışıq. Biz, sadəcə, cavab verdik və biz bunu Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsi əsasında edirik. Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsi hər bir ölkənin özünümüdafiə hüququnu təmin edir. Bizim etdiyimiz odur ki, biz özümüzü müdafiə edirik və biz Azərbaycanın beynəlxalq səviyyədə tanınan ərazilərini erməni işğalından azad edirik. Bundan artıq heç bir şey etmirik. Erməni xalqına gəldikdə, mən dəfələrlə demişəm ki, Dağlıq Qarabağda yaşayan ermənilər bizim vətəndaşlarımızdır, biz onların qeydinə qalacağıq. Onlar oraya qayıdacaq azərbaycanlılarla yanaşı, ləyaqət, sülh içində yaşayacaqlar.

*- Cənab Prezident, nəyə görə Siz qeyd etdiyiniz kimi, BMT-nin, Rusiyanın, İranın, Amerika Birləşmiş Ştatlarının, Avropa İttifaqının, NATO-nun çağırışlarına müqavimət göstərirsiniz? Atəşkəs üçün çağırışlara nəyə görə müqavimət göstərirsiniz və faktiki olaraq elan olunmuş atəşkəsi pozursunuz? Mən bilirəm ki, bu gün Dövlət Katibi Pompeo da cəsədlərin, yaralıların mübadiləsi üçün atəşkəs tələb edəcəkdir. İndi atəşkəs üçün yaxşı vaxt deyilmi?*

- Biz atəşkəsə hazır idik. Oktyabrın 10-da Moskvada bizim Xarici İşlər nazirimiz, Ermənistanın Xarici İşlər naziri və Rusiyanın Xarici İşlər naziri atəşkəs barədə birgə bəyanat verdilər. Lakin növbəti gün ermənilər Ermənistan ərazisindən Azərbaycanın ikinci ən böyük şəhərinə, toqquşmaların baş verdiyi ərazidən çox uzaqda yerləşən Gəncəyə ballistik raketlə hücum edərək 10 mülki şəxsi qətlə yetirmiş və 30-dan çoxunu yaralamışlar. Sonra Gəncəyə ikinci ballistik raket hücumu oldu və 15 insan qətlə yetirildi. Beləliklə, Ermənistan...

*- Lakin Siz də atəşkəsi pozmusunuz.*

- Xeyr, xeyr. Biz, sadəcə, cavab verdik. Çünki biz atəşkəs barədə iki dəfə razılaşmışdıq. Birinci dəfə ermənilər gecə vaxtı, gecə saat 1-də yatan şəhərə ballistik raket atdılar. İkinci dəfə atəşkəs yalnız iki dəqiqə davam etdi və Ermənistan onu pozdu. Azərbaycanın atəşkəsi pozması barədə sübut yoxdur.

*- İcazənizlə belə bir sual verim. Bu gün Dövlət Katibi Sizin Xarici İşlər nazirinizə sual versə ki, siz həqiqətən də atəşkəsi istəyirsiniz, daha bir cəhd istəyirsiniz? Siz daha bir dəfə cəhd edərsiniz?*

- Bəli, biz hazırıq. Mən bunu dəfələrlə açıq demişəm. Biz bu gün atəşkəsi razılaşdırmağa hazırıq. Lakin, eyni zamanda, Ermənistan, onun baş naziri deməlidir ki, onlar Amerika Birləşmiş Ştatları, Rusiya və Fransa tərəfindən işlənib hazırlanmış əsas prinsiplərə sadiqdir. İki gün bundan əvvəl Ermənistanın baş naziri dedi ki, Dağlıq Qarabağ münaqişəsinin diplomatik həlli yoxdur.

*- Bununla bağlı müəyyən şərtlər olmalıdır. Siz heç bir əlavə şərtsiz atəşkəsə sadiq olarsınızmı?*

- Biz atəşkəs istəyirik, biz torpaqlarımızın qaytarılmağını istəyirik. Ermənistan BMT Təhlükəsizlik Şurasının qətnamələrinə, ABŞ, Fransa və Rusiyanın təqdim etdiyi sülh planına uyğun olaraq torpaqları boşaldacağına dair öhdəlik götürməlidir. Lakin o, bunu demir.

*- Cənab Prezident, Sizin ordunuzun hədsiz dərəcədə mülki əraziləri, evləri, yaşayış məntəqələrini, mağazaları hədəfə alması ilə bağlı ittihamlara necə cavab verərdiniz? Hətta Sizin yüksək texnologiyalı silahlarınızla çox mühüm bir kilsə də vurulub, son həftələrdə minlərlə adam ölüb və ya yaralanıb.*

- Biz mülki şəxslərə hücum etmirik. Ermənistanın Gəncə şəhərinə qarşı onlarca adamın həlak olduğu ballistik raketlərlə törətdiyi amansız hücumdan, terror aktından sonra biz açıq şəkildə dedik ki, qisas alacağıq, lakin döyüş meydanında. Biz mülki şəxslərə hücum etmirik. Biz dini məkanlara hücum etmirik. Şuşada kilsədə baş verənlər ya səhv olub, - mən artıq buna açıq şəkildə münasibət bildirmişəm, - ya da bu, bizi günahlandırmaq üçün ermənilərin özləri tərəfindən törədilib.

*- Lakin, cənab Prezident, biz Dağlıq Qarabağın paytaxtının görüntüləri olan videoları, səhnələri görmü-*

*şük, orada bütün əhali zirzəmilərdə yaşamaq məcburiyyətindədir, hər 20 dəqiqədən bir artilleriya səsləri eşidilir, mülki şəxslərin yaşadığı şəhər dağılıb. Siz bütün şəhəri hərbi hədəf adlandıra bilməzsiniz.*

- Qondarma "Dağlıq Qarabağ respublikası"nın paytaxtı Xankəndidə hərbi hədəflər olub və bizim oraya hücumlarımız yalnız oktyabrın 9-dan əvvəl olub. Ondan sonra biz Dağlıq Qarabağda heç bir mülki şəxsə və ya şəhərə hücum etməmişik. Lakin onlar hücum ediblər. Siz onların Gəncədə etdiklərinin şəkillərini görmüsünüzmü?

*- İcazə verin, aydınlıq gətirim, Siz sentyabrın 27-dən oktyabrın 9-dək mülki şəxsləri hədəfə alırdınız?*

- Xeyr, biz qondarma "Dağlıq Qarabağ respublikası"nın paytaxtı Xankəndidə hərbi infrastrukturu hədəfə alırdıq, çünki hərbi bazalar, hərbi infrastruktur şəhərdə yerləşir.

*- Sizin Türkiyə istehsalı olan dronlarınız, İsrail istehsalı olan hərbi avadanlığınız, Rusiya istehsalı olan yüksək texnologiyalı avadanlığınız var. Necə ola bilər ki, Siz bundan istifadə edirsiniz və eyni zamanda, mülki şəxsləri vurmursunuz?*

- Xeyr, bizim dronlarımız, - bu şəkillərin çoxu internetdə var, baxa bilərsiniz, - Ermənistan tanklarını və başqa silahları necə məhv edir. İndiyədək bizim dronlarımız 230-dan çox tankı məhv edib. Biz onların 6 ədəd S-300 hava hücumundan müdafiə sistemini, yüzlərlə zirehli texnikasını məhv etmişik. Biz dronlardan mülki şəxslərə qarşı istifadə etmirik. Bu, yanlış məlumatdır.

*- Gəlin, əsgərlər, döyüşdə olan qoşunlar barədə danışaq. Fransadan, Rusiyadan olan çoxsaylı mənbələr, həmçinin "New York Times"ın müstəqil jurnalistləri qətiyyətlə iddia edirlər ki, Türkiyə tərəfindən toplanmış və gətirilmiş yüzlərlə suriyalı silahlı Sizin müharibədə döyüşür. Niyə Sizin müharibədə - Azərbaycanda Türkiyənin dəstəklədiyi suriyalı silahlılar döyüşür?*

- Bu, daha bir feyk xəbərdir. Mən təəssüf edirəm ki, Rusiya və Fransa, yeri gəlmişkən, açıq şəkildə buna münasibət bildirən yeganə ölkələr belə məsuliyyətsiz bəyanatlar verdilər. Mən sübutlar, dəlillər tələb etdim və hələ də tələb edirəm. Müharibə 20 gündən çoxdur ki, yenidən başlayıb, indiyədək nə Rusiya, nə də Fransa tərəfindən bizə heç bir dəlil və ya sübut təqdim olunmayıb.

*- Dəlil "New York Times"dadır. Sizi beş gün əvvəlki məqaləyə yönləndirə bilərəm. Orada deyilir ki, Azərbaycanda qətlə yetirilmiş 57 suriyalı döyüşçü Türkiyə sərhədinin o biri tərəfində geri qaytarılaraq Suriyada dəfn olunub. Ailələrinin hamısı təsdiqləyiblər ki, onlar Sizin ordunuzla birlikdə döyüşmək üçün Azərbaycana getmişdilər.*

-Siz Prezident Trampın "New York Times"ı necə adlandırdığını bilirsiniz, xatırlayırsınız? Feyk xəbərlər. Bu, feyk xəbərdir. Heç bir dəlil, heç bir sübut yoxdur. Bizə dəlil verin, sadəcə....

*- Maraqlıdır, Sizin yüz min əsgəriniz var. Suriyadan bir neçə qeyri-mütəşəkkil silahlı nəyinizə lazımdır?*

– Bəli, tamamilə doğrudur.

*- Sual olunur niyə?*

- Bizim onlara ehtiyacımız yoxdur. Mən elə bu barədə danışıram. Nizami orduda 100 min əsgər, üstəgəl bir neçə gün ərzində biz bəlkə də bundan 3 dəfə çox əsgər cəlb edə bilərik, üstəgəl müasir avadanlıq. Bizim heç bir muzdluya əsla ehtiyacımız yoxdur. Bu, sadəcə, ölkəmizin nüfuzuna xələl gətirmək və döyüş meydanında əsgərlərimizin mərdliyinin əhəmiyyətini azaltmaq məqsədi daşıyan feyk xəbərdir.

*- Cənab Prezident, gəlin bunun zamanı məsələsinə qayıdaq. Niyə biz hərbi əməliyyatları indi görürük? Niyə toqquşmalar görürük? Sizin hökumətinizi, Prezident olaraq Sizi tənqid edənlər deyirlər ki, Siz bu müharibədən ölkənizin daxilindəki problemlərdən, sosial məsələlərdən, iqtisadi tənəzzül, korrupsiya, COVID-19-dan diqqəti yayındırmaq üçün pərdə kimi istifadə edirsiniz. Siz, sadəcə, ola bilsin ki, bundan bir çox müxtəlif məsələlərdən narazı olan kütlənin diqqətini vətənpərvər döyüşə çəkmək üçün istifadə edirsiniz.*

- Xeyr, xeyr. Bu, tamamilə yanlışdır. Birincisi, bizim iqtisadi göstəricilərimiz dünyada ən yaxşılardan biridir. On ay ərzində Azərbaycanda iqtisadi geriləmə 4 faizdən azdır. Siz bunu öz ölkəniz və ya Avropa ölkələri ilə müqayisə edə bilərsiniz. Azərbaycanda işsizlik səviyyəsi 7 faizdir. Bunu öz ölkənizlə müqayisə edin. Azərbaycanda yoxsulluq səviyyəsi 5 faizdir. Yenidən bunu müqayisə edin. Bizim ciddi sosial problemimiz yoxdur. COVID-19-la bağlı Azərbaycan Ümumdünya Səhiyyə Təşkilatı tərəfindən nümunə kimi göstərilir. Biz 30-dan çox ölkəyə dəstək - maliyyə dəstəyi, humanitar dəstək göstərmişik. İqtisadiyyatımız sabitdir. İqtisadiyyatımız davamlıdır. Sizin dediyiniz kimi, bəzi daxili problemləri ört-basdır etmək üçün müharibəyə başlamağa ehtiyac yoxdur. Bu, qarşı tərəfdə belədir. Hazırda tamamilə iqtisadi və sosial problemlərin içində olan Ermənistanın diqqəti yayındırmağa ehtiyacı var. Aparıcı müxalifət partiyasının liderini həbs edən Ermənistanın baş naziridir. O, iki sabiq prezidenti təqib edir.

*- Lakin, cənab Prezident, biz bilirik ki, Sizin hökumətiniz daxilində insan haqlarının pozulması, söz azadlığının sıxışdırılması ilə bağlı bəzi ittihamlar var, xüsusilə, korrupsiya və həm hökumətdə, həm də bir çox korporativ strukturlarda ailə idarəçiliyi ilə bağlı. Bu, ictimaiyyətinizin, ya da ictimaiyyətinizin bəzi üzvlərinin, bəzi insanların yol verdiyi qanun pozuntuları hesab olunan hallardan diqqətini yayındırmaq üçün deyil?*

- Xeyr, korrupsiya var və biz buna qarşı mübarizə aparırıq. Biz geniş iqtisadi islahatlar proqramı təqdim etmişik. Son vaxtlarda bir çox insanlar, bir çox hökumət rəsmiləri və yüksək rütbəli rəsmilər korrupsiya ittihamı ilə həbs olunublar. Korrupsiya hər yerdə var və biz bununla mübarizə aparırıq. Ailə idarəçiliyinə gəlincə, mən bir daha sizin öz ölkənizə diqqət çəkmək istəyirəm, orada mühüm vəzifələri ata və oğul tutmuşdu. Buş ailəsi, Klinton ailəsi, ər və arvad, Kennedi ailəsi və bir çox başqa ölkələrdə. Beləliklə, bu, ABŞ-da baş verənlərdən fərqlənmir.

*- Lakin onların hamısı demokratik və şəffaf şəkildə seçilmişdilər.*

- Bəli, xüsusilə ABŞ Ali Məhkəməsinin qərarı ilə seçilmiş Buş.

*- Siz Amerika siyasətini bilirsiniz, cənab Prezident.*

- Bilirəm. Mən hazırlıqlı adamam.

*- Gəlin indi ABŞ-a keçək. Siz bu gün və gələcəkdə Dövlət Katibi Pompeonun nə etməyini görmək istəyərdiniz? Dövlət Katibi Pompeo və ABŞ-la bağlı bəzi tənqidlər səsləndirilib ki, onlar kifayət qədər bu məsələ ilə məşğul olmayıblar. Bilirəm ki, Rusiya kifayət şəkildə cəlb olunub. Türkiyə müxtəlif yollarla cəlb olunub, hətta İran yardım təklif edir. ABŞ kifayət qədər iş görübmü? Siz ABŞ-ın daha çox iş görməsini görmək istəyərdinizmi? Siz rəsmi Vaşinqtonun nə etməyini istəyərdiniz?*

- Düşünürəm ki, ABŞ Minsk qrupunun üç həmsədrindən biri olaraq tərəflərə razılığa gəlməyə yardım etmək üçün ATƏT-in mandatına sahibdir. Razılaşma beynəlxalq hüquqa əsaslanmalıdır. Bu, mənim nə istədiyimə, ya da Ermənistanın baş nazirinin nə istədiyinə əsaslanmamalıdır. O, beynəlxalq hüquqa əsaslanmalıdır. Dağlıq Qarabağ ABŞ və bütün başqa ölkələr tərəfindən Azərbaycanın ayrılmaz hissəsi kimi tanınıb. Mən Dövlət Katibi Pompeodan nə gözləyə bilərəm – birincisi, baş nazir Paşinyanın nümayəndəsinə desin ki, "diplomatik həll yoxdur" kimi bəyanatlar yanlış və təhlükəlidir. İkincisi, Ermənistanın baş nazirinin "Qarabağ Ermənistandır" kimi bəyanatları təhlükəli və yanlışdır. Onlar məntiqli olmalıdırlar. Onlar işğal olunmuş ərazilərdən çıxmaqla bağlı bizə vaxt cədvəli verməlidirlər. Onlar ermənilərlə azərbaycanlılar arasında Dağlıq Qarabağ ərazisində sülh şəraitində birgəyaşayışa razılıq verməlidirlər və münaqişəni beynəlmiləlləşdirmək cəhdlərinə son qoymalıdırlar. Onlar Rusiyadan birbaşa hərbi iştirakı xahiş etməyə son qoymalıdırlar. Bu, səmərəsizdir. Bütün bu vaxt ərzində Ermənistan baş nazirinin bütün cəhdləri Rusiyadan Azərbaycana qarşı döyüşmək üçün qoşun göndərməyi xahiş etmək olub. Bu, çox təhlükəlidir.

*- Bu məsələ ilə bağlı Dövlət Katibi Pompeonun tənqidi fikirləri var. O, açıq şəkildə deyir ki, əlbəttə, ABŞ-ın və Türkiyənin bir çox sahələrdə ortaq maraqları var. O deyir ki, Türkiyənin Sizin səylərinizi dəstəkləməyi problemə səbəb olur, məsələni daha da alovlandırır. Sizin buna münasibətiniz necədir?*

– Türkiyə Azərbaycana siyasi dəstək verir. O, bizim ən yaxın müttəfiqimiz və dostumuzdur. Biz qürurlu və xoşbəxtik ki, belə böyük ölkə bizim tərəfdaşımızdır. Hər bir ölkənin dostu və müttəfiqlərinin olmasına haqqı var. Ermənistanın öz müttəfiqləri var.

*– Ancaq Türkiyə müharibəyə çağırış edir. Türkiyə deyir ki, hərbi yol lazımdır.*

– Xeyr, qətiyyən! Buna dair heç bir dəlil belə yoxdur. Türkiyə yalnız siyasi dəstək verir və bu, kifayətdir. Çünki Türkiyə deyəndə ki, onlar Azərbaycanın yanındadırlar və Azərbaycan tək deyil, ola bilsin, bu, münaqişəyə müdaxilə etmək və öz maraqlarını təmin etmək istəyən hər kəsə bir mesajdır.

*– Bir müddət əvvəl Sizinlə söhbət edərkən mühüm bir fikir irəli sürmüşdünüz, Dövlət Katibi Pompeo ilə müzakirələrinizdə demişdiniz ki, diplomatik həll var. Siz bu böhranın diplomatik həllinin olduğuna inanırsınızmı?*

– Bəli, inanıram. Əks halda mən 17 il ərzində danışıqlarda iştirak etməzdim. Siz deməyə çalışırsınız ki, müharibəni mən başlamışam. Əgər müharibəyə mən başlamışamsa, niyə 17 il gözləyirdim. Azərbaycan Ordusu artıq azı 10 ildir ki, yaxşı hazırlaşıb. Ona görə də, diplomatik həll masa üzərindədir. Ermənistan Dağlıq Qarabağ ətrafındakı əraziləri boşaltmalıdır. Azərbaycanlılar həmin ərazilərə qayıtmalıdırlar, sonra ermənilərlə sülh və ləyaqət şəraitində yaşamalıdırlar. Bizim mövqeyimiz bundan ibarətdir.

*– Beləliklə, Siz deyirsiniz ki, diplomatik həll üzərində hərbi həll elementi var?*

– Mən dedim, arzu edirəm ki, hərbi həll bu gün dayansın və biz danışıqlar masasına keçək. Əfsuslar olsun ki, bu hərbi amil çoxlu ziyan və qurbanlara səbəb olur. Ona görə də, substantiv danışıqlara, – bütün bu illər ərzində Ermənistanın etmək istədiyi kimi imitasiyaya yox, - substantiv danışıqlara nə qədər tez başlasaq, həll yolu bir o qədər tez tapılar. Həll yolu Azərbaycanın ərazi bütövlüyünə əsaslanır.

*– Ölkənizin, regionun hüdudlarından kənarda olan bəzilərinin narahatlıqları var. Bəlkə də bu, Sizi də narahat etməlidir ki, mövcud hüdudda olan münaqişə regional problemə çevrilə bilər. Türkiyənin real maraqları var, Rusiyanın real maraqları var, İranın real maraqları var. Siz həm iqtisadi, həm də siyasi cəhətdən nüfuzu olan bir ölkə kimi başlamasına rəvac verdiyiniz bu regional burulğanda mövqeyinizin itirilməsini riskə atmırsınızmı?*

– Münaqişə ərzində bizim bütün səylərimiz aktiv fazaya mümkün qədər tez son qoymaq məqsədi daşıyıb. Biz münaqişə genişlənsin deyə münaqişənin hər hansı formada beynəlmiləlləşdirilməsinin tamamilə əleyhinəyik. Ermənistanın etmək istədiyi məhz budur. Qeyd etdiyim kimi, onlar Rusiyadan münaqişə bölgəsinə hərbçilər göndərməyi xahiş etdilər. Bu, tamamilə səmərəsiz və beynəlxalq hüquqa ziddir. Biz başqa ölkələrin müdaxilə etməsini istəmirik.

*– Lakin Ermənistanda artıq Rusiyanın hərbi bazası var, bu, qeyri-qanuni deyil.*

- Bəli, o, Ermənistandadır, Dağlıq Qarabağda yox. Onlar ruslardan Dağlıq Qarabağa qoşun göndərmələrini xahiş edirdilər. Biz bu barədə bilirik. Ona görə də bizim mövqeyimiz ondan ibarətdir ki, bütün region ölkələri və bütün ölkələr münaqişədə birbaşa iştirakdan kənarda qalmalıdırlar. Kömək etmək istəyənlər və mandatı olanlar, ATƏT-in Minsk qrupunun həmsədrləri Ermənistanı inandırmalıdırlar ki, - ümidvaram ki, bu gün Vaşinqtonda bu, baş verəcək, - təcavüzə son qoysun, atəşkəsə sadiq olsun və torpaqları boşaldacaqlarına dair öhdəlik götürsün. Onlar bunu etmirlər.

*- Körfəz müharibəsi zamanı belə fikir var idi ki, bütün bunlar neftə görədir. Döyüş bölgəsinin təqribən 50-60 mil yaxınlığında Sizin neft kəmərləriniz, enerji kəmərləriniz var. Siz çox mühüm enerji kəmərləri və qovşaqlarının bu və ya digər dərəcədə zərər çəkə biləcəyindən narahatsınızmı? Faktiki olaraq bu, bəlkə*

*də, Sizin ordunuzu bu müharibəni aparmağa vadar edir?*

– Əslində, biz narahatıq. Çünki biz Ermənistanın yüksək rütbəli rəsmilərinin bəyanatlarını eşitmişik ki, onlar bizim strateji neft infrastrukturumuza, o cümlədən kəmərlərə və Bakının Səngəçal qəsəbəsində ən böyük neft-qaz terminalına hücum edəcəklər. Belə bir hadisə Ermənistanın bizə hücum etdiyi vaxt, iyul toqquşmaları zamanı Avropanın enerji təhlükəsizliyini təmin etməli olan qaz kəmərinin 15 kilometrliyində baş vermişdi. Beləliklə, Azərbaycandan Avropaya və dünyaya neft-qaz təchizatını pozmaq Ermənistanın planları idi.

*– Beləliklə, hazırda Sizin etdikləriniz bu cür təhdid lərə son qoymaq, iqtisadi maraqlarınızı müdafiə etmək üçündür?*

– Xeyr, biz özümüzü müdafiə edirik. Bilirsiniz ki, bizim Bakıdan Aralıq dənizinə neft kəmərimiz 2006-cı ildə istismara verilib və heç bir fasilə olmadan işləyir. Bizim Azərbaycandan Türkiyəyə qaz kəmərimiz 2007-ci ildə istismara verilib. Azərbaycanı avropalı istehlakçılarla birləşdirən böyük kəmərin yəqin ki, bir neçə aya, hətta daha tez açılması planlaşdırılır. Ona görə də, kəmər artıq qorunduğu halda, niyə biz kəməri qorumaq üçün müharibəyə başlamalıyıq. Kəməri dayandırmaq və Azərbaycana iqtisadi ziyan vurmaq istəyən Ermənistandır.

*- Siz Prezident Trampın və onun administrasiyasının münaqişə ilə bağlı söylədiklərindən məmnunsunuzmu? O, Türkiyəni tənqid edib. Açığı, o, hər iki tərəfi tənqid edib. O, ABŞ-dakı çox böyük erməni diasporunu öz tərəfinə çəkmək istəyir. Burada siyasi elementlər də var. Sizcə, ABŞ öz rolunun öhdəsindən yaxşı gəlir?*

– Düşünürəm ki, Prezident Trampın münaqişənin həlli ilə bağlı gördüyü işlər beynəlxalq münasibətlərə tam uyğundur. Biz bununla bağlı onun mövqeyini, şəxsi fikirlərini tam dəstəkləyirik. Biz görürük ki, ABŞ-ın mövqeyi balanslaşdırılmışdır və bu, belə də olmalıdır. Çünki ABŞ vasitəçidir. Prezident Trampın Türkiyə ilə bağlı tənqidi fikirlərinə gəlincə, yeri gəlmişkən, mən bunu mətbuatda görməmişəm. Lakin onun fikirləri konstruktiv olub. ABŞ tərəf tutmur. Eləcə də digər həmsədrlər tərəf tutmamalıdırlar. Biz çox böyük erməni icmasının təkcə Amerikada deyil, həmçinin Fransa və Rusiyada daxili siyasətə təsirinin olduğunu, çoxlu lobbiçilik fəaliyyəti ilə məşğul olduğunu, indi Azərbaycan əleyhinə var gücü ilə fəaliyyət göstərdiyini və onların göstərə biləcəyi təzyiqin səviyyəsini başa düşürük. Lakin, eyni zamanda, Prezident Trampın açıq siyasəti burada - Azərbaycanda təkcə mənim tərəfimdən deyil, xalqımız tərəfindən də dəstəklənir.

*– Cənab Prezident, Siz siyasəti bilirsiniz və hesab edirəm ki, Amerika siyasətini də bilirsiniz. On gündən sonra mühüm prezident seçkisi keçiriləcək. Vaşinqtondakı diplomatiyaya qarşı olan ovqatı müəyyən edərkən, Sizcə "bəlkə diplomatik uğur ola bilər" ideyası Vaşinqtondakı siyasətçilərin ağlındadır və bunu nəzərə alaraq, prosesi irəli aparmaq üçün hər hansı motivasiyanı normal qəbul edirsiniz?*

– Düşmənçiliyə son qoymaq üçün istənilən motivasiya bizim tərəfimizdən dəstəklənir. Düşünürəm ki, bu gün Vaşinqtondakı görüşün çox yaxşı nəticəsi onda ola bilər ki, Ermənistan sülh yolu ilə həllə sadiq olsun, bizə hücum etməyi dayandırsın və qoşunları geri çəkəcəyinə dair öhdəlik götürsün.

*- Sizcə bu diplomatik cəhd ABŞ-da prezident seçkilərinə dair siyasət ilə əlaqəlidir?*

- Mən bilmirəm. Hesab edirəm ki, Amerika seçiciləri səslərini Amerika üçün ən yaxşı nədir yanaşmaları və ehtimalları əsasında verəcəklər. Düşünmürəm ki, Qarabağ münaqişəsi amerikalıların narahat olduğu bir məsələdir. Ola bilsin onların əksəriyyəti, hətta bu haqda bilmirlər. Lakin, əlbəttə ki, Amerika super gücdür, o, bu münaqişənin həllində çox mühüm söz sahibidir. Bizim mövqeyimiz ondan ibarətdir ki, Amerika vasitəçi olaraq bitərəf olmağa davam etməlidir, yenə də və daha da çox hər iki tərəfi ortaq qərara yaxınlaşdırmağa çalışmalıdır.

*- Növbəti iki dəqiqədə müsahibəni yekunlaşdıracağımıza görə icazə verin, bununla bağlı bir söz deyim. Nəyə görə bu, Amerika Birləşmiş Ştatlarını maraqlandırmalıdır? Hesab edirəm Siz, çox güman ki, haqlısınız. Amerikalıların əksəriyyəti Dağlıq Qarabağı xəritədə tapa bilməzlər. Lakin Sizin üzləşdiyiniz strateji məsələlər, siyasi, mədəni, demoqrafik məsələlər var. Əgər indi ABŞ insanları ilə danışsaydınız və desəydiniz ki, bağışlayın, bilirəm ki, Sizi qarşıda prezident seçkiləri gözləyir, beysbol üzrə final yarışları gözləyir, lakin Siz bu məsələyə də diqqət yetirməlisiniz. Siz onlara nə deyərdiniz və biz nəyə görə bu məsələ ilə maraqlanıb, onu nəzərdən keçirməliyik?*

- Mən deyərdim ki, Azərbaycan həmişə Amerika Birləşmiş Ştatlarının həqiqi tərəfdaşı olub. Biz beynəlxalq terrorçuluqla mübarizədə bir yerdəyik, biz Əfqanıstanda bir yerdəyik, biz hərbi qulluqçularımızı Əfqanıstanda saxlayırıq və bununla sülhməramlı əməliyyatlara öz töhfəmizi veririk. Bizim gündəliyimizdə enerji təhlükəsizliyi kimi mühüm məsələ var. Amerika Birləşmiş Ştatları Azərbaycanın enerji təchizatı marşrutlarını şaxələndirmək səylərini həmişə dəstəkləmişdir. Amerika Birləşmiş Ştatlarının güclü dəstəyi ilə biz önəmli layihələri tamamlaya bilmişik. Azərbaycan və Amerika Birləşmiş Ştatlarının çox güclü tərəfdaşlıq münasibətləri var. Amerika Birləşmiş Ştatları Azərbaycanı dost hesab edir və biz həqiqətən də dostuq. Ona görə burada sülhün olması Amerika Birləşmiş Ştatlarının marağındadır. Azərbaycan müstəqilliyini gücləndirərək müstəqillik yolunda irəliləməyə davam edir. Biz Avropa ilə Asiya arasında nəqliyyat, enerji qovşağında yerləşirik. Bizim siyasi önəmimiz artır. Buna görə Azərbaycan Birləşmiş Ştatlar üçün, Birləşmiş Ştatlar isə Azərbaycan üçün mühüm tərəfdaşdır.

*- Beləliklə, Sizin ölkənizdə, regionunuzda sabitlik, siyasi, iqtisadi və sair nöqteyi-nəzərdən 3-5 min mil məsafədə bizim üçün də yaxşı ola bilər.*

- Bəli, Amerika super gücdür. Məsafənin heç bir fərqi yoxdur. Hesab edirəm ki, müasir, dünyəvi, dost müsəlman ölkəsi bizim dostlarımız üçün də böyük bir

aktivdir. Müstəqilliyin lap ilk illərindən bəri Amerika Birləşmiş Ştatları həmişə Azərbaycanı dəstəkləmişdir. Sizə deyə bilərəm ki, bu gün bizim ikitərəfli əməkdaşlığımız bəlkə də, ən yüksək səviyyədədir. Ümid edirik ki, bu gün Vaşinqtondakı görüş Ermənistanı təcavüzü dayandırmağa, işğalı dayandırmağa inandırmaq üçün önəmli olacaqdır və sonra da torpağımıza sülh gələcəkdir.

*- Bu müsahibənin əvvəlində dediyiniz kimi, Amerika Birləşmiş Ştatlarında Ermənistanı çox dəstəkləyirlər.*

- Bəli.

*- Orada xristian dininə, kilsələrə dəstək var. Diaspora görə uzun illər bundan öncə Türkiyənin onlara verdiyi cəzaya görə dəstək var. Siz bilirsiniz ki, Amerika Birləşmiş Ştatlarında ermənilərə qarşı yaxşı emosional münasibət var.*

- Bəli, mən bunu bilirəm. Mən əvvəl də demişəm ki, biz bilirik, ölkələrin daxili siyasəti var və erməni lobbi təşkilatları fəaliyyət göstərir. Lakin beynəlxalq münasibətlərə aid məsələlərə baxdıqda prinsiplər olmalıdır. Bu emosiyalar, hisslər, xoş məramın digər ifadəsi, - bunlar fərqlidir, - ailədə nahar yeməyində ola bilər. Lakin beynəlxalq münasibətlərdə Azərbaycanın beynəlxalq səviyyədə tanınan və Ermənistan tərəfindən işğal olunmuş əraziləri var. İşğala son qoyulmalıdır. Amerikada, Fransada, Rusiyada yaşayan erməniləri, varlı insanları Dağlıq Qarabağdakı ermənilər, onların yoxsulluq içində necə yaşaması maraqlandırmır.

*- Yəqin ki, bu məsələdə onlar Sizinlə razılaşmazlar, lakin bu normaldır. İki yekun sual. Gəlin prezident siyasətinə qayıdaq. Sabiq vitse-prezident Co Bayden 10 gün müddətində yeni seçilmiş prezident ola bilər. O, vitse-prezident olanda onunla hər hansı bir təmaslarınız olubmu? Sizin fikrinizcə, Bayden administrasiyası regionunuzdakı münaqişəyə necə münasibət göstərəcək?*

- Bəli, mən vitse-prezident Baydenlə dörd il bundan əvvəl Vaşinqtonda Prezident Obama tərəfindən təşkil olunan Nüvə Sammitində görüşmüşəm. Mənim cənab Baydenlə ikitərəfli görüşüm olub. Mən onun regional məsələlərə dərindən cəlb olunduğunu gördüm. Biz ikitərəfli münasibətlərimizin bir çox məsələlərini, əlbəttə, o cümlədən Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasını da müzakirə etdik. Sizə deyə bilərəm ki, Obama administrasiyası Dağlıq Qarabağ məsələsində çox fəal idi. Buna görə mən əminəm ki, cənab Bayden və onu dəstəkləyən insanlar bu haqda yaxşı məlumatlıdırlar. Beləliklə, mənim onunla görüşümdən çox yaxşı xatirələrim var.

*- Sizcə o, Sizin mövqeyinizi dəstəkləyəcək? Yoxsa o, Ermənistanı dəstəkləyəcək? Çox güman ki, o, müharibəyə qarşı çıxacaq. Yəqin ki, o, atəşkəs üçün, diplomatiya üçün çağırış edəcək. Sizcə, bu, normal yanaşma olacaq?*

- Hesab edirəm, bizim müzakirə etdiklərimizi Amerikada, Fransada və Rusiyada erməni lobbi təşkilatlarını nəzərə alaraq Azərbaycan üçün ən yaxşı vəziyyət ondan ibarət olardı ki, bu üç ölkənin rəhbərləri münaqişə ilə bağlı bitərəf qalsınlar və tərəf tutmasınlar. Əslində, onların mandatı da onlardan bunu tələb edir. Onlar tərəf tutsalar, vasitəçi ola bilməzlər. Biz ABŞ-ın xarici siyasət komandasından gələcəkdə də bitərəf və obyektiv olmağı gözləyirik.

*-Yekun olaraq, cənab Prezident, Sizin gələcək üçün proqnozunuz nədir? Mən regionunuzu, ölkənizi, Ermənistanı nəzərdə tuturam. Ötən əsrin 80-ci illərinin sonunda, 90-cı illərinin əvvəlində dəhşətli hadisələr baş vermişdi, 10 minlərlə insan qətlə yetirilmişdi. Bəs, indi necə? Əlavə on minlərlə insan öldürüləcək? Daha çox dağıntılar olacaq? Siz hadisələrin gələcək inkişafını necə görürsünüz?*

- İndi nəyin baş verəcəyini proqnozlaşdırmaq çətindir. Bu, təkcə bizdən asılı deyil. Çünki müharibəni bir ölkə aparmır. Bu, birtərəfli proses deyil. Lakin mən sizə regionu necə görmək istədiyimi deyə bilərəm. Mən Cənubi Qafqaz regionunun dərindən inteqrasiya olunmasını, digər Cənubi Qafqaz ölkəsi olan Gürcüstanla strateji münasibətlərimizin gələcəkdə müəyyən vaxtda Azərbaycan və Ermənistan arasında münasibətlər üçün müəyyən mənada örnək ola bildiyini görmək istəyirəm. Çünki bütün müharibələr dayanır və sülh gəlir. Biz bilirik necə...

*-Siz bu münaqişənin sülh yolu ilə nizamlanmasını mümkün hesab edirsiniz?*

- Bəli, əlbəttə ki.

*- Siz diplomatik cavabın tapılmasının mümkün olduğunu hesab edirsiniz?*

- Mən tamamilə əminəm. Lakin bu Ermənistan tərəfinin iradəsindən asılı olacaqdır. İkinci Dünya müharibəsindən sonra nə baş verdi. Almaniya və Amerika Birləşmiş Ştatları biri-birilərini öldürürdülər. Sovet İttifaqı və Almaniya bir-birilərini öldürürdülər. On milyonlarla insan öldürülmüşdür. Lakin indi baxın, bu, artıq yaddaşda deyil. Bu, düşmənçiliyə təhrik etmir. Nəyə görə ermənilər və azərbaycanlılar Gürcüstanda, Rusiyada, Ukraynada, bir çox digər ölkələrdə birlikdə yaşadığı kimi, Dağlıq Qarabağ regionunda birlikdə yaşaya bilməzlər?

*-Beləliklə, hər iki tərəfin hüquqlarını tanıyan sülh ola bilər?*

- Bəli. Elədir ki, var. Bu, məntiqli baza əsasında, Azərbaycanın ərazi bütövlüyü çərçivəsində və Azərbaycanın erməni əhalisinin hüquq və maraqlarının tam müdafiəsi ilə olmalıdır. Hesab edirəm ki, bunu etmək mümkündür.

*-Cənab Prezident, bu uzun müsahibəyə görə çox sağ olun. Əminəm ki, bu, nəinki təkcə məni, Amerika ictimaiyyətini də məlumatlandıracaq.*

## *Müdafiə Nazirliyinin Mərkəzi Komanda Məntəqəsində keçirilən operativ müşavirədə Ali Baş Komandan İlham Əliyevin nitqi*

Bir aya yaxındır ki, müharibə gedir. Bu müddət ərzində ölkəmiz döyüş meydanında böyük uğurlar əldə edib. Hər gün cəbhədən yaxşı xəbərlər gəlir. Gün ərzində müntəzəm olaraq mənə döyüş bölgələrində aparılan əməliyyatlar haqqında məlumat verilir və mənim tərəfimdən müvafiq göstərişlər verilir. Demək olar ki, hər saat müxtəlif bölgələrdə baş verən hadisələrlə bağlı məlumat daxil olur, həm Müdafiə Nazirliyi və digər qurumlar məni məlumatlandırırlar. Hər gün operativ müşavirələr keçirilir. Bir sözlə, vəziyyət tam nəzarət altındadır. İşğal olunmuş torpaqlarımızın bir hissəsi bu müddət ərzində işğalçılardan azad edilibdir, 100-dən çox yaşayış məntəqəsi - şəhərlər, kəndlər işğalçılardan azad edilibdir. Azad edilmiş şəhər və kəndlərimizdə artıq Azərbaycan bayrağı ucaldılıbdır. Bu şəhər və kəndlərimizin videogörüntüləri Azərbaycan ictimaiyyətinə təqdim edilir və hər kəs görə bilər ki, vəhşi düşmən bizim şəhər və kəndlərimizi nə günə qoyub. Bir dənə də salamat bina qalmayıb, bütün binalar, evlər, inzibati binalar, sosial obyektlər, tarixi-dini abidələrimiz mənfur düşmən tərəfindən dağıdılıb. İşğal edilmiş torpaqlar və dağıntılar erməni vandalizminin canlı şahidləridir. Ermənistan dövləti bu cinayətlərə görə məsuliyyət daşıyır və cavab verəcəkdir.

Mən tapşırıq vermişəm ki, işğaldan azad edilmiş bütün bölgələrdə təftiş işləri aparılsın, bütün dağıntılar qeydə alınsın, aktlar tərtib edilsin, bizim vətəndaşlarımızın dağıdılmış əmlakı uçota alınsın və əlbəttə ki, Ermənistan dövləti bu hərbi cinayətlərə görə cavab verəcəkdir. Bir daha bütün dünya gördü ki, biz hansı vəhşilərlə üz-üzəyik. Bu gün Azərbaycan əsgəri və zabiti döyüş meydanında düşmənə dərs verir, düşməni yerinə oturdur, düşməni torpaqlarımızdan qovur. Biz qan tökürük, şəhidlər veririk, hərbçilər, eyni zamanda, mülki şəxslər şəhid olur. Ermənistan döyüş meydanında bizim qarşımızda duruş gətirə bilmir və yenə də hər zaman olduğu kimi, öz çirkin əməllərini yaşayış məntəqələrimizi, mülki əhalinin yaşadıqları yerləri atəşə tutur. Bu namərd atəş nəticəsində 60-dan çox mülki şəxs həlak olub, 300-ə yaxın mülki şəxs yaralanıb. İki gün bundan əvvəl Milli Qəhrəman Şükür Həmidov qəhrəmancasına həlak olub. Şükür Həmidov 2016-cı ilin Aprel döyüşlərində qəhrəmanlıq göstərmişdir. Mənim tərəfimdən ona Milli Qəhrəman fəxri adı verilmişdir və Milli Qəhrəman ulduzunu şəxsən ona təqdim etmişdim.

Təklif edirəm ki, döyüşlərdə həlak olmuş bütün şəhidlərimizin xatirəsi bir dəqiqə sükutla yad edilsin. Allah rəhmət eləsin. Yaralı hərbçilərimizə və mülki şəxslərə Allahdan şəfa diləyirəm.

Bu günlər ərzində biz bir daha gördük ki, Ermənistan bu torpaqlardan öz xoşu ilə çıxmaq fikrində deyil. Bir daha gördük ki, Ermənistan bu 30 il ərzində, sadəcə olaraq, vaxt udmaq, danışıqlarda imitasiya aparmaq və status-kvonu əbədi etmək fikrində idi. Əfsuslar olsun ki, beynəlxalq vasitəçilər işğalçı dövlətə lazımi təzyiq göstərə bilməmişlər, yaxud da ki, bunu etmək istəməmişlər. Əks təqdirdə, BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsi kağız üzərində qalmazdı. Onu da bildirməliyəm ki, bir neçə gün bundan əvvəl həmsədr ölkələr tərəfindən BMT Təhlükəsizlik Şurasının iclası keçirilmişdir. İclasda bizi qane etməyən və 1993-cü ildə qəbul edilmiş qətnamələr üzərindən faktiki olaraq xətt çəkmək mənası daşıyan sənəd irəli sürülmüşdür. Biz buna qəti şəkildə etiraz etdik. Bu, ədalətsizliyin növbəti təzahürüdür, ikili standartların növbəti təzahürüdür. 1993-cü ildə qəbul edilmiş qətnamələr Azərbaycanın ərazi bütövlüyü haqqında açıq-aydın mövqe bildirir. 1993-cü ildə qəbul edilmiş qətnamələr tələb edir ki, erməni silahlı qüvvələri işğal edilmiş torpaqlardan tam, dərhal və qeyd-şərtsiz çıxarılsın. Bu günlərdə təqdim edilən layihədə bu müddəalar yoxdur. Bir sözlə, bu addım Azərbaycana qarşı növbəti təxribat kimi qiymətləndirilir. Biz öz səsimizi ucaltmışıq və şadam ki, Təhlükəsizlik Şurasına üzv ölkələrin bir neçəsi buna etiraz etmişdir. Baxmayaraq ki, onlara böyük dövlətlər tərəfindən təzyiqlər göstərilmişdir. Ancaq bu ölkələr Azərbaycanın hazırda sədrlik etdiyi Qoşulmama Hərəkatına üzv ölkələrdir. Azərbaycana onlar tərəfindən göstərilən dəstək əlbəttə ki, çox yüksək qiymətləndirilir və onu göstərir ki, Qoşulmama Hərəkatı çərçivəsində yüksək səviyyəli həmrəylik var. Bir sözlə, bu siyasi addım iflasa uğradı, heç bir sənəd qəbul edilmədi və hesab edirəm ki, bu, bizim növbəti siyasi qələbəmizdir. Necə ki, döyüş meydanında biz qələbə qazanırıq, siyasi müstəvidə də qələbə qazanırıq. Düşməni necə ki, döyüş meydanından qovuruq, düşmənin havadarlarının təxribat xarakterli addımlarına da lazımi cavab veririk. Azərbaycan tək deyil, beynəlxalq birlik tərəfindən ərazi bütövlüyümüz tanınır, biz beynəlxalq hüquq normaları çərçivəsində fəaliyyət göstəririk. Baxmayaraq ki, Ermənistan dəfələrlə bu müddət ərzində bizi təxribata çəkib, Ermənistan ərazisindən bizim hərbi mövqelərimizi atəşə tutub, yaşayış yerlərimizi atəşə tutub, Gəncə şəhərinə Ermənistan ərazisindən iki dəfə ballistik raketlərlə zərbə vurub, atəş açıb, bunun nəticəsində günahsız insanlar həlak olublar. Hər gün Tərtər, Ağdam və digər cəbhəboyu şəhərlərimizə və kəndlərimizə yüzlərlə, minlərlə mərmi atılır, amma beynəlxalq birlik buna səssiz qalır, vasitəçilər buna səssiz qalırlar. Bunların indi dərdi-azarı Ermənistanı bu vəziyyətdən çıxarmaqdır. Bunun bir yolu var - Ermənistan öz xoşu ilə bizim torpaqlarımızdan çıxmalıdır, rədd olmalıdır. Bunu beynəlxalq hüquq tələb edir. Ancaq onlara təsir göstərilmir, təzyiq göstərilmir, əksinə, bizə təsir və təzyiq cəhdləri müşahidə olunur. Əlbəttə ki, heç kim bizə təsir edə bilməz, bizim iradəmizə heç kim təsir edə bilməz. Sadəcə olaraq, bizim hərbçilərimiz və vətəndaşlarımız bilsinlər ki, həm cəbhədə, həm siyasi arenada çox ciddi mübarizə gedir, çox ciddi mübarizə gedir. Biz döyüş meydanında qan tökürük, bu qəhrəmanlarımızın canı-qanı bahasına

torpaqlarımızı işğalçılardan azad edirik, eyni zamanda, siyasi səhnədə də müqavimət göstəririk, mərdlik göstəririk, öz mövqeyimizi müdafiə edirik.

İki dəfə Ermənistanın xahişi ilə, böyük dövlətlərin təklifi ilə atəşkəs elan olunmuşdur. İki dəfə də Ermənistan bu atəşkəsi pozub. Birinci dəfə elə bir gün keçməmiş Gəncəni bombalamışdır. İkinci dəfə atəşkəsdən iki dəqiqə sonra atəşkəsi pozmuşdur. Belə olan halda, Azərbaycan əlbəttə ki, onlara layiqli cavabını verib və verəcək. Bundan sonra da düşməni torpaqlarımızdan qovacaq, sona qədər qovacaq.

Bizim bir şərtimiz var, əgər Ermənistanın təəssübkeşliyini çəkən, onlara havadarlıq edən və faktiki olaraq 30 ilə yaxın bizim torpaqlarımızın işğal altında qalması üçün ermənilərə, Ermənistana şərait yaradan ölkələr atəşkəs istəyirlərsə Ermənistana təzyiq göstərilməlidir. Ermənistanın baş naziri bəyanat verməlidir ki, Ermənistan işğal edilmiş torpaqlardan çıxacaq. Belə bir bəyanatı biz eşitməmişik. Əksinə, xalqların öz müqəddəratı haqqında danışır və faktiki olaraq danışıqlar prosesini məhv edibdir.

Atəşkəs qeyd-şərtsiz ola bilməz. Yenə 27 il, yenə 30 il bizim başımızı aldadacaqlar, yenə 30 il buraya nümayəndə heyətləri gələcək, danışıqlar aparılacaq. Biz boğaza yığılmışıq, Azərbaycan xalqının səbri tükənib. İyirmi səkkiz il bundan əvvəl Minsk qrupu yaradılıb. İyirmi səkkiz il bizi aldadırlar. İyirmi səkkiz il bizə söz veriblər, vəd veriblər ki, gözləyin, dayanın, Ermənistana təzyiq edəcəyik, belə edəcəyik, elə edəcəyik. Hamısı yalan idi. Hər kəs də bunu görür. Mən də xalqıma hər zaman həqiqətləri demişəm. Nə var onu da demişəm. Bu gün də nə var onu deyirəm. Bildirməliyəm ki, bu gün Ermənistan silahlanır. Hər gün Ermənistana ən müasir silahlar göndərilir. Bu silahların siyahısı bizdə var. Reyslərin bütün məlumatları bizdədir, nə vaxt, haradan, hansı şəhərdən uçub və Yerevana nə vaxt gəlib və içində nə var. İndiki döyüşlər zamanı 300-ə yaxın Ermənistan tankı ya məhv edilib, ya da hərbi qənimət kimi götürülüb. Haradandır bunlarda bu qədər pul? Kasıb bir ölkədir, nə pulu, nə imkanı var. Müftə alıbdır. Altı S-300 hava hücumuna qarşı zenit-raket kompleksi məhv edilibdir. Onların qiyməti bəllidir. Haradandır bu? “Tor”, “OSA” zenit-raket kompleksləri, pilotsuz uçuş aparatları, təyyarələr, hansılar ki, artıq Azərbaycan tərəfindən məhv edilib. “Toçka-U”, “SCUD”, haradandır? Pulsuz verilib və verilir. Biz də buna səssiz qala bilmərik. Hər kəs bunu bilsin. Biz təkbaşına vuruşuruq, təkbaşına!

Mən bunları deyirəm ki, ilk növbədə, Azərbaycan xalqı real vəziyyəti bilsin. Bilsin ki, biz torpaqlarımızı nəyin bahasına işğalçılardan azad edirik. Bilsin ki, əgər Ermənistana bu 27-28 il ərzində maliyyə, hərbi, siyasi yardım göstərilməsəydi, çoxdan torpaqlarımız işğalçılardan azad olunardı, özü də sülh yolu ilə. İndi baxın, erməni əsgərləri döyüş meydanından necə qaçır. Bütün bu görüntülər var. İndi bu görüntülərin bir hissəsi, sadəcə olaraq, mətbuatda öz əksini tapır. Amma bu, çox geniş bir videoməlumatdır. Əgər bu silahlar olmasaydı, bu siyasi dəstək olmasaydı, Ermənistan bizim torpaqlarımızı işğal altında saxlaya bilərdimi! Əlbəttə ki, yox. Mən demişəm, biz onları qovuruq və qovacağıq. Azərbaycanın qarşısında heç kim dura bilməz. Biz haqlıyıq, biz öz torpağımızda vuruşuruq, öz ərazi bütövlüyümüzü bərpa edirik, Ermənistan ərazisinə keçməmişik, belə fikrimiz yoxdur. Belə fikir olsaydı çoxdan bunu edərdik. Bunu etmək üçün o qədər böyük səy göstərmək də lazım deyil.

Biz döyüş meydanında uğurlar qazanmışıq. Ancaq, eyni zamanda, bu döyüşlər onu göstərdi ki, hələ qüsurlar da var, çatışmazlıqlar da var və biz onları operativ qaydada aradan qaldırırıq. Eyni zamanda, bu döyüşlərdən sonra, ikinci Qarabağ müharibəsi başa çatandan sonra döyüş zamanı əldə edilmiş bütün uğurlar və çatışmazlıqlar ciddi təhlil edilməlidir. Baxmayaraq ki, bu gün Azərbaycan Ordusu dünya miqyasında güclü ordular sırasındadır, biz bundan sonra ordu quruculuğu işində daha müasir metodlardan istifadə etməliyik.

Bu döyüşlər bizim üçün böyük təcrübədir. Biz gördük ki, hərbi arsenalımızda olan bəzi silahlar bəzi hallarda müasir döyüşlərdə o qədər də lazım olmur. Əksinə, biz bu gün yüksək texnoloji mərhələyə qədəm qoymuşuq və əlbəttə ki, texnologiyalar, peşəkarlıq böyük dərəcədə hər bir ordunun uğurunu təmin edir. Ancaq mən bunu demişəm və bir daha demək istəyirəm ki, torpaqları işğalçılardan azad edən əsgərlər və zabitlərdir. Bayrağı da onlar qaldırırlar, torpağı da onlar işğalçılardan təmizləyirlər. Ona görə növbəti günlərdə, - bu gün biz bu barədə danışacağıq, - bizim hərbi əməliyyatlarımız elə aparılmalıdır ki, onların səmərəsi daha da təsirli olsun, vaxt itirməyək. Bəzi hallarda yubanmalar var. Bəzi hallarda yubanmalara heç bir əsas gətirə bilmirlər. Biz bütün bunları təhlil edirik, təhlil edəcəyik. Yenə də deyirəm, Azərbaycan Ordusu böyük rəşadət göstərir, peşəkarlıq göstərir. Biz 1990-cı illərin əvvəllərində bir neçə il ərzində torpaqlarımızı itirmişik. Bu gün hələ bir ay keçməyib artıq Füzuli, Hadrut, Cəbrayıl, Zəngilan, Kəlbəcər, Qubadlı rayonlarının bir hissəsi işğalçılardan azad edilib. Yenə də deyirəm, hər gün cəbhədən yaxşı xəbərlər gəlir. Düzdür, bəzi istiqamətlərdə ciddi düzəlişlərə ehtiyac var, amma biz bütövlükdə qarşımızda duran hədəfə çatırıq. Hər gün növbəti gün üçün döyüş tapşırığı verilir. Mən bu döyüş tapşırığını təsdiqləyirəm və demək olar ki, bu tapşırığın böyük hissəsi icra edilir.

Mən əminəm ki, Azərbaycan öz ərazi bütövlüyünü bərpa edəcək. Biz öz torpağımızda vuruşuruq. Haqq-ədalət bizim tərəfimizdədir, beynəlxalq hüquq bizim tərəfimizdədir, tarixi ədalət bizim tərəfimizdədir. Biz ərazi bütövlüyümüzü bərpa etməliyik, işğalçıları öz torpaqlarımızdan qovmalıyıq, ölkəmizin suverenliyini təmin etməliyik. Əminəm ki, biz buna nail olacağıq. Amma buna nail olmaq üçün əlbəttə ki, hər bir vəzifəli şəxsdən böyük məsuliyyət tələb olunur, cəsarət tələb olunur və nizam-intizam tələb olunur.

Mən bu günlər ərzində müntəzəm olaraq Azərbaycan xalqına müraciət edirəm, öz fikirlərimi bildirirəm, uğurlar haqqında məlumat verirəm. Bu gün də Azərbaycan xalqını əmin etmək istəyirəm ki, bundan sonra

da biz haqq yolumuzdan dönməyəcəyik! Heç bir qüvvə bizim iradəmizə təsir edə bilməz. Düşməni sona qədər qovacağıq, ərazi bütövlüyümüzü bərpa edəcəyik!

## *Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin İtaliyanın Rai-1 televiziya kanalına müsahibəsi*

*- Hər vaxtınız xeyir, cənab Prezident. Xahiş edirəm deyin, yeni sülh barışığı, bu yeni atəşkəs qüvvədə olacaqmı? Səhv etmirəmsə, bu, artıq üçüncü atəşkəsdir.*

- Hər şey Ermənistanın özünü necə aparacağından asılı olacaq. Ona görə ki, ilk iki atəşkəs məhz Ermənistan tərəfindən pozulub. Humanitar mülahizələrə əsaslanan birinci atəşkəsdən sonra 24 saat ərzində Ermənistan atəşkəsi pozdu. Özü də vəhşicəsinə, gecə vaxtı Gəncə şəhərinə ballistik raket atmaqla. Birinci atəşlər nəticəsində 10 nəfər həlak oldu, xeyli insan yaralandı. Sonra onlar daha bir dəfə, yenə gecə vaxtı Gəncəyə zərbə endirdilər. Bu dəfə qurbanların sayı daha çox oldu. Ona görə də biz cavab verməyə məcbur idik.

İkinci atəşkəsə gəldikdə isə bizdə atəşkəsin Ermənistan tərəfindən pozulmasının xronologiyası var. Onlar təyin edilmiş atəşkəs saatından düz 2 dəqiqə sonra atəşkəsi pozdular. Bu gün saat 08.00-dan yeni atəşkəs qüvvəyə minib. İndi Bakıda səhər saat 10.00-dır. Saat 8-dən təxminən 3-4 dəqiqə sonra Tərtər şəhərinə yenidən bir neçə mərmi atılıb. Biz buna cavab vermirik. Ümid edirik ki, bu, təsadüfən olub. Lakin əgər bu, davam etsə, təbii ki, biz adekvat cavab verməyə məcbur olacağıq.

*-Cənab Prezident, sentyabrın axırlarında Sizin hərbi əməliyyatlara başlamağınıza, əslində, nə səbəb olmuşdu? Nə üçün belə oldu?*

-Bu, siyasi və hərbi xarakterli hadisələrin gedişi ilə bağlıdır. Əsas səbəb ondan ibarətdir ki, Ermənistan danışıqlar prosesini hər vasitə ilə pozmaq istəyirdi. Ermənistanın yeni hökuməti dəfələrlə bəyan etmişdi ki, baza prinsipləri ondan ötrü qəbuledilməzdir, o, işğal edilmiş ərazilərin bircə qarışını belə qaytarmağa hazırlaşmır. Bu isə baza prinsiplərinə ziddir. Baş nazir bəyan edirdi ki, Azərbaycan danışıqları Ermənistan ilə deyil, qondarma "Dağlıq Qarabağın" rəhbərləri ilə aparmalıdır. Bu, həm bizim üçün, həm də ATƏT-in Minsk qrupu üçün qəbuledilməz idi. Baş nazir, həmçinin bəyan edirdi ki, "Qarabağ Ermənistandır və nöqtə". Bununla da o, danışıqlar prosesini tamamilə pozmuş oldu. Son bir ildə praktiki olaraq, danışıqlar aparılmayıb və Ermənistan bunun təqsirini bizim üzərimizə yıxmaq üçün üç dəfə təxribat cəhdi göstərdi - iyul ayında sərhəddə, avqust ayında təxribat qrupu göndərildi və sentyabr ayında bizim dinc şəhərlər atəşə tutuldu. Onlar yəqin düşünürdülər ki, biz bu dəfə də təmkin göstərəcəyik, lakin belə olmadı. Biz onlara elə cavab verdik ki, indi onlar təəssüflənirlər.

*- Elə isə Siz öz hərbi əməliyyatlarınızı hansı şərtlər daxilində dayandırmağa razı olacaqsınız? Siz dəfələrlə demisiniz ki, Ermənistan tərəfindən konstruktiv yanaşma zəruridir. Konstruktiv yanaşma necə olmalıdır?*

- Konstruktiv yanaşma ondan ibarət olmalıdır ki, onlar baş nazirin şəxsində açıq bəyan etməlidirlər ki, baza prinsiplərini qəbul edirlər. Baza prinsipləri isə keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin ətrafında yerləşən yeddi rayonun Azərbaycana qaytarılmasını və azərbaycanlı məcburi köçkünlərin Dağlıq Qarabağ ərazisinə, o cümlədən Azərbaycanın qədim Şuşa şəhərinə qayıtmalarını nəzərdə tutur. Prinsip etibarilə bu yanaşmalar BMT Təhlükəsizlik Şurasının dörd qətnaməsinə əsaslanır, həmin qətnamələr də praktiki olaraq, bunu tələb edir. Lakin Ermənistanın baş naziri deyəndə ki, onlar bircə qarış belə torpağı bizə verməyəcəklər, Ermənistanın müdafiə naziri bəyan edəndə ki, Ermənistan yeni ərazilər uğrunda yeni müharibəyə başlayacaq və bizə qarşı təcavüz həyata keçiriləndə, bu, əlbəttə, konstruktiv yanaşma deyil. O deməlidir ki, bəli, işğal edilmiş ərazilər Azərbaycana qaytarılacaq, bəli, azərbaycanlılar Dağlıq Qarabağa, o cümlədən Şuşaya qayıdacaqlar, bax, onda biz çox tezliklə razılığa gələrik.

*- Cənab Prezident, bir məsələ çox mübahisəlidir. Bəzi ölkələr, təkcə Ermənistan deyil, o cümlədən Fransa da Sizi və Türkiyəni Suriyadan minlərlə muzdlunun Türkiyədən keçməklə Qarabağa göndərilməsində ittiham edirlər. Siz bu cür ittihamlara necə cavab verərsiniz, Azərbaycan ərazisində türkiyəli döyüşçülərin və Türkiyəyə məxsus hərbi təyyarələrin olması barədə ittihamlara Siz necə cavab verərsiniz?*

- Mən bu suala bir neçə dəfə cavab vermişəm, bir də cavab verərəm. Əvvələn, bizə bu cür əsassız ittihamları cəmi iki ölkə təqdim edib – Fransa və Rusiya. Fransa Prezidentin şəxsində, Rusiya isə Xarici Kəşfiyyat İdarəsinin rəhbərinin şəxsində. Hərbi əməliyyatlar başlanandan dərhal sonra bizə bu cür ittihamlar təqdim edilib. Lakin artıq bir aya yaxın vaxt keçib, bizə heç bir dəlil, heç bir sübut təqdim edilməyib. Üstəlik, ilk dəfədir deyirəm, mən Fransa tərəfə müraciət etmişəm ki, müvafiq xidmətlərin müvafiq rəhbərləri görüşsünlər, söhbət etsinlər və bizə sübutlar təqdim etsinlər. Bizə heç nə təqdim edilməyib. Ona görə bütün bunlar insunasiyadır. Bütün bunlar Azərbaycana qara yaxmaq cəhdidir. Mən təəssüflənirəm ki, bu cür əsassız ittihamlar həmsədr ölkələrdən daxil olur. Onlar obyektiv olmalıdırlar. Axı, biz Rusiyadan Ermənistana nə qədər silah göndərilməsi barədə hər gün danışmırıq. Axı, biz demirik ki, bu gün kənardan kömək olmasa Ermənistan işğal edilmiş ərazilərdə bircə gün də dayana bilməzdi. Həm siyasi dəstək, həm hərbi, həm də mənəvi dəstək, özü də bunlar bitərəfliyə riayət etməli olan ölkələr tərəfindən gəlir. Buna görə biz bu insunasiyaları qətiyyətlə rədd edirik, buna ehtiyac yoxdur. Bizim nizami ordunun 100 min döyüşçüsü var. Zərurət yaranarsa, biz ümumi səfərbərlik elan edərik. Yeri gəlmişkən, Ermənistandan fərqli olaraq, biz bunu elan etməmişik. Ona görə bütün bunlar yalan və böhtandır. Əməliyyatlarda Türkiyə

qoşunlarının iştirakına gəldikdə isə bu da yalandır. Heç bir sübut yoxdur. Türkiyənin F-16 təyyarəsinin Azərbaycan ərazisində olması onun nəticəsi olub ki, münaqişə ərəfəsində bizdə birgə hərbi təlimlər keçirilib. Axı, biz demirik ki, Ermənistan ərazisində Rusiyanın neçə MiQ-29, Su-30 təyyarəsi var. Axı, biz demirik ki, Ermənistanda, Gümrüdəki bazada Rusiyanın 5 minlik qoşunu var və bizdə olan məlumata görə oradan vaxtaşırı olaraq Ermənistan silahlı qüvvələrinə təchizat göndərilir və bizim barəmizdə deyilənlərdən fərqli olaraq, bunlar faktdır. Ona görə də bizi ittiham etmək istəyənlərə təklif edirəm ki, yalan informasiyaya əsaslanan bu cür tez-tələsik nəticələr çıxarmazdan əvvəl özlərinə baxsınlar.

*- Cənab Prezident, sonuncu sual bu və ya digər dərəcədə bizim ölkəyə - İtaliyaya da aiddir. Siz yəqin bilirsiniz ki, Avropada ərazi mübahisələrinin və ya regional separatizmin dinc yolla nizamlanmasına dair çoxlu uğurlu nümunələr var. Belə nümunələrdən biri bizdə - İtaliyadadır. Bu, Alto-Adice (Zyudtirol) regionudur. Sizə elə gəlmirmi ki, İtaliya Qarabağın statusunun həll edilməsi üçün öz təcrübəsi ilə konkret kömək edə bilərdi. Xüsusən ona görə ki, İtaliya həm Sizinlə, həm də Ermənistanla çox səmimi, sıx, güclü siyasi, mədəni əlaqələrə malikdir.*

- Bəli, mən hesab edirəm ki, İtaliya münaqişənin nizamlanması işində çox mühüm rol oynaya bilər. Qeyd etməliyəm ki, Minsk qrupu yaradılan vaxt, çoxdan, təqribən 30 il bundan əvvəl bu Minsk qrupunun rəhbəri məhz İtaliya nümayəndəsi, italiyalı diplomat idi. Bu, həmsədrlər təsisatı yaradılandan əvvəl idi. Həmsədrlər təsisatı yaradılandan sonra Minsk qrupu, əslində, ölkələr qrupu kimi heç bir fəaliyyət göstərməyib, çünki həmsədrlər bu fəaliyyəti özlərinin inhisarına götürüblər. Bunun nəyə gətirib çıxardığını görürük. 28 il ərzində heç bir irəliləyiş olmayıb, heç bir nəticə yoxdur, yalnız vədlər, yalnız bürokratik prosedurlar var və bu gün bizə belə gəlir ki, əslində, həmsədrlərin fəaliyyəti münaqişənin həllinə deyil, onun dondurulmasına yönəlmişdi. İtaliyada mövcud olan modelə gəldikdə isə biz onu öyrənmişik. Biz Aland adaları modelini, muxtar qurumların digər uğurlu təcrübələrini də öyrənmişik. Ermənistandan fərqli olaraq, Azərbaycan çoxmillətli dövlətdir. Yəqin siz bilirsiniz, Ermənistanda əhalinin 99 faizi ermənilərdir. Buna görə çox müsbət olan bu özünüidarə təcrübəsi bizim halda da tətbiq edilə bilərdi. Yeri gəlmişkən, mənim bildiyimə görə 1990-cı illərin ortalarında bu cür təkliflər olub. Hətta qeyri-hökumət təşkilatlarının nümayəndələrindən, politoloqlardan ibarət qruplar sizin ölkəyə də, haqqında danışdığınız regiona da, Aland adalarına da səfər edirdilər. Lakin Ermənistan bunu həmişə qəti surətdə rədd edirdi. Onlar hesab edirdilər ki, dünyanın aparıcı ölkələrinin hərbi, siyasi, iqtisadi dəstəyinə güvənərək bizim əraziləri əbədi işğal edə biləcəklər, lakin onlar kobud səhv edirdilər. Bu gün biz özümüzün haqlı olmağımızı döyüş meydanında sübut edirik. Biz BMT Təhlükəsizlik Şurasının qətnamələrini həyata keçiririk və beynəlxalq hüququ bərpa edirik.

*- Cənab Prezident, ən sonuncu sual: bir ildən sonra biz bu münaqişədə hansı səviyyədə olacağıq? Münaqişənin həlli olacaqmı? Yoxsa bu, münaqişənin həlli olacaq?*

- Bilirsiniz, bu bir ay ərzində mən, demək olar ki, hər gün xarici kütləvi informasiya vasitələrinin nümayəndələri ilə ünsiyyətdə oluram və Azərbaycan xalqına öz müraciətlərimdə bizim mövqeyimizi həmişə dəqiq şərh edirəm. Biz Qarabağ regionunun, – təkcə Dağlıq Qarabağın deyil, həm də Aran Qarabağın, çünki Qarabağ Azərbaycanın böyük bir hissəsidir, - gələcəyini həm oraya qayıtmalı olan azərbaycanlıların, həm də hazırda orada yaşayan ermənilərin dinc yanaşı yaşayacaqları firavanlaşan, dinc bir ərazi kimi görürük. Bizim mövqeyimiz bundan ibarətdir. Hesab edirəm ki, tərəflərin qarşılıqlı xoş məramı olsa buna nail olmaq mümkündür. Ona görə ki, axı, bu gün Bakıda və Azərbaycanın digər şəhərlərində minlərlə erməni yaşayır. Həm Rusiyada, həm də Gürcüstanda azərbaycanlılar və ermənilər biznesə malikdirlər, qarışıq ailələr var. Buna görə də düşünürəm ki, barışıq mümkündür, sadəcə, Ermənistan rəhbərliyi işğalçı siyasətdən imtina etməlidir. Əgər belə olsa biz öz investisiyalarımızla və ölkənin yenidən qurulması üzrə təcrübəmizlə bu regionu dünyanın ən firavan regionlarından birinə çevirə bilərik. Lakin bundan ötrü müharibənin nəticələri aradan qaldırılmalıdır. İşğal aradan qaldırılmalıdır, azərbaycanlılar əsrlərboyu yaşadıqları torpaqlara qayıtmalı və erməni əhali ilə qonşuluqda, razılıq şəraitində yaşamalıdırlar. Bu, asan olmayacaq, buna vaxt lazım gələcək. Lakin Avropa ölkələrinin vuruşduğu İkinci Dünya müharibəsindən sonra ölkələrin necə barışdığını bilirik – bugünkü qonşular o vaxt çox insanı qətlə yetiriblər. Lakin bu, daim yaddaşda yer tutmamalı, nifrət doğurmamalıdır. Erməni ideoloqları bu gün bununla məşğuldurlar. Xoş məram göstərilməlidir. Əgər belə olsa, mənim dediyim olacaq. Əgər olmasa, biz hər bir halda bu torpaqları qaytaracağıq. Döyüş meydanında bugünkü vəziyyət də bunu göstərdi. Biz onları nəyin bahasına olsa, qaytaracağıq. Ya dinc yolla, ya da müharibə yolu ilə, lakin qaytaracağıq. Buna görə düşünürəm ki, Ermənistan rəhbərliyi bu barədə ciddi düşünməli və düzgün addım atmalıdır.

*- Cənab Prezident, çox sağ olun və italyanlar demişkən, bono fortuno.*

- Siz də sağ olun. Təşəkkür edirəm.

*- Xudahafiz.*

- Xudahafiz.

## *Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Almaniyanın ARD televiziya kanalına müsahibəsi*

*- Sentyabrın 27-də müharibə başladı. Sizin, "kim birinci atəş açdı" sualına cavabınız nədir?*

- Cavab, Ermənistandır və bizim sübutlarımız var. Çünki mülki şəxslər və hərbçilər arasında ilk qurbanlar azərbaycanlılar idi. Bu, bizə qarşı ardıcıl surətdə üçüncü hərbi təxribat idi. Birinci, iyul ayında törədildi. O zaman onlar Ermənistan-Azərbaycan sərhədinə hücum etdilər. Bizim mülki şəxslər və hərbi qulluqçular arasında itkilərimiz olmuşdur. İkinci cəhd avqust ayında baş vermişdir. Ermənistan diversiya qrupu göndərmişdir, onun başçısı tərəfimizdən saxlanılmışdır və o, ifadə vermişdir ki, mülki şəxslərə hücum etmək üçün göndərilmişdir. Üçüncü dəfə sentyabrın 27-də onlar təmas xəttinə yaxın yerləşən bəzi şəhər və kəndləri ağır artilleriya bombardmanına tutdular. Biz cavab verdik və bu, belə başlamışdır.

*- Siz çox tutarlı və sərt cavab verdiniz. Nə üçün bu dəfə belə etdiniz? Bu, İsrail və Türkiyə dronlarına görə Azərbaycan Ordusunun üstün qüvvəyə malik olduğu üçün baş verdi?*

- İsrail dronları bizdə artıq uzun illərdir ki, var. Yeri gəlmişkən, onların bəziləri Ermənistanın işğal olunmuş bəzi torpaqlarımızın işğaldan azad edilməsi zamanı başladığı təxribata qarşı 2016-cı ildə istifadə olunmuşdur. Lakin o toqquşma Ermənistan dayandığına görə bir neçə gün davam etdi. Onlar bu dəfə də dayansaydılar, biz də dayanardıq. Lakin onlar dayanmadılar. Onlar bizə böyük ziyan vurmaq istəyirdilər. Onlar təmas xəttindən çox uzaqda yerləşən şəhərlərə raket atmağa başladılar və bizim mülki şəxslər arasında çoxlu qurbanlarımız var - bu vaxtadək 69 nəfər. Odur ki, biz özümüzü, xalqımızı müdafiə etməli və cavab verməli idik. Bizim cavabımız sərt idi, amma onlar buna layiq idilər.

*- Başa düşdüyümə görə Siz xüsusilə cənubda müəyyən torpaqları azad etmisiniz, lakin, eyni zamanda, Dağlıq Qarabağa yaxın, şimalda da. Bu müharibə nə qədər davam edəcək?*

- Bu, Ermənistandan asılıdır. Mən bunu dəfələrlə demişəm. Biz bu gün dayanmağa hazırıq. Yeri gəlmişkən, bizim üç dəfə atəşkəsə razı olmağımız faktı hərbi toqquşmaları dayandırmaq və bu məsələni danışıqlar masasında, siyasi yolla həll etmək iradəmizi nümayiş etdirir. Lakin Ermənistan üç dəfə atəşkəsi kobud şəkildə pozmuşdur.

*- Onlar da eyni sözləri deyirlər.*

- Bəli, əlbəttə ki, onlar deyirlər. Lakin baxın, görün nələr baş verib. Oktyabrın 10-da humanitar atəşkəs elan olunmuşdu. Növbəti gün onlar Ermənistan ərazisindən Gəncəyə ballistik raket atdılar. Yəqin ki, siz bunun səbəb olduğu dağıntıları görmüsünüz və 10 mülki şəxs öldürülmüşdür. Onlar deyirlər ki, bunu onlar etməyiblər. Lakin bu, açıq-aydındır, çünki ballistik raketlərin buraxılışı peyk vasitəsilə müşahidə edilir. Beləliklə, Minsk qrupunun üç həmsədr ölkəsi, əlbəttə ki, bunu kimin etdiyini bilirlər. İkinci dəfə onlar eyni şeyi etdilər. Onlar atəşkəs elan olunduqdan 2 dəqiqə sonra onu pozdular. Üçüncü dəfə isə onlar dünən Bərdəyə kasetli raket atanda bunu etdilər. Dörd nəfər öldürülmüşdür, onların arasında yeddi yaşlı bir qız var. Beləliklə, bunu onlar ediblər. Bunu bizim etdiyimizə dair heç bir sübut yoxdur. Bizim etdiyimiz bunun əksidir. Mən demişdim ki, biz eyni qaydada cavab verməyəcəyik. Biz onlara döyüş meydanında cavab verəcəyik. Biz şəhərlərə, mülki şəxslərə hücum etmirik, yalnız döyüş meydanında cavab veririk. Əlbəttə, biz özümüzü müdafiə etməliyik. Əgər onlar hücum edirlərsə, əgər onlar itirdikləri mövqeləri geri almaq istəyirlərsə, biz sakit dura bilmərik. Biz özümüzü müdafiə etməliyik. Biz nə qədər çox müdafiə olunuruqsa, daha çox əraziləri azad edirik.

*- Bu, eyni ilə onların iddia etdiyi məsələlərdir. Onlar iddia edirlər ki, Siz kasetli raketlərdən istifadə edirsiniz. Hətta Sizin orada və Dağlıq Qarabağda kasetli raketlərdən istifadə etdiyinizə dair "Amnesty International" və "Human Rights Watch" təşkilatlarından bəzi dəlillər var idi. Nəyə görə Siz bu növ silahlardan istifadə edirsiniz?*

- Biz onlardan istifadə etmirik. Biz özümüzü müdafiə edirik. Biz "Amnesty International" və "Human Rights Watch" təşkilatlarını Azərbaycana dəvət etmişik. Əfsuslar olsun ki, onlar hadisələri yalnız Ermənistan tərəfindən işıqlandırırlar. Onlar bura gəlmək üçün bizə müraciət etməyiblər. Ona görə bizdə onların qərəzliliyi ilə bağlı böyük şübhələr var.

*- Lakin mənim indi bildiyimə görə onlar gəlirlər. "Human Rights Watch" təşkilatı gəlir, mənə deyiblər.*

- Onlar bizim "Nəyə görə buraya gəlmirsiniz?" dediyimizə görə gəlirlər. Biz onlara "xahiş edirik, buraya gəlin" müraciətini etdikdən sonra onlar gəlməyə razılıq verdilər. Lakin onlar birinci növbədə niyə gəlmədilər?

*- Onlar mənə gəlmək istədiklərini deyiblər. Bir neçə dəfə müraciət ediblər, lakin Siz onlara girişə icazə verməyibsiniz.*

- Xeyr. Bu, mümkün deyil. Çünki biz elə dünən onların nəyə görə gəlmədiklərini, qoyun, gəlsinlər Gəncəyə, Tərtərə getsinlər demişik. Ermənilərin hücum etdiyi insanlarla görüşsünlər. Yenə də ballistik mərminin buraxılışı peykdən görünür. Heç kim deyə bilməz ki, biz Dağlıq Qarabağda və ya Ermənistanda mülki şəxslərin yaşadığı istənilən yerə ballistik raket atmışıq.

*- Gəlin, yenə Sizdən kasetli silahlarla bağlı soruşum. Çünki Sizin də bildiyiniz kimi bu, çox ciddi mövzudur. Mən "Human Rights Watch" təşkilatının araşdırmasına baxdım və sübut ondan ibarət idi ki, çox maraqlıdır, onların şəkilləri var idi, onlarda hətta silahın adı da var idi. Onların dediyinə görə, onun adı İsrail istehsalı olan LAR 160 kasetli bomba idi. Bu faktları həqiqətən də mübahisə predmetinə çevirirsiniz?*

- Bəli, əlbəttə ki. Bununla bağlı heç bir sübut yoxdur. Mən istərdim ki, onlar buraya gəlsinlər və o dəlilləri təqdim etsinlər. Eyni zamanda, Gəncəyə,

Tərtərə, Bərdəyə getsinlər və ermənilərin hansı növ silahlardan istifadə etdiklərini görsünlər. Qərəzsiz olsunlar...

*- Onlar burada silah tapsalar, Siz onların araşdırmasına güvənərsiniz?*

- Onlar bunu etməlidirlər. Çünki onların "yox" demək imkanı yoxdur. Qoyun, onlar desinlər. Çünki bu vaxtadək "Human Rights Watch" və "Amnesty International" təşkilatları Azərbaycana qarşı çox aqressiv idi. Onlar heç vaxt Ermənistanda insan haqlarının pozulması ilə bağlı heç bir şərh verməyiblər. Ermənistan həbsxanasında jurnalist öləndə onlar sakit idilər. Ermənistanın əsas müxalifət partiyasının rəhbəri həbs edildikdə onlar səssiz idilər. Sabiq prezidentlərin məhkəmə işi gedəndə onlar səssiz idilər. Onlar görmək istəmirlər. Çünki onların təşkilatlarında erməni əsilli insanlar var və bu təşkilatlardan əsasən Azərbaycanın imicinə xələl gətirmək üçün istifadə olunur. Lakin buna baxmayaraq, biz onları dəvət etdik, qoyun, onlar gəlsinlər və gördüklərini desinlər.

*- Əslində, Siz heç vaxt BMT-nin kasetli silahları haqqında konvensiyasını imzalamayıbsınız. Nəyə görə, bu, Sizin üçün problemdir? Əslində, Siz ondan istifadə edə bilərdiniz.*

- Ermənistan onu imzalayıb?

*- Xeyr, lakin biz indi Ermənistandan deyil, Azərbaycandan danışırıq.*

- Biz münaqişə haqqında danışırıq. Bizim hansısa konvensiyanı imzalamağımız və ya imzalamamağımız faktı bizim o silahdan istifadə etməyimiz və ya etməməyimiz anlamına gəlmir. Bizim kifayət qədər silah-sursatımız var. Bizim müasir silahlarımız var və biz onları döyüş meydanında nümayiş etdiririk. Bizim etdiklərimiz budur, biz əraziləri bombalarla azad etmirik, biz əraziləri, kəndləri, şəhərləri bir-birinin ardınca işğaldan azad edən və Azərbaycan bayrağını ucaldan döyüşçülərimizlə azad edirik. Bu, belə edilir.

*- Bu mövzuya gəlmişkən, yeddi rayonun hamısını azad etmək, bundan sonra danışıqları aparmaq və Dağlıq Qarabağın muxtariyyət zonası ilə bağlı bir razılığa gəlmək məqsəd deyilmi?*

- Biz bunu təklif etdik. Lakin ermənilər bunu həmişə rədd ediblər. Minsk qrupunun həmsədrləri mənim dediklərimi təsdiqləyə bilərlər. Biz həmişə təklif edirdik, biz həmişə sülh planına, belə adlandırılan əsas prinsiplərə sadiq idik. Bu prinsiplər Azərbaycanın işğal edilmiş ərazilərinin mərhələlərlə boşaldılmasını nəzərdə tuturdu. Birinci mərhələdə beş rayon, ikinci mərhələdə iki rayon. Lakin indi bu beş rayonun demək olar ki, hamısı işğaldan azad edilib. Buna görə Ermənistan həmişə buna qarşı olub. Səmimi söyləsək, əraziləri azad etdikdən sonra döyüş meydanında gördüklərimiz, orada qurulmuş istehkam qurğuları, - onlar bəlkə də bu qurğulara yüz milyonlarla dollar xərcləyiblər, - göstərir ki, onlar bu ərazilərdən çıxmağı planlaşdırmayıblar. Çünki əgər ərazilərdən çıxmağı planlaşdırsaydılar, bu qədər çox sərmayə yatırmazdılar. Müasir avadanlıq, müasir silahlar, müasir istehkam texnologiyası ilə təchiz olunmuş bir neçə müdafiə səddi var idi. Buna görə danışıqlar masasında onların bütün davranışı vasitəçiləri və bizi aldatmaq cəhdindən ibarət idi. Onlar danışıqları sonsuz edirdilər və vaxt qazanmaq istəyirdilər, onlar 27 il ərzində buna nail ola bildilər. Buna görə, biz əsas prinsiplərə sadiqik. Yeddi rayon bizə qaytarılmalıdır. Ermənilər heç vaxt bu rayonlarda yaşamayıblar. Üstəgəl, Dağlıq Qarabağdan qovulmuş azərbaycanlılar, - müharibədən əvvəl Dağlıq Qarabağda Azərbaycan əsilli 40 min insan var idi, - oraya qayıtmalıdır və plan belə icra olunmalıdır.

*- Azərbaycanın heç bir təsiri olmadan muxtar rayon?*

- Bu, müzakirələrin bir hissəsi idi. Lakin biz bununla bağlı yekun razılığa gəlmədik.

*- Lakin Siz buna razılaşardınız?*

- Biz bunu indi müzakirə etməliyik. Çünki indi ortada yeni reallıq var. Biz həmişə eşitmişik ki...

*- Siz orada - muxtar regionda hansı təsirə malik olmaq istəyirsiniz? Bu, özü-özlüyündə ziddiyyət təşkil edir.*

- Xeyr. Əvvəla, biz heç bir muxtar rayon razılığına gəlməmişik. Bu, birincisi. Biz bu razılığa gəlməmişik. Biz bunu təklif edəndə ermənilər bunu rədd edirdilər. Onlar bizim razı olmadığımız müstəqillik tələb edirdilər. İndi ortalıqdakı reallıqlar dəyişib. Biz dəfələrlə eşitmişik ki, reallıqlar var və siz onları nəzərə almalısınız. Yaxşı. Biz dəyişdik reallıqları. İndi onlar bunları nəzərə almalıdır və bu, 27 il ərzində bizim onlara təklif etdiklərimiz ola bilsin, artıq öz qüvvəsini itirib. Ona görə indi biz müzakirələr aparmalıyıq və yeri gəlmişkən, Ermənistan hazır olduğu təqdirdə biz danışıqların yeni mərhələsinə başlamaq və danışıqlar masasında Dağlıq Qarabağın gələcəyini müzakirə etmək üçün Xarici İşlər nazirimizi sabah Cenevrəyə göndərməyə hazırıq. Lakin bunun üçün Ermənistan dayanmalıdır. Onlar bu aylar ərzində həmişə bizim azad etdiyimiz əraziləri geri almaq istəyiblər və bu da onların məğlubiyyətinin əsas səbəbidir.

*- Biz orada, bu ərazidə olduqda bizdə bir sual ortaya çıxdı. Nəyə görə Qarabağ Azərbaycan üçün belə önəmlidir? Orada resurslar var, yoxsa bu, bir rəmzi məna daşıyır?*

- Elzas və Lataringe sizin üçün önəmlidir? Bavariya sizin üçün önəmlidir? Yaxud Reyn-Vestfaliya? Bu, bizim torpaqdır, beynəlxalq səviyyədə tanınan bizim ərazimizdir. Bu, resurslar məsələsi deyil. Əsas resurslar burada, Bakıdadır. Bu, ədalət məsələsidir, bu, milli qürur məsələsidir və bu, beynəlxalq hüquq məsələsidir. Beynəlxalq hüquq və bütün beynəlxalq ictimaiyyət Dağlıq Qarabağı Azərbaycanın ayrılmaz hissəsi kimi tanıyır. Biz ədaləti bərpa edirik və biz BMT Təhlükəsizlik Şurasının 27 il ərzində kağız üzərində qalan qətnamələrini icra edirik.

*– Siz qəbul edirsiniz ki, bu regionda insanların əksəriyyəti dünya üzrə əksər tarixçilərin dediyi kimi, ermənilər olub?*

– Tarixə gəlincə, sizə deyə bilərəm ki, ermənilər bu regiona XIX əsrin əvvəlində Qarabağ xanlığı ilə Rusiya imperiyası arasında sülh sazişindən, - onu İbrahim Xəlil

xan və rus generalı Sisianov imzalamışlar - sonra köçürülüb və ya gətirilib.

*– Onlar orada əsrlərboyu yaşamırlar?*

– Xeyr, xeyr. Onlar Dağlıq Qarabağa 1805-ci, 1813-cü, 1828-ci illərdə imzalanmış Kürəkçay, Gülüstan və Türkmənçay sülh sazişlərindən sonra köçürülməyə başlayıblar. İnternetdə görə bilərsiniz. Bu sazişlərdə ermənilər qeyd olunmur. Ermənilər sonradan Çar Rusiyası tərəfindən Şərqi Anadolu və İrandan regionun etnik və dini tərkibini dəyişdirmək məqsədilə gətiriliblər.

*– Belə çıxır ki, tarixçilərin, Qafqaz regionu üzrə ekspertlərin əksəriyyəti səhv edirlər?*

– Bəli, əlbəttə. Çünki sənədlərə baxın. Tarixçilər, hansı tarixçilər? Müxtəlif tarixçilər var və bəzən tarix siyasi üstünlüklərlə motivasiya olunur. Lakin həmin sənədlərə baxın, internetdə var və siz görə bilərsiniz. Əgər siz erməni əhali ilə bağlı hər hansı qeyd tapsanız, deyərsiniz ki, mən səhv edirəm. Beləliklə, bu, belə olub. Lakin digər məsələ ondan ibarətdir ki, bəli, onlar 200 il ərzində orada yaşayıblar və "Qarabağ" sözü Azərbaycan sözüdür, erməni sözü deyil. Siz bilirsiniz onlar Dağlıq Qarabağın qondarma paytaxtını necə adlandırırlar? Stepanakert. Bilirsiniz kimin şərəfinə adlandırılıb? Stepan Şaumyanın. Erməni əsilli rus bolşeviki Stepan Şaumyan 1918-ci ildə azərbaycanlılara qarşı soyqırımı törətmiş cinayətkar dəstənin rəhbəri idi. Əgər bu, qədim Ermənistan ərazisi idisə, niyə Qarabağ adlandırılır? Niyə paytaxt şəhər hansısa qədim adla deyil, Stepanakert adlanır? Çünki onlar orada 200 il yaşayıblar. 1978-ci ildə orada yaşayan ermənilər Dağlıq Qarabağa gəlişlərinin 150 illiyi münasibətilə abidə ucaltdılar. Bu, tarixdir. Lakin bir daha deyirəm, onlar 200 il boyunca yaşayıblar və biz onların yaşamağını istəyirik. Mən dəfələrlə demişəm ki, biz azərbaycanlıların geri qayıtmağını və ermənilərin 200 il boyunca tarixən yaşadıqları ərazidə yaşamağını istəyirik, nəyin bahasına olursa-olsun.

*– Buna baxmayaraq, bu insanlar Sizin hərbi əməliyyatlara, dedikləri kimi etnik təmizləməyə məruz qalırlar?*

– Xeyr, əsla. Biz etnik təmizləməyə məruz qalmışıq. Onlar Dağlıq Qarabağı və 7 ətraf rayonu işğal edəndə, bu 7 rayonda, o cümlədən Dağlıq Qarabağın bir hissəsi olan Şuşada 750 min azərbaycanlı etnik təmizləməyə məruz qaldı. Etnik təmizləməyə məruz qalan biz olmuşuq. Biz ermənilərə qarşı etnik təmizləmə aparmamışıq və bunu indi də etməyi planlaşdırmırıq. Çünki mən demişəm ki, biz birlikdə yaşamalıyıq. Bu, asan olmayacaq. Lakin biz öyrənməliyik.

*– Lakin indi orada, son bir neçə həftədə mülki şəxslər qətlə yetirilib?*

– Azərbaycanın da mülki şəxsləri qətlə yetirilib – 69 nəfər.

*– Orada da.*

– Bəli. Çünki bu, müharibədir. Lakin 69 mülki şəxs münaqişə zonasından uzaqda olan Gəncədə və digər ərazilərdə qətlə yetirilib, 300-dən çox mülki şəxs yaralanıb. Bu, müharibədir. Əfsuslar olsun ki, bu, olur.

*– Mən 5 il İsraildə yaşamışam. Yaxşı bilirəm ki, İsrail dronları çox dəqiqdir. Demək istəyirəm, mənim anladığım qədəri ilə bu, dron vasitəsilə edilməyib?*

– Xeyr.

*- Necə olub ki, Dağlıq Qarabağda kilsəyə zərbə endirilib.*

– Artıq qeyd etdiyim kimi, bu, ehtimal ki, bizim artilleriyanın səhvi olub və ya, ikinci variant o ola bilər ki, ermənilər bizi günahlandırmaq üçün bunu özləri ediblər.

*- Xristianlar öz kilsələrinə atəş açıblar?*

– Lakin bu, kiçik ziyan idi. Dağılmayıb. Siz oranın şəkillərini görmüsünüz? Kiçik ziyandır. Kilsə dağılmayıb. O, maksimum iki həftəyə təmir edilə bilər. Ona görə də, bizdə şübhə var ki, bu, bizi günahlandırmaq üçün onların özləri tərəfindən törədilmiş ola bilər. Bakıdakı erməni kilsəsinə baxın. Biz onu qoruyub saxlayırıq. Biz onu bərpa etmişik.

*- Belə bir şeyi uydurmaq üçün müsəlmanların məscidi dağıtmasını təsəvvürünüzə gətirə bilərsiniz?*

– Mən bilmirəm. Ola bilsin. Ola bilsin ki, bu, baş versin, niyə də yox. Burada, Bakıdakı erməni kilsəsi bizim tərəfimizdən qorunub saxlanıb. Biz onu dağıtmamışıq. Biz onu qoruyuruq. Biz orada minlərlə erməni kitabı saxlayırıq. Onlar isə işğaldan azad edilmiş Zəngilanda məsciddə donuz saxlayırdılar. Fərq bundadır.

*– Mən bildiyimə görə, oktyabrın 1-də Azərbaycanda bir nəfər sülh tələb etdiyinə görə həbs olunub. Bəzi insan haqları ekspertləri, müdafiəçiləri deyirlər ki, Siz bu müharibəyə həm də xalqı ətrafınızda birləşdirmək, demokratiya və insan haqları ilə bağlı ölkədəki problemlərdən diqqəti yayındırmaq üçün başlamısınız.*

– Bu, tamamilə yanlış qiymətləndirmədir. Birincisi, mənim həbs olunan hər hansı şəxs barəsində məlumatım yoxdur. Əgər, adını deyə bilərsinizsə, əgər, sizdə adı varsa, mənə deyin. Sizdə adı var?

*– Hazırda məndə adı yoxdur, öyrənərəm.*

– Öyrənəndə mənə deyərsiniz. Beləliklə, biz bu sualı etibarsız hesab edə bilərik, çünki sizdə ad yoxdur və məndə də bu məlumat yoxdur. Diqqətin yayındırılmasına gəlincə, diqqəti yayındırmağa ehtiyac yoxdur. Bizim siyasi sistemimiz səmərəlidir. Bu toqquşmadan əvvəl, hətta bizdə parlament seçkiləri keçirilməzdən əvvəl, mən siyasi əməkdaşlığın bir növ yeni prosesinə start verdim. Biz praktiki əməkdaşlığa başlamaq, düşmənçiliyə son qoymaq və ən azı bir-birimizlə danışmağa başlamaq üçün bütün siyasi partiyalara açıq müraciət etdik və iki partiyadan başqa bütün digər partiyalar, onların 50-si bunu dəstəklədi. Biz müasir, yeni siyasi prosesə başladıq. Hazırda parlamentimizdə çox sayda müxalifət üzvü var. Siyasi proses çox səmərəlidir.

*– Azərbaycanda bir çox müxalifət üzvləri də həbsdə deyilmi?*

– Xeyr, həbsdə olanlar törətdikləri cinayətlərə görə həbs ediliblər. Burada siyasi ittiham irəli sürülmüş heç kim yoxdur və müxalifət...

*– Nə cür cinayətlər? Öz fikirlərini ifadə etməklə bağlı?*

– Xeyr, müxtəlif cinayətlər. Hər hansı digər cinayət kimi. Mən dəqiq hansı olduğunu bilmirəm, amma bu, sadəcə olaraq, adi cinayətlərdir. Beləliklə, bizim bu cür səbəbimiz yoxdur. İkincisi, pandemiya dövründə bizim iqtisadi göstəricilərimiz ən yaxşılardan biridir. İqtisadiyyatımız cəmi 3,9 faiz azalıb. Bu, bəzi Avropa ölkələrində olduğundan xeyli aşağıdır. Azərbaycanda yoxsulluq səviyyəsi 5 faizdir, xeyli aşağı. İşsizlik səviyyəsi 7 faizdir, xeyli aşağı. Bizim konvertasiya oluna bilən valyuta ehtiyatlarımız xarici borcumuzdan 6 dəfə çoxdur. Bizdə daxili problemlər yoxdur, niyə mən buna başlamalıyam.

*– Siz Azərbaycanı demokratiya nümunəsi adlandırardınız?*

– Xeyr, heç vaxt. Siz öz ölkənizi demokratiya nümunəsi adlandırarsınız?

*– Müəyyən mənada, bəli.*

– Lakin siz müxalifətin nümayişlərinə qadağa qoyursunuz.

*– Xeyr, belə deyil.*

– Bəli, bəli. Nümayiş keçirmək istəyən ekstremist - adını unutmuşam. Siz onlara qadağa qoydunuz.

*– Mən bu barədə bilmirəm. Demək istəyirəm ki, hətta koronavirus dövründə də etirazlar keçirirdilər.*

– Xeyr, koronavirus dövründən əvvəl idi. Biz nümunə deyilik və özümüzü bu cür göstərmirik. Lakin özlərini sanki belə göstərən ölkələr var, amma onlar etirazçıları qətlə yetirirlər. Siz "sarı jiletlilərin" etirazlarında neçə nəfərin qətlə yetirildiyini bilirsinizmi? Bilirsiniz, 10-dan çox adam qətlə yetirilib.

*– Amma biz Fransa barədə danışmırıq.*

- Xeyr, gəlin, Avropa barədə danışaq.

*– Azərbaycan barədə...*

– Xeyr, gəlin özlərini guya demokratmış kimi aparanlardan danışaq. Biz özümüzü elə aparmırıq. Bəli, bizim çatışmazlıqlarımız var.

*– Mən cənab Makrondan bu barədə soruşaram.*

– Lakin etirazçılar qətlə yetirilirlər, küçədə etirazçıları qətlə yetirirlər – 10 nəfər qətlə yetirilmişdi. Biz sizin Avropada etirazçıları necə döydüyünüzə baxırıq, siz onları atlarla döyürsünüz, itləri gətirirsiniz və bu, demokratiya hesab olunur.

*– Hazırda gəldiyim ölkə - Türkiyə bu hərbi əməliyyatlarda, bu müharibədə Sizin üçün nə dərəcədə əhəmiyyət kəsb edir? Burada türk əsgərləri var idi. Dünən biz onlardan bəziləri ilə söhbət etdik. Onlar Türkiyədən olduqlarını dedilər.*

– Siz əsgərlərlə danışmısınız?

*– Bəli.*

– Döyüş meydanında?

*– Xeyr, döyüş meydanında yox.*

– Bəs harada?

*– Bakı şəhərində.*

– Onlar burada, Bakıda döyüşürlər?

*– Xeyr, xeyr. Bununla belə, onlar buradadırlar.*

– İndi burada alman əsgərləri də ola bilər.

*– Siz birgə hərbi təlimlər keçirirsiniz...*

– Bəli, bəli, keçiririk.

*– Əgər, bu münaqişəyə üçüncü ölkə cəlb olunsa, Siz Türkiyədən kömək gözləyərsiniz?*

– Biz hər hansı üçüncü ölkənin cəlb olunmasını istəmirik. Hansısa ölkənin cəlb oluna biləcəyini biz görmürük. Çünki bizi əhatə edən ölkələr bizim tərəfdaşlarımız və dostlarımızdır. Biz bilirik ki, ermənilər onların bəzilərini bu döyüşə cəlb etmək istəyirlər, lakin, əminəm, bu, baş verməyəcək. Bu, bizimlə Ermənistan arasında olan döyüşdür və hər kəs ondan uzaqda durmalıdır. Türk əsgərlər burada ola bilər, bəli. Ötən il biz 10 birgə hərbi təlim keçirmişik. Lakin bizim başqa ölkələrlə də çoxlu təlimlərimiz olur. Biz NATO-nun Sülh Naminə Tərəfdaşlıq Proqramının bir hissəsiyik. Burada qəribə heç nə yoxdur. Siz onları Bakıda görmüsünüz, onları döyüşdə görməmisiniz.

*– Türkiyəyə məxsus F-16-lar burada - Azərbaycanda olduğuna görə özünüzü daha təhlükəsiz hiss edirsiniz?*

– Türkiyənin F-16-ları bura təlimlə bağlı gəlib və ermənilər bizə qarşı hücuma keçdiklərinə görə burada qalıblar. Onlar həmrəylik əlaməti olaraq buradadır. Onlar heç bir döyüşdə iştirak etmir. Onların burada iştirakı planlaşdırılmır.

*– Atəşkəs 3 dəfə pozulub. Onlardan biri Fransa, biri Rusiya, biri isə ABŞ-la danışıqlar nəticəsində elan edilmişdi. Bu müharibəni hansı beynəlxalq güc dayandıra bilər?*

– Düşünürəm ki, bunu Ermənistan dayandırmalıdır. Beynəlxalq güc – sizin qeyd etdiyiniz bu üç ölkə Minsk qrupunun həmsədrləridir. Onlar dünyanın aparıcı ölkələri, BMT Təhlükəsizlik Şurasının üzvləridir, daimi üzvləri. Bu ölkələr Ermənistan qoşunlarının çıxarılmasını tələb edən 4 qətnamə qəbul edib. Lakin bu ölkələr bu qətnamələrin icrası üçün heç nə etməyiblər. Bu qətnamələr kağız üzərində qalıb. Bu, onu göstərir ki, bu vasitəçilik səmərəli olmayıb. Lakin, eyni zamanda, biz daha güclü ola biləcək bəzi başqa ölkələr barədə düşünməyə bilmərik. Ona görə də, müharibəni dayandırmağın yeganə yolu ondan ibarətdir ki, Ermənistan dayansın, öz məğlubiyyətini qəbul etsin, bizim qələbəmizi qəbul etsin və sonra ərazilərin bir hissəsini boşaltmaq barədə öhdəlik götürsün. Biz istənilən halda onları azad edəcəyik. Biz əks-hücuma başlayanda onlar inanmırdılar. Biz dedik – biz azad edəcəyik, bunu indi dayandırın. Onlar hətta biz Füzulini geri qaytarandan sonra da dayana bilərdilər. Dayanmadılar.

*– Sizdə elə bir hiss varmı ki, onlar bu münaqişədə həqiqətən də maraqlı deyillər?*

– Siz kimi nəzərdə tutursunuz?

*– Məsələn, həmin üç ölkə.*

– Xeyr, məndə belə bir hiss yoxdur. Çünki əgər onlar maraqlı olmasaydılar, vasitəçi olmazdılar. Onların ATƏT-dən mandatı var.

*– Lakin vasitəçilik uğurlu olmadı?*

– Bəli, uğurlu olmadı, çünki onlar Ermənistana sanksiya tətbiq etmədilər. Mən bu məsələni dəfələrlə qaldırmışam. Ermənistana qarşı sanksiya tətbiq olunmalı idi, necə ki, Səddam Hüseyn Küveyti işğal edəndə İraqa qarşı sanksiyalar tətbiq edilmişdi, dərhal. İraqa qarşı ciddi sanksiyalar var idi. Əgər eyni şey Ermənistana edilsəydi, onda onlar qüvvələri geri çəkərdilər.

*– Deməli, onlar göz yumdular?*

– Bəli, onlar göz yumdular. Mən deyərdim ki, göz yummadılar, onlar hər zaman deyirdilər ki, hərbi həll yoxdur. Onlar bu vəziyyətin bu və ya digər dərəcədə eyni qaydada davam etməsini istəyirdilər. Düşünürəm ki, münaqişənin dondurulmuş kimi görünməsi onları qane edirdi. Onlar düşünürdülər ki, bu, həmişəlik dondurula bilər və onlar yalnız bəzi etimad yaratma tədbirləri, bəzi monitorinqlər barədə düşünməyə çalışırdılar ki, heç bir toqquşma olmasın. Amma onlar ATƏT-in qərarına uyğun olaraq öz mandatlarını icra etmədilər. Onlar Ermənistanı məcbur etməli idilər. Düşünürəm, bu ölkələrin hər biri Ermənistana birtərəfli qaydada elə bir mesaj verə bilər ki, o, ona qulaq asmalı olar. Lakin onlar etmədilər.

*– Siz onlara qulaq asırsınız?*

– Mən hər bir tərəfdaşa qulaq asıram. Lakin bu, mənim qulaq asdıqdan sonra nə etməyimdən asılıdır. Lakin mən qulaq asıram.

*– İki gün əvvəl radioda Sizin Ermənistanın bu müharibəni aparmaq üçün pulu haradan aldığını soruşduğunuzu eşitdim. Cavab nədir?*

– Heç bir cavab yoxdur. Mən bir aydır bu sualı verirəm. Biz ilkin hesablama aparmışıq.

*– Mənə elə gəlir ki, bu sualı davamlı olaraq verən şəxsdə müəyyən mənada bir cavab olmalıdır.*

– Cavabım olsaydı, soruşmazdım. Hələ də soruşuramsa, o deməkdir ki, cavab almamışam. Biz məhv etdiklərimiz barədə minimum ilkin hesablama aparmışıq, yeri gəlmişkən, mən bizim məhv etdiklərimizin hamısını açıqlamamışam. Bu, olacaq. Bizim məhv etdiyimiz və qənimət kimi götürdüyümüz sursatın dəyəri 2,7 milyard dollardır. Bu pul haradan gəlir? Ermənistan kasıb ölkədir. Onun büdcəsi 2 milyard dollardan azdır. Onun xarici borcu 8 milyard dollardır.

*– Onları Rusiya dəstəkləyir.*

– Bu, sizin fikrinizdir?

*– Bu, rəsmidir. Sirr deyil. Başqa kimsə var?*

– Bəlkə də, mən bilmirəm. Beləliklə, mən soruşuram, amma heç bir cavab verilmir. Ona görə də, soruşmağa davam edəcəyəm.

*– Zati-aliləri, cənab Prezident, müsahibəyə görə çox sağ olun.*

– Təşəkkür edirəm.

## *Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin İspaniyanın EFE informasiya agentliyinə müsahibəsi*

*– Sabahınız xeyir, cənab Prezident. Bizimlə söhbət etmək, bizə müsahibə vermək üçün vaxt ayırdığınıza görə təşəkkür edirik.*

– Bu imkana görə təşəkkür edirəm.

*- Hazırda Dağlıq Qarabağdakı müharibənin altıncı həftəsi başlayır. Cəbhədə hazırda vəziyyət necədir?*

– Cəbhədəki vəziyyət Azərbaycan Ordusunun üstünlüyünü göstərir. Biz bir-birinin ardınca kəndləri, şəhərləri azad edirik. Döyüş meydanındakı bu müddət ərzində Azərbaycan, demək olar ki, 30 il işğal altında olan ərazisinin böyük hissəsini azad edib. Azərbaycan Ordusunun uğurlu hücum əməliyyatı davam edir. Bu, bir daha onu göstərir ki, biz güclü ölkəyik və öz torpağımızda döyüşürük. Biz Azərbaycanın beynəlxalq səviyyədə tanınan ərazisini, Azərbaycanın ərazi bütövlüyünü bərpa edirik. Yeri gəlmişkən, biz BMT Təhlükəsizlik Şurasının Ermənistan qoşunlarının bizim ərazilərimizdən çıxarılmasını tələb edən, lakin Ermənistan tərəfindən demək olar ki, 30 il ərzində əməl olunmayan qətnamələrini icra edirik.

*– Siz işğal olunmuş 7 rayonun - 5 üstəgəl 2 azad edilməsini istəyirsiniz. Siz onlardan artıq neçəsini azad etmisiniz?*

– Faktiki olaraq, işğal olunmuş rayonlardan 5-dən 4-ü artıq ya tamamilə, ya da qismən azad edilib. Bu gün biz işğal altında olan digər rayonların işğaldan azad edilməsinin aktiv mərhələsindəyik. Qeyd etdiyim kimi, biz BMT Təhlükəsizlik Şurasının qətnamələrini icra edirik və yeri gəlmişkən, biz artıq əsas prinsiplərin bir hissəsini yerinə yetirmişik. Çünki ATƏT-in Minsk qrupu tərəfindən təklif olunan həll üçün əsas prinsiplər faktiki olaraq Azərbaycanın işğal olunmuş ərazilərinin boşaldılmasını tələb edirdi. Əfsuslar olsun ki, Ermənistan könüllü şəkildə bunu etmək istəmirdi, ona görə də biz onları bunu etməyə məcbur etməli olduq.

*– Hər iki tərəf artıq 3 humanitar atəşkəslə bağlı razılığa gəlib. Lakin onlar heç bir neçə dəqiqə də belə çəkməyib. Nəyə görə müharibəni üç dəfə durdurmaq və danışıqlara başlamaq mümkün olmamışdır?*

– Düşünürəm, bu atəşkəslərin işləməməsinin səbəblərindən biri ondan ibarət idi ki, Ermənistan artıq bizim tərəfimizdən azad edilmiş əraziləri geri almağa cəhd göstərirdi. Başqa sözlə, onları yenidən işğal etmək istədilər. Ona görə də onlar sizin doğru olaraq qeyd etdiyiniz kimi, humanitar məqsədlərlə elan olunmuş bu atəşkəsdən resursları səfərbər etmək və yeni hücuma keçmək üçün istifadə etmək istədilər. Onlar bunu edə bilməyəndə, Ermənistan ərazisindən Azərbaycanın ikinci böyük şəhəri olan Gəncəyə ballistik raketlə hücum etdilər. Onlar bunu iki dəfə etdilər. Lakin birinci dəfə oktyabrın 10-da, atəşkəs elan olunandan dərhal sonra etdilər və bunun nəticəsində 10 mülki şəxs həlak oldu, onlarla adam yaralandı. Beləliklə, onlar birinci atəşkəsi kobud şəkildə pozdular. İkinci atəşkəs də elan olunan vaxtdan təxminən 5 dəqiqə sonra onlar tərəfindən pozuldu və üçüncü atəşkəsi onlar dinc şəhər olan Bərdəyə hücum etməklə pozdular. Orada 21 nəfər mülki şəxs qətlə yetirildi, 70 nəfər yaralandı. Beləliklə, hər 3 dəfə bu, Ermənistanın bizə qarşı məqsədli şəkildə təcavüzkar hücumu idi və biz cavab verməli və özümüzü müdafiə etməli olduq.

*– Siz dediniz ki, Ermənistan qoşunlarının çıxarılması ilə bağlı konkret təqvim istəyirsiniz. Ermənistan dedi ki, kompromisə hazırdır, ancaq təslim olmağa, həmin əraziləri təslim etməyə yox. Siz də kompromisə hazırsınız? Bu kompromis necə olacaq?*

– İlk növbədə, bizim mövqeyimiz demək olar ki, bu 40 gün ərzində artıq dəfələrlə bəyan edilib. Mən dəfələrlə demişəm ki, bizim vəzifəmiz Azərbaycanın ərazi bütövlüyünü bərpa etmək, bir milyon azərbaycanlı qaçqın və məcburi köçkünü öz doğma torpaqlarına, onların əsrlərboyu yaşadıqları ərazilərə geri qaytarmaq və bundan sonra həmin ərazidə Azərbaycan əhalisi və erməni icması arasında sülh şəraitində birgəyaşayışı təmin etməkdir. Bizim mövqeyimiz sağlam düşüncəyə, humanitar zəminə əsaslanır və beynəlxalq ictimaiyyət tərəfindən dəstəklənir. Beləliklə, bu, çox açıq-aşkardır. Ermənistan kompromisdən danışanda konkret heç nə demir. Onlar yalnız öz müqəddəratını təyinetmədən danışırlar, amma öz müqəddəratını təyinetmə onlar tərəfdən kompromis deyil. Onlar öz mövqelərində daha dəqiq olmalıdırlar, çünki hazırda o, çox qeyri-müəyyəndir. Ona görə də biz Ermənistan qoşunlarının işğal olunmuş ərazilərdən çıxması üçün vaxt cədvəli tələb etdik və biz bunu toqquşmaların ilk günündən tələb etdik. Beləliklə, əgər Ermənistan bizə qulaq assaydı və məntiqlə davransaydı, bu gün biz hazırda qarşılaşdığımız vəziyyətdə olmazdıq. Müharibə bəlkə də bir ay əvvəl bitərdi. Ona görə də Ermənistan tərəfdən kompromis çox dəqiq olmalıdır. Hələ də işğal altında olan Ağdam rayonunun bir hissəsini, Kəlbəcər və Laçını boşaltmaq üçün vaxt cədvəli bizə təqdim edilməlidir, Ermənistanın baş naziri bunu şəxsən bəyan etməlidir. Lakin onlar nəinki bizə vaxt cədvəli vermirlər, onlar həmin əraziləri boşaldacaqlarını demirlər. Sentyabrın 27-dən bu yana bütün bu vaxt ərzində Ermənistanın hərbi-siyasi rəhbərliyi ərazilərin boşaldılacağı barədə heç vaxt heç nə deməyib. Belə olan halda, onlar 7 rayonun qaytarılmasını təmin etmək üçün bu prinsipləri işləyib hazırlamış Minsk qrupunun həmsədrlərinə faktiki olaraq hörmətsizlik nümayiş etdirirlər və faktiki olaraq daha çox eskalasiyaya gətirib çıxarırlar. Beləliklə, biz Ermənistanın baş nazirinin Kəlbəcər, Laçın və Ağdamın qalan hissəsini boşaldacaqlarını açıq şəkildə deməyini gözləyirik.

*– Əgər belə olmasa, Sizin üçün yalnız hərbi variant* mövcuddur?

– Başqa yol qalmır, bilirsiniz, başqa variant yoxdur. Biz hərbi əməliyyatları davam etdirmək istəmirik və mən dəfələrlə demişəm və bu gün də təkrar edə bilərəm, əgər Ermənistanın baş naziri şəxsən özü, bu qan tökülməsinə görə məsuliyyət daşıyan şəxs belə bir bəyanat versə, biz dərhal dayanmağa hazırıq, dərhal. Mən sözünə əməl edən insanam və biz bunu edərik. Lakin o, bunu demir. O, vaxt qazanmaq istəyir, daha çox hərbi yardım əldə etmək üçün atəşkəs istəyir, Azərbaycana qarşı yeni hücumlar etmək və bizim azad etdiyimiz əraziləri geri almaq üçün bu atəşkəsdən istifadə etmək istəyir. Onun niyyəti bundan ibarətdir.

*– Siz hazırda cənab Paşinyanla bir masa arxasında oturmağa hazırsınız, yoxsa bunun bir mənası yoxdur?*

– Xeyr, bunun qətiyyən heç bir mənası yoxdur. Son iki il ərzində mənim onunla çoxsaylı görüşlərim olub, lakin onların hamısı tamamilə səmərəsiz və mənasız olub, ilk görüşlər istisna olmaqla. O, mənə söz vermişdi ki, əgər Azərbaycan dırnaqarası "inqilab"dan sonra ona vaxt versə, o, yaxşı hazırlaşacaq, Ermənistanda siyasi cəhətdən öz mövqeyini gücləndirəcək və sonra əsas prinsipləri yerinə yetirmək üçün konstruktiv şəkildə işləməyə hazır olacaq. Bu, onun Ermənistanda rəhbərliyinin ilk aylarında mənə söylədikləri idi. Lakin bir ildən sonra o, tamamilə fərqli sözlər dedi. O dedi ki, Azərbaycana qaytarılası bir santimetr belə torpaq yoxdur. Dedi ki, "Qarabağ Ermənistandır". Dedi ki, Azərbaycan Dağlıq Qarabağdakı qondarma qurumun dırnaqarası "rəhbərliyi" ilə danışıqlar aparmalıdır. Beləliklə, o, danışıqlar prosesini pozmaq üçün hər şeyi etdi. Ona görə də hazırda mən onunla görüşməkdə bir məna görmürəm. Bu yaxınlarda bizim xarici işlər nazirlərimiz Cenevrədə görüşüblər və mən düşünürəm ki, hazırda bu, təmaslar üçün doğru formatdır.

*– Siz dediniz ki, demək olar 30 il ərzində Minsk qrupu işğal edilmiş ərazilərin qaytarılması üçün heç nə etməmişdir və ya bu istiqamətdə heç bir irəliləyişə nail olmamışdır. Hazırda ABŞ, Rusiya və Fransadan gözləntiniz nədir?*

– Bəli, siz haqlısınız. Mən demişəm ki, Minsk qrupu heç bir nəticə əldə etməyib. Lakin mən, eyni zamanda, demişəm ki, onların fəaliyyətinə tamamilə göz yuma və onları yalnız tənqid edə bilmərəm. Çünki hazırda masada olan əsas prinsiplər Minsk qrupunun köməyi ilə işlənib hazırlanmış prinsiplərdir. Beləliklə, onlar işlədilər, çalışdılar. Lakin onlar əraziləri boşaltması ilə bağlı Ermənistana təzyiq göstərmək üçün əllərində olan bütün alətlərdən istifadə etmədilər. Bu ölkələrdən hər birinin birtərəfli qaydada Ermənistana təsir etmək üçün kifayət qədər vasitələri var, istər hərbi dəstək olsun, istər siyasi dəstək, iqtisadi dəstək, diaspor dəstəyi və s. Lakin onlar əllərində olan bu alətlərdən istifadə etmədilər, onlar BMT Təhlükəsizlik Şurasının daimi üzvləri olaraq özlərinin qəbul etdikləri BMT Təhlükəsizlik Şurasının qətnamələrinin icrasında israr etmədilər. Ona görə də nəticənin olmaması faktı, əlbəttə ki, onların bacarmadığından çox istəmədiyini nümayiş etdirir. Əgər onlar bacarmadılarsa, kim bacarar? BMT Təhlükəsizlik Şurasının 3 daimi üzvü kiçik, yoxsullaşmış, asılı Ermənistana təsir edə bilmir? Onlar, sadəcə olaraq, istəmədilər. Onlar vəziyyətin sabit olmasını istəyirdilər, bu, doğrudur. Onlar sülh ssenarisini istəyirdilər. Lakin onlar görəndə ki, demək olar 30 ildir sülh ssenarisi yoxdur və Ermənistanın yeni hökuməti bəyanatlar və əməllərlə prosesi faktiki olaraq məhv edir, düşünürəm ki, onlar hərəkətə keçməli idilər. Mən dəfələrlə onların liderləri, yüksək rütbəli rəsmiləri ilə danışaraq çağırış etmişəm ki, Ermənistana təzyiq göstərin, sanksiya tətbiq edin. Əgər sanksiya tətbiq etmək istəmirsinizsə, ən azı bunu dilə gətirin, elan edin ki, sanksiyalar tətbiq olunacaq, əks halda, bu təcavüzkara təzyiq göstərmək üçün başqa heç bir mexanizm olmayacaq. Beləliklə, düşünürəm, bu gün onlar dərk ediblər ki, uzun illər "münaqişənin hərbi həlli yoxdur" deməklə səhv ediblər. Biz bu reallığı dəyişdik. Hərbi həll yolu var. Lakin bizim bu gün danışdığımız ondan ibarətdir ki, gəlin, hərbi həllin həmin səhifəsini bağlayaq və siyasi həllə keçək. Beləliklə, hərbi-siyasi həll üstünlük təşkil etməlidir. Əgər Ermənistanın baş naziri mənim artıq ondan tələb etdiyimi desə, biz bu gün

dayanmağa hazırıq. İndi sülh prosesi artıq qismən yerinə yetirilmiş əsas prinsiplərin qalan hissəsinin icrasına əsaslanmalıdır. Bizə Kəlbəcər, Laçın və Ağdamın bir hissəsinin boşaldılması ilə bağlı dəqiq vaxt cədvəli lazımdır. Bundan sonra düşünürəm ki, regiona sülh gələcək.

*– Mən Sizdən "Amnesty International"ın faktiki olaraq hər iki tərəfin kasetli bombalardan istifadə etməsinə dair bəyanatları ilə bağlı soruşmaq istəyirəm. Siz də, rəsmi İrəvan da qeyd edirsiniz ki, tərəflər mülki əhaliyə qarşı fosfor tərkibli sursatdan istifadə edir. Siz beynəlxalq konvensiyalarla qadağan edilən silahlardan istifadə edirsiniz?*

– Biz qadağan olunmuş silahlardan istifadə etmirik. Bizim ərazi bütövlüyümüzü bərpa etmək üçün kifayət qədər sursatımız var. Bu, birincisi. İkincisi, biz mülki şəxslərə hücum etmirik. Oktyabrın 10-dan sonra Dağlıq Qarabağdakı şəhərlərə hücum etmirik. Ondan əvvəl, bəli, bunu qəbul edirik. Lakin bu, ona görə oldu ki, Ermənistan ordusunun hərbi hissələrinin və infrastrukturunun çoxu Dağlıq Qarabağın dırnaqarası "paytaxtı" olan Xankəndidə cəmləşmişdi. Ona görə də biz bunu etməli idik. Biz təhlükəsizliyimizi təmin etmək və əməliyyatımızın daha səmərəli olması üçün həmin mühüm hərbi obyektləri vurmalı idik. Lakin humanitar atəşkəs elan olunandan sonra, - bunu dəfələrlə elan etmişik, - biz heç vaxt insanların yaşadığı heç bir şəhəri və ya kəndi vurmamışıq. Buna zidd olaraq ermənilər nə etdi. Onlar Ermənistan ərazisindən Gəncəyə ballistik raket atdılar və bu, sübuta yetirilib. Baxmayaraq ki, Ermənistanın baş naziri bunu onların etmədiyini dedi. Lakin bu, gülüncdür. Çünki ballistik raketin buraxılışı peyklər vasitəsilə müşahidə olunur. Hər kəs onun haradan buraxıldığını və onun hədəfinin nə olduğunu bilir. Gəncədə mülki şəxslərin yaşadığı əraziləri qəsdən iki dəfə vurdular. Onlar Bərdəyə çox dağıdıcı "Smerç" raketləri ilə iki dəfə zərbə endirdilər və yalnız bir hücum nəticəsində 21 insan öldürülmüş və 70 insan yaralanmışdır. Bir çox hücumlar olmuşdur. Onlar Tərtərdə dəfn mərasiminə zərbə vurdular, bu, tamamilə insan davranışının bütün normalarından kənar bir şeydir. İnsanlar dünyasını dəyişmiş şəxsi dəfn edəndə onlar qəbiristanlığı vurdular və dörd nəfər qətlə yetirildi. Onların kasetli bombalardan istifadə etmələri beynəlxalq media və QHT-lər tərəfindən təsdiq olunmuşdur. Əminəm ki, bu barədə ilk dəfə məlumat verən oranı ziyarət etmiş beynəlxalq media olmuşdur. "Amnesty International" və "Human Rights Watch" təşkilatlarının bu halları təsdiq etməkdən savayı başqa bir seçimi yox idi. Lakin sual orasındadır ki, nə üçün onlar birinci növbədə Azərbaycana gəlmədilər? Nə üçün onlar yalnız Ermənistan tərəfindən işləyirdilər? Yalnız beynəlxalq media, Qərb mediası ermənilərin istifadə etdiyi kasetli bombaları göstərdikdən sonra bu iki QHT bunu təsdiq etdi. Onların bunu təsdiq etməsi yaxşı haldır, lakin səmimi desəm, bunun açıq-aşkar olmasını nəzərə alaraq onların bu məsələni necə təsdiq etməməsini də təsəvvürümə gətirə bilmirəm.

*- Rusiya, Sergey Lavrov dünən dedi ki, Dağlıq Qarabağda təqribən iki min muzdlu döyüşür. Bununla bağlı nə deyərdiniz?*

-Mən bu ittihamlara, bu əsassız ittihamlara dəfələrlə cavab vermişəm. Səmimi desəm, təəssüflənirəm ki, bitərəf olmalı, onlara ATƏT tərəfindən verilmiş mandata əsasən hərəkət etməli olan ölkələrin yüksək səviyyəli rəsmiləri təsdiqini tapmamış bu əsassız dırnaqarası "informasiya"dan və şayiələrdən istifadə edirlər. Bu, birincisi. İkincisi, bizdə heç bir muzdlu yoxdur. Mən bu haqda dəfələrlə demişəm. Bizim onlara ehtiyacımız yoxdur. Bizim 100 min döyüşçüdən ibarət ordumuz var, biz tam səfərbərlik elan etsək, bundan bir neçə dəfə çox toplaya bilərik. Lakin biz Ermənistandan fərqli olaraq bunu etmirik. Bizim tərəfimizdə hər hansı bir əcnəbi döyüşçünün vuruşması ilə bağlı heç bir sübut yoxdur. Bu bir aydan çox müddət ərzində bizə heç bir sübut, heç bir sənəd, heç bir dəlil təqdim edilməmişdir. Yalnız bəyanatlar. Bəs, onda nə üçün onlar Ermənistan tərəfində baş verənləri, Ermənistan tərəfindən neçə muzdlunun döyüşdüyünü görmürlər? Nə üçün bizi ittiham etməyə çalışan nə Rusiya, nə də Fransa bunun haqqında heç nə deməyib? Bizdə artıq əcnəbi pasportları olan zərərsizləşdirilmiş insanların siyahısı var. Amerikalı, fransalı, kanadalı, livanlı, iraqlı, postsovet məkanı ölkələrindən, onlarla Gürcüstandandır. Bəli, onlar o ölkələrdə yaşayan ermənilərdir, lakin bu, heç bir fərq etmir. Əgər onlar başqa ölkələrin vətəndaşlarıdırsa, onların orada olması qanunsuz hesab edilir. Bu vaxtadək bu məsələ barədə heç nə deyilməmişdir, amma bizim sübutlarımız var. Bizim əlimizdə pasportlar var. Bizim sübutumuz var, video var. Bunun haqqında heç nə deyilməyib. Bu, bizim tərəfimizdən qəbul edilə bilməyən selektiv bir yanaşmadır, bu, vasitəçilərin mandatına uyğun deyil. Mən dəfələrlə demişəm, vasitəçilər bitərəf olmalıdırlar. Əgər onlar tərəf tuturlarsa, bu, onların işidir, lakin onda vasitəçilikdən çıxmalıdırlar. Hər bir ölkənin istənilən ölkəyə yaxşı və ya pis münasibəti ola bilər. Biz müəyyən səbəblər üzündən bəzi ölkələr tərəfindən ermənilərə qarşı xüsusi hisslərin olduğunu başa düşürük. Bunu öz ölkələrinin adından deyirlərsə, biz buna etiraz etmirik. Lakin əgər siz vasitəçisinizsə, xahiş edirəm, bitərəf olun və ittihamlardan uzaq durun. Əgər biz bizi muzdlularla bağlı ittiham edənləri dünyanın müxtəlif yerlərində nə etdikləri haqqında ittiham etməyə başlasaq, bu, çox uzun bir məsələ olacaq. Biz bunu etmirik. Buna görə biz tərəfdaşlarımızdan eynisini gözləyirik.

*-Türkiyənin Sizə nəinki siyasi, eyni zamanda, hərbi dəstək də göstərdiyini söyləyənlərə nə deyərdiniz?*

-Mən deyərdim ki, bu növbəti təxribat, növbəti feyk xəbərdir. Türkiyədən heç bir hərbi dəstək yoxdur. Biz Türkiyədən yalnız müasir hərbi avadanlıq alırıq. Bu, həqiqətdir. Bu, dünyada istənilən ordunun paxıllıq edə biləcəyi yeni müasir avadanlıqdır. Türkiyənin hərbi sənaye kompleksi, həqiqətən də, möcüzələr göstərir. Bu avadanlıq bizə döyüş meydanında çox kömək edir. Lakin biz onu alırıq, biz müqavilələr imzalayırıq, hər şey şəffafdır, hər şey qanunidir. Biz başqa ölkələrdən də silah alırıq. Nəyə görə heç kim bizim Rusiyadan nə qədər silah aldığımızdan danışmır? Yalnız Türkiyə. Çünki Türkiyə əfsuslar olsun ki, indi müxtəlif avropalı siyasətçilərin hücumuna məruz qalır. Türkiyəni qarala-

maq cəhdləri var. Türkiyəni şantaj etmək, ona təzyiq göstərmək cəhdləri var. Bu, tamamilə qəbuledilməzdir. Bizim əsas silahlarımız Rusiyadan gəlir. Biz başqa ölkələrdən də silah alırıq. Yalnız Türkiyənin adı hallanır. Bu, birincisi. İkincisi, Türkiyənin bizə hərbi dəstək göstərdiyini həmişə deməyə davam edənlər nəyə görə vasitəçi, Minsk qrupunun həmsədri olan Rusiyanın Ermənistana hərbi dəstək göstərdiyini demirlər? Bizim əlimizdə sübutlar var, bu 40 gün ərzində Ermənistanın hansı məbləğdə silahla təchiz edildiyi ilə bağlı məlumatı Rusiya rəsmilərinə təqdim etmişik. Niyə heç kim bu barədə danışmır? Gəlin, bunun haqqında danışaq, gəlin, ədalətli olaq. Buna görə birincisi, bu, səhv məlumatdır. İkincisi, biz Türkiyə hərbi avadanlığını alırıq və almağa davam edəcəyik. Üçüncüsü, bu məsələ ilə bağlı heç bir ikili standart olmamalıdır. Yeri gəlmişkən, Azərbaycana Türkiyə tərəfindən hərbi dəstək göstərildiyini deyənlər, hesab edirəm, bu absurd ittihamlardan çəkinməlidirlər.

*-Açıq-aydındır ki, Türkiyənin regionda marağı var, necə ki, Rusiyanın və İranın var. Ermənistan Rusiyaya öz təhlükəsizliyinin təmin olunmasının mümkünlüyü barədə müraciət etmişdir. Siz müharibənin beynəlmiləlləşdirilməsindən qorxursunuz?*

-Ermənistan lap əvvəldən elə bunu etmək istəyirdi və biz həmişə buna qarşı idik. Mən dəfələrlə bütün ölkələrə demişəm, bu münaqişədən uzaq durun. Bu, bizim məsələmizdir, bu, ərazi bütövlüyü uğrunda bizim döyüşümüzdür. Münaqişəni beynəlmiləlləşdirmək üçün heç bir cəhd olmamalıdır. Lakin Ermənistan bunun üçün hər şeyi etdi. Ermənistanın baş nazirinin Rusiya Prezidentinə göndərdiyi məktub təkcə onların öz məğlubiyyətini artıq qəbul etdiyini, bizim döyüş meydanında onlara qalib gəldiyimizi göstərmir, eyni zamanda, onu göstərir ki, onlar münaqişəni beynəlmiləlləşdirmək istəyirlər, onlar Rusiyanı birbaşa müharibədə iştiraka sürükləmək istəyirlər, bu da tamamilə qəbuledilməzdir. Mənim bildiyimə görə, bu, Rusiya tərəfindən rədd edilmişdir və Rusiyanın xarici işlər naziri bununla bağlı bəyanat vermişdir. Ola bilsin, bunu lap dəqiqliklə ifadə etmirəm, lakin belə bir mesaj var idi ki, döyüş Azərbaycanın ərazisində aparılır. Əgər Azərbaycan, əgər istənilən ölkə Ermənistana hücum etsə, onda Rusiya öhdəliyini yerinə yetirməlidir. Lakin döyüş bizim torpağımızda gedir. Hesab edirəm ki, bu cəhdlər tamamilə faydasızdır. Rusiyanın mövqeyi xarici işlər naziri tərəfindən ifadə olunmuşdur. İranın da mövqeyi ifadə edilmişdir. Yəqin siz ölkələrin ərazi bütövlüyünün təminatına dair İranın münaqişənin həll edilməsi ilə bağlı planını eşitmisiniz. Bu yaxınlarda İranın Ali Rəhbəri Ermənistanın Azərbaycanın beynəlxalq səviyyədə tanınan ərazilərini boşaltmalı olduğu ilə bağlı bəyanat vermişdir. Bu, iki qonşu ölkənin reaksiyasıdır. Türkiyənin mövqeyi yaxşı bəllidir. Türkiyə həmişə beynəlxalq hüququ və BMT Təhlükəsizlik Şurasının qətnamələrini dəstəkləyir. Həmçinin Gürcüstan da dəfələrlə Azərbaycanın ərazi bütövlüyünü dəstəkləmişdir. Bu, bizim qonşuların mövqeyidir. Ermənistan təcrid olunub. Onlar münaqişəni beynəlmiləlləşdirmək istəyirlər, onlar dəstək qazanmaq üçün bəzi feyk xəbərlərdən və tarixdən olan bəzi feyk məlumatlardan istifadə etmək istəyirlər. Lakin Ermənistan üçün ən yaxşı hərəkət öz məğlubiyyətini, bizim qələbəmizi qəbul etmək və yerdə qalan torpaqları boşaldacaqlarına dair üzərinə öhdəlik götürməkdən ibarətdir.

*-Əgər onlar Dağlıq Qarabağın müstəqilliyini tanıyarlarsa, Sizin buna reaksiyanız necə olardı?*

-Bilirsiniz, onlar müstəqilliyi tanımaq istəsəydilər, uzun müddət bundan öncə tanıyardılar. Nəyə görə əvvəl tanımadılar? Çünki onlar aydın başa düşürdülər ki, bu, çox məntiqsiz addım nəticəsində danışıqlar tamamilə dayanacaqdır. Odur ki, onlar bunu etsələr, danışılası bir şey qalmayacaq. Sonra nə sülh təşəbbüsü, nə əsas prinsiplər, nə də gələcək tənzimləmə, heç nə masa üzərində olmayacaq. Hesab edirəm ki, onlar bunu başa düşürlər. Onlar həmişə bundan bizi qorxutmaq üçün bir alət kimi istifadə etmək istəyirdilər və deyirdilər Azərbaycan bunu etsə, biz müstəqilliyi tanıyacağıq. Mən bu müharibə günlərində dəfələrlə demişəm və indi də deyirəm, Ermənistanın baş naziri, bu gün Dağlıq Qarabağı tanı, bunu et, cəsarətini göstər, sözünün bir məna daşıdığını göstər, bu gün Dağlıq Qarabağı tanı. Yenə də siz görəcəksiniz ki, onlar bunu etməyəcəklər. Çünki onlar qorxaqdırlar, onlar yalnız dinc vətəndaşlara qarşı vuruşa bilirlər və onlar gücümüzü, birliyimizi görüb qaçırlar.

*-Siz indi regionun muxtariyyətini qəbul etməyə hazırsınız?*

-Bu, əsas prinsiplər üzərində gələcək danışıqların bir hissəsi olmalıdır. Çünki əsas prinsiplərin birinci hissəsində işğal olunmuş ərazilərdən - 5 üstəgəl 2 rayondan vaxt cədvəlinə müvafiq olaraq qoşunların çıxarılması tələb olunurdu. Sonra təhlükəsizlik, sülhməramlı əməliyyatlar, Dağlıq Qarabağın statusu kimi əsas prinsiplərin başqa elementləri də var idi. Biz həmişə bunu müzakirə etməyə çox açıq idik. Biz dəfələrlə onlara müxtəlif yolları təklif etmişdik, lakin onlar bunları rədd etmişlər. Biz onlara Azərbaycan daxilində muxtariyyət təklif etdik, biz onlara mədəni muxtariyyət təklif etdik. Biz dedik ki, dünyada, Avropada, Skandinaviya, Alan Adaları timsalında, İtaliyada Cənubi Tirol timsalında və bir çox başqa yerlərdə yaxşı nümunələr var. Lakin onlar hər şeyi rədd etdilər. Onlar yalnız müstəqillik tələb edirdilər və istəyirdilər ki, biz bu müstəqilliyi tanıyaq. Bunu etməklə onlar, əslində, bizim bunu heç vaxt etməyəcəyimizi bilərək münaqişəni dondurmaq üçün hər şeyi edirdilər. Mən bilirəm, biz birincisi münaqişənin bu qaynar fazasını bitirməliyik, danışıqlar masasına qayıtmalıyıq, Ermənistan mənim artıq dediyim öhdəlikləri üzərinə götürməlidir və sonra biz gələcəkdə nə baş verəcək onun haqqında danışa bilərik. Bu məsələ ilə bağlı indi heç nə deyə bilmərəm.

*-Çox sağ olun, cənab Prezident. Mən bizə vaxt ayırdığınız üçün Sizə minnətdarlığımı bildirirəm.*

-Suallarınıza, Azərbaycana marağınıza görə çox sağ olun.

## *Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin “BBC News”a müsahibəsi*

*- Prezident Əliyev, BBC News-da bizimlə söhbət etmək üçün vaxt ayırdığınıza görə Sizə təşəkkür edirəm. Dağlıq Qarabağın və ətraf yeddi rayonun hər bir qarışı uğrunda savaşmaq niyyətindəsiniz?*

- Bizim mövqeyimiz lap əvvəldən çox aydın idi. Biz hazırıq və hələ də Ermənistan tərəfi işğal olunmuş ərazilərin boşaldılmasına dair üzərinə öhdəlik götürəcəyi təqdirdə istənilən vaxt dayanmağa hazırıq. Mən bunu müharibənin əvvəlindən deyirəm, əgər Ermənistanın baş naziri işğal olunmuş əraziləri boşaldacağına dair ictimaiyyət qarşısında üzərinə öhdəlik götürərsə, biz dayanarıq. Lakin bu vaxtadək artıq 40 gün keçib, onun bunu deməsinə dair heç bir əlamət yoxdur.

*- Bu, o deməkdir ki, Siz sona qədər döyüşəcəksiniz?*

- Ermənistan işğal olunmuş ərazilərdən qoşunların çıxarılması ilə bağlı üzərinə öhdəlik götürməsə biz sona qədər vuruşacağıq. Hesab edirəm ki, Ermənistan böyük bir səhv edir, çünki lap əvvəldən bizə qulaq assaydılar, müharibə uzun müddət bundan öncə dayanardı və biz artıq danışıqlar masası arxasında olardıq.

*- Lakin cənab Prezident, Siz bir ultimatum verirsiniz, Siz deyirsiniz ki, onlar bütün bu əraziləri qaytarmağa razılaşmalıdır və yalnız sonra danışıqlar ola bilər. Bu danışıqlar üçün böyük bir ilkin şərtdir.*

- Xeyr, heç də belə deyil. Çünki mənim dediyim əsas prinsiplərə əsaslanır və əsas prinsiplərdə Dağlıq Qarabağın ətrafındakı ərazilərin boşaldılması çox aydın qeyd olunub. Bu, Ermənistan üçün çox aydın mesajdır. Əfsuslar olsun ki, Ermənistan Minsk qrupunun həmsədrləri və əvvəlki Ermənistan rəhbərliyi tərəfindən işlənib hazırlanmış əsas prinsiplərlə razılaşmadı. Bu əsas prinsiplərdə deyilir ki, onlar birinci mərhələdə işğal olunmuş 5 rayonu boşaltmalıdırlar, ikinci mərhələdə isə 2 rayonu boşaltmalıdırlar. Lakin beş rayondan dördü artıq azad edilib. Əgər onlar bunu etsələr, Ağdamın bir hissəsini, Kəlbəcəri və Laçını nə vaxt boşaldacaqlarını açıq bəyan etsələr, biz dayanarıq.

*- Bu ərazilər bizim beynəlxalq auditoriya üçün tanış olmadığına görə aydınlaşdırmaq istəyirəm. Siz deyirsiniz ki, Ermənistan rəhbərliyi Dağlıq Qarabağdan kənardakı əraziləri boşaltmağa razılaşsa, Siz dayanarsınız və döyüşməzsiniz?*

- Elədir ki, var. Bu, mənim dəfələrlə vurğuladığım mövqedir. Eyni zamanda, bu, danışıqlar masasında olan bütün məsələlər deyil. Əlbəttə ki, bundan sonra biz azərbaycanlı məcburi köçkünlərin Dağlıq Qarabağa qayıtmaları üzərində işləyəcəyik. Çünki müharibədən əvvəl, 1990-cı illərdə Dağlıq Qarabağda 40 min azərbaycanlı yaşayırdı və bu da oradakı əhalinin 25 faizi idi. Ermənilər onların hamısını qovdular, etnik təmizləmə törətdilər və sonra “müstəqillik” elan etdilər.

*- Lakin Siz Dağlıq Qarabağ üzərində nəzarəti güc yolu ilə ələ keçirsəniz, Sizin də eynilə eyni şeyi törədəcəyinizlə bağlı qorxular var. Ermənistan öz insanlarının etnik təmizləməyə məruz qalacağından çox ciddi qorxduğunu ifadə etmişdir.*

- Bu, əsassız ittihamdır. Birincisi, əgər bu məsələ Ermənistanı həqiqətən də narahat edirsə, nəyə görə onlar əsas prinsiplərlə razılaşmırlar? Çünki əsas prinsiplər təsdiqlənsə və Ermənistan mənim onlardan dəfələrlə tələb etdiyim öhdəliyi üzərinə götürsə, onda hər şey dayanacaq.

*- Siz onlardan Dağlıq Qarabağı boşaltmalarını tələb etmirsiniz? Siz onlardan yalnız ətraf rayonları tələb edirsiniz?*

- Biz BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul olunmuş qətnamələrinin icra olunmasını tələb edirik. Bu qətnamələrdə Ermənistan qoşunlarının işğal edilmiş ərazilərdən dərhal, tam və qeyd-şərtsiz çıxarılması tələb olunur. Dağlıq Qarabağın erməni əhalisinə gəlincə, onlar orada yaşamağa davam edəcək, onlar bizim vətəndaşlarımızdır və mən dəfələrlə bu mövqeyi ifadə etmişəm.

*- Prezident Əliyev, ermənilərin orada Sizin vətəndaşlarınız kimi yaşayacaqlarını deyirsiniz. Siz bu yaxınlarda demisiniz və mən burada Sizdən sitat gətirirəm: “onlar çıxmasalar, biz onları iti qovan kimi qovacağıq”. Bu bəyanatla insanlar çətin ki, özlərini təhlükəsiz hiss etsinlər.*

- Xeyr. Xahiş edirəm, mənim bəyanatlarıma dəqiqliklə yanaşın. Mən bunu dedikdə bizim əraziləri işğal etməyə davam edənləri nəzərdə tuturdum. Mən Ermənistanın hərbi-siyasi rejimini nəzərdə tuturdum. Mən Dağlıq Qarabağın dırnaqarası “hökumətini”, bu cinayətkar xuntanı nəzərdə tuturdum, hansı ki, yeri gəlmişkən, artıq qaçıb gedib. Mənə məlumat verilib ki, Dağlıq Qarabağın dırnaqarası “rəhbəri” artıq Yerevandadır. Mən erməni xalqını yox, onları nəzərdə tuturdum.

*- Onda Siz Dağlıq Qarabağda erməni vətəndaşlara qarşı heç bir etnik təmizləmənin aparılmayacağına dair mütləq zəmanət verirsiniz?*

- Bəli. Biz ermənilər deyilik. Onlar bizə qarşı etnik təmizləmə törədiblər. Onlar Dağlıq Qarabağdan və ətraf yeddi rayondan bütün azərbaycanlıları qovublar. Ermənistanın etnik təmizləmə siyasəti nəticəsində bizim bir milyon qaçqın və məcburi köçkünümüz var. Lakin biz eyni qaydada davranmayacağıq. Biz qisas almayacağıq. Mən dəfələrlə demişəm, hətta onlar Gəncəni bombalayanda, hətta onlar Bərdəni bombalayanda, onlar başqa şəhərləri bombalayanda və 92 insanı, mülki şəxsi öldürdükdə mən dedim ki, biz qisasımızı döyüş meydanında alacağıq. Buna görə bu rəsmi mövqeyi, Azərbaycanda yaşayan minlərlə ermənini və heç kimin onları etnik təmizləmədiyini nəzərə alaraq, biz bunu orada nə üçün etməliyik ki?

*- Burada, Azərbaycanda yaşayan ermənilərlə bağlı. Bizə verilən məlumata görə, onların çoxu qorxu içində yaşayır, ermənilər kimi açıq tanınmağı istəmədiklərinə görə soyadlarını dəyişiblər. Dağlıq Qarabağdakı ermə-*

*nilər özlərinin təhlükəsiz olacaqlarına necə əmin ola bilərlər ki?*

- Xeyr, bu, yanlış məlumatdır.

*- Bu məlumat burada yaşayan insanlardan daxil olur.*

- Ola bilsin ki, kimsə evlənib soyadını dəyişib. Bu, burada adət olunan təcrübədir. Amma xeyr. Burada yaşayan çoxlu ermənilər var və biz onların erməni olduqlarını bilirik. Yeri gəlmişkən, mən sizə deyə bilərəm və bir çox insanlar bu barədə bilmirlər. Ermənistanın sabiq müdafiə naziri Arutunyanın bacısı Azərbaycanda yaşayır. İstəsəniz onunla görüş təşkil edə bilərik. Bu, əslində, qorxu deyil, bu, erməni təbliğatıdır.

*- Prezident Əliyev, əgər təbliğat varsa, aydındır ki, hər iki tərəfdə təbliğat var. Dövlət dialoqu çərçivəsində burada ermənilərə qarşı institusional mesajlar səslənir, insanlarda digər tərəfə qarşı nifrət aşılanır. Siz onların, həqiqətən də, birgə yaşaya biləcəklərini gözləyirsiniz?*

- Nəyə görə onlar dünyanın digər yerlərində birgə yaşaya bilirlər? Siz qonşu Gürcüstanda ermənilərin və azərbaycanlıların bir yerdə, eyni kənddə yaşadığı kəndlərin olduğunu bilirsiniz? Onlar Rusiyada, Ukraynada bir yerdə yaşayırlar, onlar Azərbaycanda bir yerdə yaşayırlar, dünyanın bir çox digər yerlərində. Dünyadakı vəziyyəti indi müşahidə etsəniz, Qərbdə bəzi ermənipərəst mitinqlərdən başqa ermənilər və azərbaycanlılar arasında vəziyyət sakitdir. Nəyə görə onlar orada yaşaya bilərlər, lakin burada yaşaya bilməzlər?

*- Dağlıq Qarabağ üzərində nəzarəti ələ keçirsəniz, həqiqətən də, bir erməninin Dağlıq Qarabağda qalacağını və Azərbaycan qanunları ilə yaşayacağını gözləyirsiniz?*

- Hesab edirəm ki, bu, mümkündür. Bir Prezident kimi, mən bu gün deyirəm və dəfələrlə demişəm ki, biz yanaşı yaşamaq istəyirik. Əgər biz yanaşı yaşamaq istəməsəydik, nəyə görə mən bunu deməliyəm ki? Bildiyiniz kimi, bu gün Azərbaycan Ordusu döyüşdə qalib gəlir. Bu gün biz şəhərləri, kəndləri bir-birinin ardınca azad edirik. Azərbaycanda istənilən şəxs prinsip etibarilə deyə bilər, baxın, onlar Xocalıda soyqırımı törətdilər, onlar azərbaycanlıları doğma torpaqlarından qovdular, onlar bizim bütün şəhərləri və kəndləri məhv etdilər.

*- Ermənilər də, əlbəttə, iddia edirlər ki, onlar da qovulublar, onlar da illərlə qətliamların qurbanları olublar.*

- Onlar haradan qovulublar? Haradan? Onlar qovulmayıblar. Biz ermənilərə qarşı etnik təmizləmə törətməmişik. Xeyr, ermənilər Azərbaycanda yaşayırlar. Onlar bizi nəinki Dağlıq Qarabağdan qovublar, erməni əhalisinin heç vaxt yaşamadığı Dağlıq Qarabağla inzibati sərhəddə yerləşən yeddi rayondan qovublar. Onlar şəhərlərin, kəndlərin adlarını dəyişiblər.

*- Prezident Əliyev, dinə gəldikdə, Ermənistanda kilsəyə hücum olub.*

- Bu, Ermənistanda olmayıb.

*- Üzr istəyirəm, cənab Prezident, Dağlıq Qarabağda hücum olub. Eyni gündə kilsə iki dəfə mərmi atəşinə tutulub. Siz həmin gün dediniz ki, ola bilsin, bu, səhvdir. Siz dediniz ki, araşdırma aparacaqsınız. Araşdırmanın nəticəsi nədir?*

- Bu məsələni araşdırmaq üçün biz orada olmalıyıq. Araşdırmaq üçün. Mən dəfələrlə demişəm, bu, ya bizim artilleriyanın səhvidir, ya da bu, ermənilərin özləri tərəfindən qəsdən edilmiş bir təxribatdır.

*- Onlar öz kilsəsini atəşə tutublar?*

- Bəli, elədir ki, var.

*- Onlar, əlbəttə ki, bunu inkar edirlər.*

- Bəli, əlbəttə ki, onlar bunu inkar edirlər. Onlar hər şeyi inkar edirlər. Onlar Ermənistan ərazisindən Gəncəyə ballistik raketlə zərbə endirildiyini inkar edirlər. Ermənistanın baş naziri bunun yanlış məlumat olduğunu demişdir. Buna baxmayaraq, sizin ölkəniz, Amerika Birləşmiş Ştatları, Fransa, Rusiya, onlar ballistik raketin haradan buraxıldığını asanlıqla aşkar edə bilərlər.

*- Kilsəyə gəldikdə...*

- Kilsəyə gəldikdə. Mən bunun ya səhv olduğunu, ya da onların bunu qəsdən etdiklərini demişəm. Çünki həmin kilsənin mənim gördüyüm təsvirləri bunun çox kiçik bir zərər olduğunu göstərir. Bu zədəni maksimum iki həftə ərzində təmir etmək olar. Bu, birincisi. İkincisi, siz burada, Bakıdasınız. Yəqin ki, siz şəhər mərkəzində bizim bərpa etdiyimiz erməni kilsəsini görmüsünüz. Biz orada minlərlə erməni kitabı saxlayırıq. Əgər biz ermənilərin dediyi kimi kilsələri dağıdırıqsa, nəyə görə buradakı kilsəni dağıtmamışıq?

*- Siz birmənalı şəkildə öz qüvvələrinizin kilsəyə hücum etmədiyini deyə bilərsiniz?*

- Mən birmənalı şəkildə dəfələrlə demişəm. Bu ya bizim artilleriyanın səhvidir...

*- Beləliklə, Siz bunu edə bilərdiniz?*

- Kim? Siz kimi nəzərdə tutursunuz?

*- Sizin qüvvələriniz bunu edə bilərdi.*

- Bu, yalnız səhv nəticəsində ola bilərdi. Çünki hərbi hədəf yox idi. Kilsə hərbi hədəflər arasında deyil. Bizim Xankəndi şəhərində, - ermənilər onu Stepanakert adlandırırlar, - hərbi hədəflərimiz var idi. Bizim Şuşada hərbi hədəflərimiz var idi və biz bu hərbi hədəflərə zərbələr endiririk, çünki onlar bizə hücum ediblər. Yəqin ki, bu, səhv olub.

*- Eyni gündə iki dəfə səhv edə bilərdiniz? Kilsəyə iki dəfə zərbə endirilib.*

- Nəyə görə yox? İşğal olunmuş ərazilərdə Azərbaycan məscidlərinin şəkillərini görmüsünüz? Onlar hamısı dağıdılıb. Onlar bizim məscidlərdə donuz saxlayırlar. Azad edilmiş Zəngilandakı məsciddən bu yaxınlarda çəkilmiş videogörüntüdə onların orada donuz saxladıqları göstərilir.

*- Siz öz ordunuzun hərbi üstünlüyü haqqında danışarkən fikir irəli sürmüsünüz, yüz min insanınız var, Sizin İsraildən, Türkiyədən alınan ən müasir avadanlığınız var, xüsusilə türk dronları. Sizin sərəncamınızda olan bütün bu imkanları nəzərə alaraq, kilsənin atəşə tutulması ilə bağlı iki dəfə səhvə yol verilə bilər?*

- Əlbəttə ki, ola bilər. Çünki bu məsələni araşdırmaq üçün bizim orada olmamız lazımdır. Biz orada olanda onu təmir edəcəyik.

*- Lakin bu...*

- Biz onu bərpa edəcəyik, siz bunu görəcəksiniz. Biz Şuşaya geri qayıdanda onu bərpa edəcəyik.

*- Bu, o demək deyil ki, bu silahların bu dərəcədə qeyri-dəqiq olması və belə səhvlərə asanlıqla yol verməsi ehtimalına görə Siz onları mülki yerlərdə istifadə etməməlisiniz?*

- Biz onlardan mülki yerlərdə istifadə etmirik. Biz onlardan hərbi infrastrukturu məhv etmək üçün istifadə edirik.

*- Prezident Əliyev...*

- Xankəndi şəhəri hərbi obyektlərlə dolu idi. Şuşa şəhəri hərbi obyektlərlə doludur. Biz onlardan fərqli olaraq mülki şəxslərə hücum etmirik. Onlar qəsdən mülki yaşayış yerlərini dağıdırlar, ballistik raketlərlə Gəncəyə hücum etdilər.

*- Prezident Əliyev, icazə verin, bizim BBC həmkarlarımızın nə gördüklərini Sizə deyim. Bu, şayiə deyil. Bu, BBC həmkarlarımız tərəfindən çəkilmişdir, onların gördükləridir. Onlar oktyabrın biri, ikisi və üçü Stepanakertdə və Dağlıq Qarabağda olublar. Onlar şəhərin, o cümlədən təcili tibbi yardım mərkəzinin xaotik mərmi atəşinə tutulmasını, yaşayış binasının dağıdılmasını, insanlar qaçmağa cəhd göstərəndə onların başlarının üstündə dronun olmasını, bir az sonra yaxınlıqda əlavə mərmi atəşlərinin açılmasını görüblər. Onlar bunu aydın hərbi hədəflər olmadan şəhərin sistemsiz mərmi atəşinə tutulması kimi xarakterizə etdilər. Bu, şayiə deyil. Bu, BBC-nin şahid olduğu və lentə aldığı hadisədir.*

- Mənim sizin şahid olduqlarınızla bağlı şübhələrim var. Şübhələrim var.

*- Lakin Prezident Əliyev, onlar orada idilər.*

- Nə olsun ki, onlar orada idilər? Bu, heç nə demək deyil. Bu, feyk xəbər ola bilər. Bizim hərbi...

*- Bu nəyə görə feyk xəbər olsun ki? Nəyə görə oraya gedən istənilən jurnalist feyk xəbərləri yayımlamağı qərara alsın ki?*

- Münaqişəyə qərəzli mövqeyinə görə, beynəlxalq mediada Azərbaycana qarşı qarayaxma təbliğatına görə.

*- Deməli, Sizi heç bir yanlışlıqda günahlandırmaq olmaz? Hər şey feyk xəbərdir?*

- Əlbəttə, bu, feyk xəbərdir. Biz Qərb mediasını yaxından müşahidə edirik və bu qırx gün ərzində mənim bəlkə də, otuz müsahibəm olub. Onların hamısı çox aqressiv idi, sanki bu, müsahibə deyildi, sanki bir ittiham idi. Ermənistan tərəfində heç nə baş vermir. Heç kim Paşinyandan nəyə görə Gəncəyə ballistik raketlərlə zərbə endirdiyini soruşmur. Nəyə görə o, 92 nəfəri qətlə yetirib? Nəyə görə o, Tərtərdə dəfn mərasiminə hücum edib? Nəyə görə onlar 21 insanı qətlə yetirərək və 70 nəfəri yaralayaraq Bərdəyə hücum etmək üçün kassetli bombalarla "Smerç"dən istifadə ediblər? Heç kim ondan soruşmur. Heç kim ondan silahları haradan əldə etdiyini soruşmur? Yalnız bizə hücum edirlər. Beynəlxalq media yalnız Azərbaycanı ləkələyir. Buna görə sizin BBC, sizin həmkarlarınız o hadisələrin orada "şahidi" olub. Mən buna inanmıram.

*- Onlar bunu lentə alıblar. Əlbəttə ki, hər iki tərəfdə mülki şəxslərin qətlə yetirildiyini qeyd etmək mühüm əhəmiyyət kəsb edir. Hər iki tərəf xaotik atəş açmışdır. Biz özümüz burada ballistik raketin istifadə edildiyi Gəncə hücumunun fəsadlarının şahidi olmuşuq. Beləliklə, bu tərəfdə də itkilərin olması şübhə doğurmur.*

- Təşəkkür edirəm.

*- Lakin eynilə, Siz kassetli silahlardan danışdıqda, sübut var ki, Siz də mülki yerlərdə, Stepanakertin küçələrində kassetli silahlardan istifadə etmisiniz və bu, "Human Rights Watch" təşkilatı tərəfindən geniş şəkildə sənədləşdirilmişdir, şəkillər çəkilmişdir, videolar çəkilmişdir, şahidlər ifadə vermişdir. Onların hadisə yerinə getmək imkanı var idi. Nəyə görə Siz o dərəcədə qeyri-dəqiq ola bilən kassetli silahlardan mülki yerlərdə istifadə edirsiniz?*

- Biz onlardan istifadə etmirik. Bu, növbəti bir feyk xəbərdir. Ermənistan kassetli bombalardan istifadə edir.

*- Deməli, hər şey feyk xəbərdir?*

- Əlbəttə ki. Niyə də yox? Biz feyk xəbərlərlə on illərdir üzləşirik.

*- Lakin Siz etiraf edirsiniz ki....*

- Heç bilirsiniz, Britaniya mətbuatında Azərbaycan haqqında nə qədər feyk xəbər dərc edilmişdi? Minlərlə.

*- Lakin, Prezident Əliyev, Siz müharibə apardığınızı, irəli getdiyinizi etiraf edirsiniz. Sonra isə digər tərəfdən bizə bu silahlardan istifadə etmədiyinizi deyirsiniz.*

- Xeyr, istifadə etmirik. Çünki biz döyüş meydanında döyüşürük. Biz erməni ordusuna qarşı döyüşürük. Biz mülki şəxslərə qarşı döyüşmürük. Bunun heç bir mənası yoxdur, çünki bizim vəzifəmiz torpaqları azad etməkdi və biz kəndləri, şəhərləri bir-birinin ardınca azad edirik. Biz kassetli bombalardan istifadə etmirik, bizim buna ehtiyacımız yoxdur. Bizim kifayət qədər başqa alətlərimiz var...

*- Beləliklə "Human Rights Watch" təşkilatı tərəfindən aşkar edilmiş sübutlar da feykdir?*

- Əlbəttə ki. Çünki "Human Rights Watch" təşkilatı Azərbaycana qarşı çox qərəzli mövqeyinə, hətta jurnalistlərin həbsxanalarda öldüyü zaman, hətta əsas müxalifət partiyasının rəhbəri həbsxanada olduqda belə Ermənistanda heç bir yanlışlıq görmədiyinə görə bunlar barədə heç bir məlumat vermir. Onlar yalnız bizə qarşı məlumat verirlər. Buna görə də biz "Human Rights Watch" təşkilatı ilə əməkdaşlığı beş-altı il bundan əvvəl dayandırdıq. Yalnız indi bu müharibə başlayanda biz onları bura gəlməyə və öz gözləri ilə görməyə dəvət etdik. Biz onların bu halları təsdiqləməsini istəyirdik, çünki onlar üçün "yox" demək imkanı yox idi. Buna görə biz onları dəvət etdik. Beləliklə, bu təşkilata Azərbaycanda etimad yoxdur.

*- Prezident Əliyev, bu tərəfdə neçə nəfər mülki şəxs öldürülüb? Onların sayı nə qədərdir?*

- Paşinyan rejimi tərəfindən 92 mülki şəxs öldürülmüşdür, 405 nəfər yaralanmışdır, demək olar ki, 3 min ev ya dağıdılmışdır, ya da ciddi zərər görmüşdür. Beləliklə bunlar faktlardır və siz oraya gedib onları yoxlaya bilərsiniz.

*- Biz cəbhə xəttini özümüz gedib görmək istəyirik və sonuncu dəfə buraya səfər etdikdə, bizim oraya müstəqil səfər etmək üçün qarşımız alınmışdır. Bizə bu dəfə oraya gedə biləcəyimizə dair təminat verə bilərsinizmi?*

- Bəli, hesab edirəm ki, bu, mümkündür. Ancaq sizi qorumaq üçün təhlükəsizlik tədbirləri görülməlidir. Lakin düşünürəm ki, bu, mümkündür. Bu, ümumi durum və hərbi vəziyyət haqqında qanunvericiliklə tənzimlənir. Ona görə, bu səfər müvəqqəti qaydalara uyğun olmalıdır.

*- Beləliklə, biz cəbhə xəttində sərbəst hərəkət edə bilmərik?*

- Cəbhə xətti dedikdə nəyi nəzərdə tutursunuz? Döyüşlərin baş verdiyi yerə getməyi?

*- Bəli.*

- Orada jurnalistlər olublar.

*- Lakin onlar sərbəst hərəkət etməyiblər.*

- “Sərbəst” dedikdə nəyi nəzərdə tutursunuz?

*- Hökumətin müşahidəçiləri olmadan sərbəst hərəkət etmək. Öz istəyinə görə hərəkət etmək. Biz başqa münaqişələrdə bunu edirik. Biz haraya getmək istədiyimizi qərarlaşdırırıq, biz öz seçimlərimizi edirik, oraya gedirik və hadisələri lentə alırıq.*

- Mən bu barədə əmin deyiləm. Düşünürəm ki, belə bir imkanın olub-olmadığını səlahiyyətli orqanlarla dəqiqləşdirmək lazımdır. Əcnəbi jurnalistləri müşahidə edənlərin yalnız bir məqsədi var - onları qorumaq və onların hara gedə biləcəyi və hara gedə bilməyəcəyi barədə onlara məlumat vermək. Lakin gizlədiləsi bir şey yoxdur. Siz bizim dağıdılmış kəndləri görə bilərsiniz. Siz Gəncədə olmusunuz. Yəqin ki, siz Bərdəyə də gedə bilərsiniz. Buna görə bizim gizlədiləsi bir şeyimiz yoxdur. Biz öz torpağımızda vuruşuruq. Erməni ordusu bizim torpağımızdadır, onlar təcavüzkardır və biz təcavüzün qurbanı olmuşuq. Lakin bu gün biz qisasımızı alırıq. Bu gün biz onlara yerini göstəririk və dediyim kimi, onlar qalan əraziləri könüllü olaraq boşaltmasalar, biz onları axıra qədər qovacağıq.

*- Bu, erməni vətəndaşlarına çox dəhşətli bir mesaj kimi səslənir.*

- Xeyr, niyə? Biz erməni vətəndaşları haqqında artıq danışdıq. Bizim onlarla təmaslarda heç bir yanlışlığımız yoxdur. Mən dəfələrlə demişəm və dediklərimin üstündə dururam. Biz ərazilərimizi işğal etmiş bu cinayətkar dəstələrdən torpaqları azad etdikdən sonra Dağlıq Qarabağdakı ermənilər qat-qat yaxşı yaşayacaqlar. Onların daha çox məvacibləri olacaq, çünki Azərbaycandakı məvaciblər daha yüksəkdir. Onların daha yüksək təqaüdləri olacaq, çünki Azərbaycanda təqaüdün məbləği Ermənistandan üç dəfə çoxdur. Onlar sosial müdafiə ilə təmin olunacaqlar. Biz bu ərazilərə böyük sərmayələr yatıracağıq, onlar yoxsulluqdan xilas olacaqlar...

*- Onların Azərbaycanda insanların eşitdiyi, lakin malik olmadığı bütün insan haqları olacaqmı? Onların tamamilə azad mediası olacaqmı? Onların səsini qaldırmağa icazəsi olan müxalifəti olacaqmı? Onlar burada, Azərbaycanda insanların malik olmadığı şeylərə malik olacaqmı?*

- Siz hesab edirsiniz ki, insanların bu haqları yoxdur? Nəyə görə siz Azərbaycanda insanların azad mediaya və müxalifətə malik olmadığını düşünürsünüz?

*- Çünki mənə bu barədə müstəqil mənbələrdən məlumat veriblər.*

- Hansı müstəqil mənbələrdən?

*- Bir çox müstəqil mənbələrdən.*

- Deyin mənə, hansılardır?

*- Əlbəttə ki, mən onların adlarını çəkə bilmərəm.*

- Əgər siz onların adlarını deyə bilmirsinizsə, bu, o deməkdir ki, siz bir hekayə uydurursunuz.

*- Siz deyirsiniz ki, media dövlət nəzarəti altında deyil?*

- Xeyr. Əsla yox.

*- Fəal azad müxalif media var?*

- Əlbəttə ki.

*- Mən bunu harada görə bilərəm?*

- Siz bunu internetdə görə bilərsiniz. Siz bunu hər yerdə görə bilərsiniz.

*- Qəzetlərdə yox.*

- Niyə? Siz bunu qəzetlərdə görə bilərsiniz. Sizdən soruşa bilərəmmi, siz burada kimi müxalifət adlandırırsınız?

*- Burada müxalifətin olmasına icazə varmı?*

- Bəli, icazə var.

*- QHT-lər təqiblərə məruz qalır, jurnalistlər təqiblərə məruz qalır.*

- Xeyr, əsla.

*- Tənqidçilər həbsxanadadır.*

- Xeyr, əsla.

*- Bunların heç biri həqiqət deyil?*

- Tamamilə feykdir. Tamamilə. Bizim azad mediamız var. Bizim azad internetimiz var. İndi hərbi vəziyyətə görə bizim bəzi məhdudiyyətlərimiz var, lakin əvvəllər heç bir məhdudiyyət yox idi. Azərbaycanda internet istifadəçilərinin sayı 80 faizdən çoxdur. Siz internetin azad olduğu, senzuranın olmadığı və 80 faiz internet istifadəçilərinin olduğu bir ölkədə medianın məhdudlaşdırılmasını təsəvvürünüzə gətirə bilərsiniz? Bizim “Facebook”da milyonlarla insanımız var. Bizdə azad medianın olmadığını necə deyə bilərsiniz? Bu, yenə də qərəzli yanaşmadır. Bu, Qərb auditoriyasında Azərbaycan haqqında bir fikir formalaşdırmaq cəhdidir. Bizim müxalifətimiz var, bizim QHT-lərimiz var. Bizdə azad siyasi fəaliyyət var. Bizdə azad media var. Bizdə söz azadlığı var. Əgər siz bu sualı qaldırdınızsa, mən də sizə bir sual verə bilərəmmi? Siz cənab Assanjla baş verənləri necə qiymətləndirirsiniz? Bu, sizin ölkədə azad mətbuatın təzahürüdür?

*- Biz burada mənim ölkəmi müzakirə etmək üçün deyilik.*

- Xeyr, gəlin müzakirə edək. Gəlin, müzakirə edək.

*- Yox, Prezident Əliyev.*

- Ermənilərin burada azad mətbuatının olmayacağı ilə bağlı məni ittiham etmək əvəzinə, gəlin, Assanj barədə danışaq. Bağışlayın, o, Ekvador səfirliyində neçə

il keçirdi və nəyə görə? O, indi haradadır? Jurnalist fəaliyyətinə görə siz həmin şəxsi girov saxladınız, əslində, mənəvi və fiziki olaraq onu öldürdünüz. Bunu siz etmisiniz, biz yox. İndi o həbsxanadadır. Siz bu işlərlə məşğul olduğunuz halda, sizin azad mətbuat haqqında danışmağa mənəvi haqqınız yoxdur.

*- Münaqişəyə qayıdaraq...*

- Bəli, yaxşı olardı ki, münaqişəyə qayıdasınız, çünki bu, sizin xoşunuza gəlmir. Sizin xoşunuza yalnız ittiham etmək, hücum etmək gəlir. Amma güzgüyə baxın. Mən dəfələrlə demişəm, buraya gəlməmişdən və bizə mühazirə oxumaqdan əvvəl baxın. Siz sualınızla məni ittiham edirsiniz. Bu, sual deyil, bu, ittihamdır. Siz prokuror kimi danışırsınız. Niyə? Əgər siz bu qədər demokratik və obyektivsinizsə, nəyə görə Assanjı həbsxanada saxlayırsınız? Nə üçün? Siz onu jurnalist fəaliyyətinə görə həbsxanada saxlayırsınız.

*- Mən onu həbsxanada saxlamıram, Prezident Əliyev.*

- Bu, sizin xoşunuza gəlmir.

*- Bu, xoşa gəlmək məsələsi deyil.*

- Siz buna öyrəşməmisiniz.

*- Bu, bizim müsahibənin mövzusu deyil.*

- Çünki siz ancaq hücum etməyə adət etmisiniz.

*- Bu, bizim müsahibənin mövzusu deyil.*

- Bu, müsahibənin mövzusu deyil, amma siz bunu qaldırırsınız.

*- Siz bu məsələni qaldırdınız.*

- Xeyr, siz qaldırdınız.

*- Siz Asanj məsələsini qeyd etdiniz.*

- Siz dediniz ki, əgər ölkənizdə azad media yoxdursa, ermənilər müxalifətsiz sizin ölkədə necə yaşaya bilərlər? Bu, sizin sözlərinizdir, ittihamdır.

*- Prezident Əliyev, Siz suala cavab verdiniz. Münaqişə mövzusuna qayıdaraq, Sizin dediyiniz kimi 40 gündür ki, toqquşma davam edir, Siz münaqişənin nə qədər davam etməsini gözləyirsiniz? Qışda da döyüşlər gedəcək?*

- Heç kim bilmir. Yenə də, bizim söhbətimizin əvvəlinə qayıdaraq, əgər Paşinyan bu gün "mən əsas prinsipləri qəbul edirəm və mən Ağdamın bir hissəsini, Kəlbəcəri və Laçını bir həftə və ya iki həftə içində boşaldacağam" desə, biz dərhal dayanarıq.

*- Lakin onun Sizə Dağlıq Qarabağda yerdə qalan ərazilərin boşaldılması ilə bağlı təminat verməyə ehtiyacı yoxdur. Siz kənarda qalan ərazilərdən danışırdınız. Mən Sizin mövqeyinizi başa düşmək üçün çox aydın olmalıyam.*

- Bəli, bu, əsas prinsiplərdir. Əsas prinsiplərdə bizdə çox aydın mənzərə yaranır. Yeddi rayonun boşaldılması, sonra azərbaycanlı məcburi köçkünlərin qayıtması, sonra Azərbaycan vətəndaşlarının, köçkünlərin Dağlıq Qarabağa qayıtması.

*- Beləliklə, o, Dağlıq Qarabağı da Sizə verməlidir?*

- O azərbaycanlıların oraya geri qayıtmasına imkan verməlidir. Geri qayıtmasına. Şuşaya.

*- Beləliklə, Sizin Dağlıq Qarabağı nəzarət altında saxlamağınıza ehtiyac yoxdur?*

- Siz "nəzarət altında" deməklə nəyi nəzərdə tutursunuz?

*- Sizə Dağlıq Qarabağ üzərində fiziki olaraq nəzarəti ələ keçirmək və Dağlıq Qarabağın müdafiə qüvvələrini geri çəkmək, orada olan erməniləri geri çəkmək lazımdır, yoxsa mülki şəxslərinizin geri qayıtmasına icazə verilsəydi, bu, Sizi qane edərdi?*

- Ermənistanın qəbul etmədiyi əsas prinsiplərdə, - onlar faktiki olaraq etibarsızdır, çünki Ermənistan onları qəbul etməyib, - bir müddəa var ki, azərbaycanlılar oraya qayıdacaqlar, sülh, təhlükəsizlik şəraitində, təhlükəsizlik təminatı ilə orada yaşayacaqlar. Biz orada hansı idarəçilik formasının olacağını dəqiq müəyyənləşdirmək üçün danışıqlar prosesində o qədər irəliyə getməmişik. Bizim mövqeyimiz ondan ibarətdir ki, bələdiyyə idarəçiliyi, yaxud ermənilər üçün mədəni muxtariyyət kimi müəyyən özünüidarə səviyyəsi olmalıdır. Lakin biz o qədər irəliyə getməmişik. Əgər Paşinyan mənim əvvəldən, biz Füzulini azad edəndə tələb etdiyimi etsəydi, onda müharibə dayanardı və indi biz danışıqlar masasında necə irəli getmək barədə danışardıq. Lakin o, bu öhdəliyi götürmür. Ona görə də, bu cür davam etsə, biz davam edəcəyik. Başqa yol yoxdur. Biz ölkənin bütün dünya tərəfindən tanınan ərazi bütövlüyünü bərpa edənə kimi, sona qədər gedəcəyik.

*– Prezident Əliyev, Siz artıq əhəmiyyətli dərəcə də irəliləmisiniz və Dağlıq Qarabağ yaxınlığında əraziləri qaytarmısınız. Mülki şəxsləri nə vaxt geri qaytarmağa başlamağı planlaşdırırsınız?*

– İlk növbədə, bizim Ermənistan dövlətinin Azərbaycana və vətəndaşlarımızın əmlakına vurduğu ziyanı qiymətləndirməyə ehtiyacımız olacaq. Çünki azad edilmiş ərazilərdə demək olar ki, hər şey dağıdılıb. Mən dəfələrlə demişəm ki, on minlərlə insanın yaşadığı böyük şəhər olan Füzulidə biz bayraq sancmaq üçün bina tapa bilmədik. Beləliklə, biz onu dirəyə taxdıq. Ona görə də, biz, ilk növbədə, dəymiş ziyanı qiymətləndirəcəyik. Biz ekologiyamıza, infrastrukturumuza, evlərini itirmiş mülki şəxslərimizə və dövlətimizə, tarixi irsimizə dəymiş ziyanı qiymətləndirmək üçün beynəlxalq ekspertləri dəvət edəcəyik. Çünki bütün məscidlər, bütün muzeylər dağıdılıb. Bu, birincisi. Bundan sonra, əlbəttə ki, məhkəmə iddiaları olacaq, Ermənistan dövlətinə qarşı məhkəmə iddiaları və biz artıq buna hazırlaşırıq. İkincisi, bizim insanların orada yaşaması üçün azı ilkin şərait yaratmağa ehtiyacımız olacaq. Biz tikinti materialları tədarük etməli, infrastruktura investisiya yatırmalıyıq.

*– Beləliklə, Siz düşünürsünüz ki, bunun üçün real olaraq illər lazımdır?*

–Bilirsiniz, bütün işğal dövründə biz artıq 300 min qaçqın və məcburi köçkünü yerləşdirmişik. Son illər ən güclü təsir bağışlayan illər olub, çünki təkcə bu il biz 7 min köçkün ailəsini yerləşdiririk. Beləliklə, düşünürəm ki, biz ildə 7 mindən 10 minədək ailəni köçürə bilərik. Lakin, əlbəttə ki, bunun üçün bizim infrastruktura ehtiyacımız var. Biz bunu hər şeyin hazır olduğu Bakıda edirik. Lakin hər şeyin dağıdıldığı həmin ərazilərdə

bizim elektrik stansiyalarına, yollara, su təchizatına ehtiyacımız var. Beləliklə, bütün bunlar vaxt aparacaq. Mən bilmirəm bu, nə qədər vaxt aparacaq. Lakin biz bunu maksimum qısa zamanda həyata keçirmək üçün əlimizdən gələni etməyə çalışacağıq.

*– Prezident İlham Əliyev, icazənizlə sonda bir və ya iki qısa sual verim. Azərbaycanın çox güclü müttəfiqi olan Türkiyə Sizə böyük dəstək verib. Siz Prezident Ərdoğanla nə dərəcədə tez-tez danışırsınız?*

– Çox tez-tez. Xüsusilə indi, həftədə bir neçə dəfə.

*– Bəs gündə?*

- Gündə yox, amma ehtiyac olsa, gündə bir neçə dəfə ola bilər. Biz qardaşıq, dostuq. Dediyiniz kimi, böyük dəstək, siz haqlısınız. Lakin mən dəqiqləşdirmək istəyirəm, bu, siyasi dəstək və mənəvi dəstəkdir. Başqa heç nə.

*– Burada istifadə olunan dronları idarə edən türk pilotlar varmı?*

– Xeyr.

*– Beləliklə, onlar Sizin qüvvələriniz tərəfindən istifadə olunur?*

– Bəli, hər şey bizim qüvvələrimiz tərəfimizdən istifadə olunur. Təkcə Türkiyə istehsalı olan dronlar deyil, İsrail istehsalı olan dronlar, Rusiya istehsalı olan hərbi avadanlıq və bunu pulsuz əldə edən Ermənistandan fərqli olaraq bizim aldığımız və pul ödədiyimiz digər ölkələrin istehsalı olan hərbi avadanlıqlar. Hər şey bizim tərəfimizdən edilir.

*– Türkiyənin birbaşa hərbi iştirakını istəyə biləcəyiniz günü gözləyirsinizmi? Biz Ermənistanın artıq Rusiyaya müraciət etdiyini və onun nə etməyə hazır olduğunu soruşduğunu görmüşük. Sizcə Türkiyənin daha çox cəlb olunmağı xahiş edəcəyiniz gün gələcəkmi?*

– Mən çox irəliyə baxmaq istəmirəm. Çünki bu, döyüş meydanındakı vəziyyətdən asılı olacaq. Bu, Ermənistanın davranışından və digər ölkələrin davranışından asılı olacaq. Çünki mən bir çox hallarda demişəm ki, biz münaqişənin beynəlmiləlləşdirilməsinin əleyhinəyik. Biz bütün ölkələrdən, qonşu ölkələrdən, qonşu olmayan ölkələrdən bu münaqişədən uzaqda durmağı xahiş etmişik. Biz beynəlxalq səviyyədə tanınan torpağımızda döyüşürük. Bu, bizim mövqeyimizdir. Mən düşünürəm ki, hazırda baş verənlər davam edəcək, beləliklə, Türkiyənin hər hansı hərbi iştirakına ehtiyac olmayacaq. Lakin uzun illər bundan əvvəl Türkiyə ilə təcavüz olacağı təqdirdə həm də hərbi dəstəyi təmin edən sənəd imzalamışıq. Beləliklə, bizim Türkiyə ilə bu və ya digər dərəcədə Ermənistanla Rusiyanın malik olduğu kimi eyni formatımız, qanuni bazamız var. Əgər Azərbaycan təcavüzlə üzləşsə və Azərbaycan görsə ki, Türkiyənin hərbi dəstəyinə ehtiyac var, onda biz variantı nəzərdən keçirəcəyik.

*– Prezident Əliyev, icazənizlə mən daha iki sualla bağlı yardımınızı xahiş edəcəyəm. Münaqişənin indi yenidən alovlanmasının və Sizin belə güclü irəliləməyinizin səbəblərindən biri kimi Türkiyənin çox güclü dəstək verdiyini, bunun həqiqətən də həlledici olduğunu iddia edənlərə nə deyərdiniz. Əminəm ki, belə iddiaları eşitmisiniz.*

– Xeyr, qətiyyən. Yeri gəlmişkən, Türkiyənin hərbi iştirakı haradadır? Bunu kim təsdiqləyə bilər? Hər hansı türk əsgərini kim görüb?

*– Yerində iştirak deyil, güclü siyasi dəstək, daimi bəyanatlar, çox güclü regional gücdən çox güclü dəstək. Bu, burada amil deyil?*

– Bəli, bu, amildir. Lakin bu amil münaqişə başlayandan sonra çox mühüm əhəmiyyət kəsb etdi. Çünki əgər münaqişənin xronologiyasına nəzər salsanız, bu bəyanatlar Ermənistan bizə hücum edəndən və biz cavab verəndən saatlarla sonra başladı. Amma Türkiyənin Azərbaycana siyasi dəstəyi hər zaman olub. Bu, qəfildən baş vermədi. Bu, hər zaman belə olub. Niyə münaqişə başladı? Mən sizə deyə bilərəm. Çünki Ermənistan danışıqları pozmaq istəyirdi. Onlar iyulun 12-də dövlət sərhədində bizə hücum etdilər və bizim ərazimizə daxil oldular. Biz cavab verməli olduq. Həmin toqquşma 4 gün davam etdi və biz onları Azərbaycandan sıxışdırıb çıxarandan sonra dayandıq və dövlət sərhədini keçmədik. Sonra avqustun ortasında onlar diversiya qrupu göndərdilər, o, təmas xəttini keçdi, həmin qrupun başçısı saxlanıldı və mülki şəxslərə qarşı terror hücumları planlaşdırdıqlarını etiraf etdi. Sonra sentyabrın 27-də onlar bizim şəhərlərimizi artilleriya atəşinə tutmağa başladılar, bizim mülki şəxslər və hərbçilər arasında ilk qurbanlarımız ilk saatlarda, bəlkə də ilk dəqiqələrdə oldu. Onlar bizi ağır artilleriyadan atəşə tutdular. Beləliklə, bu, belə başladı. Niyə başladı?

*– Prezident Əliyev, üzr istəyirəm. Bilirəm Siz bizə tarixini danışmaq istəyirsiniz, lakin Sizinlə iki məqama aydınlıq gətirmək istəyirəm. Siz hərbçilər arasında itkiləri qeyd etdiniz. Niyə Siz hərbi itkilərinizlə bağlı rəqəmləri açıqlamırsınız? Siz narahatsınız ki, insanlar bu müharibədə nə qədər gənc insanın həlak olduğunu görsə, dəstək zəifləyə bilər?*

– Xeyr, qətiyyən. Birincisi, bizdə çox deyil. Əgər siz müharibənin miqyasına və bizim Ermənistanın 30 il ərzində tikdiyi istehkamları, bütün mövqeləri dağıtmalı olduğumuza baxsanız, bizim itkilərimiz minimaldır. Əlbəttə ki, biz bu cür danışa bilmərik. Hər bir insanın həyatı qiymətsizdir. Lakin bizim itkilərimiz Ermənistanınkından xeyli aşağıdır. Çünki bizim hərbi imkanlarımız daha yaxşıdır və bizim minimum itki verməyə imkan yaradan müasir silahlarımız var, xüsusilə həmin dronlar. Çünki həmin dronlar olmasaydı, bütün o tanklar və toplar çox sayda adamı öldürərdi. Səbəb o deyil ki, biz düşünürük ictimaiyyətin dəstəyini almarıq, əksinə. Yaxın qohumlarını, oğullarını, qardaşlarını itirən insanlar bizdən dayanmamağı xahiş edirlər. Təsəvvürünüzə gətirə bilərsiniz? Hər gün mən minlərlə məktub alıram, minlərlə məktub. O məktubların heç birində mən “Dayanın” sözünü görməmişəm. Onlar deyirlər, mən oğlumu itirmişəm, qardaşımı itirmişəm, həyat yoldaşımı itirmişəm, xahiş edirik, sona kimi gedin. Xahiş edirik, sona kimi gedin. Çünki bizim xalqımız bu vəziyyətdə, demək olar ki, 30 il yaşayıb.

*– Prezident Əliyev, amma demək olar belə çıxmır ki, Sizin bu müharibədən başqa yolunuz yoxdur, Siz hər sonuncu qarışı geri almaq üçün döyüşməlisiniz?*

– Bəli, mənim dediyim məhz budur. Lakin, eyni zamanda, mən əvvəldən demişəm ki, əgər Paşinyan şəxsən özü, xarici işlər naziri deyil, şəxsən özü desə ki, Ermənistan Ağdamdan, Kəlbəcərdən, Laçından, boşaltmalı olduqları 3 qalan rayondan qoşunlarını çıxarır və bizə vaxt cədvəli versə, biz dərhal dayanarıq. Biz bu müharibəni davam etdirmək istəmirik. İstəmirik. Biz dayanmaq istəyirik. Mənim indi dediyim lap əvvəldən dediklərimdir. Məni tanıyan insanlar bilirlər ki, mən sözümə əməl edən insanam. Mən nə deyirəmsə, onu edirəm. Əgər Paşinyan bunu bu gün desə, sizə söz verirəm ki, biz dərhal dayanarıq. Amma o, bunu etmir. O, bunu etmir. O, geri almaq istəyir. O, öz qüvvələrini yenidən qruplaşdırmaq, daha çox insan səfərbər etmək üçün bu atəşkəs imkanından istifadə etmək istəyir. Qeyd etdiyiniz ki, indi o, hərbi dəstək üçün Prezident Putinə məktub göndərib, bununla da öz məğlubiyyətini etiraf edib. Əgər o, məğlubiyyətini etiraf edibsə, niyə demir ki, əraziləri boşaldacaq? Bu ərazilər Ermənistana məxsus deyil. Bu, bizim torpaqlarımızdır. Onlar bu əraziləri bizə geri qaytarmalıdırlar. Əgər onlar bunu etməsələr, dediyim kimi, biz sona qədər gedəcəyik. Dayanmağın yolu yoxdur.

*– Siz bilirsiniz Sizin qüvvələrinizin fəaliyyəti nəticəsində Dağlıq Qarabağda neçə mülki şəxs həlak olub?*

- Xeyr, bilmirik. Biz Ermənistanın Müdafiə Nazirliyinin rəsmi məlumatını eşitmişik. Biz bu rəsmi məlumata inanmırıq.

*– Onlar 45 mülki şəxs deyir.*

– Bəli, bilirəm 45, ya 47 – biz bilmirik. Mən bilmədiyim bir şeyi deyə bilmərəm. Lakin mən düşünürəm ki, bu, çox şişirdilib. Çünki biz onların kəndlərinə hücum etməmişik. Biz onların şəhərlərinə hücum etməmişik.

*– Hörmətli Prezident Əliyev, onların kənd və şəhərlərinə hücumlarla bağlı sənədli sübutlar var.*

– Mən hələ bitirməmişəm. Biz Xankəndiyə hücum etmişik, çünki Xankəndi hərbi istehkamlarla dolu idi, biz onları məhv etməli idik.

*– Mülki şəxslərin evləri dağılıb.*

- Müharibə vaxtı bu, bəzən baş verir. Belə olur. Biz o qədər dəqiq deyilik, əgər onların artilleriyası düz evin yanındadırsa. Bu, Gəncədə olduğu kimi deyil ki, onlar bəlkə də 20-30 kilometr radiusunda heç bir hərbi obyektin olmadığı mülki obyektə qəsdən ballistik raketlərlə hücum etdilər.

*– Mülki şəxslərin ölümü ilə bağlı məlumatlar Sizi narahat edirmi?*

– Bəli, əlbəttə. Mən təəssüf edirəm. Təəssüf edirəm ki, bu, baş verib. Mən qohumlarını itirən hər kəsə başsağlığı verirəm. Mən Dağlıq Qarabağdakı mülki şəxsləri nəzərdə tuturam. Lakin yenə də münaqişənin miqyasını nəzərə alaraq, yenə də hər bir insanın həyatı qiymətsizdir deyərək, itkilər yenə də çox aşağıdır. Bu, onu göstərir ki, biz mülki şəxslərə qarşı döyüşmürük. Bilirsiniz onlar 1990-cı illərdə müharibədə neçə mülki şəxsi qətlə yetiriblər? Minlərlə, minlərlə. Xocalı soyqırımında onlar 63-ü uşaq, 106-sı qadın olmaqla, 613 günahsız insanı qətlə yetiriblər, onların yalnız azərbaycanlı olduqlarına görə. Xocalı soyqırımı çox yaxşı tanınan sübuta yetirilmiş faktdır.

*– Siz bu qışda Dağlıq Qarabağda humanitar fəlakət təhlükəsinin olmasını qəbul edirsiniz? Siz yaxınlaşırsınız və tezliklə ərazini mühasirəyə almaq mövqeyində ola bilərsiniz. İçəridəki mülki şəxslərin taleyi necə olacaq?*

– Bu sual mənə yox, Paşinyana verilməlidir ki, dayansın və mən necə dayanmağı deyirəm.

*– Lakin Siz onları təcrid edə bilərsiniz. Əgər Sizin qüvvələriniz onları təcrid etsə, onlar necə sağ qalacaq?*

– Biz onların qayğısına qalacağıq. Onların qayğısına qalacağıq. Buna qətiyyən şübhə olmasın. Biz onları hər şeylə - ərzaqla, su ilə, hər şeylə təmin edəcəyik. Buna şübhə olmasın. Münaqişənin ilk saatlarında bizim bütün hərbi komandirlərimiz məndən birbaşa göstəriş alıblar ki, mülki şəxslərin qayğısına qalınmalıdır. Siz bizim Hadrutda tapdığımız yaşlı iki adam haqqında əhvalatı bilirsiniz? Onların qohumları və hərbçilər onları, sadəcə olaraq, tərk edərək qaçmışdılar. Bir qadın və bir kişi, təxminən 90 yaşlarında. Biz onları buraya, Bakıya gətirdik, xəstəxanaya yerləşdirdik və onları Ermənistana təhvil verdik. Bilirsiniz nə baş verdi? Həmin yaşlı kişi artıq sərhəddə, Qazaxda, buradan uzaqda olanda, ermənilər onu qəbul etməkdən imtina etdilər. Onlar dedilər ki, o, xəstədir, tezliklə öləcək, biz onu istəmirik. Bilirsiniz? Onlar məhz belə etdilər. Həmin şəxs Qırmızı Xaçın himayəsi altında xəstəxanaya yerləşdirildi və qadın onlara təhvil verildi. Əfsuslar olsun ki, kişi öldü. Biz mülki şəxslərlə bu cür davranırıq. Ona görə də, hazırda Dağlıq Qarabağda yaşayan həmin mülki şəxslər tam əmin ola bilərlər ki, biz onların qayğısına qalacağıq və onlar Azərbaycanın himayəsi altında daha yaxşı yaşayacaqlar.

*– Lakin onların təxminən 90 mini artıq qaçıb. Görünür Sizin təminatlarınız onları sakitləşdirmir.*

– Bizdə olan məlumata görə, Dağlıq Qarabağda yaşayan real əhali 60-70 min nəfər olub. Bütün bu rəqəmlər çox şişirdilib. Ona görə də, mən şübhə edirəm ki, 90 min nəfər qaça bilər, çünki maksimum 70 min nəfərdir.

*– Prezident Əliyev, Sizə uzunmüddətli perspektivlə bağlı sual verə bilərəm? Cənubi Qafqazın gələcəyini necə görürsünüz? Buraya sülhün gəlməyini necə görürsünüz? Demək istəyirəm ki, Azərbaycanla Ermənistan arasında nə vaxtsa sülhün olacağı günü görürsünüzmü?*

– Bəli, əgər mənim mövqeyimi soruşursunuzsa, düşünürəm ki, bu, mümkündür. Lakin bu, təkcə məndən asılı deyil. Bu, yalnız Ermənistan tərəfindən asılıdır. Müharibənin bu 40 günü ərzində mən dəfələrlə demişəm ki, Cənubi Qafqazın 3 ölkəsinin birlikdə işləyəcəyi günü görmək arzusundayam, necə ki, məsələn, biz yaxın strateji tərəfdaşımız və dostumuz olan Gürcüstanla edirik. Baxın, biz onlarla neçə layihə həyata keçirmişik, bizim əlaqələrimiz necə yaxındır. Bu əlaqələr tarixi irsə,

praqmatizmə, maraqlarımızın balansına əsaslanır. Niyə Ermənistan təcrid olunub? İşğal səbəbindən. Əgər siz, məsələn, bizim enerji və nəqliyyat layihələrimizin xəritəsinə baxsanız görərsiniz ki, onlar Ermənistandan yan keçir. Bizim resurslarımızı beynəlxalq bazarlara nəql etməyimiz üçün ən qısa yol Ermənistandan keçir və biz 1990-cı illərdə bunu onlara təklif etmişik. Biz dedik - əraziləri boşaldın, gəlin, Ermənistan ərazisindən keçməklə Naxçıvan və sonra Türkiyəyə daxil olan kəmər tikək, onda biz bütün ölkələrin maraqlarını birləşdirərik, regionun bütün ölkələrini müəyyən mənada bir-birindən asılı edərik və bu, sülhün təminatı olar. Onlar dedilər – yox. Mən Minsk qrupu həmsədrləri vasitəsilə, - onlar bunu təsdiqləyə bilərlər, - dəfələrlə maliyyə yardımı, Dağlıq Qarabağda sosial proqramlar, büdcəmizdən maliyyələşmə təklif etmişəm, əgər onlar əraziləri boşaltsalar. Onlar deyiblər – yox. Mən Dağlıq Qarabağa muxtariyyət, dünyada mümkün olan ən yüksək muxtariyyət təklif etmişdim. Ermənistan dedi – yox. Onlar hər şeyə “yox” deyiblər. Beləliklə, indi baş verənlər onların günahıdır. Yeri gəlmişkən, onların Qarabağ klanı tərəfindən devrilmiş ilk prezidenti məqalə dərc etdirərək deyib ki, - bu, 1990-cı illərin ortalarında olub, - azərbaycanlılar indi bizə təklif etdiklərini bir daha təklif etməyəcəklər.

*- Siz indi Dağlıq Qarabağ üçün muxtariyyət statusunu qəbul edərsiniz?*

– İndi mən bu barədə danışmamağa üstünlük verirəm. Çünki indi yerində vəziyyət dəyişib. Lakin mən bunu dəfələrlə təklif etmişdim və ermənilər bunu rədd etdilər.

*– Beləliklə, Siz indi Dağlıq Qarabağ üçün nə istəyirsiniz?*

- Dağlıq Qarabağ Azərbaycanın tərkib hissəsidir. O, hər hansı başqa rayon kimi Azərbaycanın bir hissəsi olaraq qalacaq. Bu, yenə də Ermənistan hökumətinin necə davranacağından asılı olacaq. Onların məntiqli olması üçün hələ də çox gec deyil. Onların danışıqlar masasında daha çox şey əldə etmələri üçün hələ də çox gec deyil. Çünki biz digər şəhər və kəndlərə nəzarəti ələ keçirəndən sonra danışılacaq bir şey qalmayacaq. Beləliklə, onlar vaxt itirirlər. Əgər onlar məntiqli davransalar, biz bəzi özünüidarəetmə formaları üzərində işləyə bilərik. Biz bunun əleyhinə deyilik. Lakin onlar Azərbaycanın ərazi bütövlüyünü pozmamalıdır. Onlar İtaliya, İsveç və Finlandiya kimi Avropa ölkələrinin öz aralarında sahib olduğu ən yaxşı təcrübəyə əsaslanmalıdır. Niyə bundan fərqli olmalıdır? Sonra əlbəttə ki, regiona sülh gələcək. Zənnimcə, səmimi desək, Ermənistanın bu baş naziri ilə sülh üçün hər hansı imkanın olduğunu düşünmürəm. Ermənistanda hökumət dəyişməli, məntiqli insanlar, qan axıdılması və hərbi cinayətlərlə əlaqəsi olmayan insanlar gəlməlidirlər və sonra düşünürəm ki, birgə addımlarla biz Cənubi Qafqazda Azərbaycan, Gürcüstan və Ermənistan arasında Sovet İttifaqı dövründə mövcud olmuş əməkdaşlığın yeni formatını yarada bilərik. Bizim dost münasibətlərimiz var idi. Biz birlikdə yaşayırdıq.

*– Sülh naminə Sizin təklif edə biləcəyiniz hər hansı bir kompromis varmı? Sizin indi verməyə hazır olduğunuzu söyləyə biləcəyiniz nəsə varmı?*

– Digər tərəf kompromis arzulamadığı halda, mən kompromis təklif edə bilmərəm. Bilirsiniz, bu müddət ərzində Ermənistanın baş naziri də bir neçə dəfə xarici jurnalistlərə müsahibə verib. Rusiya televiziyasında bir veriliş var. Onlar eyni sualı mənə də, ona da verdilər. Məndən kompromis barədə soruşanda, mən sizə söylədiyimi dedim. Ondan 3 dəfə kompromis barədə soruşanda o dedi – Dağlıq Qarabağda yaşayan ermənilər üçün öz müqəddəratını təyinetmə. Amma bu, kompromis deyil. Onlar hansı kompromisə getməyə hazırdırlar? Yeri gəlmişkən, bu gün onların kompromisə getmək imkanları azalır. Çünki biz həmin əraziləri güc yolu ilə geri qaytarırıq. Bizim kompromis hələ də masanın üzərindədir. Lakin əgər biz bütün əraziləri geri qaytarsaq, 100 faiz zəmanət yoxdur ki, bu, masada olacaq. Onda biz nə barədə danışacağıq? Beləliklə, hazırda Ermənistanın baş naziri üçün, onun özü üçün ən yaxşısı odur ki, mənə qulaq assın, açıq şəkildə desin ki, “Biz Ağdamı, Kəlbəcəri və Laçını boşaldırıq”, biz dayanarıq, atəşkəs olar, əgər onlar onu yenidən pozmasalar və biz sizin qeyd etdiyiniz məsələlərə - status, muxtariyyət, mədəni muxtariyyət, icma və digərlərinə geri qayıdarıq. Biz ədalətli ola bilərik. Mən həmişə xalqımıza düz danışıram. Bu gün vəziyyət dəyişib. Ona görə də, mənim bir il bundan əvvəl, iki il bundan əvvəl onlara təklif etdiyim, ola bilsin ki, etibarsızdır. Lakin bu barədə danışmaq tezdir.

*– Sizin sülh yolu ilə həllə ümidiniz varmı?*

– Bəli, ümidim var. Çünki indi mənim ümidim bizim döyüş meydanındakı uğurumuza əsaslanır. Mənim ümidim Ermənistanın konstruktiv mövqeyinə əsaslanmır. Çünki bizim döyüş meydanında gördüklərimiz, Füzulidə, Cəbrayılda gördüklərimiz, biz gördük ki, onlar əraziləri boşaltmağı planlaşdırmırdılar. Onlar bizə yalan danışırdılar. Onlar Minsk qrupunun həmsədrlərinə yalan danışırdılar. Çünki onlar o istehkamlara o qədər vəsait yatırıblar ki, oraları heç vaxt boşaltmazdılar. Buna görə Füzuliyə nəzarəti ələ almaq bizim çox vaxtımızı apardı. Sonra biz Araz çayı boyu Ermənistanla dövlət sərhədinə doğru hərəkət edəndə bir neçə kənddə çox şiddətli toqquşmalar oldu. Bu müdafiəni yarmaq bir neçə gün vaxtımızı aldı.

*-Prezident Əliyev, icazənizlə mən Sizə BBC-nin Azərbaycan xidməti adından sual vermək istəyirəm. Əgər öz dilinizdə cavab verməyə şad olsanız, düşünürəm ki, onlar çox şad olarlar. Bu münaqişədən sonra burada, Azərbaycan xalqı üçün necə gələcək görürsünüz. Bəziləri deyər ki, bilirəm Siz razılaşmazsınız, lakin bəziləri deyər ki, bu, hələ də tam azadlığı, tam insan haqları olmayan cəmiyyətdir. Əgər münaqişə bitərsə, Siz sülhün dividend gətirəcəyini görürsünüzmü? Düşünürsünüzmü ki, cəmiyyət onları düşündürən Dağlıq Qarabağ məsələsini geridə qoyacaq? Burada hansı gələcəyi görürsünüz.*

-Mən hesab edirəm ki, ölkəmizin gələcəyi çox parlaq olacaq. Biz son illər ərzində çox böyük uğurlara

imza atmışıq. Ölkəmizin həm siyasi, həm iqtisadi sahələrdə uğurları bu gün beynəlxalq təşkilatlar tərəfindən də qəbul edilir. Beynəlxalq arenada böyük uğurlar əldə edilib. Azərbaycan bu gün çox güclü bir ölkəyə çevrilib. Ölkə daxilindəki bütün məsələlər öz həllini tapır. Əlbəttə ki, Dağlıq Qarabağ münaqişəsinin həlli ölkəmizə yeni nəfəs verəcək. İnsanlar, ilk növbədə, öz dədə-baba torpaqlarına qayıdacaqlar, öz yaxınlarının qəbirlərini ziyarət edə biləcəklər. Azərbaycan dövləti mütləq bu işlərdə onlara maksimum kömək göstərəcək. Biz işğaldan azad edilmiş torpaqları yenidən quracağıq, evlər, inzibati binalar, məktəblər tikiləcək. Beləliklə, ölkəmiz üçün yeni bir dövr başlanacaq. Bu yeni dövr böyük imkanlar açacaq, təkcə iqtisadi sahədə yox, eyni zamanda, siyasi münasibətlər sahəsində hesab edirəm ki, müsbət meyillər daha da güclənəcək. Azərbaycan beynəlxalq arenada öz rolunu daha da artıracaq. Azərbaycana olan hörmət daha da artacaq ki, biz güclü dövlət kimi öz ərazi bütövlüyümüzü, ədaləti və beynəlxalq hüququ bərpa edirik. Beləliklə, ölkəmizin gələcək inkişafı əminəm ki, çox uğurlu olacaq. Biz bu günə qədər qarşımızda duran bütün vəzifələrə uğurla çatmışıq. Bəyan etdiyim bütün hədəflərə çatmışıq. Ərazi bütövlüyümüzün bərpası, torpaqlarımızın qaytarılması mənim Prezident kimi başlıca vəzifəm idi. Mən şadam ki, bu vəzifənin öhdəsindən də şərəflə gəlirəm və Azərbaycan xalqının dəstəyi, zəhməti və cəsarəti hesabına biz torpaqlarımızı qaytarırıq. Azərbaycan xalqının fədakarlığı bir daha onu göstərir ki, biz böyük xalqıq, biz birlik nümayiş etdirmişik və bu birlik bizi daha da gücləndirəcək, ölkəmizi daha da qüdrətli ölkəyə çevirəcəkdir.

## *Vətən müharibəsində Qələbəyə həsr olunmuş Zəfər paradında İlham Əliyevin nitqi*

Hörmətli Türkiyə Cümhuriyyətinin Prezidenti, əziz qardaşım Rəcəb Tayyib Ərdoğan.

Əziz hərbçilər.

Hörmətli qonaqlar.

Xanımlar və cənablar.

İlk növbədə, xahiş edirəm ki, Vətən müharibəsində həlak olmuş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilsin.

Allah bütün şəhidlərimizə rəhmət eləsin!

Bu gün tarixi bir gündür. Bu gün Azadlıq meydanında Zəfər paradı keçirilir. Mən çox şadam ki, bu paradda mənim dəvətimi qəbul edərək Türkiyə Cümhuriyyətinin Cümhurbaşqanı, əziz qardaşım Rəcəb Tayyib Ərdoğan iştirak edir. Eyni zamanda, Türkiyədən gəlmiş böyük nümayəndə heyəti, türk əsgər və zabitləri iştirak edirlər. Bu, bir daha bizim birliyimizi, dostluğumuzu və qardaşlığımızı göstərir.

Vətən müharibəsinin ilk günlərindən, daha doğrusu, ilk saatlarından biz Türkiyənin dəstəyini hiss edirdik. Türkiyənin Cümhurbaşqanı Rəcəb Tayyib Ərdoğan ilk saatlardan Azərbaycanın haqq işinə öz dəstəyini verdi. Onun açıq, birmənalı və sərt açıqlamaları Azərbaycan xalqını çox sevindirdi. Mənim qardaşım demişdir ki, bu müharibədə Azərbaycan haqlıdır, demişdir ki, Azərbaycan tək deyil və Türkiyə hər zaman Azərbaycanın yanındadır. Bu, birliyimizin, qardaşlığımızın təzahürüdür. Türkiyənin Azərbaycana verdiyi siyasi və mənəvi dəstək hər bir Azərbaycan vətəndaşını qürurlandırır, sevindirir. Bu gün biz birlikdə Zəfər paradında iştirak edərkən, bir daha bizim birliyimizi həm xalqlarımıza, eyni zamanda, bütün dünyaya göstəririk.

Azərbaycan 44 gün ərzində parlaq qələbə qazanaraq Ermənistanı məğlub etdi, işğala son qoydu. Bu 44 günün hər günü bizim şanlı tariximizdir. Hər gün Azərbaycan Ordusu irəli gedirdi, hər gün yeni şəhərlər, kəndlər, qəsəbələr, yüksəkliklər azad edilirdi. Azərbaycan əsgəri, Azərbaycan zabiti bir amalla vuruşurdu ki, bu işğala son qoyulsun, bu haqsızlığa son qoyulsun, ədalət zəfər çalsın, tarixi ədalət zəfər çalsın və buna nail olduq.

Azərbaycan əraziləri 30 ilə yaxın işğal altında idi. 1990-cı illərin əvvəllərində Ermənistanın Azərbaycana qarşı işğalçılıq siyasəti torpaqlarımızın işğal altına düşməsinə səbəb olmuşdu. Əslində, Ermənistanın təcavüzkar siyasəti hələ 1980-ci illərin sonlarından başlamışdı. O vaxt indiki Ermənistan Respublikasında yaşamış 100 minlərlə azərbaycanlı öz dədə-baba torpaqlarından didərgin salındı. Zəngəzur, Göyçə, İrəvan mahalı bizim tarixi torpaqlarımızdır. Bizim xalqımız bu torpaqlarda əsrlərboyu yaşayıb, ancaq Ermənistan rəhbərliyi o vaxt 100 minlərlə azərbaycanlını öz doğma torpaqlarından didərgin salmışdır. Ondan sonra Dağlıq Qarabağda eyni mənzərə müşahidə olunurdu, Ermənistan tərəfi zor gücü ilə Azərbaycanın dinc əhalisinə qarşı hərbi cinayət törətmişdir, Xocalı soyqırımını törətmişdir. Ondan sonra 1992-ci ilin may ayında Şuşa şəhərinin və Laçın şəhərinin işğala məruz qalması Ermənistanla Dağlıq Qarabağ arasında coğrafi bağlantı yaratmışdı. 1993-cü ilin aprel ayında Kəlbəcər rayonunun işğal altına düşməsi bizim vəziyyətimizi daha da ağırlaşdırdı və faktiki olaraq sonrakı işğalçılıq siyasətinin davam etdirilməsinə səbəb oldu.

Biz uzun illər bütün beynəlxalq tədbirlərdə bu məsələ ilə bağlı həqiqətləri çatdırırdıq, böyük iş aparılmışdır və bu işin səmərəsi oldu. Baxmayaraq ki, biz ərazi bütövlüyümüzü döyüş meydanında qazandıq, hesab edirəm ki, son illər ərzində apardığımız siyasi və diplomatik səylər öz bəhrəsini verdi, bütün aparıcı beynəlxalq təşkilatlar Azərbaycanın ərazi bütövlüyünü tanıdı və bunu dəstəklədi. BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsi, BMT Baş Assambleyasının qətnamələri, İslam Əməkdaşlıq Təşkilatı, Qoşulmama Hərəkatı, Avropa Parlamenti və digər təşkilatlar Azərbaycanın haqq işini dəstəklədi. Beləliklə

münaqişənin həlli üçün hüquqi zəmin yaradılmışdır. Eyni zamanda, bizim məqsədyönlü səylərimiz nəticəsində münaqişə ilə bağlı, Qarabağın tarixi ilə bağlı dünya ictimaiyyətinə dolğun məlumat çatdırıldı, Ermənistanın yalançı təbliğatına son qoyuldu və bütün dünya gördü ki, Qarabağ bizim əzəli tarixi torpağımızdır. Azərbaycan xalqı əsrlərboyu bu torpaqlarda yaşayıb, qurub-yaradıb, eyni zamanda, bütün dünya görüb ki, beynəlxalq hüquq baxımından Dağlıq Qarabağ Azərbaycanın ayrılmaz hissəsidir.

Biz bu illər ərzində güc toplayırdıq, həm siyasi müstəvidə, beynəlxalq təşkilatlar çərçivəsində, həm də ölkə daxilində iqtisadiyyatımızı gücləndirirdik, biz ordumuzu gücləndirirdik. Bunun nəticəsində Azərbaycan son illər ərzində çox uğurlu inkişaf yolu keçmişdir və ildən-ilə bizim üstünlüyümüz özünü daha qabarıq şəkildə büruzə verirdi. Ermənistan bizimlə rəqabət apara bilmədi. Mən son 17 il ərzində dəfələrlə demişdim ki, Ermənistan öz xoşu ilə bizim torpaqlarımızdan işğalçı qüvvələrini çıxarmasa, biz bu məsələni hərbi yollarla həll edəcəyik. Mən 2003-cü ildə Prezident vəzifəsinə seçiləndə Konstitusiyamıza və müqəddəs Qurani-Kərimə əl basaraq and içmişdim ki, Azərbaycanın ərazi bütövlüyünü qoruyacağam. Bu gün böyük qürur hissi ilə deyə bilərəm ki, Azərbaycan öz istədiyinə nail oldu, tarixi ədaləti, beynəlxalq hüququ bərpa etdi.

Biz dünyada gedən prosesləri diqqətlə izləyirdik və görürdük ki, son illərdə beynəlxalq hüquq və prinsiplər kobudcasına pozulur. Bəzi ölkələr güc tətbiq edərək öz məqsədlərinə çatırlar, beynəlxalq hüquq kağızda qalır, BMT Təhlükəsizlik Şurasının qətnamələri kağızda qalır. Belə olan halda münaqişənin hərbi yollarla həll edilməsi qaçılmaz idi. Bundan əlavə, son illər ərzində, xüsusilə son 2 il ərzində Ermənistanın təxribatçı addımları, bəyanatları, hərəkətləri müharibəni qaçılmaz etmişdi. Ermənistan rəhbərliyinin çox zərərli və təhlükəli bəyanatları demək olar ki, danışıqlara son qoymuşdu. "Qarabağ Ermənistandır" deməklə Ermənistan rəhbərliyi danışıqlara son qoymuşdu. Bizim tarixi torpaqlarımızda xaricdən gətirilmiş erməniləri məskunlaşdırmaq hərbi cinayətdir, beynəlxalq konvensiyalara ziddir. Bu, faktiki olaraq danışıqlara son qoyurdu, danışıqları mənasız edirdi və biz bunu görürdük, hiss edirdik və öz sözümüzü beynəlxalq kürsülərdən dünya ictimaiyyətinə çatdırırdıq. Bu ilin sentyabr ayında, müharibəyə 3 gün qalmış mən BMT Baş Assambleyasının kürsüsündən demişdim ki, Ermənistan yeni müharibəyə hazırlaşır, Ermənistan dayandırılmalıdır. Belə də oldu və bu il bizə qarşı 3 dəfə hərbi təxribat törədildi. İyul ayında Ermənistan-Azərbaycan dövlət sərhədində hərbi təxribat törədildi və Ermənistan bizim torpaqlarımızı işğal etmək istədi. Amma biz layiqli cavab verərək onları yerinə oturtduq. Avqust ayında Azərbaycana diversiya qrupu göndərildi. O diversiya qrupu da zərərsizləşdirildi. Nəhayət sentyabrın 27-də bizim kəndlərimiz, hərbi mövqelərimiz artilleriya atəşinə məruz qalmışdır, mülki şəxslər, hərbçilər arasında itkilər olmuşdur. Biz dedik yetər artıq, bu işğala son qoyulmalıdır və son qoyulacaqdır. Mən Ali Baş Komandan kimi əmr verdim ki, Azərbaycan əsgəri irəli, torpağımızı azad etməliyik, işğala son qoymalıyıq, işğalçını cəzalandırmalıyıq və belə də oldu. Azərbaycan 44 gün ərzində istədiyinə nail oldu, ədaləti bərpa etdi.

Bu 44 günün hər günü bizim şanlı tariximizdir, hər gün Azərbaycan irəli gedirdi. Bu 44 gün ərzində bir gün də olmamışdır ki, biz geri çəkilək. Biz Ermənistanın 30 ilə yaxın müddət ərzində qurduğu istehkamları yararaq keçmişik. Bu istehkamlar elə qurulmuşdu ki, Azərbaycan oradan keçə bilməsin, əsgərimiz oradan keçə bilməsin. Eyni zamanda, Dağlıq Qarabağ ərazisinin coğrafi relyefi də Ermənistan tərəfi üçün daha əlverişli idi. Azərbaycan əsgər və zabitləri böyük qəhrəmanlıq, şücaət göstərərək şərəfli missiyanı yerinə yetirdi və öz doğma torpaqlarını işğalçılardan azad etdi. Cəbrayıl, Füzuli, Zəngilan, Qubadlı rayonları, eyni zamanda, Suqovuşan qəsəbəsi, Hadrut qəsəbəsi, Xocalı rayonunun bir hissəsi, Kəlbəcər rayonunun bir hissəsi, Murovdağ silsiləsi, Laçın rayonunun cənub hissəsi, strateji yüksəkliklər döyüş meydanında düşməndən azad edildi, orada Azərbaycan bayrağı qaldırıldı. Şanlı müharibəmizə Şuşa şəhərində yekun vuruldu. Noyabrın 8-də Şuşa şəhərinin azad edilməsi tarixi nailiyyətimizdir. Şuşa işğal altına düşmüş birinci şəhərimiz idi və işğaldan azad edilən sonuncu şəhər oldu. Şuşa işğaldan azad ediləndən sonra düşmənin beli qırıldı, düşmən təslim olmağa məcbur qaldı. Şuşanın azad edilməsi tarixi hadisədir. Bizim Ordumuz, qəhrəman övladlarımız dağlardan, dərələrdən, meşələrdən, cığırlardan keçərək, sıldırım qayaları qət edərək, qayalara dırmaşa-dırmaşa Şuşaya qalxaraq orada əlbəyaxa döyüşdə düşməni məhv etdi, Azərbaycan bayrağını Şuşada qaldırdı. Ondan bir gün sonra daha 70 kənd işğalçılardan azad edildi və Ermənistan artıq təslim oldu, ağ bayraq qaldırdı, diz çökdü, öz layiqli cəzasını aldı və imdad dilədi. Biz Ermənistanı döyüş meydanında məhv etdik. Biz ermənilərin uzun illər yaratdıqları mifi darmadağın etdik. Onlar öz ordusu haqqında yalan məlumat ötürərək mif yaratmışdılar, guya Ermənistan ordusu yenilməz ordudur. Cəmi 44 gün ərzində Ermənistan ordusu məhv edildi, hərbi texnikası məhv edildi, canlı qüvvəsi məhv edildi və Azərbaycan öz gücünü, öz qüdrətini göstərdi.

Mən demişəm ki, biz güc toplayırıq və bu gücü toplamışıq. Biz bu qələbəni həm peşəkarlıq, qəhrəmanlıq hesabına, eyni zamanda, milli ruh hesabına qazanmışıq. Biz haqlı idik, haqq-ədalət bizim tərəfimizdə idi. Bizim əsgər və zabitlərimiz hücuma keçəndə bir amalla yaşayırdı ki, öz doğma torpaqlarını işğalçılardan azad etsinlər. Noyabrın 10-da Ermənistan məcbur olub kapitulyasiya aktına imza atıb. Bu kapitulyasiya aktına görə, bir güllə atmadan Kəlbəcər, Laçın və Ağdam rayonları Azərbaycana qaytarıldı, Azərbaycan bayrağı orada qaldırıldı. Bu, onu göstərir ki, biz müharibəni həm döyüş meydanında, həm siyasi müstəvidə qazanmışıq. Halbuki bir çoxları, xüsusilə bu məsələ ilə məşğul olan vasitə-

çilər dəfələrlə demişdilər ki, münaqişənin hərbi həlli yoxdur. Amma biz sübut etdik ki, münaqişənin hərbi həlli var. Əks-təqdirdə, bu nə hərb, nə sülh vəziyyəti bundan sonra da 30 il davam edə bilərdi. Biz buna nə qədər dözə bilərdik? Biz nə qədər səbir göstərə bilərdik? Mən dəfələrlə demişdim ki, Azərbaycan xalqının səbri tükənib və əgər Ermənistan işğal edilmiş torpaqlardan öz xoşu ilə çıxmasa, biz onları oradan qovacağıq, onlar rədd olmalıdırlar bizim torpaqlarımızdan! Mən bunu müharibədən əvvəl və müharibə dövründə demişəm, xalqa müraciətlərimdə demişəm, xarici mətbu orqanlara verdiyim müsahibələrdə demişəm. Demişəm ki, Ermənistan bizim torpaqlarımızdan öz xoşu ilə rədd olmalıdır, etiraf etməlidir və çıxmalıdır. Əks-təqdirdə sona qədər gedəcəyik və sona qədər getdik. Ona görə biz döyüş meydanında qələbə qazandıq. Ondan sonra, siyasi müstəvidə qələbə qazandıq, düşməni məcbur etdik ki, Kəlbəcər, Laçın və Ağdam rayonlarını azad etsin və bizim torpaqlarımızı tərk etsin.

Bu zəfər tarixi zəfərdir. Azərbaycan xalqı bu günü 30 ilə yaxın müddət ərzində gözləyirdi, 30 ilə yaxın müddət ərzində Ali Baş Komandanın əmrini gözləyirdi. Mən dəfələrlə Azərbaycan xalqına müraciət edərkən deyirdim ki, biz daha güclü olmalıyıq və nəyi nə vaxt, necə etmək lazımdır, biz bilirik. Həyat göstərdi ki, vaxtında addımlar atdıq, bütün gücümüzü səfərbər edərək bir dəmir yumruq yaradıb düşmənin başını əzdik. Müharibə dövründə mən deyirdim ki, bizim dəmir yumruğumuz həm birliyimizi, həm də gücümüzü təcəssüm etdirir. Bu dəmir yumruq düşmənin belini qırdı, düşmənin başını əzdi. Bu gün biz qəhrəman xalq kimi bu bayramı qeyd edirik. Azərbaycanın müzəffər Ordusu öz tarixi missiyasını yerinə yetirdi, Ermənistanı məğlub etdi. Ermənistan ordusu demək olar ki, yoxdur, məhv edilib. Bundan sonra əgər erməni faşizmi bir daha baş qaldırsa, nəticə eyni olacaq. Yenə Azərbaycanın dəmir yumruğu onların belini qıracaq.

İndi isə bizim üçün yeni dövr başlayır - quruculuq dövrü. Mənfur düşmən işğal edilmiş bütün torpaqları yerlə-yeksan edib. Bu məlumat artıq hər kəsdə var, videogörüntülər var. Azad edilmiş ərazilərə mənim səfərlərim bunu göstərir. Bütün binalar, bütün tarixi abidələr, məscidlər, qəbirlər, məzarlıqlar mənfur düşmən tərəfindən dağıdılıb. Biz onların hamısını bərpa edəcəyik. Artıq bərpa işləri başlanmışdır.

Mən bir daha Azərbaycan xalqının qəhrəmanlığını dilə gətirmək istəyirəm. Mənfur düşmən döyüş meydanında məğlubiyyətə uğrayarkən mülki əhaliyə qarşı hərbi cinayətlər törədib, bizim şəhərlərimizi ballistik raketlərlə, fosforlu bombalarla, kasetli bombalarla atəşə tutub. Bu namərd atəş nəticəsində 100-ə yaxın mülki vətəndaş, onların arasında uşaqlar, qadınlar həlak olublar. Dörd yüzdən çox mülki vətəndaş yaralanıb, beş mindən çox ev dağıdılıb, ya da ki, o evlərə ziyan vurulub. Ancaq Azərbaycan vətəndaşı öz torpağından bir addım geri atmayıb. Deyirdilər ki, öldü var, döndü yoxdur, sona qədər gedəcəyik. Müharibə dövründə Ermənistan ordusunda 10 mindən çox fərari olub. Azərbaycan Ordusunda bir dənə də fərari olmayıb. Yaralı əsgər və zabitlərimiz hərbi hospitallarda, xəstəxanalarda həkimlərdən xahiş edirdilər ki, bizi tezliklə sağaldın, biz qayıdaq döyüş meydanına, biz öz missiyamızı başa vurmalıyıq. Azərbaycan xalqı öz böyüklüyünü göstərdi, yüksək mənəvi ruhunu göstərdi. Bu Qələbənin səbəbkarı da Azərbaycan xalqıdır. Biz birlik, iradə, əzmkarlıq, milli ruh göstərərək tarixi missiyamızı yerinə yetirdik.

Bundan sonra Azərbaycan yalnız inkişaf edəcək. Bizim azad edilmiş torpaqlara bundan sonra həyat qayıdacaq. Mən demişəm ki, bizim hər birimiz bu işdə fəal olmalıyıq. Biz düşmən tərəfindən dağıdılmış şəhər və kəndlərimizi birlikdə bərpa edəcəyik. Bizim iradəmiz də var, imkanlarımız da var.

Azadlıq meydanında paradlar çox keçirilib. Ancaq bu paradın xüsusi önəmi var. Bu, Zəfər paradıdır. Bu, tarixi hadisədir. Paradların birində mən demişdim ki, parada 2016-cı ildə Lələtəpə yüksəkliyində qaldırılmış bayraq gətiriləcək. Demişdim ki, gün gələcək və bu gün işğaldan azad edilən torpaqlarda qaldırılan Azərbaycan bayrağı Azadlıq meydanına gətiriləcək və bu gün gəldi. Bu tarixi günün şahidi bizik, Azərbaycan xalqıdır. Biz bundan sonra ancaq və ancaq irəli gedəcəyik.

Öz çıxışımı məşhur kəlamla yekunlaşdırmaq istərdim. Hər kəs bilir ki, Ermənistan rəhbərliyi bir il bundan əvvəl demişdi ki, "Qarabağ Ermənistandır və nöqtə". Mən isə demişdim ki, "Qarabağ Azərbaycandır və nida". Bu gün bütün dünya görür ki, Qarabağ Azərbaycandır! Qarabağ bizimdir! Qarabağ Azərbaycandır! Eşq olsun Azərbaycan Ordusuna! Yaşasın Türkiyə-Azərbaycan dostluğu, qardaşlığı! Yaşasın Azərbaycan əsgəri!

## *Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Dünya azərbaycanlılarına müraciəti*

Əziz həmvətənlər!

Hörmətli soydaşlar!

Əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuş 31 Dekabr – Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü münasibətilə sizi ürəkdən təbrik edir, hər birinizə səmimi arzu və diləklərimi çatdırıram.

2020-ci ili bütün dünyada koronavirus pandemiyası ilə gərgin mübarizə şəraitində başa vururuq. Yaranmış vəziyyətdən minimum itkilərlə çıxmaq üçün Azərbaycan hökuməti ilk günlərdən ardıcıl tədbirlər həyata keçirmişdir. Bu addımlar, habelə Azərbaycanın köməyə ehtiyacı olan dövlətlərə humanitar yardımları Ümumdünya Səhiyyə Təşkilatı tərəfindən yüksək qiymətləndirilmişdir.

Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının və 120 dövlətin təmsil olunduğu Qoşulmama Hərəkatının sədri kimi Azərbaycanın təşəbbüsü ilə hər iki təsisatın COVID-19-a qarşı mübarizəyə həsr olunmuş videoformatda Zirvə görüşü baş tutmuşdur.

Cari ilin dekabr ayında Qoşulmama Hərəkatının sədri qismində Azərbaycanın təşəbbüsü əsasında və 150-dən artıq dövlətin dəstəklədiyi BMT Baş Assambleyasının koronavirusa qarşı dövlət və hökumət başçıları səviyyəsində Xüsusi Sessiyası keçirilmişdir. Bu, Azərbaycanın qlobal proseslərdə fəal iştirakının, ölkəmizə olan hörmətin, beynəlxalq dəstəyin əyani göstəricisidir.

Ermənistanın danışıqlar prosesini sarsıdan təhrikçi açıqlamaları və əməlləri, iyul ayında dövlət sərhədinin Tovuz istiqamətində törətdiyi hərbi təxribat, qoşunlarını təmas xəttinə cəmləşdirməsi, terror əməllərini törətmək üçün diversiya qruplarını göndərməsi onun növbəti çirkin niyyətlərindən xəbər verirdi. Bu ilin sentyabr ayında BMT Baş Assambleyasının 75-ci sessiyası zamanı beynəlxalq ictimaiyyət Ermənistanın yeni müharibəyə hazırlaşması barədə xəbərdar edilmişdir.

Sentyabrın 27-də Ermənistanın ölkəmizə qarşı törətdiyi hərbi təcavüzə cavab olaraq Azərbaycan xalqı Vətən müharibəsinə qalxmışdır. Müzəffər Azərbaycan Ordusu hər anı qəhrəmanlıqlarla dolu 44 gün ərzində düşməni ağır məğlubiyyətə uğratmış və ölkəmizin ərazi bütövlüyünü bərpa etmişdir. Milli dövlətçilik tariximizdə və xalqımızın yaddaşında əbədi yaşayacaq şanlı Zəfər xalq-iqtidar birliyi, ordumuzun yüksək peşəkarlığı və gərgin siyasi-diplomatik fəaliyyət sayəsində əldə edilmişdir.

Ordumuzun ərazi-relyef baxımından son dərəcə mürəkkəb şəraitdə və qısa müddətdə həyata keçirdiyi “Dəmir yumruq” əməliyyatı dünya hərb tarixinə düşərək aparıcı hərbi mərkəzlər və mütəxəssislər tərəfindən öyrənilir.

Dekabrın 10-da Bakının Azadlıq meydanında keçirilmiş möhtəşəm Zəfər paradı Azərbaycan dövlətinin siyasi, iqtisadi və hərbi qüdrətini, xalqımızın iradəsini, ordumuzun qələbə əzmini, əsgər və zabitlərimizin sarsılmaz döyüş ruhunu nümayiş etdirmişdir.

Xalqımıza milli qürur və şərəf hissini, qələbə sevincini yaşadan, üçrəngli bayrağımızı işğaldan azad olunmuş torpaqlarımızda, Qarabağın tacı olan müqəddəs Şuşada dalğalandıran müzəffər ordumuzun bütün şəxsi heyətinə bir daha dərin minnətdarlığımı bildirirəm. Şəhidlərimizin ölməz ruhu qarşısında baş əyərək onlara Allahdan rəhmət diləyir, yaralı hərbçilərimizin tezliklə şəfa tapmasını arzulayıram.

Vətən müharibəsi zamanı Azərbaycan beynəlxalq informasiya məkanında öz sözünü deyərək ölkəmizə qarşı aparılan dezinformasiya kampaniyalarının qarşısını almış, Ermənistanın vandalizmini və mülki insanlara qarşı terror siyasətini beynəlxalq ictimaiyyətin diqqətinə çatdırmışdır.

Ermənistanın işğalı və vəhşiliyi nəticəsində başdan-başa dağıdılmış doğma Qarabağımızı əminəm ki, biz ən qısa zamanda əsl cənnətə çevirəcəyik.

Müqəddəs Vətən müharibəsi zamanı xaricdə yaşayan soydaşlarımızın düşmənin və anti-Azərbaycan dairələrin məkrli təxribatlarına qarşı cəsarətli etirazları, Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması işində fədakar xidmətləri Qələbəmizə layiqli töhfə olmuşdur.

Əziz həmvətənlər!

Doğma Azərbaycanımızın daha da güclənməsi və çiçəklənməsi naminə fəaliyyətinizdə hər birinizə uğurlar arzulayıram.

# DAVAMLI İNKİŞAFIN İDARƏ EDİLMƏSİ
# SUSTAINABLE DEVELOPMENT MANAGEMENT

UOT 328; 342.5; 351/354; 351

**URXAN ƏLƏKBƏROV**
**Azərbaycan Respublikasının Prezidenti yanında**
**Dövlət İdarəçilik Akademiyasının rektoru, akademik**
*e-mail: alakbarovuk@gmail.com*

## PREZİDENT İLHAM ƏLİYEVİN UNİKAL DÖVLƏT İDARƏÇİLİK TEXNOLOGİYALARININ PARLAQ HƏRBİ SINAĞI

Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən və uzun müddət işğal altında olan ərazilərin azad edilməsi ilə yekunlaşan 44 günlük Vətən müharibəsi strateji və taktiki baxımdan unikaldır və ölkə başçısı tərəfindən işlənilmiş innovativ idarəetmə texnologiyalarının praktiki tətbiqinin nəticəsidir. Bu gün Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə reallaşdırılan hərbi əməliyyatlarda istifadə olunmuş innovativ strategiya və yeni idarəetmə texnologiyaları dünyanın ən nəhəng hərbi qurumu olan ABŞ Müdafiə Nazirliyi (Pentaqon) tərəfindən tədqiq edilir. Yeni idarəetmə texnologiyaları və onların hərbi sahədə də tətbiqinə peşə marağı göstərənlər yalnız Pentaqon generalları deyillər. NATO, bu hərbi-siyasi quruma daxil olmayan dünyanın bir çox inkişaf etmiş ölkələrinin dövlət rəsmiləri və hərbi ekspertləri Azərbaycanın müzəffər ordusunun 44 günlük Vətən müharibəsi gedişində fərqli şəraitlərdə həyata keçirdiyi hərbi əməliyyatların planlaşdırılması və idarə edilməsi strategiya və texnologiyalarını ciddi tədqiqat obyektinə çeviriblər (1). Belə maraq təsadüfi deyil: Azərbaycanın hərbi qüvvələrinin parlaq strategiya və taktikası, nümayiş etdirdiyi yüksək peşəkarlıq dünyanın tanınmış ekspertləri tərəfindən 21-ci əsr müharibəsinin nümunəsi kimi dəyərləndirilir. Prezident cənab İlham Əliyev tərəfindən işlənilmiş milli inkişaf və təhlükəsizlik strategiyasına görə, yüksək hərbi hazırlıqla paralel diplomatiya və informasiya cəbhələrində də uğurlu fəaliyyət qələbənin vacib amili olmuşdur.

Azərbaycan Respublikasının bugünkü hərtərəfli uğurlu inkişafının əsasında səmərəli və innovativ dövlət idarəçiliyi durur. Bu prosesin əsasını Ümummilli Lider Heydər Əliyev qoymuş və olduqca mürəkkəb bir şəraitdə müstəqilliyini yenicə bərpa etmiş ölkənin dövlət idarəçilik sistemini qurmuşdur (2). Ölkə siyasi, iqtisadi və sosial böhrandan çıxmış, stabil inkişaf prosesinə qoşulmuşdur. Son 17 ildə isə Prezident İlham Əliyevin dövlət idarəçiliyində tətbiq etdiyi müasir elmə əsaslanan innovativ idarəçilik texnologiyaları inkişaf prosesini yeni səviyyəyə qaldırmaq imkanı yaratdı. Bu idarəçilik elminə əsaslanan tam yeni texnologiyalardır və ilk dəfə kompleks şəkildə Prezident İlham Əliyev tərəfindən həyata keçirilərək, istedada, geniş və dərin intellektə, ən müasir peşə biliklərinə əsaslanır. Ölkədə birinci Vitse-Prezident institutunun formalaşması, bu vəzifədə Mehriban xanım Əliyevanın milli və beynəlxalq səviyyədə parlaq fəaliyyəti iqtisadi nailiyyətlərin sosial və humanitar uğurlara səmərəli transformasiyasını təmin etmişdir (3). Bunun nəticəsidir ki, beynəlxalq təşkilatların dəyərləndirilmələrinə görə, müstəqilliyini nisbətən qısa bir zamanda bərpa etmiş Azərbaycan Respublikası öz iqtisadi və sosial göstəriciləri ilə yüz illər tarixi olan bəzi inkişaf etmiş ölkələr səviyyəsindədir, digər hallarda isə

onları da geridə qoyub və şərhsiz dünya lideridir. Bu, xüsusilə 21-ci əsrdə müasir dünyanın əsas prioriteti olan hazırkı və gələcək nəsillərin maraqlarına xidmət edən davamlı inkişaf və dayanaqlı iqtisadiyyata əsaslanan, hər bir vətəndaşın rifahını nəzərdə tutan inklüziv cəmiyyətin formalaşmasına aiddir. Bu gün Prezident İlham Əliyev tərəfindən ən müasir elmə əsaslanan belə bir platformanın yaradılması, 2030-cı il üçün hədəflinmiş milli prioritetlərin reallığından xəbər verir (4).

Hədəflər arasında davamlı inkişaf edən yüksək rəqabət qabiliyyətli dayanaqlı iqtisadiyyatın formalaşması prosesinin daha da surətləndirilməsi ən vacib prioritetdir. Davamlı inkişaf edən, yüksək rəqabət qabiliyyətli dayanaqlı iqtisadiyyatın bir neçə göstəricisi mövcuddur. Onların arasında ən əsası enerjidən səmərəli istifadədir. Bu göstəricinin vacibliyi əsasən üç amillə bağlıdır. Birincisi, az enerji istifadəsi ilə daha çox dəyəri olan məhsul istehsal etmək istehsalat xərclərini azaldır ki, bu da iqtisadi baxımdan əlverişlidir. İkinci xüsusiyyət onunla əlaqədardır ki, hazırda dünyada istifadə olunan enerjinin 70 faizdən çoxunu kömür, neft, qaz və digər oxşar "fossil" kimi məlum olan yanacaq mənbələri təşkil edir və onlar da əsasən bərpa olunmayan təbii ehtiyatlara aiddir. Eyni iqtisadi nəticə üçün bu enerji mənbələrinin daha az sərf olunması onların gələcək nəsillər üçün qorunmasına və gələcəkdə daha səmərəli istifadəsinə xidmət edir. Nəhayət, nisbətən az enerjidən istifadə etməklə daha çox məhsul istehsalı ətraf mühitə atılan və iqlim dəyişmələrinə təsir göstərən istixana qazlarının azalması üçün vacibdir. Enerjidən səmərəli istifadə bərpa olunan enerjiyə tam keçənə qədər və bu məqsədə nail olduqdan sonra da davamlı inkişaf, dayanaqlı iqtisadiyyat və inklüziv cəmiyyətin formalaşması üçün vacib amil olacaq.

Hərbi uğurları şərtləndirən innovativ və yüksək rəqabətə dayanaqlı iqtisadiyyatın vacib xüsusiyyəti olan enerjidən səmərəli istifadə ilə əlaqədar vəziyyət beynəlxalq statistikada bir necə üsulla dəyərləndirilir. Onlardan biri müxtəlif ölkələrdə bir vahid enerjinin istifadəsi ilə hansı dəyərdə ümumdaxili məhsulun istehsal olunmasına əsaslanır. Bu zaman məhsulun




**Şəkil 1.** Bir vahid enerjinin istifadəsi ilə istehsal olunmuş ümumdaxili məhsulun dəyəri (ABŞ dolları alıcılıq qabiliyyəti pariteti ilə (6).

dəyəri, alıcılıq qabiliyyəti nəzərə alınmaqla, ABŞ dollarında, enerji vahidi kimi isə bir kiloqram neftdə olan enerjinin miqdarı götürülür. Enerji müxtəlif mənbələrdən, o cümlədən istilik, atom elektrik stansiyalarından və yaxud bərpa olunan su, günəş, külək və digər mənbələrdən alına bilər. Lakin, miqdarca enerji vahidi kimi bir kiloqram neftdəki (bir bareldə mənbəyindən asılı olaraq təxminən 136 kiloqrama yaxın neft olur) enerji götürülür. Bu yanaşma onunla əlaqədardır ki, müəyyən zaman kəsiyində dünyada neftin qiyməti eynidir və bu da müxtəlif ölkələrin iqtisadiyyatında sərfiyyat-qazanc balansını müqayisə etməyə imkan verir (5).

Şəkil 1-dən göründüyü kimi, Beynəlxalq Valyuta Fondu, Dünya Bankı və BMT-nin 2020-ci ilə mövcud olan hesabatlarına əsasən, Azərbaycan Respublikasında bir vahid enerjinin istifadəsi ilə 11,6 ABŞ dolları dəyərində məhsul istehsal edilir və yaxud xidmətlər təqdim olunur (6).

Qeyd edilməlidir ki, Beynəlxalq Bankın hesabatlarına əsasən 2003-cü ildə Azərbaycanda bir vahid enerjinin istifadəsi nəticəsində istehsal olunmuş ümumdaxili məhsulun dəyəri 2,5 ABŞ dolları təşkil edirdi. Beynəlxalq Valyuta Fondunun və Dünya Bankının məlumatlarına əsasən, son 17 ildə innovativ idarəetmə və istehsal texnologiyalarının tətbiqi nəticəsində Azərbaycanda enerjidən istifadə səmərəliliyi 4 dəfədən çox artmışdır. Qazanılmış nailiyyət çox uğurlu hesab edilir, iqtisadi baxımdan yüksək inkişaf etmiş ölkələr səviyyəsindədir, bəzi hallarda isə daha üstündür. Məsələn, dünyada bir barel neftin dəyəri 50 ABŞ dolları təşkil etdiyi və Azərbaycanda miqdarca bir kiloqram neftdə olan enerjinin istifadəsi nəticəsində 11,6 ABŞ dolları dəyərində məhsul istehsal olunduğu halda səmərəlilik indeksi 31,5 bərabərdir. Həmin miqdarda enerjinin istifadəsi ilə 9,63 ABŞ dolları dəyərində məhsul istehsal edən və əhalisinin sayı Azərbaycanla təxminən eyni olan İsveçdə isə səmərəlilik göstərici daha aşağıdır və 26,1 təşkil edir. Beynəlxalq təşkilatların hesabatlarına əsasən, hazırda Azərbaycan iqtisadiyyatının enerji səmərəliliyi 17 faiz İsveçdən yüksəkdir. Göründüyü kimi, Azərbaycan bu gün artıq rəqabət qabiliyyətli dayanaqlı iqtisadiyyata malikdir və ölkə Prezidenti İlham Əliyev tərəfindən müəyyən edilən prioritetlər bu göstəricini daha da yüksəldəcək.

Azərbaycanda enerjidən istifadə səmərəliyinin yüksək olmasını bəzi şərhçilər ölkə iqtisadiyyatının xüsusiyyətləri, karbohidrat istehsalı və ixracı ilə əlaqələndirirlər. Bu mülahizənin düzgün olduğu təqdirdə digər, dünyada tanınmış neft və qaz istehsal və ixrac edən ölkələrdə də eyni vəziyyət müşahidə edilməlidir. Lakin, Şəkil 2-də təqdim olunmuş məlumatlar göstərir ki, bu qrupa daxil olan dünyanın əsas neft və qaz ixracatçıları arasında da bizim ölkə enerjinin səmərəli idarə edilməsi sahəsində liderdir. Beynəlxalq təşkilatların hesabatlarına görə, Azərbaycan Respublikası iqtisadiyyatının enerji səmərəliliyi Qətər, Oman, Səudiyyə Ərəbistanı, Rusiya Federasiyası, İran, Qazaxıstan kimi neft və qaz ixrac edən ölkələrin göstəricilərindən 1,5–2 dəfə yüksəkdir. Beynəlxalq təşkilatların hesabatlarına əsasən karbohidratları istehsal və ixrac edən ölkələr arasında yalnız Norveç Azərbaycan Respublikası ilə enerjinin səmərəli idarə edilməsi göstəricisinə görə rəqabət apara bilər (Şəkil 2).

Şəkil 2-dən göründüyü kimi, beynəlxalq təşkilatlar tərəfindən son ildə dərc edilmiş məlumatlara əsasın, Azərbaycan Respublikası tanınmış neft və qaz ixrac edən ölkələr arasında da təbii ehtiyatların səmərəli idarə edilməsi sahəsində liderdir. Bir daha qeyd edilməlidir ki, Azərbaycan Respublikasında son 17 ildə enerji səmərəliliyi 4 dəfədən çox artmışdır. Bu ölkə iqtisadiyatının artıq yüksək rəqabət qabiliyyətli və dayanaqlı olmasından xəbər verir. Əldə edilmiş bu nailiyyət göstərir ki, ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən müəyyən edilmiş prioritetlər bərpa edilən enerji şəraitində də olduqca perspektivli, realdır və ölkə iqtisadiyyatının rəqabət qabiliyyəti davamlı artacaq.

Müstəqilliyinin bərpasından sonra Azərbaycan Respublikasında dinamik, inklüziv və sosial




**Şəkil 2.** Neft və qaz ixrac edən ölkələr: bir vahid enerjinin istifadəsi ilə istehsal olunmuş ümumdaxili məhsulun dəyəri (ABŞ dolları alıcılıq qabiliyyəti pariteti ilə (6).

ədalətə əsaslanan cəmiyyətin qurulması hər zaman dövlət siyasətinin vacib istiqaməti olmuşdur. Prezident İlham Əliyev tərəfindən dövlət idarəçiliyində müasir elmə əsaslanan yeni sinergetik texnologiyaların tətbiqi, bu prosesdə ölkənin Birinci Vitse-Prezidenti, Heydər Əliyev Fondunun Prezidenti xanım Mehriban Əliyevanın fəal iştirakı nəticəsində sosial sahədə yüksək nəticələr əldə edilmişdir (7). Göstərilən istiqamətdə ölkədə yüksək sosial standartlara nail olunmuş və bu fakt əsas beynəlxalq təşkilatların hesabatlarında öz əksini tapmışdır. O hesabatlardan biri bu yaxınlarda Davos Dünya İqtisadi Forumunun təsisçisi və əvəzsiz prezidenti prof. K. Şvabın rəhbərliyi ilə hazırlanmış və dərc edilmişdir. Hesabatda dünyanın 146 ölkəsinin iqtisadi imkanları və bu imkanların ədalətli sosial siyasətə, əhalinin rifahına necə xidmət etdiyi təhlil edilmişdir. 600 səhifədən çox olan bu hesabatda Azərbaycan Respublikası iqtisadi imkanlarından sosial ədalətin və cəmiyyətdə bərabərliyin yüksək səviyyədə təmin olunması üçün istifadə edən və bu istiqamətdə ən uğurlu siyasət həyata keçirən ölkə kimi təqdim edilib. Qeyd edilən məlumat Şəkil 3-də müqayisəli şəkildə təqdim olunmuşdur. Azərbaycan Respublikasının göstəriciləri ABŞ, Almaniya, Danimarka, Braziliya və Cənubi Afrika kimi iqtisadi inkişaf etmiş və bir sıra istiqamətlərdə lider ölkələrlə müqayisə edilir. Qeyd edilməlidir ki, bu şəkil Prof. K. Şvabın Davos Dünya İqtisadi Forumu üçün hazırlanmış hesabatında təqdim olunduğu kimi verilmişdir.

Şəkil 3-dən göründüyü kimi, Azərbaycan Respublikasının iqtisadi imkanları təqdim edilmiş "böyük yeddilik" (G 7), "böyük iyirmilik (G 20) ölkələrinin mütləq əksəriyyətindən az olsa da, ölkə ədalətli sosial siyasəti uğurla tətbiq edir və artıq hazırda bu sahədə dünya lideridir. Bu isə onu göstərir ki, ölkə Prezidenti İlham Əliyev tərəfindən 2030-ci il üçün prioritet kimi hədəflənmiş sosial məqsədlərə uğurla nail olunacaq.




**Şəkil 3.** İqtisadiyyat və sosial siyasət: seçilmiş G 7, G 20 ölkələri və Azərbaycan Respublikası (8,9).

2030-ci il üçün planlaşdırılmış hədəflər arasında davamlı inkişaf, dayanaqlı iqtisadiyyat və uğurlu sosial siyasətin nəticəsi olan inklüziv cəmiyyətin formalaşması milli prioritet kimi müəyyən edilmişdir. Davamlı inkişafın nəticəsi kimi formalaşan inklüziv cəmiyyət son illərdə dünyanın əsas qlobal prioriteti kimi qəbul edilmişdir. İnklüziv inkişaf dövlət idarəçiliyinin elə bir yoludur ki, bu zaman ölkə hərtərəfli inkişaf edir və bu prosesin müsbət nəticələrini cəmiyyətin hər üzvü hiss edir. Ölkələrin bu sahədə əldə etdiyi nəticələri beynəlxalq təşkilatlar İnklüziv İnkişaf İndeksi (İİİ) kimi 12 iqtisadi, sosial, ekoloji və demoqrafik göstərici əsasında dəyərləndirir. Bu göstəricilər elə seçilib ki, onlar həm ölkənin hazırkı inklüzivlik durumu, həm də gələcəkdə inklüzivliyi təmin etmək potensialından xəbər versin.

Dünya ölkələrində inklüziv inkişafın vəziyyəti və İnklüziv İnkişaf İndeksinin (İİİ) hesablanması beynəlxalq ekspertlər tərəfindən ilk dəfə 2018-ci ildə aparılmışdır və Davos Forumunun rəsmi hesabatı kimi dünya ictimaiyyətinə təqdim edilmişdir. Bu tədqiqata əsasən Azərbaycan Respublikasının inklüziv inkişaf indeksi 4,69 bərabərdir. Bu, dünya ölkələri arasında 25-ci yerdir və olduqca yüksək nəticədir. Qlobal miqyasda ən müasir prioritet olan inklüziv cəmiyyətin formalaşması sahəsində Azərbaycan Respublikası ABŞ, Yaponiya, İsrail, İtaliya, İspaniya, Portuqaliya və digər dünya liderlərini geridə qoyub (şəkil 4).

Qeyd olunmalıdır ki, şəkil 4-də Azərbaycan ilə yanaşı təqdim edilmiş ölkələr ya "böyük yeddilik" (G 7) qrupuna daxildir və ya dünyanın 39 iqtisadi baxımdan ən inkişaf




**Şəkil 4.** İqtisadi yüksək inkişaf etmiş ölkələr və Azərbaycan Respublikasının inklüziv inkişaf indeksləri (8,9).

etmiş İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatın üzvüdürlər. Onların iqtisadi imkanları Azərbaycan Respublikasından əhəmiyyətli dərəcədə yüksəkdir. Dünya Bankının 2021-ci ildə dərc edilmiş hesabatlarına əsasən, şəkil 4-də göstərilən ölkələrdə adambaşına gəlirlər alıcılıq qabiliyyəti nəzərə alınmaqla Azərbaycan Respublikasından 2,1-4,3 dəfə çoxdur. Buna baxmayaraq, bizim ölkənin inklüziv cəmiyyətin formalaşması sahəsində qazandığı nailiyyətlər daha yüksəkdir.

Nisbətən az vəsait hesabına daha yüksək iqtisadi və sosial nəticələrin əldə edilməsi yalnız dövlət idarəçiliyində müasir elmin, innovativ texnologiyaların tətbiqi nəticəsində mümkündür. Prezident İlham Əliyevin dövlət idarəçiliyində dünyada ilk dəfə tətbiq etdiyi yeni, sinergetik, komplementar və kompensasion yanaşmaların imkanlarına əsaslanan texnologiyalar kompleksi iqtisadiyyatın dayanaqlılığını, inkişafın davamlılığını və cəmiyyətin inklüzivliyini qısa müddətdə yeni yüksək səviyyəyə qaldırmaq imkanı yaratdı. Bunun nəticəsidir ki, hazırda beynəlxalq təşkilatların dəyərləndirmələrinə görə, Azərbaycan Respublikası bu sahələrdə dünya liderləri sırasındadır, bəzi hallarda isə dünya lideridir. Qeyd edilməlidir ki, Prezident İlham Əliyev tərəfindən tətbiq olunan innovativ dövlət idarəçiliyi texnologiyaları yüksək səmərəliliyini 44 günlük şanlı Vətən Müharibəsi şəraitində parlaq nümayiş etdirdi.

Müasir elm və biliyə əsaslanan və Azərbaycanın dövlət idarəçiliyində istifadə olunan innovativ texnologiyaların inklüziv cəmiyyətdə həlledici amil olması daha bir beynəlxalq araşdırmadan da aydın olur. Şəkil 5-də Azərbaycan Respublikasında və “böyük yeddilik“ (G 7) ölkələrində inklüziv inkişaf indeksinin (İİİ) hər vahidinin “dəyəri” haqqında məlumat təqdim olunmuşdur. Şəkil 5-dən göründüyü kimi, Azərbaycan Respublikasında inklüziv inkişaf indeksinin hər vahidi 3840 ABŞ dollarına (alıcılıq qabiliyyəti pariteti nəzərə alınmaqla) başa gəlir. Eyni nəticəni əldə etmək və bu vəziyyəti gələcəkdə də təmin etmək üçün müqayisə edilən ölkələr 2,3-3,5 dəfə çox vəsait sərf edirlər.

Azərbaycan Respublikasının innovativ inkişafı, bu inkişafın mərkəzində insanın, onun




**Şəkil 5.** İnklüziv inkişaf indeksinin vahidinin dəyəri: G 7 ölkələri və Azərbaycan (8,9).

bilik və bacarıqlarının dayanması strategiyasının işlənilməsi və həyata keçirilməsi siyasəti 2003-ci ildən sonra xüsusilə sürətlənmişdir. 2003-cü ildə 175 ölkədən 11 000-dən çox nümayəndənin iştirakı ilə baş tutan və informasiya cəmiyyətinin inkişafına həsr edilmiş Dünya Sammitindəki çıxışında Prezident cənab İlham Əliyev "qara qızılın insan qızılına" çevrilməsi strategiyasını irəli sürdü. Bu strategiyanın başlıca məqsədi neftdən əldə edilən gəlirlərin insanların müasir bilik və bacarıqlarının formalaşmasına, insan potensialının inkişafına, bu potensialın iqtisadiyyatda insan kapitalına çevrilməsi idi. Planlaşdırılmış məqsədlərə nail olmaq üçün ölkədə təhsil, sağlamlıq və idman sahələri dinamik şəkildə inkişaf etdirilir, sosial məsələlər yüksək səviyyədə həll olunur, yeni biliklərə əsaslanan və neftdən asılı olmayan iqtisadiyyat formalaşır, müasir tələblərə cavab verən infrastruktur yaranır. Ölkənin proqressivliyi və ənənəvi olaraq multikultural prinsiplərlə idarə edilməsi bir nümunə kimi qlobal və beynəlxalq toplantıların gündəliyinə daxil edilir. Dövlət idarəçiliyində sinergetik texnologiyalara aid olan insan inkişafına dair fəaliyyətin həyata keçirməsində, ümumiyyətlə ölkənin dünyada imicinin formalaşdırılmasında ölkənin birinci Vitse-Prezidenti, Heydər Əliyev Fondunun Prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın əvəzsiz xidmətləri vardır. Bu xidmətlər sırasında eyni zamanda Mehriban xanım Əliyevanın YUNESKO-nun qeyri-maddi mədəni irs siyahısına Azərbaycandan nümunələrin daxil edilməsini xüsusi qeyd etmək lazımdır. Minilliklərlə məlum olan Azərbaycan muğamı, Azərbaycan aşıq sənəti, Qarabağ atları ilə oynanılan Çovqan atüstü oyunu və bir sıra digər milli qeyri-maddi mədəni irs nümunələrinin YUNESKO-nun siyahısına daxil edilməsi 2003-cü ildən başlanılmış və Mehriban xanım Əliyevanın ardıcıl səyləri nəticəsində baş tutmuşdur. Ümumiyyətlə, YUNESKO, İSESKO, digər beynəlxalq humanitar, elmi, təhsil, dini, mədəni təşkilatlarla fəal əməkdaşlıq Azərbaycan Respublikasının dövlət inkişafı kursunun yüksək humanitar standartlara cavab verdiyini bütün dünyaya nümayiş etdirib.

**Ədəbiyyat:**


1. Əliyev İ.H. Müsahibələr. https://president.az/articles/44279, 05.01.2021.
2. Əliyev H.Ə. https://heydaraliyev.preslib.az/biblioabout.php, 03.05.2020
3. Əliyeva M.A. https://www.trend.az/azerbaijan/politics/2726385.html, 03.95.2020
4. Əliyev İ.H. https://president.az/articles/50473, 05.02.2021
5. Ələkbərov U.K. İnklüziv inkişafın idarə edilməsinin əsasları. Bakı, Təhsil, 176 s.
6. https://data.worldbank.org/indicator/EG.GDP.PUSE.KO.PP, 05.01.2021
7. Ələkbərov U.K. Azərbaycan Respublikası və keçmiş SSRİ ölkələrində davamlı inklüziv inkişaf: müqayisəli təhlil. J. Dövlət İdarəçiliyi (İSSN 2309-1347), 2020, № 1 (69), s.123-138.
8. Schwab K. The Global Compentitiviness Report 2018, Geneva, 2018, 667 p.
9. https://www.weforum.org/reports/how-to-end-a-decade-of-lost-productivity-growth, 05.01.2021


***Açar sözlər:*** *inklüziv cəmiyyət, davamlı inkişaf, dövlət idarəçiliyi, insan inkişafı, ehtiyatların idarə edilməsi*

**Urxan Ələkbərov**
*Rector of the Academy of Public Administration*
*under the Presdident of the Republic of Azerbaijan, academician*

## AN EXCEPTIONAL MILITARY EXPERIENCE OF THE UNIQUE TECHNOLOGIES PRESIDENT ILHAM ALIYEV'S STATE ADMINISTRATION

### SUMMARY

As a result of the 44-day outstanding Patriotic War, conducted under the leadership of the President of the Republic of Azerbaijan, Supreme Commander-in-Chief Ilham Aliyev, the territorial integrity of the country has been restored and the requirements of the decisions of the UN Security Council have been fulfilled. Today, the new technologies applied in military operations, strategies and tactics are regarded by global military centers as examples of the 21st century war. These technologies used for defense purposes are elements of a unified comprehensive strategy for innovative management of state development. According to the international organizations, as a result of the application of these innovations, the Republic of Azerbaijan has become a global leader in the field of sustainable inclusive development.

***Keywords:*** *inclusive society, sustainable development, public administration, human development, resource management*

**Урхан Алакбаров**
*Ректор Академии Государственного Управления*
*при Президенте Азербайджанской Республики, академик*

## БЛЕСТЯЩЕЕ ВОЕННОЕ ИСПЫТАНИЕ УНИКАЛЬНЫХ ТЕХНОЛОГИЙ ГОСУДАРСТВЕННОГО УПРАВЛЕНИЯ ПРЕЗИДЕНТА ИЛЬХАМ АЛИЕВА

### РЕЗЮМЕ

В результате 44-х дневной Отечественной Войны, завершившейся Победой под руководством Президента Азербайджанской Республики, Верховного Главнокомандующего Ильхама Алиева, была восстановлена территориальная целостность страны и выполнены требующие этого резолюции Совета Безопасности ООН. Примененные в военных операциях новые стратегии и тактики оцениваются мировыми центрами силы как образцы войны XXI века. Осуществляемая в военной сфере деятельность анализируется как результат использования инновативных технологий в государственном управлении в стране. По оценкам международных организаций, Азербайджанская Республика является мировым лидером в области устойчивого инклюзивного развития, как основного приоритета современного мира.

***Ключевые слова:*** *инклюзивное общество, устойчивое развитие, государственное управление, человеческое развитие, управление ресурсами*

**DAVAMLI İNKİŞAFIN İDARƏ EDİLMƏSİ**
**SUSTAINABLE DEVELOPMENT MANAGEMENT**

UOT 351 ; UOT 338.2

**VÜSAL QASIMLI**
**İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin icraçı direktoru, Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının professoru, iqtisad elmləri doktoru**
*e-mail: vusal.gasimli@erefroms.gov.az*

# İQTİSADİ ARTIM: ÇAĞIRIŞLAR VƏ PERSPEKTİVLƏR

**Optimal idarəetmə**

Korona-böhranın maraqlı tərəfi bu oldu ki, dünya tarixindəki əvvəlki iqtisadi böhranlara nisbətən tez aradan qaldırılır, amma əvəzində Şumpeterin dediyi "yaradıcı dağılma" (creative destruction) baş vermədi: dünyada iqtisadi artım templəri aşağıdır, inflyasiya zəifdir, bərabərsizlik artır, iqtisadiyyatın struktur irəliləyişləri əhəmiyyətli deyil. Çünki korona-böhran əslində iqtisadi deyil, tibbi təhdid idi ki, sonradan pandemiyaya və iqtisadi böhrana gətirdi. İqtisadiyyat 2021-2022-ci illərdə bərpa olunacaq, amma yüksək artım trayektoriyasına keçid hələ ki, proqnozlaşdırılmır. Bu arada dünyada idarəetmə modelləri üç istiqamətdə haçalanıb: totalitar rəqəmsal diktatura, sosial rifah dövləti 3.0 və kvazi-dövlət rəqəmsal sistemləri. Keynsin dediyi kimi dövlətlər “mümkünsüz trillema”da üç hədəf – azadlıq, səmərəlilik və ədalətlilik arasında seçim edirlər. Eyni zamanda dövlət və cəmiyyət arasında Əcəmoğlu və Robinsonun təsvir etdiyi kimi “dar cığır”la inkişaf xətti müəyyənləşir. Azərbaycan Nobel laureatı Deni Rodrikin dediyi “aralıq institutlar”la bu dövrdə dövlət və millət quruculuğu prosesini Prezident İlham Əliyevin rəhbərliyi ilə uğurla aparır. Xüsusən də, ərazi bütövlüyünün bərpası, korona ilə mübarizədə son mərhələ - vaksinasiyaya ilk keçən ölkələrdən biri olmaq, aşağı neft qiymətləri şəraitində makroiqtisadi və ictimai-siyasi sabitliyi təmin etmək və yeni regional geosiyasi və geoiqtisadi arxitekturanın müəyyənləşdirilməsini görkəmli dövlət xadimi İlham Əliyevin idarəetməsinin aktivinə yazmaq olar. Prezident İlham Əliyev hər bir çağırışı imkana çevirməyi bacaran liderdir. Qaret Consun “10 faiz az demokratiya” kitabında izah olunur ki, əslində ən yaxşı nəticə optimal hökumətin qurulmasıdır. Prezident İlham Əliyev Azərbaycanda optimal idarəetməni qurduğundan biz dünya üçün “Böyük Depressiya”dan sonra ən böyük böhran ili - 2020-ci ili imkana çevirməyi bacardıq. Birinci vitse-prezident Mehriban Əliyevanın uğurlu fəaliyyəti ilə xüsusən də Azərbaycandakı bazar modelinə sosial rəng qatması ictimai müqavilə və harmoniya üçün vacibdir.

Yapon fəlsəfəsində “kintsugi” – “qızıl bərpa” anlayışına görə sınmış məişət əşyası elə zövqlə bərpa edilir ki, sınığın izləri qalsa da, əşyanın sonu yox, onun həyatının davamı göstərilir. 2020-ci ildə rastlaşdığımız çağırışlar həyatımızda izlərini saxlasa da, yeni reallıqda daha üstün pillədə dövlət və xalq olaraq inkişafımız təmin edilib.

**Milli prioritetlər əsasında yeni iqtisadi inkişaf strategiyası**

Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında Qarabağın azad edilməsindən sonra Azərbaycanda dövlət quruculuğu, milli iqtisadi inkişaf və ictimai həyat yeni mərhələyə qədəm

qoyub. İndi Azərbaycanın regional güc mərkəzi olaraq mövqelərinin daha da möhkəmləndirilməsi, bu istiqamətdə yeni narrativin yaradılması qarşıda duran əsas vəzifədir.

Aya adam göndərmək mürəkkəb məsələdir, amma bəlli bir "resepti" var. İqtisadi artımın isə hər bir ölkə üçün fərqli "resepti" işələnilməldir. Buna görə də, Amerikan professoru Matt Andryus qeyd edir ki, iqtisadi artım – kompleks problemdir və onun həlli "problemin hərəkət etdirdiyi və təkrarlara əsaslanan uyğunlaşma" (PDİA – problem-driven iterative adaptation) yanaşması ilə mümkündür. Yəni iqtisadi artım üçün əvvəlcə problemin dəqiq diaqnozu qoyulmalıdır, daha sonra problemin həlli üçün adaptiv strategiya işlənilməlidir. Korona böhran yeni iqtisadi artım modelinə keçid üçün yaxşı imkanlar yaratmışdır. Menecment üzrə alim Con Kotter qeyd edir ki, böhranlar dərin təşkilati dəyişikliklərə səbəb olur. Digər alim Kim Kameron da bildirir ki, institutsional dəyişiklikləri əsaslandıran uğurlardan deyil, böhranlardan əldə edilən nəticədir. Buna görə də böhrana imkan kimi baxmaq lazımdır. Belə bir deyim var ki, böyük hökumətlərin ortaya çıxması üçün bir böhrana ehtiyac var, lakin bütün böhranlar böyük hökumətlər yaratmır.

Milli prioritetlər sənədi əsasında iqtisadi artım probleminin dekonstruksiyası, yəni detallarına qədər xırdalanması vacibdir. Yaponların "beş niyə sualı" və ya "balıq skeleti" metodları ilə problemin daxilinə nüfuz etmək mümkündür. Məhz bu yolla problemlərin kök səbəblərini tapıb müalicə etməklə Toyota öz istehsalını demək olar ki, qüsursuz səviyyəyə çatdıra bilmişdi. 2010-cu illərdə Harvard Universitetinin dəstəyilə Albaniya hökuməti məhz bu metodologiyanı tətbiq etməklə yaratdığı strategiya əsasında ölkədə geyim sənayesinin inkişafını təmin etmişdir. Bu zaman Prezident Fərmanında göstərildiyi kimi, iqtisadi strategiyanın hazırlanmasına bütün maraqlı tərəflərin cəlb edilməsilə inklüzivlik təmin olunacaq. Strateji yol xəritələrinin yaratdığı institutsional yaddaşa əsaslanaraq deyə bilərəm ki, iqtisadi artımın problemlərini müəyyənləşdirəndən sonra, haradan başlamaq sualına cavab vermək üçün "3 A" (Authority, Acceptance, Ability) yanaşması tətbiq edilə bilər. Birincisi, iqtisadi artımın təmin edilməsi üçün səlahiyyətin (authority) olması vacibdir, daha sonra bütün maraqlı tərəflərin problemi başa düşərək icra etməsi (acceptance), bir növ sahiblik hissinin formalaşdırılması, üçüncüsü isə, imkanların (ability) olması şərtdir.

Bu işçi qrupları "müzakirə şura"ları (deliberation council) rolunu oynayaraq dövlət, biznes və vətəndaş cəmiyyəti nümayəndələri ilə birlikdə dəyər zənciri üzrə problemləri xırdalığına qədər aça bilər. Asiyadakı "iqtisadi möcüzə" göstərən ölkələrin təcrübəsi "müzakirə şura"larının effektivliyini sübut edib. 200-ə qədər "müzakirə şura"sı olan Yaponiyada hətta sumo güləşinin problemlərini çözən şura da fəaliyyət göstərir. Steykholder kapitalizminin ruhuna uyğun olaraq bütün maraqlı tərəflərin cəlb olunduğu işçi qrupların iqtisadi problemlərə dəqiq diaqnoz qoymaq imkanları var.

Harvard Universitetində aparılan tədqiqatlar göstərir ki, dünya üzrə cəmi 14,5 faiz liberallaşma islahatları iqtisadi artımın sürətlənməsi ilə nəticələnib. 18,2 faiz halda isə iqtisadi artım iqtisadi liberallaşmanın nəticəsidir. Buna görə də Azərbaycan hazır "resept"ləri deyil, yerli konteksti nəzərə almaqla və əsas çağırışların aradan qaldırılmasına fokuslanmaqla iqtisadi artımı bərpa edə və sürətləndirə bilər.

### Strateji planlaşdırma və çevik idarəetmə arasında balans

İngiltərənin baş naziri Uinston Çörçil deyirdi ki, "plan böyük əhəmiyyət kəsb etməsə də, amma planlaşdırma vacibdir". Beləliklə, Cənubi Koreyanın "iqtisadi möcüzəsini" planlar deyil, planlaşdırma prosesi özü izah edə bilər. Çünki planlaşdırma prosesi bütün steykholderləri əhatə edir, müzakirələr aparılır, ideyalar yaranır, vəziyyət öyrənilir, daha düzgün qərarlar alınır. Milli prioritetlər əsasında 2021-2025-ci illər üzrə sosial-iqtisadi inkişaf strategiyasının hazırlanması üçün işçi və alt işçi

qrupların yaradılması, habelə akademik, biznes və konsaltinq nümayəndələrinin, habelə beynəlxalq partnyorların cəlbi məhz sistemli planlaşdırma baxımından əhəmiyyətlidir. Cənubi Koreyada iqtisadi artımın lideri Park Çanq Hi və Sinqapur möcüzəsinin atası Li Kuan Yu məhz bu tip strateji planlaşdırmanı həyata keçiriblər.

Bununla yanaşı inkişafa adaptiv və çevik yanaşma da lazımdır. Biz strateji planlaşdırma və çevik idarəetmə arasında balans qurmalıyıq.

### Azərbaycanda iqtisadi artımın əsasları

İqtisadi artımın sürətləndirilməsi qarşıya qoyulan əsas vəzifədir. İqtisadi artımı coğrafi determinizmə və ənənədən asılılığa (path dependance) bağlayanlar bu suala cavab verə bilmirlər ki, necə olur ki, Sinqapur və Malayziya eyni hövzədə yerləşdikləri halda fərqli artım templəri ortaya qoymuşdur. "Millətlər niyə çökür?" əsərində Əcəmoğlu və Robinson iqtisadi artım üçün institutların effektivliyini əsas gətirirlər. Məsələn, Şimali və Cənubi Koreya, eləcə də Şərqi və Qərbi Almaniyanın təcrübəsi göstərir ki, hətta eyni coğrafiyada eyni millətlər müxtəlif institutların təsiri altında fərqli inkişaf səviyyələrinə malik olurlar. Təsadüfi deyil ki, istər strateji yol xəritələrində, istərsə də yeni milli prioritetlərdə intitutsional islahatlara geniş yer ayrılıb. Amma eyni bir hüquqi rejim, valyuta, makroiqtisadi şəraiti olan bir ölkənin içərisində hər nəfərə düşən gəlirin fərqlənməsi, misal üçün Türkiyədə İstanbul, İzmir, Ankara və Qarsda gəlir səviyyələrinin müxtəlifliyi məsələnin institutların effektivliyilə tam izah edilməsini çətinləşdirir. Harvard professoru Rikardo Hausman bu məsələnin izahını başqa bucaqdan verir. Hausmana görə iqtisadi artımda əsas məsələ kollektiv bilik və bacarıqlardır (personbayt). Çünki texnologiya hamı üçün əlçatardı, əsas bu texnologiyalardan istifadə etməyi bacaran insanların olmasıdır. Beləliklə, personbaytı çox olan dövlətlər daha mürəkkəb - kompleks məhsullar istehsal edirlər. Harvard Universitetinin hesabladığı Kompleksliik indeksi məhz bu prinsipin üzərində dayanır. Ölkə nə qədər çox kompleks məhsul istehsal etsə, bir o qədər də çox nou-haudan istifadə edəcək. Məsələn, bu gün bizim regionumuzda meyvə-tərəvəzi bütün ölkələr istehsal edə bilir, amma neft-kimya məhsulu kimi kompleks məhsulu az ölkə ərsəyə gətirir. Harvard Universitetinin təklif etdiyi metodologiya əsasında müəyyənləşdirmək olur ki, əgər ölkə iqtisadiyyatının komplekslilik səviyyəsi milli gəlir səviyyəsindən aşağıdırsa iqtisadi artım zəifləyəcək. Bizim araşdırmalar göstərir ki, bu baxımdan Azərbaycan komplekslilik indeksini milli gəlir səviyyəsinə uyğunlaşdırmaq və onu aşmaqla iqtisadi artımı sürətləndirə bilər.

Beləliklə, iqtisadi artım üçün fundamental məsələlər bunlardı: effektiv institutlar, texnologiya, mədəni kodların yenilənməsi və coğrafiyanın üstünlüyü.

### İqtisadi Komplekslilik

Bunun üçün daha çox kollektiv nou-hauya malik olmaq, personbaytı artırmaq və mövcud sektorların yaxınlığında olan sektorlara keçməklə iqtisadi artımı sürətləndirmək mümkündür. Çünki biz "aşağıda asılmış meyvələri" (low-hanging fruits) dərməklə aşağı risk və mənfəətlə qənaətlənmiş olarıq. Yox əgər mövcud iqtisadiyyatımıza uyğun gəlməyən və biliklərimizi üstələyən sektorlara sıçrayış etmək istəsək, qazancımızla yanaşı, risklərimizi də artıra bilərik. Bir sözlə, pomidor kimi az kompleks və təyyarə kimi çox kompleks məhsulun arasında balanslı mövqe tutmağımız məsləhətdir ki, risk və qazancı tarazlaşdıraq. İqtisadi artımın sürətlənməsi və diversifikasiya zaman alan prosesdir, buna görə də, vaxt itirmədən Prezidentin tapşırığına uyğun olaraq milli prioritetlərin əsasında yeni strategiya işlənilir.

Məhsulun kompleksliliyi artdıqca, onun istehsalını daha az ölkə həyata keçirir. Biz yalnız başqalarının daha az istehsal etdiyi və daha çox kompleks olan məhsulları istehsal etməliyik ki, ixracın diversifikasiyasına nail olaq. Professor Hausman qeyd edir ki, 1960-cı illərdə Tayland və Qana eyni inkişaf səviyyə-

sində olsa da, indiki fərqləri altı dəfəyə yüksəlib. Çünki Tayland mərhələlərlə əvvəlcə yüngül sənaye, daha sonra elektronika və maşınqayırma sahələrinə keçid etməyi bacardı, Qana isə yerində saydı. 1971-ci ildə müstəqillik qazandıqdan sonra xarici yardımlardan asılı vəziyyətdə olan və Kissincerin "dibsiz səbət" adlandırdığı Banqladeş bu gün Çindən sonra ikinci ən böyük geyim ixracatçısına çevrilməyi bacarıb.

Sadəcə bir həqiqəti qəbul etməliyik ki, Azərbaycan iqtisadiyyatında dominant olan karbohidrogen sektoru başqa sahələrlə əlaqəsi zəifdir və buradakı nou-haunu başqa sahələrdə tətbiq etmək imkanı məhduddur. Məsələn, biz ən müasir neft texnologiyalarını və bilikləri, uzağa getməyək, plastik sənayesində istifadə edə bilmərik. Dubayın təcrübəsi göstərir ki, biz modern infrastruktur, ixtisaslı əmək qüvvəsi və əlverişli biznes mühiti təklif etməklə "əvvəlcədən potensial tələbi" (in advance of demand) yarada və sərmayə cəlb edə bilərik. Bu hesaba vaxtilə iqtisadiyyatının yarısını neft təşkil edən Dubayda "qara qızıl"ın payı hazırda 1 faizə enib. Azərbaycanın "Qlobal Rəqabətlilik hesabatı"nda infrastruktura və "Doing Business" hesabatında isə əlverişli biznes mühitinə görə dünya üzrə ilk 30-luqda qərarlaşması bu baxımdan xüsusi qeyd olunmalıdır.

Varlı ölkələrin təcrübəsi göstərir ki, iqtisadi artım zamanı daha çox diversifikasiyaya üstünlük vermək lazımdır. Burada bir incə məqam var. İnsanlar nə qədər dar ixtisaslaşmaya getsələr, iqtisadiyyatlar da bir o qədər diversifikasiya olacaq. Beləliklə, mikro səviyyədə ixtisaslaşma makro səviyyədə diversifikasiyaya və deməli, iqtisadi artıma gətirir.

### Bilik və bacarıqların iqtisadiyyatı

Bir məsələ də var ki, biz xammalı son məhsula çevirməklə paralel, həm də biliklərimizin üzərinə daha çox bilik gətirməliyik. Məsələn, meşə ilə zəngin olan Finlandiya nə oduncaq, nə də ki, mebeldən deyil, daha çox kompleks məhsullardan gəlir götürür. Finlər əvvəlcə klassik iqtisadçıların dediyi kimi oduncaq, sonralar ənənəvi iqtisadçıların məntiqinə əsasən ağac materialları və mebel istehsal etdikləri halda, nəhayətdə ağac kəsən maşınların üzərində işləyərək maşınqayırma sənayesinə keçdilər. Harvard Universitetinin Artım Laboratoriyasının hazırladığı nəzəriyyəyə əsasən Finlandiya bacarıqlarının üzərinə bacarıq gətirdi, daha sonra da Nokia telefonunun istehsalına başladı. Göründüyü kimi, Finlandiya yalnız öz xammalının üzərinə gətirdiyi dəyərlə kifayətlənmədi, həm də yeni sahələrdə iqtisadiyyatını şaxələndirməklə, personbaytlarını artırmaqla inkişaf etmiş ölkəyə çevrildi. Bu iqtisadi artımın incə fəlsəfəsidir. Böyük filosofumuz Nizami buna görə deyirdi ki, "qüvvət elmdədir!" Bizim əsas sərvətimiz, cənab Prezident qeyd etdiyi kimi insan kapitalıdır. Təhsil səviyyəsi yüksək olan Almaniyanın təcrübəsi göstərir ki, iqtisadiyyatı şaxələndirən pioner şirkətlər bəzən beyini kənardan gətirirlər. Elə "Silikon vadisi" də bu baxımdan fərqlənmir. Bütün dünya "beyin ovu"ndadır, çünki iqtisadi artımı personbaytlar – bilikli və səriştəli insanlar təmin edir. Məsələn, ABŞ universitetlərində xaricdə doğulan professorlar üstünlük təşkil edir. Bu baxımdan, biz miqrasiya siyasətini elə tənzimləməliyik ki, beyin axınına yol verməmədən, əksinə beyin cəlb edə bilək ki, iqtisadi artımı dəstəkləyək, üstəlik modern təhsil və təlimlə bacarıq, səriştə və biliklərimizi artıraq.

Facebook-un Whatsup-ı alması təcrübəsi göstərir ki, əgər imkan varsa, hazır texnologiyaları almaq daha sərfəlidir, nəinki onu yaratmaq. Bu gün 50 milyard dolları aşan strateji ehtiyatlarımız imkan verər ki, mövcud texnologiyaları personbaytı ilə birlikdə alaq. Vençur fondları bu sahədə çox iş görə bilər: bir platforma olaraq izafi maliyyəni biznes ideyaların gerçəkləşməsinə yönəldər. Bir sıra suveren fondlar bu sahədə investisiyalar qoymaqla innovativ inkişafı dəstəkləyirlər.

Azərbaycanın tətbiqi elm istiqamətində getməsi məqsədəuyğun olardı, nəinki fundamental. Məsələn, bizim İT şirkətlərinin soft həllər və soft development, habelə platforma yaratmaq sahəsində daha çox imkanı var, nəinki Teslanın etdiyi kimi fundamental R&D həyata keçirmək. Biz hazır texnologiyaların

tətbiqi sahəsində getməliyik. Bu yaxınlarda görüşdüyümüz Azərbaycanın aparıcı İT şirkətləri də hökumətlə bu istiqamətdə dialoq quraraq biznes mühiti üzrə növbəti islahatlar barədə təkliflərini təqdim ediblər. Deyə bilərəm ki, informasiya və rabitə xidmətləri Azərbaycanda böhrana qədərki müddətdə ikirəqəmli artım göstərib, keçən il isə az da olsa böyüyüb.

Dördüncü Sənaye İnqilabı Mərkəzinin afilə edilmiş qurumunu yaratmaqla Azərbaycan həm də rəqabət üstünlüyü olan bio, fiziki və rəqəmsal texnologiyalar sahəsində ixtisaslaşmalıdır.

İİTKM xərclər-buraxılış və tarazlıq modellərinin əsasında sahələrarası və məhsullararası multiplikator effektlərini öyrənir. Amma iqtisadiyyatı canlandırmaq üçün bu kifayət etmir, həm də biliklərin – nouhauların bir sahədən başqasına transferini təmin etmək lazımdır. Texnologiyanın üç komponenti var: alətin özü, davranış qaydası və personbayt, yəni səriştə və bilik. Aləti və ondan davranış qaydasını əldə etmək asandır, ən çətini biliklərin və səriştələrin yayılmasıdır, onun bir insandan başqasına keçididir. Məsələn, Barselona futbol klubunda Barselona şəhərindən olan futbolçular demək olar ki, yoxdur. Barselona klubunu sahibi futbol komandasını necə yaratmağı, yəni nouhau-nu bilir. Məhsulu necə yaratmağı bilmək – yəni nou-hou, məhsul üçün resursdan daha vacibdir. Belə olmasaydı, məhdud və əlverişsiz şəraitə malik olan İsrail özündən ərazicə 823 dəfə böyük olan Rusiyaya aqrar məhsullar ixrac etməzdi. Balıq deyil, tilov və ondan istifadə bacarığı daha vacibdir.

## Artım diaqnostikası

Ricardo Hausmann, Dani Rodrik və Andres Velaskonun birgə yazdığı "Artım diaqnostikası" əsərində göstərilir ki, islahatlar biristiqamətli deyil, kompleks olanda, yəni ən azından, başlıca problemləri aradan qaldıranda uğurlu olur. Məsələn, ötən əsrin sonlarında El Salvador və Argentina Çilidəki islahatları təkrarlasalar da, onlarda "Çili möcüzəsi" baş vermədi. Bir ölkədə eyni vaxtda bütün fundamental şərtlərin (əlverişli biznes mühiti, sabitlik, ədalətli məhkəmə, yaxşı infrastruktur, insan kapitalı, maliyyəyə çıxış və s.) paralel mövcudluğu iqtisadi artımı təmin edə bilər, əsas şərtlərdən cəmi birinin ödənməməsi kifayətdir ki, iqtisadi artım tormozlansın. Cəmi bir sahədə idarəetmə və ya bazar uğursuzluğu qalarsa, islahatların müvəffəqiyyətinə təhlükə yarana bilər.

Bu baxımdan cənab Prezidentin beş əsas milli prioriteti paralel həyata keçirməyi tapşırması əhəmiyyətlidir.

Bu il Dünya Bankı Azərbaycanda iqtisadi artımın 2,8 faiz, gələn 3,9 faiz olacağını proqnozlaşdırır. Beynəlxalq Valyuta Fondunun "Qlobal İqtisadi Mənzərə" hesabatına əsasən Azərbaycanda iqtisadi artımın 2021-ci ildə 2,3 faiz, 2022-ci ildə isə 1,7 faiz olacağı proqnozlaşdırılır. Eyni zamanda BVF Azərbaycanda cari əməliyyatlar balansı üzrə proqnozları da pozitivə doğru yeniləmişdir. Belə ki, cari əməliyyatlar balansının defisitinin ÜDM-ə nisbəti 2021 və 2022-ci illərdə müvafiq olaraq 3,6 və 4,4 faiz olaraq proqnozlaşdırdığı halda, yeni hesabatda müvafiq defisit profisitlə əvəz olunmaqla 1,1 və 0,5 faiz ətrafında qiymətləndirilmişdir.

Birincisi, iqtisadi artımın adekvatlığı müəyyənləşdirilməlidir. Məsələn, artım faizi müqayisə oluna biləcək ölkələrdəki analoji göstərici ilə tutuşdurulmalıdır və ya artımın dövlətin qarşıya qoyduğu hədəflərə uyğunluğu araşdırılmalıdır. Milli prioritetlərdə qarşıya qoyulan məqsəd iqtisadi artımın yüksək trayektoriyaya keçirilməsidir. İkincisi, tədiyyə balansının tarazlığı və fiskal dayanıqlılıq baxımından iqtisadi artımın davamlılığına baxılmalıdır. Azərbaycanda tədiyyə və fiskal balans son illərdə ümumilikdə qənaətbəxşdir, eyni zaanda, neft amilininin təsirinin azalması trendinə uyğun olaraq iqtisadi artımın dayanıqlılığının artırılması üçün yeni strategiyada fəaliyyətlər nəzərdə tutulub. Üçüncüsü, iqtisadi artımın inklüziv olması, yəni cəmiyyətin bütün təbəqələrinin iqtisadi artımdan faydalanması üçün imkanların yaradılmasıdır. Azərbaycan

inkişaf etməkdə olan ölkələrin arasında iqtisadiyyatın inklüzivliyinə görə ilk üçlükdədir və 2030-cu ilə qədər Azərbaycan əhalisinin BMT hesabatına əsasən 600 min nəfər artmasını da nəzərə alaraq inklüzivliyin saxlanılması hədəflənir. Dördüncüsü, iqtisadi artım "baha başa gəlməli" deyil.

**İqtisadiyyatın "hərəkətverici qüvvələri"**

"Hərəkətverici qüvvələr" anlayışına İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzində aparılmış "xərclər-buraxılış modeli" - hesablamalar əsasında cavab vermək mümkündür. Burada iki yanaşma var: birincisi, multiplikator yanaşması, digəri isə sektorun özündən əvvəl (backword linkage) və özündən sonra (forward linkage) gələn sektorlara nə dərəcədə təsir göstərməsidir. İqtisadiyyatın sahələri 4 əsas multiplikator üzrə effekt yaradır: buraxılış (output) multiplikatoru, əmək gəliri multiplikatoru, məşğulluq multiplikatoru və əlavə dəyər multiplikatoru. Məsələn, bizim hesablamalara görə, buraxılış multiplikatoru 26 istiqamətdə, o cümlədən, elektrik avadanlığı, geyim, ərzaq, əczaçılıq, kimya və içki sənayesində 2-dən çoxdur və ən yüksəkdir. Yəni bu sahələrin buraxılışı ümumi iqtisadiyyata daha çox təsir göstərir. Neft-qaz hasilatının isə buraxılış multiplikatoru 1,16 olmaqla ən aşağı həddə yaxındır, bu sahənin artımının ümumi məhsul buraxılışına birbaşa təsiri cüzidir.

Eyni zamanda, aqrar sahə, turizm və özünüməşğulluq proqramı daha çox məşğulluq, neft-kimyası kimi sektorlar daha çox əlavə dəyər, maliyyə-bank sektoru kimi sektorlar isə daha çox əmək gəliri yaradır. Biz iqtisadiyyatın şaxələndirilməsi zamanı bu xüsusiyyətləri, yəni buraxılışı, əmək gəlirlərini, məşğulluğu və əlavə dəyəri nəzərə almaqla optimallaşdırmaya getməliyik. Mövcud resurslarımız, coğrafiya, qlobal trendlər və yerli şərait, həm də ənənə və perspektivlər milli iqtisadiyyat quruculuğunda nəzərə alınası məsələlərdir.

Milli Prioritetlərdə göstərilən iqtisadi suverenliyi təmin etmək üçün ÜDM-in tərkibində xarici komponentin – qoyuluşun (input) optimallaşdırılmasına da ehtiyac var.

İqtisadi artımı tətikləyən sahələri diqqətlə seçməliyik. Məsələn, Azərbaycanda tikintinin məhsulundan 84 sahə (downstream) faydalanır, tikinti özü isə 44 sahənin (upstream) məhsulundan və xidmətindən yararlanır. Beləliklə, tikinti elə bir həlqədir ki, onun vasitəsilə bütün zənciri tərpətmək, eyni zamanda, həm tələb, həm də təklif yaratmaq mümkündür. Qarabağda tikinti bumu bu mənada bütün iqtisadiyyatı canlandıra bilər. Tikintinin hər 3 manatlıq buraxılışına qarşı 1 manat da idxal düşdüyündən tikintidə istifadə olunan məhsul və xidmətləri də mümkün qədər yerli istehsalın hesabına təmin etməklə əlavə dəyər yarada bilərik. Tikinti qədər emal sənayesi də "upstream" və "downstream" istiqamətlərində təsir imkanlarına malikdir. Çünki istər kənd təsərrüfatı məhsulu olsun, istərsə də dağ-mədən, emal sənayesi xammal resursuna dəyər əlavə etməklə, emal dərinliyini artırmaqla iqtisadiyyatı canlandırır, əlavə dəyər və iş yeri yaradır.

Biz texnologiyaları daha çox idxal etdiyimizdən, onun "downstream" təsiri daha çoxdur və texnologiyalar iqtisadi səmərəliliyi yüksəldir. "Downstream"də ticarət, maliyyə-bank, biznes, rabitə və informasiya xidmətləri, "upstream"də isə turizm daha çox təsirə malikdir. Bir sözlə, biz dəyər zəncirində həlledici həlqələrin üzərində daha çox fokuslanmaqla - nöqtəvi təsirlə iqtisadi artımı təmin edə bilərik.

Hazırda İİTKM-də bütün sektorların həm daxili resurs dəyəri əsasında rəqabət qabiliyyəti təhlil edilir, həm də sektorun başqa sahələrə təsirini ifadə edən dispersiya effekti hesablanır. Əgər iqtisadi təhlükəsizlik üçün təhdid yaratmırsa, rəqabət üstünlüyü olmayan sahələrin dəstəklənməsi lazım deyil. Əvəzində rəqabət üstünlüyü olan sahələri dəstəkləməklə resurslarımızı daha səmərəli istifadə edərək, faydamızı maksimallaşdıra bilərik.

Hazırda Azərbaycanın qeyri-neft iqtisadiyyatı üçün əsas "dartıcı qüvvə" daxili tələbdir, qeyri-neft ixracının qeyri-neft ÜDM-ə nisbəti təxminən 5 faizdir, qalan ÜDM-in 95

faizinə yerli tələb var. Bu mənada beynəlxalq müqayisə göstərir ki, bizim ixrac potensialımız böyükdür və iqtisadiyyatın rəqabət qabiliyyəti artdıqca xarici tələb daha böyük rol alacaq. Sinqapur və Maldivin təcrübəsi göstərir ki, uğur qazanan kiçik iqtisadiyyatlarda artımın əsas drayveri xarici tələb - ixrac olmalıdır. Böyük iqtisadiyyatlar, məsələn, Çində əksinə miqyas effekti imkan verir ki, daxili tələb əsas hərəkətverici olsun. Azərbaycan iqtisadi artımı daha çox xarici bazarlara çıxmaqla təmin edə bilər. Azərbaycanın qlobal dəyər zəncirlərinə qoşulması üçün dağ-mədən, neft-kimya, nəqliyyat-logistika, tekstil, emal sənayesi kimi sahələri daha perspektivlidir.

Azərbaycanın 2030-cu il hədəflərindən danışanda, biz həm də əhali artımını da nəzərə almalıyıq. 2030-cu ilə qədər əhalimiz BMT-nin proqnozlarına əsasən 600 min nəfər artacaq. Bir tərəfdən Qarabağın 167 faydalı təbii resursları, torpaq, su və meşə fondu, tarixi və mədəni abidələri, digər tərəfdən isə 600 min insan yaxın perspektivdə iqtisadiyyatımıza əlavə güc qatacaq. İstər təbii ehtiyatlar, istərsə də insan kapitalını daha səmərəli istifadə etmək üçün şərait yaratmalıyıq.

## Azərbaycanın post-pandemiya dövrünün üstünlükləri

Bizim fiskal fəza imkan verir ki, xarici və daxili borclanma həddini aşmadan, strateji obyektləri milli təhlükəsizliyin əleyhinə əldən vermədən, devalvasiya və vergi dərəcələrini artırmaqla yükü əhalinin və biznesin üzərinə qoymadan iqtisadi artımı təmin etmək üçün daha rahat olaq. 2021-ci ilin martında BVF-nin yaydığı və müəllifləri Sonali Das and Philippe Wingende olan bloqda da göstərilirdi ki, post-pandemiya dövründə iqtisadi artımı bərpa etmək üçün fiskal fəza əsas şərtlərdəndir. Azərbaycanın strateji valyuta ehtiyatlarının ÜDM-in 1,2 mislində və xarici dövlər borcunun isə iqtisadiyyatın beşdə biri həddində olması, həmçinin dövlətin digər ehtiyatları fiskal fəzanın əlve-rişli miqyasını göstərir. Bundan başqa Azərbaycanda iqtisadi artım üçün ictimai-siyasi və makroiqtisadi sabitlik, yaxşı infrastruktur, dünyada 30 ən yaxşı biznes mühitilərindən biri, yüksək savadlılıq dərəcəsi və strateji investorlarla yaxşı əməkdaşlıq ənənəsi təmin olunub.

Suveyiş kanalında son insident Şərq-Qərb daşımalarında quru nəqliyyat infrastrukturunun imkanlarını daha da artırdı. Çinin qatarla daşımaları 2020-ci ildə 50 faiz və 2016-cı illə müqayisədə 7 dəfə, hətta bu ilin ilk iki ayında Çindən Avropaya gedən qatarların sayı əvvəlki illə müqayisədə iki dəfə artıb. Avrasiyada quru daşımalarının əhəmiyyəti artdığı bir halda Zəngəzur dəhlizinin aktuallaşması və Azərbaycanın indiyədək tikdiyi Ələt Beynəlxalq Dəniz Ticarət Limanı, Bakı-Tbilisi-Qars dəmiryolu xətti, altı beynəlxalq aeroport, minlərlə kilometr avtomobil və dəmir yolları Prezident İlham Əliyevin nə qədər müdrikcəsinə siyasət yürütdüyünü göstərir. Nəqliyyat-logistika sahəsində rəqabət üstünlüyümüz iqtisadi artımda öz sözünü deyə bilər.

Qarabağın reinteqrasiyası da iqtisadi artımda əhəmiyyətli rol oynayacaq. İİTKM-də aparılan hesablamalar göstərir ki, Qarabağın reinteqrasiyası nəticəsində ÜDM 3 faiz, o cümlədən, kənd təsərrüfatı 10,4 faiz, mədənçıxarma sənayesi 5,3 faiz, emal sənayesi 4,3 faiz, turizm 5,5 faiz, nəqliyyat xidmətləri 4,9 faiz artacaq. Bizim hesablamalara əsasən deyə bilərəm ki, regional kommunikasiyaların açılması Azərbaycanda ÜDM-i 1,2% artıra bilər. Müzəffər qələbəmiz iqtisadi artım üçün zəmin yaradıb.

F.Ruzvelt deyirdi ki, “tarixdə durduğumuz nöqtə imkan və təhlükələrlə doludur”, bu yaxınlarda bu fikri BVF-nın rəhbəri Kristalina Georgiyevna da təkrarladı. Azərbaycan daha çox imkanlara malikdir.

**Ədəbiyyat:**

1. Adrian, Tobias. 2021. An Asynchronous and Divergent Recovery May Put Financial Stability at Risk, IMF blog
2. Federico J. Díez, Romain Duval, Chiara Maggi and Nicola Pierri. 2021. Taming the Wave of Small and Medium Enterprise Insolvencies, IMF blog
3. IMF's Fiscal Monitor report 2021
4. IMF’s Global Financial Stability Report (GFSR) 2021
5. Hausmann, Ricardo and Cesar A. Hidalgo, et al. 2011. “Preface, Sections 1 & 2” in The Atlas of Economic Complexity. Cambridge, MA: MIT Press. p.6-8; 15-25.
6. Hausmann, Ricardo. 2014. “A Brain's View of Economics.” Project Syndicate. January 29.
7. Hausmann, Ricardo. 2013. “The Tacit Knowledge Economy.” Project Syndicate. October 30.
8. Hausmann, Ricardo. 2014. “The Mismeasure of Technology.” Project Syndicate. April 29.
9. Hausmann, Ricardo and Cesar A. Hidalgo, et al. 2013. “Sections 3-5”. In The Atlas of Economic Complexity . Cambridge, MA: MIT Press. 26-51
10. Hausmann, Ricardo. 2018. “Does the West Want What Technology Wants.” Project Syndicate. June 27.
11. Hausmann, Ricardo. 2015. “The Import of Exports.” Project Syndicate. November 26.
12. Hausmann, Ricardo. 2014. “The Real Raw Material of Wealth.” Project Syndicate. July 26.
13. Hausmann, Ricardo. 2019. Why Governments Should Not Wait for Godot. Project Syndicate. December.
14. Hausmann, Ricardo. 2018. The PPP Concerto download. Project Syndicate. April.
15. Hausmann, Ricardo. 2018. Does the West Want What Technology Wants. Project Syndicate. June.
16. Qasımlı, Vüsal. 2014. İqtisadi modernizasiya. Bakı.

***Açar sözlər:*** *optimal idarəetmə, iqtisadi artım, inkişaf strategiyası, strateji planlaşdırma, iqtisadiyyat*

**Vusal Gasimli**
*Executive Director of the Center for Economic Reforms Analysis and Communication, Professor of the Academy of Public Administration under the Presdident of the Republic of Azerbaijan, Doctor of Economics*

# ECONOMIC GROWTH: CHALLENGES AND PROSPECTS

## SUMMARY

Azerbaijan, which has tripled its economy during the last 15 years and aims to double its economy relying on non-oil sector in the next 10 years, is preparing for a new investment wave that will depend on the ability to take advantage of the fourth industrial revolution. Only 14.5% of major liberalizations were followed by growth accelerations and only 18.2% of those were preceded by economic liberalizations. A "recipe" for economic growth must be developed for each country. In this regard, Harvard professor Matt Andrews notes that economic growth is a complex problem, and its solution is possible through the approach of problem-based iterative adaptation. That is why, a clear diagnosis of the problem is a prerequisite for economic growth. Then an adaptive strategy must be developed to solve the problem.

The crisis has created good opportunities for the transition to a new model of economic growth. Therefore, Azerbaijan should focus on binding constraints and by focusing on the “shortest slab” we could get more bang for our efforts. Pinning down binding constraints is a must, since they represent the biggest hurdle to growth. Binding constraints tend to be complements rather than substitutes. So, without tackling binding constraints it would be difficult to accelerate growth. Azerbaijan can escape the trap of one-fits-all approach by building its economic growth strategy around a problem diagnosis.

***Keywords:*** *optimal management, economic growth, development strategy, strategic planning, economy*

**Вусал Гасымлы**
*Исполнительный директор Центра Анализа Экономических Реформ и Коммуникаций, профессор Академии Государственного Управления при Президенте Азербайджанской Республики, доктор экономических наук*

# ЭКОНОМИЧЕСКИЙ РОСТ: ВЫЗОВЫ И ПЕРСПЕКТИВЫ

## РЕЗЮМЕ

Азербайджан, который утроил свою экономику за последние 15 лет и нацелен на удвоение своей экономики за счет ненефтяного сектора в ближайшие 10 лет, готовится к новой волне инвестиций, в зависимости от возможностей четвертой промышленной революции. Ускорение роста наблюдалось только в 14,5% крупномасштабных либерализаций, из них только в 18,2% отмечалась экономическая либерализация.

Для каждой страны «рецепт» экономического роста должен разрабатываться в отдельности. В этой связи Гарвардский профессор Мэтт Эндрюс отмечает, что экономический рост - это сложная проблема, и что ее можно решить путем итеративной адаптации, исходя из сути проблемы. Поэтому точная диагностика проблемы является одним из условий экономического роста. Затем для ее решения нужно разработать стратегию адаптации.

Кризис создал хорошие возможности для перехода к новой модели экономического роста. Этим самым, Азербайджан может добиться большего результата, сосредоточив внимание на вынужденных ограничениях и опираясь на подход «самого кратчайшего перехода».

Вынужденное снижение ограничений привязки является одним из условий, поскольку для роста представляют самое большое препятствие. Вынужденные ограничения вместо заменяющих становятся завершающими.

Таким образом, было бы сложно ускорить рост без борьбы с вынужденными ограничениями. Азербайджан, выстраивая свою стратегию экономического роста вокруг диагностики проблемы, может избавиться от ловушки подходящего для каждого подхода.

***Ключевые слова:*** *оптимальное управление, экономический рост, стратегия развития, стратегическое планирование, экономика*

## S İ Y A S İ  N Ə Z Ə R İ Y Y Ə
## P O L I T I C A L  T H E O R Y

UOT 32::008; 32:316.7

**ETİBAR ƏSƏDOV**
**Azərbaycan Milli Elmlər Akademiyasının**
**Fəlsəfə və Sosiologiya İnstitutunun aparıcı elmi işçisi,**
**siyasi elmlər üzrə fəlsəfə doktoru, dosent**
*e-mail: etibar76_esedov@hotmail.com*

# QLOBAL İNTEQRASİYA PROSESİNİN İNKİŞAF DİNAMİKASINA DAİR BAXIŞLAR

Qloballaşma prosesinin mahiyyəti ilə bağlı mövcud nəzəriyyələrin, yanaşmaların böyük əksəriyyəti bu prosesin meydana gəlmə və inkişaf səbəblərini ortaya çıxarmaq üçün ümumbəşəri inteqrasiya proseslərinin tarixinin araşdırılmasına üstünlük verirlər. Bu mənada qlobalistika elmində qloballaşmanın tarixi spektrdən təhlili ənənəyə çevrilmişdir. Bəşər tarixinin inkişaf mərhələlərində qloballaşma prosesinin izlərinin axtarışı təsadüfən ortaya çıxmamışdır. Belə ki, qloballaşma sırf sosiumların həyatın bütün sferalarında təmas və inteqrasiyası deməkdir. Bu prosesi yalnız iqtisadi inteqrasiya prosesi adlandıranlar belə onun sonradan siyasi, kulturoloji, texnoloji sferaya keçdiyini qəbul edirlər. Qloballaşma ilə bağlı tarixə müraciəti aktual və zəruri edən prosesin səbəblərini və dəqiq formulunu izah etməyindən irəli gəlir. Xüsusən qloballaşmanın bifurkasiya nöqtəsinin axtarışı qloballaşma tarixi ilə bağlı saysız hesabsız elmi müzakirələrə yol açmışdır.

Ümumiyyətlə qloballaşma ilə bağlı tarixi baxışlar bu prosesi bəşər sivilizasiyasının inkişafının müxtəlif mərhələlərində baş verən inteqrasiya xarakterli iqtisadi, siyasi, mədəni kontekstli hadisələrlə bağlayır. Burada söhbət erkən orta əsrlərdə səlib yürüşlərindən, daha sonra böyük coğrafi kəşflərdən, Qərbi Avropa ölkələrinin müstəmləkə istilasından, XVIII-XIX əsrin sənaye inqilablarından gedir. Dünya miqyasında bütün xalqların və ölkələrin qarşılıqlı təmas prosesinin bəşəriyyətin inkişaf tarixi ilə üst-üstə düşməsi heç kimə sirr deyil. Bu prosesi Monteskye “Qanunların ruhu” əsərində belə ifadə edir: “İki xalqın təması zamanı biri satmağa, digəri isə almağa ehtiyac duyursa onların ittifaqı qarşılıqlı zərurətdən irəli gəlir” [7, s.129]

Bəzi yanaşmalara görə qloballaşmanın kökləri antik dövrlərə qədər gedib çıxır. Bu dövrün başlıca inteqrasiya prosesləri Yunan şəhər dövlətlərinin və Roma imperiyasının Asiya və Şimali Afrikada istila və müstəmləkəçilik siyasəti çərçivəsində nəzərdən keçirilir. Eyni zamanda belə bir müddəa da səsləndirilir ki, ilk regional inteqrasiya və etnoslararası əlaqələr eramızın III və IV əsrlərində Xalqların Böyük Köçü zamanında baş vermişdir. Belə ki, bu prosesin miqyası Avropa və Asiyanın faktiki olaraq bütün sivilizasiyalarının tarixində dərin iz buraxmış və qitələrarası regionların etnoslarını bir-biri ilə tanış etmişdir [9, s.36]. Qlobal inteqrasiya prosesləri tarixində böyük səlib yürüşləri də diqqət mərkəzində saxlanılır. Bu proses Yaxın Şərqin Avropa ilə ideoloji təması kimi qiymətləndirilir [3, s.8].

Qloballaşmanın proses olaraq başlanğıcını XV-XVI əsrlərdə Böyük coğrafi kəşflər zamanına bağlayan nəzəriyyələr də bu diskussiyalarda mühüm yer tutur. Hesab edilir ki, adı çəkilən kəşflərdən sonra planetin müxtəlif regionlarında yerləşən ən müxtəlif mədəniyyətlər, xalqlar və sivilizasiyalar arasında əla-

qələrin qurulması prosesi başa çatır və bəşəriyyətə məlum olmayan sivilizasiya qalmır. Bu isə ümumbəşəri inteqrasiya proseslərini qlobal miqyasa gətirib çıxarır.

Başqa bir istiqamətə görə qloballaşma prosesləri Qərbi Avropada feodalizmin ictimai formasiya kimi sona yetməsi kapitalizmin bərqərar olması və bununla da beynəlxalq inteqrasiyanın intensifikasiyası nəticəsində ortaya çıxmışdır.

Şərti olaraq qloballaşmanın meydana gəlməsi haqqında baxışları bir neçə qrupda birləşdirmək olar:

1. Qlobal inteqrasiyanın tarixini bəşər sivilizasiyasının inkişaf tarixi ilə paralelləşdirən nəzəriyyələr.
2. Qloballaşmanı Avropa intibahı və Böyük Coğrafi kəşflər dövrü ilə əlaqələdirənlər.
3. Qloballaşmanı kapitalizmin bərqərar olması və elmi-texniki tərəqqi, o cümlədən sənayeləşmə mərhələləri ilə bağlayan nəzəriyyələr.

Birinci qrup nəzəriyyələr sırasında Vallerstaynın "dünya-sistem" paradiqması əsas hesab olunur. Qeyd edilən nəzəriyyə qloballaşmanı sosiumların qarşıqlıqlı əlaqəsinin vəhdətindən təşkil olunmuş vahid sistemlə eyniləşdirir. XX əsrin 70-ci illərində meydana gələn "dünya-sistem" nəzəriyyəsinin mərkəzi tədqiqat mövzusunu sistemi təşkil edən sosiumların birgə inkişaf tarixi təşkil edir. Qloballaşmanın tədqiqi sahəsində elmə mühim töhfələr vermiş F.Brodel, A.Frank, İ.Vallerstayn, S.Amin, C.Arriqi, T.dus. Santus kimi sosioloqlar məhz bu nəzəriyyənin təmsilçiləridir.

Qloballaşmanı dünya-sistemi təqdim edən Vallerstaynın fikrincə bu proses başlanğıcını XVI əsrdən götürmüş və tədricən bütün planeti əhatə etmişdir. XVI əsrə qədər planetin müxtəlif regionlarında mövcud olan sivilizasiyaları siyasi baxımdan təkamül yaşayan iqtisadi sistemlər adlandıran Vallerstayn qeyd edir ki, siyasi inkişaf fazası başa çatan kimi bu iqtisadi sistemlər imperiyalara çevrilmişdir. Bu proses Avropa istisna olmaqla planetin bütün iqtisadi sistemlərində analoji ssenari ilə getmişdir. Avropada iqtisadi inteqrasiya prosesləri bütün sistemdaxili sosiumlarda eyni inkişaf yolu keçsə də siyasi inkişaf xətlərində fərqlə çox olmuşdur. Bu səbəbdən Avropa imperiyaya deyil, ümumdünya kapitalizminin mərkəzinə çevrilmişdir [4, s.101].

Alman sosioloqu A. Qunder Frank. Vallerstayndan XVI əsrə qədər bir neçə iqtisadi sistemin olması fikrini qəbul etmir. Onun fikrincə bəşər sivilizasiyasının tarixi planetar miqyaslı bir dünya sistemin yaranması tarixidir. Bu vahid dünya sistemin yaşı 5000 ilə yaxındır. O tədricən özünün tərkib hissəsi olan kiçik iqtisadi sistemləri zaman-zaman ətrafında birləşdirmişdir. Bu dünya – sistemin spesifik xüsusiyyəti onun vaxtaşırı yerini dəyişən mərkəzinin olmasıdır. XIX əsrdə bu mərkəz Avropaya, daha sonra isə Amerikaya köçmüşdür. Bu yerdəyişməyə qədər dünya – sistemin mərkəzi Çin olmuşdur. Bu baxımdan son bir neçə onillikdə Çinin inkişafının başlıca səbəbi dünya – sistemin mərkəzinin yenidən Çinə qayıtmasıdır [10, s.120].

İtaliyalı sosioloq C.Arriqi də Vallerstayn kimi müasir dünya sistemini tarixən Avropa kapitalizminin XVI əsrdən başlayaraq qloballaşmış forması adlandırır. Arriqinin fikrincə inkişafında tarixi kapitalizm dörd mühim mərhələdən keçmişdir. Hər mərhələdə yeni kapital mərkəzləri formalaşmışdır. Bu mərkəzlər kimi Arrteqi XVI əsrdə Genua respublikasını, XVII əsrdə Hollandiyanı, XVIII-XIX əsrlərdə Böyük Britaniyanı, XX əsrdə isə ABŞ-ı təqdim edir [1, s.56]. Bununla da mütəfəkkir hesab edir ki, qloballaşma məhz Avropada meydana gələn kapitalizm tədricən bütün dünyaya yayılmış və onu daha sıx birləşmiş vahid sistemə çevirmişdir. Bu proses boyunca bir neçə dəfə öz mərkəzini dəyişən kapital son nəticədə öz mədəni arealını tərk etməmişdir [2, s.57].

Qloballaşmanın tarixi inkişaf xüsusiyyətlərinin tədqiqində dünya sistemi nəzəriyyəsinin tərəfdarlarının rolu əvəzəsizdir. Bu prosesin tarixi təkamülünün araşdırılmasında adı çəkilən nəzəriyyənin nümayəndələrinin br sıra müddəaları üst-üstə düşür. Prakiki olaraq bütün dünya sistemi nümayəndələrinə görə

qloballaşma prosesi öz başlanğıcını XVI əsrdən götürür. Digər bir tərəfdən Brodeldən başlayaraq, Vallerstayn daxil bütün dünya sistem nəzəriyyəsinin tərəfdarları hesab edirlər ki, bütün dünya vahid sistem olaraq bir-biri ilə qarşılıqlı əlaqədə olan müxtəlif elementlərdən ibarətdir və bu qarşılıqlı təmas daim müxtəlif sosial strukturlar (dövlət, millət, xalq) yaradır. Nəhayət bütün dünya sistemi nəzəriyyəsinin tərəfdarları vahid dünya sistemini qloballaşma prosesinin təzahüri kimi təqdim edir.

Qloballaşma prosesini arxaikləşdirən görkəmli qlobalistlərdən biri T.Fridman qloballaşma prosesinin təqribən XV əsrdən başlandığını qeyd edərək bütün bu prosesi ümumi 3 hissəyə bölür: qloballaşma 1 (1491-1800), qloballaşma 2 (1800-2000) və qloballaşma 3 (2000-müasir dönəm) [10, s.146]. Fridmana görə qloballaşmanın birinci mərhələsində dünyanın 4 əsas kontinentinin bir-birini tanıması prosesi başa çatır. İkinci mərhələ kontinentlər arası təmas münasibətlərinin formatı müəyyən olunur. Burada "dominant" kontinent olaraq Avropa və Amerika irəliyə keçir və qlobal inteqrasiyanın təminatçısına çevrilir. Nəhayət 3-cü mərhələdə digər kontinentlərin Qərbə yaxınlaşması prosesi başlanır. ETT-nin və İKT-nin inkişafı dünya dövlətləri arasında zaman və məkan məhdudiyyətlərini aradan qaldırır.

Qlobalist M. Vaters qloballaşmanın inkişaf tarixini fərqli dövlərlə əhatə edərək 3 hissəyə bölür:

1. **XI-XIV əsrlər.** Şərq və Qərb arasında ilkin təmas dövrü.
2. **XV-XVIII əsrlər.** Böyük coğrafi kəşflər, kontinentlərin tanınması, Qərbi Avropa ölkələrinin okeanlar üzərindən müstəmləkəçilik siyasətini uğurla nbaşa çatdırması.
3. **XIX əsrindən müasir dövrə qədər.** Beynəlxalq inteqrasiyanın pik həddinə çatması, Sənayeləşmə, Kapitalizmin dünya hegemonluğu və qərb dəyərlərinin dünyaya yayılması [12, s.83].

R.Robertsonun qloballaşmanın inkişaf tarixi ilə bağlı irəli sürdüyü yanaşma bu prosesi bütövlükdə 5 mühüm mərhələyə bölür və bu mərhələlər çərçivəsində bəşər sivilizasiyasının sıxlaşmasına səbəb olan prosesləri açıqlayır:

**1. Meydana gəlmə mərhələsi (Avropa 1400-1750)**

- Xristianlıqlda parçalanma;
- Fərd və cəmiyyət haqqında ictimai fikirlərin inkişafı;
- Planetin ilk xəritələrinin çəkilişi;
- Kayinatın günəş sistemi kimi təqdim olunması;
- Planetin tədqiqi ilə bağlı dəniz səfərlər.

**2. Başlanğıc mərhələ (Avropa 1750-1875)**

- Milli dövlətlərin formalaşması;
- İlk diplomatik münasibətlərin qurulması və sistem halına gəlməsi;
- Vətəndaşlıq və pasport sisteminin tətbiqi;
- İlk rəsmi beynəlxalq müzakirələr;
- ilk internasional və universal ideyaların formalaşması.

**3. Hegemonluq uğrunda mübarizə (1925-1969)**

- Millətlər cəmiyyəti və BMT;
- İkinci dünya müharibəsi və soyuq müharibə;
- Ümumdünya nüvə müharibəsi təhlükəsi;
- Üçüncü dünyanın formalaşması.

**4. Qeyri-müəyyənlik mərhələsi ( 1969-1992)**

- Kosmosun tədqiqi;
- Qeyri-maddi dəyərlər və hüquqlar haqqında müzakirələr;
- Mürəkkəb beynəlxalq münasibətlər sistemi və yeni aktorlar;
- Qlobal kütləvi informasiya vasitələrinin meydana gəlməsi;
- Transmilli korporasiyaların formalaşması və hegemonluq uğrunda mübarizəsi [11, s.374].

Qloballaşmanın formalaşması tarixi ilə bağlı təkamülçü nəzəriyyələr də oxşar mülahizələrlə çıxış edir. Rusiyada qlobalistika elminin aparıcı alimlərindən olan A.Çumakov qloballaşmanın inkişaf mərhələlərini aşağıdakı kimi təsnifləndirir [7]:

Birinci qlobal inteqrasiya mərhələsi XIX əsrin ortalarından 1914-cü ilə qədər olan dövrü əhatə edir və Britaniya imperiyasının adı ilə bağlıdır. Qloballaşmanın birinci dalğası zamanı dünya iqtisadiyyatı vahid sistem forması almağa başlayır. Bu dövr yeni formalaşan transmilli korporasiyaların (OST HİND, STANDART OİL, SİMENS) və dövlətlərin yeni istehlak bazarları uğrunda mübarizəsi ilə xarakterizə olunur.

II dünya müharibəsi və onun nəticələri qloballaşmanın ikinci dalğasını sürətləndirir. Bu dalğa sırf siyasi sferada qlobal siyasi tendensiyaların güclənməsi ilə yadda qalır. Yeni qlobal institutlar (BMT) ortaya çıxır. 1945-ci ilin avqustunda ABŞ tərəfindən Yaponiyaya atılan atom bombaları qloballaşmanın inkişafında bifurkasiya nöqtəsinə çevrilir və proses indiki mərhələsinə qədəm qoyur.

II dünya müharibəsindən sonra qloballaşma prosesi tərkibində dualizm ortaya çıxır. Belə ki, dünya birinin başında ABŞ, digərinin başında Sovetlər Birliyi olmaqla iki qütb ətrafında birləşir. Yalnız Sovetlər Birliyinin süqutundan sonra qloballaşmanın üçüncü fazası başlaylır. Bu fazanın başlamasını şərtləndirən amillər aşağıdakılardır:

1. Demoqrafik-ekoloji amil (artım həddi mövzusunu aktual edən demoqrafik partlayışlar);
2. Texnosferin qloballaşması (elmi-texniki tərəqqi postsənaye cəmiyyətinin formalaşması üçün əsas oldu);
3. İqtisadi qloballaşma;
4. Geosiyasi qloballaşma;
5. Sosial-mədəni qloballaşma [8].

Bəzi mütəxəssislər qlobal proseslərin XX əsrin ikinci yarısında başladığını iddia edirlər. Bu zaman onların rəhbər tutduqları fikir bundan ibarətdir ki, İkinci Dünya müharibəsi bu və ya digər dərəcədə bütün qitələrin qoşulduğu ilk qlobal müharibə olmuşdur. Müharibədən dərhal sonra qlobal beynəlxalq təşkilat olan BMT yaradılmışdır. Elə bu illərdə də müstəmləkə sisteminin dağılmağa başlaması ilə inkişaf etməkdə olan müstəqil dövlətlərin sosial-iqtisadi problemləri kompleks şəkildə üzə çıxmışdı. Məhz həmin illərdə Elmi-Texniki İnqilab (ETİ), rabitə və informasiya prosesləri təşəkkül taparaq tədricən nüfuzlu siyasi və iqtisadi amilə çevrilmişdi.

İkinci mərhələni, yəni 1970-1990-cı illərin qlobal proseslərini dünya birliyi tərəfindən formal cəhətdən təsdiq olunmuş bir durum kimi səciyyələndirmək olar: bəşəriyyət kompleks qlobal problemlərlə üzləşmiş, onların təsnifatını vermiş və beynəlxalq iqtisadi və humanitar əməkdaşlıq, inkişaf etməkdə olan ölkələrə yardım kimi sahələrdə onların həllinə cəhd edilmişdir.

Qloballaşmanın üçüncü mərhələsi 90-cı illərin sonunda başlamışdır. Bu mərhələ özünəməxsusluğu ilə səciyyələnir. Bu fərqli xüsusiyyətlər aşağıdakılardır:

1) ETİ-nin informatika və rabitə sahələrindəki nailiyyətləri, beynəlxalq əlaqələrin, xüsusən də internetin durmadan inkişaf etməsi qlobal dünya birliyinin yaranmasına gətirib çıxarmış, beynəlxalq kommunikasiya sistemlərinin milli sərhədlərdən asılılığının əhəmiyyətli dərəcədə azalması;

2) ABŞ-ın siyasi, iqtisadi, maliyyə, informasiya və texnologiya sahələrində nüfuzunun artması və bundan Birləşmiş Ştatların öz milli maraq və dəyərlərinə uyğun istifadə etmək cəhdləri bütün qlobal problemlərə spesifiklik gətirir. Bu ölkənin qlobal problemlərin həllində rolu bir sıra hallarda nəinki mühüm, hətta həlledici əhəmiyyət kəsb etməyə başlayır;

3) Bəzi ölkələrdə qloballaşma proseslərindən hakim elitanın narahat olduğu üzə çıxmış, bu proseslərə əks-təsir göstərmək məqsədilə sosial qruplar formalaşmışdır.

Ümumiyyətlə qloballaşmanın məhz XX əsrin 60-cı illərində ortaya çıxması ilə bağlı fikir irəli sürənlər çoxdur. Təkamülçü yanaşmadan başqa bir çoxları qloballaşmanın startlarını baş verən hər hansı qlobal bir hadisə ilə bağlayırlar. Adətən prosesi XX əsrin 60-cı illərinə bağlayanlar qloballaşmanı postmodernizm kimi qələmə verməyə çalışırlardır. XX əsrin 60-cı illərində soyuq müharibənin kəskinləşməsi ötəsindən ABŞ və Sovetlər Birliyinin razılaşmasını, Kosmosun fəthini, Afrika

qitəsində 32 dövlətin müstəqillik əldə etməsini, Nüvə silahının yayılmaması haqqında müqavilələri, ilk hesablama maşınlarının ortaya çıxmasını və iki kompyuter arasında ilk dəfə əlaqənin qurulmasını qloballaşmanın başlanğıcı kimi qələmə verənlər çoxdur.

Qeyd etmək lazımdır ki, qloballaşmanın meydana gəlməsini şərtləndirən şərait olmasaydı, o xüsusi bir fenomen kimi təşəkkül tapa bilməzdi.

Qloballaşmanın birinci ilkin şərti bir sıra ölkələrin sənaye cəmiyyətindən informasiya cəmiyyətinə keçməsi olmuşdur. Aydındır ki, informasiya cəmiyyətinin strukturları formalaşmasaydı, İnternet yaranmasaydı, kütləvi informasiya vasitələri olan televiziya, radio geniş yayılmasaydı qloballaşma mümkün ola bilməzdi.

Qloballaşmanın ikinci ilkin şərti müharibədən sonrakı dövrdə təşəkkül tapmış yeni qarşılıqlı iqtisadi münasibətlər sisteminin formalaşması olmuşdur. 1944-cü ilin Bretton-Vuds razılaşmalarından sonra dünya bazarında dolların əsas hesablaşma vasitəsi kimi təsdiq edilməsi, ticarət və tariflər haqqında bir sıra beynəlxalq müqavilələrin bağlanması bir qaydalı dünya iqtisadiyyatının meydana gəlməsinə səbəb olmuşdur.

Qloballaşmanın bir fenomen kimi meydana gəlməsinin üçüncü ilkin şərti müharibədən sonrakı yeni iqtisadi qaydaları qoruyub saxlamaq məqsədilə bir sıra beynəlxalq təşkilat və institutların yaradılması olmuşdur. Onların arasında ilk növbədə BVF, Dünya Bankı və Ümumdünya Ticarət Təşkilatını göstərmək olar. Beynəlxalq iqtisadi sistemdə özünəməxsus rol oynayan digər təşkilatları, regional bankları, BMT-nin İnkişaf Proqramını, Ticarət və İnkişaf üzrə Konfransını da buraya əlavə etmək olar. Məsələn, son 20 ildə BVF və DB-nin fəaliyyətində əsas iqtisadi problemlər, maliyyə böhranları, keçmiş kommunist ölkələrinin bazar iqtisadiyyatına keçməsi ilə bağlı mühüm qərarların qəbul edilməsi mərkəzi yeri tutmuş və bu gün də belə qalmaqdadır.

Qloballaşmanın dördüncü ilkin şərti nəhəng transmilli korporasiyaların (TMK) meydana gəlməsi olmuşdur. Bu gün onlar təkcə iqtisadi sahədə deyil, həm də siyasi səhnədə baş rolları ifa edir. Mobil, Maykrosoft, Britiş Petrolium, İtoçi, Fiat, Filipp Morris, Folksvagen, Soni, Şevron, Nestle kimi TMK-lar bu gün müxtəlif ölkələrdə iqtisadiyyatın bütün bölmələrini real nəzarət altında saxlayır. Ən müxtəlif iqtisadi və siyasi təzyiq vasitələrini istifadə etməklə onlar milli hökumətləri investisiya, vergilər, dövlət sifarişləri, özəlləşdirmə və s. ilə bağlı mühüm qərarları TMK-nın mənafelərinə uyğun qəbul etməyə məcbur edirlər. BMT ekspertlərinin hesablamalarına görə, bu gün dünya bazarında «oyun qaydalarını» müəyyən edən və beynəlxalq münasibətlərdə baş verən proseslərə çox güclü təsir göstərən 40 minə yaxın TMK var.

Qloballaşmanın iqtisadi və siyasi inkişafın aparıcı amilinə çevrilməsinin beşinci ilkin şərti SSRİ-nin dağılması və Şərqi Avropanın bir sıra dövlətlərinin kapitalist inkişaf yoluna keçməsi olmuşdur. Bir sıra keçmiş sovet respublikaları və sosialist birliyi ölkələrində hakimiyyətə neoliberalizm ehkamlarına inanan siyasi elita nümayəndələrinin gəlməsi qısa bir müddətdə Qərb istehsalçılarının məhsullarının bu ölkələrin daxili bazarlarını ələ keçirməsinə yol açdı.

Göründüyü kimi qlobal inteqrasiya prosesinin başlanğıc nöqtəsi haqqında mülahizələr çoxdur. Şərti olaraq bu mülahizələr və yanaşmaları nəzərdən keçirirək iki əsas qrupda birləşdirmək olar. Birincisi, qloballaşmanın yaşının sivilizasiyanın inkişaf tarixinə bərabər tutanlar və ikinci qrup qloballaşmanı sırf iqtisadi xarakterli inteqrasiya prosesi kimi izah edib, onun yaşını yeni və ən yeni dövrə bağlayanlar.

Sezilən odur ki, istənilən halda qloballaşmanın tarixi ilə bağlı istənilən tədqiqat sinergetik xarakterə malik olub, prosesin bifurkasiya nöqtəsinin axtarışına əsaslanır. Burada ortaya qoyulan başlıca məqsəd prosesin başlanmasına start verən hər hansı qlobal hadisənin ortaya çıxarılmasıdır.

Bizim fikrimizcə proses kimi qloballaşma yalnız iqtisadi prizmadan nəzərdən keçirilə bilməz. Qloballaşmanın mahiyyəti dünya

sivilizasiyasının bütün yaşam sferalarında unifikasiyasını təmin etməkdən ibarətdir. Məsələyə məhz bu prizmadan baxaraq hesab edirik ki, qloballaşma prosesinin başlanğıc nöqtələrini insanlıq tarixinin istənilən nöqtəsində ümumbəşəri əhəmiyyət daşıyan və nəticələrinin bütün qlobal sosiumların həyatının ayrılmaz hissəsinə çevrilən hadisələrin tarixində axtarmaq lazımdır. Belə hadisələr isə dünən, bu gün baş verməmişdir. Ona görə də prosesin tarixini sivlizasiyanın yaranma dövrlərində axtaranlar haqlıdır. Məsələyə belə baxış bucağı prosesin inkişaf mərhələlərinin axtarışını sual altına qoyur. Sivilizasiyalar yarandığı gündən onların inteqrasiyası ali qanuna çevrilmişdir. Odun ixtirası, yığıcılıq və ovçuluqdan əkinçilik və maldarlığa keçid, dəmirin kəşfi, dini ideologiyanın meydana gəlməsi kimi qlobal proseslər vardır ki, onlar qlobal səviyyədə bütün sivilizasiyaların həyatında eyni xarakterli transformasiyalara səbəb olmuşdur. Eyni zamanda əldə edilən bu qlobal nailiyyətlər insan həyatının yarılmaz hissəsinə çevrilmişdir. Zaman-zaman insanların dünyəvi biliklərinin həcmi böyüdükcə belə yeni açılışların intensivliyi artmış və xarakteri dəyişmişdir. Hər bir yenilik özünün nəticələri ilə gəlmişdir. Başqa sözlə bəşəriyyətin tarixi sivil toplumların inteqrasiyasının, qloballaşmanın tarixidir. Qloballaşma bəşəriyyətin inkişaf məqsədlərindən biridir.

**Ədəbiyyat:**


1. Арриги, Дж. Глобализация и историческая макросоциология // Прогнозис, – №2(14). – 2008. – с. 57-72.
2. Арриги, Дж. Пространственное и иное «закрепление» капитализма // Социологическое обозрение. – т.5. – №1. – 2006. – с.55-58.
3. Артановский С.Н. Глобализация и деглобализация. Вестник СПбГУКИ, декабрь 2011. – стр. 6-14.
4. Валлерстайн, И. Анализ мировых систем и ситуация в современном мире / И.Валлерстайн. - СПб.: Университетская книга, – 2001. – 416с.
5. Уткин, А.И. Глобализация: процесс и осысление/ А.И.Уткин. - М.: Логос, – 2002. – 254 с.
6. Фридман Т. Плоский мир: краткая история xxi века. – М.: АСТ, – 2014. – 318 с
7. Чумаков А.Н. Глобализация. Контуры целостного мира. Москва: Проспект, – 2016. – 412 с.
8. Чумаков А.Н. Глобальный мир: столкновение интересов. Москва: Проспект, – 2018. – 512 с.
9. Aleshkovski I. International Migration and Globalization: Global Trends and Perspectives // Journal of Globalization Studies. – 2016. – No.2. – pp.32-48.
10. Gunder Frank, A., Gills, B.K. The World System: Five hundred years or five thousand?/ A. Gunder Frank. - NY.: Routledge, – 1999. – 320 p.
11. R. Robertson. The New Global History: History in a Global Age. Cultural Values 2. – 1998. – pp.368–384.
12. Waters M. Globalization. – L.; N.Y.: Routledge, 1996. – XIV, – 185 p.


***Açar sözlər:*** *qloballaşma, tarix, inteqrasiya, bəşər sivilizasiyası, böyük corafi kəşflər, sənayeləşmə*

**Etibar Asadov**
*Leading researcher of the Institute of Philosophy and Sociology of the Azerbaijan National Academy of Sciences, PhD in Political Sciences, Assistant Professor*

# VIEWS ON THE DEVELOPMENT DYNAMICS OF THE GLOBAL INTEGRATION PROCESS

## SUMMARY

The paper analyzes the approaches to the stages of historical development as a process of global human integration into globalization. The main goal of the author is to approach this process from a historical perspective and thus determine the objective causes of the process. The study examines the leading approaches to the formation and development stages of the global integration process and provides an overview of the global processes that have contributed to the emergence of globalization as a process. In general, historical analyses on globalization have focused on the economic, political, cultural events of an integrated nature that took place at different stages of the development of human civilization. These events include the changes that took place during the Crusades in the early Middle Ages, the great geographical discoveries, the colonial invasion of Western Europe, and the industrial revolutions of the XVIII-XIX centuries. At the same time, the stages of the process of interaction of all peoples and countries on a global scale coincide with the history of human development. This process is scientifically substantiated in Montesquieu's Spirit of Laws; “if one person needs to sell and the other needs to buy, their union is based on mutual necessity”. According to some approaches, the roots of globalization go back to antiquity.

***Keywords:*** *globalization, history, integration, human civilization, great geographical discoveries, industrialization, political processes, society, development, political, modern world*

**Этибар Асадов**
*Ведущий научный сотрудник Института Философии и Социологии Национальной Академии Наук Азербайджана, доктор философи по политическим наукам, доцент*

# ВЗГЛЯДЫ НА ДИНАМИКУ РАЗВИТИЯ ГЛОБАЛЬНОГО ИНТЕГРАЦИОННОГО ПРОЦЕССА

## РЕЗЮМЕ

В статье анализируются подходы к этапам исторического развития глобализации, как общечеловеческого процесса интеграции. Основная цель – рассмотреть этот процесс с исторической точки зрения и тем самым определить объективные причины его формирования. В исследовании рассматриваются основные подходы к этапам формирования и развития глобального интеграционного процесса, а также дается обзор глобальных процессов, которые способствовали возникновению глобализации как процесса. Проанализированы исторические взгляды на глобализацию проанализировали экономические, политические, культурные процессы интеграционного характера, которые происходили на разных этапах развития человеческой цивилизации. Научно объяснены изменения, происшедшие после промышленных революций XVIII-XIX веков, показаны этапы процесса взаимного контакта всех народов и стран в глобальном масштабе, совпадающие с историей развития человечества.

***Ключевые слова:*** *глобализация, история, интеграция, человеческая цивилизация, великие географические открытия, индустриализация*

# S O S İ O L O G İ Y A
# SOCIOLOGY

UOT 316.33

**ƏLİYAR ORUCOV**
**FHN-nin Akademiyasının Tədris şöbəsinin böyük metodisti,**
**fəlsəfə üzrə fəlsəfə doktoru, dosent,**
**AMEA-nın Fəlsəfə və Sosiologiya İnstitutunun elmlər doktorluğu üzrə doktorantı**
*e-mail: orucov.aliyar@mail.ru*

## CƏNUBİ QAFQAZDAKI MÜNAQİŞƏLƏR REGİONAL TƏHLÜKƏSİZLİYƏ TƏHDİD MƏNBƏYİDİR: SOSİAL-SİYASİ TƏHLİL

Ümumiyyətlə müasir dönəmdə dünyada baş verən mürəkkəb siyasi proseslər nəticəsində münaqişələrin sayı durmadan artmaqdadır. Bu sahəni siyasi elmin xüsusi sahəsi olan konfliktologiya öyrənir. Belə ki, qədim dövrlərdən başlayaraq dünyanın müxtəlif ictimai-siyasi quruluşa malik olan bütün cəmiyyətlərində münaqişələr mövcud olmuşdur. Eyni zamanda münaqişə və əməkdaşlıq ictimai inkişaf prosesində həmişə qarşılıqlı əlaqə kəsb etmişdir.

Qeyd edək ki, keçmiş sovetlər dönəmində vahid "sovet xalqı" adı altında imperiyaya daxil olan xalqlar və etnoslar dostluq və beynəlmiləlçiliyi ifadə edən bir sosial birlik yaratmışdılar. Bununla belə keçmiş SSRİ-də milli siyasət və milli suverenliklə bağlı buraxılmış səhvlər bu gün mövcud olan münaqişələrin əsas səbəblərini şərtləndirir. Həmin dövrdə keçmiş sovetlər birliyinə daxil olan hər bir xalqın öz sosial-siyasi quruluşunu seçmək azadlığı, ərazi bütövlüyü, iqtisadi sərbəstliyi və s. hüquqları kobud surətdə pozulmuşdur. Keçmiş SSRİ-nin dağılmasından sonra imperiya ərazisində yaşayan xalqlar arasında baş vermiş çoxsaylı faciəli münaqişələr (məsələn, Cənubi Osetiya- Gürcüstan, Abxaziya-Gürcüstan, Acarıstan-Gürcüstan, Şimali Qafqaz-RF, Dnestryanı Respublika- Moldova, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ və s.) yuxarıda deyilənlərin xəyal olduğunu bir daha təsdiqlədi. Cənubi Qafqazda Azərbaycan Respublikası ilə qonşu olan Gürcüstanın Acarıstanla mübahisələri dinc yolla öz həllini tapmasına baxmayaraq, bu ölkənin hələ də Abxaziya və Cənubi Osetiya kimi münaqişəli ərazi problemləri qalmaqdadır. Abxaziya və Cənubi Osetiya münaqişəsi həm də Gürcüstanın NATO-ya və Qərbə inteqrasiyası planlarına zərbə vurur. Məhz bu münaqişələr Rusiyanın Gürcüstana olan əsas təsir-təzyiq kartlarıdır. Münaqişənin dinc yolla və ərazi bütövlüyü çərçivəsində həll olunmasında son vaxtlar Avropa Birliyinin, xüsusilə bu birliyin xüsusi çəkiyə malik dövləti olan Almaniyanın rolu artmaqdadır. Təbii ki, Avropa Birliyi Rusiyanın karbohidrogen ehtiyatlarından asıllığını azaltmaq istəyirsə Xəzər hövzəsindəki enerji ehtiyatlarını alternativ mənbə kimi qəbul etməli, Cənubi Qafqaz regionundan Avropaya qədər uzanan strateji neft-qaz kəmərləri keçən ərazilərdə olan münaqişələrin həll olunmasında maraqlı olmalıdır. Çünki bu kəmərlər Dağlıq Qarabağ, Cənubi Osetiya, Abxaziya və Dnestryanı kimi münaqişə ocaqlarının bir neçə yüz kilometrliyində yerləşir. Əgər Cənubi Qafqaz regionunda münaqişə ocağları yenidən alovlanarsa (məsələn, Ermənistanın təcavüzkar siyasəti nəticəsində 2016-cı ilin aprel ayında baş vermiş aprel döyüşləri və 2020- ci il iyulun 12-də Azərbaycanın Ermənistanla həmsərhəd Tovuz rayonuna işğalçı Ermənistan silahlı

qüvvələrinin hücumu və düşmən tərəfindən törədilən təxribatın Azərbaycan ordusu tərəfindən qarşısının layiqincə alınması və s.), təbii ki, bunun təsir dalğası Qərbin geoiqtisadi və geosiyasi maraqlarına ciddi təsir edəcəkdir. Qeyd edək ki, postsovet məkanında baş verən milli-etnik münaqişələr (məsələn, Gürcüstan, Azərbaycan, Moldova və s.) lokal münaqişələr kimi başlayıb qlobal münaqişələrə, qlobal təhlükəyə çevrilmişdir. Belə problemlər nəinki Cənubi Qafqazın, eləcə də bütün dünyanın təhlükəsizliyinə mənfi təsir göstərən amillərdəndir.

Cənubi Qafaqzdakı münaqişələrin regional təhlükəsizliyə təhdid mənbəyi kimi sosial-siyasi nöqteyi-nəzərdən araşdırılmasıdır.

- Münaqişəyə dair müxtəlif konsepsiyalar konkretləşdirilərək Cənubi Qafqazdakı münaqişələrin tənzimlənməsi və həllinin regional təhlükəsziliyin təmin olunması üçün zəruriliyi göstərilmişdir;
- Cənubi Qafqazdakı münaqişələrin yaranma səbəbləri, mənbələri, regional təhlükəsizlik üçün təhdid olması şərh olunmuşdur;
- Cənubi Qafqazdakı etnosiyasi proseslərin təhlükəsizliklə səbəb-nəticə əlaqələri aşkar olunmuşdur;
- Cənubi Qafqazdakı münaqişələrin tənzimləmə modelinin regionda sabitliyə, təhlükəsizliyə və inkişafa yardım edəcəyi tövsiyə edilmişdir.

Sovet imperiyasının dağılması dövründə Cənubi Qafqazda münaqişə ocaqlarının yaranması.

Post-sovet məkanın bir hissəsi kimi, Cənubi Qafqaz Rusiya, Türkiyə və İran ilə yanaşı, daima Avropa ölkələrinin maraq dairəsində olub. Regionda hələ XX əsrin 80-ci illərində beynəlxalq münaqişələrin başlamasında bu maraqların rolu və əhəmiyyəti kifayət qədər yüksək idi. “Etnosiyasi amillərin təsiri altında dərinləşən ziddiyyətlər tədricən sovet imperiyasının bütün uzaqda yerləşən ərazilərini əhatə edərək, İttifaqın dərin siyasi böhranını əsaslandırdı” [1,s.386]. “Qamçı və köç siyasətini” həyata keçirən sovet hakimiyyəti, yaranmış böhrandan çıxmaq üçün tarix boyu sınanmış ənənəvi vasitəyə müraciət etdi və beləliklə, etnosiyasi münaqişələr silahlı toqquşmalara çevrildi və sosialist quruluşun mövcudluğunu şübhə altına qoyandan sonra, Moskva etnosiyasi münaqişələri təzyiq vasitəsinə çevirdi və onlardan istifadə etməkdə davam edir.

Cənubi Qafqazda etnosiyasi münaqişələrin əsas ocaqları Azərbaycan və Gürcüstan ərazisində yerləşir. Faktiki olaraq, bu ölkələrin ərazisində dünya dövlətləri tərəfindən tanınmamış üç “dövlət” yaradılmışdır və bu üç dövlətin hamısı Rusiyanın himayəsi altındadırlar, bunlar təzyiq vasitəsi kimi istifadə olunurlar və Avropa institutları onların həllinə xüsusi maraq göstərirlər. Əgər keçmiş SSRİ-nin dağılması nəticəsində münaqişənin birinci ocağı Dağlıq Qarabağda yaranmışdırsa, Gürcüstan ərazisində bir neçə etnosiyasi münaqişə ocağı meydana gəldi. Onlardan gürcü-acar, gürcü-osetin və gürcü-abxaz münaqişələri bu qonşu xalqlara böyük bədbəxtliklər gətirmişdi. “1989-cu ilin payızında Cənubi Osetiya osetinlərinin separatçı əhval-ruhiyyələri son həddə çatdı və 10 noyabr tarixində Cənubi Osetiyanın Ali Şurası Rusiyanın tərkibində olan Şimali Osetiya ilə birləşməsi haqqında qərar qəbul etdi. 11 noyabr tarixində Gürcüstan parlamenti bu qərarı və Cənubi Osetiyanın muxtariyyətini ləğv etdi. Hadisələr Dağlıq Qarabağ ssenarisi üzrə genişlənirdi. 1991-ci ilin əvvəllərindən etibarən hər iki tərəfdən silahlı basqınlar daha tez-tez baş verirdi, çox sayda osetin və gürcü kəndləri və həmçinin cənubi Osetiyanın paytaxtı Tsxinvalidə gürcü evləri və məktəbləri hücumlara məruz qalırdı, mindən çox insan həlak oldu, minlərlə insan öz doğma diyarlarından getməyə məcbur idi və köçkün oldular” [2, s.9].

1992-ci ilin ortasında gürcü-osetin münaqişəsi elə həddə çatmışdır ki, Avropa qurumları onun tənzimlənməsi üçün Rusiyaya təzyiqi atrırmalı idilər və həmin il iyunun 24-də imzalanmış Rusiya-Gürcüstan müqaviləsi əsasında Qarışıq Nəzarət Komissiyası yaranmışdır ki, bu da münaqişə zonasında vəziyyətin sabit-

liyinə gətirib çıxartdı. Sabitliyi daha da möhkəmləndirmək üçün 1992-ci il noyabrin 6-da ATƏT-in sülhməramlı monitorinqləri çərçivəsində gürcü missiyası formalaşdırıldı. "12 ildən artıq davam edən atəşkəs rejimi 2004-cü ilin iyun ayında pozulmuşdur. Belə ki, M.Saakaşvili ölkənin çənub-qərbində yerləşən Acarıstanın müstəqilliyinə de-fakto son qoydu və eyni metodlarla Cənubi Osetiya problemini də həll etməyə cəhd etdi, lakin buna nail ola bilmədi" [2, s.12].

Cənubi Qafqazdakı digər münaqişələr kimi, Abxaziya münaqişəsi etnososial zəmində yarandı və bu proses yerli hakimiyyət dairələrinin Gürcüstandan ayrılmaq cəhdlərilə birləşərək, silahlı qarşıdurmaya çevrildi. "Nəticədə, 1992-1993-cü illərdə davam edən hərbi əməliyyatlar hər iki tərəfə böyük bədbəxtliklər gətirdi. Rusiyanın hadisələrə müdaxilə etməsi və onun abxaz separatistlərinə lazımı yardım etməsi, ilk növbədə Avropa Birliyinin və Avropa Şurasının ciddi etirazlarına səbəb oldu" [3, s.20]. 1992-ci il sentyabrın 3-də Moskvada Rusiyanın, Gürcüstanın və Abxaziyanın rəsmi şəxsləri arasında atəşin dayandırılması haqqında saziş bağlandı. Sazişdə Gürcüstanın ərazi bütövlüyünün təmin edilməsi, atəşkəsə riayət etməsi, qeyri-leqal hərbi birləşmələrin tərksilah edilməsi, silahlı qüvvələrin azaldılması və həmçinin hərbi əsirlərin dəyişdirilməsi və s. nəzərdə tutulmuşdu. Geosiyasi maraqların gərginliyi 1992-ci ilin oktyabr ayında yenidən atəşkəs rejiminin pozulmasına və uzunmüddətli hərbi əməliyyatların başlanmasına gətirdi. Yaranmış vəziyyətdə BMT Baş Katibi B.B. Qali 1993-cü il mayın 1-də Gürcüstan üzrə Xüsusi səfir təyin etdi və həmin ilin iyun ayında yeni sazişlə atəşin dayandırılması bərpa olundu. 1993-cü il avqustun 24-də isə Gürcüstanda BMT Nəzarət Missiyası yaradılmışdır. Missiyanın əsas məqsədi monitorinqlərin keçirilməsindən, 27 iyul 1993-cü il tarixli sazişə riayət edilməsi üzrə verifikasiyanın həyata keçirilməsindən, sazişin pozulma hallarının araşdırılmasından və qarşısının alınmasından, Baş Katibə öz mandatının icrası haqqında məruzələrdən və həmçinin xüsusi məsləhətlərdən ibarət idi.

Hadisə və proseslərin belə obyektiv qiyməti ilk növbədə, öz üzərinə Cənubi Qafqazda münaqişələr barəsində beynəlxalq hakim rolunu götürən Rusiyanın xarici siyasətində özünü göstərdi. Rusiya prezidenti B.Yeltsinin 1994-cü ilin fevral ayında Gürcüstana səfəri zamanı gürcü-abxaz münaqişəsi haqqında razılıq əldə olundu. Rusiyanın vasitəçiliyi ilə, 14 may 1994-cü il tarixdə Moskvada "Atəşin dayandırılması və qüvvələrin bölünməsi haqqında" saziş imzalandı. Bu sazişə müvafiq olaraq, İnquri çayının hər iki sahilində eni 15 km olan təhlükəsizlik zolağı yaradılırdı və bu sahədə MDB-nin sülhməramlı qüvvələri yerləşirdi. Atəşin dayandırılması üzrə nəzarəti isə BMT-nin Nəzarət Missiyası həyata keçirməli idi. Gürcü-Abxaz münaqişəsinin birinci on ili ərzində Abxaz münaqişəsinin tənzimlənməsində vasitəçi rolunu həmişə BMT və Rusiya Federasiyası oynayırdılar. BMT tərəfindən vasitəçi rolunda həmişə Baş Katibin Xüsusi Nümayəndəsi və Baş Katibin yanında "Gürcüstanın Dostlar Qrupu" çıxış edirdilər. Qrupun tərkibinə ABŞ, Fransa, Almaniya, Rusiya Federasiyası və Böyük Britaniya daxil idi.

Yeni minilliyin başlamasından əvvəl münaqişə ilə bağlı bir sıra layihələrin və sənədlərin hazırlanmasına baxmayaraq, onlar nəticəsiz qaldı. Öz ərazi bütövlüyünün təmin edilməsi üçün Gürcüstanın hərbi əməliyyatlara əl atması isə 1999-cu ildə Abxaziyanın öz müstəqilliyini elan etməsinə gətirib çıxardı. Hərçənd ki, vasitəçilərin 2003-2008-ci illərdə keçirdikləri danışıqlar nəticəsində qismən uğur əldə edildi, amma buna baxmayaraq münaqişə zonasında vəziyyət hələ də mürəkkəb olaraq qalır. Bəzi politoloqların fikrincə, yeni minilliyin başlanğıcı Gürcü-Abxaz və Gürcü-Osetin münaqişələri Gürcüstan-Rusiya münaqişəsinə çevrilib, bu da baş verən hadisələrlə sübut olunurdu. Münaqişənin birinci mərhələsində, BMT və ATƏT-in vasitəçilik missiyası qısa zaman ərzində özünü doğrultmadı. Abxaziya və Cənubi Osetiya BMT və ATƏT missiyasının

müşayiətçilərini öz ərazilərinə daxil olmağa icazə vermədilər. 1998-ci ildən Rusiyanın xarici siyasətində Abxaziya və cənubi Osetiyanı dəstəkləmək siyasəti artıq Gürcüstana təzyiq vasitəsinin prioritet istiqamətinə çevirilmişdir. Gürcüstanda "narıncı inqilabdan" və M.Saakaşvilinin 2004-cü il yanvarın 25-də hakimiyyətə gəlməsindən sonra, Avropa ölkələri ilə intensiv əməkdaşlığa start verilmişdir, AB ilə əlaqələr genişlənməyə başladı. M.Saakaşvili AB-nə Gürcüstana öz missiyasını göndərmək haqqında xahişlə müraciət etdi. Hakimiyyət dəyişikliyindən sonra Gürcüstan hökuməti NATO ilə hərbi-siyasi əməkdaşlığın genişləndirilməsinə xüsusi diqqət yetirməyə başladı. Rusiyanın etirazlarına baxmayaraq, NATO-nun çərçivəsində aparılan, Gürcüstan ordusunun natosayağı formallaşması və silahlandırılması, ABŞ ilə əlaqələrin genişləndirilməsi, M.Saakaşvilinin hakimiyyətinin ilk dörd ili, AB-nin Gürcüstana artan marağının ifadəsi idi. 2008-ci ilin mart ayından milli ordunun güclənməsi və AB-dən dəstək alması Gürcüstan hökumətinin separatçı rejimlərə qarşı mövqeyini möhkəmləndirdi. Gürcüstanın müstəqilliyinin möhkəmlənməsi və onun sürətlə Qərblə yaxınlaşması, ilk növbədə, Rusiyanı narahat edirdi. Təsadüfi deyil ki, 2008-ci ilin yayından, Gürcüstan sərhədçilərinin cənubi Osetiya və Abxaziya ilə toqquşması intensiv xarakter almağa başladı. Yaranmış şəraitdə AB-nin müşahidəçiləri hər iki tərəfi gərginliyə son qoymağa çağırırdılar. 2008-ci ilin avqust ayında münaqişə zonasında baş verən hadisə və proseslərin xronologiyası göstərir ki, mövqe böhran vəziyyətini aldı. "Avqustun 8-dən 12-ə kimi davam edən hərbi əməliyyatlar diplomatik leksikona "Beş günlük müharibə" adı ilə daxil oldu. Hərbi əməliyyatların başlaması, AB-ni təxirəsalınmaz tədbirləri görməyə məcbur etdi. Hərbi əməliyyatlar zamanı vasitəçilik missiyasını öz üzərinə götürən Fransa prezidenti N.Sarkozinin Rusiya və Gürcüstana səfərləri və AB-nin münaqişənin həlli yolunda qəbul etdiyi altı layihə, avqust ayının 15-16-da müvəqqəti olaraq atəşin dayandırılmasına imkan verdi. Avqustun 19-da isə, NATO və AB rəsmi olaraq Rusiyadan münaqişə ərazisindən ordusunu çıxarmağını tələb etdi" [4, s.8]. Analitiklər münaqişənin həllində AB-nin rolunu xüsusi qeyd edirlər. Bunu müharibədən dərhal sonra yaradılan AB-nin komissiya və missiyası sübut edir. Sülh prosesində həmçinin Avropa Şurasının nümayəndələri fəal iştirak etdilər. AB və Avropa Şurasının nümayəndələrinin Cenevrədəki çıxışlarında xüsusi konfransın və faktaraşdırıcı komissiyanın yaradılması haqqında çağırışlarından sonra, Avqustun 14-də prezident M.Saakaşvili Gürcüstanın MDB-dən çıxışını bəyan etdi. Cavab olaraq, Rusiya cənubi Osetiya və Abxaziyanın müstəqilliyini tanımasını bəyan etdi, bu da Gürcüstan və Qərb ölkələrinin narazılığına səbəb oldu. "Avqustun 29-da Gürcüstan Rusiya ilə diplomatik əlaqələrinin dayandırıldığını bəyan etdi. Cənubi Osetiya və Abxaziya isə dünya ölkələri və beynəlxalq təşkilatlara müstəqilliklərinin tanınması üçün müraciət etdilər" [4, s.9].

Buna baxmayaraq, Rusiya müharibədən sonra çalışırdı ki, cənubi Osetiya və Abxaziyanı beynəlxalq hüquqların müstəqil subyektləri kimi təqdim etsin, ABŞ və AB ölkələrinin liderləri Rusiyadan tələb edirdilər ki, Gürcüstanın ərazi bütövlüyünə hörmətlə yanaşsın, onlar separatçı ərazilərini "Zəbt edilmiş ərazilər" adlandırırdılar. "2011-ci il iyulun 29-da qəbul olunan qətnamədə, ABŞ senatı Gürcüstanın ərazi bütövlüyünü dəstəklədiyini bəyan etdi və Rusiyadan işğalı dayandırmağını tələb etdi. Qətnamənin müəllifləri L.Qrem və D.Şahin avropalı həmkarlarını analoji addım-lar atmağa çağırırdılar. Təsadüfi deyil ki, Av-ropa Parlamenti, NATO-nun Parlament Assambleyası və AB-nin qrup üzv-ölkələri Rusiyanın Gücüstan ərazilərini işğal etmə faktını tanıdılar" [5].

Məlum olduğu kimi, 1992-ci ilin iyul ayında məhz Rusiyanın vasitəçiliyi ilə cənubi Osetiyada tərəflər arasında atəşin dayandırılması barədə atəşkəs rejimin formalaşma müqaviləsi imzalandı. 1994-ci ilin may ayında isə

Dağlıq Qarabağ və Abxaziyada Rusiyanın vasitəçiliyi ilə atəşkəs elan olundu.

Müasir dünyanın etnosiyasi palitrası, öz əhatə sahəsi üzrə ümumplanet xarakterini alan münaqişələrin nümunələri üzrə qlobal məzmunlu çoxsaylı amillərin təsiri altında keyfiyyət və kəmiyyət dəyişikliklərə məruz qalmağı ilə yanaşı, beynəlxalq təhlükəsizliyə əsas təhdidlərdən birinə çevrilib.

Belə münaqişələrdən biri də Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsidir. Belə ki, Azərbaycanın ayrılmaz hissəsi olan Dağlıq Qarabağla əlaqədar Ermənistanın ölkəmizə qarşı ərazi iddiaları Azərbaycanla Ermənistan arasında ziddiyyətlərin dərinləşməsinə, sosial böhran vəziyyətinin yaranmasına gətirib çıxardı və nəticədə respublikamız Ermənistanın silahlı təcavüzünə məruz qaldı. 1987-ci ilin sonunda keçmiş Sovet imperiyasında "yenidənqurma" adlanan dağıdıcı proseslər zəminində süni "Dağlıq Qarabağ" problemi meydana gətirildi. O zaman SSRİ-nin ali rəhbərlərindən biri olan Heydər Əliyev hakimiyyətdən kənarlaşdırıldıqdan sonra Ermənistanın qatı millətçi dairələrinin və onların xarici dövlətlərdə olan havadarlarının uzun illər ərzində hazırladıqları planı həyata keçirmək üçün münbit siyasi zəmin yarandı. M.Qorbaçov başda olmaqla o zamankı SSRİ rəhbərliyi konstitusiya borcunu yerinə yetirmək, qanunçuluğu qorumaq əvəzinə, erməni millətçilərinin separatçı hərəkətlərini həvəsləndirmək, əzəli Azərbaycan torpağı olan Dağlıq Qarabağı Azərbaycanın tərkibindən çıxarıb, Ermənistana inteqrasiya etmək yolunu tutdu. "Nəticə etibarilə ilk mərhələdə tamamilə aradan qaldırılması mümkün olan münaqişə tədricən böyüyərək, iki xalqın tammiqyaslı qarşıdurmasına, geniş müharibəyə çevrildi" [6, s.213]. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ silahlı münaqişəsi öz başlanğıcını 1988-ci ilin fevralından – DQMV Vilayət Sovetinin sessiyasının vilayətin Azərbaycan SSR-in tərkibindən çıxarılıb Ermənistana birləşdirilməsi haqqında qərar qəbul etdiyi vaxtdan götürür. Etnik faktorlardan doğan bu münaqişənin əsas qaynaqları Ermənistanın ərazi işğalları ilə bağlı olub, başlıca məqsədi hərbi güc tətbiq edilməsi yolu ilə Azərbaycanın ərazisinin bir hissəsinin ələ keçirilməsi olmuşdur. Acınacaqlı hal o idi ki, Ermənistanın bu qara niyyətli planları faktiki olaraq keçmiş SSRİ rəhbərliyi tərəfindən dəstəklənirdi. Onu da qeyd edək ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi 1988-ci ilin fevralından Sovet imperiyasının süqutuna qədər olan dövrdə keçmiş SSRİ-nin daxili problemi kimi qiymətləndirilirdi. Lakin imperiyanın süqutu ilə münaqişə tezliklə beynəlmiləlləşdi, beynəlxalq güclərin və maraqların mübarizə nöqtəsinə çevrildi. Münaqişənin dinc yolla nizama salınması istiqamətində ilk təşəbbüslər Ermənistanın işğalçı qüvvələrinin Dağlıq Qarabağ ətrafındakı əraziləri zəbt etdiyi dövrlə başlayır.

Xatırladaq ki, rəsmi Moskvanın diqtəsi və rəhbərliyi altında 1923-cü il iyulun 7-də Azərbaycan SSR-in tərkibində məqsədli şəkildə yaradılmış Dağlıq Qarabağ Muxtar Vilayəti Azərbaycan Respublikası Ali Sovetinin 26 noyabr 1991-ci il tarixli qərarı ilə ləğv edilmişdir. Bu barədə tədqiqatçı alim Üzeyir Şəfi özünün "Konfliktologiya siyasi-sosioloji təhlil" monoqrafiyasında yazır: "Bizcə, Dağlıq Qarabağa vaxtilə muxtar vilayət statusunun verilməsi, mütəmadi olaraq tarixin müxtəlif dövrlərində məqsədli şəkildə Azərbaycanın Dağlıq Qarabağ ərazisində erməni çoxluğu yaratmaq məramı ilə oraya ermənilərin köçürülməsi, Azərbaycan rəhbərliyinin bu prosesə biganə qalması, SSRİ-nin süqutu ərəfəsində (1988-1989) Dağlıq Qarabağda katalizator funksiyalarını yerinə yetirən erməni millətçi təşkilatları – "Qarabağ", "Krunk" (durna, həsrət deməkdir - burada Qarabağ həsrəti) və s. barəsində SSRİ və Azərbaycan rəhbərliyinin tədbir görməməsi də münaqişənin dərinləşməsinə səbəb olmuşdur. Xatırladaq ki, həmin dövrlərdə və sonra da Ermənistan rəhbərliyi Dağlıq Qarabağın müstəqilliyi, onun Azərbaycandan ayrılıb Ermənistana verilməsi ilə bağlı dəfələrlə SSRİ rəhbərliyinə müraciət edirdi. Aqanbekyan, Z.Balayan kimi erməni ideoloq-

ları əməli iş gördükləri halda, Azərbaycan rəhbərliyi gah susur, gah da beynəlmiləlçilik şüarlarında nicat axtarırdı. Az sonra Rusiyanın havadarlığı ilə Ermənistan qoşunları Azərbaycanın içərisinə soxulmağa başladı" [7, s.152-153].

Hələ XX əsrin əvvəllərində Zaqafqaziyada, Rusiyada, eləcə də Avropada ermənipərəst qəzetlərdə Qarabağda "yazıq ermənilərin" təcavüzə məruz qalması, sıxışdırılması barədə hay-küy qaldırıldı. İngilis jurnalisti Skotland Liddel öz müşahidələri əsasında ermənilərin böyük təbliğat məharəti haqqında yazırdı: "Ermənilər dünyada ən yaxşı təbliğatçıdırlar, onların təbliğatı son ayların işi deyil, əksinə uzun illər boyu sistemli şəkildə aparılmışdı. Nə Rusiyada, nə də Qafqazda elə bir adam tapılmaz ki, ermənilər haqqında yaxşı söz işlətsin. Rusların, azərbaycanlıların və gürcülərin onlardan zəhləsi gedir və onlara nifrət edirlər. Doğru olub olmadığını mən deyə bilmərəm. Ancaq fakt göz qabağındadır.

Ermənilər qəddar irqdir. Lakin onların təbliğatı xaricdə elə qurulmuşdur ki, Avropa və bütün dünya onların tərəfindədir" [8, s.63].

Ermənilər sovet dövründə də azərbaycanlılara qarşı kompaniya apararaq gizli fəaliyyət göstərmiş və bu özünü XX əsrin sonlarında yalanlarla yoğrulmuş erməni təbliğatında göstərmişdi. Belə ki, 1985-ci ildə keçmiş sovet imperiyasında M.Qorbaçov hakimiyyətə gəldikdən sonra həm mərkəzi mətbuatda, həm də Ermənistan mətbuatında müsəlmanlar adı altında azərbaycanlılara və türk soyuna qarşı təbliğat işi gücləndirildi. "Erməni soyqırımı" məsələsi getdikcə qabardıldı, ermənilərin "əzabkeş xalq" olduğu təbliğatı genişləndirildi. Bu "əzabkeş xalqın" XX əsrin 70-80-ci illərində xaricdə türk diplomatlarına və ümumiyyətlə Qərbi Azərbaycanda, eləcə də Dağlıq Qarabağda dinc əhaliyə qarşı keçirdikləri terror hadisələri barədə keçmiş SSRİ mətbuatı möhkəmcə susur, çox vaxt isə gizlədirdi.

Bu hadisələrin növbəti mərhələsi isə hələ 1988-ci il yanvarın 25-də, fevralın 18 və 23-də Ermənistandan azərbaycanlıların Azərbaycana dəstə-dəstə axın etdiyi vaxtlardan başlamışdı. Bu, hələ hadisələrin gizli dövrü idi və həmin vaxt Ermənistan SSR-də ermənilər azərbaycanlılara qarşı hədə-qorxu gəlməklə, onları şantaj etmək və döyərək qovmaqla bunları həyata keçirirdilər. "Təəssüflər olsun ki, Azərbaycanın rəhbərliyi o vaxtlar ciddi-cəhdlə bunları xalqdan gizlədir, həm Azərbaycan mətbuatı, həm də mərkəzi mətbuat bu barədə heç bir məlumat vermirdi. Hətta Sumqayıtdan əvvəl Əsgəran rayonunda ermənilər tərəfindən öldürülən iki azərbaycanlı haqqında nə yerli mətbuatda, nə də mərkəzi mətbuatda xəbər verilməmişdi. Erməni millətçiləri tərəfindən bilərəkdən planlı şəkildə Sumqayıtda təşkil edilmiş faciə barədə xəbərlər isə onlar tərəfindən tez bir zamanda, ildırım sürəti ilə təkcə keçmiş SSRİ ərazisinə deyil, bütün dünyaya yayıldı. Ermənilərin hadisələrdən təşkil etdikləri çəkilişlər adı ilə əvvəlcədən hazırlanmış kino və video filmlər dünyanın hər yerində nümayiş etdirildi. Azərbaycanlılar dünyaya "vəhşi", "qaniçən" və "adamyeyən" bir xalq kimi təqdim olundu" [9, s. 268-269].

SSRİ-nin süqutundan sonra Azərbaycan və Ermənistan müstəqil dövlətə çevrildilər. Lakin çox təəssüf ki, Cənubi Qafqaz regionunda beynəlxalq hüquqa və ATƏT-in Helsinki Yekun Aktına uyğun sivil, dövlətlərarası münasibətlər bərqərar olmadı. İki ölkə arasında qanlı müharibənin nəticələri bölgədə sülh və sabitliyin yaranmasına hələ də mane olur. Müharibə alovunun bütün dəhşətlərini, yaşından, cinsindən, milli mənsubiyyətindən asılı olmayaraq, ölkəyə vurduğu böyük maddi-mənəvi zərəri yalnız statistik göstəricilərlə ifadə etmək mümkün deyil. Münaqişə nəticəsində bir milyondan artıq qaçqın və məcburi köçkün düşmüş Azərbaycan vətəndaşlarının həyat fəaliyyətinin təhlükəsizliyi təhlükə altına alınmış və onlar öz dədə-baba torpaqlarında yaşamaq hüququndan məhrum edilmişdir. Həyat fəaliyyətləri təhdid altında olan bu insanlar Azərbaycanın digər rayonlarında yaşamağa məcbur olmuşlar. İşğal nəticəsində, bütövlükdə Azərbaycanın 900-ə yaxın yaşayış

məntəqəsi talan edilmiş və sonradan dağıdılıb məhv edilmişdir. Ermənistanın Azərbaycan Respublikasına qarşı hərbi təcavüzü ölkə ərazisinin 20 faizindən çoxunun işğal olunmasına səbəb olmuş və münaqişə nəticəsində 20 mindən çox Azərbaycan vətəndaşı həlak olmuş, 50 mindən çox insan yaralanmış, əlil və ya şikəst olmuş, 4 min nəfərdən çox adam əsir və itkin düşdü. Dünya birliyinə yaxşı məlumdur ki, Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində bir milyondan artıq dinc azərbaycanlının insan hüquqları kobud şəkildə pozulmuşdu. Ermənistanın işğalçılıq siyasəti nəticəsində Azərbaycanın əhalisinə, ərazisinə, iqtisadiyyatına, ekologiyasına, bitki və heyvanat aləminə böyük maddi və mənəvi ziyan vurulmuşdu. İşğal olunmuş ərazilərdə 6 minə yaxın kənd təsərrüfatı və sənaye obyekti, 150 min yaşayış evi və mənzil (bunların ümumu sahəsi 9,1 milyon kvadratmetrdir), 4366 sosial-mədəni təyinatlı obyekt, 7 min ictimai bina, 695 xəstəxana və digər tibb müəssisələri, 4 sanatoriya – müalicəvi kompleks, 31 məscid, 9 tarixi saray, 160 körpü, 862 mədəniyyət sarayı və klub, 982 kitabxana, 85 musiqi məktəbi, 464 muzey və tarixi abidə, 6 dövlət teatrı dağıdılmış, 800 kilometr uzunluğunda dəmir yolu və avtomobil yolları, 15 min kilometr uzunluğunda elektrik və qaz xətləri, 2300 kilometr uzunluğunda regional əhəmiyyətli su kommunikasiya sistemləri sıradan çıxarılmış, 1 milyon hektar kənd təsərrüfatı sahəsi, 250 min hektar meşə sahəsi, 200 paleontoloji və geoloji abidə erməni işğalçıların əlinə keçmişdir. “Bütün bunlarla yanaşı işğal olunmuş ərazilərdə 693 orta məktəb, 1145 məktəbəqədər tərbiyə müəssisəsi və uşaq bağçası düşmən tapdağı altında qalmışdır”[10, s.68]. Bunların əksəriyyəti talanmış, məhv edilmiş, dağıdılmış və ya yararsız hala salınmışdır. Bununla yanaşı, Ermənistanla həmsərhəd olan Azərbaycanın digər yaşayış məntəqələrinin bir çoxu tam dağıdılmış və dinc əhali öz doğma obalarını tərk etməyə məcbur olmuşdur. Ermənistanla həmsərhəd olan Azərbaycan rayonlarının iqtisadiyyatı da ciddi zərər görmüşdür. “Xocalının işğal günü erməni terrorizminin, azərbaycanlılara qarşı genosid siyasətinin ən qanlı səhifələrindəndir. Təkcə həmin gün əsasən qocalardan, qadınlardan və uşaqlardan ibarət olan 613 nəfər dinc sakin vəhşicəsinə qətlə yetirilmiş, 1275 nəfər isə əsir götürülmüşdür. Bu kütləvi qırğın, vandalizm aktı zamanı 56 nəfər xüsusi qəddarlıq və amansızlıqla qətlə yetirilmiş, diri-diri yandırılmış, başları kəsilmiş, yaxud başlarının dərisi soyulmuş, gözləri çıxarılmış, hamilə qadınlar süngü ilə deşik-deşik edilmişdir. Xəsarət alanlardan 487 nəfəri şikəst olmuşdur. Onlardan 76 nəfəri azyaşlıdır” [11, s.105-106]. İşğal altındakı ərazilərdə Azərbaycanın milli-mədəni dəyərlərinin vandalizmə düçar olması da insan hüquqlarına, beynəlxalq hüquqa ziddir. Dünyanın gözü qarşısında işğal altında saxlanılan Azərbaycan ərazilərində bütün milli-mədəni dəyərlərə, nəinki islam, eləcədə xristian-Alban dövrünə aid abidələrə qarşı aparılan vandalizm hərəkətləri bəşər mədəniyyətinin və tarixinin məhvinə yönələn cinayət kimi pislənilməli və beynəlxalq ictimaiyyətin diqqətinə çatdırılmalıdır. Ermənilərin özünküləşdirmə siyasəti nəticəsində tarixi Azərbaycan torpaqlarında Ermənistan dövləti yaradıldıqdan sonra isə bu soyqırım siyasəti Ermənistan dövləti səviyyəsində bu gündə davam etdirilməkdədir.

Qeyd edək ki, ermənilərin azərbaycanlılara qarşı soyqırım siyasəti təkcə müasir dövrü əhatə etmir. Bu siyasətin 300 illik tarixə malik olduğunu desək yanılmarıq. Məlum olduğu kimi ermənilər Rusiya çarı I Pyotrun Cənubi Qafqaza yürüşündə fəal iştirak etmişlər. I Pyotrun Cənubi Qafqazda yaşayan müsəlmanlarla İran və Osmanlı imperiyaları arasında ermənilərdən xristian sədd kimi istifadə etmək fikri tarixi həqiqətdir. Həmin dövrdən başlayaraq rus siyasətində alətə çevrilən ermənilər din qardaşlığı pərdəsi adı altında Cənubi Qafqazın aborigen əhalisi olmamasına baxmayaraq bu əraziyə kütləvi surətdə köçürüldü (çar Rusiyası ilə İran imperiyası arasında Azərbaycan torpaqlarının bölüşdürülməsinə dair 1813-cü il Gülüstan və 1828-ci il Türk-

mənçay, Osmanlı - çar Rusiyası sülh müqavilələri dövründə). Cənubi Qafqaza köç edən ermənilər (əsasən də Osmanlı imperiyasından) Rusiya imperiyası tərəfindən işğal edilən Azərbaycan torpaqlarının qərb hissəsində (indiki Ermənistan Respublikası ərazisində) və ta qədimdən Azərbaycan torpağı olan Qarabağ və digər ətraf ərazilərdə (əsasən də İran imperiyasından köçənlər) yerləşdilər. Ermənilər burada din qardaşları olan rus imperiyasının maraqlarına uyğun hərəkət etməklə yanaşı özlərinə dövlət yaratmaq uğrunda amansız mübarizəyə başladılar. I dünya müharibəsi dönəmində Osmanlı imperiyasına xəyanət edən ermənilər qiyam qaldıraraq öz maraqları üçün (uzun illər boyu Osmanlı və İran imperiyalarında ermənilər yüksək mənsəb sahibi olmuşlar) Antanta ittifaqı dövlətləri olan Böyük Britaniya, Fransa, Amerika və çar Rusiyası ordularına kömək etməklə Osmanlı imperiyasının çöküşünə nail oldular. Həmin dövrdə ermənilər Cənubi Qafqazda özlərinə dövlət yaratmaq üçün azərbaycanlılara qarşı kütləvi surətdə soyqırım və insanlığa yaraşmayan qətliam törədirdilər. Çar Rusiyasının süqutu ilə cənubi Qafqazda erməni vəhşiliyi geniş vüsət aldı. Cənubi Qafqazda dincliyin əmin-amanlığın yaranması üçün yenicə yaranan Azərbaycan Xalq Cümhuriyyəti hökuməti xarici təzyiq nəticəsində Batum konfransında ermənilərə inzibati mərkəz kimi İrəvan və onun ətrafını verməyə razı oldu. Sonrakı dövrlərdə I dünya müharibəsinin qalib dövlətlərinə arxalanan ermənilər cənubi Qafqazın sovetləşməsindən sonra rəsmi Moskvanın köməyi ilə Azərbaycan SSR-nin torpaqları hesabına Ermənistan SSR-in ərazisini genişləndirdilər. Qədim Azərbaycan torpaqları olan Zəngəzur qəzası, Dərələyəz, Vedibasar, Göyçə mahalı və s. ərazilər bütünlüklə Ermənistan SSR zorla birləşdirildi. Hələ bu azmış kimi əzəli Azərbaycan torpaqları olan Naxçıvan, Qazax, Tovuz və s. ərazi vahidlərindən xeyli torpaq sahəsi də Ermənistan SSR-yə verilmişdi. Sovet imperiyasının süqutundan sonra özlərini yazıq, sülhsevər xalq kimi dünyaya sırımaq istəyən ermənilər əzəli Azərbaycan torpağı olan Dağlıq Qarabağ və ona bitişik 7 rayonu işğal etmişlər. Həm ideoloji cəhətdən, həm də Rusiya tərəfindən təpədən dırnağa qədər silahlandırılan Ermənistan insanlıq üçün qara ləkə olan Xocalı soyqırımını törətmişdi. "Ona görə də azərbaycanlılar və ermənilər arasında tarixən mövcud olmuş konflikt, həm də ideoloji müharibədir" [12, s.8]. Ermənilərin törətdikləri qanlı cinayətlər Cənubi Qafqazın etnik azərbaycanlılara məxsus olan bütün yaşayış məntəqələrini əhatə etmiş və bu cinayətlər nəticəsində son yüz il ərzində iki milyondan artıq azərbaycanlı öz tarixi torpaqlarından didərgin salınmış, xüsusi qəddarlıqla soyqırıma məruz qalmışlar. Ümumdünya insan hüquqları Bəyannaməsinin 5-ci maddəsində göstərilir: "Heç kim isgəncələrə və yaxud ağır, qeyri-insani və ya onun ləyaqətini alçaldan rəftara və cəzaya məruz qalmamalıdır" [14].

Qeyd edək ki, işğalçı Ermənistan qoşunlarının işğal olunmuş Azərbaycan torpaqlarından qeyd-şərtsiz çıxarılması barədə Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasının 822, 853, 874 və 884 saylı qətnamələri çox təəssüflər olsun ki, icra olunmamışdır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev çıxışlarının birində Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı mövcud durumu çox uzaqgörənliklə belə qiymətləndirmişdir: "Artıq xeyli vaxtdır ki, Ermənistan Azərbaycan torpaqlarını işğal edib, indi isə Azərbaycanı ittiham edir. Ermənistana aid bütün torpaqlar bizim tarixi torpaqlarımızdır, ancaq biz Ermənistana qarşı torpaq iddiaları irəli sürmürük, sürə bilərik. Əgər Ermənistan rəhbərliyi öz xalqının gələcəyi haqqında düşünürlərsə, öz siyasətlərində dəyişiklik etməlidirlər. Ermənistan silahlı birləşmələri Azərbaycanın işğal olunmuş torpaqlarından qeyri-şərtsiz çıxmalıdırlar və Türkiyəyə qarşı əsassız iddialardan əl çəkməlidirlər. Əks halda Ermənistanın özünün müqəddəratı sual altına düşə bilər. Azərbaycan heç vaxt Dağlıq Qarabağın itirilməsinə razılıq verməyəcək və nəyin bahasına olursa-olsun doğma torpaqlarını azad

edəcəkdir. Dağlıq Qarabağ əzəli Azərbaycan torpağıdır. Ermənilər oraya XIX əsrin əvvəllərində köçürülmüşlər. Bir dəfə Azərbaycan torpağında erməni dövləti yaradılıb, burada ikinci bir erməni dövlətinin yaradılmasına heç vaxt imkan verməyəcəyik. Azərbaycanın ərazi bütövlüyü tezliklə bərpa ediləcəkdir. Azərbaycan dövləti və xalqı Dağlıq Qarabağ məsələsinin ədalətlə, sülh yolu ilə həll edilməsinin tərəfdarıdır, lakin sülh imkanlarının tükənməsi Azərbaycanı işğal altında olan torpaqlarını silahlı yolla azad etmək məcburiyyətində qoya bilər. Güclü orduya malik Azərbaycan dövləti buna qadirdir!!!" [13,s.144-145].

Qeyd edək ki, işğalçı Ermənistanın təxribatı nəticəsində tarixə dörd günlük müharibə kimi düşən aprel döyüşlərində Azərbaycan Silahlı Qüvvələri işğal olunmuş ərazilərimizin bir hissəsini və bəzi strateji yüksəklikləri düşmən qüvvələrindən təmizlədi. Bu hadisə Silahlı Qüvvələrimizin döyüş əzminin yüksəlməsində və Azərbaycan diplomatiyasının diqtə edən tərəfə çevrilməsində mühüm rol oynadı. İşğal olunmuş Azərbaycan torpaqlarının boşaldılması ilə əlaqədar olaraq 2016-cı il mayın 16-da Vyanada ABŞ, Fransa və Rusiyanın təşkilatçılığı ilə keçirilən Ermənistan-Azərbaycan danışıqları öz müsbət bəhrəsini verməmiş və Azərbaycan vətəndaşlarının pozulmuş hüquq və azadlıqlarının bərpa edilməsinə əlverişli siyasi-hüquqi şərait yaratmamışdı. Başqa sözlə, Azərbaycan torpaqlarının işğal altında qalmasının müddəti müəyyən qüvvələr və dövlətlər tərəfindən uzadılmışdır. Cənubi Qafqazda iqtisadi-siyasi rıçaqlarını itirmək istəməyən imperiya təfəkkürlü rəsmi Moskva Gürcüstanda olduğu kimi Dağlıq Qarabağ münaqişəsindən Azərbaycana qarşı təsir vasitəsi kimi istifadə etmişdir.

2020-ci il iyulun 12-də Azərbaycanın Ermənistanla həmsərhəd Tovuz rayonuna işğalçı Ermənistan silahlı qüvvələrinin hücumu və düşmən tərəfindən törədilən təxribatın Azərbaycan ordusu tərəfindən qarşısının layiqincə alınması bir daha aparılan danışıqların səmərəsizliyindən xəbər verirdi.

2020-ci il sentyabrın 27-də düşmənin təxribatı nəticəsində əks hücuma keçən Azərbaycan ordusu 30 ilə yaxın müddətdə Ermənistan Silahlı Qüvvələri tərəfindən işğal altında saxlanılan doğma torpaqlarımızı azad etməyə başladı. Qısa bir müddət ərzində düşmən ordusunu darmadağın edən Azərbaycan ordusu Dağlıq Qarabağ və ona bitişik ətraf rayonları işğaldan azad etdi. Nəhayət, 2020-ci il noyabrın 10-da Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin təşəbbüsü ilə Azərbaycan Respublikası ilə Ermənistan Respublikası arasında gedən müharibə üçtərəfli bəyanatın imzalanması ilə dayandırıldı. Tarixə qırx dörd günlük müharibə kimi düşən vətən müharibəsində müzzəfər Azərbaycan ordusu və onun müzzəfər Ali Baş Komandanı cənab İlham Əliyevin başçılığı ilə xalq-hakimiyyət-ordu birliyi nəticəsində Azərbaycan Respublikası öz ərazi bütövlüyünü bərpa etdi.

Beləliklə, BMT-nin indiyədək yerinə yetirilməyən dörd qətnaməsini müzzəfər Azərbaycan ordusu yerinə yetirdi.

Beləliklə, qədim dövrdən başlayaraq bütün mərhələlərdə Qarabağ Azərbaycan ərazisinin ayrılmaz tərkib hissəsi olubdur. İstər qədim dövrdə olsun, istərsə də erkən orta əsrlərdə Qarabağ Azərbaycan dövləti olan Qafqaz Albaniyasının önəmli əyalətlərindən biri olmuşdur. Sonrakı dövrlərdə Qarabağ ərazisi, ardıcıl olaraq, tarixi Azərbaycan hüdudlarında mövcud olmuş feodal dövlətlərin ərazisinə aid olmuşdur.

XVIII əsrin ortalarında yaranmış və XIX əsrin əvvəlinədək mövcud olan Qarabağ xanlığı Azərbaycanın ən qüdrətli xanlıqlarından biri olmuşdur. Azərbaycanın Rusiya imperiyası tərəfindən istilasından, Xalq Cümhuriyyəti dövründə və daha sonra SSRİ-nin tərkibinə daxil olduğu dövrlərdə də Qarabağ Azərbaycan xalqının ictimai-siyasi və mədəni mərkəzlərindən biri olmaqda davam edib. Azərbaycan ərazilərinin Rusiya imperiyasının tərkibinə daxil edilməsindən sonra regionun etnik tərkibində dəyişikliklər baş verdi – Azərbaycan və qismən də Gürcüstan torpaqları ermənilərin ərazi iddiaları obyektinə çevrildi.

Onların “Böyük Ermənistan” xülyasına dair çoxəsrli strateji planları reallaşmağa başladı. XIX əsrin əvvəllərindən başlayaraq, ermənilərin işğalçı niyyətləri Qarabağı hədəfə alır. Çar Rusiyası Cənubi Qafqazda İran və Osmanlı imperiyasına qarşı xristian səddi çəkməklə erməni kartından məharətlə istifadə edirdi. İran-Rusiya müharibələrinin acı nəticələri (1813-cü il Gülüstan və 1828-ci il Türkmənçay) Azərbaycan torpaqlarının və xalqının iki imperiya arasında bölüşdürülməsinə gətirib çıxartdı. Azərbaycanın Araz çayından şimalda qalan torpaqları çar Rusiyasının, cənubda qalan torpaqları isə İran fars şovinizminin əsarəti altına düşdü. Rusiya imperiyası erməniləri kütləvi şəkildə Osmanlı imperiyası və İran ərazilərindən qərbi Azərbaycan ərazilərinə (indiki Ermənistan) və Qarabağa (qismən də Gürcüstan ərazilərinə) köçürürdü. Məhz bu köçürülmə siyasətinin acı nəticəsidir ki, əzəli Azərbaycan torpaqlarında ermənilərin sayı intensiv şəkildə artmağa başlamış, onların ərazi iddiaları millətlərarası harmoniya və ölkənin ərazi bütövlüyü ilə bağlı problemlərin təməlini qoymuş, bölgədə hazırkı hərbi-siyasi gərginliyə gətirib çıxarmışdır. 1905-1906, 1918-1920-ci illərdə ermənilərin Azərbaycan xalqına qarşı törətdikləri soyqırımın gizli məqsədi ərazi iddialarından, Azərbaycan əhalisini məhv edərək, tarixi Azərbaycan torpaqlarını işğal etmək niyyətindən ibarət olmuşdur. Azərbaycan Xalq Cümhuriyyəti dövründə (1918-1920-ci illər) ermənilərin ərazi iddiaları bir çox tarixi Azərbaycan torpaqlarına, o cümlədən Qarabağa da sirayət etmişdir.

İnanırıq ki, Cənubi Qafqazda Azərbaycan Respublikasına dost və qonşu ölkə olan Gürcüstanın Abxaziya və cənubi Osetiya münaqişəsi də Dağlıq Qarabağ münaqişəsi kimi ədalətli həllini tapacaqdır. Cənubi Qafqazdakı münaqişələrin ədalətli həlli Gürcüstan Respublikası ilə Azərbaycan Respublikasının ərazi bütövlüyünün və dövlət müstəqilliklərinin möhkəmləndirilməsi regional təhlükəsizliyə mühüm töhfə verə bilər. Azərbaycanın Ermənistanla müharibədən qalibiyyətlə çıxması onu regionun lider dövlətinə çevirmiş, beynəlxalq arenada nüfuzunun artmasına səbəb olmuşdur. Cənubi Qafqazdakı münaqişələrin həlli istiqamətində Azərbaycan Respublikası ilə Gürcüstan Respublikası arasında daha sıx hərtərəfli əməkdaşlıq zərurəti yaranmalı və hər iki ölkə birgə addımlar atmalıdırlar. Son zamanlar Gürcüstan Respublikasının Cavaxetiya bölgəsində ermənilərin fəallaşması Cənubi Qafqazda yeni münaqişə ocağının yaranması ehtimalını gücləndirir.

Zənnimizcə, işğalçı Ermənistanın Azərbaycanla qırx dörd günlük müharibədə ağır məğlubiyyətə uğraması, 2020-ci il noyabrın 10-da imzalanan üçtərəfli sazişə – kapitulyasiya aktına Ermənistanın baş naziri Nikol Paşinyanın imza atması və ermənilərin işğalçılıq niyyətlərindən əl çəkmələri cənubi Qafqaza sülh gətirəcəkdir. Bununla da əsasında ərazi iddiaları duran ermənilərin millətçi-faşist ideologiyaları tənəzzülə uğradı.

**Ədəbiyyat:**


1. Əliyev, H.Ə. Müstəqilliyimiz əbədidir. X kitab. – Bakı: Azərnəşr, – 2002. – 472 s.
2. Heydər Əliyev və qanunçuluq: çıxışlar, nitqlər, müraciətlər, müsahibələr, bəyanatlar, fərmanlar. I kitab, redaktor və ön sözün müəllifi X. Vəliyev – Bakı: Adiloğlu, – 2008. – 432 s.
3. Heydər Əliyev və ordu quruculuğu: çıxışlar, nitqlər, bəyanatlar, müraciətlər. İyun 1993- iyun 2003, red. X. Vəliyev, buraxılışa məsul Ə. Təhməzov – Bakı: Adiloğlu, – 2006. – 480 s.
4. Abdullayev, Ç.Ə. Alman-Azərbaycan mədəni əlaqələri: kulturologiya elmi dok. dis. avtoreferatı, Bakı, 2009. – 41s.
5. 525-ci qəzet, 29 noyabr 2011-ci il, s. 4-5.
6. Mehdiyev, R. Azərbaycan tarixi irs və müstəqillik fəlsəfəsi. Bakı: Azərbaycan milli ensiklopediyası nəşriyyatı, – 2001. – 276 s.
7. Üzeyir Şəfi. Konfliktologiya siyasi-sosioloji təhlil. Bakı: Adiloğlu, – 2002, – 180 s.
8. Əhmədov, T. Erməni xəyanəti (Qarabağ, Zəngəzur, Cavanşir və Cəbrayıl qəzalarında erməni cinayətləri 1918-1920-ci illər). Bakı, Nurlan, – 2008. – 96 s.
9. Paşayev, A.Ə. XIX-XX əsrlərdə ermənilərin azərbaycanlılara qarşı ərazi iddiaları, soyqırımları və deportasiyalar (arxiv sənəd və materialları əsasında). Bakı, Çaşıoğlu, – 2011, – 328 s.
10. Məmmədova, H.İ. Azərbaycan Respublikasının xarici siyasətində Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi. Bakı: Elm, – 2009. – 360 s.
11. Vahabov, F., Axundov, V., Qasımov, E., Dağlıq Qarabağ: hadisələrin xronikası (1988-1994-cü illər), Bakı: – 2012. – 108 s.
12. Orucov, Ə.A. Azərbaycan xalqı milli özünüdərk yollarında: XIX əsrin sonu – XX əsrin əvvəlləri (tarixi-fəlsəfi aspekt), Bakı: Avropa, – 2012. – 251 s.
13. Məmmədov, N. Azərbaycan SSR Dağlıq Qarabağ bölgəsinin şəhər və rayonlarının tarixi (XX əsrin 20-90-cı illəri). Bakı: Təhsil, – 2010. – 200 s.
14. Ümumdünya insan hüquqları Bəyannaməsi, http:// www. law/org.az/uploads /1.dosx.


***Açar sözlər:*** *Cənubi Qafqaz, münaqişə, Azərbaycan Respublikası, Gürcüstan, işğalçı Ermənistan, erməni terroru, Dağlıq Qarabağ münaqişəsi, Xocalı soyqırımı, regional təhlükəsizlik, ərazi bütövlüyü, milli siyasət, təhdid, etnosiyasi*

**Aliyar Orujov**
*Senior Methodist of the Education Department of the Academy of the Ministry of Emergency Situations, PhD, Associate Professor, Doctor of Science at the Institute of Philosophy and Sociology of Azerbaijan National Academy of Sciences*

## CONFLİCTS İN THE SOUTH CAUCASUS ARE THREAT SOURCE TO THE REGİONAL SECURİTY: SOCİO-POLİTİCAL ANALYSİS

### SUMMARY

The paper analyzes the conflicts in the South Caucasus from a socio-political point of view, as a threat to regional security. The South Caucasus occupies an important place in regional geopolitics which is related to the national interests and security of its countries. The abundance of hydrocarbon

resources in the region is of special interest to the United States and the European Union. The main advantage of the South Caucasus countries, especially Azerbaijan and Georgia, is that they play the role of a transit road and corridor between Asia and Europe. This corridor leads to Europe via Azerbaijan-Georgia-Turkey-Greece and the Caspian-Black Sea. Frozen conflicts such as the ones in Abkhazia and South Ossetia, and the newly resolved conflict (Nagorno-Karabakh) have been and continue to be a threat to both regional geo-economic development and security. The region poses a serious threat because of the interest and militarization of powerful actors. Therefore, conflict resolution is one of the main directions of foreign policy of the region. The author stresses the need not only to resolve the conflicts in the South Caucasus, but also to ensure regional security.

***Keywords:*** *South Caucasus, conflict, Azerbaijan, Georgia, invader Armenia, Armenian terror, Nagorno-Karabakh conflict, Khodjaly genocide, regional security, territorial integrity, threat*

**Алияр Оруджев**
*Старший методист отдела образования Академии МЧС,*
*доктор философии по философии, доцент,*
*доктор наук Института философии и социологии НАНА*

## КОНФЛИКТЫ НА ЮЖНОМ КАВКАЗЕ ИСТОЧНИК УГРОЗЫ РЕГИОНАЛЬНОЙ БЕЗОПАСНОСТИ: СОЦИАЛЬНО-ПОЛИТИЧЕСКИЙ АНАЛИЗ

### РЕЗЮМЕ

В статье анализируются конфликты на Южном Кавказе с социально-политической точки зрения как угрозы региональной безопасности. Южный Кавказ занимает важное место в региональной геополитике. Это связано с национальными интересами и безопасностью стран. Обилие углеводородных ресурсов в регионе привлекает интерес США и Европейского Союза. Главное преимущество стран Южного Кавказа, особенно Азербайджана и Грузии, заключается в том, что они играют роль транзитной дороги и коридора между Азией и Европой. Этот коридор ведет в Европу через Азербайджан-Грузию-Турцию-Грецию и Каспийское-Черное море. Как региональному геоэкономическому развитию, так и безопасности угрожали и продолжают угрожать замороженные конфликты Абхазии, Южной Осетии и недавно разрешенный конфликт (Нагорно-Карабахский). Регион является серьезным источником опасности из-за того, что находится в сфере влиятельных акторов интересов и милитаризованности. Поэтому разрешение конфликтов является одним из основных направлений внешней политики стран региона. Автор подчеркнул не только необходимость урегулирования конфликтов Южного Кавказа, но и их решение для обеспечения региональной безопасности.

***Ключевые слова:*** *Южный Кавказ, конфликт, Азербайджан, Грузия, оккупант Армения, армянский террор, Нагорно-Карабахский конфликт, Ходжалинский геноцид, региональная безопасность, территориальная целостность, угроза*

# DÖVLƏT VƏ HÜQUQ NƏZƏRİYYƏSİ VƏ TARİXİ
# THEORY AND HISTORY OF STATE AND LAW

UOT 340.1; 321.01

**ABDULƏLİ ABDULLAYEV**
**Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Hüquq kafedrasının dosenti, hüquq elmlər üzrə fəlsəfə doktoru**
*e-mail: abduleliabdullayev@mail.ru*

## AZƏRBAYCANDA ƏDALƏT MÜHAKİMƏSİNİN SƏMƏRƏLİLİYİNİN ARTIRILMASINDA HÜQUQİ İSLAHATLARIN ROLU

*"Bəşəri dəyərlər sırasında insan hüquqları qədər müqəddəs sayılan İlahi nemət yoxdur".*
*Yunan filosofu Yustinian*

Hüquqi dövlət – dövlətin təşkilinin və fəaliyyətinin elə bir formasıdır ki, burada insan və vətəndaşın hüquqları və azadlıqları təmin olunur, dövlət hakimiyyətinin fiziki şəxslər və onların müxtəlif birlikləri ilə əlaqələri hüquq əsasında qurulur. Azərbaycan ardıcıl məhkəmə-hüquq islahatları ilə diqqət mərkəzindədir və bu şəraitdə insan faktoru, insan hüquq və azadlıqlarının müdafiəsi ən önəmli vəzifələrdən birinə çevrilir. Müasir dövrün tələbi ilə səsləşən mütərəqqi hüquq islahatlarının dönmədən aparılması, ədalət mühakiməsini həyata keçirən məhkəmələrin müstəqilliyinin təmin olunması, qanunun aliliyi prinsipinin bütün səviyyələrdə qorunması vətəndaş cəmiyyəti quruculuğu prosesinin fundamental şərtlərindən biridir. Hüquqlar yalnız o zaman "real" tam dəyərli olur ki, əgər onların arxasında dövlətin məcburetmə aparatı durur, özü də belə müdafiənin etibarlılığı, məşhur Rudolf İerinqin sözlərinə əsasən, hüququn ədalət səviyyəsi olduğu qədər yüksək dəyərlidir (8).

Ədalət mühakiməsində ədalətə qanunun tətbiqinin düzgün fəaliyyət göstərən mexanizmi sayəsində nail olunan nəticə və ya qərar kimi baxılır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Şəki məhkəmə kompleksinin açılışı zamanı söylədiyi nitqində də ədalət mühakiməsinin ədalətliliyinə xüsusi diqqət ayırmışdır: "...Həyatda hər şey ədalət əsasında qurulmalıdır. Ədalət pozulduqda, əlbəttə ki, həm narazılıq yarana, həm də, ümumiyyətlə, cəmiyyətin müsbət inkişafı çətinliklərlə üzləşə bilər. Ədalətli qərarlar həm insanlarda dövlətə inamı artırır, eyni zamanda, həyatımızı tənzimləyir. Bütün qərarlar ədalətli olmalıdır. Məhkəmə sistemində qəbul olunmuş qərarlar, aparılan islahatlar, bax, bu məqsədi güdür." (22)

Demokratik inkişaf yolunda möhtəşəm uğurlara nail olmuş Azərbaycanın təcrübəsi təsdiqləyir ki, ictimai-siyasi həyatın bütün istiqamətləri üzrə hüquqi bazanın möhkəmləndirilməsi, ədalət prinsiplərinə riayət olunması sabitliyin, vətəndaş həmrəyliyinin və dinamik iqtisadi inkişafın başlıca təminatlarından biridir. Siyasi və iqtisadi islahatların paralel aparılması, o cümlədən ədliyyə və məhkəmə-hüquq islahatlarının sosial-iqtisadi inkişaf dinamikası ilə uzlaşdırılması sayəsində ölkəmizin hərtərəfli inkişafı üçün böyük imkanlar və yeni-yeni perspektivlər açılmışdır.

Şübhəsiz ki, mükəmməl və müasir dövlətçilik modelinin yaradılması, demokratik idarəetmə meyarlarının cəmiyyət həyatının müxtəlif sahələrində bərqərar olması çevik hüquqi mexanizmlərin yaradılmasından asılıdır. İctimai münasibətlər qanunlarla tənzimləndiyin-

dən, hüquqi dövlət quruculuğu, cəmiyyət həyatındakı mühüm yeniliklər hüquq sistemində də əsaslı dəyişikliklər, cəmiyyət üzvlərindən qanunlara, insan hüquq və azadlıqlarına yeni münasibət tələb edir.

Hesabatlılıq məsuliyyət ilə nəticəni birləşdirən amildir. Bu səbəbdən hesabatlılığın inkişaf etdirilməsində qanunverici və icraedici hakimiyyətlə yanaşı ictimaiyyət də iştirak etməlidir. Alman hüquq mütəfəkkiri Rudolf fon İerinqin sözləri ilə desək: "Haqq uğrunda mübarizə hər bir insanın səlahiyyətli vəzifəsidir". Hüquqi dövlət konsepsiyası insanın azadlığının təzahür sferasını müəyyənləşdirməyə yönəlib. Bu proses insan hüquq və azadlıqlarının maksimal təminatı, dövlətin vətəndaş qarşısında və vətəndaşın dövlət qarşısında məsuliyyəti, qanunun nüfuzunun yüksəldilməsi və hüquq-mühafizə orqanlarının effektiv işi ilə əlaqələndirilir.

Azərbaycan Respublikasının qazandığı nailiyyətlər hüquqi islahatların düzgün istiqamətləndirilməsi və səmərəli həyata keçirilməsi ilə sıx bağlıdır. Azərbaycan dövləti tərəfindən islahatlar, o cümlədən, hüquqi islahatlar hazırda da davam etdirilir. Respublikamızda həyata keçirilən bütün hüquqi islahatların mərkəzində də hüquq sisteminin zamanın çağırışlarına uyğun formalaşdırılması ilə yanaşı, məhz vətəndaş hüquq və azadlıqlarının etibarlı təminatı dayanır. Ölkə başçısının rəhbərliyi altında aparılan məhkəmə-hüquq islahatları, yeni təsisatların yaradılması, ədliyyə və məhkəmə-hüquq sisteminin təkmilləşdirilməsi vətəndaş cəmiyyətinin inkişafını təmin edən tədbirlərdir.

İslahatların uğurları və tətbiqinin uyğun mexanizmləri, ilk növbədə onun təşkilati, hüquqi, kadr, elmi və informasiya təminatı, həmçinin kifayət qədər maliyyə və maddi resurslarının olması zəruridir.

Bu gün Azərbaycanda artıq dövlət strukturlarının qeyri-hökumət təşkilatları və vətəndaş cəmiyyətinin digər institutları ilə əməkdaşlığının müəyyən təcrübəsi əmələ gəlmişdir. Buna müvafiq olaraq, gələcəkdə cəmiyyətin hüquqi və sosial-iqtisadi inkişafında vətəndaş cəmiyyətinin gücü ilə görülən işlərin xüsusi çəkisi getdikcə artacaqdır.

Azərbaycanda islahatlarının başlıca vəzifəsi dövlət idarəetmə orqanlarının xalq qarşısında cavabdehliyinin, şəffaflığının və hesabatlılığının təmin edilməsidir. Bu istiqamətdə Azərbaycanda dövlətin aparıcı strukturlarında pozitiv dəyişikliklər həyata keçirilib. Dinamik inkişafı təmin etmək üçün iqtisadi və sosial sferada əsaslı müsbət dəyişikliklərin həyata keçirilməsi dövlət idarəçiliyi sisteminin təkmilləşdirilməsi, səmərəliliyin yüksəldilməsi, çevik və məqsədyönlü fəaliyyət göstərən yeni idarəetmə strukturunun formalaşdırılması artıq zərurətə çevrilib.

Normal məhkəmə sistemi iqtisadiyyatın inkişafı üçün zəruridir. Çünki belə sistemdə mümkün mübahisələrin həll variantlarını əvvəlcədən proqnozlaşdırmaq mümkün olur və mübahisə tərəfləri qanunvericilik əsasında mübahisələndirilən məsələ üzrə hansı qərarların çıxarıla bilinəcəyini əvvəlcədən müəyyənləşdirə bilirlər. Mülkiyyət hüququnun müdafiəsi, bağlanan müqavilələrin və öhdəliklərin icrası və sağlam rəqabət kimi bazar iqtisadiyyatının təməl prinsiplərinin normal işləməsi məhkəmə sistemindən keçir. Beynəlxalq təcrübə göstərir ki, məhz demokratik sistemin və hüququn aliliyinin inkişafını daha möhkəm təmin etmiş dövlətlər daha sürətli və uğurlu iqtisadi inkişafa nail olmuşlar. Ədalət mühakiməsinin səmərəliliyinin təmin edilməsi məqsədi ilə hüquqi əməkdaşlıq sahəsində qabaqcıl Avropa dövlətləri, dünyanın nüfuzlu hüquq təsisatları ilə əlaqələrin inkişaf etdirilməsinə xüsusi əhəmiyyət verilir. Azərbaycanda son illərdə məhkəmə sistemi beynəlxalq standartlara uyğun təkmilləşdirilmiş, məhkəmə hakimiyyətinin müstəqilliyi möhkəmləndirilməsi sahədə fəaliyyəti tənzimləyən qanunvericilik bazası əsaslı şəkildə yenilənmiş, infrastruktur müasirləşmiş, insanların məhkəmələrə müraciət imkanları xeyli asanlaşmışdır. Ölkə-

mizdə məhkəmə sisteminin müasirləşdirilməsi üzrə ardıcıl mütərəqqi tədbirlərin görülməsi ilə yanaşı, bu sahədə qabaqcıl təcrübələr daim təhlil edilir, məhkəmələrin müstəqilliyinin yeni təminatları yaradılır.

Məhkəmə-hüquq islahatlarının dərinləşdirilməsi islahatları kompleks xassə aldığına görə məhkəmə, hüquq-mühafizə orqanları, ədliyyə, məhkəmə qərarlarının icrası sistemini əhatə edir. Hüquq-məhkəmə islahatlan bütövlükdə ölkədə qanunçuluğun, asayişin, həmçinin insan və mülkiyyət hüquqlarının qorunması məsələsini həll etməyə kömək etməyə istiqamətlənmişdir. Hüquq-məhkəmə sisteminin islahatları dövlət idarəetmə sisteminin islahatlarının mühüm tərkib hissəsidir. Belə ki, islahatlar prosesi qanunvericilik bazasına əsaslandığına görə, hüquq-məhkəmə sistemi yeni reallıqlara uyğunlaşdırılıb. Nəzərdə tutulan dəyişikliklər bir tərəfdən məhkəmə kollegiyaları strukturunun optimallaşdırılmasına, digər tərəfdən isə istər cinayət işləri, istərsə də aidiyyətlə bağlı mübahisələr üzrə vahid məhkəmə təcrübəsinin formalaşdırılması üçün daha əlverişli şəraitin yaradılmasına səbəb olacaqdır. Bununla yanaşı islahatlar sahibkarlıq fəaliyyəti ilə əlaqədar məsələlərə (vergi, gömrük ödənişləri, məcburi dövlət sosial sığorta ödəmələri barədə mübahisələr daxil olmaqla) baxılması üçün yeni ixtisaslaşmış məhkəmə yaradılacaq, məhkəmələrlə bağlı neqativ halların aradan qaldırılmasınə, məhkəməyə müraciət imkanlarının asanlaşdırılmasını, məhkəmə qərarlarının tam və vaxtında icrasını təmin edən tədbirlər görülməsini, penitensiar sahədə fəaliyyətin təkmilləşdirilməsi və cəza siyasətinin humanistləşdirilməsi və s. dəyişiklikləri özündə əks etdirir.

Hüquqi demokratik dövlətdə məhkəmə hakimiyyətinin müstəqilliyini gücləndirmək, cəmiyyətin həyatında mütərəqqi dəyərlərə əsaslanan məhkəmələrin rolunun artırılmasının təminatıdır.

Bununla yanaşı islahatlar qanunvericilik bazasına əsaslanmalı, hüquq-məhkəmə sistemi isə dövrün reallıqlarına uyğunlaşdırılmalıdır. Əhali qarşısında hesabat verən müstəqil məhkəmə hakimiyyəti dövlət hakimiyyətinin digər iki qoluna aid təşkilatlarda hakimiyyətdən sui-istifadə imkanlarını məhdudlaşdıran vacib həlledici amildir. Müstəqil Azərbaycanın qısa müddətdə demokratikləşmə sahəsində böyük nailiyyətlər qazanması da bilavasitə vətəndaş cəmiyyəti quruculuğuna hesablanmış məhkəmə-hüquq islahatlarının ölkənin sosial-iqtisadi inkişaf dinamikası və demokratik şüur səviyyəsi ilə uzlaşdırılması nəticəsində mümkün olmuşdur.

Müasir çağırışlara və qlobal proseslərə adekvat cavab verən, praqmatik yanaşmalar əsasında formalaşmış səriştəli dövlətçilik konsepsiyası Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən inamla həyata keçirilir.

Bununla yanaşı, 2019-cu il, eyni zamanda, ölkənin məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi dövrü kimi də yadda qalıb.

Belə ki, 2019-cu il aprelin 3-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" Fərman imzalanıb (21). Həmin Fərmanda məhkəmələrin işinin müasir tələblərə uyğun qurulması, onların fəaliyyətində açıqlıq və şəffaflıq prinsiplərinin rəhbər tutulması, məhkəmə qərarlarının icra mexanizmlərinin müasirləşdirilməsi, hakim və məhkəmə aparatı işçilərinin sosial müdafiəsinin yaxşılaşdırılması istiqamətində verilən tövsiyə və tapşırıqlar məhkəmə-hüquq sistemində institusional potensialın gücləndirilməsinə, infrastrukturun təkmilləşdirilməsinə yönəlmiş tədbirlərin davamı olub.

Bu gün ölkəmizin məhkəmə-hüquq sistemi üçün müstəsna əhəmiyyət kəsb edən dövlət sənədinin icrası çərçivəsində həyata keçirilmiş zəruri və mühüm dəyişikliklərin, yeni müstəvidə inkişaf edən hüquqi konfiqurasiyanın şahidi oluruq. Belə ki, Fərmanın icrasına başlanılaraq qısa müddətdə təxirəsalınmaz kom-

pleks qanunvericilik, institusional və praktiki tədbirlər görülüb.

Fərmanda dövlət başçısının humanist siyasətinin təzahürü olaraq cəza siyasətinin humanistləşdirilməsi və cinayətlərin dekriminallaşdırılmasına dair tədbirlərin davam etdirilməsi tapşırılmış, bununla əlaqədar qabaqcıl beynəlxalq təcrübə öyrənilməklə Cinayət, Cinayət-Prosessual, İnzibati Xətalar və Cəzaların icrası məcəllələrinə əsaslı dəyişikliklərin edilməsi, o cümlədən bir çox əməllərin dekriminallaşdırılması, alternativ cəzalardan daha geniş istifadə olunması və yeni mütərəqqi hüquq institutlarının tətbiqi məsələləri ilə bağlı hazırlanmış qanun layihələri Milli Məclisə təqdim olunmuş və dövlət başçısının qanunvericilik təşəbbüsü əsasında 01.05.2020-ci il tarixli Qanunla Cinayət Məcəlləsinə mühüm dəyişikliklər edilmişdir.

Təhlillər göstərir ki, məhkəmələrin cəza siyasətində azadlıqdan məhrumetməyə, habelə həbs qətimkan tədbirinin seçilməsinə üstünlük verilməsi penitensiar müəssisələrdə saxlanılan məhkumların və təqsirləndirilən şəxslərin sayının çoxalmasına və həmin müəssisələrin yüklənməsinə, ən əsası isə insanların azadlıq hüququnun lüzumsuz məhdudlaşdırılmasına səbəb olub. Cəzaların icrası sahəsində həyata keçirilən islahatlar insanların azadlıq hüququnun qorunmasına və məhkum olunan şəxslərin cəmiyyətdən təcrid olunmadan islah edilməsinə və sosial adaptasiyasına xidmət edir.

Prezident İlham Əliyev 10 fevral 2017-ci il tarixində imzaladığı "Penitensiar sahədə fəaliyyətin təkmilləşdirilməsi, cəza siyasətinin humanistləşdirilməsi və cəmiyyətdən təcridetmə ilə əlaqədar olmayan alternativ cəza və prosessual məcburiyyət tədbirlərinin tətbiqinin genişləndirilməsi barədə" Sərəncam həyata keçirilən sistemli və genişmiqyaslı hüquqi islahatların tərkib hissəsi kimi xüsusi qeyd edilməlidir.

Sərəncamdan irəli gələn məsələlərdən biri də penitensiar müəssisələrin fəaliyyətinin təkmilləşdirilməsi, onların maddi-texniki bazasının gücləndirilməsi, cəzanı icra edən orqan və müəssisələrdə mövcud olan nöqsanların aradan qaldırılması, cinayət təqibi və cəzaların icrası sahəsində korrupsiyanı istisna edən şəraitin təmin olunması, həmçinin, cinayət təqibi və cəzaların icrası sahəsində müasir texnoloji vasitələrin tətbiq edilməsidir (16).

Sadalanan məsələləri nəzərə alaraq imzalanmış Sərəncama əsasən, penitensiar müəssisələrin fəaliyyətinin müasirləşdirilməsi, infrastrukturun yenilənməsi və idarəçilik mexanizminin təkmilləşdirilməsi tədbirləri davam etdiriləcək. Bununla belə, Sərəncamına uyğun olaraq azadlıqdan məhrumetməyə alternativ cəzaların səmərəli icrası məqsədilə Ədliyyə Nazirliyində Probasiya Xidməti yaradılıb və cəzaların icrasında elektron nəzarət vasitələrinin tətbiqi təsbit olunub (15). Bu məqsədlə Probasiya Xidmətində müasir avadanlıqlarla təchiz olunmuş Monitorinq Mərkəzi fəaliyyət göstərir. Bu xidmətin başlıca vəzifəsi cəmiyyətdən təcridetmə ilə əlaqədar olmayan cəzaların icrasına effektiv nəzarətin təşkili və bu sahədə idarəetmənin səmərəliliyinin artırılmasıdır. Probasiya İnstitutu əksər Qərb ölkələrinin, İsveç, ABŞ, Finlandiya, Latviya, Böyük Britaniya, Danimarka, Estoniya və digər ölkələrin cinayət-mühakimə sistemlərinin mühüm tərkib hissəsidir (16).

Cəza siyasətinin humanistləşdirilməsi və cinayətlərin dekriminallaşdırılması istiqamətində həyata keçirilən sistemli tədbirlər ölkədə ədalət mühakiməsinin yüksək keyfiyyətini, cəzanın tərbiyəvi əhəmiyyətini və səmərəliliyini təmin edib, vətəndaşların hüquq və azadlıqlarının etibarlı qorunmasına, humanizm ideyalarının daha da geniş təşəkkül tapmasına imkanlar açıb.

Qeyd edilməlidir ki, Fərmanda vahid məhkəmə təcrübəsinin formalaşdırılması, məhkəmələrdə dövlət ittihamının müdafiəsi və protest verilməsi təcrübəsinin mütəmadi təhlil edilməsi və bu fəaliyyətin keyfiyyətinin artırılması üçün zəruri tədbirlərin görülməsi, kommersiya məhkəmələrinin təşkili və digər məsələlərlə bağlı

Azərbaycan Respublikasının Baş Prokurorluğuna, Ədliyyə Nazirliyinə, Ali Məhkəməyə, Məhkəmə-Hüquq Şurasına və digər aidiyyəti qurumlara tapşırıq və tövsiyələr verilib.

Belə ki, həmin fərmanda nəzərdə tutulmuş tədbirlərin icrası çərçivəsində digər mühüm tədbirlərlə yanaşı, sahibkarlıq fəaliyyəti ilə bağlı mübahisələrə daha dərin hüquqi bilik və təcrübəsi olan hakimlər tərəfindən və çevik baxılmasını təmin etmək məqsədilə ölkə Prezidentinin 19 iyul 2019-cu il tarixli Sərəncamı (18) ilə şəffaflığın gücləndirilməsi baxımından vacib olan və iş adamlarının hüquqlarının qorunmasına xidmət edəcək, yeni regional kommersiya məhkəmələri yaradılmışdır və inzibati məhkəmələr sisteminə yenilik gətirilmişdir. Nəticə etibarı ilə, kommersiya məhkəməsi məhkəmə statistikasını təhlil edir, məhkəmə fəaliyyətinin təşkili vəziyyətini, təcrübəsini öyrənir və ümumiləşdirir, ona aid edilmiş digər səlahiyyətləri həyata keçirir. Ümumilikdə isə bu proses sahibkarların hüquqlarının təmin edilməsinin səmərəliliyini artırmaqla ölkədə biznes mühitinin inkişafına önəmli töhfə verəcəyi ehtimal olunur. Ayrıca inzibati və kommersiya məhkəmələrinin yaradılması onlarda ixtisaslaşmanın artırılmasına şərait yaradacaq və bütövlükdə məhkəmə sistemində iş yükünün daha da balanslaşdırılmasına yardım edərək, rayon (şəhər) məhkəmələrinin üzərinə düşən iş yükünün azaldılmasına imkan verəcək.

Bundan əlavə, hakimlərin, məhkəmə aparatı işçilərinin əhəmiyyətli dərəcədə sosial müdafiəsinin gücləndirilməsi, məhkəmələrin maddi-texniki bazasının möhkəmləndirilməsi, məhkəmə fəaliyyətinin təminatı sahəsində tədbirlərin həyata keçirilməsi də ədalət mühakiməsinin səmərəliliyinə öz təsirini göstərən amillərdir.

İkinci qanun layihələri paketi isə 2019-cu ilin dekabr ayında qəbul olunaraq 2020-ci il martın 1-dən qüvvəyə minib. Həmin dəyişikliklərlə məhkəmələrdə hüquqi məsələlərin həllinə yanaşmanın sabitliyini və ədalət mühakiməsi həyata keçirilərkən maddi və prosessual hüquq normalarının eyni cür tətbiq edilməsini təmin etmək məqsədilə Ali Məhkəmə tərəfindən vahid məhkəmə təcrübəsinin formalaşdırılması nəzərdə tutulub. Vahid məhkəmə təcrübəsinin yaradılması məhkəmələrin həll etdikləri mübahisələrə qanunun eyni cür tətbiqi çox mühüm əhəmiyyət kəsb edən məsələdir. Məhkəmələrə inamın təmin olunmasına zəmin yaradan bu kimi təcrübə məhkəmə qərarlarının sabitliyinə, qanunun müəyyənliyinə dayaq olmaqla oxşar məsələlər üzrə müxtəlif məhkəmə aktlarının çıxarılmasına sədd çəkir. Vahid məhkəmə təcrübəsinin formalaşdırılmasının inkişaf edən ictimai münasibətlərin bəzi hallarda əmələ gətirdiyi hüquqi boşluqların və ya ziddiyyətlərin aradan qaldırılmasında da mühüm rolu var.

Qanunvericilik paketinin digər mühüm istiqaməti ədalətli məhkəmə araşdırılması hüququnun təmin edilməsində xüsusi əhəmiyyət kəsb edən məhkəmə ekspertizası fəaliyyətini əhatə edir. "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" dövlətimizin başçısının 2019-cu il 3 aprel tarixli Fərmanının 7.4-cü bəndinə əsasən, məhkəmə ekspertizası fəaliyyətinin alternativ mexanizmləri, o cümlədən ekspertizanın özəl qurumlar tərəfindən həyata keçirilməsi ilə bağlı beynəlxalq təcrübənin təhlil edilməsi və müvafiq təkliflərin hazırlanması tapşırığı verilib (19). Bəzi hallarda məhkəmə ekspertizalarının keçirilməsi ilə bağlı çətinliklər, ekspert rəylərinin məhkəmələrə təqdim edilməsində vaxt itkisinə yol verilməsi ədalətli məhkəmə baxışının münasib müddətdə başa çatdırılmasına imkan vermir. Dəyişikliklər nəticəsində ölkədə ilk dəfə tətbiq edilən özəl ekspertiza institutu bütün fiziki və ya hüquqi şəxslərə, həmin şəxslərin vəkilləri və nümayəndələrinə imkan verəcək ki, onlar özəl məhkəmə ekspertləri ilə bağlanan müqavilə əsasında məhkəmə ekspertizasını sifariş etsinlər.

Hüquq münasibətlərinin subyektləri arasında hüquq və vəzifələrin həyata keçirilməsində meydana çıxan mübahisələrin qanun əsasında,

tez və ədalətli həll edilməsinə olan tələbatı qarşılamalı olan məhkəmə sisteminin fəaliyyəti daimi təkmilləşməni tələb edir. Məlumdur ki, məhkəmə araşdırmalarının keyfiyyətinə mənfi təsir göstərən əsas amillərdən biri də hakimlərin yüksək iş yüküdür. Ölkə əhalisinin artım tempinin, urbanizasiya prosesinin və iqtisadi münasibətlərin hərtərəfli inkişafının məhkəmələr tərəfindən baxılan işlərin sayına təsiri ədalət mühakiməsinin səviyyəsinə təsir edən amillərdəndir.

Təkmilləşdirilmiş prosedurlar əsasında hakimliyə namizədlərin seçimi prosesi nəticəsində hakim ştatlarının komplektləşdirilməsi məhkəmələrdə iş yükünün azalmasına, işlərə daha keyfiyyətli baxılmasına xidmət edir. Buna görə də məhkəmələrdə baxılan işlərin hakimlərin sayına nisbətdə proporsional olmaması nəzərə alınaraq, hakimlərin sayı artırılmışdır. Bu proses işlərə daha keyfiyyətlə baxılmasına şərait yaradaraq, insanların məhkəmələrə müraciət imkanlarını genişləndirməyə imkan verir.

Mübahisələrin alternativ həlli üsullarından olan mediasiyanın təşkili sahəsində ictimai münasibətləri tənzimləmək, mediasiyanın məqsədlərini, prinsiplərini, həyata keçirilməsi qaydalarını və mediatorların statusunu müəyyənləşdirmək məqsədi ilə Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 10-cu və 12-ci bəndlərinə uyğun olaraq "Mediasiya Haqqında" qanun qəbul edilmişdir və onun tətbiqi üçün Ədliyyə Nazirliyi tərəfindən Avropa İttifaqı ilə birgə tədbirlər davam etdirilir. Məhkəmə prosesləri ilə müqayisədə qısamüddətli olan mediasiya proseslərinin tətbiqi sayəsində gözlənilən ən böyük nəticələrdən biri məhkəmə proseslərinin keyfiyyətini artıraraq, məhkəmələrdə iş yükünün əhəmiyyətli dərəcədə azaldılmasıdır.

Bununla yanaşı, hakimlərin müstəqilliyinin təmin edilməsi, məhkəmələrin təkmilləşdirilməsi, fəaliyyətinə müdaxilələrin və digər mənfi halların aradan qaldırılması ilə bağlı Fərmanda irəli sürülmüş məsələlərin icrası məqsədilə Məhkəmə-Hüquq Şurasında mühüm qanunvericilik, institusional tədbirlərin həyata keçirilməsi təmin olunub.

Məhkəmə sistemində ədalətin və şəffaflığın tam bərqərar olması ümumi demokratik inkişafa müsbət təsir göstərir. Bu prosesin təmin olunmasında "elektron məhkəmə" informasiya sisteminin tətbiqi də böyük əhəmiyyət daşıyır. Müasir informasiya texnologiyalarının tətbiqinin üstünlüklərindən hərtərəfli istifadə edilməsi zərurəti, məhkəmələrdə dövlət ittihamının müdafiəsi və protest verilməsi təcrübəsinin mütəmadi təhlil edilməsi və bu fəaliyyətin keyfiyyətinin artırılması üçün tədbirlərin görülməsinin Baş Prokurorluğa tövsiyə edil-məsi nəzərə alınaraq bu sahədə elektron xidmətlərin tətbiqinin genişləndirilməsi və məhkəmələrdə dövlət ittihamının müdafiəsinin səmərəliliyinin daha da artırılması məqsədilə "Elektron İttiham" proqramı Baş Prokurorluğun İnformasiya-kommunikasiya texnologiyaları idarəsi tərəfindən hazırlanaraq istifadəyə verilmişdir (17).

Hüquqi xidmətin yaxşılaşdırılması məqsədilə məhkəmə sisteminin vahid internet portalı təşkil edilmiş, hər bir məhkəmə və hakim barədə ətraflı məlumatlar həmin portalda yerləşdirilmişdir. Bu kimi yeniliyin ədalət mühakiməsinin səviyyəsinə müsbət mənada təsiri edəcəyi şübhə doğurmur. Belə ki, portal vasitəsilə vətəndaşların məhkəmələrə onlayn rejimində müraciət etmək və cavab almaq, ali, apellyasiya və birinci instansiya məhkəmələri, onların yurisdiksiyası, baxılan işlər və çıxarılan qərarlar, bu məhkəmələrə müraciətlə bağlı əlavə edilməsi sənədlər, və s. barədə ətraflı məlumat almaq, iddia ərizələri və digər zəruri olan məhkəmə sənədlərinin nümunələrini əldə etmək, qəbul günləri və s. barədə ətraflı məlumat almaq imkanı yaradılmışdır.

Qeyd edilən Fərmanda nəzərdə tutulan ideya və prinsiplərin dövlət qurumları tərəfindən peşəkarlıqla reallaşdırılması və bu istiqamətdə tədbirlərin mütəmadi olaraq davam etdirilməsi məhkəmə-hüquq sisteminin, icti-

mai həyatının bütün sahələrinin inkişafında mühüm əhəmiyyət daşımaqla yeni mərhələnin başlanğıcı olub.

Məhkəmə-hüquq sistemində aparılan islahatlar ölkəmizdə vətəndaş məmnunluğu müşahidə olunmaqla bəradər beynəlxalq aləmdə təqdir olunur. Ölkəmiz Avropa Şurasının ədalət mühakiməsinə dair müsabiqəsində "Məhkəmənin nəbzi: idarəetmədə inqilab" adlı layihə ilə iştirak edərək məhkəmə sistemindəki nailiyyətlərinə görə "Ədliyyənin kristal tərəzisi" mükafatına layiq bilinib. Bundan əlavə, Dünya Bankının "Doing Business 2020" hesabatında yeni ixtisaslaşmış məhkəmələrin yaradılması, məhkəmə fəaliyyətinin rəqəmsallaşdırılması, elektron məhkəmə sisteminin təkmilləşdirilməsi, mediasiya institutunun tətbiqi üzrə görülən tədbirlər müsbət nəticələr kimi əks olunub.

Həyata keçirilən islahatların əsasında məhkəmə hakimiyyətinin müstəqilliyinin artırılması və insan haqlarının daha etibarlı müdafiəsi, ədalət mühakiməsinin səmərəliliyinin artırılması, insan hüquqlarının məhkəmələr tərəfindən müdafiəsinin təmin olunması, əhalinin süründürməçilik və korrupsiyaya şərait yaradan hallarından qorunması, həmçinin məhkəmələr tərəfindən işlərə daha keyfiyyətlə baxılmasına şərait yaradılması durur. Bu kimi amillər öz növbəsində ədalət mühakiməsinin səviyyəsinin birbaşa göstəriciləridir.

Azərbaycan dinamik və hərtərəfli inkişaf edən bir ölkədir və bu inkişaf daha çevik struktura malik olan optimal idarəetmə tələb edir.

Dövlət idarəçiliyinin təkmilləşdirilməsi məqsədilə həyata keçirilən struktur islahatları əslində 2015-ci ildən həyata keçirilən dərin hüquqi və institusional islahatların davamı kimi xarakterizə edilməlidir.

Burada əsas məqsəd gələcəkdə daha səmərəli şərtlər formalaşdırmaq üçün əldə edilən naliyyətlərin davamlılığını təmin etməkdir. Çünki hazırda malik oluğumuz siyasi-iqtisadi sistemin modernist səciyyəsi daima yenilik tələb etməklə bütün sahələr üzrə dövlətimizin rəqabət qabiliyyətliliyini artırır.

Bütövlükdə çari ildə dövlət tərəfindən irimiqyaslı layihələrin gerçəkləşdirilməsi, dövlət proqramlarının uğurla icrası, sosialyönümlü siyasətin həyata keçirilməsi, xüsusən dünyanı sarsıtmış koronavirus pandemiyası dövründə çətinliklərin aradan qaldırılması üçün ölkəmizdə həyata keçirilən kompleks tədbirlər öz səmərəsi ilə diğər ölkələrdən fərqlənməklə dünyada güclü dövlət modelinin nümunəsi olub.

Gözləmək olar ki, islahatların həyata keçirilməsi nəticəsində tədricən daha mükəmməl dövlət idarəetmə sistemi yaradılacaq və bu sistem hakimiyyətin gücünü əhəmiyyətli dərəcədə artımıağa imkan verməklə onun digər sahələrdə, hər şeydən əvvəl iqtisadi sahədə radikal dəyişikliklərin həyata keçirilməsinə məqsədyönlü və məhsuldar təsirini daha da artıracaqdır. Mövcud islahatların nəticəsi olaraq vətəndaşlara şəffaf, operativ və resurslara qənaət etməklə xidmət göstəriləcək, onlara lazım olan dövlət xidmətləri daha əlçatan və keyfiyyətli olacaqdır.

İslahatlar dövlət idarəetməsinin səmərəliliyini artırmaqla yanaşı ölkənin siyasi, sosial və iqtisadi inkişafının mühüm amilləri olan demokratik institutların hərtərəfli inkişafını təmin etməlidir.

**Ədəbiyyat:**


1. Azərbaycan Respublikası Konstitusiyası /http://www.e-qanun.az/framework/897
2. "Azərbaycan - 2020: Gələcəyə Baxış" İnkişaf Konsepsiyası. Bakı, 29 dekabr 2012-ci, http://www.president.az.
3. Abdullayev A. Dövlət orqanlarında idarəetmə. Dərs vəsaiti. Bakı: Qanun, -2006.
4. Abdullayev A., Nağıyev F. İnzibati hüquq. 2-ci nəşr. Dərslik. Bakı: - 2019. - 542s.
5. Abdullayev A., Nağıyev F. İnzibati hüquq. Dövlət orqanlarında idarəetmə. 2-ci nəşr. Dərslik. Bakı: - 2019. - 906s.
6. Abdulәli Abdullayev. Azərbaycanda struktur islahatlar demokratik idarəetmə effektivliyinin tərkib hissəsi kimi // Dövlət idarəçiliyi: nəzəriyyə və təcrübə. Elmi-nəzəri jurnal, - №2(66). - 2019. - s.143-154
7. Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Prezident Kitabxanasının saytı.
8. Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyinin rəsmi saytı http://copat.gov.az
9. Azərbaycan Respublikasının Konstitusiyası və hüququn əsasları. Bakı: Mütərcim, - 2010. - 196s.
10. Azərbaycan Respublikasında dövlət qulluğunun inkişafına dair 2019–2025-ci illər üçün Strategiya. Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 23 noyabr tarixli Sərəncamı
11. Ağayev, İ.B. Cinayət hüququ. Xüsusi hissə. Dərslik. Bakı: Nurlar, - 2018. - 488 s.
12. Dəmirov, A.H., İsmayılov İ.N., Hüseynov, Q.F.. İnsan və vətəndaş hüquqları, onların təminatı. Dərs vəsaiti. – Bakı: Mütərcim, - 2010. - 80 s.
13. Məmmədov, İ.A. Dövlət və hüquq nəzəriyyəsi. Dərs vəsaiti. Bakı: Çıraq, - 2005.
14. Əsgərov Z.A. Konstitusiya hüququ. Dərslik. Bakı: Bakı Universiteti nəşriyyatı, - 2011. - 760s.
15. "Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Probasiya xidməti haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə. 22 dekabr 2017-ci il / http://www.e-qanun.az/framework/37471
16. Cinayət təqibi və cəzaların icrası sahələrində hüquqi islahatların yeni mərhələsi başlanır. 14 fevral 2017-ci il / https://sesqazeti.az/news/analytics/593505.html
17. "Elektron İttiham" proqramının təqdimatı keçirilib. 25 sentyabr 2019-cu il // https://www.salamnews.ru/az/news/read/360656
18. İnzibati məhkəmələrin və kommersiya məhkəmələrinin təşkili və "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2019-cu il 9 iyul tarixli 1632-VQD nömrəli Qanununun tətbiqi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. 19 iyul 2019-cu il / https://president.az/articles/33854
19. Məhkəmə ekspertizası sahəsində qanunda dəyişiklik edilməsi mühüm hadisədir / https://azertag.az/xeber/Mehkeme_ekspertizasi_sahesinde_qanunda_deyisiklik_edilmesi_muhum_hadisedir-1371513. (20.12.2019)
20. Məhkəmə-hüquq sistemində aparılan islahatlar ictimai etimadı yüksəldir. 14 iyul 2020-ci il // http://hafta.az/mehkeme-huquq-sisteminde-aparilan-islahatlar-ictimai-etimadi-yukseldir-283681-xeber.html
21. Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı. 03 aprel 2019-cu il / https://president.az/articles/32587
22. Şəki Məhkəmə Kompleksinin yeni inzibati binasının açılışında İlham Əliyevin nitqi. 04 noyabr 2015-ci il // https://president.az/articles/17357/print


***Açar sözlər:*** *dövlət idarəetməsi, islahatlar, məhkəmə-hüquq sistemi, ədalət mühakiməsi, dinamik inkişaf*

**Abdulali Abdullayev**
*Associate Professor of Department Law*
*of the Academy of Public Administration*
*under the President of the Republic of Azerbaijan,*
*PhD in Law*

# THE ROLE OF LEGAL REFORM IN INCREASING THE EFFICIENCY OF JUSTICE IN AZERBAIJAN

## SUMMARY

The fundamental reforms implemented in Azerbaijan cover all spheres of the country's life, including the judicial system. The article discusses about the modernization of the judicial system in recent years, increasing the efficiency of justice, increasing transparency in this area, and the introduction of new information technologies and other progressive steps. Moreover, the article, discusses about the role of the formation of a unified judicial practice, the introduction of mediation, the improvement of the penitentiary system and forensic science, and the establishment of regional administrative and commercial courts which are important for the protection of human rights.

***Keywords:*** *public administration, reforms, judicial system, justice, dynamic development*

**Абдулали Абдуллаев**
*Доцент кафедры Права Академии Государственного Управления при Президенте Азербайджанской Республики, доктор философии по праву*

# РОЛЬ ПРАВОВЫХ РЕФОРМ В ПОВЫШЕНИИ ЭФФЕКТИВНОСТИ ПРАВОСУДИЯ В АЗЕРБАЙДЖАНЕ

## РЕЗЮМЕ

Осуществленные в Азербайджане коренные реформы охватывают все сферы жизни страны, в том числе судебную систему. В этом контексте рассматриваются модернизация судебной системы за последние годы, повышение эффективности правосудия, повышение прозрачности в этой сфере, внедрение новых информационных технологий и другие прогрессивные шаги. Изучается роль формирования единой судебной практики применения медиации, совершенствования пенитенциарной системы и судебной медицины, а также создания региональных административных и коммерческих судов, которые являются важными аспектами правосудия, и имеют важное значение для защиты прав человека.

***Ключевые слова:*** *государственное управление, реформы, судебная система, правосудие, динамичное развитие*

# BEYNƏLXALQ MÜNASİBƏTLƏR
# INTERNATIONAL RELATIONS

UOT 327.7

**AYNUR FARMANOVA**
**The Academy of Public Administration under the President of the Republic of Azerbaijan, PhD in Political Science, Asssociate Professor**
*e-mail: farmanova.aynur@gmail.com*

# PRESERVATION AND PROMOTION OF CULTURAL HERITAGE OF AZERBAIJAN IN THE WORLD

### The establishment and development of relations between Azerbaijan and UNESCO

Azerbaijan has been involved in the activities of UNESCO in the 60s of the XX century being part of the Soviet Union. Exhibitions dedicated to "Azerbaijani carpets" (1981), "Azerbaijani manuscripts" (1985) held at UNESCO Headquarters in Paris, and that depicting "the Architecture of Baku" held later in London, were consecutively arranged under the auspices of UNESCO. During the Soviet era UNESCO provided financial assistance to Azerbaijan in holding "A Language and a City" (1981), and "the Oriental Carpet Art" (1983), conferences. The nationwide leader of Azerbaijan Heydar Aliyev greatly contributed to the development of relations between Azerbaijan and UNESCO during the Soviet period (17).

In 1983, at the First International Symposium dedicated to the "Art of the Oriental Carpet", in Baku Haydar Aliyev member of Political Bureau of the Central Committee of the Communist Party of the Soviet Union met with the Special Adviser to the Director-General of UNESCO Mr. Frederico Mayor. This friendly relation after gaining independence influenced greatly on relation between Azerbaijan and UNESCO, and thus laid the foundation for the success of Azerbaijan in the organization (5, p.30-31).

The Republic of Azerbaijan after gaining its independence on October 18, 1991, became a member of the United Nations specialized agency UNESCO on 3 July 1992 (1, p.57-58). The development of Azerbaijan's relations with UNESCO started in the second half of 1993, after the return of power to the nationwide leader Heydar Aliyev. Thus, the most important step in the development of Azerbaijan-UNESCO relations was the first official vizit of Heydar Aliyev to the Republic of France in 1993, which lasted from December 19 to 21, meeting the Director-General of UNESCO Federico Mayor (1, p.58; 6, p.38-40).

The next action for informing the world community about cultural heritage of Azerbaijan was Heydar Aliyev's 20 April, 1997 Decree on celebration of the 1300 th anniversary of the "Kitabi Dede Gorgud (Book of Dede Gorgud"). 1300 th jubilee celebrations of the "Kitabi Dede Gorgud (Book of Dede Gorgud") were held in Dresden, Moscow, in different cities of Turkey in the framework of UNESCO in 2000. These events ended with a meeting with VI Summit of Heads of Turkic Speaking Counties at the jubilee ceremony (7, p.222). At the same time, signed agreement about Azerbaijan-UNESCO cooperation in educational, scientific, cultural and humanitarian fields was the beginning of a new stage. It is no coincidence that after this for reconstruction of higher education in Azerbaijan in accordance with TACIS and TEMPUS programs two projects were realized. The Great Silk Road TRACECA year was declared in 2000, by UNESCO (4; 18).

## The role of Mrs.Mehriban Aliyeva in the development of Azerbaijan-UNESCO relations

Mrs. Mehriban Aliyeva, the First Vice President of the Republic of Azerbaijan, the President of the Heydar Aliyev Foundation, Goodwill Ambassador of UNESCO and ISESCO, has exceptional services in the development and expansion of Azerbaijan-UNESCO relations. Under the auspices of Mrs. Mehriban Aliyeva, significant projects have been implemented in the framework of UNESCO, including the protection of cultural heritage, promotion of intercultural dialogue, education development and other areas.

As a result of the exceptional services of Mrs.Mehriban Aliyev, 3 relevant tangible and 13 intangible cultural heritage have been included to the UNESCO Representative List.

The protection of cultural and natural heritage of Azerbaijan is one of the main directions of cooperation with UNESCO. In this regard, The Walled City complex of Baku city was inscribed on the UNESCO's World Cultural Heritage list in December, 2000. As a result of the earthquake in Azerbaijan, and the damage to a number of architectural monuments to the Walled City complex of Baku at the 27th session of the World Heritage Committee the Walled City complex was inscribed on the List of World Heritage in Danger of UNESCO on July 4, 2003 (12). On June 22-30, 2009 within the 33rd session of the World Heritage Committee, the Walled City complex removed from the List of World Heritage in Danger in Seville, Spain (13). In 2007, within the 31st session of the World Heritage Committee, Gobustan Rock Art Cultural Landscape was inscribed on the UNESCO's World Cultural Heritage list in New Zealand (14).

In 2003, Azerbaijan and UNESCO signed the Framework Agreement on cooperation in the areas of culture, science, education and communication, which allowed Azerbaijan to become one of the donors of UNESCO. This is our obligation and commitment in front of the least developed countries. According to the expert's opinion ancient Mugham lived its flourishing period at the time of Eastern Renaissance. Herein, the traditionally defined norms of art and improvisation in the creative process are striking in harmony. Following periods could not at all change the essence and meaning of this art. Nowadays Mugham exists as a spiritual wealth of the past on the other hand, it remains the art of the contemporary world. Only Mugham performers are capable of feeling this mystery by apprehension giving life to this art.

On November 7, 2003, accepted as an integral part of our nation's fundamental cultural values, the Azerbaijani Mugham was inscribed in the List of Masterpieces of the Oral and Intangible Heritage of Humanity proclaimed by UNESCO (1, p.60; 15). On September 28 to October 2, 2009 within the 4th session of the Inter-governmental Committee for the Safeguarding of the Intangible Heritage of UNESCO in Abu Dhabi city of the United Arab Emirates, international Nowruz holiday officially registered on the UNESCO List of the Intangible Cultural Heritage of Humanity, it should be considered an important event for Azerbaijani culture (16).

The ancient and rich culture of Azerbaijan turned from national into international level, being a part of world culture. UNESCO being a multilateral organization established mutual cooperation of different countries. As a result of it, the Republic of Azerbaijan builds and expands its ties in the educational, scientific and cultural fields with UNESCO and various countries. Not surprisingly, developing intercultural dialogue and multiculturalism among nations and to support it, is an important part of government's policy nowadays for the sake of future of all the people.

The First Vice President of the Republic of Azerbaijan, Goodwill Ambassador of UNESCO and ISESCO, President of Heydar Aliyev Foundation, Mehriban Aliyeva's activity, global projects for the development of science, education and culture established a new stage in relations with UNESCO. It is no coincidence that this influential organization

attaches great importance in cooperation with Azerbaijan over recent years and supports a number of projects. The President of the Heydar Aliyev Foundation Mehriban Aliyeva renders great services in the promotion of cultural heritage of Azerbaijan, ensures the protection of it on the national and regional levels. In order to promote the traditional classical music of Azerbaijan around the world Mrs. Mehriban Aliyeva initiated the establishment of the International Mugham Center in Baku.

On November 4, 2006 Mrs.Mehriban Aliyeva was awarded the title of Goodwill Ambassador of ISESCO for the wide-scale and selfless activity in different spheres, including the dialogue among civilizations, the attention towards the children in need of care, great support to improve their living conditions, as well as the activities carried out in the Islamic world . On November 26, 2006, as a result of these activities, the Director General of ISESCO Abdulaziz bin Othman Altwaijri, presented a diploma of Goodwill Ambassador of ISESCO to Mrs. Merriban Aliyeva for her contribution to the promotion of dialogue among civilizations (9).

In 2009, Baku was declared the capital of Islamic culture. As the establishment of Silk Road connecting East and West was laid in Baku, the capital of Azerbaijan has turned into the center for the art festivals, international, scientific conferences. On 30 July, 2010 in recognition of her selfless activities, Mrs. Mehriban Aliyeva was consecutively awarded with the Golden Mozart Medal by Director-General Irina Bokova (17).

The World Forum on Intercultural Dialogue was initiated by Ilham Aliyev the President of the Republic of Azerbaijan to host a conference of ministers responsible for culture on December 2-3, 2008, in Baku with the theme of “Intercultural dialogue as a basis for peace and sustainable development in Europe and its neighboring regions” (18).

Starting its activity since on May 10, 2004, the Heydar Aliyev Foundation has been actively participating in building a new society and contributing to the social and economic development of the country, by implementing various projects in spheres such as education, public health, culture, sports, science and technology, environment, and social and other spheres. The Heydar Aliyev Foundation has been established on the grounds of the nation’s wish to express its esteem for the memory of Heydar Aliyev, who entered our history as a builder of an independent state, and the necessity of reflecting his rich moral heritage, underlining the importance for our country of the philosophy of Azerbaijanism and cultivating the national statehood ideas in our children.

Implementing of measures to increase the international prestige of the country, revealing country’s realities to the world community has been a priority in the direction of the Foundation’s activity. In recent years, the Heydar Aliyev Foundation has taken successful steps in science sector development strategy, the country's ancient history, natural resources and geopolitical location, maintaining and developing the culture. The Foundation cooperating with UNESCO, ISESCO, other international organizations and foundations supports learning achievements and experience of world science, implementing of it in a wide range of socio-economic area of the republic, developing the relations with the science centers of foregin countries. Global initiatives of Heydar Aliyev Foundation are introducing Azerbaijan as a tolerant and multicultural in the world. Heydar Aliyev Foundation giving special attention to the mutual enrichment of cultures and civilizations of different nations, to the deepening of the dialogue between the two nations, attaching importance to the preservation of the traditions of tolerance holds the “Address of tolerance – Azerbaijan” project (2; 20).

Successful projects include the opening of the International Mugham Center designed to develop and promote traditional Azerbaijani music, which was inscribed on the UNESCO Representative List of the Intangible Cultural Heritage of Humanity, and the establishment of the Museum of Modern Art, the Museum of

Azerbaijan Carpets and Applied Art, and the Gala Archaeological and Ethnographic Museum Complex (2).

At the same time, The Heydar Aliyev Foundation is an organization, which operates at an international level. The Foundation has offices in the USA, Romania, Russia and Turkey; The Foundation maintains close cooperation with the UN Development Program, UNESCO, ISESCO and other international organizations. The Foundation maintains close cooperation with the UN Development Program, UNESCO, ISESCO, and other international organizations, and is carrying out important programs and projects in foreign countries. Its activities abroad focus around three priorities: promoting Azerbaijan, including raising the international community's awareness of the truth about the Armenia-Azerbaijan Nagorno-Karabakh conflict, restoring and preserving the historical and cultural legacy related to Azerbaijan and its citizens, and fostering humanitarian and social development.

The Foundation, which places a special emphasis on making the truth about the Armenia-Azerbaijan Nagorno-Karabakh conflict known to the world community, has been carrying out commemorative campaigns about Khojaly in prominent cities across the world since 2007. These campaigns feature the presentation of the "Khojaly Genocide" film, photos documenting atrocities committed by Armenians in Khojaly, articles on the Khojaly tragedy issued by leading foreign editions, the "Truth about Karabakh" series, and the "War Against Azerbaijan: Targeting Cultural Heritage" book (3, p.269; 19).

The Heydar Aliyev Foundation promoting the Azerbaijani culture in the world, operating in a systematic way in a short period of time, contributing cultural diplomacy and intercultural dialogue, holding the multicultural projects which has no analogue in the Caucasus and former Soviet Union make known to the world. For Strengthening of Azerbaijan-UNESCO cooperation the diverse activity of the Heydar Aliyev Foundation plays a key role in the development of our country's international relations.

### The results of Mrs.Mehriban Aliyeva's activities in the international arena

"The Framework Agreement on cooperation in the fields of education, science, culture and communication between the Republic of Azerbaijan and UNESCO" was signed in 2013, with the initiative and support of the First Vice President of the Republic of Azerbaijan Mrs.Mehriban Aliyeva. On November 17, 2015 at the Leaders' Forum of the 38th Session of UNESCO General Conference, dedicated to the 70th anniversary of UNESCO in Paris, Mrs. Mehriban Aliyeva emphasized global financial crisis in the world, the serious consequences of millions of people faced with racial, ethnic roots, religious discrimination and isolation (25).

The 7th Global Forum of the United Nations Alliance of Civilizations held in Baku on 25-27 April 2016, was a new stage in the promotion of Azerbaijan in the world. Heads of state and government of the member states of the UN, political leaders, partner organizations, international and regional organizations, the private sector, the representatives of arts, media and academies, including donor organizations and foundations, about 2,000 delegates representing 140 countries attended the forum (10). The Baku Declaration was signed at the end of the event, and it became not only the political history of our country but also an important event in the history of world culture. In addition, the 7th Global Forum of the UN Alliance of Civilizations confirmed the tolerance and multicultural values of Azerbaijan once again.

Based on the above mentioned facts and analysis give grounds to assert that Mrs.Mehriban Aliyeva has exceptional merits in the development of international cultural ties of Azerbaijan over the past 17 years.

In June 2018, Azerbaijan was elected a member of the UNESCO Intergovernmental Committee for the Safeguarding of the

Intangible Cultural Heritage. It is undoubtedly that it is the greatest achievement of our country and the indicator of Azerbaijan's reputation in the international arena, including in UNESCO. This committee is a decision-making body for the safeguarding of the intangible cultural heritage of the peoples of the world and accepting heritage samples on the UNESCO Intangible Cultural Heritage List.

On October 25-26, 2018, a plenary session dedicated to the 10th anniversary of the "Baku Process" was held successfully in the framework of the VI Baku International Humanitarian Forum (11). On November 26 to December 1, 2018, at the 13th session of the Intergovernmental Committee for the Safeguarding of the Intangible Cultural Heritage, Chovqan a traditional Karabakh horse-riding game has been included to the UNESCO List of Intangible Cultural Heritage in Need of Urgent Safeguarding, in Port Louis, Mauritius (21). National report submitted by the side of Azerbaijan a file on "Chovqan a traditional Karabakh horse-riding game " was accepted. In addition, it is remarkable to note that "Yalli (Kochari, Tenzere), traditional group dances" of Nakhchivan Autonomous Republic have been included to the UNESCO List of Intangible Cultural Heritage in Need of Urgent Safeguarding (22). Through the joint efforts of Azerbaijan, Turkey and Kazakhstan, "Kitabi-Dede Gorgud" (the book of Dede Gorgud): Epic culture, folk tales and music was included in the Representative List of UNESCO Intangible Cultural Heritage (23).

At the same time, it is important to note that including Azerbaijan's four multinational nominations (Nowruz Holiday, Lavas, Kamancha (a bowed string instrument), Dada Gorgud)) in the Representative List of UNESCO Intangible Cultural Heritage was great event. It should be noted that Armenia, which deals with regional cooperation, has no multinational nomination. On the one hand, it is an indicator of Armenia's isolation in the cultural sphere in the region and on the other hand, the achievements of our country in regional cooperation within the framework of UNESCO. This activity carried out by our country within the framework of UNESCO undoubtedly serves to protect and promote the rich and centuries-old national heritage of our people. From this point of view, the efforts to expose the Armenian lies and cease the allegations of Armenians plays an important role (24).

On July 9, 2019, another prestigious event - 43rd session of the UNESCO World Heritage Committee held in Baku. 3000 representatives from more than 200 countries took part at the session. Special programs are planned within the framework of the session. These are "Young Professionals" and "Monument Managers" forums. Azerbaijan`s historic centre of Sheki with the Khan's Palace has been included to UNESCO's World Heritage List at the 43rd session of the World Heritage Committee held in Baku (26).

On November 8, 2020, Shusha, the pearl of Karabakh which was under occupation for twenty-eight and a half years, has been liberated by our brave army under the command of Victorious Commander-in-Chief, President Ilham Aliyev (27).

On May 8, 1992 Shusha an ancient centre of the Azerbaijan music and culture was occupied by Armenia armed forces, and it meant the occupation of all Upper Karabakh. At a result of Arme¬nian occupation 25 schools, 31 libraries, 17 clubs, 4 technical schools, 7 kindergartens, 4 cinemas, 5 cultural and rest parks, 2 sanatoriums, 2 hotels, tourist bases, the branch of the State Azerbaijan Carpet museum, Shusha State Theatre, Shusha Television, State Art Gallery, Factory of East musical instruments, Child health center were plundered, burnt and destroyed.

Before occupation there were more than 800 residential buildings which are considered architectural monuments and about 300 cultural and historical monuments in Shusha. In 1977, Shusha was declared Historical and Architectural Reserve on the initiative of National Leader Heydar Aliyev.

The Shusha Historical and Architectural Reserve includes such monuments as the Shusha and Shusha kand Stone box graves, the

end of the Bronze age and the beginning of the Iron age, the Stone Age monument Shusha cave camp, the walls of Shusha fortress of XVIII century, Ganja gate, the palace and library of Panah Khan, tower and castle of Ibrahim Khan, the Khan palace, and caravanserai a religious school, the tomb of M.P.Vagif upper mosque, private house of Hajigullar, a two storeyed caravanserai the complex of private house of Mehmandarovs, GovharAga, Khoja Marjanli, Haji Abbas Mardinli, Saatli, and Kocherli mosques, the house and spring of Khurshid Banu Natavan, the house of E.B.Haqverdiyev, G.B.Zakir, M.M.Navvab, S.S.Akhundov, N.B.Vazirov, Y.V. Chemenzeminli, the house, mosque and spring of Mamay bey, the house of Behbudov, Faramazov, Zohrabbeyov and Bahman Mirza. Memorial houses of Uzeyir bey Hajibeyov and Bulbul, the houses of Khan Shushinski and tar player Sadikjan, the building of real uyezd school, "Shirin su hamami" (Sweet water bath), school for girls, Meydan spring, Isa spring were plundered and destroyed (28).

Nowadays, Azerbaijan State has begun work on the preparation of nomination file in order to include the historical center of Shusha in the UNESCO World Cultural Heritage List (29; 30).

Thus, Azerbaijan contributes to the intercultural dialogue, muliticulturalism, as well as with the rich national and cultural values, it is known as a place of understanding. In the foreign policy of the Republic of Azerbaijan according to the adopted norms and principles of UNESCO co-existence of different cultures, religious tolerance and basic human rights, ucation and copyright, sustainable development in economic and social spheres occupies an important place. This allows achieving new goals and success in Azerbaijan-UNESCO relations in all the priority areas of the organization.

Based on the above mentioned facts and analysis give grounds to assert that Mrs.Mehriban Aliyeva has exceptional merits in the development of international cultural ties of Azerbaijan over the years. At the same time, all this testifies to the fact that Azerbaijan is a valuable partner in the development of intercultural dialogue for UNESCO. In accordance with the foreign policy priorities of Azerbaijan cooperation with UNESCO is very important. The events supported by UNESCO has strengthened the international reputation of Azerbaijan, impacting the historic mission of our country as a place of tolerance and dialogue. As a result, the global platform for intercultural dialogue has been founded.

**References:**


1. Микеладзе Г. Гражданский подвиг Рамиза Абуталыбова: пути и судьбы эмиграции. Баку, 2010, 72 с.
2. Фонд Гейдара Алиева – основа успехов. Интервью первой леди Азербайджана Мехрибан Алиевой журналу “The Business Year” // Газ., “Бакинский рабочий”, Баку, 2014 г, 15 мая
3. Ahmadov E. Aggression of Armenia against Azerbaijan: Analytical chronicle. Baku, 2012, 912 p.
4. Amirov A. Azerbaijan - UNESCO cooperation features // “Public Administration: Theory and Practice” jur, Baku, №3 (35), 2011, p.190-193.
5. Azerbaijan-UNESCO: Partnership Based on Human Rights/ Chairman of the editorial board: the Commissioner for Human Rights (Ombudsman) of the Republic of Azerbaijan Professor Elmira Suleymanova, Rumzada R. R, Baku, 2014, 287 p.
6. Heydar Aliyev introducing Azerbaijan to the world /Compiler: I. Shukurov/. Baku, 1994, 175 p.
7. The Republic of Azerbaijan. 1991-2001. Baku, 2001, 280 p.
8. “Azerbaijan” newspaper, Baku, April 20, 2006
9. “Azerbaijan” newspaper, Baku, November 27, 2006
10. “Azerbaijan” newspaper, Baku, April 26, 2016
11. https://bakuforum.az/wp-content/uploads/2018/07/Humanitarian-Forum-

EN.pdf;https://diplomatmagazine.eu/2018/11/03/from-black-gold-to-human-capital/. – 03.11.2018
12. World Heritage Committee. Twenty-seventh session. Paris, UNESCO Headquarters, Room XII. 30 June - 5 July 2003. - http:// www. whc.unesco.org/en/107/
13. World Heritage List. - http:// www.whc.unesco.org/en/decisions/1785
14. World Heritage List. - http:// www. whc.unesco.org/en/list/1076
15. World Heritage List. - http://www.unesco.org/culture/ich/en/RL/azerbaijani-mugham-00039
16. International Day of Nowruz. - https://en.unesco.org/commemorations/nowruzday
17. Azerbaijan and UNESCO. - https://mfa.gov.az/en/content/169/yunesko
18. "Intercultural dialogue as a basis for peace and sustainable development in Europe and its neighbouring regions". - http://www.coe.int/t/dg4/cultureheritage/culture/baku/BakuReader.pdf.
19. http://www.heydar-aliyev-foundation.org/en/content/view/61/3285/. - 14.05.2014
20. Discover Azerbaijan: Baku 2015. - http://www.senatepublishing.co.uk/media/1108/discover-azerbaijan-2015.pdf
21. https://azertag.az/en/xeber/1218904?fbclid=IwAR1QzFRXAJUiUpZvNwiSgkm2ghrcg6cujqxWvVY7KbNTwZOFtD3leBzT6JQ. – 28.11.2018
22. Yalli (Kochari, Tenzere), traditional group dances of Nakhchivan. - https://ich.unesco.org/en/USL/yalli-kochari-tenzere-traditional-group-dances-of-nakhchivan-01190
23. Heritage of Dede Qorqud/Korkyt Ata/Dede Korkut, epic culture, folk tales and music. - https://ich.unesco.org/en/RL/heritage-of-dede-qorqud-korkyt-ata-dede-korkut-epic-culture-folk-tales-and-music-01399
24. Elements on the Lists of Intangible Cultural Heritage. - https://ich.unesco.org/en/state/azerbaijan-AZ?info=elements-on-the-lists&fbclid=IwAR07aXvF78hpGtE6pAUsCPcCcN5G9u6ZQy0j5TY8t4-cguSYn9TKIpWdJ20
25. https://azertag.az/en/xeber/President_Ilham_Aliyev_attended_the_Leaders_039_Forum_of_the_38th_Session_of_UNESCO_General_Conference_VIDEO-903008 - 17.11.2015
26. Historic Centre of Sheki with the Khan's Palace. - https://whc.unesco.org/en/list/1549
27. https://azertag.az/xeber/1622227. - 01.12.2020
28. https://azertag.az/xeber/1640901. - 13.11.2020
29. https://azertag.az/xeber/1647597. - 21.11.2020
30. Shusha is planned to be included in the UNESCO world cultural heritage list. - https://bakutravelguide.com/en/shusha-is-planned-to-be-included-in-the-unesco-world-cultural-heritage-list/. - 12.11.2020

***Keywords:*** *The Republic of Azerbaijan, cultural heritage of Azerbaijan, UNESCO, international relations, intercultural dialogue, cooperation*

**Aynur Fərmanova**
*Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının dosenti, siyasi elmlər üzrə fəlsəfə doktoru*

## AZƏRBAYCANIN MƏDƏNİ İRSİNİN QORUNMASI VƏ DÜNYADA TANIDILMASI

### XÜLASƏ

Məqalədə Azərbaycanın mədəni irsinin qorunması və dünyada tanıdılması geniş təhlil edilir. Azərbaycan Respublikasının xarici siyasətində beynəlxalq təşkilatlarla əlaqələrin yaradılması və

inkişaf etdirilməsi YUNESKO ilə əməkdaşlıq kontekstində araşdırılır. Eyni zamanda, Azərbaycanın beynəlxalq əlaqələrinin genişlənməsi istiqamətində YUNESKO ilə əməkdaşlığının əsas istiqamətləri və inkişaf dinamikası geniş tədqiq edilir. Bundan əlavə, məqalədə Azərbaycanın YUNESKO ilə əməkdaşlığının möhkəmlənməsində Heydər Əliyev Fondunun fəaliyyəti təhlil edilir. İşdə göstərilir ki, yarandığı dövrdən indiyədək Fond öz prinsiplərinə sadiq qalaraq, təhsil, səhiyyə, mədəniyyət, idman, elm və texnologiya, ekologiya, sosial və digər sahələrdə müxtəlif layihələr həyata keçirmişdir. Fond öz proqramları, layihələri, xeyriyyə fəaliyyəti ilə Azərbaycanda və xaricdə yüksək nailiyyətlər qazanmışdır. Eyni zamanda, məqalədə Heydər Əliyev Fondunun mədəniyyət sahəsindəki fəaliyyəti iştiqamətləri təhli edilir və Azərbaycan mədəniyyətinin dünya ictimaiyyətinə tanıdılmasında mühüm rolu oyrənilir.

***Açar sözlər:*** *Azərbaycan Respublikası, Azərbaycanın mədəni irsi, YUNESKO, beynəlxalq əlaqələr, mədəniyyətlərarası dialoq, əməkdaşlıq*

**Айнур Фарманова**
*Доцент Академии Государственного Управления*
*при Президенте Азербайджанской Республики,*
*доктор философии по политическим наукам*

## СОХРАНЕНИЕ КУЛЬТУРНОГО НАСЛЕДИЯ АЗЕРБАЙДЖАНА И ПОПУЛЯРИЗАЦИЯ В МИРЕ

### РЕЗЮМЕ

В статье анализируется сохранение культурного наследия Азербайджана и его популяризация в мире. Создание и развитие отношений с международными организациями рассматривается во внешней политике Азербайджанской Республики в контексте сотрудничества с ЮНЕСКО. В то же время, широко изучается динамика развития и основные направления сотрудничества с ЮНЕСКО в расширении международных отношений Азербайджанской Республики. Кроме того, анализируется деятельность Фонда Гейдара Алиева в укреплении сотрудничества между Азербайджаном и ЮНЕСКО. Отмечается, что, придерживаясь своих принципов с момента создания и до сегодняшнего дня, со стороны Фонда осуществлялись различные проекты в сферах здравоохранения, культуры, спорта, науки и техники, окружающей среды, социальной сфере и в других областях. Фонд своими программами, проектами и благотворительной деятельностью приобрела высокие достижения в Азербайджане и за рубежом. Одновременно анализируются направления деятельности Фонда Гейдара Алиева в области культуры, изучается его важная роль в информировании мировой общественности об Азербайджанской культуре.

***Ключевые слова:*** *Азербайджанская Республика, культурное наследие Азербайджана, ЮНЕСКО, международные отношения, межкультурный диалог, сотрудничество*

## GƏNC TƏDQİQATÇILAR
## YOUNG RESEARCHERS

## BEYNƏLXALQ MÜNASİBƏTLƏR
## INTERNATIONAL RELATIONS

UOT 061.2 (100); UOT 32:316.37; 242.7

**NİGAR QƏDİROVA**
**Azərbaycan Respublikasının Prezidenti yanında**
**Dövlət İdarəçilik Akademiyasının magistrı**
*e-mail: gadirovanigar@gmail.com*

# AZƏRBAYCAN-YUNESKO MÜNASİBƏTLƏRİNİN İNKİŞAF ETDİRİLMƏSİNDƏ YUNESKO VƏ İSESKO-NUN XOŞMƏRAMLI SƏFİRİ, HEYDƏR ƏLİYEV FONDUNUN PREZİDENTİ MEHRİBAN ƏLİYEVANIN FƏALİYYƏTİ

Birləşmiş Millətlər Təşkilatının (BMT) ixtisaslaşmış təşkilatlarından olan YUNESKO hazırda dünya ölkələrinin elm, təhsil, mədəniyyət, informasiya-kommunikasiya sahəsindəki əməkdaşlığının ən böyük hökumətlərarası forumudur. Müstəqil Azərbaycan Respublikası BMT-ə üzv olduqdan bir neçə il sonra 1996-cı ildə Azərbaycan-YUNESKO arasında imzalanan əməkdaşlıq haqqında Memorandumla təşkilatla ikitərəfli əlaqələrin yeni mərhələsinə qədəm qoymuşdur [11].

Azərbaycan Respublikası YUNESKO ilə əməkdaşlığın effektiv inkişafına nail olmaq və əlaqələrin davamlılığını qorumaq üçün daima böyük əmək göstərmişdir. Xüsusilə qeyd olunmalıdır ki, ölkəmiz üçün bu əməkdaşlıq yalnız ikitərəfli əlaqələr çərçivəsində qurulmamış, eyni zamanda dünya dövlətləri ilə də geniş mədəni əlaqələrə zəmin yaratmışdır. YUNESKO-nun beynəlxalq təşkilat kimi çoxtərəfli əməkdaşlıq funksiyasına malik olması müxtəlif dövlətlərin təşkilat daxilində qarşılıqlı əlaqələri üçün də imkan yaratmışdır. Bunun nəticəsində, Azərbaycan Respublikası qısa müddət ərzində həm YUNESKO vasitəsilə, həm də birbaşa çoxsaylı ölkələrlə təhsil, elm və mədəniyyət sahələrində geniş təcrübə mübadiləsi aparmaq fürsəti əldə etmişdir. Azərbaycanın qədim və zəngin mədəniyyəti milli sərhədləri aşmış, beynəlxalq səviyyədə ümumbəşəri mədəniyyətin bir hissəsinə çevrilmişdir.

Azərbaycan Respublikası ilə YUNESKO arasında qurulan münasibətlərin inkişafında və genişlənməsində Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın rolu əvəzsizdir. Mehriban Əliyeva öz fəaliyyətində mədəniyyət, təhsil və idman sahələrinin ölkəmizdəki inkişafına daima diqqət göstərmişdir.

Mehriban xanım 1995-ci ildən başlayaraq Azərbaycan Mədəniyyətinin Dostları Fonduna rəhbərlik etdiyi müddətdə müxtəlif festivallar, sərgilər, mədəniyyət tədbirləri və konsertlər təşkil edərək ölkəmizin mədəni irsinin dünyada tanıdılması istiqamətində uğurlu fəaliyyət göstərmişdir [2].

2004-cü ildə Mehriban Əliyeva Azərbaycanın zəngin mədəni irsinin dərindən öyrənilməsi, mühafizəsi və təbliğindəki xidmətlərinə, həmçinin YUNESKO-nun ideyalarına göstərdiyi sadiqliyə görə təşkilat tərəfindən "YUNESKO-nun şifahi ənənələr və musiqi ənənələri sahəsində Xoşməramlı səfiri" adına layiq görülmüşdür [10].

Bununla bağlı 13 avqust 2004-cü ildə YUNESKO-nun Baş direktoru Koişiro Mat-

suura Azərbaycanın birinci xanımı Mehriban xanım Əliyevaya "YUNESKO-nun Xoşməramlı səfiri" fəxri adı verilməsi ilə əlaqədar məktub ünvanlamışdır. 2004-cü il, 9 sentyabr tarixində isə Parisdə, təşkilatın Baş qərargahında Mehriban xanıma "Xoşməramlı səfir" adı verilməsi ilə bağlı mərasim təşkil olunmuşdur [8].

Mehriban xanımın ənənəvi musiqinin, ədəbiyyatın və poeziyanın inkişafına verdiyi töhfələr, eyni zamanda dünya xalqlarının mədəniyyətlərinin mübadiləsi istiqamətindəki xidmətləri təşkilat tərəfindən daima yüksək qiymətləndirilmişdir [6].

Müasir dövrdə Azərbaycanın digər sahələrdə olduğu kimi elmi-mədəni sahədəki inkişafı o həddə yüksəlib ki, ölkəmiz hazırda Şərq Qərb, Şimal Cənub arasında körpü rolunu oynamaqla yanaşı, sivilizasiyalararası dialoqa da öz töhfəsini verir. Qarşılıqlı mədəni əlaqələr nəticəsində öz mədəni irsi, mənəvi dəyərləri ilə fərqli dünyagörüşlərinə zənginlik qatır, eyni zamanda, digər mədəniyyətlərin də ən mütərəqqi baxışlarını mənimsəyir. Son zamanlarda sivilizasiyalararası dialoq mövzusuna həsr olunmuş beynəlxalq səviyyəli tədbirlərə nəzər yetirsək bariz şəkildə görərik ki, bu təşəbbüslərin böyük əksəriyyəti Azərbaycana aiddir. Ötən illər ərzində görülən işlər, irəli sürülən ideya və təşəbbüslərə əsasən bunu demək mümkündür. Bu istiqamətdə ölkə rəhbərliyi, dövlət qurumları ilə birgə qeyri-hökumət xətti ilə atılan addımları da qeyd etmək lazımdır. Bu baxımdan ilk öncə, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun və İSESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın fəaliyyəti vurğulanmalıdır.

2006-cı il, 21 oktyabr tarixində Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun xoşməramlı səfiri Mehriban Əliyevanın da iştirakı ilə təşkilatın 60 illiyi münasibətilə keçirilən "Sivilizasiyalararası dialoq" həftəsi çərçivəsində "Azərbaycan: mədəniyyətlərin və sivilizasiyaların qovşağında" adlı Azərbaycan günü ilə əlaqədar tədbir keçirilmişdir [10]. Parisdə baş tutmuş həmin tədbirdə çıxış edən Mehriban xanım Şərqlə Qərbin qovşağında yerləşən bir məkan olan Azərbaycanın qlobal mədəni dialoqa öz töhfəsini verməyə hazır olduğunu vurğulamışdır [5, s.4].

Azərbaycanın birinci xanımı, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri Mehriban Əliyevanın bu istiqamətdəki fəaliyyəti, gördüyü işlər Azərbaycan mədəniyyətinin, tarixinin dünyada təbliğinə şərait yaratmışdır. Azərbaycanın milli musiqisi olan muğamın, aşıq sənətinin, qədim ənənəyə sahib milli xalçaçılıq sənətimizin YUNESKO tərəfindən "Bəşəriyyətin Qeyri-Maddi Mədəni İrs xəzinəsi"nə daxil edilməsi, ədəbiyyat, mədəniyyət sahəsində görkəmli şəxsiyyətlərimizin dünyaya tanıdılması, onların yubileylərinin YUNESKO çərçivəsində qeyd olunması ölkəmiz üçün əlamətdar hesab olunur. Həmçinin mütəmadi olaraq Azərbaycanda keçirilən, xalqımızın incəsənətinin müxtəlif sahələrinə həsr olunan beynəlxalq festivallar dünyanın hər yerindən gələn sənətçilər, alimlər arasında qarşılıqlı fikir mübadiləsi üçün uyğun atmosfer yaradır. Azərbaycanın ev sahibliyi etdiyi, dünya liderlərinin, mədəniyyət və elm adamlarının, din xadimlərinin qatıldığı geniş tərkibli bu beynəlxalq tədbirlər bütün dünyanın diqqət mərkəzində olur [5, s.4].

Elm, təhsil və mədəniyyətin inkişafına yönələn bu missiya hazırda Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun fəaliyyətində də öz əksini tapır. Bundan başqa fondun rəhbəri kimi Mehriban xanım qlobal miqyasda sülh quruculuğu prosesinə, davamlı mədəni tərəqqiyə böyük dəstək verir.

Ölkəmizdə xalqımızın maddi və qeyri-maddi irsinin mühafizəsi ilə yanaşı Heydər Əliyev Fondunun fəaliyyətində Azərbaycanda, həmçinin bir sıra xarici dövlətlərdə tarixi, dini, mədəni abidələrin bərpası da xüsusi yer alır. Eyni zamanda fondun maddi dəstəyi ilə Azərbaycanla yanaşı bir çox ölkələrdə məktəblər, uşaq bağçaları, səhiyyə ocaqları kimi elmi, mədəni, sosial mərkəzlər tikilmişdir. Xalqımıza məxsus maddi və qeyri-maddi mədəni irs nümunələri Mehriban xanım Əliyevanın əməyi nəticəsində YUNESKO-nun müvafiq siyahılarına daxil edilmişdir [8].

Azərbaycanın maddi və qeyri-maddi mədəni irs nümunələrinin YUNESKO-nun müvafiq siyahılarında yer alması təqdirəlayiq haldır. Bu, Azərbaycanın uzun illər ərzində həm ölkə daxilində, həm də ölkə sərhədlərindən kənarda tarixi abidələrin mühafizəsinə yönələn məqsədyönlü şəkildə həyata keçirdiyi dövlət siyasətinin uğurlu nəticəsidir. Bir sıra Avropa, o cümlədən İslam ölkələrində Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun dəstəyi ilə beynəlxalq əhəmiyyət daşıyan abidələr bərpa edilmişdir [9].

2004-cü il, oktyabr ayında Bakıda YUNESKO-nun Xoşməramlı səfiri Mehriban xanım Əliyevanın təşəbbüsü ilə İçərişəhər, Qız qalası və Şirvanşahlar sarayı abidələrinə həsr olunmuş “Dəyirmi masa” təşkil edilmişdir [10].

2013-cü il iyulun 18-də YUNESKO-nun baş qərargahında Azərbaycanın YUNESKO-ya üzv olmasının 20 illik yubileyi ilə əlaqədar tədbir keçirilmişdir. Tədbir çərçivəsində Azərbaycan hökuməti tərəfindən Mehriban xanımın təşəbbüsü ilə 20 illik yubileyə həsr olunmuş təşkilatın daxili həyətində yerləşdirilmiş daş at və daş qoç abidələrinin, eləcə də Azərbaycanda daş sənətinə həsr edilmiş sərginin açılış mərasimi baş tutmuşdur. Bundan başqa tədbir iştirakçılarına Azərbaycanda daş sənətinin tarixini əks etdirən kitablar paylanmışdır [10].

2014-cü ilin 15-18 sentyabr tarixində isə YUNESKO-nun baş qərargahında Heydər Əliyev Fondunun, Azərbaycan Mədəniyyət və Turizm Nazirliyinin və Azərbaycanın YUNESKO yanında Daimi Nümayəndəliyinin təşkilatçılığı ilə Qobustan həftəsi keçirilmiş, Qobustanın YUNESKO-da tanıdılması məqsədilə Fərəc Qarayevin “Qobustan kölgələri” baleti nümayiş olunmuş və Qobustanın qayaüstü rəsmlərinin fotoşəkillərindən ibarət sərgi açılmışdır [10].

2019-cu ildə YUNESKO-nun Ümumdünya İrs Komitəsinin Bakıda baş tutan 43-cü sessiyasında Xan Sarayı da daxil olmaqla Şəkinin tarixi mərkəzinin YUNESKO-nun Ümumdünya İrs Siyahısına daxil edilməsi barədə qərar qəbul edilmişdir [7]. Bundan başqa İçərişəhər, Qız qalası, Şirvanşahlar Saray Kompleksi, Qobustan Qaya Sənəti Mədəni Landşaftı YUNESKO-nun Ümumdünya İrs Siyahısında, həmçinin xalqımızın qeyri-maddi mədəni irsinin 13 nümunəsi YUNESKO-nun Qeyri-Maddi Mədəni İrs Siyahısında özünə yer alır [9].

Azərbaycan-YUNESKO əməkdaşlığında ölkəmizin tarixi və mədəniyyəti üçün mühüm əhəmiyyət kəsb edən bir sıra tədbirlərin keçirilməsi də milli dəyərlərimizin təbliğində əhəmiyyət daşıyan amillərdəndir. Azərbaycana aid bu kimi tədbirlər YUNESKO ilə birgə dünyanın bir çox yerlərində, xüsusən də təşkilatın mənzil qərargahında təşkil edilmişdir. Heydər Əliyev Fondunun, Azərbaycan Mədəniyyət Nazirliyinin və digər dövlət qurumlarının dəstəyi ilə Məhəmməd Füzulinin anadan olmasının 500 illik yubileyi (1996), Kitabi Dədə Qorqud Dastanının 1300 illik yubileyi (2000), Nəsirəddin Tusinin anadan olmasının 800 illik yubileyi (2001), Akademik Yusif Məmmədəliyevin 100 illik yubileyi (2005), Üzeyir Hacıbəylinin “Leyli və Məcnun” Operasının ilk tamaşasının 100 illik yubileyi (2008), Mir Cəlal Paşayevin 100 illik yubileyi (2008), Xoşməramlı səfirlərin illik yığıncağı çərçivəsində ölkəmizin gənc istedadlarının “Azərbaycanın xoşməramlı mələkləri” adlı konserti (2008), Səttar Bəhlulzadənin 100 illik yubileyi (2009), Azərbaycanın müstəqilliyinin 20-ci ildönümü münasibətilə “Azərbaycanın gənc istedadları” adlı möhtəşəm konsert (2011), Məhsəti Gəncəvinin yaradıcılığının 900 illik yubileyi (2013), Qobustan həftəsi, Qobustanın YUNESKO-da tanıtımı çərçivəsində Fərəc Qarayevin “Qobustan kölgələri” baletinin nümayişi və Qobustanın qayaüstü rəsmlərinin fotoşəkillərindən ibarət sərgi (2014), “Kitabi-Dədə Qorqud” eposunun alman dilinə tərcüməsinin və nəşrinin 200 illik yubileyi (2015), Nəsiminin ölümünün 600-cü ildönümü (2016), Cənubi Qafqazda alman yaşayış məskənlərinin salınmasının 200 illik yubileyi (2017), bəstəkar Qara Qarayevin 100 illik yubileyi (2019), Bakı Dövlət Universitetinin 100 illiyi (2019), Qoşulmama Hərəkatı-

nın üzvləri – Azərbaycan, Mali və Venesueladan olan tanınmış caz qruplarının iştirakı ilə "Caz sülhün xidmətində" adlı konsert, həmçinin azərbaycanlı şərqşünas alim Mirzə Kazımbəyin 200 illik yubileyi, məşhur xalçaçı-rəssam Lətif Kərimovun, akademik Musa Əliyevin 100 illik yubileyləri və digər çoxsaylı əlamətdar günlər təşkilat çərçivəsində böyük təntənə ilə qeyd olunmuşdur [1].

Bunlarla yanaşı, Azərbaycan muğamının, aşıq sənətinin, qədim xalçaçılıq sənətimizin YUNESKO tərəfindən bəşəriyyətin qeyri-maddi mədəni irs xəzinəsinə daxil edilməsi mədəniyyətimizin, milli dəyərlərimizin dünyada tanınmasına geniş yollar açdı.

2013-cü ilin 17 sentyabrında Parisdə, YUNESKO-nun mənzil-qərargahında TÜRKSOY-un və Azərbaycan, Qazaxıstan, Türkiyə dövlətlərinin bu beynəlxalq qurum yanında daimi nümayəndəliklərinin təşkilatçılığı ilə dahi Azərbaycan bəstəkarı Üzeyir Hacıbəylinin "Arşın mal alan" operettasının 100 illiyinə həsr edilmiş bayram tədbirləri keçirilmişdir. Beynəlxalq səviyyədə tanınan, bir çox dillərə tərcümə olunan və bir çox ölkələrdə nümayiş etdirilən operetta dünya incəsənətinin nadir incilərindən olmaqla yanaşı, zəngin və qədim tarixə malik Azərbaycan mədəniyyətinin parlaq nümunəsi kimi səciyyələndirilmişdir [3, s.8].

Elə həmin ilin 22 oktyabr tarixində YUNESKO-nun baş qərargahında böyük Azərbaycan mütəfəkkiri Seyid Yəhya Bakuviyə həsr edilmiş Beynəlxalq simpozium keçirilmişdir. Heydər Əliyev Fondunun təşəbbüsü və Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin təşkilatçılığı ilə baş tutan simpozium "Seyid Yəhya Bakuvi: Tolerantlığın ifadəsi" mövzusuna həsr olunmuşdu. Eyni zamanda, 2013-cü il oktyabrın 22-də təşkilatın mənzil – qərargahında "Azərbaycan – tolerantlıq məkanı" adlı foto-sərgi açılmışdır. Sərgidə Heydər Əliyev Fondunun irəli sürdüyü "Tolerantlığın ünvanı – Azərbaycan" layihəsində yer alan dünya şöhrətli fotoqraf Reza Deqatinin ölkəmizdə dini tolerantlığı əks etdirən fotoşəkilləri də sərgilənmişdir [3, s.11].

2015-ci il mayın 6-13-də Heydər Əliyev Fondunun dəstəyi ilə YUNESKO-da "Azərbaycan mədəniyyəti günləri" keçirilmişdir. Tədbir çərçivəsində YUNESKO-nun Təcili Qorunmaya Ehtiyacı Olan Qeyri-Maddi Mədəni İrs Siyahısına salınmış Azərbaycanın çövkən oyununa dair və "Azərbaycan: ənənədən müasirliyə" adlı sərgilər təşkil olunmuş, fransız yazıçısı Jan-Lui Quronun "Qarabağ atları" kitabının təqdimatı keçirilmiş, "Yeni caz nəsli" qrupunun konserti baş tutmuşdur [10].

Azərbaycan-YUNESKO əməkdaşlığında zəngin milli mətbəximiz də unudulmamış, 2014-cü il iyun ayında YUNESKO-nun baş qərargahında Heydər Əliyev Fondunun dəstəyi ilə "Əsrlərdən bəri qorunub saxlanılan ənənəvi təamlar" adlı Azərbaycan mətbəxi həftəsi təşkil olunmuşdur [10].

Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyeva öz fəaliyyətində Azərbaycanda elmin, təhsilin inkişafına da diqqət göstərmiş, dövlətin gənclər siyasətinə də öz töhfəsini vermişdir. Mehriban xanımın təşəbbüsü, YUNESKO-nun və İSESKO-nun dəstəyi ilə 2008-ci il 10-11 iyun tarixlərində Bakıda "Gülüstan" Sarayında "Mədəniyyətlərarası dialoqda qadınların rolunun genişləndirilməsi" mövzusunda beynəlxalq forum keçirilmişdir [5, s.4].

YUNESKO-nun xoşməramlı səfiri Mehriban xanımın təşəbbüsü və əməyi nəticəsində 2011-ci il aprelin 19-da təşkilat daxilində Azərbaycanın müstəqilliyinin 20-ci ildönümünə həsr olunan Azərbaycanın gənc istedadları" adlı konsert proqramı təşkil olunmuş, eyni zamanda, aprelin 19-dan 29-dək YUNESKO-nun baş qərargahında Azərbaycan xalçalarının sərgisi keçirilmişdir [10].

2011-ci il oktyabrın 26-da Mehriban Əliyeva YUNESKO-nun baş konfransının 36-cı sessiyası çərçivəsində təşkil olunan "YUNESKO-nun dünya mədəniyyəti və dayanıqlı inkişafda rolu nədən ibarətdir?" mövzusunda keçirilən Liderlər Forumunda iştirak etmişdir. Forum zamanı öz çıxışında dünyada yaşanan dərin maliyyə böhranından və on milyonlarla insanın

irqinə, etnik köklərinə və dininə görə ayrı-seçkilik və təcrid olunmanın ağır nəticələri ilə üzləşməsindən bəhs etmiş, səmimi dialoq və xoş məramın çətinliklərin uğurla aradan qaldırılmasında əsas vasitələr olduğunu vurğulamışdır.

2014-cü ildə YUNESKO-nun xoşməramlı səfiri Mehriban Əliyevanın dəstəyi ilə "Dünya elmində yeni çağırışlar: Gənc alimlərin birgə yanaşmaları" mövzusunda Beynəlxalq Bakı Forumu təşkil olunmuşdur [10].

Mehriban xanımın rəhbərlik etdiyi Heydər Əliyev Fondu və YUNESKO arasında əməkdaşlıq çərçivəsində bir sıra sazişlər imzalanmışdır.

- "BMT-nin Təhsil, Elm və Mədəniyyət Məsələləri Təşkilatı – YUNESKO, Azərbaycan Hökuməti və Heydər Əliyev Fondu arasında ölkəmizdə peşə təhsilinin inkişafını nəzərdə tutan layihənin icra planına dair" Saziş, 18 iyun 2007-ci il;
- "Heydər Əliyev Fondu və YUNESKO arasında qeyri-maddi mədəni irsin qorunması üzrə strateji hədəflərə nail olmaq məqsədi ilə Əməkdaşlıq sazişi", 19 mart 2009-cu il;
- "YUNESKO ilə Azərbaycan arasında Haitinin zəlzələdən sonra mədəniyyət sektorunun bərpa edilməsi məqsədilə maliyyə yardımı ilə bağlı saziş", 27 oktyabr 2011-ci il. Sazişə əsasən, Azərbaycanın Birinci xanımı, YUNESKO və İSESKO-nun Xoşməramlı səfiri, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın təşəbbüsü ilə 50 min ABŞ dolları məbləğində maliyyə yardımı Haitinin Jakmel şəhərinin tarixi hissəsində yerləşən mədəni obyektlərin bərpasına sərf edilmişdir.
- Azərbaycan Respublikası Mədəniyyət və Turizm naziri Ə.Qarayev və YUNESKO-nun Baş Direktoru İ.Bokova tərəfindən "Azərbaycan hökuməti ilə YUNESKO arasında təhsil, elm, mədəniyyət və kommunikasiya sahələrində əməkdaşlıq üzrə Çərçivə Sazişi", 18 iyul 2013-cü il. Sazişdə qeyd olunmuş və Azərbaycanın təşkilat üçün ayıracağı 5 milyon ABŞ dolları məbləğindəki maliyyə töhfəsi qeyri-maddi mədəni irs, qızların təhsili, elm və innovasiya texnologiyalarının inkişafı sahəsində YUNESKO-nun işinin möhkəmləndirilməsi, həmçinin azərbaycanlı mütəxəssislərin təşkilatda daimi işlə təmin olunması və Azərbaycan maraqlarının təşkilatda qorunmasına şərait yaradılması kimi məsələlər üçün nəzərdə tutulurdu [10].

Bütün bu fəaliyyətləri ilə dünya mədəniyyətinin qorunmasına göstərdiyi qayğı və diqqətinə, həmçinin Azərbaycanın mədəni irsinin yaşadılması uğrunda əmək və töhfələrinə görə Mehriban xanım Əliyeva 2008-ci ildə YUNESKO-nun keçmiş Baş direktoru Koişiro Matsuura tərəfindən gümüş xatirə medalı, 2010-cu ildə isə Baş direktor İrina Bokova tərəfindən YUNESKO-nun "Qızıl Motsart" medalı ilə təltif edilmişdir [4].

Müasir dövrdə Azərbaycanın çoxtərəfli beynəlxalq mədəni əlaqələrinin inkişafına nəzər saldıqda aşkar görünür ki, müasir siyasi reallıqlar şəraitində böyük nüfuza malik beynəlxalq təşkilatlar, o cümlədən YUNESKO tərəfindən dəstəklənən möhtəşəm tədbirlər dövlətimizin beynəlxalq aləmdəki mövqeyini daha da gücləndirmiş, ölkəmizin tolerantlıq və dialoq məkanı kimi bu günə qədər layiqincə yerinə yetirdiyi tarixi missiyaya təkan vermiş və nəticə olaraq sivilizasiyalararası dialoq üzrə qlobal platformanın əsası Azərbaycanın fəal iştirakı ilə qoyulmuşdur. Şübhəsiz bu istiqamətdə qazanılmış uğur və nail olunmuş tərəqqidə Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO və İSESKO-nun Xoşməramlı səfiri Mehriban xanım Əliyevanın böyük və təkrarsız rolu vardır.

**Ədəbiyyat:**


1. Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi, "Azərbaycan və YUNESKO", ümumi məlumat; https://mfa.gov.az/az/content/169/yunesko
2. Azərbaycan Respublikasının YUNESKO yanında daimi nümayəndəliyi, Azərbaycan-YUNESKO əlaqələri, ümumi məlumat; https://unesco.mfa.gov.az/az/content/40/umumi-melumat
3. "Azərbaycan - UNESCO əməkdaşlığı dinamik şəkildə inkişaf etdirilir", İki sahil, 17 may 2014, s.8; 11; http://anl.az/down/meqale/iki_sahil/2014/may/370478.htm
4. Bernama, "First VP of Azerbaijan Mehriban Aliyeva a major contributor to the country's development", Astroawani, September 3, 2020; https://www.astroawani.com/berita-dunia/first-vp-azerbaijan-mehriban-aliyeva-major-contributor-countrys-development-257833
5. Fərmanova Aynur, "YUNESKO ilə əməkdaşlıq Azərbaycanın beynəlxalq mədəni əlaqələrinin genişlənməsində mühüm rol oynayır", Xalq qəzeti, 5 fevral 2012, № 28.- s. 4; https://mehribanaliyeva.preslib.az/media-17399316ec.html
6. Kochiro Matsuuro, "First lady of Azerbaijan Mehriban Aliyeva`s multifaceted activity is a role model for women of the nation she belongs to", Azertag, 2014-08-09; https://a-r.az/en/article/4156
7. Mu Xuequan, "Azerbaijan lauds inscription of its ancient city center on UNESCO World Heritage List", Xinhua, 2019-07-08; http://www.xinhuanet.com/english/2019-07/08/c_138206974.htm
8. Prezident Kitabxanası, "Xoşməramlı səfir Mehriban xanım Əliyevanın fəaliyyəti", 2017-ci il; https://unesco.preslib.az/az/page/wvtWNK2Sna
9. "Yeni Azərbaycan"ın Analitik Qrupu, "Mehriban xanım Əliyevanın milli maraqlara və ümumbəşəri dəyərlərə əsaslanan səmərəli fəaliyyəti həm ölkə daxilində, həm də beynəlxalq səviyyədə olduqca yüksək qiymətləndirilir", 26 avqust, 2020;https://www.yeniazerbaycan.com/Analitik_e54755_az.html
10. YUNESKO üzrə Azərbaycan Respublikasının Milli Komissiyası, "YUNESKO-nun Xoşməramlı Səfiri xanım Mehriban Əliyevanın fəaliyyəti"; http://www.unesco.az/?options=content&id=30
11. https://en.unesco.org/


***Açar sözlər:*** *Azərbaycan, YUNESKO, əməkdaşlıq, mədəniyyət, elm, təhsil*

**Nigar Gadirova**
*Master's Student of the Academy of Public Administration*
*under the President of the Republic of Azerbaijan*

# GOODWILL AMBASSADOR OF UNESCO AND ISESCO AND PRESIDENT OF THE HEYDAR ALIYEV FOUNDATION: MEHRIBAN ALIYEVA'S ACTIVITY TO DEVELOP RELATIONSHIPS BETWEEN AZERBAIJAN AND UNESCO

## SUMMARY

Mutual relations with UNESCO, one of the specialized organizations of the United Nations (UN) and currently considered the largest intergovernmental forum for cooperation in science, education and culture, play an important role in the bilateral and multilateral relations of the Republic of Azerbaijan.Within the framework of cooperation with UNESCO, the ancient and rich culture of Azerbaijan has risen to the international level and has become an important part of world culture. First Lady of Azerbaijan, President of the Heydar Aliyev Foundation, Mehriban Aliyeva has an irreplaceable role in the development and enhancement of Azerbaijan-UNESCO relations. This paper analyzes Goodwill Ambassador of UNESCO and ISESCO, President of Heydar Aliyev Foundation, Mehriban Aliyeva's activities to develop relationship between Azerbaijan and UNESCO.The main topic of the article is Mehriban Aliyeva's unparalleled role in the deep study, protection and promotion of Azerbaijan's rich cultural heritage, her contribution to the development of traditional music, literature and poetry, as well as the exchange of culture of the peoples of the world. The article also emphasizes Mehriban Aliyeva's great support to the international peace-building process and to sustainable cultural development.

***Keywords:*** *Azerbaijan, UNESCO, cooperation, culture, science, education*

**Нигяр Гадирова**
*Магистр Академии Государственного Управления при Президенте Азербайджанской Республики*

# ДЕЯТЕЛЬНОСТЬ ПОСЛА ДОБРОЙ ВОЛИ ЮНЕСКО И ИСЕСКО, ПРЕЗИДЕНТА ФОНДА ГЕЙДАРА АЛИЕВА МЕХРИБАН АЛИЕВОЙ В РАЗВИТИИ ОТНОШЕНИЙ МЕЖДУ АЗЕРБАЙДЖАНОМ И ЮНЕСКО

## РЕЗЮМЕ

Взаимоотношения с ЮНЕСКО, одной из специализированных организаций ООН, являющейся крупнейшим межправительственным форумом для сотрудничества в области науки, образования и культуры, играют важную роль в двусторонних и многосторонних отношениях Азербайджанской Республики. В рамках сотрудничества с ЮНЕСКО древняя и богатая культура Азербайджана поднялась на международный уровень и стала важной частью мировой культуры. Первая леди Азербайджана, Президент Фонда Гейдара Алиева Мехрибан Алиева играет незаменимую роль в развитии и укреплении отношений между Азербайджаном и ЮНЕСКО.

В статье анализируется деятельность посла Доброй воли ЮНЕСКО и ИСЕСКО, Президента Фонда Гейдара Алиева Мехрибан Алиевой по развитию отношений между Азербайджаном и ЮНЕСКО. Беспрецедентная роль Мехрибан ханум Алиевой в глубоком изучении, защите и популяризации богатого культурного наследия Азербайджана, ее вклад в развитие национальной музыки, литературы и поэзии, а также обмен культурами народов мира является ссновной темой статьи, также подчеркивается огромная поддержка Мехрибан Алиевой процессу международного миростроительства и устойчивого культурного развития.

***Ключевые слова:*** *Азербайджан, ЮНЕСКО, сотрудничество, культура, наука, образование*

## GƏNC TƏDQİQATÇILAR
## YOUNG RESEARCHERS

## BEYNƏLXALQ MÜNASİBƏTLƏR
## INTERNATIONAL RELATIONS

UOT 061.2 (100)

**VÜQAR ƏMRULLAYEV**
**Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Rəhbər Dövlət İdarəçiliyi Kadrlarının İxtisasının Artırılması İnstitutunun "Dövlət qulluğunun təşkili və idarə edilməsi" ixtisaslaşmasının magistrantı**
*e-mail: telepat83@mail.ru*

# AZƏRBAYCANIN BEYNƏLXALQ ƏLAQƏLƏRİNİN GENİŞLƏNMƏSİNDƏ HEYDƏR ƏLİYEV FONDUNUN FƏALİYYƏTİ

XXI əsrin başlanğıcı bütövlükdə dünya siyasətinin transmillilişməsi, qloballaşma proseslərinin geniş vüsət alması dövrü kimi səciyyələnsə də, hər bir xalqın milli özünəməxsusluğunun qorunub saxlanması meyillərindən irəli gələn, lokalizasiya adlanan əks tendensiya da özünü qabarıq göstərir. Getdikcə daha çox dövlət minilliklərin sınağından çıxmış milli adət-ənənə və dəyərlərini təhdid edən total mədəniyyət ünsürlərinə qarşı çıxır, müxtəlif beynəlxalq təşkilatlar milli-mədəni suverenliyin yad təsirlərdən hifz olunması zərurətini diqqətə çəkirlər. Aşkar görünür ki, fərqli mədəniyyətlər arasında ortaq təmas nöqtələrinin tapılması bu gün qloballaşan dünyada sülh və sabitliyin, əmin-amanlığın, dinc yanaşı yaşamağın vacib meyarına çevrilmişdir.

Azərbaycan xalqına xas zəngin ənənələrin qorunub saxlanılması və inkişaf etdirilməsi milli-mənəvi dəyərlərin ciddi təhdidlərlə üzləşdiyi müasir dövrdə xüsusilə aktualdır. Bu aktuallıq geostrateji mövqeyinə görə çeşidli dünyagörüşü və həyat tərzinin, milli-mədəni dəyərlərin, dini inancların qovuşduğu Azərbaycanın milli-etnik tərkibi ilə dünyanın ən tolerant dövlətlərindən birinə çevrilməsi ilə şərtlənir. Əsrlərin sınağından çıxmış mədəniyyətini, mənəvi dəyərlərini, adət-ənənələrini hifz etməyi bacaran Azərbaycan xalqı ümumbəşəri mütərəqqi dəyərlərə tolerant münasibət bəsləməklə müasirliyə və yeniliyə can atır. Xalqımız bu mürəkkəb sosio-mədəni prosesin təkcə coğrafi deyil, həm də mənəvi təzahürünü, Qərb və Şərq mədəniyyətinin dialoqunu da öz gündəlik həyatında hiss edir.

Təsadüfi deyil ki, xalqlararası və mədəniyyətlərarası dialoqu inkişaf etdirmək, ona dəstək vermək, bütün insanların gələcəyi naminə mədəniyyətlərin və dinlərin qarşılıqlı dialoquna nail olmaq bu gün də dövlət siyasətinin mühüm tərkib hissəsidir. Bu gün Azərbaycanda mədəni müxtəlifliyin təmin olunmasına, bəşəriyyətin nicatına, insanlığın yüksəlişinə xidmət edən nəcib və humanist dəyərlərin inkişafında ulu öndərin adını daşıyan Fondun xidmətləri xüsusi vurğulanmalıdır.

Müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, ümummilli lider Heydər Əliyevin zəngin irsinin qorunub saxlanması, gələcək nəsillərə çatdırılması və nəcib əməllərinin davam etdirilməsi məqsədilə xüsusi bir ictimai qurumun yaradılmasına dair müxtəlif təşəb-

büslər irəli sürüldü. Cəmiyyətin sosial sifarişi nəzərə alınaraq 2004-cü ilin mayında qeyri-hökumət təşkilatı olan Heydər Əliyev Fondu yaradıldı (18).

Heydər Əliyev Fondu xalqın milli varlığının və özünəməxsusluğunun təcəssümü kimi əsrlər boyu formalaşmış zəngin mənəvi irsi, milli düşüncə və dəyərlər sistemini yad təsirlərdən qorumaq, zəngin mədəniyyətini bəşər miqyasında təbliğ etmək kimi çətin və şərəfli vəzifənin öhdəsindən layiqincə gəlir. Nəcib məram, xoş niyyət hər bir insanın həyatdakı yerini və rolunu, ictimai statusunu və cəmiyyətdəki missiyasını onun dərk edilmiş məqsədyönlü fəaliyyəti müəyyənləşdirir. Belə fenomen şəxsiyyətlər müasir qloballaşma dövründə intibahı elm və təhsildə, mədəni tərəqqidə axtarır, xalqın milli-mənəvi irsinin qorunmasına çalışır, saf ideallarin cəmiyyətdə hakim olması uğrunda mübarizə aparır, bununla özləri də xalqın sevimlisinə çevrilirlər. Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Mehriban xanım Əliyeva son 17 ildə rəhbərlik etdiyi Heydər Əliyev Fondunun həyata keçirdiyi həyati əhəmiyyətli layihələrlə, irəli sürdüyü nəcib və xeyirxah təşəbbüslərlə məhz belə bir ümumxalq məhəbbətini özü üçün təmin etmiş, xalqın dərin inam və etimadını qazanmışdır.

2009-cu il mayın 10-da keçirilən təntənəli mərasimdə çıxış edən Fondun prezidenti Mehriban xanım Əliyeva demişdir: “Fondun fəaliyyəti artıq hər kəsə bəllidir. Beş il ərzində görülən işlər, əldə edilən nailiyyətlər haqqında bu axşam burada danışılacaq. Öz adımdan təkcə onu demək istəyirəm ki, bu beş il ərzində görülən işlər bir çox sahələri – elmi, təhsili, mədəniyyəti, səhiyyəni, sosial sferanı əhatə edir. Lakin bunları birləşdirən bir amil var. Bu da Azərbaycana, Vətənə xidmət etmək arzusu və şərəfidir. Bu yolda bizə kömək edən, bizi dəstəkləyən, bizə inanan hər bir insana dərin minnətdarlığımı bildirirəm. Fondun əməkdaşlarına – gənc, istedadlı və insan problemlərinə heç zaman biganə qalmayan komandamın hər bir üzvünə xüsusi minnətdarlığımı bildirirəm. Bir daha sizi əmin etmək istəyirəm ki, Heydər Əliyevin adını daşıyan Fond Azərbaycanın bu günü və gələcəyi naminə bundan da artıq işlərə hazır və qadirdir” (14).

Fond ümummilli lider Heydər Əliyevin müdrikliyə əsaslanan həyat və fəaliyyətini, zəngin dövlətçilik irsini öyrənən ideoloji-humanitar mərkəz kimi üzərinə götürdüyü çətin vəzifənin öhdəsindən layiqincə gəlmiş, böyük strateqin ideallarına tapınaraq xalqın rifahına yönəlmiş irimiqyaslı layihələrin təşəbbüsçüsü və fəal icraçısı olmuşdur. Yarandığı dövrdən indiyədək Fond öz prinsiplərinə sadiq qalaraq, təhsil, səhiyyə, mədəniyyət, idman, elm və texnologiya, ekologiya, sosial və digər sahələrdə müxtəlif layihələr həyata keçirmişdir.

Heydər Əliyev Fondunun həyata keçirdiyi qlobal təşəbbüslər Azərbaycanın dünyada tolerantlıq və multikulturalizm ünvanı kimi tanınmasına mühüm töhfə vermişdir. Müxtəlif mədəniyyətlər və sivilizasiyaların qarşılıqlı zənginləşməsinə, xalqlararası dialoqun dərinləşməsinə, tolerantlıq ənənələrinin qorunmasına xüsusi əhəmiyyət verən Heydər Əliyev Fondu “Tolerantlığın ünvanı – Azərbaycan” layihəsini həyata keçirir. Layihə çərçivəsində dini abidə və ziyarətgahlarda təmir-bərpa işləri aparılır, mövzuya aid sərgilər təşkil olunur. Azərbaycanın Şərq və Qərb mədəniyyətləri arasında tutduğu mövqe, bu iki dünyanın zəngin mədəni irsinə sahibliyi mədəniyyət diplomatiyasında ölkəmizin önəmini son dərəcə artırır (1).

Azərbaycanın birinci xanımı, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu da son 17 ildə digər sahələrdəki nailiyyətləri ilə yanaşı, bütün dünyada tolerantlıq və multikulturalizmin də mükəmməl örnəyini yaratmaqdadır.

Fondun əsas missiyası Heydər Əliyevin həyat və fəaliyyətinin, ideyalarının öyrənilməsi və təbliği ilə yanaşı, ölkə daxilində və xaricdə sosial-iqtisadi və humanitar inkişafı dəstəkləməkdir. Fond öz proqramları, layihələri, xeyriyyə fəaliyyəti ilə Azərbaycanda və ölkəmizin hüdudlarından kənarda yüksək

nailiyyətlər qazanmışdır. Fondun təşəbbüsü ilə respublikanın müxtəlif şəhər və rayonlarında ümummilli lider Heydər Əliyevin həyat və fəaliyyətindən, Azərbaycanın müasir tarixi və zəngin mədəni irsindən bəhs edən, yeni avadanlıq və zəruri ədəbiyyatla təchiz edilmiş mərkəzlər yaradılmışdır. Bu mərkəzlər təkcə muzey funksiyası daşımır, eyni zamanda, yeniyetmə və gənclərin müxtəlif bilik və bacarıqlara yiyələnmələrinə xidmət edir. Mərkəzlərin nəzdində kompyuter kursları, şahmat, xalçaçılıq, təsviri və tətbiqi incəsənət, heykəltəraşlıq və s. dərnəklər fəaliyyət göstərir.

Fond, ilk növbədə, ümummilli liderin ölkənin sosial-iqtisadi, mədəni tərəqqisi, sivil dünya birliyinə inteqrasiyası, xalqın maddi rifahının yaxşılaşması naminə müəyyən etdiyi siyasi kursun öyrənilməsi və təbliği, habelə bu ideyaların reallaşdırılması niyyətilə yaradılmışdır. Təşkilat ilk gündən həm də elm, təhsil, mədəniyyət, səhiyyə, idman və ekoloji sahələrə aid proqram və layihələrin hazırlanıb həyata keçirilməsi, sağlam mənəvi dəyərlərin qorunması ilə bağlı aparılan işlərə kömək məqsədini qarşıya qoymuşdur (18).

Azərbaycanın beynəlxalq nüfuzunun artırılması ilə bağlı tədbirlərin həyata keçirilməsi, ölkə həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması Fondun fəaliyyətində prioritet istiqamətlər olmuşdur. Son illərdə Azərbaycanda elm sektorunun inkişaf strategiyası, ölkəmizin qədim tarixi, təbii sərvətləri, geosiyasi mövqeyi, mədəniyyətinin qorunub inkişaf etdirilməsi sahəsindəki nailiyyətlərin əldə edilməsində də Heydər Əliyev Fondu uğurlu addımlar atmışdır. Belə ki, öz fəaliyyəti dövründə Fond respublikada sosial-iqtisadi problemlərin həllində elmin və texnikanın rolunun yüksəldilməsi, milli innovasiya sisteminin yaradılması və inkişafına kömək, elmdə demokratik rəqabət və müsabiqə formalarından geniş istifadə etməklə, alimlərin yaradıcılıq potensialının aşılanması üçün şəraitin yaradılmasında fəal iştirak etməklə, xarici ölkələrdə təhsil almaq və təcrübə keçmək yolu ilə yüksək ixtisaslı kadrların hazırlanmasına hər zaman yardım etmişdir.

Heydər Əliyev Fondu mütəmadi olaraq, YUNESKO, İSESKO və digər beynəlxalq təşkilatlar və fondlar ilə əməkdaşlıq edərək, dünya elminin nailiyyətlərinin və təcrübəsinin öyrənilməsinə, onların respublikanın sosial-iqtsadi sahələrində geniş tətbiq edilməsinə, xarici ölkələrin elm mərkəzləri ilə əlaqələrin yaradılması və inkişaf etdirilməsinə hər zaman dəstək olmuşdur. Cəmiyyətdə fəal maarifçilik xətti yeritməklə klassiklərin mütərəqqi ənənələrini davam etdirən Heydər Əliyev Fondunun fəaliyyəti elmə və təhsilə qayğı nümunələri ilə zəngindir.

Bütün bunlarla yanaşı, 2005-ci ilin martında Parisdə – YUNESKO-nun qərargahında "Qarabağ xanəndələri" albomunun təqdimat mərasiminin keçirilməsi, qurumun qeyri-maddi irsinin şah əsərləri siyahısına muğamın və aşıq sənətinin də daxil edilməsi, eyni zamanda, Bakıda Beynəlxalq Muğam Mərkəzinin təməlinin qoyulması Fondun fəaliyyətinin kifayət qədər geniş spektri əhatə etdiyini göstərir (2). YUNESKO xətti ilə hazırlanmış alboma "Qarabağ xanəndələri" adının verilməsi Qarabağın əzəli və əbədi Azərbaycan torpağı olduğunu, muğamın isə bu torpağın dünyaya bəxş etdiyi nadir sənət nümunəsi sayıldığını nümayiş etdirmişdir.

Eyni zamanda, Heydər Əliyev Fondu tarixi abidələrin qorunması üçün həyata keçirilən tədbirlərdə də yaxından iştirak edir. Heydər Əliyev Fondunun mədəniyyət sahəsindəki fəaliyyəti əsasən üç istiqaməti əhatə edir: milli-mənəvi dəyərlərin və mədəni irsin qorunub saxlanması, ölkə və dünya əhəmiyyətli tarixi abidələrin bərpası və yeni mədəniyyət obyektlərinin inşası, Azərbaycan mədəniyyətinin dünya ictimaiyyətinə tanıdılması mühüm rol oynayır. Bu sırada YUNESKO-nun Bəşəriyyətin Şifahi və Qeyri-Maddi İrsinin şah əsərləri siyahısında yer almış Azərbaycan muğamının inkişafına və tanıdılmasına xidmət edən Beynəlxalq Muğam Mərkəzinin açılmasını, Müasir İncəsənət Muzeyinin, Azərbaycan Xalçası və Xalq Tətbiqi Sənəti Muzeyinin, Qala Arxeoloji-Etnoqrafik Muzey Kompleksinin yaradılmasını xatırlamaq olar. Hər il təşkil

edilən beynəlxalq musiqi yarışmaları nəinki Azərbaycanın, hətta dünyanın mədəni həyatında əlamətdar hadisə kimi qiymətləndirilir. Mstislav Rostropoviç adına Beynəlxalq Musiqi Festivalı, "Muğam aləmi" Beynəlxalq Muğam Festivalı, Qəbələ Beynəlxalq Musiqi Festivalı, Beynəlxalq Aşıq Festivalı kimi irimiqyaslı tədbirlər ifaçılıq sənətinin inkişafına əlverişli şərait yaratmaqla bərabər, xalqlar arasında mədəni əlaqələrin genişlənməsinə də xidmət edir (2).

Bununla yanaşı, Fond xarici ölkələrdə Azərbaycanın təqdimatını mədəniyyət günləri, sərgilər, habelə əlamətdar tarixi hadisələrə, tanınmış elm və mədəniyyət xadimlərinə həsr olunmuş mərasimlər təşkil etməklə yerinə yetirir. Bunlara misal olaraq, "Azərbaycan xalçaları ilə nağıllar aləminə" adlı sərgini, Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpa edilməsinin 20-ci ildönümünə həsr olunmuş mərasimləri, dahi Azərbaycan şairi Nizami Gəncəvinin 870 illik yubileyi ilə bağlı London, Paris, Berlin, Moskva, Strasburq və Romada keçirilən tədbirləri göstərmək olar.

Ümumiyyətlə, istər təhsil, istər səhiyyə sahəsində, mədəniyyət sahəsində, mənəvi irsimizin qorunması, Azərbaycanın dünya birliyində təbliğ edilməsi, xüsusilə, Qarabağ həqiqətlərinin tam təfərrüatı ilə dünya birliyinə obyektiv şəkildə çatdırılması işində Heydər Əliyev Fondunun rolu çox yüksək qiymətləndirilir. Fondun Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı həqiqətlərin dünya miqyasında təbliği məqsədilə müxtəlif dillərdə nəşr etdirdiyi kitabların əhəmiyyəti də xüsusi qeyd olunmalıdır. Son illərdə beynəlxalq ictimaiyyətə ünvanlanan "Qarabağ həqiqətləri" toplusu "Qarabağın tarixi haqqında məlumat", "Qarabağ münaqişəsinin başlanması", "Xocalı soyqırımı", "Azərbaycana qarşı erməni təcavüzünün nəticələri", "Erməni terror təşkilatlarının Azərbaycana qarşı fəaliyyəti" kitabçalarından ibarətdir. Bu topluların elektron variantları 2007-ci ildə qanlı soyqırımın 15 illiyində Avropanın 15 dövlətində keçirilən soyqırım qurbanlarının xatirəsini anma mərasimlərində xarici ölkələrin diplomatik korpuslarına, beynəlxalq təşkilatlara, kütləvi informasiya vasitələrinə, tanınmış siyasi-ictimai xadimlərə paylanmışdır (18). Real faktlara, tutarlı sübutlara, fotosənədlərə istinadla aparılan bu təbliğat kampaniyası on minlərlə avropalıya Qarabağ həqiqətləri, Xocalı soyqırımı, Ermənistanın ölkəmizə qarşı həyata keçirdiyi təcavüzkar işğalçılıq siyasəti haqqında əsl həqiqətləri çatdırmışdır. Mehriban xanım Əliyevanın "Ön söz"ü ilə işıq üzü görmüş "Müharibə və tarixi-mədəniyyət abidələrimiz" kitabında Ermənistan tərəfindən Azərbaycan ərazilərində dağıdılmış tarixi memarlıq abidələri haqqında ətraflı məlumatlar verilmişdir (5).

Ermənistan-Azərbaycan münaqişəsi ilə bağlı həqiqətlərin beynəlxalq ictimaiyyətə çatdırılmasına xüsusi önəm verən Fond 2007-ci ildən başlayaraq hər il dünyanın bir sıra böyük şəhərlərində Xocalı soyqırımının ildönümü ilə bağlı aksiyalar keçirir. Aksiyalarda "Xocalı soyqırımı" filmi, ermənilərin Xocalıda törətdikləri vəhşilikləri əks etdirən fotoşəkillər, müxtəlif illərdə xarici ölkələrin nüfuzlu nəşrlərində Xocalı faciəsi haqqında dərc edilmiş materiallar, "Qarabağ həqiqətləri" toplusu və "Azərbaycana qarşı müharibə: mədəni irsin hədəfə alınması" kitabı təqdim olunur. 2012-ci ilin fevralında Fondun təşəbbüsü ilə Bosniya və Herseqovinanın paytaxtı Sarayevoda Srebrenitsa və Dağlıq Qarabağın Xocalı şəhərində törədilmiş soyqırımı qurbanlarının xatirəsinə abidə ucaldılmışdır (21).

Eyni zamanda, Xocalı həqiqətlərinin dünyaya çatdırılması, beynəlxalq aləmdə yayılması, eləcə də bu soyqırımına obyektiv qiymət verilməsi istiqamətində davamlı olaraq addımlar atılmışdır. Bu baxımdan Heydər Əliyev Fondu, xüsusilə onun prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın gördüyü işlər olduqca təqdirəlayiqdir. Belə ki, Fond bəşəriyyətin ən böyük faciələrindən olan Xocalı soyqırımı haqqında faktların dünyaya çatdırılması istiqamətində çox sistemli və ardıcıl fəaliyyət göstərir. Fondun dəstəyi və təşkilatçılığı ilə

məktəblilər arasında keçirilən "Xocalı – uşaqların gözü ilə" rəsm müsabiqəsinin, əl işlərinin və fotoşəkillərin dünyanın aparıcı ölkərində keçirilən sərgisi dünya ictimaiyyətində XX əsrin ən böyük faciəsi haqqında daha dolğun təsəvvür yaratmışdır (18).

Bundan əlavə, 2007-ci il fevralın 26-da Heydər Əliyev Fondunun təşəbbüsü ilə Brüsseldə təşkil olunan "Təcavüzün qurbanları" adlı foto və uşaq rəsmlərinin sərgisi də bu həqiqətlərin beynəlxalq aləmə çatdırılması işinin davamıdır. Bundan başqa Xocalı faciəsinin beynəlxalq aləmdə tanıdılması istiqamətində 2008-ci il fevralın 14-də Berlində keçirilmiş "Xocalı soyqırımı və 1915-ci il hadisələrindəki gerçəklər" adlı elmi konfrans da son dərəcə əhəmiyyətli olmuşdur (18).

2008-ci ildə Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla xanım Əliyevanın təşəbbüsü ilə "Xocalıya ədalət" kampaniyası təsis edilmiş, fəaliyyətinə isə 2009-cu ilin fevralından start verilmişdir (17).

Eyni zamanda, Heydər Əliyev Fondu beynəlxalq səviyyəli qurumdur. Fondun ABŞ, Rumıniya, Rusiya və Türkiyədə nümayəndəlikləri fəaliyyət göstərir. Qurum BMT-nin İnkişaf Proqramı, YUNESKO, İSESKO və digər beynəlxalq təşkilatlar ilə sıx əməkdaşlıq edir. Bu baxımdan Fond Azərbaycandan kənarda da çox mühüm proqram və layihələr reallaşdırır. Xarici ölkələrdə həyata keçirilən proqram və layihələr əsasən üç istiqaməti əhatə edir: Azərbaycanın tanıdılması, o cümlədən xalqımızın tarixi və Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı həqiqətlərin beynəlxalq ictimaiyyətə çatdırılması; Azərbaycan və azərbaycanlılarla bağlı tarixi, mədəni irsin bərpası və qorunması; Fondun məramına uyğun olaraq humanitar və sosial inkişafa kömək göstərilməsi (18).

Heydər Əliyev Fondu təhsil, səhiyyə, mədəniyyət və digər sahələrdə Azərbaycanda reallaşdırdığı layihələri xaricdə də uğurla tətbiq edir. Məsələn, "Təhsilə dəstək" layihəsi çərçivəsində Gürcüstan, Misir, Rumıniya, Rusiya, Pakistan və Niderlandda bir sıra məktəblər yenidən qurulmuş və əsaslı təmir olunmuşdur. Pakistanda qızlar üçün yeni orta məktəb binasının inşası Fondun bu sahədə ən uğurlu işlərindən biridir. Belə ki, 2005-ci ildə Pakistanda böyük dağıntılara səbəb olmuş zəlzələdən sonra Müzəffərabad şəhərinin Rara ərazisindəki qızlar üçün məktəb tam yararsız vəziyyətə düşmüş və Fond tərəfindən qısa müddətdə 650 şagird yerlik yeni təhsil ocağı inşa edilmişdir (21).

Heydər Əliyev Fondunun Rusiya nümayəndəliyi də həyata keçirdiyi çoxşaxəli fəaliyyətində mədəniyyətlərarası dialoq, tolerantlıq, multikulturalizm məsələlərinə xüsusi diqqət yetirir. Buna nümunə olaraq, Heydər Əliyev Fondunun Rusiya nümayəndəliyinin rəhbəri Leyla xanım Əliyevanın dəstəyi ilə Moskvada "Qloballaşma şəraitində mədəniyyətlərin dialoqu. Bakı forumu" kitabının çapdan çıxması məhz Azərbaycan reallıqlarını özündə ehtiva edən fakt kimi böyük diqqət və maraqla qarşılanmışdır. Fəaliyyət coğrafiyasını daim genişləndirən qurumun təmsilçiləri, eyni zamanda, Leyla xanımın rəhbəri olduğu Rusiya Azərbaycanlıları Gənclər Təşkilatında təmsil olunan azərbaycanlı gənclər klubları eyni missiyanı Moskva ilə yanaşı, Sankt-Peterburqda, Arxangelsk, Tver, İvanov, Yekaterinburq və digər regionlarda da uğurla yerinə yetirməkdədirlər. 2012-ci il noyabrın 8-də Leyla xanım Əliyevanın təşəbbüsü ilə Londonda keçirilən "Avropa multikulturalizminin perspektivləri: Dinlərarası dialoq və dini tolerantlığın Azərbaycan modeli" mövzusunda konfrans Azərbaycanın bütün dünyada sülhün, firavanlığın təmsil olunması yönündə həyata keçirdiyi siyasətə daha bir sanballı töhfə olmuşdur (18).

Azərbaycanın tarixi ənənələrini, Tarixi İpək yolunun regiondakı rolunu nəzərə alan Latın Mədəniyyəti Akademiyasının hələ 2006-cı il aprelin 19-da Bakıda keçirilmiş XIII konfransı respublikamızın sivilizasiyalararası dialoq mərkəzinə çevrildiyini nümayiş etdirmişdir. Latın mənşəli görkəmli mədəniyyət və ədəbiyyat xadimlərinin iştirakı ilə Heydər Əliyev Fondunda keçirilən konfransda çıxış edən Mehriban xanım Əliyeva demişdir: "Bu gün biz sivilizasiyalararası dialoqun keçmişindən söhbət açaraq

xüsusi vurğulamalıyıq ki, qədim və çox zəngin Yunan-Roma sivilizasiyasının ilk varisi məhz Şərq olubdur. Həqiqətən də, əsrlər boyu Böyük İpək Yolu üstündə yerləşən ölkəmiz çox yüksək tolerantlığa malik və müxtəlif mədəniyyətləri birləşdirən bir məkan kimi tanınır. Bu, bizim qürur duyduğumuz uğurumuz, keçmişimizdir və inanıram ki, gələcəkdə də bu sahədə Azərbaycan öz müsbət rolunu oynayacaqdır" (7).

Azərbaycan Prezidentinin və ölkənin birinci xanımının məqsədyönlü fəaliyyəti əsasında respublikamız sivilizasiyalararası dialoq təşəbbüslərinin mərkəzinə çevrilmişdir. Məhz bu fəaliyyət sayəsində Bakı 2009-cu ildə "İslam mədəniyyətinin paytaxtı" elan olunmuşdur. Şərqlə Qərbi birləşdirən İpək yolunun bərpası işinin təməli Bakıda qoyulduğu kimi, şəhərimiz dünyanın hər iki qütbünün dəyərlərini əks etdirən incəsənət bayramları, beynəlxalq elmi konfranslar üçün də mədəni-mənəvi məbədə çevrilmişdir. "Bakı İslam mədəniyyətinin paytaxtı-2009" mədəniyyət ili çərçivəsində keçirilmiş silsilə tədbirlər Azərbaycanı bir daha bütün dünyada tanıtmış, islam ölkələrinin yaxından iştirak etdikləri bu tədbirlər İSESKO tərəfindən yüksək qiymətləndirilmişdir (1).

Dini tolerantlıq mədəniyyətinin formalaşmasında mühüm rol oynayan amillərdən biri də dinlərarası dialoqun genişlənməsidir. Qeyd edək ki, hazırki qloballaşma dövründə dinlərarası dialoqun genişlənməsi həm nəzəri, həm də praktiki cəhətdən mühüm əhəmiyyət kəsb edir. Dinlərarası dialoq prosesində əvvəlcə müxtəlif dinlər arasında qarşılıqlı anlaşma yaranır, sonra isə birgə əməkdaşlığa doğru fəaliyyət birliyinə səy göstərilir. Ölkəmizdə tolerantlıq və multikulturalizm ənənələrinin qorunması işinə xüsusi əhəmiyyət verən Heydər Əliyev Fondu "Tolerantlığın ünvanı – Azərbaycan" layihəsini uğurla həyata keçirir. Layihə çərçivəsində Bakıdakı Pravoslav kilsəsində təmir-bərpa işləri aparılmış, eyni zamanda "Or-Avner" Beynəlxalq Fondu ilə birgə Bakıda yaşayan yəhudi uşaqları üçün 600 yerlik təhsil mərkəzi inşa edilmişdir (18; 19).

Heydər Əliyev Fondunun təşəbbüsü ilə 2010-cu il iyunun 29-dan 30-dək Bakıda keçirilmiş və Ulu öndər Heydər Əliyevin xatirəsinə həsr olunmuş "Qloballaşma şəraitində mədəniyyətlərin dialoqu" forumu da bütün dünyada sivilizasiyalar arasında dialoqa öz dəyərli töhfələri ilə yadda qalmışdır. Azərbaycanın birinci xanımı öz fəaliyyəti ilə həm də mədəniyyətlər və sivilizasiyalararası dialoqa necə nail olmağın yolunu göstərir (13). Məlumdur ki, maddi mədəniyyətin, elmin, texnologiyanın, iqtisadiyyatın, fiziki sağlamlığın, idmanın prioritetliyinə əsaslanan Qərb sivilizasiyası və mənəvi mədəniyyətin, əxlaqın, dini dəyərlərin prioritetliyinə əsaslanan Şərq sivilizasiyası ancaq bir-birini qarşılıqlı surətdə tamamladıqda onun kamil insanın formalaşmasındakı rolu haqqında söhbət açmaq olar.

Dünyanın çoxmillətli dövlətlərindən olan Azərbaycan da hər bir azərbaycanlının vətənidir. Azərbaycan Respublikasında kompakt şəkildə müxtəlif etnosların nümayəndələri yaşayır və onların hər biri öz maddi və mənəvi mədəniyyətini, dilini, tarixi yaddaşını, mentalitetini, etnik özünüdərketmə və etnopsixologiyasını qoruyub saxlayan unikal xüsusiyyətlərin daşıyıcılarıdır. Ölkəmizdə müxtəlif dinlərə, millətlərə, etnik azlıqlara məxsus xalqlar sülh və əmin-amanlıq şəraitində yaşayırlar. Dövlət onlara öz adət-ənənələrini, dillərini qoruyub saxlamaq üçün bütün şəraiti yaratmışdır. Etnik azlıqlara da tam bərabər mədəni hüquqlar və ölkənin mədəni irsindən istifadə hüququ verilmişdir.

Son illərdə Bakıda keçirilmiş Bakı Beynəlxalq Humanitar forumları müxtəlif ölkələrin dövlət siyasətində multikulturalizmin mövqe və imkanlarının bir daha təhlilinə, etnik və mədəni özünüdərk arasında azad seçimin təmin olunmasına, azadlıq, bərabərlik və dözümlülük kimi təməl dəyərlərin cəmiyyətdə bərqərar olmasına yönələn dünya miqyaslı tədbirlər olaraq, dünyanın ən yeni tarixinə əhəmiyyətli hadisə kimi daxil olmuşdur. Bütün bu nailiyyətlərin əldə olunmasında, bəşəriyyət üçün müstəsna əhəmiyyət kəsb edən bu cür təşəbbüslərin irəli sürülməsi və uğurla reallaş-

masında, şübhəsiz ki, Azərbaycan Prezidenti İlham Əliyevlə yanaşı, Mehriban xanım Əliyevanın da müstəsna xidmətləri vardır.

Heydər Əliyev Fondunun tarixi, mədəni və dini irsin qorunmasına xidmət edən layihələri Azərbaycanın sərhədləri ilə məhdudlaşmır. Artıq on ildən çoxdur ki, Fondun dəstəyi ilə Vatikanda mühüm tarixi əhəmiyyət daşıyan dini abidələr bərpa edilir. Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın nəcib təşəbbüsü ilə Vatikanda bu istiqamətdə əməkdaşlığın növbəti mərhələsinin icrasına başlanılıb. Heydər Əliyev Fondu və Müqəddəs Taxt-Tacın Müqəddəs Arxeologiya Şurası arasında Müqəddəs Komodilya katakombalarının bərpasına dair yeni əməkdaşlıq müqaviləsi imzalanıb (25).

2020-ci ildə Heydər Əliyev Fondu Vatikanda Müqəddəs Pyotr Kilsəsində "Roma Papası I Leon ilə Hun imperatoru Atillanın görüşü" barelyefini bərpa edib (24). Heydər Əliyev Fondunun dəstəyi ilə Müqəddəs Sebastian katakombalarının bərpası işlərinə 2016-cı ildə başlanılıb. 2018-ci il sentyabrın 26-da Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva katakombaların açılışı mərasimində iştirak edib. Hazırda muzeydə Heydər Əliyev Fondunun dəstəyi ilə restavrasiya olunmuş 150 sarkofaq və ya onların fraqmentlərindən ibarət eksponatlar nümayiş olunur. Yer altında dörd mərtəbədən ibarət katakombada isə Fondun dəstəyi ilə restavrasiya olunmuş, eramızın IV əsrinə aid sarkofaq və barelyeflər yerləşir. İncildən səhnələrin yer aldığı barelyef erkən xristianlıq dövrü üçün mühüm abidələrdən sayılır.

Eyni zamanda, Roma şəhərində 60-dan çox katakomba mövcud olmasına baxmayaraq, onlardan cəmi bir neçəsi ictimaiyyət üçün açıqdır. Heydər Əliyev Fondunun dəstəyi ilə aparılan işlər dini və mədəni irsin qorunub saxlanmasında mühüm əhəmiyyət daşıyır. Ümumi uzunluğu yeddi kilometrə çatan Komodilla katakombalarının tarixi eramızın 4-cü əsrinə gedib çatsa da, onlar XV əsrdə yenidən aşkarlanıb və qazıntı işləri XX əsrdə aparıldı. Qəza vəziyyətində olan katakombaların tavan hissəsinin konservasiyası işlərində Heydər Əliyev Fondunun dəstəyi ilə müasir texnologiyalardan istifadə edilir (25).

Heydər Əliyev Fondu davamlı olaraq Azərbaycanın dünyada təbliğ edilməsi məqsədilə müxtəlif tədbirlər keçirmişdir. Fondun "Qafqazın mirvarisi olan Azərbaycanın mədəni dəyərləri" adlı layihəsi çərçivəsində Avropanın bir çox dövlətlərində sərgilər keçirilib. Sərgilərdə milli geyimlərimiz, qədim misgərlik nümunələrimiz, milli musiqi alətlərimiz, Azərbaycan xalçaçılıq məktəbinin bütün istiqamətləri, yaşı yüz illərlə ölçülən xalça və xalça məmulatlarının geniş çeşidi nümayiş etdirilib, Heydər Əliyev Fondunun müxtəlif nəşrləri təqdim olunmuşdur. "Azərbaycan: ənənədən müasirliyə" mövzusunda keçirilən sərgilərdə isə arxeoloji nümunələr, qədim və orta əsrlərdə Azərbaycanda istifadə olunmuş pul sikkələri, zərgərlik məmulatları, mis qablar və dulusçuluq nümunələri, qədim qadın və kişi geyimləri, milli musiqi alətləri, tikmələr və xalça məmulatları nümayiş etdirilmişdir (18).

Qeyd etmək lazımdır ki, Heydər Əliyev Fondu Azərbaycan mədəniyyətini dünya miqyasında tanıdılması istiqamətində mütəşəkkil, sistemli, təşkilatlanmış, müasir dövrün çağırışlarına uyğun, ən əsası, qlobal miqyasda həyata keçirən ilk ictimai təşkilatdır. Qısa müddət ərzində mədəniyyət diplomatiyasına və mədəniyyətlərarası dialoqa töhfələr verən fond Qafqazda və keçmiş sovet məkanında analoqu olmayan multikultural layihələri ilə dünyada tanınmışdır. Bununla yanaşı, Heydər Əliyev Fondu Azərbaycan mədəniyyətinin geniş təbliği, ölkəmizin beynəlxalq nüfuzunun artırılmasına yardım göstərilməsi, ölkə həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması, xarici ölkələrin təhsil müəssisələri, QHT-ləri, digər fond və təşkilatları ilə əməkdaşlığın inkişafı, beynəlxalq konfranslar və seminarların təşkili, elmi və təhsil mübadilələrinin reallaşdırılması və digər bu kimi səmərəli yollarla həyata keçirir. Bu baxımdan, Azərbaycanın YUNESKO ilə əməkdaşlığının möhkəmlənməsində Heydər

Əliyev Fondunun fəaliyyət istiqamətləri çoxşaxəlidir, ölkəmizin beynəlxalq əlaqələrinin genişlənməsində müstəsna rol oynayır. Son 17 il ərzində Fondun bilavasitə təşəbbüsü və təşkilatçılığı ilə Beynəlxalq Millətlər Təşkilatı, İslam Əməkdaşlıq Təşkilatı və digər nüfuzlu qurumların savadsızlığın aradan qaldırılmasına, gender bərabərliyinə, milli-mədəni müxtəlifliyin, habelə uşaq hüquqlarının qorunmasına, sivilizasiyalararası dialoqun genişləndirilməsinə, etnik, dini, irqi ayrıseçkiliyin aradan qaldırılmasına həsr olunmuş tədbirlərin məhz Bakıda keçirilməsi buna əyani sübutdur.

**Ədəbiyyat:**


1. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Parisdə YUNESKO Baş Konfransının 38-ci sessiyasının Liderlər Forumunda çıxışı. “Azərbaycan” qəz., Bakı, 2015, 19 noyabr.
2. Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın “The Business Year” jurnalına müsahibəsi. “Azərbaycan” qəz., Bakı, 2014, 15 may.
3. Əfəndiyeva, G.E. “YUNESKO təcrübəsində milli azlıqların və miqrantların problemləri” //Ombudsmanların IX Bakı Beynəlxalq Konfransının Materialları, 2011, 16 iyun, Bakı: – 2011. – s.185.
4. Heydər Əliyev Azərbaycanı dünyaya tanıdır / tərtibçi - Şükürov İ. Bakı: – 1994, – 175 s.
5. Heydər Əliyev Fondu. 2004-2014. Bakı: – 2014. – 472 s.
6. Humanizm və xeyirxahlıq missiyası / tərt. Hüseynov S.; elmi red. Eyvazova S. Bakı: Nurlan, – 2007. – 175 s.
7. Hüseynov, S. Azərbaycanda dini tolerantlıq mədəniyyəti: tarix və müasirlik. Bakı: Təknur, – 2012. – 176 s.
8. Xoşməramlı səfir. IV kitab /tərt.Əliyev Ə.; elmi red. Əliyev Q. M. Bakı: ŞƏMS, – 2007. – 212 s.
9. Xoşməramlı səfir. I kitab /tərt. Paşayev H.: Qasımov A.; elmi red. Hüseynova İ., Qasımov A. Bakı: ŞƏMS, 2005. – 192 s.
10. Quliyeva, S.Z. “İslam Mədəniyyətinin Paytaxtları” layihəsi barədə / Bakı İslam mədəniyyətinin paytaxtıdır Beynəlxalq konfransın tezisləri. Milli Azərbaycan tarixi muzeyi, 9-10 noyabr 2009. “Elm və Təhsil”, 2009, s.10-12.
11. Məlikova, N.A. BMT strukturalarında Azərbaycan diplomatiyasının xüsusiyyətləri. Bakı: – 2007. – 147 s.
12. Məmmədəliyeva, S.Y. Mədəniyyətimizin və mədəni incilərimizin hamisi. Bakı: Nurlar, – 2007. – 424 s.
13. Фонд Гейдара Алиева – основа успехов. Интервью первой леди Азербайджана Мехрибан Алиевой журналу “The Business Year” // Газ., “Бакинский рабочий”, Баку, 2014, 15 мая.
14. “Azərbaycan”, qəz., Bakı, 2009, 12 may.
15. http://www.heydar-aliyev.org
16. http://www.president.az
17. http://www.mehriban-aliyeva.org/ru/
18. http://www.heydar-aliyev-foundation.org
19. http://www.heydar-aliyev-foundation.org/en/content/view/139/2932/
20. http://www.heydar-aliyev-foundation.org/en/content/view/136/93/
21. http://www.heydar-aliyev-foundation.org/en/content/view/61/3285/
22. http://www.heydar-aliyev-foundation.org/en/content/view/60/4208/
23. http://www.senatepublishing.co.uk/media/1108/discover-azerbaijan-2015.pdf
24. https://heydar-aliyevfoundation.org/az/content/view/73/5038/Heydər-Əliyev-Fondu-Vatikanda-Müqəddəs-Pyotr-Kilsəsində-“Roma-Papası-I-Leon-ilə-Hun-imperatoru-Atillanın-görüşü”-barelyefini-bərpa-edib-
25. https://azertag.az/xeber/1727265

***Açar sözlər:*** *Azərbaycan Respublikası, Heydər Əliyev Fondu, beynəlxalq mədəni əlaqələr, mədəniyyətlərarası dialoq, əməkdaşlıq*

**Vugar Amrullayev**
*Master's student on the profession of "Civil service organization and management"*
*at the Institute for Advanced Training of Senior Public Officials*
*of the Academy of Public Administration under the President of the Republic of Azerbaijan*

## ACTIVITIES OF HEYDAR ALIYEV FOUNDATION IN THE EXPANSION OF AZERBAIJAN'S INTERNATIONAL RELATIONS

### SUMMARY

The paper elaborates on the activities of the Heydar Aliyev Foundation in the expansion of Azerbaijan's international relations. It also explores First Vice-President of Azerbaijan, President of the Heydar Aliyev Foundation, Mehriban Aliyeva's role in the development of Azerbaijan's international cultural relations. Along with analyzing the activities of the Heydar Aliyev Foundation, the article notes that since its establishment, the Foundation has adhered to its principles and implemented various projects in the spheres of education, health, culture, sports, science and technology, environment, social and other fields. With its programs, projects and charitable activities, the Foundation has achieved remarkable successes both in Azerbaijan and abroad. Moreover, the article highlights the role of the Heydar Aliyev Foundation in conveying Azerbaijan's cultural heritage to the world community. It also analyzes the Foundation's activities in the field of culture and elaborates its important role in raising the world community's awareness about the Azerbaijani culture. The article deals with Azerbaijan's initiatives in the field of inter-civilizational and intercultural dialogue, as well as international events hosted by the country.

***Keywords:*** *The Republic of Azerbaijan, Heydar Aliyev Foundation, international cultural relations, intercultural dialogue, cooperation*

**Вугар Амруллаев**
*Магистрант Института повышения квалификации ведущих сотрудников государственного управления Академии Государственного Управления при Президенте Азербайджанской Республики*

## ДЕЯТЕЛЬНОСТЬ ФОНДА ГЕЙДАРА АЛИЕВА В РАСШИРЕНИИ МЕЖДУНАРОДНЫХ СВЯЗЕЙ АЗЕРБАЙДЖАНА

### РЕЗЮМЕ

В статье широко исследуется деятельность Фонда Гейдара Алиева в расширении международных связей Азербайджана, анализируется роль Первого Вице-Президента Азербайджанской Республики, Президента Фонда Гейдара Алиева Мехрибан Алиевой в развитии международных связей Азербайджана в области культуры. Наряду с анализом деятельности Фонда Гейдара Алиева Азербайджана, указывается, что с начала деятельности и по настоящее время Фонд, оставаясь верным своим принципам, реализовал различные проекты в области образования, здравоохранения, культуры, спорта, науки и технологий, экологии и других сферах. Своими программами, проектами, благотворительной деятель-ностью Фонд достиг больших успехов в Азербайджане и за рубежом.

Помимо этого, в статье проводится широкий анализ роли Фонда Гейдара Алиева в ознакомлении мировой общественности с культурным наследием Азербайджана, а также направлений деятельности Фонда и его важная роль в распространении в мире культурного наследия Азербайджана. Исследуются и инициативы Азербайджана в области межциви-лизационного и межкультурного диалога, проведенные международные мероприятия.

***Ключевые слова:*** *Азербайджанская Республика, Фонд Гейдара Алиева, международные культурные связи, межкультурный диалог, сотрудничество*

## G Ə N C  T Ə D Q İ Q A T Ç I L A R
## Y O U N G  R E S E A R C H E R S

## B E Y N Ə L X A L Q  M Ü N A S İ B Ə T L Ə R
## I N T E R N A T I O N A L  R E L A T I O N S

UOT 327:140.8

**NURƏDDİN MEHDİYEV**
**Azərbaycan Respublikasının Prezidenti yanında**
**Dövlət İdarəçilik Akademiyasının dissertantı**
*e-mail: nuraddin_mehdiyev@yahoo.com*

# İKİNCİ QARABAĞ SAVAŞINDA İNFORMASİYA MÜHARİBƏSİ

Məqalənin məqsədi, İkinci Qarabağ Savaşı ərəfəsində beynəlxalq aləmdə Azərbaycan və Türkiyəyə qarşı aparılan informasiya müharibəsini, informasiya təxribatlarını, onların xarakteri və təhlükələrini, Azərbaycan və Türkiyəyə qarşı aparılan informasiya müharibəsində fəal olan ölkələr və onların media qurumlarını ortaya qoymaq və təhlil etməkdir. Bu informasiya müharibəsində Azərbaycan və Türkiyənin birgə əməkdaşlığı, Prezident İlham Əliyevin beynəlxalq media qurumlarına verdiyi müsahibələri, Azərbaycanın Ermənistana qarşı informasiya müharibəsindən əldə etdiyi uğurlar diqqətə çatdırılır. Məqalənin sonunda beynəlxalq aləmdə Azərbaycan və Türkiyəyə qarşı aparılan informasiya müharibəsinin təhlilindən əldə olunan nəticələr ortaya qoyulur və bir çox tövsiyələr irəli sürülür. Məqalədə analiz, sintez, analogiya və müqayisəli təhlil metodlarından istifadə olunaraq, İkinci Qarabağ Savaşı ərəfəsində beynəlxalq aləmdə aparılan informasiya müharibəsinin xarakteri və mahiyyəti müəyyənləşdirilmişdir. Məqalənin orijinallığı və yeniliyi bundan ibarətdir.

İkinci Qarabağ savaşında Türkiyə öz siyasi və mənəvi dəstəyi ilə Azərbaycanın yanında oldu. Türkiyənin aparıcı TV kanalları, mətbuat orqanları Azərbaycanda, Qarabağda baş verən hadisələri öz jurnalistləri vasitəsilə birbaşa yayım etdi və Qarabağ savaşı ictimai müzakirə obyekti oldu. Türkiyənin dövlət və xalq səviyyəsində hərtərəfli dəstəyi, xalqın milli ruhunun oyanışında və Azərbaycanın hərbi nailiyyətlərində mühüm rol oynadı. Pakistan və Əfqanıstan kimi müsəlman ölkələrinin Azərbaycanın yanında olması, Azərbaycan dövlətində və ordusunda özünəgüvən hissini artırdı. Azərbaycanın ona dəstək verən ölkələrlə mənəvi bağlarının güclənməsində İKT-nın böyük əhəmiyyəti oldu. İnsanlar sosial şəbəkələr vasitəsilə onlara verilən dəstəyi yaxından hiss etdilər.

Sosial şəbəkələrdə Azərbaycana qarşı yönələn informasiya təxribatları da geniş yayıldı. Ermənistanın mövqeyini ifadə edən və onların mövqeyindən çıxış edən dezinformasiyalar Ermənistan, Rusiya və Qərb ölkələrinin KİV-ləri vasitəsilə geniş yayılmağa başladı. Bu cür məlumatlar sosial şəbəkələr vasitəsilə əhali arasında yayılır və hərbi əməliyyatların gedişatına mənfi təsir göstərirdi. Buna görə, Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi ölkə üzrə internetin verilişində bir sıra məhdudiyyətlər tətbiq etdi və Diasporla İş üzrə Dövlət Komitəsi xaricdəki həmyerlilərimizi elektron media, sosial şəbəkə və digər KİV-də qeyri-rəsmi informasiyalara qarşı ehtiyatlı olmalarına çağırdı.

İkinci Qarabağ Müharibəsində Azərbaycanın KİV-ri Ermənistanın və onların havadarlarının informasiya təxribatlarına qarşı yalnız müdafiə mövqeyində deyil, həm də hücum mövqeyində dayandı. İlk növbədə Ali Baş

Komandan İlham Əliyevin nüfuzlu beynəlxalq informasiya qurumlarına verdiyi müsahibələr bu istiqamətdə əsas aparıcı rolu oynadı. Eyni zamanda, Azərbaycan Xarici İşlər naziri Ceyhun Bayramov, Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev və digər rəsmi şəxslər informasiya təxri-batlarına qarşı fəal mübarizə apardılar. Hikmət Hacıyevin xarici jurnalistlərlə mütəmadi əlaqə saxlaması və davamlı mətbuat konfranslarının keçirilməsi mühüm əhəmiyyət kəsb edirdi.

Azərbaycanın informasiya blokadasından çıxmaqda və həqiqətlərin dünyaya yayılmasında Türkiyə KİV-nin rolu əsas oldu. Türkiyənin bir çox tanınmış və dövlət KİV-ləri hadisələri birbaşa olaraq canlı şəkildə təqdim etdi və Qarabağ mövzusu bu telekanalların saatlarla davam edən əsas müzakirə mövzusu oldu. Türkiyə KİV-nin informsiya siyasətində Azərbaycanın yanında olması və onu canlı işıqlandırması, Azərbaycanın səsinin böyük bir coğrafiyaya yayılmasına, beynəlxalq ictimaiyyətin diqqətinə çatdırılmasına və azərbaycanlıların milli ruhunun yüksəlməsinə səbəb oldu.

Prezident İlham Əliyev Azərbaycana qarşı yönələn informasiya müharibəsinin qarşısını almaq və onlara qarşı arqumentlərlə çıxış etmək üçün aşağıdakı beynəlxalq KİV-nə müsahibələr vermişdir:

• Rusiya – İnterfaks agentliyi; TASS informasiya agentliyi; “Ria Novosti” agentliyi (Rossiya Seqodnya – beynəlxalq informasiya agentliyi); RBK TV; “Pervıy kanal”; “Rossiya - 1” TV; “Rossiya - 24” TV.

• Türkiyə - “A Haber” TV; NTV TV; “Haber Türk” TV; “Haber Global” TV; CNN TV; “TRT Haber” TV.

• Fransa - “Figaro” qəzeti; “France 24” TV; “Euronews” TV.

• ABŞ – “Fox News”; “CNN İnternational” TV.

• İtaliya – “La Repubblica” qəzeti; Rai-1 TV.

• Ərəb ölkələri – “Əl-Ərəbiyyə” TV; “Əl-Cəzirə” TV.

• Böyük Britaniya – “BBC News”; “Sky News”

• Almaniya – ARD televiziya kanalı

• İspaniya – EFE informasiya agentliyi.

• Yaponiya – “Nikkei” qəzeti

Ali Baş Komandan İlham Əliyevin Ermənistanın və onların havadarlarının informasiya təxribatlarına qarşı gətirdiyi güclü məntiqi arqumentlər, uydurulan təxribatların yalan olduğunu ortaya qoydu. O, daha çox Rusiya KİV-lərinə müsahibə verdi. Çünki adları çəkilən Rusiya KİV-ləri daha çox təxribatla məşğul olurdular. Azərbaycana qarşı informasiya müharibəsində ikinci yerdə Fransa KİV-ləri dayanırdı. Buna görə də, Ali Baş Komandan İlham Əliyev Rusiyadan sonra daha çox Fransa KİV-nə müsahibə vermişdir. Türkiyə KİV-lərinə verilən müsahibələr informasiya blokadasını sındırmaq və dünyaya daha geniş mesajlar göndərmək məqsədini daşıyırdı. Bu baxımdan, informasiya müharibəsində Azərbaycanla bir cərgədə düşmənlərə qarşı vuraşan ölkə Türkiyə oldu. Maraqlıdır ki, Ermənistanın Azərbaycana qarşı istifadə etdikləri bütün informasiya təxribatları eynilə, Rusiya, Qərb mediası tərəfindən səsləndirildi. Hətta, onların jurnalistlərinin Ali Baş Komandana verdiyi təxribat xarakterli suallar da eyni idi. Halbuki, Ali Baş Komandanın bu suallara verdiyi cavablar kifayət edirdi ki, onu digər jurnalistlər öz müsahibələrində səsləndirməsinlər. Lakin, bu sualların təkidlə təkrarlanması, sanki bir psixoloji təhdid və barışmazlıq əlaməti idi.

Ermənistana qarşı infomasiya müharibəsində azərbaycanlı hakerlər mühüm rol oynadı. Müharibə ərəfəsində Azərbaycan hakerləri aşağıdakı nailiyyətlərə imza atdılar:

- Erməni saytları sındırılaraq Prezident İlham Əliyevin səsləndirdiyi "Qarabağ Azərbaycandır və Nida işarəsi", həmçinin "Əgər erməni əsgəri ölmək istəmirsə rədd olsun Azərbaycan torpağından" fikirləri və Milli Qəhrəman Mübariz İbrahimovun fotoları yerləşdirildi.

- Məşhur xəbər və video portallarının da yer aldığı 90 erməni saytı sındırıldı.

- Ermənistanın dövlət strukturlarına aid bir çox məxfi sənədlər (Ermənistanın Prezidenti, DTX və XİN-nə aid olan) ələ keçirildi (27 sentyabr 2020-ci il).

- Ermənistan silahlı qüvvələrinə məxsus 10 GB həcmində məxfi sənədlər ələ keçirildi (29 sentyabr 2020-ci ildə “Anti-armenia Team haker qrupu” tərəfindən).

- Ermənistanın Yüksək Texnologiyalar naziri Hakob Arshakyana məxsus kompüter materialları ələ keçirildi (3 oktyabr 2020-ci ildə “Anti-armenia Team haker qrupu” tərəfindən).

- Ermənistan hökumətinin 50 TB həcmində elektron sənəd dövriyəsi sistemi sındırıldı (“Karabakh Hacking Team qrupu” tərəfindən).

- Ermənistanın məşhur restoranlar şəbəkəsinin kameraları ələ keçirilərək, Prezident İlham Əliyevin çıxışı yayımlandı (30 sentyabr 2020-ci il) [1].

İkinci Qarabağ savaşı ərəfəsində, həmçinin, savaşdan sonrakı mərhələdə Ermənistan və onlara havadarlıq edən digər ölkələr tərəfindən Azərbaycana və Türkiyəyə qarşı genişmiqyaslı informasiya müharibəsi həyata keçirilmişdir. Bu informasiya təxribatlarının əsas hədəfləri aşağıdakılar olmuşdur:

- İkinci Qarabağ savaşında meydana çıxan milli birliyi pozmaq və xalq-dövlət-ordu birliyində təcəssüm olunan milli iradəni sındırmaq;

- İkinci Qarabağ savaşında milli liderə çevrilən və beynəlxalq KİV-lərə verdiyi müsahibələri ilə Azərbaycana qarşı olan informasiya müharibəsini zərərsizləşdirən Ali Baş Komandanın şəxsiyyətini və siyasətini gözdən salmaq;

- Azərbaycan ordusunun hərbi nailiyyətlərinin səbəbini, güya orduya dəstək verən Türkiyə zabitlərinin və Suriyadan gətirilən terrorçuların adı ilə bağlamaq;

- Azərbaycan ordusunda vuruşan əsgərlərin əsasən etnik azlıqlardan təşkil olunduğunu diqqətə çatdırmaq və ölkədə etnik separatçılığa şərait yaratmaq;

- Azərbaycan ordusunda kütləvi qırğınların baş verdiyini və dövlətin bunu gizlətdiyini Azərbaycan cəmiyyətinin diqqətinə çatdırmaq;

- Azərbaycan və Türkiyə birliyinə kölgə salmaq məqsədilə Azərbaycanın Türkiyə tərəfindən işğal olunduğunu və onun vassalına çevrildiyini diqqətə çatdırmaq;

- İkinci Qarabağ savaşını müsəlmanların xristian Ermənistana qarşı dini zəmində soyqırımı etdiklərini xristian aləminin diqqətinə çatdırmaq;

- Azərbaycan ordusunun türklərlə birgə mülki erməni əhaliyə qarşı soyqırımı etdiklərini, 1915-ci soyqırmı planlarının təkrar olunduğunu, mülki ermənilərin evlərini, kilsələrini borbardman etdiklərini beynəlxalq aləmin diqqətinə çatdırmaq;

- Türkiyənin Cənubi Qafqaza daxil olaraq, Rusiyanı bölgədən kənarlaşdırmaq və sonra Rusiyanın daxilindəki türk etnik kimliyini qıcıqlandırmaqla Rusiyanı parçalamaq planlarının olduğunu Rusiyanın diqqətinə çatdırmaq və bölgədə Rusiya-Türkiyə qarşıdurması yaratmaq;

- Türkiyənin Cənubi Qafqaza daxil olma planının Böyük Britaniyanın geosiyasi planı olduğunu bildirmək;

- R.T. Ərdoğanın regionda bir çox dövlətlərin məhvi hesabına (xüsusilə, Rusiya, İran və Çin) Böyük Turan dövləti yaratmaq istədiyini diqqətə çatdırmaq;

- Guya Azərbaycana gələn terrorçuların Şimali Qafqazda təxribatlar törətməsini və Rusiyanın içinə irəliləməsini Rusiyanın diqqətinə çatdırmaq.

Ermənistanın apardığı bu və ya digər informasiya təxribatlarının əsas məğzi ondan ibarətdir ki, Minsk qrupuna daxil olan həmsədr ölkələr Azərbaycan ordusunun qarşısını alsınlar və onlara Qarabağın azad olunmasına imkan verməsinlər. Paşinyan hökuməti, Azərbaycanda güclənən milli birliyi sındırmağa, Rusiya ilə Türkiyəni bölgədə toqquşdurmağa, bölgəni müxtəlif dövlətlərin geosiyasi maraqlarının hərbi çatışma meydanına çevirməyə cəhd edirdi. Lakin, Ermənistan hökuməti informasiya müharibəsində qarşıya qoyduğu hədəflərə çata bilmədi. Lakin, onu nəzərə almaq lazımdır ki, Ermənistan Qarabağ savaşında məğlub olsa da, indən sonra Azərbaycana qarşı informasiya müharibəsində qalib gəlmək üçün, bütün imkanlarını (xarici diasporların geniş əlaqələri və maliyyəsi) səfərbər etməyə çalışacaqdır.

Ermənilərin müharibə ərəfəsində etdikləri və ya etməyə cəhd etdikləri təxribatları aşağıdakı kimi səciyyələndirmək olar:

1. Erməni hakerləri müxtəlif illərdə keçirilmiş seçkilərdə, elektron formada açıq şəkildə yerləşdirilmiş azərbaycanlı seçici siyahılarından istifadə etməklə saxta şəhid siyahıları hazırlayaraq yaydılar [2].

2. Müharibə zonasından video və fotolar çəkilərək onlara göndərilməsi məqsədilə Azərbaycandan olan bir qrup jurnalist və blogerlərə Avropa ölkələrinin mobil operatorlarına məxsus nömrələrdən, "WhatsApp" üzərindən "iş təklifi" bəhanəsi ilə mesajlar daxil oldu [3].

3. Ermənistan MN-nin mətbuat katibi Arçrun Ovanesyan "Facebook"da yazıb ki, guya Azərbaycan ordusuna məxsus yanacaq-sürtkü materialları bazası partladılıb və bazanın yaxınlığında olan kazarmada olan 200-dən çox hərbçi vəfat edibdir [4].

4. Azərbaycanlı tik-tok fenomeni Məhəmməd Dənizin şəkili paylaşılaraq onun Azərbaycan tərəfində vuruşan suriyalı döyüşçü olduğu bildirilib [5].

İkinci Qarabağ Müharibəsində Azərbaycana qarşı aparılan informasiya müharibəsində fəal rol oynayan ölkələrə Rusiya və bir çox Qərb dövlətlərini aid etmək olar. Onların KİV-də və internetdə yayıdıqları feyklərin əsas istiqamətləri aşağıdakılardan ibarət olmuşdur:

Qərbdə nəşr olunan və yayımlanan informasiyalarda bəzi anti-azərbaycan təxribatları:

1. Britaniyanın "Express" qəzeti, "Finanical Times" qəzeti, "Guardian" qəzeti , "Foreign Policy" jurnalının saytında dərc edilən məqalələrdə, Qarabağ döyüşlərində Türkiyənin iştirak etdiyi bildirilir [6].

2. "The National Catholic Register" adlı katoliklərə məxsus media orqanında Roma Papası Fransiskin sevimli yazarlarından olan Victor Gaetanın çap olunan "Mütəxəssislər: Ermənistan-Azərbaycan münaqişəsi əslində müharibə adı altında xristian soyqırımıdır" (Armenia-Azerbaijan Conflict Is Christian Genocide Under the Pretext of War) adlı məqaləsində Arsaxın müstəqil erməni dövləti olduğunu, 1915-ci ildə olduğu kimi Türkiyənin dəstəyi ilə Azərbaycanın oradakı qədim xristian milləti olan erməniləri qırdığını və onların ərazilərini işğal etdiyini, yenidən Osmanlı dövlətinin qurulduğunu bildirir [7].

Rusiyada nəşr olunan və yayımlanan informasiyalarda bəzi anti-azərbaycan təxribatları:

1. Rusiyanın "Rosiya 1", NTV, "Perviy kanal" və digər televiziya kanallarında olan siyasi debat verilişlərində Azərbaycan və Türkiyənin ünvanına hər gün bir neçə dəfə təxribat xarakterli məlumatlar yayıblar. Xüsusilə, Vladimir Solovyovun və Roman Babayanın verilişlərində bu özünü daha qabarıq şəkildə biruzə vermişdir.

2. Semyon Peqov adlı rusiyalı jurnalist "Telegram" sosial şəbəkəsində "WAR GONZO" adlı kanalında çox təhlükəli, qeyri-obyektiv və təxribat xarakterli informasiyalar yayıbdır. O, Gəncədə ermənilərin törətdiyi hərbi cinayətdə yaralanan azyaşlını guya Xankəndində "yaralanan uşaq" kimi təqdim edib, Xankəndində açılışı edilməyən doğum evinin Azərbaycan ordusu tərəfindən vurulması kimi dezinformasiya yayıbdır [8].

3. "Komsomolskaya pravda" qəzetinin müxbiri Aleksandr Kost "Kostnwes" adlı "Telegram" səhifəsində ermənilərin Azərbaycana qarşı apardığı informasiya müharibəsinə dəstək olubdur [8].

4. "Komsomolskaya Pravda" nəşrində dərc edilən məqalədə bildirilir ki, guya Azərbaycan Ordusu humanitar atəşkəs rejimini pozaraq Xankəndinə böyük dağıntılara və ölümlərə səbəb olan raket zərbələri endiribdir. Təqdim edilən foto və videolar isə, Gəncə şəhərinə atılan raket zərbələrindən sonra yaranan görüntülər olmuşdur [9].

Azərbaycana qarşı yönələn informasiya təxribatlarına verilən cavablar aşağıdakı kimi olmuşdur:

**1. Qarabağda döyüşmək üçün Suriyadan terrorçu qrupların gətirilməsi yalanı.**

Rusiya və bir çox Qərb dövlətlərinin KİV-lərində Qarabağda Suriyadan gətirilən terrorçuların olmasını bəhanə edirdilər. Yəni, onlar, bununla demək istəyirdilər ki, Suriyada Bəşər Əsəd rejiminə qarşı savaşan terrorçu

suriyalıların bir qismi R.T.Ərdoğanın təlimatı altında Qarabağa savaşmağa gəliblər. İranın Suriyada Rusiya ilə birgə həmin qruplara qarşı savaşdığı da məlumdur. İranın ideoloji aparatının təmsilçiləri sosial şəbəkələrdə belə feyklər yayırdılar ki, guya Suriyadan Qarabağa radikal sünnülər, vəhhabilər gətirilir və onların mövqeyi Azərbaycanda güclənir. Bu Türkiyə siyasətinin məqsədyönlü planıdır. Güya bununla Türkiyə Azərbaycanda şiəliyə son qoymaq və sünnülüyü gücləndirmək məqsədi daşıyır. Bundan çıxış edərək, Azərbaycan şiələrinə çatdırmaq istəyirdilər ki, onlar, bölgədə Türkiyənin güclənməsinə yol verməsinlər. Yəni, dolayı yolla İran təbliğatının əsasında dayanan o idi ki, Azərbaycan şiələri Ermənistana qarşı deyil, Türkiyəyə qarşı savaşsınlar və etriaz səslərini çıxarsınlar. Bu feyklər, Azərbaycanın Qarabağ savaşına qarşı yönələn birbaşa təhlükə idi.

Azərbaycan mətbuatında Rusiyanın İran üzərindən Ermənistana silah-sursat daşınması barədə rəsmi məlumat yayıldı. Hətta, bunun dəlilləri də mətbuata təqdim olundu. Bununla yanaşı, İran tərəfindən Ermənistana silah daşınması barədə məlumatlar ortaya çıxdı. Hətta, bunlar, İran türklərinin İran-Ermənistan sərhədində həmin silah-sursat yüklərinə hücum edərək onları yandırmaları haqqındakı məlumatlarda öz təsdiqini tapdı. İran Xarici İşlər Nazirliyi bu iddiaları rədd etsə də (29 sentyabr 2020-ci il), yerli mətbuat hərbi yüklərin İrandan Ermənistana daşındığını sübut edən videogörüntüləri yaydı. Bu videogörüntülər sosial şəbəkələrdə geniş yayıldı və müharibə şəraitində olan azərbaycanlıların İran rejiminə qarşı çox mənfi emosiyaların formalaşmasına səbəb oldu. Hətta, bu cür emosiyalar İranda yaşayan çoxsaylı həmyerlilərimizin etirazlarına şərait yaratdı. İran hökuməti bu etirazların artmasından qorxaraq, Azərbaycanın mövqeyini dəstəkləyən bəyanatlar səsləndirməyə başladı.

Rusiya Xarici Kəşfiyyat idarəsinin rəisi Sergey Narışkin Azərbaycanda terrorçuların olması barədə bəyanat səsləndirdi. O, əvvəl də Yaxın Şərqdən, xüsusən Suriyadan terrorçuların olması və Türkiyə kəşfiyyatının Dağlıq Qarabağdakı hadisələrdə iştirak etdiyini söylədi: "Suriyadan Qarabağa köçürülmüş terrorçuların fəaliyyətlərilə bağlı informasiyaları bir qrup ölkədən, müxtəlif qaynaqlardan, öz şəriklərimizdən və Yaxın Şərqdə Rusiya ilə əməkdaşlıq edən xidmətlərdən almışıq." [11].

İranın ali rəhbəri, ayətullah Əli Xameneyi də buna oxşar bəyanat verdi: "Ermənistan işğal olunmuş torpaqları Azərbaycana qaytarmalı və ermənilərin yaşadıqları ərazilərdə onların təhlükəsizliyi təmin edilməlidir. Beynəlxalq sərhədlərin pozulmasına yol verilməməlidir və terrorçular bizim sərhədlərimizin yaxınlığına gəlməməlidir" [10].

Azərbaycan DTX Rusiya rəsmilərinə belə faktların onlara təqdim edilməsini istədi. Lakin, belə faktlar ortaya çıxmadı. Bu, bir daha belə məlumatların yalnız KİV-lərdə yayılan feyklərdən başqa bir şey olmadığını ortaya qoydu. Fransa, Almaniya, ABŞ və digər Qərb ölkələrinin KİV-də belə məlumatlar yayıldı. Bu feyklərə ən tutarlı cavabları Ali Baş Komandan İlham Əliyev müxtəlif ölkələrin KİV-də verdiyi müsahibələrində çatdırdı.

Azərbaycan ordusunun hərbi nailiyyətlərinin səbəbini, guya orduya dəstək verən Türkiyə zabitlərinin və Suriyadan gətirilən terrorçuların adı ilə bağlamaq istəyənlərə Ali Baş Komandan İlham Əliyev tərəfindən tutarlı cavablar verilmişdir. O, ABŞ-ın "Fox News" televiziya kanalına müsahibə verərkən jurnalistin "Fransadan, Rusiyadan olan çoxsaylı mənbələr, həmçinin "New York Times"ın müstəqil jurnalistləri qətiyyətlə iddia edirlər ki, Türkiyə tərəfindən toplanmış və gətirilmiş yüzlərlə suriyalı silahlı Sizin müharibədə döyüşür. Niyə Sizin müharibədə - Azərbaycanda Türkiyənin dəstəklədiyi suriyalı silahlılar döyüşür?" sualına belə bir cavab veribdir:

"Bu, daha bir feyk xəbərdir. Mən təəssüf edirəm ki, Rusiya və Fransa, yeri gəlmişkən, açıq şəkildə buna münasibət bildirən yeganə ölkələr belə məsuliyyətsiz bəyanatlar verdilər. Mən sübutlar, dəlillər tələb etdim və hələ də tələb edirəm. Müharibə 20 gündən çoxdur ki, yenidən başlayıb, indiyədək nə Rusiya, nə də

Fransa tərəfindən bizə heç bir dəlil və ya sübut təqdim olunmayıb."

- Dəlil "New York Times"dadır. Sizi beş gün əvvəlki məqaləyə yönləndirə bilərəm. Orada deyilir ki, Azərbaycanda qətlə yetirilmiş 57 suriyalı döyüşçü Türkiyə sərhədinin o biri tərəfində geri qaytarılaraq Suriyada dəfn olunub. Ailələrinin hamısı təsdiqləyiblər ki, onlar Sizin ordunuzla birlikdə döyüşmək üçün Azərbaycana getmişdilər.

-Siz Prezident Trampın "New York Times"ı necə adlandırdığını bilirsiniz, xatırlayırsınız? Feyk xəbərlər. Bu, feyk xəbərdir. Heç bir dəlil, heç bir sübut yoxdur. Bizə dəlil verin, sadəcə....

- Maraqlıdır, Sizin yüz min əsgəriniz var. Suriyadan bir neçə qeyri-mütəşəkkil silahlı nəyinizə lazımdır?

- Bəli, tamamilə doğrudur.

- Sual olunur niyə?

- Bizim onlara ehtiyacımız yoxdur. Mən elə bu barədə danışıram. Nizami orduda 100 min əsgər, üstəgəl bir neçə gün ərzində biz bəlkə də bundan 3 dəfə çox əsgər cəlb edə bilərik, üstəgəl müasir avadanlıq. Bizim heç bir muzdluya əsla ehtiyacımız yoxdur. Bu, sadəcə, ölkəmizin nüfuzuna xələl gətirmək və döyüş meydanında əsgərlərimizin mərdliyinin əhəmiyyətini azaltmaq məqsədi daşıyan feyk xəbərdir." [12].

Azərbaycanın və Türkiyənin KİV-ləri terrorçularla bağlı Azərbaycana qarşı yönəldilən feyklərə qarşı Ermənistan tərəfindən iki minə yaxın PKK, ASALA terrorçularının savaşdığını açıq dəlillərlə ortaya qoydu. Onların İraq və Suriyadan Qarabağa yerləşdirilməsi ilə bağlı kəşfiyyat məlumatlarını türk mənbələri KİV-lərə ötürdü. Hikmət Hacıyev "beynəlxalq ictimaiyyətin Ermənistanın terrorçu qüvvələrini Azərbaycana qarşı istifadə etməsinə adekvat reaksiya verməli" olduğunu bəyan etdi (30 sentyabr 2020-ci il). Lakin, "Washington Post", "The Jerusalem Post" və digər KİV-lər bu məlumatların doğru olmadığını və bununla, Türkiyənin bəhanə axtardığını yazdılar. Halbuki, onlardan fərqli olaraq ortaya kəşfiyyat dəlilləri qoymuşdular.

Bundan əlavə Azərbaycan KİV-də bir çox dillərdə Qarabağa savaşmaq üçün, müxtəlif ölkələrdən qeyri-qanuni olaraq erməni əsilli şəxslərin erməni diasporunun çağırışları ilə beynəlxalq hüquq prinsiplərinə zidd olaraq gəldiyini və onlar arasında terrorçu qrupların olduğunu bildirdi. Həmçinin, onların Ermənistan vətəndaşı olmadıqlarını və yaşadıqları ölkənin vətəndaşları olduqları üçün qanunları pozduqlarını müvafiq ölkələrin (Livan, Suriya, Rusiya, Fransa, Latın Amerikası ölkələri və s.) diqqətinə çatdırdı. Bu məlumatlar faktoloji sənədlərlə təsdiq olundu (Suriya İnsan Haqları Monitorinq mərkəzi erməni əsilli suriyalıların Suriyadan Ermənistana aparıldığını təsdiqlədi). Bu məlumatlar həmin ölkələrin yerli mətbuatlarında və sosial şəbəkələrdə geniş yayıldı. Ancaq, bu ölkələrin hüquq-mühafizə orqanları bu ciddi qanun pozuntularına göz yumdu.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 2-də İtaliyanın "La Respublica" qəzetinə müsahibəsində deyib ki, "Bizdə əcnəbilərin Ermənistan tərəfindən döyüşdüyünə dair kifayət qədər dəlillər var. Onlar erməni əsilli olduqlarını deyirlər, lakin birincisi, bunun heç bir fərqi yoxdur. Çünki əgər əcnəbi vətəndaş bir ölkə tərəfindən digər ölkəyə qarşı döyüşürsə, o, muzdludur. Bundan əlavə, onların hamısının erməni olmasına dair bizdə 100 faiz dəlil yoxdur. Biz başqalarının olduğunu bilirik. Bilirik ki, PKK oradadır. Bilirik ki, Yaxın Şərqdən bəzi terrorçular qondarma "Dağlıq Qarabağ ordusu"na qoşulublar. Ona görə də, əfsuslar olsun ki, bu məsələ qətiyyən müzakirə mövzusu (out of picture) deyil. Bu, Azərbaycana qarşı qəsdən törədilmiş hücum barədə siyasi hücum təəssüratı yaradır. Bundan əlavə, ermənilərin bu yalan bəyanatdan sui-istifadə etmələrinin səbəbi odur ki, bizim onları döyüş meydanında məğlub etdiyimizi qəbul etmək onlar üçün yəqin ki, çox ağrılıdır." [13].

**2. Azərbaycan ordusunun savaşda mülki və dini obyektləri hədəf seçməsi yalanı.**

"Fox News" televiziya kanalının jurnalistinin Ali baş Komandana təxribat xarakterli

sualı belə olmuşdur: "Cənab Prezident, Sizin ordunuzun hədsiz dərəcədə mülki əraziləri, evləri, yaşayış məntəqələrini, mağazaları hədəfə alması ilə bağlı ittihamlara necə cavab verərdiniz? Hətta Sizin yüksək texnologiyalı silahlarınızla çox mühüm bir kilsə də vurulub, son həftələrdə minlərlə adam ölüb və ya yaralanıb."

Ali baş Komandanın cavabı: "Biz mülki şəxslərə hücum etmirik. Ermənistanın Gəncə şəhərinə qarşı onlarca adamın həlak olduğu ballistik raketlərlə törətdiyi amansız hücumundan, terror aktından sonra biz açıq şəkildə dedik ki, qisas alacağıq, lakin döyüş meydanında. Biz mülki şəxslərə hücum etmirik. Biz dini məkanlara hücum etmirik. Şuşada kilsədə baş verənlər ya səhv olub, - mən artıq buna açıq şəkildə münasibət bildirmişəm, - ya da bu, bizi günahlandırmaq üçün ermənilərin özləri tərəfindən törədilib." [12].

Prezident İlham Əliyevin Almaniyanın ARD televiziya kanalına müsahibəsində jurnalist belə bir sual vermişdir: "Gəlin, yenə Sizdən kasetli silahlarla bağlı soruşum. Çünki Sizin də bildiyiniz kimi bu, çox ciddi mövzudur. Mən "Human Rights Watch" təşkilatının araşdırmasına baxdım və sübut ondan ibarət idi ki, çox maraqlıdır, onların şəkilləri var idi, onlarda hətta silahın adı da var idi. Onların dediyinə görə, onun adı İsrail istehsalı olan LAR 160 kasetli bomba idi. Bu faktları həqiqətən də mübahisə predmetinə çevirirsiniz?"

- Bəli, əlbəttə ki. Bununla bağlı heç bir sübut yoxdur. Mən istərdim ki, onlar buraya gəlsinlər və o dəlilləri təqdim etsinlər. Eyni zamanda, Gəncəyə, Tərtərə, Bərdəyə getsinlər və ermənilərin hansı növ silahlardan istifadə etdiklərini görsünlər. Qərəzsiz olsunlar...

- Onlar burada silah tapsalar, Siz onların araşdırmasına güvənərsiniz?

- Onlar bunu etməlidirlər. Çünki onların "yox" demək imkanı yoxdur. Qoyun, onlar desinlər. Çünki bu vaxtadək "Human Rights Watch" və "Amnesty International" təşkilatları Azərbaycana qarşı çox aqressiv idi. Onlar heç vaxt Ermənistanda insan haqlarının pozulması ilə bağlı heç bir şərh verməyiblər. Ermənistan həbsxanasında jurnalist öləndə onlar sakit idilər. Ermənistanın əsas müxalifət partiyasının rəhbəri həbs edildikdə onlar səssiz idilər. Sabiq prezidentlərin məhkəmə işi gedəndə onlar səssiz idilər. Onlar görmək istəmirlər. Çünki onların təşkilatlarında erməni əsilli insanlar var və bu təşkilatlardan əsasən Azərbaycanın imicinə xələl gətirmək üçün istifadə olunur. Lakin buna baxmayaraq, biz onları dəvət etdik, qoyun, onlar gəlsinlər və gördüklərini desinlər." [14]

Almaniyanın ARD televiziya kanalının jurnalistinin Prezident İlham Əliyevinə növbəti sualı belədir:

- Necə olub ki, Dağlıq Qarabağda kilsəyə zərbə endirilib.

- Artıq qeyd etdiyim kimi, bu, ehtimal ki, bizim artilleriyanın səhvi olub və ya, ikinci variant o ola bilər ki, ermənilər bizi günahlandırmaq üçün bunu özləri ediblər.

- Xristianlar öz kilsələrinə atəş açıblar?

- Lakin bu, kiçik ziyan idi. Dağılmayıb. Siz oranın şəkillərini görmüsünüz? Kiçik ziyandır. Kilsə dağılmayıb. O, maksimum iki həftəyə təmir edilə bilər. Ona görə də, bizdə şübhə var ki, bu, bizi günahlandırmaq üçün onların özləri tərəfindən törədilmiş ola bilər. Bakıdakı erməni kilsəsinə baxın. Biz onu qoruyub saxlayırıq. Biz onu bərpa etmişik.

- Belə bir şeyi uydurmaq üçün müsəlmanların məscidi dağıtmasını təsəvvürünüzə gətirə bilərsiniz?

- Mən bilmirəm. Ola bilsin. Ola bilsin ki, bu, baş versin, niyə də yox. Burada, Bakıdakı erməni kilsəsi bizim tərəfimizdən qorunub saxlanıb. Biz onu dağıtmamışıq. Biz onu qoruyuruq. Biz orada minlərlə erməni kitabı saxlayırıq. Onlar isə işğaldan azad edilmiş Zəngilanda məsciddə donuz saxlayırdılar. Fərq bundadır." [14]

Qərbin müxtəlif media qurumlarını təmsil edən jurnalistlərin Prezident İlham Əliyevə verdikləri suallar sanki bir mərkəzdən hazırlanmışdır. Prezidentin onlara verdiyi cavab-

ların tutarlı və əsaslı olmasına baxmayaraq, eyni suallar müxtəlif jurnalistlər tərəfindən yenidən təkrar olunmuşdur. Sanki onlar, formalaşdırdıqları informasiya təxribatlarını təkidlə Azərbaycanın boynuna qoymaq və onu ittiham etmək məqsədi daşımışlar. Lakin, Prezident İlham Əliyevin məntiqi cavabları onları çıxılmaz duruma salmışdır.

**Nəticə və tövsiyələr**

1. İkinci Qarabağ savaşı, əvvəllər olduğu kimi bir həqiqəti bizə aşkar etdi ki, ermənilərin informasiya müharibəsində gücü yalnız onların diasporlarının gücü ilə deyil, Rusiya və Qərb ölkələrinin Azərbaycan və Türkiyənin müstəqil siyasətinə qarşı olan ortaq mövqeyindən irəli gələn bir hadisədir.

2. ATƏT-in Minsk qrupuna daxil olan ölkələrin açıq və qapalı şəkildə Ermənistanın mövqeyini müdafiə etməsi, onların beynəlxalq statusunu sual altında qoydu. Xüsusilə, açıq şəkildə Ermənistanın beynəlxalq hüquqa zidd fəaliyyətini dəstəkləyən Fransa öz həmsədrlik statusunu de-fakto ortadan qaldırdı.

3. İkinci Qarabağ Savaşı bir daha sübut etdi ki, beynəlxalq münasibətlərin tənzimlənməsində beynəlxalq hüquqdan daha çox, hərbi güc faktoru daha mühüm rol oynayır.

4. Hərbi-strateji inkşafı təmin etmək məqsədilə, Azərbaycanda türk hərbi kontigentinin sayını artırmaq, Azərbaycan ordusunun hərbi-texniki qabiliyyətinin artırılması istiqamətində Türkiyə, Pakistan ilə Qarabağda birgə hərbi təlimlər keçirmək, İsraildən havadan müdafiə sistemini təkmilləşdirmək istiqamətində əməkdaşlığı artırmaq, hərbi-müdafiə sistemində ciddi kadr islahatlarına başlamaq və şübhəli kadrları bu sistemdən uzaqlaşdırmaq, erməni terrorizminə qarşı təhlükəsizlik tədbirləri almaq və Türkiyə-Azərbaycan birliyinin pozulmasına yönələn həm daxili, həm də xarici informasiya təxribatlarının müəyyənləşdirilməsi və zərərsizləşdirilməsi istiqamətində birgə informasiya təhlükəsizliyi şurasının yaradılması;

5. Azərbaycanda şiəlik və sünnülük dixotomiyasını tədricən ortadan qaldıran elmi əsaslara söykənən islam həmrəyliyi siyasətinin konseptual əsaslarını və tətbiqi formalarını hazırlamaq, müxtəlif dini-ideoloji güclərə daxildə dini separatçılıq zəminində manipulyasiya imkanlarını zəiflətmək üçün, bu sahədə maarifləndirmə (KİV və təhsil vasitəsilə) işlərini genişləndirmək və bu istiqamətdə internet məkanında güclü təbliğat işlərini təşkil etmək;

6. Hal-hazırda formalaşan milli birliyi qoruyub saxlamaq və inkişaf etdirmək üçün, şəhid ailələrinə, qazilərə hörmət milli dəyərə çevrilməli, onların hüquq və şərəfini qoruyan dövlət və qeyri-dövlət qurumları yaradılmalı və sosial şəbəkələrdə onların üzərində təxribat quranların cəzalandırılması istiqamətində müəyyən qanunların qəbul edilməsi;

7. Ermənilərin xaricdəki diasporalarının əsas hədəflərinin Türkiyə və Azərbaycan olduğu üçün, İnformasiya təhlükəsizliyi istiqamətində Türkiyə-Azərbaycan əməkdaşlığını gücləndirmək və birgə səy nəticəsində Azərbaycanda "Əl-Cəzirə" tipli böyük bir media quruluşu yaratmaq və bununla dünyada informasiya blokadasını yarmaq;

8. Yeni informasiya müharibəsinin əsas strateji hədəflərini yenidən dəyərləndirmək və əsas məqsədin bölgənin əmin-amanlığını, rifahını və geosiyasi təhlükəsizliyini təmin etmək və buna qarşı çıxan təxribatlara qarşı informasiya müharibəsinin bütün metodlarını tətbiq etmək;

9. Ermənilərin Qarabağda vurduğu maddi-mənəvi zərərlərin hesablanması, təzminatın ödənilməsi istiqamətində beynəlxalq səviyyədə məsələ qaldırılmalı və bunu Ermənistan üzərində əsas təzyiq vasitəsi kimi saxlamalı və bu məsələnin internet məkanında geniş yayılmasını təmin etməli. Ermənistana qarşı yeni informasiya müharibəsinin əsas istiqamətləri bunlar olmalıdır:

- Ermənilərin hazırda və tarixdə etdikləri vəhşilikləri kitablar, internet seminarlar vasitəsilə yaymaq: Gəncə, Tərtər, Bərdə və digər mülki əhalinin yaşadıqları ərazilərə qadağan olunmuş bombalarla zərbə vurmasını ortaya qoymaq;

- Bir sıra rayonlarımızı Ermənistan ordusunun tərk etməsi ərəfəsində ermənilərin terrorçuluğunu və şərəfsizliklərini (evləri, meşələri yandırmaq, ekologiyaya zərər vurmaq, heyvanları apara bilmədikləri üçün öldürmək, qəbirləri təhqir etmək və s.) ortaya qoyan video-faktları sosial şəbəkələrdə yaymaqla, onların necə ləyaqətsiz və xəstə təfəkkürlü bir xalq olduğunu göstərmək;

- Erməni soyqırımı məsələsinin saxta olduğunu sübut etmək, türklərə qarşı bu məsələnin gündəmə gətirilməsini siyasi böhtan olduğunu bildirmək və bunun üçün hüquqi məsuliyyət tələb etmək;

- Ermənilərin PKK, ASALA və digər terror təşkilatlarını idarə etdiklərini və terrorçuluğa, faşizmə meyilli bir xalq olduğunu nümayiş etdirmək;

- Ermənilərin xristian dəyərlərinə qarşı çıxdıqlarını, onların xristianlığın prinsiplərinə zidd hərəkət etdiklərini, Qafqaz Albaniyası irsinə məxsus tarixi kilsələri məhv etdiklərini, saxtalaşdırdıqlarını və həmçinin, azərbaycanlıların multikultural dəyərlərə sahib olduğunu İKT və digər vasitələrlə dünyaya göstərmək.

**Ədəbiyyat:**


1. https://az.wikipedia.org/wiki/İkinci_ Qarabağ_müharibəsi
2. https://musavat.com/news/ermeni-saytlari-cebhede-bizi-bele-oldurub-teferruat_753015.html
3. https://sputnik.az/life/20201003/ 425100631/media-numayendelerine-qarshi-ermeni-texribati.html
4. [https://aqreqator.az/az/cemiyyet/1043803
5. https://az.trend.az/azerbaijan/politics/ 3313688.html
6. https://www.bbc.com/azeri/azerbaijan-54241548
7. https://www.ncregister.com/blog/armenia-azerbaijan
8. https://aqreqator.az/az/siyaset/1052577
9. https://avtosfer.az/az/avtosfer-tv/ermeniperest-rusiya-mediasindan-novbeti-fake-news-foto-vi%CC%87deo-112701
10. https://pressklub.az/ekskluziv/rusiya-terrorcu-nagilindan-əl-çəkmir
11. http://azeri.sahartv.ir/news/dunya369261-rusiya_terrorçuların_qarabağa_köçürmələrindən_tam_xəbərdarlıq
12. https://president.az/articles/44279
13. https://president.az/articles/45399
14. https://president.az/articles/45111


***Açar sözlər:*** *İkinci Qarabağ Savaşı, Azərbaycan, Türkiyə, Ermənistan, Qərb, media, təxribat*

**Nuraddin Mehdiyev**
*PhD Candidate of the Academy of Public Administration under the President of the Republic of Azerbaijan*

## INFORMATION WAR IN THE SECOND KARABAKH WAR

## SUMMARY

The purpose of the article is to identify and analyze information wars, information provocations, and their nature and threats in the international arena against Azerbaijan and Turkey, on the eve of the Second Karabakh War. The article also provides a discussion on the countries and their media active in the information war against Azerbaijan and Turkey. The joint cooperation of Azerbaijan and Turkey, President Ilham Aliyev's interviews with international media, and the achievements of Azerbaijan in the information war against Armenia are highlighted. At the end of the article, the results of the analysis of the information war against Azerbaijan and Turkey in the international arena are presented and many recommendations are made. The article identifies the nature and essence of the information war in the international arena on the eve of the Second Karabakh War, using the methods of analysis, synthesis, analogy and comparative analysis. This is the originality and novelty of the article.

***Keywords:*** *The Second Karabakh War, Azerbaijan, Turkey, Armenia, the West, the media, provocation*

**Нураддин Мехтиев**
*Диссертант Академии Государственного Управления*
*при Президенте Азербайджанской Республики*

## ИНФОРМАЦИОННАЯ ВОЙНА ВО ВРЕМЯ ВТОРОЙ КАРАБАХСКОЙ ВОЙНЫ

### РЕЗЮМЕ

Целью статьи является исследование информационной войны, ведущейся накануне и в ходе Второй Карабахской войны против Азербайджана и Турции на международной арене, информационных провокаций, их характер и опасности, а также стран и медиа-структур, проявивших активность в этой информационной войне. Освещается сотрудничество Азербайджана и Турции в информационной войне против Армении, интервью Президента Ильхама Алиева международным медиа-структурам и успехи Азербайджана в этой войне. В завершающей части статьи отражены результаты анализа информационной войны против Азербайджана и Турции на международной арене. Оригинальность и новизна исследования заключается в том, что автор, используя методы анализа, синтеза, аналогии и сравнительного анализа, определил характер и суть информационной войны против Азербайджана накануне Второй Карабахской войны.

***Ключевые слова:*** *Вторая Карабахская война, Азербайджан, Турция, Армения, Запад, СМИ, провокация*

## GƏNC TƏDQİQATÇILAR
## YOUNG RESEARCHERS

## BEYNƏLXALQ MÜNASİBƏTLƏR
## INTERNATIONAL RELATIONS

UOT 327.5

**CEYHUN ƏHMƏDLİ**
**Bakı Dövlət Universitetinin doktorantı**
*e-mail: jeyhun.ahmadli9204@gmail.com*

# MÜASİR MÜHARİBƏLƏRƏ KONSEPTUAL BAXIŞ: FUNDAMENTAL DƏYİŞİKLİKLƏR HANSI MƏQAMLARI EHTİVA EDİR?

Əvvəllər müharibələri çox sadə izahla təsvir etmək mümkün idi. Müharibə, yoxsa sülh şəraitində yaşadığımızı, kiminlə müharibə etdiyimizi, yaxud da cəbhənin harada yerləşdiyini çox əminliklə ifadə edə bilirdik. Yaxud da müharibənin başlanmasını, gedişatını və sona çatmasını xarakterizə edən müxtəlif amillər olurdu. Və bunun sayəsində insanlarda mövcud vəziyyətlə bağlı müəyyən bir təsəvvür formalaşırdı. Məsələn, qədim Romada müharibənin başlanmasını rəmzi formada göstərən dini ayin təşkil olunurdu. "Fetial" adlandırılan bir qrup rahib düşmən torpağına nizə atmaqla və Yanus məbədinin qapılarını açmaqla simvolik olaraq müharibənin başlandığını elan edirdi. Müharibənin bitməsi də bənzər ritualları xatırladırdı. Məsələn, romalılara ciddi müqavimət göstərən Versinqetoriksin məğlub olduqdan sonra öz qılıncını Sezarın ayaqlarına doğru uzatması belə ayinlərdən yalnız biri idi. Orta əsrlərdə, hətta yeni dövrlərdə baş verən müharibələrin də başlanmasını və bitməsini xarakterizə edən müxtəlif spesifik əlamətlər olub. 1945-ci ildə imperator Hirohitonun Missuri gəmisində təslim aktına qol çəkməsi belə nümunələrdən sayıla bilər. Tarixdə örnəyi çox olan bu kimi ümumi qaydalar müharibələrin "xəttiliyinə" ("linearity"), yəni ənənəvi prosedurlara söykəndiyinə dəlalət edir.

Hazırda isə dünyanın müharibə mənzərəsi olduqca qarışıq məqamlar və qeyri-müəyyənliklərlə doludur. Akademik cameələrdə müharibənin xarakterinin əsaslı şəkildə dəyişdiyi ilə bağlı elmi mülahizələr və hipotezlər müdafiə olunmaqdadır. Ümumi yanaşma ondan ibarətdir ki, tarixi şəraitdən asılı olaraq, müharibələr fundamental dəyişikliyə məruz qalır, dövlətlərarası qarşıdurmanın mahiyyəti fərqli məzmun kəsb edir, müharibələrin aparılma qaydaları təkmilləşir, müharibə strategiyalarına yeni komponentlər daxil olur və s. Beləliklə, müharibə epoxal təkamül etməklə bir növ, siyasi alət rolunu dövrün tələblərinə görə uyğunlaşdırır. Bu mənada, məşhur prussiyalı hərb nəzəriyyəçisi Karl Fon Klauzevitsin hələ XIX əsrdə irəli sürdüyü "hər dövrün özünəməxsus müharibəsi olur" [1, s.593] tezisi müasir dövrdə də aktuallığını qoruyub saxlamaqdadır.

Avropa ölkələri arasında 1648-ci ildə imzalanmış Vestfal müqaviləsi dünyada dini və etnik müharibələrə son verərək yeni bir eranın – suveren dövlətlərarası müharibələrin başlanğıcını qoydu. Bu dövrdən etibarən müharibələr birmənalı şəkildə dövlətlər arasında yaşanan fikir ayrılığının nəticəsi kimi dəyərləndirilirdi. Lakin XX əsrin sonu XXI əsrin əvvəllərindən etibarən baş verən müharibələr Vestfal sisteminin bir çox detallarının tarixə qovuşduğu

haqda mülahizələr yürütməyimizə əsas verir. Əsas diqqət çəkən məqam müharibənin yeni iştirakçıları və müharibənin qurbanlarının tərkibi ilə bağlıdır. 2001-ci ildə məşhur 11 sentyabr hadisələrindən sonra ABŞ-ın o vaxtkı prezidenti Corc Buş terrorizmə qarşı müharibə elan edəndə təxminən 350 il sonra ilk dəfə olaraq müharibənin subyekti dəyişmişdi. Tərəflərdən biri qismində dövlət yox, təşkilat çıxış edirdi. İkincinin sıralarında döyüşən şəxslər isə beynəlxalq humanitar hüquqa görə döyüşçü ("combatant") hesab olunmurdu. Onlar xüsusi təlim görmüş sivil insanlar idi. Beləliklə, müharibənin subyektinin dəyişməsi mülki insanların aktiv şəkildə müharibə meydanına cəlb olunması ilə nəticələnmişdi. Meri Kaldor hələ 1999-cu ildə qələmə aldığı əsərində yeni müharibələrin əsas xarakteristikasına "kimlik siyasəti, qəddarlığın desentralizasiya və qloballaşan müharibə iqtisadiyyatı" amillərini daxil edir [2, s.138]. Maraqlıdır ki, Meri Kaldorun "yeni müharibə" konsepti öz əsasını Orta Şərq və Afrikadakı müharibələrdən yox, Bosniya və Hersoqovina hadisələrindən götürür. Kaldorun bu əsərində gəldiyi qənaət ondan ibarətdir ki, müharibə ənənəvi dövlətlərarası ("inter-state") məzmunundan xeyli uzaqlaşıb, çünki şiddət və təcavüz kimi hallar artıq individual səviyyələrdə tətbiq oluna bilir [2]. Beləliklə, qanunsuz silahlı birləşmələrin səhnəyə çıxması ilə güc tətbiq etmək monopoliyası dövlətin əlindən çıxmış olur. Müharibələrə yeni aktorların cəlb olunması müharibə qurbanlarının say tərkibində də özünü göstərir. ABŞ-ın 2003-cü ildən 2021-ci ilin yanvarına qədər təkcə İraqda terrorizmə qarşı apardığı müharibə nəticəsində 208 mindən çox sivil həyatını itirmişdir [3]. Yaxud da Suriyada müharibənin başlandığı 2011-ci ildən 2016-cı ilə qədər həyatını itirmiş 296 min nəfərdən 86 minini mülki şəxslər təşkil etmişdir [4]. Müqayisə üçün qeyd edim ki, XX əsrin əvvəllərində müharibələr zamanı həyatını itirmiş şəxslərin yalnız 10 faizini mülki şəxslər təşkil etmişdir [5, s.15].

Göründüyü kimi, müasir müharibələrin başlıca fərqləndirici xüsusiyyətlərindən biri onun mülki şəxslərlə çox sıx bağlı olmasıdır. Rubert Smit də bu fikri bölüşərək artıq dövlətlərarası geniş miqyaslı hərbi toqquşmalar baş vermədiyini bildirir. O, sivil insanların əsas hədəf təşkil etdiyini irəli sürür. "Biz döyüş meydanı ilə yanaşı, həm də dünyadakı hər bir yaşayış evinin içərisində savaşırıq", - R.Smith bildirir [6, s.19]. Meri Kaldorun fikrincə, 90-cı illərdən etibarən Şərqi Avropada və Afrikada ortaya çıxan müahribələr qloballaşma prosesinin kontekstindən başa düşülməlidir [2, s.1; 3]. Müasir müharibələrin özünəməxsusluğu isə "döyüşən tərəflərin məqsədində, müharibənin rejim və metodlarında və müharibələrin maliyyələşmə formasında" əks olunmuşdur [2, s.6]. Robert Kaplan müasir müharibələrdə döyüşçülərlə sivillər arasında fərqlərin yox olduğunu irəli sürür [7, s.72]. Herfrien Münkler də bu fikirlə razılaşaraq müasir müharibələrin qeyri-nizami hərbi birləşmələrin iştirakı ilə aparıldığını bildirir və döyüşçülərin rəngarəng olmasına xüsusi vurğu edir [8].

Yeni dövr müharibələrin başlıca xüsusiyyəti dövlətlərin birbaşa hərbi müdaxilələrdən kənar dayanmağa üstünlük verməsidir. Praktiki olaraq müasir müharibələrdə daha çox diqqətə çarpan bu taktikanın nəzəri əsasları qədimlərə dayanır. Hələ e.ə. I minillikdə yaşamış məşhur hərbi strateq Sun Tzu özünün "Müharibə sənəti" əsərində yazır ki, bacarıqlı dövlət başçıları birbaşa hərbi müdaxilə etmədən düşmənin müqavimətini qırmağa nail olur [9, s.21]. Sun Tzunun bu yanaşması tarixin qədim və orta və nisbətən yeni dövrlərində baş vermiş müharibələrdə geniş tətbiq olunmasa da, XXI əsr müharibə subyektləri bu texnologiyadan geniş istifadə etməyə çalışır. İnformasiya müharibəsi, kiber hücumlar, düşmən ölkədə gizli şəkildə qeyri-hökumət təşkilatlarının maliyyələşdirilməsi, düşmən ölkədə insanların hakimiyyətə qarşı kütləvi itaətsizliyinin təşkil olunması, psixoloji hücumlar və s. kimi texnologiyalar müasir dövrdə əksər dövlətlərin seçdiyi əsas müharibə alətləri qismində çıxış edir.

Müasir müharibələrin iqtisadi tərəflərinə toxunan Herfried Münkler aşağıdakı fikirlərini

irəli sürür: "Müharibələr artıq dövlətlərin inhisarından çıxır. Dövlətlərin yerini özəl qurumlar, terrorçu təşkilatlar və müxtəlif təyinatlı yerli qruplar almağa başlayır. Müharibə həm də bu aktorlar üçün qazanclı bir sahəyə çevrilib. Onlar zəngin iş adamlarından, dövlətlərdən, transmilli korporasiyalardan, hətta yerli camaatdan maliyyə vəsaiti əldə edirlər. Yeni müharibə aktorları üçün ən qazanclı sahələrdən biri də narkotik və insan alveridir. Çoxşaxəli maliyyə resursları yeni müharibələrin onilliklər boyu davam etməsinə səbəb olur. Buna görə də bu yeni müharibələrin fərqli xüsusiyyətlərini dərk etmək üçün əvvəlcə onların iqtisadi əsasları araşdırılmalıdır" [8, s.1]. Kaldor da bu fikri bir başqa formada davam etdirərək bildirir ki, müasir dövrdəki münaqişələr qeyri-dövlət aktorlarının şəbəkələri arasında cərəyan edir. Bu cür müharibələr bir çox transmilli münasibətləri özündə cəmləşdirən legitim və ya legitim olmayan təşkilatların iştirak etdiyi silahlı toqquşmalardır. Diasporalar, özəl şirkətlər, muzdlular, könüllülər, qeyri-hökumət təşkilatları, dini və etnik qruplar, beynəlxalq təşkilatlar (sülh əməliyyatları çərçivəsində) kimi müxtəlif aktorlar bu cür müharibələrin tərəfləri qismində iştirak edirlər. Ümumiyyətlə, "şəbəkə müharibələri" qlobal dəyişikliklərlə ayaqlaşa bilməyən, problemlərini həll etməkdə aciz qalan və xalq içərisində legitimliyini itirmiş ölkələrdə rast gəlinir. Keçmiş Yuqoslaviya, Somali, Əfqanıstan və İraqda baş verənlər buna ən yaxşı nümunədir. Ümumi etnik və ya dini mənsubiyyət şəbəkələr üçün əsas təşkilati prinsipdir. Onlar üçün müharibə həm də siyasi səfərbərlik vasitəsidir (insanların müəyyən bir məqsəd ətrafında səfərbər olması). Müharibə şəbəkəni genişləndirmək və gücləndirmək üçün istifadə olunur [10, s.120-122]. Bu kimi təşkilatlar dünyanı vahiməyə salan terror aktları törətməklə öz tərəfdarlarının sayını artırmağı hədəf seçmişdilər.

Müasir savaşlar əvvəlki nəsillərdən həm də daha zəif tempə sahib olması ilə fərqlənir. Mübarizənin məqsədi mütləq qələbə deyil, əksinə rəqibin qorxudulması hesab olunur. Bu xüsusiyyət dövlətə qarşı mübarizə aparan bütün aktorların ortaq cəhətini təşkil edir. Klassik müharibəni şiddətin kəskin forması kimi səciyyələndirsək, yeni nəsil müharibələri şiddətin xronikiləşməsi kimi başa düşə bilərik. Klassik müharibənin əsas məqsədi düşməni zorakılıq yolu ilə arzu olunan davranışa məcbur etmək, yəni müharibənin qalibi olmaqdırsa, intensivliyi aşağı olan terrorizm və partizan savaşlarında bu arqument bir qədər zəifləyir. Yeni nəsil müharibələrdə qələbədən daha çox sabitliyi pozma, xof yaratma və iqtidarları gözdən salma məqsədi özünü göstə-rir [11, s.10].

Müasir müharibələrin xarakterik xüsusiyyətlərindən bəhs olunursa, texnoloji imkanların danılmaz roluna xüsusilə toxunmaq lazımdır. Bu vasitələrdən ən effektivi heç şübhəsiz, sosial şəbəkələrdir. Kompyuter, "ağıllı telefonlar" və müxtəlif cihazlar sayəsində dünyanın demək olar, bütün nöqtələrində insanların rahatlıqla istifadə edə biləcəyi internet və sosial şəbəkələr müharibələri bütün çılpaqlığı ilə gözlər önünə gətirən media qurumlarına çevrilib. Virtual məkanda milyonlarla insana dərhal çatma imkanı təqdim edən vebsaytlar müasir müharibələrdə mühüm bir təbliğat vasitəsinə çevrilib. Medianin, internet imkanlarının mövcud olmadığı keçmiş çağlarda müharibə meydanlarında baş verən hadisələr əsasən üstüörtülü qalırdısa, müasir dövrdə insanların rahat və ucuz qiymətə əldə etdikləri mobil telefonlar, fotoaparatlar və səs qeydə alma cihazları bunu mümkünsüz edir. Döyüşən tərəflər yaratdıqları hesablar vasitəsilə heç bir məhdudiyyət olmadan mesajlarını və təbliğatlarını bütün dünyaya çatdıra bilirlər. Çünki sosial şəbəkə şirkətləri müharibə qruplarının istifadə etdiyi hesabları bağlasalar da, yenilərini tez və asanlıqla aktivləşdirmək mümkündür. İnternet və xüsusən sosial medianın müasir müharibələrdə yeni döyüş meydanına çevrildiyini söyləmək olar. Tərəflərin hücum etdikləri və hər hansı bir vasitə ilə müdafiə etdikləri bu sahə, demək olar ki, psixoloji üstünlük qazanmaq arenasına bənzəyir.

Modernizm təliminə görə, müasir müharibələr, vahid birlik yaratmaqla Qərbin ideolo-

giyasına qarşı ideoloji müqaviməti təcəssüm etdirir. Liberalizm və maarifçilik fəlsəfəsindən başlanan və demokratiya, azadlıq, habelə daha yaxşı həyat kimi iddialara sahib olan modernizm ideologiyasına həm etnik, həm də dini baxımdan meydan oxuma meyilləri müasir müharibələrin ən önəmli məşrulaştırma təcrübələrindən biridir [12, s.40]. Anti-Qərbçilik və anti-modernizm müasir müharibələrdə döyüşçülərin əsas motivasiya mənbəyi hesab olunur. Qərbin yaratdığı sistemin bir parçası ola bilməyən qəzəbli gənclər terrorçu təşkilatlara qoşulmaqla özlərini qisas almış kimi hiss edirlər.

Müharibələrin dəyişən xarakterini təhlil edərkən nəzərə çarpan ən aktual elementlərdən biri də onun sərhəd tanımamaq xüsusiyyətidir. “Sərhədsiz savaş”, yaxud da “Limit tanımayan savaş” kimi terminlər ilk dəfə Çindən olan hərb nəzəriyyəçiləri Quiao Lianq və Vanq Xianqsuinin elmi araşdırmalarında istifadə olunmuşdur. Müəlliflər bildirir ki, müasir savaşlar nə hüquqi, nə də ki əxlaqi baxımdan heç bir çərçivə-sərhəd tanımır. Yeni nəsil müharibələrdə həm şiddətin ən ağır formalarına rast gəlinə bilər, həm də iştirakçı tərkibini dəqiq müəyyənləşdirmək mümkünsüzdür. [13, s.206-207]. Bir sözlə, müharibələrin xarakter dəyişikliyi həm də onun norma və dəyər tanımaması, heç bir qayda və nizama tabe olmaması ilə diqqəti cəlb edir.

Tomas Huber müharibələrin dəyişən xarakterini izah edərkən “qarışıq müharibə” (“Compound Wars”) terminindən istifadə edir [14]. Qarışıq müharibə nəzəriyyəsi düşmənə qarşı konvensional və qeyri-konvensional qüvvələrdən paralel şəkildə istifadə edilməsini nəzərdə tutur. Konvensional qüvvələr ənənəvi hərbi qüvvələr, dövlətin nizami ordusu və hərb meydanlarında istifadə olunan texnikalardan ibarətdir. Qeyri-konvensional qüvvələrə isə özəl hərbi birləşmələr, ayrı-ayrı ekstermist-terrorçu təşkilatlar və s. daxildir. Müasir dövrdə terrorçu təşkilatların ayrı-ayrı güc mərkəzləri tərəfindən maliyyələşdirilməsi bu amildən irəli gəlir.

Bir çox nəzəriyyəçilər tərəfindən müharibənin dəyişən xarakteri tarixi epoxalar perspektivindən də dəyərləndirilir. Bu xüsusda, 4-cü nəsil müharibə nəzəriyyəsi aktuallıq kəsb edir. 4-cü nəsil müharibə nəzəriyyəsi özündən əvvəlki nəsillərin təkmilləşmiş formasıdır. Nəsil qavramı texnoloji, taktiki və tarixi gəlişmələrə söykənir. Müharibə tarixçiləri və nəzəriyyəçiləri birinci nəsil müharibələrin XVIII-XIX əsrlərin əvvəllərində mövcud olduğunu irəli sürürlər. Tək lüləli tüfənglər və piyada qüvvələrinin üstünlük təşkil etdiyi bu epoxanın tarixi-siyasi əsasları Vestfaliya müqaviləsindən qaynaqlanır. Ümumiyyətlə, Vestfaliya müqaviləsinin imzalanması ilə tarixdə ilk dəfə olaraq dövlətlər öz suverenliyini qorumaq üçün hərbi qüvvələrdən istifadə etmək hüququ qazanırlar [15, s.7]. İkinci nəsil savaşlar XIX əsrin ortalarından XX əsrin əvvəllərinə qədərki dövrü əhatə edir. İkinci nəsil savaşların əvvəlki nəsillərdən əsas fərqi görünməyən hədəflərin müəyyən edilərək vurulmasıdır. “Toplar fəth edər, piyadalar yerləşər” fransız atalar sözü bu nəsil savaşı ən yaxşı təsvir edən ifadədir. Atəş dəstək sistemlərinin geniş şəkildə tətbiq olunmağa başlanması bu dövrü əhatə edir [16, s. 23]. 3-cü nəsil savaşlar XX əsr boyu baş verən müharibələrdə özünü göstərmişdir. Sürətə və manevrlərə söykənən, hərbi hava qüvvələrinin də iştirakı ilə səciyyələnən bu dönəmin əsas itələyici gücü fikir və düşüncələrdir. Təməl texnoloji inkişaf isə tankların ortaya çıxması hesab olunur [15, s.23]. XX əsrin əvvəllərindən başlanmış, getdikcə daha da təkmilləşən IV nəsil savaşların əsas xarakterik xüsusiyyətləri isə mülki şəxslə hərbçinin, müharibə meydanı ilə təhlükəsizlik məkanının və bütövlükdə, müharibə ilə sülhün sərhədlərinin tam olaraq müəyyənləşdirilə bilinməməsidir. Bu növ savaşlar düşməni hərb meydanlarından çox, siyasi, iqtisadi, diplomatik təzyiqlər tətbiq etməklə uzun sürən bir mübarizənin nəticəsində məğlub etməyi nəzərdə tutur. Qeyri-konvensional hərbi qüvvələrə üstünlük verilməsi də bu növ savaşların əsas səciyyəvi cəhətlərdən biridir [15, s.7]. Dördüncü nəsil müharibələr əsas itələyici gücü hesab olunan texnoloji tərəqqinin hara qədər inkişaf edəcəyini indidən proqnoz etmək çətindir. Amma görünən reallıq odur ki, həm texnoloji, həm də taktiki-strateji baxımdan IV nəsil müharibələr getdikcə daha da təkmilləşir.

Ümumən, müasir müharibələrin əsas xarakteristikalarını aşağıdakı kimi sadalaya bilərik:

• Sivil insanlar yeni müharibələrin içərisində yer alır. Bu mənada, müasir müharibələr dövlətlərarası ("intertate") məzmununu bir qədər dəyişmiş olur;

• Müasir müharibələr daha çox uğursuz dövlətlərdə ("failed states") özünü göstərir. Xüsusən də qloballaşma prosesində sürətlə genişlənən qlobal rəqabət mütəşəkkil cinayət qrupları və transmilli korporasiyaları bu uğursuz dövlətlərdə müharibə ocağını alovlandırmağa sövq edir;

• Müasir müharibələr siyasi ideologiyalardan daha çox dini və etnik zəmində ortaya çıxır;

• Müasir müharibələr daha çox sivillərin ölümü və çoxlu sayda sivil şəxslərin miqrasiya etməsinə səbəb olur;

• Müasir müharibələrdə qəsdən sivillər hədəf götürülür və sivillər bəlkə də tarixin heç bir dönəmində olmadığı qədər zərər görür;

• Müasir müharibələrdə dövlət hakimiyyətinin dağılması və nəticədə mülki şəxslərin əsgər kimi münaqişə tərəflərindən birinə çevrilməsi prosesi özünü göstərir [17, s.174-175];

• Klassik müharibələrdə idarə olunan zorakılıq olsa da, yeni müharibələrdə zorakılığın məhdudiyyəti yoxdur [18, s.102];

• Müasir müharibələr güc tətbiqetmə inhisarının dövlətlərin əlində olmadığı yeni bir dövr deməkdir;

• Müasir müharibələrdə kimin əsgər, kimin mülki olduğunu tapmaq olduqca çətindir;

• Müasir müharibələrdə qorxu və vahimə effekti yaratmaq məqsədi daha qabarıq şəkildə özünü göstərir. Bu da müharibənin daha çox psixoloji fazada aparıldığına dəlalət edir;

• Müasir müharibələr daha çox asimmetrik müharibə mahiyyəti daşımaqdadır;

• Müasir müharibələrdə terrorizm və partizan savaşlarının çuğlaşması özünü qabarıq şəkildə göstərir [19, s.299-303];

• Son olaraq Michael Walzer kimi tədqiqatçılara görə, müasir müharibələrdə "haqlı savaş" məfhumu dəyişməyə başlamışdır. [20, s. 682]; Buna misal olaraq humanitar müdaxilə və ya qoruma məsuliyyəti kimi anlayışlarla qanuniləşdirilən Liviya müdaxiləsini göstərmək olar.

Müharibələrin xarakter dəyişikliyi tarixi epoxaların xüsusiyyətlərində geniş ehtiva olunub. Son üç yüz illik dövr müqayisəli şəkildə təhlil olunanda bəlli olur ki, ayrı-ayrı dövrlərin inkişaf tendensiyaları müharibələrin xarakterini müvafiq olaraq dəyişmişdir. Dəyişiklik həm taktiki, həm strateji, həm də əməliyyat səviyyəsində özünü göstərmişdir. Ən çox diqqət cəlb edən məqam isə informasiya-kommunikasiya texnologiyalarının misli görülməmiş dərəcədə müasir müharibələrdə özünə yer tapmasıdır. İnformasiyanın amilinin müharibə alətinə çevrilməsi "müharibə meydanı" anlayışının da "müharibə məkanı" ilə əvəzlənməsini şərtləndirdi. Ən sadə formada ifadə etsək, artıq müharibələr yalnız səngərlərdə və dövlətlərin legitim hərbi qüvvələrinin iştirakı ilə aparılmır. Assimmetrik taktikalar və qeyri-konvensional qüvvələrin üstünlük təşkil etdiyi müasir müharibələr çox ölçülü xarakterə sahibdir.

Onu da qeyd edək ki, müharibənin xarakterinin dəyişməsinə tənqidi yanaşmalar da irəli sürülüb. Bu mənada, bəzi tənqidçilərin əsas arqumenti ondan ibarətdir ki, həm klassik, həm də asimmetrik müharibələrin əsas dominant aktoru dövlətlərdir. "Müharibə müharibdir" məntiqi ilə çıxış edən tənqidçilər hesab edirlər ki, sub-dövlət aktorlarının iştirakı dövlətin dominant mövqeyini zəiflətmir, əksinə həmin aktorlar elə son nəticədə dövlət maraqlarına xidmət edir [21, s.227]. Bu baxımdan müasir müharibələri ənənəvi müharibələrin yaşadığı transformasiyanın təbii nəticəsi olaraq görmək mümkündür.

Ümumiyyətlə, müharibələr dəyişkən xarakterə sahib olsa da, tarixən bütün dövrlərində müharibələrin dəyişməyən, həmişə sabit qalan bir özəlliyi də vardır. Bu da onunla izah olunur ki, bəşər tarixində baş verən bütün müharibələrin təməlində dövlət maraqlarının diplomatik müstəvidə təmin edilə bilinməməsi reallığı dayanır. Klassik mənada Fukididin əsərləri ilə

ortaya çıxmış, Makiavelli, Tomas Hobbs, Klauzevitsin araşdırmaları ilə daha böyük anlam qazanan, Morgentau, Kennet Volts, Samuel Hantinqton kimi nəzəriyyəçilərin apardığı tədqiqatlarla nəzəri-konseptual baxımdan bir növ yenidən doğan müharibə məfhumu dövlətlərin son çarə olaraq baxdığı siyasi alətdir. Bütün siyasi-diplomatik yolların tükən-məsi halında dövlətlərin baş vurduğu müharibə seçimi zaman-zaman tarixin gedişini əhəmiyyətli dərəcədə dəyişdirmişdir. Məşhur prussi-yalı general və hərb nəzəriyyəçisi Karl Fon Klauzevits özünün "Müharibə haqqında" əsərində yazır ki, müharibə bir dövlətin düşmənə öz iradəsini qəbul etdirmək məqsədilə gücdən istifadə etməsidir. Klauzevits müharibəni siyasətin başqa vasitələrlə davamı kimi xarakterizə edir və bildirir ki, hər bir savaşın siyasi hədəfi olmalıdır. [22, s.40-41]. Bununla da müharibənin müstəqil bir fenomen olmadığını irəli sürən Klauzevits onu dövlətlərin ayrı-ayrı problemlərin çözülməsində müraciət etdiyi siyasi bir alət kimi nəzərdən keçirir. Bir sözlə, müharibə siyasi sürəcin bir elementi kimi dəyərləndirilir.

**Ədəbiyyat:**


1. Carl von Clausewitz, On War, trans. and ed. Michael Howard and Peter Paret (Princeton, NJ: Princeton University Press, 1976).
2. Mary Kaldor, New & Old Wars: Organized Violence in a Global Era (Cambridge, 1999).
3. Global No.1 Business Data Platform, 2021. https://www.statista.com/statistics/269729/documented-civilian-deaths-in-iraq-war-since-2003/
4. Global No.1 Business Data Platform, 2016. https://www.statista.com/chart/5799/the-human-cost-of-the-syrian-conflict/
5. Rosemary Righter, 'St Ethelburga's: a touchstone of peace and hope', The Times, 13 December 1999
6. Rupert Smith: The Utility of Force: The Art of War in the Modern World, New York, 2005.
7. Robert D.Kaplan, "The coming anarchy", Atlantic Monthly, 1994.
8. Herfrien Münkler, "The new wars", translated by Patrick Camiller, USA, 2005.
9. Sun Tzu, "Hərb sənəti", Qanun nəşriyyatı, Bakı, 2018. Tərcüməçi: Kazım Səlimov.
10. Merry Kaldor, Global civil society, London, 2006.
11. Çaman Efe (2013), "Kitlesel Şiddete – Savaşa Bir Eleştiri Denemesi: Savaşın Teorik Konsepti ve Devlet Tekelinden Çıkan Çatışma Davranışı", Barış Araştırmaları Ve Çatışma Çözümleri Dergisi.
12. MUELLER Samuel F. (2010), "Peace, War and Modernity in International Relations Theory", Transcience Journal, vol. 1.
13. Liang, Q. ve Xiangsui, W. (1999). Unrestricted warfare. Beijing: PLA Literature and Arts Publishing House
14. Huber, T. M. (2004). Compound Warfare That Fatal Knot.
15. McCulloh, T. ve Johnson, R. (2013). Hybrid warfare. Joint Special Operations University. http://www.dtic.mil/docs/citations/ADA591803
16. Lind, W. S., Schmitt, J. F. ve Wilson. (1989). The Changing Face of War: Into the Fourth Generation. Marine Corps Gazette, 22–26.
17. Newman Edward (2004), "The 'New Wars' Debate: A Historical Perspective Is Needed". Volume. 35
18. Kalyvas Stathis N.(2001), "New" And "Old" Civil Wars: A Valid Distinction?", World Politics, volume 54.

19. Mello Patrick A. (2010), "In search of new wars: The debate about a transformation of war", European Journal of International Relations. Vol. 16
20. Lucas JR. George R. (2011), " "New Rules for New Wars" International Law and Just War Doctrine for Irregular War", Case Western Reserve Journal of International Law, vol. 43.
21. Gray Colin S.(2007), War, Peace and International Relations An Introduction to Strategic History, Oxon: Routledge.
22. Von Clausewitz, G. C. (2013). On war. Simon and Schuster.

***Açar sözlər:*** *müharibə, hərbi münaqişə, müasir müharibələr, müharibənin dəyişən xarakteri, terrorçu təşkilatlar*

**Jeyhun Ahmadli**
*PhD Candidate, Baku State University*

**CONCEPTUAL VIEW OF MODERN WARS:
WHAT ARE THE POINTS OF FUNDAMENTAL CHANGE?**

**SUMMARY**

The armed conflicts we have observed in recent years are very mixed and unconventional. Wars which used to be traditional with the participation of conventional military forces between states, are now becoming asymmetric through the involvement of new actors. Wars are no longer occurring only between the legitimate military units of sovereign states. Terrorist organizations, private military units and transnational criminal groups are also acting as a party to the war. This factor leads to the mass involvement of civilians in the war. The implementation of modern communication technologies has led to the emergence of new types of weapons. The space between war and peace has become so "blurred" that it is theoretically challenging to determine whether countries exist in a state of peace with each other or a state of war. All these factors indicate a change in the character of the war. The author's primary purpose in writing this article is to present a conceptual view of modern wars in the context of the changing nature of war.

***Keywords:*** *war, armed conflict, modern war, change of character of war, terrorist organizations*

**Джейхун Ахмадли**
*Докторант Бакинского Государственного Университета*

# КОНЦЕПТУАЛЬНЫЙ ВЗГЛЯД НА СОВРЕМЕННЫЕ ВОЙНЫ: КАКОВЫ ФУНДАМЕНТАЛЬНЫЕ ИЗМЕНЕНИЯ?

## РЕЗЮМЕ

Вооруженные конфликты, свидетелями которых мы стали в последние годы, носили смешанный характер и были нетипичными. Войны, которые раньше были традиционными, то есть с участием конвенциональных вооруженных сил между государствами, теперь асимметричны с участием новых игроков. Войны больше не ведутся только между легитимными воинскими подразделениями суверенных государств. Террористические организации, частные военные подразделения и транснациональные преступные группировки также выступают в качестве сторон в этих войнах. И этот фактор привел к массовому вовлечению гражданского населения в войну. Применение современных коммуникационных технологий привело к появлению новых видов оружия. Граница между войной и миром стало настолько «размытой», что очень трудно теоретически определить, находятся ли государства в мире друг с другом или в состоянии войны. Все эти факторы указывают на изменение характера войн. Основная цель написания статьи состоит в представлении концептуального взгляда на современные войны в контексте их изменившегося характера.

***Ключевые слова:*** *война, вооруженный конфликт, современная война, изменение характера войн, террористические организации*

## GƏNC TƏDQİQATÇILAR
## YOUNG RESEARCHERS

## BEYNƏLXALQ MÜNASİBƏTLƏR
## INTERNATIONAL RELATIONS

UOT 327; 339.9; UOT 327-027.21

**TƏHMİNƏ MƏSİMOVA**
**Bakı Dövlət Universitetinin**
**Beynəlxalq münasibətlər kafedrasının doktorantı**
*e-mail: tahmina_rustamova@yahoo.com*

# ENERJİ TƏHLÜKƏSİZLİYİ ANLAYIŞI VƏ ONUN MAHİYYƏTİ

Geosiyasi ədəbiyyatda enerji təhlükəsizliyi milli təhlükəsizliyin mühüm tərkib hissələrindən biri kimi qiymətləndirilir. Enerji təhlükəsizliyi enerji istehlakı üçün təbii resursların mövcudluğu və ölkənin milli təhlükə-sizliyi arasında əlaqə növüdür. Son yarım əsrin həm də elmi tədqiqat məhsulu olan enerji təhlükəsizliyi anlayışının meydana çıxması bütün tarixi dövr ərzində ayrı-ayrı aspektlərdən qiymətləndirilərək hələ də vahid konseptual mənada izahlı ifadəsini tapmamışdır. Elmi və iqtisadi ədəbiyyatlarda enerji təhlükəsizliyi anlayışına təriflər verən müxtəlif yanaşmalar mövcuddur.

Enerji amili yüz illərdir ki, insanların yaşamasının davam etdirilməsində ən önəmli və təməl qaynaqlar arasında öz yerini qorumuşdur. Günümüzdə də bu amil öz önəmini qorumaqda davam edərək ölkələrin güclənməsində əsas strateji rol oynamaqdadır. Xüsusilə XVIII əsrin ikinci yarısında başlayan sənaye inqilabları dövründə istehsalın avtomatlaşdırılması, yəni əzələ gücündən daha çox buxar gücü ilə çalışan maşınlara üstünlük verilməsi enerjiyə olan tələbatın artmasına səbəb olmuşdur. Enerji resursları iqtisadi artıma təsir edən tək amil olmasa da son dərəcə həyati önəm daşıyan amildir. Ona görə də təbii enerji sərvətlərinin geoloji mövcudluğu müasir zamanda strateji əhəmiyyətini artıraraq əsas siyasi güc, iqtisadi qüdrət elementlərindən biri sayılmaqdadır. Enerji resurslarının məhdud olmasına baxmayaraq hər bir ölkə enerji təhlükəsizliyi problemi ilə qarşılaşır və buna görə də müasir dünyada iqtisadiyyatın yanacaq-enerji resursları ilə təchizatı, həmçinin enerji effektivliyi dövlətin inkişaf səviyyəsinin mühüm indikator göstəricilərindən biri hesab olunur və beynəlxalq geosiyasətdə enerji resursları faktoru müstəsna əhəmiyyət daşıyır.

Enerji (yunanca energiya - iş, fəaliyyət) təhlükəsizliyi anlayışı müxtəlif aspektlərdə şərh oluna bilər (16). Enerji özü ayrılıqda təbiətdəki müxtəlif proseslərin və qarşılıqlı təsirlərin ümumi ölçüsü olaraq dəyərləndirilir. Lakin o, enerji təhlükəsizliyi söz birləşməsində fiziki xassəsini kənara qoyaraq daha geniş mahiyyət daşıyır.

Enerji təhlükəsizliyini iqtisadi müstəvidə nəzərdən keçirdikdə «Enerji təhlükəsizliyi enerji sisteminin funksional xassəsi olaraq, enerji maraqlarının daxili və xarici təhlükələrdən qorunması vəziyyətidir» tərifi ortaya çıxır (1).

Beynəlxalq Enerji Agentliyi (BEA) enerji təhlükəsizliyini "əlverişli qiymətlərlə enerji mənbələrinin fasiləsiz mövcudluğu" kimi müəyyən edir. Enerji təhlükəsizliyinin bir çox istiqamətləri var: uzunmüddətli enerji təhlükəsizliyi əsasən iqtisadi inkişaf və davamlı ekoloji ehtiyacı enerji baxımından təmin etmək üçün investisiya ilə məşğul olur. Qısa-

müddətli enerji təhlükəsizliyi enerji sisteminin tələbat və tələb balansı daxilində ani dəyişikliklərə dərhal reaksiya verməsinə imkan verir (17). BEA qeyd edir ki, enerji bəşəriyyətin inkişafı və iqtisadiyyatın yüksəlişi üçün olduqca vacib amil olduğundan geniş anlamda enerji təhlükəsizliyi dedikdə kifayət qədər olan, adekvat, əlçatan və etibarlı enerji resursları ilə təminat başa düşülməlidir (11, s.160-161).

E.Teleqina və L.Studenikina tərəfindən hazırlanmış "Enerji təhlükəsizliyi və XXI əsrdə Avrasiyanın energetik inteqrasiyası: Asiya profili" kitabında belə bir tərif verilmişdir ki, enerji təhlükəsizliyi ehtiyacların lazımi həcmdə, tələb olunan keyfiyyətdə və iqtisadi cəhətdən sərfəli qiymətlərlə, həmçinin fövqəladə hallarda minimal vacib ehtiyatlar şəraitində yanacaq-enerji resursları ilə zəmanətli təminatıdır (7, s.107).

2006-cı ildə Sankt-Peterburqda G-8 sammitində qəbul olunmuş yekun sənəd əsasında belə izahat vermək mümkündür ki, qlobal enerji təhlükəsizliyi dedikdə dünyanın bütün – həm resursları istehlak edən, həm də istehsal edən ölkələrinin dayanıqlı və davamlı enerji resursları ilə təminatı, enerji resurslarının sərfəli qiymətlərlə olması, resursların hasilatı zamanı ətraf mühitə az zərər vurulması, həmçinin dünya ictimaiyyəti üçün dayanıqlı sosial-iqtisadi inkişafın yaradılması nəzərdə tutul-maqdadır (5, s.30).

Enerji təhlükəsizliyi anlayışına ümumilikdə iki yanaşma mövcuddur. Bu yanaşmalardan biri enerjini, digəri isə təhlükəsizliyi əsas götürür. Enerji təhlükəsizliyinin enerji istiqamətli yanaşması enerji ehtiyatlarının mövcudluğunu və əlçatanlığını əhatə edir. Enerji təhlükəsizliyinin təhlükəsizlik istiqamətli yanaşması isə kəşfiyyat, inkişaf, istehsal, ötürülmə, paylama, marketinq və istehlak şəbəkəsinin hər cür hücumlardan qorunmasını əhatə edir (4).

Əslində enerji təhükəsizliyi ilə bağlı müzakirələr yeni deyil. Uinston Çörçilin Birinci Dünya müharibəsindən öncə ingilis donanmasını alman donanmasından daha sürətli etmək və beləcə də qlobal məsələlərdə təsirini davam etdirə bilmək məqsədilə kömürlə işləyən gəmilər əvəzinə neftlə işləyən gəmilərdən istifadə edilməsi ilə bağlı aldığı tarixi qərardan sonra enerji təhlükəsizliyi beynəlxalq siyasətin və təhlükəsizliyin başlıca mövzularından biridir (9). Bu vəziyyət dövrün hegemon gücləri baxımından yeni bir təhlükəsizlik anlayışını və strateji planlamanı gündəmə gətirdi və başda neft olmaqla karbohidrogen ehtiyatlarını beynəlxalq strateji, beynəlxalq maraq və beynəlxalq təhlükəsizliyin əsas ünsürlərinə, dolayısı ilə də qlobal mübarizənin ən həssas faktorlarına çevirdi.

Araşdırmalar göstərir ki, dünyada enerji təhlükəsizliyi probleminin dərki ilk dəfə ərəb-israil konflikti ilə əlaqədar dünya neft qiymətlərinin kəskin artması fonunda baş vermişdir. Neftin təchizatının tam olaraq dayandırılması Qərb ölkələrində enerji təhlükəsizliyinin təminatı üzrə tədbirlərin görülməsinə səbəb olmuşdur. Lakin dərin kataklizmli bu hadisədən artıq yarım əsrə qədər bir vaxt keçmişdir. Həmin dövr ərzində iqtisadi inkişaf elə bir səviyyəyə çatmışdır ki, energetika öz təsiri ilə iqtisadiyyatın digər tərkib elementlərinə nisbətdə dominantlığı ələ almış və özü-özlüyündə onun ayrılmaz hissəsinə çevrilmişdir. Bu baxımdan da enerji təhlükəsizliyinin təminatı iqtisadiyyatın bütün sferalarının normal fəaliyyəti üçün yaradılan şəraitin əsasını təşkil edərək ön sırada qərar tutmuşdur.

1973-cü ildə neft böhranı nəticəsində yaranan iqtisadi və sosial mənfi təsirlər enerji qaynaqlarının təmin edilməsi və gələcək problemlərdən qaçmaq yollarını öyrənmək beynəlxalq münasibətlər nəzəriyyələri səviyyəsində böyük müzakirələrə səbəb oldu. Beləliklə, enerji təhlükəsizliyi beynəlxalq münasibətlər nəzəriyyələrinin ən önəmli mövzularından birinə çevrildi.

Şərqi Finlandiya Universitetinin professoru Andrey V.Belyi bildirir ki, enerji təhlükəsizliyinə beynəlxalq münasibətlər nəzəriyyəsində 4 əsas yanaşma var. Birinci yanaşma, beynəlxalq siyasi əlaqələrə və istehlak və istehsal sahələri arasında struktur qeyri-bərabərlik formalarına rasional yanaşmadır. Bu yanaşmada təbii

ehtiyatlarla bağlı siyasi münaqişələrə xüsusi diqqət ayrılmışdır. İkinci yanaşma beynəlxalq iqtisadi institutların təhlükəsizliyin artırılmasında səmərəliliyini təhlil edir. Üçüncü yanaşma enerji texnologiyasında artan müxtəliflik, tənzimləmə istiqamətindəki tendensiyalar, xarici investisiyalar və sektorda qarşılıqlı əlaqə ilə xarakterizə edilən “enerjinin yeni siyasi iqtisadiyyatı”nın akademik və biznes dünyasından bir sıra son qiymətləndirmələrlə müəyyən edilə bilər. Dördüncü yanaşmaya əsasən beynəlxalq siyasət iqtisadiyyatın rasionalist iqtisadi nəzəriyyələrin tənqidindən yaranıb (8, s.2).

Beynəlxalq münasibətlər nəzəriyyəsində qlobal enerji problemini həll etməyə çalışan 4 əsas nəzəriyyə mövcuddur: realist nəzəriyyə, Kopenhagen məktəbinin yanaşması, regional təhlükəsizlik komplekslərinin nəzəriyyəsi, liberalizm nəzəriyyəsi.

Realizm nəzəriyyəsinin tərəfdarlarının fikrincə, enerji təhlükəsizliyi milli təhlükəsizliyin bir hissəsidir və bu ikisini bir-birindən ayırmaq olmaz. Enerji ilə güc bir-birinə sıx şəkildə bağlıdır, milli təhlükəsizlik enerji təhlükəsizliyi olmadan həmişə qeyri-müəyyən olacaq. Baxmayaraq ki, realistlərin əksəriyyəti öz yazılarında enerji təhlükəsizliyinə yer vermirlər, onlar əsasən təhlükəsizliyin əldə edilməsində gücə diqqət verirlər. Çünki onların beynəlxalq siyasət anlayışında əsas amil gücdür. Buna görə də onlar konflikt və ya hətta müharibə zamanı enerji təhlükəsizliyinin əldə edilməsində gücün əhəmiyyətini (hərbi-fiziki güc) vurğulayırlar. Ölkənin hərbi gücündən istifadə etməsi üçün kifayət qədər enerji təminatının olması həyatidir. Buna görə dövlətlər hər hansı bir münaqişədə öz mövqelərini gücləndirmək üçün bütün vasitələrdən istifadə edərək enerji təminatlarını artırmalıdırlar. Realistlərin fikrincə, dövlətlər öz enerji təhlükəsizliyini dərin strateji düşüncə və enerji resurslarının olduqları yerlərdə hərbi bazalar qurmaqla təmin edə bilərlər, çünki beynəlxalq sistem təbiəti etibarilə rəqabətçidir və məhdud enerji resurslarından ötəri hər hansı bir konfliktə girmək üçün gücə ehtiyac duyulur. Realistlər beynəlxalq rəqabətdə əməkdaşlığın çətin olduğunu iddia edirlər, lakin qeyd edirlər ki, enerji təhlükəsizliyi sahəsində dövlətlər arasında ikitərəfli əməkdaşlıq hər bir tərəfin hüquq və tələblərini təmin etmək üçün enerji təhlükəsizliyinə nail olmaq üçün mühüm vasitədir.

Realistlər dünyanın enerji resurslarının məhdud və təhlükəsiz olduğunu iddia edirlər. Buna görə realistlərin əsas məqsədi hər hansı bir zamanda ən böyük neft ehtiyatına yox, hər zaman kifayət qədər təchizata malik olmaqdır. Yetərli təchizat təkcə bir mənbəyə deyil, müxtəlif enerji mənbələrinə malik olmalıdır (15).

Kopenhagen məktəbi beş əsas sektora baxaraq təhlükəsizliyi müəyyən etmişdir: siyasi, iqtisadi, hərbi, sosial və ətraf mühit sektorları.

Kopenhagen məktəbi qeyd olunan təhlükəsizlik sektorlarında enerji təhlükəsizliyini müəyyən etmir, lakin beynəlxalq sistem anarxiya sistemi olduğu və anarxiya ilə idarə olunduğu müddətdə dövlətlər enerji ilə kifayət qədər təmin olunmaq üçün çalışacaqlarını vurğulayır. Buna görə də, enerji təhlükəsizliyi əvvəlki təhlükəsizlik sektorlarını göstərir, çünki dövlətlər enerji ilə özlərini təmin etmək üçün öz iqtisadi, hərbi və sosial imkanlarını inkişaf etdirə bilərlər.

Regional təhlükəsizlik kompleksləri üçün müəyyən bir coğrafi ərazidə cəmlənmiş təhlükəsizlik sübutları qrupu kimi müəyyən edilir, burada təhlükənin səbəbləri həmin regiondakı müvafiq ölkələr arasında mövcuddur. Buna görə regional enerji təhlükəsizliyi enerji resurslarının istehsal, idxal, ixrac və tranziti vasitəsilə enerji sahəsində iki və ya daha çox dövlət arasında mövcud olan qarşılıqlı təsir kimi müəyyən edilir. Bununla belə, bu cür qarşılıqlı təsirlər dövlətlər arasında bir asılılıq yarada bilər və bu asılılıq təhlükə mənbəyi ola bilər, məsələn, Avropa Birliyinin Rusiyadan qaz idxalından asılılığı Avropa ölkələrinə təhlükə yarada bilər (13, s.1-2).

Enerji təhlükəsizliyinin təfsirində liberallar iqtisadi cəhətə realistlərdən daha çox diqqət verirlər. Liberalistlər üçün enerji təhlükəsizliyi sabit və məqbul qiymətlərlə enerji resurslarının

əldə edilməsidir. Onlar üçün qiymətlər enerji təhlükəsizliyi ilə münasibətdə mühüm əhəmiyyət kəsb edir. Liberalistlər enerji resurslarının məhdud olduğunu nəzərə alaraq bildirirlər ki, qıtlıq və azalma dövründə enerji təhlükəsizliyi beynəlxalq və regional təşkilatlar vasitəsilə, məsələn, enerji sahəsində fəaliyyət göstərən Beynəlxalq Enerji Agentliyi və ya OPEK vasitəsilə qoruna bilər. Beynəlxalq və regional kollektiv mexanizmlər enerji təhlükəsizliyinə nail olmaq üçün əməkdaşlıq, koordinasiya, məlumat və təcrübə mübadiləsi üçün müvafiq vasitələr təklif edir. Liberallar həm də müharibənin enerji resurslarına nəzarət etmək üçün həmişə bir bəhanə olduğuna inanırlar və gələcək müharibələrin qarşısını almaq üçün ümumi maraqları təmin edən iqtisadi, siyasi və sosial əməkdaşlıq vasitəsilə müharibənin qarşısını almaq olar. Liberallar enerji təhlükəsizliyinin artırılmasında şəffaflığın və nəzarətin, gizli sazişlərdən uzaqlaşmağın vacibliyini vurğulayırlar (14, s.24).

Müasir və "klassik" enerji təhlükəsizliyi araşdırmaları arasında böyük fərq mövcuddur. 1970-80-ci illərdə enerji təhlükəsizliyi ixracatçılar tərəfindən embarqo və qiymət manipulyasiyası təhdidi altında ucuz neftin tədarükü mənasına gəlirdi (10). Müasir enerji təhlükəsizliyi problemi isə neft ehtiyatlarından kənara çıxır və daha geniş məsələləri əhatə edir.

Ənənəvi mənada enerji təhlükəsizliyi karbohidrogen ehtiyatlarına, xüsusilə də neftə etibarlı şəkildə çıxışın olması imkanı kimi dəyərləndirilir.

Enerji təhlükəsizliyi anlayışını təkcə enerji baxımından dəyərləndirmək düzgün deyil. Enerji təhlükəsizliyinin iqtisadi artım və sabitlik, siyasi güc və digər təhlükəsizlik sahələrindən asılı olduğu və bu sahələrdən birində baş verən dəyişikliyin zəncirvari reaksiyaya səbəb olduğu unudulmamalıdır.

Geniş bir perspektivdən baxıldığında enerji təhlükəsizliyinin tərifini formalaşdıran əsas ünsürləri aşağıdakı şəkildə göstərmək olar: kifayət qədər enerji mənbəyinə çıxışın olması; münasib qiymətlərlə enerji alışı; çıxış və maliyyə imkanlarının yaxın və uzunmüddətli gələcək üçün proqnozlaşdırıla bilən olması; enerji ehtiyatları ilə bağlı risklərin minimuma endirilməsi; tranzit ölkələrinin sabitləşdirilməsi; istifadə olunan enerji resurlarının diversifikasiyası və bərpaolunan enerji mənbələrinə yönəlmək; asılılığı azaltmaq üçün ixracatçı ölkələrin sayının artırılması; ölkə daxilində enerji səmərəliliyinin artırılması; energetika sahəsində investisiyaların təşviq edilməsi; enerji təhlükəsizliyi məsələlərinə ətraf mühitin təhlükəsizlik məsələləri ilə bərabər baxılması (3).

Hər ölkə üçün enerji təhlükəsizliyi məfhumuna eyni tərif vermək olmaz. Belə ki, enerji təhlükəsizliyi məfhumu çoxşaxəli və çox dəyişkən quruluşa malikdir.

Enerji təhlükəsizliyini enerji sistemlərinin texniki təhlükəsizliyinin bir xüsusiyyəti kimi şərh etmək olar. Eyni zamanda, tərifinə görə, enerji təhlükəsizliyinin məqsədi fərdin, cəmiyyətin, dövlətin yanacaq-enerji resurslarının kəsirindən etibarlı qorunmasıdır, yəni etibarlıqdan daha geniş məna daşıyır və siyasi, iqtisadi və fəlsəfi kateqoriya kimi təzahür edir. Enerjidən istifadə bəşəriyyətin mövcudluğunun əsas şərtidir. Nobel mükafatı laureatı akademik P.L.Kapitsanın vurğuladığı kimi "bəşəriyyətin gələcəyi onun özünü enerji ilə necə təmin edəcəyindən asılıdır" (6).

Enerji təhlükəsizliyi ənənəvi olaraq neft və kömürlə əlaqələndirilmişdir. Hazırda təbii qaz və uran kimi strateji mədənlər də enerji təhlükəsizliyinin əhatə dairəsinə daxil olmuş və bu mənada enerji təhlükəsizliyi daha geniş bir pəncərədən dəyərləndirilməyə başlanmışdır.

Yuxarıda göstərilənlərə əlavə olaraq, 2000-ci illərin əvvəllərində enerji təhlükəsizliyi anlayışının əhatə dairəsinə iqlim dəyişikliyi qavramı da daxil edilmişdir (2).

Enerji təhlükəsizliyinin mənasının genişlənməsinin digər səbəbi isə onun problem sahələrinin çoxalmasıdır. Bu gün enerji təhlükəsizliyi dedikdə nəqliyyat xətlərinə qarşı terror fəaliyyətinin qarşısının alınması, enerji sahəsindəki mühüm infrastrukturlara olan kiber hücumlarla mübarizə, enerji səmərəliliyini artırmaq üçün iqtisadi islahatlar aparılması

kimi bir çox məsələ də bu kontekstdə qiymətləndirilməyə başlanmışdır. Bütün bunlardan başqa, enerji təhlükəsizliyi sahəsində ortaya çıxan ən əhəmiyyətli problem odur ki, bəşəriyyətin enerjiyə olan tələbatı günü-gündən artmaqdadır. Əhalinin artımı, sənayeləşmə, urbanizasiya və yüksək həyat standartlarından dolayı enerjiyə olan tələbat artmaqdadır.

Köhnə paradiqma kontekstində enerji təhlükəsizliyi birbaşa olaraq enerji müstəqilliyi ilə bağlı olmuşdur. İdeya ondan ibarət olmuşdur ki, əgər enerji resursları ilə təminat ölkə üçün əhəmiyyətli dərəcədə kifayət edirsə və onun iqtisadiyyatı effektivdirsə (enerji qənaətcilliyi baxımından), o zaman bu enerji daşıyıcılarının qiymətlərinin enməsinə gətirib çıxarmalıdır.

XXI əsrdə enerji təhlükəsizliyi anlayışının daha əhatəli bir məna daşıdığını görürük. Təhlükənin azaldılması, istehsal və enerji sərfiyyatı da daxil olmaqla enerjiyə olan ehtiyacın azaldılması və məhsuldarlığın artırılması məsələləri gündəmə gətirilmişdir. Alternativ enerji resurslarının ortaya çıxardılması və texnologiyanın inkişaf etdirilməsi də bununla əlaqəlidir.

Yeni təhlükəsizlik anlayışı enerji nəqlində istehsalçıdan qaynaqlanan hər hansı bir səbəblə baş verən ləngimə ilə necə mübarizə aparılacağından, enerji təchizatı zəncirinin infrastruktur da daxil olmaqla necə qorunacağına qədər geniş bir çərçivəni əhatə edir. Bu vəziyyət enerji təhlükəsizliyinə yönəlmiş təhlükələrin müxtəlifliyi ilə bərabərdir və bu günün iqtisadi, ticarət, siyasi və təhlükəsizlik şərtlərinin yansımasıdır. Bu nöqteyi-nəzərdən enerji sahəsində ekspert Daniel Yergin enerji təhlükəsizliyinin 10 əsas prinsipini bu şəkildə sıralayır: enerji təchizatı resurslarının çeşidləndirilməsi enerji təhlükəsizliyinin başlanğıc nöqtəsidir; yalnız bir neft bazarı vardır; ehtiyat tutumu, fövqəladə vəziyyət ehtiyatları və kritik infrastrukturun ehtiyac çərçivəsində müəyyənləşdirilən təhlükəsizlik sərhədi önəmlidir; çevik bazarları dəstəkləmək və onları mikro səviyyədə tənzimləməkdən yayınmaq sürətli cavab verə bilmə qabiliyyətini artırır və uzunmüddətli zərərlərdən yayınmaq imkanı verir; şirkətlər və dövlətlər arasında hər səviyyədə qarşılıqlı asılılığın olduğunu qəbul etmək vacibdir; istehsalçılar və istehlakçılar arasındakı münasibətin də qarşılıqlı asılılıq əlaqəsi olduğu bilinməlidir; istehsalçı və istehlakçıların birgə hissəsi olduğu proaktiv fiziki təhlükəsizlik çərçivəsi yaradılmalıdır; hər hansı bir problemin ictimaiyyət qarşısına çıxmasından əvvəl hadisə və ondan sonra baş verənlərin doğru olaraq verilməsi vacibdir; enerji sənayesinin inkişafı üçün texnologiyaya mütəmadi olaraq investisiya qoyulmalıdır; uzunmüddətli enerji tarazlığı və transformasiyası üçün araşdırma, inkişaf və innovasiyaya üstünlük verilməlidir (12).

Bir ölkənin iqtisadi inkişaf səviyyəsi istehsal etdiyi və istehlak etdiyi enerji miqdarı ilə ölçülür. Enerji istehlakında özünü tam təmin edə bilən ölkələr yüksək enerji təchizatı təhlükəsizliyi olan ölkələrdir. İstehsal prosesinin ən əhəmiyyətli xammalı olan və enerji mövcudluğu və davamlılığını ifadə edən tədarük təhlükəsizliyi, ölkələrin iqtisadi inkişafı və hətta milli təhlükəsizliyini əsaslı şəkildə təsir edən bir fenomendir.

Enerji təhlükəsizliyinin dörd əsas elementlərindən biri olan və xüsusilə karbohidrogen yanacaqlar üçün enerji qaynağının fiziki olaraq mövcud oması və istehsal ehtiyat dərəcəsi enerji təchizatı təhlükəsizliyinin ən mühüm göstəricilərindən biridir. Dünyada ən yüksək qazıntı ehtiyatı olan ölkələr daxili ehtiyatları olmayan və idxaldan asılı olan ölkələrə nisbətən daha yüksək təchizat təhlükəsizliyinə malikdirlər. Enerji mənbəyinin ehtiyat ölçüsü həm daxili istehlak, həm də bir ölkənin ixrac gəlirləri baxımından enerji təminatının təhlükəsizliyini artıran bir faktdır. İdxalla enerji tələbatını ödəyən ölkənin idxaldan asılılığı onun təhlükəsizliyinə mənfi təsir göstərir. Enerji təhlükəsizliyini təmin etməkdə əsas qayda enerji tələbinin qarşılanmasıdır. Bazar şəraitində qiymətlər təklif və tələbat arasındakı balansla müəyyən edilir. Enerji təhlükəsizliyində qiymət istehsalçı və istehlakçı ölkələr baxımından fərqli məna daşıyır. Kömür və təbii qazla müqayisədə, neft ehtiyatları az miqdarda,

daha az səmərəli, daha az paylanmış və dünyanın müəyyən bölgələrində cəmləşdirilib və spekulyativ qiymət artımlarına səbəb olur və enerji təchizatı təhlükəsizliyinə mənfi təsir göstərir. İstehsalçı ölkə yüksək enerji qiymətlərinə nail olmaq üçün enerji infrastrukturunun investisiyalarını tamamlamalıdır. Enerji istehlakı idxalına əsaslanan bir ölkə, ilk növbədə, enerji təhlükəsizliyində yerli qaynaqlara müraciət edir. Enerji mənbələrinin idxal olunan mənbəyini əvəz etmək üçün yönləndirilməsi enerji təchizatı təhlükəsizliyinin təmin edilməsində mühüm amildir.

Sənaye inqilabı və texnoloji yeniliklər istehsal artımını, nəqliyyat və kommunikasiya texnologiyalarının inkişaf etməsi beynəlxalq ticarət və istehlak səviyyəsini artırmışdır. Ticarətin həcmi artdıqca sənayeləşmiş istehsalçı ölkələrin enerji ehtiyacları istehsalın həcminə görə artmışdır. Son illərdə, xüsusilə sənayedə, xidmət sahələrində və mənzil sektorunda elektrik ehtiyaclarını ödəmək üçün ən təmiz fosil yanacaq kimi neft dəyişdirilməsi və təbii qazın istifadəsi ticarət həcmini əhəmiyyətli dərəcədə artırdı. Beləliklə, neftin mövcudluğu, ötürülməsi və davamlılığı baxımından təbii qaz enerji təhlükəsizliyi baxımından əhəmiyyət təşkil edir.

Enerji təhlükəsizliyi dövlətlərin milli təhlükəsizliyinin struktur elementlərindən biri olaraq həlledici rola malikdir. Müasir siyasi reallıqlar kontekstində bir sıra siyasi ekspertlər dünya siyasətinin aparıcı amili kimi dövlətlərin enerji ehtiyatlarına malik olub-olmaması ilə səciyyələndirirlər.

Azərbaycan Respublikası da zəngin enerji ehtiyatlarına, inkişaf etmiş yanacaq və enerji infrastrukturuna və enerji sisteminə malik ölkələrdəndir. Azərbaycanın enerji təhlükəsizliyi siyasətinin əsasları öz başlanğıcını 1994-cü ildə imzalanmış “Əsrin müqaviləsi”ndən götürmüşdür.

Azərbaycanın dünyanın enerji sistemində artan əhəmiyyətli rolu, transmilli enerji bazarlarında özünəməxsus yeri və Avropanın enerji təhlükəsizliyində fəal iştirakı qlobal, regional, geosiyasi və geoiqtisadi mövqeyinə mühüm təsir göstərir.

Bakı-Tbilisi-Ceyhan əsas neft və Bakı-Tbilisi-Ərzurum qaz ixracı kəmərləri dünya dövlətləri ilə Azərbaycan arasında enerji sahəsində strateji tərəfdaşlıq münasibətlərinin yaranmasına və müvafiq olaraq onun iqtisadi cəhətdən inkişaf etməsinə təkan vermişdir. Azərbaycanın qaz ehtiyatları Avropa üçün yeni imkanlar kimi qəbul olunur. Bu imkanın reallığa çevrilməsi isə qazın Avropaya nəqli marşrutlarının düzgün seçilməsini zərurətə çevirirdi. 2011-ci ildə Avropa Komissiyası ilə imzalanan “Cənub Qaz Dəhlizi haqqında Birgə Bəyannamə” əməkdaşlıqda tamamilə yeni mərhələnin əsasını qoydu. “Cənub Qaz Dəhlizi”nin seqmentlərini “Şahdəniz-2”, Cənubi Qafqaz Boru Kəmərinin genişləndirilməsi, Trans-Anadolu Boru Kəməri (TANAP) və Trans-Adriatik Boru Kəməri (TAP) layihələri təşkil edir.

Enerji strategiyasının məqsədi, çox güclü, genişmiqyaslı qaz dəhlizi formalaşdırmaqdır. Xəzərin Azərbaycan sektorunun qaz-kondensat ehtiyatları ilə zəngin olduğu nəzərə alınaraq, “Cənub Qaz Dəhlizi” sistemi elə layihələndirilib ki, gələcəkdə mümkün əlavə qaz həcmlərinin təchiz edilməsi üçün onun seqmentlərinin hər birinin, o cümlədən, TAP-ın ötürücülük gücü artırıla bilsin. Gələcəkdə Türkmənistan və Qazaxıstan Avropa bazarına öz böyük qaz resurslarını ixrac etmək üçün həyata keçirilən infrastrukturdan istifadə edə bilər. Eləcə də İran və İraqın da qaz və enerji ehtiyatlarının əlavə edilməsi mümkündür. Bu, Xəzər dənizindən Avropanın ürəyinə uzanan yolda bütün ölkələrə fayda gətirməsi üçün nəzərdə tutulan unikal bir layihədir.

CQD böyük strateji infrastruktur layihəsidir. Bu layihə gələcəkdə təkcə Azərbaycana xidmət etməyəcək, Qərb dövlətlərinin də layihəyə dəstək vermələri məhz bu məqamla əlaqədardır. Düzdür, Azərbaycanın bütövlükdə mövcud qaz resursları yalnız “Şahdəniz-2”dən ibarət deyil, “Abşeron”, “Ümid”, “Qarabağ”, “Babək” və digər yataqlarımız da var ki, hazırda təsdiq olunan qaz ehtiyatlarımızın həcmi 2,6 trilyon kubmetrə bərabərdir. Azərbaycanda aşkar edilmiş ən böyük təbii qaz mənbəyi olan

"Şahdəniz" yatağı CQD-nin əsas resurs bazasıdır. Bu nəhəng yatağın ilkin geoloji qaz ehtiyatı 1,2 trilyon kubmetrdir.

CQD Xəzər dənizinin qaz resurslarını ilk dəfə birbaşa Avropa bazarlarına çıxararaq, bütöv regionun enerji xəritəsini dəyişir. Digər tərəfdən, təbii qaz 2040-cı ilə qədər ildə 1,5-1,8% artaraq ən tez hasil edilən yanacaq növü olacaq. Həmin dövrdə qlobal ümumi təbii qaz ixracı 50% artacaq və ekspertlərin proqnozlarına görə, Avropa bazarı bu artımın çoxunu özünə cəlb edəcək ki, bu da CQD infrastrukturunun önəmini bir daha artırmış olacaq. CQD üzrə ixrac olunacaq qaz həcmləri ilə bağlı idxalçı dövlətlərlə 15 il müddətinə razılaşmanın bağlanması isə əlbəttə ki, layihəni digər alternativlərindən üstün edən başlıca amillərdən biridir. Hələ də tikilməkdə olan, idxal bazarı perspektivləri qeyri-müəyyən olan layihələrlə müqayisədə CQD-nin əsas üstünlüklərindən biri layihənin Aİ tərəfindən təsdiq olunmasıdır. Bu dəhlizin başa çatması ölkəmizə böyük məbləğdə kapitalın daxil olmasına şərait yaradacaq, nəticə etibarı ilə bu, Azərbaycanın milli gəlirinin formalaşmasının şaxələndirilməsi üçün əlavə imkanlar verəcək. Hazırda "Şahdəniz" yatağının hər iki mərhələsindən gəlirlərimizin 100 milyard ABŞ dollarından çox olacağı proqnozlaşdırılır, lakin gəlirlərin daha çox ola biləcəyi də istisna edilmir, orta və uzaq perspektivdə Azərbaycanın özünün də Avropa ölkələrinə qaz ixracında tranzit ölkə kimi çıxış edə biləcəyi qeyd edilir.

Ekspertlər hesab edirlər ki, qarşıdan gələn 100 il ərzində Azərbaycan xalqına xidmət edəcək və milli iqtisadiyyatın inkişafında mühüm amil olacaq "Cənub Qaz Dəhlizi"nə uzunmüddətli investisiya proqramı kimi baxmaq lazımdır. Müşahidəçilərin ümumi qənaəti belədir ki, CQD Azərbaycanın regionda və Avropada əhəmiyyətinin artmasını, Azərbaycanla Qərb arasında münasibətlərin daha yüksək pilləyə qalxmasını şərtləndirəcək, region ölkələrinin öz enerji resurslarını dünya bazarına çıxarmaq üçün yeni mənbə rolunu oynayacaq, Azərbaycanın təkcə enerji ixrac edən ölkə kimi deyil, həm də onu nəql edən və tranzit ölkə kimi əhəmiyyətini artıracaq. "Cənub Qaz Dəhlizi" Azərbaycan üçün enerji təhlükəsizliyi layihəsidir. Çünki Azərbaycan beynəlxalq bazarlara böyük həcmdə təbii qazı ixrac etmək imkanı qazanacaq. Azərbaycan şaxələndirmədə də öz rolunu oynayır.

"Cənub Qaz Dəhlizi" ilk dəfə olaraq Xəzər regionundakı qaz təchizatını Avropa bazarlarına birləşdirməklə bütün regionun enerji xəritəsini dəyişəcək. "Cənub Qaz Dəhlizi" boru kəməri sistemi elə layihələndirilib ki, gələcəkdə mümkün əlavə qaz həcmlərinin təchiz edilə bilməsi üçün onun ötürücülük gücü öz ilkin ötürücülük gücünün iki misli qədər artırıla bilər.

"Cənub Qaz Dəhlizi" Aİ-nin enerji siyasətinin tərkib hissəsidir. İllərdir ki, Avropa Birliyinin üzv dövlətlərində təbii qazın istifadəsi və idxalı artmışdır. Avropada təbii qaz istehsalı azalmış və idxaldan asılılıq artmışdır. Əvvəlki kəsilmələrə və məhdudiyyətlərə və perspektivli enerji təchizatı kəsintilərinə reaksiya olaraq, ABŞ-ın köməyi ilə Avropa səlahiyyətliləri tədarükün şaxələndirilməsi alternativlərini axtararaq enerji təhlükəsizliyini artırmağa başladılar. Şaxələndirmə yanaşması ilə ABŞ-ın enerji təhlükəsizliyi baxışının əksinə olsa da, bu cür reaksiyalardan biri, bəzi AB ölkələri tərəfindən Rusiya qazı üçün alternativ tranzit yollarının təşviq edilməsi seçimi idi. Bu proses Avropanı təbii ehtiyatlarından siyasi məqsədlər üçün istifadə edən Rusiyadan daha çox asılı vəziyyətə gətirdi, çünki Rusiya Avropanın əsas qaz təchizatçısıdır. "Cənub Qaz Dəhlizi", Aİ-nin Rusiyadan asılılığını azaltmaq məqsədilə Avropaya marşrutların və qaz ehtiyatlarının şaxələndirilməsini təşviq etmək üçün Avropa Komissiyası tərəfindən irəli sürülmüş layihədir. Vaşinqtonun bölgədəki maraqlarından dolayı, "Cənub Qaz Dəhlizi" yalnız Aİ üçün deyil, həm də ABŞ üçün geopolitik əhəmiyyət daşıyır. Bu da ABŞ-ın Aİ-nin səylərini fəal şəkildə dəstəkləməsinin əsas səbəbi idi. Layihə başlayandan bəri Dəhlizin yolu və miqyası Rusiyanın qaz inhisarı olan "Qazprom"un Aİ enerji bazarındakı maraqları, eləcə də Rusiyanın Xəzər dənizi bölgəsindəki siyasi

maraqları ilə toqquşur. Buna görə Moskva layihənin həyata keçirilməsini əngəlləməyə, maliyyə və texniki məqsədəuyğunluğunu şübhə altına almağa çalışdı. Bu hədəfə çatmağın yollarından biri alternativ boru kəməri – "Mavi axın 2"-nin inkişafına və hal-hazırda "Cənub Qaz Dəhlizi" ilə eyni bazarlara qaz tədarük etməyi hədəfləyən "Cənub axını" layihəsini dəstəkləmək idi. Rusiya 2009-cu ildə bu qaz istehsalçılarının Avropaya alternativ yol tapmaq marağını azaltmaq üçün Mərkəzi Asiya qazı üçün daha çox ödəyəcəyini bildirdi. O, indiyə qədər Cənub Dəhlizi üçün yeganə təhlükəsiz qaz mənbəyi olan Şahdəniz yatağında çıxarılan bütün qazı almağı təklif etdi. Lakin bu günə qədər Moskvanın cəhdləri istənilən nəticəni vermədi. "Cənub Qaz Dəhlizi" layihəsi Avropa Birliyinin əsas enerji və geosiyasi təşəbbüsü olaraq qalacaq və Azərbaycan qazını Aİ-yə ixrac etməkdə maraqlıdır.

Günümüzə qədər ənənəvi enerji mənbələri enerji ehtiyacının əksər hissəsini qarşılamışdır. Ancaq bu mənbələrə hər ölkənin sahib olmaması, giriş və tranzitin yüksək maliyyə tələb etməsi, ehtiyatların tədricən azalması və ətraf mühitə dəyən ziyan səbəbindən enerji istehsalında yeni mənbələrə ehtiyac yaranmışdır. Enerji resurslarının məhdud olduğuna görə hər bir ölkə enerji təhlükəsizliyi problemi ilə qarşılaşır. İstehlak səviyyəsinin dəyişməsi, əhalinin artımı və ya iqtisadi artımla bağlı tələb artımı, ekoloji və təhlükəsizlik problemləri ilə alternativ enerji qaynaqları enerji təchizatı təhlükəsizliyinin önəmli faktorudur. İnkişaf etmiş ölkələr bir tərəfdən enerji istehlakını azaldacaq, digər tərəfdən, milli gəliri azaltmadan məhsuldarlığı artırmaqla, enerji intensivliyini azaldacaq yeni texnologiyalara sərmayə qoyurlar. İnkişaf etdirilmiş yeni texnologiyalardan istifadə edərək, enerji istehlakı azalır və enerjiyə qənaət təmin edilir.

Bu gün dünya əhalisinin 2030-cu ildə istehlak etdiyindən 45% daha çox enerjiyə ehtiyac duyacağı düşünülür, bununla bağlı yeni enerji istehsalının artan tələbatı ödəyə biləcəyinə dair narahatlıqlar yaranır.

Bu fonda bərpa olunan enerji növü enerji istehsalında bərpa oluna bilməyən enerjiyə alternativ olaraq ön plana çıxdı. Bütün dövlətlərin enerji ehtiyaclarının müəyyən bir hissəsini öz imkanları ilə istehsal etmə qabiliyyəti müsbət şəkildə qarşılandı, lakin bərpa olunan enerji istehsalı bütün dünyaya yayılmamış və istənilən ölçüyə çatmamışdır. Ancaq müəyyən bir zamandan sonra bərpa olunan enerjinin rolunun əhəmiyyətli dərəcədə artacağını söyləmək səhv olmaz. Bərpa olunan enerji mənbələrinədən istifadə ətraf mühitin çirklənməsi baxımından da xeyli əhəmiyyətlidir. Ənənəvi enerji mənbələrinə kömür, neft, təbii qaz və nüvə yanacağı, bərpa olunan enerji mənbələrinə isə su, günəş, külək, biokütlə enerjiləri və geotermal enerji aid edilir. Ekoloji baxımdan su enerjisi dünyada ən təmiz enerji növüdür. Artıq bəzi Avropa ölkələrində əhalinin sıx yaşadığı yerlərdə zibilləri yandırmaqla ondan enerji alınır. Zibillərin yandırılmasından alınan enerji hesabına ətrafdakı yaşayış məntəqələri istilik və elektrik enerjisi ilə təmin edilir. Yandırılmış tullantıların qalıqlarından isə gübrə kimi torpaqların münbitliyini artırmaq məqsədilə geniş istifadə olunur. Yer qatının istiliyi bir çox ölkələrdə sənaye, kənd təsərrüfatı, məişət və kommunal sahələrdə və təbabətdə geniş istifadə olunur. Günəş enerjisi də dünya da ən əlverişli mənbələrdən biridir və xüsusilə, günəşli ərazilər üçün daha perspektivlidir. Külək enerjisi digər alternativ enerji mənbələrinə nisbətən maya dəyərinə, ekoloji təmizliyinə və tükənməzliyinə görə ən sərfəlisidir.

Arzu olunan yerə hələ çatılmasa da, enerji istehsalında bərpa olunan enerjinin payı və bu baxımdan şüur zamanla artır.

Enerji resursları ilə zəngin olmasına və dünyada enerji resurslarının ixracatçısı kimi tanınmasına baxmayaraq Azərbaycan Respublikasında bərpa olunan enerji mənbələrindən istifadəyə də diqqət edilir. Azərbaycan bərpa olunan enerji mənbələri yüksək potensialına malik olan ölkələrdəndir. Belə ki, ölkəmizin iqtisadi cəhətdən əlverişli və texniki cəhətdən istifadəsi mümkün olan bərpa olunan enerji

mənbələrinin potensialı 26 940 MVt, o cümlədən, külək enerjisi üzrə 3 000 MVt, günəş enerjisi üzrə 23 040 MVt, bioenerji potensialı 380 MVt, dağ çaylarının potensialı 520 MVt həcmində qiymətləndirilir.

Ölkəmizdə bərpa olunan enerji potensialından səmərəli istifadə edilməsi məqsədilə atılmış əsas addımlardan biri 2004-cü ildə "Azərbaycan Respublikasında alternativ və bərpa olunan enerji mənbələrindən istifadə olunması üzrə Dövlət Proqramı"nın qəbul edilməsi olub. 2030-cu ilə qədər elektrik enerjisi istehsalı gücündə bərpa olunan enerji mənbələrinin payının 30%-ə çatdırılması əsas hədəf kimi müəyyənləşdirilib. Bu hədəfə nail olmaq üçün dövlət investisiyası ilə yanaşı, özəl, o cümlədən xarici investisiya hesabına yeni istehsal güclərinin istifadəyə verilməsi istiqamətində tədbirlər həyata keçirilir.

Yerləşdiyi əlverişli coğrafi mövqe və iqlim şəraiti Azərbaycanda ekoloji cəhətdən təmiz alternativ enerji mənbələrindən geniş istifadə edilməsinə imkan verir. Bu, istilik elektrik stansiyalarında yandırılan böyük miqdarda yanacağa qənaətlə yanaşı, ətraf mühitə atılan zərərli tullantıların miqdarını da xeyli azaldar. Ölkənin təbii potensialından istifadə etməklə alternativ enerji mənbələrinin elektrik və istilik enerjisi istehsalına cəlb edilməsi elektroenergetikanın gələcək inkişaf istiqamətlərində mütərəqqi dəyişikliklər etməyə imkan yaradar. Alternativ enerji mənbələrindən istifadə edilməsi imkan verəcək ki, ölkədə istilik elektrik stansiyalarında yandırılan böyük miqdarda yanacağa qənaət edilsin və ətraf mühitə atılan zərərli tullantıların miqdarı azaldılsın. Respublikamızın təbii potensialından istifadə etməklə alternativ enerji mənbələrinin elektrik və istilik-enerjisi istehsalına cəlb edilməsi elektroenergetikanın gələcək inkişaf istiqamətlərini müəyyənləşdirməyə əsas verir.

Energetikanın inkişafı, hələlik, başlıca olaraq bərpa olunmayan eneji mənbələrinə, yəni karbontərkibli və ya uran yanacaqlarına əsaslanır. Bu mənbələrin ekoloji çatışmamazlığı qeyri-ənənəvi (alternativ) bərpa olunan ekoloji təmiz enerji mənbələrindən daha geniş istifadənin tədqiqini tələb edir.

Nəticə etibarilə, enerji təhlükəsizliyini müəyyən bir ölkənin və ya bütövlükdə dünya birliyinin kifayət qədər enerji təchizatı ilə təmin edilməsi kimi müəyyənləşdirə bilərik. Təhlükəsizlik tədbirlərinə enerji mənbələrinə çıxışın təmin edilməsi; texnologiyaların inkişafı və tətbiqinin təmin edilməsi; enerjinin istehsalı, saxlanması və ötürülməsi üçün kifayət qədər infrastrukturun yaradılması; qüvvədə olan tədarük müqavilələrinin təmin edilməsi və əlverişli qiymətlərlə enerjiyə çıxışı aid edə bilərik.

Enerji təhlükəsizliyi anlayışının yeni və geniş açıqlaması siyasi, maliyyə, texnoloji, sosial və hərbi məsələləri daşıyacaq şəkildə sadəcə dövlətləri deyil, özəl sektor və beynəlxalq təşkilatlar ilə ictimaiyyəti də maraqlandıran şəkildə genişlənmişdir.

"Cənub Qaz Dəhlizi" layihəsi haqqında belə nəticəyə gəlmək olar ki, bu CQD enerji mənbələri və marşrutları şaxələndirdiyinə görə Avropa üçün enerji təhlükəsizlik layihəsidir. Bu layihə enerji ölkəsi kimi Azərbaycanın mövqeyini gücləndirdiyi, Azərbaycan qazını Avropaya birbaşa çıxardığı üçün və ölkəyə milyardlar qazandıracağına görə enerji təhlükəsizliyi layihəsidir.

Azərbaycanda hazırda energetika ilə bağlı müxtəlif yeni lahiyələr hazırlanır, həyata keçirilir. Eyni zamanda, köhnə elektrik stansiyaların gücünün daha da artırılması işləri nəzərdə tutulub. Bütün bu kompleks işlər yerinə yetirildikdən sonra alternativ enerji mənbələrinin zəngin olduğu respublikamızın enerji sisteminin gücü xeyli artacaq və sonra Azərbaycan elektrik enerjisini Avropaya ixrac edəcək.

**Ədəbiyyat:**


1. Hacızadə, E. M. 2009-cu ildə Azərbaycan Dövlət İqtisad Universitetində yerinə yetirilmiş büdcə təyinatlı elmi-tədqiqat işlərinin yekununa həsr edilmiş elmi-praktiki konfransın tezisləri. Azərbaycan Dövlət İqtisad Universiteti. Bakı: – 2010. 0,1 ç.v.
2. Özer, S. "Avrupa Birliği, Rusya ve ABD"nin Avrupa Güvenliğine Farklı Yaklaşımlarının Transatlantik İttifakına Etkileri, Akdeniz Üniversitesi İİBF Dergisi (15), – 2008.
3. Savunma Bilimleri Dergisi, cild 15, nömrə 1, – 2016.
4. Sevim, C. Küresel enerji politikalarindaki yeni dinamikler ve yenilenebilir enerji politikalari, https://www.emo.org.tr/ekler/5074c270522bfef_ek.pdf, 2011
5. Ержов, Ю.А. Глобальная энергетическая безопасность и интересы России, монографическое исследование, Москва: – 2009. – 229 с.
6. Плачкова, С.Г., Ландау, Ю.А., Дунаевская, Н.И., Данилко, Г.Д., Плачков, И.В., Киевский, М.И. Электроэнергетика и охрана окружающей среды. Функционирование энергетики в современном мире, 2011.
7. Телегина, Е.А., Студеникина, Л.А. Энергетическая безопасность и энергетическая интеграция в Евразии в XXI веке: азиатский профиль, Москва: Информ-Знание, – 2006.– 223 с.
8. Belyi Andrei. Energy security in International Relations (IR) theories, Cathedra on political issues of international energy, Higher School of Economics 2012, 105 p.
9. D. Yergin Ensuring Energy Security, Foreign Affairs, Volume 85, No 2, 2006
10. E. W. Colglazier and D. A. Deese Annual Review of Energy, Volume 8, Annual Review Inc., 1983.
11. İnternational Energy Agency, World Energy Outlook 2007-Global Energy Prospects: Impact of Development in China and India, ch. 4, The World's Energy Security, Paris, – 2007. – 663 p.
12. L. Joppling (Rapporteur) Energy Security: Co-operating to Enhance the Protection of Critical Energy Infrastructures, 157 CDS 08 E rev 1.
13. Mikko Palonkorpi. Energy Security and the Regional Security Complex Theory, Alexander Institute, University of Helsinki, – 2016. – 19 p.
14. Rachel S. Turner Neo-Liberal Ideology: History, Concepts and Policies, Edinburgh University Press, U.K (2008). – 118 p.
15. Roland Dannreuther. International Relations Theories: Energy, Minerals and Conflict, Polinares, working paper, No: 8, E.U., – 2012.
16. https://www.dictionary.com/browse/energy
17. https://www.iea.org/topics/energy-security


***Açar sözlər:*** *enerji təhlükəsizliyi, enerji ehtiyatları, milli təhlükəsizlik, "Cənub Qaz Dəhlizi" layihəsi, alternativ və bərpa olunan enerji*

**Tahmina Masimova**
*PhD Candidate, Department of International Relations,*
*Baku State University*

# THE CONCEPT OF ENERGY SECURITY AND ITS ESSENCE

## SUMMARY

Energy resources are the most important and vital factors in our daily life, and energy and industrial products are the most important and vital factors in our consumption. For this reason, all nations must provide the energy they need for their people and economies in an uninterrupted, reliable, environmentally friendly and cost effective manner. As a result of limited energy resources, every country faces the problem of energy security, and therefore in the modern world, the supply of fuel and energy resources, as well as energy efficiency is one of the important indicators of the state's development in international geopolitics. Another problem is the inequality in the geographical location of fuel and energy resources. This, in turn, contributes to the strengthening of cooperation and dialogue between states, or, conversely, stimulates the formation of various political disputes over these resources. In this context, it is very important that Azerbaijan enters the period of recognition as the world's second largest energy exporter of natural gas. In this regard, the article describes the concept and essence of energy security, as well as the energy security policy of the Republic of Azerbaijan and the energy security project "Southern Gas Corridor".

***Keywords:*** *energy security, energy resources, national security, "Southern Gas Corridor" project, alternative and renewable energy*

**Тахмина Масимова**
*Докторант кафедры Международных отношений*
*Бакинского Государственного Университета*

# ПОНЯТИЕ И СУЩНОСТЬ ЭНЕРГЕТИЧЕСКОЙ БЕЗОПАСНОСТИ

## РЕЗЮМЕ

Энергетические ресурсы являются наиболее жизненно важными факторами повседневной жизни, а энергия и промышленные продукты являются жизненно важными факторами нашего потребления. По этой причине все государства должны обеспечивать необходимой энергией людей и экономику бесперебойным, надежным, экологически чистым способом, а также с низкими затратами. В результате ограниченности энергоресурсов каждая страна сталкивается с проблемой энергетической безопасности и поэтому в современном мире обеспечение топливно-энергетическими ресурсами, а также энергоэффективность являются одним из важных индикаторных показателей уровня развития государства, а фактор энергетических ресурсов имеет исключительное значение в международной геополитике. Еще одна проблема - неравенство в географическом расположении топливно-энергетических ресурсов. Это, в свою очередь, способствует укреплению сотрудничества и диалога между государствами или, наоборот, стимулирует формирование различных споров по поводу этих ресурсов. В этом контексте вступление Азербайджана является очень важным фактором в период признания в качестве экспортера природного газа, как второго по значимости вида энергии в мире.  В этой связи в статье раскрываются понятие и сущность энергетической безопасности, а также анализируется политика энергетической безопасности Азербайджанской Республики и проект энергетической безопасности «Южный газовый коридор».

***Ключевые слова:*** *энергетическая безопасность, энергетические ресурсы, национальная безопасность, проект “Южный Газовый Коридор”, альтернативная и возобновляемая энергия*

## G Ə N C T Ə D Q İ Q A T Ç I L A R
## Y O U N G R E S E A R C H E R S

## D Ü N Y A İ Q T İ S A D İ Y Y A T I
## W O R L D E C O N O M Y

UOT 339.5

**SAMİRƏ ALLAHVERDİYEVA**
**Qərbi Kaspi Universitetinin doktorantı**
*e-mail: samira.adiu@gmail.com*

# XARİCİ TİCARƏT SİYASƏTİNİN FORMALAŞMASININ KONSEPTUAL ƏSASLARI

Dünya ticarəti müasir dövrdə əməyin dərin beynəlxalq bölgüsünün, hər bir ölkənin texniki-iqtisadi inkişaf səviyyəsinə və onun təbii-coğrafi şəraitinə uyğun olaraq ölkələrin ayrı-ayrı məhsul növlərinin istehsalı üzrə ixtisaslaşmasının nəticəsi kimi çıxış edir. Ölkənin rifahı naminə əmtəə-malın, xidmət və kapitalın beynəlxalq dövriyyəsinin əhəmiyyəti qədim zamanlardan tanınır. Hər bir ölkənin rifahının yaxşılaşdırılmasında xarici ticarətin çox böyük və danılmaz rolu vardır. O, istehlak, texnologiyalarının ötürülməsi və yaxşı gəlir gətirməsi üçün çox geniş imkan yaradır. Ticarət siyasəti ticarət aparan partnyorlar arasında müqavilələr bağlanmasına əsaslanır. Bu razılaşmaların açarı – cəlb olunmuş ölkələrin məqsəd və vəzifələrinin təyin olunmasıdır. Beynəlxalq ticarətin həcmi ixrac və idxaldan ibarət olub daima artır, mal və xidmətlərin fasiləsiz axını isə ölkələri bir-birinə daha sıx birləşdirir. Bir dövlətin ixracdakı iqtisadi səmərəsi o halda baş verir ki, həmin dövlətin mal və məhsula kəsdiyi qiymət dünya bazarındakı qiymətdən aşağı olsun və bazarda həmin məhsula tələbat olsun. Ümumiyyətlə tələb və təklifin uzlaşması çox önəmli faktordur. İdxal prosesi isə daha çox dövlətin özünün həmin mal və ya xidmətə olan xərcindən gətirməsinin sərfəli olmasını təsdiq etdiyindən sonra baş verir. Yəni xaricdən gəlməsinin xərci belə əlavə edilməsinə rəğmən həmin məhsulun kənardan gətirilməsi daha sərfəli olursa həmin məhsulu istehsal edib baha əldə etməkdənsə elə idxal olunması daha məqsədəmüvafiqdir. Beləliklə də, ölkə müəyyən məhsullara olan tələbatını tez bir zamanda ödəyir və onlara sərf olunacaq əlavə resursları başqa istiqamətlərə yönəldə bilir. Xarici ölkələrlə xarici ticarətin mal dövriyyəsini ixrac və idxalın ümumi həcmi təşkil edir. Yaxşı ixtisaslaşma və yaxşı təcrübə toplamaq üçün Beynəlxalq ticarətə qoşulmaq çox əhəmiyyətli, səmərəli nəticə göstərir, bu isə əlbəttə ki, istehsalı artırır. Beynəlxalq ticarət iqtisadi çiçəklənmənin ən etibarlı yollarındandır və hər bir vətəndaşın həyat səviyyəsinin yaxşılaşdırılmasının əsas amillərindən biridir. Beynəlxalq ticarət təhlili daxili bazar ticarətindən bir neçə xüsusiyyətinə görə fərqlənir ki, bunları da əsas olaraq üç hissəyə ayırmaq olar. Bu göstəricilər aşağıdakılardır:

**1. Genişlənən ticarət imkanları.** Beynəlxalq ticarətin əsas üstünlüyü ticarət üfüqlərinin genişlənməsindədir. Əgər insanlar yalnız ölkə daxilində istehsal olunan malların istehlakına məcbur olsaydılar, onda dünya həm maddi, həm də mənəvi cəhətdən kasıb olardı.

**2. Suveren dövlətlər.** Xaricdə ticarət adamları və firmaları müxtəlif ölkələrin daxili həyatına cəlb edir. Bu zaman hər bir ölkə sərhədi keçən işçi qüvvəsinin, malların və maliyyə aktivlərinin axınını tənzimləyir. Bu daxili ticarət prinsiplərinə əksdir, çünki burada vahid

valyuta dövr edir, pul və əmtəə mal region sərhədlərini sərbəst aşır, fəhlələrsə asanlıqla yeni iş yerlərinə keçə bilirlər.

**3. Valyuta məzənnəsi.** Dünyanın əksər ölkələrinin öz valyutaları vardır və beynəlxalq maliyyə sistemi borcludur ki, dolların, iyenanın və başqa valyutaların maneəsiz hərəkətini təmin etsin, əks halda dünya ticarətinin dağılma riski çox böyükdür. Beynəlxalq ticarətin inkişafına təkan verən bir sıra amillər vardır ki, bunları üç hissəyə ayırmaq olar: birincisi, istehsalın müxtəlif şəraiti; ikincisi, xərclərin aşağı salınması; və üçüncü ölkələr arasında istehlakçıların zövqü. Ticarətin ikinci səbəbi onunla izah olunur ki, bir çox texnoloji proseslərə miqyasca qənaət xasdır, yəni istehsal həcminin artımı ilə yanaşı çəkilən orta xərclər az olmalıdır. Məsələn, müəyyən məhsul bazarında aparıcı mövqelərə çıxan ölkə bu məhsulun iri istehsalçısına çevrilə bilər, bununla yanaşı xərcləri az çıxar. Nəhayət, ticarətin üçüncü səbəbi nəyə üstünlük verilməsindədir. Hətta bütün regionlarda istehsal şəraitləri eyni olsaydı belə, onda da ölkələr beynəlxalq ticarətə cəlb olunardılar, çünki, əgər onların sakinlərinin zövqləri müxtəlifdirsə, deməli, müxtəlif mallara da üstünlük verəcəklər. Qeyd etmək istərdim ki, bu gün inkişaf etmiş sənaye ölkələrində orta hesabla məhsul, xammal və materialların yarısı importdan alınır və ya xaricdəki filiallarda və törəmə şirkətlərdə istehsal olunur. Bu, sahibkarlıq fəaliyyətinin beynəlmiləlləşməsidir. Xarici iqtisadi əlaqələrin inkişafı ayrı-ayrı ölkələrin milli iqtisadiyyatının beynəlxalq təsərrüfat miqyasında inteqrasiyasının sürətləndirilməsinin əsas şərtidir. Ölkələr iqtisadi inteqrasiya axınlarına qoşularaq bu yolla öz istehsal güclərini, istehsalın səmərəliliyini və bütün bunların nəticəsində isə əhalinin ümumi rifah səviyyəsini artırmağa çalışırlar. Beynəlxalq əmək bölgüsünün üstünlüklərindən istifadə edilmədən ölkə iqtisadiyyatının inkişafında əsaslı dönüş aparmaq mümkün deyildir. Dünya ölkələrindən heç biri öz inkişafını xarici ölkələrdən təcrid olunmuş şəkildə təmin edə bilmədiyinə görə öz aralarında beynəlxalq və regional səviyyədə iqtisadi əlaqələr yaratmağa çalışırlar. Bu bir növ qarşılıqlı əlaqələrin sıxlaşması və həm də dövlətlərin qarşılıqlı şəkildə inkişafının sürətlənməsidir. Müstəqil Azərbaycan Respublikasında yüksək maddi-texniki bazaya malik olması, əmək bölgüsü və kooperasiyasının geniş vüsət alması və s. milli iqtisadiyatımızın beynəlxalq əməkdaşlıqda mövqeyinin daha da artmasına obyektiv zərurət yaradır. Ölkənin böyük enerji, mineral resursları, nadir iqlimin potensialı ona milli iqtisadiyyatın sürətlə inkişaf etdirilməsi və qarşılıqlı faydalı şərtlərlə dünya ölkələri ilə iqtisadi ticarət əlaqələrinin genişləndirilməsi və eləcə də xarici investisiyanın ölkəyə axını üçün əlverişli şərait yaradır.

Bildiyimiz kimi müstəqillik əldə etdikdən sonra xarici iqtisadi siyasətimizi artıq özümüz müəyyən etməyə başlamışıq. Ölkəmizin Asiya və Avropanın kəsişməsində çox əlverişli coğrafı mövqedə yerləşməsi bu siyasətin uğurla həyata keçirilməsini çox sürətləndirir və deyə bilərik ki, bu səbəbdən çox şanslı Respublikanın vətəndaşlarıyıq. Bu siyasət sosial-iqtisadi inkişaf proqramında xarici iqtisadi siyasətə əsasən dörd istiqamətdə həyata keçirilir (1, s.35):

1. Xarici ticarət siyasəti;
2. Ödəniş balansı siyasəti;
3. Xarici investisiya siyasəti;
4. Xarici yardım siyasəti.

Respublikamız müstəqillik əldə etdikdən sonrakı dövrdə xarici ticarət siyasəti yeni maliyyə mənbələrinin yaradılması və istifadə olunmasına xidmət edir ki, bu siyasətin əsas təsir vasitəsi kimi tarif və qeyri-tarif tənzimləmələrini göstərə bilərik. Ölkə iqtisadiyyatının və əhalinin gündəlik tələbat mallarına olan ehtiyacının ödənilməsində xarici ticarətin əlbəttə ki çox böyük əhəmiyyətə malikdir. Real həyatda dövlətlər xarici ticarətə bu və ya digər şəkildə müdaxilə edirlər. Xarici ticarətə müdaxilə etmək üçün istifadə edilən ən mühüm vasitələrdən biri gömrük tarifləridir və xarici ticarətin inkişaf etdirilməsinə müsbət təsirini göstərmişdir. “Atəşkəs” rejimi Azərbaycanın təhlükəsiz və gəlirli investisiya zonası kimi tanınmasına zəmin yaratdı. Bundan sonra

"Əsrin müqaviləsinin" imzalanması ilə dünyanın bir sıra iri investisiya şirkətlərinin Azərbaycana gətirilməsi dünyanın aparıcı ölkələrinin Qafqazda sabit sülhün saxlanılmasında marağını daha da artırdı. Yaranmış münbit şərait iqtisadiyyatın digər sahələrinə də xarici investisiyaların yatırılmasına və bunun sayəsində daxili ticarətin formalaşması və inkişafına səbəb oldu. Bununla yanaşı daxili ticarətin inkişaf etdirilməsi üçün ölkənin iqtisadi rayonlarını və kiçik sahibkarlığın da inkişaf etdirilməsi zəruri idi. Bu məqsədlə ölkəmiz regionların iqtisadi inkişafının surətləndirilməsini nəzərdə tutan dövlət proqramları və eləcə də sahibkarlığın inkişafı ilə əlaqədar Sahibkarlığa Kömək Milli Fondunun xətti ilə sahibkarlara güzəştli kreditlərin verilməsi barədə müvafiq qanunlar hazırlamışdır.

Beynəlxalq aləmdə Azərbaycanın mövqeyinin möhkəmləndirilməsi və imicinin yüksəldilməsi, Azərbaycan mənşəli malların və xidmətlərin dünya bazarına maneəsiz çıxarılmasının təmin olunması, ölkəmizin ixrac potensialının gücləndirilməsi və ümumiyyətlə ixracın strukturunun təkmilləşdirilməsi, beynəlxalq ticarətdə ölkəmizin mənafelərinin qorunması, xarici tərəf müqabilləri ilə eyni şərtlərlə ticarət əlaqələrinin qurulması, milli istehsalın inkişaf etdirilməsi üçün əlavə stimulların yaradılması, sağlam rəqabət şəraitində ölkədə istehsal olunan məhsulların keyfiyyətinin artırılması baxımından Azərbaycanın ÜTT-yə qəbul olunması müsbət nəticələr vermişdir (2, s.12). İqtisadi həyatın beynəlmiləlləşməsi, Azərbaycanın ağır şərtlər altında gedən müasir dünya ilə inteqrasiyasının bütün istiqamətləri yeni imkanlar yaratmaqla yanaşı, yeni problemlər, bəzən də təhlükələr yaratmaqdadır. Bu imkanlardan səmərəli istifadə edilməsi, mövcud problem və təhlükələrin vaxtında aşkara çıxarılıb öyrənilməsi bu gün Azərbaycan üçün həyati əhəmiyyət kəsb edən məsələlərdəndir. Azərbaycan Respublikasının indiki sosial-iqtisadi mənzərəsi onun dünya təsərrüfat sisteminə inteqrasiyasının sürətləndirilməsi üçün zəruri olan möhkəm xarici ticarət əlaqələri özülünün yaradılması ilə səciyyələnir. Xarici ticarət əlaqələrinin əsas məqsədi respublikamızın beynəlxalq iqtisadi münasibətlər sisteminə bərabərhüquqlu inteqrasiyası, dünya iqtisadiyyatında formalaşan ixtisaslaşma səviyyəsinə uyğun beynəlxalq əmək bölgüsündə iştirak etməklə iqtisadi səmərə yaratmaqdır. Baş verən prosesləri izlədikdə nəticə çıxara bilərik ki, artıq Azərbaycan dünya təsərrüfat sisteminə surətlə inteqrasiya edir və xarici ticarət əlaqələrini durmadan genişləndirir. Dövlətimizin 1994-cü ildə "Əsrin müqaviləsi"nin bağlanmasından sonra yürütdüyü "açıq qapı" siyasəti iqtisadiyyatın müxtəlif sahələrinə yetərincə xarici investisiyaların cəlb edilməsinə əlverişli zəmin yaratmışdır. Bu isə xarici ticarət əlaqələrinin genişləndirilməsində həlledici rol oynayan bir amildir. Səmərəli xarici ticarət əlaqələrinin qurulması, ilk növbədə güclü iqtisadiyyatın yaradılmasını və milli bazarın formalaşdırılmasını tələb edir. Beynəlxalq ticarət nəzəriyyələrinin təkamülü sxemdə verilmişdir (3, s.6).

Müasir qloballaşma şəraitində dövlətlərarası münasibətlər müxtəlif istiqamətlərdə inkişaf edir. Həmin münasibətlərin ən xarakterik xüsusiyyətlərindən biri də bu xüsusiyyətlərin beynəlxalq əməkdaşlıq zəminində qurulması zəruriliyi ilə əlaqədardır. Beynəlxalq münasibətlərin tənzimlənməsinin əsas istiqamətlərindən biri kimi ticarət əlaqələrini göstərmək olar. Ümumi formada desək ticarət əlaqələrinin yaradılması dövlətlərarası sıx münasibətlərin qurulmasının təkanverici amillərindən biridir. Qeyd etmək istərdim ki, ticarət əlaqələrinin qurulması da gömrük əlaqələrinin düzgün tənzimlənməsi ilə çox asılıdır. Məsələn, əgər dövlət gömrük münasibətlərində azad ticarət siyasəti yeridirlərsə, bu artıq iqtisadi əlaqələrin inkişafı deməkdir. Gömrük münasibətlərinin inkişafı isə dövlətlərin Dünya Ticarət Təşkilatı sisteminə daxil olması üzrə ümumi tendensiyanın inkişafında əhəmiyyətli amildir. Ticarət siyasəti xarici iqtisadi fəaliyyətin həyata keçirilməsində və dünya birliyi dövlətlərinin maraqlarının balanslaşdırılmasında mühüm vasitədir. Beynəlxalq ticarət münasibətlərinin inkişafı ilə əlaqədar olaraq ticarət hüququnda




**Sxem.** Beynəlxalq ticarət nəzəriyyələrinin təkamülü [3, s.55]

azad iqtisadi zonalar, müasir dövlətlərarası münasibətlər sferasında gömrük-tarif sistemləri, gömrük güzəştləri hüququ, dövlətlərin gömrük nəzarəti əməliyyat funksiyalarının beynəlxalq-huquqi mexanizmi (beynəlxalq gömrük prosesi), kontrabanda və gömrük işi sferasında digər cinayətlərlə mübarizədə dövlətlərin əməkdaşlığın, ticarət münasibətlərinin əlaqələndirilməsində universal, regional və ikitərəfli əməkdaşlıq nəzərə alınmalıdır. Dünya dövlətlərinin ÜTT-yə daxil olması gömrük işi sferasında beynəlxalq əməkdaşlıq istiqamətində mühüm əhəmiyyət kəsb edir. Belə ki, qəbul edilmiş standartlara uyğun olaraq, milli ticarət

və gömrük tənzimlənmə sisteminin unifikasiya edilməsi zəruridir. Hal-hazırda milli iqtisadi inkişafının tələbləri nəzərə alınmaqla ticarət və gömrük siyasətinin inkişafını təmin etmək məqsədilə xarici ticarət və gömrük işi sahəsində qanunvericiliyin təkmilləşdirilməsi, gömrük rəsmilləşdirilməsi və nəzarəti prosedurlarının sadələşdirilməsi, xarici ticarət əməliyyatlarının gömrük rəsmiləşdirilməsi üçün təyinatlandırılmış mərkəzlərin yaradılması, yeni texnologiyaların səmərəli və inteqrasiya olunmuş istifadəsinin həvəsləndirilməsi, xarici ticarət əməliyyatları üzərində səmərəli nəzarətin təşkili və işgüzar dairələr arasında əməkdaşlıq əlaqələrinin inkişaf etdirilməsi olduqca vacibdir. Ticarət və gömrük münasibətlərinin tənzimlənməsində beynəlxalq və milli hüquq normalarının qarşılıqlı əlaqə məsələlərinin təhlili problem üzrə kifayət qədər əhəmiyyətlidir. AR Konstitusiyasının 148-ci maddəsinin 2-ci bəndində (4) qeyd edilir ki, AR-in tərəfdar çıxdığı beynəlxalq müqavilələr AR-in qanunvericilik sisteminin ayrılmaz tərkib hissəsidir. Daha sonra, AR Konstitusiyasının 151-ci maddəsində (4) göstərilir ki, AR-in qanunvericilik sisteminə daxil olan normativ-hüquqi aktlar ilə (AR-in Konstitusiyası və referendumla qəbul edilən aktlar istisna olmaqla) AR-in tərəfdar çıxdığı dövlətlərarası müqavilələr arasında ziddiyyət yaranarsa, həmin beynəlxalq müqavilələr tədbiq edilir. Analoji müddəa AR Gömrük Məcəlləsində də əks olunmuşdur. Belə ki, AR Gömrük Məcəlləsinin 6-cı maddəsində qeyd edilir ki, AR-in dövlətlərarası müqavilələrində müəyyən edilən qaydalar bu Məcəllə və gömrük işi haqqında Azərbaycan Respublikasının digər qanunvericilik aktları ilə nəzərdə tutulmuş qaydalardan fərqlənərsə, dövlətlərarası müqavilələrin qaydaları tətbiq edilir. Lakin primatlıq nöqteyi-nəzərdən barada tək dövlətlərarası müqavilələrin məhdudlaşdırılması heç də əhəmiyyətli müddəa kimi qiymətləndirilə bilməz. Belə ki, hökumətlərarası müqavilələrdə də bir sıra müddəaların əks olunması, o cümlədən bu zaman beynəlxalq və milli hüquq normalarının qarşılıqlı nisbət məsələləri qeyri-müəyyən qalır. Dövlətlərin iştirakçısı olduğu beynəlxalq müqavilələrdə nəzərdə tutulmuş müddəaları öz qanunvericiliklərinə daxil etməsi və onların icrası üçün təminat vasitələrini yaratması gömrük siyasətinin əsas istiqamətlərindən olmalıdır. Fikrimizcə, AR-də gömrük siyasətinin həyata keçirilməsi zamanı beynəlxalq təşkilatlara inteqrasiya, xüsusilə də AR-in ÜTT-yə üzv olması qarşıya qoyulan ən əsas məsələlərdən biri olmalıdır.

Milli bazarı xarici rəqabətin zərərli təsirindən qorumaq və keyfiyyətsiz malların idxalının qarşısını almaq məqsədilə hərtərəfli düşünülmüş tədbirlər həyata keçirilməlidir. Bütövlükdə, gömrük-tarif tənzimlənməsinin elə bir dəqiq mexanizmi yaradılmalıdır ki, sui-istifadə hallarının qarşını almaq mümkün olsun. Daha sonra, AR-də gömrük işinin üzləşdiyi bir sıra problemlərin qarşısını almaq üçün ilk növbədə xarici iqtisadi fəaliyyətin liberallaşdırılması və AR-in beynəlxalq cəmiyyətdə daha fəal iştirakı şəraitində xarici iqtisadi fəaliyyətin tənzimlənməsinin və gömrük siyasətinin formalaşdırılmasının elmi əsasları hazırlanmalıdır. 2005-ci ilin iyununda Ümumdünya Gömrük Təşkilatı (ÜGT) Baş Məclisi tərəfindən beynəlxalq ticarətin sadələşdirilməsi və təhlükəsizliyinin təmin olunmasının "Çərçivə" standartları qəbul olunmuşdur. Bu sənədin qəbul edilməsində məqsəd gömrük prosedurlarının sadələşdirilməsi, beynəlxalq ticarət kanallarından terrorçu qruplaşmalar və cinayətkar birliklərin fəaliyyətinə yol verməmək və ticarət-gömrük mexanizmlərini şəffaflaşdırmaqdır. Burada həm də sistemin dünya gömrük xidmətləri tərəfindən tətbiq olunacaq əsas prinsipləri müəyyənləşdirilmişdir. AR-ÜGT qarşılıqlı münasibətlərinə gəlincə onu qeyd etmək lazımdır ki, dövlətimiz 1999-cu il iyununda Təşkilatın Maliyyə Komitəsinə, 2000-ci ildə isə Siyasi Komissiyaya üzv seçilmişdir. ÜGT-ə daxil olduqdan sonrakı inkişaf tsiklinə nəzər yetirsək Respublikamızın yüksələn xətt üzrə inkişaf etdiyinin açıq formada görə bilərik. Bu təşkilata daxil olmağın bir çox üstünlükləri olmaqla yanaşı bu əməkdaşlıqdan əldə etdiyimiz əsas uğurlar sırasına ÜGT-nin Regional Tədris Mərkəzinin digər Qafqaz ölkələrində deyil,

məhz Azərbaycanda yaradılmasına dair qərarın qəbul edilməsini də qeyd edə bilərik. Əlbəttə ki, bu baş vermiş hadisələrin hər biri Azərbaycanın qazandığı güvənin, uğurun nəticəsidir.

**Ədəbiyyat:**


1. Azər Pənahov. Beynəlxalq İqtisadi Siyasət. Metodik vəsait. Bakı, – 2016.
2. Vüqar Bayramov. Azərbaycanın ÜTT-ə Üzvlük Prosesinin Qiymətləndirilməsi üzrə Siyasət Sənədi. – Bakı, – 2016.
3. Hacıyev, Ş.H. Beynəlxalq ticarət nəzəriyyələri: metodoloji təkamül // İqtisad elmləri: nəzəriyyə və praktika, – 1998, – №1-2. – s.55.
4. Azərbaycan Respublikası Konstitusiyası.
5. Səmədov, A.H., Xarici-iqtisadi fəaliyyətin əsas kateqoriyalarına sistemli yanaşma. Bakı, – 2008.
6. Рыбалкин, А., Щербанин, Ю.А., Щетинин, В.Д. Международные экономические отношения. Москва: Юнити-Дана, – 2007.
7. Основы торговой политики и правила ВТО. Москва: Международные отношения, – 2006. – 443 с.
8. Bulletins of Korea Institute for International Economic Policy, 2005.
9. Azərbaycan Respublikası və Ümumdünya Ticarət Təşkilatı (ÜTT) https://un.mfa.gov.az/az/content/39
10. ÜTT və Azərbaycan https://economy.gov.az/article/vto/21561
11. Word Trade Organization https://www.wto.org/


***Açar sözlər:*** *xarici ticarət, konseptual əsaslar, xarici ticarət siyasəti, ödəniş balansı siyasəti, xarici investisiya siyasəti*

**Samira Allahverdiyeva**
*Doctoral student at the Western Caspian University*

## CONCEPTUAL BASES OF THE FORMATİON OF FOREİGN TRADE POLİCY

**SUMMARY**

International trade is one of the most important factors for the development of world countries. Without foreign trade, there is no turnover of goods and products, and in this case, no development process is possible. Existing interstate goods and services do not only regulate and strengthen mutual relations, but they also have a significant impact on meeting interstate needs. Although it may be difficult for a certain country to acquire a product, it is very likely that for another country it is very easy and cheap to produce, so why not just trade the problem between the countries?! I think that the formation of foreign trade policy should be the cornerstone of every state.

***Keywords:*** *foreign trade, conceptual bases, foreign trade policy, payment policy, foreign investment policy*

**Самира Аллахвердиева**
*Докторант Западно-Каспийского университета*

# КОНЦЕПТУАЛЬНЫЕ ОСНОВЫ ФОРМИРОВАНИЯ ВНЕШНЕТОРГОВОЙ ПОЛИТИКИ

## РЕЗЮМЕ

Международная торговля является одним из важнейших факторов развития стран мира. Без внешней торговли нет оборота товаров и продуктов, и в этом случае процесс развития невозможен. Существующие межгосударственные товары и услуги не только регулируют и укрепляют взаимоотношения, но и оказывают существенное влияние на удовлетворение межгосударственных потребностей. Для одной страны может быть трудно получить продукт, но для другой страны очень легко и дешево его произвести, так почему бы просто не обменять продукт с другой страной? Считаем, что формирование внешнеторговой политики должно стать краеугольным камнем каждого государства.

***Ключевые слова:*** *внешняя торговля, концептуальные основы, внешнеторговая политика, политика оплаты, политика иностранных инвестиций*

GƏNC TƏDQİQATÇILAR
YOUNG RESEARCHERS

BEYNƏLXALQ MÜNASİBƏTLƏR TARİXİ
HISTORY OF INTERNATIONAL RELATIONS

UOT 327(091)

**AYNUR KƏRİMOVA**
**Azərbaycan Respublikasının Prezidenti yanında**
**Dövlət İdarəçilik Akademiyasının doktorantı**
*e-mail:aynur.tofiggizi@gmail.com*

# SURİYA MÜNAQİŞƏSİ BMT VƏ ƏRƏB DÖVLƏTLƏRİ LİQASININ GÜNDƏLİYİNDƏ

Suriya Ərəb Respublikasının siyasi gələcəyi və bütövlüyü məsələsi ilə bağlı böyük narahatlıq mövcuddur. Bu narahatlıq ölkənin çoxdinli və çoxmillətli bir dövlət olması, həmçinin ölkə ərazisində terrorçu təşkilat və qurumların geniş yayılması kimi məsələlərdən qaynaqlanır. Əksər mütəxəssislər Suriyanın artıq bütöv dövlət kimi mövcud olmayacağını və din və etnik baxımdan müstəqil dövlətlərə parçalanacağını hesab edirdilər. (11) Beləliklə, ölkənin gələcəyinin heç də ürəkaçan olmayacağını vurğulayan fikirləri nəzərə alsaq, hadisələrin daha təhlükəsiz inkişaf variantı üçün Suriya müharibəsinə beynəlxalq birliyin müdaxiləsinin vacibliyini qeyd edə bilərik.

Suriyada qarşıdurmanın yüksək səviyyədə siyasiləşməsi, radikallaması və beynəlmiləlləşməsini nəzərə alaraq Bəşər Əsad hakimiyyəti münaqişənin daxildən, BMT, Ərəb Dövlətləri Liqası və Suriya müxalifəti isə beynəlxalq səviyyədə nizamlanmasının tərəfdarıdır.

Artıq 2011-ci ilin aprel ayında etiraz və nümayişlərin coğrafiyasının genişləndiyini və etirazçıların demokratik islahatların aparılması, çoxpartiyalılığın tətbiq olunması, toplaşmaq azadlığının təmin olunması, güc struktur aparatının ləğv olunması kimi siyasi tələblərinin formalaşmasını görən Suriya hakimiyyəti başa düşdü ki, baş verən hadisələrə göz yummaq mümkün deyil, çünki bu cür davranış Misir və Liviya hadisələrinin Suriyada da təkrarlanması təhlükəsini yarada bilərdi.

2011-ci il aprelin 21-də Bəşər Əsad 1963-cü ildən qüvvədə olan fövqəladə vəziyyətin ləğv olunmasına dair fərman imzaladı. (10) Fövqəladə vəziyyət rejiminin ləğv olunması ilə yanaşı, dövlət təhlükəsizliyi üzrə Ali Məhkəmə də ləğv edildi. Əsad hakimiyyəti tərəfindən atılan bu addımlar Suriya Ərəb Respublikasında şəffaf hüquqi dövlətin formalaşması və qanun çərçivəsində tənzimlənən etirazın ifadəsi sisteminin yaradılması üçün əsas ola bilərdi, amma hakimiyyət qüvvələri tərəfindən silah tətbiqinin davam etdirilməsi ölkədəki vəziyyəti daha da kəskinləşdirdi.

Nümayişçilərin siyasi tələblərinin və beynəlxalq təzyiqin artması Əsad hakimiyyətini güzəştə getməyə məcbur etdi. 2011-ci il avqustun 4-də Bəşər Əsad ölkədə çoxpartiyalılığın tətbiq olunması və ümumi seçkilərin keçirilməsi, həmçinin partiya məsələləri üzrə Komitənin, Ali Seçki Komissiyası, Milli Dialoq üzrə Komissiyanın yaradılması haqqında dekret imzaladı (16).

2011-ci il oktyabrın 15-də prezident Bəşər Əsad yeni konstitusiyanın hazırlanması üçün Komissiyanın yaradılması haqqında qanun imzaladı. Bu qanunun qəbulu nümayişçilərin əsas tələblərindən biri idi və qanun BƏƏS

rejiminə son qoymalı idi (13). Yeni konstitusiyanın layihəsi ilə bağlı ümummilli referendumun keçirilməsi 2012-ci ilin 26 fevral tarixinə təyin olunmuşdu. Referendum seçki hüququ olan əhalinin 60 faizinin iştirakı ilə keçirildi və 90 faiz lehinə səs topladı (17). Yeni konstitusiya ölkədə mövcud olan siyasi problemləri həll edə bilmədi, həm ölkə daxilində, həm də ölkə hüdudlarından kənarda mövcud olan əsas müxalifət partiyalarını məmnun etmədi. Həmçinin, ölkədə davam edən qanlı qarşıdurma da öz həllini tapmamış qaldı.

Yeni konstitusiyaya uyğun olaraq 7 may 2012-ci ildə Suriya Xalq Toplantısına ilk çoxpartiyalı seçkilər keçirildi. Hakim BƏƏS partiyasından başqa seçkilərdə 11 siyasi təşkilat iştirak etdi ki, onlardan 7-si çoxpartiyalılıq haqqında qanunun qəbulundan sonra yaranmışdı. Radikal Suriya müxalifəti parlament seçkilərində iştirak etmədi. Onlar Bəşər Əsadın hakimiyyətdən getməsindən sonra seçkilərin keçirilməsini tələb edirdilər. Seçkilərin nəticəsinə əsasən, BƏƏS tərəfdarı olan Milli Birlik bloku qalib gəldi və bu partiya parlamentdə 183 deputat yerinə sahib oldu. Seçkilərin nəticələrini dəyərləndirən prezident Bəşər Əsad bəyan etdi ki, “xalq hələ də islahatlar kursunu dəstəkləyir” (14). Seçki nəticələrinin dəyərləndirilməsi zamanı hakimiyyət xalqa bildirmək istəyirdi ki, ölkədə demokratik yenidənqurma tam sürətlə davam edir. Seçki nəticələrini “Müsəlman Qardaşları” da boykot etdi. Bu partiya seçkilərdə istəsə də istirak edə bilməzdi, çünki Suriyada dini və ya etnik mənsubiyyət əsasında partiyanın yaradılması qadağan olunmuşdu.

Yeni parlament seçkiləri həm Qərb dövlətləri tərəfindən, həm də ölkə daxilində tənqid olundu. Seçkilər nə ölkədəki qanlı döyüşləri dayandırmaq, nə də daxili və xarici müxalifəti zəiflətmək iqtidarında olmadı.

6 yanvar 2013-cü ildə Bəşər Əsad Suriyada vəziyyətin sülh yolu ilə tənzimlənməsi planını irəli sürdü (9). Əsad bildirdi ki, Qərb dövlətləri və Fars körfəzi dövlətləri tərəfindən Suriya müxalifətinin, xüsusən də müxalifətin radikal qolunun dəstəklənməsinin dayandırılması ölkədəki vəziyyətin sülh yolu ilə tənzimlənməsinin əsas şərtlərindən biridir. Vəd verildi ki, xarici qüvvələrlə iş birliyində olmayan bütün qüvvələrlə siyasi konfrans keçiriləcək.

Qeyd olunan məsələlərin həll olunmasından sonra Bəşər Əsad yeni Milli Xartiya üzərində işlərin başlanmasını təklif etdi. Bu xartiya ölkə daxilində birlik və razılığın təminatçısı ola bilərdi və bu sənəd üzrə səsvermə referendum formasında keçiriləcəkdi. Əsad həmçinin bundan sonra yeni parlament seçkiləri keçirmək və yeni hakimiyyət qurmağı da təklif edirdi. Həmçinin vurğulanırdı ki, müxalifət xaricdən yardım almağı dayandırsa və silahı yerə qoysa hakimiyyət qüvvələri də silahı yerə qoyacaqlar.

Suriya müxalifətinin üzvləri Bəşər Əsadın planını tənqid etdilər, bu planın əsas məqsədinin prezidentin öz postunda qalmaq, yüngül islahatlarla nümayişçilərin silahı yerə qoymasını təmin etmək, BƏƏS partiyasının və ələvilərin hakim rolunu tam qorumaq olduğunu bildirdilər. Müxalifət Bəşər Əsadın hakimiyyətdə olduğu müddətdə heç bir güzəştə getməyəcəyini qeyd etdi. Prezident Əsadın planını Rusiya və İran istisna olmaqla aparıcı dünya və regional aktorlar da tənqid etdilər. ABŞ bu planı “reallıqdan uzaq” adlandırdı. (20) Türkiyə Cümhuriyyəti isə bildirdi ki, Bəşar Əsad “boş vədlər verir” (15). Fransa, Səudiyyə Ərəbistanı, Qatar və digər dövlətlər də eyni mövqedən çıxış etdilər. Bu da Əsad planının boşa çıxmasına səbəb oldu.

Suriyada yeni prezident seçkiləri 3 iyun 2014-cü il tarixinə təyin edildi. Prezident seçkilərində 3 namizəd iştirak etdi: Bəşər Əsad, Mahir Abdülhafiz Haccar və Həsən əl-Nuri (12). Seçkilərdə Suriyada və onun sərhədlərindən kənarda 38 dövlətdə yaşayan 15,8 milyon suriyalı səs verdi. Amma prezident seçkiləri Fransa, Almaniya, Belçika, Böyük Britaniya və ABŞ-da qadağan olundu, Fars körfəzi ölkələrindəki Suriya səfirlikləri bağlandı (18, s.119). Səsvermə nəticəsində Bəşər Əsad ümumi səslərin 88,7%-ini toplayaraq seçkilərin qalibi oldu. Avropa dövlətləri, ABŞ, Fars körfəzi ölkələri, Türkiyə Cümhuriyyəti seçki nəticələ-

rinin legitimliyini qəbul etmədilər və bu da öz növbəsində ölkədəki vəziyyəti sabitləşdirmədi və ölkənin gələcəyi ilə bağlı siyasi konsensusun əldə olunması ilə nəticələnmədi.

Ümumilikdə Bəşər Əsad tərəfindən ölkədəki vəziyyətin yaxşılaşdırılmasına və qanlı qarşıdurmanın aradan qaldırılmasına doğru atılan addımlar yarımçıq və gecikmiş addımlar idi. Suriyanın xaos vəziyyətinə sürüklənməsi, xarici aktorların münaqişəyə müdaxiləsi və ölkədəki aktiv radikallaşma mövcud hakimiyyət tərəfindən atılan siyasi addımları mənasız edirdi. Belə ki, müxalifətin tələblərinin kökündə Bəşər Əsadın prezident postunu tərk edib hakimiyyətdən getməsi məsələsi dayanırdı.

Suriyadakı qarşıdurmalar "Ərəb baharı"nın davamı kimi qiymətləndirilir və bildiyimiz kimi, "Ərəb baharı" Misir, Liviya və Tunisdə hakimiyyətlərin devrilməsi, Əlcəzair, İraq, İordaniya və Omanda əhalinin kütləvi şəkildə küçələrə axın etməsi və nümayişlər keçirməsi, Bəhreyn və Yəməndə vətəndaşların qiyamı ilə tarixə düşmüşdü.

Amma maraqlı məsələ odur ki, Suriyada "Ərəb baharı" çox sürətli qızışdı və elə ilk günlərdən dünya ictimaiyyətinin diqqət mərkəzində yer aldı. Suriyadakı proseslər dünya ictimaiyyəti tərəfindən diqqətlə izləndi və hadisələrə hər hansı bir formada müdaxilə etmək zərurəti ortaya çıxdı. Bəşər Əsadın etirazları qısa müddətdə və sərbəst şəkildə yoluna qoya bilməməsi, həm hakimiyyət qüvvələri, həm də nümayişçilər tərəfindən zorakılığın tətbiq olunması beynəlxalq və regional təşkilatların Suriya münaqişəsinin tənzimlənməsi prosesində aktiv iştirakı ilə nəticələndi.

Suriyada silahlı qarşıdurmanın ilk başladığı vaxtlarda BMT vasitəçi rolunu oynayırdı və ölkədə humanitar missiyanı yerinə yetirirdi. 2011-ci ilin avqustunda BMT Təhlükəsizlik Şurası Suriya hakimiyyət qüvvələrinin əhaliyə qarşı silah tətbiq etməsini tənqid edən qətnaməsi qəbul olundu. Bu sənəddə Suriyadakı vəziyyətin xarici müdaxilə olmadan həll olunmasının vacibliyi vurğulanırdı.

Suriyada vətəndaş müharibəsinin qızışması ilə BMT üzvləri iki cəbhəyə bölündü: birinci cəbhəyə ABŞ, Avropa dövlətləri və Fars körfəzi ölkələri daxil idi və bu cəbhənin əsas tələbi Suriya hökumətinə qarşı həlledici addımların atılması, rejimi tənqid edən və hakimiyyətin zorakılıqdan əl çəkməsini tələb edən qətnamənin qəbul olunması idi. İkinci cəbhəyə isə Rusiya, Çin və İran daxil idi ki, bu cəbhə qəbul olunacaq qətnamələrdə cəbhələşmənin artacağını və beləliklə Suriyada vəziyyətin daha da pisləşəcəyini hesab edirdilər. Məhz buna görə Suriya üzrə iki qətnaməyə (birinci 4 oktyabr 2011-ci il (4), digəri 4 fevral 2012-ci il (5)) Rusiya və Çin tərəfindən veto qoyulmuşdu.

Sözügedən qətnamələrdə Suriya hökuməti tərəfindən nümayişlərin zorakılıqla yatırılması pislənir, Suriya hökumətinə qarşı sanksiyaların tətbiqi nəzərdə tutulur, Bəşər Əsada qarşı "məqsədyönlü tədbirlərin" görülməsi tələb olunur, Əsadın prezident postundan getməsi vurğulanırdı.

2012-ci ilin fevral ayında aydın oldu ki, Suriyadakı nümayişlər artıq geniş miqyaslı və tərəflərin bir-birinə güzəştə getməyəcəyi silahlı qarşıdurmaya çevrilir. Bu isə BMT-ni məcbur etdi ki, təşkilat 24 fevral 2012-ci ildə BMT-nin keçmiş baş katibi Kofi Annanı BMT və Ərəb Dövlətləri Liqasının Suriya münaqişəsinin tənzimlənməsi üzrə xüsusi nümayəndəsi təyin etsin. 2012-ci ilin yazında Kofi Annan silahlı münaqişənin dayandırılmasına dair 6 bəndli planı təqdim etdi.

Bu plan 21 mart 2012-ci ildə BMT Təhlükəsizlik Şurası tərəfindən təsdiq edilmişdi və tərəflərin zorakılıqdan imtina etməsi, ölkədə vəziyyətin monitorinqi mexanizminin yaradılması, humanitar yardımın çatdırılması, xüsusi missiyaya dəstək göstərilməsi, ordu birləşmələrinin və ağır artilleriyanın əhalinin yaşayış məntəqələrindən çıxarılması və ölkənin daxili işlərinə müdaxilə olunmaması kimi məsələləri əhatə edirdi. Bu planda silahlı qarşıdurmanın dayandırılması üçün dəqiq tarix qeyd olunmamışdı və Bəşər Əsadın dərhal prezident postundan getməsi vurğulanmamışdı (8).

14 aprel 2012-ci ildə BMT Təhlükəsizlik Şurası 2042 saylı qətnamə qəbul etdi və burada Suriyadakı vəziyyəti monitorinq etmək üçün

30 nəfərdən ibarət hərbi müşahidəçi qrupun yaradılması nəzərdə tutulurdu. Həm Ərəb Dövlətləri Liqasına üzv olan ölkələr, həm də Rusiya Annan planı ilə razı idi, amma plan baş tutmadı, çünki nə Suriya hökuməti, nə də müxalifət onun şərtlərini yerinə yetirmirdi və onlar bir-birinə güzəştə getməyə hazır deyildi. 2012-ci ilin may ayında Suriyanın Hula şəhərində qanlı hadisələrin baş verməsi (bu zaman 116 nəfər ölmüş, təqribən 300 nəfər yaralanmışdı) Annan planı icra olunmasını qeyri-mümkün etdi (19).

2012-ci ilin sentyabr ayında Kofi Annan Suriya üzrə xüsusi nümayəndə postunu tərk etdi və onun yerini əlcəzairli diplomat Lahdar İbrahimi tutdu. İbrahimi bu postda 31 may 2014-cü ilədək qaldı və onu Staffan de Mistura əvəz etdi. BMT TŞ-nın 21 aprel 2012-ci il tarixli 2043 saylı qətnaməsi BMT-nin Suriya üzrə nəzarət missiyasının yaradılmasını, 20 iyul 20120-ci il tarixli 2059 saylı qətnaməsi isə bu missiyanın yekun 30 müddətinə uzadılmasını nəzərdə tuturdu (7).

Suriya münaqişəsi üzrə qarşıdurmalar həm Suriyada, həm də BMT daxilində baş verirdi. BMT Suriya münaqişəsinə son qoymağa çalışsa da, 19 iyul 2012-ci ildə Rusiya və Çin yenidən Təhlükəsizlik Şurasının qətnaməsinə veto qoydu. Bu qətnamədə Suriyaya qarşı sanksiyaların tətbiq olunması, bu sanksiyalar çərçivəsində birtərəfli qaydada mövcud Suriya rejiminə qarşı sərt tədbirlərin görülməsi nəzərdə tutulurdu (6).

2013-cü ilin mart ayında Hələb şəhərinin Xan əl-Əssal əyalətində kimyəvi silah tətbiq olundu. Münaqişə tərəfləri bir-birini qadağan olunmuş zarin qazının tətbiq olunmasında günahlandırdılar. BMT baş verən hadisənin araşdırılmasında və aradan qaldırılmasında birbaşa iştirak etdi. Bunun üçün Suriyaya bir qrup müstəqil ekspert göndərildi.

Daha sonra zarin qazının daha genişmiqyaslı tətbiqi ilə baş vermiş hadisə 21 avqust 2013-cü ildə Dəməşq şəhəri ətrafında Quta vahasında baş verdi və bu hadisə zamanı 1127 nəfər həyatını itirdi (3). 2013-cü ilin 27 sentyabrında BMT TŞ-nin 2118 saylı qətnaməsi qəbul olundu və burada kimyəvi silahın mövcud ehtiyatlarının zərərsizləşdirilməsi və yox edilməsi planı dəstəkləndi. Bununla da Suriyaya zərbə endirilməsi təhlükəsi gündəmdən düşdü və Suriya Kimyəvi Silahların Qadağan Olunması Təşkilatının 190-cı üzv dövləti oldu.

Baxmayaraq ki, BMT TŞ Suriya münaqişəsi üzrə 2011-2017-ci illərdə 22 qətnamə qəbul etmişdi, BMT-nin bu münaqişəni tənzimləməsi siyasəti uğurlu sayıla bilməz. çünki BMT Suriyada baş verən hadisələri yaxından müşahidə etsə də və qarşıdurma tərəflərindən heç birinin yanında olmamağa çalışsa da, digər tərəfdən isə BMT Təhlükəsizlik Şurasının üzvləri arasında olan fikir ayrılığı BMT-yə imkan vermir ki, o, münaqişənin nizamlanmasında həqiqi və effektiv bir vasitəçi rolunu oynaya bilsin.

Suriya münaqişəsinin başlandığı ilk vaxtlarda Ərəb Dövlətləri Liqası (ƏDL) vasitəçi rolunu oynamağa, qarşıdurmaya son qoymağa və bir-biri ilə mübarizə aparan münaqişə tərəflərini danışıqlar masası arxasında bir araya gətirməyə çalışırdı. Baxmayaraq ki, hadisələrin qızışdığı ilk aylarda ABŞ və Avropa İttifaqı (Aİ) Suriyaya qarşı sərt sanksiyalar tətbiq edirdilər, hətta Səudiyyə Ərəbistanı, Bəhreyn və Küveyt öz səfirlərini ölkədən geri çağırmışdılar, ƏDL-nin baş katibi Nabil əl-Ərəbi hələ də ölkədəki vəziyyətin tezliklə yoluna düşəcəyi ilə bağlı ümidlərini itirmirdi.

2011-ci ilin iyul və sentyabr aylarında prezident Bəşər Əsadla görüşən əl-Ərəbi artıq oktyabrda hadisələrin geri dönüşünün olmayacağını gördü və "yol xəritəsi" irəli sürdü və burada Suriyada hərbi qarşıdurmaya son qoyulması, yaşayış məntəqələrindən silahlı birləşmələrin çıxarılması, həbs olunan nümayişçilərin azadlığa buraxılması və müxalifət ilə danışıqların aparılması məsələləri öz əksini tapmışdı. Bu "yol xəritəsi"ndə Bəşər Əsaddan həqiqi demokratik islahatlar həyata keçirməsi gözlənilsə də, onun hakimiyyətdən getməsi haqqında heç bir şey vurğulanmırdı. Amma rəsmi Dəməşq təklif olunan "yol xəritəsi"ni ancaq bir ay yarımdan sonra qəbu etdi ki, artıq gec idi və Suriya gələcək anarxiyaya sürüklənirdi, bunun

qarşısını almaqda rəsmi hakimiyyət aciz qalmışdı.

2011-ci ilin oktyabr ayında Qahirədə Qatarın xarici işlər naziri şeyx Haməd bin Casim əl-Taninin başçılıq etdiyi xüsusi beştərəfli komitə yaradıldı ki, buraya həmçinin Oman, Sudan, Əlcəzair nümayəndələri və Nabil əl-Ərəbi daxil idi. Bu komitə rəsmi hakimiyyət və müxalifətin iştirakı ilə konfrans keçirilməsini təklif etdi və burada əsas məqsəd fikir ayrılıqlarının dinc yolla aradan qaldırılması və tərəflərin dərhal zorakılıqdan imtina etməsi idi. Bununla yanaşı, Suriya məsələsinə mümkün ola biləcək xarici müdaxiləyə yol verilməməsi də nəzərdə tutulurdu.

Suriya hökuməti bu təklifə ehtiyatlı yanaşma nümayiş etdirdi, təklif faktiki olaraq qəbul edilmədi, hərbi qarşıdurma davam etdirildi və bu isə Ərəb Dövlətləri Liqasının üzvlərini məcbur etdi ki, 12 noyabr 2011-ci ildə təşkilatın fövqəladə toplantısı keçirilsin və rəsmi Dəməşq münaqişənin həllini nəzərdə tutan ərəb dövlətlərinin planının bütün maddələrini yerinə yetirməyənədək Suriyanın təşkilata üzvlüyü dayandırılsın (2). Bunun ardınca 27 noyabrda Suriyaya qarşı təşkilatın iqtisadi sanksiyaları tətbiq olundu, Suriyanin elit təbəqələrinin ərəb dövlətləri banklarında olan aktivləri donduruldu, birgə investisiya layihələri dayandırıldı. Ərəb Dövlətləri Liqası Suriyanın mövcud rejimi ilə müxalifət arasında geniş formatlı dialoqun təşkilinə nail ola bilmədiyi üçün tədricən açıq şəkildə xarici müxalifət qüvvələrini dəstəkləməyə başladı.

2011-ci ilin dekabrın ortasında Bəşər Əsad ƏDL müşahidəçi missiyasını qəbul etmək qərarı verdi. Amma missiyaya qarşı qoyulan tələblər onun fəaliyyətini mümkünsüz etdi və 2012-ci ilin yanvarında missiya fəaliyyətini dayandırdı. Bu hadisə ƏDL-nin sərbəst fəaliyyətinin dayandırılması və onun Suriya üzrə fəaliyyətinin BMT ilə birgə təşkili məsələsini ortaya çıxardı. BMT-nin keçmiş baş katibi Kofi Annan isə ƏDL və BMT-nin Suriya üzrə birgə xüsusi nümayəndəsi təyin edildi. ƏDL-nin üzvü, eyni zamanda BMT TŞ-nin o zamankı qeyri-daimi üzvlərindən biri olan Mərakeş Bəşər Əsadın prezident postunu tərk etməsi nümayişilərə qarşı silahın tətbiqinin dayandırılmasını irəli sürdü. ABŞ, Aİ və Türkiyə tərəfindən dəstəklənən bu təklifə Rusiya və Çin veto qoydu. ƏDL-nin digər sülh planı Annan tərəfindən irəli sürüldü və Suriya tərəfindən qəbul edildi, bu plan qısa müddətə atəşkəs əldə olunmasına gətirib çıxarsa da münaqişəni tamamilə dayandırmaq iqtidarında olmadı.

Bunun ardınca Qatar əmiri ƏDL – BMT sülhməramlı qüvvələrinin yaradılması təşəbbüsünü irəli sürdü, Səudiyyə Ərəbistanı isə müxalifətin silahlandırılmasını tələb etdi, Annan isə bu addımların münaqişəni daha da dərinləşdirəcəyini bildirdi. 2013-cü il mart ayında keçirilən sammitdə Suriyanın təmsilçi kürsüsündə müxalifət nümayəndələri əyləşsə də, 2014-cü il martda keçirilən sammitdə bu kürsü boş saxlanıldı. İran ƏDL-nin Suriya nümayəndəsi kimi müxalifəti sammitə dəvət etməsini tənqid edərək bunu təşkilatın vasitəçilik missiyasına xələl gətirəcəyini bildirdi.

Baxmayaraq ki, ƏDL-nin baş katibi əl-Ərəbi xüsusi intuziazmla Suriya böhranının siyasi həllinə nail olmağa çalışır, təşkilat daxilində mövcud olan fikir ayrılıqları, daxili birliyin olmaması, destruktiv rəqabət, həmçinin Rusiya və Çinin BMT TŞ qərarlarına veto qoyması ƏDL-nin münaqişənin həllindəki rolunu zəiflədir.

2013-cü ilin mart ayında Suriya İnqilabçı və Müxalifətçi Qüvvələrinin Milli Koalisiyası Suriyanın yerinə təşkilatın üzvü kimi qəbul edildi. Yekun bəyannamədə ərəb dövlətləri beynəlxalq və regional təşkilatları Suriya İnqilabçı və Müxalifətçi Qüvvələrinin Milli Koalisiyasını Suriya xalqının "yeganə qanuni nümayəndəsi" kimi tanımağa səslədi (1). Sənəddə həmçinin üsyançıların silahla təmin edilməsinin mümkünlüyü haqqında məlumat da öz əksini tapdı. 2013-cü ilin sonuna doğru Ərəb Dövlətləri Liqasının şurası 4 əsas maddə irəli sürdü ki, bu maddələr danışıqlar prosesinin əsasını təşkil etməli idi: bütün səlahiyyətlərə sahib olan müvəqqəti idarəçi qurumun yaradılması; demokratik siyasi sistemin qurulması, plüra-

lizm, hakimiyyətin dinc yolla keçməsinin təmin olunması; ümumxalq referendumu vasitəsilə yeni konstitusiyanın qəbul olunması, parlament və prezident seçkilərinin keçirilməsi; Suriyanın ərazi bütövlüyünün və suverenliyinin qorunub saxlanması.

Ümumilikdə Ərəb Dövlətləri Liqasının sülhməramlı cəhdləri uğurla nəticələnmədi. Suriyanın təşkilatdan xaric edilməsi Ərəb Dövlətləri Liqasının Suriya hökumətinə birbaşa təsir etmək imkanlarını kifayət qədər azaltmış oldu. Həmçinin, xarici müxalifətin dəstəklənməsi təşkilatın sülh yaratma təşəbbüslərini boşa çıxarmış oldu.

Regionda baş verən bütün hadisələr, xüsusən də Rusiya qırıcısının Türkiyə tərəfindən vurulması ilə bağlı yaranmış Rusiya – Türkiyə fikir ayrılığı, Suriya münaqişəsinin gedişatına bilavasitə təsir edir. Bu gün də Suriyada silahlı qarşıdurma və qanlı hadisələr davam edir, insanlar ölür. Suriya xalqının gələcəyi hələ də tam aydın deyil, çünki bu gələcək daxili və xarici müxalifətdən, BMT və ya Ərəb Dövlətləri Liqası kimi təşkilatlardan asılı deyil, məhz bu münaqişədə dolayısı ilə və ya bilavasitə iştirak edən böyük dünya dövlətləri və regional aktorların Suriya Ərəb Dövlətinin taleyi ilə bağlı öz maraqları çərçivəsində razılığa gəlib gəlməyəcəyindən asılıdır.

**Ədəbiyyat:**


1. Arab League discusses giving Syria's seat to opposition https://www.reuters.com/article/us-syria-crisis-league-lebanon-idUSBRE9250EF20130306 (06.03.2013)
2. Arab League to Suspend Syria From Meetings https://www.foxnews.com/world/arab-league-to-suspend-syria-from-meetings (09.12.2015)
3. I survived the 2013 chemical attack on Ghouta https://www.aljazeera.com/opinions/2019/8/22/i-survived-the-2013-chemical-attack-on-ghouta (22.08.2019)
4. Security Council Fails to Adopt Draft Resolution Condemning Syria’s Crackdown on Anti-Government Protestors, Owing to Veto by Russian Federation, China https://www.un.org/press/en/2011/sc10403.doc.htm (04.10.2011)
5. Security Council Fails to Adopt Draft Resolution on Syria as Russian Federation, China Veto Text Supporting Arab League’s Proposed Peace Plan https://www.un.org/press/en/2012/sc10536.doc.htm (04.02.2012)
6. Security Council Fails to Adopt Draft Resolution on Syria That Would Have Threatened Sanctions, Due to Negative Votes of China, Russian Federation https://www.un.org/press/en/2012/sc10714.doc.htm (19.07.2012)
7. UN Documents for Syria: Security Council Resolutions https://www.securitycouncilreport.org/un_documents_type/security-council-resolutions/page/2?ctype=Syria&cbtype=syria#038;cbtype=syria (11.07.2020)
8. United Nations Supervision Mission in Syria https://peacekeeping.un.org/en/mission/past/unsmis/background.shtml (15.06.2020)
9. Башар Асад предложил урегулировать сирийский кризис путем новых выборов https://tass.ru/glavnie-novosti/656039 (06.01.2013)
10. В Сирии после 48 лет отменен режим чрезвычайного положения https://www.dw.com/ru/%D0%B2-%D1%81%D0%B8%D1%80%D0%B8%D0%B8-%D0%BF%D0%BE%D1%81%D0%BB%D0%B5-48-

%D0%BB%D0%B5%D1%82-%D0%BE%D1%82%D0%BC%D0%B5%D0%BD%D0%B5%D0%BD-%D1%80%D0%B5%D0%B6%D0%B8%D0%BC-%D1%87%D1%80%D0%B5%D0%B7%D0%B2%D1%8B%D1%87%D0%B0%D0%B9%D0%BD%D0%BE%D0%B3%D0%BE-%D0%BF%D0%BE%D0%BB%D0%BE%D0%B6%D0%B5%D0%BD%D0%B8%D1%8F/a-15023055 (21.04.2011)

11. Гатилов: Сирия распадется, если Асад сейчас уйдет в отставку https://ria.ru/20160215/1374753085.html (15.02.2016)
12. Действующий президент Сирии Башар Асад выдвинут кандидатом на пост главы государства https://tass.ru/mezhdunarodnaya-panorama/1152394 (28.04.2014)
13. К референдуму по проекту новой конституции Сирии 26 февраля https://tass.ru/spravochnaya-informaciya/567778 (24.02.2012)
14. Помогут ли парламентские выборы в Сирии установлению мира https://golosislama.com/news.php?id=8783 (23.05.2012)
15. Почему мирный план Асада обречен на провал? https://eurasia.fm/politika/17-pochemu-mirnyy-plan-asada-obrechen-na-proval.html (10.01.2013)
16. Президент Сирии утвердил декрет о введении в стране многопартийности https://tass.ru/politika/498173 (04.08.2011)
17. Проект новой конституции Сирии поддержали почти 90 процентов граждан https://tass.ru/glavnie-novosti/571220 (27.02.2012)
18. Сапронова, М.А. Электоральный процесс после «Арабской весны». – М.: Ин-т Ближнего Востока, – 2015. – с.119. https://cyberleninka.ru/article/n/2018-04-012-sapronova-m-a-elektoralnyy-protsess-posle-arabskoy-vesny-modifikatsiya-gosudarstvennyh-institutov-v-arabskih-stranah-na/viewer (12.04.2018)
19. Сунниты против алавитов. Резня в Хуле сделала сирийский конфликт религиозным https://lenta.ru/articles/2012/05/28/hula/ (28.05.2012)
20. США назвали мирный план Асада "оторванным от реальности" https://lenta.ru/news/2013/01/07/detached/ (07.01.2013)

***Açar sözlər:*** *Suriya, konflikt, BMT, Ərəb Dövlətləri Liqası, Avropa İttifaqı, sülh*

**Aynur Karimova**
*PhD Candidate, the Academy of Public Administration under the President of the Republic of Azerbaijan*

## SYRIAN CONFLICT ON THE AGENDA OF THE UN AND THE ARAB LEAGUE

### SUMMARY

The paper examines the role and the efforts of the UN and the League of Arabic States in resolving the conflict in Syria that began in 2011. As soon as the protests erupted in Syria, Syrian President Bashar Assad carried out a number of reforms to improve the situation in the country, and as a result, presidential and parliamentary elections were held. The paper also explains that as Syria is a multy ethnic and multy confessional state, the international community, in particular the international and regional organizations such as the UN and League of Arabic States have been trying to find the best way to end the conflict in the country, which has continued for a decade. According to the article, due to the differences in the positions of the member states of the above mentioned organizations, the documents accepted cannot be considered fully fulfilled or fully effective. The paper also underlines the initiatives and documents adopted within these organizations and provides an analysis of the efficiency of the implementation.

***Keywords:*** *Syria, conflict, UN, League of Arabic States, European Union, peace*

**Айнур Керимова**
*Докторант Академии Государственного Управления при Президенте Азербайджанской Республики*

## СИРИЙСКИЙ КОНФЛИКТ В ПОВЕСТКЕ ДНЯ ООН И ЛИГИ АРАБСКИХ ГОСУДАРСТВ

### РЕЗЮМЕ

В статье исследуются роль и усилия ООН и Лиги Арабских Государств в разрешении начавшегося в 2011 году и продолжавшегося по сей день конфликта в Сирии. Когда в Сирии вспыхнули протесты, президент Сирии Башар Асад осуществил ряд реформ, направленных на улучшение ситуации в стране, а также были проведены президентские и парламентские выборы.

Отмечается что, поскольку Сирия является многонациональным и многоконфессиональным государством, международное сообщество, в частности международные и региональные организации, такие как ООН и Лига Арабских Государств, пытаются найти лучший способ положить конец конфликту в стране. который продолжается уже десять лет. Из-за разницы в позициях стран-членов вышеуказанных организаций некоторые принятые документы не могут считаться полностью исполненными или действующими в полной мере.

Также освещаются инициативы и документы, принятые в этих организациях, анализируется эффективность их реализации.

***Ключевые слова:*** *Сирия, конфликт, ООН, Лига арабских государств, Европейский Союз, мир*

G Ə N C  T Ə D Q İ Q A T Ç I L A R
Y O U N G  R E S E A R C H E R S

S İ Y A S İ  İ N S T İ T U T L A R  V Ə  S İ S T E M L Ə R
P O L I T I C A L  I N S T I T U T E S  A N D  S Y S T E M S

UOT 323

**EMİN HƏSƏNLİ**
**Azərbaycan Respublikasının Prezidenti yanında**
**Dövlət İdarəçilik Akademiyasının dissertantı**
*e-mail: e.hesenli1977@gmail.com*

# İNSTİTUTSİONALLAŞMA PRAQMATİZMİN VƏ SİYASİ İNKİŞAFIN MÜHÜM AMİLİ KİMİ

Azərbaycan Respublikası ərazilərinin Ermənistan tərəfindən uzun zaman işğal altında saxlanılması regionda müharibənin baş verə biləcəyini hər an istisna etmirdi. Bu uzun illər ərzində ölkəmiz həm də müharibədən zərər çəkmiş vətəndaşlarımıza hərtərəfli qaygı göstərmək siyasəti yürütmüşdür. Düşmənin təcavüzü nəticəsində zərər çəkmiş hərbi qulluqçuların, şəhid ailələrinin həyat şəraitinin yaxşılaşdırılması istiqamətində güzəştlər, müxtəlif sosial layihələrin reallaşdırılmasını sürətləndirmişdir. Aparılan uğurlu institutsional siyasət nəticəsində bayaq qeyd etdiyimiz kimi şəhid, hərbi qulluqçu ailələrinin sosial vəziyyətinin yaxşılaşdırılması istiqamətində, ikincisi, məcburi köçkünlərin həyat şəraitinin yaxşılaşdırılması, onların mənzil, həmçinin gündəlik tələbatlarının ödənilməsi istiqamətində dövlət öz fəaliyyətini uzun illərdir ki, davam etdirir və bununla da həmin istiqamətdə olduqca uğurlu sosial layihələr reallaşmışdır. Üçüncü bir tərəfdən isə Azərbaycan bu sosial layihələrlə bərabər ordu quruculuğunu da müvəffəqiyyətlə gücləndirmişdir ki, məhz bu gün həmin siyasət zərər çəkən vətəndaşların öz ata-baba yurdlarına qayıtması istiqamətindəki işlərin praktiki reallaşmasını ön plana çıxarmışdır. Qeyd etdiyimiz bu istiqamətləri Azərbaycan dövləti uğurla davam etdirmiş, ölkə başçısı Cənab İlham Əliyev həyata keçirdiyi xarici siyasət platformalarında, bütün tədbirlərin preambulasını məhz Dağlıq Qarabağın azad edilməsi, işğalçıların ərazilərimizdən qovulması, məcburi köçkünlərin doğma torpaqlarına qaytarılması prinsipi üzərində qurmuşdur. Hətta neft erasının davam etdiyi dövrdə belə, neftin dünya siyasətində ən ümdə prioritetə çevrildiyi bir dövrdə belə ölkə başçımız neft gəlirlərini, enerji məsələlərini Dağlıq Qarabağ məsələsindən sonra ikinci prioritet məsələ elan etmişdir, bununla da bütün problemlərin fövqündə məhz Dağlıq Qarabağ probleminin dayandığını vurğulamışdır. Ulu Öndər Heydər Əliyev dövlət quruculuğunun ən mürəkkəb dövrlərində belə düşmənin ideoloji niyyətlərinin dəf edilməsi istiqamətində həm sisyasi institutlaşma, həm də qanunvericilik bazasının təkmilləşdirilməsinə nail olmuşdur.

Bu illər ərzində düşmənin ideoloji niyyətlərinin dəf edilməsi üçün səfərbərlik, Qarabağ münaqişəsinin sülh yolu ilə həlli istiqamətində aparılan danısıqlar prosesi ilə yanaşı ölkəmizdə ordu quruculuğu prosesləri də müvəffəqiyyətlə davam etdirilmişdir. Həmçinin, ölkəmiz uzun illər ərzində müharibənin sülh yolu ilə həll istiqamətində uzun böyük bir yol qət etmişdir. Uzunmüddətli atəşkəs əldə edildikdən sonra, Azərbaycanda bir sıra islahatlar aparılmağa başlandı. Qaçqınların və məcburi köçkünlərin işlə təmin olunması məqsədilə

dövlət tərəfindən bir sıra tədbirlər həyata keçirilir. Belə ki, onların bir qisminə işsizlik statusu və işsizlik müavinəti verilib, bir qismi ünvanlı sosial yardım alır, digər qismi haqqı ödənilən ictimai işlərə cəlb edildi, yaxud peşəhazırlıq kurslarına göndərildi. 2001-2010-cu illərdə 286739 nəfər qaçqın və məcburi köçkün işlə təmin olunmuş, 3134 nəfər işsizlik statusu almış, 803 nəfərə işsizlik müavinəti verilmiş, 1498 nəfər haqqı ödənilən ictimai işlərə cəlb olunmuş, 1946 nəfər isə peşə-hazırlıq kurslarına göndərilmişdir (8.1). Bununla bərabər beynəlxalq ictimaiyyətin diqqətini ölkəmizə yönəltmək, cəmiyyətin demokratik əsaslarla idarəçiliyi sisteminin qurulması, həyat tərzinin yeni inkişaf meyarlarına uyğun qanunvericiliyin təkmilləşdirilməsi də bu dövrdə həll ediləsi məsələlər idi. Məhz Ulu Öndərin böyük sərkərdəlik bacarığı, siyasi dühası belə bir dövrün çətin paradiqmalarını səfərbər etməyə zəmin yaratdı.

Digər tərəfdən, Azərbaycanın müharibə şəraitində olması bu sistemin birdəfəlik dəyişikliyinin çox böyük bir risk olduğunu göz önünə çıxarırdı. Ümummilli Lider Heydər Əliyev öz böyük sərkərdəlik qabiliyyətini nümayiş etdirərək, bu prosesin tədricən həyata keçirilməsini qərara aldı. Öz ordusunun hazırlıq səviyyəsinə görə, dünyada qabaqcıl dövlətlərdən hesab olunan, NATO-nun tam üzvü olan Türkiyə ilə geniş hərbi əməkdaşlığa başlandı (4, s.12). Bu hərbi əməkdaşlıq özünü hərbi təhsil sahəsində daha qabarıq göstərir. Belə ki, Azərbaycan Ali Hərbi Məktəbinin 1997-ci ildən NATO hərbi sisteminə keçidi bunun çox bariz nümunəsidir (3, s.45). Artıq yeni sistemlə 6 ildir fəaliyyət göstərən bu məktəbin yüksək döyüş hazırlıqlı ali təhsilli məzunları Azərbaycan ordusunun sıralarında zabit heyətinin müəyyən bir qismini təşkil edir. Bundan əlavə, bir çox gənc Türkiyədə və Azərbaycanın hərbi əməkdaşlıq etdiyi dövlətlərdə təhsil alır və təcrübə toplayır. Eyni zamanda, xarici dövlətlərlə aparılan hərbi əməkdaşlığın nəticəsində ordumuzun silah ehtiyatı daimi müasirləşdirilərək bugünkü tarixi qələbəni təmin etdi. Artıq Azərbaycan regionun dünya düzənini müəyyən edən ölkədir. Hələ II dünya müharibəsindən sonra beynəlxalq cəmiyyət Avropada böyük əhali miqrasiyası problemi ilə üz-üzə dayandı və bu problemi həll etmək üçün tədricən yeni kateqoriyalar və təşkilatlar yaratmağa başladı. 1948-ci ilin Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin 13-cü maddəsində deyilir ki, hər bir fərdin öz ölkəsi daxilində sərbəst hərəkət etmək, digər yerə köçmək, geri qayıtmaq və məskən salmaq hüququ var. 14-cü maddə “digər ölkələrdə təqribdən sığınacaq axtarmaq və bu sığınacaqdan istifadə etmək hüququnu” təsbit etdi. Bu minimalist özülün üzərində işlər davam etdirildi və 1951-ci ilin yanvarında Birləşmiş Millətlər Təşkilatının Qaçqınlar üzrə Ali Komissiyası (BMT QAK) işinə başladı. Elə həmin il qəbul edilən tarixi Qaçqınlar haqqında Beynəlxalq Konvensiya qaçqın anlayışına belə tərif verdi: “qaçqın dedikdə elə bir şəxs nəzərdə tutulur ki ....irqi, dini əlamət, vətəndaşlıq, müəyyən sosial qrupa mənsubiyyət və guya siyasi əqidə üzündən təqib qurbanı olmaq barədə tam əsaslı ehtiyatlara görə vətəndaşı olduğu ölkədən kənardadır və həmin ölkənin himayəsindən istifadə edə bilmir və ya bu cür ehtiyatlar üzündən istifadə etmək istəmir; və ya müəyyən vətəndaşlığı olmadan və həmin hadisələr nəticəsində əvvəl adətən yaşadığı ölkədən kənarda qalaraq bu cür ehtiyatlar üzündən oraya qayıda bilmir.” 1967-ci ildə qəbul edilən əlavə Protokol Konvensiyada ilkin olaraq müəyyən edilmiş məkan (yalnız Avropa) və zaman (1951- ci ilə qədər) məhdudiyyətlərini aradan götürdü. Bu gün Azərbaycan Qarabağda yaşayan ermənilərin gələcək taleyini öz qanunvericilik bazası ilə təkmilləşdirmək ərəfəsinə qədəm qoymuşdur. Hərbi xunta ərazilərimizdən məhv edilərək çıxarılmışdır. Bütün Qarabağın idarəçiliyinin yeni mexanizmləri formalaşır. Bu proses isə ilk növbədə işğaldan azad edilmiş ərazilərimizin yüksək səviyyədə bərpası ilə başlanaraq reallaşacaqdır. Bu qəbildən ölkə başçımızın ağıllı kənd layihəsi istiqamətində ideya təklifi regionun gələcəkdə dünya üçün nümunəvi diyara çevriləcəyindən xəbər verir.

Ermənistanın Azərbaycana qarşı təcavüzü nəticəsində Azərbaycan vətəndaşları 25 ildən artıq bir müddətdir ki, qaçqın və məcburi köçkün vəziyyətində yaşamışlar. Təbii ki, bu dövr özündə bir çox amilləri birləşdirir ki, bunlardan da ən başlıcası bu təcavüz nəticəsində zərər çəkən hərbi qulluqçuların, mülki vətəndaşların, dinc sakinlərin həyat şəraitinin qaydaya salınmasıdır. Azərbaycan ötən bu dövr ərzində 3 mühüm aspektdə işlərini sistemli, institusional şəkildə aparmışdır. Birincisi, Ermənistanın Azərbaycana elan olunmamış hərbi müdaxiləsinin tarixinə toxunduqda ilk növbədə onu da demək lazımdır ki, Ermənistanan Azərbaycana təcavüzü yalnız illər ərzində torpaqları işğalda saxlamaqla davam etdirməmişdir, orada olan Azərbaycan maddi-mədəni irsinin, sosial-mədəni infrastrukturun, ekoloji mühitin, yaşayış məntəqələrinin dağıdılaraq məhv edilməsi, talan edilməsi üzərində qurmuşdur ki, bu gün Azərbaycan işğaldan azad edilmiş ərazilərlə bağlı proqram xarakterli tədbirlərini reallaşdırarkən bu zərərlərin də hesablanması və rəsmi Ermənistanın həmin zərərləri ödəməsi məsələsini qabartmışdır. Hələ, 1998-ci il martın 26-da Ümummilli lider Heydər Əliyevin imzaladığı "Azərbaycanlıların soyqırımı haqqında" Fərmanda həmin dəhşətli hadisələrə adekvat siyasi qiymət verilib və 31 mart "Azərbaycanlıların Soyqırımı Günü" elan edilib. Həmin fərmanda deyilir: "Azərbaycanın XIX-XX əsrlərdə baş verən bütün faciələri torpaqlarının zəbti ilə müşayiət olunaraq, ermənilərin azərbaycanlılara qarşı düşünülmüş, planlı surətdə həyata keçirdiyi soyqırımı siyasətinin ayrı-ayrı mərhələlərini təşkil etmişdir. Bu hadisələrin yalnız birinə - 1918-ci il mart qırğınına siyasi qiymət vermək cəhdi göstərilmişdir. Azərbaycan Xalq Cümhuriyyətinin varisi kimi Azərbaycan Respublikası bu gün onun axıra qədər həyata keçirə bilmədiyi qərarların məntiqi davamı olaraq soyqırımı hadisələrinə siyasi qiymət vermək borcunu tarixin hökmü kimi qəbul edir". Bu hadisələrə siyası qiymətin verilməsi qarşı tərəfin ideoloji niyyətlərinə mühüm zərbə olmaqla bərabər, milli birlik və milli qürur hisslərini hər zaman cəmiyyətimizdə ön sıraya çıxarmışdır. Eyni zamanda həmin istiqamətdə ölkəmizin qanunvericilik bazası xeyli zənginləşmişdir. Beləki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 2018-ci il yanvarın 18-də "1918-ci il azərbaycanlıların soyqırımının 100 illiyi haqqında" Sərəncam imzalamışdır.. Sərəncamda deyilir: "Üzə çıxmış tarixi faktlar 1918-ci ilin mart-aprel aylarında və sonrakı dövrlərdə erməni millətçilərinin həyata keçirdikləri qanlı aksiyaların coğrafiyasının daha geniş və faciə qurbanlarının sayının qat-qat çox olduğunu sübut etmişdir".

Azərbaycan dövləti və cəmiyyətinin sözügedən fərmandan və sərəncamdan irəli gələn tədbirlər planı antiinsani ideoloji-siyasi erməni məqsədlərinin ifşasında əhəmiyyətli rol oynamışdır. Məhz həm də bunun nəticəsidir ki, 44 günlük Vətən Müharibəsi ərəfəsində düşmən tərəfi həm də diplomatik-ideoloji məğlubiyyətə uğradılmış, hərbi xunta süqut etmişdir.

Azərbaycanı bir dövlət kimi daim möhkəmlənməsini şərtləndirən faktorlardan biri də hərbi müdafiə strategiyasının olmasıdır. Müdafiə sisteminin yaradılmasında ordu quruculuğu başlıca yer tutur. Azərbaycanın hərbi strategiyanın hazırlanmasının əsasları Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulmuş, müzəffər Ali Baş komandan İlham Əliyev tərəfindən özünün yüksək zirvəsinə yüksəlmişdir. Bütün güclü dövlətlərin maraq dairəsində olan Azərbaycanın çox tərəfli mürəkkəb bir hərbi strategiyaya sahib olmasına, bütün dövlətlərlə yüksək səviyyəli münasibətlərin yaradılmasına nail olan Ulu Öndər Heydər Əliyev dünya dövlətləri ilə hərbi əməkdaşlığın və yaranan beynəlxalq təşkilatlar daxilində Azərbaycanın təmsil olunmasının vacibliyinə xüsusi önəm verirdi. Azərbaycan beynəlxalq hüquqi normalar və milli mənafe əsasında öz xarici siyasət strategiyasını müəyyən edib. Belə ki, ölkə konstitusiyasında qeyd olunduğu kimi, Azərbaycanın xarici siyasəti sülh siyasətidir. Azərbaycan silahlı qüvvələri heç bir dövlətə qarşı çevrilməmişdir. Onun məqsədi sülh məramıdır. Azərbaycan Respublikasının hərbi strategiyasının əsas prinsipləri bunlardan ibarətdir:

müstəqilliyini və suverenliyin qorunması ölkənin ərazi bütövlüyünün qorunması, beynəlxalq və regional təşkilatlarda təmsil olunmaqla ölkənin təhlükəsizliyi təmin edilməsi, daxili və xarici siyasətin vəhdətinin qorunub saxlanılması, xarici siyasətdə humanizm prinsiplərinin həyata keçirilməsi. Ötən dövrlər ərzində müharibə şəraitində belə İnsan kapitalının inkişaf etdirilməsi Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin qarşıya qoyduğu başlıca prioritet istiqamətlərdəndir. Ölkə başçımız hələ, 2003-cü ildə ilk öz seçki platformasında Azərbaycan regionlarının inkişaf proqramlarının həyata keçirilməsi ideyasını irəli sürərək hökumətin fəaliyyətini bu istiqamətdə səfərbər etmiş oldu. Bunun ardınca mərhələli şəkildə Azərbaycan Regionların sosial-iqtisadı inkişaf proqramlarının icra olunması ölkədə həyat səviyyəsinin yüksəldilməsinə, insan kapitalının formlaşmasıb möhkəmlənməsinə böyük zəmin yaratdı. Dövlət proqramlarının icra olunduğu 2004–2018-ci illər ərzində ümumi daxili məhsul 3,3 dəfə, o cümlədən qeyri-neft sektoru üzrə 2,8 dəfə, sənaye üzrə 2,6 dəfə, kənd təsərrüfatı üzrə 1,7 dəfə artdı. Bu müddətdə həyata keçirilmiş məqsədyönlü tədbirlər nəticəsində ölkədə 1,5 milyonu daimi olmaqla 2 milyondan çox yeni iş yeri, 100 mindən çox müəssisə yaradılmış, işsizlik 5 faizə, yoxsulluq səviyyəsi isə 5,1 faizə enmişdir (7, s.3). Bu siyasətin fəlsəfəsini sözügedən proseslərin mərkəzində insan amilinin dayanması prinsipləri təşkil edirdi. Regionlar üzrə Azərbaycan vətəndaşlarının sosial-mədəni inkişaf səviyyəsi, dəyişən dünya reallıqları zəminində asan idarəetmə və xidmət vərdişlərindən istifadəsi, insan potensialı göstəricilərini yüksəltməyə xidmət məqsədi daşıyıraq insan kapitalının formalaşmasını sürətləndirmiş oldu. Ölkə başçısının inteqrasiya, dialoq mədəniyyəti, tolerantlıq, multikulturalizm kimi müasir dünyanın aktual parqdiqmalarını praktiki gündəmə gətirməsi isə ölkəmizin insan kapitalı sisteminin mədəni-ideoloji zəmində qurulmasına və təminatına hesablanış oldu. 2019-cu il ərzində cənab İlham Əliyevin həyata keçirdiyi islahatlar kursu adekvat olaraq idarəetmədə insan kapitalının yeni əsaslarla qurulmasını şərtləndirdi. Həmçinin, bu islahatlar insan potensialının insan kapitalına çevrilməsi zamanı mövcud problemlərin də həllini təmin etməyə əsas verdi. Bu xüsusda qarşıdan gələn bələdiyyə və parlament seçkiləri ölkənin modernləşmə və sosial dəyişiklik indikatorlarını müəyyən etməyə istiqamətlənmişdir. Azərbaycanın regionlarının inkişafı ölkədə elektron hökumətin qurulması və möhkəmlənməsi baxımından da aktualdır. Elektron hökumətin müasir dünya reallıqları zəminində qurulmasının aktuallığını dövlət başçımız öz çıxışlarında dəfələrlə vurğulamışdır: “Biz ölkəmizi müasirləşdiririk. Bizim təşəbbüslərimiz, xüsusilə təhsillə bağlı, informasiya-kommunikasiya texnologiyalarının tətbiqi ilə bağlı təşəbbüslərimiz gələcəyə yönəlib. Biz 10, 20, 50 il qabağa baxmalıyıq ki, Azərbaycan 50 ildən sonra necə yaşayacaq, insanların intellektual səviyyəsi necə olacaq” (10).

Azərbaycan dövlətinin uğuruna zəmin yaradan başlıca amillər həm də bundadır ki, ölkə başçısı müasir dünyanın aktual paradiqmalarının milli zəmində tətbiqinə nail ola bilmişdir. Bu təsnifata bazar iqtisadiyyatı, demokratiya, inteqrasiya, kommunikasiya, tolerantlıq kimi mühüm anlayışlar daxildir. Ölkədə keçirilən seçkilərin (prezident, parlament, bələdiyyə) demokratikliyinin və şəffaflığının artması, bazar iqtisadiyyatında dayanıqlığın təmin olunması (insan inkişafı indeksində Azərbaycanın ön sıralara çıxması), neftdən sonra informasiya-kommunikasiya texnologiyalarının tətbiqi və inkişafının ikinci prioritet istiqamət elan edilməsi (elektron hökumətin bazisinin yaradılması), tolerantlıq paradiqmasını “xalqımızın düşüncə tərzinə” çevirmək tezisi bu fundamental dəyişikliklərin əsasında dayanır (9). Bu baxımdan formalaşan yeni bazis modeli müasir üstqurum təsisatlarının da yeni əsaslarla formalaşdırılmasını – yeni çevik islahatları və idarəetmə aparatında ixtisarları zəruri etmişdir. Bu gün biz Ermənistan Azərbaycan münasibətlərinin yeni mərhələsinə qədəm qoyuruq. Xalqımız dövlətçilik və milli birliyin qorunmasının yeni tarixi mərhələsinə qədəm qoydu. Azərbaycan öz ordusu ilə böyük

uğurlara imza atdı və ərazilərimizi işğaldan azad etdi. Təbii ki, bütün bunlar həm də Azərbaycan Respublikası Prezidentinin böyük diplomatiyası, uzaqgörən siyasəti, müdrik addımları nəticəsində mümkün oldu. Ərazilərimizi uzun illər işğalda saxlayan Ermənistan isə həm də özünü ifşa etmiş oldu. Belə ki, işğaldan azad edilmiş ərazilərimizin uzun illər talan edilməsi, evlərin daşlarının belə sökülüb aparılması, ağacların kəsilməsi, yolların baxımsız halda qalması, bütün ərazilərin kommunikasiya xətlərinin kəsilib-doğranılıb məhv edilməsi, ərazidən köçkün düşmüş azərbaycanlıların yaşayış evlərinin və yardımçı binaların sökülməsi, tarixi abidələrimizin, mədəniyyət nümunələrinin məhv edilməsi Ermənistan hökumətinin kompensasiya ödəməsini aktuallaşdırmışdır. Bu institusional mərhələnin qalibiyyətlə başa çatmasına ölkəmiz tezliklə nail olacaqdır. Qardaş Türkiyə ilə həm də Rusiya ilə yaxşı münasibətlərdə olan Azərbaycan regionda sabitliyə və əbədi sülhə nail olma mərhələsnə qədəm qoymuşdur. Müasir dünya ictimaiyyəti yeni paradiqmaların reallaşdığı mərhələyə qədəm qoyur. Yalnız müstəqillik, azadlıq, milli birlik, dövlətçilik maraqları ətrafında sıx birləşən xalqların dünyanın ideoloji, bioloji təhdidlərindən qorunması mümkündür. Bu gün Azərbaycan Respublikası Prezidentinın hərbi-diplomatik uğurları nəticəsində Ermənistanın ərazilərimizdə formalaşdırdığı hərbi xuntanın darmadağın edilməsi həm də regionun inkişafı üçün yeni sosio-mədəni, iqtisadi perspektivlərin təməlini qoymuşdur.

**Ədəbiyyat:**


1. "Azərbaycan Respublikasının 2006-cı il dövlət büdcəsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı. 16 noyabr 2005-ci il, №311. Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, – 2005. 11, – s. 147.
2. Müasir dövrdə Azərbaycan Türkiyə münasibətləri, Monoqrafiya, Bakı: Araz, 2006, (Elmi redaktoru: t.e.d., prof. A.NAbbasbəyli, rəyçi: t.e.d., prof. P.Q.Darabadi), – 214 s.
3. Azərbaycan Türkiyə əməkdaşlığının gələcək perspektivləri // Tarix və onun problemləri – nəzəri, elmi, metodik jurnalı, №3, (1997-033), ISSN 1047, Bakı, – 2005. – s. 156-161
4. Müasir dövrdə Azərbaycan Türkiyə əməkdaşlığı // Azərbaycan-Avropa əlaqələri: mövcud problemlər və əməkdaşlığın əsas istiqamətləri (elmi konfransın materialları). Bakı: Şırvannəşr, – 2005. – s.179-189.
5. Azərbaycanın Avropa Şurasına üzv olması və ilkin qarşılıqlı münasibətlər. // Tarix və onun problemləri nəzəri, elmi, metodik jurnalı, əlavə №3, (1997-02), ISSN 1047, Bakı, – 2006. – s. 23-26.
6. Qarabağ gündəliyi, Bakı 2011 4 saylı bülleten. – 103 s.
7. "Məcburi köçkünlərin və onlara bərabər tutulan sosial müdafiəsi haqqında" Azərbaycan Respublikasının Qanunu. 21 may 1999-cu il, N 669-İQ Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999-cu il, №7,37.
8. Bərpa və Repatriasiya ("Böyük Qayıdış") Proqramı. Məcburi köşkünlərin repatriasiyası. http://www.refugees-idps-committee.gov.az/az/pages/21.html
9. https://xalqqazeti.com/az/news/9591
10. https://xalqqazeti.com/az/news/36861

***Açar sözlər:*** *inkişaf, qələbə, hərbi quruculuq, milli maraqlar, institutsionallaşma*

**Emin Hasanli**
*PhD Candidate at the Academy of Public Administration under the President of the Republic of Azerbaijan*

## INSTITUTIONALIZATION AS AN IMPORTANT FACTOR IN PRAGMATISM AND POLITICAL DEVELOPMENT

### SUMMARY

The paper provides a comparative analysis of the successes of the independent Azerbaijani state. The political and social developments of the country are analyzed. Institutional reforms, human capital, priorities and prospects of national development are highlighted. The paradigms of development of our modern society are shown and issues of national unity and solidarity are discussed.

***Keywords:*** *development, victory, military development, national interests, institutionalization*

**Эмин Гасанли**
*Диссертант Академии Государственного Управления при Президенте Азербайджанской Республики*

## ИНСТИТУЦИОНАЛИЗАЦИЯ КАК ВАЖНЫЙ ФАКТОР ПРАГМАТИЗМА И ПОЛИТИЧЕСКОГО РАЗВИТИЯ

### РЕЗЮМЕ

В статье дается сравнительный анализ успехов независимого Азербайджанского государства. Изучается военное, политическое и социальное развитие страны. Выделены институциональные реформы, человеческий капитал, приоритеты и перспективы национального развития.

Показаны парадигмы развития современного азербайджанского общества, уделяется внимание вопросам национального единства и солидарности.

***Ключевые слова:*** *развитие, победа, военное строительство, национальные интересы, институционализация*

**G Ə N C  T Ə D Q İ Q A T Ç I L A R**
**Y O U N G  R E S E A R C H E R S**

**S O S İ A L  F Ə L S Ə F Ə**
**S O C I A L  P H I L O S O P H Y**

UOT: 101.1::316

**BƏHRUZ GÜLMALIYEV**
**Naxçıvan Dövlət Universitetinin dissertantı**
*e-mail: gulmaliyev.behruz@gmail.com*

# RETROSPEKTİV MƏDƏNİYYƏT VƏ ONUN FORMALARI

Filosoflar və mütəfəkkirlər qədim zamanlardan başlayaraq mədəniyyət məsələləriylə məşğul olmuş, mədəniyyətə dair öz münasibələrini bildirmişlər. Bu səbəbdən mədəniyyət anlayışı müxtəif dövrlərdə müxtəlif mənalar, çalarlar kəsb etmişdir. Məsələn, mədəniyyət istilahı özünün ilk, ənənəvi anlamında (latın dilində "culture") torpağı şumlamaq, belləmək, əkib-becərmək mənalarını ifadə etmişdir [5, s.165]. Sonralar isə romalılar mədəniyyət anlayışına yeni məna verməklə onu insanların intellektual səviyyəsinə, onların təhsil və tərbiyəsinə aid etmişdir. Mark Tuli Siseron isə bu istilahı insanların əqli fəaliyyəti ilə bağlamışdır. Bunu uyğun olaraq Rus dilində "kultura" istilahı əvvəllər əqli və mənəvi kamilləşməni bildirən bir anlayış kimi işlədilmişdir. İllər keçdikcə bu istilah mürəkkəb və uzun bir yol keçərək müxtəlif mənalar kəsb etmişdir.

Orta əsrlərdə Qədim Şərq, eləcə də İslam Şərqi ökələrində yüksələn mədəniyyət Avropaya hər tərəfli təsir göstərmişdir. Bu səbəbdən İslam Şərqi ölkələrində ərəb dilindən götürülmüş "mədəniyyət" istilahı özünün çoxşaxəliliyi baxımından Avropada işlədilən "culture" termininin müxtəlif mənalar daşımasına müəyyən təsir göstərmişdir. İslam şərqində işlədilən "mədəniyyət" istilahı öz əhatə dairəsinə görə daha geniş mənaya sahibdir və insanların və xalqların fiziki və əqli fəaliyyətlərinin bütün sahələrini özündə ehtiva edirdi. Qədim Şərqdə, həmçinin orta əsrləri əhatə edən İslam Şərqində fəlsəfi, siyasi və bədii nümunələrdə yaranan "mədəniyyət" sözü insanların əxlaq və davranışını, təhsil dərəcəsini, özünü apara bilmək qabiliyyətini, bəlağətlə nitq söyləmək kimi mənəvi sahələrini ifadə etməklə bərabər, həmçinin şəhər və kənd salmaq, onları idarə edə bilmək, ticarət qaydalarına riayət etmək, qul və kəniz seçə bilmək, başqa insanlarla və xalqlarla müəyyən əlaqələr yaratmaq, bu əlaqələri qoruyub saxlamaq kimi bacarqlarını da ifadə edirdi [9, s.393].

Məsələn, Nizamülmülkün "Siyasətnamə" əsərində, N.Tusinin "Əxlaqi nasiri" kitabında, İbn Həldunun "Müqəddimə" əsərində yüksək mədəniyyətli insan deyərkən, bir çox biliyə sahib olan, hazırcavab olan, dövrün siyasi-iqtisadi problemlərindən baş çıxara bilən insanlar nəzərdə tutulur. Deməli, Orta Əsrlər İslam Şərqində mədəniyyət anlayışı eyni dərəcədə ruhani, maddi, həmçinin mənəvi sahələrə şamil edilirdi [10, s.186].

Avropada "culture" terminini ilk dəfə Şotlandiya filosofu A.Fergüson cəmiyyətin inkişafının vəhşilik və barbarlıqdan sonrakı dövrünü bildirmək üçün işlətmişdir. F.Engels isə mədəniyyəti cəmiyyətin xüsusi inkişaf forması kimi izah edərək, onun əsas xüsusiyyətlərini belə müəyyənləşdirmişdir:

a. sənətkarlığın əkinçilikdən ayrılması;
b. sənayenin inkişafı;
c. ticarətin yaranması və xüsusi sosial təbəqə olan tacirlərin formalaşması;

d. qan qohumluğu əlaqələrindən funksional ərazi əlaqələrinə keçid;
e. kütləvi hakimiyyətin meydana gəlməsi [9, s.393].

Fəlsəfə tarixinin ilk dövrlərində mədəniyyətə insanın təbiətə məqsədyönlü təsiri (məsələn, torpağın əkiliməsi və becərilməsi), həmçinin insanın özünü maarifləndirməsi və tərbiyə etməsi prosesi kimi yanaşılmışdır. Ellinlər özlərini "mədəni olmayan" barbarlardan "tərbiyəli olmaları" ilə fərqləndirmişdirlər. Sonrakı dövrlərdə "şəxsi təkmilləşməyə", ölkənin sosial inkişafında şəhərlərin meydana gəlməsinə də mədəniyyət kimi baxılmışdır. İntibah dövründə mədəniyyət dedikdə əsas meyar kimi insanların humanist sosial-mənəvi ideallarını, XVII-XVIII əsrlərdə kütlələrin maariflənməsini nəzərdə tutmuşdurlar. XIX əsrdə isə mədəniyyət şəxsiyyətin və cəmiyyətin mənəvi, siyasi, dini, elmi, bədii və s. fəaliyyəti və səviyyəsi kimi dəyərləndirilmişdir. Sonrakı dövrlərdə mədəniyyət insanların mənəvi-siyasi azadlıq səviyyəsi ilə ölçülmüşdür [1, s.314].

**Mədəniyyətin tarixi formalaşması**

Mədəniyyət unikal sosial hadisədir [11, s.247]. Bu sahədəki mövcud ədəbiyyatları təhlil edərkən mədəniyyətin yaranmasının ibtidai icma quruluşunun dağılması və sinifli cəmiyyətin formalaşmasıyla əlaqəli olduğunu görürük. Bu dövrdə istehsal münasibətləri dəyişilmiş, əmək məhsuldarlığının artması nəticəsində əmək bölgüsü, onunla birlikdə mülkiyyət forması və sosial münasibətlər yeni şəkil almışdır.

Əmək bölgüsü – maldarlığın əkinçilikdən, əkinçiliyin sənətkarlıqdan ayrılması ilə əlaqədar xüsusi mülkiyyətin müxtəlif formaları meydana gəlmiş, siniflər (quldarlar, feodallar, kapitalistlər) yaranmışdır. Həmçinin monoqam ailə və dövlət formalaşmış, şəhərlə kənd arasında ziddiyyətlər dərinləşmişdi. İnsanlar istehlak etdiklərindən daha çox istehsal etməyə başlamış və beləlikə onların əlində artıq məhsul əmələ gəlmişdir. Bunun da hesabına cəmiyyət xüsusi bir ziyalılar qrupu: alimlər, elm və mədəniyyət işçiləri, həkimlər və.s yetişdirmək və saxlamaq imkanı əldə etmişdir. Bu ziyalılar qrupu isə zəncirvari formada mədəniyyətin, xüsusən mənəvi mədəniyyətin daşıyıcılarına çevrilmiş və öz şüurlu, məqsədyönlü fəaliyyətləri ilə maddi istehsala, əmək məhsuldarlığına təsir edib onların inkişafına təkan vermişdirlər.

Beləliklə qeyd edilənlərə əsasən deyə bilərik ki, mədəniyyətin tarixən formalaşdırılmasında və inkişafında xüsusi əhəmiyyətli rol onun qurucularına – istedad, yüksək şüur, həyat fəaliyyəti, humanizm daşıyıcılarına, müəllimlərə, alimlərə, mütəxəssislərə, mədəniyyət və incəsənət xadimlərinə, siyasi, dini, hüquqi təlimlərin qurucularına, idarəetmə sistemlərini formalaşdıranlara, dövlət və şəhərlərin əsasını qoyanlara və s. məxsusdur [8, s.51].

Mədəniyyət cəmiyyətin inkişafının müəyyən mərhələləri ilə bağlılıq təşkil edir. Mədəniyyətin inkişafı tarixi və təbii-coğrafi şəraitlə, sosial mühitlə, cəmiyyətin genetik koduyla – fitri mədəni keyfiyyətilə, cəmiyyətin mədəniyyətə həssaslığı və mədəni mübadilə səviyyəsilə şərtlənir [6, s.96]. Bəzən cəmiyyətin inkişafında müəyyən mərhələni, tarixi dövrü və ya etnik münasibətləri, ictimai-iqtisadi formasiyaları, millətlərin, xalqların maddi, mənəvi tərəqqisini səciyyələndirmək üçün mədəniyyət anlayışından istifadə olunur: antik mədəniyyət, qəbilə-tayfa mədəniyyəti, icma mədəniyyəti, Şərq mədəniyyəti, Qərb mədəniyyəti, milli mədəniyyət, ümumxalq mədəniyyəti və.s. Həmçinin həyatın müəyyən sahələrində insanın həyat və fəaliyyətinin bəzi spesifik sahələrini, ictimai şüurunu və davranışını da eyni anlayışla ifadə edirik: əmək mədəniyyəti, məişət mədəniyyəti, davranış mədəniyyəti, siyasi mədəniyyət, əkinçilik mədəniyyəti, nitq mədəniyyəti, bədii mədəniyyət və s.

Mədəniyyətin daha aydın başa düşülməsi üçün üç əsas məqamı fərqləndirmək lazımdır. Birincisi, mədəniyyət şəxsiyyətin özünü azad ifadə etmək və yaradıcılıq sahəsidir; ikincisi, mədəniyyət gerçəkliyə qiymətləndirici münasibətdir; üçüncüsü, mədəniyyət insanın fikri və əməli ilə yaratdığı dünyadır.

Birinci halda mədəniyyət insanın yaradıcı imkanlarını daha dolğun reallaşdıran mühitin olmasını nəzərdə tutur. Bu mühit ilk növbədə elm, təhsil, incəsənət sahəsidir. İkinci halda həyatımızda həmişə iştirak edən, müqəddəs olan, şərtsiz qəbul olunan dəyərlər mədəniyyət hesab olunur. Dəyərlər əxlaqi və estetik ideallarla sıx əlaqəlidir. Mədəniyyət dəyərlər və ideallar haqqında təsəvvüri olaraq fərdin və cəmiyyətin ayrı-ayrı bölmələrini əhatə etməklə məhdudlaşmır, onların bütün tərəflərini əhatə edərək insanların dəyər, dünyagörüş istiqamətini müəyyənləşdirir. Üçüncü səpki göstərir ki, cəmiyyətin və insanın varlığı təmiz, təbii mövcudatdan prinsipcə fərqlənir və özlüyündə ruhi tərəf təyinedici olan başqa bir dünyanı təşkil edir. Mədəniyyətə aid edilən bu üç məqam ümumtarixi xarakter daşıyır və keçmiş tarixlə qırılmaz bağlılığa malikdir. Bu səbəbdən mədəniyyət hər dövrdə konkretdir, tarixidir [3, s.392].

Qeyd edilənlərə əsasən bu qənaətə gəlirik ki, mədəniyyət anlayışı öz əhatə dairəsinə və məna çalarlığına görə müxtəlif inkişaf mərhələləri keçmişdir. Özünün ilkin mənasında insanların və bütövlükdə cəmiyyətin müxtəlif sahələrdəki nailiyyətlərini bildirmək üçün işlədilən “mədəniyyət” ifadəsi sonralar, əsasən mənəvi sahələrə aid edilməyə başlamışdır. Hazırda bu istilahın işlənmə dairəsi daha da genişlənmişdir. İndi o ayrı-ayrı millətlərin, xalqların və bütövlükdə bəşəriyyətin maddi sahələrdəki nailiyyətlərini özündə ehtiva etdiyi kimi, həmçinin mənəvi sahələrdəki nailiyyətlərini də özündə ehtiva edir [9, s.394, 396].

Mədəniyyətin bu cür çoxaspektli təyinatlarını bir qədər ümumiləşdirib konkretləşdirsək ona belə tərif verə bilərik: “mədəniyyət cəmiyyət tərəfindən əldə edilən maddi və mənəvi sərvətlərin ümumiləşməsidir, həmçinin onların yaradılma qabiliyyəti, onlardan bəşəriyyətin inkişafı üçün düzgün istifadə etmək və nəsildən-nəsilə ötürmək bacarığıdır”.

**Maddi və mənəvi mədəniyyət**

Mədəniyyət insanın mənəvi dünyasıdır, onun özünü müəyyənləşdirməsi və şəxsiyyətin mövcudluğu üsuludur. Mədəniyyətin mənbəyi insan əməyi, yaradıcılığı və insan zəkasının təcəssümüdür.

Mədəniyyət bəşəriyyətin tarixən əldə etdiyi maddi, mənəvi sərvətlərin məcmusundan, bu sərvətlərin yaradılması, onlardan istifadə edilməsi, gələcək nəsillərə ötürülməsi yollarından ibarətdir. Bu anlayışa xalq kütlələrinin yaradıcılıq fəaliyyəti, təbiəti və cəmiyyəti dəyişdirmək imkanları da daxildir. Bunlara əsasən mədəniyyətin iki əsas növünü qeyd edə bilərik: maddi mədəniyyət, mənəvi mədəniyyət.

Maddi mədəniyyətin əsasını insan zəkasının və əməyinin nəticəsində əmələ gələn ümumiləşmiş maddi sərvətlər təşkil edir. Maddi mədəniyyət əmək vərdişləri, əmək prosesi və texnologiyaları daxil olmaqla maddi nümunələr istehsalı ilə bağlı olan insan fəaliyyət sahəsidir [7, s. 39]. İbtidai insanların düzəltdikləri daş və ağac alətlərdən tutmuş müasir mürəkkəb mexanizmlərədək, kahalardan tutmuş saraylaradək hamısı maddi mədəniyyət nümunələri hesab olunur. Məsələn, istehsal vasitələri, binalar, geyim nümunələri, memarlıq nümunələri, körpülər, kanallar, meşə zolaqları və s.

Mənəvi mədəniyyət isə cəmiyyətin mənəvi sərvətlərinin yaradılması və istifadə olunması prosesidir. Lakin mənəvi mədəniyyətə yalnız mənəvi sərvətlərin məcmusu, onların mənisənilməsi kimi baxılması düzgün deyil, buna eyni zamanda sərvətlərin yaradılmasında insanların iştirakı kimi və mənəvi yaradıcılıqdan ibarət olan dialektik bir proses kimi baxılmalıdır. Mənəvi mədəniyyətə insanların mənəvi fəaliyyətinin nəticələri olan elm, fəlsəfə, incəsənət, əxlaq, siyasət, hüquq, müvafiq elmi idarələr (elmi institutlar, məktəblər, teatrlar, kitabxanalar, muzeylər və s.), cəmiyyətin intellektual və mənəvi inkişaf dərəcəsi və s. daxildir.

Mədəniyyət anlayışı ilə insanın hansısa fəaliyyət sahəsində bilik və təcrübə əldə etməsi, onun müəyyən sərvətlər sistemini mənimsəyib qəbul etməsi və müəyyən davranış sahibi olması əlaqəlidir. Hər kəs uşaq yaşlarından başlayaraq müəyyən mədəniyyətin, ideya-

ların, sərvətlərin, davranış nümunələrinin təsir dairəsinə düşür. İnsanın tərbiyə və təhsili məhz mövcud mədəniyyətə qovuşmasından, cəmiyyətin topladığı bilikləri, bacarıqları, vərdişləri habelə mənəvi sərvətləri və cəmiyyətdə qəbul edilmiş davranış normalarını mənimsəməsindən ibarətdir.

Mədəniyyətin maddi, mənəvi növlərə bölünməsi bəzən dəqiq və mübahisəsiz təsəvvür edilir. Məsələn bina maddi, elm isə mənəvi mədəniyyətdir. Lakin məsələyə diqqətlə yanaşdıqda bir sıra sualların ortaya çıxdığının şahidi oluruq. Məsələn, yüksək bədii məzmun və dəyərli məişət əşyalarını, memarlıq və geyim nümunələrini hara aid etməli? Və ya istehsal münasibətlərini, əmək mədəniyyətini hansı növə aid etmək düzgün olardı? Daha konkret ifadə etsək yuxarıda qeyd etdik ki, bina maddi elm isə mənəvi mədəniyyətdir. Belə olan halda binanın görünüşündəki estetik görkəm hansı növə aid edilməlidir – maddi mədəniyyətə, yoxsa mənəvi mədəniyyətə? Tədqiqatçıların çoxu onu maddi mədəniyyətə aid etmişdirlər. Onlar iddia edirlər ki, proses insan əməyi, təbiətin yaradıcı surətdə əşyavi məhsula çevrilməsi nəticəsində ərsəyə gəlir. Belə ki yaradılan maddi substansiya nə təbiət, nə də Allah tərəfindən deyil, məhz insan zəkası, əmək və fəaliyyəti nəticəsində mövcud olur. Həmçinin ətirlərin rahiyyəsi qızılgülün ətrindən prinsipial cəhətdən fərqlənir, çünki onların birincisi insanın düşüncəsi və əqli ilə, digəri isə təbiət tərəfindən yaradılır.

Lakin hər iki mədəniyyətin bir-birilə ayrılmaz bağlılığı vardır. Məsələn, kitab bir tərəfdən maddi mədəniyyət nümunəsidirsə, digər tərəfdən mənəvi mədəniyyətin ayrılmaz tərkib hissəsidir. Çünki onun, ideya, estetik, hissi məzmun daşıdığı kimi, həmçinin maddi tərəfi vardır. Hətta, musiqinin özü belə mənəvi mədəniyyətə aid edilsə də, notlaşma prosesində maddiləşir [4, s.17].

Mədəniyyətlərin qovuşması nəticəsində elə ictimai hadisələr – dizayn, elmi tədqiqat və onun nəticələri, istehsalat təlimi və s. baş verir ki, onlar təkcə maddi mədəniyyətə, yaxud yalnız mənəvi mədəniyyətə aid edilməməlidir. Bütün bunlar ictimai hadisə olmaq etibarilə mədəniyyətin bütövlüyünü sübut edir [2, s.145].

Mənəvi mədəniyyətin forması olan mənəvi dəyərlər öz mövcudluğunu əqli və bədii fəaliyyətin növləri ilə təzahür etdirir. Burada əsas meyar kimi mədəni məhsulun ictimai əhəmiyyəti əsas götürülür. Belə ki hər yaradıcılıq nümunəsini mənəvi dəyər kimi qiymətləndirmək düzgün deyil. Məsələn, adi qabiliyyətsiz rəssam tərəfindən təsvir olunan tablonu və ya rəsmi sənət əsəri hesab etmək həqiqətə uyğun deyil. Bu səbəbdən mədəniyyət xəzinəsinin mənəvi dəyərləri aşağıdakı üç əlamətlərə görə müəyyən olunur: elm, mənəviyyat və əxlaq, incəsənət.

Elmi sərvətlər milli və sinfi yiyələnmə nəzərə alınmadan obyektiv insani biliklər sistemidir. Düzdür, sovet cəmiyyəti dövründə elmdə «burjua», «yalan, böhtançı» elmi mühazirələr adı altında fikirlər söylənilsə də, onlar sonralar tarixin axarında aradan qaldırıldı. Bu məqamda rus yazıçısı, dramaturq A.P.Çexovun aşağıdakı qeydi məntiqə uyğundur; «Milli elm yoxdur, əgər varsa da, o, elm deyildir».

Onu da vurğulamaq lazımdır ki, bəzən elmi dəyərlərin mənfi məqamları ilə də qarşılaşa bilərik. Yəni bəzən, insan zəkası və əqli ilə yaradılan elmi düsturlar, kəşflər, sonralar bəşəriyyətin məhvinə doğru yönələ bilir. Məsələn, atom bombasının hazırlanması buna çox aydın misaldır.

Mənəvi-əxlaqi dəyərlər kəmiyyətcə elmi dəyərlərdən fərqlənir. Əgər elmin vəzifəsi mövcud reallıqları insanlara öyrətmək, dərk etdirməkdirsə, mənəviyyatın vəzifəsi insanın digər insanlarla münasibətlərini aydınlaşdırmaq, təkmilləşdirməkdir. Bütün bunlar əxlaqi norma, adət və ənənələrdə, qanunlarda öz əksini tapır. Ancaq bəzən tarixin müəyyən mərhələlərində qanun, adət və ənənələrin əxlaqdan kənar və mənəviyyatsız tərəflərinə də rast gələ bilərik. Nəticə olaraq o münasibətlər əxlaqi və mənəvi cəhətdən düzgündür ki, onlar insan həyatında başlıca meyar rolunu oynasın.

İncəsənət mənəvi fəaliyyətin elə bir sahəsidir ki, bu zaman insanın bütün psixi gücü –

hisləri və əqli hərəkətə keçir. İncəsənət, elm, əxlaq, mənəviyyatdan fərqlənir. İncəsənətin predmeti təkcə insanlarla münasibət, insanın zahiri aləmi deyil, həmçinin şəxsiyyətin daxili aləmidir. Bədii dəyərlər yaradılarkən insan ilham və intuisiyaya tabe olur. Bu isə elmi yaradıcılıqda bir o qədər də gərəkli deyil. Bədii dəyərlər, daha irrasional və öz yaradıcısı haqqında məlumat verən mədəniyyət sahəsidir [4, s.20, 21].

Mənəvi dəyərlərin yayılma dərəcələri öz təsnifatına görə ümumbəşəri, milli, sinfi-təbəqə, qrup-lokal, ailəvi, fərdi-şəxsi ola bilər:

Ümumbəşər dəyərlər zaman, məkan çərçivəsində çox saylı insan tərəfindən qəbul edilən dəyərlərdir. Buraya qədim Misir mədəniyyəti, Fransa mədəniyyəti, Azərbaycan mədəniyyəti incilərinin xalqlar tərəfindən mənimsənilməsi, həmçinin, dünya mədəniyyəti inciləri, əsl yaşayış həqiqətləri, əxlaqın ən möhkəm normaları – böyüklərə hörmət və məhəbbət, doğruçuluq, təbiətə məhəbbət, qadınla kişi arasındakı məhəbbət, gözəlliyə cəhd və s. aiddir.

Milli dəyərlər ümümbəşər deyil hansısa bir xalqın və ya şəxsin həyatında başlıca yer tutan dəyərlərdir. Ümumbəşəri dəyərlərdən fərqli olaraq milli dəyərlər daha konkret və maddiləşmiş formaya malik olur. Məsələn, «Çənlibel» məkanından söhbət edərkən Koroğlu və Azərbaycanın tarixi keçmişi yada düşür. Yaxud «Qız qalası» abidəsi hər kəsi Bakı şəhəri, Xəzər dənizi haqqında düşünməyə vadar edir və s.

Sinfi təbəqənin dəyərləri ayrı-ayrı sinif və sosial qrup təbəqələrinin maraqları ilə bağlıdır. Məsələn, Sovet hakimiyyəti fəhlə və kəndli siniflərinin dövləti hesab edildiyindən mədəniyyət və incəsənəti məhz bu təbəqənin adı ilə bağlamaq vacib və zəruri qəbul edilirdi. Onun əsas ideyalarını «istismarçı» siniflərə nifrət, fiziki əməyin daha çox vəsfi, kollektivçilik və ya sosializm ideyalarına yad hesab edilən əvvəlki mədəniyyətlərə ögey münasibət təşkil edirdi.

Lokal qrup dəyərlər insanların yaşayış məkanına, yaşına müvafiq olan qrupların birləşməsi nəticəsində birgə yaradılan dəyərlərdir. Müxtəlif tipli sekta, birlik, kasta və s. qrupları lokal dəyərlərə aid edə bilərik. Dəyərlərin bu qrupunun çoxluq təşkil etdiyi yaş qrupu isə yeniyetmələr və gənclərdir.

Ailə və ailə dəyərləri cəmiyyətin əsas birlik formasını təşkil edən vacib ünsürlərdən biridir. Ailə dəyərlərinin nəsildən nəslə ötürülməsi bu mənada ən başlıca mədəni hadisələrdən biri hesab edilir. Ailə dəyərlərinə əxlaqi, bədii, hətta sırf məişət ənənələrini aid edə bilərik.

Fərdi-şəxsi dəyərlərə isə insanın əşyaları və ideyaları aid edilir. Bu dəyərlər bəzən ümumi, bəzən isə fərdi yaradıcılığın məhsulu ola bilər.

Mədəni dəyərlərin təsnifatının ümumi şərhindən onların iki əsas xüsusiyyəti – özünün nisbiliyi və mütəhərrikliyi nəzərə çarpır: Mədəni dəyərlərin nisbiliyi müxtəlif insan qruplarının həmin dəyərləri dərketməsi və qiymətləndirilməsində təzahür edir. Mədəni dəyərlərin mütəhərrikliyi isə, bir səviyyənin digər səviyyəni əvəz etməsi, onun yerinə keçməsi kimi qiymətləndirilir [4, s.21].

Bəzən mədəniyyət sosial həyata, bəzən isə sosial həyat mədəniyyətə müəyyən təsirlər göstərərək dövrümüzdə mövcud olan, hər kəsin sosial, mədəni həyatının ayrılmaz hissəsi olan müasir mədəniyyəti formalaşmışdır. Keçmiş və müasir mədəniyyət isə gələcəkdə mədəniyyətin daha da formasiya olunmuş formasının ortaya çıxması ilə nəticələnəcəkdir.

Nəticə olaraq bu qənaətə gəlirik ki, insanın sosial həyata təsiri ilə mədəniyyət anlayışı müxtəlif formasiyalara uğramış, hər dövrə uyğun formada təzahür etmişdir. Tarixin müəyyən dövrlərində dövrün və zamanın spesifik xüsusiyyətlərinə görə insanla birlikdə mədəniyyət də formalaşmış, insan və insan cəmiyyətinin formalaşmasına paralel olaraq müəyyən təsirlərə məruz qalmışdır.

**Ədəbiyyat:**


1. Fərhadoğlu, M. Fəlsəfənin əsasları. Bakı: Nurlan, – 2006. – 400 s.
2. Hüseynov, Q, Əhmədov, Ə. Sosiologiya. Bakı: Təbib, – 1994. – 176 s.
3. İmanov, H. Fəlsəfə. Bakı: Turan evi nəşriyyatı, – 2005. – 420 s.
4. Manafova, M., Əfəndiyeva, N., Şahhüseynova, S. Mədəniyyət tarixi və nəzəriyyəsi. Bakı: Sabah, – 2010. – 876 s.
5. Mehdi, N., Mehdi, D. Fəlsəfə tarixində fəlsəfə. Bakı: Qanun, – 2010. – 276 s.
6. Məmmədov, F. İdarəetmə mədəniyyəti xarici ölkələrin təcrübəsi. Bakı: Apostrof çap evi, – 2013. – 672 s.
7. Məmmədov, F. Kulturologiya effektivliyi həyat və fəaliyyətə aparan yol kimi. Bakı: Çıraq nəşriyyatı, – 2008. – 400 s.
8. Məmmədov, F. Kulturologiya, mədəniyyət, sivilizasiya. Bakı: OL MMC, –2016. – 260 s.
9. Ramazanov, F., Zaynalov, M., Məmmədov, Ə., Kərimov V., İmanov H., Məmmədov Z., Tağıyev, Ə., Dadaşov, X., Fətəliyev, A., İsayev, N., Teymurlu, M., Zeynalov, E. Fəlsəfə. Bakı: Azərbaycan Texniki Universitetinin nəşriyyatı, – 2001. – 442 s.
10. Tağıyev, Ə. Fəlsəfə. Bakı: ADMİU mətbəəsi, – 2012. – 384 s.
11. Vahidov, F. Sosiologiya. Bakı: "Təknur" MMC-nin mətbəəsi, – 2005. – 295 s.


***Açar sözlər:*** *mədəniyyət, mənəviyyat, fəlsəfə, insan, cəmiyyət, tarix*

**Bahruz Gulmaliyev**
*PhD Candidate of Nakhchivan State University*

## RETROSPECTIVE CULTURE AND ITS FORMS

### SUMMARY

From the beginning of human society to the present day, the concept of culture has existed and has acquired different meanings and shades in each period. Philosophers and thinkers have been involved in cultural issues since ancient times. The source of culture is the embodiment of human labor, creativity and human intelligence. Under the influence of human social life, the concept of culture has undergone various formations, manifested in a form appropriate to each period.

Culture is a unique social event. The concept of culture, which has gone through different stages of development, has also undergone various formations due to its scope and shades of meaning. Analyzing the existing literature in this area, we come to the conclusion that the emergence of culture was associated with the collapse of the primitive community structure and the formation of a class society. The term "culture," which in its original sense was used to describe the achievements of people and society as a whole in various fields, was later extended to the spiritual realm. At present, the scope of development of this term has expanded. It now includes all the achievements of individual nations, peoples and mankind as a whole, both materially and spiritually.

***Keywords:*** *culture, morality, philosophy, human, society, history*

**Бахруз Гюльмалиев**
*Диссертант Нахчыванского Государственного Университета*

# РЕТРОСПЕКТИВНАЯ КУЛЬТУРА И ЕЁ ФОРМЫ

## РЕЗЮМЕ

С момента создания человеческого общества по сей день понятие культуры, существующее в течении длительного периода, приобрело различные значения и оттенки. Начиная с древних времен, философы и мыслители занимались проблемами культуры. Источником культуры является человеческий труд, творчество и проявление человеческого интеллекта. Под влиянием социальной жизни человека концепция культуры в соответствии с эпохами формировалась по-разному. Культура является уникальным социальным событием. По своему охвату и смысловым оттенкам понятие "культура" претерпело различные изменения и прошло через различные этапы своего развития. Анализируя соответствующую научную литературу, мы приходим к выводу, что возникновение культуры было связано с разрушением первобытно-общинного строя и формированием классового общества. В своем первичном значении выражение "культура" применялось для обозначения достижений людей и человечества в целом в различных областях. Впоследствии его стали применять больше по отношению к духовным сферам. В настоящее время этот термин применяется в еще более широком смысле. Сегодня он объединяет в себе все достижения отдельных наций, народов и всего человечества как в материальной, так и в духовной сферах.

***Ключевые слова:*** *культура, мораль, философия, человек, общество, история*

G Ə N C T Ə D Q İ Q A T Ç I L A R
Y O U N G R E S E A R C H E R S

D Ö V L Ə T V Ə H Ü Q U Q N Ə Z Ə R İ Y Y Ə S İ V Ə T A R İ X İ
T H E O R Y A N D H I S T O R Y O F S T A T E A N D L A W

UOT 340.1

**NAZLI ABBASOVA**
**Silahlı Qüvvələrin Hərbi Akademiyasının adyunktu**
*e-mail: abbasovasss_85@mail.ru*

# AZƏRBAYCAN HÜQUQ SİSTEMİNDƏ HƏRBİ HÜQUQUN MÖVQEYİ VƏ ƏHƏMİYYƏTİ

Hüquq sistemi mürəkkəb sosial təsisatdır. Nəzəriyyədə hüquq sistemi müxtəlif aspektlərdən (formal-hüquqi, sosial-iqtisadi, idarəetmə, milli-coğrafi və s.) öyrənilir və nəticədə hüquq sisteminin mahiyyəti barədə müxtəlif fikirlər formalaşır. Bəziləri hüquq sistemini hüququn mənbələrinin və hüquqtətbiqetmə orqanlarının məcmusu kimi, bəziləri sosial davranışı stimullaşdıran və məhdudlaşdıran normaların iyerarxiyası kimi, digərləri isə idarəetmə strukturu kimi şərh edir. Hüquq sistemi anlayışına hüquqi fenomen kimi yanaşsaq demək olar ki, bu anlayış insanın harada yaşamasından asılı olmayaraq onun davranışına təsir edə biləcək əsas hüquqi komponentlərin instutisional "toplanma yeridir" [10, s.37].

Hər bir ölkənin milli hüquq sisteminin öyrənilməsi zamanı universal abstraksiyalardan və ümumiləşdirmələrdən kənara çıxmaq və mədəni-tarixi konkretləşdirmədən istifadə etmək lazımdır. Məhz bu zaman kifayət qədər dərindən aparılan tədqiqat milli hüquq sistemi nəzəriyyəsini yaratmağa imkan verəcəkdir. Azərbaycan Respublikasının "milli hüquq sistemi" dedikdə bütövlükdə cəmiyyətin hüquqi təşkili, dövlət daxilində mövcud olan və fəaliyyət göstərən bütün hüquqi vasitələrin və institutların məcmusu başa düşülür. Müstəqil hüquq sahələri bu hüquq sisteminin mərkəzi elementi (tərkib hissəsi) kimi çıxış edir və bu hüquq sahələri bir-birindən asılı olmayaraq müstəqil rola və əhəmiyyətə malikdirlər. "Hüquq sistemi" anlayışı onu göstərir ki, hüquq tam və bütöv sahə kimi, öz aralarında müəyyən əlaqədə olan (funksional asılılıq, tabeçilik, uyğunluq və s.) çoxsaylı elementlərdən ibarətdir.

Hüquq sistemi subyektiv xarakter daşımır, yəni hüquq sisteminə daxil olan hər hansı bir sahəni bu və ya digər nəzəri konstruksiyanın köməyi ilə yaratmaq olmaz. Hüquq sistemi obyektiv xarakter daşıyır. Bu o deməkdir ki, hüquq sistemi müəyyən müstəqil sahələrə bölünməklə ifadə olunan obyektiv quruluşa malikdir. Azərbaycanın bugünkü hüquq sistemi öz təkamülünü davam etdirir, əks halda hüquqla tənzimlənən ictimai münasibətlərlə tənzimləyici vasitə olan hüquq arasında kəskin ziddiyyətlər yaranar və nəticədə hüquq öz nizamlayıcı funskiyasını, yəni əhəmiyyətini itirər. İctimai münasibətlərin surətlə inkişaf etdiyi bu günlərdə hüquq sahələrinin tərkibinə daxil olan bəzi yarımsahələrin və hüquq institutlarının yeni hüquq sahələrinə transformasiyası baş verir. Bu proses nəticəsində hüquq sistemində hüquq sahələrinin sayı artır və ictimai münasibətlər daha dar qruplar şəklində tənzimlənir. Bu mənada elmi ədəbiyyatda paradoksal vəziyyət müşahidə edilir. Belə ki, ayrı-ayrı müstəqil sahələrə aid edilən predmet

və metod kateqoriyaları eyni zamanda həm yarımsahələrə, həm də institutlara aid edilir. Bu hal isə sonradan onların (yarımsahələri və institutları) "müstəqil hüquq sahəsinə" çevrilərək müasir hüquq sistemində sonsuz sayda yeni hüquq sahələrinin meydana gəlməsinə şərait yaradır. Bu baxımdan müasir hüquq sistemində kooperativ hüquq, mədəniyyət hüququ, informasiya hüququ, elektron hüquq, məhkəmə hüququ, energetika hüququ, tibbi hüquq, kosmos hüququ, nəqliyyat hüququ və digər bu kimi yeni sahələrə rast gəlinir. Bu hüquq sahələri içərisində hərbi hüquq kompleks hüquq sahəsi kimi fərqləndirilir. Hərbi hüququn bir sıra institutlarının, məsələn, hərbi qulluqçuların hüquqları, hərbi qulluqçuların hüquqi vəziyyəti, hərbi qulluqçuların hüquqi məsuliyyəti, hərbi terminlərin inkişaf tarixi ayrı-ayrı müəlliflərin əsərlərində şərh olunmasına baxmayaraq bu sahədə nəzəri-hüquqi aspektdən daha əvvəllər fundamental elmi-tədqiqat aparılmamış və hərbi hüquq demək olar ki, öyrənilməmişdir. Hərbi hüquq sahəsinin tədqiqatı zamanı əldə edilən nəzəri biliklər hərbi təhsil müəssisələrində tədris prosesində, eyni zamanda digər ali təhsil müəssisələrində "Hüquqşünaslıq" ixtisası üzrə tədris olunan digər hüquq fənlərinin hərbi aspektlərinin öyrənilməsi zamanı istifadə oluna bilər. "Hərbi hüquq" fənninin hərbi təhsil müəssisələrinin tədris planına daxil edilməsi bu sahədə illər ərzində toplanmış təcrübi materialların nəzəri təhlilinə, mövcud nəzəri işlərin təcrübəyə tətbiqinə, bir çox problemli məsələlərin diskussiyaya çıxarılmasına və təbii ki, öz düzgün həllini tapmasına şərait yaradacaqdır.

Əgər nəzərə alsaq ki, bütünlükdə tədqiq olunmamış bir sahənin (ayrı-ayrı məsələlər istisna olmaqla) öyrənilməsi və onun mövcudluğunun öz elmi təsdiqini tapması məsələsini elmi müstəviyə çıxarırıq, onda problemli məsələlərin qoyuluşu və həlli onların məntiqi ardıcıllığına söykənməlidir. Bu nöqteyi-nəzərdən yanaşsaq, onda ilk növbədə hərbi hüququn hüququn müstəqil bir sahəsi kimi mövcudluğu məsələsinə aydınlıq gətirmək lazımdır.

## Hərbi hüquq sahəsinin formalaşması

Hüquq nəzəriyyəsində müstəqil hüquq sahəsi yaratmaq üçün bir neçə şərt (meyar) nəzərdə tutulur. Bu şərtləri iki yerə bölmək olar: əsas şərtlər, əlavə şərtlər.

Əsas şərtlər həlledici xarakter daşıyırlar və aşağıdakılardır:

- hüquqi tənzimetmənin müstəqil predmeti (ictimai münasibətlərin xüsusi dairəsi) olmalıdır.
- hüquqi tənzimetmənin özünəməxsus metodu (həmin qrup ictimai münasibətlərə göstərilən özünəməxsus hüquqi təsir vasitələri və üsulları) mövcud olmalıdır.

Əlavə şərtlər yardımçı xarakterə malikdirlər və aşağıdakılardır:

- hüquq sahəsi özünün xüsusi prinsiplərinə (sahəvi prinsiplər) malik olmalıdır.
- hüquq sahəsi müstəqil funksiya daşımalıdır, yəni xüsusi funksiya yerinə yetirməlidir.
- hüquq sahəsi ümumi müddəalara malik olmalıdır, yəni hüquq sahəsinin strukturda mütləq "ümumi hissə" adlı bölmə olmalıdır.
- hüquq sahəsinin predmetinə aid olan ictimai münasibətləri digər hüquq sahələrinin normaları ilə tənzimləmək qeyri-mümkün olmalıdır. [8, s.125-126].

Müstəqil hüquq sahəsinin ayrılması real ictimai münasibətlərdən irəli gəlməli və bu münasibətləri ifadə etməlidir. Məhz bu münasibətlər onun obyektiv xarakterə malik olmasını şərtləndirir. Qanunverici orqan yalnız öz iradəsi ilə müstəqil hüquq sahəsi yarada bilməz, çünki, müstəqil hüquq sahəsinin yaranması özözlüyündə obyektiv həqiqətin və gerçəkliyin ifadəsi, bir növ, surətidir. Deməli, hərbi hüququn müstəqil hüquq sahəsi kimi fərqləndirilməsi subyektiv xarakter daşımamalı, yəni mülahizələrlə, konsepsiyalarla, nəzəriyyələrlə, ideyalarla, nəzəri mühakimələrlə və elmi polemikalarla bağlı olmamalıdır. Hərbi hüququn müstəqil sahə kimi ayrılması obyektiv zərurətdən irəli gəlməlidir. Qanunverici yalnız bu zərurəti dərk etməli və onu rəsmiləşdirməlidir.

XIX əsrdən etibarən hüquq sisteminin daxili inkişafı nəticəsində ayrı-ayrı hüquq sahələri arasındakı oxşar cəhətlərlə yanaşı, fərqli cəhətlər də araşdırılmağa başlandı. Nəticədə yeni hüquq sahələrinin öyrənilməsinə maraq artdı. Məhz bu dövrə aid bir çox elmi əsərlərdə hərbi hüquq sahəsinin hüquqi təzahürlərinin tarixi-müqayisəli şəkildə dərkinə cəhdləri görmək mümkündür. Hərbi hüququn müstəqil hüquq sahəsi kimi formalaşmasına təsir edən əsas amillərdən biri də digər hüquqi və sosial elmlərin inkişafı oldu. Belə ki, beynəlxalq münasibətlərin intensivləşməsi, dövlətlərarası münaqişələrin və ziddiyyətlərin artması, bu cür münaqişələrin həlli üsullarının təkmilləşdirilməsi ehtiyacı, eləcə də dövlətlərin müdafiə qabiliyyətlərini daim inkişaf etdirmək istəyi mühüm praktiki əhəmiyyət daşıyan bu sahənin formalaşmasını reallığa çevirdi.

Nəticədə hərbi hüquq institutlaşaraq bu sahədəki tədqiqatlar müstəqil xarakter aldı və hüququn digər sahələrindən ayrıldı. Hərbi hüquq sahəsində elmi tədqiqat aparan müxtəlif beynəlxalq təşkilatlar, assosiasiyalar, müxtəlif institutlar meydana gəldi. Fransa, İngiltərə, Almaniya, ABŞ, Rusiya Federasiyası və bir sıra digər dövlətlərdə “Hərbi hüquq” ayrıca tədris fənni kimi müxtəlif təhsil müəssisələrində tədris proqramlarına daxil edildi.

Ümumiyyətlə, “hərbi hüquq” termini ilk dəfə XIX əsrdə elmi dövriyyəyə gətirilmişdir. Öz elmi əsərlərində bu termindən geniş istifadə etmiş ilk hərb alimlərindən biri P.O.Bobrovskiy olmuşdur. Müxtəlif dövlətlərdə hərbi hüququn inkişaf tarixini araşdırmış alim belə qərara gəlmişdir ki, “müasir dövlət üçün ordunun təşkili və fəaliyyətinin səmərəli üsullarını müəyyən etməyə istiqamətlənən spesifik normaların olması mütləq vacibdir. Ordunun həyat və fəaliyyətini nizamlayan bu cür hüquqi normaların məcmusu hərbi hüququ əmələ gətirir” [4, s.14].

“Hərbi hüquq” anlayışına ilk dəfə Rusiyada hüquqi dövriyyədə rastlanması təsadüfi deyildir. Belə ki, XIX əsrin sonları və XX əsrin əvvəllərində Rusiyanın hüquq elmi xarici hüquq ədəbiyyatlarından geniş istifadə edərək xeyli inkişaf etmişdir. Xarici ölkələrdə qüvvədə olan qanunvericilik aktlarından istifadə edilməsi müqayisəli hüquqi tədqiqatların aparılmasına öz müsbət təsirini göstərmişdir. Alman əsilli rus generalı P.K.Rennenkampf dərc etdirdiyi “Hüquq ensiklopediyası”nda hərbi hüququ dövlət hüququnun hərbi idarəetməni nəzərdə tutan tərkib hissəsi kimi göstərirdi [14, s.185]. Professor A.M.Dobrovolskiy isə yazırdı ki, “ordunun həyatını tənzimləyən normalar məcmuu şəklində ayrıca hüquq sahəsini – hərbi hüququ əmələ gətirir. Bu sahə özündə hərbi-inzibati, hərbi-cinayət və hərbi-mühakimə (hərbi-prosessual) hüququnu birləşdirir” [6, s.39]. Həmçinin professor A.M.Dobrovolskinin fikrincə, “hərbi hüquq sahəsi dövlət hüququ ilə hissə və tam qanunauyğunluğuna əsasən qarşlıqlı əlaqədə olmalarına və hər iki hüquq sahəsinin eyni ideyaya – dövlət nizam-intizamı ideyasına əsaslanmasına baxmayaraq, bu sahələr ayrı-ayrılıqda müvafiq olaraq ordunun daxili təşkilati xüsusiyyətləri (hərbi hüquq) və ordunun təyinatı (dövlət hüququ) ilə bağlı məsələləri nizamlayan normalardan ibarətdirlər” [5, s.43-45].

Hərbi hüququn problemləri barədə Rusiyada ilk elmi-nəzəri konfrans 1939-cu ildə keçirilmişdir. Bu konfransın, eləcə də, 1954-cü və 1956-cı illərdə keçirilən növbəti konfransların materiallarında hərbi hüquq sahəsinin hüquq sistemində yeri və rolu haqqında iki konseptual yanaşma əks olunurdu. Birinci yanaşmaya əsasən, hərbi hüquq problemlərinin tədqiqi formalaşmış hüquq sistemi çərçivəsində artıq mövcud hüquq sahələri dairəsində aparılmalıdır. Digər yanaşmanın tərəfdarları isə hesab edirdilər ki, hərbi-hüquqi problemlərin səmərəli tədqiqi yalnız müvafiq sahənin müstəqil hüquq sahəsi kimi tanınması zamanı mümkün olar.

XX əsrin son onilliklərində hərbi hüququn hüquq sahəsi kimi tanınması hüquq ədəbiyyatı səhifələrində geniş diskussiya və mübahisə doğuran məsələlərdən biri olmuşdur. Belə ki, hərbi hüquq həm təşkilati-hakimiyyət münasibətlərini, həm də əmlak münasibətlərini tənzimləyir. Təşkilati-hakimiyyət münasibətləri

inzibati hüquqla, əmlak münasibətləri isə mülki hüquqla nizama salınır. İnzibati hüquq ümumi hüquq sahəsinə, mülki hüquq isə xüsusi hüquq sahəsinə aiddir. Bir sıra müəlliflər göstərir ki, ümumi və xüsusi hüquq normalarının "qarışığından" ibarət müstəqil hüquq sahəsi yaratmaq olmaz. Belə ki, xüsusi hüquq normaları tənzimlədiyi məsələlərə özbaşına dövlət müdaxiləsini istisna edir. Ümumi hüquq normaları isə öz hüquqi təbiətinə görə xüsusi hüququn əsaslarını məhdudlaşdırır, onları üstələyir və özünə tabe etdirir. Buna görə də ümumi və xüsusi hüquq elementlərinin müstəqil, ayrıca bir hüquq sahəsində birləşdirilməsi qeyri-mümkündür [12, s.89]. Müasir hüquq doktrinasında hərbi hüququn kompleks sahə adlandırılmasının əsas səbəblərindən biri də budur. Geniş mənada yanaşsaq, hərbi hüquq normaları hərbi qurumların yaradılması və fəaliyyət qaydalarını, eləcə də onların strukturu və səlahiyyətləri, bu qurumlarda dövlət idarəetməsinin həyata keçirilməsi qaydalarını, həmçinin hərbi xidmətə qəbul qaydalarını, hərbi qulluqçuların hüquq və vəzifələri və dövlətin hərbi fəaliyyəti sahəsində meydana çıxan digər bu kimi münasibətləri tənzimləyir.

**Hərbi hüququn predmeti**

Ümumi qaydada ölkənin hüquq sisteminə daxil olan hüquq sahələri bir-birindən tənzimetmə predmetinə və tənzimetmə metoduna görə fərqlənir. Qısaca xatırlatsaq, hüquq sahəsinin predmeti dedikdə, müvafiq hüquq sahəsinin normalarının nizamladığı ictimai münasibətlərin müəyyən qrupu (dairəsi) başa düşülür. Aydındır ki, müstəqil hüquq sahəsinin tənzimetmə predmeti qismində bənzər ictimai münasibətlər dairəsi çıxış etməlidir. Lakin əksər hallarda ictimai münasibətlər bir deyil, bir neçə fərqli hüquq sahəsinin təsiri ilə yaranır və inkişaf edir. Buna görə də ictimai münasibətlərin konkret hüquq sahəsinə aidiyyatının müəyyən edilməsi üçün əlavə meyarlara ehtiyac vardır. Bu baxımdan hüquq sahəsinin tənzimetmə metodu mühüm əhəmiyyət kəsb edir. Metod dedikdə, ictimai münasibətlərin tənzimlənməsi zamanı istifadə edilən hüquqi üsul və vasitələr başa düşülür. Professor S.S.Alekseyevin fikrincə, "hüquq sahəsinin xüsusiyyətlərini yığcam (müxtəsər) və toplu şəkildə üzə çıxaran əsas təyinedici meyar hüquqi tənzimləmənin metodudur" [2, s.10-11]. Normaların hüquq sahələri üzrə təsnifatında ən düzgün meyar predmetin və metodun birgə mövcudluğu əlaməti sayılır, çünki hüquq sahəsinin predmeti onun metodu ilə sıx əlaqədədir. Əgər predmet tədqiqatın istiqamətini göstərirsə, metod elmi idrakın vasitələrini, tədqiqatın üsul və qaydalarının sistemini müəyyən edir.

Hərbi hüququn hüquq sahələri sistemində yerinin müəyyən edilməsi onun müstəqil hüquq sahəsi kimi mövcudluğunu təsdiq edən mühüm faktorlardan biridir. Belə ki, hüququn bu və ya digər sahəsinin formalaşması təkcə onun ictimai münasibətlərin müəyyən bir qrupunu tənzimləməsi ilə deyil, həm də müstəqil surətdə digər hüquq sahələri ilə qarşılıqlı münasibətdə ola bilməsi ilə müəyyən edilir. Çünki müstəqil hüquq sahəsinin formalaşması heç bir kənar təsir olmadan baş verə bilməz. Əksinə müstəqil hüquq sahəsinin formalaşması digər hüquq sahələrinin, ilk növbədə isə ona yaxın olan hüquq sahələrinin normalarının bilavasitə təsiri altında baş verir və bu təsir öz izini yeni yaranan hüquq sahəsi üzərində həmişəlik qoymuş olur. Bu prosesin gedişini başqa cür təsəvvür etmək mümkün deyil. Əks halda biz təbiət və cəmiyyət hadisələrinin universal qarşılıqlı əlaqəsini inkar etmiş olarıq.

Hərbi hüququn hüquq sistemində yeri şübhəsiz ki ilk növbədə onun predmeti ilə müəyyən edilir. Hərbi hüququn predmeti daxilində dövlətin hərbi fəaliyyətinin müxtəlif sferalarında meydana çıxan spesifik ictimai münasibətlərin bir neçə qrupunu fərqləndirmək mümkündür:

Birinci qrupa – dövlətin müdafiəsinin və təhlükəsizliyinin hərbi metodlarla təmin edilməsi, eləcə də dövlətin hərbi qurumlarının bütün struktur elementlərinin bu məqsədlər üçün istifadəsi zamanı yaranan ictimai münasibətlər aid edilir.

İkinci qrupa – hərbi vəzifənin yerinə yetirilməsi, müqavilə əsasında hərbi xidmət keç-

mə, habelə hərbi qulluqçu statusu ilə bağlı ictimai münasibətlər aid edilir.

Üçüncü qrupa – hərbi intizamın, qanunçuluq və hüquq qaydasının təmin olunması, həmçinin hərbi ədliyyə (mühakimə) orqanlarının fəaliyyəti ilə bağlı ictimai münasibətlər aid edilir.

Dördüncü qrupa – hərbi sahədə beynəlxalq əməkdaşlıq məsələləri, eləcə də beynəlxalq humanitar hüquq normalarının pozulmasına görə məsuliyyət məsələləri aid edilir [3, s.14].

Hərbi hüququn predmeti obyektiv olaraq onun digər sahələrdə idarəetmə fəliyyətini tənzimləyən hüquq sahələri ilə sıx əlaqəsini zəruri edir. Bu hüquq sahələrinə bildiyimiz kimi, konstitusiya və inzibati hüquq sahələri aiddir. Ona görə də hərbi hüquq sahəsinin hüquq sistemində yerini adı çəkilən hüquq sahələrinə müraciət etmədən müəyyən etmək mümkün deyil. Belə birbaşa asılılıq təsadüf olmayıb, adı çəkilən hüquq sahələrinin təbiətindən və qarşılarında duran vəzifənin ümumiliyindən irəli gəlir. Çünki bu hüquq sahələrinin hamısını bir sosial vəzifə – dövlətin hərbi sahədə fəaliyyətini tənzimləmənin hüquqi, qanunvericilik bazasını yaratmaq birləşdirir.

## Hərbi hüququn hüquq sistemində yeri

Ümumilikdə dəyərləndirsək, hərbi hüququn digər hüquq sahələrindən başlıca fərqi dövlətin hərbi quruculuğu sahəsindəki ictimai münasibətlərin tənzimlənməsi zamanı təfərrüatlı (detallı) yanaşmanın, eyni zamanda əhəmiyyətlilik baxımından şaquli ardıcıllığın gözlənilməsidir. Belə ki, hərbi hüquq normaları kəskin və qəti tələblər müəyyən etməsi ilə, eləcə də daha çox detallaşdırma xarakteri ilə digər hüquq sahələrinin normalarından fərqlənir. Bu baxımdan hərbi hüququn normaları öz imperativliyi və qətiliyi ilə xarakterizə olunur. Eyni zamanda, nəzərə almaq lazımdır ki, hərbi hüququn bütün normaları öz vahidliyi, daxili vəhdəti və üzvü surətdə əlaqəli olması ilə xarakterizə olunur. Hərbi hüquq normaları arasında daxili uzlaşma, qarşılıqlı əlaqə və vəhdət yaradan əsas birləşdirici amillər hüquqi tənzimləmə məqsədinin ümumiliyi və hərbi fəaliyyətin spesifik – mərkəzləşmə, təkbaşçılıq (vahid rəhbərlik) və hərbi intizam prinsipləridir. Belə ki, bütün hərbi hüquq normaları bu spesifik prinsiplərə əsaslanaraq, dövlətin hərbi təsisatının fəaliyyətinin möhkəmlənməsi və təkmilləşdirilməsinə xidmət edir.

Bu cür fərqli xüsusiyyətlərə malik olmasına baxmayaraq, hərbi hüquq sahəsi eyni zamanda bir sıra digər hüquq sahələri ilə qarşılıqlı əlaqədədir. Bildiyimiz kimi, Konstitusiya hüququ hüququn sahələri içərisində aparıcı yer tutur və bütün hüquq sahələrinin istinad, başlanğıc nöqtəsidir. "Azərbaycan Respublikası Silahlı Qüvvələri haqqında" qanunun 2-ci maddəsində Silahlı Qüvvələrin fəaliyyətinin hüquqi əsasını təşkil edən normativ aktlar arasında Azərbaycan Respublikasının Konstitusiyası ilk sırada qeyd olunur. Həmçinin müvafiq qanunun 5-ci maddəsində Silahlı Qüvvələrin hərbi quruculuq və fəaliyyət prinsipləri içərisində "qanunun aliliyi, humanizm, qanun qarşısında bərabərlik, insan və onun konstitusion hüquq və azadlıqlarına hörmət" prinsiplərin qeyd olunması göstərir ki, Silahlı Qüvvələrin fəaliyyəti Konstitusiyanın normalarına istinad edir və bu fəaliyyəti tənzimləyən digər normalar da konstitusion hüquq normalarına ciddi şəkildə uyğun olmalıdır. Beləliklə, dövlətin müdafiə fəaliyyəti, o cümlədən bu istiqamətdə Silahlı Qüvvələr tərəfindən həyata keçirilən fəaliyyət Azərbaycan Respublikası Konstitusiyası normalarının reallaşmasına xidmət edir.

Hərbi hüquq inzibati hüquqla da dərin əlaqələrə malikdir. Hərbi hüququn inzibati hüquqla sıx əlaqəsi onların tənzimetmə predmetlərinin kəşisməsi ilə bağlıdır. Belə ki, inzibati hüququn nizamasalma predmetini dövlət idarəetməsi, icra hakimiyyətinin təşkili və həyata keçirilməsi prosesində yaranan ictimai münasibətlər təşkil edir. Hərbi hüququn predmetini isə dövlətin hərbi təşkilatının formalaşması və hərbi sahədə fəaliyyətin müxtəlif sferalarında meydana çıxan spesifik ictimai münasibətlər təşkil edir. Digər tərəfdən hərbi hüquq inzibati hüququn kateqoriya və anlayışlarından geniş istifadə edir. Məsələn, dövlət

idarəetməsinin ümumi və təşkilati prinsipləri, dövlət idarəetməsində istifadə olunan metodlar, sistemdaxili və xarici idarəetmə münasibətləri və s. bu kimi kateqoriyalar inzibati hüquq və hərbi hüquq tərəfindən ortaq istifadə olunur. İnzibati hüquqla hərbi hüququn digər bir oxşar cəhəti ondan ibarətdir ki, hər iki hüquq sahəsində münasibətləri tənzimləyən aktlar yalnız ali dövlət hakimiyyət orqanı tərəfindən deyil, həm də müvafiq icra orqanları tərəfindən qəbul edilə bilər. İnzibati hüququn yarımsahələri dedikdə, eyni növlü ictimai münasibətləri tənzimləyən bir neçə inzibati hüquq institutunun birləşməsi başa düşülür.

İnzibati hüququn hər bir yarımsahəsi özlərinin spesifikliyi ilə fərqlənən və növ xüsusiyyətləri ilə seçilən ictimai münasibətlərin ayrı-ayrı sahələrini nizama salır. İnzibati hüquqla nizama salınan sahəyə ölkənin sosial-siaysi, sosial-mədəni və iqtisadi həyatında yaranan ictimai münasibətlərin geniş dairəsi aiddir. Buna görə də inzibati hüququn yarımsahələrinin dairəsini və sayını müəyyənləşdirmək üçün hüquqla tənzimlənən ictimai münasibətlərin spesifik xüsusiyyətləri ilə fərqlənməsi və növ əlaməti ilə seçilməsi kimi meyarı əsas götürmək lazımdır, məhz bu spesifik xüsusiyyətlər inzibati-hüquqi tənzimetmənin xarakterinə kifayət qədər təsir göstərir. Lakin bu o demək deyil ki, hərbi hüquq inzibati hüququn tərkib hissəsidir. Baxmayaraq ki, hüquq ədəbiyyatlarında hərbi idarəetmə sferasında münasibətləri nizamlayan normaların məcmusunu yalnız inzibati hüququn yarımsahəsi kimi dəyərləndirən və hərbi hüquq sahəsinin müstəqilliyini tanımayan müəlliflər də vardır. Məsələn, 2009-cu ildə "Müstəqil hərbi araşdırmalar" mərkəzinin təşkil etdiyi "dəyirmi masa"da hərbi islahatların həyata keçirilməsində aktual problemlər müzakirə edilmişdir. Burada hərbi hüquq sahəsinin ayrıca hüquq sahəsi olması ideyası özünə tərəfdar tapa bilməmişdi. Əsas arqument kimi isə bu sahədə kodifikasiya edilmiş aktın olmaması və komplekslik əlamətinin müstəqil sahə anlayışına uyğun gəlməməsi göstərilmişdi [15, s.93]. İlkin dövrlərdə inzibati hüququn yarımsahəsi kimi formalaşan hərbi hüquq artıq özünəməxsus tənzimetmə predmeti konkretləşmiş və daxili institutları formalaşmış sahədir.

Görkəmli professor A.A.Tolkaçenko yazır ki, "dövlətin təhlükəsizliyini müxtəlif sahələrdə təmin edən orqanlar fəaliyyət göstərən zaman hərbi-hüquqi məsələlər dar çərçivədə deyil, digər hüquqi problemlərlə birgə kompleks şəkildə nəzərdən keçirilməlidir" [16, s.9-12]. Məhz bu səbəbdən də, əksər mütəfəkkirlərin fikrincə hərbi hüquq yalnız hərbi problematika ilə məhdudlaşmamalıdır və özündə müdafiə məsələlərinin bütün hüquqi aspektlərini birləşdirməlidir. Başqa sözlə, hərbi hüququn tədqiqat predmetinə kompleks yanaşma bir sıra hərbi məsələlərin sistemli həllinə imkan yaradacaqdır. Professor S.V.Polenina isə əksinə qeyd edir ki, "komplekslik əlaməti (bu hadisənin təbiəti baxımından) heç bir hüquq sahəsinə aid edilə bilməz. Yalnız struktur inteqrasiya nəticəsində komplekslik əlaməti itirildikdən sonra eks-sahələrarası institutların məcmusu müstəqil hüquq sahəsi kimi tanına bilər" [11, s.36-38]. Bu yanaşmaya görə, hərbi hüquqa aid edilən ictimai münasibətləri tənzimləyən normativ törəmələr komplekslik əlamətini itirdikdə hərbi hüququ müstəqil sahə kimi tədqiq etmək mümkün ola bilər, çünki hərbi hüququn kompleks xarakterinin vurğulanması Silahlı Qüvvələr üçün spesifik olan qanunauyğunluqların elmi cəhətdən kifayət qədər dəyərləndirilməməsi ilə nəticələnə bilər.

Ümumiyyətlə, kompleks hüquq sahəsi konsepsiyası hələ XX əsrin ortalarında hüquq ədəbiyyatı səhifələrində işıqlandırılmışdır. Bu konsepsiyanı, ilk dəfə olaraq, sovet alimi V.K.Rayxer irəli sürmüşdür. Sonralar həmin konsepsiya tanınmış sivilist alimlər Y.K.Tolstoy, S.S.Alekseyev tərəfindən dəstəklənərək inkişaf etdirilmişdir. Hal-hazırda aqrar hüquq və sahibkarlıq hüququ kimi sahələr kompleks hüquq sahəsi kimi tanınır və tədqiq edilir [9, s.55]. V.K.Rayxer yazırdı ki, "hüquq sistemi həm əsas sahələrdən, həm də kompleks sahələrdən ibarətdir. Belə ki, real həyatda yaranan bəzi qarışıq və kompleks xarakterli ictimai

münasibətləri bir deyil, bir neçə hüquq sahəsi ilə tənzimləmək mümkün olur” [13, s.47].

Kompleks hərbi hüquq konsepsiyasını bir sıra müəlliflər dəstəkləyirlər. Alimlərdən V.M.Koryakin göstərir ki, “hüquq elmində iki cür hüquq sahəsi ayrılır və fərqləndirilir: baza hüquq sahələri, kompleks hüquq sahələri. Baza hüquq sahələrinə dövlət, cinayət, mülki, inzibati və digər hüquq sahələri aiddir. Kompleks hüquq sahələrinə daxil olan normalar isə vahid tənzimetmə metodu və mexanizmi ilə bağlı deyildir. Bu normaların hamısı əsas hüquq sahələrinə aiddir” [7, s.40-48]. Onun fikrincə, hərbi hüquqla yanaşı nəqliyyat, bank, kommersiya və ekologiya hüququ da kompleks hüquq sahəsinə aid edilir.

Hərbi hüququn kompleks hüquq sahələrinə aid edilməsinin əsas səbəbi hərbi hüququn vahid kompleksində müxtəlif hüquq sahələrinin hüquq normalarının birləşməsidir. Başqa sözlə, hərbi hüquq normalarını inzibati, mülki, əmək, torpaq və prosessual hüquq kimi əsas hüquq sahələri arasında bölüşdürmək olar.

Təəssüf ki, Azərbaycan hüquq ədəbiyyatlarında kompleks hüquq sahəsi ideyası kifayət dərəcədə əsaslandırılmayıb və bu sahədə demək olar ki, elmi tədqiqat əsərləri yoxdur. Buna əsas səbəb milli hüquq elminin müəyyən sahələrdə hələ də sovet hüquq dpktrinasının ənənələrini davam etdirməsidir. Əksər yerli müəlliflər hüquq sisteminin obyektiv xarakterə malik olmasını əsas gətirərək ayrı-ayrı hüquq sahələrinə aid edilən müxtəlif hüquq normalarından kompleks hüquq sahəsinin formalaşdırılmasını mümkünsüz hesab edirlər.

Bəzi hüquqşünas alimlər isə digər hüquq sahələrinin normalarının hərbi sahədə tətbiqini mümkün edəcək xüsusiyyətləri qabardırlar. Nəticədə hərbi münasibətlər sırf özünəməxsus formada deyil, süni şəkildə onlara uyğunlaşdırılmış ümumi hüquq normaları vasitəsilə nizamlanacaq ki, bu hal nizamalanmada arzuolunmaz boşluqlara və pozuntulara gətirib çıxara bilər.

Həqiqətən də, hərbi fəaliyyət sahəsində olan çoxsaylı ictimai münasibətlərin müəyyən bir qismi inzibati hüququn normaları ilə tənzimlənir. Lakin belə qarşılıqlı əlaqənin digər hüquq sahələri arasında da mövcud olduğunu nəzərə almaq lazımdır.

Fikrimizcə, hərbi fəaliyyət sahəsində münasibətlərin əsas hissəsi icra hakimiyyətinin həyata keçirilməsi ilə bağlı deyil, hərbi xidmətin həyata keçirilməsi ilə bağlı meydana gəlir. Bundan əlavə, hərbi hüququn və inzibati hüququn subyektləri əsasən müxtəlifdir. İnzibati hüququn subyektləri icra hakimiyyəti orqanlarından, vətəndaşlardan, yerli idarəetmə orqanlarından, dövlət qulluqçularından, müxtəlif təşkilati-hüquqi formada idarə və müəssisələrdən, ictimai qurumlardan ibarətdir. Hərbi hüququn subyektləri isə istisna qaydasında dövlətin silahlı qüvvələrindən və onların qulluqçularından ibarətdir. İctimai birliklər heç bir halda hərbi hüququn subyektləri ola bilməzlər.

Hərbi hüququn mülki hüquqla əlaqəsi mülki hüququn mühüm institutlarından biri olan müqavilə institutunun hərbi xidməti münasibətlərin tənzimlənməsi zamanı istifadəsində özünü biruzə verir. Məsələn, “Hərbi xidmətkeçmə haqqında” Əsasnaməyə əsasən Azərbaycan Respublikasının Silahlı Qüvvələrində hərbi xidmətə qəbulun formalarından biri tərəfi müvafiq icra hakimiyyəti orqanı olan bağlaşmanın bağlanmasıdır. Təbii ki, bağlaşma (müqavilə) bağlayan hərbi qulluqçular Mülki Məcəllədə nəzərdə tutulan müqavilə institutuna müraciət etmədən keçinə bilməzlər. Lakin nəzərə almaq lazımdır ki, bu iki hüquq sahəsində münasibətlərin tənzimlənməsi metodları eyni deyil. Hərbi hüquq münasibətləri sərəncam vermə qaydasında hakimiyyət-tabeçilik metodu ilətənzimləyir, mülki-hüquqi nizamasalma metodu isə tərəflərin bərabərliyi ilə xarakterizə olunur.

Azərbaycanın hüquq sisteminə nəzər saldıqda görürük ki, bu və ya digər formada hərbi-müdafiə aspekti mövcud olmayan hüquq sahəsi və ya yarımsahəsi yoxdur. Belə vəziyyət yerinə yetirilən işlərin xarakterindən və sosial əhəmiyyətindən asılı olaraq hərbi münasibətlərin yalnız bir hüquq sahəsinin üsul və vasitələri ilə nizamlanmasını mümkünsüz edir. Hərbi hüquq üçün xarakterik olan “kəsiş-

mələr", yəni eyni məsələlərin müxtəlif hüquq sahələri tərəfindən nizamlanması halı məhz bu səbəbdən meydana çıxır. Çünki, buraya dövlətin hərbi fəaliyyətini və hərbi-xidməti münasibətləri nizamlayan sırf hərbi hüquq normaları ilə yanaşı, digər hüquq sahələrinə (konstitusiya hüququ, mülki hüquq, cinayət hüququ, sosial-təminat hüququ, hərbi ədliyyə orqanlarının fəaliyyəti zamanı meydana çıxan münasibətlərin tənzimləməsi üçün mülki, inzibati və cinayət prosessual hüquq sahələrinə) aid edilən normalar da daxildir. Hərbi hüququn tənzimləmə metodunun müəyyən edilməsində "sərhəd zonalarının" olması, yəni, eyni məsələlərin fərqli hüquq sahələri tərəfindən tənzimlənməsini nəzərə almaq vacibdir. Məsələn, hərbi qulluqçuların mənzil problemləri həm "Hərbi qulluqçuların statusu" haqqında Qanunla, həm də Mənzil Məcəlləsi ilə nizamlanır. Hərbi-müdafiə və hərbi-xidməti münasibətlərin tənzimlənməsi zamanı obyektiv olaraq digər hüquq sahələrinin potensialından istifadə etməyə ehtiyac yaranır və bu zaman konkret münasibətin məqsədyönlü və səmərəli nizamlanmasına imkan verən hüquq norması (şəxsiyyət, cəmiyyət və dövlət maraqlarının konstitusion balansı qorunmaq şərtilə) tətbiq olunur.

Müasir dövrdə Azərbaycanın milli hüquq sistemi cəmiyyətin hüquq mədəniyyətinin formalaşmasında müəyyən funksiyalar icra edir:

1. Hüquq sisteminin köməyi ilə onun tərkib elementləri – normalar, institutlar, sahələr arasında möhkəm əlaqə yaranır. Bu əlaqələr səbəb-nəticə (müəyyən qrup normalar bilavasitə digərlərinin qəbulunu və ya mövcudluğunu nəzərdə tutur), funksional (bu və ya digər subyektiv hüquq və ya vəzifə bir neçə norma və ya institutun qarşılıqlı əlaqəsi vasitəsilə reallaşdırılır), xarici (müəyyən normalar əxlaq, adət və digərləri ilə birlikdə vahid institut yaradır), daxili, şaquli (qanunlar və qanunqüvvəli aktlar) və üfuqi (sahələr) növlərə ayrılırlar. Hüququn sistemdaxili əlaqələri onun vahidliyini və uyğunluğunu təmin edir.

2. Hüquq sistemi istər qanunvericidən, istərsə də digər normativ sistemlərdən daxil olan sosial informasiyanın toplayıcısı kimi çıxış edir. Daxil olan informasiya (yeni normalar) çeşidlənir və hüquq sisteminin ciddi surətdə müəyyən edilmiş yerlərdə – müvafiq institutun və ya hüquq sahəsinin tərkibinə yerləşdirilir. Hüquq sisteminin bu xüsusiyyətindən istifadə edərək hüquqi informasiyanın elektron saxlama və axtarış sistemi yaradılır. Bu mənada hüquq sistemi hüququn "daxili xəritəsi" rolunu oynayır və bundan istifadə edərək hüquq tətbiqedən şəxs özünə lazım olan normanı asanlıqla tapa bilir.

3. Hüquq sistemi çoxsaylı hüquq normalarının reallaşdırılması zamanı əldə edilən ümumi tənzimləmə effektini təmin edir. Bu effekt elmdə sinergetik effekt, yəni "birgə", "razılaşdırılaraq fəaliyyət göstərən" adlanır. Sistemin elementlərinin qarşılıqlı əlaqədə fəaliyyət göstərməsi nəticəsində onun ayrı-ayrı elementləri səviyyəsində əldə edilə bilməyən keyfiyyət meydana çıxır. Hüququn sosial dəyərinin (ədalət, humanistlik, hüquqlara zəmanət və s.) əsas parametrləri məhz onun sistemli fəaliyyəti nəticəsində təmin edilir.

4. Hüquq sistemi müxtəlif islahatlar zamanı hüquqi tənzimetmənin stabilliyini qorumağa imkan verir. Belə ki, hüququn strukturu dayanıqlıdır, hüququn özünəməxsus "genetik proqramı" müəyyən dərəcədə qanunvericinin iradə və istəyindən asılı deyil. Hüquq normalarının məzmununda dəyişikliklər nəzərdə tutan hüquqi islahatlar obyektiv olaraq hüququn quruluşundan irəli gələn sxemə əsasən həyata keçirilir. Bundan başqa yeni normanın "həyatı" birbaşa artıq mövcud olan hüquq strukturu ilə – hüququn institutları, sahələri ilə uyğunluğundan asılı olur. Başqa sözlə, yeni hüquq sahələrinin meydana gəlməsi bütövlükdə hüquq sisteminin strukturunun dəyişməsinə səbəb olmur.

5. Qanunvericiliyin dəyişkənliyinə qarşı dözümlü olan hüquq sistemi özlüyündə hüquqi inkişafın varisliyik mexanizmi kimi çıxış edir. Hüquq sistemi uzun əsrlər boyunca təcrübədə yaradılmış hüququn strukturunu (normalar, institutlar, sahələr) yeni nəsillərə ötürür. Hüquq sistemi hüquq mədəniyatinin dəyərlərinin "yığımına" çevrilir [1, s. 299-300].

Hərbi hüququn Azərbaycanın hüquq sistemindəki "strateji" yerini və əhəmiyyətini bir sıra meyarlar müəyyən edir. İlk olaraq nəzərə almaq lazımdır ki, hərbi hüquq hüquq sisteminin mühüm və ayrılmaz tərkib hissəsi olmaqla yanaşı, eləcə də hərb elminin tamhüquqlu tərkib hissəsi kimi – elm sahəsi kimi çıxış edir. Hərb elminin hissəsi kimi hərbi hüquq dövlətin müdafiə qabiliyyəti və hərbi təhlükəsizliyinin təmin edilməsi istiqamətində dövlətin hərbi fəaliyyətinin hüquqi aspektlərini öyrənir. Beləliklə də, hərbi hüququn "onurğa sütununu" hərbi-inzibati hüquq təşkil edir, lakin bu hal hərbi ədliyyə, maliyyə-təsərrüfat, hərbi-sosial sahədə yaranan münasibətlərin əhəmiyyətini azaltmır və onların hüquqi nizamlanmasının zəruriliyini aradan qaldırmır. Dövlətin hərbi strategiyası hərb işinin inkişafının istiqamətlərini, hərbi quruculuğun və idarəetmənin qanunauyğunluqlarını, eləcə də dövlətin hərbi sahədə fəaliyyətinin forma və metodlarını nəzərə alan hərbi qanunvericiliklə əsaslandırılmalı və elmi biliklərin demək olar ki, bütün sahələrini əhatə edərək formalaşdırılmalıdır. Müasir dövrdə dövlətin hərbi quruculuğu, silahlı qüvvələrin təşkili və istifadəsi, eləcə də beynəlxalq və milli təhlükəsizlik maraqları çərçivəsində beynəlxalq hərbi əməkdaşlıq ilə bağlı layihələrin elmi əsaslandırılması ehtiyacı çox aktualdır.

Qeyd etmək lazımdır ki, indiyə qədər Azərbaycanda hərbi hüquq sahəsində mövcud olan bütün elmi işlər daha çox tətbiqi xarakterli olub hərbi hüququn hər hansı bir konkret institusional probleminin həllinə yönəlmişdir. Müasir dövrdə hərbi hüququn nəzəri əsaslarının dərindən tədqiqatına xüsusilə ehtiyac vardır. Müstəqil hüquq sahəsi kimi hərbi hüquq, onun predmeti və metodu, prinsip və funksiyaları, eləcə də dövlətin hüquq sistemində yeri və sair bu kimi mühüm nəzəri-hüquqi məsələlər hələ də əsaslı şəkildə tədqiq olunmayıb. Bu cür nəzəri tədqiqatlar bu sferada aparılacaq bütün digər tədqiqatlar üçün mühüm fundament rolunu oynayacaqdır.

**Ədəbiyyat:**


1. Süleymanov, C., Nəsirov, B., Xalıqov, M., Əliyev, İ. Hüquq nəzəriyyəsi. Dərs vəsaiti. Bakı: Mütərcim, – 2014. – 428 s.
2. Алексеев, С.С. Об отраслях права // Советское государство и право. 1973, – №3.
3. Арцибасов, И.Н., Стрекозов, В.Г., Казанчев, Ю.Д. Военное право: состояние и перспективы развития // «Круглый стол» журнала Государство и право, 1994, – № 8.
4. Бобровский, П.О. Военное право в России при Петре Великом. Часть II. Артикул воинский. СПб., – 1886.
5. Добровольский, А.М. Военное право // Военная энциклопедия. Т. 1. СПб., – 1911.
6. Добровольский, А.М. Военно-административное право. СПб., – 1909.
7. Корякин, В.М. К вопросу о комплексных отраслях отечественной правовой системы (на примере военного права) // Журнал правовых исследований, – 2015, – №1.
8. Назаренко, Г.В. Общая теория права и государства. Учебный курс. М.: Юрист, – 2003. – 340 с.
9. Общая теория права и государства. Учебник / Под ред. В.В.Лазарева. М.: Правоведение, – 2001. – 368 с.
10. Поленина, С.В. Проблема национально-культурной идентичности в свете взаимодействия правовых систем современности // Государство и право, 2008. – №1.
11. Поленина, С.В., Гаврилов, О.А., Колдаева, Н.П. и др. Воздействие глобализации на правовую систему России // Государство и право. – 2004. – №3.
12. Протасов, В.Н. Теория права и государства. 2-е изд., перераб. и доп. М: Юрлитинформ, – 2001. – 456 с.
13. Райхер, В.К. Общественно-исторические типы страхования. М.: изд-во Акад. Наук СССР, – 1947. – 227 с.
14. Ренненкампф, П.К. Очерки Юридической энциклопедии. СПб., – 1880.
15. Соловьев, В. Круглый стол в «НВО»: актуальные проблемы и логика военной реформы // Независимое военное обозрение. – 2009, – 24 апр.
16. Толкаченко, А.А. Основные вехи военного права. Российский военно-правовой сборник. – 2004. – №1.


***Açar sözlər:*** *Azərbaycanın hüquq sistemi, hüquq sisteminin funksiyaları, kompleks hüquq sahəsi, hüquq sahəsinin yaranması üçün şərtlər, hərbi hüquq, hərbi qanunvericilik*

**Nazli Abbasova**
*Adjunct of the Military Academy of the Armed Forces*

## THE ROLE AND IMPORTANCE OF MILITARY LAW IN AZERBAIJAN'S LEGAL SYSTEM

### SUMMARY

The paper examines the national legal system of the Republic of Azerbaijan, its separate areas of law, as well as its components, and the place and importance of military law with a new legal framework. According to the author, the national legal system of the state implies the legal organization of its society as a whole and the combination of all legal tools and institutions that exist and operate within the state. Independent legal fields are the central element of this system and each area of law is important for the legal organization of society.

The legal system, which is resistant to the variability of the legislation, in itself acts as a successor mechanism of legal development.

The paper describes in detail the basic (subject and method) and additional (principles, functions, etc.) conditions required to create a new independent legal field in the legal system. The author clarifies the possibility of recognizing military law as an independent field under these conditions. At the same time, the author also points out the conflicting views of various authors on the field of military law.

The author provides detailed information on the concept of the complex legal space, which exists in the doctrine of law. It is noted that the idea of a complex legal field was already covered in the pages of legal literature in the middle of the 20th century. This concept was first proposed by Soviet scientist VK Raikher. Based on this concept, the author attempts to justify the existence and independence of military law.

Finally, the author concludes that a number of criteria determine the place and importance of military law in the knowledge system. First of all, it is important to remember that military law is not only an integral part of the legal science but also an integral part of military science. It is in this context that military law studies the legal aspects of the state's military activities to ensure the defense and military security of the state. In the modern world, the need for scientific justification for projects related to the military establishment of the state, the organization and use of the armed forces, as well as international military cooperation within the interests of international and national security is very relevant.

***Keywords:*** *legal system of Azerbaijan, functions of the legal system, complex law field, formation conditions for the body of law , military law, military legislation*

**Назлы Аббасова**
*Адъюнкт Военной Академии Вооруженных Сил*

# РОЛЬ И ЗНАЧЕНИЕ ВОЕННОГО ПРАВА В ПРАВОВОЙ СИСТЕМЕ АЗЕРБАЙДЖАНА

## РЕЗЮМЕ

В статье рассматриваются национальная правовая система Азербайджанской Республики, отдельные ее области и компоненты, а также место и значение военного права в правовой базе. По мнению автора, национальная правовая система государства подразумевает правовую организацию общества в целом, совокупность всех правовых инструментов и институтов, которые существуют и действуют в государстве. Независимые правовые отрасли являются центральным элементом этой системы и каждая область права важна для правовой организации общества. Правовая система, которая устойчива к изменчивости законодательства, сама по себе выступает в качестве механизма правого наследования правового развития. При изучении этих вопросов подробно описываются основные (предмет и метод) и дополнительные (принципы, функции и др.) условия, необходимые для создания нового независимого правового поля в правовой системе. Автор уточняет возможность признания военного права в качестве самостоятельной области при этих условиях. В то же время автор также указывает на противоречивые взгляды различных авторов относительно военного права, приводит подробную информацию о концепции комплексного правового пространства, которая существует в доктрине права, отмечает, что идея единой правовой отрасли появилась в юридической литературе в середине XX века. Эта концепция была впервые предложена советским ученым В.К. Райхером. Исходя из этой концепции, автор статьи пытается обосновать существование и независимость военного права.

Наконец, автор приходит к выводу, что ряд критериев определяет место и значение военного права в системе знаний. Прежде всего, важно помнить, что военное право является не только неотъемлемой частью юридической науки, но и военной науки. Именно в этом контексте военное право изучает правовые аспекты военной деятельности государства для обеспечения его обороны и военной безопасности. В современном мире необходимость научного обоснования проектов, связанных с военным учреждением государства, организацией и использованием вооруженных сил, а также международным военным сотрудничеством в интересах международной и национальной безопасности, является весьма актуальной.

***Ключевые слова:*** *правовая система Азербайджана, функции правовой системы, комплексные отрасли права, условия формирования отрасли права, военное право, военное законодательство*

## GƏNC TƏDQİQATÇILAR
## YOUNG RESEARCHERS

## BEYNƏLXALQ HÜQUQ; İNSAN HÜQUQLARI
## INTERNATIONAL LAW; HUMAN RIGHTS

UOT 341(091); UOT 341:339.9

**ELQAR ƏLƏKBƏROV**
**Azərbaycan Milli Elmlər Akademiyasının Hüquq və İnsan Haqları İnstitutunun "Beynəlxalq hüquq; İnsan hüquqları" ixtisası üzrə fəlsəfə doktoru hazırlığı üzrə dissertantı**
*e-mail: elgar.alekperov@silkwayltd.com*

# BEYNƏLXALQ MALİYYƏ SİSTEMİNİN HÜQUQİ TƏSBİTİNİN TARİXİ ASPEKTLƏRİ VƏ MÜASİR VƏZİYYƏTİ

Maliyyə-kredit və valyuta sisteminin yaranmasının öz tarixi şərtləri olmuşdur. İlk olaraq maliyyə münasibətləri ayrıca təzahür kimi meydana çıxmış, sistem çərçivəsindən kənarda mövcud olmuş və onların tənzimi ikitərəfli müqavilələr vasitəsilə həyata keçirilmişdir. Beynəlxalq maliyyə sisteminin hüquqi təsbiti onun institusionallaşması dövründə baş vermişdir. Belə institusionallaşma isə BMT-nin 1944-cü ildə Bretton-Vudsda keçirilmiş valyuta-maliyyə konfransında imzalanmış sazişlə Beynəlxalq Bərpa və İnkişaf Bankının və Beynəlxalq Valyuta Fondunun yaradılması ilə bağlı olmuşdur. Bretton-Vuds sazişi, bir tərəfdən, maliyyə-kredit və valyuta münasibətlərinin hüquqi tənzimi formalarının axtarılması prosesinin davamı, digər tərəfdən isə bu bir-biri ilə sıx surətdə bağlı olan sahələrdə beynəlxalq hüquqi tənzimetmə mexanizminin yaradılması üzrə yeni mərhələnin başlanğıcı kimi çıxış edir. Lakin qeyd etmək lazımdır ki, beynəlxalq iqtisadi münasibətlərin çoxtərəfli beynəlxalq hüquqi tənziminin zəruriliyi məsələsi hələ XX əsrin 20-ci illərində qaldırılmış, bu məqsədlə iqtisadi problemlər üzrə 1921-ci il Brüssel və 1922-ci il Genuya konfransları çağırılmışdı. Genuya konfransında Sovet nümayəndə heyətinin Memorandumunda bu məsələ ilə bağlı qeyd edilirdi ki, iqtisadi cəhətdən daha güclü olan dövlətlərin bərpa işində əməkdaşlığını qısa zamanda asanlaşdırmaq üçün xüsusi orqanın olması zəruridir və bunun üçün beynəlxalq konsorsiumun təsis edilməsi ilə bağlı müasir dövrdə aparılan danışıqları alqışlamaq lazımdır [9].

İkinci dünya müharibəsi dünya bazarı ilə milli iqtisadiyyatlar arasında sıx qarşılıqlı əlaqənin olduğunu aşkar surətdə göstərmiş oldu. Məlum oldu ki, milli və ya regional iqtisadi inkişaf qlobal iqtisadi inkişafın əsas və zəruri şərtlərindən biridir. Bu, həmçinin müxtəlif səviyyəli (milli, regional, qlobal) maliyyə sistemlərinin eyni cür və universal, uzlaşmış hüquqi tənziminin zəruriliyini də bir daha təsdiq etdi.

Beynəlxalq iqtisadi münasibətlərin əsas formalarını tənzim edən dövlətlərarası təşkilatların yaradılması ideyası 1929-1933-cü illər dünya iqtisadi böhranının təsiri ilə meydana çıxmışdır.

XX əsrin 30-cu illərinin iqtisadi depressiyası iqtisadiyyatın yalnız görünən deyil, həm də beynəlxalq maliyyə və pul-kredit bazarları kimi daha gizli sahələrinə mənfi təsir göstərmişdi.

1929-cu ildən 1932-ci ilə qədər bütün dünyada malların qiyməti 48% ucuzlaşmış, dünya ticarətinin həcmi isə 63% azalmışdı. Yaranmış

problemin həlli üçün dəfələrlə beynəlxalq konfranslar çağırılmış, lakin müvəffəqiyyətə nail olunmamışdı. Çünki görülən müvəqqəti və xüsusi tədbirlər aşkar surətdə yetərsiz idi. Həm dövrdə yeni valyuta sisteminin yaradılması və ona nəzarət edən beynəlxalq qurumun təsis edilməsi üçün bütün ölkələrin səylərinin birləşdirilməsi aktual vəzifə kimi çıxış edirdi. Bu vəzifənin həlli üçün maliyyəçilər Harri Dekster Uayt (ABŞ) və Con Meynard Keyns (Birləşmiş Krallıq) beynəlxalq maliyyə nəzarəti sistemi yaratmağı təklif etdilər. Bu nəzarəti beynəlxalq konfranslar yox, daimi fəaliyyət göstərən əməkdaşlıq təşkilatı həyata keçirməli idi. Burada özünü korrektə edən iqtisadiyyat illüziyasının tam ləğvindən söhbət gedirdi [15, s. 374; 5, s. 122].

XX əsrin 30-cu illərin böyük iqtisadi böhranı daha çox Amerika Birləşmiş Ştatlarına təsir göstərsə də, digər ölkələr də onun mənfi nəticələrinə məruz qaldılar. Daha çox ABŞ ixracından asılı olan ölkələr, məsələn, Latın Amerikası ölkələri ziyan çəkmişdilər. Böyük böhran Birinci dünya müharibəsindən sonra borc öhdəlikləri ilə yüklənmiş Almaniya iqtisadiyyatına daha əhəmiyyətli təsir göstərmişdi. İdxal tariflərinin artması ilə ixracdan daxilolmalar kəskin şəkildə azalmışdı. Bu isə ticarət sahəsində vəziyyəti daha da pisləşdirmişdi. Həmin dövrdə mövcud olan qızıl standart dövlətlərin üzərinə fiksə edilmiş valyuta kursunu qoruyub saxlamaq vəzifəsi qoyurdu. Lakin qiymətlərin enməsi və valyutaya marağın azalması nəticəsində bu standartı saxlamaq çətinləşmişdi. Tədricən dövlətlər qızıl standartdan imtina etdilər.

İkinci dünya müharibəsinin ağır iqtisadi nəticələri ilə əlaqədar iqtisadi sahədə yaranmış problemli vəziyyətin aradan qaldırılması dünya təsərrüfat əlaqələrinin çoxtərəfli əsaslarla tənzimlənməsi üçün razılaşdırılmış iqtisadi strategiya işlənib hazırlanmasını zəruri edirdi. Məhz bu dövrdə dövlətlərin beynəlmiləlləşməsi prosesi elə bir səviyyəyə çatmışdı ki, ölkələrin iqtisadi və siyasi qarşılıqlı asılılığının yüksək dərəcəsi milli iqtisadiyyatların qarşılıqlı əlaqəsinin yeni forma və metodları ilə bağlı məsələnin aktuallığını kəskin şəkildə artırmışdı. Bu məqsədlə iqtisadi cəhətdən inkişaf etmiş sənaye dövlətlərinin iqtisadi siyasətlərinin çoxtərəfli razılaşdırılması aləti kimi müxtəlif növ beynəlxalq maliyyə təşkilatları yaradılmağa başladı [8, s.98].

Vaxtı ilə Sovet İttifaqına Beynəlxalq Valyuta Fonduna və Beynəlxalq Bərpa və İnkişaf Bankına üzv olmaq təklif edilmişdi. Lakin Sovet hökuməti bu təklifə imtina cavabı vermişdi və bunun beynəlxalq maliyyə təşkilatları tərəfindən həyata keçirilən siyasətin imperialist xarakter daşıması ilə əsaslandırmışdı. Lakin mütəxəssislərin fikrincə, əsl səbəb ondan ibarət idi ki, SSRİ-nin xarici siyasətinin əsas vəzifəsi dünya iqtisadi təsərrüfatından təcrid olunmağa yönəlmişdi [15, s.378].

XX əsrdə ticarət, kapital axını, valyuta, kredit, investisiya, elmi-texniki əməkdaşlıq, işçi qüvvəsinin miqrasiyası və s. bu kimi çoxsaylı sahələrdə beynəlxalq iqtisadi əlaqələrin son dərəcə böyük sürətlə inkişaf edərək genişlənməsi, dərinləşməsi və mürəkkəbləşməsi əvvəlki dövrlərlə müqayisədə daha çoxsaylı ölkələrin dünya təsərrüfat əlaqələrinə cəlb olunmasına gətirib çıxardı. Nəticədə dünya iqtisadiyyatı dünya maliyyə sistemi və informasiya şəbəkəsi ilə birləşərək vəhdət halında bütöv qlobal orqanizmə çevrildi [17].

Təsadüfi deyildir ki, beynəlxalq maliyyə təşkilatlarının yaranmasını şərtləndirən əsas səbəblər kimi aşağıdakılar göstərilir:

- təsərrüfat həyatının beynəlmiləlləşməsi;
- transmilli korporasiyaların meydana çıxması;
- beynəlxalq təsərrüfat əlaqələrinin, o cümlədən maliyyə, valyuta və kredit münasibətlərinin dövlətlərarası tənziminə tələbatın artması, habelə bu sahədə yaranan problemlərin birgə həlli üçün dövlətlərin səylərinin birləşdirilməsinə zərurətin hiss olunması və s.

Müharibədən sonrakı beynəlxalq maliyyə təşkilatlarının sələfləri – Latın Pul İttifaqı (1865) və Beynəlxalq Hesablaşmalar Bankı (1930) – beynəlxalq hüququn əsas müddəalarından biri kimi çıxış edən dövlətlərin suveren bərabərliyi prinsipi əsasında qurulmuşdu. Beynəlxalq

təşkilatların bütün iştirakçı dövlətləri həmin təşkilatların idarəetmə orqanlarında və onların fəaliyyəti ilə bağlı məsələlərin həllində bərabər hüquqlara malik idilər. Beynəlxalq təşkilatlar iştirakçı dövlətlər üçün məcburi olan qərarlar qəbul edə bilməzdilər. Onlar, bir qayda olaraq, tövsiyələr verməklə məhdudlaşırdılar ki, dövlətlər də bu tövsiyələrə əməl etməkdən imtina hüququna malik idilər. Həmçinin təşkilatların sərəncamında üzv ölkələrin siyasətinə təsir vasitələri yox idi. BMT-nin bir sıra ixtisaslaşdırılmış qurumlarının, xüsusən də, Beynəlxalq Valyuta Fondu və Dünya Bankının fəaliyyəti yalnız BMT Nizamnaməsindən irəli gələn əməkdaşlıq prinsipinə deyil, həm də onların səhmdar kapitalı üzərində mülkiyyət hüququna əsaslanır. Onların fəaliyyətində elə iş formaları rəsmiləşdirilmişdir ki, bu, həmin təşkilatların inkişaf etmiş ölkələrin maraqlarına uyğun istifadə olunmasına imkan verir. Belə ki, mövcud səsvermə metoduna görə iştirakçı dövlətin səslərinin sayı onun təşkilatdakı kapitalının həcmindən asılıdır. Beynəlxalq Valyuta Fondu və Beynəlxalq Bərpa və İnkişaf Bankının yaradılmasının əsasında hüquq bərabərliyi prinsipi deyil, dövlətlərin iqtisadi bərabərsizliyinin tanınması prinsipi qoyulmuşdur və bu zaman iştirakçı dövlətlərin hüquqi mövqeyi onların iqtisadi qüdrəti ilə müəyyən olunur [12, s.7-21; 14, s.15].

Bəzi müəlliflərə görə, XXI əsrin maliyyə qloballaşması maliyyə və informasiya inqilabının obyektiv nəticəsindən daha çox dünya iqtisadiyyatında və maliyyə məkanında baş verən proseslərin mərkəzləşmiş qaydada nəzarətdə saxlanılması və idarə olunması aləti kimi çıxış edir [4; 13; 17; 18].

BMT-nin Minilliyin Bəyannaməsində göstərilir ki, hazırkı şəraitdə əsas vəzifə qloballaşmanın bütün dünya xalqları üçün pozitiv faktora çevrilməsinin təmin olunmasından ibarətdir. Çünki, o, geniş imkanlar vəd edir, yalnız ümumi gələcəyin formalaşdırılması üçün genişmiqyaslı və davamlı səylər vasitəsilə tam ədalətli xarakter kəsb edə bilər. Qloballaşmanın faydalarından bərabər əsaslarla istifadə olunmur. Ona görə də, inkişaf etməkdə olan və keçid iqtisadiyyatına malik ölkələr bu başlıca problemin həlli ilə bağlı tədbirlərin görülməsi sahəsində xüsusi çətinliklərlə qarşılaşırlar. Qloballaşmanın uğurları hər bir ölkədə beynəlxalq səviyyədə ədalətli və maliyyə, kredit-pul və ticarət sistemlərində şəffaflığın təmin olunduğu idarəetmədən asılıdır. Göründüyü kimi, Minilliyin Bəyannaməsində şəffaf, ədalətli, tənzimlənən və ayrı-seçkiliyin olmadığı çoxtərəfli maliyyə sisteminin yaradılması məqsədi öz əksini tapmışdır [3].

2015-ci ilin sonunda BMT-nin Minilliyin Bəyannaməsində irəli sürülən inkişaf məqsədlərinə nail olma müddəti başa çatmışdır. Müasir dövrdə iri maliyyə təşkilatlarının 2015-ci ildən sonrakı dövr üçün əsas fəaliyyət istiqamətlərinin müəyyən olunması üzrə iş aparılır. Burada prioritet vəzifələr kimi yoxsulluğun aradan qaldırılması və dayanıqlı sosial-iqtisadi inkişafın sürətləndirilməsi çıxış edir.

BMT mütəxəssisləri qeyd etmişlər ki, bütün inkişaf etmiş ölkələr qısa müddətdə iqtisadiyyatlarını stimullaşdırmaq və dollar əsaslı sistemi əvəzləmək üçün yeni qlobal valyuta ehtiyat sxemi yaratmalıdır. Yeni bir Qlobal Ehtiyat Sistemi – çox genişlənmiş SDR (Xüsusi Borc Hüquqları) kimi qiymətləndirilə bilən, ehtiyat yığımlarının ölçüsünə qədər nizamlı və ya dövrü olaraq tənzimlənən emissiyalar qlobal sabitliyə, iqtisadi gücə və qlobal bərabərliyə kömək edə bilər [2].

8 iyul 2015-ci il tarixində BRİKS ölkələri valyuta svopları, yerli valyutada hesablaşmalar və yerli birbaşa investisiyalar daxil olmaqla hər bir ölkənin mərkəzi banklarının mandatına uyğun olaraq valyuta sahəsində əməkdaşlığı inkişaf etdirmək üçün yaxın əlaqələri davam etdirməyi qəbul etdilər. Valyuta. Bundan əlavə, BRİKS ölkələri vahid "BRICS Pay" ödəmə sistemi yaratmağa başladılar və BRİKS və Avrasiya İqtisadi Birliyinin dövlətlərini əhatə edəcək bir kriptovalyutanın tətbiqi imkanlarının müzakirəsinə başlamışlar.

Kriptovalyuta bazarının tənzimlənməsi təcrübəsi müxtəlif ölkələrdə fərqlidir, az sayda dövlətlər konkret həll yolları inkişaf etdirmiş, məhkəmə presedentləri və vergi inzibatçılığı

tətbiq olunur. Bəzi ölkələrdə kripto valyutası qanuni vasitədir, bəzilərində fiziki və ya hüquqi şəxslər tərəfindən istifadəsində məhdudiyyətlər var.

2020-ci ildəki mart ayının sonunda Ümumdünya Səhiyyə Təşkilatı koronavirus pandemiyasını elan etdikdən sonra, BMT Covid-19 epidemiyası üçün 2 milyard dollar dəyərində Qlobal Humanitar Reaksiya Müdaxilə Planını reallaşdirmağa başladı.

BMT-nin ayrı-ayrı qurumları səviyyəsində həyata keçirilən tədbirlər arasında peyvənd inkişaf fəaliyyətlərinin əlaqələndirilməsi və ÜST daxilində koronavirus haqqında səhv məlumatlarla mübarizə aparacaq bir qrupun yaradılması; məsafəli təhsilə hərtərəfli keçidi dəstəkləmək üçün UNESCO tərəfindən Qlobal Təhsil Koalisiyasının yaradılması; telekommunikasiya şəbəkələrinin dayanıqlığını təmin etmək üçün rəhbərliklərinin və tövsiyələrinin hazırlanması; qida tədarükünün və mövcudluğunun davamlılığını təmin etməsi kimi tədbirləri qeyd etmək olar.

2 mart 2020-ci il tarixində OECD "Koronavirus: qlobal iqtisadiyyat risk altındadır" aralıq hesabatını yayımladı. Dünya Bankı Qrupu, 2020-ci il aprel ayının əvvəlində inkişaf etməkdə olan ölkələrin gələcək 15 ayda iqtisadi dayanıqlığını dəstəkləmək üçün 160 milyard dollar dəyərində maddi yardımın verilməsini elan etdi.

Dünya iqtisadiyyatı sisteminin inkişafının müasir tendensiyaları tənzimləyici, idarəedici səlahiyyətlərin getdikcə daha çox beynəlxalq iqtisadi fəaliyyətin dövlətlərarası və ya dövlətüstü səviyyəsinə keçməsini şərtləndirir. “Dövlətlərarası” və “dövlətüstü” anlayışları, bir qayda olaraq, eyni anlayışlar kimi tətbiq olunur. Onlar, ən azından, iqtisadi həyatın eyni sahəsini ifadə edirlər. Doğrudur, burada müəyyən semantik fərqləri də qeyd etmək olar. “Dövlətlərarası” termini daha çox birgə hərəkətləri bildirirsə, “dövlətüstü” termini dövlətlərin tabeliyini və üzvi olaraq onlara xas olan suverenlikdən könüllü imtinasını ifadə edir. Ona görə də, əvvəllər ənənəvi olaraq milli hakimiyyət strukturlarına xas olan bir sıra səlahiyyətlərin öz təbiətinə görə beynəlxalq xarakter daşıyan strukturlara həvalə edilməsi prosesi gedir [10, s.54-56]. Bu proses, yəni iqtisadi-maliyyə xarakterli səlahiyyətlərin milli strukturlardan beynəlxalq tənzimləyici strukturlara keçməsi prosesi ölkələr arasında ikitərəfli və çoxtərəfli sazişlər, habelə beynəlxalq maliyyə təşkilatlarının nizamnamə sənədləri əsasında formalaşdırılan beynəlxalq hüquqi rejim əsasında baş verir.

Yeni iqtisadi qayda ona uyğun olan dövlətüstü siyasi institutların və Dünya Bankı, Beynəlxalq Valyuta Fondu, Ümumdünya Ticarət Təşkilatı kimi beynəlxalq təşkilatların mövcudluğunu şərtləndirir. Bu qayda isə beynəlxalq maliyyə təşkilatlarının məmurlarının özləri tərəfindən müəyyən olunur. Nəticədə özünəməxsus ikihakimiyyətlilik situasiyası meydana çıxmışdır. Suveren dövlətlər əvvəlcə iqtisadi, daha sonra isə siyasi sahədə hakimiyyəti yuxarıda göstərilən təşkilatlarla bölüşməli olurlar. Bu zaman dövlətlərin hakimiyyəti tədricən zəifləyir və hakimiyyət daha çox bir-bir ilə sıx qarşılıqlı əlaqədə fəaliyyət göstərən beynəlxalq institutların əlinə keçir [16, s.313; 19, s.1-4].

Qloballaşma prosesində beynəlxalq maliyyə münasibətlərinin inkişaf şərtləri əhəmiyyətli dərəcədə dəyişmişdir. Bir tərəfdən, beynəlxalq maliyyə təşkilatlarının fəaliyyətinin hüquqi tənzimi ölkələrin və sosial qrupların iqtisadi inteqrasiyasına şərait yaradır, digər tərəfdən isə onların sonrakı bölgüsünə gətirib çıxarır. Bu baxımdan beynəlxalq maliyyə təşkilatlarının fəaliyyətinin hüquqi tənzimi problemi ciddi əhəmiyyət daşıyır. Son vaxtlar dünyada baş verən siyasi və iqtisadi dəyişikliklər beynəlxalq maliyyə təşkilatlarının fəaliyyətinin hüquqi tənzimi məsələsinin aktuallığını daha da artırmışdır. Bu zaman qeyd edilən sahədə tədqiqatların əsas məqsədi kimi iqtisadi və sosial vəziyyətindən asılı olmayaraq bütün dövlətlərin beynəlxalq münasibətlərdə bərabər şəkildə iştirakının təmin edilməsi çıxış edir. Belə iştirak bütün cəmiyyətin və bütün insanların inkişaf prosesində fəal və könüllü iştirakı əsasında onların rifahının yaxşılaşdırılmasına

xidmət etməlidir. Beynəlxalq maliyyə təşkilatlarının fəaliyyətinin hüquqi tənziminin yeni üsullarının işlənib hazırlanması zərurəti, ilk növbədə, qloballaşma prosesi nəticəsində yaranan vəziyyətlə bağlıdır. Lakin yeni hüquqi həllərin axtarılması onunla çətinləşir ki, beynəlxalq maliyyə təşkilatlarının fəaliyyətini tənzimləyən normalar dövlətlərin daxili fəaliyyət çərçivəsindən kənara çıxır və müxtəlif hüquqi maraqları olan çoxsaylı subyektləri əhatə edir. İqtisadi və maliyyə münasibətlərinin beynəlxalq hüquqi tənzimində institusional subyektlər əhəmiyyətli rol oynayır:

- çoxtərəfli banklar: Beynəlxalq Bərpa və İnkişaf Bankı (International Bank for Reconstruction and Development);
- regional banklar: Avropa Bərpa və İnkişaf Bankı (European Bank for Reconstruction and Development), Asiya İnkişaf Bankı (Asian Development Bank), Afrika İnkişaf Bankı (African Development Bank) və s.;
- beynəlxalq maliyyə təşkilatları: Beynəlxalq Valyuta Fondu (International Monetary Fund), Beynəlxalq Maliyyə Korporasiyası (International Finance Corporation);
- digər maliyyə təşkilatları, xüsusən də, Birləşmiş Millətlər Təşkilatı (United Nations) [6, s.109-112].

Etiraf etmək lazımdır ki, beynəlxalq əməkdaşlıqla bağlı müqavilələrin əhəmiyyətinin yüksək olduğu bir şəraitdə bu prosesin dərinləşməsinə dəstək verə bilən beynəlxalq təşkilatlara tələbat getdikcə daha çox artır. Bu, onunla izah olunur ki, məhz beynəlxalq təsisat mexanizmi geniş dövlətlər dairəsinin çoxsaylı gündəm məsələləri üzrə mütəmadi, sistemli əməkdaşlıq etmələrinə və sanksiya tətbiqinin köməyi ilə qəbul edilmiş qərarların icrasını nəzarətdə saxlamalarına imkan yaradır. Beynəlxalq təşkilatlar milli, dövləti və ümumbəşəri maraqların optimal nisbətini tapmağa və eyni zamanda, bütün dünya birliyi üzvlərinin tələbatlarını təmin edə biləcək qərarlar qəbul etməyə köməklik göstərirlər. Dövlətlərarası təşkilatlar mexanizmi daha çevik formalarda əməkdaşlıq həyata keçirilməyə imkan verir [7, s. 4].

Beləliklə, bu məqalədə qeyd edilən bütün fikirləri aşağıdakı kimi ümumiləşdirmək olar:

1. İkinci dünya müharibəsi dünya bazarı ilə milli iqtisadiyyatlar arasında sıx qarşılıqlı əlaqənin olduğunu aşkar surətdə göstərmiş oldu. Məlum oldu ki, milli və ya regional iqtisadi inkişaf qlobal iqtisadi inkişafın əsas və zəruri şərtlərindən biridir. Bu, həmçinin müxtəlif səviyyəli (milli, regional, qlobal) maliyyə sistemlərinin eyni cür və universal, uzlaşmış hüquqi tənziminin zəruriliyini də bir daha təsdiq etdi.

2. Tarixən beynəlxalq maliyyə təşkilatlarının yaranmasını şərtləndirən əsas səbəblər kimi aşağıdakılar çıxış etmişdir:

- təsərrüfat həyatının beynəlmiləlləşməsi;
- transmilli korporasiyaların meydana çıxması;
- beynəlxalq təsərrüfat əlaqələrinin, o cümlədən maliyyə, valyuta və kredit münasibətlərinin dövlətlərarası tənziminə tələbatın artması, habelə bu sahədə yaranan problemlərin birgə həlli üçün dövlətlərin səylərinin birləşdirilməsinə zərurətin hiss olunması və s.

3. Dünya iqtisadiyyatı sisteminin inkişafının müasir tendensiyaları tənzimləyici, idarəedici səlahiyyətlərin getdikcə daha çox beynəlxalq iqtisadi fəaliyyətin dövlətlərarası və ya dövlətüstü səviyyəsinə keçməsini şərtləndirir. Bu proses, yəni iqtisadi-maliyyə xarakterli səlahiyyətlərin milli strukturlardan beynəlxalq tənzimləyici strukturlara keçməsi prosesi ölkələr arasında ikitərəfli və çoxtərəfli sazişlər, habelə beynəlxalq maliyyə təşkilatlarının nizamnamə sənədləri əsasında formalaşdırılan beynəlxalq hüquqi rejim əsasında baş verir.

**Ədəbiyyat:**


1. Hüseynov, L.H. Beynəlxalq hüquq. Dərslik. Bakı: Qanun, - 2012. - 368 s.
2. Sadıqov, Ə.İ. Beynəlxalq iqtisadi hüquq. Dərslik. Bakı: "Bakı Universiteti" nəşriyyatı, - 2008. - 396 s.
3. Beynəlxalq iqtisadi təşkilatlar. https://elxanveliyev.files.wordpress.com/2011/04/bit.pdf
4. Катасонов, В.Ю. Капитализм. История и идеология «денежной цивилизации». М.: Институт русской цивилизации, – 2015. – 1120 с.
5. Кейнс, Дж.М. Общая теория занятости, процента и денег. М.: ЭКСМО, – 2008. – 153 с.
6. Косиор, Э., Илиона, Э.В., Химикус, Е.И. Правовое регулирование деятельности международных финансовых организаций // Современное право, – 2016, – №4, – с. 109-112.
7. Миронова, И.В. Универсальные и региональные межгосударственные финансовые организации развития: сравнительный анализ функционирования : На примере Международного и Европейского банков реконструкции и развития: Дис. ... канд. юрид. наук . СПб., – 2005. – 173 с.
8. Моисеев, А.А. Международные кредитно-финансовые организации. М.: Омега-Л, – 2009. – 296 с.
9. Моисеев, А.А. Международные финансовые организации (правовые аспекты деятельности). М.: Омега-Л, – 2003. – 295 с.
10. Овчинникова, А.Ю. Функционирование МВФ и Всемирного банка в условиях трансформации мирового баланса сил // Наука и образование сегодня, – 2016, – №9(10). – с.54-56.
11. Патика, Н.І. Міжнародні валютно-кредитні відносини: Навчальний посібник для ВНЗ. Рекомендовано МОН. К., – 2012. – 566 с.
12. Самодурова, Н.В. Всемирный банк: кредитование экономики / Под ред. Л.Н.Красавиной. М.: Финансы и статистика, – 2014. – 144 с.
13. Смирнов, Ф.А. Мировая финансово-экономическая архитектура. Деконструкция. М.: ООО «Буки Веди», – 2015. – 568 с.
14. Чижов, К.Я. Международные валютно-финансовые организации капитализма. М.: Финансы, – 1968. – 223 с.
15. Экономическая теория. Учебное пособие для экономических специальностей / Отв. ред. проф. Н.Х.Кумскова. Кыргызско-Российский Славянский университет. Бишкек, – 2007. – 716 с.
16. Putting "the future" on the global agenda. Interview with Peter Heller // IMF SURVEY, 2008, Vol. 32, N 19, p.p.305-320
17. Sinn, H.W. Casino Capitalism: How the Financial Crisis Came About and what it Needs to be Done now. Oxford: Oxford University Press, – 2012. – 400 p.
18. Stiglitz, J.E. The Stiglitz Report. Reforming the International Monetary and Financial System in the Wake of Global Crisis. London: The New Press, – 2011. – 206 p.
19. Sugisaki lauds progress made on fortifying global financial system // IMF SURVEY, 2008, – vol. 33. – №1. – p.1-4.


***Açar sözlər:*** *Bretton-Vuds sazişi, iqtisadi böhran, beynəlxalq maliyyə təşkilatları, beynəlxalq maliyyə sistemi, tarixi aspektlər, beynəlxalq maliyyə sisteminin hüquqi təsbiti, qloballaşma*

**Elgar Alekperov**
*Institute of Law and Human Rights of ANAS, PhD candidate,*
*Head of Corporate Administration Department*
*of "Silk Way Airlines" LLC*

# HISTORICAL ASPECTS AND CURRENT SITUATION OF LEGAL DETERMINATION OF THE INTERNATIONAL FINANCIAL SYSTEM

## SUMMARY

This paper analyzes the historical aspects and the current state of the legal establishment of the international financial system. The main goal of the research in this area is to ensure the equal participation of all states in international relations, regardless of their economic and social status. Such participation should serve to improve the well-being of the whole society and all people through active and voluntary participation in the development process. The need to develop new methods of legal regulation of international financial institutions is primarily due to the situation arising from the process of globalization. However, the search for new legal solutions is complicated by the fact that the norms governing the activities of international financial institutions go beyond the internal activities of states and cover a wide range of entities with different legal interests. The Second World War clearly showed the close interaction between the world market and national economies. It turned out that national or regional economic development is one of the main and necessary conditions for global economic development. It also reaffirmed the need for a uniform and universal, harmonized legal regulation of national, regional and global financial systems. The author shows the main reasons for the emergence of international financial institutions historically, as well as drawing attention to historical moments and current trends that necessitate a uniform and universal, harmonized legal regulation of financial systems at different levels.

***Keywords:*** *Bretton Woods agreement, economic crisis, international financial institutions, international financial system, historical aspects, legal definition of international financial system, globalization*

**Эльгар Алекперов**
*Диссертант Института права и прав человека
Национальной Академии Наук Азербайджана,
начальник отдела корпоративного управления ООО «Silk Way Airlines»*

# ИСТОРИЧЕСКИЕ АСПЕКТЫ И СОВРЕМЕННОЕ СОСТОЯНИЕ ПРАВОВОГО ЗАКРЕПЛЕНИЯ МЕЖДУНАРОДНОЙ ФИНАНСОВОЙ СИСТЕМЫ

## РЕЗЮМЕ

В статье анализируются исторические аспекты и современное состояние правового закрепления международной финансовой системы. Основная цель исследований в этой области – обеспечение равноправного участия всех государств в международных отношениях, независимо от их экономического и социального статуса. Такое участие должно способствовать повышению благосостояния всего общества и всех людей за счет активного и добровольного участия в процессе развития. Необходимость разработки новых методов правового регулирования международных финансовых институтов связана, прежде всего, с ситуацией, возникшей в результате процесса глобализации. Однако поиск новых правовых решений осложняется тем, что нормы, регулирующие деятельность международных финансовых институтов, выходят за рамки внутренней деятельности государств и охватывают большое количество субъектов с различными правовыми интересами.

Вторая мировая война наглядно показала тесное взаимодействие мирового рынка и национальных экономик. Оказалось, что национальное или региональное экономическое развитие является одним из основных и необходимых условий глобального экономического развития. Это подтверждает необходимость единообразного и универсального, гармонизированного правового регулирования национальных, региональных, глобальных финансовых систем.

Автор показывает основные причины, исторически обуславливающие возникновение международных финансовых институтов, а также обращает внимание на исторические моменты и современные тенденции, которые требуют единого и универсального, гармоничного правового регулирования финансовых систем на национальном, региональном и глобальном уровнях.

***Ключевые слова:*** *Бреттон-Вудское соглашение, экономический кризис, международные финансовые институты, международная финансовая система, исторические аспекты, юридическое определение международной финансовой системы, глобализация*

# GƏNC TƏDQİQATÇILAR
# YOUNG RESEARCHERS

# DÖVLƏT İDARƏÇİLİYİ
# PUBLIC ADMINISTRATION

UOT 328; 342.5; 351/354

**XƏTAİ SALMANOV**
**Azərbaycan Respublikasının Prezidenti yanında**
**Dövlət İdarəçilik Akademiyasının doktorantı**
*e-mail: salmanovxetai3@gmail.com*

## DÖVLƏTİN BÜDCƏ NƏZARƏT SİSTEMİ (AZƏRBAYCAN TİMSALINDA)

Müstəqillik əldə etdikdən sonra Azərbaycanda bazar iqtisadiyyatına keçid, iqtisadiyyatın sürətli inkşafı və büdcə təşkilatlarının genişlənməsi büdcə nəzarəti sahəsinə dövlətin xüsusi diqqət ayrımasına səbəb olmuşdur. Dövlətin büdcə nəzarət sistemi maliyyə-büdcə sahəsində sabitliyin təmin olunması, büdcə vəsaitlərindən səmərəli, məqsədyönlü istifadə edilməsi, maliyyə subyektlərinin müvafiq qanunvericilik əsasında fəaliyyət göstərməsini təmin edən nəzarət mexanizmidir. Müasir dünyada dövlət maliyyə nəzarətinin miqyası, rolu və əhəmiyyəti getdikcə daha da genişlənməkdədir. Büdcə nəzarət mexanizmi iqtisadi inkişafın əsas elementlərindən biri hesab olunur. Şəffaf, düzgün və səmərəli şəkildə formalaşdırılmış büdcə nəzarət mexanizmi dövlətin maliyyə ehtiyyatlarının yüksəldilməsinə, maliyyə dayanıqlığının təmin olunmasına zəmin yaradacaq ki, bu da öz növbəsində dövlətin sosial, iqtisadi inkşafına təkan verəcəkdir. Bu səbəbdən də, dövlətin sosial-iqtisadi inkşafında mühüm rol oynayan büdcə nəzarət sisteminin daima yenilənməsi, təkmilləşdirilməsi, dünya standartlarına cavab verməsi kimi məsələlər Azərbaycanda dövlətin iqtisadi siyasətinin prioritet hədəflərindən biridir.

Bazar münasibətlərinin geniş yayıldığı və iqtisadi proseslərin sürətlə cərayan etdiyi müasir dünyada maliyyə nəzarətinin rolu və mövqeyi əhəmiyyətli dərəcədə artmaqdadır. Maliyyə nəzarəti, sabit maliyyə mühitinin yaradılması, dövlət maliyyə siyasətinin həyata keçirilməsi, maliyyə vəsaitlərindən səmərəli istifadə olunması, maliyyə fəaliyyətinin müvafiq qanunvericilik və konstitusiya tələblərinə uyğun şəkildə aparılmasına nəzarət kimi prosesləri özündə birləşdirir. Dövlət maliyyə nəzarəti, pul vəsaitlərinin dövr etdiyi bütün sferaları əhatə edir. Belə ki, dövlət maliyyə nəzarət sistemi aşağıdakı məsələlər üzrə nəzarəti həyata keçirir:

- Büdcələrin tərtib olunmasına və icra edilməsinə nəzarət;
- Büdcə vəsaitlərindən səmərəli və məqsədyönlü istifadə edilməsinə nəzarət;
- Həyata keçirilən büdcə əməliyyatlarının düzgün icra edilməsinə nəzarət;
- Mövcud maliyyə qanunvericiliyinə və konstitusion tələblərə riayət olunmasına nəzarət [11].

Həyata keçirilmə zamanına görə maliyyə nəzarəti 3 formaya ayrılır: İlkin, cari, sonrakı

İlkin maliyyə nəzarəti maliyyə planlarının, maliyyə smetalarının (gəlir və xərc), büdcə layihələrinin və digər maliyyə sənədlərinin tərtib olunması və təsdiq edilməsi zamanı həyata keçirilir. İlkin maliyyə nəzarəti resurlardan (əmək, maddi, material) səmərəli və məqsədyönlü istiafdə olunmasında, mənfi maliyyə

nəticələrinin qarşısının alınmasında və aradan qaldırılmasında mühüm rol oynayır. Bu maliyyə nəzarət forması xəbərdaredici xüsusiyyət daşıyır. Belə ki, ilkin maliyyə nəzarəti qanun pozuntuları haqqında əvvəlcədən xəbərdarlıq edir. Eyni zamanda ilkin maliyyə nəzarəti maliyyə ehtiyyatlarının artırılmasında və maliyyə dayanıqlığının təmin olunmasında da əhəmiyyətli rola malikdir [10]. Cari maliyyə nəzarəti maliyyə əməliyyatlarının icra edilməsi zamanı, maliyyə əməliyyatlarının və maliyyə planlarının həyata keçirilməsi zamanı, sərf edilən maliyyə vəsaitlərinin norma və standartlara uyğunluğunun yoxlanılması zamanı həyata keçirilir. Cari maliyyə nəzarəti maliyyə yığımlarının artırılmasında mühüm rol oynayır [14]. Sonrakı maliyyə nəzarəti maliyyə ili və maliyyə hesabat dövrü tam bitdikdən sonra həyata keçirilir. Əsasən yoxlama və qiymətləndirmə xarakteri daşıyan sonrakı maliyyə nəzarəti maliyyə əməliyyatları zamanı büdcə vəsaitlərinin düzgün, səmərəli və məqsədyönlü istifadə olunmasını yoxlayır. Eyni zamanda sonrakı maliyyə nəzarəti bitmiş maliyyə dövrünün və maliyyə hesabatlarının nəticələrinin təhlil edilməsini də həyata keçirir [9, s.41]. Dövlət maliyyə nəzarətinin əsas formalarından biri dövlətin büdcə nəzarət sistemidir. Büdcə – iqtisadi subyektlərin maliyyə ili (yanvar ayının 1-dən dekabr ayının 31-dək olan bir illik dövr) üçün nəzərdə tutulan pul vəsaitilərinin yığılması, istifadə olunması, gəlir və xərclərin əks olunduğu maliyyə planıdır. Bazar iqtisadiyyatı şəraitində büdcə prosesləri iqtisadi nəzarət olmadan tənzimlənə bilməz. Büdcə prosesləri hər zaman müəyyən təsirlərə məruz qalmışdır. Son nəticədə meydana çıxan problemlər büdcə proseslərinin tənzimlənməsini çətinləşirdirir. Həmin problemlərin aradan qaldırılması, neqativ halların qarşısının alınması üçün büdcə nəzarət sisteminin olması labüddür. Büdcə nəzarəti, büdcə prosesləri daxilində bir sıra nəzarət tədbirlərindən ibarətdir. Bu nəzarət tədbirlərinə, büdcə vəsaitlərinin gəlir və xərclərinin əsaslılığının dəyərləndirilməsi, ayrılmış vəsaitlərin səmərəli istifadəsi, büdcə icrasının vaxtında və tam şəkildə aparılması və s. daxildir. Büdcə nəzarəti prosesində subyektlər və obyektlər iştirak edir. Büdcə nəzarətinin subyektlərinə, nəzarəti icra edən hüquqi və fiziki şəxslər, müvafiq dövlət nəzarət orqanları daxildir. Büdcə nəzarətinin obyektləri dedikdə nəzarətin icra edildiyi büdcə təşkilatı nəzərdə tutulur. Büdcə nəzarətinin yoxlama predmetinə isə, maliyyə gostəriciləri (gəlirlər, xərclər, vergilər, rentabellilik, müxtəlif məqsədlərə və fondlar üçün nəzaərdə tutulan ayırmalar və s) daxildir [15, s.21-23]. Büdcə nəzarəti iqtisadiyyatın inkişafında, büdcə vəsaitlərinin maksimum atırılmasında və səmərəli büdcə siyasətinin işlənib hazırlanmasında əvəzedilməz rola malikdir. Büdcə nəzarəti aşağıdakı tələblər əsasında həyata keçirilir: 1) Büdcə planının düzgün tərtibi və düzgün icra edilməsi; 2) Qanunvericilik tələblərinə riayət olunması, mövcud olan hüquqpozuntularının qarşısının alınması; 3) Gəlirlərin formalaşdırılması, səmərəli və məqsədəuyğun istifadəsi üzərində nəzarət. Qanunvericilik baxımından büdcə nəzarəti, büdcə fəaliyyətinin qanuniliyinin və məqsədəuyğunluğunun təmin olunması, büdcə münasibətlərində iştirak edən subyektlərin büdcə qanunvericiliyinə əməl etməsi məqsədilə həyata keçirilir. Büdcə nəzarəti pul vəsaitlərinin büdcəyə vaxtında və tam şəkildə daxil olmasını, büdcə vəsaitlərinin düzgün şəkildə bölgüsünün aparılmasını və pul vəsaitlərindən səmərəli istifadəsini təmin edir. İqtisadiyyatda pul hərəkətinin mövcud olduğu bütün sahələrdə büdcə nəzarəti özünü göstərir. Büdcə nəzarəti zamanı büdcə icrası ilə məşğul olan orqanlar hər hansı laqeydliyə, neqativ hallara yol verməməlidir [2]. Büdcə vəsaitlərindən istifadə parlament nəzarəti və inzibati nəzarət formasında həyata keçirilir. Əhatə dairəsinə görə maliyyə-büdcə nəzarəti aşağıdakı növlərə ayrılır: 1. Parlament nəzarəti; 2. Prezident nəzarəti; 3. Ümumi səlahiyyətli idarəçilik orqanlarının nəzarəti; 4. Maliyyə-kredit orqanlarının nəzarəti; 5. İdarədaxili nəzarəti; 6. Təsərrüfatdaxili nəzarət; 7. Auditor nəzarəti [12, s.98]. Səmərəli, effektiv büdcə nəzarətinin formalaşdırılması üçün büdcə nəzarətinin prinsiplərinə əməl olunması zəruri şərtdir. Büdcə

nəzarəti reallaşdırılarkən aşağıdakı prinsipial tələblərə riayət edilməlidir:

- Büdcə nəzarəti aşkarlıq prinsipi əsasında həyata keçirilməlidir. Bu prinsip nəzarət prosesinin demokratikliyini, şəfaflığını və obyektivliyini təmin edir. Lakin bu zaman nəzarət obyektinin kommersiya sirləri qorunub saxlanılması təmin edilməlidir.

- Meydana çıxan problemlərə, gözlənilməz neqativ hallara qarşı müvafiq tədbirlər sistemi nəzərdə tutulmalıdır. Belə tədbirlər sistemi iqtisadi azadlıq mühitində büdcə təşkilatının qorunma aləti qismində çıxış edir. Neqativ hallara qarşı olan bu önləyici tədbirlər sistemi nəzarət obyektinin strateji planında əks olunmalı və lazımı dövrdə istifadə edilməlidir. Büdcə nəzarəti hərtərəfli təşkil olunmalıdır. Yəni nəzarət obyektinin bütün fəaliyyət istiqamətləri ciddi şəkildə təhlil edilməli və yoxlanılmalıdır. Müasir dövrdə iqtisadi proseslərin intensiv şəkildə inkşaf etməsi büdcə nəzarətinin hərtərəflilik prinsipinin əhəmiyyətini artırır.

-Büdcə nəzarəti qanunvericilik prinsipi əsasında aparılmalıdır. Bu zaman ilk növbədə demokratik prinsiplərə riayət olunmalıdır. Bir qayda olaraq büdcə prosesləri məhz qanunvericilik əsasında tənzimlənir [8]. Mükəmməl və effektiv büdcə nəzarətinin təşkil edilməsi üçün səmərəli nəzarət planı hazırlanmalıdır. Səmərəli büdcə nəzarətinin əsas məqsədi, caza vermək deyil, mövcud olan səhvlərin və neqativ halların aşkarlanaraq qarşısının vaxtında alınmasıdır. Büdcə nəzarətinin səmərəli olması ən mühüm amillərdəndir. Səmərəli büdcə nəzarəti aşağıdakı məqsədlər üçün tərtib olunur:

- büdcə siyasətinin inkişaf istiqamətlərinin təmin edilməsi;

- planlaşdırılmış tədbirlərin reallaşdırılması üçün lazımi pul vəsaitlərinin həcminin proqnozlaşdırılması;

- büdcə nəticələrinin proqnozlaşdırılması;

- büdcə siyasəti sahəsində müxtəlif tədbirlərin reallaşdırılması imkanlarının meydana çıxması;

- qısamüddətli və uzunmüddətli problemlərin, neqativ halların qarşısının alınması və belə hallara qarşı lazımi tədbirlərin icrası [6, s.65-67].

Qədim dövlətçilik köklərinə malik Azərbaycanda müstəqillik bərpa olunduqdan sonra aparılan dərin iqtisadi islahatlar dövlətin iqtisadi siyasətində maliyyə nəzarəti sisteminin formalaşmasına zəruri şərait yaratmışdı. Azərbaycanda maliyyə-büdcə nəzarətinin formalaşdırılması, nəzarət orqanlarının fəaliyyətinin təkmilləşdirilməsi və bu kimi məsələlər ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. 90-cı illərin əvvəllərində Azərbaycanda iqtisadi sahədə xaotiklik, anarxiya hökm sürməsinə baxmayaraq Heydər Əliyevin hakimiyyətə gəlişindən sonra iqtisadi sahədə ciddi canlanma baş verdi, maliyyə-büdcə nəzarəti sahəsində əsaslı və mühüm dəyişikliklər həyata keçirildi. Bu dəyişikliklərin nəticəsi olaraq qısa zamanda dövlət maliyyə nəzarəti üzrə bütün qanunvericilik və təşkilati məsələlər, nəzarət sisteminin təkmilləşdirilməsi və bu sahədə mövcud olan mexanizmlərin bazar iqtisadiyyatına uyğunlaşdırılması kimi məsələlər öz həllini tapdı. Maliyyə-büdcə nəzarətini hər zaman diqqətdə saxlayan Heydər Əliyev çıxışlarının birində maliyyə nəzarəti haqqında belə fikir söyləmişdir: "Azərbaycanın Prezidenti olandan gördüyüm işlərin əsasını təşkil edən bu olmuşdur ki, Azərbaycanın vəsaiti qorunsun və onun dağıdılmasına vol verilməsin". Ümummilli lider Heydər Əliyev Azərbaycanda dünya standartlarına cavab verən güclü dövlət nəzarət sisteminin yaradılması eyni zamanda büdcə vəsaitlərindən məqsədəuyğun və səmərəli şəkildə istifadə edilməsi məqsədilə müstəqil və qanunvericilik hakimiyyəti orqanlarına hesabat verən xüsusi bir orqanın yaradılması haqqında qərar verdi. Bu məqsədlə beynəlxalq standartlara cavab verən prinsiplər əsasında fəaliyyət göstərən ali dövlət maliyyə nəzarəti orqanının – Ali Audit Qurumu yaradıldı və bu orqanının yaradılması Azərbaycanda maliyyə-büdcə nəzarəti sahəsində inqilabi bir hadisə kimi tarixə düşdü [4]. Azərbaycanda maliyyə-büdcə nəzarət sistemi sahəsində atılan mühüm addımlardan biri də, 1999-cu ildə Azərbaycan Respublikası Hesablama Palatasının fəaliyyətə başlaması oldu. Bununla da, Azərbaycanda dövlət maliyyə nəzarəti institutunun əsası qoyuldu və effektiv

maliyyə nəzarəti sisteminin təşəkkülündə əhəmiyyətli rol oynadı. Hesablama Palatasının hüquqi əsasları Lima Bəyannaməsinin və İNTOSAİ-nin (Ali Audit Qurumlarının Beynəlxalq Təşkilatı) tələblərinə uyğun Azərbaycan Respublikasının Konstitusiyasında öz əksini tapdı. Bu da öz növbəsində Hesablama palatasının beynəlxalq standartların prinsiplərinə (qanunçuluq, müstəqillik, obyektivlik, aşkarlıq və ədalətlilik) uyğun şəkildə fəaliyyətin göstərməsinin təsdiqi oldu. Heydər Əliyev siyasi kursunun layiqli davamçısı olan cənab Prezident İlham Əliyevin təşəbbüsü ilə "Hesablama Palatası haqqında" qanuna 2008 və 2010-cu illərdə edilmiş dəyişikliklərə əsasən Hesablama Palatasının səlahiyyətləri artırılaraq onun maliyyə nəzarəti sistemində rolu gücləndirildi [3]. Heydər Əliyev səmərəli dövlət maliyyə nəzarəti sisteminin formalaşdırılması və inkişafı məsələlərinə hər zaman xüsusi diqqət ayırmışdır. Dövlət maliyyə nəzarəti sistemində aparılan uğurlu islahatların məntiqi davamı olaraq, 2002–ci ildə yeni "Büdcə sistemi haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul edildi. Bu qanuna əsasən maliyyə-büdcə resurslarının daha məqsədəuyğun və səmərəli bölüşdürülməsi, büdcə gəliri və xərclərinin çevik idarə olunması, büdcə və büdcədənkənar fondların büdcə planlarının tərtibi, təsdiqi, icrası və s. kimi proseslər daha da təkmilləşdirildi. Dövlət maliyyə nəzarəti sahəsində aparılan hərtərəfli və köklü islahatların nəticəsi olaraq respublikada maliyyə-büdcə vəziyyəti əhəmiyyətli dərəcədə yaxşılaşmış, dövlət büdcəsinin gəlir və xərclərinin sürətli artımı baş vermişdir. Müqayisə olaraq qeyd etmək olarki, 2002-ci ildə dövlət büdcəsinə daxil olan ümumi gəlirlərin həcmi,1993-cü il ilə nisbətdə 87 dəfə, büdcə xərclərinin həcmi isə 73 dəfə artmışdı [5]. Azərbaycan Respublikasının Konstitusiyasında əks olunmuş maliyyə-büdcə nəzarətininin aşağıdakı növləri var:

1) Qanunvericilik hakimiyyətinin vasitəsilə ilə nəzarət və ya parlament nəzarəti. Bu nəzarət Milli Məclisin daimi komissiyaları və Azərbaycan Respublikası Hesablama Palatası vasitəsilə aparılır;

2) İcra hakimiyyətinin vasitəsilə ilə nəzarət. Bu nəzarət Prezidentin İcra Aparatının Dövlət nəzarəti şöbəsi, Nazirlər Kabineti strukturuna daxil olan nəzarət qurumları, Milli Bankın nəzarət qurumları, inzibati və hüquq-mühafizə orqanlarının tabeliyində olan nəzarət qurumları vasitəsilə aparılır;

3) Məhkəmə hakimiyyəti vasitəsilə nəzarət. Respublikamızda aparılan büdcə nəzarəti sistemi iqtisadiyyatın inkişafına, büdcə daxilolmalarının maksimum artırılmasına, səmərəli büdcə siyasətinin hazırlanmasına və icrasına yönəldilir.

Azərbaycanda büdcə nəzarəti prosesində aşağıdakı orqanlar subyek qismində çıxış edirlər:

- Azərbaycan Respublikasının Nazirlər Kabineti,
- Azərbaycan Respublikasının Maliyyə Nazirliyi,
- Azərbaycan Respublikasının Hesablama Palatası,
- Sərəncam verən orqanlar (büdcə vəsaitlərinin sərəncamçıları) [1].

Azərbaycan Respublikasının Nazirlər Kabineti "Dövlət büdcəsinin tərtibi və icrası Qaydaları"(2004-cü il 24 may tarixli qərar), "Dövlət büdcəsinin vəsaitindən istifadə qaydaları (2 iyun 2003-cü il qərarı ilə təsdiq edilmiş )", "Dövlət büdcəsinin, büdcədəkənar dövlət fondların büdcələrinin tərtibi və icrasına nəzarət (12 iyul 2004-cü il tarixli qərarı ilə təsdiq edilmiş) üzrə əməliyyatların həyata keçirilməsinə nəzarət edir. Büdcə nəzarəti orqanları içərisində əsas yeri Azərbaycan Respublikasının Maliyyə Nazirliyi tutur. Maliyyə Nazirliyi dövlət büdcəsinin tərtibi prosesinə, büdcənin gəlir və xərclərinə, dövlət borcunun uçotuna, valyuta əməliyyatlarının həyata keçirilməsinə, dövlət investisiyalarının istifadəsi və s. kimi proseslərə nəzarət edir. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi daxilində operativ maliyyə nəzarəti Dövlət Maliyyə Nəzarəti Xidməti və Dövlət Xəzinədarlığı Agentliyi vasitəsilə icra olunur [7, s.18]. Azərbaycan Respublikasının ali büdcə nəzarəti orqanı olan Hesablama Palatası dövlət büdcəsinə nəzarəti icra edir, hər il dövlət büdcəsinin və büdcədən-

kənar dövlət fondlarının icrasına dair hesabat və müvafiq qanun layihələrinə rəy verir, qanunla müəyyən edilmiş dövlət büdcəsindən maliyyələşmələrin aparılmasını təhlil edir, büdcənin gəlir və xərclərinin həcmi, strukturu və təyinatının vaxtında icrasına nəzarət edir, dövlət büdcəsindən maliyyələşdirmələrin təsdiq olunmuş dövlət büdcəsində müəyyən edildiyi kimi aparılmasını analiz etmək, meydana çıxan kənarlaşmaların aradan qaldırılması və s. kimi nəzarət proseslərini həyata keçirdir. Azərbaycanda mövcud olan büdcə formalarından biri də yerli büdcələrdir. Yerli büdcə dedikdə, bələdiyyə statusuna uyğun, özünüidarəetmə prinsipləri əsasında fəaliyyət göstərən, Azərbaycan Respublikası Konstitusiyası və müvafiq qanunvericilik ilə müəyyənləşdirilmiş səlahiyyətləri icra edən maliyyə vasitəsi nəzərdə tutulur. Yerli büdcələr "Büdcə sistemi haqqında" Azərbaycan Respublikasının qanunu əsasında tərtib olunur, müzakirə və təsdiq edilir [13, s.449]. Yerli büdcələr tərtibi, müzakirəsi, təsdiqi və icrasına nəzarət bələdiyyələr tərəfindən həyata keçirilir . Eyni zamanda bələdiyyələr büdcədən sərf edilən vəsaitin təsdiq edilmiş büdcə göstəricilərinə uyğunluğuna nəzarət edir. Bələdiyyələr yerli büdcələrə nəzarəti ildə bir dəfədən az olmamaq şərtilə müstəqil auditorlar vasitəsilə aparır. Yeni iqtisadi inkişaf mərhələsinə qədəm qoyan Azərbaycan qarşısında duran əsas hədəflərdən biri dünya standartlarına cavab verən maliyyə-büdcə nəzarət sisteminin təkmilləşdirilməsi idi. Cənab Prezident İlham Əliyevin müdrikliyi və uzaqgörənliyi sayəsində "Büdcə sistemi haqqında" və "Daxili audit haqqında" Azərbaycan Respublikasının qanunları qəbul edildi. Eyni zamanda "Maliyyə nəzarəti haqqında" qanun layihəsinin, "Şəffaflığın artırılması və korrupsiyaya qarşı mübarizə üzrə Milli Strategiya" və bu kimi başqa normativ hüquqi sənədlərin hazırlanması və təsdiqi cənab Prezident İlham Əliyevin maliyyə-büdcə nəzarəti sisteminə olan diqqətinin bariz göstəricisidir. Təməli Ümummilli lider Heydər Əliyev tərəfindən qoyulan və cənab Prezident İlham Əliyev tərəfindən layiqincə davam etdirilən maliyyə-büdcə nəzarət sisteminin rolu və əhəmiyyəti getdikcə daha da artmaqdadır. Azərbaycanda müstəqil, demokratik prinsiplər əsasında həyata keçirilən köklü iqtisadi islahatlar və büdcə nəzarət sisteminin təkmilləşdirilməsi istiqamətində atılan addımlar, respublikamızda beynəlxalq normalara cavab verən mükəmməl maliyyə nəzarəti sisteminin formalaşmasına təkan vermişdir. Ümumi mənada onu qeyd etmək olar ki, büdcə nəzarət sistemininə şəffaf mühitin yaradılması, büdcə vəsaitlərindən səmərəli istifadə olunması, nəticə etibarilə iqtisadi inkşafa zəmin yaradacaqdır. Bu səbəbdən müasir dövrdə dövlətin büdcə nəzarət sistemi dünya ölkələrinin iqtisadi siyasətinin prioritet istiqamətlərindən sayılır.

Müasir dövrdə Azərbaycanda həyata keçirilən köklü sosial-iqtisadi islahatlar, maliyyə-büdcə sahəsində qanunçuluğun və intizamın yüksəldilməsi kimi məsələlər dövlətin maliyyə-büdcə siyasətinin tərkib hissəsidir. Dövlətin büdcə nəzarət sistemi maliyyə subyektlərinin büdcə qanunvericiliyinə riayət etməsi, büdcə vəsaitlərindən düzgün, səmərəli, məqsədyönlü istifadə olunmasına nəzarət, büdcə sahəsində olan qanun pozuntularının qarşısının alınması, aparılan büdcələrarası əməliyyatlara nəzarət olunması kimi məsələlərin həllində mühüm rol oynayır. Azərbaycanda büdcə nəzarəti Azərbaycan Respublikasının Nazirlər Kabineti, Azərbaycan Respublikasının Maliyyə Nazirliyi, Azərbaycan Respublikasının Hesablama Palatası vasitəsilə həyata keçirilir.

Azərbaycanda büdcə nəzarəti sahəsinə dövlətin hər zaman xüsusi diqqəti və marağı mövcud olmuşdur. Dövlət büdcə nəzarəti sahəsində atılan addımlar, qəbul edilən qərarlar, normativ hüquqi aktlar, qanunlar səmərəli, effektiv nəzarət mexanizminin formalaşmasına hesablanmışdır.

**Ədəbiyyat:**


1. Azərbaycan Respublikasının Konstitusiyası. 1995-ci il 12 noyabr.
2. "Azərbaycan Respublikası Maliyyə Nazirliyinin Dövlət Maliyyə Nəzarəti Xidməti tərəfindən nəzarət tədbirlərinin planlaşdırılması, aparılması və nəticələrinin rəsmiləşdirilməsi Qaydaları"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının Maliyyə Nazirliyinin 15.02.2013-cü il tarixli Qərarı;
3. Azərbaycan Respublikasının Maliyyə Nazirliyinin fəaliyyətinin təkmilləşdirilməsi haqqında Azərbaycan Respublikasının Prezidentinin 09.02.2009-cu il tarixli fərmanı.
4. 2018-ci ilin dövlət büdcəsinə dair Azərbaycan Respublikası Hesablama Palatasının rəyi əsasında xülasə // http://sai.gov.az/budce-xulasesi
5. Azərbaycan Respublikasının "Büdcə sistemi haqqında" Qanunu.
6. Bağırov, D.A., Həsənli, M.X. Maliyyə. Bakı, – 2011. – 384 s.
7. Bağırov, D.A., Həsənli, M.X., Quşxani, R.N. «Korporativ maliyyə», Bakı. – 2010.
8. Bədəlov, Ş.S., Məhərrəmov, R.B., Qurbanov, F.Ə. Büdcə sistemi. Dərslik. Bakı, – 2013.
9. Ələkbərov, Ə. Sosial-iqtisadi inkişafın maliyyə-büdcə parametrlərinin tənzimlənməsi. AMEA İqtisadiyyat İnstitutu. Bakı: Elm, – 2007. – 449 s.
10. Xankişiyev, B.A. Maliyyə nəzarəti. Bakı: – 2002. – 94s.
11. Mirtəlov, R.Ə. Dövlət maliyyə nəzarəti və onun təkmilləşdirilməsi. Bakı: – 2015. - 80s.
12. Novruzov, N.C., Ataşov B.R. Maliyyə nəzəriyyəsi. Dərslik. Bakı: – 2014. – 98s.
13. Грачева, Е.Ю. Финансовый контроль. Учеб. пособие / Грачева Е.Ю., Толстопятенко Г.П., Е.А.Рыжкова. М.: ИД "Камерон", – 2004. – 270 с.
14. Степашин, С.В. Аудит эффективности как важнейшая форма государственного финансового контроля. Материалы "круглого стола" 7-го Петербургского экономического форума. Москва: – 2003.
15. Шохин, С.О., Боронина, Л.И. Бюджетно-финансовый контроль и аудит. Научно-методическое пособие. Москва: Финансы и статистика. – 1997. – 238с.


***Açar sözlər:*** *Konstitusiya, nəzarət, büdcə, qanunvericilik, hüquq*

**Khatai Salmanov**
*PhD candidate of the Department of Civil Service and Personnel Policy of the Academy of the State Administration of the Academy of Public Administration under the President of the Republic of Azerbaijan*

# SYSTEM OF STATE BUDGETARY CONTROL (A CASE STUDY OF AZERBAIJAN)

## SUMMARY

Nowadays, the state financial control system is considered one of the most effective means of regulating economic processes. State financial control system is a control mechanism that ensures functioning of financial entities in accordance with constitutional requirements, financial legislation and financial discipline, in order to ensure legal, reliable, transparent and purposeful functioning of financial transactions, State financial control mechanism plays an important role in creating a stable economic environment, ensuring economic stability. It also plays an important role in the proper organization and management of financial and budgetary policy of the state, increasing economic potential of the country and improving the efficiency of financial system. State financial control, which is the most important function of financial activity, protects interests, rights and freedoms of financial entities. State financial control system is based on the principles of independence, openness, legality, objectivity, responsibility, systematicity, honesty, and competence. At present, proper, effective organization of financial control system is considered one of the most central matters of economic policy of each state. This paper discusses the matters of financial and budgetary control system of the state and organization of the budget control system in Azerbaijan. At the same time, the article analyses rules, forms, principles of the budget control organization, features of budget control formation in Azerbaijan, and development prospects.

***Keywords:*** *constitution, control, budget, legislation, law*

**Хатаи Салманов**
*Докторант Академии Государственного Управления при Президенте Азербайджанской Республики*

## СИСТЕМА ГОСУДАРСТВЕННОГО БЮДЖЕТНОГО КОНТРОЛЯ (НА ПРИМЕРЕ АЗЕРБАЙДЖАНА)

### РЕЗЮМЕ

Система государственного финансового контроля в современную эпоху считается одним из самых эффективных средств регулирования экономических процессов. Система государственного финансового контроля – это механизм контроля, обеспечивающий функционирование финансовых субъектов в соответствии с конституционными требованиями, финансовым законодательством и финансовой дисциплиной с целью законной, надежной, прозрачной и целенаправленной деятельности финансовых операций. Механизм государственного финансового контроля играет важную роль в формировании стабильной экономической среды, обеспечении экономической устойчивости, а также в правильной организации, управлении финансово-бюджетной политикой государства, повышении экономического потенциала страны и повышении эффективности финансовой системы. Государственный финансовый контроль, являющийся важнейшей функцией финансовой деятельности, обеспечивает защиту интересов, прав и свобод финансовых субъектов. Система государственного финансового контроля осуществляется на основе принципов независимости, открытости, законности, объективности, ответственности, систематичности, честности, компетентности. Правильная, эффективная организация системы финансового контроля в современную эпоху считается одним актуальных вопросов экономической политики каждого государства. В статье обсуждаются организации системы финансово-бюджетного контроля государства и системы бюджетного контроля в Азербайджане. В то же время, анализируются правила, формы, принципы организации  и особенности формирования бюджетного контроля, а также перспективы ее развития в Азербайджанской Республике.

***Ключевые слова:*** *Конституция, финансовый контроль, бюджет, законодательство, закон*

# DÖVLƏT İDARƏÇİLİK AKADEMİYASINDA

### *Dövlət İdarəçilik Akademiyası Silahlı Qüvvələrin Yardım Fonduna 30 min manat vəsait köçürüb*

Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası Silahlı Qüvvələrinin Yardım Fonduna 30 min manat vəsait köçürüb.

Azərbaycanın ərazi bütövlüyü uğrunda mübarizədə peşəsindən asılı olmayaraq hər bir vətəndaşın və qurumun üzərinə böyük məsuliyyət düşür. Cəbhədə torpaqlarımızın azad olunması uğrunda tarix yazan mərd oğullarımıza, gedən döyüşlərdə ordumuza dəstək olmaq DİA kollektivinin üzərlərinə düşən şərəfli məsuliyyətidir.

### *Dövlət İdarəçilik Akademiyasının professorunun məqaləsi axar.az saytında dərc edilib*

Məqaləyə keçid: https://ru.axar.az/news/aktualno/506036.html

### *Pakistanlı tədqiqatçı Adel Muxtar Mirzənin www.globalnewspakistan.com saytında Azərbaycan həqiqətləri haqqında məqaləsi dərc edilmişdir*

Azərbaycan işğal altındakı torpaqlarını azad etmək üçün qətiyyətli mübarizə aparır, başqa bir tələbi yoxdur. Bu ədalətli mövqe ilə dünyanın bir çox ölkələrinin media qurumlarında Azərbaycanın haqlı mövqeyinə dəstək ifadə edilir.

Belə dəstək yazılarından biridə Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi nəzdində Azərbaycan Respublikasının Beynəlxalq İnkişafa Yardım Agentliyi (AIDA) tərəfindən Dövlət İdarəçilik Akademiyası ilə əməkdaşlıq çərçivəsində həyata keçirilən "Qonaq Elmi İşçilərin Mübadiləsi Proqramı" çərçivəsində Azərbaycan Respublkasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının rektoru, akademik Urxan Ələkbərovun elmi rəhbərliyi altında "Azərbaycanda davamlı inkişaf və iqlim dəyişikliyində rəqabət qabiliyyətinə xüsusi diqqət" mövzusunda elmi araşdırmalar aparan Pakistanlı tədqiqatçı Adel Muxtar Mirzənindir. Tədqiqatçı Adel Muxtar Mirzə Azərbaycanda olduğu müddətdə ölkənin uğurlarını, tarixini, mədəniyyətini, həqiqətlərini öz gözləri ilə görmüşdü. Bu gün onun məqaləsinin yazılma səbəbi rasional düşüncəyə əsaslanan həqiqətin və ədalətin ifadəsidir.

Onun www.globalnewspakistan.com saytında çap olunmuş məqaləsində Pakistanın Dağlıq Qarabağ bölgəsində cərəyan edən hadisələri diqqətlə izləməsindən, Gəncə, Tərtər və digər şəhərləri daxil olmaqla Azərbaycan ərazilərindəki mülki yaşayış məntəqələrinin ermənistan silahlı qüvvələri tərəfindən atəşə tutulmasından, münaqişənin tarixi haqqında geniş bəhs edilir.

Məqalənin müəllifi bildirir ki, Azərbaycanın mövqeyi beynəlxalq hüquq və münaqişənin tarixi ilə bağlı faktlar baxımından möhkəm zəmindədir. Ermənistanın yanaşması isə münaqişəni emosional sferaya yönəltməkdən ibarətdir.

Məqalədə qeyd olunan fikir və arqumentlər beynəlxalq səviyyədə mötəbər hesab olunan analitik və akademik mənbələrə istinad edilməklə təsdiqlənib.

***Dövlət İdarəçilik Akademiyasında beynəlxalq elmi-praktik konfrans: Terrorizm bəşəriyyətə qarşı təhdiddir***

Noyabrın 13-də Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında (DİA) İkinci Qarabağ savaşında Azərbaycanın qələbəsinə həsr olunmuş "Terrorizm bəşəriyyətə qarşı təhdiddir" mövzusunda onlayn beynəlxalq elmi konfrans keçirilib.

Beynəlxalq elmi konfransda "Qlobal çağırışlar şəraitində yeni idarəçilik texnologiyaları: Azərbaycan Respublikasının uğurlu təcrübəsi" mövzusunda məruzə ilə çıxış edən Dövlət İdarəçilik Akademiyasının rektoru, akademik Urxan Ələkbərov Ulu Öndərin siyasi xəttinin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini diqqətə çatdırıb. Bildirib ki, dövlət müstəqilliyinin bərpasından keçən 29 il ərzində Azərbaycan Respublikası uğurla inkişaf edib və tarixi baxımdan çox qısa zaman kəsiyində ölkə bütün sahələrdə böyük uğurlar qazanıb.

Akademik U.Ələkbərov ölkəmizin inklüziv inkişaf sahəsində də dünyada yüksək mövqe qazandığını xatırladıb. Onun sözlərinə görə, "Azərbaycanın inklüziv inkişaf indeksləri ABŞ, Yaponiya, İtaliya, İsrail, İspaniya, Portuqaliya, Türkiyə, Rusiya və başqa ölkələrin göstəricilərini üstələyir. Bu nailiyyət Azərbaycan Respublikasında iqtisadi, sosial və humanitar siyasətin ümumi inkişaf strategiyasının vacib istiqaməti olmasından xəbər verir. Son 15 ildə ölkədə adambaşına düşən gəlirlərin artması, iqtisadi dirçəlişə nail olunması dövlət səviyyəsində elm, təhsil və səhiyyənin inkişafı üçün geniş şərait yaradıb. Təhlillər göstərir ki, Azərbaycan Respublikasında qazanılan uğurların əsasında Prezident İlham Əliyev tərəfindən işlənilmiş, nəzəri əsasları və tətbiq üsulları yeni olan idarəetmə texnologiyaları kompleksi dayanır.

Rektor qazanılan uğurların əsasında Prezident İlham Əliyevin dərin düşünülmüş innovativ inkişaf siyasətinin dayandığını vurğulayıb. O, həmçinin diqqətə çatdırıb ki, ölkədə bütün istiqamətlərdə nailiyyətlərin qazanılmasında Birinci vitse-prezident Mehriban Əliyevanın önəmli rolu var. Akademik Urxan Ələkbərov Prezident İlham Əliyev tərəfindən işlənmiş unikal innovativ sinergetik, komplimentar və kompensasion texnologiyalar kompleksinin tətbiqinin ölkənin hərtərəfli inkişafı və əhalinin rifahının yüksəlməsi üçün iqtisadi imkanlardan səmərəli istifadəni təmin etdiyini söyləyib.

Vətən müharibəsində qazanılan şanlı zəfərin də ölkənin uğurlu inkişafının məntiqi nəticəsi olduğuna diqqət çəkən rektor, ötən 44 günü Azərbaycan dövlətçiliyi tarixinə qızıl hərflərlə yazılacaq xüsusi mərhələ kimi dəyərləndirib. Bildirilib ki, həmin günlər "Qarabağ Azərbaycandır!" şüarı ilə müşayiət olunan xalq-dövlət, xalq-hakimiyyət birliyinin, hakimiyyət və xalq arasında qarşılıqlı inam və etimadın təzahürü idi. Akademik U.Ələkbərov Azərbaycana bu möhtəşəm qələbəni Müzəffər Ali Baş Komandanın müdrik qərarları, Şanlı Ordumuzun gücü və xalqımızın sarsılmaz həmrəyliyinin qazandırdığını qeyd edib.

Onlayn beynəlxalq elmi-praktik konfransda Türkiyə Atatürk Universitetinin Tarix şöbəsinin professoru İbrahim Ethem Atnur "İkinci Qarabağ savaşının sonuclanmasında Naxçıvanla əlaqənin bərpası məsələsi", Gürcüstanın Suxumi Universitetinin professoru, tarixçi alim Quram Marxuliya "Erməni terror təşkilatlarının yaranması səbəbləri və məqsədləri", Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Siyasi idarəetmə fakültəsinin dekanı, siyasi elmlər doktoru, professor Elçin Əhmədov "Ermənistanın dövlət terrorizmi siyasəti: erməni lobbisi və ikili standartlar", Tarix kafedrasının müdiri, dosent Firdovsiyyə Əhmədova "Erməni strategiyası: separatizm və terrorizmə gedən yol", Politologiya və siyasi idarəetmə kafedrasının müəllimi, politoloq Zaur Məmmədov " Erməni terrorizminin politoloji aspektləri" adlı məruzə ilə çıxış ediblər.

## *Elmi-praktik konfrans: Azərbaycanın hərbi-diplomatik uğurları və Ermənistanın dövlət terrorizmi siyasəti*

Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında (DİA) "Azərbaycanın hərbi-diplomatik uğurları və Ermənistanın dövlət terrorizmi siyasəti" mövzusunda elmi-praktik konfrans keçirilib.

Konfransda "Azərbaycanın hərbi-diplomatik uğurlarının əsası" mövzusunda məruzə ilə çıxış edən rektor, akademik Urxan Ələkbərov görkəmli siyasi və dövlət xadimi Heydər Əliyevin misilsiz tarixi xidmətlərindən bəhs edərək, Ulu Öndərin siyasi xəttinin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini diqqətə çatdırıb. Qeyd edib ki, müstəqilliyinin bərpasından keçən 29 il ərzində Azərbaycan Respublikası uğurla inkişaf edib və tarixi baxımdan çox qısa zaman kəsiyində ölkə bütün sahələrində böyük uğurlar qazanıb. Ölkəmizin qazandığı uğurların başlıca faktoru insan potensialının formalaşdırılması və səfərbər edilməsinə elmi yanaşmadır.

Akademik U.Ələkbərov qazanılan uğurların əsasında Prezident İlham Əliyevin dərin düşünülmüş innovativ inkişaf siyasətinin dayandığını, eyni zamanda, ölkədə bütün istiqamətlərdə nailiyyətlərin əldə edilməsində Birinci vitse-prezident Mehriban Əliyevanın önəmli rolu olduğunu diqqətə çatdırıb. Akademik vurğulayıb ki, əslində, daha az vəsaitlərlə yüksək göstəricilərə nail olunması dövlət inkişafı proseslərinin idarə edilməsində Prezident İlham Əliyev tərəfindən işlənmiş unikal innovativ sinergetik, komplementar və kompensasion texnologiyalar kompleksinin tətbiqinin nəticəsidir. Həmin texnologiyalar ölkənin hərtərəfli inkişafı və əhalinin rifahının yüksəlməsi üçün iqtisadi imkanlardan səmərəli istifadəni təmin edib. Mühazirədə ölkənin sürətli inkişafı istiqamətində aparılan uğurlu siyasətin əsas hədəfləri, eləcə də davamlı inklüziv inkişafı xarakterizə edən göstəriciləri müqayisəli şəkildə tələbələrin diqqətinə çatdırılıb.

Rektor Vətən müharibəsində qazanılan şanlı zəfərin də ölkənin uğurlu inkişafının məntiqi nəticəsi olduğunu vurğulayıb. O, ötən 44 günü Azərbaycan dövlətçiliyi tarixinə qızıl hərflərlə yazılacaq xüsusi mərhələ kimi dəyərləndirib. Bildirilib ki, həmin günlər "Qarabağ Azərbaycandır!" şüarı ilə müşayiət olunan xalq-dövlət, xalq-hakimiyyət birliyinin, hakimiyyət və xalq arasında qarşılıqlı inam və etimadın təzahürü idi. Azərbaycana bu möhtəşəm qələbəni Müzəffər Ali Baş Komandanın müdrik qərarları, şanlı ordumuzun gücü və xalqımızın sarsılmaz həmrəyliyi qazandırdı. Qazandığımız bu qələbə, həmçinin gəncliyimizə örnək oldu. Onlar gördülər ki, öz lideri ətrafında bir yumruq kimi birləşən xalq yenilməzdir və qalibdir.

Dövlət İdarəçilik Akademiyasının Politologiya və siyasi idarəetmə kafedrasının müəllimi, politoloq Zaur Məmmədovun moderatorluğu ilə keçirilən konfransda DİA-nın professoru, siyasi elmlər doktoru Elçin Əhmədov "Azərbaycanın hərbi-diplomatik uğurları və Ermənistanın dövlət terrorizmi siyasəti" mövzusunda çıxış edib. O bildirib ki, 44 günlük Vətən müharibəsində xalqımız bütünlüklə Müzəffər Ali Baş Komandanın ətrafında səfərbər oldu. Azərbaycan torpaqlarının hər qarışının azad edilməsi uğrunda gedən döyüşlər, qüdrətli ordumuzun şanlı tarix yazaraq düşmən üzərindəki sarsıdıcı zərbələri, eləcə də bir sıra mühüm əhəmiyyətli şəhərlərimizin, yaşayış məntəqələrimizin, həmçinin müxtəlif istiqamətlərdə strateji yüksəkliklərin işğalçılardan azad edilməsi xalqımızda böyük inam və ruh yüksəkliyi yaratdı. Xüsusilə 2020-ci il noyabrın 8-i tariximizə şanlı bir gün kimi yazıldı. Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli ordumuz Azərbaycanın tarixi, mədəni və strateji əhəmiyyətə malik, Qarabağın baş tacı olan Şuşa şəhərini işğalçılardan azad etdi. Azərbaycanın hərbi-diplomatik uğurları, xüsusilə strateji əhəmiyyətli Şuşa şəhərinin azad edilməsi müharibənin sonrakı gedişinə və taleyinə ciddi təsir göstərdi. Bununla yanaşı, Azərbaycan Prezidenti İlham Əliyevin hər zaman torpaqlarımızın işğaldan

azad edilməsi istiqamətində qətiyyətli və prinsipial mövqeyi Azərbaycanın ikinci Qarabağ müharibəsindəki hərbi-diplomatik Qələbəsi ilə nəticələndi. Eyni zamanda, Prezident İlham Əliyevin bir sıra xarici kütləvi informasiya vasitələrinə verdiyi çoxsaylı müsahibələr informasiya məkanında da düşmənin yalan üzərində qurulmuş təbliğat maşınına ağır zərbə vurdu və Ermənistanın təcavüzkar siyasətinin, eləcə də onun himayədarlarının ifşa olunması ilə nəticələndi.

Çıxışlardan sonra Dövlət İdarəçilik Akademiyasının Vətənpərvərlik klubunun hazırladığı videoçarx nümayiş olunub.

### *Cəbhədən gələn var. DİA-da qürurverici görüş*

Qırx dörd günlük Vətən müharibəsinin odalovundan keçərək qələbə bayrağımızı zirvələrə ucaltmış mübariz əsgərlərimiz arasında Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının (DİA) müəllim, tələbə və məzunları da var. Bu şərəfli tarixi yazan insanlar tutduğu mövqedən, peşəsindən asılı olmayaraq Müzəffər Ali Baş Komandanın, Vətənin çağırışına səs verdilər. Müəllimlər, tələbələr, məzunlar “Vətən çağırır”, “Vətən sağ olsun!” şüarı ilə qələmlərini, kitablarını silaha dəyişdilər. Doğma Vətəni işğaldan azad etdilər. Tərtər, Füzuli, Cəbrayıl, Xocavənd, Qubadlı, Zəngilan rayonlarında və Şuşa şəhərində tarix yazdılar. İndi onlar öz doğmalarının yanına, çalışdıqları kollektivin arasına qəhrəman kimi, qalib əsgər kimi qayıdırlar.

Bildirilib ki, onların Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi altında rəşadətli ordumuzun 44 günlük Vətən müharibəsində göstərdiyi şücaət və qəhrəmanlıqları, ordu ilə xalqın sarsılmaz mənəvi birliyi, döyüşlərdə yeni tarix yazan əsgər və zabitlərimizin fədakarlıqları barədə etdikləri söhbətlər qürur hissi doğurur. Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının dosenti Radif Mustafayev, magistr Kənan Vəliyev, Zaur Məmmədov, bakalavr məzunları Elvin Eminsoy, Ülfət Hacıyev və bir çox DİA ailəsinin üzvləri bu şanlı tarixi yazan qəhrəmanlar arasında yer alıblar. Qələmi silaha dəyişənlərlə yanaşı, arxa cəbhədə öz qələmləri ilə Azərbaycan həqiqətlərini dünyaya çatdıran professorlar Elçin Əhmədov və Ziyafət Həbibova, fəlsəfə doktoru, dosent Yusif Ağayev, dosent Zaur Məmmədov kimi fədakar insanların fəaliyyəti kollektivi qürurlandırır.

Xalqımızın tarixinə qızıl hərflərlə həkk olunacaq bu şanlı zəfərin qazanılması və tarixi ədalətin təmin edilməsi uğrunda gedən döyüşlərdə Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının əməkdaşlarının da iştirak etməsi kollektiv tərəfindən böyük fəxr hissi ilə qarşılanıb.

Azərbaycan dövlətçiliyi tarixinə qızıl hərflərlə yazılacaq bu qələbə xalq-dövlət arasında qarşılıqlı inam və etimadın təzahürü idi. Azərbaycana bu möhtəşəm qələbəni qazandıran Müzəffər Ali Baş Komandanın müdrik qərarları, şanlı ordumuzun gücü və sarsılmaz həmrəyliyimiz xalqımızı yenilməz və qalib etdi.

### *Prezident İlham Əliyevin unikal dövlət idarəçilik texnologiyalarının parlaq hərbi sınağı*

Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının rektoru, akademik Urxan Ələkbərovun məqaləsi "Azərbaycan" qəzetində dərc edilib.

Məqaləyə keçid: http://www.azerbaijan-news.az/uploads/1607028491.pdf

***Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının dosenti Firdovsiyyə Əhmədova onlayn seminarda çıxış edəcək***

2020-ci il dekabrın 11-də 11:30-12:30 arasında Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Ankara Sosial Bilimlər Universiteti Kürəsəl Köç Araştırmaları və Uyğulamaları Mərkəzi ilə birgə "Azərbaycanlı qaçqınlığı: talan, işğal, qətliam və zəfər qayıdışı" mövzusunda onlayn seminarı keçiriləcəkdir. Seminarda DİA-nın Tarix kafedrasının müdiri, dosent Firdovsiyyə Əhmədova Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin 30 ildən artıq sürən dönəmində azərbaycanlıların məruz qaldığı qaçqın, köçkün həyatı, həmçinin dövlət tərəfindən görülmüş müvafiq tədbirlər haqqında məlumat verəcəkdir. Azərbaycanın 44 günlük müharibə dönəmində əldə etdiyi şanlı zəfərdən sonra qaçqın və köçkünlərin müqəddəratı məsələlərindən də bəhs ediləcəkdir. Mövzu ilə bağlı müzakirə də nəzərdə tutulubdur.

***Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının tələbələrinin Millət Vəkili Arzu Nağıyevlə onlayn görüşü***

Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının müəllimi Şahzadə Mədətovanın rəhbərliyi ilə layihə çərçivəsində keçirilən onlayn görüşdə Millət Vəkili Arzu Nağıyev və Akademiyanın tələbələrinin aktiv sual-cavablarına aşağıdakı linkə keçid almaqla baxa bilərsiniz.

Onlayn görüşdə tələbələrin iştirakının təmin edilməsində DİA-nın Tələbə Gənclər Təşkilatı (TGT) dəstək göstərmişdir.

https://youtu.be/mrLxUr_M6GU

***Dövlət İdarəçilik Akademiyasında Ümummilli lider Heydər Əliyevin anım gününə həsr olunmuş videokonfrans keçirilib***

Dekabrın 11-də Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası (DİA) ümummilli lider Heydər Əliyevin anım gününə həsr olunmuş "Azərbaycançılıq ideyasını və milli həmrəyliyi hər zaman uca tutan görkəmli dövlət xadimi" mövzusunda videokonfrans keçirilib.

Tədbirdə akademiyanın rektoru, akademik Urxan Ələkbərov çıxış edərək müasir müstəqil dövlətimizin memarı və qurucusu, Ulu Öndər Heydər Əliyevin müstəsna tarixi xidmətlərindən, zəngin dövlətçilik təcrübəsindən danışıb. Rektor 1993-cü ildə xalqın təkidli tələbi ilə dahi şəxsiyyət Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra ölkəmizin bəlalardan xilas olaraq böyük inkişaf yoluna çıxdığını və ümummilli liderin hakimiyyətə qayıdışının Azərbaycan tarixində mühüm siyasi hadisə, dövlətçiliyin xilas edildiyi gün kimi qiymətləndirib. Hələ XX əsrin 70-80-ci illərində Azərbaycana rəhbərlik etmiş Heydər Əliyev böyük uzaqgörənliklə qətiyyət və müdriklik nümayiş etdirərək xalqımızın tarixi yaddaşının qorunmasına, o cümlədən Azərbaycanın bütün dünyada tanınmasına çalışmışdır. 1993-cü ilin ikinci yarısında Ümummilli lider Heydər Əliyevin yenidən hakimiyyətə qayıdışından sonra Azərbaycanın siyasi kursunda mövcud reallıqları nəzərə alan və ölkəmizin milli mənafelərinin qorunmasına yönəlmiş əməli dəyişikliklər edildi. Bu dövrdən başlayaraq həyata keçirilən siyasət məhz ümummilli liderin adı və onun fəaliyyəti ilə bağlıdır. Dahi rəhbər Heydər Əliyev tərəfindən əsası qoyulmuş Azərbaycanın inkişaf strategiyasının uğurlu nəticələrindən bəhs edən rektor Ulu Öndərin ideyalarının Prezident İlham Əliyev tərəfindən qətiyyətlə həyata keçirildiyini bildirib. Ölkəmizin inkişafında Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın xüsusi rolunu vurğulayıb. Bununla yanaşı, rektor bildirib ki, bugünkü Qələbələrimizin təməlində məhz Ulu Öndərin əsasını qoydugu siyasətin dinamik şəkildə inkişaf etdirilməsi, ölkəmizin sistemli şəkildə dünya birliyinə inteqrasiya olunmasında ikitərəfli və çoxtərəfli siyasi münasibətlərin genişlənməsi istiqamətində atılan addımlar mühüm əhəmiyyət kəsb edir.

Sonra çıxış edən DİA-nın Siyasi idarəetmə fakültəsinin dekanı, professor Elçin Əhmədov bildirib ki, Azərbaycanın dinamik inkişaf strategiyasının əsasını qoymuş dahi şəxsiyyət, görkəmli dövlət xadimi, ümummilli lider Heydər Əliyevin zəngin irsi müstəqil Azərbaycan dövlətinin inkişafı və tərəqqisi yolunda, indiki və gələcək nəsillər üçün əvəzsiz sərvət, böyük qürur və iftixar mənbəyidir. Elçin Əhmədov vurgulayıb ki, Ümummilli lider Heydər Əliyev respublikamıza rəhbərlik etdiyi hər iki dövrdə Azərbaycanın milli maraqlarını hər zaman uca tutmuşdur. Ümummilli lider Heydər Əliyevin azərbaycançılıq ideyası milli həmrəyliyi, bütövlüyü təmin edən, milli təəssübkeşlik və vətənpərvərlik hissini gücləndirən məfkurədir. Bu gün ideoloji dəyərləri, Azərbaycanın milli maraqlarını hər zaman uca tutan dahi şəxsiyyət, görkəmli dövlət xadimi Ümümmilli Lider Heydər Əliyev tərəfindən əsası qoyulmuş azərbaycançılıq, milli birlik və həmrəylik ideyası Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən qorunur və ölkəmizin milli maraqları hər zaman üca tutulmaqla uğurla inkişaf etdirilir. Nəticədə, Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin prinsipial mövqeyi, səsləndirdiyi tutarlı dəlillər və əsaslı fikirlər döyüş meydanında Azərbaycan Ordusunun əldə etdiyi qələbələr diplomatiya meydanında da uğurlara çevrildi və ölkəmizin İkinci Qarabağ müharibəsindəki hərbi-diplomatik Qələbəsini şərtləndirdi. Heç şübhəsiz ki, bütün bunlar Azərbaycanın böyük hərbi-diplomatik uğuru və beynəlxalq birliyin Azərbaycana olan inamının, etimadının təzahürü, ölkəmizin, xüsusilə dövlət başçısının qlobal miqyasda olan nüfuzunun göstəricisidir.

Hüquq kafedrasının müdiri, professor İsaxan Vəliyev ıxışında bildirib ki, xalqımız əsrlər boyu milli azadlıq hüququnu təmin etmək, müstəqillik haqqına nail olmaq arzusu ilə yaşamışdır. Müstəqilliyin təmin edilməsinin və qorunub saxlanmasının nə qədər çətin olduğunu dəfələrlə bəyan etmiş Ulu Öndər Heydər Əliyev, ötən yüzilliyin sonunda Azərbaycan xalqının bu fundamental haqqını gerçəkliyə çevirdi. Ölkəmizdə demokratik prinsiplər və dəyərlər, insan hüquq və azadlıqları getdikcə daha dolğun və real məzmun kəsb edir, vətəndaşların əsas hüquqlarının müdafiəsinin milli mexanizmləri təkmilləşdirilir, bu sahədə beynəlxalq təşkilatlarla səmərəli əməkdaşlıq həyata keçirilir. Isaxan Vəliyev ümummilli lider Heydər Əliyevin böyük xilaskarlıq rolundan, siyasi irsinin əhəmiyyətindən, ölkəmizdə demokratik, hüquqi dövlət quruculuğu istiqamətində həyata keçirdiyi uğurlu islahatlardan danışıb və bildirilib ki, təməli Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulan siyasi xətt bu gün Prezident İlham Əliyev tərəfindən çox uğurla davam etdirilir. Ölkəmizdə insan hüquqlarının etibarlı təminatına, Avropa və dünya hüquq məkanına inteqrasiyasının inkişafına töhfələr verməkdədir.

***DİA Tələbə Elmi Cəmiyyəti onlayn konfrans keçirmişdir***

DİA Tələbə Elmi Cəmiyyəti dekabrın 24-də Azərbaycanın işğalçı Ermənistan üzərində tarixi qələbəsinə həsr olunan "Prezident İlham Əliyevin Azərbaycanın Böyük Qələbəsini təmin edən güclü dövlət strategiyası" mövzusunda onlayn konfrans keçirmişdir.

Konfransı Akademiyanın rektoru, akademik Urxan Ələkbərov açaraq, ilk növbədə tədbir iştirakçılarını 44 günlük Vətən müharibəsində işğalçı Ermənistan üzərində Azərbaycanın tarixi qələbəsi münasibətilə təbrik edərək, bu Böyük Qələbənin baş memarı və təminatçısı Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyev, icraçısı isə rəşadətli Azərbaycan Ordusu olduğunu göstərmiş, torpaqlarımız uğrunda şəhid olanlara Allahdan rəhmət diləmiş, qazilərimizə şəfa arzulamışdır. Rektor ölkəmizdə qələbəyə aparan nəhəng işlərdən bəhs edərək, bu işlərin təməlində Ulu Öndərimiz Heydər Əliyevin rəhbərliyi ilə qələbəyə hesablanmış güclü dövlət strategiyasının uğurla reallaşması sayəsində qazanılmış böyük müvəffəqiyyətlərin durduğunu göstərmiş və onun layiqli siyasi varisi, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən bu strateji kursun ardıcıl şəkildə uğurla davam etdirilməsi nəticəsində sürətli sosial-iqtisadi inkişaf, güclü ordu quruculuğu, uzaq-

görən xarici siyasət fəaliyyəti, bütün digər sahələrdə, eləcə də informasiya müharibəsində əldə olunan nailiyyətlər üzərində ətraflı dayanmışdır. Natiq işğal altında olan Azərbaycan ərazilərində törədilmiş insanlığa sığmayan vəhşiliklər, vandalizm və barbarlıq kimi erməni faşizmi əməllərindən də danışmış, bütün bunlara görə cinayətkar və terrorçu dövlət kimi Ermənistanın beynəlxalq hüquq çərçivəsində layiq olduğu cəza alacağına əminlik bildirmişdir. Qeyd olunanlar baxımından rektor Akademiyanın Tələbə Elmi Cəmiyyəti tərəfindən keçirilən konfransın əhəmiyyətli olduğunu vurğulamış və onun işinə uğurlar arzulamışdır.

Sonra DİA Tələbə Elmi Cəmiyyətinin sədri, siyasi elmlər doktoru, dosent Sevil Məmmədova müzakirəyə çıxarılan mövzu ilə bağlı ətraflı məruzə etmiş, məruzə ətrafında İnzibati idarəetmə fakültəsinin dekanı, siyasi elmlər üzrə fəlsəfə doktoru Elnur Əliyev, magistrantlardan Röyal İbadlı, Sabir Məmmədli, tələbələrdən Nəzrin Məmmədova, Xəzər Abbaszadə, Nəcməddin Gəncəyev, Nigar Eyvazzadə, Arzu Qurbanzadə, Pərvin Ağayeva maraqlı çıxışlar etmiş və geniş fikir mübadiləsi aparılmışdır.

### *Dövlət İdarəçilik Akademiyasında Dünya Azərbaycanlılarının Həmrəylik Günü qeyd edilib*

Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında fəaliyyət göstərən Heydər Əliyev Dövlət İdarəçiliyi Məktəbinin növbəti onlayn görüşü 31 dekabr Dünya Azərbaycanlılarının Həmrəylik Günü ilə əlaqədar keçirilib.

Tədbiri akademiyanın rektoru, akademik Urxan Ələkbərov açaraq Heydər Əliyev Dövlət İdarəçiliyi Məktəbi haqqında məlumat verib. O qeyd edib ki, məktəb ümummilli lider, müasir müstəqil dövlətimizin memarı və qurucusu Heydər Əliyevin siyasi irsinin, azərbaycançılıq məfkurəsi və dövlətçilik fəlsəfəsinin təbliği məqsədilə yaradılıb. Rektor görkəmli siyasi və dövlət xadimi Heydər Əliyevin misilsiz tarixi xidmətlərindən bəhs edib, Ulu Öndərin siyasi xəttinin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini diqqətə çatdırıb. Urxan Ələkbərov qazanılan uğurların əsasında ulu öndər Heydər Əliyevin müəyyənləşdirdiyi və Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilən dərin düşünülmüş innovativ inkişaf siyasətinin dayandığını vurğulayıb. Vətən müharibəsində qazanılan şanlı zəfərin də ölkənin uğurlu inkişafının məntiqi nəticəsi olduğuna diqqət çəkən rektor, ötən 44 günü Azərbaycan dövlətçiliyi tarixinə qızıl hərflərlə yazılacaq xüsusi mərhələ kimi dəyərləndirib. Bildirilib ki, həmin günlər "Qarabağ Azərbaycandır!" şüarı ilə müşayiət olunan xalq-dövlət, xalq-hakimiyyət birliyinin, hakimiyyət və xalq arasında qarşılıqlı inam və etimadın təzahürü idi. Akademik U.Ələkbərov Azərbaycana bu möhtəşəm qələbəni Müzəffər Ali Baş Komandanın müdrik qərarları, Şanlı Ordumuzun gücü və xalqımızın sarsılmaz həmrəyliyinin qazandırdığını qeyd edib.

Tədbirdə Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının müəllimləri dosent Yusif Ağayev, dosent Zaur Məmmədov, Tələbə Gənclər Təşkiatının sədri Murad Həsənxanlı çıxış ediblər.

Sonra 2019/2020-ci tədris ili ərzində ictimai fəallıqları ilə seçilən və Vətən Müharibəsində iştirak edən tələbə və məzunlar DİA-nın xüsusi təşəkkürnaməsi ilə təltif ediliblər.

Tədbirdə Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Ümumi işlər üzrə prorektoru Cəfər Eyvazlı, akademiyanın professor-müəllim heyəti, DİA-da fəaliyyət göstərən tələbə klublarının rəhbərləri və məzunlar iştirak ediblər.

## MÜNDƏRİCAT

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin fəaliyyətinin qısa xronikası**...........7
.
**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəsmi qəbulları**.............................13

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin səfərləri**........................................43

Virtual 71-ci Beynəlxalq Astronavtika Konqresinin açılış mərasimində videomüraciət ........43
Füzuli və Cəbrayıl rayonlarına səfər ........................................................................ 44
Ağdam şəhərinə səfər ..........................................................................................48
Nyu-Yorkda BMT Baş Assambleyasının COVID-19 ilə mübarizəyə həsr edilmiş dövlət və hökumət başçıları səviyyəsində keçirilən xüsusi sessiyasında İlham Əliyevin çıxışı .......52
MDB Dövlət Başçıları Şurasının videokonfrans formatında keçirilən iclasında İlham Əliyevin iştirakı.....................................................................................53
Qubadlı və Zəngilan rayonlarına səfər .....................................................................58

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nitqləri, çıxışları və müsahibələri** ..............................................................................63

"Əl-Cəzirə" televiziya kanalına müsahibə............................................................ 63

"Əl-Ərəbiyə" televiziya kanalına müsahibə........................................................... 68

Türkiyənin "TRT Haber" televiziya kanalına müsahibə.............................................71

Rusiyanın "Pervıy Kanal" televiziyasına müsahibə....................................................77

CNN-Türk televiziyasına müsahibə.......................................................................79

"Euronews" televiziyasına müsahibə.....................................................................84

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "CNN International" televiziya kanalının "Connect the World" verilişində müsahibəsi yayımlanıb ...........................................86

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Sky News" televiziya kanalında müsahibəsi yayımlanıb .........................................................90

Rusiyanın RBK televiziya kanalına müsahibə..........................................................92

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türkiyənin "Haber Global" televiziya kanalına müsahibə verib .................................................97

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev "France 24" televiziya kanalına müsahibə verib ......................................................................101

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Rusiyanın Ria Novosti agentliyi üçün "Rossiya Seqodnya Beynəlxalq İnformasiya Agentliyi" media qrupunun baş direktoru Dmitri Kiselyova müsahibə verib ............................................103

Türkiyənin "A Haber" televiziya kanalına müsahibə....................106

Rusiyanın TASS informasiya agentliyinə videomüsahibə....................113

Yaponiyanın "Nikkei" qəzetinə müsahibə.................... 117

Fransanın "Figaro" qəzetinə müsahibə....................123

ABŞ-ın "Fox News" televiziya kanalına müsahibə....................127

Müdafiə Nazirliyinin Mərkəzi Komanda Məntəqəsində keçirilən operativ müşavirədə Ali Baş Komandan İlham Əliyevin nitqi....................133

İtaliyanın Rai-1 televiziya kanalına müsahibə....................135

Almaniyanın ARD televiziya kanalına müsahibə....................137

İspaniyanın EFE informasiya agentliyinə müsahibə.................... 141

"BBC News"a müsahibə....................145

Vətən müharibəsində Qələbəyə həsr olunmuş Zəfər paradında İlham Əliyevin nitqi....................153

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Dünya azərbaycanlılarına müraciəti..156

## DAVAMLI İNKİŞAFIN İDARƏ EDİLMƏSİ

**Urxan Ələkbərov.** Prezident İlham Əliyevin unikal dövlət idarəçilik texnologiyalarının parlaq hərbi sınağı....................157

**Vüsal Qasımlı.** İqtisadi artım: çağırışlar və perspektivlər....................167

## SİYASİ NƏZƏRİYYƏ

**Etibar Əsədov.** Qlobal inteqrasiya prosesinin inkişaf dinamikasına dair baxışlar....................177

## SOSİOLOGİYA

**Əliyar Orucov.** Cənubi Qafqazdakı münaqişələr regional təhlükəsizliyə təhdid mənbəyidir: sosial-siyasi təhlil....................185

## DÖVLƏT VƏ HÜQUQ NƏZƏRİYYƏSİ VƏ TARİXİ

**Abdulәli Abdullayev.** Azərbaycanda ədalət mühakiməsinin səmərəliliyinin artırılmasında hüquqi islahatların rolu....................197

## BEYNƏLXALQ MÜNASİBƏTLƏR

**Aynur Farmanova.** Preservation and Promotion of Cultural Heritage of Azerbaijan in the World....................207

G Ə N C  T Ə D Q İ Q A T Ç I L A R


**BEYNƏLXALQ MÜNASİBƏTLƏR**

**Nigar Qədirova.** Azərbaycan-YUNESKO münasibətlərinin inkişaf etdirilməsində YUNESKO və İSESKO-nun Xoşməramlı səfiri, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın fəaliyyəti ....................................215

**Vüqar Əmrullayev.** Azərbaycanın beynəlxalq əlaqələrinin genişlənməsində Heydər Əliyev Fondunun fəaliyyəti ..........................................................................................223

**Nurəddin Mehdiyev.** İkinci Qarabağ savaşında informasiya müharibəsi ...............................233

**Ceyhun Əhmədli.** Müasir müharibələrə konseptual baxış: fundamental dəyişikliklər hansı məqamları ehtiva edir? ..........................................................................................245

**Təhminə Məsimova.** Enerji təhlükəsizliyi anlayışı və onun mahiyyəti ..................................253

**DÜNYA İQTİSADİYYATI**

**Samirə Allahverdiyeva.** Xarici ticarət siyasətinin formalaşmasının konseptual əsasları .........265

**BEYNƏLXALQ MÜNASİBƏTLƏR TARİXİ**

**Aynur Kərimova.** Suriya münaqişəsi  BMT və Ərəb Dövlətləri Liqasının gündəliyində ........273

**SİYASİ İNSTİTUTLAR VƏ SİSTEMLƏR**

**Emin Həsənli.** İnstitutsionallaşma praqmatizmin və siyası inkişafın mühüm amili kimi..........281

**SOSİAL FƏLSƏFƏ**

**Bəhruz Gülmalıyev.** Retrospektiv mədəniyyət və onun formaları ..........................................287

**DÖVLƏT VƏ HÜQUQ NƏZƏRİYYƏSİ VƏ TARİXİ**

**Nazlı Abbasova.** Azərbaycan hüquq sistemində hərbi hüququn mövqeyi və əhəmiyyəti ........ 295

**BEYNƏLXALQ HÜQUQ; İNSAN HÜQUQLARI**

**Elqar Ələkbərov.** Beynəlxalq maliyyə sisteminin hüquqi təsbitinin tarixi aspektləri və müasir vəziyyəti ..........................................................................................307

**DÖVLƏT İDARƏÇİLİYİ**

**Xətai Salmanov.** Dövlətin büdcə nəzarət sistemi (Azərbaycan timsalında) ............................315

**Dövlət İdarəçilik Akademiyasında** ..........................................................................................323

**«Dövlət idarəçiliyi: nəzəriyyə və təcrübə» jurnalına**
**məqalələrin təqdimolunma qaydası**

1. Məqalə Azərbaycan, İngilis və Rus dillərində qəbul edilir.
2. Məqalənin adı, müəllif(lər)i, müəllif(lər)in elmi dərəcəsi, vəzifələri, ad və soyadları, çalışdıqları qurum və elektron poçt (e-posta) ünvanları yuxarıda sağ tərəfdə göstərilir.
3. Məqalənin həcmi 8 səhifədən az olmamalı (Microsoft Word formatında), 1,5 (bir tam onda beş) intervalla, Times New Roman 12 şriftilə yazılmalı, A4 formatında və elektron daşıyıcıda təqdim olunmalıdır.
4. Məqalədə xülasə (Azərbaycan, İngilis və Rus dillərində), açar söz (Azərbaycan, İngilis və Rus dillərində, ən çox 6 söz) qeyd olunmalıdır.
5. Məqalənin xülasəsi məqalənin məzmununa uyğun olmalı, 150-200 sözdən çox olmamalı, tədqiqatın məqsədini, əhəmiyyətini və elmi dövriyyədəki yerini, istifadə edilən metodları, tətbiq dairəsini göstərməlidir.
6. Elmi məqalənin sonunda elm sahəsinin və məqalənin xarakterinə uyğun olaraq işin elmi yeniliyi, tətbiqi əhəmiyyəti və s. aydın şəkildə qeyd olunmalıdır.
7. Məqalədə elmi mənbələrə istinadlar olmalıdır. Son 5-10 ilin elmi məqalələrinə, monoqrafiyalarına və s. istinadlara üstünlük verilməlidir. Məqalədə istinad olunmuş mənbələr ədəbiyyat siyahısında əlifba sırası ilə yazılmalı və nömrələnməlidir. İstinad olunmuş mənbənin ədəbiyyat siyahısındakı nömrəsi və səhifə nömrəsi mətndəki istinaddan sonra kvadrat və ya adi mötərizədə göstərilir. Məsələn (39, s.127-128), [27, s.237] və s.
8. Məqalələr orijinal olmalı və əvvəllər başqa yerli və ya beynəlxalq jurnallara, konfranslara təqdim edilməməlidir.
9. Məqalələr gizli rəyçilərin rəyindən sonra redaksiya heyətinin qərarı ilə çapa tövsiyə edilir.

**Procedure for Submitting Articles to the Journal**
**«Public Administration: Theory and Practice»**

1. The article is accepted in Azerbaijani, English and Russian languages.
2. The title of the article, the author (s), author's (s') academic affiliation, titles, names and surnames, workplace and electronic mail address (e-mail) addresses should be displayed above on the right side.
3. The content of the article should be no less than 8 pages (in Microsoft Word format), 1,5 space, Times New Roman 12 fonts and must be submitted electronically in A4 format.
4. The article should contain summary, (English, Russian and Azerbaijani languages), keyword (English, Russian and Azerbaijani languages, no more than six words)
5. The summary of the article must be in line with the content of the article, should not exceed 150-200 words, must indicate the purpose and importance of the research, the methods that used as well as the scope of the study.
6. At the end of the scientific article, the scientific originality and the importance of the emprisicm should be clearly stated in accordance with the character of the scientific field and article.
7. The article should contain references to scientific sources. The scientific articles, monographs and etc.that have been written for the last 5-10 years should be preferred. The sources referred in the article must be listed in an alphabetical order in the reference list. The number and page number of the referred article in the reference list should be displayed in parantheses or brackets after the reference in the text. For instance, (39, p.127-128), [27, s.237] and etc.

8. The articles should be original and should not be previously submitted to other local or international journals and conferences.
9. The articles are recommended to publication by the decision of journal's editorial board after the opinion of peer reviewers.

**Правила предоставления статей для публикации в журнале «Государственное управление: теория и практика»**

1. Статья принимается на азербайджанском, английском и русском языках.
2. Название статьи, автор(ы), ученая степень автора(ов), занимаемая должность, имя и фамилия автора(ов), организация, где они работают, адрес электронной почты указываются в верхнем правом углу.
3. Объем статьи не должен быть менее 8 страниц (в формате Microsoft Word), с междустрочным интервалом - 1,5 (полуторный), размером шрифта – 12 пт в формате А4 и должен предоставляться на электронном носителе.
4. В статье должны быть указаны резюме (азербайджанском, английском и русском языках), ключевые слова (на азербайджанском, английском и русском языках, не более 6-ти слов).
5. Резюме статьи должно соответствовать содержанию статьи, и не превышать 150-200 слов, должны быть указаны цель, значимость и место в научном обороте исследования, используемые методы, сфера применения.
6. В конце научной статьи в соответствии с областью науки и характером статьи должны быть чётко сформулированы научная новизна работы, значимость её внедрения и др.
7. В статье должны быть ссылки на научные источники, преимущественно на научные статьи, монографии и др. за последние 5-10 лет. Источники, на которых были ссылки в статье, должны быть пронумерованы и включены в список литературы в алфавитном порядке. Номер источника и страницу, на которую была сделана ссылка, в тексте следует указать в квадратных или обычных скобках. Например, (39, s.127-128), [27, s.237] и т.д.
8. Статья должна быть оригинальной и ранее непредставленной в местные или международные журналы, конференции.
9. Статья рекомендуется к публикации по решению редколлегии после получения отзыва от тайных (неразглашаемых) рецензентов.

# Dövlət idarəçiliyi:
## nəzəriyyə və təcrübə

***Elmi-nəzəri jurnal***

**2020, №4(72)**

Azərbaycan Respublikasının Prezidentinin fəaliyyətini
əks etdirən bölməni *siyasi elmlər doktoru, professor E.Nəsirov,*
*siyasi elmlər doktoru, professor E.Əhmədov*,
*psixologiya üzrə fəlsəfə doktoru, dosent B.Haqverdiyev*
və baş müəllim *F.Şammədov*
AzərTAc-ın materialları əsasında hazırlamışlar.

İngilis dilində xülasələr *Elnur Əlibəyli* tərəfindən redaktə edilmişdir.

Redaktoru *Günay Maqsudova*
Kompüter dizayneri *İradə Təhməzova*
Korrektoru *İradə Təhməzova*

*Lisenziya: AB № 022732,*
*Qeydiyyat № b 532, 08.04.2003-cü il.*
*Redaksiyanın ünvanı:*
*Bakı, Az-1001, Lermontov küç., 74*
*(Dövlət İdarəçilik Akademiyası).*
E-mail: publishing@dia.edu.az
*Telefonlar: (012) 492-65-29; (012) 437-19-75; (012) 497-71-86*
*Fax: (012) 492-65-15*

«Təhsil Nəşriyyat-Poliqrafiya» müəssisəsinin
mətbəəsində çap olunmuşdur.
Sifariş ... Tiraj 1000.

# Journal of Public Administration:
# Theory and Practice

***Scientific and theoretical journal***

**2020, №4(72)**


The section covering activities the President of the Republic of Azerbaijan
is prepared on the basis of AzərTAC materials and is compiled by
*E.Nasirov, Dr. of political sciences, professor;*
*E.Ahmadov, Dr. of political sciences, professor;*
*Dr. B. Hagverdiyev, Ph.D. in Psychology, assistant professor*
and *F.Shammedov,* senior lecturer, all from Academy of Public Administration.

The summaries of the articles were edited by *Elnur Alibayli.*

Editor *Gunay Maqsudova*
Computer designers *Irada Tahmazova*
Correctors *Irada Tahmazova*

*License: AB No. 022732*
*Registration No. b 532, 08.04.2003*
*Address of Publisher:*
*Baku, Az-1001, Lermontov st., 74*
*(Academy of Public Administration)*
*E-mail: publishing@dia.edu.az*
*Phone: (012) 492-65-29; (012) 437-19-75; (012) 497-71-86*
*Fax: (012) 492-65-15*

Printed at the printing-house of the
«Tahsil Publishing-Polygraphy»
Order ........ Number of copies printed 1000.4